Rusiya Federasiyasının Prezidenti yanında Rusiya Dövlət Akademiyasının dərslikləri

Rusiya Federasiyasının Prezidenti yanında Rusiya dövlət xidmətinin Uzaq Şərq Akademiyası

BAZAR İQTİSADİYYATININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ

D Ə R S L İ K

Əlavə olunmuş və yenidən işlənmiş ikinci nəşr

İqtisad elmləri doktoru, professor **V.İ.Kuşlinin ümumi redaktəsi ilə**

B A K I - 2 0 0 8

KBT-65
UOT 338.242.4
B 34

Dərslik Rusiya Federasiyasının Təhsil Nazirliyi tərəfindən dövlət qulluqçularının ixtisasının hazırlanması, yenidən hazırlanması və yüksəldilməsi sistemində iqtisadi ixtisaslar üzrə oxuyan tələbə və dinləyicilər üçün tövsiyə edilmişdir

B 34 Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi: Dərslik i. e.d., prof. V. Kuşlinin ümumi redaktəsi ilə əlavə olunmuş və yenidən işlənmiş II nəşri /. Rus dilindən tərcümə. Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2008

Dərslik iqtisad elmləri doktoru, professor M.A.Əhmədovun redaktəsi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin «Makroiqtisadi tənzimlənmə» kafedrasının aşağıdakı əməkdaşları tərəfindən Rus dilindən tərcümə olunmuşdur:

i.e.d. Əhmədov M.A. fəsil II, XXXV, i.e.n., dos. Qafarov K. S. fəsil X, XXXVI, i.e.n., dos. Sadıqov K.F. fəsil XX, XXI, XXII, i.e.n., dos. Mahmudov M.M. fəsil XXIII, XXXIII, XXXIV, i.e.d., dos. Rəhmanov F.P. fəsil XXVII, XXVIII, i.e.n., dos. Əhmədov Ə.M. fəsil IX, XXV, i.e.n., dos. Məmmədov M.S. fəsil XIX, XXXII, i.e.n., dos. Sadıqov M.M. fəsil VIII, XIV, i.e.n., dos. Əliyev M.Ə. fəsil XIII, XXXI, i.e.n., dos. Bağırov Z.A. fəsil XXVI, i.e.n., dos. Muradova A.C. fəsil III, XXX, i.e.n., dos. Mikayılzadə G.Ş. fəsil XI, i.e.n. Cəmilova G.F. fəsil XXIX, i.e.n. Mahmudova İ.M. fəsil IV, i.e.n. Hacılı Ə.A. fəsil V, XV, XXIV, i.e.n., İsayev S.Z. fəsil XVI, XVII, VIII, b.m. Əsgərova Z.S. fəsil VI, VII, müəl. Mürsəlov M.M. fəsil XII, Tanrıverdiyev S.M. fəsil I.

© Издательство «Экономика», 2000
© Издательство РАГС, 2002
© «İqtisad Universiteti» nəşriyyatı , 2008

SÖZÖNÜ

İstisnasız olaraq bütün dünya ölkələrinin təcrübəsindən göründüyü kimi, müasir iqtisadiyyat dövlətin bazar münasibətlərinin subyekti, həmçinin tənzimləyici və idarəedici orqanı kimi iqtisadiyyatda aktiv iştirakını nəzərdə tutur. Dünyanın müxtəlif ölkələrində ənənələrə və yığılmış təcrübəyə müvafiq olaraq, bir-birinə oxşamayan müxtəlif tərzlərdə hökumət və əsas iqtisadi subyektlər (sahibkarlar və ev təsərrüfatları) arasında münasibətlər qurulur. Həmçinin dövlətin iqtisadi proseslərə müdaxiləsi də müxtəlif qaydalarda həyata keçirilir. Amma ümumi xətt bundan ibarətdir ki, dövlətin iqtisadiyyatda rolu vaxt ötdükcə daha da mürəkkəbləşir və hökumət orqanlarından daha yüksək ixtisaslılıq tələb edir. İndi dövlətin iqtisadiyyata təsirindən danışarkən kəmiyyət dərəcələrindən ("çox – az") deyil, dovlət tənzimlənməsinin keyfiyyətli səmərəliliyi nöqteyi-nəzərindən danışmaq tələb olunur.

Rusiyaya bənzər olaraq qısa müddətlərdə öz iqtisadi sistemini transformasiya edərək müasir bazar təsərrüfatının metodlarını mənimsəmək istəyən ölkələrdə, dövlətin iqtisadi funksiyaları, xüsusilə mürəkkəb və mahiyyətcə kompleksli olur. Işin məhz bu tərəfində müəlliflər əsas diqqəti cəmləndirirlər.

Dərslik Rusiya Federasiyası Prezidenti yanında Rusiya dövlət qulluğu akademiyasının "Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin nəzəriyyəsi və praktiksı" kafedrasının kollektivi tərəfindən uzun müddətdir aparılan makrosistemlər səviyyəsində iqtisadi proseslərin idarə edilməsi problemləri üzrə elmi tədqiqatların və ümumiləşdirilmələrin nəticəsi kimi meydana çıxmışdır. Bizə professorların və kafedra müəllimlərinin kifayət qədər mürəkkəb auditoriyalardakı çoxillik iş təcrübəsi kömək etdi. O, özündə dövlət və bələdiyyə idarəetməsi orqanlarının rəhbərlərini və funksionerlərini,

həmçinin biznes nümayəndələrini birləşdirir. Nisbətən qısa müddətdə "Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi: federal, regional və bələdiyyə səviyyələri" adını almış kifayət qədər tam tədris kursunu formalaşdırmaq mümkün oldu. O, qismən siyasi iqtisad, makro və mikroiqtisadiyyat, menecment, maliyyə kurslarına aid olan müxtəlif mövzuları özündə birləşdirir. Ölkənin inzibati-təsərrüfat strukturunda və iqtisadiyyatında islahatların konkret tələblərindən irəli gələn tamamilə yeni mövzular meydana çıxmışdır. Bu tədris kursu bir neçə illər boyu "Dövlət və bələdiyyə idarəetməsi" ixtisası üzrə tammiqyaslı ali təhsil çərçivəsində tədrisin müxtəlif formalarında istifadə edilmişdir. O, həmçinin dövlət qulluqçularının peşəkar yenidən hazırlanması və ixtisasının artırılması sistemində də aktiv istifadə edilmişdir.

İndi artıq iddia etmək olar ki, iqtisadi-idarəetmə tsiklinin sərbəst fənni yaranmışdır. O, demokratik cəmiyyətin vacib tələbatına cavab verir – dövlət institutlarının köməkliyi ilə iqtisadi mühitin strateji köklənməsini və daimi köklənməni həyata keçirmək, iqtisadi prosesləri ölkənin və onun xalqının maraqları çərçivəsində tənzimləmək.

Oxucuya təqdim edilən bu kitab dərsliyin ikinci geniş nəşridir. 2000-ci ildə çıxan və pərakəndə ticarətdə tez satılan birinci kitabla müqayisədə dərslik əsaslı olaraq yenidən işlənilmişdir. Kitabın strukturu tədris planına daha çox uyğunlaşdırılmış və təkmilləşdirilmişdir. Onda təkrarlanmalar aradan qaldırılmış və terminologiya nizamlanaraq səliqəyə salınmış, həmçinin kitab əlavə illüstrativ və konyunktur materiallardan təmizlənilmişdir. Bütün bunların nəticəsində kitabı daha tam və yığcam etmək mümükün olmuşdur.

İqtisadiyyatın dövlət tənzimlənməsi problemlərinin şərhi və izahı son zamanlar dünya və rusiya iqtisadiyyatındakı real tendensiyalara daha çox uyğunlaşdırılmışdır. Dünyada və konkret olaraq Rusiyada sosial-iqtisadi transformasiyaların monitorinqinin təsiri altında dövlətin bazar iqtisadiyyatında yeri haqda elmi mühitdə

əvvəl mövcud olan ibtidai fikirlərin dəyişilməsi nəzərə alınmışdır. Qloballaşma prosesinin Rusiya (eləcə də radikal islahatlar yaşayan bir sıra digər ölkələrin) iqtisadiyyatına qeyri-taraz təsirindən meydana gələn bir çox təzahürlərin ziddiyyətliliyi əlbəttə ki, kitabda analiz olunan konkret proseslərə müxtəlif müəlliflər tərəfindən verilən qiymətlərdəki uyğunsuzluqda da özünü əks etdirməyə bilməzdi. Redaksiya heyəti bu cür fikir ayrılıqlarını minimuma endirməyə cəhd etmişdir. Bütünlükdə fikir ayrılıqlarını tamamilə aradan qaldırmaq bu gün çətin ki, mümkündür: yeni problemlərin daha çoxtərəfli, həmçinin dinləyicilərlə, tələbə və aspirantlarla müzakirəsinə ehtiyac vardır. Dərslik əsasən dinləyicilərin seçdikləri təhsil forması və proqramı çərçivəsində auditoriyadankənar işləmələri üçün nəzərdə tutulmuşdur. Bu federal və regional orqanların rəhbərlərinin, dövlət və bələdiyyə aparatı işçilərinin öz işlərindən ayrılmadan – qiyabi, modul və axşam formaları çərçivəsində təhsil almaq istəklərinin son zamanlar güclənməsi ilə bağlıdır. Buna görə də müəllif kollektivi mətni maksimal dərəcədə metodiki göstərişlərlə təchiz etməyə və mənbələr məsləhət görməyə cəhd etmişlər ki, bu da müstəqil işləyərkən kursun əsas bölmələrini dərindən mənimsəməyə və auditoriya məşğələlərinə, həmçinin onların dəyirmi stollar, leksiya - diskusiyalar, beyin hücumları və sair kimi növlərinə məhsuldar hazırlaşmağa imkan verir.

Kitab dövlət və bələdiyyə idarəetməsinin ehtiyac duyduğu mütəxəssislərin müxtəlif ixtisaslar üzrə hazırlığını həyata keçirən ali təhsil müəssisələrində ilkin ali təhsilin əldə edilməsində vəsait kimi lazım ola bilər. Ondan, həmçinin yenidən hazırlanmaqla və təkmilləşdirilməklə ikinci ali təhsil alan kadrların hazırlanmasında istifadə etmək olar. O, dövlət qulluqçularının ixtisasının artırılması və peşəkar təkmilləşdirilməsi zamanı da vəsait kimi yararlıdır. Mövzuların konkret tərkibi və nisbəti, onların mənimsənilməsinə ayrılan vaxt müddəti tədris proqramı tərəfindən müəyyən edilir.

Ümid edirik ki, kitab iqtisadi və idarəetmə ixtisaslarının tələbələri və dinləyiciləri üçün, həmçinin dövlət qulluğu sistemi akademiyalarının (institutlarının) tədqiqatçıları, aspirantları və müəllimləri üçün çox maraqlı olacaqdır.

V.İ.Kuşlin, i.e.d., professor

© Kuşlin V. İ., iqtisad elmləri doktoru, professor 2002

Birinci bölmə

İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI

I Fəsil

XXI ƏSRİN ƏVVƏLİNDƏ RUSİYA İQTİSADİYYATI, DÜNYA TƏSƏRRÜFATINDA ONUN YERİ

İqtisadiyyatın inkişafını effektiv tənzimləmək üçün onun strukturunu, vəziyyətini, mümkün inkişaf perspektivlərini, sürətli qloballaşan dünya iqtisadi məkanında yeri və qarşılıqlı əlaqələrini aydın təsəvvür etmək lazımdır.

1. Rusiya iqtisadiyyatı dinamikasının xüsusiyyətləri və meylləri

Bu başlıqda söhbət gedən əsas iqtisadi kateqoriyalar hansılardır? İqtisadiyyat dedikdə biz maddi nemətlərin istehsalı, tədavülü və istehlakı proseslərində insanların daxil olduqları mülkiyyət, bölgü və mübadilə münasibətlərinin məcmusunu, həmçinin təkrar istehsalın təşəkkül tapmış strukturunu və məhsuldar qüvvələrin nail olunmuş inkişaf səviyyəsini başa düşürük.

İqtisadiyyat dörd səviyyədə baxılır və təhlil edilir. *Mikroiqtisadiyyat* – məhsul və xidmətləri (ödənişli və ödənişsiz) bilavasitə olaraq təkrar istehsal edən müəssisə və təşkilatların sistemi, həmçinin onlar arasında qarşılıqlı əlaqənin şəbəkəsidir. *Mezoiqtisadiyyat* – milli iqtisadiyyatın tərkib elementləri kimi ayrı-ayrı ərazilərin (misal üçün, şəhərlər, rayonlar, Rusiya federasiyası subyektləri, iri iqtisadi rayonlar, federal dairələr), sahələr və yarımsahələrin çərçivəsində iqtisadi münasibətlər və təkrar istehsal proporsiyaları. *Makroiqtisadiyyat* – ölkə miqyasında təkrar isteh-

salın strukturu, iqtisadi münasibətlər və məhsuldar qüvvələr sistemidir. *Dünya iqtisadiyyatı* (qlobal iqtisadiyyat) – ümumdünya təsərrüfatı və dünya bazarı miqyasında iqtisadi münasibətlərin və proporsiyaların, həmçinin ölkələr, regionlar və dövlətlərarası birliklər (Avropa Birliyi, MDB tipli) arasındakı inteqrasion əlaqələrin məcmusu.

İqtisadiyyatın strukturu təkrar istehsal sektorlarının, sahələrin, ərazilərin, texnoloji ukladların, mülkiyyət formalarının və xarici iqtisadi əlaqələrin dinamikasını əks etdirir.

Hər bir ölkənin iqtisadiyyatı onun xarakterini, strukturunu, dinamikasını və dünya iqtisadi məkanında yerini müəyyən edən özünəməxsus xüsusiyyətlərə malikdir. Bəs Rusiya iqtisadiyyatının xüsusiyyətləri hansılardır?

Birincisi, bu onun ərazisi (17,1 mln km² -dünyada birinci), əhalisinin sayı (2001-ci ilin 1 yanvarına – 144,8 mln nəfər – dünyada altıncı), əhəmiyyətli dərəcədə əmək, təbii, elmi-texniki, ictimai-mədəni və istehsal potensialı ilə müəyyən olunan *nəhəngmiqyaslı* iqtisadiyyatdır. Doğrudur, 90-cı illərin böhranlı dövrlərində dünya məcmu milli məhsulundakı payına görə Rusiya geriyə atılmış vəziyyətə düşmüşdü. Əgər 1970-ci ildə Rusiyada dünya ümumi daxili məhsulunun 8%-i, 1990-cı ildə 5,5%-i yaradılmışdırsa, 2000-ci ildə isə bu göstərici cəmi 2,7 %[1] olmuşdur. Buna baxmayaraq o kifayət qədər geniş artım imkanlarına malikdir.

İkincisi, çox böyük sərvətin və torpaq, mineral, meşə, su və s. kimi təbii resursların müxtəlifliyinin mövcudluğu amilidir. Kənd təsərrüfatı üçün yararlı torpaqların (220 mln ha) və meşələrin (774 mln ha) sahəsinə, su ehtiyyatlarının həcminə (ildə 4310 kub-kilometr çay axını və 2 milyon göl), kəşf edilmiş neft, qaz, kömür, qara metal filizi, bəzi əlvan metallar və dağ-mədən xammalı ehtiyyatlarına görə Rusiya dünyada birinci yeri və ya ilkin yerlərdən birini tutur. Təəssüflər olsun ki, bu təbii sərvətlərin səmərəli istifadəsinə qeyri-əlverişli iqlim şəraiti mane olur: beləki, ərazinin 70%-ə yaxınını Uzaq Şimal rayonları və ona yaxın ərazilər tutur.

[1] Мир на рубеже тысячелетий. Прогноз развития мировой экономики до 2015. M:,2001. 554C.

Bu isə həmin torpaqların mənimsənilməsinə, əhalinin yaşayışının təmin edilməsinə, sərnişin və yük daşınmasına görə əlavə xərclər tələb edir.

Üçüncüsü, Rusiya əhəmiyyətli dərəcədə özünün *sosial-mədəni müxtəlifliyi* ilə seçilir ki, bu da sosial-iqtisadi münasibətlərə öz təsirini göstərir. Onun ərazisində 100-dən çox xalqların və millətlərin nümayəndələri, çoxlu etnoslar yaşayır, bir sıra konfessiyalar (xristian-pravoslav, müsəlman, buddist və s.) mövcuddur. Bu müxtəlifliyi sosial istiqamətlənmiş iqtisadi siyasətdə nəzərə almaq çox vacibdir.

Dördüncüsü, 90-cı illərdə həyata keçirilən islahatlar nəticəsində Rusiya iqtisadiyyatı aydın ifadə olunan *çoxukladlı xarakter* aldı. 2000-ci ildə iqtisadiyyatda məşğul olan 64,6 mln. insandan 38,1%-i dövlət və bələdiyyə sektorunda, 45,1%-i xüsusi sektorda, 14,1%-i qarışıq sektorda, 0,8%-i ictimai və dini təşkilatlarda, 2%-i xarici şirkətlərlə müştərək müəssisələrdə və xarici müəssisələrdə məşğuldur.[1] Uyğun olaraq bir neçə əsas ukladlar mövcuddur: kapitalistik, kiçikəmtəəli (kiçik xüsusi müəssisələr, fermerlər, "alverçilər"), dövlət, dövlət-xüsusi (qarışıq). 2001-ci ildə kənd təsərrüfatı məhsulunun 54%-ni istehsal edən (əsas etibarilə şəxsi istehlak üçün) və əsasən əhalinin şəxsi təsərrüfatları ilə təmsil edilən natural-patriorxal ukladın əhəmiyyətli xüsusi çəkiyə malik olması Rusiyanın xüsusiyyətlərindəndir. Bu cür vəziyyətlərdə iqtisadiyyatın dövlət tənzimlənməsinin vacib vəzifələrindən biri hər bir iqtisadi ukladın ona aid sahədə daha səmərəli fəaliyyət göstərə bilməsinə şəraitin yaradılmasından ibarətdir.

Beşincisi, iqtisadiyyat Rusiya Federasiyanın 89 subyektinin təsərrüfat və sosial inkişafının *regional göstəricilərinin diferansiasiyasının* 90-cı illərdə kəskin güclənməsi ilə xarakterizə olunur. 2000-ci ildə Saxa (Yakutiya) Respublikası ərazisinə görə Adıgey Respublikasını 277 dəfə ötmüşdür. Tümen vilayətində əsas kapitala investisiyaların həcmi Evenkiysk muxtar dairəcində olandan təxminən 5900 dəfə çox olmuşdur. Moskva Evenkiysk Muxtar Dairəsini əsas fondların dəyərinə görə 700 dəfə, pərakəndə ticarətin döv-

[1] Российский статистический ежегодник. М.: Госкомстат России, 2000

riyyəsinə görə isə 3600 dəfə, uyğun olaraq İnquşetiyanı adambaşına orta aylıq gəlirlərə görə 16,3 dəfə, məcmu regional məhsulun həcminə görə isə 338 dəfə ötmüşdür. Federasiya subyektlərinin iqtisadi inkişaf və iqtisadi potensial durumlarının bu cür müxtəlifliyi şəraitində ölkənin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişaf səviyyələrinin tədricən yaxınlaşdırılmasına yönəldilmiş regional siyasət birinci dərəcəli əhəmiyyət kəsb edir.

Altıncısı, iqtisadi inkişaf modelinin dəyişilməsi və açıq iqtisadiyyata keçid *Rusiyanın dünya iqtisadiyyatına qovuşmasına* gətirib çıxartdı. Mərkəzləşdirilmiş planlaşdırma modelində xarici ticarətin inhisarı rus müəssisələrini və daxili bazarı xarici inhisarlarla və trans milli korporasiyalarla rəqabətdən kənarda qoyurdu. Ancaq indi isə alıcılar rusiya və ya xarici mal və məhsulların seçimində azaddırlar. Eyni zamanda keçmiş Sovet İttiaqının respublikaları arasındakı əmtəə axını xarici ticarət xarakteri almağa başladı. Nəticədə xarici məhsulların axını Rusiya bazarlarına yönəlməklə yerli əmtəə istehsalçılarını sıxışdırmağa və böhranı dərinləşdirməyə başladı.

Pərakəndə ticarətin əmtəə resurslarında xarici məhsulların payı 1991-ci ildə 14%-dən 1996-cı ildə 54%-ə qədər artdı. 1998-ci ildə rublun devalivasiyasından sonra isə bu göstərici 36%-ə endi, amma 2000-ci ildə yenidən 39%-ə qədər artdı. Xarici məhsulların rəqabəti alıcılara daha geniş seçim imkanları verir və yerli əmtəə istehsalçılarını öz məhsullarının rəqabətqabiliyyətliliyini artırmağa məcbur edirdi. Eyni zamanda bir sıra yüksək texnologiyalı istehsal sahələri xarici rəqiblər tərəfindən sıxışdırılmışdır. Bazarın bir çox sektorlarında yerli kompradorların (ticarət vasitəçiləri) dəstəyi ilə trans milli korporasiyalar demək olar ki ağalıq edirlər. Elə bunun nəticəsidir ki, çox böyük resurslar sürətlə xaricə daşınır. Əsas etibarilə istehsalın həcmi dəfələrlə ixtisar olunan sahələrə, yəni kənd təsərrüfatı, yüngül sənaye və mülki maşınqayırma sahələrinə daha böyük zərər dəymişdir. Əvvəllər Rusiyaya məxsus hesab edilən əksər müəssisələr faktiki olaraq xarici kapitalın nəzarəti altında fəaliyyət göstərirlər. Bütün bunlar onu göstərir ki, dövlət milli məhsul istehsalçılarını qorumaqdan və dəstəkləməkdən praktiki

olaraq imtina etmişdir. MDB ölkələrinin yenidən inteqrasiyası, həmçinin avrasiya sivilaziyası çərçivəsində ümumi bazarın və vahid iqtisadi məkanın bərpa edilməsi problemləri həll olunmayaraq qaldı. Çox böyük xarici borclar fərsizcəsinə dağıdıldı, hissə-hissə oğurlandı və iqtisadiyyatın strukturunun yenidən qurulmasına xidmət etmədi. Xarici iqtisadi siyasətdə qloballaşmanın ziddiyyəli tendensiyaları hesaba və nəzərə alınmadı.

Rusiya iqtisadiyyatının sadalanan özünəməxsus xüsusiyyətləri iqtisadiyyatın dövlət tənzimlənməsi modelinin seçilməsi və həyata keçirilməsində, həmçinin onun transformasiyası ilə əlaqədar mürəkkəb məsələlərin həllində dövlət qulluqçularının böyük məsuliyyətə və yüksək peşəkarlığa malik olmalarının zəruriliyini göstərir və təsdiqləyir. İqtisadiyyatın dövlət tənzimlənməsi özünün *dinamikası və fəaliyyəti qanunauyğunluqlarının* anlaşılmasına və bacarıqlı istifadəsinə arxalanmalıdır. İqtisadiyyat üç nöqteyi-nəzərdən baxıla bilər – statika, dinamika və genetika nöqteyi nəzərindən. *Statika* müqayisəli rəvan və təkamüllü inkişaf şəraitində iqtisadiyyatın strukturunu və onun ayrı-ayrı tərkib elementləri arasında qarşılıqlı əlaqəni açır. *Dinamika* iqtisadi tsiklin bir fazasından digər fazasına keçən zaman və ya tsikllərin dəyişilməsi zamanı iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərini göstərir. *Genetika* iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərinin səbəb və nəticələrini, cəmiyyətin bu sferasında irsiyyət, dəyişkənlik və seçim mexanizmlərini öyrənir. Strukturuna görə bütöv və mürəkkəb bir sistem kimi iqtisadiyyatın tsiklik-genetik ümumi qanunauyğunluqlarından bir neçəsini ayırmaq olar.

Bazar iqtisadiyyatı qeyri-bərabər, tsiklik, yəni ardıcıl olaraq stabil inkişaf, böhran, depressiya, dirçəlmə, yüksəliş, həmçinin qısamüddətli, uzunmüddətli (Kondratyev), çox uzunmüddətli (sivilizasiyalı) fazaları keçməklə inkişaf edir. Planlı-müntəzəm, böhransız iqtisadi dinamikanın mümkünlüyü haqda təsəvvürlər xəyallar olaraq meydana çıxdı.

İqtisadiyat periodik olaraq bir nisbətən taraz, sabit vəziyyətdən digər taraz vəziyyətə dayanıqsızlıqların güclənməsi, istehsalın tənəzzülü, xaotik dəyişikliklər, iqtisadiyyatın strukturunun yeni-

dən qurulması ilə səciyyələnən keçid böhran dövrü vasitəsilə keçir. Bu zaman iqtisadi sistemin (və ya üstsistemin – sistemlərin dəyişilməsi zamanı) irsiyyət genetik nüvəsi irsiyyətin dəyişilməsi nəticəsində köhnəlmiş elementlərdən təmizlənir və əlavə tərkiblə zənginləşir ki, bu da cəmiyyətin inkişafının yeni şəraitinə uyğunlaşmağa imkan yaradır. Bu cür faydalı dəyişikliklər çoxlu mümkün variasiyalardan kortəbii və ya düşünülmüş (məqsədyönlü) seçim əsasında baş verir. Perspektiv iqtisadi siyasətdə tsiklikliyi nəzərə almaq çox vacibdir.

Böhran fazasının müddəti, miqyası və dərinliyi *iqtisadi tsiklin* xarakteri ilə müəyyən olunur. Növbəti *ortamüddətli tsiklə* keçid zamanı (təxminən on ildə bir dəfə) dəyişikliklər əsasən iqtisadiyyatın texnoloji strukturunu (üstünlük təşkil edən texnika və texnologiya nəslinin dəyişilməsi, iqtisadiyyatın strukturu və tərkibində adekvat dəyişikliklər), mikroiqtisadiyyat və qismən mezoiqtisadiyyat sferasını əhatə edir.

Növbəti *uzunmüddətli* (Kondratyev) tsiklə keçid (təxminən yarım əsrdə bir dəfə) daha intensiv, dərin və uzun müddətli makroiqtisadi dəyişikliklərə səbəb olur. Üstünlük təşkil edən texnoloji ukladın, həmçinin iqtisadi ukladların qarşılıqlı əlaqə və nisbətinin dəyişilməsi baş verir, işçi qüvvəsinin bölüşdürülməsi proporsiyaları, iqtisadiyyatın ərazi və təkrar istehsal strukturu dəyişilir. Böhran fazası bir neçə il davam edir, dünya iqtisadiyyatında dərin dəyişikliklər baş verir.

Makroiqtisadiyyatda və qlobal iqtisadiyyqtda daha böyük sarsıntılar bir neçə əsrdə bir dəfə baş verən *çox uzunmüddətli* (sivilizasiyalı) tsikllər zamanı müşahidə edilir. Bu dövrlərdə istehsalın yeni texnoloji və iqtisadi üsullarına keçid baş verir, yeni lider sahələr və ölkələr meydana çıxır. Növbəli olaraq dərin iqtisadi böhranlar və ağrılı transformasiyalar müşahidə edilir. İstehsalın tənəzzülü və iqtisadi münasibətlərin pozulması maksimum dərəcələrə çatır. Bütün bunlar yeni iqtisadi düzənin və sistemin bərqərar olması ilə nəticələnir. Bu cür proses sənaye cəmiyyətinin postsənaye ilə əvəzləndiyi XX əsrin sonları və XXI əsrin əvvəllərində müşahidə edilməkdədir.

Növbəti tsiklə keçid zamanı dəyişikliklər müəyyən ardıcılıqla iqtisadiyyyatın strukturunun bütün elementlərini əhatə edir. Onların başlanğıc əsası və impulsu kimi cəmiyyətin artan tələbatları və bu tələbatları ödəyə bilməyən, günü-gündən səmərəliliyi azalan iqtisadiyyat arasındakı ziddiyyətlər çıxış edir. Bu iqtisadiyyatın texnoloji, ardınca isə təkrar istehsal, sahə və ərazi strukturunda, istehsalın təşkili formalarında, institusional strukturunda, mülkiyyət münasibətləri sistemində dəyişikliklərə səbəb olur. Nəticədə iqtisadiyyatın bütün strukturu və bütövlükdə zahiri görünüşü kökündən dəyişilir. Bu tendensiyalar çox uzun müddətli və uzun müddətli tsikllərdə böyük ölçüdə, qısamüddətli tsikldə isə daha az müşahidə edilir.

İqtisadiyyatın tsiklik dinamikası cəmiyyətin strukturunun digər elementlərinin kökündən dəyişilməsi ilə, yəni demoqrafik proseslərdə, cəmiyyətin və təbiətin ekoloji münasibətlərində, sosial-siyasi quruluşda və mənəvi təkrar istehsal (elm, mədəniyyət, təhsil, ideologiya, etika) sferasında keyfiyyət dəyişiklikləri ilə qırılmaz əlaqədardır. Böhranlar bütün cəmiyyəti dəyişərək başqa şəkilə salır. Xüsusilə bu sivilizasion tsikllərdə, dünya sivilizasiyalarının və lokal sivilizasiyalar nəslinin dəyişilməsində özünü açıq büruzə verir.

Milli və dünya iqtisadiyyatındakı tsikllər sinxronlaşır ki, bu da özünü qloballaşma şəraitində xüsusilə parlaq büruzə verir. Dünya iqtisadiyyatının gələcək ayrılmaz tərkib hissəsi kimi hər bir milli iqtisadiyyat dünya iqtisadiyyatı ilə minlərlə bağlı əlaqəli olduğundan dünya bazarının tsiklik dalğalanmalarının və onun konyuktur dəyişikliklərinin təsirini hökmən özündə hiss etmiş olur.

XX əsrin son rübündən başlayaraq iqtisadiyyatın qloballaşması və radikal dəyişikliklərlə müşayiət olunan dünya cəmiyyəti dərin sarsıntı dövrünə qədəm qoydu. Dünya tərəqqisi liderlərinin dəyişilməsi və dördüncü nəsil lokal sivilizasiyaların formalaşması baş verməkdədir. Bu dəyişikliklərin tendensiyasını Pitirim

Sorokin[1] əvvəlcədən görmüş və dəqiq ifadə etmişdir. Bu dəyişikliklər necəki, dünya, eləcə də milli iqtisadiyyatın dərin transformasiyasında ifadə olunur. Iqtisadiyyatın kiçik, orta və iri biznesin rasional uyğunluğuna, noosferə, insana dönməsi və istiqamətlənməsi genişlənir. Qloballaşma prosesləri prinsipial iqtisadi qərarların qəbulunda ağırlıq mərkəzini üst milli səviyyəyə keçirir. Dünya iqtisadiyyatında transmilli korporasiyaların və dünya maliyyə mərkəzlərinin təsiri güclənir, varlı və kasıb ölkələr və sivilizasiyalar arasındakı uçurum daha da böyüyür. Növbəti ETT-nin nəticəsində istehsalın postsənaye texnoloji üsulunun təşəkkülü baş verir; beşinci texnoloji uklad zəifləmə dalğasına daxil olur, perspektivdə altıncı ukladın və ona adekvat olan Kondratyev tsiklinin təşəkkül tapmasına ilkin şərait yaranır. Bazar rəqabəti sferası genişlənir, kiçik biznes öz yüksəlişini yaşayır, eyni zamanda iqtisadiyyatın dövlət tənzimlənməsi və qeyri-bazar sektorunun dəstəklənməsi daha da güclənir. Tədricən sosial, texnoloji və ekoloji istiqamətlənmiş, qloballaşmış postsənaye iqtisadiyyatının konturları aydın görünməyə başlayır.

Dünya iqtisadiyyatında baş verən proseslər Rusiyaya da toxunmaya bilməzdi. Bundan əlavə, məhz burada bir çox ziddiyyətlər düyünü cəmlənmişdir, həmçinin anoloji islahatlar və köklü dəyişikliklər yaşayan və ya yaşayacaq bir çox ölkələr üçün qiymətli olan müsbət və mənfi təcrübələr məhz elə burada, Rusiyada qazanılmaqdadır. Bəs bu vəziyyətdə Rusiyada cəmiyyət və iqtisadiyyatda həyata keçirilən islahatların və köklü dəyişikliklərin əsas tendensiyaları və çıxarılan ibrət dərsləri hansılardır?

Rusiya gec sənayeləşmiş-sosialist cəmiyyətindən – deformasiya etmiş kapitalizmi keçməklə - *postsənaye cəmiyyətinə* keçid prosesini çox ağrılı yaşayşr. SSRİ-də sənayeləşmiş cəmiyyətin sosialist variantı sınaqdan çıxarılmışdır. O, XX əsrin böhranlı vəziyyətlərində özünü doğrultdu, iqtisadiyyatı yenidən qurmağa, Böyük Vətən müharibəsində duruş gətirməyə və qələbə çalmağa,

[1] Сорокин П.А. Главные тенденции нашего времени. М.:Наука, 1997; Яковцев Ю.В. Глобализация и взаимодействие цивилизаций. М.: Экономика, 2001

müharibənin dağıtdığı təsərrüfatın tez bir zamanda yenidən bərpasına və Qərb bloku ilə hərbi-texniki yarışda paritetin əldə edilməsinə böyük imkanlar verdi. Lakin, çox yüksək həddə iqtisadiyyatın qapalılığı, mərkəzləşdirmə və hərbiləşdirilmə kimi amillər iqtisadiyyatın səmərəliliyini və onun dünya konyunkturasının dəyişikliklərinə reaksiyasını azaldırdı.

İqtisadiyyatın sosialist modeli çərçivəsində yenidən qurulması cəhdləri heç bir effekt vermir, əksinə iqtisadi cəhətdən inkişaf etmiş və əhalisi rifah içərisində yaşayan avanqard ölkələrin səviyyəsindən geriləmə daha da güclənirdi. Ölkə beşinci texnoloji uklada gecikmələrlə keçirdi. Dünya iqtisadiyyatında onun mövqeləri pisləşirdi. Ziddiyyətlər və xalqın əksəriyyətinin narazılıqları artırdı. Gecikmiş yenidənqurma dəqiq istiqamətləri olmadığından ölkənin dünyada baş verən dəyişikliklər və islahatlardan sürətlə artan geriləməsinin qarşısını ala bilmirdi. Böhranın yaranmasına zəmin artır, dərin islahatların və köklü dəyişikliklərin həyata keçirilməsi zəruriləşirdi.

Lakin ölkəni idarə edən, intellektual və işgüzar elitanın postsovet dövründə bu cür dəyişikliklərə hazır olmadığı üzə çıxdı. Beləki, postsənaye cəmiyyətinin əsaslarının yaradılması əvəzinə geriyə - kapitalın ilkin yığımı və bazar rəqabəti dövrü kapitalizminə yol seçdilər ki, bu da nəticədə parazit xarakter aldı. Iqtisadiyyat uzun sürən dərin böhrana düçar edildi. ÜDM 8 ildə təxminən 2 dəfə, investisiyalar nə az nə çox 5 dəfə, əhalinin real gəlirləri 2 dəfə ixtisara düşdü. Buna QİYŞ-nin buraxılması və SSRİ-nin dağılması, on illər boyu qurulmuş texnoloji və iqtisadi əlaqələrin qırılması, iqtisadiyyatın həddən ziyadə açılması kimi amillər səbəb oldu ki, nəticədə də transmilli korporasiyaların ağalıq etmələrinə, həm daxili və həm də xarici bazarlardan yerli istehsala məxsus məhsulların sıxışdırılmasına geniş şərait yarandı. Inflyasiya halopirik xarakter aldı ki, nəticədə də milli gəlir inhisarlaşmış sahələrin və kölgə iqtisadiyyatının xeyrinə bölündü, əhalinin əmanətləri əllərindən çıxdı və onun əksər təbəqələri dilənçi vəziyyətinə düşdü. Vahid milli bazar dağıdıldı, separatçı tendensiyalar gücləndi.

1998-ci ildə böhranın kəskinləşməsi belə yolun çıxılmazlığını əks etdirirdi. Hakim və işgüzar elitanın ayılması, buraxılmış strateji səhvlərin düzəldilməsi dövrü başlandı, mərkəzəyönümlü tendensiyalara və postsənaye cəmiyyətinə doğru yola istiqamətlənildi. Iqtisadiyyatın dirçəlməsi əlamətləri meydana gəldi və güclənməyə başladı ki, bu da xüsusilə 2000-ci ildə özünü daha aydın büruzə verirdi. Eyni zamanda Rusiya üçün əlverişli dünya konyunkturunun mövcudluğu da bu tendensiyaya öz birbaşa müsbət təsirini göstərirdi. Ölkə öz normal kursuna qayıdır, postsənaye cəmiyyətinin əsaslarının və ona adekvat olan iqtisadiyyatın əsaslarının yavaş-yavaş qurulmasına başlayır. Amma özünü büruzə vermiş dünya iqtisadi böhranı şəraitində 2001-2002-ci illərdə iqtisadi artım tempinin azalması göstərdi ki, hələ də davamlı iqtisadi artımın daxili mənbələri işə salınmayıb.

İqtisadi münasibətlərin islahatları üzrə qəbul edilmiş modelin ziddiyyətli və az səmərəli olması üzə çıxdı. Amma o eyni zamanda bəzi mütərəqqi elementlərə də malik idi. Idarəetmənin həddən artıq dövlət-bürokratik mərkəzləşdirilməsi aradan qaldırılmağa başlanıldı, sahibkarlıq təşəbüskarlığının buxovlanılmasından imtina edildi. Müəssisə və işçilərin öz fəaliyyətlərinin son nəticələrinə görə az məsuliyyət daşımaları, qapalılıq və dünya iqtisadiyyatındakı mütərəqqi irəliləyişlərdən geriləmələr kimi məsələlər keçmişdə qaldı. Məlum oldu ki, qarışıq və çoxukladlı iqtisadiyyatın formalaşdırılması perspektivlidir. 2000-ci ilə müəssisələrin ümumi sayında dövlət müəssisələrinin payı 4,8%, bələdiyyə-6,4%, xüsusi-74,4%, qarışıq-7,5%, ictimai təşkilatlar-6,9%[1] olmuşdur. Əgər nəzərə alsaq ki, qarışıq mülkiyyət formalı müəssisələr adətən ayrı-ayrı səhmdarların maraqlarına uyğun işləyirlər, onda demək olar ki, xüsusi təsərrüfatlı uklad Rusiya iqtisadiyyatında hakim mövqedədir.

Buna baxmayaraq Rusiya iqtisadiyyatında institusional islahatlar minimal, hətta bəzən mənfi effektlə həyata keçirilmiş və transformasion böhranın dərinləşməsinə səbəb olmuşdur. Özəlləş-

[1] Российский статистический ежегодник. Статистический сборник. М.: Госкомстат России, 2000. С.277

dirmə prosesi istehsalın tənəzzülü, bir çox müəssisələrin müflisləşməsi, kapitalın xaricə axması ilə müşayiət olunmaqla daha səmərəli fəaliyyət göstərən müəssisələrin oliqarxların və kölgə iqtisadiyyatı liderlərinin əlinə keçməsinə gətirib çıxartdı. Yalnız xırda müəssisələrin kiçik bir sektoru ölkənin daxili bazarını təchiz və milyonlarla işçinin məşğulluğunu təmin edir və müqayisəli götürdükdə səmərəli fəaliyyət göstərə bilirdi. Dövlət sifarişlərinin çoxdəfəli ixtisarı və texnoloji əlaqələrin qırılması ölkə iqtisadiyyatı təməl olaraq xidmət edən və nə vaxtsa çox güclü olan hərbi-sənaye kompleksini sarsıtdı. Yerli maşınqayırma, yüngül, əczaçılıq, kimya sənayesi məhsulları daxili və xarici bazarlardan nəzərə çarpacaq dərəcədə sıxışdırılmış vəziyyətə düşdü. Inflyasiya və qarşılıqlı ödənişlərin vaxtında həyata keçirilməməsi, iqtisadiyyatın "barterləşməsi" və "dollarlaşması" daxili bazarı çox pis vəziyyətə salmışdı. Faktiki olaraq institusional islahatların son nəticələri vədedilənlərin və gözlənilənlərin tam əksinə alındı. Ölkənin iqtisadiyyatı onilliklər geri atıldı. Yalnız 1999-cu ildən iqtisadiyyatın yavaş-yavaş yenidən qurulması və ona "adam sifəti" verilməsi, itirilmiş mövqelərin bərpa olunması prosesinə başlanıldı (amma bu dəfə yeni əsaslar üzərində).

İqtisadiyyatın texniki tənəzzülü və deqradasiyası, həmçinin ölkənin yerli məhsullarının rəqabətqabiliyyətliliyinin zəifləməsi müşahidə edilməkdə idi. Müasir dünya bazarında məhsulun rəqabətqabiliyyətliliyini müəyyən edən beşinci texnoloji uklad dünyada qalibiyyətlə möhkəmlənmişdir. Rusiyada isə əks tendensiya müşahidə edilməkdə idi. Əsasən hərbi-sənaye kompleksində cəmləşən beşinci ukladın onsuz da çox kiçik payı 1991-1995-ci illərdə bəzi qiymətləndirilmələrə əsasən 3 dəfəyə yaxın azaldı. XX əsrə kimi üstünlük təşkil edən üçüncü ukladın və qədim dövrə aid digər qalıq ukladların inkişafı nəticəsində hətta dördüncü ukladın belə payı azaldı.[1] Bu isə Rusiya iqtisadiyyatının, onun sahələrinin və müəssisələrinin rəqabətqabiliyyətliliyinə öz mənfi təsirini

[1] Яковцев Ю.В. Циклы. Кризисы. Прогнозы. М.: Наука, 1999. С.110-111

göstərməyə bilməzdi. İnnovasiyalar minimuma endirildi və onlara dövlət dəstəyi dayandırıldı.

Yalnız 90-cı illərin sonundan vəziyyət yavaş-yavaş dəyişilməyə başlandı.1998-ci ildə rublun məzənnəsinin 4 dəfə düşməsi yerli məhsulların istər daxili, istərsə də ölkə xarici bazarlarda rəqabətqabiliyyətliliyinin artmasına səbəb oldu. Bir çox müəssisələr investisiya və innovasiya üçün vəsaitlər əldə etdilər. Lakin buna baxmayaraq texnoloji tərəqqiyə və innovasiyalara dövlət dəstəyi minimal olaraq qalmaqdadır. Daxili qiymətlərin artması nəticəsində devalivasiyanın effekti demək olar ki, itirilmişdir.

İqtisadiyyatın təkrar istehsal strukturunda irəliləyişlər *əsasən neqativ xarakter daşıyırdı*. Spekulyativ əməliyyatların və əsassız yüksək gəlirlərin hesabına şişmiş yanacaq-xammal ukladının və xüsusilə də bazar infrastrukturu seqmentinin payının artması nəticəsində investisiya-innovasiya sektorunun və şəxsi istehlak sektorunun payı əhəmiyyətli olaraq azaldı. Iqtisadiyyat öz strukturuna görə yarımmüstəmləkə tipli iqtisadiyyata daha çox yaxınlaşaraq bazarı təmin edə bilmək qabiliyyətini və özünün daxili mənbələri hesabına təkrar istehsal etmə qabiliyyətini itirmişdir. Meşə massivləri və faydalı qazıntı yataqlarının ən yaxşı mənbələri vəhşicəsinə dağıdılır. Renta oliqarxlar və trans milli korporasiyalar tərəfindən mənimsənilir və əhəmiyyətli hissəsi sərhəddən kənara daşınır.

Bu neqativ tendensiya 2000-ci ilə daha az nəzərə çarpan oldu. Beləki, emal sənayesi qabaqlayıcı templərlə inkişaf etməyə, yerli məhsullar isə xarici məhsulları sıxışdırıb çıxararaq bazar boşluqlarını doldurmağa başladı. Pərakəndə mal dövriyyəsinin strukturunda idxal məhsullarının payı hiss olunacaq dərəcədə azalmışdır.

Rusiyanın vəziyyəti dünya iqtisadiyyatında kəskin pisləşmişdir. Bu tendensiyaya hazırki başlığın 3-cü bəndində baxılır.

2. Rusiya iqtisadiyyatının inkişaf perspektivləri

Yuxarıda təhlil olunan meyllərdən belə çıxır ki, XXI əsrin əvvəlinə rusiya iqtisadiyyatı son dərəcə əlverişsiz start vəziyyətinə düşmüşdür. Nəticədə iqtisadiyyat

istehsalın həcminə, məhsulların rəqabətqabiliyyətliliyinə, həyat səviyyəsi və keyfiyyətinə, idarəetmənin səmərəliliyinə görə bir neçə onillik arxaya atıldı. Bu zaman obyektiv səbəblər və faktorlar iri strateji səhvlər, yanlış hesablamalar və digər subyektiv faktorlarla birləşmiş və ahəng yaratmışdır.

Bütün bunlara baxmayaraq Rusiya iqtisadiyyatı özünün həyati qabiliyyəttini, həmçinin dirçəliş, bərpa, inkişaf və inkişafın postsənaye mərhələsinə keçidin potensial imkanlarını itirməmişdir. Postsənaye cəmiyyətinin qurulmasında ən əsas və həlledici hesab edilən təhsilin və ölkənin əmək potensialının böyük hissəsinin ixtisas dərəcəsinin yüksək səviyyəsi, həmçinin inkişaf etmiş sosial-mədəni sfera (ilk öncə elm, mədəniyyət və təhsil) qorunub saxlanılmışdır. Ölkə mineral, torpaq, meşə, su kimi cürbəcür təbii ehtiyyat növlərinə malikdir. Bunlardan bir çoxu üzrə Rusiya XXI əsrə dünyanın unikal ehtiyyat anbarı olmaqda davam edir və bütün bunlardan inkişaf resursu kimi dünya xalis rentasının əldə edilməsi üçün istifadə edə bilər.

Qərbin və Şərqin sürətlə inkişaf edən ölkələri arasında qısa nəqliyyat yollarında mövcud olan coğrafi mövqeyi Rusiyaya əlverişli şərait yaradır ki, bu da nəqliyyat və turizm rentası götürülməsinə geniş imkanlar yaradır. Daxili bazarın əhəmiyyətli həcmi qorunub saxlanılmış və onun yenidən inteqrasiyası başlanılmışdır ki, bu da ölkənin yerli məhsul istehsalçılarının inkişafı və gəlirlərinin artması üçün əsas təşkil edir. Keçmişdə mövcud olmuş güclü istehsal potensialı və inkişaf etmiş infrastruktura sonuna qədər dağıdılmamışdır, baxmayaraq ki, onlar tez köhnəlir və radikal yenilənmə üçün çox böyük yatırımlar və sərmayə qoyuluşları tələb edir.

Əks təsir göstərən faktorlar da mövcuddur və bu faktorlar Rusiya iqtisadiyyatının yenidən canlanmasına və dünya təsərrüfatında onun rolunun artmasına maneçilik törədir. Hər şeydən öncə bunlar ölkənin əksər ərazisində qeyri-əlverişli iqlim şəraitinin mövcudluğu, şəhər və kəndlərin geniş məkanda səpələnməsidir ki, bu da insanların həyat və yaşayış təminatı, həmçinin nəqliyyat xərclərinin artmasına, ümumilikdə isə istehsal xərclərinin yüksək səviyyəsinə gətirib çıxardır. 90-cı illərdə demək olar ki, yenilən-

məyən və rəqabətqabiliyyətli məhsul və xidmətlərin yaradılmasına bir çox hallarda yaramayan əsas fondların əksər hissəslinin köhnəlməsi və texniki geriliyi də böyük maneələr yaratmaqdadır. Son illərdə Rusiya dünya iqtisdiyyatına yanacaq və xammalın satıcısı (beləki, həmin ehtiyyatlar demək olar ki, tükənməkdədir) və hazır məhsulların alıcısı kimi qoşulmuşdur. Dünya bankının verdiyi göstəricilərə görə xarici borc 1990-cı ildəki 59,8 mlrd dollardan 1998-ci ildə 183,6 mlrd dollara qədər artmışdır və ümumi daxili məhsulun[1] 62%-ni təşkil etmişdir. Borcların faizləri ilə birlikdə ödənilməsi dövlət büdcəsini sıxıntılı vəziyyətə salır.

Rusiya iqtisadiyyatının istər yerli, istərsə də xarici investorlar üçü investision cazibədarlığı da çox aşağıdır. 2000-ci ildə birbaşa xarici investisiyalar cəmi 4,4 mlrd. dollar təşkil etmişdir.[1]

İri rus kapitalının müftə (havayı) özəlləşdirilməsi və spekulyativ sövdələşmələr əsasında artmış parazit xarakeri də iqtisadi artıma imkan vermir. O, transmilli korporasiyalarla, həmçinin iqtisadiyyatda yüksək paya malik olan kölgə sektoru ilə sıx əlaqəlidir və müasir rəqabətqabiliyyətli istehsalın təşkili qabiliyyətində deyil. Şişmiş məmur aparatının korrupsiyalaşması, onun strateji köməksizliyi, aşağı professionallıq, sakitləşməyən tamahkarlıq kimi amillər də proseslərdə az rol oynamır.

Bütün bunlar böhranın böyük dərinliyini şərtləndirir və ondan çıxışı ləngidir.

Hal-hazırda Rusiya iqtisadiyyatının gələcək inkişafının bir neçə ssenarisi məlumdur. Ən çox tanınanları Straeji araşdırmalar mərkəzi tərəfindən hazırlanmış və RF İqtisadi İnkişaf Nazirliyi tərəfindən tamamlanmış "2010-cu ilə qədərki dövr üzrə Rusiya Federasiyasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri", həmçinin akademik L.İ.Abalkinin[1] rəhbərliyi altında Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu tərəfindən hazırlanmış

[1] Всемирный банк. Отчет о мировом развитии. 2000-2001. М.: Весь мир, 2001. С.337.

[1] Россия в цифрах. 2001. Краткий стат.сборник. М.: Госкомстат России, 2001. С.326.

[1] Россия – 2015:оптимистический сценарий. М.: ИЭ РАН-ММВБ, 1999

"2015-ci ilə qədər Rusiyanın iqtisadi-sosial inkişafının nikbin ssenarisi"dir. Ssenarilərdən biri 1996-cı ildə[2] nəşr edilmişdir və 2020-ci ilə qədərki dövrdə Rusiya iqtisadiyyatının strukturunun dinamikasına proqnoz kimi nəzərdə tutulmuşdur. Yaxın 15-20 ilə onun inkişafının növbəti senarilərini qısaca ifadə etmək olar.

Nikbin ssenari. İqtisadi artıma doğru tendensiya möhkəmlənəcək, onun əsasını isə beşinci ukladın yayılmasına, sonra isə altıncının mənimsənilməsinə yönəlmiş investisiyaların qabaqlqyıcı artımı, əsas kapitalın sürətli yenilənməsi, genişmiqyaslı innovasiyalar kimi daxili amillər təşkil edəcək. Məhz bu əsasda yerli istehsaslın rəqabətqabiliyyətliliyinin yüksələcəyi və əhalinin pul gəlirlərinin qabaqlayıcı artımı nəticəsində daxili tələbatının artacağı gözlənilir. Bütün bunlar ÜDM-nın 6-7%-lik ortaillik artım tempini təmin etməyə və 2011-2013-cü illərdə onun krizisöncəsi (1990-cı il) səviyyəsinə, amma yeni və daha səmərəli strukturla çatmağa imkan verəcək. İqtisadiyyatda pozitiv struktur irəliləyişlər baş verəcək, bütün iqtisadi ukladların fəaliyyətinin səmərəliliyi yüksələcək. Ölkə xarici borcunun həcmini əhəmiyyətli dərəcədə azaldacaq və özünün investision reytinqini yüksəldəcək. Bu isə birbaşa xarici investisiyaların və səmərli texnologiyaların genişmiqyaslı cəlb edilməsinə şərait yaradacaqdır.

Amma Rusiya iqtisadiyyatının gələcəyi üçün ***bədbin*** ssenarini də istisna etmək olmaz. Əgər 2000-ci ildə yaranmış əlverişli tendensiyalar daxili amillərlə möhkəmlənməzsə, dünya konyunkturu (əsas etibarilə neftə olan qiymətlər) Rusiya üçün qeyri-əlverişli olaraq formalaşarsa, investisiyaların artımı və əsas kapitalın yenilənməsi templəri yüksək olmazsa, bazis innovasiyalarına nəzərə çarpacaq dövlət dəstəyi göstərilməzsə iqtisadiyyatda qarşısalınmaz dəyişikliklər başlana bilər.

Fiziki aşınmış əsas kapitalın kütləvi surətdə sıradan çıxması prosesi başlanacaq və innovasion potensial itiriləcək.

Xarici borcların ödənilməsi üçün yeni borcların arxasınca qaçmaq məcburiyyəti yaranacaq. Inflyasiyanın templəri sürətlə

[2] Яковцев Ю.В.Экономика Росси: перемены и перспективы. М., 1996. С.238-271

artacaq. ÜDM-nın və real gəlirlərin orta illik artım templəri çətin ki, 1-2%-dən çox ola biləcək və buna görə də böhran öncəki səviyyəyə ən azı 25-30 ildən sonra çatmaq olacaq (ümumiyyətlə heç nail olmaq mümkün olacaqdırsa da). Bu müddətdə isə digər dövlətlər yenidən çox irəliyə addımlayacaqlar. Ölkə uzun müddətə, hətta bəlkədə həmişəlik orta dünya səviyyəsindən geridə qalacaq, inkişaf etmiş ölkələr və sivilizasiyalar tərəfindən istismar obyektinə çevriləcək. Hadisələrin bu cür axını əhali tərəfindən kəskin narazılıqla qarşılanacaq. Sosial partlayış istisna deyildir.

Daha böyük ehtimal payına malik olan ***mötədil*** ssenaridir ki, bu zaman nikbin ssenari tərəfindın nəzərdə tutulan müsbət irəliləyişlər daha asta templərlə həyata keçəcək. Bu halda ümumi daxili məhsulun və əhalinin real gəlirlərinin artımı 3-4% təşkil edəcək və böhran qabağı səviyyəyə 2016-2020-ci illərdə nail olunacaq. Bu ssenaridə Rusiyanın avanqard ölkələrdən və orta dünya səviyyəsindən geriləməsi artacaq və o, neçə onilliklər boyu transmilli korporasiyalar və inkişaf etmiş ölkələr tərəfindən istismara məruz qalan və iqtisadi cəhətdən geriləyən ölkələrin sırasında möhkəmlənəcək.

Beləliklə, Rusiya iqtisadiyyatının yenidən dirçəlməsinin ən yaxşı variantını yalnız nikbin ssenari təmin edə bilər. Amma bunun həyata keçirlməsi üçün həm işgüzar dairələr, həm də əhali tərəfindən aktiv dəstəklənən, iqtisadiyyatın bərpası və modernləşdirilməsinin uzunmüddətli və elmi əsaslandırılmış strategiyası olmalıdır. Eyni zamanda, sosial-iqtisadi tərəqqinin daha aktiv, bacarıqlı və differensiallaşdırılmış dövlət tənzimlənməsi çox vacibdir.

Rusiya iqtisadiyyatının inkişaf perspektivlərinin müəyyənləşdirilməsi zamanı iqtisadi dinamika göstəricilərinin tsiklik dalğalanmalarının qaçılmazlığını, *ortamüddətli və uzunmüddətli tsikllərin periodik böhran fazalarının* labüdlüyünü nəzərə almaq zəruridir. Əvvəllər üstün olan və indiyıdək də istifadə edilən bu proqnozlaşdırma metodologiyası müasir Rusiyada bazar-kapitalist münasibətlərinin üstünlük təşkil etdiyi və onun dünya kapitalist sisteminə aktiv qoşulması şəraitində xüsusilə daha çox hiss olunan bu vacib faktoru nəzərə almır. Tsikllərin və böhranların proqnoz-

laşdırılması metodologiyası "Proqnozlar və tsikllər" Assosiasiyası, N.D.Kondratyev adına Beynəlxalq fond, Rusiya Təbiət Elmləri Akademiyasının[1] Tsikllərin və proqnozlaşdırmanın tədqiqatı bölməsi tərəfindən işlənib hazırlanmışdır. Bu metodologiyaya əsaslanmaqla XXI əsrin ilk rübünə Rusiya iqtisadiyyatının inkişaf perspektivlərini təxmini olaraq müəyyən etmək olar.

Ortamüddətli tsikllərin və böhranların ritmikası onların təxminən XXI yüzilliyin ilk illərində, 10-cu və 20-ci illərin əvvəlində onillik dövriliklə dəyişilməsi zamanı saxlanılır. Faktiki olaraq dünya böhranı 2001-ci ildə artaraq genişləndi. O, aparıcı ölkələri bürümüşdür və dünya iqtisadiyyatının artım templərinin azalmasına və ya qısamüddətli tənəzzülə gətirib çıxaracaqdır. Bu dünya iqtisadiyyatına təzəcə qoşulan Rusiya iqtisadiyyatına təsirsiz ötüşə bilməz, xüsusilə də Rusiyanın əsas ixrac məhsulu olan və xarici borcların qaytarılması üçün valyuta daxilolmaları mənbəsi hesab edilən neftin dünya qiymətləri enərsə.

Rusiyanın iqtisadi artımının perspektivlərində yaxın 2 onillikdə uzunmüddətli tsikllərin dinamikası, indi üstünlük təşkil edən beşinci Kondratyev tsiklinin və ona uyğun olan texnoloji ukladın zəifləyici dalğaya keçməsi öz mənfi təsirini göstərə bilər. Belə halda beşinci Kondratyev tsiklinin üzərinə düşən orta müddətli tsikllərin qalxma fazaları azalır, böhran enmələri dərin və uzunmüddətli olur[1]. Bu dövrdə yeni modellərin və texnika nəslinin səmərəliliyinin yüksək olmaması iqtisadi artım templərini məhdudaşdırır. Yalnız 6-cı Kondratyev tsiklinin güclənmə dalğası gözlənilən 20-ci illərdə iqtisadi artım tempinin sürətlənməsi və texnoloji tərəqqinin səmərəliliyinin yüksəlməsi mükündür.

Rusiyanın bu dünya ahəngindəki yeri onun seçdiyi strateji yoldan asılıdır. Əgər texnoloji tərəqqiyə yol açılmasının uzaq perspektivə saxlanılması kursu, innovasiya siyasətində "mövqelərin saxlanılması" və "çatıcı-yetişici" inkişafının müəyyən səviyyəsin-

[1] Методологические рекомендации по прогнозированию кризисов и путей выхода из них. М., 1991; Яковец Ю.В. Циклы. Кризисы. Прогнозы. М.: Наука, 1999; Яковец Ю.В. Прогнозирование циклов и кризисов. М.:МФК, 2000.

[1] Кондратьев Н.Д. Избранные сочинения. М.: Экономика, 1993. С.60

də indiki kursa çatmaq üçün davam etdirilsə Rusiya dünya tərəqqisinin mərkəzindən uzaqlarda qərarlaşacaq. Növbəti Kondratyev tsiklinə keçid gecikəcək, beşinci tsiklin zəiflədici dalğası isə özünə xas olan dərin böhranlarla daha ağrılı olacaq. Yox əgər "qabaqlayıcı" inkişafa, texnoloji tərəqqi və irəliləyişə, altıncı uklad nəslinin hazırlanması və prioritet mənimsənilməsinə doğru strateji kurs götürülərsə bu Rusiya iqtisadiyyatının gələcəyi üzrə nikbin ssenarinin həyata keçməsinə səbəb ola bilər.

Rusiya *sivilizasiya* tsiklinin böhran fazasının tam fokusuna düşdü. Bu faza sənaye iqtisadiyyatının postsənayeyə transformasiyası ilə, dördüncü nəsil lokal sivilizasiyaların formalaşması və onların differensiasiyasının dərinləşməsi ilə əlaqədar qloballaşmanın ziddiyyətli prosesləri ilə, həm sosializm və həm də kapitalizmin əvəzinə gələn inteqral sosial-iqtisadi quruluşun təşəkkül tapması ilə əlaqədardır. Hələki yeni quruluşun və dünya quruluşunun bütün konturları aydın deyildir, qızğın dəyişikliklər axını davam etməkdədir. Rusiya avrasiya sivilizasiyasının nüvəsi kimi 90-cı illərdə çox dərin sivilizasion böhran dövrünü yaşayaraq bir çox mövqelərdə geriyə diyirləndi. Bir çox onilliklər gərgin, strateji məqsədyönlü fəaliyyət zəruridir ki, - gələcəyin nikbin ssenarisinə əsasən - dünya iqtisadi məkanında layiqli yerini özünə geri qaytarasan. Bunları ölkənin sosial-iqtisadi inkişafının uzunmüddətli perspektivlərinin işlənilib hazırlanmasında hökmən nəzərə almaq lazımdır.

3. Rusiya dünya iqtisadi məkanında

Müasir mərhələdə Rusiyanın dünya iqtisadi məkanında və beynəlxalq iqtisadi münasibətlərdəki əhəmiyyəti onun iqtisadi və elmi-texniki potensialından, həmçinin dünya siyasi arenasındakı rolundan qat-qat aşağıdır.

Rusiya Federasiyası Dövlət statistika Komitəsinin qiymətləndirməsinə əsasən alıcılıq qabiliyyətinin pariteti üzrə adam başına düşən hesabla Rusiyanın ÜDM-nın faiz nisbəti 1996-cı ildə ABŞ-ın uyğun göstəricisinin yalnız 24,1%-ə çatmaqla ABŞ-dakı 27,8 min dolların əksinə 6,7 min dollar təşkil etmişdir. Ümumilikdə alıcılıq qabiliyyətinin pariteti üzrə hesablanmış

ÜDM-nın ümumi həcminə görə Rusiya sənaye cəhətdən inkişaf etmiş aparıcı ölkələrdən hiss olunacaq dərəcədə (ABŞ-dan 7 dəfədən çox) geri qalır. Cari məzənnə üzrə hesablanmış ÜDM göstəricisinə əsasən Rusiyanın geriləməsi daha çox heyrət doğurur. 2000-ci ildə bu göstərici 290 mlrd dollar təşkil etməklə ABŞ-dakından 33, Çin Xalq Respublıikasındakından 3,3 dəfə az olmuşdur.

Rusiya ixracın həcminə görə Niderland, Belçika, İspaniya, Koreya Respublikası, ÇXR və bir sıra digər ölkələrdən geridə mövqe tutmuşdur. O, dünya ixracında 17-ci, idxalında isə 29-cu (1,7% və 0,7% uyğun olaraq) yeri tutur. Rusiya xarici iqtisadi əlaqələrin intensivliyi göstəricisinə görə də çoxlu sayda ölkələrdən geriləyir.

Bütün deyilənlərlə yanaşı qloballaşma prosesi rusiya iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsi sferasında xarici ölkələrlə Rusiya arasındakı əməkdaşlıqda da özünü aydın büruzə verir. Bu özünü qeyd olunan investisiyalarda yüksək rola malik olan transmilli korporasiyaların və bankların aktiv fəaliyyətində özünü əks etdirir. Xarici investorların firma stukturunun analizi nəticəsində məlum olur ki, xaricdə dünyanın ən iri investorları qismində çıxış edən 100 transmilli şirkətdən 90 şirkət Rusiya ərazisində özünün qız şirkətlərinə və filiallarına malikdir, həmçinin birgə müəssisələrdə iştirak edirlər ki, bunlardan da "Royal Datç Şell", "Britiş Petroleum", "Amoko" və s. misal göstərmək olar.

Rusiya Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə ümumilikdə Rusiya üzrə xarici kapitallı müəssisələrdə 0,5 mln nəfər çalışır. Proqnoz qiymətləndirmələr göstərir ki, XXI əsrin ilk beşilliyinin sonuna bu cür müəssisələrdə 4 mln. nəfərə qədər insan məşğul ola bilər. Müqayisə üçün qeyd edək ki, 90-cı illərin ortalarında ABŞ-da uyğun müəssisələrdə 3 mln.-dan bir qədər çox insan işləyirdi. Rusiyada dünyanın ən iri transmilli korporasiyalarının və banklarının peyda olması və aktivləşməsi dünya titanları ilə qovuşmaya kimi davam edən əməkdaşlığa çox böyük həvəslə gedən milli kapitalın mərkəzləşməsi və təmərküzləşməsi prosesinin ölkədə inkişafı ilə üst-üstə düşür.

Qloballaşma prosesi Rusiyanın beynəlxalq əmək bölgüsündəki qeyri-əlverişli ixtisaslaşmasının formalaşmasında və bir sıra assimetrik tendensiyaların inkişafında da həmçinin özünü büruzə verir. Yuxarıda da qeyd edildiyi kimi, Rusiya beynəlxalq münasibətlər sistemində son dərəcə cüzi və kiçik bir mövqeyə malikdir. Rusiyanın ərazisində dünya əmtəə bazarlarının mərkəzləri yoxdur, haradakı bu cür bazarların inkişafının koyunktur faktorları formalaşır. Rusiyanın ixracına görə aparıcı yerə malik olduğu məhsullarının siyahısı da çox kiçikdir. Bunlar təbii qaz, almaz, platin, nikel və ammonyakdır.

Rusiyanın *ixracı* elastik deyildir. Onun konsentrasiya dərəcəsi çox yüksəkdir. Burada həddən artıq böyük yer yanacaq-energetika məhsul qrupuna (50%) düşür. Neft ixracının inkişafı ölkədə təkcə iqtisadi deyil, eyni zamanda siyasi vəziyyətin və durumun müəyyənedici faktoruna çevrilmişdir. İxracda maşın və avadanlıqların payı olduqca kiçikdir və bu əsas etibarilə müdafiə sənayesi məhsullarıdır.

Nəticədə Rusiyanın maşın və avadanlıqlar üzrə beynəlxalq əmək bölgüsündəki nisbi ixtisaslaşma indeksi 90-cı illərdə 4-dən 2 bəndə enmişdir[1]. Bəzi sənaye sahələri və məhsulları (xam neft, təbii qaz, qara metallar və bir sıra digərləri üzrə) ixrac kvotası yüksəkdir. Bunlar bərpa edilməyən resurslardır. Ixracdakı bu cür vəziyyətlə dünya iqtisadiyyatına inteqrasiyanı perspektivli və ümidverici adlandırmaq olmaz.

Rusiya üçün rusiya idxalının əmtəə strukturu da perspektivli deyildir. İstehsal üçün Rusiyanın özündə kifayət qədər əlverişli şərait olmasına baxmayaraq ət və ət məhsullarının, bitki yağlarının və bir sıra digər qida məhsullarının istehlakında idxalın payı çox yüksəkdir. Kimya və neft-kimya sənayesi üçün maşın və avadanlıqlar üzrə, neft-qaz hasilatı üçün bəzi kimyəvi preparatlar

[1] Ölkənin beynəlxalq əmək bölgüsündəki nisbi ixtisaslaşma indeksi ticarətin inkişafına ölkənin ixracının sturukturununümumdünya tendensiyalarına uyğunluğu dərəcəsini göstərir. Göstərilən konkret vəziyyətdə - maşın və avadanlıqların rusiya ixracındakı payının həmin mal qrupunun dünya ixracındakı payına olan nisbəti – *müəllifin qeydi*

və xüsusi materiallar üzrə Rusiyanın idxaldan asılılığı özünü daha qabarıq büruzə verir. Ümumilikdə idxal Rusiyanın ÜDM-na nisbətdə 15%, amma istehlak məhsullarının ticarət dövriyyəsi həcminin isə 1/3-ni təşkil edir. Beləliklə, Rusiya iqtisadiyyatının əsas etibarilə yanacaq-energetika məhsulları üzrə necəki ixracdan, eləcə də əsas növ ərzaq məhsulları, geniş çeşidli hazır sənaye məmulatları və materialları üzrə idxaldan yüksək asılılığı üçün şərait formalaşır.

Zəifrəqabətqabiliyyətliliyi üzündən Rusiya beynəlxalq əmək bölgüsündə maşın və avadanlıqların xalis-idxalatçısı kimi çıxış edir. Əsas fondlara investisiyaların azalması ilə əlaqədar olaraq ixtisarına baxmayaraq, maşın və avadanlıqların idxalı bu məhsulların ixracını bir neçə dəfə (dəyər ifadəsində) üstələyir. Deyilənlər rusiyanın mövqelərinin sənayecə inkişaf etmiş ölkələr üçün təkcə zəifləmiş və qeyri-tipik deyil, həmçinin qloballaşma nöqteyinəzərindən də əlverişsiz olmasını xarakterizə edir ki, bu da Rusiyanın Ümumdünya Ticarət Təşkilatına qoşulması üzrə danışıqlarda xüsusilə vacib önəm daşıyır.

Doğrudur, Rusiyanın xarici iqtisadi əlaqələrində bir sıra müsbət meyllər də mövcuddur. Menecmentin inkişafı beynəlxalq institutunun (İMD) hesablamalarına əsasən 2000-ci ildə Rusiya "məhsulların ixracının artımı" kateqoriyasında dünyada 4-cü yerə, ticarət balansının müsbət saldosunun böyüklüyünə görə isə 2-ci mövqeyə çıxmışdır. Bundan əlavə, Rusiya ixrac məbləği ilə idxal məbləğinin müsbət nisbətinə görə də liderdir.

Rusiyanın beynəlxalq fond bazarına daxil olması 90-cı illərin müsbət hadisəsi olsa da, bu bazardakı vəziyyət Rusiyaya heç də yaxşı təsir göstərmirdi. Rusiyanın yaşadığı maliyyə böhranı bir sıra Asiya ölkələrinin fond birjalarındakı faciəvi vəziyyətin təsiri altında 1998-ci ilin iyul-avqustunda xüsusilədə kəskin pisləşdi. Bu vəziyyət həmçinin Rusiyanın ən böyük kreditorları olan ABŞ və Almaniyaya da çox neqativ təsirini göstərdi. Avrobondlar bazarında Rusiya qiymətli kağızlarının məzənnələri hiss olunacaq dərəcədə endi. Rusiyanın qiymətli kağızlar bazarında fəaliyyət göstərən xarici investorlar ciddi itkilər verdilər. Onlardan çoxu 1998-ci ilin avqustunda bu bazarı tərk

etdilər. Hesab edilir ki, böhran vəziyyətinə qədər rəsmi satış həcminin 20-30%-i xarici investorlara düşürdü. Əslində isə bu pay 80%-ə qədər çatırdı, belə ki, qeyri-rezidentlər qiymətli kağızlar bazarına çıxmaq üçün rusiyanın broker firmalarının vasitəçiliyindən təcrübədə geniş istifadə edirdilər.

Əgər rus kapitalının sərhədlərdən kənara daşınmasının (ixracının) artımı üzrə 90-cı illərdə meydana çıxan tendensiyasını qeyd etməsək, Rusiyada qloballaşma prosesinin konkret təzahürlərinin siyahısı tamamlanmaz. Əksər hallarda bu daşınma qeyri-leqal olaraq həyata keçirilir. O, özlüyündə Rusiyadan kapitalın qaçırılmasını əks etdirir ki, bu da onun xalq təsərrüfatına əhəmiyyətli zərbə vurmuş olur. RF-nın Baş Prokurorluğunun qiymətləndirməsinə əsasən, hər il ölkədən 20-25 mlrd. ABŞ dolları xaricə axır.

Bununla yanaşı kapital Rusiya ərazisindən iri rus şirkətləri tərəfindən xaricə investisiya qoyuluşları məqsədilə leqal kanallar vasitəsilə də çıxarılır. O, metallurgiya xammalı və neft hasilatı üzrə müəssisələrə, magistral qaz kəmərlərinin çəkilməsinə, neft emalı sənayesinə, bəzi plantasiya bitkilərinin becərilməsinə və sair sahələrə istiqamətlənir.

Rusiyadan kapital axını, eyni zamanda xaricə daimi yaşayış və işləmək arxasınca gedən vətəndaşların axınının ildən-ilə artması ilə də əlaqədardır. Rusiyada emiqrasiya kapitalın göstərilən vətandaşlar tərəfindən əsas etibarilə xarici valyutalı pul vəsaitləri formasında ölkədən çıxarılması ilə müşayiət olunur. Nəticədə özüözlüyündə rus iqtisadiyyatına mənfi təsir edən ağılların axını, eyni zamanda Rusiyadan pul vəsaitlərinin axınının güclənməsini də təhrikləndirmiş olur.

Gördüyümüz kimi, bazar iqtisadiyyatına keçidin hələ ilkin mərhələsində Rusiya dünya iqtisadiyyatının qloballaşması prosesi tərəfindən zəbt olunmuşdur. Amma o bundan uduş əldə etmir. Iqtisadi itkilərin həcmi özünü daha çox büruzə verir.

2000-ci ilə Rusiyada iqtisadi fəaliyyətin səmərəliliyinə təsir edən əsaslı faktor xarici dövlətlərin və xüsusilə də əməkdaşlıq və ticarət üzrə yaxın tərəfdaşların rusiyanın təsərrüfat subyektlərinə və bütövlükdə dövlətə qarşı münasibətləri oldu. Bu münasibət çox

sərt oldu, hətta bəzi hallarda düşmənçiliyə çevrildi. ABŞ və Avropa Birliyində rusiyanın ixrac məhsullarının əleyhinə yönəlmiş antidempinq prosedurlarının sayı artmaqdadır. Bütün bunlar uyğun maliyyə və informasiya strukturlarının borc kapitalı, nəqliyyat, sığorta və digər xidmətlər bazarında Rusiyanın əlverişsiz reytinqlərinin müəyyənləşdirilməsinə edilən təşəbbüs və cəhdlərin fonunda baş verir. Eyni zamanda rusiya biznesinin tamamilə kriminallaşması haqqında əfsanələrin yaradılmasına cəhdlər edilir.

Bü əsasda Menecmentin inkişafı beynəlxalq institutu tərəfindən 2001-ci ildə bizim ölkənin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsinin həyata keçirilməsi, Rusiyaya olan münasibətin indikatoru kimi maraq doğurur. Beynəlxalq təşkilatlardan, milli və xüsusi institutlardan əldə edilmiş statistik göstəricilərdən, həmçinin iri və orta şirkətlərin rəhbərlərinin sorğusunun məlumatlarından istifadə edərək bu institut 286 kriteriya əsasında 49 ölkənin rəqabətqabiliyyətliliyi reytinqini müəyyənləşdirərək Rusiyaya 45-ci yeri vermişdir. ÜDM-dən faizlə ifadədə ən yüksək xarici borc, ümumi daxili məhsulun hər dollarına (Honkonqda-1,9, İsveçdə-3,3) ən yüksək enerji istehlakı səviyyəsi (62,7 kilocoul), xarici investisiyaların qorunması mexanizminin qeyri-mükəmməl olması, təkcə investisiyaların deyil, eyni zamanda ən yaxşı "ağıllar"ın cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasına zəif marağın olması kimi amillər bizim ölkəyə daha layiqli yer tutmağa imkan verməyən əsas faktorlar olmuşdur.

Bütün bunlar hüquq bərabərçiliyi, qarşılıqlı fayda və dövləti suverenliyinin qorunması prinsipləri əsasında Rusiyanın dünya iqtisadiyyatına və qloballaşma prosesinə qoşulması məqsədilə dövlət tənzimlənməsinin məqsədyönlü siyasətini işləyib hazırlamağın və həyata keçirməyin nə dərəcədə zəruri olduğunu sübut edir.

Suallar və tapşırıqlar

1.XX əsrin sonlarında iqtisadiyyatın transformasiyası proseslərini xarakterizə edin. Onların mahiyyəti nədədir, onlara səbəb nədir?

2.Rusiya iqtisadiyyatının transformasiyasının Avropa ölkələrində və Çindəki anoloji prosesslərlə müqayisədə özünəməxsus xüsusiyyətləri hansılardır?

3.90-cı illədə Rusiyadakı böhrana səbəb nə olmuşdur? Bazar iqtisadiyyatına keçid zamanı böhrandan qaçmaq və ya onu daha az ağrılı etmək mümkün idimi?

4. 90-cı illərin transformasiyası nəticəsində Rusiyada hansı sosial-iqtisadi quruluş bərqərar olmuşdur? Bu quruluşun əsas cizgilərini səciyyələndirən sxemi qurun, sonra onu sosializm və kapitalizmlə müqayisə edin.

5. XXI əsrin birinci rübündə Rusiya iqtisadiyyatının inkişafının hansı ssenarisi – nikbin, bədbin və ya mötədil ssenarilər – sizin üçün daha real görsənir? Öz cavabınızı əsaslandırın.

6. XXI əsrdə Rusiya iqtisadiyyatının inkişafında tsikllər və böhranlar qaçılmazdırmı? Yaxın iki onillikdə dünya iqtisadiyyatında və Rusiyanın iqtisadiyyatında hansı böhranlar gözlənilə bilər?

7. Dünya ixracı və idxalında Rusiyanın mövqeləri nə dərəcədə möhkəmdir?

8. Əsaslandırılmış nəticə çıxardın, növbəti deyilənlər doğrudurmu?

Zəngin təbii sərvətlərə və yüksək elmi-texniki və sənaye potensialına malik olan Rusiya, öz inkişafında beynəlxalq iqtisadi münasibətlərdə iştirak etmədən və ya bu iştirakı minimuma endirməklə keçinə bilər.

Dünya maşın və avadanlıqlar bazarında kooperasiya və ixtisaslaşma proseslərində Rusiyanın iştirakı, rusiyanın maşın-texnika məhsullarının yüksək rəqabətqabiliyyətliliyi ilə təmin edilir.

Dünya iqtisadiyyatının qloballaşması prosesi öz əksini Rusiyanın təsərrüfat inkişafında transmilli korporasiyaların iştirakının genişlənməsində tapır.

Birbaşa xarici investisiyalar rusiya iqtisadiyyatının restrukturizasiyasında əsas aparıcı rola malik olmalıdırlar.

9. Düzgün cavabı seçin.

Ölkənin xarici ticarətinin intensivliyi müəyyən olunur:

a) ölkənin ixracında maşın və avadanlıqların payının dünya ixracındakı eyni göstərici ilə tutuşdurularaq müqayisə edilməsi yolu ilə;

b) ölkənin ixracının dəyərcə həcminin nisbəti vasitəsilə idxalına daxil etməklə (cəmləməklə);

s) ixracın dəyər həcminin ölkənin ölkə əhalisinin sayına nisbətinin köməkliyi ilə;

d) ixracın dəyər həcminin dövlətin ixrac ticarəti üzrə iqtisadi agentlərinin sayına nisbəti ilə.

© Грязнов Е.А.,, 2002
© Яковетс Й..В., 2002

II Fəsil

DÖVLƏT TƏNZİMLƏNMƏSİ, İQTİSADİYYATIN TRANSFORMASİYASININ STRATEGİYASI VƏ HƏPƏKƏTVERİCİ QÜVVƏSİ

Rusiyanın iqtisadiyyatında baş verən proseslər mürəkkəb və çoxtərəfli olmaqla, rusiya cəmiyyətinin daxili tələbatını və habelə çoxsaylı xarici amillərin təsirini əks etdirir. Bu proesslərin dövlət tərəfindən tənzimlənməsinin imkanlarını və mexanizmini başa düşməkdən ötrü tənzimləmə obyektini və idarəetmə təsirlərini müəyyən etmək lazımdır. Çünki iqtisadiyyat ən müxtəlif təzahürlərdə mövcud olur. Adi mənada ona təsərrüfatçılıq bacarığı başa düşülür. Elmi mənada iqtisadiyyat, ictimai münasibətlərin mühüm sahəsi kimi insan fəaliyyətinin nəticəsini istehsalı, bölgünü, mübadiləni və istehlakı, eləcə də mövcud resursların səmərəli istifadəsi kimi ifadə olunur. Bu zaman xüsusi olaraq məhsuldar qüvvələrin və ictimai-istehsal münasibətlərinin vəhdətinə diqqət yetirilməlidir.

Miqyas və imkanlarına görə iqtisadiyyatın müxtəlif, çoxsaylı obyektləri mövcuddur. Dünya iqtisadiyyatı, ayrı-ayrı ölkələrin və ya onların birliklərinin, regionların, firmanın, müəssisənin, sahələrin, ev təsərrüfatının və sairənin iqtisadiyyatı və s.

formasında mövcud olur. Bu iqtisadi obyektlər adətən bu və ya digər mənada qarşılıqlı əlaqədədir və bir-birlərinə müdaxilə edirlər. Ona görə də iqtisadi təhlili müxtəlif kəsiklərə ayırmaq mümkündür, lakin həmişə obyektin ciddiliyinə riayət etmək, təhlil edilən təsərrüfat sistemini dəqiq müəyyən etmək lazımdır.

1. İqtisadiyyat ictimai tənzimləmə obyekti kimi

Bu dərslikdə təhlilin əsas obyekti ölkənin milli iqtisadi sistemidir. Sistemin tənzimləmə və idarəetmə subyekti kimi, tam şəkildə dövlət və onun müvafiq səlahiyyətlərə malik ayrı-ayrı orqanları (konkret olaran Rusiya) çıxış edir. Milli iqtisadiyyat ayrı-ayrı təsərrüfatlardan ibarətdir: müəssisələr, şirkələr, ev təsərrüfatları, müxtəlif təsərrüfat sistemləri. Bazar şəraitində bu təsərrüfatların hər biri özünün iqtisadi məqsəd və maraqlarından çıxış edərək iqtisadi siyasətini qurur və idarəetməni təşkil edir. Bununla yanaşı onların hamısı dövlət səviyyəsində formalaşan iqtisadi siyasət və institutlar çərçivəsində fəaliyyət göstərirlər.

Tarixin müxtəlif dövrlərində dövlətin təsir həddi müxtəlifdir və ölkənin ənənələrindən, sabit institusional şəraitdən asılıdır.

İnstitutlar – idarəetmə münəisbətlərinin öyrənilməsində çox vacib anlayışlardandır. İnstitusionlizmin klassiklərinin müəyyən etmələrinə görə (D.Nort və s.) institutlar – bu cəmiyyətdə «oyun qaydalarıdır», yəni insan tərəfindən məhdudlaşdığı çərçivələrdir ki, bunların da əsasında insanlar arasında qarşılıqlı münasibətlər yaradılır. Orqanlar və təşkilatlar, qanunlar və digər təyin edilmiş qaydalar kimi sabit formalarda mövcud olan formal institutlar və qeyri-formal institutlar formasında mövcuddurlar. Qeyri-formal institutlara yazılmamış qaydalar, adətlər, ənənələr, prinsiplər aiddir. İnstitutların təkmilləşdirilməsi və ya yenidən təşkil edilməsi adətən iqtisadi islahat adını almış proqramları ilə tamamlanırlar. Dünyanın inkişaf etmiş ölkələrinin çoxəsirlik bazar təsərrüfatçılıq təcrübəsi bir çoxları tərəfindən sərbəst (azad) sahibkarlığın prinsiplərinin davamı kimi interitatsiya edilir və aksioma kimi liberal

prinsipə – laisser-faire («etməyə imkan verməк» - fransızcadan hərfi mənada) əsaslanan iqtisadi qaydanın üstünlüyü kimi nəzərdə tutulur. Bu prinsip firmaların, ev təsərrüfatlarının, satıcı və alıcılarının fəaliyyətinə (davranışı və hərəkətlərinə) minimal dövlət müdaxiləsini nəzərdə tutur. Bu cür yanaşmada dövlətin tənzimləyici iştirakı ideal bazar modelindən kənarlaşmanın müvazinətləşdirilməsi, məcburi tədbir kimi qəbul edilir.

Bir çox iqtisadi əsərlərdə iqtisadiyyata dövlət müdaxiləsinin, «standart» əsaslandırılmasına haqq qazandırılır. Başlanğıc nöqtə kimi, hökumətin iştirak etmədiyi iqtisadi fəaliyyət, yəni tam (mütləq) azad bazar iqtisadiyyatı götürülür. Real iqtisadi həyata tətbiqən dövlətin mümkün və zəruri müdaxiləsi ideal bazar situasiyasından kənarlaşmalar üzrə müəyyən edilir. Məntiq burada adətən belədir. Fərz edək ki, tam bazar toplusu mövcuddur və iqtisadityyatda tam (təkmil) rəqabət, tələb və təklif arasında tarazlıq mövcuddur. Nəticədə belə bir vəziyyət yaranır ki, heç kəs digərinin rifah halını pisləşdirmədən öz rifah halını yüksəldə bilməz. Bu «Poreto üzrə, səmərəliliyə» nail olma adlanır. Eləcə də fərz edək ki, fərdlər həmişə onlara nəyin məqbulluq gətirəcəyini (xeyir verəcəyini) hökumətdən yaxşı bilirlər. Buradan məntiqi olaraq elə bir hal qurulur ki, (fərziyə) səmərəliliyin seçilmiş prinsipi əsasında dövlət müdaxiləsi zəruri və vacibdir.

Laisser-faire və «Poreto üzrə, səmərəlilik» prinsiplərindən istifadə inkişaf etmiş dünyada bazar iqtisadiyyatının qurulmasında çox böyük rol oynamışdı. Lakin Adam Smitin «görünməz əl» ilə tənzimlənən iqtisadiyyatın ideal sayılması təsəvvürü nə təcrübü və nə də ki, nəzəri araşdırmalarda öz təsdiqini tapmadı. Təbii ki, təbiətdə mükəmməl (təkmil) bazarlar mövcud deyildir, bunun da nəticəsində onlar xarici tənzimləmə tədbirlərinə əl altmalı olunur. İş ondadır ki, dövlət və digər ictimai-siyasi institutlar tərəfindən iqtisadiyyatın tənzimlənməsi sabit iqtisadi, o cümlədən bazar münasibətlərinin mümkünlüyünün üzvü zəmini kimi çıxış edir. Amerikalı alimlər E.Atkinson və C. Stiqlits qeyd edirlər ki, «Bazarın qeyri-dövlət iqtisa-

diyyatını nəzərdə tutan situasiyada fəaliyyət göstərməsini (göstərəcəyini) hesab etməyə çox az əsas vardır»[1].

Dövlət maraqları və dövlət amillərinin özü bazar münasibətlərinin mövcudluğunun və inkişafının bütün mərhələlərində az və daha çox mükəmməl şəkildə mövcud olurlar. Bu aydın şəkildə həm yüksək inkişaf etmiş və həm də inkişaf etməkdə olan ölkələrin müasir siyasəti tərəfindən nümayiş etdirilir. Elmi nəşirlərdə bazar təsərrüfat sistemlərinin uğurlu fəaliyyət göstərilmisi üçün dövlət tənzimlənməsinin vacibliyini əsaslandıran əsaslı arqumentləri misal çəkirlər.

Dövlət müdaxiləsinin aşağıdakı əsas səbəblərini göstərmək olar: 1) reallıqda təkmil rəqabətin olmaması; 2) bazar subyektləri üçün bütün informasiyaların əldə etmək imkanın olmaması və bazarın tam tarazlığa nail ola bilməməsi; 3) bazarın təsirindən kənarda olan amillərə müvafiq olaraq nemətlərin yenidən bölgüsünün zəruriliyi; 4) bir çox bazar növlərinin kifayət qədər inkişaf etmiş şəkilində olmaması (məsələn fyeçers və çığorta); 5)müvazinətləşdirilmiş hərəkətlər tələb edən xarici amillərin olması; 6) ictimai nemətlərin (müdafiə xidmətləri, fundamental elmlər və s) yaradılması və istehlakı ilə bağlı olan nəzərə çarpacaq sferaların mövcudlüğü; 7) lazimi tələbatların məhdudlaşdırılması və tələb olunmayan, istehlakların (alkaqol, tütün, narkotiklər və s.) azaldılması.

Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konkret mexanizmi ümumi qanunauyğunluqlarla deyil həm də ölkənin iqtisadiyyatının xüsusiyyətilə, xüsusi cizgilərlə, əlamətlərlə müəyyən edilir. Bu planda Rusiya iqtisadiyyatı tənzimləmə obyekti kimi bir sıra spesifik xüsusiyyətlərlə fərqlənir. Bu halda Ruçiya iqtisadiyyatının unikal məkan miqyası çox şey deyir. İqtisadiyyat tam şəkildə infrastruktur obyektlərinə (nəqliyyata, bütün rabitə növlərinə və s.) xüsusi obyektiv tələblər şəkilində

[1] *Аткинсон Э.Б., Стиглиц Дж.Э.*Лекции по экономической теории государственного сектора: Учебник / Пер.с англ. под ред. Л.Л.Любимова. М.:Аспект Пресс, 1995. С. 18-23.

yönəldilir. Lakin bu obyektlər kifayət qədər inkişaf etmiş deyillər və kapital resurslarına böyük tələbatlar mövcuddur.

Spesifik bazar infrastrukturu çox az inkişaf etmişdir. Xüsusilə əyalətdə bazar münasibətlərinin infrastrukturlarla təmin edilməsi sahələrində «Donorlar» adını almış azlıq təşkil edən regionlar ilə və ölkənin qalan hissələri arasında iqtisadi və sosial inkişaf səviyyəsində nəhəng distansiya mövcuddur. Rusiyadı təsərrüfat fəaliyyəti üçün təbii-iqlim şəraitinin unikal mürəkkəbliyi və ölkənin böyük ərazilərində insaların məskunlaşması ilə fərqləndirilir. Nəhayət ölkədə mərkəzləşdirilmiş idarəetməyə meylliyi saxlayan güclü tarixi ənənələrin olmasını da sərf-nəzər etməmək olmaz.

Rusiya dünyada qəbul edilmiş təsnifləşdirməyə əsasən keçid iqtisadiyyatlı ölkələr qrupuna aid edilir. Artıq keçid keyfiyyətinin özü iqtisadi və siyasi proseslərə dövlət təsirində əlavə idarəetmə komponentlərinin daxil olunmasını tələb edir. Fransız alimi J. Sanir ədalətli olaraq qeyd edir ki, «Bazara keçid işini bazarın özünə həvalə etmək olmaz. Mövcud olmayan institutun üstünlüklərindən istifadə etməyə cəhd etmək olmaz»[1]. Buna həm də onu əlavə etmək lazımdır ki, Rusiyada həyata keçirilən keçid dövrü ilə güclü mərkəzləşdirilmiş-plan iqtisadiyyatından liberal-bazar iqtisadiyyatına keçid prosesi öz miqyasına və mürəkkəbliyinə görə dünya tarixinə uddialı deyildir.

Keçid prosesinin bu cür xüsusiyyətlərinə müvafiq olaraq bizdə obyektiv əhəmiyyəti olan və zəif inkişaf etmiş müxtəlif tipli obyektlərin formalaşdırılmasına yönəldilmiş *məqsədli dövlət* proqramları olmalıdırlar. Bu müxtəlif tipli obyektlərə infrastruktura, bazar institutları, səmərəli sahibkarlığın saxlanılması bazası və s. aiddir. Çətin ki, onlar ancaq bir xüsusi (şəxsi) təşəbbüs əsasında formalaşsın.

XX və XXI əsr astanasında Rusiyada qurulmuş iqtisadiyyat qapışıq iqtisadiyyat sinifinə aiddir. Burada şəxsi (xüsusi) sahibkarlıq dövlət təsiri və tənzimlənməsi ilə vəhdət

[1] *Canup Ж.* Структурные аспекты реформы / Мировая экономика и международные отношения. 1992. № 12. С. 64

təşkil etməyə bilməz. O, mülkiyyətinin tipinə görə müxtəlif təsərrüfat ukladlarından ibarətdir. 1991-ci ildən aparılan islahat dövründə istehsal vasitələrinə ictimai (dövlət) mülkiyyətə hakim ukladın xüsusi çəkisində sahibkarlığın payının artırılmasından ibarət digər ukladlara transformasiya prosesi yer almışdır. ÜDM-istehsalında qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi, 3/4 hissəyə çatmışdır, islahata qədər isə o, 1/10-u təşkil edirdi. Xüsusi sahibkarlıq ukladının payının əhəmiyyətli şəkildə artması kəskin ümumi iqtisadi tənəzzül şəraitində baş verirdi. Mütləq ifadədə xüsusi mülkiyyət sektorunun istehsal gücü, ictimai mülkiyyət obyektlərinin əvvəlki istehsal potensialının itkisinin ödənilməsi üçün kifayət deyildir. Xüsusi və korporativ mülkiyyət sektoru iqtisadiyyatın real sektorunun inkişafı ilə zəif əlaqədə olan maliyyə biznesində mərkəzləşmişdi. (cəmləşmişdi). 2000-ci ilin məlumatlarına görə 1990-ci ilə nisbətən Rüsiyanın ÜDM-i 59 %-dən, sənaye istehsalı 54,3%-dən, k\t istehsalı 61,2%-dən və 27,3 % əsas kapitala investisiyalar aşağı səviyyədə olmuşur.

Rusiya iqtisadiyyatının çoxukladlığı və qarışıq xarakterliyi bazar, kooperativ və dövlət tənzimlənməsinin ziddiyyətli vəhdətini doğurmuşdu. Assosiasiyalı mülkiyyətin müxtəlif formalarının rolu, xüsusilə təsərrüfatçılığın müxtəlif səhmdar formalarının rolu artmışdır. Müxtəlif fondlar şəklində: sığorta, pensiya, qarşılıqlı-investisiya və s. təsərrüfat strukturları daha çox yaranmışdır. Lakin səmərəli qarışıq iqtisadiyyatda onun hər bir sektoru iqtisadi və sosial səmərəliliyin tələblərinə müvafiq olaraq cəmiyyətin tələbatlarının ödənilməsində öz yerini tutmalıdır. Bunun özü məhz qarışıq iqtisadiyyata çeviklik və dinamizm verir.

Qeyd edək ki, Rusiyada dövlət ukladının potensial rolu ÜDM-in istehsalında dövlət mülkiyyətinin obyektlərinin kəmiyyət payından çox yüksəkdir. Bu istehsal obyektlərinin çoxunun kifayət qədər yüklənməməsilə bağlıdır. Bu ki, yaxşı tərəfə çevirməküçün optimal iqtisadi siyasətin, eləcə də çoxlu sayda səhmdar cəmiyyətlərində dövlətə məxsus mülkiyyət pakentinin nəzərə çarpacaq hissəsinin çox olması halında

mümkündür. Bundan başqa dövlət orqanlarının təsiri, faktiki olaraq çoxlu sayda iri sahibkarlıq strukturlarının qurulması və sonrakı talelərində həlledici amil kimi qalır. Bir çox oliqarxlar dövlət strukturlarına yaxınlıqlarından istifadə edərək öz kapitallarını artırdılar. Beləliklə, Rusiya şəraitində dövlətin iqtisadi rolu bir çox parametrlərinə görə ilk baxışdan görsənənə nibətən daha nəzərə çarpacaqdır. Bununla da razılaşmamaq olmaz. Dövlətsizləşdirmədən öz **xəbis** məqsədləri üçün istifadə edərək, iqtisadi münasibətlərin mənfi nəticələrə gətirib çıxaran bürokratikləşdirilməsı ehtimalı vardır. Buna görə də iqtisadiyyatın səmərəli liberallaşdırılması və əksinə bürokratikləşdirilməsi siyasətinin yeridilməsi vacibdir.

2. Dövlət tənzimlənməsinin müasir vəzifələri

İqtisadiyyatın tənzimlənməsi zamanı hökumət tərəfindən yerinə yetirilən vəzifələr toplusu həm müasir bazar sisteminin fəaliyyətinin ümumi qanunauyğunluqları, həm də ölkənin müəyyən dəqiq tələbatları, şəraitilə müəyyən edilir. Müasir Rusiyaya tətbiqən, iqtisadiyyatın dövlət tənzimlənməsi gedişində həll edilən üç iri ümumiləşmiş vəzifələri xüsusi şəkildə ayırmaq olar. Birinci, millətin rifah halının və sosial işkişafının yüksəlməsinə xidmət edən sabit iqtisadi artımın təmin edilməsi. İkincisi, ölkənin iqtisadi sisteminin, institutlarının məhsuldarlığının və çevikliyinin yüksəldilməsi məqsədilə bu iqtisadi sistemin səmərəli şəkildə yenidən qurulması (təşkil edilməsi). Üçüncü, xarici iqtisadi münasibətlərdə milli maraqların qorunması.

Bu vəzifələrin birincisi əsasən müəssisə, firma, korporasiyaların qüvvəsilə yerinə yetirilir. «İdeal» bazar şəraitində o, nəzəri şəkildə dövlətin iştirakı olmadan da reallaşa bilər. Lakin artıq qeyd edildiyi kimi, müasir bazar, dövlət iqtisadiyyatı olmadan fəaliyyət göstərə bilməz. Sabit və sosial yönümlü iqtisadi artımın əldə edilməsi üçün ümümmilli miqyasda tam iqtisadi siyasət lazımdır. Bu təsərrüfatçılıq subyektlərinin iqti-

sadi maraqlarına təsir edən dövlət institutlarının adekvat olaraq konstruksiya edilməsini və təkmilləşdirilməsini nəzərdə tutur. Cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb edən istiqamətlər üzrə dövlət sifarişlərinin və milli investisiya layihələrinin reallaşdırılması da nəzərdə tutulur. Bu gün Rusiya kimi bir ölkədə iqtisadi siyasət innovasiya yönümlü olmalıdır. Bu elmin, təhsilin və innovasiya sahibkarlığının dövlət tərəfindən dəstəklənməsi üzrə xüsusi təbdirləri tələb edir.

İkinci vəzifə – ölkənin iqtisadi sisteminin transformasiyasıdır. Müəyyən mənada onu birincinin başqa cür (digər) ifadəsi kimi də qiymətləndirmək olar. Bu onu nəzərdə tutur ki, özünün transformasiyası gedişində sistem sabit iqtisadi artıma yönəlmiş yüksək təsərrüfata və sosial nəticəliyə nail olur. Ölkənin iqtisadi sisteminin transformasiyası müasir və yüksək səmərəli bazar iqtisadiyyatının yaradılmasını, yüksək parametrlərlə xarakterizə edilən və dövlət tərəfindən xüsusi nəzarət tələb edən genişmiqyaslı (dairəli) islahatçı hərəkətləri (fəaliyyəti) nəzərdə tutur. Bu vəzifə blokunda həlledici mənaya, yüksək səmərəli iqtisadiyyat üçün zəruri olan bazar institutlarının formalaşdırılması, dövlət idarəetmə sisteminin yenidən təşkil olunması və təkmilləşdirilməsi malikdir.

Üçüncü vəzifə – xarici iqtisadi siyasətdir. Bu, dövlət tərəfindən ölkənin iqtisadi sisteminin xarici dünya ilə münasibətlərə müstəqiliyinin və identik olmasının dəstəklənməsilə bağlıdır. Məlumdur ki, müasir beynəlxalq iqtisadi münasibətlər qloballaşma ruhu ilə doludur. Milli iqtisadi maraqlar transmilli kapitalın maraqlarının güclü təzyiqi altında ikinci və hətta üçüncü plana çəkilə bilər. Lakin TMK və beynəlxalq kapital da özü-özlüyündə millidir. Onlar özlərinin aid oldüğü ölkənin prioritetlərini və ya ölkə qruplarının inteqral maraqlarını ifadə edirlər və adətən bunlar dünyanın ən inkişaf etmiş ölkələridirlər. Buna görə də xarici iqtisadi münasibətlərdə ölkənin milli maraqlarını müdafiə etmək öz əhəmiyyətini itirməmişdi. O, daha mürəkkəb və çox şaxələnmişdir. Lakin Rusiya çox uzun müddət xarici iqtisadi əlaqələrə dövlət inhisarı və daxili iqtisadiyyatın miqyası ilə müqayisədə nisbi məhdudiyyəti

şəraitində yaşamışdi. İndi isə Rusiya iqtisadiyyatının qlobal dünyaya demək olar ki, tam açıqlığı şəraitində dövlət tənzimlənməsi strateji əhəmiyyət kəsb edir. Bu milli təhlükəsizliyin bir çox potensial təhlükələrdən dəf edilməsilə bağlıdır. Dövlət tənzimlənməsinin yuxarıda sadalanan üç başlıca vəzifəsi sıx şəkildə vəhdət təşkil edir və bir-birlərini tamamlayırlar. Onlar islahatlar dövrünün nəticələrindən çıxış edərək əsas problem kimi, ölkənin iqtisadi sisteminin yenidən qurulması və yenidən təşkil edilməsinin strategiyası və taktikası ətrafında firlanırlar.

3.Rusiyanın iqtisadi sisteminin transformasiyası

XX əsrin 80-cı illərinin ən mühüm hadisəsi Rusiyada, Sovetlər İttifaqında iqtisadiyyat və cəmiyyətinin qarşılaşdığı ağır ziddiyyətlər toplusunu üzə çıxartdı. İqtisadi artımın templəri kəskin şəkildə aşağı düşmüşdü. Müəssisələr və idarəetmə strukturu durğunluq dövrünü keçirməyə başladılar və ETİ-i tələblərinə cavab vermədilər. Məhsulun böyük bir hissəsi xarici iqtisadi standartlara görə rəqabət qabiliyyətinə malik deyildi. Ticarətdə demək olar ki, bütün əmtəə qrupları üzrə kəsir problemi son həddə çatmışdı. Əhalinin həyat səviyyəsi kəskin aşağı düşmüşdür. M.Qorbaçovun təşəbbüsü ilə iqtisadiyyata əvvəlki əsaslarla «sürətləndirmə»nin verilməsi, cəmiyyətin «yenidənqurulmasının» uğursuz cəhdləri baş verdi. Buna görə də Sovetlər İttifaqının dağılması və Rusiyanın və SSRİ-yə daxil olan ittifaq respublikalarının müstəqil dövlətlərə çevrilməsindən sonra cəmiyyətdə və iqtisadiyyatın inkişafının əvvəlki konseptual bazasından (radikal) köklü şəkildə geriçəkilmə ideyası üstünlük təşkil etməyə başladı. Hərtərəfli mərkəzləşdirilmiş planlı idarəetmədən, ümummilli sosialist mülkiyyətinin hökmranlığından və s. imtina edildi.

Rusiya, digər postsovet ölkələri, Şərqi Avropa blokuna daxil olan keçmiş sosialist ölkələri iqtisadi və siyasi sistemin transformasiyası rolunu seçdilər. Onlar dünyanın bir çox inkişaf etmiş ölkələrində çox əsrlik təcrübə ilə təkmilləşmiş təsərrü-

fatçılıq modelinə meylli oldular. «Tranformasiya» termini postsosialist ölkələrindəki məkanda baş verən radikal islahatları bildirirdi. Onların ən ümumi meyli dünyanın əsas ölkələrinin təcrübələrinə müvafiq olan mükəmməl bazar iqtisadiyyatını yaratmaq cəhdi olmuşdur.

İqtisadi sistemin yenidən təşkilinin real təcrübəsi layihə və ilkin fikirlərdən (nəzərdə tutulanlardan) daha mürəkkəbdir. «Bazar islahatları» eyforiyasının tənəzzülündən sonra gələn islahatçı hərəkətlərin və uyğunsuzluqların hərtərəfli sistemli təhlili göstərdi ki, Rusiyada və bir çox digər ölkələrdə transformasiya əvvəlcədən işlənilib yoxlanılmış layihələrin olmaması şəraitində başlanmışdı. İqtisadi transformasiyanın məzmununun daha dərindən tətqiqinin aparılmasına tələbat meydana çıxdı. Başlıca problemi iqtisadi sistemin hərəkətverici qüvvəsinin, strategiyasının və dəyişmə mexanizminin elmi cəhətdən müəyyən edilməsindən ibarət idi.

İqtisadi transformasiya terminin öz məntiqinə görə iqtisadi sistemin, cəmiyyətin tələbatının daha yaxşı ödəməyə imkan verən yeni hala (vəziyyətə) keçirilməsini bildirir. Həyat göstərdi ki, bu proses çox uzun müddətlidir, buna görə də transformasiya strategiyasının işlənilib hazırlanmasına, yəni onun məqsədlərinin dəqiq (düzgün) müəyyən edilməsinə, elecə də onlara nail olmaların vasitə və mexanizmlərin müəyyən edilməsinə ehtiyac duyuldu. Həm də malik olunan məhdudiyyətlər haqda açıq-aydın təsəvvür də vacibdir.

Transformasiyaların məqsədlərinin necə formalaşması ümdə sualdır. Ən başlıca şərt- *məqsədlərin konkret inkişafın tələbatlarına müvafiq (uyğun)* olmasıdır. Onlar həm də cəmiyyət üçün də aydın olmaqla, onun üzvlərinin əksər hissəsinin maraqlarına uyğun gəlməlidir. Bu cür məqsədlər kriterial olmalıdır yəni, kəmiyyət və keyfiyyət qiymətləndirilməsinə cavab verməlidir. Onları vaxt üzrə dəqiq düzmək və malik olunan vasitələrlə əlaqələndirmək lazımdır. Strategiyanın məqsədlərinə nail olmaq isə *məkan* xarakteristikasına aydın bağlılığına söykənməlidir, yəni regional – ərazi kəsiyində işlənilib hazırlanmalıdır.

İqtisadi transformasiyanın həm müəyyən edilməsində və həm də reallaqdırılmasında reyri-kriterial məqsədlərin çıxılmaz dairəsinə düşməyin real təhlükəsi mövcuddur. Rusiyada iqtisadi islahatların ilkin mərhələlərində məhz belə idi. Məqsəd kimi «bazarın yaradılması» və «bazar iqtisadiyyatı» elan edilmişdi. Lakin bu məqsəd ola bilərmi? Bazar iqtisadiyyatı bir çox əsrlər boyu mövcuddur və davamlı təkamüldədir. Və özü-özlüyündə «bazar» anlayışı heç bir iki mənalı deyildir. Qərb iqtisadi bazarının ən tipik ifadəsi aşağıdakılardır:

«Bazar – elə şərtlərin məcmusudur ki, onların sayəsində əmtəə və xidmətlərin alıcı və satıcıları bu əmtəənin (xidmətin)[1] alışı və satışı məqsədilə bir-birlərilə əlaqəyə girirlər». Bu sujetin davam etdirilməsindən əvvəl bazar təsərrüfatının əsas mərhələlərini qiymətləndirək. Müəyyən mənada keyfiyyətcə xüsusi modelləri.

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemləri aşağıdakı tarixi mərhələlərdən keçmişdi.

1. **AZAD RƏQABƏT DÖVRÜ**. Onun nə vaxt başlanması və kifayət qədər xalis şəkildə mövcud olması haqda fikir söyləmək çətindir. Ancaq onu qeyd edək ki, azad rəqabətə əsaslanan «xalis» kapitalizmin formalaşması çox uzunmüddətli olmuşdur. Buna inanmaqdan ötrü klassik burjua siyasi iqtisadının banilərinin yaşadığı dövrə fikir vermək kifayətdir: U.Petti (1623-1687), A.Smit(1723-1790), D.Rikardo (1772-1823-cü) illərdə yaşamışlar. Göründüyü kimi U.Petti və A.Smit arasından 100 il və A.Smit və D.Rikardo arasından 50 il keçmişdir.

İqtisadiyyatda azad rəqabət daima məhdudiyyətlərlə (çox vaxt əhəmiyyətli, nəzərə çarpacaq) müşayiət olunurdu. Bu məsələ üzrə P.Samuelson qeyd etmişdi ki, azad rəqabət hamı üçün yaxşıdır, lakin heç vaxt sınaqdan keçirilməmişdi.[1] Həmişə nə isə onu; ya feodalizmin qalıqları, ya müxtəlif şəkildə dikta-

[1] *Фишер С., Дорнбуш Р., Шмалензи Р.* Экономика 2-е изд. / Пер. с англ. М.: «Дело ЛТД», 1993. С. 778

[1] Самуельсон П. Экономика. Вводный курс. М.: Прогресс, 1964. С.55.

turalar, ya müharibələr, yadakı, sosial təzyiqlər məhdudlaşdırmışdır.

2. **KÜTLƏVİ İSTEHSAL DÖVRÜ.** Bu o dövr idi ki, bütün iqtisadi münasibətlər sistemində tərzi *istehsal fazası* verirdi. Məhsullar daxili görünüş fərqlərdən əhəmiyyətli dərəcədə məhrum idi və hər bir yeniliklər özünün istehlak və konstruksiya keyfiyyətinə görə uzun müddət istehlakçıların ehtiyaclarına uyğun idi. Rəqibə qarşı başlıca silah istehsal xərclərinin aşağı salınması idi. Kütləvi istehsal dövrünün ən xarakterik nümayəndələrindən biri Qenri Ford idi. Onun ən uğurlu nailiyyəti konveyirin köməyi ilə buraxılan ucuz və çoxlarının imkanı daxilində olan avtomobil olmuşdur. ABŞ-da kütləvi istehsal dövrü öz başlanğıcını XIX əsrin 20-30-cü illərindən götürür. Onun qurulmasına vacib impulsu əvvəlcə kanallar sistemlərinin formalaşması, sonra isə dəmir yollarının ümumimilli sistemi olmuşdur. Belə hesab edilir ki, 80-90-cu illərdə bu Ölkədə kütləvi istehsal üçün infrastruktur formalaşmışdı. Məhz bu dövrlə kapitalın təşkilinin tipik forması kimi *firmaların (korporasiyaların)* meydana gəlməsilə əlaqələndirilir.

3. SATIŞ DÖVRÜ «Kütləvi istehsal» yerinə təqribən XX əsrin 30-cu illərinin başlanğıcında gəlmişdi. Bu dövr üçün məhsulların sürətli diferensasiyası, istehlakçı uğrunda mübarizənin aktivləşməsi xarakterikdir. Belə demək olar ki, bilavasitə bazarla əlaqəli olan təkrar istehsal fazalarının «ulduz saatı» başlandı. Belə hesab edilir ki, ABŞ-da «Ceneral Motors» korporasiyası istehsal fazasından tədavül fazasına, bazarın təqqiqatına keçən birinci şirkətdir. Keçmiş üçün xarakterik olan sabit istehlakçıdan ötrü işdən, yeni istehlakçıların daimi axtarışı və bazarda öz yerinin formalaşdırılması sisteminə keçidə qədəm qoydu. Buradan biznesin yeni konsepsiyasının və funksiyasının başlanğıcı götürülür ki, bu da *marketinq* adını aldı.

4. **POSTİNDUSTRİAL DÖVR** inkişaf etmiş ölkələrdə təqribən 50-ci illərin ortalarından başlayaraq iqtisadi və sosial prosesləri əhatə edir. İqtisadiyyatın sistem meylliyini dəyişən başlıca amili əsrin ortasının *elmi-texniki inqilabı olmuşdur*. O, istehsalda istifadə edilən texnologiyanın aktiv şəkildə dəyiş-

məsini doğururdu. Şübhəsiz ki Rusiyanın iqtisadi sisteminin transformasiyanın məqsədləri *bazarın postindustrial modelenin* parametrlərinə çatdırılmasıdır. Lakin məqsədin bu cür konkretləşdirilməsi də kifayət deyildir. O, cəmiyyətin tələbatı ilə bağlı olaraq silinmiş olur. O, çərçivəli, istiqamət zəmini kimi çıxış edə bilər.

Gördüyünüz kimi, ölkənin iqtisadi sisteminin transformasiyasının məqsədləri iqtisadi institutların yenidən təşkil edilməsinin xüsusiyyətlərının köməyilə tükənmiş şəkildə ifadə edilə bilməz. Eyni bir institutlar, təsərrüfatçılıq və idarəetmə formaları bir şəratdə çox səmərəli ola bilər və digər şəraitdə (şərtlər daxilində) tamamilə faydasız və hətta ziyanlı və təhlükəli ola bilər. Buna görə də iqtisadi islahatların həyata keçirilməsi zamanı digər ölkələrdə qurulmuş modellərin birbaşa tətbiqinə meylli olmaq (aludə olmaq) olmaz. İqtisadi transformasiyanın məqsədələri iqtisadi sistemin cəmiyyətin tələbatlarına səmərərəli cavab vermək qabiliyyəti aspektində yenidən təşkil edilən iqtisadi sistemin məhsuldarlığının komponentlərini daşınmalıdırlar.

Buna görə də iqtisadiyyatın transofrmasiyasının meyarları ölkənin sosial-iqtisadi inkişafının meyarları ilə üst-üstə düşməlidir. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə hökumət özünün iqtisadi sistemində aşağıdakı məqsədlər toplusunu bu və ya digər tərkibdə (vəhdətinə) əldə edilməsinə can atır: 1) iqtisadi artım; 2) tam məşğulluq; 3) iqtisadi səmərəlilik; 4) sabit qiymət səviyyəsi; 5) iqtisadi azadlıq; 6) gəlirlərin ədalətli bölgüsü; 7) iqtisadi təminolunma; 8) ticarət balansı.[1]

İqtisadi transformasiyanın son məqsədlərinin onların əldə edilməsi vasitələrilə və ya qeyri kriterial şüarlarla əvəz edilməsinin qarşısını almaqdan ötrü *geniş təkrar istehsalın* iqtisadi tələblərini əldə rəhbər tutmaq vacibdir. Yada salaq ki, iqtisadi nəzəriyyə terminlərində ölkənin sabit iqtisadi inkişafı prosesi geniş təkrar istehsalın real şəkildə həyata keçirilməsindən

[1] К. Макконелл, С.Брю. Экономикс: принципы, проблемы и политика. М.: Республика, 1992. С.23-24.

başqa bir şey deyildir. Təkrar istehsal prosesi istehsal, bölgü, müqabilə və istehlak fazalarının elə ardıcıl və fasiləsiz fəaliyyətini göstərir ki, bu zaman təkrar istehsalın yeni tsikli öz inkişafının daha yüksək dərəcəsinə keçmiş istehsaldan başlayır. Bu sonradan cəmiyyətin tələbatlarının ödənilməsinin daha yüksək səviyyəsini təmin edir. Bir çox inkişaf etmiş ölkələrdə XX əsrin ortalarından başlayaraq geniş təkrar istehsal prosesi *iqtisadi inkişafın innovasion tipinin* təzahürü oldu, təkrar istehsalın özü isə innovasiyon adlanmağa başladı. Bu cür təkrar istehsalın hər bir yeni tsikli istehsala, onun səmərəliliyinin səviyyəsini yüksəldən elmi-texnoloji innovasiyaların tətbiqilə müşayiət edilirdi. Faktiki olaraq iqtisadi inkişafın innovasiya tipi şəraitində təkrar istehsal prosesi istehsal fazasından başlanmır, təkrar istehsalın elmi hazırlıqlı fazasından başlanır.



Sxem 1. Müasir geniş təkrar istehsal prosesinin fazaları

Təkrar istehsalın elmi hazırlığı miqyası elmi axtarışların hərtərəfli marketinqi konstruksiya və texnoloji işləmələrin, sınaq işlərinin (geniş mənada ETİTKİ) vaxtında aparılmasını nəzərdə tutur. Bu, sahibkarlara öz məhsullarına yüksək rəqabət qabiliyyətliyini təmin edərək istehsalı innovasiyalı təminatlı vəziyyətdə saxlanılmasına imkan verir. Müasir bazarın lider müəsisələri təkrar istehsalın elmi hazırlığına miqyasca adi kapital quruluşları ilə müqayisəli ölçü bilən resursları daxil edirlər. Ümumən isə inkişaf etmiş ölkələrdə elmin inkişafına ÜDM illik həcminin 3-4% yönəldilir. Təkrar istehsalın xarakterinə əhalinin təhsil səviyyəsi də az təsir etmir. İnkişaf etmiş ölkələrdə buna da ciddi diqqət yetirilir.

Geniş təkrar istehsalın verilmiş sxemi iqtisadi sistemin təkmilləşdirilməsinin istiqamətlərini, meyyarlarının və başlıca hərəkətverici qüvvəsinin dəqiq göstərilməsinə imkan verir. Sistemin təkmilləşdirilməsi meyyarı ölkədə xalqın istehlak səviyyəsini xarakterizə edən parametrlər sahəsində yerləşdirilir. Cəmiyyətin üzvlərinin tələbatları, geniş təkrar istehsal prosesi fazalarının zəncirvari olaraq mütərəqqi transformasiyanın başlıca hərəkətverici qüvvəsini bildirir.

Bu istiqamətdə hərəkətin başlıca mənbəyi - elm və innovasiya əsasında istehsalın inkişafıdır. Səmərəli bölüşdürücü proseslərdə, mübadilənin təkmilləşdirilməsi də çox vacibdir. Lakin onlar yekun olaraq rifah halı səviyyəsini ancaq istehsala, elm və texnologiyanın inkişafına təsir həddi üzrə artıra bilər. Təssüflər olsun ki, Rusiyada məhz radikal bazar islahatları dövründə elm və texnologiyaya iqtisadi və sosial inkişafı amillərinə kimi diqqət kəskin şəkildə azalmışdı.

Rusiya Federasiyasının uzunmüddətli perespektivə hökumət tərəfindən qəbul edilmiş sosial-iqtisadi inkişafının əsas istiqamətlərində idqisadiyyatın moderləşdirilməsi vəzifəsi qoyulmuşdu. Bu, daha iki vəzifə ilə: cəmiyyətdə yeni sosial kontraktın qurulması və hakimiyyət islahatının həyata keçirilməsinin qarşılıqlı vəhdəti şəklində həyata keçirilməlidir. Layihələşdirilmiş modernləşdirmə tədbirləri arasında əlverişli investisiyon və sahibkarlıq mühütünün yaradılması, artımı əvvəlcədən görünə bilən və stimullaşdırılan makroiqtisadi siyasətin aparılması, iqtisadiyyatın struktur yenidənqurulmasının həyata keçirilməsi və s. qeyd olunur. Struktur yenidənqurma, xüsusi halda aşağıdakıları nəzərdə tutur; qeyri-səmərəli müəssisələrə dəstək siyasətindən infrastrukturanın inkişafına keçid; işçi qüvvəsinin mobilliyinin təmin edilməsi; yeni sektorlara innovasiya və informasiyada dəstək; müəsisisələrin, təbii inhisarların restruktursuyasının - yenidən strukturlaşdırılması və yenidən formalaşdırması; sonrakı özəlləşdirmənin iqtisadiyyatın struktur yenidənqurulmasına istiqamətlənən emaledici sahələrin, xüsusilə yüksək texnoloji məhsulların yavaş-yavaş

yüksəldilməsilə ixracatın diversifikasiyasının stimullaşdırılması.

Tədbirlər yığımı kifayət qədər tutumlu və ağlabatandır. Lakin onun nəticəliyi iqtisadiyyatın səmərəli iqtisadi artıma və ümumən xalqın rifah halının yüksəldilməsinə yönəldilmiş innovasiyon proseslərlə doldurulması və modernləşdirilməsinin həqiqəti nə dərəcədə əks etdirməsindən asılı olacaqdır.

Ölkənin iqtisadi sisteminin sonrakı transformasiyası strategiyasının onun digər məhsuldarlığı ilə üzvü əlaqəliyi iqtisadiyyatın səmərəliliyi probleminin hərtərəfli işlənib hazırlanmasını və dəqiq şəkildə başa düşülməsini tələb edir.

4. Transformasiyanın sosial - iqtisadi səmərəliliyi

İqtisadiyyatın səmərəliliyi çəkilən xərclərlə bağlı istehsal prosesində yaradılan və istehlakda reallaşan məqsədyönlü nəticənin əldə edilməsi üzrə münasibətlər sistemini bildirir. Səmərəliliyin müəyən edilməsi ölkənin milli təsərrüfatı səviyyəsində digər regional və sahəvi təsərrüfatçılıq sistemləri səviyyəsində, firma (müəssisə), ev təsərrüfatı, sahibkarılıq layihələri səviyyələrində həyata keçirilə bilər. Bazar mühütündə təsərrüfat sisteminin səmərəli vəziyyətinin ən geniş yayılmış variantı artıq əvvəllər qeyd edildiyi «Poreto üzrə səmərəlik»dir.

Məşhur iqtisadi nəzəriyyəçi P.Samuelson (ABŞ) qeyd etmişdir ki, iqtisadi nəzəriyyə insanlar və insanlar qrupunun indiki və gələcək tələbatlarını ödəmək məqsədilə vaxtaşırı olaraq pulun vasitəsi və onun iştirakı olmadan insanlar və cəmiyyətin nadir məhsuldar qüvvələrdən müxtəlif əmtəələrin istehsalı və bölgüsünün seçimi haqqında elmdir.[1] Burada dörd prinsipial müddəanı irəli sürmək olar. Birincisi, təsərrüfat qərarlarının qəbul edilməsi zamanı resursların qıtlığından və məhdudluğundan çıxış edilməlidir. İkincisi, istənilən iqtisadi siyasətdə mərkəzi yer resurs və məqsədlərin seçilmə probleminə

[1] *Самуэльсон П.* Указ. соч. с. 56

məxsusdur. Üçüncüsü, təsərrüfat subyektləri arasında resursların səmərəli bölüşdürülməsi xüsusi əhəmiyyət kəsb edir. Dördüncüsü, adamların nəinki indiki və həm də gələcək tələbatlarını nəzərə almaq vacibdir.

Əbədiyyatda səmərəlilik problemi firma və onların bölmələrində təsərrüfatçılığın qiymətləndirilməsinə, investisiya layihələrinin, yenilikçilərin və s. qiymətləndirilməsinə aid olan məsələlər bir çox prizmadan kifayət qədər geniş işlənilib hazırlanmışdı. Lakin o, iqtisadiyyatda iri islahatların gedişində xərc və nəticələrin qarşılıqlı müqayisə edilməsi fonunda kifayət qədər işlənilib hazırlanmamışdı. Bu cür islahatlar adətən kifayət qədər institutlar yenidən təşkil edilməsilə bağlıdır və təssiflər olsun ki, iqtisadiyyatda radikal bazar islahatlarını tövsiyə edən layihələrin çoxu ondan çıxış edir ki, bazar institutlarının özləri xərcsizdilər. Bununla belə bu heç də belə deyil. Məsələn ABŞ bazarında əmtəələrin hərəkəti zamanı əmələ gələn transaksion xərclərini (bank və maliyyə xidmətlərinə çəkilən xərclər, çığorta, topdan satış və pərakəndə satış ticarətində xərclər) götürək. D.Nort və C.Uolles bunları öyrənərək belə təyin etdilər ki, transaksion xərclərə milli gəlirin 45 %-dən çoxu aid edilir. Xüsusilə bu pay son yüz illikdə 20% artmışdır. Bu şəraitdə iqtisadi sistemlərin yenidən təşkil edilməsinin, bu və digər proqramlarının əsaslandırılmasını sözlüçülüklə arqumentləşdirmək və məhdudlaşmak olmaz. Transformasiya layihələrin və islahat tədbirlərinin zaman üzrə gözlənilən səmərəlilik qrafiklərinin, çıxılmaz xərclər qrafiklərilə müqayisə etməyə imkan verən hesablamalar tələb olunmalıır. Təbii ki, bu çox çətin işdir. Bu cür hesablamaların aparılmasının təcrübəsi kifayət qədər deyildir. Lakin transformasiya miqyasında hissiyata qapılmasına yol verilməzdir.

Layihələndirilən transformasiyon tədbirlərin əsaslandırılması, onların sosial mənası, mahiyyətinin dərk edilməsində geniş aydınlaşdırıcı işlər tələb edir. İqtisadi islahatların bütün dünya təcrübəsi onu sübüt edir ki, uğur həmişə cəmiyyət massivində islahatların ideyasının sosial uyğunlaşması ilə bağlı olan ciddi hazırlıq tədbirlərilə bağlıdır. Bunu nəzərə alaraq

Rusiyada bazar yenidən qurmasının növbəti mərhələlərində bir sıra vacib yanaşmaların reallaşdırılması faydalı olardı.

Hər şeydən əvvəl iqtisadi sistemin transformasiyası üzrə əhali üçün dərk edilə bilən qavranılan tədbirlərin, millətin rifah halının yaxşılaşdırılması ilə əlaqənin olması vacibdir. İslahatlardan yaxşılaşmalar bütün adamlara şamil edilməlidir (daha seçilmişlərə yox). Yenidən təşkilatlanma gedişatına, əhali qrupları arasında gəlirlərin səviyyəsinin diverensasiyasının yüksəlməsi deyil, azalmasını təmin etmək lazımdır. Həm də islahatların irəli sürülmüş məqsədlər ilə cəmiyyətin çox hissəsinin əməyinin motivizasiyası ilə kifayət qədər aşkar əlaqə də tələb olunur. Cəmiyyətin maksimal hissəsinin islahatların aktiv yaradıcı qüvvəsinə çevirməkdən ötrü bu məqsədlərin insanlar tərəfindən ən azı başa düşülməsini təmin etmək lazımdır.

Cəmiyyətdə belə bir abu-hava hökm sürməlidir ki, xalqın elmi-yaradıcılıq imkanlarının möhkəmləndirilməsi – bu iqtisadi resurslardan kənara çıxılması deyil, əksinə onların çoxalmasının məcburi şərtidir. Cəmiyyətin elmi, təhsil və mədəni potensialının yüksəldilməsini iqtisadi islahatlar gedişatında maksimumlaşdırılan məqsədli funksiyanın komponentlərindən biri etmək lazımdır.

Nəhayət, istehsalatda və cəmiyyətdə bütün transformasiyaların ekoloji etfeoliti amilinin yüksəlməsinə diqqət ayrılmalıdır. Ekoloji tarazlığın bir sıra dayanıqlığının maddi tələbatın ayrı-ayrı parametrlərinin aşağı düşməsi zəruriliyinin adamlar tərəfindən başa düşülməsi - uğurlu islahatların vacib şərtlərindən biridir.

İstənilən ölkənin institutusional formalarının yenidən təşkili ümumdünya proseslərdən kənar qurula bilməz. İndi qlobal qarşılıqlı əlaqənin hər bir konkret region və dövlətdə sosial və iqtisadi həyatın xarakterinə təsiri güclənir. Bu həm də təbiətin mühafizəsinin parametrlərinə, həm texniki-texnoloji standartlara və texnoloji xarakterinə aiddir. Transformasiya proseslərin qlobal qarşılıqlı əlaqəsi sosial amillərinə nəzarət istənilən yenidənqurmanın daha vacib şərtinə çevrilir.

Suallar və tapşırıqlar

1. Dörd əsas anlayışın mənasını nəzərə alaraq iqtisadi siyasətin qısa şərhini verin. (Ölkənin təsərrüfat sisteminə tətbiqən: məqsədlər, vasitələr, vaxt, məkan).
2. «Bazarın formalaşdırılması (Rusiyada) – bu məqsəddir yoxsa iqtisadi strategiyanın reallaşdırılması?
3. Bazar təsərrüfatının mövcudluğunun (modelləri) təbii tarixi təkamülünün əsas mərhələlərini ardıcıllıqla düzün: satış mərhələsi, postindustrial mərhələ, azad rəqabət mərhələsi, kütləvi istehsal mərhələsi.
4. Aşağıdakı anlayışlarda buraxılmış sözləri yerinə qoyun. «Poretoya görə səmərəlilik» o vəziyyətə uyğundur ki, onda resursların bölgüsünü dəyişmək mümkün deyildir. Belə ki, təsərrüfat subyektlərindən biri öz vəziyyətini ……, digəri isə ……. «Xalqın həyat səviyyəsinin davamlı artımının əsası ….. istiqamətlənmiş strategiyadır» (aşağıdakı sözlərdən istifadə etməklə: inflyasiyanın aradan qaldırılması; ölkənin məhsuldar qüvvələrinin yüksəlişi; dövlət mülkiyyəti obyektlərinin özəlləşdirilməsinin davam etdirilməsi; elmin inkişafı).
5. Bazar təsərrüfatında institut anlayışını konkretləşdirmək üçün hansı ifadələrdən istifadə etmək daha məqsədəuyğundur: təsərrüfat quruluşları, təşkilatlar, oyun qaydaları, idarəetmə strukturları, iqtisadi münasibətlər sistemində məhdudlaşdırıcı çərçivələr?
6. Bazar iqtisadiyyatında transformasiya tədbirlərində nə sosial orientasiya hesab olunur? Əldə olunan iqtisadi nəticədən çıxmaqla və yaxud transformasion tədbirlərin effekti?

© Кушлин В.И., 2002

III Fəsil

İQTİSADİ PROSESLƏRİN TƏNZİMLƏNMƏSİNİN DÖVLƏT MEXANİZMİ

Hər bir müasir ölkədə dövlət, hakimiyyət milli iqtisadiyyatın fəaliyyət göstərməsində və inkişafında ciddi rol oynayır. Nə bu gün, nə də retrospektivdə praktiki olaraq dövlətdən asılı olmayan bazar iqtisadiyyatını təsəvvür etmək mümkün deyil. Tarixdə belə makroiqtisadi sistem heç harda və heç bir vaxt olmayıb. İndi, bazar iqtisadi proseslərinə dövlət müdaxiləsinin zəruriliyinin səbəbləri açıqlandıqdan sonra dövlət institutlarının iqtisadiyyatda üzərlərinə düşən əsas vəzifələr işıqlandırılmışdır və müasir iqtisadiyyatda dövlətin konkret funksiyalarının, onların reallaşması mexanizmlərinin daha dəqiq təhlilinə ehtiyac duyulur. Bununla belə, qloballaşma proseslərinin təsiri altında milli iqtisadiyyatın fəaliyyətində son dövrlər olan böyük dəyişiklikləri nəzərə almaq, yeni tələblər və ziddiyyətlərin təsiri altında böyük dövlətlər qrupunda institusional sistemlərin transformasiyasının yüksək dinamizmini anlamaq lazımdır.

1. Bazar iqtisadiyyatında dövlətin ümumi funksiyaları

Çox əsrlik təcrübəni nəzərə almaqla iqtisadiyyat və cəmiyyətin idarə olunmasında kifayət qədər geniş funksiyalar sırasını göstərmək olar ki, onlar da

dövlətin vahid şəkildə sırf siyasəti səviyyəsində istənilən müasir bazar təsərrüfatında reallaşdırıla bilər. Onlardan əsaslarını qeyd edək.

1. İqtisadi fəaliyyətin hüquqi təmini. Dövlətin bu sahədə əsas funksiyalarından biri – mülkiyyət hüququnun gözlənilməsidir.
2. Pul dövriyyəsinin təşkili, pul dövriyyəsinin kütləsinin və sürətinin, valyuta məzənnəsinin, kredit münasibətlərinin tənzimlənməsi.
3. Fiskal siyasət və büdcə bölməsinin (sektorunun) tənzimlənməsi.
4. Cəmiyyətdə gəlirlərin yenidən bölüşdürülməsi (o cümlədən onun sabitliyinin, davamlılığının təmini üçün). Əsasən, dövlət sahibkarların və muzdlu əməklə yaşamaq üçün qazanan insanların şəxsi gəlirlərinin optimal nisbətini təmin etmək üçün çalışmalıdır. Bu kateqoriya şəxslərin gəlirləri arasında böyük fərq olduqda cəmiyyətdə kəskin sosial ziddiyyətlər yaranır. Kapitalist ölkələrinin təcrübəsi göstərir ki, əhalinin yalnız 5 %-ə qədəri sahibkar olmağa qadirdir. Qalanları isə muzdlu işçi olmağa üstünlük verir.
5. Kollektiv tələbləri təmin etməyə yönələn ictimai əmtəə və xidmətlərin istehsalı. Bu müdafiə təyinatlı məhsullar, yollar, kommunikasiyalar və digər infrastrukturadır. Bu vəzifələr qrupuna dövlətin elmə, səhiyyəyə və təhsilə himayədarlığını da aid etmək olar.
6. Transaksion xərclərin minimallaşdırılması. Transaksion xərclər dedikdə iqtisadi sistemin istismarı xərcləri başa düşülür.
7. Antiinhisar tənzimləmə və rəqabətin inkişafı. Kiçik və orta biznesə köməklik.
8. Eksternalilərin (xarici effektlərin) təsirinin optimallaşdırılması. Məlumdur ki, iqtisadiyyatda pul formasında ifadə olunmayan və bazarın ümumilikdə reaksiya verə bilmədiyi xarici effektlər (*externalities*) yaranır. Söhbət mənfi xüsusiyyətli xarici effektlərdən, məsələn, ətraf mühitin çirklənməsindən gedir. Müsbət xarici effektlər isə dövlət tərəfindən aktiv stimullaşdırıla bilər. Bu məqsədli xeyriyyə proqramlarının nə-

ticələrinin yalnız nəzərdə tutulanlara deyil, bütün cəmiyyətə yayılmasına aid ola bilər.

9. Məşğulluğun optimal səviyyəsinin saxlanması. İşsizliyin və ondan yaranan xərclərin minimallaşdırılması.

10. Ərazisindəki əhalinin və ölkənin köklü maraqlarına cavab verən regional sosial və iqtisadi siyasətin aparılması.

11. Dünya iqtisadiyyatında milli maraqların reallaşdırılması. Yerli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin saxlanması.

Göstərilən funksiyalar onların bölünməsi və konkretləşdirilməsi və yeni yaranan sabit vəzifələrin əlavə edilməsi hesabına genişləndirilə bilər. Dövlətin funksiyalarının konkretləşdirilməsi hər ölkə tərəfindən onun milli xüsusiyyətlərindən, inkişaf mərhələsindən və seçilmiş siyasətindən asılı olaraq həyata keçirilir.

Xüsusilə keçid iqtisadiyyatlı ölkələrdə dövlətin funksiyalarının yığımı spesifikdir. Verilən dərsliyin birinci buraxılışında, hətta, keçid dövrü üçün xarakterik olan dövlət funksiyalarına aid fəsil də verilmişdi. Onlar üç qrup - sistemi formalaşdıran, sistemi təsdiqləyən və sistemi təkraryaradan funksiyalarda qruplaşdırılmışdı.[1] Nəzərdə tutulurdu ki, onlar ölkədə bazar sisteminin yaranması, təsdiqlənməsi və təkrar istehsalı ilə bağlı vəzifələri həll edir. Bu funksiyalar bu gün də aktualdır. Lakin bu gün iqtisadi siyasətin ağırlıq mərkəzi, qeyd edildiyi kimi, onun nəticəliliyində, iqtisadi artım və sosial inkişaf parametrlərində cəmləşdirilir. Belə şəraitdə Rusiya dövlətinin hərəkətinin spesifikliyini xüsusi funksiyalar yığımında deyil, dövlətin iqtisadi siyasətinin konkret tədbirləri və vəzifələri vasitəsilə ifadə etmək daha yaxşı olar.

[1] Государственное регулирование рыночной экономики: Учебник для вузов / Под. общ. ред. В.И. Кушлина, Н.А.Волгина. М.: ОАО «НПО Экономика». 2000. Глава 1.5.

2. Tənzimləmə strategiyasında dəyişikliklər

İnformasiya və texnologiya dəyişiklikləri, dünyadakı sosial proporsiyalardakı dəyişikliklər və dünya iqtisadiyyatında qloballaşmanın təsiri nəticəsində hər bir ayrı ölkənin dövlət institutları iqtisadiyyata tənzimləyici və idarəedici təsiri reallaşdıran zaman daha az sərbəst olur. Onlar bu qeyd edilənlərin müxtəlif beynəlxalq institutların, ictimai təşkilatların, transmilli kapitalın və digərlərinin bütün iqtisadi münasibətlərinə təsiri ilə müqayisə etməlidirlər. Buna uyğun olaraq ictimaiyyətdə fəaliyyət göstərən dövlətin iqtisadiyyatda rolu və funksiyaları konsepsiyalarının dövrü olaraq yenidən dərk edilməsi baş verir.

Bu problemlə bağlı son dövrdə dünya ictimai fikrində baş vermiş ciddi dəyişikliklər fundamental sənəd sayılan «Dünya inkişafı haqqında hesabat» da (1997) qeyd olunub. O Dünya Bankının əməkdaşları tərəfindən hazırlanmış və «Dəyişən dünyada dövlət» adını almışdır. Bu materialın girişində Dünya Bankının prezidenti C.Vulfenson yazır ki, əlbəttə, dövlətin üstünlük roluna istinad edən inkişaf uğursuzluğa uğrayıb. Ancaq analoji nəticə dövlətsiz inkişafın da yekunu olacaq. Bu nəticə Liberiya və Somali kimi dövlətlərin xalqlarının yaşamış olduğu kollapsdan görünür. Tarix israrlı olaraq təkrar edir ki, yaxşı hakimiyyət firavanlığın nəticəsi olmayıb həyati zərurətdir. Səmərəli dövlətsiz nə davamlı iqtisadi, nə də sosial inkişaf mümkün deyil.

Qeyd olunan sənədin müəllifləri iki prinsipial strateji elementə diqqət yetirirlər. Onlardan birincisi dövlətin funksiyalarının onun potensialı ilə uyğunlaşdırmaqdır. Söhbət imkanlarla arzuların uzlaşdırılmasından gedir. Bir çox dövlətlər məhdud ehtiyatlara malik olmaqla həddən artıq çox iş görmək istəyir. Bu isə xeyirdən çox zərər gətirir. Ona görə də əgər dövlət məhdud imkanlara malikdirsə onun iqtisadi proseslərə müdaxilə etməsinin forma və istiqamətlərini xüsusilə diqqətlə fikirləşib tapmaq və əsaslandırmaq lazımdır.

Bu mənada inkişaf etmiş və inkişaf edən dövlətlər arasında ümumdövlət tələblərinə yönəldilən assiqnasiyaların səviyyəsində fərqlər mövcuddur. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə dövlət xərcləri ÜDM-un yarısına qədər çatdığı halda, inkişaf etməkdə olan ölkələrdə dörddə biri qədərdir. Bu fakt dünyanın müxtəlif yerlərində iqtisadiyyatın və sosial inkişafın tənzimlənməsində müxtəlif institutların rolu barədə mürəkkəb və ziddiyyətli tendensiyanın olmasını göstərir. Hər bir ölkənin potensialı çərçivəsində dövlətin funksiyalarının ardıcıllığının göstərilməsi məsələsi dövlət idarəetməsinin səmərəliliyi prinsipi kimi qiymətləndirilə bilər ki, bu da beynəlxalq siyasətin əsası ola bilməz. Bu prinsipin reallaşması dünya ölkələrini güclü (əsas prosesləri idarəedən) və zəif (idarəedilən) dövlətlərə bölünməsinə gətirib çıxarmamalıdır. Beynəlxalq təşkilatlar bu baxımdan müxtəlif ölkələrin sosial-iqtisadi və idarəedici imkanlarının tarazlaşdırılmasına imkan verən və hegemonluğa mane olan güclü kompensatorlardır.

Strategiyanın ikinci ünsürü ictimai institutların fəallaşdırılması yolu ilə dövlətin potensialının möhkəmləndirilməsi ilə bağlıdır. Bu hakimiyyətin özbaşınalığına və korrupsiya ilə mübarizə aparmağa imkan verən səmərəli norma və məhdudiyyətlərin işlənib hazırlanmasını nəzərdə tutur. İşin əsas hissəsi kimi dövlət və bələdiyyə idarəetmə orqanlarının fəaliyyətinə və sahibkarlığa yönəldilən ictimai nəzarətin müxtəlif formalarının inkişafı çıxış edir.

İctimai nəzarət bu gün ədalətli əsasda reallaşması çətin olsada belə, daha çox dünya iqtisadiyyatı sahəsindəki proseslərə aid olmalıdır. Dünya iqtisadiyyatının əsas hissəsinin istinad etdiyi transmilli kapital özünün maraqlarına uyğun olaraq dünya proseslərinə müxtəlif təsir formalarını araşdırır. Forma etibari ilə bir çox yeni beynəlxalq institutlar TMK və güclü ölkələr, onların inteqrasiya etmiş kapitalı qarşısında öz öhdəliklərinə görə gücsüzdürlər. Belə öhdəliklər beynəlxalq təşkilatların maliyyələşdirilməsi texnologiyaları, gizli lobbiləşmə faktları ilə şərtlənir. Bununla belə iqtisadi qlobalizmə ictimai əks təsir şüarı altında heç də proqressiv olmayan beynəlxalq və

regional institutlar formalaşır. Buna narkomafiya, fanatik dini təşkilatlar tərəfindən istiqamətləndirilən, terrorizmi həyat tərzi kimi təbliğ edən birlik və hərəkatlar aiddir. Belə ziddiyyətli proseslərə səmərəli beynəlxalq ictimai nəzarəti necə yoluna qoymaq olar? Bu suala cavabı ancaq əsas subyektləri müstəqil dövlətlər və onların könüllü birlikləri olan beynəlxalq qarşılıqlı əlaqənin konstruktiv təcrübəsi əsasında almaq olar. Ona görə də bazar münasibətlərinin əsas və birbaşa tənzimləyicisi kimi indi və gələcəkdə uyğun ölkələrin hakimiyyət və dövlət institutları götürülməlidir.

3. İqtisadiyyata dövlət təsirinin amilləri

Qəbul olunmuş dövlət siyasətinin uyğun demokratik əməliyyatlarının yerinə yetirilməsi məqsədi ilə hökumət iqtisadi proseslərə birbaşa və dolayı təsirin müxtəlif formalarından istifadə edir. Prof.Rayzberq B.A. bazar şəraitində dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsində aşağıdakı formalarının tətbiq edilməsini məqsədəuyğun sayır: bir sıra sahə və obyektlərin dövlət tərəfindən bilavasitə idarə edilməsi; vergi tənzimləməsi; pul-kredit tənzimləməsi – pul dövriyyəsinə təsir; büdcə tənzimləməsi - dövlət büdcəsinin vəsaitlərinin onların istifadəsi üzrə müxtəlif istiqamətlərdə bölüşdürülməsi; dövlət proqramlarının və dövlət sifarişlərinin formalaşdırılması Vasitəsilə tənzimləmə; qiymət tənzimləməsi; əmək şəraitinin, əmək münasibətlərinin, əmək haqqının tənzimlənməsi; sosial tənzimləmə (dövlət sosial sığortası daxil edilməklə); ətraf mühitin bərpası və müdafiəsinin dövlət tənzimlənməsi; məhdudiyyətlə və icazə (dövlət lisenziyalaşdırıması və s.)[1] vasitəsilə tənzimləmə.

Aydındır ki, iqtisadiyyata dövləi təsirinin formaları durğun və hər yerdə, hər zaman tətbiqə yarayan universallar deyillər. Onlar ölkənin konkret tələbatı ilə müəyyənləşirlər ki, bu tələbatların öyrənilməsinin əsasında isə iqtisadi siyasət və onun

[1] *Райзберг Б.А.* Рыночная экономика. Учебное пособие. Второе издание, доп. и испр. М., 1995. С. 220-221

reallaşması mexanizmləri formalaşır. Müasir dövlət qulluqçusu ölkənin konkret inkişaf mərhələsində iqtisadi siyasətin bu və ya digər tipinin konseptual seçimini müəyyənləşdirən forma və mexanizmlərin təsirini dərindən başa düşməlidir. O, konkret tətbiq edilən iqtisadiyyatın dövlət tənzimlənməsinin alətləri, onların rasional uzlaşdırılması haqqında dəqiq təsəvvürə malik olmalıdır. Maliyyə və pul siyasətlərində, investisiya qərarlarının əsaslandırılmasında və s. sərbəst istiqamətlənə bilməlidir.

Dövlət tənzimlənməsinin alətləri vasitəsilə təsir göstərilə bilən əsas makroiqtisadi amillərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirini sxem 2-də verilən məcmu tələbin komponentlərinin təhlili vasitəsilə izah etməyə çalışaq.

Sxemdə «gəlirlərin və xərclərin sirkulyasiya axını» məcmu tələbin verilənləri, yəni C+I+G+(X - U) bərabər kimi verilib. Start nöqtəsi kimi sonradan vergilərə, DI, S və C axınlarına yenidən bölünən milli gəlirin istehsalı çıxış edir. Burada C- istehlak; I-investisiyalar; G- əmtəə və xidmətlərə hökumət tələbi; X – ixrac ; U- idxal; S- yığım ; DI- ixtiyarda olan gəlirdir.

Birinci gözə çarpan istehsalçının əsas roludur. Məhz müəssisələr, firmalar bölgü «çevrəsi» daxilində məcmu tələbin son kütləsini əmələ gətirən milli gəlirin formalaşmasının mənbəyi kimi çıxış edir. Daha sonra cari tələbin əsas fiquru olan istehlakçı çıxış edir. Məhz o, alınmış gəlir (DI) kütləsinin çox hissəsini cari tələbə (C) yönəltməklə istehsalçıya (satıcılar vasitəsilə) məcmu tələbin əsas hissəsini elan edir. Lakin istehlakçı eyni zamanda gələcək mümkün investisiya axınlarının da ilkin mənbəyi kimi çıxış edir. Məhz burada, sxemdən göründüyü kimi, yığıma start verilir.

Ölkədə bütün iqtisadi dinamikanın və makropropoisiyaların təmini nöqteyi-nəzərindən gəlirin (DI) istehlak və yığıma bölüşdürülməsinin qiymətləndirilməsi vacib hesab edilir. Məsələn, islahatlar dövründə iqtisadi artımın əhəmiyyətli templərini saxlayan ÇXR-da iqtisadiyyatın dinamikliyinin ilkin səbəblərindən biri yüksək yığım normasının olması olub. Çində ailə yığımı ixtiyarda olan gəlirin 23 %-i həcmində olub. Müqayisə üçün Yaponiyada bu göstərici 21 %, Tayvanda 18 %, Belgiyada 16 %, Qərbi Almaniyada 13 % və ABŞ-da 8%

olub.[1] XX əsrin 90-cı illərində Rusiyada yığım siyasətində mövcud olan ziddiyyətlər nədən ibarətdir?

Rusiyada yığım normaları kifayət qədər yüksək olub. Ancaq yığımın quruluşu qərəzli olub ki, bu da gəlirlər üzrə əhalinin kəskin differensiallaşması ilə bağlıdır. Kütləfi istehlakçı üçün gəlirin xüsusi çəkisi 1990-cı ildə 49 %-dən 1997-ci ildə 23 % düşüb. İqtisadi enmə fonunda gəlirlərin yenidən bölüşdürülməsi nəticəsində iqtisadi elitanın yüksək yığım səviyyəsi ilə rusiya iqtisadiyyatının aşağı investisiya tələbi arasında disbalans yaranır. Aydındır ki, mövcud istehsal güclərinin yarısı istifadə edildiyi bir halda yenilərinə ehtiyac duyulmur. İlkin səbəb isə yerli əmtəə və xidmətlərə tələbin olmamasıdır. İstehlak yoxdur. Bel ki, əsas istehlakçının gəlirləri çox aşağı, elitanın isə gəlirləri çox yuxarıdır. Sonuncular ölkə daxilində tətbiq edilmədiyindən dollara çevrilərək küllü miqdarda xaricə çıxarılır. Bir çox qiymətləndirmələrə görə çıxarılan valyutanın məbləği ildə 15 mlrd. - dan 30 mlrd. dollara çatır. Bu isə itirilmiş tələbdir.

Digər tərəfdən, kapitalın xarici axını itirilmiş investisiyalardır. Eyni zamanda Rusiyanın makroiqtisadi sistemində ziddiyyətlərin əsas nöqtələrindən biri maliyyə institutları ilə investisiyaların birləşməsidir. Məcmu tələbin sxemindən göründüyü kimi investisiyalar makrosistemdə ümumi tələbin vacib komponentlərindən biridir. Uzun müddət heç nə ilə təsdiq edilməyən maliyyə sektorunun iqtisadiyyatın real sektorundan ayrılması müşahidə olunub. Ölkəni uzun və dərin böhrana düçar edən 1998-ci ilin avqustunda baş vermiş DQİ piramidasının süqutu iqtisadi siyasətin sadələşdirilmiş anlamına görə logik cavab idi.

İnvestisiyalara yaradıcı istiqamət vermək vacibdir. Məlumdur ki, 1990-cı ildən Rusiyada istehsal təyinatlı obyektlərə kapital qoyuluşu 1998-ci ilə qədər 6 dəfə aşağı düşüb. Bu heç bir müsbət əməllərlə izah edilə bilməz. Normal fond bazarının yaradılması üzrə fəaliyyət isə kifayət qədər olmamışdır. Məsələn, 1998-ci ilin əvvəlinə fond bazarında 40 min özəlləşdirilmiş müəssisədən yalnız

[1] *Джеффи Сакс, Уинг Тай Ву*. Повторное изучение реформ, осуществленных в Китае // Трансформация. 1996. Выпуск 7. № 3-4. С.3.

200 emitent göstərilmişdir. Qiymətli kağızların dövriyyəsinin 70%-i isə bir neçə qiymətli kağızın üzərinə düşürdü. 1998-ci ilin avqustundan sonra Rusiya real investisiyaların, xüsusilə sənayenin elm tutumlu sahəsinə stimullaşdırılması üzrə xüsusi tədbirlərin qəbulunun zəruriliyi ilə üzləşdi.

Sxemi təhlil edərək, biz əsas ziddiyyətlərdən olan maliyyə sisteminə düşən yığımın (S) investisiyaya (I) çevrilməyərək maliyyə sisteminin özünün özü üçün izolə edilmiş işləməsi amilinə çevrilməsini də müşahidə edərək qiymətləndirə bilərik. Bu zaman nəzərə almaq lazımdır ki, kompüter şəbəkələrinin ümumi texnoloji imkanları dünyanın küllü maliyyə resurslarının dünya valyuta alverçilərinin gizli strategiyasına uyğun olaraq ani yerdəyişməsinin real variantları deməkdir. Bunun zəif daxili iqtisadiyyata malik olan ölkə üçün hansı makroiqtisadi təhlükələr yaradacağını təsəvvür etmək çətin deyil.



C – istehlak *(consumption;)*
I – investisiyalar; *(investment);*
G – mal və xidmətlərə hökumətin tələbi *(government puchases);*
X – ixrac;
U – idxal;
S – əmanət *(saving);*
DI – sərəncamda qalan gəlir *(disposible income).*

Sxem 2. Məcmu tələbin tənzimlənməsi amillərinin qarşılıqlı əlaqəsi.

Sxem 2-də verilən daha iki iri amilin əhəmiyyətinə diqqət yetirmək lazımdır. Bunlardan biri məcmu tələb sistemində sabitləşdirci gücə malik olan hökumət satınalmaları (G) amilidir. Rusiyada aparılan islahatlarda onun təsiri çox aşağıdır. Hakimiyyətin əlində bazar özünütənzimləmənin çatışmazlıqlarının kompensatoru kimi transfertlər çıxış edir. Transfertlər müxtəlif əhali təbəqələri və hətta əhalinin nəsilləri arasında resursların taraz bölüşdürülməsini təmin edir.

Rusiya hökuməti və təhlilçiləri tərəfindən islahatların startında xarici iqtisadi amilin daxili iqtisadiyyata birmənalı olmayan təsiri nəzərə alınmamışdar (sxemin sağ yuxarı hissəsində göstərilən qarşılıqlı əlaqəyə bax). Qeyd edək ki, yalnız 1992-ci il üçün (islahatların birinci ili) Rusiyanın ÜDM-da xarici ticarətin payı əhəmiyyətli artıb. Belə artım lazımi hazırlıq işləri ilə müşahidə edilmədiyindən ölkə üçün bütövlükdə ciddi strateji xərclərə çevrildi.

Sirkulyasiyalı axını sxemi, əlbəttə, makrotənzimləmənin amillərinin qarşılıqlı təsir modelini tam vermir. Məsələn, müəssisələr çərçivəsində yığımlar və onların səmərəli investisiyalara transformasiyası mexanizmləri bu sxemdən kənarda qalır. Həmçinin iqtisadi inkişafın elmi-texnoloji verilənin də əlavə işlənib hazırlanmaya və əks edilməyə ehtiyac duyulur. Maliyyə və pul-kredit tənzimlənməsinin amillərinin ayrı-ayrılıqda tədqiq edilməlidir. Lakin sadələşdirilmiş sxemdə belə bacarıqsız siyasət zamanı mümkün böhran və ziddiyyətlərin əsas məqamları, həm də bazar iqtisadiyyatının tənzimlənməsi mexanizmləri və prinsipial amilləri göstərilmişdir.

4. Dövlət təsirinin səmərəliliyinin artırılması yolları

Siyasətin meylliyi və strategiyanın sabitliyinin uzlaşdırılması iqtisadiyyatın dövlət tənzimlənməsinə qoyulan ümumi və ən zəruri tələblərdəndir. Lakin bunun özü dövlət aparatının iş səviyyəsindən çox asılıdır. Ağıllı hakimiyyət sahibkarlıq enerjisinin azad edilməsi üçün yüyəni

buraxa bilir. Lakin o həm də sahibkaraların sosial nəzarəti itirdikləri zaman eqoist davranışının dayandırılması üçün xüsusi səyin tələb edilməsini də bilir. Bir sözlə iqtisadiyyatda dövlətin rolu bir dəfə verilən və həmişəlik ola bilməz. O, ölkənin tarixinin konkret kontekstində çoxlu sayda amillərin təsiri altında dəyişir.

Müasir mərhələdə iqtisadiyyatın dövlət tənzimlənməsinn mexanizmlərinin işlənib hazırlanmasında təhlilçilər tərəfindən qeyd edilən bir sıra meyl və prinsiplərini nəzərə almaq zərurirdir.[1] Bu hansı meyl və prinsiplərdir?

Aparıcı amillərdən biri dövlətin *səmərəliliyidir*. Səmərəli dövlət təkcə əmtəə və xidmətlərin istehsalı üçün deyil, həm də bazarların inkişaf etməsinə, insanların sağlam və xoşbəxt həyat sürmələrinə imkan verən institut və qaydaların yaradılması üçün zəruridir. Bu zaman dövlətin artan təsiri üstünlüyü dövlət təsirinin kəmiyyət aspektindən *keyfiyyət* aspektinə keçməsinə verir. Bu gün əsas kimi dövlətin hakimiyyətinin həcmi və iqtisadiyyata müdaxiləsinin genişliyi götürülmür. Əsas *tənzimlənmənin səmərəliliyi* və əhalinin tələblərinin əks edilməsi dərəcəsidir.

Hal-hazırda dövlət ölkənin iqtisadi və sosial inkişafının mərkəzində bilavasilə artımın mənbəyi kimi deyil, şərik, katalizator və köməkçi kimi durur. Kollektiv tədbirləri səmərəli həyata keçirmək və təbliğ etmək imkanı kimi təyin edilən dövlət potensialına xüsusilə diqqət yetirilir. Ona görə də insanların tələblərinə daha həssas reaksiya verməyə çalışan dövlət əhalinin idarəetmədə iştirakını artırmağa, yerli orqanlara daha çox hakimiyyət verməyə çalışır.

Dövlət institutlarının səmərliliyinin artırılması üçün bir çox hallarda Böyük Britaniyanın təcrübəsindən göründüyü kimi fəaliyyət sferalarında rəqabət şəraitinin yaradılması faydalıdır. Bu zaman xüsusi rəqabət növü – əhalinin tələb-

[1] Государство в меняющемся мире: Отчет о мировом развитии 1997 / Пер. с англ. Всемирный банк: Агентство экономической информации «Прайм – ТАСС», 1997.

lərinin daha yaxşı ödənilməsi nəzərdə tutulur. O, istehlakçıya xidmətlərin özəl və dövlət təchizatçıları arasında seçim etmək imkanı verir.

Dövlət institutlarının fəaliyyətinin yaxşılaşdırılması dövlət qulluqçularının əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi və stimullaşdırılmasından çox asılıdır. Dövlət qulluqçularının əmək haqqının optimal artırılması korrupsiya ilə mübarizədə əhəmiyyətli vasitədir, belə ki, dövlət qulluqçuları «qaydalar üzrə oynamaq» üçün əlavə stimul alır.

Bu problemin əsas tərəflərindən biri dövlət qulluqçusunun işinin iqtisadi cəhətdən maraqlı olmasındadır. Digər (və ən çətin) tərəfi dövlət qulluqçusunun stimullaşdırılması - onun əməyinin səmərəliliyi ilə dövlət aparatının işinin səmərəliliyi arasında əlaqənin yaradılmasıdır. Bəzi mütəxəssislər dövlətin vəzifəli şəxslərinin əmək haqqlarının səviyyəsi ilə ölkənin iqtisadi və sosial dinamikasının göstəricilərini əlaqələndirməyi təklif edir. Lakin konkret personanın səyləri və milli təsərrüfat səviyyəsində iqtisadi nəticələri arasında çox laylı ardıcıllığın olduğu halda bunu necə etməli? Aydındır ki, bu hələ yerinə yetirilməsi mümkün olmayan, lakin aktiv işlənməsi lazım olan problemdir. Eynilə həlli çətin olan, lakin aktual hesab edilən dövlət idarəetməsində kommersialaşma imkanları məsələləridir.

Göstərilən təkliflər Dünya Bankının ekspertlərinin dünyanın müxtəlif ölkələrinin konkret dövlətlərin potensialına uyğun bazar münasibətlərinə institusional müdaxiləsi üzrə təcrübəsinin ümumiləşdirilmiş nəticələridir. Onlar, əlbəttə, son instansiyada həqiqət deyil. Onları, ölkənin real şəraiti nəzərə alınmaqla, yalnız yaradıcılıq əsası kimi götürmək olar. Rusiyanın iqtiadi sistemin yenidən yaradılması və dövlət idarəetməsinin modernləşdirilməsi təcrübəsində ölkənin və onun yenidənqurulmasının idarə edilməsinin şərtlərinin bir sıra özünəməxsusluğunu nəzərə almaq zəruridir.

Birinci və ən vacib şərt – tarixi ölçülərə görə qısa olan vaxtda bizim ölkədə həyata keçirilən radikal yenidənyaranmaların miqyasının unikallığıdır. Buradan törəyən mürəkkəbliklər isə Rusiyanın ərazi miqyasına görə çoxalır. Rusiyada müasir

islahatlar fəzasında dövlətin rolunun zəruriliyi haqda nəticə isə özü-özündən yaranmış olur. Lakin bu rolun reallaşması yolları müxtəlif ola bilər. Çoxları dövlətin nəzarəti altında mülkiyyətin yenidən bölünməsi zamanı kapitalın ilkin yığımı prosesinə sabitləşmək imkanına qədər logik inkişaf etmək imkanını vermək təklifini edirlər. Amma heç kim prosesin belə inkişaf etməsi haqqında inandırıcı ssenari variantlarını irəli sürməyib. Rəqabət edən maliyyə strukturlarının ciddi qarşıdurmaları onlar arasında ziddiyyətlərin normal rəqabət qanunları əsasında həll edilə biləcəyi optimizmini vermir. Ona görə də bəzi ekspertlər islahatların hüquqi əsasının tez bir zamanda yaradılmasına yönəldilən ciddi dövlət diktaturasının həyata keçirilməsi haqqında təkliflər edir. Lakin yaxın keçmişin təcrübəsi bu yolun əleyhinə çıxır. Çünki bu və ya digər maliyyə və yaxud siyasi elita tərəfindən dövlət siyasətinin inhisarlaşması təhlükəsi böyükdür.

Daim dünyanın müxtəlif ölkələrində dövlət siyasətinin şəxsi maraqlara təhkim edilməsi tendensiyası müşahidə olunur. Onlara cəmiyyətin elə demokratik fəaliyyət göstərmə mexanizmi əks təsir edə bilər ki, «azadlıq» və «qayda-qanun» orqanik qarşılıqlı təsirdə çıxış etmiş olsun. Bu mexanizm sahibkarlığa zəruri olan azadlığı verməlidir. Lakin eyni zamanda onu bütün cəmiyyət tərəfindən qəbul edilən çərçivəyə də salmalıdır. O dövləti güclü etməlidir, lakin dövlət imkanlarının kimsə tərəfindən «özəlləşdirilməsi» istəyini də kökündən kəsməlidir. Rusiyada bazar islahatlarının birinci mərhələsində dövlət institutlarının güclərindən şəxsi mənafeləri naminə istifadə etmə imkanları məhz bir sıra şəxslərin biznesinin qurulmasının əsas vasitəsinə və onların bu əsasda «oliqarxlara» çevrilməsinə səbəb olmuşdur. Elə bunun özü də «dövlət tənzimlənməsi» ideyasını nüfuzdan salmaqdır. Ona görə də bu gün çoxları üçün dövlətin iqtisadi siyasətinin ümumilikdə ölkənin sabit maraqlarına uyğunluğu haqda inandırıcı zəmanətin verilməsi zəruridir. Dövlət qulluğunun davamlı institutu məhz konyuktur, xəyali (psevdo, abstrakt) dövlət siyasətinin deyil, uzun-

müddətli, milli siyasətin həyata keçirilməsində keçirici rolu yerinə yetirməlidir.

İkincisi. Hal-hazırda indiyə qədər olduğundan daha dəqiqliklə iqtisadi siyasət və strategiyanın əsas məqsədlərini zaman və əhatəsinə görə təyin etmək və yaymaq lazımdır. Bu məqsədlər əksəriyyət insanlar üçün aydın olan və onların həyat səviyyələrinin pillələrini fiksə edən (qeyd edən) terminlərdə ifadə olunmalıdır.

Qeyd edək ki, iqtisadi islahatların kifayət qədər universal kriterilərə- yəni, milli təsərrüfatın daha yüksək nəticəliliyinə, ölkə əhalisinin rifahının sabit artımına, cəmiyyətin həyat keyfiyyətinin yüksəldilməsinə istiqamətlənməsində müəyyənlik olmalıdır. Belə məqsədələr hamıya aydın olur və hər bir millətin sabit, dəyişməz marağını ifadə edir. Strateji məqsədlərin geniş əhali kütlələrinin rifahının davamlı artımı istiqaməti ilə daim uzlaşdırılması geniş yayılmış bir məvhumdan- mövcud nəslin sonrakı nəslin ziyanına olan eqoistik avantyurizmindən azad olmağa imkan verir.

Üçüncüsü. Dövlət idaretməsinin əsas vəzifələrindən biri iqtisadi yenidənqurmaların millət və ölkənin maraqlarına daim uyğun gəlməsi mexanizminin işlənib hazırlanmasıdır. Yalnız bu yolla islahatların aktiv iştirakçıları sırasına yalnız elitanı deyil, həm də əhalinin əksər hissəsini cəlb etmək olar. İslahatlar üzrə dünya təcrübəsindən məlumdur ki, udanlar qarşılarına uduzanların bütün itkilərini kompensə etmək vəzifələrini qoymurlarsa, onda yenidən qurmalar cəlb edici olmur.

Məlumdur ki, səmərəli liderlər öz avtoritetlərini millətlərinə islahatlarda iştirak etmə hissiyatını və islahatların onlara kənardan məcburi verilməməsi ümüdini verir. Onlar islahatların tərkibini vaxtında korrektə etmək imkanın verən əks əlaqə mexanizminin mövcudluğunun da qeydinə qalırlar. Bu məqsədlərdə siyasətin əsas istiqamətləri və prioritetlərinin geniş müzakirəsinin aparılması da təmin olunur. İnsanların eşidilə bilməsi atmosferinin yaradılması üçün bütün tədbirlər görülür. Bu əsasda səmərəli dövlət tənzimlənməsi probleminə həm nəzəri, həm də praktiki cəhətdən yeni məna verilməlidir. Xü-

susilə Rusiya üçün aktiv sənaye siyasəti sahəsində tənzimləyici təsirin olması vacibdir.

Bu gün sənaye siyasətini həyata keçirməklə əvvəllər olduğu kimi ağır sənaye bürokratiyasının yerinə özəl sektor çərçivəsində səmərəli əməkdaşlığı stimullaşdırmaq lazımdır. Uyğun olaraq maliyyə tənzimlənməsi sahəsində bankirlərdə sahibkarlar üzərində adi nəzarət imkanlarının möhkəmləndirilməsi əvəzinə ehtiyatlı və ixtisaslaşdırılmış motivlərin yaradılmasına çalışmaq lazımdır.

Dördüncüsü. Dünya siyasət və iqtisadiyyatında əhəmiyyətli yer tutmağa çalışan dövlətlər dünya iqtisadi mühitində tarazlığın təmin edilməsi üzrə müxtəlif beynəlxalq aksiyadarda aktiv iştirak etməlidirlər. Əminliklə demək olar ki, get-gedə geridə qalmış millətlərin əksəriyyətinin bazar istehlakçı cəmiyyəti rejiminə daxil olması ilə ümumdünya qlobal problemləri də kəskinləşəcək.

Ümuminsani tarixi göstəricilərə görə bazar mexanizminə ideal forma kimi baxmaq olmaz. Bu kontestdə tədqiqatçılar çox tez-tez Yer üzündə resursların ədalətli bölgüsü və istifadəsi, ekoloji sabitliyin təmini və sosial bərabərsizliyin aradan qaldırılması kimi nailiyyətlərin bazar tərəfindən problematik həll edilməsi ilə əlaqədar olan «bazar natamamlığı (çatışmazlığı)»nı[1] qeyd edirlər.

BMT-nin məlumatlarına görə dünyada yoxsulluğun ölçüləri artır. Verilən qiymətlərə əsasən 80-cı illərdə dünyanın 20% yoxsul əhalisinə yalnız dünya sərvətinin yalnız 4% -i, 20% daha imkanlı əhalisinə isə dünya sərvətinin 50%-i düşürdü. Son vaxtlar bu problemlərlə əlaqədar beynəlxalq konferensiyalar, o cümlədən dövlət başçıları səviyəsində müzakirələr daha tez-tez təşkil edilir. Dünya Bankı öz 2000/2001-ci il üzrə dünyanın

[1] *Кинг А., Шнайдер Б.* Первая глобальная революция (Доклад совета Римского клуба). Радикал, 1992.

inkişafı haqqında məruzəsini isə «Yoxsulluğa qarşı hücum» başlığı ilə vermişdi.[2]

Əgər geridə qalmış ölkələr özlərinin müstəqil siyasətinə və dünya iqtisadiyyatında ciddi yerinə ümid edirlərsə, onda onların hətta inkişaf etmiş ölkələrin təqlidçisi olması kifayət etməz. Bir çox alimlər iqtisad elmində zəruri olan nəzəri işlərin məhdudluğu haqqında yazırlar. Lakin onlar yığılıb qalmış ziddiyyətlərin və onların aradan qaldırılması yollarının izahlarını vermirlər.

Dünya iqtisadi orqanizmində baş verən keyfiyyət dəyişiklikləri fonunda (transmilli kapitalın, ayrı-ayrı dövlətlərin və onların bloklarının, meqapolislərin, azad zonaların, beynəlxalq təşkilatların və s. yeni rolu) alimlərin təsərrüfat tendensiya və münasibətlərini izah etdikləri qanun və qanunauyğunluqlar əhəmiyyətli dərəcədə itirilmiş və qərəzləşdirilmiş olurlar. Bu baxımdan məsələn,Fransada tənzimləmə nəzəriyyəsinin bir sıra tədqiqatçılarının nəticələri ədalətlidir. Onların fikrincə, halhazırda həddən artıq çaşqın dünya qaydaları yaranmışdır, lakin onun elmi dərk ediməsi üçün «yeni Keyns» yoxdur.

Amerikalı professor C.Stiqlits sosial-iqtisadi inkişafın tənzimlənməsində keyiyyətcə yeni konsepsiyalara keçidin vaxtının çatması haqqında fikir yürüdərkən müasir iqtisadi tədqiqatların vəziyyətini belə xarakterizə edir: biz demokratikləşmə, bərabərsizlik, ətraf mühitin mühafizəsi və iqtisadi artım arasında qarşılıqlı əlaqəni hələ təzə başa düşməyə başlayırıq.[1]

Beləliklə, keçid iqtisadiyyatlı Rusiya üçün islahatlar dövründə haradasa və nə vaxtsa təsdiqlənmiş belə olan sadə qərarlarla aldanmaq olmaz. Bizim cəmiyyətin tələblərinə cavab dünya təcrübəsi nəzərə alınmaqla yalnız ölkənin içərisindən və millətin aktiv yaradıcılıq axtarışları zəminində tapıla bilər. Bu axtarış-yaradıcılıq işi dövlət institutlarının stabilliyinə, demokratik tipli inzibati -hüquqi qaydaların sabitliyinə əsaslan-

[2] Доклад о мировом развитии 2000/2001 года. Наступление на бедность. М.: Весь мир. Всемирный банк, 2001.

[1] Вах.: Вопросы экономики. 1998. № 8. С.31.

malıdır. Dövlət institutlarının təkmilləşdirilməsinin demokratik prosedurları gələcək iqtisadi və sosial islahatlarda dinamizm və yaradıcılığın vəhdətinin təməlidir.

Dövlətin özü qanuna riayətin nümunəsini göstərməlidir. Dövlətin yalnız qaydaları təyin etməsini deyil, həm də sistemin elementi olmaqla özünün hüquqi normalara tabe olduğunu daim nümayiş etmək lazımdır.

Suallar və tapşırıqlar

1. Dövlətin bazar iqtisadiyyatında iştirakı həddini aşağıdakı cümlədə boşluqları lazımi sözlərlə doldurmaqla qiymətləndirin: «Bazar iqtisadiyyatı nə qədər inkişaf etmişdirsə, onda dövlətin funksiyaları bir o qədər…» (zəifdir, güclüdür, çoxvariantladır..)
2. İfadəni tamamlayın:

«Ölkələrindən inkişaf prosesində dövlətin iştirakının əsas istiqaməti kimi dövlətin funksiyalarının onun …. uyğun həyata keçirilməsidir» (ölçülərinə, əhalisinin sayına, potensialına. Siyasi quruculuğuna…)

3. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin əsas formalarına aiddir: 1) vergi tənzimlənməsi, 2)…, ardını davam etdirin və siyahıda 6-7 az bənd olmalıdır.
4. Ölkə iqtisadiyyatı miqyasında məcmu tələb bərabərdir:

CIGXU

Nəzərə alsaq ki, C – istehlak, I – investisiyalar, G – əmtəə və xidmətlərə hökumət tələbi, X – ixrac, U – idxaldır. Onlar arasında lazım olan «+» və 1a «-» işarələrini qoyun

5. «Ölkədə investisiyaların səviyyəsinə ən çox əhalinin səviyyəsi birbaşa təsir edir». Aşağıdakı terminlərdən uyğun olanını yerinə qoyun:

istehlak, əmanət

6. Fəslin mətninə istinad edərək, «səmərəli dövlət anlayışının qısa xarakteristikasını verin» (2-5 sözdən ibarət)
7. Müasir dövlət idarəçiliyində kommersializasiya prosesi lazımdırmı? «hə» və ya «yox» qısa izahla

© Кушлин В.И.., 2002

IV Fəsil

İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ NƏZƏRİYYƏLƏRİ

Dünya iqtisadi ədəbiyyatlarında bazar iqtisadi sisteminə dövlətin müdaxiləsinin yeri, rolu, məqsədləri və inkişafına dair çoxlu müxtəlif fikirlər verilmişdir. Bununla belə, dünya təsərrüfatının inkişafının konkret şəraitindən asılı olaraq alimlərin baxışları köklü şəkildə fərqlənir (çiçəklənmə, uzun müddət davam edən böhranlar, ağır sürətli infilyasiya, dünya müharibələri dövrləri). XX əsrdə nizam çarx iki dəfə dönmüşdür. 30-60-cı illərdə dövlətin təsirinin güclənməsi istiqamətində; 70-ci illərdən bazarın və onun mexanizmlərinin tənzimləyici rolunun artması istiqamətində. Bütövlükdə dünya təsərrüfatında baş vermiş proseslər təsərrüfatın inkişaf meyllərini və qanunauyğunluqlarını dərk etməkdə və elmi cəhətdən əsaslandırılmış iqtisadi siyasətini işləyib hazırlamaqda iqtisadi nəzəriyyənin rolunun xeyli artmasına təsir etmişdir.

XX əsrdə bazar mexanizminin mahiyyəti və rolunun, məqsədlərinin, imkanlarının, sərhədlərinin iqtisadiyyatın dövlət tənzimlənməsi formalarının qiymətləndirilməsində iqtisad elminin üç aparıcı istiqamətinin tərəfdarlarının fikirləri xeyli fərqlənmişdir. Bu istiqamətlərin iqtisadçıların işləyib hazırladıqları nəzəriyyələr müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə konkret hökumətlərin müvəfəqiyyətləri və uğursuzluqlarını təhlil etməklə iqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində tətbiq edilmişdir.

1. Dövlət neoklassik nəzəriyyələrdə. İqtisadi liberializm

Neoklassik istiqamət XX əsrdə bir çox görkəmli alimləri irəli çəkmişdir. Bunların arasında istiqamətin təməlini qoymuş ingilis iqtisadçısı A.Marşall, amerikalılar E.Çemberlin, L.Mizes, Nobel mükafatı laureatları F.Xayek, M.Fridmen.

İqtisadiyyatın dövlət tənzimlənməsi konsepsiyası bu və ya digər istiqamətin metodologiyası və ya bazarın əlaqələndirici mexanizminin mahiyyəti və rolunun şərhi və başqa istiqamətlərlə müəyyən edilir. Neoklassiklər insanın hərəkətinin başlıca səbəbini şəxsi maraq hesab edirlər. Onlar iqtisadiyyata tarazlıq və nisbi harmonik sistem kimi baxırlar, hansında ki, bütün onun üzvlərinin komponent eqoizmi, azad rəqabət vasitəsilə bütün cəmiyyətin yüksək rifahına aparır. Bazar qüvvələrin hərəkətinə dövlətin hər cür müdaxiləsi fərdlərin nailiyyətlərini çətinləşdirməklə, onlara əsas etibarilə öz optimumun bütün cəmiyyətinə çox böyük ziyan vurur (qeyd edək ki, burada söhbət yalnız azad rəqabət şəraitindən gedir).

İlk dəfə A.Simit tərəfindən (1723-1790) işlənib hazırlanmış belə yanaşma ***iqtisadi liberalizm*** adını aldı. İngilis klassiki dövlətin rolunu xüsusi mülkiyyətin və rəqabətin müdafiəsi, mühafizəsi və saxlanması üçün «gecə gözətçisi» funksiyası ilə məhdudlaşdırır.

Müasir ictimai inkişafın tələblərinə cavab verərək XX yüzilliyin neoklassikləri A.Simitin ideyalarını təkmilləşdirmiş və inkişaf etdirmişlər. Onların fikrincə dövlət bazar qüvvələrinin hərəkətinə bilavasitə müdaxilə etməyərək bazarın və sahibkarlığın səmərəli fəaliyyəti üçün əlverişli iqtisadi şərait yaratmalıdır. Bu ideyaların müəlliflərindən biri, alman iqtisadçısı V.Oyken (1891-1950) sübut etmişdir ki, dövləti iqtisadi prosesin tənzimlənməsi və planlaşdırılmasına yaxın buraxmaq olmaz, eyni zamanda, o, iqtisadi qayda elementlərini normalaşdırmaq üçün lazımdır.

Müasir neoklassik fikir qanunun və qaydanın mühafizəsi, mülkiyyət hüququnun müdafiəsi, rəqabətin qorunması, sağlam infilyasiyasız pul tədavülünün təmin edilməsi, sahibkarlığı stimullaşdıran vergi siyasətinin həyata keçirilməsi dövlətin yaratdığı «iqtisadi qaydanın» zəruri elementləri hesab edilir.

Pul tədavülünün tənzimlənməsi. XX əsrin ikinci yarısında ABŞ-ın Çikaqo Universitetinin alimləri neoklassik baxışlarını çox aktiv inkişaf etdirmişlər. Burada liberal iqtisadiyyat və dövlətin iqtisadi siyasətinin liberal metodlarının tərəfdarlarının orijinal iqtisadçılar məktəbi yaradıldı. Çikaqo professoru M.Fridmen ***sabit pul tədavülünü*** bazar mexanizminin səmərəli fəaliyyətinin mühüm şərti hesab edir. Onun nəzəriyyəsi ***«Monetarizm»*** adı altında iqtisadi elm tarixinə düşdü.

Fridmenin konsepsiyasının əsasında necə deyərlər, pulun kəmiyyəti nəzəriyyəsi durur. Bu nəzəriyyəyə görə tədavüldə olan pul kütləsi bilavasitə qiymətlərin səviyyəsinə təsir edir. Bu onu göstərir ki, pul, tələbin idarə edilməsi funksiyasını yerinə yetirir, onun vasitəsilə isə təsərrüfat proseslərinə, xüsusilə də istehsalın həcminə və məşğulluğa xeyli təsir göstərir.

M.Fridmen iqtisadiyyatın normal fəaliyyətində pulun möhkəmliyinin mühüm əhəmiyyəti olması ideyasını müdafiə edir. O, inandırmışdır ki, bu qaydadan kənarlaşma bazar iqtisadiyyatının hissələrini birləşdirərək vahid tam əmələ gətirən bütün mexanizmlərin müəyyən ***laqla*** istehsalın sabit artımını təmin edir. Deyilənlər onun «pul qaydası»dır. Təsərrüfat konyukturunun hərəkətinin dövriliyindən asılı olmayaraq, mərkəzi bank pul ehtiyatlarının sabitliyini qorumağa borcludur.

XX əsrin 70-ci illərində dünya təsərrüfatını əhatə etmiş hiperinflyasiya şəraitində Fridmen hökumətlərə onu aradan qaldırma proqramını təklif etdi. O, aşağıdakı tədbirləri nəzərdə tuturdu:

1) Tədavüldə pul kütləsinin dövri tənzimlənməsindən imtina etmək. Pul kütləsini ildə 3-5%-dən çox artmasına yol verməməklə ona mərkəzi hökumət tərəfindən ciddi nəzarəti təmin etmək;

2) Yüksək bank faizini müəyyən etmək;

3) Əmək haqqının aşağı düşməsinə maneçilik törətməklə onun artımını minimuma endirmək bunun üçün işsizliyi ən yüksək səviyyədə saxlamaq;
4) Dövlət büdcəsinin xərclərini azaltmaq.

Onun təkliflərini bir sıra dövlətlərin hökumətləri yüksək qiymətləndirmişdir. İlk dəfə onlardan ABŞ və Böyük Birtaniya hökumətləri istifadə etdilər. Bu hər şeydən əvvəl pul kütləsinə mərkəzi hökumət tərəfindən ciddi nəzarətə aid idi. İngilis konservatorları hökumətinin fikrincə, tədavüldə pul kütləsinə ciddi nəzarət inflyasiya proseslərinin inkişafının qiymətləndirilməsinə aydınlıq gətirməyi təmin etməli, iqtisadi münasibətlər subyektlərinin davranışlarını sabitləşdirməli və həm əmək haqqının, həm də qiymətlərin artmasının ləngitməsini təmin etməlidir.

ABŞ və Böyük Birtaniya hökumətləri həm də monitar konsepsiyasının ardınca gedərək yüksək bank tariflərini müəyyən etmək yolu ilə pul kütləsinin artım sürətini azaltmağa çalışdılar. Nəticədə bu sürəti ləngitməyə nail oldular. Lakin, 80-ci illərin əvvəllərinə nail olmuş faiz stavkaları çox yüksək ölçüdə olmuş, məsələn, ABŞ-da fermerlərin xırda və orta kapitalistlərin narazılığına səbəb olmuşdur. Bu tədbir iş aktivliyinin artımına maneçilik törətdiyi üçün məşhur olmadı (hamı tərəfindən bəyənilmədi). Bu zaman «gəlirlər siyasəti»nin həyata keçirilməsi hər şeydən əvvəl əmək haqqının artım sürətinin məhdudlaşdırılması, elə bil bu cür pozitiv nəticələrə gətirir. 70-ci 80-ci illərin əvvəllərinin hiperinfilyasiyasına son qoyulmuşdur. M.Fridmenin pul kütləsinin ildə 3-5%-dən çox artmasına yol verməyən «pul qaydaları» isə, bizim dövrümüzün beynəlxalq valyuta-maliyyə təsərrüfatlarının siyasətinin əsasında durmuşdur. XX əsrin sonu XXI əsrin əvvəllərində hökumətlərin pul siyasəti üçün kredo (məslək) monitorizm sabitlik, sabitlik və bir daha sabitlik kimi müəyyən etmişdir.

Təklif və vergi siyasəti nəzəriyyəsi. 70-80-ci illərdə iqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində daha bir ***neoklassik nəzəriyyə*** öz tətbiqini tapdı. Onun yaradıcıları amerikan iqtisadçıları A.Laffer və Ç.Qidder idi. Dövlətin iqtisadi siyasətinin müxtəlif tərəfləri (fiskal, pul tədbirləri, məşğulluğun, əmək

haqqının tənzimlənməsi və s.) arasında mümkün ola bilən asıllıqları öyrənməklə, onlar 70-ci illərin ağır iqtisadi böhranı üçün xarakterik olan istehsalın durğunluqdan çıxarılması yollarını axtarmağa çalışmışlar. Bazarı və orada təsərrüfat müvəkkillərini (aqentlərini) öyrənməklə neoklassiklər təklifin (tələbin təklifdən irəli gəldiyini nəzərə alaraq) təhlilinə xüsusi əhəmiyyət vermişlər. Bu onu göstərir ki, onlar xüsusilə sahibkarlığı ayırmaqla istehsal amillərindən səmərəli istifadə edilməsini şübhə altına alırlar. Buna görə də amerika alimləri yalnız bu amilə, istehsalın artımının təmin edilməsinə, onun potensial imkanlarına diqqət yetirmişlər.

Neoklassik nəzariyyə hesab edir ki, sahibkarlığın stimullaşdırılmasının mühüm vasitəsi dövlətin vergi siyasətidir. Vergi stavkalarını azaltmaq, həm də əhalinin daha varlı təbəqələri üçün çox yüksək dərəcələr tətbiq etməklə onu kökündən dəyişdirmək təklif olunmuşdur. Hesab etmişlər ki, istehsalın genişlənməsi bütün iqtisadiyyatın durğunluqdan çıxması ilə hətta az stavkalarla belə büdcə böyük gəlirlərlə dola bilər.

«Təklif iqtisadiyyatı» nəzəriyyəsi əsasında yaradılmış vergi islahatı layihəsi xüsusilə R.Reyqanın prezidentliyinin birinci dörd ilində intensiv şəkildə həyata keçirilmişdir. Gəlir vergisinin yüksək stavkası 70%-dən 50%-ə qədər azalmışdır. Nəticədə vergi stavkaları xeyli az mütərəqqi olmuşdur. Reyqanın prezidentliyinin sonrakı illərində stavkalar 38%-ə qədər aşağı salınmışdır. Bundan əlavə, bağışlamalara, daşınmaz əmlaka, yığımlara və investisiyalara vergiqoyma da azaldılmışdır. Korporasiyalara xeyli vergi güzəştləri edilmişdir. Bu məqsədlə amortizasiya müddətlərinə yenidən baxılmış və bir sıra başqa tədbirlər görülmüşdür.

Həm hökumətin, həm də korporasiyaların təşəbbüsü ilə başqa tədbirlərlə yanaşı yeni vergi siyasəti dövlətə sahibkarlıq fəaliyyəti üçün kifayət qədər əlverişli şərait yarada bildi. 80-ci illərdə amerika iqtisadiyyatının durğunluqdan çıxması (düzdür, böyük çətinliklərlə) və iqtisadi artım dövrünə qədəm qoyması faktiki bunu təsdiq edir.

2. Keynsçilik nəzəriyyələri. Keynsçi iqtisadi syasət

İqtisadi fikrin keynsçi istiqamətinin əsaslarını C.M.Keyns (1883-1946) 1936-cı ildə nəşr etdirdiyi «Məşğulluq, faizin və pulun ümumi nəzəriyyəsi» kitabında şərh etmişdir. Neoklasssiklər kimi bu istiqamətin iqtisadçıları da bazar iqtisadiyyatının, daha doğrusu, sərbəst qiymətlər, mənfəət və zərərlər, tələblə təklifin uyğunluğu kimi mexanizmdən ibarət olub, əsasən bazarın təklif etdiyi, əlaqələndirdiyi və istiqamətləndirdiyi iqtisadiyyatın tərəfdarları olmuşdur. Lakin bu mexanizmin qiymətləndirilməsi imkanları onlarda başqa cürdür. Bu səbəbdən iqtisadiyyatda dövlətin yeri, məqsədləri, rolu, funksiyaları nöqteyi nəzərlər də fərqlidir.

Bazarın iflası. Keyns və onun ardıcılları həm bazar, həm də dövlət tərəfindən tənzimlənən iqtisadi siyasətin mükəmməl konsepsiyasını yaradıblar. Bu sistemi çox vaxt ***keynsin qarışıq iqtisadiyyatı*** adlandırırlar. Keyinsçilərin konsepsiyası aşağıdakı əsas müddəaları əhatə edir: a) kortəbii bazar mexanizminin və dövlətin müdaxiləsinin səbəblərini qiymətləndirmək; b) belə müdaxilənin məqsədlərini formalaşdırmaq; c) iqtisadiyyatın dövlət tənzimlənməsinin istiqamətlərini, formalarını və metodlarını müəyyən etmək.

Bazar sisteminin müsbət tərəflərini qiymətləndirərək keynsçilər, başqa istiqamətlərin bir çox iqtisadçısı kimi qeyd edirlər ki, bazar insan cəmiyyəti tarixinin yaratdığı son dərəcə gözəl ictimai institutlardan biridir. Bazar sistemi son dərəcə dinamikdir, dəyişkənliklərə geniş imkanlar verir, yenilikləri qəbul edə bilir, yeni tələbatlara çevik uyğunlaşır. Ancaq keynsçilərin inandığı kimi bu onu göstərmir ki, bazar mexanizmi bütün iqtisadi problemləri mütləq səmərəli həll edə bilər və bazar sisteminin nöqsanları (minusu) yoxdur.

Birincisi, bazar iqtisadiyyatı ***daxilən möhkəm deyildir.*** Təkrar istehsalın silsiləliyi ona xarakterikdir, sürətli artım böhranlı azalma ilə əvəz olunur, həmçinin böhran illərində işsizlik

xüsusilə artır. İkincisi, (bu istiqaməti keynsçilər xüsusilə seçirlər) bazar sistemi sosial nəticələrə laqeyiddir. Bazar iqtisadiyyatında var-dövlət və gəlir hökmranlıq edir. Yalnız onlar əmtəələrə və xidmətlərə yanaşmağa imkan verir, bu və ya digər səbəblərdən kimsə var-dövlətə malik deyilsə, o istehsal edə bilməz, bazar mexinizminin köməyi ilə gəlir əldə etmək qabiliyyətində olmaz. Lakin kimin dövləti varsa və istehsal etməyi bacararsa, onların da problemləri meydana gəlir. İrsi alınmış çoxlu var-dövlətin özü heç nə istehsal etməsə də, gəlir götürə bilir.

Bəli, bazar iqtisadiyyatında uğurluluq, əməksevərliyə, ixtisasa və ya bacarığa nisbətən daha yüksək dərəcədə gəlirin miqdarını müəyyən edir.

Keynsçilər qeyd edirlər ki, bazar qüvvələrin hərəkətinə əsaslanmış gəlirlərin bölüşdürülməsi heç də sosial ədalət haqqında cəmiyyətin təsirinə uyğun gəlmir.

Bununla belə, bazar heç də bütün nemətləri və xidmətləri qiymətləndirə bilməz. Bunlara hər şeydən əvvəl, necə deyərlər ictimai nemətlər: milli müdafiə, ictimai intizamı qorumaq, hava haqqında məlumatlar, küçələrin işıqlandırılması, fundamental elmi tədqiqatların nəticələri və s. daxildir. Ətraf mühitin çirklənməsi ilə əlaqədar olan xarici effekt olduğu hallarda belə bazar qeyri səmərəli olur.

«Bazarın iflasa uğramalarını» aradan qaldırmaq üçün dövlətin aktiv müdafiəsi tələb olunur. Buna görə o həm iqtisadi, həm də sosial qeyri-sabitliyi ləğv etməklə «təşkil olunmuş stabilizator» funksiyasını yerinə yetirməlidir.

O, bazar tənzimlənməsinin gücü çatmayan məsələləri həll edərək əyər-əskikləri aradan qaldıraraq bazara zəruri əlavə olmalıdır. Məşhur amerika iqtisadçısı Nobel mükafatı laureatı P.Samuelson hesab edir ki, nəticədə qarışıq iqtisadiyyat yaradır, hansı ki, faktiki iqtisadi həyatda ən pis fəlakətlərdən ümumi sığortalanmasının nəhəng sistemidir.

Keynsçilər ümumi konsepsiya əsasında qarışıq sistemdə dövlətin iqtisadi siyasətinin konkret forma və metodlarını işləyib hazırlamışlar. İqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsindən tənzimləmənin və iqtisadi artımın antidövrilik (hal-

hazırda tez-tez konyunktur deyilir) nəzəriyyəsi daha çox məşhurdur.

Antidövrilik (konyunktur) tənzimləmə. Keynsçilərin fikrincə dövlətin antidövrilik siyasətinin başlıca istiqaməti investisiyalara təsir etməkdən ibarətdir. Onun əsas alətləri dövlət büdcəsi, vergi siyasəti, faiz normalarının tənzimlənməsidir.

İqtisadiyyatın enməsi şəraitində investisiyaların genişləndirilməsinin stimullaşdırılması təklif olunur: birincisi, şəxsi tələbata çatmayan malları və xidmətləri alaraq kompensasiya etmək məqsədilə dövlət xərclərini artırmaqla; ikincisi, bank faizi normasına təsir etmək yolu ilə. İnvestisiyaları qiymətləndirmək məqsədilə o, həddindən artıq olmamalıdır. Keynsçilərin fikrincə bu təsirlə dövlət dövriyyəyə əlavə pul buraxır, nəticə etibarilə bunun hesabına mülayim (sadə) investisiyanı təmin edir. Nəhayət, üçüncüsü, dövlət həm istehsal, həm də istehlak tələbini artırmaqla vergiqoyma stavkalarını tənzimləyən investisiya prosesinə təsir göstərir (bax: sxem 3).



Sxem 3. C.M.Keyns konsepsiyası: tələbin stimullaşdırılması yolları

Azalma şəraitində istehsalı genişləndirməyi stimullaşdıran dövlət tədbirləri sistemi bundan ibarətdir ki, artıq istehsal böhranı qorxusu ilə əlaqədar hay-küy dövrlərində investisiyaların, nəticə etibarilə istehsalın artımını məhdudlaşdıran dövlət tədbiləri təklif olunur.

İqtisadi artımın stimullaşdırılması. Qərbdə iqtisadi artım konsepsiyası böyük maraq doğurmuşdur. Məhz artım nəzəriyyələrinə istinad edərək XX əsrin 50-60-cı illərində bütün inkişaf etmiş ölkələrin hökumətləri keynsçilərin təkliflərindən geniş istifadə etmişlər. Baxılan nəzəriyyələrdə iqtisadi artımın mühüm amili investisiyanın həcmi sayılır. Tənzimləmə metodlarından dövlət xərclərinə həlledici əhəmiyyət verilir, onların genişləndirilməsi müəyyən dərəcədə kəsirli maliyyələşdirmə ilə təmin edilir. Dövlət xərclərinin artırılmasının əsas məqsədi dövlətin özünün səmərəli tələbinin artırmaq və şəxsi kapital-qoyuluşlarına əlverişli şərait yaratmaqdan ibarətdir. Bu konsepsiyaya görə dövlət xərclərinin mühüm istiqamətlərinə elmi tədqiqatlar, istehsal və sosial infrastruktur (təhsil, kadırların hazırlanması və yenidən hazırlanması, tibbi xidmət) daxildir.

İqtisadiyyatın tənzimlənməsinin həm artım nəzəriyyəsi, həm də antidövrilik nəzəriyyəsi dövlətin investisiyalara müdaxiləsinə başlıca əhəmiyyət verir. Keyns və onun ardıcılları öz yanaşmalarını multiplikasiya prinsipi ilə əsaslandırırlar. Ona əsasən hökumətin həyata keçirdiyi investisiyalar milli gəlirin dinamikasına, məşğulluğa və istehlaka əlverişli təsir edir. İlkin təkan almış sahələr xammal sahələrində və qarışıq istehsallarda istehsalı genişləndirməyə imkan verir. Bu birinci növbədə məşğulluğun artmasına və istehlak mallarına tələbin çoxalmasına gətirib çıxarır ki, nəticədə istehlak malları istehsal edən sahələrdə istehsalın genişləndirilməsini tələb edir. Beləliklə, zəncirvari reaksiya əmələ gəlir, bunun nəticəsində milli gəlirin artımı başlanır, əmək və kapital resurslarının tam məşğulluğu təmin olunur.

ABŞ və Qərbi Avropa ölkələrinin çoxunda iqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində keynsçilərin konsepsiyasından istifadə edilməsi qərb ictimaiyyətində və siyasətçilərin çoxunda demək olar ki, qarışıq iqtisadiyyatın idealının tapıldığına inam yaranmışdır. Burada bazar vasitələri səmərəliliyi təmin edir, dövlət isə iqtisadi və sosial sabitliyi təmin etməyə çalışaraq xüsusi sahibkarlığın və bazarın saxladıqlarını tamamlayır, düzəlişlər edir, boşluqları doldurur. İqtisadi inkişafın bir

çox faktorları təsdiq etmişdir ki, dövriliyi müəyyən dərəcədə azaltmaq mümkün olmuşdur. İqtisadi artım siyasəti ETİ-nin və iqtisadiyyatın ən müxtəlif sferalarında onun nailiyyətlərindən istifadə edilməsini stimullaşdırmışdır. Buna həmçinin istehsal infrastrukturu sahələrinə dövlət qoyuluşları kömək etmişdir. Hökumətin təhsilə, kadrların hazırlanması və yenidən hazırlanmasına çəkdiyi xərclər ETİ-n tələblərinə cavab verən ixtisaslarda, yəni, məcmu işcinin formalaşmasını təmin etdi.

Bazar iqtisadiyyatının şıltaq qanunlarının hansısa bir qolu keynsçilərin hakimiyyətindən çıxmışdır. 70-ci illərin ortalarının dünya iqtisadi böhranı buna parlaq sübutdur. Aydın olmuşdur ki, keynsçilərin irəli sürdüyü nəzəriyyə ilə kapitalist bazar iqtisadiyyatının müsbət əlamətlərini saxlamaqla, cəmiyyət üçün «zərərli» nəticələri ləğv etməyi uzun perspektivlə həll etmək mümkün deyildir. Qeyri-sabitliyə, işsizliyə, qeyri-bərabərliyə və başqa arzulanmaz nəticələrə görə sahibkarlıq təşəbbüsə və səmərəliliyə görə hesablaşmaq vaxtı çatmışdır. Fasiləsiz hərəkət təkanı itirməmək üçün hesablaşmaq lazımdır, əks halda kapital kapital olmağı tərk edəcəkdir. Neoklassiklər belə hesab edirlər. Keynsçilər üçün iqtisadi səmərəlilik və ya «sosial ədalət»in alternativi daha çox sonuncunun xeyrinə həll olunur. Onların nöqteyi nəzərində dövlətin iqtisadi siyasətinin məqsədi işçi qüvvəsinin yüksək məşğulluq səviyyəsi, iqtisadi inkişafın sabitliyi, iqtisadi artımın stimullaşdırılması, sosial siyasəti, bölgüdə sosial ədalətin təmin edilməsidir.

3.İndiqativ planlaşdırma konsepsiyası. Dövlət dirijizmi

İkinci dünya müharibəsi qurtarandan sonra Qərbi Avropanın bir çox ölkəsi müharibədən sonrakı dəyişikliklərin və xalq təsərrüfatının gələcək stimullaşdırılmasının aparıcı metodu kimi dövlət planlaşdırılmasına müraciət etmişlər. Bazar proseslərinin idarə edilməsi elementlərinin tətbiq edilməsini nəzərdə tutan, prinsipcə yeni kon-

sepsiyanın yaradılmasında institusional istiqamətli iqtisadçılar başlıca rol oynamışlar. Bunların arasında ən çox tanınmışlar fransız iqtisadçısı Fr.Peri, Nobel mükafatı laureatı, hollandiyalı Ya.Finberqen və isveç Q.Nyurdal olmuşdur.

«İndiqativ» adını almış iqtisadiyyatın dövlət planlaşdırılması konsepsiyasının işlənib hazırlanmasında bir çox Qərbi Avropa ölkələrinin mütəxəssisləri iştirak etmişdir. Buna görə də onu daha çox ümumi şəkildə təqdim etmək olar. Bununla belə yadda saxlamaq lazımdır ki, hər bir ölkədə bu dövlətin tarixi, sosial-iqtisadi, mədəni və başqa şəraitini əks etdirən müəyyən xüsusiyyətlərə görə konsepsiya fərqlənir.

İndiqativ planın əsas prinsipləri. Konsepsiyanın əsasını planda əks olunan vəzifələrin həyata keçirilməsində maraqlanan bütün subyektlərin könüllü razılığını nəzərdə tutan «razılaşdırılmış təsərrüfat» ideyası təşkil edir. Bununla belə, seçmə və qərarların qəbul edilməsində sərbəstlik verilir, rəqabət, mübahisələrin mümkünlüyü saxlanılır.

Plana indiqativ adı verilmişdir. Bu onu göstərir ki, o yerinə yetirilməsinə görə hər hansı cavabdehliyi nəzərdə tutmayan tövsiyə edicidir, buyurucudur. Eyni zamada bazara münasibətdə bu, dövlətin iradəli müdaxiləsidir, onun təsərrüfat subyektlərinin hərəkətinə, onların seçiminə çox və ya az təsir edir. Dövlət sektoru üçün məcburilik elementləri tətbiq edilir.

İndikativ planın konsepsiyasına aşağıdakı mövqelər daxildir:

a) uzun, orta və ya yaxın perspektivə mühüm proseslərin proqnozlaşdırılması;

b) müəyyən məqsədlər üçün iqtisadiyyatın inkişafını istiqamətləndirmiş, çox və ya az müfəssəl proqramların tərtib edilməsi. Bir qayda olaraq bunların məqsədləri sosial və ekoloji ödəmələri, məşğulluğun artımı, tədiyyə balansının sturukturunun yoxlanılması, diskproporsiyaların (regional, sahə) aradan qaldırılması, milli iqtisadiyyatın strukturunun yenidən qurulması və s. nəzərə alınmaqla müəyyən ölçüdə milli məhsul istehsalının artırılmasıdır.

c) planın reallaşdırılması vasitələrinin müəyyən edilməsi, preferensiyalar (imtifaz) sistemi (kreditlər, subsidiyalar, vergi

güzəştləri), daha doğrusu mənfəət qanunundan istifadə öz əksini tapır. Habelə, dövlət nəqliyyatına və elektrik enerjisinə azaldılmış tariflər də tətbiq edilir;

ç) iqtisadi, siyasi və inzibati tədbirlərin hazırlanması və idarələrin (investisiyaların) yaradılması, yəni, qəbul olunmuş planları həyata keçirmək üçün dövlətə yardımçı olan ***mexanizmləri*** hazırlamaq;

d) planların fasiləsiz (permanent) ***düzəldilməsi*** və onların həyata keçirilməsi mexanizminin modifikasiyası.

İkinci dünya müharibəsindən indikativ planlaşdırma konsepsiyası Avropanın on iki ölkəsində və Yaponiyada həyata keçirilmişdir. Fransada 1947-ci ildən beşillik planlar həyata keçirilmişdir. Hollandiyada 1947-ci ildən beşillik planlar tərtib edilmiş, bundan əlavə 1950-1970-ci illərə, 1960-1980-ci illərə uzunmüddətli proqnoz işlənib hazırlanmış, ölkənin «iqtisadi imkanların tədqiqi» aparılmışdır. Norveçdə 1949-cu ildən dördillik planlar, İsveçrədə 1948-ci ildən beşillik planlar fəaliyyət göstərmişdir. Yaponiya 1948-ci ildən beşilliklər planlaşdırmışdır. Bu ölkələrlə yanaşı, İkinci dünya müharibəsindən sonra Yunanıstan, Portuqaliya, İtaliya, İrlandiya, Belçika, İngiltərə, İslandiya, İspaniya milli proqnozlaşdırma və iqtisadiyyatın indikativ planlaşdırılmasından istifadə ediblər.

Elmi-texniki tərəqqinin qeyri-məhdud imkanlarına, onun cəmiyyəti dəyişdirmək bacarığına inam, dövləti və insanların özəlirini institusionalistlərin işləyib hazırladıqları planlaşdırmanın ideyalarına əhəmiyyət verməyə sövq etdi. XX əsrin ortalarında Avropa əhalisinin öz geniş dairələrində onların əsərlərinə müstəsna şöhrət, qeyri adi cəlbedicilik qazandırdı.

Fransa dövlət dirijizmi. «Dövlət dirijizmi» kimi geniş məşhur olan Fransa planlaşdırma sistemini yaradanlar bazar iqtisadiyyatı şəraitində dövlət planlaşdırma probleminə bir sıra yeni əlavə yanaşmalar tapdılar. Onlar İkinci dünya müharibəsindən sonra Fransanın sosial-iqtisadi və siyasi vəziyyətinin xüsusiyyətlərini nəzərə ala biliblər.

İqtisadiyyatı bərpa etmək, onu müasirləşdirmək, köhnələri yenidən qurmaq və yeni istehsal sahələrini yaratmaq,

iqtisadi artım templərini sürətləndirmək və istehsal səviyyəsinə görə digər inkişaf etmiş ölkələrdən geriliyi aradan qaldırmaq, bütün bu vəzifələri yalnız iqtisadiyyatı proqnozlaşdırma, planlaşdırma və proqramlaşdırmanın köməyi ilə yerinə yetirmək mükün deyildir. Ona görə də iqtisadiyyatın yeni strukturunun formalaşdırılmasında dövlətin ***iştirakı,*** təsərrüfatın ***yenidən qurulmasının*** bütün proseslərinin dövlət tərəfindən idarə edilməsi lazım olunmuşdur. Dövlət iqtisadi oyunların dirijoru olmalı idi. ***Sosioloji məktəbin*** tərəfdarları, əsas ideyalara görə konstitusializmə yaxın olan fransız iqtisadçıları belə hesab edirdi. Bazar iqtisadiyyatında dövlət dirijizminin öz imkanlarının əsaslandırılmasında dövlət dirijizminin öz imkanlarının əsaslandırılmasında sosioloji məktəbinin rəhbəri Fz.Perrunun hazırladığı ***bazar konsepsiyası*** böyük rol oynamışdır. Öz əsərlərində o qeyd edirdi ki, müasir real fəaliyyət göstərən bazar liberal iqtisadçıların ideal təsəvvürlərinə uyğun gəlmir. Azad rəqabət mexanizmi müavizinət tənzimləyici rolunu daha yerinə yetirmiş, ona görə ki, bazar struktur etibarilə inhisarlara və başqa institutlara çevrilmişdir. İqtisadi müvəkkillərin hərəkəti əmtəələrin mübadiləsi mexanizminə, iqtisadi fəaliyyət üzrə partnyorların nisbətinə əsaslanır. İqtisadi oyunların həqiqi dirijorlarının inadlı axtarışlarını aparmaqla Perri dövlətin iqtisadiyyata müdaxiləsinin nəzərə çarpacaq dərəcədə gücləndirilməsinin zəruriliyini əsaslandırdı.

Fransız iqtisadçılarının ideyalarını həyata keçirmək üçün əlverişli obyektiv şərait var idi. Bir sıra sənaye sahələrinin (kömür, dəmiryol nəqliyyatı, elektroenergetika və başqa) müharibədən sonra milliləşdirilməsi nəticəsində ölkədə beş iri kommersiya bankı və bir sıra başqa obyektlər böyük ölçüdə dövlət bölməsinə şərik oldu, hansı ki, iqtisadi dəyişikliklərin həm əsası, həm də aləti ola bilərdi. Sosiologiya məktəbinin tərəfdarları planlaşdırma təcrübəsində iqtisadi qərarları qəbul etmək üçün nəzəri əsasları yaratmaqla başlıca vəzifəni fransız iqtisadiyyatının struktur yenidənqurulmasına, xarici rəqabətə uyğunlaşdırmaq məqsədilə istehsalın və kapitalın təmərküzləşməsinin artırılmasına nail olmaqda görürdülər. Perri və onun

tərəfdarlarının ən mühüm nəzəri «tapıntı»lardan biri indikativ planların praktiki tərtibində səmərəli tətbiq edilmiş və «gücləri tətbiq edən imtiyazlı nöqtələr» konsepsiyasının əsasını qoyan dövlət siyasətinin ***seçmə qabiliyyəti*** Prinsipi olmuşdur. Onun tərəfdarları hesab edirdilər ki, müasir, yeni sahələr ağır sənaye, kimya, ümumi maşınqayırma, neft emalı sahələridir, tərəqqinin mühərriki, hərəkətverici qüvvəsidir. Onlar ya başqa sahələri təkmilləşdirir (məsələn, elektronika), ya da gələcəkdə kütləvi yenilikləri hazırlayır (atom energetikasının rolu belədir). Məhz bu sahələrin – mühərriklərin inkişafı, hökumətin seçmə qabiliyyəti konsepsiyası olmalıdır, ona görə ki, onlar millətlərin ekspansiyasının (genişlənməsinin) miqyasını və iqtisadi templərini artırır, bütün milli iqtisadiyyatın strukturunu dəyişdirirlər.

Fransız iqtisadçıların fikrincə hökumətin bu cür hərəkətlərinin nəticəsində hormonizasiyalaşdırılmış artımı təmin edə bilər. Lakin onun dəyişilməz şərti hökumətin iqtisadi istiqamətləri ilə bütün əhali qruplarının razılaşması bütün sosial gərginliklərin yüksəldilməsi olmuşdur.

Fr. Perri və onun həmfikirlilərinin konsepsiyasından iqtisadiyyatın indikativ planlaşdırlması sisteminin formalaşdırılmasında istifadə edilmişdir. 1946-cı ildə Fransada Baş planlaşdırma komissarlığının yaradılmasına dair dekret dərc edilmişdir, sonrakı 1947-ci ildə isə 1947-1950-ci illər üçün plan («Monne») qəbul edilmiş, hansı ki, onu 1952-ci ilə qədər (həmin il də daxil olmaqla) uzadılmışdır. Sonra 1953-1957-ci illərdə ikinci plan («Qirşa») fəaliyyət göstərmişdir. Sonralar üçüncü (1957-1961), dördüncü (1962-1965), beşinci (1966-1970), altıncı (1971-1975) və yeddinci (1976-1980) planlar həyata keçirilmişdir.

60-cı 70-ci illərdə dövlətin iqtisadi siyasətinin, onun əvvəlki dirijizm nəzəri nöqteyi-nəzərlərdən uzaqlaşma başlamışdır. Burada Fransanın Aİİ-nda iştirakı və əvvəlki himayədarlıqdan imtina etmə hədsiz rol oynamışdır. Dönərli valyutanın tətbiqi, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətinin artması əvvəlki iqtisadi siyasəti çox çətinləşdirir. Bazar konyukturun ölkənin iqtisadiyyatına təsiri gücləndi, bu da proq-

nozlaşdırma və qabaqcadan görmə imkanlarını pisləşdirdi. Lakin başlıcası odur ki, iri kapitalın mövqeyi möhkəmləndi (dövlətin böyük köməyi ilə), hansıki əsas etibarilə dövlətin nizama salınması ilə maraqlı idi. Konyunktur siyasəti uzunmüddətli artım siyasəti qarşısında xeyli üstünlüklər əldə etdi.

Sonuncu daha xüsusi zəruriyyət deyildir. Dünya bazarında fransız kapitalının rəqabətqabiliyyətliliyinin artması və iqtisadiyyatın strukturunun yenidən qurulması ilə əlaqədar başlıca strateji vəzifələr əsasən həll edilmişdi. Yeni dövr, başqa sosial-iqtisadi və siyasi şərtlər dövlətin yeni iqtisadi siyasətini tələb etdi. Fransa başqa dövlətlər kimi XX əsrin son on illiyində indikativ planlaşdırmanın bəzi mexanizmlərini saxlasa da neoklassik konsepsiyaya üstünlük vermişdir.

4. İqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində nəzəriyyələrin səmərəli tətbiqi şərtləri

Əvvəlki şərhlərdə yalnız dövlət tənzimlənməsinin iqtisadi nəzəriyyələri yox, həm də ABŞ və Qərbi Avropa islahatları təcrübəsində tətbiqi məsələlərinə baxılmışdır. Bu ölkələrin hamısı inkişaf etmiş bazar iqtisadiyyatlıdır. Həm nailyyətləri, həm də uğursuzluqları müəyyən etmiş şəraitə münasibətdə hansı nəticələri çıxarmaq olar?

İslahatlar səmərəli olduğu bütün hallarda onların əsasında mükəmməl əsaslandırılmış strategiya durmuşdur. Sonuncu öz növbəsində iqtisadi nəzəriyyəyə və ya qarşılıqlı əlaqəli nöqteyi-nəzərlərə söykənirdi. Bu islahatların məqsədlərini, imkanlarını və bazar mexanizmindən istifadə edilməsinin sərhədlərini, dövlətin yeri, rolu və funksiyalarını, onun bazarın qanunları ilə qarşılıqlı fəaliyyətini dəqiq öyrənməyə imkan vermişdir. Elə nəzəri prinsiplərini dəqiq öyrənməyə imkan vermişdir. Elə nəzəri prinsiplərin tətbiqi müvəqqəti gətirmişdir ki, onlar nəinki iqtisadi qanunauyğunluqları, həm də ölkənin spesifik xüsusiyyətlərini, yəni, tarixi sosial-iqtisadi xüsusiyyətləri, əhalinin mentalitinin xüsusiyyəti, inkişaf mərhələsinin

xüsusiyyəti müvəfəqiyyət gətirmişdir. Beləliklə, islahatların səmərəliliyinin mühüm şərti müasir elmin təklif etdiyi çoxlu alternativlərdən konsepsiyanın düzgün seçilməsidir.

Eyni zamanda, dövlətin uzun müddət müxtəlif nəzəriyyələrdən istifadə etmə təcrübəsi elmi biliklərin məhdudluğunu sübut edir. Nəzəriyyələr adətən müddət keçəndən sonra üzə çıxır və səhvlərdən azad deyildir. Bundan əlavə hətta ən qabaqcıl elmi biliklər, xüsusilə iqtisadiyyat kimi tez dəyişən dünyada tez və ya gec köhnəlir.

Nə keynsçilərdən, nə monetarizmdən, nə də institusionalizmdən səhvlər yan keçməmişdir. Xüsusilə, keynsçilər bazar iqtisadiyyatına infilyasiyanın gətirdiyi təhlükəni və onun məhdudlaşdırılması tədbirlərini nəzərə almadan dövləti büdcə vəsaitini həddindən artıq xərcləmə öyrətmişdir.

Monetaristlər bank faizinin artırılmasının həmin dövrdə iqtisadiyyatda mövcud olan durğunluq şəraitində sahibkarlığın aktivliyinə ehtimal olunan mənfi təsirləri nəzərə almayaraq 70-ci illərdə antiinfilyasiya siyasətinin əsas tədbirlərindən biri kimi bank faizlərinin artırılmasını təkid edirdi. Fransız «drijistləri» bir tələbat kimi iqtisadiyyatın liberallaşdırılmasının əksinə kapitalın internasionallaşdırılmasının və Avropa inteqrasiyasının inkişafının artığı şəraitdə iqtisadiyyata dövlətin müdaxiləsinin gücləndirilməsini təklif edirdilər.

Həm iqtisadiyyatın dövlət tənzimlənməsi, həm də onun nəzəri inkişafı üçün 90-cı illərin əvvəllərinin rusiya islahatları təcrübəsinin çox böyük əhəmiyyəti vardır. Əfsus ki, təcrübə müvəfəqiyyətsiz idi. O dövrdə dünya iqtisad elmində inzibati amirlik sistemindən bazar sisteminə keçməyin nəzəriyyəsi yox idi (ola da bilməzdi).

Onun arsenalında infilyasiyanı, iqtisadi böhranları aradan qaldırmaq, iqtisadiyyatın struktur yenidənqurulması konsepsiyaları var idi, lakin onların hamısı inkişaf etmiş bazar siteminə aid idi, yüzillərlə fəaliyyət göstərmiş bazar mexinizminin stimullaşdırılması yolları təklif edilirdi.

Rusiyada isə bazar mexanizmi ancaq formalaşmağa başladı. Təcrübənin göstərdiyi kimi o, islahatçıların qoyduqları

vəzifələri dövlətin köməyi olmadan sərbəst həll etmək qabiliyyətinə malik deyildi. Ölkədə bazarın fəaliyyəti üçün lazım olan institutların çoxu yox idi. İqtisadiyyat ağır struktur deformasiyalarla pis vəziyətə düşmüşdü. Ola bilər, belə şəraitdə İkinci dünya müharibəsindən sonra fransız iqtisadiyyatında yaranmış struktur disproporsiyaları aradan qaldırmağı bacarmış Fransa dövlət drijizmini xatırlamağa dəyər.

Lakin 80-90-cı illərdə Qərb iqtisadçılar dünyası dövlətə yox, bazara pərəstiş edirdilər. Rusiya islahatlarının nəzəri əsasını o dövrdə ən məşhur qərb elminin cərəyanı olan monetarizm təşkil etmişdir. Qərbdə daha çox səmərəli işləmiş nəzəriyyələrin rusiya mühitinə keçirilməsi, nəinki Rusiyada, hətta monitarizm nəzəriyyəsinin özünə pis xidmət etmişdir. Hətta o da öz böyük əvvəlki məşhurluğunu itirməyə başlamışdı.

Birtərəfli seçilmiş monitor istiqamət Qərbdə iqtisadiyyatın dəyişilməsi təcrübəsini kifayət qədər nəzərə almamışdı. 70-ci illərin ikinci yarası 80-ci illərin əvvəllərində böhranı və infilyasiyanı aradan qaldırmaq üçün qərb ölkələrində pul siyasəti sahəsində yalnız monetarizmin antinfilyasiya təkliflərindən yox, həm də nəzəriyyənin tərəfdarlarının işləyib hazırladıqları təklifləri, yəni, vergi siyasətinin kökündən dəyişdirilməsinin köməyi ilə istehsalı stimullaşdırma konsepsiyasından istifadə olunmuşdur.

Monitor istiqamətləndirmə o dövrdə rusiya əhalisinin həyat səviyyəsinin həddindən artıq aşağı olmasını da nəzərə almamışdır ki, bu da monetarizmin iki mühüm təklifinin həyata keçirilməsi ilə bir yerə sığışmırdı: əmək haqqının məhdudlaşdırılması və sosial ehtiyatlara büdcə xərclərinin azaldılması. Rusiya əhalisinin mentalitetinin son dərəcə spesifik, hər şeydən əvvəl onilliklərlə tərbiyə olunmuş dövlət proternalizminə vərdişlərini nəzərə almamışlar.

İqtisadi dəyişikliklərin mədəniyyəti müasir elmin topladığı sərvətin dərindən və hərtərəfli bitməsinə söykənmişdir. O, həmin qiymətli arsenaldan bacarıqla istifadə etməsini, yəni, elmin təklif etdiyi alternativlərdən birini düzgün seçiminin həyata keçirilməsini nəzərdə tutur. Bu da öz növbəsində

ölkənin sosial-iqtisadi şəraitinin, əhalinin psixologiyasının, onun təklif olunan iqtisadi strategiyanın və onun məqsədlərini qəbul etməyə hazırlığını dərindən hərtərəfli bilməyi tələb edir.

İslahatları səmərəli həyata keçirmək üçün, iqtisadiyyatın dövlət təmizlənməsi nəzəriyyələrini yaradanların hesab etdiyi kimi heç bir istisna olmadan bütün zəruri istiqamətlərindən istifadə etmək lazımdır.

Suallar və tapşırıqlar:

1) Müasir neoklassik nəzəriyyəyə əsasən bazar mexanizmi iqtisadiyyatın səmərəli inkişafını təmin edir. Düzgün cavabı seçin:

a) yalnız dövlətin aktiv yardımı ilə;

b) tam rəqabətli iqtisadiyyat şəraitində;

c) həm bu, həm də digər hallarda.

2) Dövlətin konyunktir siyasətini əsaslandırmaq üçün, nəzəri prinsiplərdən istifadə olunur. Düzgün cavab tap:

a) dövlət dirijizmi;

b) M.Fridmenin pul qaydaları;

c) dövlət investisiyalarının istehsala, məşğulluğa, milli gəlirə təsirinin multiplikasiya səmərəsi.

80-cı illərdə müxtəlif ölkələrin hökumətləri iqtisadi siyasətin dövlət tənzimlənməsinin nəzəri əsası kimi keynsçilərdən istifadədən nə üçün imtina etdiyini izah edin.

4. XX əsrin sonunda müxtəlif ölkələrin hökumətləri iqtisadiyyatın dövlət tənzimlənməsində iqtisadi fikrin müxtəlif istiqamətlərin ideyalarının sintezini tətbiq etməyi üstün tutublar. Bunun səbəbləri nədir?

© Сорвина Г.Н. 2002

V Fəsil

BAZAR İQTİSADİYYATININ FORMALAŞMASI VƏ FƏALİYYƏTİ

1. Yaranma səbəbləri və formalaşma mərhələləri

Bazar münasibətlərinin inkişafının əsasında əmtəə istehsalı durur – mübadilə və satış üçün məhsul istehsalı. Tələb və təklifin formalaşdığı və məhsula qiymətin dəyişməsinə səbəb olan istehsalçılar və istehlakçılar arasında əmtəələrin alqı – satqısına münasibətdə yaranan iqtisadi münasibətlər sistemi «bazar» anlayışı kimi ifadə olunur. Əmtəələrin alqı – satqısına münasibətdə iqtisadi münasibətlərin məcmusu kimi bazarın xarakteristikası ilk növbədə təsərüffat sistemində onun əsas funksional rolunu əks etdirir – satıcılar və alıcılar arasında əlaqələrin, kontaktların təmin edilməsi.

Müxtəlif ölkə alimlərinin bazar anlayışının müəyyənləşdirilməsi məhz onun funksional rolu ilə əlaqədardır. Tanınmış «Ekonomiks» dərsliyinin müəllifi K. Makkonnell və S. Bryu yazırlar: «Bazar alıcılar və ya tələb verənlərlə, satıcılar və ya məhsul və xidmətləri təqdim edənlər arasında kontakt mexanizmi və ya vasitəsidir – sadəcə mexanizm və ya vasitədir»[1]. R. Pindayk və D. Rubinfelt özlərinin «Mikroekonomika» əsərində bazarı «Qarşılıqlı münasibətləri sonda mübadilə imkanlarına gətirib çıxaran alıcılar və satıcıların məcmusu»[2] kimi müəy-

[1] *Макконелл К., Брю С.* Экономикс: принципы, проблемы и политика. М.: Республика, 1992. С.23-24.
[2] *Пиндайк Р., Рубинфельд Д.* Микроэкономика. М.: Экономика, 1992. С. 21

yənləşdirirlər. «Ekonomika» dərsliyinin müəllifləri S. Fişer, R. Dornbuş və R. Şmalyenzi belə hesab edirlər ki, «Bazar – məhsulların (xidmətlərin) alqı – satqısı məqsədilə məhsulların (xidmətlərin) satıcıları ilə alıcılar arasında əlaqələrin yaranmasına kömək edən şərtlərin məcmusudur»[1]. «İqtisadi nəzəriyyə kursu» rus dərsliyinin müəllifləri yazırlar: «Bazar istehsalçılar və istehlakçılar arasında desentralizasiya olunmuş, qiymət siqnallarının şəxsiyyətsizləşdirilmiş mexanizminə əsaslanmış qarşılıqlı münasibətləri üsuludur»[2]. Baxmayaraq ki, yuxarıda bazar barədə verilən anlayışlar bir – birindən fərqlənirlər, lakin onlar arasında ümumi cəhət əmtəələrin alqı – satqısına edilən istinad sayılır. Məhsulların hərəkəti ilə bağlı münasibət bir neçə əsr bundan əvvəl yaranmış və mürəkkəb inkişaf yolu keçmişdir. Kapitalizm yaranana qədər əmtəə – pul münasibətləri və mübadilə natural təsərüffat çərçivəsində tabeli məna daşıyırdı. Bazar əlaqələrinin bir sistem kimi meydana çıxması hansıların ki, fərqləndirici xüsusiyyətləri bütövlülük, əhatəlilik və özü – özünü bərpa etməkdir, kapitalist maşınlı istehsal şəraitində baş verdi. Bazar münasibətləri hakim mövqeyə çıxdı ki, bu da «bazar təsərüffatı» sistemi kimi spesifik bir təzahürün formalaşmasına şərait yaratdı. Bazar təsərüffatı cəmiyyətin iqtisadi həyatının müəyyən bir təşkilati formasını əks etdirir. Onun əsası – bu sistemin subyektləri arasında alqı – satqı münasibətləridir. Belə təsərüffatın fəaliyyət şəraitində bazarı nəinki onun funksional təyinatı nöqteyi nəzərindən, həm də özü – özünü təkrar istehsal imkanına malik xüsusi iqtisadi sistem kimi xarakterizə etmək mümkündür. Bazar münasibətlərinin yaranması – obyektiv şərtləndirilmiş bir prosesdir. O iqtisadi resursların çatışmaması, insanın istehsal imkanlarının məhdudluğu və onun müxtəlif nemətlərə tələbatının hududsuzluğu şəraitində insanların ən yüksək rasional davranış formasının axtarışı ilə bağlıdır. Məhdudluq istənilən resursa xas

[1] *Фишер С., Дорнбуш Р.,Шмалензи Р.* Экономика. М.: Дело, 1993. С. 778

[2] Курс экономической теории. Учебник / Ред. М.Н.Чепурин, Е.А.киселева. Киров, 1994. С. 76

olan bir haldır: əməyə, torpağa, xammala, kapital – texniki vəsaitlərə. Cəmiyyətin və insanın tələbatının daha tam təmin edilməsi məqsədi ilə insanlar ictimai əmək bölgüsünün inkişafı və dərinləşməsi vasitəsilə onun öhdəsindən gəlmişlər. Bu vəziyyətə hələ Adam Smit özünün «Xalqların sərvətlərinin təbiəti və səbəbləri barədə tədqiqat» (1776)[1] adlı əsərində qeyd etmişdir. Əməyin ictimai bölgüsü onun ixtisaslaşmasını şərtləndirmişdir. Yeni təsərüffat fəaliyyəti formaları yaranmışdır və daha yeniləri yaranmaqdadır ki, onlar da əmək məhsuldarlığının yüksəldilməsini, məhsul istehsalı xərclərinin azaldılmasını təmin edirlər.

İctimai əmək bölgüsünün dərinləşməsi və təkmilləşməsi, istehsalın ixtisasının yüksəlməsi ilə istehsalçılar və istehlakçılar arasında iqtisadi əlaqələrin yeni tipi (əmtəə mübadiləsi ilə müqayisədə) formalaşdı. O daha dayanıqlı və daimi xarakter aldı. Xüsusi olaraq mübadilə üçün məhsul istehsalı onu əmtəəyə çevirdi.

İctimai əmək bölgüsü və onun əsasında da məhsuldar qüvvələrin istehsalı sonda təsərüffat fəaliyyətli subyektlərin əmlak xüsusiləşməsinə səbəb oldu və bu da xüsusi mülkiyyətin yaranmasına gətirib çıxardı. Xüsusi mülkiyyət – məhsul istehsalçılarının istehsal xüsusiləşməsinin və maliyyə təsərüffat müstəqilliyinin tarixi inkişaf formalarından biridir. İstehsalın şərtlərinə və nəticələrinə xüsusi mülkiyyət forması istehsalçıya sərbəst şəkildə hansı mallardan və hansı miqdarda istehsal etmək, necə və hansı qaydada bunu etmək, kim üçün istehsal etmək barədə qərar qəbul etmək imkanı verir. İstehsal və satış problemlərini sərbəst həll etməsi obyektiv şərait çərçivəsində sərbəst qərar qəbul etməsi azadlığı məhsul istehsalçısının təsərüffat xüsusiləşməsini və iqtisadi müstəqilliyinin elementlərini təşkil edir.

Müvafiq olaraq bazar münasibətlərinin meydana gəlməsinin mühüm şərtləri ictimai əmək bölgüsü və məhsul istehsal-

[1] *Смит А*. Исследование о природе и причинах богатства народов. М., 1962. С. 21

çılarının iqtisadi xüsusiləşməsidir. Bu şərtlərdən hər biri ayrı – ayrılıqda zəruri olmaqla yanaşı hər biri kifayət sayıla bilməzlər. Əslində, qədim cəmiyyətlər mövcud olmuşdur ki, orada dərin əmək bölgüsü olmasına baxmayaraq, məhsullar qarşılıqlı münasibətdə istehsal edilərək hamıya məxsus olduğu üçün bazar münasibətləri yaranmamışdır. Başqa vəziyyət istehsalçıların iqtisadi xüsusiləşməsi meydana çıxandan yaranmışdır. Hər şey oradan başlamışdır ki, qəbilələr, ideoicmalar, tayfalar biri – birindən xüsusiləşmişlər. Onlar arasında ilk dəfə məhsul istehsalçılarının məhsulların xüsusiləşmiş mülkiyyətçiləri kimi mübadilə münasibətləri yarandı.

Lakin əvvəlcə mübadilə təsadüfi xarakter daşıyırdı, belə ki, icmalar arasında ciddi əmək bölgüsü yox idi. Bu o deməkdir ki, özü – özlüyündə iqtisadi xüsusiləşmə əmtəə – pul münasibətlərinin yaranmasına səbəb deyil. O yalnız ictimai əmək bölgüsü ilə uyğunlaşdıqda buna səbəb olur. Tarixi gediş sübut edir ki, əmək bölgüsünün dərinləşməsi və iqtisadi xüsusiləşmənin inkişaf edərək şəxsi formaya keçməsi ilə bazar əlaqələri də möhkəmlənirdi.

Xüsusi mülkiyyətin yaranması ilə iqtisadi xüsusiləşmə daha aydın şəkil aldı. Alqı – satqı, bazar möhkəm dayaqlar əldə etdi. Bazar cəmiyyəti kapitalizm dövründə daha yüksək inkişafa nail oldu, belə ki, burada ictimai əmək bölgüsü iri miqyaslara malikdir, istehsalçılar isə bir – birindən xüsusi mülkiyyət münasibətlərinin möhkəm manea ilə aralanmışdır. Buna görə də burada yeganə əlaqə forması bazar əlaqəsi sayılır. Satıcı malını sataraq ona mülkiyyət hüququnu itirir, alıcı isə mala pul ödəyərək onun mülkiyyətçisinə çevrilir. Bazar münasibətlərinin daim bərpa olunması (təkrar istehsalı) yalnız mübadilənin ekvivalentliyi əsasında mümkündür. Əmtəələrin mübadiləsi əmək bölgüsü əsasında insanın tələbatının tam ödənməsi üçün sadəcə vasitə deyil. Mübadilə obyektiv olaraq hər bir bazar münasibəti subyektinin qarşılıqlı faydalılığını, maraqlarının reallaşdırılmasını şərtləndirir. O cümlədən, istehsalçının marağı ondadır ki, o mübadilə prosesində yalnız öz məhsulana çəkdiyi xərci ödəmək deyil, həm də istehsalı geniş-

ləndirmək üçün mənfət əldə etmək imkanı qazansın. Mənfətin bir mənbəyi kimi istehsal xərclərinin həmin məhsul buraxılışının orta istehsal xərclərinə nisbətən aşağı salınmasıdır. Amma istehsalçı öz maraqlarını təmin etməyə çalışaraq buna yalnız əmtəənin satışı zamanı nəticəsində nail ola bilər. Bu o deməkdir ki, konkret bazarda sadəcə olaraq tələbat deyil, tədiyyə qabiliyyətli tələbatın olması zəruridir. Bununla da, məhsul istehsalçısı özünün şəxsi və ya korporativ məqsədlərindən asılı olmayaraq cəmiyyətin maraqlarına qulluq etmiş olur. Həmçinin istehsalçı texniki və texnoloji yeniliklərin tətbiqi əsasında öz xərclərinin aşağı salınmasını təmin etməklə ictimai tərəqqiyyə qulluq etmiş olur. Müvafiq olaraq, fərdi məqsədlərin reallaşdırılması prosesində «Görünməz əl» (A. Smitin ifadəsinə görə) istehsalçıları cəmiyyətin maraqlarına cavab verən qərarlar qəbul etməyə istiqamətləndirir.

Qeyd etmək lazımdır ki, XIX və XX əsrlərdə biznesin sosial məsuliyyəti konsepsiyası təşəkkül tapmağa başladı və XX əsrin 30 – cu illərində o tam formalaşdı. Onun məzmunu əsaslandırılmış şəkildə F. Berli və Q. Minzin «Müasir korporasiya və şəxsi mülkiyyət» monoqrafiyasında (1934) işlənib hazırlandı. Həmçinin amerikan iqtisadçısı Q. Baunenin müharibədən sonrakı «Biznesin sosial məsuliyyəti» adlı əsərində bu məsələ ətraflı işlənmişdir. Bir sıra digər əsərlər də mövcuddur. Bu konsepsiyanın mahiyyəti aşağıdakı məntiqi ardıcıllıqdan yaranır. Müasir əmtəə istehsalçıları (korporasiyalar) müəyyən sosial və siyasi – mədəni mühütdə fəaliyyət göstərirlər. Müvafiq olaraq onlar cəmiyyətin maraqlarına etinasızlıq göstərə bilməzlər. Məhz bu stabillik onların səmərəli fəaliyyəti üçün əsas şərtdir. O istehsalçıların şəxsi işgüzar maraqlarının reallaşmasına şərait yaradır. Müvafiq olaraq, istehsalçıların əsas vəzifəsi öz maraqlarının cəmiyyətin maraqları ilə əlaqələndirməsidir, yəni onun qarşısında müəyyən cavabdehlik daşımasıdır[1].

[1] Подробнее см.: *Шахмалов Ф.* Государство и экономика (власть и бизнес). М.: Экономика, 1999. С. 76-87

Bazar iqtisadiyyatının yaranması və inkişafı uzun və çətin bir tarixi yol keçmişdir. Əmtəə – pul bazr münasibətlərinin genişlənməsi, ictimai əmək məhsuldarlığının genişlənməsi, əmtəə istehsalçılarının iqtisadi azadlıq, fərdi maraqlarının reallaşdırılması imkanları əldə edməsi əsasında sosial – iqtisadi tərəqqinin inkişafına köməklik göstərdi. Lakin bu prosesin özü bütöv xalqlar və əhalinin bir çox təbəqələri üçün olduqca ağır keçmişdir. Hamıya sistematik zorakılıq və qarətlərlə (vəhşi sələmdarlıq, «çəpərləmə» və İngiltərədə kəndlilərin torpaqlardan qovulması, yerli xalqlara qarşı zülmlər, indiki ABŞ ərazisində 20 mln. hindunun demək olar ki tam qırılması, cənub ştatlarında zəncilərin qul əməyinin amansız istismarı və s.) halları ilə müşahidə olunan amansız ilkin kapital yığımı prosesi məlumdur. Bəli, dövlətin tənzimləyici tədbirləri də həmişə ağrısız olmamışdır. Bazara gedən yolun əvvəllərində muzdlu fəhlələrin cüzi əmək haqqı müqabilində onların iş günü 16 saata çatırdı.

Alimlər dünyada bazar iqtisadiyyatının formalaşması və inkişafının bir sıra tarixi mərhələlərini qeyd edirlər. Bu zaman onlar müxtəlif kriteriyalara əsaslanırlar. Bəziləri hesab edirlər ki, bazar təsərüffatı aləmi əvvəlcə azad (təkmil) rəqabət mərhələlərini keçmiş və sonra kütləvi istehsal mərhələlərinə daxil olmuşdur. Daha sonra sənaye inkişafı və reallaşma dövrü gəlmişdir[1]. Bazar iqtisadiyyatının inkişafının mərhələlərinin başqa bir təsnifləşdirilməsi də mövcuddur. Bu məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişaf səviyyəsi kriteriyası kimi istifadə olunur. Öz növbəsində bu öz əksini əmtəə istehsalının və onun mübadiləsinin miqyasları və dinamikasında, alqı – satqı münasibətlərinə daha çox əhali kütləsinin cəlb edilməsində tapır. Bütün bunlarla əlaqədar aşağıdakı mərhələləri qeyd edirlər: bazar iqtisadiyyatının yaranması; bazar iqtisadiyyatının özü; tənzimləmə bazar iqtisadiyyatı; deformasiya olunmuş bazar iqtisadiyyatı[2].

---

[1] главу II данного учебника.

[2] Вах.: *Гукасьян Г.М.* Экономическая теория. М.: Инфра– М, 2000. С 34-38

Bazar iqtisadıyyatının yaranması bazara hələ yaranmış məhsulun bir hissəsinin daxil olduğu vaxt mülkiyyətçi – istehsalçıların şəxsi əməyinə əsaslanan sadəcə olaraq əmtəə istehsalının inkişafı ilə bağlıdır. Əmtəə istehsalı və mübadiləsi hələ bütün iqtisadi sistemi əhatə etməmişdir. Əmtəə – pul münasibətləri ümumi xarakter daşımırlar.

Bazar iqtisadiyyatının özünün fərqləndirici xüsusiyyəti ondadır ki, burada əmtəə istehsalı və mübadilə ümumi xarakter almışdır. Onun maddi əsası mübadilə prosesinə daxil olan böyük bir hissəsi satış üçün nəzərdə tutulmuş əmtəə kütləsinin istehsal həcminin artıran maşınlı istehsal təşkil etdi. Mülkiyyətçinin şəxsi əməyinin əvəzinə muzdlu əmək gəldi və bazar münasibətləri sferasına iş qüvvəsi kateqoriyası (əmək olan qabiliyyətləri) daxil oldu və o da əmtəəyə çevrildi. Bazar iqtisadiyyatının fəaliyyətinin ilk mərhələlərində əmtəə istehsalı təkmil və təmiz rəqabət ilə xarakterizə olunurdu. Bazar münasibətlərinin daxili qanunları (təsərüffatçılıq subyektlərinin iqtisadi maraqlarının reallaşdırılması, istehsalın həcminin artıma dərəcəsi və ehtiyatların məhdudluğu ilə bağlı rəqabət mübarizəsinin amansızlaşması) təkmil rəqabətin qeyri – təkmil rəqabətə çevrilməsinə səbəb oldu.

Qeyri – təkmil rəqabət tiplərinin inkişafı, qarşılıqlı münasibətlərin mürəkkəbləşməsi və təsərüffatçılığın bazar sistemində ziddiyyətlərin artması, iqtisadi proseslərə dövlətin təsirinin güclənməsini şərtləndirdi. Beləliklə, ***tənzimlənən bazar iqtisadiyyatı*** meydana çıxdı. Belə tip təsərüffatçılıq iqtisadiyyatda iki bölmənin (xüsusi və dövlət) və sosial – iqtisadi proseslərin tənzimlənməsinin iki mexanizminin (bazar özünütənzimləmə və dövlət tənzimlənməsi) olması ilə xarakterizə edilir. İqtisadiyyatın dövlət tənzimlənməsinin miqyasları və məqsədlərindən asılı olaraq aşağıdakı fərqli ***modelləri*** qeyd etmək olar: qarşıq iqtisadiyyat (məsələn, ABŞ – da), sosial – təmaüllü bazar iqtisadiyyatı (Almaniya), korparativ iqtisadiyyat (Yaponiya).

Deformasiya olunmuş bazar iqtisadiyyatı milli iqtisaliyyatın tənzimlənməsində özünü tənzimləmə bazar me-

xanizminin boğulması, inzibati – amirlik, plan – direktiv metodlarının üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Yekunlaşdıraraq qeyd edə bilərik ki, bazar iqtisadiyyatı sisteminin yaradılması və təkmilləşdirilməsinin əsasında bazar iqtisadiyyatının özündən əvvəl yaranan və hətta deformasiya olunmuş bazar iqtisadiyyatı şəraitində də qorunub saxlanan əmtəə istehsalının inkişafı durur.

2. Bazar iqtisadiyyatı mexanizmi

Beləliklə, bir sistem kimi bazar iqtisadiyyatı ictimai əmək bölgüsünə və öz maraqlarını mübadilə prosesində reallaşdırmağa çalışan əmtəə istehsalçılarına əsaslanır. Lakin bazar iqtisadi subyektlərin davranışlarını koordinasiya edən iqtisadi münasibətlərin səmərəliliyini və özü – özünün bərpasını təmin edən spesifik mexanizmə də malikdir. Bu mexanizmin əsas elementlərinə nəzər salaq.

İqtisadi cəhətdən biri – birində asılı olmayan əmtəə istehsalçıları arasında münasibətlər ilk növbədə tələb və təklifin nisbəti formasında yaranır. Bu münasibətlər pul, qiymətlər, rəqabət alətləri vasitəsilə reallaşdırılır, onların nəticəsi isə mənfəət və zərər şəklində öz qiymətini tapır.

Bazar tələbi əmtəə istehsalının artırılması və ya azaldılmasında ən mühüm amil sayılır. Yalnız tələb olunan əmtəələr istehsal edilir və bununla da insanın tələbatı ödənilir. Tələb iqtisadi kateqoriya kimi bazar iştirakçılarının tədiyə qabiliyyətli tələbatını və onların əmtəə alıcılarının satıcılara münasibətdə davranışını əks etdirir. O istehsal faktorlarına tələb, istehlak predmeti və xidmətlərinə tələb formasında çıxış edir. İnkişaf etmiş iqtisadiyyata malik ölkələrdə istənilən iqtisadi subyektin tələbatı müəyyən əsas şərtlər üzrə təmin edilir. Bunlar hansı şərtlərdir? Əksər əmtəələr və xidmətlər ödənişli əsasda reallaşdırılırlar. Əmtəələrin əvəzediciləri mövcuddur. Əmtəələr və onların əvəzediciləri bir – biri ilə istehlak xüsusiyyətləri və xərclərin tutuşdurulması əsasında rəqabət aparırlar.

Bütün digər bərabər şərtlərdə istehsal xərci aşağı olan və keyfiyyəti yuxarı olan məhsul fayda əldə edir.

Özü – özlüyündə tələb alıcının tələbatını əks etdirir. Belə tələbatların ödənilməsi dərəcəsi isə bir çox səbəblərdən asılı olan tədiyyə qabiliyyətli tələblə şərtlənir. Belə ki, istehlak mallarına tələbin ölçüsü əhalinin gəlir səviyyəsi, qiymətlərin dinamikası, demoqrafik şərait, dəbin dəyişkənliyindən, reklamın valtlılığından və inandırıcılığından və s. amillərin təsiri altında müəyyənləşir.

Lakin əsas odur ki, bütün digər bərabər şərtlərdə tələbin ölçüsünü əmtəələrə və xidmətlərə qiymət müəyyənləşdirir. Əmtəələrə və xidmətlərə ***tələbin*** həcmi və ***qiymətlərin*** arasında əks əlaqənin olduğunu müəyyənləşdirən ilk iqtisadçı alim fransız riyaziyyatçı professor Antuan Oqyusten Kurno olmuşdur. O 1938 – ci ildə nəşr etdiyi «Sərvət nəzəriyyəsinin riyazi əsasları» əsərində bu asılılığı əsaslandırmışdır. Təəssüf ki, bütün elm dünyasında, o cümlədən Fransanın özündə bu kəşfi lazımınca qiymətləndirə bilməmişdilər. Məhz, Kurno tələbin tədricən aşağı düşməsi qanununu dürüst ifadə etmişdir və tələbin aşağı düşmə əyrisinin qrafik görünüşünü nümayiş etdirmişdi.

«Təklif» iqtisadi kateqoriyası əmtəə və xidmət istehsalçılarının davranışını xarakterizə edir. Təklif fərdi və ya məcmu xarakter daşıyır. Birinci halda söhbət mikro səviyyədən, ikinci halda – müxtəlif bazar qiymətlərində milli istehsalın real həcmindən gedir.

Təklifin həcmini əsaslı dərəcədə istehsal imkanları və qiymətlərin mövcud səviyyəsində əmtəə və xidmətlərə tələb müəyyənləşdirir. Lakin bazarda əmtəə təklifi yalnız istehsal olunan məhsulun hesabına deyil, həm də əmtəə ehtiyatları və idxal hesabına da formalaşır. Əmtəələrin məcmu təklifi müxtəlif şəraitlərdən asılı olaraq müəyyənləşir. Bunlardan ən başlıcaları ehtiyatların qiyməti, istehsal xərcləri, elmi – texniki tərəqqinin səviyyəsi, vergi, gömrük, qiymət siyasəti, məhsulun standartlaşmasına təsir göstərən qanunvericilik, həmçinin istehsal və ya mübadilə proseslərinin birbaşa dövlət tənzimlənməsi və digərləri. Bütün göstərilən amillər konkret iqtisadi

şəraitdən asılı olaraq təklif həcmlərinin artıb və ya azalmasına təsir göstərirlər.

O Kruno tərəfindən ifadə olunmuş ***təklif qanunu*** göstərir ki, əmtəələrin təklifi ilə qiymət kəmiyyəti arasında birbaşa asılılıq mövcuddur. Əmtəənin qiyməti nə qədər yüksək olarsa, bir o qədər də onun təklifinin dəyər və pul həcmi çox olar. Bu qanunun fəaliyyəti zaman tərəfindən və ümumilikdə bazar münasibətlərinin inkişaf prosesləri vasitəsilə təsdiq olunmuşdur.

Tələb və təklifin qarşılıqlı fəaliyyəti nəticəsində kortəbii olaraq qiymətlərin nisbi tarazlığı formalaşır. Vaxtı ilə bu fenomenə A. Smit, L. Valras, A. Marşall və digər tədqiqatçılar diqqət yetirmişlər. Burada diqqət yetirmək lazımdır ki, prinsip etibarı ilə ***qiymət tarazlığı*** yalnız ideal təkmil rəqabət şəraitində mümkündür. Lakin real iqtisadiyyatda praktiki olaraq belə şəraitin təmin edilməsi mümkün deyil, yəni qiymətlərin əsl bazar tarazlığı yalnız abstrakt nəzəri cəhətdən mümkündür.

Qiymət əmələgəlmə mexanizmi tələb və təklif nisbətindən başqa bazar münasibətlərinə xas olan ***rəqabət*** prosesini də özündə cəmləşdirir. İqtisadi sferada rəqabət məfhumu altında adətən istehsal və mübadilə sferasında daha əlverişli şərait uğrunda bazar münasibətləri subyektlərinin yarışı, bəhsləşməsi başa düşülür. Rəqabətin bu ümumi xarakteristikası onun bütün təzahür formalarına aid edilə bilər: təkmil və qeyri – təkmil; qiymət və qeyri – qiymət; sahədaxili, sahələrarası və beynəlxalq. Tələb və təklifin dəyişməsi istehsalçıların rəqabət qabiliyyətli səviyyəsinin, alıcı və mənfəət əldə edilməsi uğrunda mübarizənin sərtliyini müəyyənləşdirir. Bu bilavasitə qiymət əmələgəlməyə təsir göstərir.

Nəzərdə saxlamaq lazımdır ki, rəqabətin rolu onun qiymət əmələgəlməyə təsiri ilə yekunlaşmır. Onun rolu daha geniş əhatəlidir. Rəqabət bazarın funksiyalarından biri olmaqla, bazar iqtisadiyyatının hərəkətverici qüvvəsidir. Rəqabətin yaradıcılıq əhəmiyyəti bunda təzahür edir ki, o istehsalçıları işgüzar fəallığı yüksək səviyyədə saxlamağa, istehsal sferasında daha yeni və yeni imkanları, satışın keçilməyən yollarını və tutulmayan boşluqlarını axtarıb tapmağa istiqamətləndir-

məklə, özünəməxsus iqtisadi məcburiyyət formalarını tətbiq edir. Lakin rəqabəti bir sıra mənfi nəticələr müşayət edir. Beləki, o bazarın və alıcının itirilməsinə gətirib çıxara bilər. Bir çox istehsalçıların zərərə düşməsi, iflasa uğraması və bankrot olması ən geniş yayılmış hallardır. Həmçinin, qeyd etmək olar ki, rəqabət özünə əksi - ***inhisarı*** yaradır. Eyni zamanda, rəqabət və inhisarçılıq elə həmin eyni bazar qarşılıqlı fəaliyyətinin iki tərəfi sayılır. Rəqabət, bir tərəfdən əmtəə istehsalçılarının iqtisadi azadlığını nümayiş etdirir, digər tərəfdən müxtəlif inhisar birliklərinin yaradılmasına gətirb çıxarır. Bununla da o bir sıra hallarda qeyri – təkmil rəqabət şəraitini aktiv formalaşdırır. İnhisarçı birlikləri əmtəə istehsalçıları arasında vicdanlı yarış azadlığını məhdudlaşdırmaqla bazarda özünə möhkəm yer təmin edir[1].

Qiymətəmələgəlmənin əsas alətləri kimi təklif, tələb və rəqabətin qarşılıqlı təsirinin öyrənilməsi təkrar istehsal prosesinin bazar özünütənzimləməsinin səmərəli mexanizminin elementlərinin axtarışının aparılmasına imkan yaradır. Qiymətin yuxarıda qeyd olunan mühüm alətlərdən biri kimi rolunun araşdırılması vasitəsilə bazarın özünütənzimləmə mexanizminin fəaliyyətini açıqlamağa çalışaq.

Bazar iqtisadiyyatı şəraitində qiymət bir sıra olduqca vacib funksiyalar yerinə yetirir[2].

Əvvələn, qiymət informasiyaları ötürür. Bu prosesi amerikan alimi M. Fridmen geniş şəhr etmişdir. O göstərmişdir ki, bu və ya digər məhsula tələbin ardıcıl olaraq artması və ya azalması barədə bütün bazar iştirakçıları üçün informasiya qiymət sistemi vasitəsilə avtomatik ötürülür. Bu da onları o vaxtadək istehsalın həcmini artırmağa və ya əksinə azaltmağa sövq edir ki, haçansa qiymətlərin yüksəlməsi və ya düşməsi onlara əmtəəlik məhsulun defisitliyi və yaxud da ifrat istehsalı barədə yenidən siqnal göstərmiş olsun.

---

[1] главу VIII данного учебника.

[2] *Сарвина Г.Н.* Экономическая мысль XX столетия: страницы и истории. М.: РОС-СПЭН, 2000. С. 145-150

Müasir şəraitdə qərbin inkişaf etmiş ölkələrində qiymət sistemi əhəmiyyətli dərəcədə sadələşmişdir və bu da inkişaf etmiş infrastruktura malik, yüksək səviyyədə təşkil edilmiş bazarların fəaliyyəti nəticəsində mümkün olmuşdur. Eyni zamanda, qiymət sisteminin mürəkkəbləşməsi qiymət informasiyasının təhrif olunması ilə bağlıdır. Bu bir sıra səbəblərlə izah olunur. İlk növbədə dövlətin iqtisadi proseslərə müdaxiləsini qeyd etmək lazımdır. Burada maksimum yüksək məfəət əldə etməyə can atan inhisarların, xüsusilə qiymətlərin yüksəldilməsi üzrə fəaliyyəti neqativ rol oynayır.

İkinci, qiymətlər vacib stimullaşdırıcı funksiyanı yerinə yetirirlər. Hər bir müəssisə istehsal xərclərini aşağı salmağa səy göstərir. Haqlı olaraq, bunda mənfəətin artımında zamanın sınağından çıxmış üsulunu görürlər. Bu məqsədlər üçün elmi – texniki tərəqqinin nailiyyətləri, innovasiya və rəqabət qabiliyyətli texnologiyalar, nou–xau, menecementin bütün mümkün növləri və s. istifadə olunur. Məhsulun maya dəyəri, onun buraxılışının əmək tutumu bazar qiymətlərinin formalaşmasının əsasını təşkil edir. Hər bir müəssisə bu işdə özünün imkanlarına və ehtiyatlarına malikdir və onlardan qarşıya qoyulan məqsədə nail olmaq üçün istifadə edir. Bununla da qiymət elmi – texniki tərəqqinin nailiyyətlərinin tətbiqini stimullaşdırır, istehsal xərclərinin azalmasına və məhsulun keyfiyyətinin yüksəlməsinə köməklik edir.

Üçüncü, qiymətlər əmtəə və xidmətlərin istehsalının tənzimlənməsində iştirak edir, həmçinin gəlirlərin bölgüsünə, onlardan istifadənin strukturunun dəyişilməsinə təsir göstərir. Onların bu qeyri – dövlət təsir funksiyası kortəbii xarakter daşıyır. Məsələn, qiymətin yüksəlməsi əmtəə istehsalının artımına özünün məlum hədlərinə qədər köməklik göstərir, beləki, yüksək qiymətlər tələbi məhdudlaşdırır.

Bazar iqtisadiyyatında gəlirlərin bölgüsü istehsal amillərinə (torpaq, iş qüvvəsi, kapital) mülkiyyət formasından asılıdır. Onlardan hər biri özünün müəyyən gəlirini (renta, əmək haqqı, mənfəət) verirlər. Tam aydındır ki, göstərilən vegilər üç şəraitdən asılıdır. Onlar ilk öncə, iş qüvvəsinə və istehsalın

maddi amillərinə (torpağa istehsal avadanlıqlarına və s.) qiymətdən asılıdır. Bundan sonra həmin gəlirlər bu və ya digər vaxt kəsiyində onların vasitəsilə istehsal edilmiş əmtəələrə qiymətlə müəyyənləşir. Ən nəhayət, gəlirlər istehsal xərclərinin aşağı salınmasına böyük təsir göstərən əmək məhsuldarlığından asılıdır. İstehsal amillərinə və onların vasitəsilə yaradılan məhsullara və xidmətlərə qiymət dinamikası istehsalın həcminə, məşğulluq və işsizlik səviyyəsinə, muzdlu işçilərin əmək haqqına pozitiv və ya neqativ təsir göstərə bilər. İstehlak bazarında qiymətlərdən asılı olaraq, əhalinin xərclər strukturu da dəyişir. Qiymətlər nə qədər yuksək olarsa, zəruri əmtəələr və xidmətlər alındıqdan sonra insanların ixtiyarında qalan gəlirin hissəsi bir o qədər az olar.

Təsərrüffatçılığın bazar sistemi, onun təsərrüffat mexanizminin fəaliyyəti xüsusiyyətlərindən birbaşa və ya dolayı yolla irəli gələn, bütün iqtisadi sistemlərə məxsus üstünlüklərə və çatışmamazlıqlara malikdir. Bir qayda olaraq, bazar iqtisadiyyatının ən böyük üstünlüyü ilk növbədə onun həddən artıq dinamikliyi və özünütənzimləmə qabiliyyətinə malik olmasıdır. Bunun hesabınadır ki, o bütün yeniliklərin qəbul edilməsinə həssasdır və sürətli, səmərəli iqtisadi artımı, o cümlədən, əhalinin sahibkarlıq fəaliyyətinin yüksəldilməsi hesabına, təmin etmə imkanına malikdir. Bazar iqtisadiyyatını ehtiyatların səmərəli bölgüsü, rəqabət qabiliyyətli məhsulların və texnologiyaların sürətlə işləməsi və geniş tətbiqi imkanının yüksək olması fərqləndirir. Ən nəhayət, onun həyatitiliyi və dəyişən şəraitə uyğunlaşmasını qeyd etmək lazımdır. O dövlət tərəfindən məcburiyyət olmadan özünün iqtisadi fəaliyyətini koordinasiya etmək imkanına malikdir.

Bazar iqtisadiyyatının çatışmamazlıqlarına bir çox tədqiqatçılar ***tədrici zəifləməni*** və hətta bazar təsərüffatçılıq sisteminin əsas elementi – ***rəqabətin*** şüurlu ləğvini aid edirlər. Bir sıra iqtisadçıların fikrincə, iri inhisar birliklərinin yaranması qarşısı alınmaz haldır. Bu mahiyyət etibarı ilə elmi – texniki tərəqqinin obyektiv nəticəsi kimi təzahür edir. Bir qayda olaraq, ən müasir texnologiyaların istifadəsi əsasında istehsalın

səmərəliliyinin maksimal həddə malik olması bazarda son elmi – texniki nailiyyətlərin bazasında təchiz olunmuş iri təsərüffat vahidlərinin yaranmasına gətirib çıxarır. Bunun nəticəsində də rəqabət zəifləyir. Bundan əlavə, inhisar bazarlarının yaranması dövlət tərəfindən müdaxiləni və istehsalın müxtəlif sahələrində rəqabətin ya zəifləməsinə ya da inkişafına istiqamətlənmiş müxtəlif tədbirlərin həyata keçirilməsini təmin edir. Bütün bunlar təsərrüfatçılığın bazar mexanizmini onun əsas üstünlüyündən – ehtiyatların səmərəli bölgüsü qabiliyyətindən tədricən məhrum edir. Təsərrüfatçılığın bazar mexanizminin digər mühüm çatışmamazlığı ondadır ki, o əhalinin ***tam məşğulluğunu*** və qiymətlərin stabil səviyyəsini təmin etmir. Bizim dövrümüzdə işsizlik və infilyasiya yüksək göstəricilər şəklində meydana çıxan sosial – iqtisadi səbatsızlıq dövlətin çiyninə ağır yük kimi düşür. Bu məsələ üzrə baxışların müxtəlifliyinə baxmayaraq, iqtisadçıların çoxu o fikirdədir ki, işsizliyi bazar iqtisadi sisteminin birbaşa yaratdığı törəməyə aid etmək lazımdır. İnkişaf etmiş ölkələr işədüzəltmə və məşğulluq strukturlarının yaradılmasına, həmçinin də işsizlik üzrə müavinətlərin verilməsinə böyük vəsaitlər sərf etməyə məcburdurlar. Məsələn, İsveçdə iş stajından və sığorta şərtlərindən asılı olaraq, işsizlər hər gün 30 – 70 dollar alırlar.

Bazar iqtisadiyyatında tez – tez baş verən ***infilyasiya prosesləri*** barədə söyləmək lazımdır. Burada diqqət etmək lazımdır ki, qiymətlərin infilyasiya artımı təsərrüfat həyatına aydın nəzərə çarpan dağıdıcı təsir göstərir. Bu onda təzahür edir ki, real aktivlərə nisbətdə pul aqreqatları sürətlə qiymətdən düşür. Nəticədə, əhalinin maddi rifahının aşağı düşməsi, sahibkarlıq fəaliyyəti riskinin yüksəlməsi, istehsal sahələrinin və müəssisələrin rəqabət qabiliyyətinin aşağı düşməsi, firmaların bankrotlaşması və maliyyə tənəzzülü və s. mənfi hallar meydana çıxır. Təsərrüfatçılığın bazar mexanizminin bu qeyri – mükəmməlliyi o qədər aydın nəzərə çarpır ki, bir çox ölkələr şüurlu olaraq və aktiv şəkildə infilyasiyaya qarşı fəaliyyət göstərirlər. Bir çox dövlətlərdə məqsədyönlü antiinfilyasiya siyasəti həyata

keçirilir, infilyasiya proseslərinin zəifləməsinə istiqamətlənmiş digər iqtisadiyyatın dövlət tənzimlənməsi tədbirləri qəbul edilir.

Bazar təsərrüfatının ən nəzərə çarpan çatışmamazlığı odur ki, o ***ictimai nemətlərə*** aid edilən məhsul və nemətlərin istehsalına ***maddi stimullar yaratmır.*** Özü – özlüyündə o bir sıra vacib problemləri də həll edə bilmir. Bunlar arasında hamı üçün münasib səhiyyənin, pulsuz təhsilin, zəif qorunan əhali təbəqəsinin (təqaütçülər, əlillər, çox uşaqlı ailələr) müdafiəsi, mədəniyyətin inkişafı, ictimai asayişin qorunmasının təmin edilməsi, milli müdafiə və s. göstərmək olar. Buna görə də dövlət müvafiq vergi siyasəti həyata keçirməklə ictimai nemətlər istehsalını və xidmətlər göstərilməsini təmin etməyə məcburdur.

Bazar iqtisadiyyatına əhalinin ***gəlirlərində diferensasiyalaşma*** yüksək olması xasdır. Bu, həmçinin onun zəif cəhətlərinə aid olunur. Bazar mexanizmi sərvətlərə nail olmağı və yüksək gəlirləri əsas etibarı ilə ikili yolla təmin edir. Əvvələn, istehsal amillərinə sahib olmaq hesabına, ikincisi, varislik hüququ əsasında. Müvafiq olaraq, əmtəələri, xidmətləri və digər nemətləri əldə etmək əmək proseslərində iştirak etməkdən daha çox, mənfəət, faizlər, torpaq rentası, həmçinin böyük vərəsiliyə sahib olmaq imkanlarından asılıdır. Bir sözlə, bazar münasibətləri şəraitidə gəlirlərin bölgüsü açıq aydın şəkildə sosial ədalət anlayışına ziddiyyət təşkil edir. Müasir Rusiya timsalında bu daha aydın nəzərə çarpır. Beləki, XX əsrin 90 – cı illərinin sonunda ölkənin gəlirlərinin 33,3% - i əhalinin 10% - nə çatırdı. Az təminatlı əhalinin isə payı yalnız 2,4%[1] təşkil edirdi. Sənayecə inkişaf etmiş ölkələrdə yuxarıda qeyd olunan əhali təbəqələri arasında gəlirlərin bölgü fərqi 7 – 8 dəfədən çox deyil. Lakin bu da kiçik göstərici deyil. Dünyanın bir çox ölkələrində gəlirlərdə olan bu differensiasiyanı aradan qaldırmaq üçün bu qeyri – bərabərliyi yumuşaldıcı tədbirlər həyata keçirilir. Müxtəlif transfert ödənişləri tətbiq edilir, pulsuz səhiyyə xidmətləri, gəlirlərin proqressiv vergiyə cəlb edilməsi və s. üzrə dövlət proqramları reallaşdırılır.

[1] Независимая газета. 2000. 1 сентября

3. Rusiyada bazar münasibətlərinin inkişafı

XX əsrin 90 – cı illərinin əvvəllərindən başlayaraq Rusiya dərin dəyişikliklər prosesini yaşayır. Bu dəyişikliklər təsərrüfatçılığın bazar modelinə keçməsi ilə bağlıdır. Ölkədə iqtisadiyyatın transformasiyası ilə bağlı proses birmənalı getmir və böyük ehtimalla bir neçə onilliklər dövrünü əhatə edəcək. Ölkədə başlanan islahatlar dövrü ümumilikdə bütün sosial – iqtisadi sistemin yenidən qurulmasına istiqamətlənir. Belə transformasiyanı qiymətləndirərək, o faktı qeyd etmək lazımdır ki, Rusiyada bazar iqtisadiyyatına keçidin ilkin şəraiti Avropa dövlətlərində olduğundan çox mürəkkəbdir. Belə ilkin şəraitə iqtisadiyyatın lazımınca sərt mərkəzləşdirilmiş planlaşdırılma və idarəetmə sisteminin, xalq təsərrüfatının həddən artıq böyümüş dövlət sektorunun mövcudluğu, istehsal təyinatlı məhsul istehsalının istehlak malları istehsalını üstələməsi, makroiqtisadi tarazlığın pozulması, idarəetmə strukturlarının və əhalinin «antibazar» mentaliteti və s. təşkil edirdi. Rusiya iqtisadiyyatının islahatlarının ilkin mərhələlərində sərt şəkildə iqtisadi liberalizm prinsipinə riayət olunurdu – bazar özünütənzimləməsinə qeyri – məhdud imkanların yaradılması və iqtisadi proseslərə dövlətin müdaxiləsini kəskin məhdudlaşdırmaq. Rusiyanın ali məqsədləri nöqteyinəzərindən bu fikir özünü doğrultmadı. Həmin prinsip müəyyən dəyişikliklərlə daha əmin – amanlıqlı dövlətlər üçün yaralı idi. Lakin sovet üsul-idarəsindən çıxmış, məhsuldar qüvvələrin dağılmış və iqtisadiyyatı bərbad olan Rusiyanın şəraitlərinə onlar uyğun gəlmirdilər. Bu vəziyyət onillik müddətdə Rusiyanın idarəetmə elitasının şüuruna daxil olmurdu. Yalnız son dövrlərdə bu fikirə gəlindi ki, dövlətin köməyi olmadan nə səmərəli fəaliyyət göstərən təsərrüfatçılığı - bazar sistemini formalaşdırmaq, nə də onun fəaliyyətini bacarıqla idarə etmək mümkün deyil. Belə demək səhv olardı ki, elə əvvəlcədən müasir dövlət iqtisadi yenidənqurma prosesindən kənarlaşmışdı. O, iqtisadi islahatlar sahəsində özünün əsas fəaliyyətini ***mülkiyyət münasibətlərinin*** yeniləşdirilməsinə istiqamətlən-

dirmişdir. Bu təmamilə aydındır. Dövlətsizləşdirmə təsərrüfatçılığın bazar mexanizminin formalaşmasının mühüm elementidir. Bu da vacibdir ki, o mülkiyyətin və hakimiyyətin bölgüsünə şərait yaradır. Bu son prosesin əsas xüsusiyyətlərindən biri odur ki, keçmiş dövlət və partiya elitası nümayəndələri (müəssisə direktorları, müxtəlif səviyyəli partiya və icrayyə komitəsi işçiləri) hakimiyyətdən şəxsi mülkiyyətə mübadilə hesabına hakimiyyətdən imtina etdilər. Belə və digər hallarda qanuna hörmətdən uzaq metodlardan daha çox istifadə edilirdi. Təəssüf ki, böyük əksəriyyətlə mülkiyyətin hakimiyyətdən ayrılması prosesinin özü də kriminal xarakter daşıyırdı.

Göründüyü kimi, Rusiyada gedən dövlətsizləşmə və özəlləşməni birmənalı şəkildə müsbət rənglərlə göstərmək olmaz. Müsbət momentlərə onu misal göstərmək olar ki, hazırkı vaxtda Rusiya iqtisadiyyatında dövlət bölməsinin mütləq üstünlüyü ləğv edilmişdir və çoxnövlü mülkiyyət formasının yaranması prosesi başa çatır. Hazırda bütün dövlət mülkiyyətinin ¾ hissəsi şəxsi mülkiyyətə keçmişdir. Pozitiv faktor kimi Rusiya iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün şəraitin yaradılması istiqamətində cəhdləri göstərmək olar. Bu cəhdlər hələlik az uğurludur. ÇXR və Braziliya ilə müqayisədə iri, birbaşa kapital qoyuluşlarının həcmi çox cüzidir. Amerikanın və Avropanın bir sıra konsaltik firmalarının fikrincə, bu gün Rusiya kapital investisiyalaşdırılması üçün pis ölkə sayılır. Səbəbləri: sosial gərginliyin yüksək həddi, mütəşəkkil cinayətkarlıq baş alıb gedir, dövlət məmurlarının satqınlığı və s. Həmçinin, iqtisadi islahatların vəzifələrindən biri də ölkənin fond birjasının yaradılması idi. Rusiyanın indiki vəziyyətinə uyğun belə bazar hazırda mövcuddur.

Göründüyü kimi, mülkiyyət münasibətlərinin islahatı bir sıra neqativ hallarla müşayiət olunur. Lakin mülkiyyətin və hakimiyyətin bölgüsü sona qədər çatdırılmayıb. Bu korrupsiyanın artmasında, təsərrüfat subyektlərinin müxtəlif səviyyəli məmurlardan asılılığında, kapitalın artımının səmərəli iqtisadi fəaliyyət hesabına deyil, dövlət hakimiyyətinə digər vəsaitlərin

daxil olması hesabına həyata keçirilməsi və s. – də aydın görünür.

Ən neqativ amillərdən biri kimi özəlləşdirilmiş müəssisələrin əksəriyyətinin yarım gücə işləməsi, onların iqtisadi səmərəliliyinin çox aşağı olması və zəif inkişafı sayılır. Hazırda təsərrüfatçılığın səmərəliliyinə güclü təsiri çox növlü mülkiyyət formasının yaratdığı əlverişli şərait deyil, dövlətin həyata keçirdiyi siyasət göstərir.

Təsərrüfatçılığın bazar mexanizminin yaranmasında mühüm sferalardan biri ***rəqabət mühitinin*** formalaşdırılması idi. Bu bazar iqtisadiyyatının fəaliyyətinin vacib şərtidir. Bu istiqamətdə atılan ilk addımlar iqtisadiyyatın inhisarsızlaşdırılması ilə bağlı idi, yəni dövlətin iqtisadi fəaliyyətinin aparılmasında inhisar hüquqlarından əl çəkməsi. Artıq, islahatın ilk illərində «Əmtəə bazarlarında rəqabət və inhisarçı fəaliyyətin məhdudlaşdırılması haqqında» qanun işlənib hazırlandı və qəbul olundu. Bu qanun inhisarçı fəaliyyətə, inhisarçı qiymətlərin qoyulmasına bir sıra qadağalar və digər tədbirlər yolu ilə antiinhisar siyasətin həyata keçirilməsinə şərait yaratdı.

Hazırkı vaxtda ölkə iqtisadiyyatında 3 əsas bazar tipi formalaşıb. Maşınqayırma, tikinti, yeyinti sənayesi və bir sıra digər istehsal sahələri üçün rəqabət bazarları xarakterikdir. Avtomobilqayırma, ayrı – ayrı məişət texnikası və uzunmüddətli istehlak malları üçün oliqopoliya uyğundur. Xalis inhisarlar da mövcuddur ki, onlara əksər hallarda təbii inhisarlar aid edilir: RF DYN, RAO «YES Rossii», RAO «Qazprom» və digərləri.

Göründüyü kimi, rəqabət bazarları istehsalın az bir hissəsini əhatə edir. Buna görə də rəqabət mühitinin formalaşmasında əsas rolu məqsədyönlü antiinhisar tənzimləmə oynayır. O, sahələrarası, regionlararası və millətlərarası səviyyələrdə vicdanlı rəqabətə kömək göstərməlidir. Lakin, hazırda Antiinhisar Siyasəti Nazirliyi həmin problemin həllinə az köməklik göstərə bilir.

Təbii ki, rəqabət mühitinin yaradılması – çox mürəkkəb prosesdir. Adətən o özündə bir neçə mərhələni birləşdirir. Hər

şeydən əvvəl mülkiyyətin dövlətsizləşdirilməsi və inhisarsızlaşdırmanı həyata keçirmək lazımdır. Bundan sonra növbəti mərhələ – bazar infrastrukturunun formalaşması başlanır. Yalnız bundan sonra müxtəlif bazar tiplərinin formalaşdırılmasına başlanılır. Birinci mərhələ heç də yaxşı şəkildə olmasa da, çox sürətli və şok tempində başa çatdırıldı. Bazar infrastrukturunun və müxtəlif bazar tiplərinin formalaşdırılması isə – böyük hesabla hələ qarşıda durur, belə ki, iqtisadiyyat hələ öz imkanlarının yarısı səviyyəsində fəaliyyət göstərir. Belə şəraitdə normal infrastrukturun, normal bazarların yaradılması olduqca çətindir. Bunun nəticəsində hazırda Rusiyada rəqabətin inkişafı olduqca aşağı səviyyədədir və bu da təsərrüfatçılığın bazar mexanizminin normal yaradılmasına və fəaliyyətinə mane olur. Ölkədə bazar iqtisadiyyatının yaradılmasında xüsusi amil ***iqtisadi azadlığın qorunmasıda*** və o da mülkiyyət münasibətlərinin islahatı ilə sıx əlaqədardır. İqtisadi azadlıq özündə iki mühüm komponenti cəmləşdirir. Onlardan birincisi – sərbəst seçmək hüququdur. Bu maddi və pul ehtiyatlarının sahiblərinə onları öz bildikləri kimi istifadə etməyə, həmçinin qanunvericiliyin qadağan etmədiyi bütün fəaliyyət növləri ilə məşğul olmağa və özlərinin gəlirləri çərçivəsində istədikləri əmtəələri və xidmətləri almağa imkan verir. İqtisadi azadlığın ikinci tərkib elementi şəxsi maraqların reallaşdırılmasına zəmanət sayılır. Bu onda ifadə olunur ki, istənilən təsərrüfat subyekti cəmiyyət üçün əlverişli istənilən məhsul və xidmətləri istehsal edə bilər. Hər iki element bazar iqtisadiyyatına məqsədyönlülük və nizam – intizamlılıq verir.

Son illərdə Rusiyada tədricən iqtisadi azadlığın formalaşması və inkişafına imkan yaradan şərait əmələ gəlir. Rusiyanın Konstitusiyası, Mülki Məcəlləsi, Torpaq Məcəlləsi, Əmək Məcəlləsi qəbul edilmiş, sahibkarlıq fəaliyyətinin, mülkiyyətin hüquqlarını və müdafiəsini reqlamentləşdirən bir sıra qanunlar fəaliyyət göstərir. Lakin, bu proses optimallıqdan hələ çox uzaqdır. Ölkədə bazar münasibətlərinin formalaşdırılmasının vacib şərtlərindən biri də ***bazar institutlarının*** yaradılması və inkişafı sayıla bilər. Bu problem çoxlu mübahisələr yaradır.

İndiyədək dövlətin bu prosesdə rolu haqqında vahid nöqteyi-nəzər yoxdur. Bəziləri hesab edirlər ki, cəmiyyətin iqtisadi transformasiyası dövründə bazar institutları özü-özünə yaranmalıdır. Bu konsepsiyanın tərəfdaşları məşhur amerikan iqtisadçısı F.Xayeka istinad ediblər. Onun fikrincə, bazar institutlarının şüurlu yaradılması iqtisadi köləliyə aparır, beləki, dövlət iqtisadi proseslərə özünün qarışmasının nəticələrini əvvəlcədən söyləyə bilmir. Buna görə də, yalnız o institutlar dayanıqlı və qəbuledilən sayılır ki, onlar rəqabət mübarizəsindən keçmişlər və iqtisadi sistemin özü tərəfindən yaradılmışlar. Digər nöqteyi – nəzər birincinin əksini təklif edir. Onun tərəfdarları hesab edirlər ki, keçid dövründə yalnız dövlət bazar institutlarının yaradılmasının təşəbbüskarı olmalıdır, onların keyfiyyət vahidliyini, oxşarlığını təmin etməlidir.

Lakin, bunlar bir yana, problemin həll edilməməsi işə maneəçilik törədir. Məşhur Macar alimi Y. Kornayi hesab edir ki, bazar iqtisadiyyatını formalaşdıran ölkələrdə az və ya çox dərəcədə müşahidə olunan iqtisadiyyatın inkişafının zəifləməsi bilavasitə, ***institusional natamamlıqla*** əlaqədardır. O, buraya bu ölkələrdə ayrı–ayrı bazarlarıntam inkişaf etməməsini, xüsusi mülkiyyətin qeyri – bərabərliyini, iqtisadi azadlığın və rəqabətin tam başa çatmamasını, müəssisələrin bazar seleksiyasının olmamasını və s. aid edir.

Ölkədə son illərdə institusional natamamlığın aradan qaldırılması üçün bir çox işlər görülür. Bazar infrastrukturu, bazar maliyyə mexanizmi və alətləri formalaşırlar. Lakin, bu proses hələ özünün formalaşması və inkişafının başlanğıc mərhələsindədir. Yəqinki, o, kifayət qədər uzun vaxt aparacaqdır. Müasir keçid dövrünün əvvəlində belə bir nöqteyi – nəzər hökm sürürdü ki, Rusiyada tədricən liberal tipli iqtisadi model yaradılacaqdır. İndi, islahatlardan 10 ili keçdikdən sonra bir çox alimlər və təcrübi işçilər belə bir fikrə tərəfdardırlar ki, ölkə üçün daha əlverişli model qarışıq tənzimlənən iqtisadiyyat ola bilər. İndiyədək Rusiyada təsərrüfatçılığın bazar modelinin tam formalaşdırılmasına nail olunmadığını nəzərə alaraq, bir sıra iqtisadçılar belə hesab edirlər ki, ölkə

iqtisadiyyatında islahatların nəticəsi iqtisadiyyatın bazar və dövlət tənzimlənməsinin qarşılıqlı təsirinin parlaq nümayişi sayılan bir model olmalıdır. Burada həm də inkişaf etmiş bazar institutları, sosial təmayülli iqtisadiyyat, sosial partniyorluq sisteminin olması zəruri sayılır[1].

Belə hesab etmək olar ki, göstərilən modelin formalaşdırılması ölkə iqtisadiyyatı üçün olduqca vacibdir. O özünəməxsus formada bazarın və dövlət tənzimlənməsinin zəruri vahidliyini təmin edir. Onun üçün həmçinin, bazar səmərəliliyi ilə sosial ədalət arasında balansın olması xarakterikdir.

Suallar və tapşırıqlar

1. Tsərrüfatçılığın bazar mexanizmi hansı şərtlərlə yaradılır və fəaliyyət göstərir?
2. Təsərrüfatçılığın bazar mexanizminin əsas elementlərini sadalayın.
3. Bazar iqtisadiyyatı şəraitində qiymətin funksiyalarını sadalayın. Onlardan hər birini xarakterizə edin.
4. Bazar iqtisadiyyatında hansı rəqabət növləri mövcuddur?
5. Təsərrüfatçılığın bazar sisteminin üstünlükləri nədən ibarətdir?
6. Müasir bazar iqtisadiyyatının hansı çatışmamazlıqları vardır? Onlar hansı səbəbdən yaranırlar?
7. Nə üçün dövlətsizləşmə və özəlləşdirmə təsərrüfatçılığın bazar mexanizminin formalaşdırılmasında əsas şərt sayılırlar?
8. Rusiyada mülkiyyət münasibətlərində islahatların xüsusiyyəti nədən ibarətdir?
9. Hazırki vaxtda Rusiyada hansı bazar tipləri formalaşıb?

[1] Экономика / Ред. А.И.Архипова и др. М.: Проспект, 1998. С.521.

10. «İqtisadi azadlıq» anlayışının tərkib hissəsinin komponentlərini göstərin.
11. Sizin fikrinizcə «İnstitusional natamamlıq» anlayışının, nə bildirdiyini izah edin.
12. Rusiyada formalaşdırılan iqtisadi model hansı əsas kriteriyalara cavab verməlidir?

© Бударина А.В. 2002
© Хорзов С.Е. 2002

VI Fəsil

BAZAR MÜNASIBƏTLƏRI VƏ MÜLKIYYƏTIN YENIDƏNQURULMASI

1. Mülkiyyətin iqtisadi və hüquqi məzmunu

***M**ülkiyyət* subyektiv-obyektiv (insan-əşya-nemət), habelə subyektiv-subyekti (insan-insan) münasibətləridir. Bu münasibətlərin nəticəsində iqtisadi resursların, həyati nemətlərin və əşyaların mənimsənilməsi, zəbt edilməsi prosesi baş verir. *Mənimsənilmə* – bu və ya digər iqtisadi resursların, əşyaların, maddi nemətlərin, ictimai münasibətlərin obyektinə çevrilməsi imkanıdır. *Zəbt etmə*-həmin iqtisadi resursların ictimai münasibətlərin subyektinə çevrilməsi imkansızlığıdır. İqtisadi resursların, həyati fəaliyyət mülkiyyətinə çevrilməsi faktiki olaraq onların xüsusi təkrar istehsal məqsədi üçün istifadə olunmasıdır. Bu zaman həmin iqtisadi münasibətlərin subyekti ictimaiyyətdə yerinə yetirdikləri funksiyalara uyğun fəaliyyəti sayılır. Bu o, deməkdir ki, muzdlu fəhlələr, sahibkarlar, sənətkarlar, dövlət qulluqçuları, bankirlər və s. mülkiyyətin formasından asılı olmayaraq, gündəlik həyatda yerinə yetirdikləri fəaliyyətlərini davam etdirirlər.

Adətən mülkiyyət münasibətlərinin məzmununu hüquqi və iqtisadi tərəflərə ayırırlar. Hüquqi münasibətlər öz əksini *mülki hüquq* anlayışında ifadə edir.

Cəmiyyətin inkişaf tarixində mülki hüquq anlayışı ilk dəfə Roma hüququnda öz əksini tapmış Yustiana Kodeksində (VI əsr) sistemləşdirilmişdir.

Bu Kodeks əsasında sahib olmaq, istifadə etmək, sərəncam vermək hüquqları müəyyən olunmuşdur.

XIX əsrin əvvəllərində Roma hüquq normaları Napoleon Kodeksinin əsasını (Fransa mülki hüququ 1804-cü il) təşkil etmişdir. Həmin kodeks müasir mülki hüququn metodoloji əsasında durur. Beləliklə, müasir sivilizasiyanın başlanmasının ilk dövrlərində mülkiyyət münasibətlərini reqlamentləşdirən hüquqi normalar hazırda da cəmiyyətə xidmət etməkdədirlər. Təbiidir ki, bu müddət ərzində hüquqi normalar və aktlar transformasiyaya uğramışlar və detallaşdırılmışlar. Nəticədə müxtəlif sayda səlahiyyətlər toplusu yaranmışdır və onların qruplaşdırılması zərurəti meydana çıxmışdır. Tədqiqatçı hüquqşünaslar belə qruplaşmanı məsləhət görmüşlər: sahib olmaq hüququ; istifadə hüququ; idarəetmə hüququ (mülki obyekt necə istifadə olunmalıdır); mənfəət hüququ (mülkiyyətçinin əmlakından özü və yaxud başqasının istifadəsi nəticəsində yaranan gəlirin alınması); kapital, əşya və ya müəyyən dəyərin üzərində müstəsna hüquq (zəbt edilmə, istehlak etmə, məhv etmə); təhlükəsizlik hüququ-müsadirəyə qarşı immunitent; vəsiyyət və vərəsəlik hüququ; müddətsizlik hüququ; zərərli istifadənin qadağan edilməsi hüququ; cərimə məsuliyyəti hüququ; müddət qurtardıqdan sonra sahiblik hüququnun başqasına verilməsi.

Beləliklə, mülkiyyət fenomeninin hüquqi interpretasiyasının ümumi əlamətləri yuxarıda qeyd olunanlarla izah edilir.

Qeyd etmək lazımdır ki, mülkiyyət hüququ, mülkiyyətin iqtisadi məzmununun tam əksi deyildir. Təbiidir ki, mülkiyyət hüququ real iqtisadi münasibət və prosesləri müəyyən qədər əks etdirir. Lakin tam yox. Buna görə də mülkiyyətin hüquqi və iqtisadi məzmunlarındakı fərqlərə varmaq lazımdır. Çünki mülkiyyətin iqtisadi məzmunu özünəməxsus qanunauyğunluqlarla inkişaf edir.

Mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslərdir. Onlar qanuna əsaslanaraq öz üzərlərinə hüquqi məsuliyyət

götürürlər. İqtisadi münasibətlərdə mülkiyyətin subyekti ilə yanaşı mülkiyyət hüquqi subyekti bütün digər subyektlərlə birlikdə çıxış edir. (iqtisadi, sosial, siyasi subyektlər).

Məsələn konkret sahənin işçiləri hüquqi şəxs olmadan mülkiyyət hüquqi subyekti kimi, iş gününün azaldılması, əmək haqqının artırılması tələblərini irəli sürə bilərlər, bununla da onlar iqtisadi münasibətlərin subyekti kimi çıxış etmiş olurlar. Bununla da onlar cəmiyyətin istehsal etdiyi mili gəlirdən daha çox pay almaq üçün əldə etmək-zəbt etmək münasibətlərinə yenidən baxılmasını tələb etmiş olurlar. Başqa sözlə demiş olsaq, onlar digər iqtisadi münasibətlərin subyektlərinin (sahibkarların, səhmdar cəmiyyətlərinin, müəllim və həkimlərin və s.) paylarından müəyyən hissənin öz xeyirlərinə zəbt olunmasına nail olmaq istəyirlər.

Analoji olaraq güzəştli vergiyə cəlb olunma, kreditləşmə və s. öz mahiyyəti etibarı ilə birinin hesabına digərinin xeyri üçün iqtisadi münasibətlərinin dəyişdirilməsindən başqa bir şey deyildir.

Yəni ixtisas (müəllim, həkim, elektrik, inşaatçı və s.), demoqrafik (kişilər, qadınlar, təqaüdçülər, işsizlər, tələbələr, şagirdlər), ərazi (bu və ya digər regionun əhalisi) və s. bu kimi ictimai təşkilatlar, mülkiyyət hüququnun subyekti-hüquqi şəxs olmadan, mənimsəmə və zəbt etmənin real iqtisadi münasibətlərində iştirak edir və mülkiyyət münasibətlərinin tam hüquqlu subyektləri sayılırlar.

Əvvəldə qeyd etdiyimiz kimi, mülkiyyət hüququ hər şeydən əvvəl subyektiv-obyektiv münasibətlərdir. Yəni subyektin hər hansı obyektə (əşya, informasiya, kapital, maddi nemət və s.) münasibətidir. Bunların hamısı bazarın obyektləri olub, bu və ya digər dərəcədə subyektin onlar üzərində mülkiyyət hüququnu etibar edir.

Mülkiyyətin iqtisadi məzmunu subyekt-subyekt (insan-insan) münasibətləri ilə ifadə olunur. Bu istehsal, bölgü, mübadilə, istehlak münasibətlərini əks etdirir və subyektin ictimai resursların mənimsənilmə-zəbt etmə prosesini əhatə edir. Mülkiyyət çox tərəfli hadisə olub, özündə iqtisadi və hüquqi tərəflərlə

yanaşı tarixi, ekoloji, siyasi, sosial, mənəvi, psixoloji və s. tərəfləri də əks etdirir.

Məsələn, Baykal gölü və onunla qonşu olan Federasiya subyektləri bütünlükdə hüquqi nöqteyi nəzərdən Rusiyanın mülkiyyətidir. Onlar gölün su resurslarından istifadədə sərbəsdirlər, lakin içməli su istehsalının təşkilində, gəmiçilik və balıqçılığın inkişafında federasiyanın marağını qorumalıdırlar. Bununla yanaşı Baykal dünyada içməli suyu olan iri göllərdən biri olduğunu nəzərə alaraq, onlar onun çirklənməsində məsuliyyət daşımalıdırlar. Ekoloji nöqteyi nəzərdən Baykal dünyəvi göl hesab olunur. Lakin ondan təsərrüfat fəaliyyətində istifadə olunması Rusiya Federasiyasının təkzibedilməz hüququdur. Ekoloji münasibətdə mülkiyyətin subyektləri, ayrı-ayrı ərazilərin əhalisi, ölkə, kontingent və bütünlükdə planet ola bilər.

Mülkiyyət münasibətlərinin tarixi məzmunu, müəyyən vaxt kəsiyində və məkanda yaşayan nəsillər arasındakı iqtisadi münasibətləri əks etdirir. (dünya təsərrüfatı daxilində inteqrallaşdırılmış təsərrüfat kompleksləri, ölkənin iqtisadiyyatı, onun regionları və ərazisi ayrı-ayrı müəssisələr firmalar). Bu kontekstdə mənimsəmə-zəbtetmə obyekti iqtisadiyyatın keyfiyyət səviyyəsi mövcud olan və potensial (mötəməl) iqtisadi resurslar hesab olunur.

Mövcud təsərrüfat sistemində ETT-nin inkişaf səviyyəsi, onun rəqabət qabiliyyətliliyi, uzun müddətli borc öhdəlikləri, mineral və enerji resurslarının tükənən həcmi, bir nəsildən digər nəslə qalan mülkiyyət və s. tarixi məzmun nöqteyi nəzərindən mənimsəmə zəbtetmə münasibəti hesab edilir. Yaşayan hər bir nəsl ilk əvvəl əvvəlkilərdən ona qalan mülkiyyəti mənimsəyir və həm də gələcək nəslin borc öhdəliklərini, təbii ehtiyatlarını zəbt edir.

2. Mülkiyyət münasibətlərinin yeniləşdirilməsinin zəruriliyi

Mərkəzləşdirilmiş – planlı sistemdən, təsərrüfatın idarə olunmasının bazar modelinə keçilməsi prosesində mülkiyyət münasibətlərinin dəyişdirilməsi, hər şeydən əvvəl bazar təsərrüfatının fəaliyyəti üçün şəraitinin formalaşması ilə diktə olunur. Məlumdur ki, bu iki «balina»nın bətnində uyuyur. Belə ki, bir tərəfdən istehsalçı və istehlakçının iqtisadi azadlığı, digər tərəfdən qiymət rəqabəti fəaliyyət göstərir. Bu məcburi şərait mülkiyyətin bölünməz halda dövlət inhisarında olması çərçivəsində təmin oluna bilməz. Buna görə də bazar iqtisadiyyatına keçid mülkiyyətin bölünməsi tələbini irəli sürür. Mülkiyyətin dövlətsizləşdirilməsi dtgər obyektiv səbəblərdən də zəruridir. Cəmiyyətin həyatı fəaliyyətinin dörd sferası; mənəvi, istehsal-təsərrüfat, sosial-siyasi və ictimai-hakimiyyət onlara daxilən xas olan funksiyaları yerinə yetirməlidir.

Mənəvi sfera, müəyyən əxlaqi-etiq dəyərləri yaradır və formalaşdırır.

İstehsal-təsərrüfat sferasının əsas funksiyası cəmiyyətin bütünlükdə və onun hər bir üzvünün maddi tələbatını təmin etməkdir. Sosial-siyasi sfera, cəmiyyətin üzvlərini hərəkətə gətirmək, birləşdirmə yolu ilə lobbiləşdirmək, ixtisaslaşması və demoqrafiq, milli,sosial, siyasi təşkilatlanma funksiyasını yerinə yetirir. İctimai-hakimiyyət sferası istehsal-təsərrüfat, sosial-siyasi subyektlərin maraqlarının balanslaşdırılmasına zəmanət funksiyasını yerinə yetirir. Bu sfera həmçinin həyat fəaliyyətinin bütün sahələrinin müvəffəqiyyətlə inkişafını təmin edir. Başqa sözlə desək, cəmiyyətin həyati fəaliyyətinin əsas sferaları arasında əmək bölgüsü fəaliyyət göstərir.Bunlar pozuldüğü halda bir sıra toqquşmalar meydana gəlir. Belə halda həyat fəaliyyətinin ümumi dövlətləşdirilməsi, müxtəlif qrupların, siniflərin maraqlarının siyasiləşməsi halı baş verə bilər ki, bu da sonda tatalitarizmlə nəticələnir. Mənəvi, sosial, siyasi, milli

dəyərlərin ziyanına, həyat fəaliyyətinin «iqtisadiyyatlaşması» halı baş verə bilər.

Buna görədə həyat fəaliyyətinin hər bir sferası özünəməxsus funksiyaları yerinə-yetirməlidir. Ümumi formada deyilərsə «Süpürgə hörmək, çar işi deyildir» kəlamı yetinə düşər. Yəni ictimai-idarəetmə maddi nemətlər istehsal edir, çar isə öz işini ləyaqətlə yerinə yetirir. Maddi tələbatın ödənilməsi funksiyasını, istehsal-təsərrüfat subektləri kimi heç kəs yerinə yetirə bilməz. Deməli iqtisadiyyatın dövlətləşdirilməsi həyat fəaliyyətinin bir sahəsinin hinertrafiyasına səbəb ola bilər ki, buda digər sahələrə ziyan gətirir.

Buna görədə mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, həyat fəaliyyəti sferalarının funksiyalarının özlərinə qaytarılmasının obektiv prosesidir. Dövlət mülkiyyətçə mövqeyini o, səviyyədə saxlaya bilər və saxlamalıdır ki, ona məxsus olan siyasi və sosial-iqtisadi funksiyaları yerinə yetirə bilsin.

3. Dövlət və bələdiyyə mülkiyyətinin optimallaşdırılması

Maddi nemətlərin istehsalı dövlətin funksiyası deyildir. Buna görədə prinsipcə iqtisadiyyatın dövlət bölməsi mahiyyətcə sıfıra yaxınlaşmalıdır. Bu ideal haldır. Əslində, reallıq başqadır. Keçən əsrin 90-cı illərində Avropa Birliyinə daxil olan ölkələrdə dövlət müəssisələrinin göstəriciləri belə səciyyələnmişdir. Beləki, ölkələrdə dövlət bölməsinin xüsusi çəkisi müxtəlif olmuşdur. Bu hal nə ilə şərtlənmişdir? Görünür bu ilkin olaraq ölkənin milli-tarixi inkişafının əsas dövlətçilik funksiyasının reallaşdırılması imkanları ilə əlaqədardır. Başqa sözlə desək dövlət elə həcmdə istehsal vasitələrinə malik olmalıdır ki, mövcud iqtisadi-siyasi mühitdə özünə məxsus funksiyaları keyfiyyətli və effektli yerinə yetirə bilsin.

Bu zaman dövləti əhatə edən, iqtisadi parametrlər; əhalinin pul gəlirlərinin səviyyəsi, rəqabət mühitinin vəziyyəti,

istehsal təsərrüfat və sosial infrastruktura sahələri əhəmiyyətli mahiyyətə malikdir. Əgər əhali kütləsinin əksər hissəsinin gəliri yüksəkdirsə, bu zaman dövlət mülkiyyətinin xüsusi çəkisini, milli bazarda rəqabət mühitinin vəziyyətindən asılı olaraq qabaqcadan müəyyən etmək olar. Çünki ictimai tələbatın bu hissəsi, bazar mexanizmi vasitəsilə iqtisadiyyatın qeyri dövlət bölməsi tərəfindən daha səmərəli təmin oluna bilər.

Buna görədə bazar təsərrüfatında dövlət bölməsinin və bələdiyyə mülkiyyətinin çəkisi, dəyişkən kəmiyyətdir. Bu hər şeydən əvvəl, hər ölkənin tarixi, iqtisadi, özünə məxsus milli xüsusiyyəti ilə və müəyyən zaman kəsiyində iqtisadiyyatın inkişafı keyfiyyətinin vəziyyəti ilə şərtlənir.

Cədvəl [1]

Avropa Birliyi üzvü olan ölkələrdə dövlət müəssisələrinin ümumi göstəriciləri (1995-ci ilin sonuna)

ABŞ ölkələri	Dövlət sektorunda işləyənlərin sayı min.nəfər	Ümumi işləyənlərin sayında dövlət sektorunda işləyənlərin xüsusi çəkisi %	Ölkədə əlavə dəyərin ümumi tərkibində dövlət bölməsi müəssisələrinin əlavə dəyərinin xüsusi çəkisi %
Almaniya	1600	8	10
Fransa	1524	11,9	14,2
İtaliya	1230	11,5	13
Böyük Britaniya	400	2,3	2,6
İspaniya	387	6	7,2
İsveçrə	264	11,4	13,3
Avstriya	220	10	14
Belçika	197	9,7	8,6
Yunatıstan	169	12	14
Finlandiya	159	14,7	19
Portuqaliya	128	6	13,1
Niderland	108	3,4	6

[1] Mənbəy. Fransada özəlləşdirmə və dövlət mülkiyyəti. Məsul red. V.A.Vinoqradov. RAN.1998-səh.108

Danimarka	108	7,8	8
İrlandiya	60	9,3	11
Lüksenburq	9	5,6	6,3
C ə m i	6563	8	9,7

4. Mülkiyyətin dövlət tənzimlənməsi

Mülkiyyət münasibətlərinin iqtisadi və hüquqi istiqamətinin dəyişilməsinin təhlilində üç əsas mühüm məsələyə diqqət yetirmək lazımdır. Birincisi, xüsusi mülkiyyət yarandığı dövrdən indiki dövrə qədər və indinin özündə də mütləq xarakter daşıya bilməz. İkincisi, mülkiyyət münasibətləri ümumi, bütövlükdə o, cümlədən xüsusi mülkiyyət formasında da dəyişkəndir. Öz xüsusiyyəti ilə dinamik xarakterdədir. Üçüncüsü, dövlətsizləşdirmənin əsası olan özəlləşdirmə ilə bahəm, xüsusi mülkiyyətin ictimailəşməsi təmayülündə nəzərə çarpır. Bu təmayül isə mülkiyyət münasibətlərinin demokratikləşməsinə gətirib çıxardır.

Qeyd edək ki, hələ Roma hüququ dövründə, mülkiyyət hüququnun yeni formalaşması zamanı servitut institutu mövcud idi. (Servitut-antik feodal və kapitalist cəmiyyətində başqasının mal və mülkiyyətindən müəyyən dərəcədə istifadə etmək hüququ). Məsələn, hər hansı bir ərazidən keçmək hüququ, başqasının torpaq sahəsinə toxuna bilən tikintinin inşa edilməsi hüququ, bu və ya digər hüquqi aktların məhdudlaşdırılması, xüsusi mülkiyyətə mənsub olan ərazilərdə infrastruktur obyektlərinin yaradılmasına dövlətin hüququ və s.

ABŞ prezidenti T.Ruzvelt 1910-cu ildə bəyan etmişdir ki, «Hər bir insanın şəxsi mülkiyyəti kollektiv hüquqa tabe olub, ictimai tələbatın tələb etdiyi dərəcədə tənzimlənir»[1] Bu o deməkdir ki, mülkiyyət münasibətləri nəinki hüquqi məzmunca münasibətdir o, habelə mülkiyyətçinin vəzifəsidir.

[1] Цит.по *Шлезингер А.М.* Циклы американской истории. М.: Прогресс-Академия, 1992, С.340.

N.A.Berdyayev qeyd etmişdir ki, «Mülkiyyət öz təbiəti ilə mənəvi başlanğıcdır. O, maddi nemətlərin istehlakı ilə yanaşı, nəsildə, ailədə mənəvi həyatın varisliyini təmin edir. Mülkiyyətin başlanğıcı şəxsiyyətin metafizik təbiəti, zaman axınında müəyyən hadisəni yaratmaq, həyata keçirmək üçün daxili hüququ ilə əlaqədardır. Mülkiyyət insan şəxsiyyətinin təbii qüvvələrlə mübarizəsi şəraitində inkişaf edir. Azad insan təbii qüvvələrə qalib gələrək, onun üzərinə öz iradəsini qoyur və buradanda onun hüququ və məsuliyyəti doğur, zühur edir»[2].

İctimai nemətin birinciliyi baxımından, bu obyektiv şərtə uyğun olaraq dövlət daima mülkiyyət münasibətlərini həyata keçirməlidir. Buna isə mülkiyyət hüququnun qanunauyğun aktları vasitəsilə nail olunur. Yuxarıda qeyd olunduğu kimi müasir sosial yönümlü bazar iqtisadiyyatında dövlət və bələdiyyə (obyektlərinin) mülkiyyətinin özəlləşdirilməsi obyekti şərtdir. O, ölkənin normativ-hüquqi aktları vasitəsilə təsbit edilir.

Bununla yanaşı, nə qədər ziddiyyətli səslənsə də, özəlləşdirmə təmayülünün hüquqi təsbit olunması, mülkiyyət münasibətlərinin milliləşdirilməsi ilə üzvi surətdə əksiklik təşkil edir. Bu qarşı durmanı məntiqi belə izah etmək olar.

Birincisi, özəlləşdirməni həyata keçirən dövlət və bələdiyyə strukturları səhərəsi günün ictimai tələbatının və iqtisadi halların bütün incəliklərini obyektiv olaraq nəzərə ala bilmirlər.

İkincisi, özəlləşdirmənin gedişi prosesində elə tələm-tələsik səhv qərarlar çıxardıla bilər ki, ölkənin milli maraqlarının ziddinə olsun.

Üçüncüsü, hər bir ixtiyari investor müəssisənin milliləşdirilməsi ehtimalı ilə bağlı öz kapitalını itirəcəyi riskini də nəzərə almalıdır.

Özəlləşdirmə prosesini reqlamentləşdirən aydın qanunçuluğun olmaması, daxili bazarda investorların fəaliyyət stimulunu azaldır.

---

[2] *Бердяев Н.А.* Философия неравенства. Письма к недругам по социальной философии. Письмо двенадцатое. О хозяйстве. / Русская философия собственности (18-20 вв). СПб.: СП «Ганза», 1993. С.303-304.

İlk baxışda milliləşdirməyə dövlətin suverenliyinin yaranması ilə bağlı hüquqi akt kimi baxmaq olar. Bu əsasda xüsusi mülkiyyət dövlət mülkiyyətinə çevrilir ki, müəyyən müddətə təmin olunmuş olsun. Lakin bu zaman milliləşdirmənin müəyyən prinsiplərə əməl olunmalıdır. Bu prinsiplər aşağıdakılardır:

a) ictimai marağın səviyyəsi necədir;

b) milliləşdirmənin müddətsizlik xarakteri;

c) prosesual zəmanətə əməl olunması;

ç) mülkiyyət və digər zərərin ödənilməsi öhdəliyi.

Dövlət, kompensasiyanın həcmini verilmə vaxtını və qaydasını müəyyən edir. Onun xaricə çıxarılması və vergiyə cəlb olunması imkanlarını müəyyənləşdirilir. Bir sıra Qərb ölkələrində bir qayda olaraq kompensasiya qiymətli kağızlar formasında 50 ilə ödənilmək şərtilə verilir.

Hüquqi hadisə kimi yox, iqtisadi mahiyyətcə milliləşdirmə xüsusi mülkiyyətin cəmiyyətin resurslarına çevrilməsi ilə məhdudlaşmır. Onun iqtisadi mahiyyətinə dövlət sektorunu genişləndirmək üçün həyata keçirilən bütün fəaliyyət növləri daxildir. Bu təcrid etməklə, nəzarət paketinin bir hissəsinin və yaxud tam alınması (mərhələli milliləşdirmə), maliyyə, istehsal, təsərrüfat fəaliyyəti üzrə dövlət müəssisələrinin yaradılması və s. ola bilər.

Mülkiyyətin hüquqi tənzimlənməsinin dövlət tərəfindən həyata keçirilməsinin əsasları bunlardan ibarət olsa da, onun sosial məzmunu da nəzərdən qaçırılmamalıdır. Belə ki, dövlət xüsusi mülkiyyətin üzərində müəyyən məhdudiyyətlər də qoya bilər. Məsələn, iş gününün həddinin müəyyən edilməsi, iş şəraiti, texniki təhlükəsizlik, ekoloji normalara riayət olunması, dünya standartları tələbinə uyğun keyfiyyətli məhsul istehsal edilməsi istehlak istiqamətlərinin müəyyənləşdirilməsi və s.

Dövlət həmçinin mütabiq bazarlarda istehsal olunan və reallaşdırılan məhsul və xidmətlərin keyfiyyətlərinin və onların birbaşa istehlak istiqamətlərinin beynəlxalq standartlara uyğun olmasını tələb edir. Dövlət torpaq kadastrına uyğun olaraq torpaqdan istifadə üzrə qəti reqlament tətbiq edir, kənd təsərrüfatı təyinatlı torpaqların istismarı zamanı kənd təsərrüfatı

istehsalı sahəsində sahibkarın sərişt əliliyini təsdiq edən sənədin olması vacib sayılır[1].

Belə məhdudiyyətlərə, sahibkar gəlirinin tənzimlənməsi təcrübəsini, sosial əməkdaşlıq kompensiyasından irəli gələn iradəetmə fəaliyyətinin reqlamentləşdirilməsini aid etmək olar. İlk əvvəl iş verənlərlə muzdlu işçilər, həmkarlar birliklərində əmək müqavilələrinin bağlanması tariflərinin qaydaya salınması məcburiyyəti ilə əlaqədardır.

Sahibkar işçinin, mütəxəssisin əməyini bağlanmış müqavilə əksini tapmış səviyyədən aşağı qiymətləndirə bilməz. Aztəminatlı ailələrə sosial təminatların verilməsi, vergiyə cəlb olunmanın mütərəqqi mexanizmi əsasında gəlir və sərvətin yenidən bölgüsü və s. sosial funksiyaların yerinə yetirilməsidə dövlət məhdudiyyətliklərinə aiddir.

Hesab edilir ki, əhalinin 20% ən varlı və ən kasıb təbəqəsinin pul gəlirinin arasındakı fərq 12 dəfədən çox olmamalıdır. Bu həddin çoxalması cəmiyyətdə sosial-siyasi gərginliyin ciddiləşməsi ilə müşayiət olunur. Elə bu faktın özü gəlir və sərvətin yenidən bölgüsünün zəruriliyini meydana gətirən ilkin amillərdəndir. Bu ABŞ-da uyğun proseslərin tənzimlənməsi təcrübəsində öz əksini tapmışdır. Məsələn, 80-cı illərdə dövlət tənzimlənməsi nəzərə alınmadan 20% ən varlıların gəlirləri 20% ən kasıbların gəlirləri, arasındakı fərq 52,4 dəfə olmuşdur. Dövlət tənzimlənməsinin təsirinin nəzərə alınması şəraitində bu fərq 9,7 dəfə təşkil etmişdir[2].

«ABŞ-da gəlirlər, inkişaf etmiş ölkələrin çoxundan fərqli olaraq daha az ədalətli bölünür»[3]. Məsələn, ABŞ əhalisinin 20% ən varlı təbəqəsinin gəlirləri 43,7%, ən kasıbların gəlirləri 4,6%

Hətta «ən təmiz» kapitalist iqtisadiyyatında mülkiyyətdən istifadə hüququna məhdudiyyətlər qoyulur. Məsələn, insanlar mülkiyyətlərindən öz arzularına görə istifadə etməkdə sərbəst deyildirlər. Yaşayış massivinin ərazisində fabriklərin tikilməsi qeyri qanuni akt hesab edilir. Fişer S. Dorenbuş R. Şmalenzi R. «İqtisadiyyat» «İş» nəşr 1993, səh. 58

[2] *Макконел К.С. Брйу.* «Экономикс» Республика 1992, с. 280

[3] *Волков А.МС.* «Швеция: социально-экономическая модель».М., 1991, с. 89

təşkil etmişdirsə, İsveçrə də bu göstəricilər uyğun olaraq 37,5% və 12% olmuşdur.

Nəhayət, mülkiyyətinin öz kapitalından istifadə etməsi və sərəncam verməsi inhisarı üzərində məhdudiyyətlər, bir sıra qərb ölkələrin qanunlarında təsbit olunmuşdur. Məsələn, müəssisələrin idarə olunmasında, muzdlu əməyin, nümayəndələrinin mütləq iştirakı vacib hesab edilir.

İqtisadi məsələlərin həllində sosial və kadr seçimində, muzdlu işçilərin nümayəndələrin və həmkarlar təşkilatlarının iştirakı üçün geniş hüquqlar verilmişdir.

Məsələn, Almaniya Federativ Respublikasınında qanunla qəbul olunmuş 6 formada iştirak variantı mövcuddur ki, 20 mln nəfər məşğul olanları əhatə edir.

Bununla əlaqədar, dağ mədən-sənayesi müəssisələrində, müəyyən qərarların qəbul edilməsində fəhlələrin iştirakı haqqında 1951-ci il qərarını yada salmaq lazımdır. Bu qanun dağ-mədən və poladəritmə sənayesi müəssisələrində fəhlə marağını güddüyünü görürük. Bu sahibkarların həyata keçirdikləri siyasətə nəzarət etməyə imkan verir. Və yaxudda, sahibkarın müəssisənin fəhlə kollektivlərinin hüquq və vəzifələri haqqında 1972-ci il qanunu. Bu qanun, seçki hüququna çatmış və 5 işçisi olan bütün özəl müəssisələri əhatə edir. Bu qanuna əsasən, müəssisənin idarə olunması və qərarların qəbul edilməsi hüququ, istehsal şüraları vasitəsilə reallaşdırılır. Nəzarət şurasınında, muzdlu fəhlələrə 30% yer verilmişdir. Müəssisələrin idarə olunmasında şərikliklə iştirak etmək haqqında 1976-cı il qanununda mühüm əhəmiyyətə malikdir. Bu qanun işçisi 2 min nəfərdən artıq olan müəssisələri əhatə edir. 1972-ci il qanundan fərqli olaraq, iri müəssisələrin nəzarət şürasında iş verənlərə və fəhlələrə yer verilir. Pat vəziyyətinin yarandığı halda, nəzarət şürasının sədri əlavə səs hüququna malikdir ki, məsələnin bu və digər tərəfin xeyrinə həll etsin.

Xüsusi mülkiyyət münasibətlərinin dövlət və ictimai tənzimlənməsində, səhmdarların sayının artırılması vasitəsilə, prosesldərin bilərikdən istiqamətləndirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu zaman hansı məqsəd nəzərdə tutulur. Görünür ki,

hər şeydən əvvəl sahibkarlar özçəkisinin genişləndirilməsi vasitəsilə sosial-siyasi stabilliyin möhkəmləndirilməsi nəzərdə tutulur. Səhmdar, səhm adlanan qiymətli kağızların mülkiyyətçisidir. Səhm sahibi, hətta həmin müəssisənin muzdlu işsiçi olsada belə, özü imkanlarını «şərik sahib» kimi müəssisədə reallaşdıra bilmir. Faktiki olaraq o müəssisənin sahibi yox, səhmin sahibidir.

Səhmdarın, mülkiyyətçi marağı, faktiki olaraq çalışdığı müəssisədə yox, onun özünə məxsus səhmlərinə sərbəst kotirovkası şəraitində fond birjalarında reallaşır. Bu səhmlərin bazar qiyməti (bazar kursu) təkcə onun müəssisəsənin təsərrüfat nailliyətlərindən bir başa asılı deyildir. Ona ildən-ilə, ölkədə gedən sosial-siyasi və ümumi iqtisadi situasiyalar təsir göstərir. Bu özünü kəmiyyət göstəricilərində, məsələn, ABŞ-da Dou-Conson indeksindən çox sadədir. Belə ki, ölkədə sosial-siyasi və ümumi iqtisadi situasiya pisləşdikcə, milli qiymətli kağızların məzənnəsi aşağı düşür. Buna görə sahibkar və səhmdar ölkədə sosial-siyasi və ümumi iqtisadi vəziyyətin möhkəmlənməsinə var gücü ilə çalışır. Elə buradanda onun «şərik-sahib» marağı meydana gəlmiş olur.

5.Keçid iqtisadiyyatında sərfəli sahibkar problemi

Mülkiyyət münasibətlərinin dövlət tənzimlənməsində, sərfəli sahibkarın formalaşması və yaradılması prosesi mühüm əhəmiyyətli istiqamət hesab edilir. Bazar iqtisadiyyatı şəraitində sahibkar kimi, əsas iqtisadi subektlər olan ev təsərrüfatı, özəl firmalar, dövlət və bələdiyyə istehsal təsərrüfatlarının təşkili çıxış edir. «Sərfəli sahibkar» anlamı bunların hər birinə aid edilə bilər.

Sərfəli sahibkarın səciyyəvi xüsusiyyətinin meyarı, onun iqtisadi subekt kimi, mülkiyyətin sadə və geniş təkrar istehsal etmə bacarığı, səriştəliliyi çıxış edir. Lakin iqtisadi sistemdə hər təsərrüfat subektinin özünəməxsus, onun daxili xüsusiyyətinə xas olan funksiyaları vardır. Bu funksiyalar fərdi və ictimai, açıq və gizli xüsusiyyətdə ola bilərlər. Açıq, eyni zamanda fərdi

funksiya, ev təsərrüfatının bir subyekt kimi, ailənin maddi əsası olan, ona məxsus daşınan və daşınmaz əmlakın genişləndirilməsi və təkrar istehsalı funksiyasıdır.

Gizli-ictimai funksiya, cəmiyyətin ilkin sosial-iqtisadi özəyi olan ailənin yaradılması və təkrar istehsalı funksiyasıdır ki, burada mənəvi, sosial-siyasi milli, iqtisadi və s. dəyərlər daxildir. Bura həmçinin əhalinin əmanətləri də aiddir ki, milli iqtisadiyyatın maliyyə-investisiya potensialını formalaşdırır

Buna uyğun olaraq, xüsusi mülkiyyətçi – sahibkarın və həmçinin səhm sahibinin bir fərd kimi açıq funksiyası, glirinin maksimumlaşdırılması fəaliyyətidir. Hələ vaxtı ilə A.Smit qeyd etmişdir ki, biz öz naharımızı dadarkən, ətçinin, pivə və ya kömbə bişirənin səxavətinə yox, onun öz maraqlarını güddüyünü nəzərə almalıyıq. Hər kəs xüsusi marağı təqib edərkən, gizli əl vastəsilə, elə nəticələr qazanırki, bu heç onun niyyətində də deyildir. Bu nəticə tədiyyə qabiliyyətli tələbin və cəmiyyətin maddi tələbatının təmin olunmasıdır. Göründüyü kimi, sahibkarın funksiyası sanki, parçalanaraq, daxilində onun özünə məlum olmayan və keyfiyyətcə, başqa formada səslənən yük daşıyır. Başqa sözlə tədiyyə qabiliyyətli tələbin təmin olunması sahibkarın gizli funksiyasıdır. Sahibkarların bu faktı dərk etməsi son nəticədə onun bütün fəaliyyətində marketinqin meydana gəlməsinə səbəb oldu.

Lakin bu, gəlirin maksimumlaşdırılması üçün medalın bir tərəfidir. Onun ikinci tərəfinin mahiyyəti ondan ibarətdir ki, gəliri maksimumlaşdırmaq üçün sahibkar, öz kapitalı vastəsilə təkrar istehsalın genişləndirilməsini investisiyalaşdırmalıdır. Bu milli ictimai kapitalın elementidir. Beləliklə sahibkarın açıq funksiyasının reallaşması-gəlirin mksimumlaşdırılması - dəyər ifadəsində kapitalın istehsalı həcminin artması və ictimai məhsulun həcminin artması ilə bağlıdır. Bu bağlılıq-gəlirin maksimumlaşdırılması- funksiyasının xüsüsi kapital əsasında ictimsai kapitalın artırılması funksiyası ilə gizli bağlılığıdır.

Elə bu gizli-ictimai funksiya cəmiyyətin iqtisadi fəaliyyətinin məlum bazar modelləri ilə müqayisədə sahibkarın

dominatlığını göstərir. Bununlada sahibkar, sadə talançıdan fərqlənir. Çünki, o ictimai kapitalın artımını öz kapitalının artımı ilə bağlanmasına çalışır. Dövlət isə cəmiyyətdə maraqlar balansının təmin olunmasında, öz funksiyasının reallaşdırılması çərçivəsində sahibkarları hər vasitə ilə dəstəkləməli, onların gizli funksiyalarının yerinə-yetirilməsinə yardımçı olmalı, onları açı şəxsi xarakterli funksiyanın üstələməsinə yol verməməli və faktiki olaraq sahibkarlıq və talançılıq fəaliyyətlərinin yaxınlaşmasına şərait yaratmamalıdır. Öz növbəsində dövlət, istehsal resurslarının mülkiyyətçisi kimi nəinki açıq funksiyanı, habelə gizli funksiyanı da yerinə yetirir. Dövlət müəssisələrinin gizli və açıq funksiyalarının mahiyyəti nəinki, gəlirin maksimumlaşdırılmasına xidmət etməlidir o, habelə bir tərəfdən milli iqtisadiyyatın və cəmiyyətin həyatı fəaliyyətinə şəraiti təmin etməli, digər tərəfdən isə onların daxilində iqtisadi və sosial siyasi maraqları dəstəkləməkdən ibarətdir. Başqa sözlə desək dövlət müəssisələrinin açıq funksiyası, dövlətin əsas funksiyasının yerinə yetirilməsi formasından başqa bir şey deyildir. Dövlət, xüsusilədə dövlət-xüsusi qarışıq mülkiyyətli məüssisələrinin gəlirinin maksimumlaşdırmaq funksiyasının zəruriliyini inkar etmək qeyri adi olardı. Bununla belə, dövlət və xüsusi məüssisələrin məqsəd fəaliyyətliliyi, əhəmiyyətli dərəcədə fərqlidir. Xüsusi müəssisələrdə bu məqsəd mikrosəviyyədə formalaşaraq fəaliyyət göstərirsə, dövlət müəssisələrində milli iqtisadiyyatın makrosəviyyəsi nəzərdə tutulur. Bu xüsusiyyətdən çıxış edərək, dövlətin vəzifəsində dövlət müəssisələrinin və təşkilatlarının, dövlət mülkiyyətinin idarə edilməsinin əsas atributu olduğu qeyd edilməlidir.[1]

Xüsusi firmanın vəzifəsi açıq və gizli funksiyasını istehsalın inkişafı ilə şərtləndirməkdir. Müəssisələrin mürəkkəb bir

[1] Dövlətin təşkilndici vəzifəsinin zəruriliyi ümumi qəbul edilmişdir. Hələ vaxtilə H.Ferq « Ford-mator» firmasının vəzifəsini « əhaliyə ucuz nəqliyyat təqdim etmək» kimi formalaşdırmışdır. Əgər kimi bunu edərsə mənfəət ondan yan keçə bilməz. Deməli kompaniya fəaliyyət göstərdiyi müddətdə daxili və xarici problemləri həll etməlidir. Daxiliməqsəd öz səhmdarlarını gəlirlə təmin etmək, xarici-məqsəd əhaliyə ucuz nəqliyyat təqdim etməkdir.

sistemi kimi milli iqtisadiyyatın xüsusi bölməsinin vəzifəsi, xarici və daxili bazarın tədiyyə qabiliyyətli tələbatını ödəməkdən və bunun əsasındada ev təsərrüfatının, gəlirinin və dövlətin gəlirini artırmaqdır. Uyğun olaraq dövlət müəssisələrinin rolu, onların öz funksiyalarından və habelə dövlətin funksiyalarından törəyən vəzifələrlə müəyyən olunur.

Qlobal ölçüdə milli iqtisadiyyatın vəzifəsi, dövlətin iqtisadi strategiyasının tərkib hissəsi olub, daxili və xarici rəqabət şəraitində dünyanın müəyyən növ məhsul və xidmətlərə istehlak tələbinin bir hissəsini təmin etmək imkanını əks etdirməkdir.

Xarici məqsədi-dünya əhalisinin maddi və mənəvi tələbatını ödəməkdən, daxili məqsədi ölkənin Ümumi Daxili Məhsulunu artırmaqdır.

Bununla əlaqədar, qloballaşan bazar şəraitində dövlət bölməsinin inkişafı və fəaliyyətinin xarici məqsədi, milli iqtisadiyyatın rəqabət üstünlüyünün təmin olunmasından başqa bir şey deyildir. Daxili məqsədi ölkənin əhalisinin həyat səviyyəsini və keyfiyyətini yüksəltməkdir. Buradan da praktiki olaraq dövlət bölməsinin müəssisə və təşkilatlarının, onların fəaliyyət effektivliyinin makro və mikro əlamətlərinə görə iki bloka ayrılması zərurəti meydana gəlir.

Birinci bloka makro effektlə işləyən müəssisələr aiddir. Bura dövlət təşkilatları, unitar dövlət idarələri, istehsal və sosial infrastruktur sahələrində fəaliyyət göstərən təşkilati-hüquqi formalı müəssisələr daxildir. (yanacaq enerji, nəqliyyat, hərbi-sənaye kompleksləri, elm, mədəniyyət, səhiyyə təhsil və maarif və s.

İkinci bloka bilavasitə dövlət büdcəsinin gəlirlərini dolduran, biznes fəaliyyətli, yüksək rentabelli dövlətin qalan müəssisələri daxildir.

Brinci blokdakı dövlət müəssisələrinin vəzifəsi, maksimum ucuz qiymətlərdə yüksək ictimai mahiyyətə malik olan əmtəə və xidmətlərə daxili tələbatı stabil və dəyanətli formada təmin etməkdir. Həmin müəssisələrin daxili məqsədi, istehsal miqyası və minimum xərclər effekti əsasında, kollektivin həyat

səviyyəsinin yaxşılaşdırılmasını və özünün təkrar innovasiyası üçün resurs bazasını maksimumlaşdırmaqdır.

İkinci blokun müəssisələrinində vəzifəsi, xüsusi müəssisələrinki kimidir.

Beləliklə, bazar iqtisadiyyatında bütün təsərrüfat subyektlərinin həyatı fəaliyyətində aşkar və gizli funksiyaların birgə ifadə olunması və iştirakı məcburidir, sərfəli mülkiyyətçinin səciyyələndirilməsində müəyyənedicidir.

Ev təsərrüfatında bu məsələyə başqa formada yanaşılır. Çünki, onların əmanətləri, dövlət və korporativ qiymətləri vasitəsilə innovasiya potensialına transformasiya olunur. Əhalinin əmanətlərinin hansı formada olmasından asılı olmayaraq potensial yox, real investisiya hesab olunur. Fərq ondan ibarətdir ki, bir halda onlar ölkə investisiya vastəçilərinin əlində olub iqtisadiyyatı investisiyalaşdırırlar. Evdə valyuta formasında saxlanıldığı halda onlar ölkə iqtisadiyyatının valyuta mənsubluğunu investisiyalaşdırırlar. Döşək altında rubl vəziyyətində saxlanılarkən dolayı yolla onlar, ölkə sahibkarlarının rəqabət qabiliyyətini və investisiya imkanlarını aşağı salaraq xarici rəqibləri investisiyalaşdırmış olurlar.

Əhalinin əmanətləri, bütün dünyuda uzun müddətli investisiyaların əsasını təşkil edir. Təsədüfi deyildir ki, O.Bismark nominalı bir marka olan səhm əldə etməyi arzu edirdi. Məqsəd ev təsərrüfatının nəqd investisiya potensialını birləşdirmək idi.[1]

Xüsusi sahibkarlıq fəaliyyətində effektli mülkiyyətçi onlar hesab olunur ki, təkrar istehsalın bütün səviyyələrində effektli təsərrüfat fəaliyyəti bacarığına malikdir. Bununlada o, birbaşa və ya dolayı yolla Milli kapitalın geniş təkrar istehsalına şərait yaratmış olur.

Dövlət müəssisələri anlamında fəaliyyət göstərən bir tərəfdən dövlətin özünün effektli meyarı bu və ya başqa yolla

[1] O.Bismarın bu ideyası faktiki olaraq kağız pul əvəzinə elektron pullardan istifadə edən ölkələrdə həyata keçirilmişdir.

ictimai məhsulun artırılması və istehsal xərclərinin aşağı salınması hesab olunur. Digər tərəfdən isə dövlət müəssisələrinin və sosial sferanın ictimai tələbatının maksimum ödənilməsi başa düşülür.

Beləliklə, bütünlükdə, ümumi formada iqtisadi və hüquqi məzmun mövqeyindən effektli mülkiyyətçi sahibkar müstəqim və qeyri-müstəqim yolla ictimai təkrar istehsalı təmin edən subek sayılır. Sosial müəyyənlik mövqeyindən mülkiyyət münasibətlərində effektli sahibkarın əlaməti onun, açıq və gizli, fərdi və ictimai funksiyaların məqsədyönlü optimal reallaşdırılması nəticəsində bütövlükdə cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsidir.

Sərfəli mülkiyyətsçinin, sahibkarın mövcudluğu, ətraf mühitin keyfiyyətilə birbaşa əlaqədardır. Bu isə özündə hüquqi, siyasi, sosial, mənəvi, texnoloji, təbii-iqlim kimi tərkib hissələri birləşdirir. Elə bunlar mövcud iqtisadi sistemdə sahibkar münasibətlərinə keyfiyyət müəyyənliyi verir. Buna ancaq dövlət və onda hakim olan mənəvi-etik normalar əsasında nail olmaq mümkündür.

Belə əlverişli mühitin dəstəklənməsi və formalaşdırılmasının diqqət vasitələri çox ifadəlidir. Ona özəlləşdirmə və Milliləşdirmə, inhisarsızlaşdırma və kooperativləşdirmə aiddir. Bu həm də dövlət bölməsində müflistəşmə haqqında hüquqi metodların, istehsalın yeniləşdirilməsi və ölçülüb-biçilmiş himayədarlığın formalaşmasında dövlətin vəzifələrinin ardıcıl olaraq reallaşdırılmasıdır.

Əhalinin əmanətlərinin iqtisadi təhlükəsizliyinin təmin olunması, onların investisiyaya yönəldilməsinin stimullaşdırılması vasitələri də xüsusi əhəmiyyətə malikdir. Maliyyə vasitəçilərinin gəlirlərinin kapitala çevrilməsində, gizli iqtisadiyyatın yox edilməsində dövlətin məqsədyönlü fəaliyyətinə imkan verir.

Suallar və tapşırıqlar

Çatışmayan sözləri yazın.

1. Mülkiyyət subyektiv-obyektiv (insan-əşya-nemət), habelə subyekt-obyekt (insan-insan) iqtisadi resurslar və s. həyati nemətlər, əşyalar … münasibətdir.

2. Mövcud subyektin xüsusi həyati fəaliyyətinin ictimai münasibətlərində, nemət bu və ya digər iqtisadi resursların …mənimsənilməsi.

3. Həyati fəaliyyətin digər subyektlərinin münasibətində nemət, iqtisadi resursların, … zəbt edilməsi özgələşdirilməsi.

4. Mülkiyyət hüququ … münasibətidir ki, mövcud nemətə subyektin hüququnu verir (əşya, informasiya, kapital), adətən bu, mülkiyyətə digər hüquqi və fiziki şəxslərin iddiasını, hüququnu rədd edərək, mülkiyyət üzərində hökmranlığı (tam və ya məhdud) qeydə alan bazar münasibətləri ehtiva edir.

5. Cəmiyyətin iqtisadi resurslarının istehlakı və mübadiləsi, istehsal, bölgü (yenidən bölgü) prosesi üzrə və habelə sərf nəzər edilmədən bütün ictimai münasibətlərin sosial-iqtisadi məzmununu mülkiyyətin mənimsənilməsi və özəlləşdirilməsi … həll edilir.

6. Subyektin mülkiyyət hüququ müstəsna olaraq … əxsdir.

7. Subyektin sosial-iqtisadi münasibətləri, bütün subyektlərin … münasibətləri hesab olunur.

© Горланов Г.В. 2002

VII Fəsil

SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI

1. Sahibkarlıq anlayışı və mahiyyəti

Ölkədə əhalinin həyat təminatının normal səviyyəsinə nail olmaq üçün sivil qanunlara əsaslanan sahibkarlıq fəaliyyəti formalaşdırılmalıdır. Çünki sahibkar və sahibkarlıq bazar prosesinin hərəkətverici qüvvəsidir.

Sahibkar-istehsalçı, istehsal prosesini sahibkarlıq gəlirinin alınmasına tabe edir, bu isə istehsalın inkişafı üçün yığımın mənbəyidir. Bunun üçün o, istehlakçı tələbinin bütün ölçülərini təmin edən məhsul istehsal edir. Xərcin hər rublu məhsulun müvəffəqiyyətlə satışına istiqamətlənir. Yəni xərc səviyyəsi elə müəyyənləşdirilir ki, məhsulun qiyməti aşağı olsun bu isə öz növbəsində istehlakçı tələbi yaratmağa xidmət etmiş olsun. Çünki, qiymətin aşağı səviyyəsi, məhsulun satışını artırır. Sahibkar məhsulunun xərcini digər əlavə xərclərdən sərf-nəzər edərək eyni zamanda keyfiyyətə diqqət yetirir ki, daha ucuz və çox məhsul sata bilsin. Başqa sözlə desək, sahibkar, bazar prosesinin və *təkrar istehsalın* effektivliyinin *aparıcı qüvvəsidir*. O, təklifin həcm və keyfiyyətini formalaşdırmaqla bahəm istehlak tələbi yaradır.

Bazar subyektlərinin əsas kütləsi, alıcı və satıcılarda, nəyin haradan neçəyə alınması və satılması haqqında məlumatı olmur. Bu zaman, sahibkar bazar mexanizminin aləti kimi çıxış edir. Gələcəyi görmə və əzmkarlığı sayəsində sahibkar bazarı təşkil edir və nəticədə gəlir götürür. O, kütlənin istehlak tələbini istiqamətləndirir və buna müqabil olaraq istehsalı təşkil edir. Mahiyyətcə sahibkar bazarın sektor və seqmentləri arasında özünə əlverişli əlaqələr yaradır. Sahibkarın səyi nəticəsində alınmış informasiyalardan istifadə edərək, istehsalı və istehlakı təyinatı üzrə istiqamətləndirir.

Bazar münasibətləri şəbəkəsinin qarşılıqlı əlaqələrinin vaxt sırası baxımından daima dəyişilməsi konkret bazar prosesini təşkil edir.

Sahibkar *rəqabətin hərəkətverici qüvvəsi* kimi, bazarda yarışın gedişinə aktiv təsir göstərir, mövcud olanla yeniistehsal olunmuş məhsulu müqayisə etməyə imkan verir. Rəqabət bazarında sahibkarın rolu da elə bundan ibarətdir.

Rəqabət-rəqiblərin yarışma prosesdir. O, passiv tərəflər arasında yox, bazar iştirakçılarından məsələnin mahiyyətini «havada tutanlar» arasında gedir. Onlar dəyişən mühitdə və məkanda nəyin mənfəətli olduğunu tez duyurlar və ona adekvat hərəkət edirlər. Bazarın rəqabət xarakteri təkcə onda deyildir ki, bazar iştirakçısı olan subyekt gedən prosesləri tez dərk edir, onun əsas işi rəqibindən daha tez fəaliyyət göstərərək, bazara zəruri məhsulu çıxarmağı bacarmaqdır.

Sahibkar *innovasiya və risklərin hərəkətverici* qüvvəsidir. O, digərlərindən daha tez və yaxşı görür ki, hansı sahələrə innovasiya resurslarını istiqamətləndirmək lazımdır və onun riskinin dərəcəsi nə səviyyədədir. Göstərir ki, risk onu sahibkarlıq mənfəəti ilə təmin edəcək və ya etməyəcək.

Rusiya və regionları əsas istehsal amillərinə, zəngin təbii resurslara, intellektual və innovasiya potensialına malikdir. Lakin bunlar hələ də, dünya və Milli bazarda rəqabət qabiliyyətli olmaq üçün kifayət deyildir. Bu məqsədlə Milli istehsalın xərclərinin, dünya istehsal xərclərindən aşağı olması üçün təbiətdən qənaətlə istifadə olunması zəruridir. Bunun üçün isə

bütünlükdə istehsal tsikli, yeni texnikaya malik olan qağaqcıl texnologiyalara əsaslanaraq təşkil edilməlidir.

Beynəlxalq səviyyəyə uyğun olaraq rəqabət qabiliyyətliliyi saxlamaq məqsədilə intellektual potensialın innovasiyalardan effektli istifadə olunmasına istiqamətləndirilməsi lazımdır.

Nəhayət, bazar prosesinin öyrənilməsi və mənimsənilməsi də vacibdir. Bütün bunların hamısı sahibkarı xüsusi məhsuldar qüvvə edir. Əsas problem isə onların sahibkarlıq fəaliyyətində necə istifadə olunmasından ibarətdir.

Bü gün, Rusiya və regionlarının iqtisadi böhrandan çıxaraq, dəyanətli iqtisadi inkişaf yoluna keçməsi və onün dünya bazar münasibətlərində bərabər hüquqlu subyektə çevrilməsi üçün sahibkarların öz strateji resurslarının reallaşdırılması mühüm amil hesab edilir. Bunun üçün sahibkarlığın iqtisadi mahiyyəti və məzmunu düzgün başa düşülməlidir. Bu elmi əsaslarla, müasir, sivill sahibkarlığın formalaşdırılmasına şərait yaratmış olur.

Sahibkarlıq nəzəriyyəsinin dərindən təhlili üçün iki fundamental əsas mövcuddur. Bunlardan biri iqtisadi təlimlər tarixi ilə məşğul olmuş alimlərin nəzəri mülahizələrinin öyrənilməsidir. Onlar lap əvvəldən sahibkarlığın nəzəri problemləri ilə məşğul olmuşlar və bu sahədə öz əməli fikirlərini söyləmişlər. İkincisi, keçmişlə müasir dövrün elmi ümumiləşdirmələrinin aparılmasıdır. Bunlar sahibkarlıq fəaliyyətinin formalaşdırılması prosesini aşkarlamağa imkan verirlər.

Sahibkarlıq nəzəriyyəsi bir neçə istiqamətdə inkişaf etmişdir. *Birinci* istiqamətin əsasında *sahibkarlıq riski* durur. Bu istiqamətin ilki fransız iqtisadçısı R.Kantilion (1680-1734) tərəfindən qoyulmuşdur. Onun fikrinə görə sahibkar ayrıca fərd olub, öz bacarığına və əzmkarlığına əsaslanaraq əlavə mənfəət almaq məqsədilə imkanlarını reallaşdıran şəxsdir. Həqiqi sahibkar özünün təkrar istehsalın bütün mərhələsində büruzə verir. O, başqalarından fərqli olaraq öz riski hesabına daha çox gəlir götürməyə çalışır. Sonradan bu fikirlər İ.Tyunen və F.Nayt tərəfindən inkişaf etdirilmişdir. Onlar «sahibkar» və

«sahibkarlıq» anlayışlarını gözlənilməyən risklərlə möhkəm bağlamışlar.

Sahibkarlıq nəzəriyəsinin inkişafında *ikinci istiqaməti* J.B.Sey və Marşallın baxışları ilə əlaqələndirmək olar. Onlar hesab edirdilər ki, sahibkarların funksiyası istehsal amillərinin (əmək, kapital, torpaq) elə səmərəli kombinasiyasını yaratmaqdır ki, nəticədə normal mənfəət əldə etmək mümkün olsun.

Üçüncü istiqamət sahibkarlıq nəzəriyyəsinin inkişafının məntiqi davamı Y.Şumpeter tərəfindən aparılmışdır. Onun fikrincə iqtisadi sistem o, zaman öz-özünə inkişafa qadirdir ki, onda istehsal amillərinin səmərəli kombinasiyası ilə yanaşı amillərin yeni uzlaşması yaransın, məhsul satışı üçün yeni bazar seqmentləri tapılsın, xammal mənbələri aşkar edilsin, əməyin elmi təşkili yaradılsın və s. Təkrar istehsal prosesində müxtəlif yeni kombinasiyalardan aktik istifadə edən iqtisadi subyekti Y.Şumpeter sahibkar adlandırmışdır. Daha sonra Y.Şumpeter qeyd edir « sahibkar» ixtiyri ictimai formasiya şəraitində nadir funksiyaya və qabiliyyətə malik olan fərddir. Bu sahədə L.Mizez, Y. Kritşner və F.Xayekin mühüm nəzəri fikirləri olmuşdur. Onlar bazar prosesinin innovasiya funksyasını açıqlamışlar. Belə ki, sahibkar daima axtarışdı olmalı, istehlakçıya məlum olmayan məhsul istehsal edərək onun üçün yeni tələb mənbəyi yaratmalıdır. Bununla onlar sübut edə bilərlər ki, bazar prosesi təkcə konyuktura və rəqabət situasiyalarından ibarət deyildər. Bazar həm də çoxlu sayda məhsulları olan mürəkkəb bir sistemdir.

Dördüncü istiqamət. Sahibkarlıq nəzəriyyəsinin inkişafına P.Druker, B.Karlof, B.Santo və başqaları da öz tövhələrini vermişlər. Onlar sahibkarlığa menecmentin əlahiddə növü kimi baxmışlar. Onların yeni paradiqmi sahibkarlıqla menecmenti birləşdirməkdən ibarətdir (paradiqma müvafiq, qismən mənasını verir). Elmi ensiklopediyalarda paradiqmatika anlamına iki tərəfdən baxılır:

a) gercəkliyin mühüm cəhətlərini dərk edən elmi nəzəriyyə:

b) müəyyən tarixi dövrdə elm aləmində konseptual məsələlərinin təqdiqat yolu ilə həlli.

Paradiqma hərfi mənadə xüsusi dərketmə kimi təsəvvür olunur, müasir dövrdə sahibkarlıqla menecmentin birləşdirilməsinə əsaslanır. Sahibkarlıqla menecment bir-birini əvəz edir, bir-birinin daxilinə nifuz edirlər. Menecment sahibkarlığa xidmət edilməsinə istiqamətlənir, idarəetmədə sahibkarlıq tərzini möhkəmləndirir.

Sahibkarlıq nəzəriyyəsinin inkişafı tarixinə nəzər saldıqdan sonra sahibkarlığın iqtisadi mahiyyətini və məzmununu açıqlamaq olar. Bu deilənlərə əsasən sahibkarlığın iqtisadi mahiyyətinə belə tərif vermək olar.

Sahibkarlıq- yüksək gəlir əldə etmək məqsədilə, daxili və xarici amilləri nəzərə almaqla, strateci uzaqgörənliklə gələcək proqnozların transformasiyasını həyata keçirməyi bacaran sahibkarın fəaliyyətidir.

Sahibkar bacarığı hər adamda olmur, bu şəxslər xüsusi müşahidə və seçmə qabiliyyətinə malikdirllər. Sahibkar yüksək intelektual, intiutsiya və evristik marağa malik şəxşlərdir. Bu xüsusiyyətlər ona çoxlu sayda mürəkkəb amillərin kombinasiyasından baş çıxarmağa, onların gələcək fəaliyyətini proqnozlaşdırmağa imkan verir. Bütün bu fəaliyyətini son nəticəsi ona sahibkar gəliri götürmək üçün şərait yaradır.

Sahibkar gəlirləri üç mənbəydən formalaşır.

Sahibkar öz imkanlarını təftiş edərək və gələcək istiqamətin proqnozunu dərk edərək zəruri istehsal vasitələrini alır. Öz bacarığını və innovasiya strategiyasını tətbiq edərək sahibkar elə bazarlar axtarıb tapır ki, aldığı istehsal vasitələri ona daha ucuz başa gəlsin, keyfiyyətli olsun. Beləliklə, sahibkar istehsal prosesində iştirak etmədən öz gəlirinin müəyyən hissəsini əldə etmiş olur. Onun gəlirinin bu hissəsini K_1- kimi qeyd edək.

İstehsal prosesində sahibkar istehlakçının tələbini ödəmək üçün yeni məhsul istehsal edir. Müəyyən innovasiya, texnoloji, idarəetmə fəaliyyətlərini yerinə yetirir. Bununla da o, gəlirinin bir hissəsini də qazanmış olur. (P_2)

İstehsal olunmuş məhsulun reallaşdırılması prosesində sahibkar qiymət strategiyasından istifadə edir. Belə ki, sahibkar tələb və təklif münasibətindən istifadə edərək, qiymətə nəzarət edir, dəllal funksiyasını icra edir.

Bununla belə sahibkar reallaşdırma prosesində, digər üsullarlada sahibkarlıq gəlirini əhəmiyyətli dərəcədə artıra bilər. Biz əvvəldə qeyd etmişik ki, müasir bazarda qiymətlər kor-təbii yaranmır. Tələb, təklif və qiymətin hərəkətini sahibkar idarə edir. Məhz, sahibkar statik biznesmenlə müqayisədə marketinq yanaşmadan istifadə edərək, qiymətin əmələ gəlməsinin səmərəli strategiyasını hazırlayaraq reallaşdırır. Adətən onun məhsulunun keyfiyyəti və qiyməti rəqabətli strategiyasında alıcılar üçün daha cəlbedici olur.

Belə ki, hətta bazarda mövcud qiymətlərlə müqayisədə, qiymətlərin aşağı salınması ilə də sahibkarlıq müəyyən hissəsini əldə etmək olar. Bu halda fərdi istehsal xərclərinin aşağı olması və onların müəyyən həddə qədər endirilməsi də artıq gəlir götürmək imkanı verə bilər. Eyni zamanda tələbin yüksək elastikuliyi şəraitində sahibkar, statik biznesmenlə müqayisədə vaxt vahidi ərzində daha çox məhsul kütləsi sata bilər.

Bununlada kapitalının dövretmə sürətini artıraq, sahibkar, gilirinin əlavə bir hissəsində almağa imkan yaratmış olur.

Yüksək texnologiyadan istifadə nəticəsindən alınan innovasiya məhsulunun qiyməti, məhsulun istehlak dəyərini əhəmiyyətli dərəcədə yüksəldir, bu isə inhisar gəliri almağa imkan verir. Bu zaman məhsulun keyfiyyəti və qiymətində müqayisədə alıcı uduzmur. Ticarət agentlərinin səriştəli və aktiv fəaliyyəti, obyektiv reklam alıcıları düzgün səmtləndirir. Bununla yanaşı sahibkarlara, məhsulu daha yüksək qiymətə satmaq üçün bazar tapmağa imkan verir. İş burasındadır ki, bu bazar da aşağı qiymət firmanın və məhsulun yüksək keyfiyyət imicini sarsıda bilər. Beləliklə, reallaşma prosesində sahibkar gəlirlərinin artması (P_3) baş verə bilər. Təkrar istehsal prosesində sahibkar gəlirinin (P_0) ümumi həcmi belə hesablanır. $P_0 = P_1 + P_2 + P_3$ haradakı P_0 – sahibkarlıq gəlirinin ümumi həcmidir.

Sahibkarlıq menecmentlə bir başa əlaqədardır. Məlumdur ki, menecmentin əsas vəzifəsi – mürəkkəb situasiyalarının idarə edilməsəsidir. Buna görə də sahibkar əsas məqsədini bu halda reallaşdıra bilər. (sahibkar gəlirinin dəyanətli, optimal həcmi). Bunun üçün menecment öz funksiyasını, inkişaf stğrategiyasına, ahibkar strukturunun daima dəyişilməsinə, ətraf mühitə uyğunlaşmasına istiqamətləndirilməlidir.

Sahibkarlıq fəaliyyəti planlaşdırılarkən, uyuşqan münasibətlər təkrar istehsal amillərinin yeni ahəngdarlığı nəzərə alınmalıdır. Beləliklə, istehsalın planlaşdırılmasının yeniləşdirilməsi və kollektivin idarə edilməsi hesabına, artıq istifadə olunmuş texnologiyanın səmərələşdirilməsinə nail olmaq olar. Bunun üçün, sahibkarlıq bacarığının, funksiyonal təşkilinə keçilməsinin inkişafının avtanom təsərrüfatçılığın təşkilinə keçməsini stimullaşdırmaq lazımdır.

İnnovasiyanın menecment strategiyası hər şeydən əvvəl, sahibkarlıq strukturunun və onun əhatəsinin fasiləsiz təhlilini tələb edir. Onun əhatəsi iki məqsədlə təhlil edilir.

Birincisi - innovasiya fəaliyyətindən öz uğurunu müəyyənləşdirməkdir. Bunun üçün firma və ya firma birliyinin öz imkanları, daxili resursları təhlil edilməlidir ki, perspektivdə inkişafın güclü və zəif tərəflərini müəyyən etmək mümkün olsun.

İkincisi – sahibkarlıq fəaliyyətinin nəticələrinə təsir edə bilicək çoxlu sayda əlverişsiz risklərin azaldılması və ya yox edilməsidir. Bu zaman makro və habelə sahibkarlıq əhatəsinin bilavasitə təhlili aparılır,

Birinciyə iqtisadi, hüquqi, siyasi, sosial, texnoloji, regional və s. fəaliyyət daxildir. İkinciyə məhsul tədarükçüləri, alanlar, möhtəməl rəqiblər, rəqabətin intensivliyi, sənaye kooperasiyası imkanları, onların inteqrasiyası və s. daxildir.

İnnovasiya menecmentinin strategiyasının və sahibkar riskinin seçilməsi üçün daha yaxşı variantın alternativinin axtarılması zəruridir. Seçilmiş strategiya uyğun planlarda, sahibkarlıq proqramı və firmanın hərəkət strategiyasında reallaşır. Menecment strategiyasına uyğun olaraq, firmanın təşkilati

strukturu tərtib olunur, onun kollektivinin hazırlanması və stimullaşdırılması mexanizm müəyyənləşdirilir. Nəhayət, sahibkarlığın bütünlükdə iqtisadi fəaliyyət prosesinə strateji nəzarət edilməsi zəruridir.

2. Sahibkarlığın inkişafının dövlət tənzimlənməsinin funksiyaları və prinsipləri

Müasir sahibkarlığın əsas problemi onun təşkilatı-təsərrüfat mexanizminin yaradılmasıdır. Sahibkarlıq fəaliyyətinin təşkilatı-təsərrüfat mexanizmi dedikdə, təsərrüfatın sahibkarlıq üsulu ilə aparılması, elmi əsaslandırılmış iqtisadi metod və vasitələr sistemi ilə təsərrüfatın təkrar istehsalının təşkili nəzərdə tutulur.

Sahibkarlığın təşkilatı-təsərrüfat mexanizmi, üzvi surətdə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki blokdan ibarətdir.

Bunlardan biri bazar-rəqabət sistemidir. Bu makro-mezo-mikro səviyyələrdə sahibkarlıq tipində təkrar istehsalın özünü təşkiletmə və özünüidarəetmə sistemidir. İkincisi, isə iqtisadi qanunlara o, cümlədən sahibkarlıq və bazar qanunlarına adekvat olan dövlət tənzimlənməsi sistemidir.

Sahibkarlığın bütün formaları, xüsusilə də onun formalaşması prosesi təşkilati-təsərrüfat mexanizminin hər iki blokda effektli fəaliyyəti vacibdir. Bu zaman sahibkarlığın dövlət tənzimlənməsi sisteminin rasional formalaşmasının konseptual əsaslarının aşkarlanması mühümdür. İnkişaf etmiş sahibkarlıq dünyasında ümumi formada qəbul edilmişdir ki, bu və ya digər formada, səviyyədə dövlət tənzimlənməsi sosial bazar iqtisadiyyatının qanununauyğunluğudur.

Sahibkarlığın dövlət tənzimlənməsi özündə iqtisadi, sosial, təşkilatı, hüquqi və siyasi təminatlar sistemini ehtiva edir ki, bunlar müasir sahibkarlıq mühitinin formalaşmasına, onların dəyanətli inkişafına şərait yaradırlar. Bu zaman dövlət sahibkarlığın formalaşması prosesində aşağıdakı funksiyaları yerinə yetirir.

Birincisi – dövlət iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərə bilən, innovasiya riski ilə bağlı olan imkanları reallaşdıran bacarıqlı müasir sahibkarlıq subyektini formalaşdırmalıdır. Bunun üçün dövlət kifayət qədər müxtəlif imkana və vasitələrə malikdir. Dövlət sahibkarlığı iqtisadi azadlıqla təmin edir, iqtisadi məkanda hamı üçün eyni «oyun qaydalarını» tətbiq edir, sahibkarlığın stimullaşdırılması mexanizmini formalaşdırır, habelə vergiqoyma, kredit, sığorta və s. elmi əsaslandırılmış tənzimləmə sistemindən, istifadə edir. Sahibkarlıq təhsilinin formalaşması, onların hazırlığı və yenidən ixtisaslaşmasının təşkili də dövlətə məxsusdur.

İkincisi – dövlət rəqabət mühitini formalaşdırmalıdır. Bu mühit həqiqi iqtisadi yarışmanı əks etdirməli, elm və texnikanın nailiyyətlərinə əsaslanan texnologiyaların, innovasiyaların tətbiqi ilə sahibkarların birinin digərinə nisbətən üstünlüyünü göstərməlidir. Həmin mühitdə sahibkarlıq riski, səmərəli özəlləşdirmə, antiinhisar siyasətinin effektiv mexanizmi, yerli sahibkarların xarici iş adamlarının rəqabətinə dözmək, tab gətirmək üçün proteksionizm qanunundan istifadə olunması öz əksini tapmalıdır.

Üçüncüsü – innovasiya əsasında yüksək keyfiyyətli məhsul istehsal edilməsinə, təklifin davamlı artımı üçün şəraitin yaranmasına nail olunmasıdır. Bu şəraitə sahibkarlığın dəstəklənməsi və stimullaşdırıcı yardımların köməkliyi vasitəsilə nail olunur. Yeni məhsul və xidmətlərin təklifi dövlətin uyğun innovasiya siyasətinin olmasını tələb edir. Bu bütövlükdə innovasiya tsikli çərçivəsində sahibkarlıq strukturunun və sahibkarlıq strategiyasının istiqamətləri ilə əlaqələndirilməlidir. Burada söhbət təkrar istehsal sferalarının makro-mezo-mikro səviyyələrində fundamental və tətbiqi elmlərin istiqamətindən gedir.

Rəqabət qabiliyyətli yeni məhsul təklifinin formalaşması dövlət tərəfindən vergi, maliyyə-kredit, sığorta, amortizasiya siyasəti və s. vasitəsilə stimullaşdırılır. Dövlət iqtisadi siyasəti ilə, hər bir regionu rəqabət qabiliyyətli məhsul istehsalında, sahibkarlıq strukturunun istiqamətinin dəyişilməsində mükafat-

landıra bilər. Bütün bunların hamısı sahibkarlığın inkişafına təkan verir, onların fəaliyyət dairəsini genişləndirir.

Dördüncüsü – innovasiyalı məhsula bir başa tələbatın formalaşması və stimullaşdırılmasıdır. İlk əvvəl elm tutumlu məhsula dövlət sifarişləri sisteminin hazırlanması zəruridir. Bu zaman dövlət sifarişlərinin cəmiyyətin tələbatı üçün zəruri olan elm tutumlu məhsulların istehsalı proqramı çərçivəsində formalaşdırılması nəzərə alınmalıdır. Dövlət sifarişinə daxil olan elm tutumlu məhsullara aid edilir; ölkənin müdafiəsi və təhlükəsizliyi üçün nəzərdə tutulan məhsullar, xaricdən gətirilən məhsulların rəqabətinə davam gətirmək və qiyməti aşağı salmaq məqsədi ilə dövlət müəssisələri üçün elmi-texniki nailiyyətlər əsasında hazırlanmış avadanlıqlar istehsalı, bəzi hadisələr üçün nəzərdə tutulmamış ehtiyat məhsul istehsalı.

Beşincisi – sahibkarlığın təşkili və bazar infrastrukturunun formalaşdırılması funksiyasıdır. Hazırda dövlət kiçik biznesin infrastrukturunun yaradılması problemini müəyyən qədər dəstəkləyir və həll edir. Lakin nəzərə almaq lazımdır ki, kiçik biznesin infrastrukturu, bütünlükdə sahibkarlığın və sahibkarlıq fəaliyyətinin (kiçik, orta və iri həcmdən asılı olmayaraq) infrastrukturunun tərkib hissəsi olmalıdır.

Bu funksiyanı yerinə yetirmək üçün uyğun bazarlar sisteminin yaradılması tələb olunur- milli, regional, yerli və MDB çərçivəsində. Eyni zamanda dövlət, idarə sisteminin, firmaların, strukturların yaradılmasını dəstəkləməlidir. (informasiya-konsaltinq mərkəzləri, elmi təminat, sahibkarlıq kadrlarının hazırlanması və təhsilinin yüksəldilməsi, lizinq və marketinq xidməti, innovasiya mərkəzləri, sahibkarlar ittifaqı).

Altıncı funksiya – mövcud prosesin sosial istiqamətinin təmin edilməsidir. Bu funksiyanın yerinə yetirilməsi üçün sahibkarlıq strukturlarının diqqətinin nəinki iqtisadi effektin, habelə sosial effektin alınmasına istiqamətlənməsi tələb olunur. Çünki sosial effektin sahibkarlar tərəfindən təmin olunması, birbaşa əhalinin yaşayış səviyyəsinin əsasını təşkil edir. Sahibkarlığın mahiyyətinin və rolunun düzgün qiymətləndirilməsi üçün dövlətdən təkrar istehsalın stimullaşdırılması, rəqabətin inkişaf

etdirilməsi, innovasiya prosesinin tənzimlənməsi tələb olunur. Bu milli iqtisadiyyatın dinamiki və dəyanətli inkişaf səviyyəsinin yüksəldilməsi imkanlarını artırır. Burada əsas istiqamət milli sərvətin artırılması və hamının rifahının yüksəldilməsi imkanlarının genişləndirilməsi olmalıdır.

Dövlət tərəfindən bu və ya digər funksiyaların səmərəli yerinə yetirilməsi üçün müəyyən prinsiplərə əməl edilməlidir ki, bunlar da aşağıdakılar hesab olunur:

- sahibkarlığın cəmiyyətin inkişafında rolu və mahiyyətinin elmi əsaslandırılması və dərk edilməsi;
- müasir sahibkarlıqda səmərəli, rasional himayədarlıq
- İqtisadi və sosial məqsədlərin üzvi uyğunlaşmasının təmin olunması.
- Proqram-məqsədli tənzimləmə.
- Elastiki differensial yanaşma.
- Dövlət dəstəyinin motivləşdirilmiş istiqaməti.
- Sahibkarlığın çoxlu formalarının mövcudluğu.
- Dövlət, regional, bələdiyyə xidmətləri arasında əməyin bölgüsü və kooperasiyası.
-

3. Sahibkarlıq fəaliyyətinin iqtisadi və hüquqi əsasları

Sahibkarlığın dövlət tənzimlənməsi strukturunun yaradılması bir neçə istiqamətləri əhatə edir. Onların əsaslarından sayılan bəzilərinə diqqət yetirək.

İlk əvvəl sahibkarlığın inkişafı və fəaliyyətinin hüquqi təminat sisteminin formalaşmasıdır.

Bunun üçün əməli olaraq bir sıra federal qanunların və hüquqi-normativ aktların tərtib olunması zəruridir. Hazırda «Rusiya Federasiyasında sahibkarlıq fəaliyyətinin əsasları haqqında» Federal qanununa kəskin ehtiyac duyulur. Sistemi formalaşdıran bu qanunda, sahibkarlığın təşkilatı-hüquqi müəyyənliyi verilməli, kiçik, orta, iri sahibkarlığın meyarları göstərilməlidir. Bu qanunda sahibkarlığın dəstəklənməsi və dövlət

tənzimlənməsinin əsasları aydınlaşdırılmalı, onun reallaşdırılması mexanizmləri təyin olunmalı, sahibkarlığın dəyanətli inkişafını təmin edən qanunlar sisteminin formalaşmasıvna prinsipial yanaşma formalaşdırılmalıdır. Bu qanunu onunla əlaqədar olan qanunlarla gücləndirilməlidir. «Xüsusi sahibkarlıq haqqında», «Dövlət sahibkarlığı haqqında», «Müştərək Sahibkarlıq haqqında», «Korporativ sahibkarlıq haqqında», «Kiçik və orta ahibkarlığın əsasları haqqında» və s.

Sahibkarlığın inkişafının təmin olunmasının hüquqi sisteminin formalaşması zamanı, hüquqi aktların elmi cəhətdən yüksək olması zəruridir. Onlar bir – birini təkzib etməməli, imkan daxilində müstəqim təsir mexanizminə malik olmalıdırlar.

Sahibkarlıq hüququnun qorunması, onun reallaşması mexanizmi, onların və s. tərəflərdən pozulması məsuliyyəti nəzərdə tutulmalıdır. Müasir sahibkarlığın dəstəklənməsi və maliyyə təminatının dövlət tənzimlənməsi sisteminin yaradılması da az əhəmiyyətli deyildir. Bu dövlətin vergi, kreditləşmə sığorta, maliyyə, amortizasiya və siyasətinin keyfiyyətcə təkmilləşdirilməsinin tələb edir. Belə təkmilləşməsinin beş əsas istiqamətini qeyd etmək olar.

1. Güzəştli vasitələrlə sahibkarlıq fəaliyyətinin effektli stimullaşdırılması üçün vergiyə cəlb olunma sistemində əsaslı dəyişikliklər edilməsi.

2. Mövcud kreditləşmə təcrübəsində keyfiyyət dəyişikliklikinin aparılmasının zəruriliyi. Dövlətin kredit resurslarının yaradılması və artırılması və ortamüddətli kreditlərin kommersiya banklarından verilməsi stimullaşdırılması həyata keçirilməlidir.

Sahibkarlıq strukturunun federal və regional səviyyələrdə mütəşəkkil mənbələrdən dəstəklənməsi fondları sisteminin yaradılması mühümdür (dövlət büdcəsi və sahibkarlıq gəlirlərindən ayrılmalar, kiçik müəssisələrə kömək məqsədi ilə beynəlxalq təşkilatların ayırdıqları resurslar). Sahibkarlığın qarşılıqlı kreditləşməsi cəmiyyətlərinin yaradılmasına, xüsusilə də iri miqyaslı lahiyələrin həyata keçirilmsəsinə, Rusiya iqtisadiyyatının «artım nöqtəsi»-ndə innovasiya rəqabətinin təşkili üçün

xarici investorların cəlb olunmasına hər vasitə ilə köməklik göstərilməlidir. Riskli kapitalın, riskli firmanın innovasiya fondlarının formalaşdırılmasında dövlətin iştirakı zəruridir.

3. Sahibkarlıq fəaliyyətinin sığortalanması sferasında dövlət tənzimlənməsi vektoru dəyişilməlidir. Bunun üçün innovasiya prosesinin sığortalanmasının dövlət və bazar formalarının səmərəli uyğunlaşdırılması təmin edilməlidir. Müxtəlif yollarla təsisçisi dövlət və sahibkarlıq strukturları, innovasiya və investisiya fondları sığorta cəmiyyətləri və riskli firmalar ala bilən sahibkarlığın qarşılıqlı sığortalanması cəmiyyətlərinin yaradılmasına hər vasitə ilə köməklik göstərilməlidir.

4. Sahibkarlığın bütünlükdə infrastruktur sahələri ilə təminatının təşkili sisteminin formalaşdırılmasındada çox işlər görülməlidir. Burada sahibkarlığın infrastruktur təminatı proqramının, xüsusilədə «Sahibkarlığın infrastruktur təminatının təşkilinin əsasları haqqında» Federal qanunun qəbul edilməsi əhəmiyyətli yola malikdir. Həmçinin kiçik sahibkarlığın dəstəklənməsinin Federal fondu sahibkarlığının dəstəklənməsi fonduna çevrilməlidir. Bu zaman onun formalaşmasının bütün mənbələrini birləşdirmək lazımdır; dövlət büdcə maliyyəşməsi, sahibkarlıq strukturlarının gəlirlərindən artırmalar, kiçik sahibkarlığın inkişafına beynəlxalq təşkilatların ayırdıqları vəsaitlər və s. Regional səviyyələrdə fəaliyyət göstərən dağınıq infrastruktur sahələri, bütünlükdə sahibkarlığa xidmət edən infrastruktur sisteminə çevrilməsi məsəsəsidə mühüm hesab edilir.

5. Sahibkarlığın uzun müddətə (15il) inkişafı konsepsiyası hazırlanmalı onun tənzimləmə strategiyası müəyyənləşdirilməli və bu əsasdada innovasiya siyasəti qurulmalıdır. Bu strategiya aparıcı formaların fəaliyyətini dünya bazarının dərin qatından başlayaraq, Milli, regional bazarları əhatə etməlidir.

Sahibkarlıq strakterigyasının təminatının elmi konsepsiyası dəqiq strukturlaşdırılmalıdır. Birincisi, dövlət tənzimlənməsi səviyyəsində. Bu zaman makrosəviyyədə (Federasiya üzrə bütövlükdə) mezo səviyyə (regional üzrə) nəzərdə tutulmalıdır.

İkincisi, fundamental elmlərin innovasiya təminatı fazaları üzrə, tətbiqi tədqiqat və təcrübə konstruksiya layihələrinin

tərtibi, innovasiyanın bölüşdürülməsi və ilkin mənimsənilməsi nəzərdə tutulmalıdır.

Konsepsiyada bir sıra sistemlərin formalaşması proseslərinin dövlət tənzimlənməsi istiqaməti ayrılmalı və qeyd edilməlidir. Onların tərkibində: sahibkarlığın kadr təminatı, sahibkarlığın xarici iqtisadi fəaliyyətinin dəstəkləqməsi, sahibkarlığın dəstəklənməsi və tənzimlənməsi üzərində nəzarət və əsas rol oynayırlar.

Suallar və tapşırıqlar

1. İqtisadçı alim İrvinq Kristol (ABŞ) qeyd etmişdir: «Çox vaxt yuxarı pillə rəhbərləri özlərini «Menedcer» bəzi hallarda «peşəkar menedcer» adlandırırlar. Əgər bu həqiqətdirsə onlara daha çox haqq verirlər.»

İ.Kristol niyə belə fikirləşir? «bazar iqtisadiyyatlı ölkələrdə firma rəhbərlərinə nə üçün yüksək haqq verilir?»

Qeyd: Cavablar İ. Kristolun cavabları ilə müqayisə olunacaq.

2. A və B firmaları yay üçün, eyni modeldə və eyni xammaldan, eyni modeldə qadın ayaqqabıları istehsal edərək, bir bazarda reallaşdırırlar. Bu modelin 2000-ci ildə satış qiyməti 3000 rubldur. A firması 2001-ci ildə ənənəvi marketinq, menecer. İstehsalın təşkili və texnologiyadan istifadə etmiş, məhsulunun kommersiya maya dəyəri 2500 rubl olmuş və həmin il 3000 rubla 7000 cüt ayaqqabı reallaşdırmışdır.

B firması yeni texnika və texnologiya tətbiq etmiş nəticədə məhsulun kommersiya maya dəyəri 2000 rubl olmuşdur. Firma 2001-ci ildə 13000 cüt ayaqqabı reallaşdırmışdır.

Həmin firmalardan 2001-ci ildə əldə edilən gəlirin 30%-i vergiyə cəlb olunmuşdur. Həmin ildə məhsul reallaşdırılmasından əldə olunan sahibkarlıq gəlirinin kütləsini müqayisə edin.

3. Azad bazar şəraitində sahibkarlıq strukturlarının cari təsərrüfat fəaliyyətinə dövlətin müdaxilə etmədiyi halda, onlar müvəffəqiyyətlə inkişaf edirlər. Eyni zamanda bazar

iqtisadiyyatlı ölkələrdə bu və ya digər dərəgədə dövlət sahibkarlığı da inkişaf edir. Bu ziddiyyət necə həll olunur? Rusiya Federasiyasının dövlət sahibkarlığının formalaşmasında belə ziddiyyətlərin həlli üçün nə təklif edərdinizi?

4. Rusiyada sahibkarların vergiyə cəlb olunması və kreditləşdirilməsi sahələrində güzəştlər üzrə ziddiyyətli fikirlər mövcuddur. Dövlət büdcəsi gəlirlərinə ziyan verməyən sahibkarlığın effektivliyini stimullaşdıran hansı güzəştləri mövcuddur. Siz ölkəmizdə kreditləşmə və vergiyə cəlb olunma sisteminin səmərələşdirilməsi üçün nə təklif edərdiniz.

5. Rusiya subyektlərində və regionlarda sahibkarlığın inkişafı üçün əlverişli hüquqi mühitin yaradılması üzrə hüquq təşkilatlarının qəbul etməli olduqları qanun və hüquqi-normativ aktların adlarını söyləyin.

6. Kiçik müəssisə çərçivəsində sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və onların dəstəklənməsi mexanizminin təkminləşdirilməsi istiqamətləri üzrə Siz nə təklif edərdiniz?

© Половинкин П.Д. 2002

VIII Fəsil

DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ

1. Rəqabət və bazar. Antiinhisar qanunvericiliyi

Bazar iqtisadiyyatının əsas tənzimləyici vasitəsi tələb və təklif münasibətləridir. Bir qayda olaraq xüsusilə kütləvi tələb məhsulları istehsalçıların və istehlakçıların real iqtisadiyyatda kifayət qədər çox olur. Əgər hər hansı əmtəə öz xarakterinə görə məhdud çərçivədə istifadə olunandırsa, onda istehsalçıların sayı məhduddur və bazarda inhisarçılıq üçün şərait yaranır. Həmçinin müəssisələrin qovuşması, birləşməsi, assosiasiyaların yaranması və s. hallar əsasında əmtəə istehsalçıların iriləşməsi də bazarın inhisarlaşmasına imkan yaradır.

Əmtəə istehsalçılarının sayına və onların fəaliyyətinə bazarın formalaşma şəraiti, məhsulların istehsalı və reallaşdırılmasının səmərəliliyi, böyük, orta və kiçik müəssisələrdə təkrar istehsal prosesinin səmərəliliyi təsir göstərir. Həmçinin hər hansı məhsul növü üzrə bazar iştirakçılarının sayı həmin məhsulu istehsal edən ayrı-ayrı müəssisələrin fəaliyyətinin effektivliyi yaxud ayrı-ayrı firmaların bazardakı davranışı da məhdudlaşdırır.

Klassik bazar iqtisadiyyatında hansı ki, əsasən "azad rəqabət bazarına" uyğun gəlirdi, əmtəə istehsalçıları və satıcılar bazar payının yüksəldilməsi uğrunda rəqabət aparırlar. Bu rəqabətdə uğuru gəlirlərin artması təmin edir. Rəqabət iqtisadi inkişafın ob-

yektiv hərəkətverici qüvvəsidir. Ədalətli rəqabət şəraitində gəlirlərin artırılmasına cəhd olunması istehsal həcminin artmasına, əmtəənin keyfiyyətinin yüksəlməsinə stimul yaradır ki, bu da istehlakçıların tələblərini daha çox təmin edir, bazarın doymasının stimullaşdırılmasını yüksəldir.

Rəqabətin məhdudlaşdırılması (qeyri-mükəmməl rəqabət) bazarın inhisarlaşdırılmasına gətirib çıxarır, ayrı-ayrı əmtəə istehsalçılarına üstün mövqe təmin edir. Bunun nəticəsində əmtəələr kəmiyyətcə azalır, əsaslandırılmamış qiymət yüksəlişləri baş verir, məhsulların keyfiyyəti aşağı düşür. Bazarın inhisarlaşması əmtəənin əldə olunması imkanlarını məhdudlaşdırır, bu tələbatın ödənilməsinə mənfi təsir göstərir, istehlakçıların hüquqlarını pozur.

Bazarların inhisarlaşma səviyyəsi əsasən iqtisadi prosesilərin dövlət tənzimlənməsindən və bazarların inhisarlaşması yaxud inhisarsızlaşmasının, xalq təsərüfatı səmərəliliyi səviyyəsindən aslıdır. Hər bir anda onların qarşılıqlı təsiri müxtəlif ola bilər. Məsələn, mərkəzləşdirilmiş iqtisadiyyat rəqabəti iqtisadi artım faktoru kimi istisna edirdi. Bunun nəticəsində hal-hazırda da özünü biruzə verən daxili və xarici bazarlarda milli məhsulun aşağı rəqabət qabiliyyətliliyi istehsalın texnoloji inkişafının zəifləməsi və texnoloji gerilik baş verdi. Azad rəqabət əmtəə istehsalçılarının əhəmiyyətli sayını nəzərdə tutur. Bu iqtisadiyyat orta və kiçik biznes üzərinə istiqamətləndirilməsi deməkdir, hansı ki, bazar tələbinin kifayət qədər tez ödənilməsi baxımından üstünlüklərə malikdir. Bununla yanaşı texnoloji yenidənqurma işləri kiçik və orta müəssisələr üçün böyük kapital xərcləri deməkdir ki, buda kiçik və orta biznes üçün çox çətindir. Istehsalın texniki inkişafı üçün kreditlərdən geniş miqyasda istifadə böyük olmayan müəssisələr üçün müflisləşməyə səbəb ola biləcək maliyyə problemləri yarada bilər.

Bazarın inhisarlaşması obyektiv iqtisadi meyl olaraq, əmtəə istehsalının ilkin mərhələlərində yaranır və iri əmtəə istehsalçılarının marağını əks edir. Bu meyl cəmiyyətin tələblərinin ödənilməsində öz mənfi nəticələrini göstərir. Inhisarın məqsədi –rəqabəti məhdudlaşdırmaqla istehlakçıların hesabına yüksək inhisar mənfəəti əldə etməkdir. Ona görədə bütün iqtisadi cəhətdən inkişaf

etmiş ölkələrdə antiinhisar qanunvericiyi fəaliyyət göstərir. Bu inhisarçılığı zəiflədər lakin iri istehsalın üstünlüklərini aradan aparmaz. Iri müəssisələrdə hər məhsul üçün çəkilən xərclər kiçik müəssisələrdən azdır. Bu isə onlara əlavə yüksək gəlir əldə etmək və texnoloji inkişaf üçün əlverişli şərait yaradır.

Rəqabətin məhdudlaşdırılmasının iqtisadi nəticəsi bazarda əmtəə kütləsinin azalmasıdır. Qiymətlərin qalxması, məhsulun istehlak xassələrinin və keyfiyyətinin yüksəldilməsinə marağın azalması baş verir. Bunun da nəticəsində ÜDM-nin artım sürəti və büdcəyə daxilolmalar azalır. Bazardakı vəziyyətin normallaşdırılması baxımından rəqabət mühitinin formalaşdırılması prinsipial əhəmiyyət kəsb edir. Söhbət satışın və gəlirin artırılması tendensiyası şəraitində daha çox sayda istehsalçı və istehlakçılar arasındakı münasibətlərə özünü tənzimləyən mexanizmlərin fəaliyyətindən gedir. Iqtisadi artım nəzəriyyəsinə əsasən dövlətin əsas funksiyalarından biri də məhs bazarda rəqabət mühitinin yaradılmasıdır.

Inhisarçılıq, oliqopoliya və rəqabətli inhisarçılıq münasibətləri istənilən bazar iqtisadiyyatlı ölkədə var. Ona görə də istehsalçılar üçün iqtisadi nəticələrin maksimallaşdırılması lazımdır. Bu məhsul və xidmətlərin təmərküzləşmə səviyyəsindən asılı olan, hər bir ölkə üçün özünəməxsus rəqabət münasibətləri mühitini yaradır. İstehsalın təmərküzləşmə səviyyəsi öz növbəsində hər bir bazarda təsərrüfat strukturlarının tipindən və münasibətlərindən asılıdır. Real iqtisadiyyatın müxtəlif sferalarında təsərrüfat strukturlarının bütün tipləri mövcud olur. Onların bazardakı effektiv münasibətlər dairəsi azad rəqabətlə xalis inhisar arasındadır. Bu təsərüfat fəaliyyəti göstərən kiçik və orta müəssisələrdən xalis inhisara qədər təsərrüfat strukturlarının tipi ilə müəyyən olunur.

Milli bazarların obyektiv inkişafı onlardakı "struktur optimumun" mövcudluğunu göstərir. Bu göstərici iri əmtəə istehsalçıları və azad rəqabətdə olan kiçik və orta müəssisələr arasındakı orta nisbəti əks etdirir. Inhisarlaşma prosesinə dövlət nəzarətinin olduğunu nəzərə alaraq demək olar ki, müəssisələrin yolverilən

həddə qədər iriləşməsi və kiçik və orta müəssisələrin mövcudluğu obyektiv tendensiya olacaqdır.

Rusiya bazarlarında qeyd olunmuş təsərrüfat strukturunun hamısı var. Bununla belə effektiv rəqabət proporsiyaları hələ müəyyən olunmayıb. Əsas bazarlarda inhisarçı və inhisar oliqopoliya konsturksiyaları dominantlıq edir.[1] Onlar tərəfindən ümumi siyasətin aparılması nəticəsində inhisar yaranır. İnhisarlar əsasən birləşmənin yaxud qarşılıqlı razılaşmanın əsasında yaranır. Yolverilən inhisara misal olaraq "Sibir aliminium" müəssisəsini göstərmək olar, hansı ki, adı çəkilən bazarın 70%-nə tutur. Belə korporasiyalar Rusiya Federasiyasının Antiinhisar siyasəti və sahibkarlığa yardım nazirliyinin (RF ASN) təsir sferasına düşür. Bu nazirlik belə inhisarların təsirli səbəbi olmadan yaranmasına yol verməməlidir. Əgər inhisar artıq yaradılıbsa onda nazirlik inhisarın daxili bazara qiymət təziqinə yol verməməlidir.

Oliqopolik bazarlar təsərrüfat subyektlərinin razılaşması üçün geniş imkan açır ki, buna da nəzarət kifayət qədər çətindir. Bunların aşkar edilməsi təcrübəsi Rusiyada praktiki olaraq yoxdur. Bu halların aşkar edilməsi üçün bazarın iqtisadi tədqiqi aparılır. Bu işi RF ASN icra etməlidir.

Bazar transformasiyasından əvvəlki dövrdə Rusiya iqtisadiyyatının yüksək dərəcədə inhisarlaşması iqtisadiyyatın restrukturizasiyasını və antiinhisar tənzimləmə sisteminin tətbiqinin zəruriliyini şərtləndirir. Bazarların inhisarlaşma metod və üsulları həmçinin onların nəticələri məlumdur. Rəqabətin inkişafına inhisarların əks təsir dərəcəsi dövlət tərəfindən qəbul olunan tədbirlərdən asılıdır. Hal-hazırda Rusiyada antiinhisar sistemi kifayət qədər səmərəli və bu istiqamətdə iş təcrübəsidə kifayət qədər olmadığından antiinhisar tədbirləri lokal xarakterli və səmərəli deyildir. Buna görə də bazarların inhisarlaşması hallarına və dövlətin antiinhisar qanunvericiliyini pozanlara qarşı tədbirlərə rəqabətə dövlət yardımında daha çox təcrübəsi olan ABŞ misalında baxılacaq.

[1] İnhisarçı oliqopoliya dedikdə biz məhdud sayda fəaliyyət göstərən təsərrüfat subyektləri ilə səciyələn və müxtəlif üsullarla inhisarlaşdırılan bazar başa düşürük. – *Müəllif qeydi.*

Bazarda inhisarlaşma meyilləri və onun mənfi nəticələri ilk dəfə ABŞ-da XIX əsrin ikinci yarısında iri milli inhisarlar, məsələn "Unitet Steel" yaxud "Standard Oil" yarandığı dövrdə qeydə alınıb. Bu zaman bazarlarda inhisarçılığın iqtisadi sosial təsirləri meydana çıxır və rəqabətin müdafiəsi üçün ilk qanunvericilik aktları qəbul olunur. Bu sahədə ilk qanun 1980-ci ildə qəbul olunan Şerman qanunu idi. Bu qanuna uyğun olaraq sahibkarlıq fəaliyyətini məhdudlaşdıran şirkətlər arasında gizli şövdələşmə və razılaşmalar, həmçinin bazarın inhisarlaşması və buna göstərilən cəhtlər qadağan olunur.

Antiinhisar fəaliyyətiının sonrakı inkişafında bazarlarda korporasiyaların bütün "məhdudlaşdırıcı" cəhdlərini qadağan edən Kleyton qanunu 1914-ci ildə qəbul olundu. Belə ki, qiymətlər vasitəsilə istehlakçıların diskirminasiyası (müxtəlif istehlakçılara qeyri-bərabər qiymətlərin müəyyən olunması) qanun pozuntusu hesab olunur. Bir bazarda fəaliyyət göstərən şirkətlərin rəhbərliyində eyni şəxslərin təmsil olunması və nəticədə onların iqtisadi siyasətinin koordinasiya edilməsinə yol verilmir. Bir korporasiya tərəfindən digər korporasiyanın birbaşa və ya dolayısı ilə səhmdar kapitalının tam və ya qismən alınması qadağan olunur (hər hansı fəaliyyət sferasında yaxud bazarda). Biznes fəaliyyətinin hər hansı sferasında nəticə etibarı ilə rəqabəti zəiflədən digər əməliyyatlar da qadağan olunur.

Antiinhisar tənzimləmə sahəsində növbəti qanunvericilik artıq 1950-ci ildə Kleyton qanununa düzəliş kimi qəbul olunub. Bu akt fond bazarlarının inkişafi ilə əlaqədar həyata keçirilib. Bu düzəliş qiymətli kağızlar bazarı vasitəsilə bazarların inhisarlaşdırılmasının qadağan olunmasını nəzərdə tutur. Qanunda qeyd olunur: ."Hər hansı bir sahədə fəaliyyət göstərən korporasiya digər şirkətin səhmlərini və ya aktivlərini tam və ya qismən əldə edə bilməz, əgər bunun nəticəsi rəqabəti zəiflədər yaxud inhisarın inkişafına gətirərsə".

Bu aktlarla bütün inkişaf etmiş ölkələrdə tətbiq olunan antiinhisar fəaliyyətinin istiqamətləri müəyyən olunmuşdur. Buna uyğun olaraq bazarda inhisarçı mövqedə olan şirkətlərə, o cümlə-

dən bazarın inhisarlaşdırılması üsullarına, rəqabətin məhdudlaşdırılmasına (qovuşma, birləşmə və s.) qarşı zəruri tədbirlər qəbul olunur.

Inhisarçı fəaliyyətə nəzarət üçün dövlət orqanı - ABŞ Federal Tticarət Komissiyası (FTK) yaradılmışdır. Bu orqanın yaradılması barəsində qanun 1914-cü ildə qəbul olunmuşdur. II dünya müharibəsindən sonra analoji təşkilatlar digər ölkələrdə də yaradılmışdır, məsələn Böyük Britaniyada Ədalətli Ticarət üzrə komissiya.

Dövlətlərin inhisar əleyhinə fəaliyyəti prosesində antiinhisar orqanlarının inzibati və hüquqi cəhətdən sərbəstliyi, digər dövlət orqanlarından müstəqil olmaq zərurəti yarandı. Bu orqanlar qəbul olunmuş qanunlar əsasında dövlət siyasətini həyata keçirməlidir. Doğrudur, praktikada bu müddəalar tam həcmdə əməl olunmur.

Antiinhisar orqanları və bazar iştirakçıları arasındakı münasibətləri nizamlayan qanunvericilik aktlarının qüvvəyə minməsi ilə əlaqədar tələb olunan tərifl ərin verilməsi, inhisarçılıq fəaliyyətinin qiymətləndirilməsi, bazarların inhisarlaşdırılması meyarlarırının işlənməsi zərrəti meydana şıxır. Bunlar arasında bazar sərhədləri kateqoriyaları qeyd olunmalıdır. Və hər şeydən əvvəl əvəzedici əmtəələr siyahısı əsasında formalaşdırılan bazarların *əmtəə sərhədləri* müəyyən olunur. Əmtəələrin bir-birini əvəz etmək qabiliyyəti istehlakçıların rəyləri əsasında müəyyənləşdirilir. Bazarın *coğrafi sərhədləri* anlayışı da irəli sürülüb. Bu, əmtəələrin eyni satış şəraitinə malik olan coğrafi zonasını müəyyən edir. ABŞ-ın antiinhisar praktikasında bu zona istehlakçıların məhsulu 5%-dən baha olmayaraq əldə edə biləcəkləri ərazi üzrə və bu imkanların ərazi sərhədlərinin xaricində olmaması ilə müəyyən olunur.

Bazardakı əmtəə və coğrafi sərhədlər baxımından inhisarlaşmanın dərəcəsinin qiymətləndirilməsi dünya və milli təcrübədə Hirşman-Herfindal əmsalı vasitəsilə müəyyən olunur. Hırşmana-Herfindal əmsalı (HHI) aşağıdakı kimi hesablanır.

$$HHI = \sum_{i=1}^{n} (A_i^2)$$

Ai- i-ci kompaniyanın bazardakı %-lə ifadə olunan payı, n - baxılan bazarda şirkətlərin sayıdır.

İnhisarlaşmanın ən yüksək səviyyəsində yəni bazarda bir əmtəə istehsalçısının olduğu halda HHI əmsalı 10.000 bərabər olur. ABŞ-da bazarın inhisarlaşmasının yol verilən səviyyəsi HHI=1000 qəbul olunur. Bu bazarda, məsələn bərabər paylı 10 iştirakçının mövcudluğu deməkdir.

Digər əmsallardan daha çox təmərküzləşmə əmsalı istifadə olunur. Bu əmsal 3 (CR-3), 4 (CR-4), 7 (CR-7), 20 (CR-20) və ya başqa sayda qəbul olunmuş ən iri şirkətlərin baxılan əmtəə bazarında %-lə ifadə olunan paylarının cəmini müəyyən edir.

Təcrübədə bazardakı inhisarlaşmanın dərəcəsi daha çox Beyn şkalası vasitəsilə müəyyən olunur. Buna uyğun olaraq bazarın 4 tipi fərqləndirilir: a) yüksək dərəcədə təmərküzləşmiş oliqopoliya, haradakı, CR-4 65% yüksək və CR-8 85%-dən yüksəkdir; b) mülayim təmərküzləşmiş oliqapoliya - 50%<CR-4<65% və 70%<CR-8<85%; v) zəif təmərküzləşmiş oliqapoliya - 35%<CR-4<50% və 45%<CR-8<70%; q) təmərküzləşməmiş bazar - .R-4<35% və CR-8<45%

RF-nin "Rəqabət və əmtəə bazarlarında inhisarçı fəaliyyətin məhdudlaşdırılması haqqında qanun"a uyğun olaraq hər hansı təsərrüfat subyektinin yaxud iqtisadi və/və ya təşkilatı baxımdan bir-biri ilə əlaqəli təsərrüfat subyektlərinin bazardakı payı 65% və ya bu həddən çox olarsa onlar inhisarçı hesab olunur. 35% və 65% arasında bazar payı olan təsərrüfat subyektinə isə hökmran mövqelərindən istifadə etməklərini RF ASN sübut etməlidir. 35%dən az bazar payı bazarın inhisarlaşması əlaməti kimi qiymətləndirilmir.

2. Bazarın inhisarlaşdırılmasının əsas üsulları

Bazarlarda inhisarlaşması ilə əsas mübarizə metodlarını nəzərdən keçirək.

İnhisarçı qovuşmalara nəzarət. Bazarlarda inhisarlaşmaya nəzarətdə əsas yeri eyni əmtəə və xidmət bazarında fəaliyyət göstərən təsərrüfat subyektlərinin birləşməsinə nəzarət tutur. Dövlət tərəfindən nəzarət edilən təməküzləşmə səviyyəsinə yaxın, bazarda kifaət qədər (müəyyən olunmuş meyarlara müvafiq) böyük paya malik olan iri korporasiyalar nəzarət altına alınırlar.

ABŞ-da qovuşmalara Federal Ticarət Komissiyası (Rusiyada Antiinhisar siyasəti və sahibkarlığa kömək nazirliyi) şirkətlər tərəfindən təqdim olunan sənədlər və sözü gedən qurum tərəfindən bazardakı mümkün dəyişikliyin təhlili əsasında icazə verir. Antiinhisar orqanları bazarın coğrafi və əmtəə sərhədlərinə qovuşmadan əvvəl və sonrakı dövrdlərdə bazarın coğrafi və əmtəə sərhədlərini, bazarın təmərküzləşmə səviyyəsini, həmçinin istehlakçıların maraqlarını pozan əsassız qiymət artımının mümkünlüyü nəzərdən keçirirlər. Əgər qovuşmadan sonra bazardakı təmərküzləşmənin səviyyəsi HHI və CR əsasında müəyyənləşdirilən səviyyədən yüksək olsa yaxud istehlak qiymətləri əsaslandırılmış səviyyədən yuxarı olarsa onda bu qovuşmaya icazə verilmir.

Əvəzedici əmtəələr bazarının əmtəə sərhədləri sosioloji sorğu əsasında müəyyən olunur. Belə təhlilin aparılması kifayət qədər əməktutumludur olsada obyektiv nəticələr verir. Misal üçün 80-ci illərin ortalarında "Coca-Cola" və "Limonad" şirkətlərinin qovuşması barədə məsələnin həlli zamanı bazarın öyrənilməsi aşağıdakı nəticələri ortaya çıxardır. Qeyd olumusdur ki, iki korporasiyanın ümummerika bazarında fəaliyyət göstərir. Buna görə də coğrafi sərhədlər qismində ABŞ-ın hüdudları götürülüb. Sonra FTK bu şirkətlərin məhsullarının əvəzedici olması barədə istehlakçıların rəylərini öyrəndi. Tədqiqat göstərdi ki, istehlakçılar bu əmtəələri əvəzedici əmtəələr hesab edirlər. Təmərküzləşmə səviyyəsinin müəyyən olunması CR əmsalı əsasında aparılıb. Qovuşma nəticəsində şirkətlər spirtsiz içkilər bazarının 80%-ni əhatə edə bilərdi. FTK bu şirkətlərin qovuşmaları barəsində müraciyətini

qəbul etmədi. Daha sonra 90-cı illərdə şirkətlərin təkrar müraciəti əsasında keçirilən növbəti sorğuda istehlakçılar korporasiyaların mallarını əvəzləyici hesab etməyib. Buna səbəb isə istehlakçılar arasında konkret içkilərdən istifadədə sabit vərdişlərin yaranması olub. Nəticədə bu dəfə birləşməyə icazə verilib.

Rəqib şirkətlərin qovuşmasının ABŞ-dakı mal qiymətlərinə təsiri barədə kifayət qədər sadə mexanizm hazırlanıb və aktiv şəkildə istifadə olunur. Qovuşmanı əsaslandırmaq üçün şirkətlər qiymətlərin aşağı düşməsini və ya dəyişməməsini göstərən hesablamaları təqdim edirlər.Ancaq bu qovuşmadan sonra qiymətlərin artmamasına zəmanət vermir. Buna görədə antiinhisar orqanları inhisarçıların bazarda qiymətləri 5% qaldırması ilə əlaqədar olaraq məhsul istehsalçılarının sayının artması imkanlarını təhlil edirlər. Bu məqsədlə bazarın coğrafi sərhədləri daxilində və xaricində yerləşən məhsulun potensial istehsalçıları və mal gətirənləri arasında mümkün qiymət artımı ilə bağlı məhsulun istehsalına keçilməsi və yüksək qiymət zonasına məhsulun gətirilməsi ilə bağlı sorğular aparılır. Əgər qiymət qalxmasından sonra 2 il ərzində bazara əlavə əmtəə axınları hesabına əvvəlki səviyyədə qiymətlər formalaşarsa bu istehlakçıların maraqlarının pozulması hesab olunmur.

Qovuşan şirkətlərdən birinin ödəmə qabiliyyəti olmadıqda və ya müflisləşmə təhlükəsi olduqda şikətlərin qovuşmasına şərtsiz icazə verilir.

Hökmran mövqenin qarşısının alınması. Hər hansı bir subyektin bazardakı hökmran mövqesinin araşdırılması üçün zərərçəkmiş tərəf zərərin və maliyyə itkilərini göstərməklə yazılı şəkildə antiinhisar orqanına müraciət etməlidir. Antiinhisar qanunvericiliyini pozan istənilən şirkətə qarşı iş açıla bilər.Lakin bir qayda olaraq antiinhisar orqanlarının diqqətini bazarda 50%-dən çox payı olan iri şirkətlər cəlb edir. Pozuntu haqqında sübutları və məhkəməyə müraciəti antiinhisar orqanı FTK təqdim edir.

Hökmran mövqedən istifadə daha çox əmtəənin qiymətinin yüksəldilməsi və aşağı salınması və ya rəqiblərin bazara daxil olmalarının məhdudlaşdırılması ilə ifadə olunur. Məsələn, Microsoft şirkətini rəqibləri rəqabət qaydalarını pozmaqda ittiham

etmişdir. Fərdi kompüterlərin proqram təminatının ən iri yaradıcısı olan bu şirkət istehlakçı tərəfindən seçilən standart proqram təminatını digər şirkətlərə nisbətən 10% aşağı qiymətə satırdı. Qiymətin bu səviyyəsində rəqiblər rəqabətə tab gətirə bilmirdilər və buna görə də FTK-ya müraciət etdilər. FTK-da məsələnin ilkin araşdırmalarında Microsoft şirkəti qiymətin rəqiblərin təklif elədiyi səviyyəyə qaldırılması ilə razılaşır və bununlada iş bağlandı. Lakin 2000-ci ilin aprelində şirkətin internet xidmətlərinin proqram təminatı üzrə inhisarçılığı ilə əlaqədar rəqiblər yenidən məhkəməyə müraciət etdilər. I-ci inistansiya məhkəməsi Microsoft şirkətini iki yerə bölünməyi haqqında qərar qəbul etsədə ABŞ Federal məhkəməsi bu qərarı dəstəkləmədi.

Prinsipcə ABŞ şirkətləri intibati-iqtisadi mübahisələrin məhkəməyə çıxmamasına çalışırlar. Çünki məhkəmənin qərarı icra olunarkən günahkar firma həm məhkəmə xərclərini həm də zərərçəkənin real zərərlərinin 3 mislini ödəməlidir. Ona görə də bu cür məsələlərin əksəriyyəti antiinhisar orqanlarında yaxud məhkəmədə ilkin baxılmalar zamanı həll olunur.

Bazarda bazarda hökmran mövqedə olan şirkətlərin heç də hamısı istehlakçıların və rəqiblərin haqqını pozmağa meyilli deyillər. Buna misal olaraq IBM şirkətini göstərmək olar. Əgər şikayət olmasa belə şirkətlər FTK-nın nəzarəti altında fəaliyyət göstərə bilərlər.

Rəqabətin məhdudlaşdırılmasına yol verilməməsi. Rəqabətin məhdudlaşdırılmasında ixtiyari üsullardan istifadə oluna bilməz. Məsələn, bazarin hər hansı bir istirakçısına onun rəqiblərinə nisbətən daha yüksək icarə qiyməti müəyyən etmək olmaz. Buna görədə icarəçilər sırasına daxil olmaq üçün arzu edənlər arasında müsabiqə keçirilir. Həmçinin hər hansı bir şirkətə rəqiblərinə nisbətən əmtəə, xammal, material və s. daha yüksək qiymətə satılmasına yol verilmir.

Bazarın inhisarlaşdırılması qanunvericiliyə əsasən yalnız intelektual mülkiyyət (patent) sahiblərinə icazə verilir və bu ”patent inhisarı” adlanır. ABŞ qanunvericiliyinə əsasən patent sahibi patentin 20 il müddətində müstəsna istifadə hüququna malikdir.

Sövdələşməyə qarşı əks tədbirlər. Antiinhisar qanunvericiliyinin daha geniş pozulduğu formalardan biri sövdələşmədir. Bu vasitə ilə inhisarçı yüksək (aşağı) qiymətlər müəyyən edir, bazara rəqiblərin daxil olmasına yol vermir və digər inhisarlaşdırma üsüllarından istifadə edir. Bir qayda olaraq şövdələşmə sənədləşdirilmir və ona görə də belə halları sübut etmək çətindir. Bununla belə sövdələşmənin sübuta yetirilməsi üçün müvafiq üsullar işlənib hazırlanır və tətbiq olunur.

Əgər inhisarçı sövdələşmələri təsdiq edən sənədlər varsa antiinhisar orqanlarınına qərar qəbul etmək üçün əlavə əsaslandırma tələb olunmur. Məsələn, 80-cı illərin sonunda 76 şəkər zavodu direktorlarının iştirak etdikləri müşavirədə qəbul olunan qərar nəticəsində (qərar haqqında protokol tərtib olunmuşdur) qəndin qiyməti iki dəfə artmışdır. Polşanın antiinhisar orqanları bu prratakolun əsasında iclasın iştirakçılarına qarşı tədbirlər gördü və nəticədə əldə olunmuş razılıq ləğv olundu.

Bəzən isə bu cür sövdələşmələr statistik və qiymət haqqında informasiyaların təhlili əsasında sübut oluna bilər. Belə bir hal Kanadada un ticarəti ilə məşğul olan 6 şirkətə qarşı aparılan işdə müşahidə olunmuşdur. Bir neçə il müddətində antiinhisar orqanların apardıqları təhlil nəticəsində müxtəlif şirkətlər tərəfindən bazara çıxarılan unun qiymətlərinin bir-birinə yaxınlaşması və eyni zamanda bahalaşması qeydə alınmışdır. Antiinhisar orqanları tərəfindən tərtib olunmuş unun qiymətinin dəyişmə sxemi məhkəmə tərəfindən rəqabət qaydalarının pozulmasının sübuti kimi qəbul edilmişdir.

ABŞ qanunvericiliyinə əsasən sövdələşmələrin sübutu kimi rəqabət aparan şirkət rəhbərlərinin (nümayəndələrinin) neytral şəraitdə naharda, ziyafətdə, ictimai yerlərdə görüşləri (söhbətləri) haqqında şahid ifadələri qəbul olunur, əgər bu cür əlaqələrdən bir müddət sonra inhisarçı sövdələşmələrin əlamətləri aşkar olunrsa. Lakin daha çox sövdələşmə hadisəsi ilə əlaqədar işin qaldırılmasına əsas müvafiq informasiyanın mənbəi kimi həmin şirkətlərin işçilərindən və ya bu cür infornasiyaya sahib olan digər şəxslərdən məxvi qaydada alınan məlumatlar çıxış edirlər.

ABŞ, Ingiltərə və bəzi başqa ölkələrin qanunvericiliyinə əsasən antiinhisar qanunvericiliyinin pozulması halını aşkar etməyə yardım edənlər üçün dəymiş ziyanın həcmində mükafat müəyyən olunmuşdur (xatırladaq ki, qanunu pozana qarşı tətbiq olunan cərimə dəymiş zərərin 3 misli qədər olur).

Inhisarçının bir neçə hissəyə bölünməsi. Bu tədbir praktikada kifayət qədər az istifadə olunur. Bunula belə dünya təcrübəsində bu tədbir müşahidə olunur. 1908-ci ildə ABŞ-da neft məhsulları bazarında ən iri neft kompaniyası "Standrat Oil" bölünmüşdür. ATT (American Telephone & Telegraph) 70-ci illərə qədər rabitə vasitələri bazarında ABŞ-da inhisarçı olmuşdur. ABŞ ərazisində şirkət tərəfindən müəyyən olunmuş qaydalara görə rabitə sistemlərinin fəaliyyətinin təmin olunması üzrə bütün işlər (kommunikasiya xəttlərinin çəkilməsi, o cümlədən yaşayış binalarında, bütün təmir növləri, yalnız korporasiyaya məxsus müəssisələrdə istehsal olunmuş rabitə vasitələrinin quraşdırılması və s.) yalnız korporasiya tərəfindən yerinə yetirilə bilərdi. Bundan əlavə ATT Amerika abonentlərin başqa ölkələrlə əlaqələrini inhisarlaşdırmışdır, bu da inhisarın aşkar edilməsinə səbəb olmuşdur. Xarici rabitə əlaqələrinin ödənilməsi zamanı müəyyən olunmuşdur ki, İngiltərədən ABŞ-a edilən telefon danışıqlarının qiyməti əks istiqamətdəki danışıqlardan 3 dəfə ucuzdur. Bu FTK-a tərəfindən ATT-ya qarşı işin qaldırılmasına imkan yaratdı. Kompaniya cərimədən qaçmaq üçün antiinhisar orqanının bölünmə təklifi ilə razılaşdı və 7 müstəqil kompaniyaya bölündü. Analoji qərar Pan Aamerican avianəqliyyat kompaniyasının bölünməsi haqqında da qəbul olunmuşdur. Rusiyada buna oxşar hallar baş verməyib.

Ticarət müsabiqələrində rəqabətin qorunması. Müsabiqə yolu ilə aparılan hərraclar korrupsiya, ədalətsiz sazişlərin aradan qaldırılmasına imkan yaradan alqı-satqı zamanı azad rəqabətin üstünlüklərini reallaşdıran ən səmərəli metoddur.

Əmtəə tədarükünün və görüləcək işlərin, o cümlədən hökumətin ehtiyaclarının ödənilməsi məqsədi ilə kontraktların aşkar bölgüsünün müsabiqə yolu aparılması cəmiyyətin maraqlarının qorunmasının mühüm metodudur. Bir iştirakçı və müsabiqə yolu

ilə tədarük üzrə bağlanan kontraktların müqaisəli təhlili göstərir ki, bir iştirakçı ilə, yəni rəqabətsiz bağlanan kontraktların qiymətləri müsabiqə yolu ilə bağlanan kontraktların qiymətlərindən əhəmiyyətli dərəcədə aşağıdır. Müsabiqəyə verilən ərizələrin sayı artdıqda təklif olunan layihələrin dəyərləri 2%-dən 18%-ə qədər artır.[1] Hər il ABŞ-da yüzlərlə saxta ərizələr aşkar olunur və hökumət günahkarları milyonlarla dollar ödəməyə məcbur edir. Bu cür saxta sənədlər digər ölkələrdə də, o cümlədən Yaponiyada, Almaniyada da böyük sayda aşkarlanıb.

Ərizələrin saxtalaşdırılması yalnız dünya təcrübəsində deyil həmçinin Rusiyada da geniş yayılıb. Ərizələrin saxtalaşdırılması dedikdə iştirakçılar arasında razılığa əsasən müsabiqədə rəqabətin aparılmaması və kontraktın razılaşdırılmış tərəfə çatdırılması nəzərdə tutulur. Mahiyyətcə iddiaçılar inhisar qismində birgə fəaliyyət göstərmək barəsində razılığa gəlirlər. Bu cür hallara qarşı müsabiqələrin keçirilməsi qaydaları işlənilib, hansılar ki, Rusiyadada tətbiq olunur. Müsabiqələrin keririlməsi qaydalarının pozulmasına görə məsuliyyət dərəcəsi ölkələr üzrə fərqlənir.

Müsabiqələrın ən vacib şərti onun tələblərinin müsabiqə elanında dəqiq göstərilməsidir. Bu iştirakçı şirkətləri rəqabətə həvəsləndirir, həmçinin hökumətə qalibdən tələblərin tam yerinə yetirilməsini tələb etməyə şərait yaradır. Ərizədə iddiaçı müsabiqə sferasındakı səriştəsini, işlərinin yerinə yetirilməsindəki təcrübəsini və/və ya müqavilədə təklif olunan işlərin reallaşdırması ilə əlaqədar təkliflərini göstərir.

Çoxt vaxt silsilə kontraktların həyata keçirilməsində saxtalaşdırmaların həyata keçirilməsi məqsədilə uzunmüddətli kartellər yaradılır. Onlar ərizələrin müxtəlif saxtalaşdırma üsullarından istifadə edirlər. *Ərizələrin rotasiyası*. Kartel iştirakçıları müsabiqəni növbə ilə udmağa razılaşır.Yerdə qalan kontraktın əldə olunmasına iddiası olmayan iştirakçılar tamamlayıcı ərizələr təqdim edirlər. *Bazarın bölüşdürülməsi.* Coğrafi və ya digər bir cəhətlərə görə

[1] Bax: Макафе Р. Пренстон и Макмилан Джон. Побудительные мотивы при заключении контрактов на государственные заказы. М.: ВЛАДОС, 1997, с.151

ərizələrin bölgüsü aparılır. *Ödəmələr*. Müsabiqənin qalobi saxtalaşdırma nəticəsində əldə edilmiş "əlavə" mənfəətdən yerdə qalan iştirakçılara ödəmələr edir. Ödəmələr subpodrat işləri formasında da həyata keçirilə bilərlər. *Ərizələrin saxlanması*. ***Mümkün*** iştirakçıların bəziləri ərizələrin verilməsi barəsində sövdələşərək digər iştirakçı üçün qalib gəlmək imkanını yaradırlar. *Təhlükələr*. Bəzi hallarda kartelə daxil olmaq istəməyən rəqibləri fiziki və iqtisadi təhlükələrlə hədələyirlər. *Korrupsiya*. Təşkilatçı dövlət orqanlarının məmurları müəyyən iştirakçıya qalib gəlmək üçün şərait yaradır(məsələn, qalib gəlmək üçün zəruri olan ərizə məzmunu barəsində informasiya verməklə yaxud rəqibləri müsabiqədə iştirakına yol verməməklə.

Göstərilən qanun pozuntuları Rusiyada özəlləşdirmə həyata keçirilərkən baş verib. Buna "Norilsk Nikeli" SC-nin dövlətə məxsus səhmlər zərfinin müsabiqə vasitəsi ilə əldə olunmasını misal göstərmək olar.

Müsabiqələrin saxtalaşdırılmasının qarşısını almaq və ya belə halları əhəmiyyətli dərəcədə məhdudlaşdırmaq üçün müəyyən tədbirlər mövcuddur.

1.***Müsabiqəiərin*** açıq olması (hər bir arzu edənin iştirak etmək hüququ təmin olunması) və iştirakçıların bir-birilə tanış olmaması arzulanandır.

2. İştirakçıların sayının mümkün qədər çox olması məqsədəuyğundur. Belə olan halda razılığa gəlmək mürəkkəbləşir və ədalətli müsabiqənin keçirilməsi ehtimalı artır.

3. Bütün ərizələrdə onların müstəqil və antiinhisar qanunvericiliyinə uyğun olaraq, başqa iştirakçılardan asılı olmayaraq və onlarla müzakirə edilmədən hazırlanmasını müsabiqə iştirakçısının imzası ilə təsdiq edən bənd olmalıdır. ABŞ və bəzi ölkələrin qanunvericiliyinə əsasən yalançı ərizələrin tərtibinə fırıldaqçılıq kimi baxılır və qanunvericiliyə uyğun cinayət məsuliyyəti nəzərdə tutulur.

4. Əvvəlki müsabiqələrlə bağlı ərizələri və digər məlumatları, subpodrat işləri və oxşar kontraktlarlar haqqında məlumatları təhlil etmək faydalı olardı. Bu cür məlumatlarda saxtakarlar kartellərini aşkar etmək olar.

5. Qalib seçiminin kəmiyyət və keyfiyyət meyarlarını dəqiq müəyyənləşdirmək lazımdır. Bəzən qiymətdən başqa ərizəçnin analoji müqavilələri yerinə yetirmə keyfiyyəti, maliyyə vəziyyəti və s. meyyar ola bilər. Belə olan halda qiymətləndirmə daha keyfiyyətli olar bilər.

6. Bərabər səviyyədə tərtib olunmuş ərizələrdən hansına üstünlük verilməsi çətinlik törədir. Bu cür hallarda imkan daxilində müqavilənin iddiaçılar arasında bərabər bölgüsü məqsədə uyğun deyil. Belə olan halda saxtakarlar tam oxşar ərizələr verə bilərlər. Bu zaman müsabiqənin qalibini bətə-bəxt, məsələn püşk atma yolu ilə müəyyən etmək olar.

7. Müsabiqənin təşkili zamanı iştirakçılar barədə məlumatın məxfiliyi qorunmalıdır. Bu gizli razılaşmaları və saxtakarların başqa iştirakçılara təsirini məhdudlaşdırır. Bununla yanaşı, müsabiqə açıq şəkildə keçirilməlidir.

Antiinhisar orqanları kifayət qədər geniş səlahiyyətə malikdirlər. Onlar iş qaldırılmış şirkətlərin hər hansı bir tələb olunan sənədlərini əldə etmək, lazımi təhqiqat aparmaq, işi məhkəməyə göndərmək hüququna malikdirlər. Bununla yanaşı antiinhisar orqanları alınmış informasiyanın qorunmasına cavabdehdir və şirkətə hər hansı bir maliyə ziyanı gətirə biləcək hərəkətləri həyata keçirə bilməz. Antiinhisar qanunvericiliyin pozulmasına görə və cərimənin müəyyən olunması üzrə yekun qərarı məhkəmə verir. Rusiyada bu fəaliyyəti arbitraj məhkəməsi həyata keçirir.

Rusiyada antiinhisar fəaliyyəti dünya təcrübəsində qəbul olunmuş prinsiplər əsasında həyata keçirilir. Bu "Rəqabət və əmtəə bazarlarında inhisarçı fəaliyyətinin məhdudlanması haqqında" Rusiya Federasiyasının Qanununda öz əksini tapıb. Bununla yanaşı bazarların inhisarsızlaşdırılması üzrə praktiki fəaliyyət başlanğıc vəziyyətindədir. Lakin bazarların inhisarlaşmasına aparan qanuna zidd hərəkətlər və onların onların aradan qaldırılmasına yönəldilmiş tədbirlər "Rəqabət və ....haqqında" Qanunda əsasən öz əksini tapmışdır. Yuxarıda nəzərdən keçirilən əsas qanun pozuntuları növlərinə bütövlükdə uyğun olan qanunun bəzi mühüm maddələrinə baxaq.

Maddə 5. Təsərrüfat subyektlərinin (TS) hökmran mövqelərindən sui-istifadə etmələrinə, bazarda rəqabətin məhdudlaşdırılması cəhtlərinə və/və ya digər TS və fiziki şəxslərin maraqlarına zidd olan hərəkətlərə həsr olunub. Əmtəənin bazardan məhsul çatışmamazlığı yaratmaqla qiymətlərin bahalaşdırılmasına nail olmaq məqsədilə çıxarılması, kontrangentə sərfəli olmayan yaxud müqavilənin təyinatına aid olmayan şərtlərin qoyulmasına, kontragenti digər müəssisələrlə nisbətdə qeyri-bərabər vəziyyətə qoyan diskriminasiya xarakterli şərtlərin müqaviləyə daxil edilməsinə və ya müqavilənin bağlanmasına əsassız imtina edilməsinə yol verilmir. Başqa TS-nın bazara daxil olmasına (bazarı tərk etməsinə) maneələrin yaradılmasının, inhisarçı yüksək (aşağı) qiymətlərin qoyulmasının və s. qarşısı alınır.

Maddə 6 rəqabəti məhdudlaşdıran razılaşmalar yaxud təsərrüfat subyektlərinin razılaşdırılmış hərəkətləri haqqındadır. Qadağan olunur: qiymətlərin, tariflərin, endirimlərin, qiymətə əlavələrin müəyyənləşdirilməsi (saxlanılması); hərraclarda və alqı-satqıda qiymətlərin yüksəldilməsi, aşağı salınması, yaxud qiymətlərin müəyyən səviyyədə saxlanılması; ərazi üzrə, satışın həcminə, məhsulun çeşidinə alıcı və ya satıcılarına görə bazarların bölüşdürülməsi; müəyyən əmtəələr istehsalçılarının və onların alıcılarının bazara daxil olmalarının məhdudlaşdırılması və ya bazardan kənarlaşdırılması. Rəqabətdə olmayan biri inhisarçı digəri isə onun təhcizatcısı və ya alıcısı olan TS-in rəqabətin məhdudlaşdırılmasına gətirib çıxara biləcək razılaşmaları qadağan olunur.

Rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran, Rəqabətin məhdudlaşdılmasına gətirib çıxaran sahibkarlıq fəaliyyətinin kommersiya təşkilatları birlikləri (ittifaqlar, assosiyasiyalar), təsərrüfat cəmiyyətləri tərəfindən əlaqələndirilməsi yolverilməzdir.

Maddə 7 federal hakimiyyətin, Federasiya subyektlərinin yaxud yerli özünü idarə orqanlarının rəqabəti məhdudlaşdırılmasına yönələn aktlara və hərəkətlərinə həsr olunub.

Bu orqanlara TS-in müstəqilliyini məhdudlaşdıran, bir qrupa diskriminasiya digər qrupa isə əlverişli şərait yaradan aktların qəbul edilməsi və (və ya) bu istiqamətdə hər hansı hərəkətlərin edilməsi

qadağan olunur əgər bunların nəticəsində rəqabət məhdudlaşdırılır, TS-in yaxud vətəndaşların maraqlarına zərər vurulursa.

Rusiya qanunvericiliyində nəzərdə tutulan hallar istisna olmaqla yeni təsərrüfat subyektlərin yaradılmasına məhdudiyyət qoyulmasına icazə verilmir, ayrı-ayrı fəaliyyət və əmtəə növlərinin buraxılışına qadağa qoyula bilməz.. Bu məhdudiyyətlər lisenziyalaşdırılan fəaliyyət növlərinin siyahısı ilə müəyyən olunurlar. Rusiya Federasiyasının bir regionundan digər regionuna əmtə hərəkətinə qadağaların müəyyən olunması yaxud təsərrüfat subyektlərinin satış (məhsul əldə etmək, mübadilə, alqı-satqı) hüquqlarının başqa vasitələrlə məhdudlaşdırılması qadağan olunur.

Rusiya Fedrasiyasının qanunverici və normativ aktları ilə müəyyən olunan prioritetlər nəzərə alınmadan müqavilələrinin bağlanması yaxud əvvəlcə müəyyən qrup alıcılara sonra isə digərlərinə əmtəə təminatı (iş görülməsi, xidmət edilməsi) yol verilməzdir. Eyni bazarda işləyən təsərrüfat subyektlərinin bir hissəsini digərindən üstün vəziyyətə salan güzəştlərin təmin olunması qadağandır. Ayrıca bir ts-nə güzəşt olunması federal antiinhisar orqanı ilə razılaşdırılmalıdır.

İstehsalın və ya əmtəə satışının inhisalaşdırılması məqsədilə nazirlik, komitə və digər dövlət və yerli idarəetmə orqanlarının yaradılması və ya fəaliyyətdə olan orqanlara müvafiq hüquqların verilməsi qadağan olunur. Rusiya qanunvericiliyində nəzərdə tutulan hallardan başqa idarəetmə orqanların funksiyalarına təsərrüfat subyektləri funksiyalarının əlavə edilməsi həmçinin təsərrüfat subyektlərinə qeyd olunan orqanların funksiyalarının, o cümlədən dövlət nəzarəti funksiyalarının verilməsi . Təəssüf ki, göstərilən qadağaların çoxu təcrübədə işləmir.

8-ci maddə federal icra hakimiyyəti orqanlarının, Federasiya subyektlərinin və yerli öznüidarəetmə orqanlarının rəqabəti məhdudlaşdıran razılaşmalarından (razılaşdırılmış hərəkətlərindən) bəhs edir. Bu hakimiyyət orqanlarının bir-biri ilə və ya təsərrüfat subyektləri ilə rəqabəti məhdudlaşdıran yaxud digər TS-nin və ya vətəndaşların mənafelərinə xələl gətirə bilən (qiymət və tariflərin yüksəldilməsi, aşağı salınması və ya sabit saxlanılması, bazarın

ərazi və ya digər əlamətə görə bölünməsi, bazara girişin məhdudlaşdırılması və ya ayrı-ayrı TS-nin bazardan çıxarılması) hər hansı razılaşma (razılaşdırılmış hərəkətlər) əldə etməsi qadağandır.

9-cu maddədə göstərilir ki, dövlət hakimiyyət və idarəetmə orqanlarının səlahiyyətli şəxsləri sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. Bu şəxslərə müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, müəssisənin mülkiyyətçisi olmaq, səhmdar cəmiyyətlərin ümumi iclasında qərar qəbul edildikdə səhm, pay və ya əmanətlərindən istifadə edərək şəxsən və ya nümayəndə vasitəsilə ilə səsvermədə iştirak etmək, təsərrüfat subyektlərinə idarəetmə orqanlarında vəzifə tutmaq qadağan olunur.

10-cu maddə haqsız rəqabətə həsr olunub. Onun aşağıdakı formaları göstərilir: digər şəxsin işgüzar reputasiyasına və mənfəətinə xələl gətirə bilən qeyri-dəqiq, yalan və təhrif olunmuş məlumatların yayılması; məhsulların istehlak xüsusiyyətləri, keyfiyyəti, istehsalın yeri, xarakteri və üsulu barədə istehlakçıların çaşdırılması; təsərrüfat subyektinin, onun istehsal etdiyi və ya reallaşdırdığı məhsulların üstünlüklərinin, digər istehsalçıların məhsulları ilə müqayisədə qeyri-korrekt qiymətləndirilməsi; antireklam, özgəsinin intellektual mülkiyyətini nəticələrindən istifadə etməklə əmtəələrin satılması; hər hansı gizli informasiyanın onun sahibinin razılığı olmadan açıqlanması.

Antiinhisar qanunvericiliyinin pozulması barədə bütün qərarlar məhkəmə tərəfindən qəbul olunur. Təsərrüfat fəaliyyətinin koordinasiyası zamanı bazar inhisarlaşarsa, məhkəməyə iddia ilə federal və ya yerli antiinhisar orqanı müraciət edir. Rusiyada iki səviyyəli antiinhisar sistemi mövcuddur. Federal səviyyəli orqan Antiinhisar Siyasəti və Sahibkarlığa Yardım Nazirliyidir. Federasiya subyektləri səviyyəsində isə ərazi antiinhisar idarələri mövcuddur. Onların funksiyaları "Rəqabət haqqında..." qanunun 11-16-cı maddələrində ətraflı göstərilir.

Kommersiya və qeyri-kommersiya təşkilatları, hər hansı səviyyəli idarəetmə və icra orqanı tərəfindən antiinhisar qanunvericiliyi pozularsa, antiinhisar orqanları bu barədə Sərəncam verir. Pozuntuya yol vermiş şəxslər bu orqanın qərarı ilə pozuntunu da-

yandırmalı, əvvəlki vəziyyəti bərpa etməli, qanunsuz mənfəəti federal büdcəyə köçürməli, antiinhisar orqanın qərarına uyğun yenidənqurma aparmalıdır. Sərəncam yerinə yetirilməzsə, qərarı məhkəmə çıxarır.

Hələ ki, Rusiyada antiinhisar qanunvericiliyinin pozulmasına görə çox zəif cəza nəzərdə tutulur (bax: "Rəqabət haqqında..." qanunun 22-ci, 23-cü, 24-cü maddələri).

3. Təsərrüfat strukturlarının fəaliyyətinin tənzimlənməsi

Antiinhisar tənzimlənməsi iqtisadiyyatda fəaliyyət göstərən bütün tip təsərrüfat strukturlarına tətbiq olunur. Lakin Rusiya iqtisadiyyatının əvvəlki dövrünün əsas xüsusiyyəti onun demək olar ki, bütün bazarların inhisarda olması olub. Onun əsasını direktiv planlaşdırma və dövlətin müəyyən etdiyi və tənzimlədiyi qiymətlərlə planlı əmtəə mübadiləsi təşkil edirdi. Dövlətsizləşdirmə və özəlləşdirmə prosesləri inhisarlaşmanı tam aradan qaldırmamışdır. Xalq təsərrüfatının təbii inhisar kimi qiymətləndirilən əsas sahələrində o müəyyən qədər qalmışdır. Buna görə də antiinhisar siyasəti dövlət idarəetməsinin ən vacib altələrindən biri kimi çıxış edir.

Eyni zamanda, əsasən sahə nazirlikləri və komitələr olan iri dövlət inhisar strukturlarının dağıdılması nəticəsində əsas əmtəə bazarlarında rəqabət üçün iqtisadi baza yaradılıb. Bir sıra hallarda, inhisarlaşma oliqopolik şəklini alıb (məsələn metallurgiya, neft hasilatı və neft emalı). Pərakəndə satış və xidmət sferasında, kiçik və orta müəssisələrin fəaliyyət dairəsində rəqabət kifayət qədər inkişaf etmişdir.

Rusiya iqtisadiyyatı üçün təbii və "icazəli" inhisarların təsərrüfat fəaliyyətinin tənzimlənməsi daha böyük əhəmiyyət daşıyır. Təbii inhisarlara nələr aiddir? Birincisi, mövcudluğu istehsal xərclərinə qənaətin zəruriliyi ilə izah edilən inhisarlar. Əgər bir firma əmtəəni digərinə nisbətən az xərclərlə istehsal edirsə, bu firma təbii inhisarlara aiddir (düzdür, Rusiyada bu norma tətbiq olunmur).

Ikincisi, inhisarlar o sahələrdə saxlanmalıdır ki, orada rəqib istehsalçıların yaradılması iqtisadi cəhətdən məqsədəuyğun deyil. Bu tip inhisarlara aşağıdakıları aid etmək olar: Vahid edergetik sistem (ötürmə xətləri), Transneft, Qazprom, Moskva telefon şəbəkəsi, Moskva su kanalı, dəmir yolu şəbəkəsi və s. Anoloji istehsal-təsərrüfat strukturları. "Icazəli" inhisarlara SSRI-də yaradılmış bir çox iri müəssisələri aid etmək olar. Indiki şəraitdə onlara rəqiblərin yaradılması mümkün deyil. Məsələn, "Norilsk nikel" ASC.

Təbii inhisarların fəaliyyətinin xarakterik xüsusiyyəti odur ki, onlar digər təsərrüfat subyektlərinin – onların məhsul və xidmətlərinin istehlakçılarının iqtisadi fəaliyyətinin nəticələrinə əhəmiyyətli təsir göstərir. Məsələn, 1995-1997-ci illərdə sənaye istehsalının dəyərinin 35%-ni elekrtik enerjisi və daşınmaya olan yüksək tariflər təşkil etmişdi. Qiymətlər tam olaraq bazarda formalaşdığına görə, nəticədə bir çox müəssisələr qeyri-rentabelli oldu.

Məhz digər təsərrüfat strukturlarının fəaliyyətinə təsir amili dövlət tərəfindən təbii inhisarların məhsullarının qiymət tənzimlənməsini zəruri edir.[1] Belə tənzimləmə istehsal olunan məhsul və xidmətlərə qiymətlərin razılaşma əsasında müəyyən edilməsi ilə həyata keçirilə bilər. Bu qiymətlərin səviyyəsi istifadəşilərin rentabelli işləməsini təmin etməli, təbii inhisarın təkrar istehsal proseslərinə mane olmamalı, son məhsulun istehlakçıları üçün əlverişli olmalıdır. Onların müəyyən edilməsi zamanı təbii və icazəli inhisarların istehsal xərcləri üzərində nəzarət xüsusi diqqət tələb edir. O, məhsulun maya dəyərinin və qiymətinin strukturunun təhlili yolu ilə həyata keçirilir, onların tərkibi isə öz növbəsində müvafiq normativ aktla nəzərdə tutulur. Bu xərclərin məhsulun maya dəyərinə daxil edilməsi üzrə təlimatlara ciddi riayət olunmalıdır. Məsələn, ABŞ-da ofis binasının tikintisini istehsal xərclərinə aid etmək olmaz. Onu yalnız mənfəət hesabına inşa etmək olar.

Dövlətin antiinhisar siyasətinin əsas müddəaları təbii inhisar və istehlakçıların maraqlarını təmsil edən müvafiq dövlət orqanı arasında bağlanan müqavilədə əks oluna bilər. Belə müqavilələrin

[1] Təbii inhisarların qimət və tariflərini tənzimləyən dövlət orqanı Dövlət energetika komissiyası əsasında yaradılıb. – *Müəllif qeydi.*

bağlanması zamanı alınan resursların qiyməti, fəaliyyətin maya dəyəri, istehsalın rentabelliyi, mənfəətin xərclənməsi istiqamətləri kimi amillərin əsasında tariflərin iqtisadi cəhətdən əsaslanması təhlil olunur. Əgər tariflər istehlakçılar üçün qeyri-rasional olarsa dövlət onların dəqiqləşdirilməsi barədə qərar qəbul edə bilər.

Korporativ strukturların təsərrüfat fəaliyyəti o zaman antiinhisar orqanları tərəfindən tənzimlənir ki, onların bazarda payı qanunvericiliklə yol verilən həddən artıq olsun. Sahibkarların birlikləri və ya asossiasiyaları öz məqsədləri kimi sahibkarlıq fəaliyyətinin koordinasiyasını nəzərdə tutmayıblarsa (bu, onların nizamnaməsi ilə qeyd olunmalıdır), onların fəaliyyətinə antiinhisar tənzimləməsi tətbiq olunmur. Əgər onlar öz nizamnamələrindəki bu müddəanı pozsalar, onların fəaliyyəti sövdələşmə kimi qəbul olunur və antiinhisar orqanlarının səlahiyyət dairəsinə düşür.

4. Dünya bazarlarında antiinhisar tədbirləri

Antiinhisar siyasəti üzrə qanunverici aktlarının məzmunu prinsipcə dünyanın müxtəlif ölkələrində oxşar olsa da, müəyyən fərqlər də mövcuddur. Məsələn, ABŞ-da firmalar arasında qeyri-rəqabət kooperasiyası qadağan olunub, Avropada isə buna yol verilir. Avropada həmçinin son məhsul istehsalçılar ilə onların mal göndərənləri arasında şaquli qeyri-rəqabət əlaqələrinin qurulmasına da icazə verilir. Rusiya və ABŞ-da isə bu, qadağandır. Dövlətlərarası münasibətlərdə, transmilli korporasiyaların fəaliyyətində rəqabətin qorunması tələblərinə, demək olar ki, rast gəlinmir.

Dövlətlərin antiinhisar fəaliyyəti, müəyyən dərəcədə, dünya bazarında azad rəqabətə doğru hərəkəti tətbiq edən monetarist siyasətinin həyata keçirilməsidir. Lakin, milli əmtəə istehsalçılarının maraqlarının qorunmasının zərurəti, bütün dövlətlərin xarici iqtisadi fəaliyyətdə fəal iştirakı, eləcə də iri istehsalların çox yüksək gəlirlərə can atması nəticəsində bu sferada azad rəqabətin tələbləri ödənilmir. Bu, həmin ölkələrdə antiinhisar siyasətinin həyata keçirilmə təcrübəsində də öz əksini tapır. Belə ki, 80-ci illər-

dən başlayaraq praktiki olaraq bütün inkişaf etmiş ölkələrin hökumətləri iqtisadiyyatın və xarici ticarətin ixtisaslaşması sahəsində milli korporasiyaların birgə fəaliyyətini dəstəkləyirlər, bu isə beynəlxalq rəqabət azadlığını məhdudlaşdırır. Onların ümumi siyasətinin mahiyyəti milli iqtisadiyyata yardımı nəzərdə tutur və daxili bazarlarda yerli istehsalçıların xarici əmtəə istehsalçıları ilə rəqabətdə üstünlüyünün təmin edilməsinə yönəlmişdir.

Yerli əmtəə istehsalçıları bütün ölkələrdə dəstəklənir. Beynəlxalq münasibətlər sferasında ədalətli rəqabət qanunları işləmir. Məsələn, Reyqan administrasiyasının həyata keçirdiyi iqtisadi siyasət zamanı antiinhisar orqanlarının qərarlarına o amil təsir göstərirdi ki, hökumət, ədalətli rəqabət prinsiplərinin pozulmasına fikir verməyərək iqtisadiyyatın fəaliyyətinin effektivliyini yüksəltməyi istiqamət kimi seçmişdi. AİB ölkələrinin siyasətində qiymətlərin dövlətlərarsı razılaşmalar vasitəsilə tənzimlənməsi metodu istifadə olunur. Dünya bazarında bu ölkələr razılaşdırılmış şəkildə çıxış edirlər. Həmçinin Avropada rəqabət azadlığının ziyanına iqtisadiyyatın effektivliyinin artırılması siyasəti həyata keçirilir. Bununla bərabər, AİB çərçivəsində rəqabətin qorunması AİB-in təsis olunması haqqında Müqavilə ilə müəyyən edilmiş və ümumi rəqabət qaydalarını əks etdirən ümumi müddəalar əsasında həyata keçirilir. Antiinhisar tənzimlənməsi tədbirlərini Avropa Şurası tərəfindən yekdilliklə, o olmazsa çoxluqla müəyyən edir.

AİB ölkələri arasında ticarətə xələl gətirə biləcək hər hansı müəssisələrarası razılaşmalar, müəssisələrin birləşdirilməsi barədə qərarlar və ixtiyari koordinasiyalı fəaliyyət ümumi bazarla uyuşmaz hesab olunur. Qiymətlərin müəyyənləşdirilməsi, istehsal və satışın, texniki inkişafın və ya investisiyaların məhdudlaşdırılması şəklində rəqabətin pozulması hallarına qanunla nəzarət olunur. Bazarların və ya təminat mənbələrinin bölünməsinə yol verilmir. Ticarət partnyorlarına qeyri-bərabər yanaşmaq, müqaviləyə onun mahiyyəti ilə bağlı olmayan və rəqiblərə qeyri-bərabər şərtlər yaradan müddəaları daxil etmək qadağandır. Müəssisələrin öz üstün mövqelərindən sui-istifadə etməsinin, xüsusilə də öz qiymətlərinin yeridilməsinin, istehlakçıların mənafelərinə zidd olaraq

istehsalın, satışın və texnoloji inkişafın məhdudlaşdırılmasının qarşısı alınır. Bununla bərabər, əgər qadağan olunmuş tədbirlər iqtisadi və ya elmi-texniki inkişafa təkan verirsə, onlar qanuni hesab olunur və sahibkara mənfəətdən faydalanmaq imkanı verilir. Antiinhisar fəaliyyətinin bu müddəaları AİB-nin bütün ölkələri üçün ümumi hesab oluna bilər.

AİB-də Ümumi bazar daxilində dempinqə yol verilməməsinə xüsusi diqqət ayrılır. Ticarət üzrə Komissiya ayrı-ayrı ölkələrin və əmtəə istehsalçılarının bazarlarda davranışına nəzarət edir. Dempinq aşkar olunarsa, Komissiya onun aradan qaldırılması təklifləri ilə çıxış edir. Əgər dempinq davam edərsə, Komissiya xüsusi tədbirlər müəyyən edir və zərər çəkmiş ölkələrə bu tədbirlər vasitəsilə özünü mühafizə etmək səlahiyyəti verir. AİB çərçivəsində rəqaabəti pozan və ya paqəbətin pozulma təhlükəsini yaradan dövlət tərəfindən ayrı-ayrı firmaların hər cür dəstəklənməsi Ümumi bazarla uyuşmaz hesab olunur.

Dünyanın əsas rəqibləri (ABŞ, Yaponiya, AİB) səviyyəsində öz əmtəə istehsalçılarına münasibətdə dövlətin proteksionist tədbirləri fəaliyyət göstərir. Tənzimləmə daxili tədbirlər və beynəlxalq razılaşmalar hesabına (gömrük maneələri və ya güzəştləri, qarşılıqlı mal göndərişləri, embarqolar və s.) həyata keçirilir. Transmilli korporasiyalar arasında azad rəqabət qaydaları ümumiyyətlə fəaliyyət göstərmir. Bu korporasiyalar müəyyən əmtəəyə istiqamətli olur (məsələn, transmilli neft korporasiyaları). Dünya onlar arasında ərazi prinsipinə görə bölünmüş olur. Yeni satış bazarları uğrunda mübarizə və ya kvotaların dəyişdirilməsi onlar tərəfindən sərbəst həyata keçirilir.

Dünya təcrübəsində elə hallar da var ki, bazarın inhisarlaşması milli istehsalların inkişaf səviyyəsindəki fərqlərdən irəli gələrək beynəlxalq əmək bölgüsünün nəticəsində meydana çıxıb. Məsələn, Yaponiyanın milli istehsalının texnoloji oriyentasiyası və yüksək effektivliyi ona imkan verib ki, elektron sənayesi məhsulları bazarını inhisarlaşdırsın. Belə ki, onun istehsal etdiyi keyfiyyətli və ucuz məhsullarla rəqabət apamaq mümkün olmamışdır.

Yekunda onu demək olar ki, antiinhisar fəaliyyəti bazar iqtisadiyyatının əsas müddəalarının inkişafını təmin edir, onun effek-

tivliyinin artırılması mənbəyi kimi çıxış edir və dövlət tənzimlənməsinin təsirli bir alətidir. Onun həaya keçirilməsi yalnız qanunverci-normativ bazaya deyil, həmçinin onun icrasının və sanksiyaların yerinə yetirilməsinin effektiv nəzarət sisteminə söykənməlidir. Sonuncu Rusiya üçün xüsusilə vacibdir.

Suallar və tapşırıqlar

1.Rusiyada oliqopolik bazarların iqtisadi qiymətini verin.
2.Sövdələşmə əsasında əmtəə bazarlarının inhisarlaşdırılması iştirakçılarının aşkara çıxarılması və fəaliyyətlərinin qarşısının alınması üçün hansı metodlar tətbiq olunur?
3.Konkret əmtəə bazarının inhisarlaşma dərəcəsini nə cür müəyyən etmək olar?
4.Rusiyada "Rəqabət haqqında" qanununu pozanlara qarşı hansı sanksiyalar tətbiq oluna bilər?
5.Dünya bazarında rəqabətin qorunması üçün hansı tədbirlər tətbiq olunur?
6.Təbii inhisarların istehsal etdikləri əmtəələrə(xidmətlərə) tədbiq olunan qiymətlər və tariflər hansı ilkin şərtlər əsasında müəyyən edilirlər?
7.Dövlətin antiinhisar fəaliyyətinin zəruriliyini doğuran iqtisadi səbəbləri açığlayın.
8.Bazarların əmtəə sərhədləri nə çür müəyyən edilir?
9.Dövlət sifarişləri müsabiqə yolu ilə yerləşdirildikdə rəqabətin qorunması üçün hansı tədbirlər görülür?
10.Hansı hallarda bazarın inhisarlaşdırılması antiinhisar qanunvericiliyin pozulması kimi qiymətləndirilmir?

© Архангелский В.Н. 2002

IX Fəsil

TƏKRAR İSTEHSAL PROBLEMLƏRİ

1. Təkrar istehsal iqtisadi kateqoriya kimi

«**T**əkrar istehsal» kateqoriyası ölkənin sosial-iqtisadi inkişafının keyfiyyət və kəmiyyət dəyişməsini xarakterizə edir. Öz mahiyyəti etibarə ilə təkrar istehsal iqtisadi proseslərin fasiləsizliyinin bərpasını ifadə edir.

«Təkrar istehsal» anlayışı, iqtisadi nəzəriyyədə geniş istifadə olunsa da, son dövrlərdə «iqtisadi artım» məvhumuna daha çox diqqət yetirilir. İqtisadi artım makrosəviyyədə istehsalın kəmiyyət tərəflərini səciyyələndirir. Məsələn, ümumi daxili məhsulun, xalis milli məhsulun, milli gəlirin müqayisəli dövrdə artımı və s.

İqtisadi artımın keyfiyyət xüsusiyyəti həmin makroiqtisadi göstəricilərin əhalinin hər nəfərinə düşən səviyyəsi və istifadə strukturu ilə əlaqədardır.

Lakin qeyd etmək lazımdır ki, təkrar istehsala nəinki maddi nemətlərin istehsalı və istehlakı aiddir, o habelə əhalinin, əmək resurslarının, işçi qüvvəsinin və ümumilikdə sosial-iqtisadi münasibətlərin də təkrar istehsalını əhatə edir. Buna görə də «təkrar istehsal» kateqoriyası «iqtisadi artım» - anlayışından daha geniş hesab olunur. Digər tərəfdən «təkrar istehsal» kateqoriyasının istifadə olunması makroiqtisadi səviyyədə baş

verən sosial-iqtisadi dəyişikliklərin mürəkkəbliyi ilə də təsdiq olunmuşdur.

Dəyişilmə miqyasından (adətən 1 il) və keyfiyyətindən asılı olaraq təkrar istehsal fərqləndirilir:

1. Sadə təkrar istehsal
2. Geniş təkrar istehsal
3. Məhdud (dar) təkrar istehsal (məsələn müharibə və ya digər təbii fəlakətlərlə əlaqədar olaraq əhalinin həyat səviyyəsinin aşağı düşməsi)

Sadə təkrar istehsal maddi nemətlər istehsalının və xidmətlərin, işçi qüvvəsinin sosial-iqtisadi münasibətlərin dəyişilməz səviyyəsi ilə səciyyələnir. Geniş təkrar istehsalda isə bu parametrlərin iqtisadi artımı və dəyişilməsi nəzərdə tutulur. Sadə təkrar istehsalda izafi dəyər sahibkarlar tərəfindən tam istehlak olunursa, geniş təkrar istehsalda onun bir hissəsi yığıma ayrılaraq, istehsalın miqyasının, genişləndirilməsinə sərf olunur.

Müharibə, sosial sarsıntı və iqtisadi böhranlar nəticəsində əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb ola bilən məhdud təkrar istehsal da ola bilər.

Təkrar istehsal, istehsal dövriyyəsi olmadan həyata keçə bilməz. Deməli təkrar istehsal ancaq müəyyən prosesin gedişində təmin olununr. Müasir döbvrdə təkrar istehsalın qarşılıqlı əlaqədə olan mərhələləri daima yeniləşir. Belə ki, təkrar istehsal mərhələsinə yeni istehsalın elmi təşkili fazası da əlavə olunmuşdur. Təkrar istehsalın hər bir fazası (istehsalın elmi təşkili, istehsal, bölgü, mübadilə, istehlak) özünəməxsus funksiyanı yerinə yetirsələrdə, ümumilikdə təkrar istehsalın məqsəd və vəzifələrini təmin edirlər.

Təkrar istehalın qlobal vəzifəsi və son məqsədi əhalinin rəngarəng tələbatının ödənilməsidir. Təkrar istehsalın bu son nəticəsi eyni zamanda onun zəminə xidmət edir. Cəmiyyətin həyatının əsasını isə istehsalın fasiləsizliyi, kəsilməzliyi təşkil edir.

Bu onunla şərtlənir ki, istehlak tələbini ödəyən məhsulların daima istehsalı son nəticədə iş qüvvəsinin təkrar istehsalına səbəb olur. İş qüvvəsi isə təkrar istehsalın müəyyən edici amilidir. Deməli, istehsal vasitələrinin bərpa olunması yeni

təkrar istehsal tsiklinin ilkin maddi əsası kimi çıxış edir. Bu funksiyanı təkrar istehsalın mərhələsi olan istehsal fazası yerinə yetirir. İstehsal fazasının funksiyası təkcə istehlak olunmuş maddi nemətlərin bərpası deyildir o, həmçinin əhalinin müxtəlif məhsullara daima artan tələbatının ödənilməsinə xidmət etməlidir. İstehsal fazasının mühüm funksiyalarından biri də keyfiyyət və kəmiyyət göstəricilərinin effektivliyinin artırılmasıdır ki, bunun üçün də istehsalın elmi təşkilinin hazırlanması zəruridir.

Təkrar istehsalın bölgü fazasının funksiyası ictimai istehsalın nəticələrinin və gəlirlərin bölüşdürülməsidir. Bu təsərrüfat subyektlərinə əmtəə və xidmət bazarına alıcılıq qabiliyyətli tələb təqdim etmək üçün imkan verir. Bu zaman, eyni zamanda istehsal amillərinin bazar mexanizminin köməkliyi ilə həyata keçirilən və mülkiyyət münasibətləri ilə şərtlənmiş bölgüsü baş verir.

İstehlak fondunun həcm və dinamikası muzdlu işçilərin gəlirlərinin səviyyəsi, onun artırılması imkanları və məşğulluğun miqyası ilə müəyyən olunur.

Mənbəyi gəlir olan, yığım fondunun həcm və dinamikası geniş təkrar istehsalın maddi əsasını şərtləndirir. Deməli, istehsalın bölüşdürücü amilləri, makroiqtisadiyyatın təkrar istehsaln strukturunun müəyyən edir. Bölgünün xarakteri mövcud istehsal üsülunun məqsədindən birbaşa olaraq əhəmiyyətli dərəcədə asılıdır. Bazar iqtisadiyyatı şəraitində bu məqsəd maksimum gəlir əldə etmək imkanı ilə müəyyən olunur. Bu məqsədin reallaşdırılması, son nəticədə ictimai istehsalın əsas məqsədi olan əhalinin tələbatının ödənilməsinə şərait yaratmış olur.

Mübadilə fazası əmtəələrin istehlakçılara çatdırılması mülkiyyət münasibətlərinin dəyişdirilməsi funksiyasını yerinə yetirir. Beləliklə, bu fazada təkrar istehsal prosesi real olaraq ictimai məhsulun bölgüsündə həyata keçirilmiş olur. İstehlak fazası da müxtəlif funksiyaları yerinə yetirir. Bu zaman istehlak şəxsi istehlak və ictimai istehlak formasında çıxış edir. Maddi nemətlərin şəxsi istehlakı, cəmiyyət üzvləri resursların səviyyəsi, artmadan eyni həcmdə təkrarlanır. Sadə təkrar istehsalda istehsalın səviyyəsinin genişlənməsi və yığım prosesi getmir. Lakin bu fikir müəyyən qədər mücərrəd formadadır. Belə ki, sadə

təkrar istehsalda, istehsalın genişlənməsi müəyyən obyektlərin, sahələrin inşası kimi baş verir və bu istehsalın genişlənməsi kimi qəbul edilir. Sadə təkrar istehsalda həmçinin yığım prosesi də getmir. Lakin bununla da razılaşmaq olmaz. Belə ki, istehsalçılara əmək haqqı formasında verilən vəsaitin bir hissəsi yığıma gedə bilər. Geniş təkrar istehsalda isə istehsalın genişlənməsi və bunun üçün yığım fondunun yaradılması imkanları vardır.

Təkrar istehsal prosesinə, əmtəə axının daimi hərəkəti formasında baxmaq olar. Təkrar istehsal prosesinin iştirakçıları insanlar (ev təsərrüfatı) və firmalardır. Elə onların arasındada əmtəə yerləşməsi,hərəkəti baş verir. Müasir cəmiyyətdə təkrar istehsal prosesinin həyata keçirilməsində dövlət mühüm rol oynayır.

Makrotəkrar istehsal prosesində ev təsərrüfatının rolu, istehsalın əsas amillərinin; əmək, torpaq, kapital və sahibkarlıq qabiliyyətinin təqdim olunmasındadır. Eyni zamanda ev təsərrüfatı hazır məhsulun əsas istehlakçısıdır.İnsanların maddi tələbatı, zövqü də, təkrar istehsal prosesinə böyük təsir göstərir. Məsələn, əhalinin əsas kütləsinin əmək haqqı səviyyəsi aşağıdırsa, uzun müddətli əmtəə qıtlığı mövcuddursa, əhalinin ən sadə tələbatı ödənilmirsə, belə halda firmalar fəaliyyətlərini daha ucuz, kütləvi məhsul istehsalına istiqamətləndirəcəklər, innovasiya keyfiyyətli məhsul istehsalına yox, istehsal xərcinin və qiymətin aşağı salınmasına yönəldiləcəkdir. Əhalinin gəlirlərinin artdığı halda, sənaye istehsalının həcminin genişlənməsi ilə yanaşı onun xarakteri də dəyişir. Çünki, insanların ilkin tələbatı ödənildikdən sonra, onlar daha keyfiyyətli və bahalı məhsul almağa can atırlar. Belə şəraitdə firmalar, yeni modifikasiyalı məhsul istehsal etməyə, məhsulun keyfiyyətinin artırılmasına meyl göstərirlər. Son nəticədə belə fəaliyyət, təkrar istehsalın özündə keyfiyyət dəyişikliyinin aparılmasına səbəb olur. Əhali gəlirlərinin artması, istehlakın həcminə əhəmiyyətli təsir göstərir. Beləki, istehlakın həcminin artması, tələbin artmasına, bu isə istehsalın genişlənməsinə zərurət yaradır. Qısa bir dövr ərzində, istehlakın həcminin artırılması və məcmu tələbin yüksəldilməsi hesabına istehsalın genişləndirilməsi imkanı ideyası Keyns məktəbi tərəfindən irəli sürülmüşdür.

Məhsul və xidmətlər istehsalında firmaların rolu, bazarda tələbatı olan məhsul istehsal etməkdir. Bazardan istehsal resursları əldə edən firmalar, bazara yeni hazır məhsul təqdim edirlər. Buna görədə qeyd etmək olarki, makro səviyyədə təkrar istehsal prosesinin effektliyi, ayrı-ayrı firmalarda və makro səviyyədə istehsalın təşkili səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır.

Təkrar istehsal prosesində dövlətin rolu, hər şeydən əvvəl təkrar istehsal prosesinin mütənasibliklərini tənzimləməkdən ibarətdir. Vergiyə cəlb etmək vasitəsilə dövlət inhisarçı subyektlərin gəlirini azaldar, pensiya, yardım, təqaüd vasitəsilə, sosial bərabərlik siyasəti apara, kredit və dövlət alışı vasitəsilə, ictimai əhəmiyyətə malik artıra, məhsullar istehsalını artıra, perspektiv üçün proiretet istehsal sahələrini müəyyənləşdirə bilər və s.

Məsələn, dövlət yüksək elm tutumlu sahələrin inkişafını, yüksək texnologiyalı, istehsalı kənd təsərrüfatını və s. dəstəkləyə bilər. Dövlət çox hallarda hazır məhsulun əsas alıcısı kimi, çıxış edir. Müdafiə əhəmiyyətli məhsullarda isə dövlət faktiki olaraq inhisarçılığı əlində saxlayır.

*2.*Təkrar istehsalın makroiqtisadi mütənasibliklər

Makroiqtisadi təkrar istehsalın effektivliyi ictimai istehsalın fəaliyyətinin mərkəzi məsələlərindəndir. Təkrar istehsal prosesinin kəmiyyət meyarı, iqtisadi artım və onun effektivliyi hesab edilir. Təkrar istehsalın belə inkişafı bir neçə şərtlərin olmasını zəruriləşdirir ki, bu da təkrar istehsalın reallaşdırılmasının tarazlıq şərtləri kimi çıxış edir.

İqtisadi sistemdə daimi olaraq təklifin qarşılıqlı uyğunlaşması prosesi baş verir. Böhrandan sonrakı dövrdə əhalinin gəlirinin və sənaye müəssisələrinin tələbatının artması nəticəsində məcmu tələbin yüksəlməsinə müsbət hal kimi baxmaq olar. Fərz edək ki, bazarda əhəmiyyətli dərəcədə reallaşdırılmamış məhsul toplanıb qalmışdır, sənaye müəssisələrində sərbəst istehsal gücləri mövcuddur, işsizlik yüksək səviyyədədir. Bu halda məcmu, tələbin yüksəlməsi, əmtəə ehtiyatının azalmasına,

işsizlik səviyyəsinin aşağı düşməsinə, istehsal güclərinin yüklənməsinə sonda isə iqtisadi artıma səbəb olacaqdır.

İstehsalın maksimal mümkün həddinə nail olunmuş halında, işsizliyin aşağı səviyyəsində və istehsal güclərinin tam yükləndiyi halda məcmu tələbin artması iqtisadiyyata başqa formada təsir göstərir. Belə şəraitdə məcmu tələbin artması, qeyri mütənasibliklərin inkişafına, qiymət səviyyəsinin yüksəlməsinə, məhsul qıtlığının artmasına, praktiki olaraq iqtisadi artımın olmamasına səbəb olur. Belə halda məcmu tələbin həcminin onun optimal səviyyəsinin üstələməsi ilə əlaqədar olaraq iqtisadi sistemin vəziyyətində qeyri-bərabərlik meydana çıxır.

Məcmu tələbin gnişləndirilməsinin makroiqtisadi vəziyyətə belə müxtəlif təsiri tamamilə izah olunandır. Birinci halda, istehsal resurslarının mödcudluğu şəraitində məcmu tələbin artımı baş verirsə, istehsalın həcminin artması və əhalinin tələbatının təmin olunması praktiki olaraq qiymət səviyyəsinə təsir göstərmir. Həqiqətən də, sərbəst istehsal resursları və işsizliyin mövcudluğu şəraitində istehsalın həcminin yüksəldilməsi müəyyən dərəcədə asandır. Çünki işsiz adamlar aşağı səviyyəli əmək haqqı ilə razılaşıb işləmək istəyirlər, digər tərəfdən isə sərbəst istehsal güclərinin fəaliyyət başlaması bir o, qədərdə xərc tələb etmir. Deməli istehsalın həcminin tələbin artımına proporsional genişləndirilməsi imkanı mümkündür. İkinci halda, sərbəst istehsal resurslarının olmaması şəraitində, məcmu tələbatın artması iqtisadi vəziyyətə başqa təsir göstərir. Beləki, müəyyən müddətə tədiyyəqabiliyyətli tələbin təmin olunması praktiki olaraq qiymət artımı olmadan mümkün olmur. Çünki istehsalın genişləndirilməsi, yeni istehsal binalarının tikilməsini, yeni texniki avadanlıqların alınmasını, yeni yaradılan firmalar üçün yüksək əmək haqqı vədi ilə işçi qüvvəsinin cəlb olunmasını tələb edir. Bütün bunların hamısı istehsal xərclərinin artmasına və qiymətlərin yüksəlməsinə səbəb olur. Nəticədə, istehsalın həcminin yavaş-yavaş artırılması halı baş verir. Beləliklə, resursların olmaması şəraitində tədiyyə qabiliyyətli tələbin birdən-birə yüksəldilməsi istehsalın həcminin artırılmasında gözlənilməz makroiqtisadi bərabərsizlikləri törədə bilər.

Məcmu təklifin artımı da məcmu tələb kimi müəyyən şəraitdə iqtisadi artıma səbəb ola bilər. Bununla belə hesab etmək olarki, sənaye istehsalının artımına səbəb ola bilən məcmu təklifin artırılması amilləri, praktiki olaraq hansı vəziyyət olur olsun, iqtisadiyyatın müvəffəqiyyətlə inkişafı üçün gərəklidir. Həqiqətən də istehsalın həcminin genişləndirilməsi, geniş təkrar istehsalın və iqtisadi artımın olmasını əks etdirir. Məcmu təklifin həcminin artırılmasına stimul yaradılması, neoklassik məktəbin mərkəzi ideyası olmaqla, xüsusilə də iqtisadi təklif nəzəriyyəsi istiqamətini əks etdirir. Lakin bu o qədər də asan deyildir. Təkid etmək olar ki, məcmu təklifin həcminin artırılması müəyyən şəraitdə iqtisadi inkişafa mənfi təsir göstərə bilər.

Belə halda disproporsiyalar o vaxt meydana çıxır ki, tədiyyə qabiliyyətli tələbin artımı məhsul təklifini örtə bilmir. Belə hal adətən bazarın malla dolmasına səbəb olur.

Makroiqtisadi tarazlığın təmin olunması üçün əmanətlərlə investisiyanın bərabərliyi əsas şərtlərdəndir. Belə tarazlığın zəruriliyi, məcmu tələb və təklifin bərabərliyi prinsipindən meydana çıxır. Əmanətlərlə investisiyanın tarazlığına tələbatın belə izah etmək olar: iqtisadiyyatın müxtəlif bölmələrinin aldıqları gəlirlər, tamamilə istehlak və investisiya mallarına istiqamətləndiyi halda iqtisadiyyat stabil vəziyyətdə olur. Əgər iqtisadi agentlər gəlirlərindən məhsul alınmasına az sərf edirlərsə bu zaman istehlakın həcmi azalır bu zaman qiymət aşağı düşür və məhsul istehsalçıları ziyanla işləyirlər.

Bu vəziyyəti əmanətlərin investisiyanı üstələməsi effekti kimi səciyyələndirmək olar.Bu halda əmanətlər, investissiya məhsulları istehsalından alınmış gəlirləri üstələmiş olur. Nəzəri cəhətdən belə vəziyyət, investisiya məhsullarına qiymlərin artdığı halda mümkün hesab edilir.

Lakin investisiya məhsullarına qiymət artımına uyğun olaraq tələbatın artması, gələcəkdə gəlir götürmək arzusunda olan investorların fəaliyyətilə mümkün olunur.Özü-özlüyündə insanların daha çox pula qənaət etməsi qərarı, əmanətin hansı formada həyata keçirilməsini müəyyənləşdirmir. Pulun əmanətləşdirilməsi formasının seçilməsi, təklif olunan maliyyə aktivinin

etibarlığından və gəlirliyindən asılıdır. İstehlak məhsullarına qiymətlərin aşağı düşməsi, istehsala investisiya qoyan investorlar üçün mənfi siqnaldır. Eyni zamanda, qeyri-müəyyənlik şəraitində istehlakçılar əmanətləri pul aktivlərində saxlamağı, korporativ kağızlarda saxlamaqdan üstün tuturlar. Beləliklə, istehsalın ixtisar yayı açılmağa başlayır. İstehlakçılar qeyri-müəyyənlik şəraitində əmanətlərini daha çox pul aktivlərində saxlamağa çalışırlar. Eyni zamanda istehsalçılar əmək haqqını azaltmaq və işdən azad etmək yolu ilə xərcləri azaltmağa çalışırlar ki, sonda bu da istehlakın aşağı düşməsi ilə nəticələnir.

Geniş təkrar istehsalın dəyanətliliyinin təmin olunması üçün bir sıra şərtləri də qeyd etmək olar.

Təkrar istehsalın son məqsədi insanların tələbatının ödənilməsi olduğunu nəzərə alaraq və bunun üçün istehsal vasitələri istehsalının artırılması əsas götürüldüyünə görə ilk növbədə istehsal vasitələri istehsalı ilə istehlak şeyləri istehsalı arasındakı makromütənasiblik diqqət mərkəzində saxlanılmalıdır. Geniş təkrar istehsalın təmin olunması, maddi-əşya formasında resursların mövcudluğunu tələb edir. (işçi qüvvəsi, xammal, material, və s.) Bunların hər biri öz funksional rollarını yerinə yetirirlər. Eyni zamanda geniş təkrar istehsalın real təminatı, onun resurslarının ayrı-ayrı elementləri arasında da mütənasibliklərin olmasını tələb edir.

Əmək vastələri öz texniki parametrlərindən asılı olaraq bu və ya digər miqdarda əmək cismi emal edə bilər. Buna görə də, cəmiyyətin bazarda tədiyyə qabiliyyətli tələbində ifadə olunan tələbatına uyğun olaraq, əmək vastələrinin bu və ya başqa növləri əmək cismləri kütləsi ilə müəyyən münasibətlikdə olmalıdır. Təkrar istehsalın effektliyinin təmin olunması üçün obyektiv şərtlənmiş mütənasiblik kimi, bir işçiyə düşən istehsal vasitələririnin miqdarı hesab edilir. İqtisadi elmində bu mütənasiblik kapitalın texniki quruluşu adlanır. Bu kəmiyyət dəyişgəndir. O, elmi texniki tərəqqidən, iqtisadi qanunların fəaliyyətindən, işçilərin ixtisas səviyyəsindən asılıdır. Təcrübədə kapitalın texniki qruluşunu əks etdirən kəmiyyət kimi, dəyər ifadəsində fondlasilahlanma göstəricisinlən istifadə olunur.

Fondlasilahlanmanını artması bütünlükdə iqtisadiyyatın effektivliyinin və əmək məhsuldarlığının yüksəldilməsinə real imkanlar yaradır. Bununla belə, xammal material və ixtisaslı işçilərin olmadığı halında həmin göstərici əks təsirə malik olur.

İqtisadiyyatın bir-birindən fərqli sahə və istehsal növlərinin mürəkkəb sistemidir ki, onların birgə fəaliyyəti nəticəsində, sonsuz sayda müxtəlif məhsullar yaradılır. Bu isə çoxlu sayda fərqli əmək vastələrinin və əmək cismlərinin olmasını tələb edir. Bu tələbat, istehsalın uyğun sahə strukturunun formalaşması vastəsilə reallaşdırılır ki, bu da öz növbəsində həmin sahələrin müvafiq istehsal vastələri ilə təmin olunmasını tələb edir.

İstehsalın özü də spesifik istehlak növüdür. O, əmək və istehsal vastələri istehlak edir. Buna görədə, geniş təkrar istehsalın fasiləsizliyi, istehlak olunmuş əmək cismlərinin və aşınmış əmək vastələrinin əvəzinin ödənilməsi zəruriliyi ilə şərtlənir. Bundan əlavə istehsalın miqyasının genişləndirilməsi üçün, istehsal amillərinin keyfiyyət və kəmiyyət artımı yəni yığımında olması zəruridir. İnsanların əmək qabiliyyətinin mütamadi dəstəklənməsi və təkmilləşdirilməsi, həmçinin istehsal olunmuş ictimai məhsulun müəyyən hissəsini tələb edir. Bu mütənasibliklər, ödəmə fondu, istehlak fondu, yığım fonda kimi anlayış və kateqoriyalarda ifadə olunurlar.

İctimai məhsulun istehsalı və bölgüsünün təhlilinə əvvəllər də səy göstərilmişdir. F.Kenenin «iqtisadi cədvəli»-ni (1758-ci il) qeyd etmək kifayətdir. Sadə və geniş təkrar istehsal mütənasibliklərı K.Marksın «Kapital» əsərinin ikinci cildində ətraflı təhlil edilmişdir. Müasir iqtisadi elmi və statistika, təkrar istehsalın makroiqtisadi mütənasibliklərini səciyyələndirən bir sıra göstəricələrdən istifadə edir.

Ümumi daxili məhsul maddi istehsal və xidmət sahələrinin fəaliyyətinin son nəticələrini səciyyələndirir. Maddi istehsal xərcləri onun kəmiyyətinə daxil deyildir. ÜDM bütün təsərrüfat subyeklərinin yaratdıqları əlavə dəyərin kəmiyyətinin məcmu kimi müəyyən edilir və təkrar hesablama nəzərə alınmır. Lakin ÜDM istehsalının effektivliyi qiymətləndirilərkən, istehsal xarakterli material xərcləri də nəzərə alınır. Statistika aralıq

istehlakı qiymətləndirməyə imkan verir və bu da milli hesablar sisteminin, istehsal hesabında uçota alınır. İstehsalın material tutumu, onun effektivliyini səciyyələndirən əsas göstərici hesab olunur.

Milli hesablar sistemində, məhsul buraxılışı və göstərilən xidmətlərin nisbətini səciyyələndirən, istehsalın strukturunu əks etdirən xüsusi bölmə vardır. Bu nisbətliklərin dinamikası nəinki iki bölmənin fəaliyyətini, həmdə istehsalın strukturunu, hər bir sahənin xüsusi çəkisini, məhsul istehsalı və xidmət fəaliyyətini növlərini göstərir.

Geniş təkrar istehsalın əsas mütənasibliklәri, gəlirlərin yaranması hesabını açıqlayır. Ümumi gəlir və əmək haqqı fondunun ölçülməsinin kəmiyyəti və dinamikası, muzdlu fəhlələrin yaşayış səviyyəsini, iş qüvvəsinin geniş təkrarı imkanlarını mühakimə etməyə şərait yaradır. Onlar həmçinin iqtisadiyyatın gələcəkdə maddi-əşya əsasını müəyyən etməyə imkan verir. İstehsalı və ixraca vergilər, onların ölçülməsi, təsərrüfat subyektlərinin fəaliyyətini şərtləndirir.

Milli hesablar sistemi, ümumi əmanətlərə və əsas kapitala yığımı, habelə dövriyyə fondları ehtiyatının dəyişilməsini müəyyən edir. Ümumi əmanətlər və «qalan dünya»-dan alınan kapital transfertləri, əsas kapitala yığımın mənbəyi kimi çıxış edir, dövriyyə fondlarının artmını göstərir. Son istehlak və ümumi əmanətlərin dinamikası geniş təkrar istehsalı səciyyələndirir. Son istehsakın artım sürəti, əsas kapitala yağım formasında əmanətlərin feektivliyini əks etdirir.

Qeyd etmək lazımdır ki, əsas kapitala ümumi yığımın kəmiyyəti, onların istehsalda gələcək istifadəsi, yeni məhsulun yaranması nəticəsində gəlir əldə etmək məqsədini güdür. Burada aşınmış avadanlıqların dəyişdirilməsi də daxil olmaqla yeni alınmış əsas fondlar nəzərə alınır. Təəsüflər olsun ki, statistika, ödəmə fondu və yığım fondu nisbətlərinin makroiqtisadi mətənasibliklərini müəyyən etməyə imkan vermir. Halbuki, bu nisbətliklər təkrar istehsalın xarakterinə və effektivliyinə əhəmiyyətli təsir göstərirlər.

Hazırda istifadə olunan milli hesablar sistemi, geniş təkrar istehsalın bir sıra mütənasibliklərinin müəyyən olunmAsına imkan vermir. Məsələn gəlirlərə görə ümumi daxili məhsul hesablanarkən, iqtisadiyyatın ümumi gəliri və ümumi qarışıq gəlir kəmiyyətləri nəzərdə tutulur. Halbuki, əməyin mükafatlandırılması sahibkarlıq gəlirindən ayrı ola bilməz.

Ümumi gəlir, əsas kapitalın illik amortizasiyasına bərabər olan kəmiyyətlə qiymətləndirilir. Beləliklədə, ümumi gəlir ödəmə və yığım fondlarının makroiqtisadi münasibliklərini əks etdirmir. Bununla belə, milli hesablar sistemi əsasında faktiki göstəricələrin təhlilinin aparılması, makro səviyyədə təkrar istehsalın nəticələrini,onun təkmilləşdirilməsi istiqamətlərinə nəzərən iqtisadi siyasəti müəyyən etməyə imkan verir.

3. Geniş təkrar istehsal resursları və amilləri

Təkrar istehsal prosesinin təmin olunması, iqtisadiyyatın resurs bazası və onu hərəkətə gətirən iqtisadi və qeyri-iqtisadi amillərin fəaliyyəti ilə şərtlənir. İqtisadi istehsal resursları, istehsalın təminatının mənbəyi və vasitələri kimi çıxış edirlər. Bu iqtisadi amillər məcmuuna əmək resursları (insan kApitalı), təbii (xammal), kapital (fiziki kapital), dövriyyə vasitələri (materiallar), informasiya, maliyyə resursları (pul kapitalı) daxildirlər.

Amillər dedikdə iqtisadi prosesə və onun nəticələrinə təsir edən şərait, səbəb, parametrlər və fəaliyyətlər nəzərdə tutulur. Beləliklə, geniş təkrar istehsalın amilləri istehsal resurslarında reallaşdırılan amillər kimi başa düşülür. Bu hər şeydən əvvəl təklif amilləridir, daha doğrusu istifadə olunan resursların kəmiyyətinin artması və keyfiyyətinin yüksəldilməsidir. Axırıncısına işçilərin təhsilinin və ixtisasının artması, istehsal texnologiyasının təkmilləşdirilməsi, informasiyaların müxtəlifliyi, sahibkarlığın inkişafını aid etmək olar.

Sonra isə kredit münasibətlərinin inkişafı və əhalinin gəlirlərinin artması əsasında məcmu tələbin yüksəlməsi amillərinə nəzər salınır.

Son nəticədə resursların bölüşdürülməsi amilləri nəzərə alınır ki, bunlarda istifadə olunan resursların effektivliyinin yüksəlməsini təmin edirlər. İxtiyari istehsal prosesinin əsas iştirakçısı insanlardır. Çünki ancaq onların ağıl və güclərinin hesabına cəmiyyət üçün zəruri olan məhsullar istehsal edilir. Dövlətin malik olduğu işçi qüvvəsi və onun ixtisas səviyyəsi, millətin mentaliteti və onların məhsuldar əməyə can atması iqtisadi inkişafın nəticələrini müəyyən edən əsas amillərdirlər. Müasir dövrdə insan kapitalına istinad edilməsi, geniş təkrar istehsalın nəticələri nöqteyi-nəzərdən daha effektli qiymətləndirilir.

Əmək potensialının keyfiyyətini bir sıra parametrlərlə qiymətləndirmək olar. Məsələn əmək qabiliyyətli əhali onun sağlamlığı, sayı, daha döğrusu istehsal prosesinə cəlb oluna bilən əhali kütləsi və s. əmək potensialını əhalinin yaş strukturuna görədə qiymətləndirmək olar. Bunlar göstərir ki, ölkə hansı əmək resurslarına malikdir, yaxın gələcək üçün dövlət yaşlı nəslin mühafizəsi üçün hansı xərcləri çəkməlidir. Məşğulluq səviyyəsi və işləyənlərin ixtisas strukturasıda mühümdür. Bu göstərici əsasında əmək potensialından effektli istifadə və istehsalın genişləndirilməsi imkanları haqqında mühakimə yürütmək olar. Əhalinin mobilliyi, istehsalın bir sahəsindən digər sahəsinə işçi qüvvəsinin axını, ərazi üzrə miqrasiyasıda mühüm amildir. Nəhayət, işçi qüvvəsinin ixtisas səviyyəsi, istehsal mədəniyyəti səviyyəsi və işçi qüvvəsinin keyfiyyətini müəyyən edən amillər. Bunların hamısı ölkənin malik olduğu əmək potensialını əks etdirir.

İstehsalın inkişafının müasir tələbatı, təhsilin yüksək sosial mahiyyətini müəyyən edir. Bu sahədə çoxlu problemlər vardır. Mütəxəssislərin hazırlanması uzun müddət tələb edir. Təhsilin bazar iqtisadiyyatı şəraitində sərbəst fəaliyyət səviyyəsi çox aşağıdır. Yüksək ixtisaslı mütəxəssislərin artıqlığının subyektiv səbəbləri də mövcuddur. Bütün bunların haması, orta və ali təhsilin dəstəklənməsi, dövlətin strateji məqsədi əsasını təşkil etməlidir.

Müasir bazar iqtisadiyyatı şəraitində əmək resurslarından istifadənin effektivliyinin artırılmasına bazarın müxtəlif

alətlərinin köməyi ilə nail olmaq mümkündür. Məsələn, iqtisadiyyatın müxtəlif sahələri arasında əmək resurslarının axınının və mobilliyinin stimullaşdırılması vasitəsilə, işsizlərə sosial yardımların diferensasiya edilməsinin genişləndirilməsi yolu ilə və s.

Təkrar istehsal prosesinin təmin olunmasında istehsal avadanlıqlarından səmərəli istifadə olunması da mühüm amil kimi qiymətləndirilməlidir. Sənayedə fəaliyyətdə olan mövcud istehsal güclərinin tam istifadə olunması, onların vaxtında çıxdaş edilməsi ETT-nin tələblərinə cavab verməsi əsas məsələ kimi qarşıya qoyulmalıdır.

İstehsalın effektli inkişafı istehsal əsas fondlarının fasiləsiz yeniləşdirilməsi olmadan qeyri-mümkündür. Əasa fondların yeniləşdirilməsi investisiya, daha döğrusu istehsalın dəstəklənməsi və genişləndirilməsi məqsədilə uzun müddətli kapital qoyuluşu hesabına həyata keçirilə bilər. Onların mənbəyi yığım və amortizasiyadır. İnvestisiyaların yüksək effektivliyinə o, vaxtı nail olunur ki, qoyulan kapital sadəcə olaraq köhnənin dəyişdirilməsi yox, avadanlıq formasında yeni texnologiyanın tətbiqi olsun. Elmi texniki tərəqqinin mümkünlüyü ölkənin malik olduğu elmi texniki potensialdan asılıdır.

Praktiki olaraq yüksək inkişaf etmiş ölkələr, fundamental tədqiqatlar üçün əsas baza kimi tətbiqi elmlərin inkişafını seçirlər. Bu proses tənzimlənmənin müxtəlif dolayı amilləri vasitəsilə dəstəklənir. Məsələn kreditləşmə, güzəştli vergilər, ETLİ-rə sferasında fəaliyyət göstərən müəssisələrə müəyyən qədər həlim yanaşmaq və s.

Rusiya federasiyası dünyada təbii resurs potensialına malik olan ölkələrdəndir. Bu resurslardan səmərəli istifadə, geniş təkrar istehsalın əsas amilidir.

Cədvəl

Rusiya Federasiyasının mineral xammalla təminatı

Faydalı qazıntı növü	Balans ehtiyatının Həcmi	Dünya ehtiyatında xüsusi çəkisi %	Təminat il[3]	Dünyanın təminatı il
Kömür	6,6 tr.ton	19,2	673	219
Neft		8,5	39	40
Qaz	49,4 tr.m.kub	39	77	59
Dəmir filizi	78000 mln.ton	33,9	966	230
Manqan (qırmızı metal) filizi	1,4 min t.	0,2	--	30
Xranet filizi (tərkibində dəmir olan filiz)	4 mln. t.	0,1	26	358
Titan	4,4 mln. t.	1,5	22	52
Nikel	6,6 mln. T	14,0	28	51
Kobalt	140 min t.	4	42	250
Vanadiy	5 mln.t	11,9	476	285
Volfam	250 min t.	11,9	62,5	104,5
Molebden	240 min t.	--	53	47

Rusiya Federasiyasının mineral xammal resursundan istifadəsi getdikcə pisləşir beləki, resursların 70 % ölkənin şimal hissəsində yerləşmişdir. Buna görə də yeraltı kəşflərin tapılmasında da şimal rayonlarında aparılmalıdır. Lakin Rusiya Fedarasiyasının Təbii Resurslar Nazirliyinin hesablamalarına görə təbii ehtiyatların 30%- 70%-nin şimal rayonlarında kəşfinin aparılması çox xərc tələb edir və rentabelsizdir.

Geniş təkrar istehsalın təmin olunmasının mühüm bir amili də elə bazar mexanizmi sayılır ki, elmi əsaslandırılmış dövlət tənzimlənməsi ilə rəqabət optimal ahəngdarlıq təşkil etmiş olsun. Bazar mexanizminin effektli fəaliyyətinin təmin olunması

vasitələrindən biri rəqabət sayılır. Rəqabət məhsul istehsalçılarını onun istehsalına çəkilən xərcləri daima azaltmağa vadar edir. Belə olduğu halda onun məhsulunun qiyməti aşağı düşmüş olur ki, bu da daha çox məhsul satılması ilə nəticələnir.

İstehsal infrastrukturası da bu istiqamətdə hərəkət edir. Məsələn, qanunçuluq fəaliyyətinin mükəmməl olması, yeni firmaların yaranması prosesini tezləşdirir. Bununla da xərclərin azalmasına imkanları artırmış olur.

İnfrastruktura sahələrinin, rəqabətin və hüquqi əsasların mövcudluğu, ölkədə istehsal prosesinin fəaliyyət mühitini formalaşdırır. Beynəlxalq norma və normativlərə uyğun gələn bazar mühiti ölkənin milli iqtisadiyyatının dünya bazarında rolunu, iqtisadi münasibətlərini müəyyənləşdirir. Dünya bazarında yaranmış təmayül nəinki beynəlxalq əmək bölgüsündə ölkənin ixtisaslaşmasını habelə onun daxili məhsulunun artmasını, struktur dəyişikliklərinin aparılması imkanını genişləndirir. Müasir iqtisadi ədəbiyyatlarda makroiqtisadi amillərin dövlət tənzimlənməsi mexanizminin fəaliyyəti haqqında problemli mübahisələr vardır. Bunlardan bir istiqamət neoklassik məktəbin doktrinasıdır. Neoklassiklər iqtisadiyyata ümumiyyətlə dövlətin müdaxiləsini inkar edirlər. Lakin ayrı-ayrı amillərin nizamlanmasına dövlətin təsirini qəbul edirlər. Dövlətin vəzifə və funksiyasının, ayrı-ayrı firmaların fəaliyyəti üçün əlverişli mühitin yaradılmasında görürlər.

Digər məktəbin nümayəndələri isə iqtisadiyyatda daima baş verə bilən tərəddüdlü inkişafın mövcud olduğunu qeyd edərək göstərirdilər ki, bununla əlaqədar iqtisadiyyat daima tənzim olunmalıdır.

İqtisadi inkişaf təcrübəsi göstərir ki, bütün dövlətlər iqtisadiyyatın inkişafına müdaxilə edirlər və makrosəviyyədə təkrar istehsalın resurslarının yaranmasına, bölgüsünə nəzarət edirlər. Lakin burada onu da qeyd etmək lazımdır ki, bu müdaxilənin sərhəddi real siyasi-iqtisadi durumla paralel getməli, ona uyğun olmalıdır.

Keçid iqtisadiyyatında, ölkənin təsərrüfat həyatına dövlətin təsiri, müvəffəqiyyətli iqtisadi sisteme nisbətən daha aktiv

olmalıdır. Yeni iqtisadi formasiyanın elementiləri heç də həmişə əvvəlki sistemdəki kimi normal və müvəfəqiyyətlə meydana çıxmır. Buna görə də dövlət yeni iqtisadi sistemin effıektli formalaşması üçün minimum da olsa sağlam şərait yaratmalıdır. İqtisadiyyatın keçid xüsusiyyəti, dövlətin həmin sistemin resurs təminatını əks etdirən makroiqtisadi amillərə daha aktiv təsirini tələb edir.

Təbiidir ki, bir iqtisadi sistemdən digərinə keçid həmişə iqtisadiyyatın strukturunun yenidən qurulması ilə müşayiət onulur. Nəticədə bir işçinin istehsal avadanlığının bir hissəsi sərbəstləşir, təbii resurslardan istifadə dəyişilir. Belə halda bazar iştirakçılarının uzun müddətldi səmti azalır, planlaşqdırma üfüqi əhəmiyyətli dərəcədə daralmış olur. Təsərrüfat dövriyyəsindən çıxmaq təhlükəsi, o istehsal sahələrini əhatə edir ki, onları istehsalın müəyyən dövr intervalından sonra nəticə verə bilərlər, buna görə də daha çox ağır vəziyyətdə, ETLİ-i və həmin sahədə çalışanlar, uzunmüddətli istehsal tsikli tələb edən və əhəmiyyətlə dərəcədə əsaslı vəsait qoyuluşuna ehtiyacı olan sahələr ola bilərlər. Buna görə də dövlət bu sahələrin resurs bazlarının dağıdılmasına müqavimət göstərməlidir. Çünki həmin sahələlrin gəcələkdə bərpa olunması xərcləri, mövcud vəziyyətlərinin saxlanılması xərclərindən daha çox ola bilər. Beləliklə, keçid dövründə dövlət nəinki ölkənin uzunmüddətli perspektiv inkişafının planlaşdırılması və bazar mühitinin yaradılmasını funksiyasını öz üzərinə götürməlidir habelə bazar şəraitinə uyğunlaşa bilməyən strateji əhəmiyyətli sahələri dəstəkləməlidir. Belə əlverişli mühitin yaradılmasına dövlət birbaşa və dolayı yolla təsir göstərə bilər.

Suallar və tapşırıqlar

1. «Təkrar istehsal» kateqoriyası ilə «İqtisadi artım» məvhumunun fərqlərini izah edin.

2. Müasir təkrar istehsal prosesi aşağıdakı mərhələləri əhatə edir: istehsalın elmi təşkili … (cümləni tamamlayın).

3. Məcmu tələbin artımı zamanı makroiqtisadi sabitsizliyin yaranmasına hansı hallar səbəb olur?

Düzgün cavabı seçin: a) yüksək işsizlik; b) istehsal güclərinin əhəmiyyətli ehtiyatı; c) işsizlik təbii səviyyədən aşağıdır; ç) bazar infrastrukturunun inkişaf etməsi.

4. Ümumi Daxili Məhsulun istehsal strukturu ……..mütənasibliyi əks etdirir (cümləni tamamlayı).

5. ÜDM –n strukturunun qiymətləndirilməsi üçün hansı parametrlər istifadə olunur?

Düzgün cavabı seçin: a) ümumi gəlirin həcminin dəyişilməsi; b) ümumi əmanətin həcminin dəyişilməsi; c) idxalın həcminin dəyişilməsi.

6. Son on ildə RF-da ÜDM-n strukturu dəyişilmişdir…

a) əmtəələrin istehsalının payı artır;

b) əmtəələrin istehsalının payı azalır.

7. Son on ildə RF-da ÜDM-n strukturu dəyişilmişdir…

a) Əmək haqqının payı artır;

b) əmək haqqının payı azalır;

8. Təkrar istehsal prosesinin əsas resursları; əmək resursları, təbii resurslar…(cümləni tamamlayın) ..təşkil edir.

Düzgün cavabı seçin: a) əmək haqqının xüsusi çəkisi artır; b) əmək haqqının xüsusi çəkisi azalır.

9. Əmək potensialının keyfiyyətini səciyyələndirən əsas parametrləri qeyd edin.

10. Təkrar istehsal mütənasibliklərinin dövlət tənzimlənməsi zamanı meydana çıxan müsbət və mənfi halları izah edin.

© Маликова О.У. 2002
© Хорзов С.Е. 2002

X Fəsil

İQTİSADİ ARTIM – DÖVLƏTİN ÜMDƏ VƏZİFƏSİDİR

1. Sosial – iqtisadi tərəqqinin mühüm şərti

İqtisadi artımın təminatı – sosial – iqtisadi inkişafın həyata keçirilməsinə yönəlmiş dövlətin əsas vəzifələrindən biridir. İqtisadi artım iqtisadi həyatın tərəqqisi, cəmiyyətdə mütərəqqi meyllərin və məhsuldar qüvvələri ilə istehsal münasibətlərinin inkişafında müəyyən irəliləyişlərin meydana çıxmasında əksini tapır. O təbii, iqtisadi və ictimai məsrəflər ilə əlaqədar olduğu üçün cəmiyyətin tələbatı ilə imkanlarının dinamik şəkildə tarazlığının nəticəsi kimi çıxış edir.

İqtisadi artım – müəyyən dövr ərzində mühüm makroiqtisadi göstəricilərin mütləq və ya nisbi artımıdır (ümumi daxili məhsulun, milli gəlirin). Onların həcmi və strukturu özünüinkişafın əsas amillərinin təkrar istehsalını təmin edir. İstehsal aparatının yaranması, yeniləşməsi və ondan effektiv şəkildə istifadə məhz bu cür baş verir. Həlledici sosial indikativlərin artımı – real gəlirlərin, şəxsi istehlakın artımı, həyat səviyyəsinin yaxşılaşması məhz bu əsasda həyata keçirilir. Bu cür artım iqtisadi inkişafın müsbət dinamikası deməkdir. Tənəzzül prosesi isə ümumilikdə iqtisadiyyatın, eləcə də onun ayrı – ayrı sektorlarının inkişaf göstəricilərinin mənfi dinamikası ilə xarakterizə olunur.

İqtisadi artımın fasiləsizliyi və dinamikası müasir dövlətlərin sosial – iqtisadi siyasətinin fundamental strateji məqsədlərindən biri kimi çıxış edir. adətən iqtisadi inkişafın iki əsas növünü ayırd edir.

Ekstensiv inkişaf tipi istehsalın istifadə olunan amillərinin kütləsinin artımı yolu ilə əldə olunmuş iqtisadi artımdır. Bu istehsalın dəyişməz texniki bazasının qorunması zamanı tətbiq olunan ehtiyatların həcminin kəmiyyətcə artımı sayəsində baş verir. Məşğul olan əməkdaşların, iş vaxtının, əsas və dövrüyyədə olan fondların, texnologiyaların, əməyin təşkilinin sabit səviyyəsi zamanı sərmayələrin sayının artımı iqtisadi artımın ekstensiv tipinin əsas amili kimi çıxış edir. Lakin ekstensiv inkişaf zamanı təsərrüffatçılığın effektivliyi arta bilər. Belə ki, «miqyasın effekti» müəyyən yer tutur.

Miqyasın effekti – miqyasın həcminin və ya müəssisənin miqyasının artımı nəticəsində istehsalda baş verən daimi itkilərin azalması nəticəsində yol verilən qənaətdir. Daha iri və təkmil istehsal güclərinin tətbiqi, istehsalın və idarəetmənin ixtisaslaşmasının dərinləşməsi imkanları əmək məhsuldarlığının artımını təmin edir.

İqtisadi artım istehsal prosesində istehsalın daha təkmil amillərinin tətbiqinə, eləcə də mövcud istehsal potensialının və digər ehtiyatların daha gərgin istifadəsinə əsaslandıqda o zaman inkişafın intensiv tipi müəyyən yer tutur. İqtisadi artımın intensiv tipinə yeni texnikanın və texnologiyanın işlənib hazırlanmasını, tətbiqini, əməkdaşların ixtisas səviyyəsinan artımını, istehsal mərhələsinin ixtisara salınmasını, əməliyyatın sürətlənməsini və mövcud fondların dövrüyyəsini, iqtisadiyyatda struktur dəyişikliklərini, istehsalın təşkilinin yaxşılaşmAsını, məhsulun material tutumunun azalmasını şamil etmək lazımdır. İstehsal prosesinə cəlb olunmuş ehtiyatların hər bir vahidi ilə sonu məhsul buraxılışının artımı, məhsulun keyfiyyətinin və gəlirliyinin artımı intensiv inkişafın nəticəsi kimi çıxış edir.

İqtisadi artımın ekstensiv və intensiv tipləri bir qayda olaraq qarşılıqlı fəaliyyətdə olub, «birlikdə mövcud olurlar». Bu

isə iqtisadi artımın əsasən ekstensiv və ya intensiv növü haqqında bəhs etməyə icazə verir.

İqtisadi artımın daha bir tipi – innovasiya tipi daha da geniş yayılmışdır. O iqtisadi artımın digər növlərindən yeni və daima yeniləşməkdə olan məhsulun, o cümldədən də yeni texnika, materiallar şəklində innovasiya – amillərinin məqsədyönlü istehsalı ilə fərqlənir. Texnoloji bazada, əməyin təşkilində və motivasiyasında yeniliklərdən istifadə ona daha xasdır. Ən nəhayət, innovasiya yolu innovasiyalığın daimi əsaslar ilə istehsalı üçün bütün əsas təsisat şəraitinin daxili təsərrüffat sisteminin varlığı ilə xarakterizə olunur. Bu cür xassələr effektiv iqtisadi artımı təmin edir. Bu isə geniş istehsalın həyata keçirilməsinə yönəlmiş dövlətin qüdrətinin böyüməsinin, milli sərvətin və sərmayələrin artımı üçün əlavə ehtiyatların əldə olunmasının əsas mənbəyidir.

İqtisadi artımın optimal templəri uzunmüddətli perspektivdə cəmiyyətin tələbatının və imkanlarının balansı ilə müəyyənləşir. Bu cür iqtisadi artım prosesində həm cəmiyyət, həm sahibkarlar, həm əməkdaşlar, həm təqaüdçülər, həm də uşaqlar maraqlı olurlar. Effektiv iqtisadi artım elmə və texnoloji innovasiyalara arxalanmağı, nəinki hal – hazırki, həm də gələcək tələbatların nəzərə alınması ilə təbii ehtiyatlardan istifadəni, ölkə miqyasında bütün səviyyələrin təsərrüffat subyektlərinin maraqlarının razılaşdırılmasını, sahə və regional nöqteyi – nəzərdən tarazlığın təminatını, sosial inkişafın imkanlarının artımını nəzərdə tutur.

Effektiv iqtisadi artım zamanı istehsal və qeyri – istehsal sahələrinin əməkdaşları və onların ailələri üçün əlverişli mühit yaradılır. Bu baxımdan əmək haqqının artımı, iş, məişət şəraitinin və istirahətin yaxşılaşdırılması da təmin olunur. Bu cür iqtisadi artım bilavasitə real gəlirlərin artımına ən müsbət təsir göstərir. İnkişafın artım həcmi nə qədər çox olarsa istehsalın artım templəri də bir o qədər artıq olur. Mayadəyər və bazar qiymətləri nə qədər aşağı olarsa tələbat da daha tez təmin olunur. Yekun nəticədə xalqın rifahı və həyat səviyyəsi də artır.

2. İqtisadi artım göstəriciləri

Müxtəlif ölkələrin iqtisadi artım dinamikasının qiymətləndirilməsi üçün bu ölkəyə aidiyyəti olan təsərrüffat subyektləri tərəfindən yaradılmış məcmu məhsulun istehsalını və istehlakını əks etdirən göstəricilərdən istifadə olunur. Təsərrüfat subyektlərinin iki növünü; rezidentləri və qeyri – rezidentləri fərqləndirirlər.

Milli mənsubiyyətindən və vətəndaşlığından asılı olmayan, iqtisadi maraqları ilə ölkə iqtisadiyyatı ilə əlaqədar olan və onun ərazisində bir il fəaliyyət göstərən təsərrüffat vahidi (müəssisə və ya ev təsərrüffatı) iqtisadi rezident hesab olunur. Hətta bu ölkənin təsisat filialları hesab olunan xarici dövlətin ərazisində daima yerləşən təsərrüffat vahidləri qeyri – rezidentlər hesab olunur. Rezidentlərin və qeyri – rezidentlərin məhsullarının nəzərə alınmasından asılı olaraq iqtisadi artımın ümümləşdirici göstəricilərini fərqləndirirlər. Bu məqsədlər üçün dünya təcrübəsində daha geniş yayılmış göstəricilərə ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul göstəricilərindən (ÜMM) istifadə olunur.

Ümumi daxili məhsul – müəyyən dövr ərzində bu ölkənin ərazisində fəaliyyət göstərən ölkənin iqtisadi rezidentləri tərəfindən istehsal olunan son əmtəə və xidmətlərin bütün həcminin ümumi bazar dəyəridir. Ümumi milli məhsul – yerləşdiyi ərazidən asılı olmayaraq müəyyən dövr ərzində iqtisadi subyektlər tərəfindən istehsal olunan əmtəə malları ilə xidmətlərin bazar dəyəridir. Artıq göründüyü kimi ÜDM və ÜMM göstəricilərinin düzgün hesablanması üçün bir tərəfdən təsərrüfat fəaliyyəti subyektlərinin mülki mənsubiyyəti prinsipini, digər tərəfdən isə onların fəaliyyət göstərdikləri ərazi məkanının hesablanması prinsiplərini nəzərə almaq lazımdır.

Ölkənin iqtisadi ərazisi bu ölkənin hökuməti tərəfindən inzibati qaydada idarə olunan ərazisidir. Bu ərazisinin hüdudları daxilində isə əmtəə və pul vəsaitləri sərbəst şəkildə yerləşdirilə bilərlər. O coğrafi ərazidən fərqli olaraq digər ölkələrin ərazi ankalavlarından (səfirliklərdən, hərbi və elmi bazalardan)

ibarət olmur. Lakin digər ölkələrin ərazisində yerləşən eksərazi ankalavlarından (səfirliklərdən, bu dövlətin hərbi və elmi bazalarından) ibarət olur.

Ölkənin iqtisadi inkişafını xarakterizə edən əsas makroiqtisadi göstəricilər milli hesablamalar sistemi tərəfindən tövsiyə olunan metodikaların köməyi ilə hesablanır. Milli hesablar sistemi (MHS) makrosəviyyədə daha ümumi hesablamaların və iqtisadi prosesin aspektlərinin təsviri və təhlili üçün istifadə olunan bir – biri ilə qarşılıqlı şəkildə əlaqədar göstəricilər təsnifatların kompleksidir. MHS statistik informasiyanın toplanması və işlənməsinin əsas beynəlxalq standartıdır. Onun postulatları BMT tərkibinə daxil olan ölkələrin bütün statistik orqanları tərəfindən icra olunması üçün məcburidir. Bu standartlar mütəmadi olaraq təkrarən nəzərdən keçirilirlər. BMT-nin MHS-nə müvafiq olaraq ölkənin iqtisadi artım templərinin və səviyyəsinin qiymətləndirilməsi üçün ÜDM göstricilərindən istifadə olunur.

Ümumi daxili məhsul ölkədə istehsal olunan ümümi əlavə dəyər məbləği kimi istehsalat metodu, eləcə də cəmiyyətdə ilkin gəlir məbləği kimi bölgümetod vasitəsilə hesablana bilər.

ÜDM istehsal metodu ilə hesablanması zamanı sahələr və ya sektorlar üzrə qruplaşdırılmış bütün istehsal vahidlərinin – rezidentlərinin ümumi əlavə dəyəri kimi ümumiləşdirilir. Ümumi əlavə dəyərin hesablanması zamanı istifadə prosesində bütünlüklə imstehlak olunan əmtəə və xidmətlərin dəyəri istehsal dəyərləri ilə xidmətlərin dəyərindən çıxılır (aralıq istehlak). BMT-nin MHS-nə müvafiq olaraq ÜDM hesablanmasına kölgəli iqtisadiyyatın əmtəə və xidmətlərinin istehsalı da daxil ola bilər. O vergilərin ödənilməsindən və sosial haqqlardan yayınmaq məqsədilə onun vahidləri tərəfindən həyata keçirilən, lakin gizlədilən bu və ya digər dərəcədə geniş vüsət alan bir çox hallarda qanuni fəaliyyəti əhatə edən gizlin istehsal prosesindən, qanun tərəfindən qadağan olunmuş əmtəə və xidmətlərin istehsalından ibarətdir.

ÜDM-in son istifadə metodu üzrə hesablanması zamanı, yəni ÜDM istifadə edən bütün əsas iqtisadi agentlərin məsrəf-

ləri toplanaraq cəmlənir. Buraya özəl ümumi sərmayələri, eləcə də xalis ixracata dair məsrəfləri həyata keçirən dövlət, ev təsərrüffatı, iqtisadi rezidentlər aiddir. Yekunda biz hər hansı bir ölkənin ərazisində iqtisadi rezidentlər tərəfindən istehsal olunan və ölkənin daxilində və xaricində istehlak olunmuş əmtəə və xidmətlərin ümumi həcminin dəyərli ifadəsini əldə edirik. Hesablama düsturu növbəti şəkildə olur;

$$ÜDM = C + G + 1 + NX,$$

Burada C – uzunmüddətli və qısamüddətli istifadəyə malik əmtəə əldə olunmasına, eləcə də xidmətlərin ödənilməsinə dair məsrəfələrin sərf olunmasına dair ev təsərrüffatı məsrəflərindən ibarət şəxsi istehlak məsrəfləri (yaşayış mənzilinin əldə olunmasına dair məsrəfləri istisna etməklə); G – orldunun, idarəetmə aparatının təminatına, aylıq məvacibin ödənişinə dair dövlət məsrəfləri, ictimai işlərin maliyyələşdirilməsi, ümümmilli komunikasiyanın tikintisi və təminatı, yəni ictimai istehlak ilə əlaqadar məsrəflərin ödənilməsi; İ – müəssisələrin binalar ilə tikililərin tikintisindən, avadanlığın əldə olunmasından, əmtəə – maddi ehtiyatların yaradılmasından, sıradan çıxmış avadanlığın yenisi ilə əvəz olunmasından ibarət ümumi özəl sərmayələr, eləcə də yaşayış mənzilinin əldə olunması ilə bağlı ev təsərrüffatının məsrəfləri; NX – əmtəə malları ilə xidmətlərin ölkəyə idxalı və ixracı ilə bağlı məsrəflərin müxtəlifliyi kimi nəzərdə tutularaq əmtəə və xidmətlərin xarici ölkələrə xalis ixracıdır.

ÜDM gəlirlər, yəni bölgü metodu üzrə hesablanması zamanı ölkədə amillər üzrə gəlirlərin bütün növləri, eləcə də amortizasiya köçürmələri və biznesə dair vasitəsiz vergilərin bütün növləri cəmlənir. Beləliklə, ÜDM tərkibinə muzdlu işçilərin aylıq məvacibi, vergilərin ödənilməsindən sonra onların sərancamında qalan müəssisələrin təmiz gəliri, əməkdaşlar ilə kreditorların ödənişləri, fərdi və ya ailə mülkiyyətinin sərəncamında olan müəssisənin gəlirləri, eləcə də sərbəst, muzdlu əmək ilə məşğul olmayan əməkdaşların qarışıq gəlirləri, borca götürülmüş kapitalın faizləri, ammortizasiya köçürmələri,

vasitəsiz vergilər və biznes daxil edilir (əlavə dəyər vergisi, aksizlər, satışa dair vergi, inhisar fəaliyyətinə dair vergilər, ixracat – idxalat rüsumları).

Ölkənin iqtisadi armının təhlili zamanı ümumi daxili məhsulun göstəriciləri ilə yanaşı ümumi milli məhsulun göstəricilərinin hesablanmasına müraciət edirlər. ÜMM hesablanması zamanı ÜDM bu ölkənin müəssisələri və fiziki şəxsləri tərəfindən xarici ölkələrdə əldə olunmuş gəlirlər və mədaxillər arasındakı fərqin həcmini, digər tərəfdən isə bu ölkədə müvəqətti olaraq fəaliyyət göstərən müssisələr və əcnəbi fiziki şəxslər tərəfindən əldə olunan gəlirlər və mədaxillər arasındakı fərqin həcmini də əlavə etmək mümkündür.

ÜDM və ÜMM göstəriciləri ümumi göstərici olub əsas kapitalın istehlakı məbləğini çıxmadan hesablanırlar. Amortizasiya, yəni istehlak olunmuş əsas kapitalın həcmi onun fiziki köhnəlməsi və qəza xarakterinə malik olmayan təsadüfü zədələnmələr nəticəsində hesabat dövrü ərzində əsas kapitalın dəyərinin azalmasının məbləği kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, daxili və milli məhsulları xalis əsaslarla nəzəri baxımdan dəqiq müəyyən etmək mümkündür. Yəni burada ümumi məbləğdən istehlak olunmuş əsas kapitalın dəyərinin çıxılması yolu nəzərdə tutulur. Belə olan təqdirdə xalis daxili məhsulu və xalis milli məhsulu da hesablamaq mümkündür. Lakin əsas kapitalın istehlakı məbləğinin təyin olunması iqtisadi statistikanın prinsiplərinə müvafiq olaraq əsas fondların bərpaedici dəyəri, onların xidməti müddəti və bu fondların növləri üzrə köhnəlməsi miqyasları haqqında məlumatlar əsasında xüsusi hesablamaların keçirilməsini tələb edir. bu təcrübədə həmişə mümkün olmur. Çünki əsas fondlar adətən ilkin dəyər üzrə hesablanır. Beləliklə, ümumi göstəricilər üzrə məlumatlar köçürülmə üçün daha məqbul olub, ölkələr arasında müqayisə olunan səviyyədə olurlar. Buna görə də ümumi göstəricilər «xalis» göstəricilərdən fərqli olaraq daha da geniş vüsət almışdır.

İqtisadiyyatın inkişafının qiymətləndirilməsi üçün milli gəlir kimi makroliqtisadi göstəricidən də istifadə olunur. O bu

ölkənin iqtisadi rezidentlərinin ümumi gəliridir. Milli gəlirin həcmini bütün amil gəlirlərini yuvarlaqlaşdırmaqla hesablamaq mümkündür. Hesablamanın digər üsulu – amortizasiya köçürmələri və biznesə dair vasitəsiz gəlirlərin məbləğini ÜDM həcmindən çıxılması yoludur. Lakin təcrübədə əsas kapitalın amortizasiya həcmini özünə daxil edən ümumi milli gəlirin göstəricisindən də istifadə olunur.

ÜDM göstəricilərindən və onun törəmələrindən istifadənin və hesablanmasının bəzi xüsusiyyətlərini də işarə etmək mümkündür. Cari ilin qüvvədə olan qiymətlərində hesablanan ÜDM nominal ÜDM adlanır. O qiymətlərin dinamikasını nəzərə almadan təyin edildiyi üçün ondan iqtisadi artımın indikatoru kimi istifadə olunması imkanları həddən artıq məhduddur.

Müəyyən dövr ərzində iqtisadi artımın əhəmiyyətli şəkildə qiymətləndirilməsinə nail olmaq üçün ÜDM real şəkildə hesablamaq, yəni məhsulun inflayisiya baxımından qiymətdən düşməsinin təsirini nəzərə almaq lazımdır. Real ÜDM qiymətlərin dəyişilməsini nəzərə almaqla bu göstəricinin həcmidir. Yəni ÜDM müqayisə olunan qiymətlər ilə nəzərdən keçirilir. Adətən ötən dövrün qiymətləri bazis dövrünün qiymətləri kimi çıxış edir. Burada onlar ilə müqayisədə müqayisəli təhlil həyata keçirilir. Real ÜDM nominal ÜDM istehlak qiymətlərinin indeksi və ya ÜDM deflyatoru ilə bağlı həcmin təshihi yolu ilə hesablanır. Bu da növbəti düsturdan daha aydın görünür;

$$Real\,ÜDM = \frac{nominal\,ÜDM}{istehlak\,qiymətlərinin\,indeksi}\ və\ yaxud$$

$$Real\,ÜDM = \frac{nominal\,ÜDM}{ÜDM\ deflyatoru}\ və\ yaxud$$

İstehlak qiymətlərinin indeksi (qiymətlərin aqreqat indeksi) istehsal olunan ÜDM strukturunun qorunması zamanı müəy-

yən zaman kəsiyi ərzində fərdi istehlakçılar (ev təsərrüffatları) tərəfindən əldə olunan məhsulun qiymətlərinin dəyişilməsini göstərir. Belə olan təqdirdə ilkin məqam kimi bazis dövrünün istehsalının əmtəə strukturu çıxış edir. İstehsalat və istehlak prosesində ETİ ilə əlaqadar irəliləyişlər nəzərə alınmır. Buna görə də bu indeks qiymət səviyyəsinin artım templərini daha da artırır. Belə ki əmtəə strukturunda baş verən bəzi dəyişiklər tez – tez substitusiya effektini yaradırlar (daha bahalı əmtəə mallarının eyni tələbatı ödəyən ucuz mallar ilə əvəz olunması). Lakin bu cür şərait artıq nəzərə alınmır.

ÜDM deflyatoru – real ÜDM qiymətləndirməyə imkan verən qiymətlər indeksidir. O qismən də olsa istehlak qiymətlərinin indeksinin məhdudiyyətini aradan qaldırır. Bu qiymət indeksinin hesablanması zamanı nəinki ev təsərrüffatları, eləcə də müəssisə ilə dövlət tərəfindən iqtisadi aqentlər kimi əldə olunan məhzsullara dair qiymətlər təhlil olunur. Belə olan təqdirdə hesablamaların əsası kimi cari ilin istehsalının əmtəə strukturu çıxış edir.

Millətin rifahı dinamikasınn və səviyyəsinin qiymətləndirilməsi zamanı hər adambaşına hesablanan real ÜDM göstəricisindən istifadə olunur, yəni bu ölkə əhalisinin ümumi say tərkibinə də şamil olunur.

Ölkənin iqtisadi artım dinamikasının qiymətləndirilməsi üçün artımın temp göstəricilərindən istifadə edirlər. Növbəti düsturlar vasitəsilə hesablanan müəyyən dövr ərzində nəzərə çarpan real ÜDM artım templərinin və ÜMM artım templərinin göstəriciləri də bu göstəricilərə aiddir;

$$Real\,ÜDM\,artımının\,sürətləri = \frac{real\ ÜDM_2 - real\,ÜDM_1}{real\,ÜDM_1} \cdot 100\%\,və\,yaxud$$

$$Real\,ÜDM\,artım\,sürətləri = \frac{real\ ÜDM_2}{real\,ÜDM_1} \cdot 100\%$$

burada real $ÜDM_1$ – bazis ilinin real ÜDM (adətən əvvəlki ilin), real $ÜDM_2$ isə təhlil olunan ilin real ÜDM.

İqtisadi artım nəzərdən keçirilmiş iqtisadi göstəricilərin müsbət dinamikası ilə xarakterizə olunur. dünya təcrübəsində sonuncu dövrün təmayüllərinə qarşı tətbiq olunaraq ildə 4% iqtisadi artımın əlverişli sürəti hesab olunur. Bir sıra ölkələrdə forsajlı iqtisadi artım müşahidə oluna bilər. Bu adətən ölkə iqtisadiyyatının iqtisadi böhrandan çıxışı və ya iqtisadi potensialın təcili artımı üzrə tədbirlərin keçirilməsi ilə əlaqadar idi.

İqtisadi artımın qiymətləndirilməsi nəinki istehsal olunan ÜDM həcminin kəmiyyətcə artımını, eləcə də cəmiyyətin sosial – iqtisadi tərəqqisini əks etdirən istehsal olunan ÜDM strukturunun yaxşılaşması kimi xarakteristikalarını, artan tələbatların təminatı dərəcəsini və əhalinin rifahı ilə artan tələbatının yaxşılaşdırılması dərəcəsini də daxil etmək mümkündür. Bu isə təmamimlə aydındır. Bu baxımdan cəmiyyətə nəyin bahasına olsun iqtisadi artım deyil, yüksəkkeyfiyyətli və səmərəli artım lazımdır.

3. İqtisadi artımın səmərəliliyi və keyfiyyəti

ÜDM, ÜMM və milli gəlirin istehsalının artım sürətlərini və həcmini xarakterizə edən göstəricilər ilə yanaşı iqtisadi artımın qiymətləndirilməsi zamanı hesablamalarda hər bir işçiyə düşən törəmə göstəriciləri nəzərə almaq lazımdır. Məsələn, ÜMM və ÜDM həcminin məşğul işçilərin sayına nisbəti ölkədə ictimai əmək məhsuldarlığı səviyyəsini eyni zamanda adambaşına düşən real ÜMM göstəricisi millətin rifahı dinamikasını və səviyyəsini xarakterizə edir.

Lakin bu göstəricilərdən istifadə iqtisadi artımın və bütün təsərrüffat fəaliyyətinin keyfiyyəti və effektivliyi haqqında tam mənada mühakimə yürütməyə imkan vermir. Onlar bu məqsədlərə sərf olunan ehtiyatlardan və iqtisadi artım amillərindən rasional şəkildə istifadə olunmasını əks etdirmirlər. Əldə

olunan nəticənin dəyərinə isə cəmiyyət və sahibkar heç də laqeyd deyildir.

İstənilən sosial – iqtisadi və ya elmi – texnoloji tədbirin keyfiyyyəti və effektivliyi təsərrüffat fəaliyyətinin nəticələri kimi istehsalın inkişafı və artımı, yeni texnikanın və texnologiyanın tətbiqi, əmək və maddi ehtiyatlardan, əsas və dövriyyədə olan fondlardan istifadənin rasionallaşdırılması ilə əlaqədar olmaqla universal göstərici ilə ifadə oluna bilməz. Buna görə də təsərrüffat fəaliyyətinin effektivliyi səviyyəsini, keyfiyyətini, sosial – iqtisadi inkişafın miqyaslarını və sürətlərini daha obyektiv və kompleksli şəkildə qiymətləndirmək üçün daha geniş göstəricilər sistemindən istifadə etmək lazımdır.

Məsələn, mütləq dəyər, natural, əmək və ya nisbi effektivlik göstəricilərindən (əmsalları) təsərrüffat səviyyələrini nəzərə almaqla (makro, mezo və mikrosəviyyələr) geniş şəkildə tətbiq olunurlar. İstehsal olunan məhsulun (işlərin, xidmətlərin) təbii şəkildə təyin edilməsi zamanı müvafiq fiziki ölçü vahidlərindən; kiloqramlardan, kub və ya kvadrat metrdən, ədədlərdən, litrlərdən istifadə olunur.

Bu baxımdan xüsusi göstəricilərin hesablanması ilə istifadə praktiki maraq kəsb edir. Məsələn, təbii ifadə baxımından canlı əmək (iş vaxtı, əmək tutumu), xammalın, materialların, enerjinin, yanacağın, vasitələrin, ehtiyat hissələrinin xüsusi şəkildə sərf olunması kimi ehtiyatların vacib növləri hesablanır.

Həll olunan təsərrüffat problemlərinin səviyyəsindən, effektivliyin qiymətləndirilməsi və təhlili üçün kəsb etdiyi əhəmiyyətindən və xarakterindən asılı olaraq istifadə olunan göstəricilər mütləq, normativ xarakter daşıyaraq və ya istiqamət rolunu oynayan indikativ (tövsiyə) xarakterinə malik ola bilərlər. Müxtəlif uzlaşma baxımından gözlənilən kommersiya mənfəətinin, layihələrin səmərəliyinin, məhsul ilə xidmətlərin marketinq xüsusiyyətlərinin təyin edilməsinin qiymətləndirilməsinə xidmət göstərən göstəricilərdən istifadə oluna bilər.

Təhlil olunan obyektin (təsərrüffat obyekti, məmulatlar, layihə və.s.) keyfiyyətini, qənaətliliyini, təşkilati – texnoloji mükəməlliyini və rəqabət aparmaq qabiliyyətini xarakterizə

edən, eləcə də istehsalat ehtiyatlarından istifadə dərəcəsini əks etdirən müxtəlif müfəssəl səciyyəvi və ya fərdi göstəricilər bütün təsərrüffat səviyyələrində tətbiq olunan kifayət qədər geniş dairəyə malik olurlar. Bunun üçün göstəricilərin növbəti qrupu tətbiq edilir; məhsulun mayadəyəri (istehsalatın itkiləri, istismar məsrəfələri); məhsulun, işlərin, xidmətlərin, idarəetmənin keyfiyyəti; məmurların ixtisas səviyyəsi, əmək ehtiyatlarından istifadə səviyyəsi və əmək bazarından istifadə; materiallardan, xammaldan, yanacaq – enerji, təbii ehtiyatlardan istifadənin keyfiyyəti; əsas və dövrüyyədə olan istehsalat fondalrı ilə imkanlarından istifadənin effektivliyi; mülkiyyətdən, kapital qoyuluşndan və maliyyə ehtiyatlarından istifadənin effektivliyi; təsərrüffat fəaliyyətinin və həyata keçirilən tədbirlərin sosial effektivliyi; ölkənin iqtisadi, milli, informasiya, ərzaq, elmi – texnoloji, müdafiə təhlükəsizliyinin təminatı səviyyələri, bazarın, onun seqmentlərinin, infrastrukturunun, konyunkturasının inkişaf xüsusiyyətləri (tələbat, təklif, qiymətlərin səviyyəsi, rəqabət, inhisarlaşma dərəcəsi) və.s. iqtisadi fəaliyyətin ekologiyalaşdarılması və ətraf mühitin vəziyyəti.

Qeyd olunan qruplara daxil olan göstəricilərin üstünlük təşkil edən hissəsi roluna və əhəmiyyətinə görə ilkin olub, təhlilin və ekspert qiymətlərinin keçirilməsi üçün əsas kimi çıxış edirlər (mühasibat və stiatistik uçotun məlumatları, normativli – texniki sənədləşmə, marketinq tədqiqatları və.s.). Onlar müəssisələrin və təşkilatların təsərrüffat fəaliyyətinin effektivliyi səviyyəsi ilə keyfiyyətini əks etdirən, eləcə də müxtəlif sosial – iqtisadi, elmi və təşkilati – texnolloji tədbirlərin əsas və ümumləşdirici sonuncu nəticəli göstəricilərin hesablanması üçün zəruri şərait yaradırlar.

Məhsulun gəlirliliyi effektivliyin ümumləşdirici nəticəli göstəricisi kimi istitfadə olunur. Məhsulun realizəsindən əldə olunan gəlirin (balans gəlirinin) məhsulun özünüdəyərinə dair faizlər ilə hesablanır;

$$Məhsulun\ gəlirliliyi = \frac{balans\ gəliri}{məhsulun\ mayadəyəri} \cdot 100$$

İstehsalın gəlirliliyi digər nəticəli ümumləşdirici göstərici kimi çıxış edir. O müəssisənin istehsalat fəaliyyətinin effektivliyini, onlar tərəfindən istehsalat ehtiyatlarının istifadə səviyyəsini xarakterizə edir. Əsas istehsalat fondlarının (ƏİF) və normaya salınan dövrüyyədə olan vasitələrin orta illik dəyəri ilə bağlı məhsulların realizəsindən əldə olunan gəlir kimi çıxış edən fizlər şəklində hesablanır;

$$Məhsulun\ gəlirliliyi = \frac{balans\ gəliri}{ƏİF + M} \cdot 100;$$

Məsrəflərin bir rubluna hesablanan xalis məhsulun göstəricisi də az əhəmiyyət kəsb etmir. Xalis gəlir – milli gəlirin və ümumilikdə ölkə təsərrüffatına dair tərkib hissələrin federasiyanın hər bir subyekti, hər bir müəssisə üzrə digər adı olduğu üçün bu ümümləşdirici göstərici məsrəflərin səmərəliliyidir. Bu dövr ərzində itkilərin məbləğinə dair milli gəlirin nisbəti kimi müəyyən olunur. Xalis məhsulun onun mayadəyərinə nisbəti ayrı – ayrı nazirliklər, birliklər, müəssisələr üzrə təyin olunur (istehsala dair itkilərin məbləği).

Müasir metodtikalar tərəfindən tövsiyə olunan səmərəliliyin bir sıra digər yekun göstəricilərdən istifadə; kommersiya effektivliyi, büdcə effektivliyi, xalq təsərrüffatı effektivliyi, kapital qoyuluşunun alıcılığı əhəmiyyətli praktiki maraq kəsb edir.

4. İqtisadiyyatın səmərəli artım amilləri

Bütün iqtisadi tarix və təcrübə iqtisadi artımın amilləri və ehtiyatların tükənməz və həddən artıq müxtəlif olmasını sübut edir. Beləliklə insanların tələbatı fasiləsiz olaraq keyfiyyətcə artaraq dəyişilir, elmi – texnoloji tərəqqinin miqyasları genişlənərək əməyin, istehsalın, idarəetmə və marketinqin forma və metodları daha da təkmilləşir. Bütün bunlar amillər və ehtiyatların müxtəlifliyi olub, iqtisadi artımın, iqtisadi artımın səmərəliliyini və bütün təsərrüffat fəaliyyətinin səmərəliliyini təmin edir.

İstehsal resursları istifadəsi, təsir metodlarına və xarakterindən asılı olaraq, eləcə də iqtisadiyyatın inkişaf tipini nəzərə alınmaqla ekstensiv, intensiv amilləri və artım ehtiyatları fərqləndirilir.

Cari və perspkektiv (strateji) amilləri və ehtiyatları sərbəst növlər kimi nəzərdən keçirmək mümkündür. Bu təsərrüffat dövründə operativ şəkildə istifadə olunan amillər ilə ehtiyatlar cari amillərə və ehtiyatlara şamil olunur. Onlar maliyyə vasitələri və maddi ehtiyatların külli miqdarda itkisini tələb etməsələr də, eyni dövrdə lazım olan itkiyə məruz qalırlar. Cari amilləri operativ – təsərrüffat tədbirlərinin, rüblük və illik planların marketinq hesablamalarının işlənib hazırlanması zamanı nəzərə alınırlar.

Perspkektivli amillər və ehtiyatlara adətən realizəsi təsərrüffatçılığın müxtəlif səviyyələrində baş verən köklü, prinsipial elmi – texnoloji və təşkitlati – struktur dəyişikliklər ilə əlaqadar olan strateji amillərə də ehtiyatlara şamil edirlər. Perspkektivli amillər və ehtiyatlar əhəmiyyətli sərmayə qoyuluşları tələb edərək uzun müddət ərzində realizə olunaraq bir neçə il müddətinə alınırlar. Aşkar olunmuş strateji amillər və ehtiyatlar orta və uzunmüddətli konsepsiyaların, məqsədli proqramların və sosial – iqtisadi inkişaf planlarının işlənib hazırlanması zamanı nəzərə alınırlar.

Keyfiyyətli və səmərəli iqtisadi artımın amilləri və ehtiyatlarının daha üç qrupu; baza, sistemli və funksional qrupları böyuk praktiki və elmi maraq kəsb edirlər.

İqtisadi ədəbiyyatda adətən əsas (ilkin) amilləri istehsal amilləri adlandırırlar. Onların arasında insan əməyi mərkəzi yeri tutur. Bu zaman nəinki fiziki əmək sərf edən fəhlələrin, eyni zamanda məcmuu işçilərin, mühəndislərin, texnoloqların, menecerlərin fiziki səyləri nəzərə alınır. Habelə ilkin amillərə əmtəə istehsalı prosesində istifadə olunan təbii ehtiyatlar (torpaq, faydalı qazıntılar) aid edilir. Təbii ehtiyatlara – xüsusi emal olmadan (məhsuldar torpaqlar, tikinti üçün nəzərdə tutulan sahələr, meşələr, mineral xammal və yanacaq və.s.) təbii şəkildə məhsuldar şəkildə istitfadə olunan obyektlər daxil edilir. Onların hər biri iqtisadi prosesin məhsulu olmayıb fiziki və ya bioloji mənşəyə malik olmaqla hüquqa əsaslanan amillərdən hesab olunur.

Vaxt – özünəməxsus əsas amillər qrupuna aid edilir. Bu amil təsərrüffat əməliyyatlarının uzun müddətliliyini, onların həyata keçirilməsi sürətini, işlərin başlanması və başa çatması müddətlərini əvvəlcədən müəyyən edir (növbəlik, mövsümülük, ritmiklik, bir – biri ilə qarşılıqlı şəkildə əlaqədar əməliyyatların sinxronluğu, ehtiyatların və məhsulların buraxılışı). İş və sərbəst, asudə vaxtından səmərəli şəkildə istifadə, işçi sürətin artımı, məhsulun əmək tumununun azalması, istehsalat dövrünün ixtisara salınması, əməliyyatlar qrafikinə ciddi şəkildə riayət olunması, mövsümülük və digər müvəqqəti parametrlərin məcburiliyi bir qayda olaraq sürətli və effektiv iqtisadi artımın ehtiyatlarının səfərbərliyə alınmasına həlledici təsir göstərir.

Kapital da əsas amillər qrupuna daxil edilir. Kapital dedikdə hər şeydən əvvəl ilkin ehtiyatlar (sərmayələr, materiallar, avadanlıq, istehsalat obyektləri) nəzərdə tutulur. Lakin onların mövcudluğu bu hələ passiv potensialdır. Onları hərəkətə gətirmək lazımdır. Bu zaman nəzərə almaq lazımdır ki, geniş təkrar istehsal prosesinə nəinki bölgü, mübadilə və istehlak mərhələləri əhatə edir. Real iqtisadi artım ehtiyatların dövriyyəsinin bütün mərhələlərində bütün artım amillərindən tam

istifadə zamanı mümkün ola bilər. Əlbəttə hər bir mərhələdə bu və ya digər səciyyəvi amillər çox əhəmiyyət kəsb edə bilərlər. Məsələn, istehsal mərhələsində güclərin tarazlılığı və yükləmə səviyyəsi, mübadilə və istehlak mərhələsində isə əmtəənin malının keyfiyyəti və qiymətlərin səviyyəsi kimi amillər daha böyük əhəmiyyət kəsb edirlər.

Sistemli amillər və ehtiyatlar bütöv sistem kimi çıxış edən qarışıq iqtisadiyyatın xarakterik cəhətlərini əks etdirən sərbəst qrupa daxil edilə bilərlər. Məsələn, ölkə həyatında baş verən mülkiyyət formalarının plüralizmi, rəqabətlilik mühiti, sahibkarlıq, səmərəli marketinq innovasiyalar buna misal ola bilər. Bütün bunlardan əlavə bu iqtisadiyyatın sosial oriyentasiyasının güclənməsi, bazar vasitələrinin optimal şəkildə uzlaşması, stimulların dövlətin tənzimlənmə metodları ilə birlikdə fəaliyyəti deməkdir.

Keyfiyyətli və effektiv iqtisadi artım üçün ən böyük əhəmiyyət kəsb edən variantlardan biri də müxtəlifliyinə və zənginliyinə görə seçilən funksional (ümdə) amillər və ehtiyatlardır. Məhz onlar innovasiya kursunun daha ardıcıl şəkildə həyata keçirilməsi, zehni potensialdan istifadə olunması əsasında iqtisadiyyatın hərtərəfli yüksəlişi vasitələri kimi çıxış edirlər. Elmi – texnoloji nailiyyətlərin, əməyin təşkilinin proqressiv formaları ilə metodlarının, istehsalın və idarəetmənin, informasiyalaşmanın, diversifikasiyanın tətbiqi amilləridir. Yekun nəticədə sosial – iqtisadi tərəqqinin bütün göstəricilərinin yaxşılaşması məhz bununla əlaqədar olur. Bu amillər və ehtiyatlar praktiki olaraq tükənməzdirlər. Çünki ictimai və elmi tərəqqi sonsuzdur.

İqtisadi artımın effektivliyinin və yüksək keyfiyyətinin təminatı ehtiyatları və konkret amilləri, eləcə də onlardan məhsuldar şəkildə istifadənin göstəriciləri nvestisiya, struktur, elmi – texnoloji, büdcə, sosial, ekoloji siyasətin əsas istiqamətləri, eləcə də qarışıq iqtisadiyyatın fəaliyyəti və onun dövlət tənzimlənməsi məsələləri bu dərsliyin digər fəsilində daha ətraflı şəkildə nəzərdən keçirilərək şərh olunur.

Hər bir amil və ya ehtiyatların növününmümkün ola bilən «müsbətlər» və «mənfilər» imkanlarının aşkar olunmasını və ətraflı şəkildə əsaslandırılmasını tələb edir. Bu amillərdən yalnız birinə üstünlük verilməsi düzgün deyildir. Məsələn, əməyin məhsuldarlığının artımı iş yerlərinin ixtisara düşməsinə və məşğulluğun azalmasına səbəb ola bilər. Deməli, iqtisadi artımın amilləri ilə ehtiyatlarının səfərbər olunması dərin elmi təhlil əsasında taraz qaydada həyata keçirilməlidirlər. Yalnız bu cür yanaşma zamanı ən yüksək yekun nəticələrə nail olmaq mümkündür. Yalnız iqtisadi proseslərə bu cür yanaşmağın əsl iqtisadi artıma, başqa sözlə həyat keyfiyyətinin yüksək səviyyəsinə və xalqın rifahı təmin olunmaqla ölkə iqtisadiyyatının tarazlı, dinamik, sabit, innovasiya, təhlükəsiz və müstəqil inkişafına nail olmaq olar.

Suallar və tapşırıqlar

1. İqtisadiyyatın intensiv və ekstensiv inkişaf tipləri nə ilə fərqlənir?
2. «Miqyas artımı effekti» nədir?
3. Mətndə buraxılmış sözləri yerinə yazın:

   Müəyyən dövrdə ÜDM (kim tərəfindən)……son məhsul və xidmətlərin məcmuu kimi müəyyən edilir. Ölkənin real ÜDM-i son məhsul və qiymətlərin dəyəri kimi …….dövr üçün hesablanır.
4. İfadəni davam etdirin: ÜDM-dan XMM göstəricisinə keçmək üçün……..zəruridir.
5. Tapşırığı həll edin:

Fərz edək ki, ÜDM-n nominal dəyəri 1100 vahidə, real həcmi 1000 vahidə bərabərdir. Cari ildə ÜDM-in defilyatorunu hesablayın.

6. Kapital qoyuluşunun özünü ödəmə müddəti hansı göstərilən nisbətdən tapılır?

7. Məişət soyuducusunun istehlak qiymətinə daxil olan xərcləri qeyd edin elektrik enerjisi, süni buz, elektrik lampası, ərzaq, nəql etmə, ehtiyat hissələri, təmir, yağlama, dezodorant, soyuducunun alınması.

© Владимирова А.А. 2002
© Смирнитски Е.К. 2002

İkinci bölmə

●

İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN RESURS TƏMİNATI VƏ MEXANİZMİ

●

XI Fəsil

DÖVLƏTİN STRUKTUR SİYASƏTİ

Xalq təsərrüfatının iqtisadi konstruksiyasının yaradılması, bu konstruksiyada müxtəlif, lakin qarşılıqlı surətdə əlaqədar olan səmərəli proseslərin bütöv məcmuyunun formalaşdırılması və onların vaxtında "təmir edilməsi" həmişə hər bir dövlətin xüsusi qayğı obyekti olmuşdur və olaraq qalır. Onlar bütün sosial-iqtisadi dövlət siyasətinin əsasını təşkil edir. Milli iqtisadiyyat strukturunun yerinin və rolunun, onun dinamikasının və bunlara qayğının belə anlayışı iqtisadi orqanizmin sistem xarakterinin və orada gedən proseslərin uzun müddət dərk edilməsi və öyrənilməsi gedişində yaranmışdır.

1. Milli iqtisadiyyatın strukturlaşdırılması

İqtisadiyyatın bir sistem kimi struktur mürəkkəbliyi onun elementlərinin müxtəlifliyi, onların arasındakı əlaqələrin sayı və rəngarəngliyi, iyerarxiya səviyyələrinin miqdarı, makroiqtisadiyyatın əslində köməkçi sistemlər rolunu oynayan bütün elementlərinin və bloklarının xarakteri ilə müəyyənləşir. Lakin bir-biri ilə sıx bağlı olan qarşılıqlı əlaqəli proseslərin (təkrar istehsal, resurs, investisiya, innovasiya, maliyyə, əmək, texnoloji) çox müxtəlif olması iqtisadiyyatın strukturuna xüsusi mürəkkəblik verir ki, bu da iqtisadiyyatı canlı, daim təkmilləşən, dinamik təşkilatlara çevirir.

İqtisadiyyatın mövcud strukturu uzun sürən ictimai əmək bölgüsü, cəmiyyətin sosial strukturunun formalaşması, insan tələbatının artması və mürəkkəbləşməsi, elmi-texniki tərəqqi və nəticədə məhsuldar qüvvələrin mürəkkəbləşməsi proseslərinin təsiri altında yaranmışdır. Bir sözlə, iqtisadiyyatın strukturunun, onun dinamikasının öyrənilməsi üçün bir sıra nəzəriyyələrin, elmi fənlərin, müxtəlif modellərin, fənlərarası yanaşmanın cəlb edilməsi zəruridir.

Ölkənin iqtisadiyyat elmində ictimai istehsalın strukturuna və sahələr arasında nisbətə böyük diqqət yetirilmişdir. Əsas proporsional asılılıqlar və ictimai əmək bölgüsünün vəziyyəti məhz burada özünü büruzə verir. Bütün xalq təsərrüfatının və ya onun ayrı-ayrı hissələrinin, sahələrinin ən mühüm struktur qanunauyğunluqlarını səciyyələndirən bir çox iqtisadi proporsiyalar tədqiq edilmişdir.

Lakin hazırda Rusiyada aparılan əsaslı iqtisadi dəyişikliklər, inkişaf etmiş bazar münasibətlərindən fəal, yeni şəkildə stifadə edilməsinə keçilməsi iqtisadiyyatın strukturu, onun struktur transformasiyası, proporsional əlaqələrin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı bir çox problemlər yaradır. Xüsusən, söhbət bazarın strukturundan və onun infrastrukturundan, iqtisadi münasibətlərin federallaşdırılması şəraitində iqtisadiyyatın ərazi konstruksiyasından, xalq təsərrüfatı çərçivəsində özünüinkişafın əsas resurs amillərinin təkrar istehsalından gedir. İqtisadiyyata çoxcəhətli baxış onun strukturunun müxtəlif növlərini fərqləndirmək üçün əsas metodoloji bazadır.[1]

Siyasi-iqtisadi struktur. O, hər şeydən əvvəl sahələr, ərazilər, mülkiyyət növləri üzrə proporsional surətdə bölüşdürülmüş müxtəlif məhsuldar qüvvələrin tam məcmuyu kimi xalq təsərrüfatı strukturudur. Struktura siyasi-iqtisadi baxış Federasiyanın subyektləri olan regionlar, iqtisadi zonalar, ərazi kompleksləri üzrə istehsalın şəxsi və əşya amillərinin yerləşdirilməsi strategiyasının və taktikasının əsasını təşkil edir.

[1] Государственное регулирование рыночной экономики: Учебник для ВУЗов / Под общ.ред. Кушлина В.И., Волгина Г.А. М.: Экономика, 2000. С.371-373.

Bundan başqa, iqtisadiyyatın siyasi-iqtisadi strukturuna ictimai-iqtisadi münasibətlərin strukturu daxildir (4-cü sxem). Sxemdə iqtisadi strukturun siyasi-iqtisadi anlayışı ilə qarşılıqlı əlaqədə olan məhsuldar qüvvələr və ictimai-iqtisadi münasibətlər sistemi əks olunmuşdur.

İlkin məhsuldar qüvvələr onların maddi-əşya hissəsini təşkil edir. Buraya əsas istehsal fondları, müxtəlif, o cümlədən idarəedici işçi qüvvəsi daxildir.

Təkrar məhsuldar qüvvələrə ictimai istehsal prosesinin təşkili formaları aiddir. Bu formalar istehsal prosesinin ictimailəşdirilməsinin, əməyin intellektuallaşdırılmasının inkişafı ilə, yəni insanın mənəvi qüvvələrinin istehsala cəlb edilməsi ilə səciyyələnir. Buraya sahibkarlıq resurslarını, intellektual resursları və hətta kooperasiyanı daxil etmək olar. Bu məhsuldar qüvvələr ilkin resursların təkmilləşdirilməsi vasitəsilə fəaliyyət göstərir və ya onların yeni səmərəli qarşılıqlı fəaliyyətini təmin edir.

Təbii məhsuldar qüvvələrə təbiətin müəyyən etdiyi təbii əmək qüvvələri, əməyin tərəqqi şərtləri daxildir. *İctimai məhsuldar qüvvələr* cəmiyyətin inkişafı prosesində toplanır. Onlar həm ilkin, həm də təkrar məhsuldar qüvvələrdən ibarət ola bilər və ictimai təkrar istehsal gedişində məhsuldar qüvvələrin kombinasiyasının və təşkilinin xüsusi müasir ictimai formalarını səciyyələndirir. Buraya təşkilati resursları və idarəetmə resurslarını aid etmək olar. *Ümumi məhsuldar qüvvələrə* bir çox mütəxəssislər bilavasitə məhsuldar qüvvə kimi elmi potensialı və elmi, innovasiyaları, habelə informasiyanı aid edirlər.[1] (Sxem 4)

Texniki-iqtisadi münasibətlər texnikanın, texnologiyaların və onların məcmuyunun vəziyyəti ilə, məhsuldar qüvvələrin strukturu ilə müəyyənləşdirilir. *Təşkilati-iqtisadi münasibətlər* istehsalın təşkili xüsusiyyətlərindən, idarəetmə sistemindən, iqtisadiyyatda institusional atmosferdən, o cümlədən qanunvericilik, hüquq normalarından asılıdır. Məhz bu münasibətlər hər hansı bir təsərrüfat mexanizminin əsasını təşkil edir və onların bütün digər formalarına təsir göstərir.

[1] Политическая экономика: Учебно-методическое пособие для преподавателей /Под ред.А.В.Сидоровича, Ф.М.Волкова. М.:Изд-во МГУ, 1993.С.21

Sxem 4.

Milli iqtisadiyyatın siyasi-iqtisad struktur



Sosial-iqtisadi münasibətləri təkcə insanların münasibətləri deyil, həm də ayrı-ayrı kollektivlərin, insanın və cəmiyyətin həyat fəaliyyəti şərtlərinin bütün məcmuyunun təkrar istehsalı ilə əlaqədar sosial qrupların münasibətləri səciyyələndirir. Bu tip münasibətlərdə onların qarşılıqlı təsirinin zənginliyi və müxtəlifliyi, iqtisadi mənafelərin birliyi və onların arasındakı ziddiyyətlər özünü büruzə verir.

Təşkilatı-funksional struktur. Bu struktur milli iqtisadiyyatı təşkilat və idarəetmə səviyyələrinə görə, habelə maraq səviyyələrinə görə, bu səviyyələrin müstəqil (müəyyən dərəcədə)

fəaliyyət qabiliyyətinə görə qurur. Buna görə də o, iqtisadi və struktur sabitliyi təmin edir. Fəaliyyət müstəqilliyi meyarı milli iqtisadiyyat konstruksiyalarını daşıyan silsilənin qurulması üçün əsasdır. O, regional (Federasiya subyekti) iqtisadiyyat, iqtisadi zonalar və ərazi kompleksləri vasitəsilə makroiqtisadi səviyyəyə görə müəssisədən, korporasiyadan ierarxik qaydada strukturlaşdırılmış kimi görünür.

Rusiyanın milli iqtisadiyyatının təşkilati-funksional strukturu 4-cü sxemdə əks etdirilmişdir.[1] Ölkənin iqtisadi ədəbiyyatında yayılmış sahələrin baza və infrastruktur (baza vəzifələrinə tabe olan) sahələrə bölünməsindən və 3 sektorun ayrılmasından fərqli olaraq, bu sxemdə xarici mütəxəssislərin araşdırmalarından istifadə edilmişdir. Burada keçmiş sənaye təmayülləri, o cümlədən informasiyanın əhəmiyyətinin artması (ictimai məhsulun 1/3 hissəsinə qədəri məhz informasiya istehsalında yaranır), ticarətin məşğulluğun 20 faizini və ümumi məhsulun təqribən 16 faizini təmin edən istehsalın xüsusi davamına çevrilməsi nəzərə alınmışdır. İşçi qüvvəsinin, əmək resurslarının təkrar istehsalını xeyli dərəcədə təmin edən sosial sahələrin xüsusi dinamikasına diqqət yetirilmişdir. Xalq təsərrüfatının federallaşdırılmış makrosistemdə köməkçi sistemlər kimi regional iqtisadiyyatların rolunu yüksəltmişdir. Bu, milli iqtisadiyyatda bütöv bir xüsusi təkrar istehsal sahəsidir.

Təkrar istehsal strukturu. Bu cəhət həmişə istehsal strukturunun təhlilinin elmi əsası hesab edilmişdir. Təkrar istehsal nəzəriyyəsi əsasında xalq təsərrüfatı strukturunun tərkibi və əsas elementləri, onun inkişafının qanunauyğunluqları, onun dəyişməsinə və təkmilləşməsinə təsir göstərən amillər müəyyənləş-dirilmişdir. Milli iqtisadiyyatın müasir ictimai təkrar istehsal strukturu daim təzələnən təkrar istehsal tsikli şəklində ifadə edilə bilər. Burada əsas struktur asılılıqllar, habelə iqtisadi təkrar istehsal sisteminin özünütəşkil, özünüidarə mexanizmi, əsas özünüinkişaf amillərinin formalaşması daha aydın şəkildə görünür.

[1] Bell D. Coming of Rost – İndustrial Society. A.Venture in Social Forecasting. N. – Y., 1973. P.117.



Sxem 4(a). Milli iqtisadiyyatın təşkilatı-funksional quruluşu

Təkrar istehsal iqtisadiyyatının əsas struktur əlaqələri sırasında təkrar istehsal iqtisadi tsiklinin bir növ inkişaf qanunauyğunluqları rolunu yerinə yetirən natural və dəyər iqtisadi proporsiyaları göstərmək olar. Onların arasında aşağıdakı qarşılıqlı asılılıqlar fərqləndirilir: a) yığım və istehlak; b) əvvəlki istehsal və istehsal; c) istehsal və bazar; ç) istehsal, ictimai və şəxsi istehlak; d) elmi və mühəndis hazırlığı; e) struktur-sahibkarlıq və marketinq hazırlığı; ə) istehsalın investisiya və intellektual hazırlığı və s. Digər əlaqələrlə yanaşı ümumi məhsulda və digər makroiqtisadi göstəricilərdə xüsusi çəkilərinə görə, habelə onların dəyişmə dinamikasına görə təhlil edilən bu proporsional əlaqələr Rusiyanın iqtisadi təhlükəsizliyi vəziyyətinin qiymətləndirilməsi vasitələrinin əsasını təşkil edir.

Real təcrübədə təkrar istehsal baxımından yanaşma iqtisadiyyata konkret istehlak nemətlərinin təkrar istehsalı proseslərinin böyük bir məcmuyu kimi nəzər salmağa imkan verir. Təkrar istehsal prinsipi nöqteyi-nəzərindən milli iqtisadiyyat istehsal hazırlığından istehlakadək, resurslardan məhsuladək uzanan düzxətli zəncir demək deyildir. Bu, insanın öz artan hədsiz tələbatını ödəmək məqsədilə təşkil etdiyi əsas amillərin təkrar istehsalına qarşılıqlı təsirli tsikllərinin mürəkkəb sistemidir.

Xalq təsərrüfatı strukturunun təhlilinin təkrar istehsal prinsipi iqtisadiyyatı daim hərəkətdə olan, dəyişən, inkişaf edən və yeniləşən dinamik kateqoriya kimi səciyyələndirir.

Texnoloji struktur iqtisadiyyat strukturunu birtipli əmtəə və xidmət qrupları istehsalının texnoloji bazasını müəyyənləşdirən texniloji zəncirlərin, quruluşların, bütöv texnoloji qurumların məcmuyu kimi təqdim etməyə imkan verir. O, dünya təsərrüfatında genişlənən yeni texnoloji inqilab şəraitində bütövlükdə xalq təsərrüfatı strukturunda ən mühüm yer tutur. Texnoloji strukturun xüsusiyyəti bundan ibarətdir ki, o, müntəzəm monitorinqə ehtiyac duyur. Rusiyanın xalq təsərrüfatında III-IV texnoloji quruluşların üstünlük təşkil etməsi, bir sıra üstün texnoloji istiqamətlərin yüksək inkişaf etmiş ölkələrdən geri qalması hakim struk-

turlarda, elmi mühitdə, Rusiya iqtisadiyyatının gələcəyi uğrunda çalışan hər bir idarəedicidə narahatlıq doğurmalıdır.

Resurs strukturu. İqtisadiyyatın "cəmiyyətin hədsiz tələblərinin daha çox və ya maksimum ödənilməsinə nail olmaq üçün" resursların istehsalı və onlardan səmərəli istifadə edilməsi proseslərinin məcmuyu kimi təqdim edilməsi iqtisadiyyatı əsas resursların təkrar istehsalının qarşılıqlı əlaqədar prosesləri üzrə strukturlaşdırmağa əsas verir. (Sxem 5)

İqtisadiyyatın struktur təşkilində müxtəlif səviyyələrdən, köməkçi sistemlərdən başqa həm də qarşılıqlı əlaqədar proseslərin də olması iqtisadi elmin bir-biri ilə bağlı olan müxtəlif tipli modellərdən istifadə olunmasına əsaslanan struktur təhlil metodu təklif etməsinə imkan vermişdir. İqtisadi proseslər müxtəlif modellərin köməyi ilə təsvir olunur. Texnoloji və texniki-iqtisadi modellər (sahələrarası balans, iqtisadi tarazlıq və s.) məhz belələrindəndir. Sosial-iqtisadi sistemlərin fəaliyyətinin optimallaşdırılma və ehtimal modelləri də belə modellərdəndir.

Lakin hətta iqtisadiyyatın strukturunun tədqiqində müasir kompüter vasitələrindən istifadə edildiyi halda da modelləşdirmənin rolunu və imkanlarını şişirtmək lazım deyildir. Ölkənin xalq təsərrüfatı inkişaf edən mürəkkəb məqsədli sistemlər sırasına aiddir. Bu sistemlərin keyfiyyətcə modelləşdirilməsi bir sıra səbəblərə görə mühüm çətinliklərlə qarşılaşır.

Sxem 5



Sxem 5. Təkrar istehsal tsikli

2. Struktur siyasətinin rolu və yeri

İqtisadiyyat sahəsində hər hansı dövlət siyasəti əslində dövlətin hakimiyyət orqanları tərəfindən insanın həyat fəaliyyətinin müxtəlif sahələrinin, onun nəticələrinin, habelə strateji və taktiki planda cəmiyyətin inkişafının əsas məsələlərinin həllində və məqsədlərə nail olmaqda bəzi tənzimləyici iqtisadi amillərin roluna baxışını, anlamını əks etdirir. Bu baxış normativ hüquqi aktlarda təsbit olun ur və sosial-iqtisadi proseslərin tənzimlənməsi üzrə dövlət orqanlarının (hər şeydən əvvəl icra hakimiyyətinin) praktik fəaliyyətində özünü büruzə verir.

Dövlət struktur siyasəti sistemli iqtisadi siyasətin bir hissəsidir. Buna görə də onu dövlətin investisiya, elmi-texniki, innovasiya, sənaye, aqrar, valyuta-maliyyə və regional siyasətləri ilə sıx əlaqədar olan və onlarla birlikdə fəaliyyət göstərən köməkçi sistem hesab etmək olar. Bu zaman dövlət siyasətləri məcmusunda struktur siyasəti xüsusi yer tutur. Bu yer bütün iqtisadi, təsərrüfat, sosial, elmi-texniki və digər sistemlərdəki elementlər (köməkçi sistemlər) arasında sabit və nizamlı əlaqələrin ümumiliyi ilə şərtlənir. Bir sözlə, bu xüsusi yer infrastrukturun özünün mövcudluğundan irəli gəlir.

Struktur siyasəti iqtisadi siyasət sistemində nisbətən müstəqil köməkçi sistem olmaqla yanaşı, həm də müvafiq qanun və konsepsiyaların məzmununun ayrılmaz tərkib hissəsini təşkil edərək inkişaf edir, başqa siyasətlərdə konkretləşir.

Buna görə də *struktur siyasəti* sosial-iqtisadi siyasətin tam bir tərkib hissəsi kimi səciyyələndirmək olar. O, iqtisadiyyatda və sosial sahədə strateji və taktiki vəzifələrin həlli vasitəsi kimi struktura və struktur dəyişikliyə dövlətin münasibətini ifadə edir, dövlət hakimiyyəti orqanlarının məqsədlərini, vəzifələrini, fəaliyyət istiqamətlərini və mexanizmini müəyyənləşdirir. Bu məqsəd və vəzifələr bütün sahələrdə, səviyyələrdə, təkrar istehsal mərhələlərində və proseslərində müxtəlif köməkçi sistemlər və elementlər arasında optimal əlaqələrə daha yaxın olan proporsional asılılıq-

ların və struktur əlaqələrin müəyyən edilməsindən ibarətdir. Optimal proporsiyalar və struktur iqtisadi quruculuq dərəcəsi bazar iqtisadiyyatının fəaliyyətinin daha yüksək, fərqli iqtisadi səmərəlilik meyarı mövqeyindən qiymətləndirilir.

Struktur, investisiya, innovasiya siyasətləri arasında xüsusi qarşılıqlı əlaqə yaranır. Əslində birincini xeyli dərəcədə iki sonrakı müəyyənləşdirir, belə ki, bu və ya digər struktur əlaqələrin, iqtisadi proporsiyaların dəyişməsi hər şeydən əvvəl hər bir struktur elementin əsas komponentlərində kəmiyyət və keyfiyyət dəyişiklikləri vasitəsilə baş verir. Hazırda dünyada həyata keçirilən qlobal texnloji çevriliş şəraitində investisiyalar və innovasiyalar olmadan bunu həyata keçirmək qeyri-mümkündür.

İqtisadi proporsiyaların və struktur əlaqələrin optimal vəziyyətlərə yaxınlığı nisbi anlayışdır. O, hər bir konkret iqtisadiyyatın, onun köməkçi sistemlərinin məqsədlərindən və həll edilən inkişaf məsələlərindən, resurs amillərinin məcmusunun olmasından asılıdır. Buna görə də hətta birtipli sistemlərdə (məsələn, regional iqtisadiyyatlar) optimal strukturlara yaxın olan strukturlar adətən eyni olmur.

Nəticəli struktur siyasətin hazırlanması və həyata keçirilməsi üçün baza milli iqtisadiyyatın və onun tərkib hissələrinin *strukturlaşdırılması* sahəsində, bir sıra meyarlara görə bütün səviyyələrdə təsərrüfat sistemlərinin inkişafının faktor təhlili, müxtəlif siyasətlərin qarşılıqlı əlaqələri sahəsində elmi əsaslı biliklərdir. Dünyada əsas proporsional asılılıqların, elmi-texniki tərəqqi qanunauyğunluqlarının və onun əsas meyllərinin, tsiklik iqtisadi dinamika proseslərinin dəyişməsi proseslərinin dərindən dərk edilməsi çox vacibdir. İnvestisiya və innovasiya fəaliyyətinin səmərəliyi, habelə təbii ki, qarışıq iqtisadiyyatın inkişafının dövlət tərəfindən tənzimlənməsinin mahiyyəti barədə biliklər çox böyük əhəmiyyət kəsb edir.

Rusiya və xarici ölkə iqtisadçıları struktur makroiqtisadi dinamikada ən mühüm milli iqtisadiyyatlar sırasına müasir obyektiv meyllərin böyük bir dairəsini aid edirlər.

Elə təsəvvür yaranır ki, ölkə və xarici ölkə həmkarlarının fikirlərindən asılı olmayaraq iqtisadi dinamikanın *sosial yönümünün* gücləndirilməsini, sosial sahənin prioritet olaraq yeniləşdirilməsini qeyd etməkdən başlamaq lazım idi. İqtisadiyyatın struktur transformasiyasının getdikcə daha çox sosial-iqtisadi sabitliyə və iqtisadi təhlükəsizliyə doğru yönəldilməsi də bununla əlaqədardır.

Bu baxımdan elmi-texniki tərəqqi və iqtisadiyyatın struktur cəhətdən yenidən qurulması meylləri böyük imkanlar açır. Hər şeydən əvvəl bu əlaqədə ictimai təkrar istehsalın əvvəlki mərhələsinin və müvafiq olaraq intellektual, mühəndis, investisiya, istehsalın struktur sahibkarlıq hazırlığının əhəmiyyətinin artmasını qeyd etmək lazımdır. Elm tutumlu istehsal sahələrinin xüsusi çəkisinin və əhəmiyyətinin artması, milli iqtisadiyyatların mərhələ-mərhələ inkişafın *innovasiya* tipinə keçməsi bununla əlaqədardır. Maşınqayırmanın və hər şeydən əvvəl iqtisadiyyatın özəyi və innovasiya dəyişikliklərinin bazası kimi investisiya maşınqayırmasının prioritet olaraq texnoloji cəhətdən yeniləşməsi məhz buradan irəli gəlir. Bu əlaqədə istehsal aparatının irimiqyaslı texnoloji yeniləşməsi şəraitində istehsal istehlakının daha sürətlə artması meyli böyük əhəmiyyət kəsb edir. Yuxarıda sadalanan bütün proseslər infrastruktur sahələrinin (nəqliyyatın, rabitənin, informasiya sistemlərinin, bazar infrastrukturunun) üstün inkişafını tələb edir, getdikcə artan resursa qənaət meyllərini nəzərə alaraq bütün makroiqtisadi göstəricilərdə TİK-nın payının azalmasına səbəb olur.

Aydındır ki, iqtisadi tərəqqinin belə gedişi beşinci və altıncı texnoloji istehsal quruluşunun daha fəal surətdə formalaşmasına gətirib çıxarır. Bununla əlaqədar olaraq əmək məhsuldarlığının artmasında baş verən kəskin yüksəlişlər maddi istehsal sahəsində işçi qüvvəsinin xeyli sərbəstləşməsi deməkdir. Bu səbəbdən qeyri-səmərəli müəssisələr və istehsalatlar bağlanır, çünki onların məhsuluna istehlakçıların tələbatı olmur. Nəticədə xidmətlərin payı artır, xidmət sektorunda mürəkkəbləşmə baş verir və fərqlənmə artır. Bu fonda həmçinin regionların (Federa-

siya subyektlərinin) sosial-iqtisadi və elmi-texniki inkişafında bərabərləşmə prosesi gedir. Tədricən regional iqtisadi komplekslər formalaşır.

Daha sonra kapitalın özünütəşkili, sənaye, maliyyə, ticarət təşkilatlarının inteqrasiyası, şirkətlərin birləşməsi əsasında iqtisadiyyatın sabit təşkilati-funksional silsiləsinin formalaşmasının başlıca istiqaməti kimi onun *korporasiyalaşmasını* da qeyd etmək lazımdır. Bu proses hər bir iri korporasiya ətrafında kiçik sahibkar firmalarından güclü təsərrüfat zonasının yaradılmasını tələb edir. İqtisadiyyatda qarışıq mülkiyyətin getdikcə daha çox üstünlük təşkil etməsi meyli müşahidə edilir.

Nəticədə bütün deyilənlərlə sıx bağlı olan daha iki meyli qeyd etmək lazımdır. Birincisi, dünya təsərrüfatının tamlığının artdığı bir şəraitdə milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsünə struktur uyarlığına tələbat artır. Məsələn, Rusiyanı daim yanacaq-xammal istiqamətinə doğru yönəldirlər. Eyni zamanda millətlərarası və sahələrarası birliklər, onların əlaqələri və transmilli korporasiyalara tabelik artır. İkincisi, Rusiyanın dünya iqtisadiyyatında layiqli yer tutması üçün təsərrüfatın struktur dəyişikliklərinin *dövlət tənziminin* gücləndirilməsinin, müxtəlif siyasətlərin əlaqələndirilməsinin, müxtəlif təsərrüfat sistemlərində onların razılaşdırılmasının zəruriliyinə çox ciddi diqqət yetirmək lazımdır. Bu problem iqtisadi və sosial tərəqqinin daxili vəzifələri nöqteyi-nəzərindən də çox kəskin şəkildə özünü büruzə verir.

Əlbəttə, göstərilən meyllərin və proseslərin qarşılıqlı əlaqəsi burada qeyd edilən ardıcıllığa uyğun deyildir. Bu əlaqə daha mürəkkəbdir. Qarşılıqlı əlaqələr sxemində kəsişmələr çoxdur, çox vaxt nəticə səbəbə, səbəb isə nəticəyə çevrilir.

Mövcud strukturun səmərəliyinin və oradakı dəyişikliyin qiymətləndirilməsi üçün əsas meyar onların taktiki və strateji planda cəmiyyətin inkişafının əsas sosial-iqtisadi məqsədlərinə nail olmağa daha çox uyğun olmasıdır. 3-cü cədvəldə göstərilən dövlət struktur siyasətinin məqsədləri, vəzifələri və istiqamətləri strateji xarakter daşıyır və iqtisadiyyatın hər bir səviyyəsi üçün taktiki planlarda, proqramlarda və tədbirlərdə konkretləşdirilməlidir.

Rusiyanın müasir böhranlı şəraitinə tətbiqən struktur siyasətin əsas taktiki vəzifələri sırasında hər şeydən əvvəl perspektivsiz və köhnəlmiş istehsalatları ardıcıl surətdə ixtisar etməklə səmərəli və rəqabət qabiliyyətli istehsalatlara kömək göstərilməsini, infrastrukturun (istehsal, bazar, informasiya) üstün qaydada inkişaf etdirilməsini, habelə istehsalın sahə strukturunun ödəmə qabiliyyəti olan tələbata uyğunlaşdırılmasını qeyd etmək olar. Taktiki nöqteyi-nəzərdən resursların durğunluq keçirən sahələrdən inkişaf edən sektorlara axınının stimullaşdırılması, zəif inkişaf etmiş regionların inkişafının gücləndirilməsi, sabit iqtisadi inkişaf üçün digər zəmin yaradılması çox əhəmiyyətlidir. Emal sənayesinin dünya bazarında potensial rəqabət qabiliyyəti olan sahələrində və digər sahələrdə yanacaq-energetika kompleksinin ixracat gəlirlərinin kapitallaşdırılması məsələsinə ciddi diqqət yetirilməlidir.

Aydındır ki, hətta bu vəzifələrin ardıcıl və tam həyata keçirilməsi belə iqtisadiyyatda mütərəqqi struktur irəliləyişlərin təmin edilməsi problemini aradan qaldırmır, meydana çıxmış böhran vəziyyətinin aradan qaldırılmasına zəmin yaratmır. Məsələ burasındadır ki, bu vəzifələr müxtəlif istiqamətlidir, sistemli deyil, ən başlıcası isə onların kifayət qədər resurs təminatı yoxdur. Yalnız fəal, elmi cəhətdən əsaslandırılmış, digər siyasət növlərinə uyğunlaşdırılmış dövlət struktur siyasəti federal və regional səviyyələrdə hətta Rusiyanın indiki böhranlı şəraitində işgüzar fəallığın canlandırılması, müsbət iqtisadi dinamikanın və iqtisadi inkişafın formalaşdırılması üçün tədricən, mərhələ-mərhələ əsas struktur zəmin yaratmağa qadirdir.

Cədvəl 3

Dövlət struktur siyasətinin əsas məqsədləri , vəzifələri və istiqamətləri

Məqsədlər və vəzifələr	İstiqamətlər
- İqtisadiyyatın özünüinkişafının (geniş ictimai təkrar istehsalın) kompleks resurs bazasının hazırlanması - Texnoloji quruluşların birbirini əvəz etməsi, tədricən inkişafın innovasiya tipinə keçilməsi üçün bütün resurs zəminin yaradılması - Elmi-texniki və innovasiya sahələrinin üstün inkişafı hesabına daha çox enerji və resursa qənaətin təmin edilməsi	- İqtisadiyyatın sahə strukturunun və onun ierarxik konstruksiyasının optimallaşdırılması - İlkin istehsal pilləsinin yenidən strukturlaşdırılması. İqtisadiyyatın korporativləşdirilməsi - İqtisadi münasibətlərin federallaşdırılmasının inkişaf etdirilməsi - Elmin, istehsalın və bazarın inteqrasiyası - Yığımın və istehlakın, habelə istehsal istehlakının, ictimai və şəxsi istehlakın dinamık optimumuna nail olmağa səy göstərilməsi
- Bütün mülkiyyət formalarının iqtisadiyyatın inkişafının daha yüksək nəticəliyi meyarı üzrə proporsional surətdə inkişaf etdirilməsi - İqtisadiyyatın ilkin və korporativ pilləsinin rəqabət qabiliyyətinin və iqtisadi sabitliyinin təmin edilməsi - Federasiyanın subyektləri olan regionların sosial-iqtisadi inkişaf səviyyələrinin bərabərləşdirilməsi - Rəqabət mühitinin for-	- İstehsalda və bazar bölgüsündə iri və kiçik formaların nisbətinin optimallaşdırılması - Federasiya subyektlərinin öz hüquq və vəzifələrini yerinə yetirməsinin bazası kimi onların sosial-iqtisadi komplekslərinin formalaşdırılmasına kömək göstərilməsi - Təhsil, elm və texnika sahələrinin üstün inkişafı - Qeyri-səmərəli istehsalatların təsərrüfat dövriyyəsindən çıxarılması - İnvestisiya fəaliyyətinin

malaşdırılması - Əhalinin məşğulluğu, işsizliyin azaldılması probleminin həll edilməsi - Dünya bazarlarında öz elm tutumlu mallarımızın və xidmətlərimizin formalaşdırılması və inkişaf etdirilməsi - İqtisadi təhlükəsizliyə kömək göstərilməsi - İxracatın və idxalı əvəzetmənin inkişaf etdirilməsi - Federasiya subyektlərinin sosial-iqtisadi komplekslərinin formalaşdırılması	gücləndirilməsi və investisiya axınlarının strukturlaşdırılması - Məhsuldar kapitalın dövlət prioritetləri ilə əlaqədar olan fəaliyyət sahələrinə və növlərinə real axınının təmin edilməsi - İşçi qüvvəsinin yaranmasının və hərəkətliliyinin inkişaf etdirilməsi - Prioritet sahənin, fəaliyyət sahəsinin məhsuluna tələbatın stimullaşdırılması

3. Struktur siyasətinin həyata keçirilməsi metodları

Struktur siyasətinin ən mühüm tərkib hissəsi onun hazırlanması və həyata keçirilməsi mexanizmi, xalq təsərrüfatının struktur dəyişiklikləri sahəsində dövlət orqanlarının fəaliyyətinin forma və metodlarıdır. Rusiyanın qarışıq iqtisadiyyatı şəraitində bunlar bazarın tənzimləmə imkanları ilə əlaqələndirilməlidir.

İqtisadiyyatın ayrı-ayrı sahələrində strukturun yenidən formalaşdırılmasının müasir sxemi alimlərin diqqətini cəlb edir. Məsələnin həlli yollarından biri haqqında. Maliyyə cəhətdən əlverişli mövqedə duran iri və orta müəssisələr və öz xərcini ödəyən kiçik firmalar, korporasiyalar, banklar və gizli iqtisadiyyat bazar özünütənzimləmə rejiminə keçməlidirlər. Azrentabelli və zərərlə işləyən müəssisələri, böyük məbləğdə borcu və ödəmələri olan şirkətləri bazar tənzimləyicilərinə çətin uyğunlaşma rejimində saxlamaq lazımdır. Müdafiə sahələri, elm, kənd təsərrüfatı və sosial sahə struktur dəyişikliklərini dövlət yardımı vasitəsilə həyata keçirirlər.

Mexanizmin belə anlayışı reallığı əks etdirir, lakin struktur dəyişikliklərinin dövlət tənzimini xeyli sadələşdirir, onun təsir dairəsini məhdudlaşdırır. Hazırda xalq təsərrüfatının, onun ayrı-ayrı iqtisadiyyatlarının strukturu və proporsiyaları dövlət orqanlarının planlı qərarları nəticəsində, avtomatik fəaliyyət göstərən bazar özünütəşkil mexanizmi rejimində deyil, əsasən təsərrüfat fəaliyyəti subyektlərinin tarazlaşdırılmamış iqtisadiyyat böhranı, inkişaf etməmiş bazar və mühüm rəqabət məhdudiyyətləri şəraitinə kortəbii surətdə uyğunlaşmasının yekunu kimi yaranır. Bu proseslər təsərrüfatın bir sıra sahələrində və sektorlarında aydın şəkildə özünü büruzə verən kriminal çalarlı inhisarçılıq şəraitində, habelə qeyri-mükəmməl bazar mexanizminin zəifləmiş, sistemsiz və qeyri-mütəşəkkil dövlət tənzimi ilə qarşılıqlı əlaqəsi şəraitində gedir.

Qarışıq iqtisadiyyat sahəsində struktur dəyişikliklərə dövlətin təsiri bazarın tələblərini nəzərə almalıdır. Lakin strukturun yenidən qurulması zamanı tamamilə bazar özünütəşkilinə doğru istiqamət almaq olmaz. İqtisadiyyatda struktur dəyişikliklərinə səbəb olan bütün bazar prosesləri və hadisələri xalq təsərrüfatı strukturunun müxtəlif tərəflərinə həm müsbət, həm də mənfi (cəmiyyətin maraqları nöqteyi-nəzərindən) istiqamətlərdə təsir göstərir. Buna görə də tam təbiidir ki, dövlət struktur siyasəti metodlarının məcmusu proporsiyaların struktur əlaqələrinin bazar özünütənzimləmə amilləri ilə passiv şəkildə yanaşı qala bilməz. O, öz təsiri ilə strukturun dinamik optimallığı meyarı əsasında struktur transformasiyanın bazar vasitələrinin müsbət təsirlərini gücləndirməli və mənfi təsirlərini aradan qaldırmalıdır.

Federal dövlətin iqtisadiyyatında sadəcə istehsalçıların, istehlakçıların və mülkiyyətçilərin maraqları toqquşmur. Hər şeydən əvvəl öz funksiya və vəzifələrinə görə bu və ya digər birliyin daha çox ümumi tələbatına yönəlmiş müxtəlif səviyyəli hakimiyyət orqanlarının mənafeləri arasında münaqişələr baş verir. Axı ictimai-iqtisadi münasibətlərin *federallaşması* prosesi nəticəsində əsas subyektlər federal və regional xarakterli müxtəlif səviyyəli dövlət hakimiyyət orqanlarıdır. Federal dövlətin iqtisadiyyatı öz

strukturuna və qarşılıqlı asılılıqlarına görə bəzi tədqiqatçıların onu əmtəələrin, kapitalların, işçi qüvvəsinin, informasiyanın və s. sərbəst hərəkət etdiyi qeyri-müəyyən iqtisadi bazar məkanına endirərək təqdim etdiklərindən daha mürəkkəb konstruksiyadır.

Federasiya subyektinin insanlar qarşısında sosial-iqtisadi məsuliyyətinin həcmini və xüsusi çəkisini nəzərə alaraq belə hesab etmək olar ki, federalizmin iqtisadi bazasının konstruksiya əsası Federasiya *subyektinin xalq təsərrüfatı kompleksidir*. O, müxtəlif funksiyalar sisteminin yerinə yetirilməsi üçün dövlət hakimiyyətinin bu səviyyəsinə bir çox zəmin yaradır. Onların sırasında daxili resurs özünüinkişaf amilləri və onların təkrar istehsalı şərtləri vardır. Buna görə də belə hesab etmək olar ki, dövlət struktur siyasəti regional səviyyədə də hazırlanır. Lakin bu, o demək deyildir ki, federal struktur siyasəti regional sosial-iqtisadi komplekslərin formalaşmasına yönəldilmiş metodlara malik olmalıdır.

Dövlət struktur siyasətinin əsasən bu və ya digər obyektə təsir istiqaməti meyarı üzrə həyata keçirilməsi formalarının və metodlarının bütün məcmusu şərti olaraq dörd bloka bölünə bilər.

Birinci, *makroiqtisadi bloka* əsas makroiqtisadi proporsiyalara və struktur əlaqələrə təsir göstərən, habelə milli iqtisadi sistemin dünya təsərrüfatının supersistemi ilə qarşılıqlı struktur əlaqələrini formalaşdıran metodların məcmusu daxildir.

Makroiqtisadi blokun metodları struktur siyasətinin bir sıra istiqamətləri üzrə dövlət orqanlarının müvəffəqiyyətli fəaliyyətini təmin etməlidir. Bu, hər şeydən əvvəl iqtisadiyyatın sahə strukturunun optimallaşdırılması, oradakı mütərəqqi struktur irəliləyişlərinin təmin edilməsidir. Bunun üçün elm tutumlu istehsalatların sürətlə inkişaf etdirilməsi, maşınqayırmanın prioritet olaraq vaxtında elmi-texnoloji cəhətdən yeniləşdirilməsi, müxtəlif infrastrukturların inkişaf etdirilməsi, iqtisadiyyatın enerji resursları ilə tam və keyfiyyətlə təmin edilməsi və nəticədə bütün iqtisadiyyata nisbətən yanacaq-energetika kompleksinin proporsional surətdə inkişaf etdirilməsi və s. zəruridir. Yığım və istehlak, əmtəə və xidmət istehsalı, istehsalqabağı və istehsal mərhələləri kimi iqtisadi proporsiyaların nisbətinin *optimallaşdırılmasına* nail olmaq,

iqtisadiyyatın bütün səkkiz sektorunun, iqtisadiyyatın real və maliyyə sektorlarının səmərəli surətdə əlaqələndirilməsi və s. vacibdir. Təhsil, elm və texnika sahələrinin prioritet inkişafı, prioritet sahələrin məhsuluna olan tələbatın, fəaliyyət sahələrinin stimullaşdırılması, ixracatın və hər şeydən əvvəl yüksək texnoloji ixracatın inkişafına kömək göstərilməsi və s. də böyük əhəmiyyət kəsb edir.

Dövlət struktur siyasətinin həyata keçirilməsi metodlarının birinci bloku müəyyən dərəcədə milli iqtisadiyyatın iqtisadi, texnoloji, ərzaq, ekoloji, energetika təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş makroiqtisadi transformasiya probleminin həllinə doğru istiqamətlənmişdir.

Makroiqtisadi blokun *metodları* sırasında – proqnozlaşdırma, proqramlaşdırma, normativ-hüquq, proteksionizm tədbirləri, fərqli vergitutma, prioritetlər sisteminin hazırlanması və həyata keçirilməsi, dövlət investisiyaları, birbaşa subsidiyalar və investisiya siyasətinin digər metodları vardır. Fərqli gömrük tarifləri, ixracatın təmərküzləşməsi və əlaqələndirilməsi, idxalın məhdudlaşdırılması, dövlət təminatları və investisiya sığortası, dövlət subvensiyaları, məqsədli kreditlər və s. böyük əhəmiyyət kəsb edir.

İkinci, regional blokda Federal mərkəzin dövlət orqanlarına xalq təsərrüfatının iqtisadi strukturunu Rusiyada federativ münasibətlərin inkişafını nəzərə almaqla yenidən qurmağa, yəni Federasiya subyektlərinin iqtisadi bazasını formalaşdırmağa, onların sosial-iqtisadi inkişaf səviyyəsini bərabərləşdirməyə imkan verən metodlar cəmləşmişdir.

Əgər struktur dövlət siyasəti regionlarda insanın həyat fəaliyyəti üçün tədricən, mərhələ-mərhələ eyni şəraitin yaradılması (təbii-iqlim, coğrafi və milli fərqləri nəzərə almaqla) bazası kimi sosial-iqtisadi komplekslərin formalaşmasına kömək göstərmirsə, onu kifayət qədər səmərəli hesab etmək olmaz.

Struktur siyasətinin həyata keçirilməsi üzrə regional blokun *əsas metodları* arasında proqnozlaşdırma, proqramlaşdırma, Rusiyada Federalizmin inkişafının hüquqi bazasının təşəkkülü, vergilər, dövlət investisiyaları, elmi-texniki prioritetlərin birlikdə

maliyyələşdirilməsi məsələləri qeyd edilməlidir. Məşğulluğun səviyyəsinin qorunub saxlanması, işçi qüvvəsinin və kapitalın hərəkətliliyinin yüksəldilməsi, mülkiyyətin strukturlaşdırılması, sərbəst iqtisadi zonaların yaradılması metodları çox böyük əhəmiyyət kəsb edir.

Üçüncü bloka *iqtisadi sabitliyin,* əsas bazar subyektlərinin, yəni müəssisələrin, korporasiyaların, elmi idarələrin, digər ilkin təsərrüfat sistemlərinin bütün proseslərində xüsusi fəallığın *yüksəldilməsi ilə* əlaqədar metodlar qrupu daxildir. Bu metodlar struktur siyasətinin ilkin istehsal pilləsinin və elmi pillənin yenidən strukturlaşdırılması, iqtisadiyyatın sabit korporativ silsiləsinin formalaşdırılması, elmin, istehsalın və bazarın inteqrasiyası, istehsalda və bazar bölgüsündə iri və kiçik formaların nisbətinin optimallaşdırılması, qeyri-səmərəli istehsalatların təsərrüfat dövriyyəsindən çıxarılması, dünya bazarında xüsusi seqmentləri formalaşdıran yüksək texnoloji istehsalatların prioritet olaraq inkişaf etdirilməsi kimi mühüm istiqamətlərini həyata keçirməlidir.

Rusiya xalq təsərrüfatının struktur dəyişikliklərinin dövlət tənzimi mexanizminin üçüncü bloku 1997-ci ildən əsas, ən mühüm blok olmuşdur. O, dövlət hakimiyyəti orqanlarının xalq təsərrüfatının iqtisadi konstruksiyasının bazis elementlərinə selektiv yardım istiqamətlərinin müəyyənləşdirilməsini təmin etməlidir. Məhz bu "inkişaf nöqtələrinə" yardım göstərilməsi və qeyri-səmərəli müəssisələrin və istehsalatların təsərrüfat dövriyyəsindən çıxarılması 90-cı illərin ortalarında Rusiya Federasiyasının hökuməti tərəfindən düşünülmüş struktur yenidənqurmanın məğzini təşkil edir.

Rusiyanın indiki böhranlı iqtisadi gerçəkliyində xalq təsərrüfatının özəyi ola bilən və inkişaf sürəti qeyri-səmərəli istehsalatların tənəzzül sürətindən daha yüksək ola bilən və beləliklə, iqtisadi inkişafı təmin edə biləcək kifayət qədər hazır "inkişaf nöqtəsi" tapmaq mümkün deyildir. Buna görə də dövlət tərəfindən yuxarıda göstərilən vəzifələri yerinə yetirə biləcək, habelə dünya bazarlarında rəqabət qabiliyyəti olan müəyyən sahə yığımlı ilkin istehsal pilləsi strukturunun məqsədyönlü şəkildə "yetişdirilməsi" lazımdır.

Bununla əlaqədar olaraq hər bir sahədə bir neçə iri şirkət ("milli çempionlar") yaradılmasına yönəldilmiş struktur siyasəti yolu ilə məqsədyönlü şəkildə iqtisadiyyatların korporativ silsilələrini formalaşdırmış bir sıra ölkələrin, o cümlədən Fransanın təcrübəsi faydalıdır. Belə silsiləni kiçik və orta sahibkarlıq strukturlarının inkişafı ilə əlaqələndirərək dünya təsərrüfat əlaqələri sistemində səmərəli fəaliyyət göstərə bilən çevik milli iqtisadi orqanizm yaratmaq mümkündür.

İstehsal sahəsinin optimallaşdırılması meyarı hər bir iri şirkət ətrafında kiçik formalardan səmərəli təsərrüfat zonalarının formalaşdırılmasıdır. Dünya təcrübəsi hər bir sahədə bazar şəraitində bu formaların təxmini nisbətlərini hazırlamışdır.

Üçüncü blokun *əsas metodları* sırasına proqramlaşdırma, indikativ planlaşdırma, vergitutma, birbaşa subsidiyalar, dövlət subvensiyaları, müflisləşmənin həyata keçirilməsi üzrə tədbirlər, antiinhisar fəaliyyəti tədbirləri, dövlət investisiyaları, dövlət təminatları, azad iqtisadi zonalardan istifadə edilməsi, milliləşdirmə, reqressiv idxal rüsumları, xarici müəssisələrin satın alınması, investisiyaların qorunması, məqsədli beynəlxalq kreditlər, beynəlxalq təsərrüfat kooperasiyasının inkişaf etdirilməsi, müxtəlif normativlər, sürətli amortizasiya, müvəqqəti proteksionizm, güzəştli kreditləşdirmə, beynəlxalq lizinq, qiymətlərin tənzimlənməsi, nəzarət funksiyalarının həyata keçirilməsi, qiymətli kağızlarla və hər şeydən əvvəl səhmlərlə iş, dövlət sifarişi, kiçik sahibkarlığa yardım üzrə hər cür tədbirlər, rəqabət qabiliyyəti olan maliyyə sektorunun formalaşdırılması və inkişaf etdirilməsi tədbirləri daxildir.

Dövlət struktur siyasətinin həyata keçirilməsi metodlarının dördüncü, institusional bloku üç vəzifəni yerinə yetirməlidir. O, struktur dəyişiklikləri üçün ümumən daha əlverişli şərait yaratmalı, o cümlədən sahələr, regionlar, iqtisadi zonalar üzrə bir-birindən fərqli daha cəlbedici investisiya iqlimi formalaşdırmalıdır. Bu metod daha sonra bazarın proporsional və struktur əlaqələrə mənfi təsiri aradan qaldırmaqla yanaşı, həm də struktur transformasiyaların müsbət bazar tənzimləyicilərinin inkişafı üçün zəmin yaratmalıdır. Nəhayət, milli iqtisadiyyatda bütün struktur dəyişik-

liklərinin sosial yönümünü, struktur transformasiyanın sosial nəticələrinə cəmiyyətin nəzarətini təmin etmək lazımdır.

İnstitusional metodların məcmusu üçüncü blokun metodları ilə sıx bağlıdır, onları tamamlayır və zənginləşdirir. İnstitusional metodların sırasına normativ-hüquqi metodları, investisiya axınlarının tənzimlənməsi və investisiya resurslarının formalaşdırılması metodları, bazar özünütəşkil vasitələrinin (rəqabət, qiymətlər, tələbat) təsirini gücləndirmək üçün çərçivə şərtlərin məcmusu, antiinhisar tədbirlərin, təsərrüfat və maliyyə təsərrüfatı üzərində cəmiyyətin sosial nəzarət metodları, əməyin ayrı-ayrı növlərinin (elmi, muzdlu, sahibkarlıq, idarəetmə və s.) fərqli qaydada stimullaşdırılması metodları, məşğulluq səviyyəsinin saxlanması tədbirləri, regionlarda, sahələrdə rəqabət şəraitinin yaxınlaşması metodları, dövlət təminatları, informasiya təminatı, idarəetmə kadrlarının hazırlanması, innovasiya sahibkarlığının inkişaf etdirilməsi metodları, proqnozlaşdırma, innovasiya və investisiya fəaliyyətinin stimullaşdırılması metodları, qrup mənafeyinin nəzərə alınması, sosial standartların müəyyən edilməsi, inkişafın uzunmüddətli proqramlaşdırılması, konversiya və s. daxil edilə bilər.

Beləliklə, ümumi sosial-iqtisadi siyasətin bir hissəsi olan dövlət struktur siyasəti iqtisadiyyatın dövlət tənzimi sistemində xüsusi rol oynayır. Struktur dəyişiklikləri sənaye, investisiya, elmi-texniki, innovasiya, maliyyə, pul-kredit siyasətinin və s. tərkib hissəsidir. Buna görə də onun hazırlanması və həyata keçirilməsi təkcə hər hansı bir dövlət qurumunun qayğısı ola bilməz. Lakin icra hakimiyyəti sistemində əlaqələndirici orqanın olması zəruridir.

Struktur siyasətini dövlətin hakimiyyət orqanlarının milli iqtisadiyyatın struktur konstruksiyasını, onun elementlərini, bloklarını, onların proporsional asılılıqlarını və struktur əlaqələrini, habelə onların qarşılıqlı təsir qanunauyğunluqlarını görməsi, dərk etməsi və bilməsi, bu biliklərdən cəmiyyətin sosial-iqtisadi inkişafının əsas taktiki və strateji məqsədlərinə daha səmərəli surətdə nail olmaq üçün iqtisadiyyatın tənzimlənməsi üzrə praktik fəaliyyətdə istifadə etməsi səciyyələndirir. Bu nöqteyi-nəzərdən

struktur siyasəti xalq təsərrüfatının iqtisadi islahatında struktur amillərdən istifadə edilməsi mexanizmi kimi çıxış edilir.

Rusiyanın indiki şəraitində struktur deformasiyanın aradan qaldırılması, daxili və xarici bazarların tələblərinə uyğun olaraq struktur yenidənqurmanın həyata keçirilməsi ilə yanaşı iqtisadi dinamikanın və iqtisadi inkişafın canlanması üçün tədricən obyektiv (resurs) və subyektiv zəmin yaradılmalıdır. Struktur dövlət siyasəti öz-özlüyündə bunu edə bilməz. Müxtəlif istiqamətlər – struktur, innovasiya, investisiya, sənaye, sosial istiqamətlər üzrə birgə səylər göstərilməlidir. Lakin mütərəqqi struktur dəyişiklikləri müsbət iqtisadi dinamikanın artması üçün baza, əsas şərait yaradır. Odur ki, bu və ya digər dövrdə struktur siyasətinin nəticəliliyini yalnız sosial indikator dəyişiklikləri üzrə qiymətləndirmək o qədər də düzgün olmazdı. Struktur yenidənqurmaları zamanı bu dəyişikliklərə doğru istiqamətlənmək lazımdır. Lakin təkcə struktur amillərinin deyil, bir çox amillərin təsir göstərdiyi struktur dəyişiklikləri ilə sosial nəticələr arasında müvəqqəti əlaqənin olduğunu nəzərə almaq lazımdır.

Suallar və tapşırıqlar

1. Milli iqtisadiyyatın bir sistem kimi struktur mürəkkəbliyi nə ilə müəyyənləşdirilir?
2. İqtisadiyyat və təsərrüfat sistemi anlayışlarının sinonim olduqları barədə mülahizə doğrudurmu?
3. Regionların güclü iqtisadiyyatlarının güclü milli iqtisadiyyatı təmin etməsi fikri doğrudurmu?

Doğru cavabı *seçin:* a) bəli; b) heç də həmişə yox; c) xeyr.

4. İqtisadiyyatda proporsiya ilə struktur əlaqəsinin müxtəlif anlayışlar olması barədə mülahizə ədalətlidirmi?

Doğru cavabı *seçin:* a) bəli; b) xeyr.

5. Hansı tərif variantı dövlət struktur siyasətinin mahiyyətini daha tam əks etdirir?

a) struktur siyasəti - ictimai istehsalın və ya onun ayrı-ayrı pillələrinin (sahələrinin, dairələrinin və s.) prioritet inkişaf istiqamətlərinin, onların arasındakı nisbətin əsaslandırılması və seçilməsidir;

b) struktur siyasəti - xalq təsərrüfatının elementləri barəsində onların qarşılıqlı təsirini nəzərə almaqla hökumətin gördüyü kompleks tədbirlərdir.

6. Dövlət struktur siyasəti qanunvericilik aktları ilə təshih edilməlidirmi, yoxsa struktur dəyişiklikləri təmin etmək üçün praktik fəaliyyət məcmusu yetərlidir?

7. Dövlət struktur siyasətinin nəticəliyini sosial indeksatorların köməyi ilə ölçmək mümkündürmü?

8. Bu mülahizələr *doğrudurmu?*

a) struktur siyasətinin həyata keçirilməsi mexanizmi və struktur transformasiya mexanizmi eyni şeydir;

b) dövlət struktur siyasəti metodları struktur dəyişikliklərin bazar vasitələrini tamamlayır.

9. Struktur transformasiyanın dövlət tənzimi metodlarının əsas bloklarını göstərin. Hansı blok sosial nəticələrə və struktur irəliləyişlərin sosial metodlarından istifadə edilməsinə görə "məsuliyyət daşıyır"?

© Фоломйев А.Н. 2002

XII Fəsil

İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFININ İDARƏ EDİLMƏSİ

Cəmiyyətin həyatına dövlətin təsiri konkret makroiqtisadi hallarda səlahiyyətli idarəetmə strukturlarının qabiliyyəti, əhalinin yüksək həyat səviyyəsinin ahəngdar sosial münasibətlərinin, iqtisadiyyatın inkişafının sabit dinamikasının təmin edilməsi kimi əsas məqsədlərlə şərtlənir.

Bu təsərrüfat məsələlərinin məqsədləri əsasında formalaşan nəticələrin obyektiv zəminləri işgüzar fəallığa və təşəbbüsə, milli maraqlara və rifahının və ictimai həmfikirliyi təmin edən iqtisadi siyasətə arxalanan effektli iqtisadi inkişafa xidmət edir. Bazar münaksibətləri şəraitində onlar hüquqi və iqtisadi üsullardan istifadə etməklə dövlət tənzimləmə mexanizmi formasını alır.

1. Davamlı inkişafın məğzi nədədir?

Müasir düşüncədə təsərrüfat fəaliyyəti bütövlükdə cəmiyyətin artan tələbatı ilə obyektiv real imkanların təmin olunması arasında yaranan ziddiyyətlərin həlli istiqamətlərini özündə birləşdirir. İqtisadi cəhətdən cəmiyyətin həyatında olan praktiki proseslərin həyata keçməsi üçün bu və ya başqa üstünlüklərin əldə edilməsinin stimulları və idarəetmə gedişində meydana çıxan qarşılıqlı əlaqələri, səbəbləri dinamik sistem kimi iqtisadi əlaqələrin forması vasitəsi

kimi həyata keçməsinə zərurət yaradır. Onlar, tələbatın ödənilməsi və inkişafı mexanizmi haqqında nəzəri təsəvvürün inkişafına imkan yaradır və onları da «maraqlar» anlayışı ilə ümumiləşdirmək olar. Sonuncuların məcmusu iqtisadi siyasətin müddəalarının formalaşmasına və reallaşmasına təsərrüfat fəaliyyəti ilə idarəedici orqanların səylərini bir yerdə sənədləşdirən zəruri şəraitlərin və vəziyyətlərin məcmusunu əhatə edir.

İqtisadi proseslərin iqtisadiyyatın aktual məsələlərinin praktik səviyyədə reallaşması iqtisadi proseslərin dövlət tənzimləməsinin davamlı inkişaf modelinə keçməsini tələb edir. Bu zaman indiki və gələcək nəsillərin tələbatlarının ödənilməsi naminə sosial-iqtisadi vəzifələrin balanslı və təminatlı həllinə çalışmaq lazımdır.

Konseptual baxımdan iqtisadi davamlılıq müstəqil tənzimləmə sisteminin elə bir səviyyəsidir ki, bu zaman onun məqsədyönlü fəaliyyəti (davamlı inkişafı) təmin etməyə qabil olur.

BMT-nin ətraf mühit və inkişaf problemləri üzrə sənədlərində və 80-ci illərin ikinci yarısında çap olunmuş nəşrlərdə davamlılıq anlayışının meydana çıxması həyat fəaliyyətinin və kapitalın artırılma mənbələrinə uzunmüddətli tərəqqinin problemlərinə dair baxışlarının dəqiqləşdirilməsinə gətirib çıxartdı. Bu halda iqtisadiyyat, ictimai və ekologiya sahələrinin vəziyyətinin tənzimi ilə bağlı təsərrüfat sisteminin inkişafı da ənzərdə tutulurdu. Belə tənzimetmə iqtisadiyyatın bərpa olunmaz tənəzzül vəziyyətinə keçidinin qarşısını almağa istiqamətlənməlidir.

«Sustainable development» «davamlı inkişaf» söz birləşməsi Azərbaycan dilinə tərcümədə «sabit, təminatlı. Davamlı inkişaf» kimi məna yükü daşıyır. Belə yanaşma davamlı inkişaf vəziyyətinə olan diqqəti xüsusi qeyd edərək, praktik məsələlərin təşkilini geniş şərh etməyə imkan verir. Bununla da tərəqqi anlayışına istinad, hərtərəfli kateqoriya kimi yanaşılması sivilizasiyaların inkişaf modelinin yeni paradiqmasını müəyyənləşdirməyə imkan vermişdir.

Rusiya Federasiyasının davamlı inkişafa keçidi konsepsiyasında 4 fevral 1994-cü il RF prezidentinin №236 fərmanında «Ətraf mühitin mühafizəsi üzrə Rusiya Federasiyasının

dövlət strategiyası haqqında» qeyd edilib ki, keçid effektiv iqtisadiyyatın formalaşmasını zəruri edir, hansı ki, nəticə vahidlərinin alınması üçün minimum resursdan istifadə olunur. Təsərrüfat fəaliyyətinin sabit inkişafına ekoloji faktorun təsiri «adi biznesdə» aydınlaşdırılır, lakin bu şərtlə ki, bu biznes ekoloji cəhətdən istiqamətlənsin və bununla texnoloji cəhətdən təsərrüfat vəziyyətlərinin stabilliyini, yaşayış mühitini isə keyfiyyət xarakteristikası üzrə təmin edir.

Quruluşca iqtisadi davamlılıq ümumi təsərrüfat məqsədinin bir sıra aspektlərini sintezləşdirir. Onlar arasında resurslu təminat (xammal, kapital və işçi qüvvə) və zəruri əmtəə və xidmətlərinin nomenklaturasının yaradılmasının texnoloji imkanları var. Elmi-texniki yeniliklərinin və nailiyyətlərinin mənbəyi kimi intellektual potensial, həmçinin sivil iqtisadi əlaqələrin faktoru kimi maliyyə axımlarının lazımi stabilliyi əsas rol oynayır. Təsərrüfat sisteminin daxili və xarici mənbələrin mənfi təsirində lazımi qədər təhlükəsizliyi də zəruridir.

İnkişaf prosesinin yeni keyfiyyət cəhətdən fərqlənən səviyyələrə keçidi ilə bağlı dəyişikliyi təsərrüfat sisteminin vəziyyətinin ictimai-iqtisadi əlamətlərində xasiyyətnamələrin inkişafını və dəyişməsini misallarla aydınlaşdıran təkamüllü ardıcıllıqla təqdim etmək olar. Belə prosesin xüsusiyyəti əks hərəkətin bərpa olunmazlığı, mümkünsüzlüyüdür.

Milli iqtisadiyyatın davamlı inkişafı təsərrüfat işlərini aparan subyektlərin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası və onların dəyişikliklərinin istiqaməti, iqtisadiyyatla idarəetmə institutlarının vəziyyəti, iqtisadi əlaqələrin xarici mühitdə vəziyyəti kimi strateji vacib xarakteristikaların müvafiqliyindən asılıdır.

İqtisadiyyatın davamlı inkişafının maddi əsası təbii sərvətlər və onların ifadəsi texnoloji prosesləri iqtisadiyyatının stabil inkişafının maddi əsası kimi çıxış edir. Bu strukturun birinin məhvi və başqasının yaradılması onun vəziyyətinin iqtisadi parametrlərinin zəruri atributudur. Onları bu mərhələ üçün gözlənilən və gözlənilməyən daxili və xarici mənbələrin təsiri baxımından qiymətləndirmək lazımdır.

Təhlil gedişində bu şərtlərə nəzər yetirilməlidir. Beləliklə, əgər alınan mənfəət gözlənilən zərəri aşmırsa təsərrüfat fəaliyyətinə haqq qazandırıla bilməz. Belə halda təsərrüfat sistemini sabitliyinin itkisinin imkanları və mümkünlüyü ilə razılaşmaq lazım gəlir. Bu zaman məntiqi olaraq vurulan real zərəi ən aşağı səviyyəyə endirilərək qiymətləndirilməsi məqsədə uyğundur. Qərarların qəbuledilmə üsullarında iqtisadi cəhətdən təsdiq edilmiş preventiv tədbirlərin kompleksi, hansı ki, həyata keçirmək üçün hazırlanmış təsərrüfat məqsədinə nail olmada qabaqcadan nəzərə alınmalıdır.

İqtisadiyyatın davamlı inkişafı konsepsiyalarının və strategiyalarının formalaşmasının məntiqi yekunu bazar əlaqələrinin təsərrüfat strukturuna üzvi surətdə daxil olmuş mexanizminin hazırlanmasıdır. Dövlət tənzimlənməsi həyata keçməsi təsərürfat fəaliyyəti ilə idarəetmə strukturlarının institusional cəhətdən siyasi, ictimai və iqisadi şərtlərinin birləşmə vasitəsilə hüquqi və iqtisadi sisteminin yaradılması ilə təmin edir.

Bununla yanaşı taktiki və strateji məqsədlər, dövlətin maraqlarının uyğunlaşdırılmasının vacibliyi və mümkünlüyü və təsərrüfat işlərini aparan subyektlərin, keçmişi mirasdan bütün qiymətli olanların uyğunlaşdırılmasında, insanların bunlara bağlılığı və qiymətləndirmələri nəzərə alınmalıdır.

Hər bir ölkə olduqca dəyişkən və çox vaxt subyektiv təyin olunan iqtisadi davamlılıq potensialına malik olur. Bu potensial milli təsərrüfatın vasitələrini və ehtiyatlarını, təsərrüfat fəaliyyətinin effektivliyinin səviyyəsini, aparılan iqtisadi siyasəti, institusional idarəetmə təşkilini, xarici konyukturada olan dəyişikliklər və dünya iqtisadi liderlərinin davranışına adekvat reaksiya vermək iqtidarını, beynəlxalq maliyyə, siyasi və ictimai təşkilatlarda iştirakının səviyyəsini özünə daxil edir. Sabit inkişafın məqsədinin qoyulması ilə iqtisadiyyatın struktur islahatlarının təhqiqatının əsasını təşkil edən metoloji prinsipə iqtisadi vəziyyətin mahiyyətində onların asılılığını hesab etmək lazımdır. İqtisadi vəziyyətlərin sadə məntiqlə baxılması tədqiqatların tədrisinin əsasını qoya bilən bir sıra hissələri (və ya ikinci qaydanın prinsiplərini) seçməyə imkan yaradır.

Məkan-zaman ölçüsündə obyektiv zəruri tələbatların formalaşması, optimallığa yaxın ümumi ictimai rifahın təsərrüfat işlərini aparan iqtisadi maraqlarla uyğunluq tələbatların təmin etmə qiymətlərinin başlıca şərti kimi və əsas iqtisadi maraqların dürüst ifadə edilməsidir.

İqtisadi əlaqələrin yeni paradiqmasında dövlətin tənzimetmə mexanizmi hüquqi və iqtisadi metodları daxil edir.

İdarəetmənin hüquqi metodları dünya bazarının «Oyun qaydalarını» formalaşdıran dövlətin əsas qanunverici müddəalarına və beynəlxalq sazişlərin şərtlərinə arxalanırlar. Hüquqi dairə milli iqtisadiyyatın açıqlıq prinsipləri və sahiblik əlaqələrinin dəyişmə vasitəsi ilə ölkədə təsərrüfat məqsədlərinə nail olma proseslərini transformasiya edən tələblər, zəmanətlər, təəhhüdlər ilə doldurulur. Özəlləşmə-milliləşdirilmə və alqı-satqı yolu ilə sahiblik hüquqlarının dəyişdirilməsi mədəni, fəaliyyət göstərən qanunvericiliyin müddəalarına müvafiq forma əldə edir.

İdarəedici iqtisadi metodlar qarşılıqlı ödəniş-iqtisadi məsuliyyət, maliyyə intizam instrumentarilərini daxil edir. Onlar vergi əlaqələrini aktiv sistemini, əmtəə mübadiləsinin tənzimini və qiymət qoyulmasını ehtimal edirlər. Təsərrüfatçılıq edən subyektlər iqtisadi sabitlik və tarazlı ədalətin təmin edilmə məqsədlərində müxtəlif sığorta formaları, fəaliyyət növləri üzrə lisenziləşmə və onun təkmilləşmə yollarının təyin edilməsi və audit ola biləcək maneələrin aradan götürülməsi üçün təsərrüfat prosesinin vəziyyətini müstəqil ekspertlər tərəfindən dövrü yoxlanış üsulu kimi istifadə edilir.

Dövlət hakimiyyətinin institutları təsərrüfat fəaliyyətinə olan siyasi, iqtisadi və sosial təsiri mexanizminin mərkəzində yerləşərək, hüquqi normaların, qərarların qəbul qaydalarının və praktik hərəkətlərin tərtibi zamanı, operptiav-analitik məsələlərini təmin etmək iqtidarındadır. Bu cür zəmanət materiallarının mövcudluğu hər hansı səviyyəli və fəaliyyət sahəli təsərrüfatçılıq edən subyektlərə imkan verəcək ki, təsdiqlənmiş iqtisadi maraqlara və əmələ gələn təsərrüfat şəraitinə əsaslanaraq, vəziyyəti nəzərdən keçirsin və iqtisadi sabitliyi qiymətləndirsin.

2. Davamlı inkişafın meyarları və indikatorları

Konkret fəaliyyət sahəsində təsərrüfatçılıq edən subyektlərin səmərəli tələbatlarının və mənbələrlə lazımi qədər təminini yerinə yetirməyin determinələşməsi, iqtisadi sərbəstliyin elanı və mənəvi, ümumbəşər dəyərlərin istifadə azadlığı davamlı inkişafın «ölçülməsinə» olan baxışlarda müəyyənləşməyə məcbur edirlər. İlkin plana burada təsərrüfat fəaliyyətinin hesabat göstəricilərini statistik analizinin metod və vasitələrinin istifadə etmənin imkanlığı çıxır. Məsələlərə müvafiq ölçü üsullarının seçimində iqtisadi sabitlik kimi keyfiyyətli xarakteristikanın kəmiyyət təyininin imkanına əsaslanmaq lazımdır. Bununlu müasir iqtisadiyyata əsas etibarı ilə dinamizm xas olduğuna görə təsərrüfat fəaliyyətində həm zəif, həm də güclü oriyentirlər meydana çıxır.

Elmi ədəbiyyatın və populyar nəşrlərin məntiqinin daxili və xarici prinsiplərində, daha çox birinciliyə meyl edən, inkişaf proseslərinin tənqidi, daxili həcmi ilk öncə arzu edilməz tendensiyaların dəyişdirilməsi üçün idarəedici orqanların operativ müdaxiləsinin zəruriliyini təsdiq edir. Buna görə hamı tərəfindən təsdiq edilən son dərəcə, mümkün nəticələrə əsasən normativ kimi mənaların müəyyən edilməsi iqtisadiyyatın sabitliyinin səviyyəsinin qiymələrində təsərrüfatçılıq edən subyektlərin və siyasi qüvvələrin qarşılıqlı anlaşmasına səbəb olur.

İqtisadi davamlılığın normaları o zaman ki, nə vaxt təhlükə və güc təzyiqinə (blokada, embarqo, sanksiyalar) qarşı görülən tədbirlər iqtisadiyyatın inkişafının sabitliyinin sarsılma təhlükəsi ilə nəticələnə bilər. Madam ki, tsərrüfat fəaliyyəti əsas rolu icra edən insan əməyinin əlaqələrinin nəticəsi kimi iqtisadi sabitlik insan faktorundan-məsuliyyət və professionalizm asılıdır. Məsuliyyət geniş mənalı və miqyaslı təzahür kimi prosesin nizama salınmasında böyük əhəmiyyət əldə edir. Bu halda məsuliyyətin səviyyəsinin yüksəlməsi, mütləqdir, deməli, normativ bazanın yenidən təşkil edilməsi, mürəkkəb inteqral göstəricilərə keçidi və nəticədə həyat fəaliyyətinin vəziyyətinin dəyərləri haqqında təsəvvürü mütləqdir.

İqtisadi davamlılıq təsərrüfat sisteminin inteqral xüsusiyyəti ilə səciyyələnir. Buna baxmayaraq, onu cüzi və ya köhnəlmiş əlamətlər və kreditlərin köməyi ilə təhlil etməyi üstün tuturlar. Ümumiləşmə üçün ən çox ekspert qiymətlərinin metodları təklif olunur və üstün tutma formulları istifadə olunur. İqtisadi sabitliyin ümumiləşdirilmiş xarakteristikalarına müasirləşdirmə və diversifikasiyaya olan dərk etmə kimi istehsal etmənin mahirliyini, yeniliyə və yeniləşməyə istiqamətlənmə zamanı rəqabət aparma qabiliyyəti, mədaxillik parametrlərində ticarət fəaliyyətinin effektivliyini və maliyyə sabitliyini aid etmək olar. Sonuncu əmlak aktivlərinin həcminin, satılma əmsallarının, gəlir həcminin və onun bölgü strukturunun, istiqrazlı və şəxsi vasitələrinin ümumi dəyərlərinin xarakteristikalarını cəmləyir.

İqtisadiyyatın vəziyyətini zaman dövrləri üzrə müqayisə etmək üçün proqnoz xarakteristikalarının prioritetlik şkalalarından istifadə etmək məqsədəuyğundur. Eyni zamanda dövlət daxilində və xarici iqtisadi əlaqələrin ticarət sahəsində yığılan daha çox praqmatik məna əldə edən qarşılıqlı nisbətlər münasibdir.

İqtisadi fəaliyyətin əsaslarının və amillərinin proporsiya və nisbət diapozonu təkrar istehsal mövqelərindən dəyərlərin yaranması, mübadilə və istehlak etmə prosesində kifayət qədər geniş və müxtəlifdir. Retrospektiv ümumiləşdirilmiş rəqəmlər iqtisadiyyatın davamlılığı durumu arxasında problematik vəziyyəti qiymətləndirməyə imkan verir. Prioritetlilik bölgüsünə əsasən münasib göstəriciləri səviyyəsində baş verən dəyişikliklərin təhlili daha üstün meylləri müəyyənləşdirə bilər. İqtisadi göstəricilərin dinamikasının dəyişikliklərinin Monitorinqi qəbul edilmiş qərarların əsaslandırılması üçün əlavə informasiya mənbəyi hesab olunur.

Qiymətləndirici proseduraların mövcudluğu vasitələrinin tətbiq edilmiş alqoritm və proqramm üzrə praktik imkanlar üstün tutulan qərarların variantlarını müqayisə etməyə imkan verir. Təsərrüfat vəziyyətlərin proqnoz qiymətlərində risklərin təhlilində onlara xüsusi yer verilir. Davamlı inkişafdan kənar-

laşmanın vaxtında aşkarlanması və onlara olan müvafiq reaksiya qoyulmuş təsərrüfat məqsədlərinə çatma müvəffəqiyyətin mühüm şərtidir.

Perspektivə yönəldilən təsərrüfat sistemində mümkün olan və ya gözlənilən dəyişikliklər texniki-texnoloji, təşkilati, iqtisadi, sosial-siyasi xarakterlərinin obyektiv və ya vəziyyətindən asılı olan şəraitlə müəyyənləşir.

İstiqamətlərdən hər biri səbəb-nəticə asılılıqlarına uyğun olaraq proqnoz metodlarına əsaslanır. Onların tətbiqi gələcək nəticələrə keyfiyyətli və kəmiyyətli qiymətlər verməyə imkan verir. Rusiyanın müasir vəziyyətində iqtisadi davamlılığın təmin etmək üçün ölkənin iqtisadi həyatında olan dövlətin tənzimetmə rolu haqqında olan əsasən vacib müddəaları hərəkətə gətirmək lazımdır. İlk növbədə ölkənin iqtisadi potensiala uyğun olaraq iqtisadiyyat sahəsində dövlət funksiyalarının realizasiya mexanizmini işə salmaq gərəkdir. İstənilən şəraitlə uyğunlaşdırmaq lazımdır. Məsələn, ümumdövlət məqsədlərinə ayrılmış məbləğin miqdarı dövlət büdcəsinin davamlılıq ehtiyatına müvafiq olmalıdır. Eyni zamanda iqtisadi potensialı ictimai institutlarını fəallaşdırılması yolu ilə möhkəmləndirmək lazımdır.

Onların vəzifəsinə səlahiyyətli strukturlar tərəfindən mümkün olan özbaşınalığın qabağını almaq və korrupsiya və iqtisadi qanunu pozmalarla səmərəli mübarizə üçün şərait yaratma üzrə effektiv normaların və məhdudiyyətlərin təkmilləşdirilməsi daxildir. Əmtəə, xidmətlə və kapitala azad mübadilə zamanı mili təsərrüfat subyektləri üçün preferent rejiminin imkanlarını daha geniş istifadə etmək vacibdir. Nəhayət, iqtisadi fəaliyyətin mənfi formalarına, iqtisadi kontrabanda və terrorizmin müxtəlif məqsədlərinə qarşı effektiv müqavimət göstərməsi üçün dövlət metodlarının inkişafı və təkmilləşməsi son dərəcə lazımdır.

Davamlı inkişafın ideyası əsla təhlil üçün qəbul edilmiş göstəricilərin müəyyən səviyyədən daha yüksək və ya aşağı saxlanmasından ibarət deyil. Söhbət fəal həyat fəaliyyəti vektorlarına müvafiq olaraq onların dəyişmə meyllərini təmin

edən zaman tələbat və imkanlar arasında olan balansa nail olunmasından gedir.

Bu xarakteristika göstəricilərin kəmiyyət həcminin dəyişmə vektoruna yönəldilən iqtisadiyyatın mümkün olan vəziyyətini əks etdirən indikator (göstərici) vəzifəsini icra edir. Davamlı inkişaf əsas makroiqtisadi göstəricilərin (onların ən əsasları müxtəlif səviyyəsi büdcələrdə iştirak edirlər) inkişafda olan pozitiv dəyişiklikləri nəzərdə tutur. Məsələn, büdcənin mədaxil və məxaric hissələrinin qarşılıqlı əlaqələri və asılılıqlarının xarakteristikaları inkişafın meyllərini göstərirlər və onlar təklikdə indikator kimi istifadə oluna bilərlər. Təsərrüfat fəaliyyətində inkişafın dinamiklilik indikatoru kimi sosial-iqtisadi, eləcə də texnoloji xarakteristikaların dəyərləndirilməsi zamanı istifadə oluna bilər. İstehsal olunan ümumdaxili məhsul (ÜDM) iqtisadiyyatın bütün sahələrində fəaliyyətinin nəticəsindən asılıdır və iqtisadi fəallığın vəziyyətini əks etdirir.

İqtisadi tədqiqatların hər sahəsində indikatorların siyahısının seçimi və yenidən baxılması idarəetmə orqanlarının qəbulu üsullarından tənzimetmənin praktik məsələlərinin tərtibinə istiqamətlənməlidir. Lakin onun hüdudlarının hədsiz genişlənməsi son nəticənin seçimi və onun alınması üçün zəmanətlərin müəyyənləşdirilməsi zamanı qeyri-müəyyənliyin artmasına səbəb olur.

İnteqral göstəricinin parametrlərinin tarazlaşdırılmasına qarşı daha sərtləşdirilmiş tələblər yarana bilər. Bundan əlavə, istehsal və sosial texnologiyaların indiki səviyyəsində səmərəli təhlil aparmaq qeyri-mümkün ola bilər.

3. Qloballaşma şəraitində olan iqtisadi davamlılıq

Geoiqtisadi məkanın və dünya bazarının formalaşması təsərrüfat müvəffəqiyyətini artırmağa, ətraf mühitin keyfiyyətinə qayğısı olan narahatlığın təsirinin güclənməsi əldə olunmuş tələbatlarının sivill səviyyəsi, mili iqtisadiyyatın asılılığı fəlsəfəsinə əsaslanan baxışlar da

daha geniş istifadə olunur. Bu halda real yaranan təsərrüfatçılıq şəraitində əhalinin yaxşı həyat səviyyəsini təmin etmə üsullarını aşkara çıxarma cəhdləri edilir. Belə şəraitdə iqtisadi münasibətlər sərfəli əməkdaşlığın yaradılmasına, qarşıya qoyulmuş təsərrüfat məqsədlərinə nail olmaqda idarəetmə strukturlarının əməl və davranış səbəblərinə birgə nəzarətə istiqamətlənməlidir.

Dünya təsərrüfatı çərçivəsində mili maraqların təmini şəxsi təsərrüfat fəaliyyətini yaradılması və ölkə əhalisinin tələbatlarının təməli üçün münasib şəraitin yaradılması təxmin edilir.

Liderlik uğrunda mübarizə və rəqabt bütövlükdə beynəlxalq ixtisaslaşmanın və kooperasiyanın müxtəlif formalarının meydana çıxmasına, müxtəlif üsullarla rəqiblərin imkanlarının yatırtmasına və məhdudlaşdırılmasına stimul yaradır. Dünya təsərrüfatında birləşmə, davranış şərtlərini müəyyən edir və partnyorların siyasi və iqtisadi vəziyyətlərinin xüsusiyyətlərinin, nəzərə almağı təxmin edir.

Bu şəraitdə iqtisadi sərbəstliyin saxlanmasına və ölkələrin mili iqtisadiyyatının sabit inkişaf prinsiplərinə zidd olmayan əlaqələrin norma və rejimlərinin müəyyən edilməsində dövlət və dövlətlərarası institutların tənzimetmə rolu artır. Dünya iqtisadiyyatı məkanında təsərrüfat sisteminin hissələri, maraqların obyektiv təsadüf iqtisadarı ilə birgə təsir edərək, dil və təsir texnologiyalarını, təşkilatı strukturların və kommunikasiyanı tərtib edən özü-özünə təkrar istehsal edilən vəhdəti təşkil edir.

Nəticədə ümumdünya təsərrüfat inkişafının sərf və parametrləri tərtib edildilər, hansı ki, «oyun qaydaları» mənasını qazandılar. Mili iqtisadiyyatın təbii təşəbbüsü beynəlxalq mübadilədən maksimal mənfəət əldə etməkdədir. Lakin hamı tərəfindən qəbul edilmiş oyun qaydaları, iqtisadi qərarların onlar tərəfindən qəbulu öz düzəlişlərini daxil edirlər.

Müasir zamanın əsas sualına – iqtisadi yüksəlişin hansı faktorlarının vasitəsi ilə cəmiyyət sivill inkişafın normal şəraitinə müvəffəq ola bilər, - daha məqsədəuyğundur. Demokratik institutların əhəmiyyət prizmasından rifah və inkişaf etmənin dərəcəsi haqqında, zəhmətsevər və təşəbbüskar in-

sanlar tərəfindən zənginliyə nail olma imkanları haqqında düşünmək olar. Lakin insanların yoxsulluq səbəblərini və yaşayış mühitinin tənəzzülünü düşünərək, hansılar ki, iqtisadi qeyri-sabit vəziyyətindən asılıdır.

Təhlil etmək lazımdır ki, iqtisadi inkişafın maraqları ölkədə təsərrüfat fəaliyyətinin strateji istiqamətləri üzrə uzunmüddətli qərarların yeni praktik yanaşmaların axtarışını tələb edir. İqtisadi sabitliyin təmini üçün dünya iqtisadiyyatına daxil olma zamanı, dövlət tənzimi olmadan keçinmək mümkün deyil. O, başlanğıc vəsaitlərin və yüksək keyfiyyətli xidmətlərin yüksək dərəcəli emalı əmtəə hasilatının əsas hissələrini təmin edən, eksportun optimal strukturunu təşkil etmək iqtidarındadırlar. Nəzərdə tutulmuş mənfəətə nail olma cəhd və vasitələrin lazımi təmərküz nəticəsində dünya bazarında eksport üçün əmtəə taxçalarını daha perspektiv olanları, mövcud rəqib üstünlüklərinə əsaslanaraq, aşkara çıxarılmasına və müəyyən məqsədə yönəlmiş yiyələnmədə həlledici rol məhz dövlətə məxsusdur.

O, mili maraqlara cavab verən istehsal kooperasiyasının, injinirinqin, lizinqin, formalarını dəstəkləyir və inkişaf etdirir. Xarici partnyorlar, dövlətlərarası birliklər və beynəlxalq ticarət – iqtisadi təşkilatlara əlaqələrdə münasib ticarət rejiminə müvəffəq olmasında əsas yer ona məxsusdur.

Nəhayət, borclu olan ölkələri dövlətlər və kreditor – təşkilatlarla valyuta-maliyyə əlaqələrinin uzunmüddətlilik əsasında tənzimetmə zamanı dövlətin iştirakı olmadan keçinmək olmaz.

Geoiqtisadi məkanın formalaşması ilə ticarət, mübadilə surətidə dəyişilir. Bunlar xarici iqtisadiyyatın və investisiyaların daha üstün tutulan müxtəlif formalarının olduğu sahələrə kapitalın yerini dəyişməsini mili iqtisadiyyata əhəmiyyətini qeyd edir. İkincisi, dünya müharibəsinin başlanmasından 40 il əvvəl dünya ticarətinin həcmi 2 dəfə, müharibə qurtardıqdan 50 il sonra isə 30 dəfə artmışdır.

Bununla da ildə orta hesabla əhalinin adambaşına 400 ABŞ dollar təşkil etmişdir. Kapitalın ixracı birinci halda 33%-dən çox, ikinci halda isə hər 6-7 ildən bir iki dəfə artırdı. 90-cı illərin ortaları onun həcmi 1,2 trln.aşdı (kreditlər, vasitəsiz və

portfel investisiyaları). Yeni dünya vəziyyətində dünya gəlirində öz payına dövlətlərin iddiaları kimi, artan tələbatlara cavab verən əmtəə vəxidmətləri təşkil etmək iqtidarı da böyük əhəmiyyətə malik olurdular.

Dünya ümum məhsulunda 2000-ci ildə Rusiyanın payı 1,2% qiymətləndirildi, hansı ki, onun iqtisadi potensialının (təbii sərvətlər, mülki sərvətlər, insan potensialı) imkanlarına müvafiq deyil. Ölkədə təsərrüfat fəaliyyətinin vəziyyətinin dinamikliyinin yüksək göstəricilərə müvəffəq olma məqsədləri bu potensialın reallaşmasının miqyas və dərəcələri zəruridir.

İqtisadi sabitliyi müəyyən məhsula dünya bazarında olan stabil tələbat kimi əlaməti ilə də qiymətləndirmək olar. Məsələn, bu kimi təchizatı (daş-qaş cavahiratlarının, bir sıra əlvan malların, enerji daşıyıcılarının) və ya konkret xidmət növlərinin göstərişi (idrak və ya idman turizmi, müalicəvi-sağlamlaşdırma xidmətləri, elmi tədqiqatlar və ya praktik olaraq yönəldilmiş məqsədlərin həyata keçməsi üçün ərazinin istifadəsi). Lakin ölkənin iqtisadiyyatının həqiqi mənada stabil inkişafı onun sivilizasiyalı inkişafına səbəb olan və elmi nailiyyətinə əsaslanan yeni təkliflərin perspektivliyinə görə qiymətləndirilməlidir.

Bu gün informasiya texnologiyalarını, kompüter və aerokosmik məhsulunu, reaktorları, konstrusion materiallarını təchiz edən 50-yə yaxın makrotexnoloji sistemləri formalaşdıran elm həcmli məhsulun bazar istiqaməti hesab olunur. Məhz bunlar bazar iqtisadiyyatının inkişafının gələcəyini müəyyən edir.

Dünya bazarının həcmi hər 15 ildən bir ikiqat artma ilə 2 trilyon dollardan artıq qiymətləndirilir. Rusiyanın 10-15 makrotexnoloji sistemləri üzrə səviyyəli rəqabətli mübarizə aparmaq üçün bütün əsas başlanğıcı olan elmi-texniki ilkin şəraitləri var. Onlardan daha üstün tutulan rəqabət şansları üzrə, 1995-ci ildə məhsul bazarı 22,5 mlrd. dollar həcmində, 2010-cu ilə kimi 94-98 mlrd. və 2015-ci ilə kimi 180 mlrd. dollar yüksəlmə tendensiyası ilə qiymətləndirilirdi.

Elm həcmli istehsalatların məhsulu bazar vəziyyətinə xüsusilə reaksiya verir. Bu təzələmə imkanlarının aşkarlanmasına olan marağın inkişafına təsir edir. Təsərrüfat fəaliyyətində

müvafiq şərtlər iqtisadi sabitliyin innovasion – investisiya faktorlarından asılıdır.

4. Beynəlxalq iqtisadi təşkilatların rolu və təsiri

Dövlətin iqtisadi siyasətinin xüsusiyyətləri və beynəlxalq əmək bölgüsünün tarixi təcrübəsi dünya və milli bazarlarda əmtəə, xidmət və kapital mübadiləsindəki fərqləri ilə müəyyənləşdirir. Dünya bazarında beynəlxalq ticarətin azadlıq prinsipinin elan və həvəsləndirmə zamanı maksimal dərəcədə mənfəət qazanmağa təbii cəhdləri şəxsi daxili bazarının güclü rəqiblərindən, beləliklə, şəxsi iqtisadi agentlərindən və istehsalçılarından istisna etmir.

Bu şəraitdə birgə tədbirlərin müəyyən edilməsi üçün xüsusilə danışıqlar prosesində, iqtisadi əlaqələrin hökumətarası tənzimlənməsinə arxalanaraq, mili maraqları sivill şəkildə müdafiə etmək məqsədəuyğundur. Mili iqtisadiyyatların bir-birindən asılılıq şəraitində beynəlxalq təşkilatların nizamnamələri ilə şərtləndirilmiş iqtisadi konkret və mübahisələrin xüsusi həll etmə üsullar sistemi olduqca effektiv oldu.

Xüsusən, iqtisadiyyatda müxtəlif «çəkiyə» malik olan ölkələr arasında problemlərin yaranması zamanı beynəlxalq ticarət sahəsində Ticarət və tariflər üzrə əsas razılaşma (TTƏR) çərçivəsində proseduralar əlverişliliklə də əsaslanmalıdır. İlk əvvəl xidmətlərlə ticarət haqqında saziş hissəsində, maliyyə məhsulları ilə ticarət daxil olmaqla 1995-ci ildən ƏƏTR-in varisi – Ümumdünya ticarət təşkilatının (ÜTT) – kompetensiya sahəsi genişlənmişdir. ÜTT-in beynəlxalq institutu kimi onların hüquq bərabərliyi pozulmamış xarakterini təmin etmə məqsədi ilə əlaqələrində öz «oyun qaydalarına» əməl olunmasına istiqamətlənməlidir. Bu məqsədlə dünya təsərrüfat miqyasında rəqabətin şərtlərinin bərabərsizləşdirilməsi elan edildi. Metodlar şəklində ümumi standartların istifadəsi ilə onların tənzim etmə mili qaydalarının və sistemləşdirmə yolu ilə xarici ticarət

və maliyyə-valyuta əlaqələri sahəsində məhdudiyyətin ləğv edilməsi və liberallaşma mühakimə üçün əsas götürülür.

ÜTT-ə qoşulmaq dövlətin iqtisadi siyasətinin cəlbedici aspektlərindən biridir. O, açıq çoxsahəli ödəmə və ticarət sistemində tam hüquqi iştirakına imkan yaradır. Lakin təşkitala giriş müəyyən şərtlərlə müşayiət edilir, hansılar ki, mili iqtisadi maraqlarla müqayisə etmək lazımdır. Onların qəbulu mili iqtisadiyyatda tarif və qeyri-tarif dərəcəsinə görə Rusiya Hökumətinin qərarlarına maliyyə-valyuta əlaqələri sahəsində əməkdaşlıq məqsədi ilə Beynəlxalq Valyuta fondu (BVF) yaradılmışdır.

O, daimi təməldə fəaliyyət göstərir və «beynləxalq valyuta problemlərinin həlli üçün konsultasiya və qarşılıqlı təsir mexanizmini» təmin edir, adekvat zəmanətləri riayət edən müvəqqəti əlaqədar olan ölkələrə sərvətləri təqdim edir. BVF beynəlxalq kreditlərin koordinatoru və iştirakçı ölkələrin ödəmə iqtidarının qarantı kimi rolu müəyyən edilib. Dünya valyuta sisteminin əsası stabil olmayan kurslar və çoxvalyutalı standartlardır. Zərurilik şəraitində maliyyə valyuta böhranının dayandırılması üçün BVF valyuta bazarında mübadilənin keçirilməsi üzrə öhdəliyi qəbul edə bilər. Onun fəaliyyətinin mühüm istiqaməti həmçinin valyuta-kredit statistikasının təkmilləşdirilmə və öhdəliklər üzrə müqayisəni əmələ gətirməyə imkan verən standartların tərtib edilməsindən ibarətdir.

BVF-da üzvlük ümumdünya bankının qrupuna daxil olmanın vacib şərti hesab olunur. Ümumdünya bankının qrupuna Beynəlxalq yenidənqurma və inkişaf bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Zəmanət və investisiyalar üzrə çoxsahəli agentlik daxildir. BVF kredit investisiya fəaliyyəti beynəlxalq ticarətin uzunmüddətli böyüməsinin stimul yaratma ödəmə təəhhüdünün tarazlaşdırılmasının dəstəklənməsinə yönəlmişdir.

Beynəlxalq maliyyə təşkilatlarının imkanları qətidir və onlarla əlaqələrin nizama salınması ölkənin kredit ödəmə qabiliyyətinin artmasına səbəb olur. Lakin bu institutlar vəsait ayırdıqda, son dərəcə sərt şərtlər irəli çəkirlər və onların əməl edilməsinə ciddi nəzarət edilir.

Real kömək rəsmən bildiriləndən olduqca az təşkil etdiyi istisna deyil. Beləliklə, Qərb ekspertlərinin fikrincə, Rusiya barəsində Qərb ölkələrinin yekun Ümummilli məhsulun (ÜMM) 0,1%-dən artıq məbləğdə kreditlərin verilməsi haqda vəd icra olunmasıdır. Bütövlükdə iddia etmək olar ki, kredit verənlər bunu sərfəli hesab edənə qədər kreditlər verilir. Beləliklə, maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələr mili prioritetlərə, o cümlədən onların kapitalını mili iqtisadiyyata cəlb etmədən, iqtisadi mənfəətə nail olma və beynəlxalq ödəmə imkanlarına riayət etmə məqsədləri zəruridir.

Dünyada kredit vermə və investisiya fəaliyyəti ilə bağlı olan siyasi və təsərrüfat durumunun müxtəlifliyi, borca baxılma qaydalarının formalaşması, o cümlədən borclu olanların üzərinə götürdükləri öhdəliklərin əməl olunmasına məcbur etmədən asılıdır. Təşkilati cəhətdən qarşılıqlı münasibətlər kommersiya bank və təşkilatlarını London klubuna, borc verən dövlətləri isə Paris klubuna birləşdiriblər, hansına ki, kreditor kimi Rusiya da daxildir.

Klublarla razılaşmalar əsas borcların hesabı bağlı əsas tələb saxlanılmaq şərti ilə iqtisadi maraqları nəzərə almaq prinsipləri üzərində qurulur. Belə münasibətlərin əsasına resutrukizasiya ideyası qoyubul, yəni güzəşt müddətinin verilir ki, bu zaman yalnız ödəmə müddəti keçmiş faizlər ödənilir.

Restrukturizasiya ideyası ölkədəki faktiki vəziyyətin təhlili və ya müəyyən şərtlərdə borcun bir hissəsinin hesabdan silinməsi haqqında qərarların qəbul etmə imkanlarının vasitəsi ilə reallaşır. Klublarda razılaşma və BVF-nin kredit xətti arasında rəsmi olmasa da, sıx əlaqə mövcuddur. Bu əlaqə, borc, ya birinci kredit sazişinin sərt şərtlərinə müvafiq olaraq alına bilər, ya da müəyyən zəiflik göstərmələrinin mümkün olmasında büruzə verir.

Təsərrüfat subyekti kimi müstəqil dövlətin inkişaf yolları olduqca mürəkkəb ziddiyyətlidir. Ona görə də qarşıdakı hadisələrin, xüsusən də mili iqtisadiyyat üçün neqativ sonluqlarla nəticələnə bilən hadisələrin qəbul oluna bilinməsi lazımi səviyyədə qabaqcadan xəbər vermək olduqca çətindir.

Dünya təsərrüfat əlaqələrində iqtisadi münasibətlər dünya bazarında onlara məxsus olan mili maraqların təmininin müsbət və mənfi nəticələrinin qeyri-müəyyən vəziyyət xarakteristikaları ilə partnyorluq xarakterini əldə edir.

Böyük və müxtəlif daxili bazarın mövcudluğu və yüksək iqtisadi potensial Rusiyanın vacib milli sərvətidir. Onun saxlanması, regionların istehsal ixtisaslaşmasından effektiv istifadə mili iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

Dövlət azad ticarət prinsipləri ilə razılığını elan edərək beynəlxalq iqtisadi təşkilatlara daxil olan zaman dünya bazarının ümumi qaydaları üzrə mili maraqlarını fəal surətdə müdafiə etmək imkanı qazanır.

Bu halda milli iqtisadiyyatın davamlı inkişafının başlıca vəzifəsi ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi ilə bağlı milli taktikanın reallaşdırılması müvafiq iqtisadi siyasətin strateji müdaxiləsinin hazırlanması və dövlət tənzimlənməsinin faktiki göstəricilərini müəyyənləşdirməkdən ibarət olur.

Suallar və tapşırıqlar

1. Davamlı inkişafaf keçid probleminin həllində dövlətin iqtisadi maraqlarının mahiyyəti və məzmunu.
2. Tarixən «Davamlı inkişaf» söz birləşməsi resurs potensialının vəziyyətinin təhlili ilə bağlıdır. Bu ilk dəfə hansı klubun işlərində nəzərdən keçirilmişdir. Roma? Paris? London?
3. Bu fikirlərin hansı doğrudur? Milli iqtisadiyyatın davamlılığı hər şeydən əvvəl şərtlənir – iqtisadi maraqlar sistemi ilə, xarici mühitdə formalaşan situasiya ilə və onun institutları ilə – xarici ticarət münasibətlərində güzəştlər sistemi ilə daha əlverişli şəraitlə ali təhsilli kadr hazırlığının sürətləndirilməsi.
4. Aşağıdakı davamlı inkişaf parametrlərini təsərrüfat fəaliyyətinin hansı sahəsinə aid olduğunu göstərir:

istehsalın çevikliyi, qiymətin əmələ gəlməsi, təbii tarazlığın və çoxnövlülüyün təmin edilməsi, həyat səviyyəsinin lazımi keyfiyyətinin təmin edilməsi, rəqabət qabiliyyətinin təmin edilməsi.

5. İqtisadi davamlılığının itirilməsinin hansı nəticələrinin iqtisadi fəaliyyətinin göstəriciləri ilə əlaqələndirmək olar – əhalinin alıcılıq qabiliyyəti ilə, işçizliyin səviyyəsi ilə, əsas fondların aşınma dərəcəsi ilə, kreditlərin və borcların, yaxud onların məcmuu ilə?
6. Davamlı inkişafın təmin edilməsi baxımından iqtisadi idarəetmə metodlarının reytinq qiymətləndirilməsini müəyyənləşdirin.

© Колосов А.В. 2002

XIII Fəsil

SOSİAL-İQTİSADİ İNKİŞAFIN PLANLAŞDIRILMASI VƏ PROQNOZLAŞDIRILMASI

Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi yalnız bu gün onun səmərəli fəaliyyətinin təmini məqsədini güdmür, o həm də gələcək nəsillərin maraqları üçün onun inkişafını zəruri edir. Dövlət müasirliyin tələtümlü dənizində böyük gəminin kapitanı rolunu oynayır. Kapitalın vəzifəsi gəmini sualtı qayalardan qorumaqla, verilmiş kurs üzrə nəzərdə tutulmuş məqsədə (hədəfə) çatdırmaqdır. Bunun üçün gələcəyi qabaqcadan görmək, orada mümkün olan təhlükələrdən sovuşmaq, strateji kursu düzgün seçmək və həmin kursla gəmini qətiyyətlə idarə etmək lazımdır. Strateji idarəetmə ustalığına bütün dövlət məmurları malik olmalıdırlar və ilk növbədə, yüksək rütbəli rəhbər işçilər daha böyük məharət göstərməlidirlər.

1. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi üsulları

Heç bir təsərrüfatda strateji qərar, strateji və taktiki prioritetlər (birinciliyi) seçilmədən, onların realizəsi üzrə məqsədyönümlü işlər görülmədən, yəni onların nəticələrini əvvəlcədən görmədən qəbul edilə bilməz. Bunun üçün belə sınanılmış alətlərdən, necə ki, proqnozlaşdırma, strateji və indiqativ planlaşdırmalardan, ölkənin və onun tərkib hissələri olan regionların sosial-iqtisadi inkişaf

proqramlaşdırmalarından istifadə edilir. Bununla da dövlət yalnız iqtisadi həyatın ümumi tənzimlənməsi funksiyasını yerinə yetirmir, o həm də ölkənin inkişaf perspektivini və onun dünya iqtisadiyyatı təsərrüfatında yerini nəzərə almaqla struktur irəliləyişləri istiqamətini və innovasiyasının inkişafını müəyyənləşdirən strateji-innovasiya funksiyasını icra edir.

Proqnozlaşdırmanın funksiyası və rolu. Proqnozlaşdırma, yəni mikro və makro səviyyələrdə iqtisadiyyatda gələcəkdə mümkün olan dəyişikliklərin inkişafını və nəticələrini qabaqcadan görmək hər bir təsərrüfatçılıqla məşğul olan agentin işidir. Araşdırdığımız halda söhbət dövlət proqnozlaşdırılmasından, yəni müxtəlif idarəetmə səviyyələrində dövlət və bələdiyyə orqanlarının iqtisadiyyatın gələcəkdə inkişafını və onun nəticələrini qabaqcadan görməklərindən gedir.

Bazar iqtisadiyyatının dövlət tənzimlənməsində proqnozlaşdırma üç əsas funksiyanı yerinə yetirir. Bu birincisi, hər şeydən əvvəl, cəmiyyətin transformasiyası istiqamətində və ümumdünya dinamikası konteksində ölkə və regionun sosial-iqtisadi inkişafının mümkün tendensiyasını əvvəlcədən görməkdir. İkincisi, bu sosial-iqtisadi, elmi-texniki, ekoloji və xarici iqtisadi əlaqələrin inkişafı sahələrində qəbul edilmiş strateji və taktiki qərarların variantlarını və alınacaq nəticələri qabaqcadan düşünmək, duymaqdır. Proqnozlaşdırmanın üçüncü funksiyası ona görə zəruridir ki, o daxili və xarici bazarın yeni konyukturası (vəziyyəti və ətraf mühitin şəraitinin dəyişməsi, eləcə də yaranmış mövcud şərait tələb edirsə, onda qəbul edilmiş qərarların ləğvini və ya onlara vaxtında düzəlişlərin edilməsini təmin edir.

İqtisadi və sosial inkişaf çoxşaxəli, çoxamilli və ziddiyyətlidir. Ona görə də, adətən proqnozalr bir neçə variantlarda (ssenaridə) tərtib edilir ki, bütün mümkün dəyişilmələri qiymətləndirmək imkanı əldə edilsin. Bu xüsusilə iqtisadi sistemlərin inkişafının böhranlı mərhələlərində, keçid şəraitində daha vacibdir, çünki həmin anlarda iqtisadi sistem daha dayanıqsız olur və bəzən kifayət qədər təsadüfi hadisələr nəticəsində situasiyalar kəskin dəyişə bilir. Məhz belə vəziyyət XX əsrin 90-cı

illərində Rusiyada və digər keçmiş sovet respublikalarında yaranmış müstəqil ölkələrdə baş vermişdir, həmin ölkələrin iqtisadiyyatında xaotiklik, gözlənilməyən mürəkkəb hadisələr müşahidə edilmişdir.

Mərkəzləşdirilmiş-planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid proqnozlaşdırmanın rolunu və əhəmiyyətini xeyli artırdı. Əvvəllər əsas qərarlar ittifaqın mərkəzində qəbul edilirdi və onlar belə uzunmüddətli proqnozlara söykənirdi: elmi-texniki tərəqqinin kompleks proqramları və onun sosial-iqtisadi nəticələri 20 il üçün hesablanırdı; ölkənin məhsuldar qüvvələrinin inkişafı və baş yerləşdirmə sxemi isə 15 il müddət üçün nəzərdə tutulurdu. İndiki dövrdə isə ağırlıq mərkəzi müəssisələr, təşkilatlar, banklar, holdinqlər səviyyəsindədir ki, onlar təsərrüfatı idarə etmək qərarlarını çıxarır, həmin qərarların yerinə yetirilməsində və alınan nəticələrə görə məsuliyyət daşıyırlar.

Ancaq hər bir sahibkarın milli və dünya iqtisadiyyatı sahələrində baş verən dəyişiklikləri və böhranlı halları qabaqcadan görməsi və duyması, sözsüz ki, onun imkanları daxilində deyildir. Bu səbəbdən proqnozların etibarlılığına və əsaslandırılmasına, onların sahibkarlara çatdırılmasına görə dövlət orqanlarının və elmi təşkilatların rolu və məsuliyyəti artmışdır.

Rusiyada 20.07.95 il tarixli №115-F3 saylı federal qanuna əsasən dövlət proqnozlaşdırılmasının işlənib hazırlanması İqtisadi İnkişaf Nazirliyinin öhdəsinə düşür və Rusiya hökumətinin təqdimatında Dövlət Dumasına uzunmüddətli perspektivdə (10-15 il), orta müddətli perspektivdə (3-5 il) və növbəti il (həmin il üçün federal büdcə layihəsi ilə birlikdə) üçün Rusiya Federasiyasının sosial-iqtisadi inkişafının proqnozları müzakirəyə verilir.

Strateji və indiqativ planlaşdırma. Dövlət orqanlarına proqnozlar, hər şeydən əvvəl, uzun müddətli və orta müddətli dövr üçün inkişafın strategiyasını və prioritetlərini əsaslandırmaq, yəni strateji planlaşdırma üçün vacibdir. Bazar iqtisadiyyatının strateji planlaşdırılmasının üç əsas funksiyasını fərqləndirirlər. Birincisi, daxili tələbatları, inkişaf və transformasiya

məsələlərini nəzərə almaqla, eləcə də qloballaşan iqtisadiyyatda dünya sivil məkanında ölkənin yerini müəyyənləşdirməklə onun sosial-iqtisadi inkişafının perspektiv məqsədlərinin təyin edilməsidir. İkincisi, dövlətin məhdud imkanları və ehtiyatları daxilində, birinci növbəli tələbatların perspektivdə nəzərə alınması ilə sosial-iqtisadi, elmi-texniki, innovasiya və ekoloji inkişaf məqsədlərinə nail olunmasına şərait yaradan strateji prioritetlərin seçilməsidir. Üçüncüsü, seçilmiş prioritetlər sistemlərinin realizəsinə sosial-iqtisadi mexanizmlərin işlənib hazırlanması və bunun üçün sosial-iqtisadi inkişafın birbaşa və bilavasitə dövlət tənzimlənməsindən istifadəsidir.

Rusiyada ilk dəfə strateji planlaşdırma üsullarından 1918-ci ildə (keçmiş SSRİ-nin yarandığı ilk illərdə) QOELRO planının təsdiqi və həmin planın realizəsində, sonralar XX əsrin 20-ci illərində N.D.Kondratyevin rəhbərliyi ilə kənd və meşə təsərrüfatlarının beşillik inkişaf planlarının layihələrinin hazırlanmasında, daha sonralar isə SSRİ xalq təsərrüfatının inkişafının birinci beşillik planın layihəsinin iki variantda hazırlanmasında istifadə edilmişdir. Sonralar SSRİ xalq təsərrüfatının müharibəyə qədər və müharibədən sonrakı dövrlərində ölkənin sənayeləşdirilməsində, müharibədən sonrakı illərdə bərpa və texniki yenidənqurma işlərində mühüm rol oynamış beşilliklərin bir variantlı layihələrinin işlənib hazırlanmasında bu üsullardan geniş istifadə edilmişdir. Lakin vaxt keçdikcə SSRİ-nin strateji planlaşdırmalarında volyuntarizm, təcrübəçilik (empirizm) və inzibatçılıq elementləri üstünlük təşkil etməyə başladı, beşillik planlar tam yerinə yetirilmədi və həmin planlaşdırma layihələrdən daha az səmərələr əldə edildi.

Keçən əsrin 90-cı illərində bazar islahatları əvvəlki strateji planlaşdırma mexanizmlərinin dağılması ilə başladı. Dövlətin iqtisadiyyata müdaxiləsini hər yolla azaltmağa cəhd edilsə də, ancaq yeni, bazar iqtisadiyyatı şəraitlərinə adekvat olan yeni mexanizm yaradılmadı. 20.07.95 il tarixli №115-F3 saylı federal qanunla strateji planlara baxılmışdır (uzun müddətli dövrdə RF sosial-iqtisadi inkişaf konsepsiyaları, orta müddətli dövrdə sosial-iqtisadi inkişaf proqramları). Ancaq onlar yalnız

nazirliklərin isti otaqlarında işlənib hazırlanmış, təsdiq edilməmişdir və onların yerinə yetirilməsinə heç kəs cavabdeh deyildir. Real strateji planlaşdırmanın olmaması dövlətin Rusiya iqtisadiyyatının transformasiyasına və onun perspektiv inkişafına təsiri imkanlarını məhdudlaşdırır.

İndiqativ planlaşdırma əsasən taktiki əhəmiyyət daşıyır, strateji planların və prioritetlərin realizəsinə yönəlmişdir və dövlət büdcəsi ilə qırılmaz bağlıdır. İndiqativ planlaşdırma direktiv planlaşdırmadan yalnız göstərici və normativlərin böyüdülməsinin xarakteri və saylarının azaldılması ilə fərqlənmir, həm də onun tərkibinə daxil olan indikatorlar şəxsi və qarışıq müəssisələr üçün mütləq, məcburi xarakter daşımır, onlar üçün səmtləndirici, yönəldici kimi qulluq edir. Dövlət sektoru müəssisələri üçün və dövlət idarəetmə orqanlarından ötəri isə bu göstəricilər mütləq xarakter daşıyır. İndiqativ planlaşdırma praktikası SSRİ-də ilk dəfə XX əsrin 20-ci illərinin ortalarında istifadə edilməyə başlamış və növbəti il üçün xalq təsərrüfatı inkişafının yoxlama rəqəmləri formasında daxil edilmişdir. Qeyd edək ki, bu planlaşdırma əksər xarici ölkələrdə geniş istifadə edilir.

Bazar iqtisadiyyatında indiqativ planlaşdırmanın funksiyası nədir? Birincisi, o ümumiləşmiş göstəricilər və normativlər (indiqatorlar) sistemini təyin etməyə imkan verir, həmin göstərici və normativlər, yəni indikatorlar federal, regional və bələdiyyə səviyyələrdə sosial-iqtisadi inkişafın əsas parametrlərini xarakterizə edir, strateji planların prioritetlərini konkretləşdirir və realizə edir. İkincisi, göstərilən indiqatorların federal, regional və yerli büdcələrlə bağlılığını həyata keçirir ki, bu da indikatorların və onlara dövlətin müdaxiləsini daha konkret və real edir. Üçüncüsü, bu planlaşdırma indikator planları ilə müvafiq iqtisadi vasitələri (rıçaqları) hərəkətə gətirir. Bu isə istənilən mülkiyyət formalı müəssisəni indikativ planın realizəsinə qoşulmağa həvəsləndirilməsini gücləndirməyə şərait yaradır.

Proqramlaşdırma. Sosial-iqtisadi inkişafın proqramlaşdırılması dövlət tənzimlənməsinin üsulu kimi strateji və

indiqativ planlaşdırmaya nəzərən daha dar və konkret xarakter daşıyır. O, seçilmiş strateji prioritetlərin realizəsindəki qüvvə və vəsaitlərin təmərküzləşdirilməsi (bir yerə toplanması, yığılması) üçün istifadə edilir. Məqsədli proqram sosial, iqtisadi, elmi-texniki və ya ekoloji inkişafın prioritetlərinin verilmiş müddətdə və ən böyük səmərə ilə realizəsini təmin edən, məqsədlər, ehtiyatlar və müddətlər üzrə qarşılıqlı əlaqəli tədbirlər sistemidir. Məqsədli proqramlaşdırmalar strateji idarəetmənin özəyi olub, bazar iqtisadiyyatında belə mühüm funksiyaları – böyük strateji vəzifələri həll etməyə imkan verən sosial-iqtisadi inkişafın düyün nöqtələrini (prioritetlərini) aşkarlamağı, məhdud saylı strateji vəzifələrin həllində qüvvə və vəsaitlərin təmərküzləşdirilməsini, proqramlar arasında qarşılıqlı bağlılığı və digər iqtisadi sahələrlə əlaqələrini icra edir. Sonda proqramlaşdırma ona görə zəruridir ki, o əhalinin həyat tərzini, yaşayış səviyyəsinin keyfiyyətini yüksəltməyə, iqtisadi artımının dayanıqlılığını təmin etməyə yönəldilir, ekoloji şəraitin yaxşılaşdırılmasına və ərazilər (regionlar) üzrə inkişaf səviyyələrini yaxınlaşdırmağa qulluq edir.

Məqsədli proqramlaşdırma üsulları federal, regional və bələdiyyə səviyyələrdə, eləcə də birliklərin-holdinqlərin, konsorsiumların, maliyyə-sənaye qruplarının, iri müəssisələrin fəaliyyətində istifadə edilir. Belə proqramlaşdırmalar dövlətlərarası proqramlarda ola bilər, məsələn, MDB çərçivəsində əhəmiyyətli problemlərin həlli üçün proqramlar.

Beləliklə, proqnozlaşdırma, strateji və indikativ planlaşdırma, sosial-iqtisadi proqramlaşdırma bir-biri ilə qırılmaz bağlıdırlar, bazar iqtisadiyyatında mühüm funksiyalar yerinə yetirirlər və bazar iqtisadiyyatının inkişafındakı dövlət tənzimlənməsində həlledici rol oynayırlar.

2. **Proqnozlaşdırmanın elmi əsasları. Proqnozlar və silsilələr**

Gələcəyi qabaqcadan görmək nəzəriyyəsi. Sosial-iqtisadi proqnozlaşdırmanın elmi əsası gələcəyi görmə nəzəriyyəsidir. Gələcəyi qabaqcadan görmə nəzəriyyəsi dahi rus iqtisadçısı N.D.Kondratyev tərəfindən işlənib hazırlanmış, müasir dövr üçün isə Rusiya alimləri və xarici ölkə iqtisadçı-alimləri tərəfindən təkmilləşdirilmişdir. Gələcək inkişafı qabaqcadan görmək, N.D.Kondratyevə əsasən, statik qanunauyğunluqların dərk edilməsinə və praktiki istifadəsinə, sosial-iqtisadi genetika və dövrlər üzrə gedən dinamikaya söykənir. Statika sosial-iqtisadi sistemlərin quruluşunu aşkar etməyə, onun daxili və xarici qarşılıqlı əlaqələrini, fəaliyyətini təmin edən mütənasibliklərini tapmağa imkan verir. Dinamika sistemlərin dövrü inkişafı mexanizmlərini, dövrlərin faza növbəliliyini açmağa, dövrü böhranları görməyə və ondan çıxış yollarını tapmağa, sistemlərin əvəz olunmasına və ya onun daha keyfiyyətli yenisinə keçidə şərait yaradır. Genetika sosial-iqtisadi sistemlərin inkişafının seçilməsini və dəyişkənliyini, təsir mexanizmlərinin irsi xarakterini, amilləri və onların dəyişmə hüdudlarını aşkar edir, onların özünüinkişaf nəticələrini və xarakterini, daxlili hərəkətverici qüvvəsini açmağa kömək edir.

Proqnozlaşdırmanın mahiyyəti heç də gələcək hadisələrin xarakterini təyin etmək və onların nə vaxt baş verəcəyi müddətini göstərmək deyil, hadisələrin inkişafı təmayülünü, tendensiyasını, onların mümkün ssenarilərini, amil və nəticələrini aşkar etməkdir. Bu isə ən əlverişli (optimal) ssenariyə yaxın realizə şəraitini və imkanlarını müəyyən etməyə və starteji idarəetməni həmin istiqamətdə cəmləşdirməyə kömək edir. Bir sıra proqnozlaşdırma növlərini fərqləndirirlər: genetik proqnozlaşdırma-keçmişdə mövcud olan sistemlərin inkişafı təmayülünə və qanunauyğunluqlarının dərk edilməsinə, onların gələcəkdə mümkün inkişafı dinamikasına söykənir, teleoloji proqnozlaşdırma – hər bir inkişafda qabaqcadan müəyyən olunmuş

məqsədin həyata keçirildiyini iddia edən idealist nəzəriyyə. Normativ proqnozlaşdırma – qarşıya qoyulmuş məqsədin apriori (fakta, təcrübəyə əsaslanmadan) nail olunmasının mümkün yollarını axtarmaq, kombinə olunmuş proqnozlaşdırma-hərəkətin optimal trayektoriyasını seçməklə hərəkətin qanunauyğunluqlarının və tendensiyalarının birgə öyrənilməsi, onun realizə edilmə yollarının ən səmərəlisinin seçilməsi.

Böhranları və tsiklləri qabaqcadan görmək. Sosial-iqtisadi proqnozlaşdırma praktikasında xətti-ekstropolyasiya yanaşma üstünlük təşkil edir. Statistik təhlillər əsasında sistemin keçmişdəki inkişaf tendensiyalı və parametrləri aşkar edilir və gələcəyə köçürülür. Belə yaxınlaşma sistemin inkişafının durğunluğu dövrü üçün az və ya çox etibarlı nəticələr almağa imkan verir, ancaq belə formada yaxınlaşma dövrün bir fazasından digərinə keçid zamanı inkişaf amillərinin dəyişməsi, tendensiyaların dönüşü mərhələlərində və xüsusən böhranların mövcudluğu dövründə böyük xəta və təhriflərə gətirir. Elmi əsaslandırılmış, daha etibarlı və dəqiq proqnozları yalnız N.D.Kondratyev, digər rus və xarici alimlərin işləyib hazırladığı «böhranlar və dövrlər nəzəriyyəsi»ndən istifadə etməklə qurmaq olar. Bu nəzəriyyənin əsas müddəaları nədir?

1. İstənilən sosial-iqtisadi (təbiət sistemləri kimi) sistem dövrlər üzrə (silsilə şəklində) inkişaf edir, ardıcıl olaraq yaranma, təşəkkül tapma, yayılma (diffuziya), genişlənmə, stabil inkişaf (kamillik dövrü), böhran və qalıq (çox qədim dövrdən qalma) fazalarından keçir.

2. Böhranlar dövrlərin mütləq mövcud ola biləcək fazasıdır və onlar sistemin inkişafı dinamikasında bir çox mühüm funksiyaları yerinə yetirirlər:

– dağıdıcı funksiya, yəni sistemlərin köhnəlmiş elementlərinin ləğvi və ya bütövlükdə sistemin yox olmasına məcburiyyət funksiyası;

– yaradıcı funksiya, yəni sistemin yeni elementlərinin və ya yeni sistemin yaranması və təsdiqlənməsi üçün meydanların təmizlənməsi funksiyası;

- varislik funksiyası, yəni sistemlərin və ya sistem üstqurumlarının vərəsəlik özəyinin qorunması və gələcəyə daha zənginləşdirilmiş şəkildə ötürülməsi funksiyası;

Aşağıdakı böhranların inkişaf mərhələlərini fərqləndirmək və onlardan çıxışları göstərmək olar:

- gizli halda olan mərhələ, yəni böhran önü müjdəçi (xəbərçi) və gizli yığılan elementlər;
- uçqun və ya çökmə mərhələsi, yəni böhranların neqativ parametrlərinin kəskin aşkarlanması mərhələsi;
- depressiya mərhələsi, yəni böhrandan çıxış üçün ilkin şərtlərin toplanması, yığılması;
- sonuncu, tamamlayıcı mərhələ, yəni sistemin sağlamlaşdırılması, dirçəlməsi, yeni quruluşda böhrana qədər olan səviyyəyə nail olmaq və onu aşıb keçmək.

Qeyd edək ki, böhranların yaranmasını tamamilə aradan qaldırmaq mümkün deyil, onlar həmişə olmuş və olacaqlar, ancaq onları qabaqcadan duymaq, görmək ilə kiçik itkilərlə və qısa müddətdə böhran fazasını keçməyə imkan yaradılır.

3. Sistemlərin dinamikası soxdövrlüdür. Məsələn, sosial-iqtisadi sistemlərin inkişafı bir neçə dövrə bölünür: orta müddətli dövr (8-11 il), Kondratyevin təklif etdiyi uzun müddətli dövr (45-55 il), sivill yəni mədəni dövr (200-300 il). Müxtəlif müddətli dövrlər bir-birinə bağlanır, bir-birinin üzərinə qalanır, qarşılıqlı bir-birinə təsir göstərir. N.D.Kondratyevin göstərdiyi kimi, uzunmüddətli dövrlərin yüksələn çağlarında ortamüddətli dövrlərin böhran fazaları qısa və daha dayaz olur, yüksəliş fazaları isə daha əhəmiyyətli keçir. Azalan çağlar isə əks tendensiyalar xasdır.

4. Müxtəlif sferalarda, qarışıq sistemlər dinamiksında dövrlərin qarşılıqlı təsiri qaçılmazdır. Məsələn, iqtisadi dövrlərə və böhranlara elmi-texniki dövrlərin təsiri həmişə görünür (texnikanın yeni nəsillərinin və üstünlük təşkil edən modellərinin dövrü əvəz edilməsi, yeniləşdirilməsi, istehsalatda texnoloji üsulların, texnoloji proseslərinin təkmilləşdirilməsi və yeniləşdirilməsi və s.); həmçinin iqtisadiyyatın inkişafı mərhələlərinə və böhranlara təbii-ekoloji, dövlət-siyasi, demokrafik,

sosial-mədəni amillər də təsir göstərir. Dövrlərin qarşılıqlı təcrübəsi üç formada çıxış edir:

– rezonlaşdırıcı, yəni dövrlərin fazaları üzrə rəqslərin amplitudasını gücləndirmək forması;

- dempferləyici (zəiflədici) forma, yəni böhran fazalarının kəskinliyini yumşaldan, fazalar üzrə rəqslərin amplitudasını azaltmaq;

- deformasiya edici forma, yəni dövrlərin normal inkişafını kəsmək, məsələn, müharibə şəraitində və ya iri təbii fəlakətlər nəticəsində inkişaf mərhələlərinin qırılması.

5. Dinamikanın tsikliyi aradan qaldırıla bilməyən, kənarlaşdırıla bilməyən prosesdir. Buna görə də böhransız inkişafa çağırışlar, proqramların tərtibi əhəmiyyətsiz məşğuliyyətdir. Ancaq cəmiyyət iqtisadi dövrlərin və böhranların qarşısında aciz deyildir və böyük zəhərli ilanın qarşısında dovşan tutduğu vəziyyəti tutmamalıdır. Pitirim Sorokin sosial qanun əsaslandırmışdır ki, həmin qanuna görə böhran şəraitləri dövründə dövlətin tənzimləyici rolu güclənir, eləcə də iqtisadiyyat və sosial həyatda hökumətin qaydaya salınma, nizamlandırma fəaliyyəti artır. Böhran geridə qaldıqda isə belə tədbirlər tədricən zəifləyir. Dünya praktikasında (təcrübəsində) böhrandan çıxışları sürətləndirməyə imkan verən böhranaqarşı proqramların işlənib hazırlanması və realizəsi təcrübəsi toplanmışdır və mövcuddur.

Proqnozlar sistemi. Sosial-iqtisadi proqnozlar sistemi bir neçə qarşılıqlı əlaqəli meyarlarla (kriteriyalarla) müəyyən edilir ki, onlar da praktikada geniş istifadə edilirlər.

Gələcəyi görmə üfüqləri üzrə qısamüddətli (bir neçə günlər və ya həftələr), orta müddətli (3-5 il), uzunmüddətli (10-20 il) və ifrat uzunmüddətli (30-50 və daha çox illərə) proqnozları fərqləndirilər. Qısa müddətli proqnozlar daha dəqiq detallaşdırılır; uzunmüddətli və daha uzunmüddətli proqnozlar isə daha böyük həcmli və çoxvariantlıdırlar, onlar adətən alternativ ssenarilərə malik olurlar. İdarəetmə səviyyələri üzrə proqnozlar müəssisələr və birliklər, regionlar və sahələr, milli (ayrı-ayrı dövlətlər miqyasında), beynəlxalq (məsələn, MDB və

Avropa Birliyi çərçivəsində) və qlobal proqnozlara bölünürlər. Yüksək səviyyəli proqnozlar orta və aşağı səviyyəli proqnozların işlənib hazırlanması zamanı istiqamətləndirici keyfiyyətində çıxış edirlər.

Obyektlər üzrə proqnozlaşdırmada aşağıdakı prinsipləri fərqləndirirlər:

- sistemlər üzrə toplu, yəni müxtəlif sistemlər üzrə toplanmış ümumi proqnozlar;
- demoqrafik proqnozlar-əhalinin artım inkişafı və tərkibinin dəyişməsi haqqında proqnozlar;
- sosial proqnozlar – mədəniyyət, təhsil, səhiyyə, sosial təminat, həyat səviyyəsi və keyfiyyəti haqqında proqnozlar;
- elmi-texniki proqnozlar – elmin dinamikası, innovasiya, texniki sistemlər və texnologiya haqqında proqnozlar;
- iqtisadiyyat proqnozları – istehsalın dinamikası, iqtisadiyyatın quruluşu, qiymətlər və inflyasiya, institusional çevrilmələr, maliyyə, kredit və s. haqqında proqnozlar.
- ekoloji proqnozlar – təbii-iqlim prosesləri, ekoloji böhranlar, ətraf mühitin çiklənməsi səviyyəsi, faydalı qazıntıların ehtiyatları, xammal ehtiyatının artımı və s. haqqında proqnozlar;
- xarici-iqtisdi proqnozlar – xarici ticarətin inkişafı, turizm, valyuta kurslarının dinamikası və xarici borcların miqdarı, xarici ölkələrlə birgə tədbirlərin inteqrasiyası, dünya əmtəə bazarlarının və qiymətlərin dinamikası və s. haqqında proqnozlar.

Xarakterinə görə proqnozlaşdırma bir neçə növə bölünür:

-xüsusi, yəni ayrı-ayrı göstəricilər üzrə proqnozlar. Məsələn, qiymətlərin gələcəkdəki dinamikası, valyuta kursları, istehsalatın enerji tutumu və s.

- ümumiləşdirilmiş proqnozlar – əsas göstəricilər sistemi, o cümlədən gələcəkdə sistemlərin inkişaf dinamikasını xarakterizə edən göstəricilərin proqnozları;
- birvariantlı və çoxvariantlı proqnozlar – gələcək inkişafın bir neçə ssenarisinə baxmaq və ən əlverişlisini seçmək üzrə proqnozlar.

Proqnozlaşdırmanın üsulları və təşkili. Gələcəyi görmə – ən çətin, mürəkkəb və naşükür fəaliyyət növüdür. Çünki sosial-iqtisadi sistemin inkişafı çoxamillidir, qeyri-bərabər və ziddiyyətli maraqlara malik sosial qrupların və insanların fəaliyyətilə bağlıdır. Buna görə də çox zaman proqnozlar həyata keçmirlər. Lakin bütün bunlara baxmayaraq sosial-iqtisadi inkişafın proqnozlaşdırılması ilə məşğul olmaq lazım gəlir və bu zaman proqnoz işlərinin tətbiq olunan üsullarını və təşkili formalarını təkmilləşdirmək zəruridir. Praktiki olaraq gələcəyi görməklə bütün dövlət orqanları, elmi, iqtisadi və ictimai təşkilatlar məşğul olurlar.

Bir halda ki, proqnozlaşdırma mahiyyətcə elmi fəaliyyət növüdür, onda proqnozlaşdırma, xüsusən uzun müddətli və orta müddətli proqnozlaşdırma elmə həvalə olunmalıdır, yəni Elmlər Akademiyasına, digər dövlət və ictimai akademiyalara, müstəqil elmi təşkilatlara bu işlərin yerinə yetirilməsi tapşırılmalıdır. Praktikada büdcə vəsaitləri hesabına maliyyələşdirilmə ilə uzunmüddətli elmi-texniki və sosial-iqtisadi inkişafların 20-25 il üçün proqnozlaşdırılmasının işlənib hazırlanmasına qayıtmaq zərurəti vardır. Bu işdə proqnozlaşdırma üzrə milli elmi şuraların yaradılması mühüm rol oynaya bilər və həmin şuralar bu işləri əlaqələndirməklə vacib vasitə kimi çıxış edə bilərlər. Proqnozları dövlət orqanları təsdiq etməlidir. Əks halda gələcəyi görmənin müstəqilliyi və obyektivliyi öz mənasını itirər.

Dövlət orqanlarında, hər şeydən əvvəl İqtisadi İnkişaf Nazirliyində, Sənaye və Energetika Nazirliyində xüsusi ixtisaslaşdırılmış bölmələr yaradılmalıdır ki, onlar proqnozlara sifarişlər versinlər, alınmış məlumatları və nəticələri ekspertiza etsinlər, məqsədli proqramlarda, strateji və indiqativ planların layihələrinin işlənib hazırlanması zamanı həmin proqnozlardan istifadə imkanlarını müəyyənləşdirsinlər. Proqnozlaşdırmanın nəzəriyyəsinin, metodologiyasının və texnologiyasının dövlət qulluqçularına öyrədilməsi şəbəkələrini genişləndirmək lazımdır.

Böhranların və dövrlərin proqnozlaşdırılmasının metodologiyasının keyfiyyətcə yaxşılaşdırılması tələb olunur, həmçinin sosial-iqtisadi inkişafın qanunauyğun qeyri-bərabərliyini nə-

zərə almağa imkan verən makromodellərin işlənilməsi zəruriyyəti meydana çıxır. Bu işlərdə sahələrarası balanslardan, milli hesablar statistikası bazasında yaranmış balanslardan istifadə etmək mümkündür. Proqnozların yeniləşdirilməsi üçün istifadə edilən informasiyaların həcminin böyüklüyünü nəzərə alaraq informasiya-axtarış sistemləri, ixtisaslaşdırılmış bankın yaradılması zəruridir. Avtomatlaşdırılmış planlı informasiyalar sistemlərinin keçmişdə işlənib hazırlanmasında toplanmış təcrübələrdən bu zaman məqsədəuyğun istifadə edilməli, həmçinin xaricdəki çoxvariantlı proqnoz hesablamalarından əldə edilmiş təcrübələri geniş tətbiq etmək vacibdir.

3. **Strateji və indiqativ planlaşdırma**

Strateji planlaşdırmanın mahiyyəti. İqtisadi demoqrafik, sosial, texnoloji və ekoloji proseslər davametmə müddətləri və kifayət qədər ədalətli olmaları ilə fərqlənirlər. Tədqiqatlar göstərir ki, insanların aktiv yaşama dövrünün nəsil dəyişməsi təqribən 25-30 ildən, texnikada nəsillərin dəyişməsi, yəni köhnənin yenisi ilə dəyişməsi 10 ildən, texnoloji sistemin (qaydaların) dəyişməsi isə 45-55 ildən bir baş verir. İnvestisiya layihəsinin işlənib hazırlanmasının başlanğıcından qoyulan investisiya xərclərinin çıxarılmasına qədər olan müddət 5 ildən 10 ilə kimi uzanır. Həmçinin, iqtisadiyyatda baş verən quruluş dəyişmələri də heç də az vaxt tələb etmir. Bu səbəbdən iqtisadiyyat məsələlərində və iqtisadiyyatın dövlət tənzimlənməsi vəzifələrində cari məsələlərlə, illik vəziyyət və tapşırıqlarla məhdudlanmaq düzgün deyildir. Ona görə də uzunmüddətli və orta müddətli planlar, daha geniş və iri strateji məsələlər üçün hesablanmış və istiqamətləndirilmiş vəzifələri həll etmək zəruridir. Lakin bu o demək deyildir ki, belə planları yalnız 5-10 ildən bir işləyib hazırlamaq və dəyişmədən qorumaq lazımdır. Çünki həyatda tez-tez dəyişikliklər baş verir və həmin dəyişikliklər əksər hallarda əhəmiyyətli xarakter daşıyır. Bu isə vaxtaşırı strateji planlarda

yaranan müvəqqəti çətinlikləri aşmağı və planlarda düzəlişlər etməyə məcbur edir. Ancaq planları hər il dəyişmək də məqsədəuyğun deyildir, o strateji dayanıqlılığını və uzunmüddətli istiqamətləndirici rolunu itirir.

Cari indiqativ planlarla müqayisədə strateji planların öz xüsusiyyətləri vardır. Birincisi, həmin strateji planlar daha uzun müddəti əhatə etməlidir ki, sosial-iqtisadi inkişafın iri həcmli strateji məsələlərini həll etməyə imkanı olsun. İkincisi, həmin strateji planların göstəriciləri daha iriləşdirilmiş və ümumiləşdirici xarakterə malikdir, çünki xırda məsələləri uzun müddətdə həll etmək və qarşıya məqsəd qoymaq əlverişli deyildir. Çünki, xırda cari məsələlər indiqativ planların və məqsəd proqramlarının öyrəndiyi məsələlərdir. Üçüncüsü, bu planlar variantlılıq xarakterinə malik ola bilər, inkişafın daxili və xarici şərtlərinin dəyişməsi tendensiyasından asılı olaraq perspektiv müddətə alternativ ssenarilərə uyğun tərtib edilə bilər. Dördüncüsü, bu plana vaxtaşırı baxıla bilər və baxılmalıdır, düzəlişlər edilməlidir, iqtisadi dövrün bir fazasından digərinə keçid zamanı və ya vəziyyətin (konyUKtura) dəyişildiyi hallar nəzərə alınmaqla çətinliklər aşılmalıdır.

Strateji planlaşdırmanın metodologiyası. Strateji plan, xüsusən uzunmüddətli plan iqtisadi dövrün bir neçə fazasını, həm də hətta ortamüddətli iqtisadi dövrlərini əhatə edir. Məsələn, Rusiyanın sosial-iqtisadi inkişafının 2015-ci ilə qədərki dövrü üçün strateji planın üzərində işləri yekunlaşdırarkən nəzərə almaq lazımdır ki, həmin dövrdə növbəti orta müddətli tsiklə keçid baş verəcəkdir (bu onilliyin başlanğıcında dünya iqtisadiyyatındakı böhranlarla müşayiət edilir), həmçinin Kondratyevin beşinci dövrünün yüksəldici dalğasından zəifladici dalğasına keçid də meydana çıxacaqdır. Bu isə mütləq Rusiyanın iqtisadiyyat dinamikasının göstəricilərinə təsir etməyə bilməz, ancaq iqtisadiyyata həmin təsirlərin müddətini, dərəcəsini və nəticələrini hesablamaq çətindir.

Strateji planların göstəricilər sistemi iriləşdirilmiş, ümumiləşdirici və həm də kifayət qədər tam, sistemli xarakter daşımalıdır və onlar sistemin əsas inkişaf predmetlərini əks etdirmə-

lidirlər. Federal səviyyədə strateji plan çoxlu sayda prosesləri xarakterizə edə bilər.

O cümlədən:

- demokrafik inkişafı, yəni gələcək üçün təhlükəli və ölkənin əksər regionlarında üstünlük təşkil edən depopulyasiya tendensiyaların (təmayülü) dəf etmək imkanları;
- sosial inkişafı, yəni əhalinin həyat səviyyəsi və onun keyfiyyəti, sağlamlıq, təhsil və kadr hazırlığı, səhiyyə, sosial təminat;
- iqtisadi inkişafı, yəni ümummilli məhsulun artım sürəti, iqtisadiyyatda quruluş dəyişiklikləri, investisiyanın dinamikası, inflyasiyanın səviyyəsi, maliyyə-kredit institutlarının möhkəmləndirilməsi, iqtisadi idarəetmə sisteminin yaxşılaşdırılması;
- elmi-texniki tərəqqini, yəni innovasiyaların və elmlərin dinamikası, yeni nəsl texnikası əsasında iqtisadiyyatın modernləşdirilməsi üzrə tədbirlər, enerji əmanətçiliyi texnologiyalarının mənimsənilməsi, informasiya sferasının inkişafı və s.;
- ekoloji inkişafların prosesləri, yəni təbii ehtiyatların qorunması və təkrar istehsalı göstəriciləri (geoloji-kəşfiyyət, meşə, su və balıq təsərrüfatları, meliorasiya və torpaqların məhsuldarlığını, münbitliyini artırmaq), həmçinin ətraf mühitin çirkləndirilməsi üzrə tədbirlər, ekoloji təmiz texnologiyaların yiyələnməsi;
- ərazilər üzrə inkişaf proseslərini, yəni Federasiya subyektlərinin və Federal dairələrin sosial-iqtisadi inkişafının səviyyələrinin yaxınlaşması, federal əhəmiyyətli regionlararası problemlərin həlli;
- xarici-iqtisadi əlaqələri, yəni MDB çərçivəsində inteqrasiya tədbirlərini həyata keçirmək, Avroasiya iqtisadi birliyi, Rusiya-Belorusiya İttifaqı çərçivəsində inteqrasiya, mədaxil və məxaric göstəricilərinin yaxşılaşdırılması, xarici borcların yatırtdırılması, rublun və valyuta kursu üzrə gözlənilən dəyişikliklər, ölkəyə gələn və xarici turizmin inkişafı, beynəlxalq proqrmalarda iştirak və s.

Bütün bu göstəricilər qarşılıqlı bağlıdır və bir-birinə təsir göstərir. Ona görə də strateji planlaşdırmada hesabat və perspektiv sahələrarası balansdan, digər makromodellərdən istifadə

edilir və onlar mürəkkəb, çoxhəlqəli zəncirvari qarşılıqlı əlaqəli milli iqtisadi yarımsistemlərin perspektiv müddətə vəziyyətini özündə əks etdirir. Burada dövlət qulluqçularının strateji düşüncələrini inkişaf etdirmək zəruriyyətini, strateji planlaşdırmanın mahiyyətini dərk etməyi və üsullarını öyrənməyi əsas hərəkətverici qüvvə kimi qəbul etmək lazımdır.

İndiqativ planlaşdırma müasir bazar iqtisadiyyatının tipik alətidir. O, strateji planların konkret dolğunlaşması və realizəsinin əsas formasıdır. Baxmayaraq ki, indiqativ planlaşdırmanın elmi əsaslarını keçən əsrin 20-ci illərində N.D.Kondratyev işləyib hazırlamışdır, indiyə kimi onun federal səviyyədə praktiki tətbiqi Rusiyada özünə yer tapa bilməmişdir. Bəzi keçmiş SSRİ-nin müstəqillik tapmış ölkələrində (məsələn, Qazaxıstanda), həmçinin Rusiyanın ayrı-ayrı regionlarında (məsələn, Tatarıstan Respublikası) indiqativ planların işlənib hazırlanması sahəsində və tətbiqində müəyyən təcrübələr əldə edilmişdir.

Belə formalı planlaşdırmalardan istifadə edən ölkələrdə hökumətlər indiqativ planların layihələrini işləyib hazırlayır, ona baxmağı və təsdiq etməyə parlamentlərə təqdim edirlər. Belə təcrübənin Rusiyada istifadəsi məqsədəuyğun sayılır, çünki o, ölkənin soail-iqtisadi inkişafının gücləndirilməsində müsbət təsir göstərə bilər.

4. Sosial-iqtisadi inkişafın proqramlaşdırılması

Məqsədli proqramların zəruriliyi və məhdudiyyəti. Proqramlaşdırılma sosial-iqtisadi inkişaf proseslərinə dövlətin müdaxiləsinin son dərəcədə fəal üsuludur. Bu üsul o zaman və orada istifadə edilir ki, bazar iqtisadiyyatının və onun dövlət tənzimlənməsinin adi üsul və mexanizmləri iqtisadi, sosial, texnoloji, ekoloji və ərazilər üzrə inkişafın iri həcmli və böyük miqyaslı problemlərini həll etmək iqtidarında deyildir. Ona görə də bu üsul strateji kəsirdən çıxmaq üçün dar cəbhədə (sektorda) tətbiq edilməlidir və bazar

təsərrüfatının adi idarə edilməsi üsullarına geniş fəaliyyət meydanı qoymalıdır.

Xalq təsərrüfatı səviyyəsində məqsədli proqramlar strateji planlaşdırılmanın tərkib hissəsi kimi ilk dəfə Rusiyada, yəni keçmiş SSRİ-də keçən əsrin 20-30-cu illərində tətbiq edilmişdir. (QOELRO planı, Ural-Kuznetsk kombinatının yaradılması proqramı və s.). Sonralar bu üsul digər ölkələrdə də geniş tətbiqini tapdı. Müasir proqramlaşdırılmanın təşkili və metodologiyasında böyük səhvlərə yol verilmişdir. Proqrammların sayları gündən-günə xeyli artmış, onlar ehtiyatlarla tam ölçüdə təmin edilməmiş və özlüyündə tam bir sistem kimi formalaşmamışdır. Məsələn, 2001-ci ildə Rusiya Federasiyasında 126 proqram, 31 yarım proqram təsdiq edilmiş və onlar federal büdcədən 52,2 milyard rubl məbləğində maliyyə dəstəyi almışdır. Lakin bəzi hallarda proqramların obyektləri aşkar strateji xarakter daşımayan az əhəmiyyətli problemlər olmuşdur. 2002-ci ildə federal büdcədən maliyyələşən federal məqsədli proqramların və regionların inkişafı federal proqramların sayı xeyli azaldılmış, hər bir proqram üçün ayrılan ehtiyatlar isə çoxaldılmışdır.

Strateji xarakterli proqramlaşdırılmalara etinasızlıq onların devalvasiyasına gətirdi. O, bir növ dəbə çevrildi, olduqca geniş istifadə edildi və strateji kəsrlərdən çıxmağı təmin etmədi, sosial-iqtisadi inkişafda dövlətin fəal rolunun imitasiyası (təqlidi) kimi forma aldı. Buna görə də məqsədli proqramların elmi əsaslanmış metodologiyasına, işlənib hazırlanma texnologiyasına və realizəsinə qayıtmaq zəruridir.

Böhrana qarşı (antiböhran) proqramlar. Sosial-iqtisadi inkişafın proqramlaşdırılmasının xüsusi növü böhrana qarşı proqramlardır. Onlar iqtisadi dövrlərin faza müddətlərində hökumət tərəfindən işlənib hazırlanır və ölkənin qanunvericilik orqanları tərəfindən təsdiq edilməyə təqdim edilirlər. Belə səmərəli proqrama nümunə ABŞ-da 1929-1933-cü illərdə yaranmış böhrana görə Ruzveltin «Yeni kurs» adlı təqdim etdiyi proqram ola bilər. Həmin böhranlı illər ABŞ-nın bir dövlət kimi mövcud olduğu dövrlər içərisində ən böyük itkilər yaradan dövr sayılır. Müvafiq proqramm bir də 1970-ci illərdə

prezident Niksonun dövründə işlənib hazırlanmış və realizə olunmuşdur.

Dünya təcrübələrini əks etdirən, məzmununa görə böhrana qarşı proqram kimi tövsiyələri BMT-nin bir qrup iqtisadçıları işləyib hazırlamışdır. Həmin tövsiyələrdə ölkələrin hökumətlərinə təklif olunur ki, iqtisadi böhranlar dövründə əhalinin səmərəli tələbatının (o cümlədən vergiləri azaltmaq yolu ilə) təmin edilməsinə çalışmaq lazımdır, xüsusi investisiyaların həcmini tənzimləmək (investorlar üçün vergi güzəştlərini və xüsusi kreditlər verilməsini daxil etməklə), dövlət investisiyalarını planlaşdırmaq, qiymətləri saxlamaq proqramı ilə kənd təsərrüfatından gələn gəlirləri stabilləşdirmək və ictimai işlərin proqramlarından istifadə etmək vacibdir. 1990-cı illərdəki böhranlar zamanı Rusiya hökuməti çoxlu sayda tədbirlər həyata keçirərək bu tövsiyələrlə çalışmağa can atdılar və böhranların daha da dərinləşməsinə nail oldular.

Bir halda ki, bazar iqtisadiyyatı şəraitində böhranlar müntəzəm təkrarlanan hadisələrdir, onda mövcud olan pozitiv və neqativ təcrübələri ümumiləşdirərək böhranlar şəraitində dövlət tənzimlənməsinin ölçüləri sisteminin metodologiyasını işləyib hazırlamaq zəruridir. Bu isə böhran dövrünün belə fazalarını dövlət, sahibkarlar və əhali üçün az itkilərlə və nisbətən sürətlə ötüşməyə imkan verir. Əlbəttə, bu ölçülər heç də universal deyildir, çünki hər bir böhranın öz xüsusiyyətləri vardır. Ancaq onlar böhranlar şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəliliyini xeyli artırmağa kömək edirlər.

Məqsədli proqramlar sistemləri. Əgər müəssisələr, holdinqlər, korporasiyalar və s. tərəfindən işlənib hazırlanan proqramları bir kənara qoysaq, onda məqsədli proqramlar sistemləri özündə idarəetmənin dörd səviyyəsi üzrə proqramları cəmləşdirir. Birincisi, qismən və ya tamamilə federal büdcədən maliyyələşdirilən federal məqsədli proqramlar. Belə proqramların siyahısı RF hökuməti tərəfindən tərtib edilir, sonra isə həmin proqramlar növbəti il üçün federal büdcənin əlavələrindən biri kimi Dövlət Dumasında baxılır və təsdiq edilir. Bu proqramların mətbuatda açıq şəkildə çap olunması mütləqdir.

İkincisi, regional məqsədli proqramlar. Onlar Federasiya subyektinin icra orqanları tərəfindən işlənilib hazırlanır və həmin regionların qanunvericilik orqanları tərəfindən müzakirə və təsdiq edilir. Üçüncüsü, bələdiyyə məqsədli proqramlar. Onlar iri bələdiyyə dairələrin icra və nümayəndəlikləri (nümayəndələrin seçilməsi şərti ilə) orqanları tərəfindən formalaşdırılır (məsələn, Federasiya subyektlərinin şəhər mərkəzləri). Dördüncüsü, dövlətlərarası proqramlar. Belə proqramları qəbul edir və icra edirlər – MDB-nin üzvləri, digər maraqlı dövlətlər və s.

Təyinatına görə federal məqsədli proqramları aşağıdakı kateqoriyalara bölmək olar:

a) elmi-texniki və innovasiya proqramları. Onlar elm və texnikanın yeni istiqamətlərinin inkişafına, yerli məhsulların rəqabət aparmaq qabiliyyətinin artırılmasını təmin edən (məsələn, Rusiyanın mülki aviasiya texnikasının inkişafı proqramı) və dövlətin köməyi ilə həyata keçirilən bazis innovasiyalarının mənimsənilməsi və genişləndirilməsinə təyin edilmişdir;

b) sosial proqramlar. Onlar iri sosial vəzifələrin həllini təmin edirlər (məsələn, «Yaşlı nəsil» proqramı, «Rusiyanın uşaqları», «Sosial xarakterli xəstəliklərlə mübarizə və onlardan qorunma» proqramları);

c) iqtisadi proqramlar. Bu proqramlar sahələrarası komplekslərin və yeni sahələrin inkişafı problemlərini həll edir (məsələn, «Səmərəli enerjili iqtisadiyyat»);

ç) Ekoloji proqramlar iri ekoloji problemlərin həllinə yönəldilmişdir. (məsələn, «torpaqların münbitliyini artırmaq» proqramı)

d) regional və regionlararası proqramlar. Onlar ərazilərin inkişafının strateji problemlərinin həllinə Federasiyanın köməyini təmin edirlər. (məsələn, 2002-2010-cu illər və 2015-ci ilə qədərki dövrdə regionların sosial-iqtisadi inkişaflarındakı fərqlərin ləğvi» proqramı)

e) idarəetmə proqramları. Bu proqramlar idarəetmə sistemlərinin inkişafının vacib problemlərinin ehtiyatlarını

özündə cəmləşdirir. (məsələn, məhkəmə sisteminin və vergi orqanlarının inkişafı proqramları)

Təsir müddətinə görə uzunmüddətli (10 və daha çox müddətə) və orta müddətli (3-6 il) proqramlar fərqləndirilir. Qısamüddətli dövrlər üçün məqsədli proqramların tərtibi və təsdiqi məqsədəuyğun sayılmır.

Proqramların hazırlanma texnologiyası və realizəsi. Əldə edilmiş təcrübələri ümumiləşdirərək federal səviyyədə məqsədli proqramların işlənib hazırlanmasının aşağıdakı texnoloji mərhələlərini müəyyən etmək mümkündür.

1. ***Proqramın obyektinin seçilməsi.*** Məqsədli proqramın işlənib hazırlanmasının başlanğıc nöqtəsi onun obyektinin seçilməsidir və ona, adətən çox diqqət yetirmirlər. Birincisi, həmin obyekt bu və ya digər sistemin və ya yarım sistemin inkişafındakı düyün nöqtəsi olmalıdır ki, o iri xalq təsərrüfatı probleminin həllini, strateji irəliləyişi təmin etməlidir. İkincisi, proqramın əhatə meydanı kifayət qədər dar olmalıdır ki, orada ehtiyatları cəmləşdirə bilsinlər və verilmiş müddətdə inkişaf trayektoriyasında dönüşün yaradılması təmin olunsun. Üçüncüsü, həm də proqramın meydanı kifayət qədər geniş olmalıdır ki, sonralar adi bazar üsulları ilə sıçrayışlar cəbhəsini genişləndimək və seçilmiş strateji istiqamətlərdəki şəraitləri əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq mümkün olsun.

«Məqsədlər ağacının» qurulması. Hər şeydən əvvəl proqramın baş məqsədi müəyyənləşdirilməli, həmin məqsəd dəqiq, bir qiymətli, aydın və miqdarı ölçülmələrlə ifadə edilməlidir ki, proqramın icrası zamanı və onun yerinə yetirilməsinin sonunda nə qədər faizlə, hansı dərəcədə yerinə yetirildiyini təyin etmək mümkün olsun. Sonra birinci səviyyənin məqsədlər sistemi təyin edilir və bu ona görə vacibdir ki, həmin birinci səviyyəsiz baş məqsədə nail oluna bilinməz. Bundan sonra birinci səviyyənin hər məqsədinin ikinci səviyyəsi və s. kimi ardıcıllıqla məqsədlər müəyyənləşdirilir. Nəticədə «məqsədlər ağacının» budaqları alınır, ağacın gövdəsi isə baş məqsəd olur. Mahiyyətcə elə bu mərhələdə proqramın realizəsinin Kriteriyalar məntiqi işlənib hazırlanır. Bu işə müxtəlfi sahələrdə

çalışan mütəxəssis və alimləri-sistemçiləri, texnoloqları, marketoloqları və s. cəlb etmək olar.

Tədbirlərin qurulması sistemləri, qarşıya qoylumuş məqsədlərə nail olunmasını təmin edir və əks qaydada həyata keçirilir. Burada baş məqsədə doğru irəliləyərək aşağı səviyyəli məqsədlərdən başlanılır. Belə realizədə hər bir məqsədin əldə edilməsinin təminatındakı məntiqə ciddi riayət edilməlidir, çünki hər hansı bir məqsədin yerinə yetirilməməsi, bütövlükdə proqramın səmərəliliyini kəskin aşağı salır.

Proqramların quruluşunun yaradılması. Hər bir proqramın başlanğıc «kərpici», yəni təməl daşı onun layihəsidir. Tədbirlər sisteminin təhlili əsasında layihələr dəsti formalaşdırılır və onlar proqramların özəyini təşkil edirlər. Sonralar isə onlar bloklar və yarım proqramlar şəklində qruplaşdırılırlar. Proqramların quruluşlarının hər bir həlqəsində görünən sayda elementlər olmalıdır ki, onlar idarəetməni təmin etməlidirlər. Layihələr icra (realizə) müddətlərinə görə paylanılır və öz aralarında razılaşdırılırlar.

Layihələrin, yarımproqnozların və bütövlükdə proqramların səmərəliliyi və onlara məsrəflərin qiymətləndirilməsi həlledici mərhələdir. Hər bir layihə üzrə onun işlənib hazırlanmasına zəruri məsrəflər, investisiyalar və sairə qiymətləndirilir və hesablanır. Əvvəlcədən məhsulların istehsal həcmi və satışı, qiymətlər, səmərəlilik və özünün xərclərini çıxarmaq kimi amillərin hesablanması həyata keçirilir (əlbəttə, burada söhbət kommersiya layihəsindən gedir). Alınmış məlumatlar layihələr bloku, yarım proqramlar və bütövlükdə proqramlar üzrə toplanılır və ona görə səmərəsiz, zərərlə işləyən layihələr və onların birləşdiyi bloklar aşkara çıxarılır. Sonra isə həmin layihə bloklarının səmərəliliyini yüksəltmək və ya onların icrasını dayandırmaq, bütövlüklə layihələr proqramlarından çıxarmaq, qərarları qəbul edilir. Əlbəttə, belə səmərəsiz, ziyanla işləyən proqramların layihələrini saxlamaq da olar, əgər onların yaratdığı ziyanlı xərcləri, kəsrləri onlarla qovuşmuş qarışıq layihələr hesabına əldə edilən əlavə gəlirlər hesabına kompensasiya etmək mümkündürsə, əks halda yalnız onların

ləğvi zəruri sayılır. Beləliklə, bu mərhələdə, nəticədə proqramların quruluşu dəqiqləşdirilir, ayrı-ayrı hallarda həmin layihələr üzərində işlər dayandırılır, səmərəsiz, zərərli layihələr ləğv edilir. Qeyd edək ki, həm də proqramların maliyyələşdirmə mənbələri də müəyyənləşdirilir.

Məqsədli quruluşların yaradılması. Hər şeydən əvvəl proqramları təsdiqlənməyə təqdim etməzdən öncə onun dövlət sifarişçisini, əsas icraçısını və yardımçı icraçılarını müəyyənləşdirmək tələb olunur. Ayrı-ayrı proqramların, yarım proqramların və bütövlükdə proqramın icrası üçün məqsədli quruluşlarını, normativ bazalarının formalaşdırılmasını və işçi heyətinin təlimini yaratmaq vacibdir. Bu işlərin aparılmasını həm də mövcud quruluşlara həvalə etmək olar. Ancaq təcrübələr göstərir ki, belə işlərin yerinə yetirilməsini yeni yaradılmış təşkilatlar, məqsədli quruluşlar daha səmərəli icra edirlər. Həmin təşkilatlar ayrı-ayrı layihələr üzrə kiçik və orta müəssisələr, holdinqlər, konsorsiumlar və ya proqramlar üzrə maliyyə-sənaye qrupları, dövlətlərarası proqramlar üzrə transmilli korporasiyalar ola bilər. İşçi heyətin təlimi və hazırlığını dəstələr (komandalar) şəklində keçirmək daha əlverişlidir, çünki proqram və layihənin realizəsini iştirakçıları tədris prosesində və təcrübələr keçən zamani işin icrası üçün eyni fəndləri, üsulları öyrənirlər, bir-birini başa düşmələri, qarşılıqlı əlaqələri daha yaxşı olur. Bu isə proqram işlərinin səmərəliliyini artırır.

Proqram və layihələrin realizəsinin idarə edilməsini «üçlük» prinsipi üzrə təşkil etmək məqsədəuyğun sayılır. Hər bir layihədə işlərin koordinasiyasını sifarişçi, elmi rəhbər (baş konstruktor) və icraçı direktor həyata keçirir. Onlar da işin yerinə yetirilməsini təşkil edir və maliyyə vəsaitini idarə edirlər. Yarım proqramların və bütövlükdə proqramların idarə olunması prinsipi də analoji qaydada aparılır. Bu mərhələdə koordinasiya şuraları yaradılır və şuraya birinci səviyyəli rəhbər işçilər başçılıq edir.

İcra olunmuş işlərin qəbulunu və ona nəzarəti proqramın bütün realizəsi müddəti həyata keçirirlər. Nəzarət proqramın icraçılarından asılı olmadan, müstəqil şəkildə aparılmalıdır, bu

isə alınan nəticələri obyektiv qiymətləndirməyə və vaxtında layihələrə düzəlişlər etməyə, lazım olarsa layihə və ya bütövlükdə proqramın üzərində işləri dayandırmağa səmərəsizliyi aşkar etməyə şərait yaradır. İcra olunmuş işlərin qəbulu üçün layihənin ayrı-ayrı növləri, yarımproqramları və bütövlükdə proqramları üzrə onun tamamlandığı dövrdə xüsusi etibarlı komissiyalar yaradılır və həmin komissiya üzvləri alınmış nəticələri və onların layihə sənədləri üzrə müvafiq qaydada yerinə yetirildiklərini yoxlayır, qiymətləndirirlər. Sonra həmin komissiya yaradılmış obyektin və ya sistemin (yarım sistemin) daimi istismara verilməsi haqqında qərar qəbul edir və görülən işlərin yerinə yetirilməsi ilə əlaqədar qəti, son hesablamalar aparılmasını reallaşdırırlar.

Proqramlaşdırmanın yuxarıda göstərilən texnologiyasına riayət edilməsi strateji idarəetmənin (idarəçiliyin) səmərəliliyini əhəmiyyətli dərəcədə artırır, sosial-iqtisadi inkişafın həlledici istiqamətlərinə dövlətin məqsədyönlü təsirini yüksəldir.

Suallar və tapşırıqlar

1. Bazar iqtisadiyyatında proqramlaşdırmanın, strateji və indiqativ planlaşdırmanın, proqnozlaşdırmanın dövlət sxemini çəkin və dövlət tənzimlənməsi prosesində bu funksiyaların ardıcıl qarşılıqlı əlaqəsini göstərin.
2. Proqnozlaşdırmanın mahiyyəti nədədir (düzgün cavabı qeyd edin):

- gələcək hadisənin baş verməsinin görünməsi;
- gələcək inkişafın və onun ardıcıllığının mümkün təmayülünün müəyyən edilməsi;
- strategiyanın (siyasətin) əvvəlcədən verilmiş məqsədinin yerinə yetirilməsi yollarının müəyyən edilməsi.

3. Bazar iqtisadiyyatında tsikl və böhranlar qaçılmazdırmı? Onları əvvəlcədən görmək mümkündürmü? Öz cavabınızı əsaslandırın.

4. Bazar iqtisadiyyatında strateji planlaşdırma nəyə görə zəruridir? Onun proqnoz və indiqativ planlaşdırmadan fərqi nədir?
5. İndiqativ plan direktiv plandan nə ilə fərqlənir? İqtisadiyyatın dövlət və qeyri-dövlət bölməsinin inkişafının indiqativ planlaşdırılmasının xüsusiyyəti nədir?
6. İqtisadiyyatın tsiklik inkişafının dövlət tənzimlənməsində antiböhran proqramının rolu nədir? Proqramın bu rolu 90-cı illərdə Rusiya hökuməti tərəfindən yerinə yetirildimi?
7. Siz tərəfdən təklif olunan federal və ya regional məqsədli proqramın, məqsəd ağacını qurun və ya sizə məlum olan proqramın məlum strukturunu göstərin.

© Yakovtsev Y.B., 2002

XIV Fəsil

ÖLKƏ IQTISADIYYATININ BÜDCƏ TƏNZIMLƏNMƏSI

Bazar iqtisadiyyatında dövlət büdcəsi dövlətin funksiyalarının yerinə yetirilməsinin maliyyə əsaslarını təmin edir və cəmiyyətin iqtisadi sisteminə hakimiyyətin əsas tənzimləyici təsir aləti kimi çıxış edir.

1. Büdcə siyasətinin strategiyası və büdcə tənzimlənməsi

Büdcənin yeni tipi. Rusiyanın bazar transformasiyasının tam bitmədiyi bir şəraitdə onun dövlət büdcəsi keçid iqtisadiyyatının xüsusiyyətlərini əks etdirir. Lakin ümumilikdə o artıq yeni tipli bazar olmaqla dövlət və müəssisələr arasında yeni, bazar xarakterli vergilərə əsaslanan maliyyə münasibətləri sistemini təşkil edir.

Büdcənin yeni tipli olması həmçinini büdcə xərcləri hesabına cəmiyyət üzvlərinin ictimai nemətlərlə təmin edilməsinin xarakterində də özünü biruzə verir. Dövlətin vergi toplamaqda və büdcə formalaşdırmaqda məqsədi odur ki, ictimai tələbatları ödəyə bilsin (səhiyyə və sosial təminat, təhsil, mədəniyyət, elm, idarəetmə, müdafiə, hüquq, mühavizə kimi xidmətlər). Buna görə də vergilər büdcənin mədaxil hissəsinin əsasını təşkil etməklə son nəticədə ictimai məhsul və xidmətlərin həcmi və onlara olan tələbin səviyyəsi ilə müəyyən olur.

Dövlət və onun funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan xərclər iqtisadiyyatın sosial yönümlü olmasını təmin

etməlidir. (sosial ədalət və sosial təhlükəsizlik məqsədilə rersusların yenidən bölgüsü.)

Beləliklə, həm azad bazar proseslərinin iştirakçıları ilə qarşılıqlı münasibətlərdə, həm də sosial-iqtisadi proseslərin ümumi maliyyə tənzimlənməsi sistemində büdcənin təznimləyici rolu artır.

Maliyyə tənzimlənməsinin mexanizmi dövlətin sosial-iqtisadi siyasəti ilə müyyən edilən məqsədlərə çatmaq üçün dövlətin və digər salahiyyətli tənzimləyici və idarəetmə orqanlarının pul resurslarının formalaşdırılması və istifadəsi prosesinə, kapitalın və gəlirin axınına, təsərrüfat subyektlərinin davranışına təsirinin metod, alət, maliyyə texnologiyaları və qaydalarının məcmusudur. Müasir Rusiya iqtisadiyyatında bu mexanizmlər aşağıdakı blokları əhatə edir:

1. İqtisadi və maliyyə siyasətinin ümumi kursunun müəyyən edilməsi
2. Beynəlxalq valyuta təşkilatları ilə əlaqələr və razılaşdırılmış maliyyə proqramlarının reallaşdırılması.
3. Pul və kredit siyasətlərinin parametrlərinin maliyyə parametrləri ilə qarşılıqlı əlaqədə tənzimlənməsi.
4. Qanunvericilik vasitəsilə büdcə və büdcədənkənar fondların formalaşdırılması və istifadəsi.
5. Vergi sistemi və vergi qanunvericiliyi vasitəsilə maliyyə axınlarının tənzimlənməsi, eləcə də qüvvədə olan vergi qanunvericiliyinə hər il dəyişikliklərin edilməsi təcrübəsi.
6. Daxil və xarici borc götürmələrinin və onların qaytarılması maliyyə prosedurlarının formalaşdırılması.
7. Büdcə kəsrinin maliyyələşdirilməsi mexanizminin işlənib hazırlanması.
8. Maliyyə bazarı infrastrukturunun və mexanizminin inkişaf etdirilməsi; dövlət və korporativ qiymətli kağızların ilkin və ikincili dövriyəsi prosesinin və onun şərtlərinin tənzimlənməsi, rezidentlər və qeyri-rezidentlər üçün eyni qaydaların müəyyən edilməsi.
9. Dövlət əmlakı və ondan gələn gəlirlərlə əməliyyatlar sahəsində "maliyyə texnologiyaları"nın formalaşdırılması. (Döv-

lət müəssisələrinin səhm və paylarının satılması, dividentlərin alınması dövlətin ehtiyyatlarının, torpağın və qeyri maddi aktivlərin satılmasından gəlirlər.)

10. Daimi qüvvəyə malik maliyyə qanunvericiliyi (vergi və büdcə məcəlləsi, ayrı-ayrı vergi növləri haqqında, yerli idarəetmənin maliyyə əsasları haqqında qanunvericilik).
11. Müəssisənin maliyyəsinin strukturunun dəyişməsi onların debitor və kreditor borcları, müflisləşməsi, hesablaşma münasibətləri, amortizasiya sistemi və s. üzrə müvafiq maliyyə texnologiyalarının və normativ-hüquqi bazanın işlənib hazırlanması və tətbiqi.
12. Müəssisə və təşkilatlara, sahələrə və regionlara inteqrasiya və maliyyə yardımı sisteminin (dotasiya, maliyyə lizinqi, güzəştli kreditləşdirmə və s.) təşkili, nəzarət və maliyyə-hesabat formalarının yaradılması.
13. Müəssisələr və əhali ilə maliyyə münasibətlərinin tənzimlənməsində büdcələrarası əlaqələr mexanizimindən istifadə. Həmçinin sosial yardının standartlarının və maliyyə normalarının müəyyənləşdirilməsi, mənzil kommunal sahəsi obyektlərinin, nəqliyyatın və digər qeyri-istehsal sferası sahələrinin dotasiyalanması.
14. Fiziki və hüquqi şəxslərin gəlirlərinin formalaşması və yenidən bölgüsü prosesinin tənzimlənməsində maliyyə rıçaqlarından istifadə olunması, eləcə də təbii inhisarlarda qiymətəmələgəlmə prosesinə təsir göstərilməsi (tarif siyasəti) və qiymət artımının qarşısının alınması (xərclərə nəzarət).

Maliyyə tənzimlənməsi mexanizmində maliyyə parametrlərinin (göstəricilərinin) və mexanizmlərinin makroiqtisadi səviyyədə uyğunlaşdırılması və tənzimlənməsi olduqca əhəmiyyətlidir (büdcə potensialı və vergi tutma bazası, büdcə xərcləri və büdcə kəsiri, dövlət əmlakının maliyyə effektivliyi, pul kütləsi və faiz dərəcəsi).

Həmçinin mikroiqtisadi səviyyədə maliyyə vəziyyətinin və maliyyə axişlarının dövlət tənzimlənməsi alətlərindən istifadə, eləcə də koorporasiyaların, kiçik biznesin fəaliyyətini tənzimləyən

qanunlar çərçivəsində idarəetmə həlqələrinin və kadrların məsuliyyətinin təmin edilməsi və nəzarət olduqca vacibdir.

Bu zaman hüquqi tənzimlənmənin forma, metod və alətləri dövlət və hüquqi şəxslər arasında, eləcə hüquqi şəxslərin öz aralarında maliyyə münasibətlərini tənzimləyən hüquq normalarının təsiri həlledici rola malik olur.

Büdcə tənzimlənməsinin strategiyası. Büdcənin tənzimlənmə strategiyasi dedikdə sosial iqtisadi inkişafın orta və uzunmüddətli məqsədlərinə nail olmaq üçün dövlətin vəsaitlərinin və cəhdlərinin istiqamətləndirilməsi nəzərdə tutulur.

Müasir şəraitdə büdcənin tənzimlənmə strategiyası ölkənin sosial-iqtisai sisteminin müasirləşməsinin uzunmüddətli vəzifələri ilə müəyyən olunur. Konkret olaraq büdcə strategiyası Rusiya Federasiyası prezidentinin parlamentə ünvanladığı ümumi və büdcə bəyanatlarında formalaşır.

Büdcə strategiyası və büdcə siyasətinin nəzəri əsasları kimi iqtisadi siyasətin ümumi elmi ideologiyasının bu və ya digər tipini nəzərdə tutmaq olar. Burada klassiklərin bazar iqtisadiyyatı barədə baxışlarından başlayaraq, yeni keynsçilik və yeni liberalizmin müasir təsəvvürlərinə qədər müxtəlif ideyalar spektri aiddir. Nəticədə bazar pul-kredit və maliyyə alətləri və tənzimləyiciləri onlara müvafiq olaraq uyğunlaşdırılır (bax: cədvəl 4).

Klassik məktəb dövlət tənzimləməsinə əhəmiyyət vermir və hesab edir ki bazar "təbii bazar qanunları" ilə özünü tənzimləməlidir. Keynsçi yanaşma məhz dövlət tənzimlənməsinə, o cümlədən fəal maliyyə siyasətinə, iqtisadi artımın dövlət xərclərinin artırılması vasitəsilə qorunmasına (buraya eləcə də iqtisadiyyatın büdcə kəsiri hesabına maliyyələşdirilməsi aiddir) böyük əhəmiyyət verir. Monetarizm dövriyyədə olan pulun miqdarını əsas tənzimləyici alət hesab edir. Lakin bu zaman pul kütləsi (M2) iqtisadi artımın qarşısını almamalı, geniş təkrar istehsala və məcmu ictimai kapitalın dövriyyəsinə kifayət etməlidir.

2. Büdcə sisteminin funksiyalarının aktivləşdirilməsi

Rusiyanın maliyyə - büdcə siyasətinin tipologiyası. Bazar islahatlarının əvvəlindən başlayaraq Rusiyada spesifik maliyyə - iqtisadi siyasət strategiyası həyata keçirilir. Intensiv dövlətsizləşdirmə və özəəlləşdirmə şəraitində bu strategiya özünəməxsus liberal – məcburi monetarizm idealogiyasını reallaşdırır. Bu idealogiya pul təklifinin (iqtisadiyyatın kreditləşdirilməsi) və daxili məqsədlərə büdcə xərclərinin ("qeyri-faiz xərcləri") məhdudlaşdırılmasını, həmçinin enerji daşıyıcılarına daxili qiymətlərin dünya səviyyəsinə qədər artırılmasını nəzərdə tutur. Bu isə təkrarlanan xərc inflyasiyası dalğalarına səbəb olmaqla, rus sahibkarlarının rəqabət qabiliyyətliliyini aşağı salır. Bu strategiya şəxsi-fərdi kapitalın ixracını liberallaşdırır və xarici dövlət borclarının intensiv ödənilməsi vasitəsilə büdcə vəsaitlərinin dövlət tərəfindən ixracının genişləndirilməsini nəzərdə tutur.

Bu yanaşma nəticəsində pul kütləsinin "sterilləşdirilməsi" məqsədi ilə əlavə büdcə gəlirlərinin rezervləşdirilməsi (dondurulması) və Mərkəzi Bankın valyuta ehtiyyatlarının xarici aktivlərə keçirilməsi baş verir, bu isə iqtisadi tədiyyə dövriyyəsinin rubl demonetarizasiyasını aşmağa imkan vermir.

Pul-kredit və büdcə sisteminin bu tip strategiyası antikeynsçi istiqamətə aid olub, praktikada dövlətin təkrar istehsal prosesində fəal iştirakının məhdudlaşdırılması ideologiyasını həyata keçirir. Bu zaman dövlət təsərrüfat subyektlərinin hüquq münasibətlərinin tənzimləyicisi olmaqla bərabər eyni zamanda maliyyə ehtiyatlarının (ÜDM-un 30 %-nə qədər) istehlakçısı olaraq qalır.

Uzunmüddətli prespektivdə iqtisadi tsiklin göstərilən strategiyaya reaksiyası yalnız staqnasiyanın davam etməsindən, transformasiyalı keçid prosesinin uzanmasından və böhranın dərin eniş fazasında minimal iqtisadi artımın təzahür etməsindən ibarət ola bilər.

Büdcə siyasətinin alternativ ssenariləri. Elmi və siyasi disskusiyalarda, qanun yaradıcılığı prosesində büdcə strategiyasının və bütün maliyyə-iqtisadi siyasətinin alternativ ideyaları irəli sürülür.

Variantlılıq, ssenarilik büdcə siyasətində və büdcə vergi proqnozlaşdırma və planlaşdırılmasında yolverilən və məqsədəuyğun hesab edilir. Hüquqi yanaşmada, Rusiya Federasiyasi konstitusiyası Büdcə və Vergi məcəllələri federal büdcənin varianlı və ssenarili texnologiyalardan istifadə ilə formalaşdırılması və baxılmasını qadağan etmir. Federal konstitusaiya və federal qanunlar birbaşa olaraq razılaşdırma prosedurallarının tətbiqinə istiqamətlənir, bu isə qanunverici vəzifələrin həllində, xüsusilə də büdcə vergi siyasəti sferasında müxtəlif varianların razılaşdırlması mümkünlüyünü nəzərdə tutulur.

İllik büdcə-vergi planlaşdırmasında və müvafiq olaraq parlament tərəfindən təsdiqlənən qanunlarda olan variantlıq və ssenarilik sosial iqtisadi inkişafın proqnozlaşdırılmasında olan variantlılıq və ssenarilərlə uyğunlaşdırılır.

"Büdcə layihəsinin tərtib edilməsi və baxılması gedişində ərazinin sosial iqtisadi inkişafı proqnozlarında baş verən dəyişiklik büdcə layihəsinin əsas xarakteristikalarının da dəyişməsinə səbəb olur." (Rusiya Federasiyasının büdcə Məcəlləsi, maddə 173).

Büdcə layihələrinin başlıca çatışmazlığı məhz onların alternativsiz olması, yəni fövqəladə ssenari şərtlərinin və müvafiq qanunverici həll variantlarının zəif işləməsidir. Məsələn, beynəlxalq maliyyə təşkilatları ilə qazrşılıqlı əlaqələr etibarlı olmaya bilər; rublun valyuta kursu effektiv nəzarətdən çıxa bilər və yaxud vergi qanunvericiliyində baş verən dəyişikliklər nəticəsində büdcənin gəlir bazasında qeyri-müəyyənliklər baş verə bilər. Həmçinin büdcənin gəlir hissəsinə əsaslı təsir edəcək amillərdən biri də xarici iqtisadi konyukturdur (məsələn, neftin qiyməri və s.).

1998-ci il avqust böhranından sonra aşkar görünür ki, büdcə strategiyasının təkmilləşməsi, onun böhran əleyhinə tədbirlər proqramı əsasında dəyişdirilməsi zəruridir. Bəs bu hansı tədbirlərdir?

- Əsas diqqətin ən mühüm daxili sosial problemlərə, iqtisadi artım və ölkənin təhlükəsizliyinin təmin edilməsi vəzifələrinə yönəldilməsi. Bu zaman əsas məqsədlərə həm ölkə, həm ayrı-ayrı regionlarda istehsal həcminin artması və vətəndaşların real gəlirlərinin yüksəldilməsi aid olmalıdır.

- Büdcə prosesinin uzunmüddətli büdcə strategiyasısı əsasında müəyyən olunan prioritetlərə istiqamətləndirilməsinin təmin edilməsi.
- Büdcə sisteminin hər bir səviyyəsinin funsional səlahiyyətlərinin dəqiqləşdirilməsi və büdcə xərclərinin miqdarını hər bir büdcə xidməti növünün normativləri əsasında müəyyən edilməsi.
- Ümumu büdcənin ərazi vahidləri üzrə nisbətlərinin tənzimlənməs, regional büdcələrin maliyyə bazasının möhkəmləndirilməsi, federal büdcənin xərclərinin ərazi strukturunun təkmilləşdirilməsi.
- Gəlirlər sahəsində büdcə siyasətinin əsas məqsədi kimi büdcə gəlirlərinin formalaşmasına iqtisadiyyatın kölgə və güzəştli sektorlarının cəlb edilməsi. Bu həm dövlətin maliyyə rersuslarının həcminin əhəmiyyətli dərəcədə artırılmasına, həm də vergi yükünün azaldılmasına (iqtisadi aktivliyi artırmaq məqsədilə) şərait yarada bilər.
- Vergi sisteminin əsaslı müasirləşdirilməsi. Bu proses ilk növbədə əmlaka yeni vergilərin qoyulması (kölgə iqtisadiyyatından təsərüfat dövriyyəsinin böyük hissəsini çıxartmaq məqsədilə), renta ödənişlərinin rolunun artırılması, eləcə də vergi güzəştlərinə yenidən baxılması hesabına reallaşdırıla bilər.
- Tənzimləyici vergi sisteminin, büdcə sisteminin bütün səviyyələrində vergi gəlirllərinin bölgülü formalaşdırılması sistemi ilə əvəz olunması.
- İxrac və idxalın gömrük tənzimlənməsinin təkmilləşdirilməsi, bu yolla xarici iqtisadi fəaliyyətin iştirakçıları tərəfindən gömrük rüsumlarının ödənilməsi prosedurunun "kölgə"dən çıxarılması; yüksək texnologiyaya əsaslanan məhsulların stimullaşdırılması; idxalı əvəz edən istehsalatın inkişaf etdirilməsi.
- Büdcə gəlirlərinin toplanması əsasında dövlətin sosial sferada, elm və təhsil sahəsində əsas öhdəliklərinin norma-

tivlərə uyğun yerinə yetirilməsi. Əhalinin gəlirləri və sosial müavinətlər sisteminin köklü islahatı.

- Büdcə vəsaitlərinin iqtisadi artım üçün şəraitin yaradılmasına və məcmu ictimai tələbin stimullaşdırılmasına yönəldilməsi. Aktiv investisiya siyasətinin həyata keçirilməsi. İnnovasiyaların xüsusi vurğulanması.
- Maliyyələşdirmənin proqram – məqsəd metoduna keçilməsi. Vəsaitlərin bir neçə prioritet proqramlara yönəldilməsi. Müxtəlif səviyyəli büdcələrin indiqativ planlaşdırılması sisteminin yaradılması. Rəqabət qabiliyyitli məhsul istehsalını təmin edən sifariş və kontraktların müsabiqə yolu ilə bölüşdürülməsi (xüsusilə də innovasiya sferasında).

Dövlətin iqtisadiyyatda iştirakının miqyas və sərhədlərinin mövcid sosial iqtisadi şəraitdən asılı olaraq müəyyən edilməsi, həyata keçirilən büdcə siyasətinin effektivliyinə əsaslı təsir göstərir. Bizim üçün həm iqtisadi cəhətdən yüksək inkişaf etmiş bir çox dövlətlərin, həm də son onillikdə sistemli transformasiyadan keçmiş Şərqi Avropa ölkələrinin tarixi təcrübəsi çox vacibdir. Bu təcrübə belə bir fikrin əsassız olduğunu sübut edir ki, guya iqtisadi artım tempinin yüksəlməsi mütləq milli gəlirin yenidən bölgüsündə dövlətin iştirakının sürətlə zəifləməsi ilə müşaiyət olunmalıdır. Əksinə, beynəlxalıq müqayisələr onu göstərir ki, dövlətin büdcəsi nəinki, iqtisadi artımın ən mühüm amilidir, o həmçinin cəmiyyətdə iqtisadi və sosial stabilliyin təminatşısı kimi də çıxış edir.

Əgər bir qrup inkişaf etmiş sənaye ölkələrində uzun dövr ərzində dövlət xərclərinin səviyyəsi göstəricilərinə baxsaq, onların ÜDM-də payının artması tendensiyasını aydın müşahidə edirik. Belə ki, ABŞ-da federal büdcənin və ştatların büdcələrinin məcmu xərclərinin ÜDM-da payı 1929-cu ildə 10% ; 1950-ci ildə 21% ; 1993-cü ildə 38.7%; 1996-98-ci illərdə 33%-ə yaxın olmuşdir.

Qərbi Avropa ölklərinin çoxunda dövlət xərclərinin ÜDM-da payının orta göstəricisi 20-ci illərdə olan 15.4%-dən 80-ci illərdə 42.6%-ə qədər yüksəlmiş; 90-cı illərdə isə 50% ətrafında olmuşdur. Bu xərclər İsveç və Norveçdə ÜDM-un 60%, AFR-də 54%-nə çatmışdır.

Keçid iqtisadiyyatı ölkələrində dövlət xərclərininin ÜDM-da xüsusi çəkisinin müqayisəsi daha maraqlıdır. Müsbət təsərüfat dinamikasına malik olan Polşa, Macarıstan, Sloveniyada dövlət xərcləri ÜDM-nin 45-50%-ni, istehsalın azalmaqda davam etdiyi Bolqariya və Rumıniyada isə 25-35 %-ni təşkil edir. Diqqətçəkiəndir ki, böhranın sürətlə keçib, iqtisadi artıma başlamış ölkələrdə ÜDM-da dövlət xərclərinin payı nəinki azalmayıb, hətta əksinə, məcmu tələbin artması vasitəsilə böhranı aşmaq məqsədilə məhz iqtisadi enmə dövründə daha da artırılıb. Məsələn, 1990-93-cü illərdə Macarıstanda o 62 %-ə çatıb, Polşa və Sloveniyada isə stabil olaraq 50 % təşkil edib.

Bununla bərabər, dövlət xərclərinin həcminin yüksək səviyyədə saxlanılması onların strukturunun dəyişilməsi ilə müşayiət olunub. Belə ki, həmin illərdə Şərqi Avropanın bütün ölkələrində sənayeyə dövlət subsidiyalarının həcmi kəskin (2-3 dəfə) azalıb. Eyni zamanda təhsilə və elmə xərclər kifayət qədər yüksək səviyyədə saxlanılıb. Məsələn Macarıstan, Çexiya və Polşada təhsilə ayrılmış vəsaitin ÜDM-yə nisbəti bütün 90-cı illər ərzində dəyişməz qalmışdır, halbuki, Bolqariyada bu göstərici iki dəfə azalmışdır.

Sosial iqtisadi inkişafın və islahatların gedişi barədə göstəricilərin müqayisəsi həmçinin o təsəvvürlərin əsassızlığını göstərir ki, guya gəlirlərin qeyri bərabərliyinin kəskin gözlənilməsi təsərrüfat fəallığına müsbət təsir edir. Əksinə, postsosialist ölkələrində gəlirlərin diferensasiyasını səviyyəsinin və dinamikasının qiymətləndirilməsi sübut edir ki, müəyyən səviyyədən kənara çıxmaqda gəlirlərin qütbləşməsi nəinki iqtisadi artımı stimullaşdırmır, hətta ona mane olur. Belə ki, indiki dövrdə Çexiya, Slovakiya, Polşa, Macarıstan və Sloveniyada 10 % ən varlı ailələrin orta gəliri ən kasıbların gəlirindən 4.5-5.5 dəfə artıqdır. Müqayisə üçün, Bolqariyada bu göstərici 10-dan böyükdür, Rusiyada isə təqribən 15-ə bərabərdir. Onu da qeyd etmək zəruridir ki, sistem transformasiyadan əvvəl əhalinin ən varlı və ən kasıb hissələrinin gəlirləri arasında nisbət göstəricisi bütün Şərqi Avropa ölkələri üçün 2.5-3 dəfə təşkil edirdi. Indiki zamanda bu göstərici əksər sənayecə inkişaf etmiş ölkələr üçün orta hesabla 5-ə bərabərdir.

Bu ana qədər federal büdcə haqqında növbəti qanunun qəbulu zamanı əsas diqqət maliyyə rasuslarının necə bölüşdürülməsinə yönəldilir. Büdcə vəsaitləri hesabına həll edilməsi planlaşdırılan məqsəd və vəzifələrlə bağlı, eləcə də bu vəzifələrin icrası üçün dövlətin öz üzərinə götürdüyü öhdəliklərlə əlaqədar suallar isə nəzərdən kənarda qalır. Həmçinin, yerinə yetirilmiş xərclərin effektivliyini müəyyən edən dəqiq meyyarlar da mövcud deyil.

Vəziyyəti dəyişdirmək üçün dövlətin gəlir və xərclərinin mahiyyəti və məzmunu, onların səviyyəsi, ümummilli vəzifələrin reallaşdırılmasında büdcənin rolu və s. bu kimi prinsipial suallar aydınlaşdırılmalıdır. İlk növbədə dövlət müəyyən etməlidir ki, hansı işləri və hansı həcmdə görməyə hazırlaşır, hansı konkret nəticələrə nail olmalıdır. Bundan sonra müəyyən edilməlidir ki, bu fəaliyyəti kim və hansı həcmdə maliyyələşdirməlidir. Yalnız bu halda gəlirlər və xərclər arasında əlaqə aydınlaşır, gəlirlərin mərkəzləşdirilməsi, xərclərin əlverişli müəyyən edilməsi və borcların əsaslandırılması mümkün olur.

Federativ quruluş zamanı olduqca mühümdür ki, federal büdcə mərkəzinin deyil, bütün ölkənin büdcəsi kimi çıxış etsin. Onun məqdəsi ölkənin vahidliyini qorumala, bütün vətəndaşları müəyyən sosial nemətlərlə təmin etməkdın ibarətdir. Bu gün isə federal büdcnin xərclərinin maliyyələşdirilməsi, dövlər borcunun ödənilməsi və ümumdövlət xarakterli bir sıra məqsədlər istisna olmaqla, konkret regionlar çərçivəsində həyata keçirilir (baxmayaraq ki, vəsaitlər transfertlər, subsidiyalar və dotasiyalar formasında bilavasitə regional büdcələrə çatdırılmır). Bir sözlə, federal büdcə, hələ ki, dövlətin regional siyasətinin real alətinə çevrilə bilməyib.

Son onillik ərzində real dövlət xərclərinin həcminin azaldılması ona səbəb olmuşdur ki, Rusiyada dövlət onun mühüm atributu olan əsas funksiyaları yerrinə yetirə bilmir. Bununla bərabər onun qarşısında bir çox sosial-iqtisadi, hərbi-siyasi xarakterli təxirəsalınmaz problemlər durur. Onların həlli büdcənin xərc hissəsini əsaslı artırmadan mümkün deyildir. Buna isə yalnız ÜDM-in stabil artımı və büdcə gəlirlərinin yüksəldilməsi hesabına nail olmaq olar. Bununla əlaqədar olaraq xərclərin effektivliyinin yük-

səldilməsi, xərclənmiş vəsaitin hər vahidinə daha çox son nəticə əldə edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Büdcə sisteminin funksiyalarının möhkəmləndirilməsi. Büdcənin bazar iqtisadiyyatında eləcə də keçid iqtisadiyyatında reallaşdırılan bir sıra funksiyaları var:

- Dövlət və cəmiyyətin ehtiyacları üçün maliyyə vəsaitlərinin akkumlyasiyası və mərkəzləşdirilməsi.
- Sosial-iqtisadi proseslərin tənzimlənməsi
- Investisiya funksiyası
- Maliyyə vəsaitlərinin yenidən bölgüsü (ərazi-regional, sahələrarası, sosial)
- Sosial müdafiə funksiyası
- Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması (kapital yığımı)
- Dövlətin və onunla qarşılıqlı əlaqədə olan strukturların maliyyə gəlirləri və xərcləri üzərində nəzarət.

Rusiyanın keçid iqtisadiyyatında büdcə xüsusi funksiyalara da malikdir:

- Bazar iqtisadiyyatına keçidin maliyyə təminatı
- Makroiqtisadi parametrlərin və bazar mühitinin, eləcə də iqtisadi subyektlərin bazar davranışlarının formalaşdırılması

Bazarın funksiyaları qarşılıqlı asılıdır və bir-birinə təsir göstərir. Ən sıx əlaqə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, kapital yığımı və maliyyə vəsaitlərinin mərkəzləşdirilməsi funksiyaları arasındadır. Sadə formada bu əlaqə asılılıq kimi göstərilə bilər. Büdcədə vəsaitlərin akkumlyasiyası və mərkəzləşdirilməsi nə qədər az olarsa, sahikarlıq fəaliyyətinin stimullaşdırılması və kapital yığımına meyllilik o qədər artmış olar. Təcrübədə bu sahikarlıq fəaliyyətinə vergi yükünün ağırlığı səviyyəsində, inzibati, maliyyə, vergi, valyuta nəzarətinin dərəcəsinə; sahibkarlığa dövlət tərəfindən büdcə və ya digər mailyyə yardımının miqyas və üsullarında özünü göstərir.

Lakin büdcənin digər funksiyalarının əhəmiyyətini azaltmaq düzgün olmazdı. Məsələn, tənzimələmə funksiyası, makroiqtisadi parametrlərə təsir (faiz dərəcəsi, pul kütləsi, valyuta kursu) bilavasitə müəssisələrin, bankların, maliyyə institutlarının qiymətli

kağızlar bazarının maraqlarına toxunur və maliyyə vəziyyətinə təsir göstərir.

Dövlətin büdcə sisteminin yerinə yetirməli olduğu sosial müdafiə funksiyası sahibkarlıq sferasını sosial partlayışlardan müdafiə edir. Dövlət, sosial xərclərin yükünü öz üzərinə götürməklə müəssisələrə və sahibkarlara şərait yaradır ki, vergilərin ödənilməsindən sonra qalan mənfəət hesabına sosial məqsədlərə xərcləri və istehsal xərclərini azaltsınlar. Dövlətin təhsilə, mədəniyyət və incəsənətə, sosial təminat və sığortaya xərcləri bazar iqtisadiyyatına sosial yönüm verir, onu humanistləşdirir.

Müəyyən mənada bu muzdlu əməyin effektiv istifadəsini tələb edən sahibkarlığın müdafiəsi strategiyasıdır. Dövlətin bu yatırımlarına "insan kapitalı"na yatırım, əsas istehsal amili olan ixtisaslı işçi qüvvəsinin hazırlanmasına investisiya kimi də başa düşmək olar. Bu isə sahibkarları bir çox xərclərdən azad edir və onun payına yalnız bu işçi qüvvəsinin cari saxlanılması funksiyası (əmək haqqı) düşür.

Bugünkü böhran vəziyyətində Rusiyanın büdcə sistemimi, sahibkarlığın inkişafına birbaşa və ya dolayı təsir edən funksiyalar üzrə kifayət qədər effektiv deyildir. Maddi istehsalın və "insan kapitalı"na yatırımların büdcə tərəfindən zəif dəstəklənməsinin bir sıra səbəbləri var: büdcə vəsaitlərinin çatışmaması, sahibkarların və biznesin maraqlarına təsir göstərən alətlərin (iqtisadi, maliyyə, büdcə, vergi) tənzimlənməsi. Rusiyada yeni tipli büdcənin formalaşdırılması prosesi hələ yekunlaşmayıb. Bu vəzifənin həlli kəskin büdcə böhranı nəticəsində daha da şətinləşir. Iqtisadiyyatın real sektorundakı böhran və vergi sisteminin qeyri-effektivliyi isə büdcə böhranlarını kəskinləşdirir.

3. Büdcə sisteminin effektivliyi

Büdcə potensialı. Keçid iqtisadiyyatında büdcə sisteminin fəaliyyətinin və büdcə siyasətinin effektivliyi büdcə potensialından çox asılıdır. Büdcə potensialı dedikdə büdcə mexanizminin maliyyə vəsaitlərini dövlətin əlində akkumlyasiya edə bilmək bacarığı başa düşülür. Keçid iqtisadiy-

yatında büdcə potensialına və onun dinamikasın atəsir edən, əsas büdcə proporsiyalarını formalaşdıran yeni amillər, şərtlər və qanunauyğunluqlar fəaliyyət göstərir.

Ölkənin büdcə potensialı maliyyə vəsaitlərinin akkumlyasiyasının potensial imkanlarını xarakterizə edir (mümkün büdcə potensialı).

Bununla yanaşı, real büdcə potensialı da fərqləndirilir. Real büdcə potensialı büdcə sistemində faktiki olaraq akkumlyasiya edilən büdcə vəsaitlərinin həcmini göstərir. Faktiki büdcə potensialı cari qiymətlər və inflyasiya göstəriciləri nəzərə alınmaqla hesaba alına bilər.

Büdcə potensialı kateqoriyasına əsaslanaraq dövlətin öz funksiyalarını, o cümlədən iqtisadiyyatı tənzimləmə funksiyasını reallaşdırmaq imkanlarını qiymətləndirmək olar. Büdcə potensialının yüksəlməsi və ya enməsi büdcənin və bütün dövlətin investisiya, sosial, müdafiə, tənzimləmə funksiyalarında əks olunur. Bir qayda olaraq, iqtisadi böhran şəraitində inkişaf edən keçid iqtisadiyyatında, büdcə potensialının əhəmiyyətli dərəcədə azalması, mümkün və faktiki potensial arasında böyük fərqin olması müşahidə edilir. Müəyyən dövrlərdə maliyyə siyasəti üçün nominal və real büdcə arasındakı fərq də əhəmiyyət kəsb edir. İnflyasiya şəraitində inflyasiyaya əsaslanan gəlirin artımı mənbələri və müvafiq olaraq xərclərin həcminin artması baş verir. Əksinə, inflyasiyanın kəskin aşağı düşməsi zamanı isə həm büdcə, həm də müəssisələr inflyasiya gəlirlərini itirir. Əgər inflyasiya konyukturunun dəyişilməsi maliyyə siyasətində tam nəzərə alınmasa, bu, büdcə böhranlarının dərinləşməsinə səbəb olacaq.

Büdcə vergi siyasətinin, maliyyə qanunvericiliyinin, büdcələrarası münasibətlər mexanizminin, sosial və investisiya siyasətinin işlənib hazırlanması zamanı büdcə potensialı ilkin baza kateqoriya kimi nəzərdən keçirilməlidir. Məsələn, bazar islahatları illəri ərzində Rusiyanın real büdcə potensialı təqribən 3 dəfə azalıb. Bu vəziyyətdə büdcənin istehlaka, sosial himayəçiliyə yönəldilməsinin qarşısını almaq çətinləşir və büdcə məhdud resusların bəsit yenidənbölgü mexanizminə çevrilir. Vəsaitlərin əsasən

istehlak fonduna yönəldilməsi nəticəsində istehsalın yığım potensialı təhlükəli dərəcədə minimallaşır.

Təcrübədə büdcə potensialı büdcə sistemi və dövlət büdcədənkənar fondları vasitəsilə reallaşır. Rusiya Federasiyasının konstitusiyasında və büdcə qanunvericiliyində "Dövlət Büdcəsi" anlayışı olmadığına görə təcrübədə birləşdirilmiş (Konsolidasiya edilmiş) büdcə anlayışından ümumiləşdirici kateqoriya kimi istifadə olunur.

Rusiyanın konsolidasiya edilmiş büdcəsi ÜDM-un vəsaitlərinin təqribən 1/3-ni akkumlyasiya edir (vahid sosial verginin bir hissəsi də daxil olmaqla). Ümumilikdə ev təsərüfatlarının xeyrinə, eləcə də dövlət borcuna xidmət və onun qaytarılması məqsədilə büdcə vəsaitlərinin yenidən bölgüsündən sonra, dövlət sektorunun son istehlakının ÜDM-da payı bazar iqtisadiyyatlı ölkələrə nisbətən təqribən iki dəfə azdır. Bununla bərabər, perspektivdə dövlət istehlakının həcminin artacağı proqnozlaşdırılmır.

Eyni zamanda ev təsərüfatının və əsas kapitalın yığımının hesabına gözlənilən daxili tələbin artması müsbət tendensiyadır. Lakin xalis ixracın (xarici tələb çıx idxal) xüsusi çəkisi hələ də həddindən artıq böyükdür. 2000-2001-ci illərdə bu göstərici, Rusiyanın dövlət təşkilatlarının son istehlakından 1.7 dəfə çox olmuşdur.

Cədvəl 5.

Göstəricilər	2000-ci il (hesabat)	2004-cü il	
		I variant	II variant
Son tələb	100	100	100
Daxili tələb:	64.0	76.0	75.0
Ev təsərrüfatlarının son istehlakı			
Dövlət təşkilatlarının son istehlakı	37.0	45.0	44.2
Əsas kapitalın məcmu yığımı			
Digər	11.5	11.6	11.7
Xarici tələb (ixrac)	14.4	17.5	17.2
	1.1	1.9	1.9
	36.0	24.0	25.0

Dövlət tələbinin artması daxili bazarın genişlənməsinə və yerli istehsalın inkişafına təkan verir. Əgər dövlət yerli sahibkarlığı

dəstəkləməyə başlasa (xüsusən də emal sənayesi, xidmət və kiçik biznes sferasında), büdcə siyasəti vasitəsilə daxili bazarın həcmini artırmaq mümkündür.

Bu büdcə strategiyası şərçivəsində federal büdcə ilə iqtisadiyyatın real sektoru arasında maliyyə əlaqələri çox zəifdir. Bu sahələrin strukturlarının dəyişdirilməsi və müasirləşdirilməsi siyasətini və iqtisadi artım siyasətini formal niyyətlərə, lozunqlara çevirir, onları təsirli rıçaqlardan məhrum edir.

Rusiyanın büdcə sistemi demək olar ki, tam olaraq yalnız qeyri-istehsal istehlakı üçün və dövlət borcunun qaytarılması vəsaitlərin iqtisadi sistemdən çıxarılmasına xidmət edir. Elə bir vəziyyət yaranır ki, büdcə siyasətinin qəbul olunmuş qaydaları hökümətin əlavə gəlirlərdən effektiv istifadəsinə də imkan vermir. Bundan əlavə, investisiya vəsaitlərinin çatışmazlığı və xarici investorlara dəfələrlə təkrarlanan çağırışlardan sonra bu vəsaitlər faktiki olaraq dondurulur və iqtisadi dövriyyədən çıxarılır. Deməli, iqtisadiyyatın, xüsusilə də istehsal xarakterli sahələrin büdcə-maliyyə əlaqələrini inkişaf etdirmək və diversifikasiya etmək, maliyyə-kredit sferasından tədavül sferasına və sənaye kapitalının təkrar istehsalına yönələn maliyyə axınlarının tənzimlənməsində büdcə alətlərindən və büdcə texnologiyalarından aktiv istifadə etmək zəruridir.

Struktur yenidənqurmasının və iqtisadi artımın bərpasının prioritet problemlərinin həlli yeni tip büdcə-vergi mexanizminə və yeni büdcə siyasətinə tələb yaradır. Onların xarakterik xüsusiyyətləri isə onlarda investisiya meylliyinin olmasıdır. Yəni indi mövcud olan fiskal-istehlak tipli büdcə-vergi mexanizmindən, aktiv investisiya funksiyalarına malik büdcə-vergi mexanizminə keçmək lazımdır.

Büdcə kəsri iqtisadiyyatın və maliyyə sisteminin dayanıqlığı, büdcə siyasətinin effektivliyi büdcə kəsrinin bu və ya digər səviyyəsi ilə xarakterizə olunmalıdır. Bəzən büdcə kəsrinin azaldılmasını keçid dövründə ölkənin iqtisadi siyasətinin hətta ən vacib funksiyası da sayırlar. Təbii ki, büdcə kəsiri iqtisadiyyatın stabilləşdirilməsinin yeganə amili və göstəricisi ola bilməz, lakin onun mühüm sintezedici rolunu inkar etmək olmaz.

Büdcə kəsri o zaman yaranır ki, büdcənin xərcləri onun gəlirlərini üstələsin. Bu əlavə xərclər daxili və xarici maliyyə bazarlarından, öz Mərkəzi Bankından borclar, eləcə də yeni vergilər hesabına ödənilir. Rusiyanın vəziyyətində büdcə kəsirinin maliyyələşdirilməsinin digər mənbələri də var: dövlət ehtiyatından qiymətlilərin reallaşdırılması, özəlləşdirmədən və dövlətin sahibkarlıq fəaliyyətindən gəlirlər, əhalinin pul, həmçinin valyuta əmanətləri.

Keçid iqtisadiyyatında dövlət kapitalından (səhm, pay), unitar müəssisələrin fəaliyyətindən dövlət əmlakının satışından böyük maliyyə gəlirlərinin götürülməsi mümkündür. Lakin sürətləndirilmiş özəlləşdirmə bu bazarı məhv edib. Dövlət əmlakının pulsuz və güzəştli ötürülməsi metodundan aktiv istifadə nəticəsində bu əmlak talan olunub. Həmçinin geniş yayılmış korrupsiya, özbaşınalıq və dövlət əmlakına nəzarət sisteminin olmaması da bu prosesə "xidmət göstərib". Nəticədə investisiya mənbələri cari xərclərin ödənilməsinə büdcə kəsrinin maliyyələşdirilməsinə, o cümlədən xarici borclara xidmətə və ödənilməsinə yönəldilib. Iqtisadiyyatın böhranı və müəssisələrin maliyyəsinin dağıdılması şəraitində büdcə kəsrinin maliyyələşdirilməsi problemi əsasən monetar siyasətin üsulları vasitəsilə həll olunurdu. Borc bazarına müraciət olunurdu, gəlirliyi yüksək olan dövlət qiymətli kağızları kütləvi surətdə buraxılırdı, xarici borclar artırdı.

Faktiki olaraq dövlət iqtisadiyyatın real sektoruna investisiyalardan imtina etdi, real göstəricilərdə müdafiəyə və sosial ehtiyaclara dövlət xərclərini kəskin aşağı saldı. Rusiyanın spesifik şəraitində büdcə kəsirinin dövlət qısamüddətli iztiqrazları və OFZ hesabına maliyyələşdirilməsi bank kapitalının dövlət maliyyəsi sferasına axımını genişləndirdi. Bu, istehsal sahələri müəssisələrində kapitalın təkrar istehsalı imkanlarının qarşısını alırdı. Eyni zamanda, dövlət borcunun qaytarılması və ona xidmət üzrə büdcənin xərcləri də artırdı. Lakin büdcə kəsirinin düzgün siyasəti nəzərdə tutur ki, bank sisteminin, maliyyə bazarlarının vəsaitləri, əhalinin əmanətləri bazarın inkişafının sürətlənməsi və iqtisadiyyatın kapitallaşdırılması məqsədilə istifadə olunsun.

Şübhəsiz ki, büdcə kəsirinin maliyyələşdirilməsi mənbələri və mexanizmi hərbi və ya sosial proqramların icrasına, dövlət

borcunun ödənilməsinə yönəldilə bilər. Lakin bu uğurlu yol deyil. Alternativ, eyni zamanda daha effektiv həllər də mövcuddur. Büdcə sistemi vasitəsilə mərkəzləşdirilmiş əlavə vəsaitləri investisiya məqsədlərinə, xüsusən də bazar və istehsal infrastrukturunun inkişafı proqramlarına yönəltmək lazımdır. Iqtisadi artımı dəstəkləyən və stimullaşdıran dövlətlər investisiya stimullaşdıran büdcə siyasəti həyata keçirirlər və bu zaman büdcə kəsirinin maliyyələşdirilməsi mexanizmlərindən istifadə edirlər.

Büdcə federalizmi. Büdcə federalizmi sistemi vergilər, ödənişlər, büdcə təxsisatları və xərclər hesabına cəmiyyətin pul vəsaitlərinin formalaşdırılması, sərəncam verilməsi və istifadəsi üzrə dövlətin hakimiyyət səviyyələrinin və strukturlarının iqtisadi və siyasi maraqlarının qarşılıqlı əlaqəsini ifadə edir. Büdcə bərabərləşdirməsi büdcə federalizminin başlıca problemlərindən biridir. Bərabərləşdirmənin şaquli və üfüqi növləri fərqləndirilir. Bərabərləşdirmənin şaquli növü dedikdə regional büdcənin xərc funksiyaları ilə onun gəlirləri arasında olan uyğunsuzluqların aradan qaldırılması nəzərdə tutulur. Rusiya hökuməti ixtiyari regiondan daha artıq iqtisadi tənzimləmə imkanlarına və vergi gəlirlərinə malik olduğuna görə, federal büdcədə akkumulyasiya olunmuş vəsaitlər hesabına regional büdcələrin disbalansını aradan qaldırır.

Regional və yerli hakimiyyətə gəldikdə isə, şaquli balanslaşdırma prinsipi onların üzərinə öz funksiyalarının maliyyə təminatını həyat keçirtmək, əhaliyə müvafiq xidmətlərin göstərilməsi (bilavasitə dövlət qurumları və təşkilatları tərəfindən, və ya xüsusi sektor vasitəsilə) kimi bir sıra əlavə məsuliyyətlər qoyur.

Şaquli bərabərləşdirmə büdcə balanslaşdırmasının bütün problemlərini həll etmir. O, büdcənin üfüqi balanslaşdırması prinsipi ilə uzlaşmalıdır. Bu prinsip, müxtəlif ərazilərin vergi imkanlarında olan qeyri-bərabərliyi aradan qaldırmaq və ya yüngülləşdirmək məqsədilə, vegilərin Federasiya subyektləri arasında mütənasib bölünməsini nəzərdə tutur. Büdcə federalizmi nəzəriyyəsində regionların qeyri-bərabərliyinin bu forması, ərazi amilindən irəli gələn sosial bərabərsizlik kimi qəbul olunur.

Rusiya Federasiyası şəraitində üfüqi balanslaşdırma vəzifəsi heç bir ölkədə olmayacaq qədər mürəkkəbdir. Müxtəlif regionların

iqtisadi vəziyyətindəki böyük fərqlər hər bir vətəndaşın dövlət tərəfindən bütün xidmət və rifahlarla təmin olunmasını çətinləşdirir. Belə ki, regional və yerli hakimiyyət orqanlarının büdcə imkanları və xərclərin səviyyəsi kəskin fərqlənir. Üstəlik, bazar prosesləri nəticəsində müəssisələrin sosial xərclərdən və sosial-məişət sferası obyektlərini saxlamaqdan imtina etməsi, işçilərin sayının azalması və onların dövlətə müraciət etməsi kimi amillər dövlətin təminat verdiyi sosial standartların hər bir kəsə təqdim olunmasına mənfi təsir göstərir.

Müasir şəraitdə hökumət qarşısında ikili vəzifə durur: Rusiya Federasiyasının büdcə, vergi və digər maliyyə ziddiyyətlərinin həlli üçün büdcə federalizminin imkalarından istifadə etmək və büdcə sisteminin vahidliyini və maliyyə həyatını tənzimləmə qabiliyyətini qoruyub saxlayaraq onun daha da mərkəzsizləşməsinə imkan verməmək.

Büdcə sisteminin və büdcə siyasətinin tənzimləyici funksiyasının effektivliyini artırmaq məqsədilə 2001-ci ilin avqust ayında 2005-ci ilə qədərki dövrdə Rusiya Federasiyasında büdcə federalizminin inkişafı Proqramı təsdiq olunub. Proqramin icrası, maliyyə resurslarının büdcə sisteminin səviyyələri arasında optimal bölgüsünü, müxtəlif səviyyəli büdcələrin tarazlaşdırılmasını təmin etmək məqsədilə büdcə quruluşu və büdcə tənzimlənməsi sisteminin formalaşdırılmasına və inkişafına yönəldilib. Bu, regionlarda və ümumilikdə ölkədə iqtisadi potensialın inkişafına xidmət etməli, vergi-büdcə məsuliyyətinin və səlahiyyətlərinin dəqiq müəyyən edilməsi hesabına müxtəlif səviyyəli hökumət orqnları arasında kompromisi təmin etməlidir.

Tədricən formalaşan rəqabət mühiti şəraitində xərc səlahiyyətlərinin dəqiq bölüşdürülməsi, "maliyyələşdirilməyən rubllar"ın aradan qaldırılması, vergi səlahiyyətlərinin genişləndirilməsi və gəlir mənbələrinin bölüşdürülməsində stabillik, obyektiv və sərt büdcə bərabərləşdirməsi Federasiya subyektlərinin hakimiyyət qurumları və yerli özünüidarə orqanlarına ictimai maliyyənin idarə edilməsində effektivliyin artırılması üçün əlavə stimullar yaradacaq. Eyni zamanda bu proses yeni büdcələrarası münasibətlər sisteminə adekvat olan federal tənzimləmə və idarəetmə mexanizmi vasitəsilə möhkəmləndirilməli və maksimal mümkün dərəcədə sürətləndirilməlidir.

Suallar və tapşırıqlar

1. Büdcənin yeni tipi özünü nədə büruzə verir?
2.Tərifin buraxılmış hissəsini tamamlatın:
Maliyyə tənzimləmə mexanizmi – tənzimləmə metodlarının məcmusudur ki, bunlar vasitəsilə dövlət və digər müvəkkil institut və tənzimləmə, idarəetmə orqanları ..... formalaşması və istifadə olunması proseslərinə, dövlətin sosial-iqtisadi siyasətinin məqsədlərinə çatması üçün təsərrüfat sübyektlərinin davranışına təsir göstərirlər.
3.Maliyyə tənzimlənməsi mexanizmi hansı əsas bloklardan ibarətdir?
4. İqtisadiyyatın müasir inkişaf mərhələsində büdcə strategiyası və büdcə siyasətinin əsasını nə təşkil edir?
5. Rusiyada dövlətsizləşdirmə və özəlləşdirmə şəraitində həyata keçirilən maliyyə-iqtisadi siyasətinin strategiyasının xüsusiyyəti nədən ibarətdir?
6.Hal-hazırda büdcə layihələrinin əsas catışmayan cəhəti hansıdır?
7.Antiböhran proqramı hansı əsas tədbirləri özündə cmləşdirməlidir?
8.Dövlət gəlirləri və xərclərinin mahiyyəti və məzmunu nədən ibarətdir?
9.Keçid iqtisadiyyatında büdcənin əsas funksiyalarını sadalayın.
10.Büdcə potensialı nədir?
11.Büdcə kəsiri nədir və onun əmələ gəlməsi səbəbləri hansılardır?
12. Tərifin buraxılmış hissəsini тamamlayın:
Büdcə federalizmi …….. sistemi və ……..sistemi vasitəsilə …… cəmiyyətin …… resurslarının formalaşması, mənimsənilməsi, idarə və istifadə edilməsinə yönəldilmiş dövlətin …… ifadə edir.
13.Büdcə tarazlaşdırması nədir?

© Любимцев Й.И., 2002

XV Fəsil

PUL-KREDİT VƏ MALİYYƏ-VALYUTA TƏNZİMLƏNMƏSİ

1. Dövlətin valyuta tənzimləməsi

Valyuta tənzimlənməsi və valyuta nəzarəti sistemi valyuta əməliyyatları üzrə qanunvericilik, normativlik və inzibati məhdudiyyətlərin kompleksini əks etdirir. Bu sahədə dövlət tənzimləməsi ölkənin iqtisadi təhlükəsizliyini təmin etməli, onun iqtisadiyyatının xarici iqtisadi əlaqələrinin genişləndirilməsi hesabına yüksəlməsinə köməklik göstərməli, dünya təsərrüfat sisteminə xarici ticarət üzrə inteqrasiyasına əlverişli şərait yaratmalıdır.

Rusiyanın dünya iqtisadiyyatına qovuşması «Valyuta münasibətləri» kompleksinin inkişafına gətirib çıxarmışdır. Bu isə öz növbəsində ölkədə valyuta bazarının formalaşması və onun dövlət tərəfindən tənzimlənməsi ilə nəticələnmişdir. Burada onun tətbiq ediləcəyi iqtisadi inkişafın mərhələlərinin müəyyənləşdirilməsi və ciddi nəzarətin həyata keçirilməsi məsələsi böyük aktuallıq kəsb edir. Bu məsələnin həllinə valyuta bazarlarının tənzimlənməsində inzibati və iqtisadi metodların tətbiqinin dünya təcrübəsi köməklik göstərir.

Məlumdur ki, hazırda inkişaf etmiş sənayeyə malik ölkələr praktiki olaraq inzibati metodlara müraciət etmirlər,

belə ki, bütün bunlar Beynəlxalq Valyuta Fondunun (BVF) prinsiplərinə uyğun deyil. Keçid dövrünü yaşayan ölkə üçün iqtisadi inkişafın müxtəlif mərhələlərində onun tərəfindən bu metodlardan imtina, onların tam dayandırılması da tətbiq edilməklə, əyani bir nümunə ola bilər.

Valyuta nəzarəti əksər dövlətlərdə, onlar üçün kritik dövrlərdə aktiv şəkildə istifadə olunur. Məsələn, müharibədən sonrakı illərdə iqtisadi münasibətlərin liberallaşdırılması dövründə iqtisadiyyatın bərpası zərurəti yaranmışdı. Valyuta nəzarəti həmçinin maliyyə sərbəstliyinin qorunub saxlanılması, pul sisteminin sabitliyi, milli valyutanın məzənnəsinin möhkəmləndirilməsi, valyuta ehtiyatlarının səfərbər edilməsi məqsədləri üçün də tətbiq edilirdi. Valyuta nəzarətinin forma və metodları müəyyənləşdirilərkən müxtəlif ölkələrin iqtisadi inkişafının xüsusiyyətlərindən asılı olaraq bir sıra ciddi fərqlər yaranırdı. Belə ki, nəzarət sisteminin fəaliyyət müddəti və valyuta məhdudiyyətlərindən imtina taktikasının seçilməsində nəzərəçarpan fərqlər mövcud olurdu. Buna baxmayaraq, belə dövlətləri bu fikir birləşdirir ki, müəyyən konkret tarixi, inkişaf mərhələsində bu mexanizmdən bacarıqla istifadə valyuta nəzarəti dövlətin iqtisadi siyasətinin mühüm elementinə çevrilə bilər. Bu təbiidir. Belə ki, o iqtisadiyyatın mürəkkəb transformasiyası prosesləri mərhələlərində bazar islahatlarının sabitliyini və tədriciliyini, dövlətin valyuta ehtiyatlarının qorunmasını təmin edir.

Valyuta nəzarəti sistemi müxtəlif dövrlərdə Fransa, Böyük Britaniya, Yaponiya, Almaniya, Avstriya, İtaliya, Yeni Zeladiya, İrlandiya, İspaniya kimi dövlətlərdə uğurla tətbiq edilib.

Hazırda praktiki olaraq bütün inkişaf etmiş dövlətlərdə valyuta nəzarəti ləğv edilib, belə ki, o artıq öz funksiyasını yerinə yetirmişdir. Lakin əksər inkişaf etməkdə olan dövlətlər, hansılar ki, keçid dövrünü yaşayırlar, bu sistemin imkanlarından bu və ya digər dərəcədə istifadə edirlər. Belə ki, BVF- nun məlumatına əsasən təqribən 50 dövlətin hüquqi aktlarında valyuta gəlirlərinin repatriasiyası məcburi şərt kimi öz əksini tapıb. Buraya Çin, Kipr, Çexiya, Macarıstan, İran, İsrail, Polşa,

ÇAR, Türkiyə və s. aiddir. İnzibati üsullarla valyuta əməliyyatlarını məhdudlaşdıran valyuta nəzarəti sistemi Macarıstanda və Çexiyada fəaliyyət göstərir. Yunanıstan və Portuqaliyada kapitalın hərəkəti ilə bağlı əməliyyatlara müəyyən məhdudiyyətlər mövcuddur. Polşada sərhəddən kənarda rezidentlərin hesablar açması üzrə liberal müraciət sisteminin mövcudluğu şəraitində valyuta gəlirlərinin tam repatrisasiyasına nəzarəti müvəkkil banklar aparır.

Beləliklə, dövlətlərin istifadə edə biləcəyi valyuta nəzarətinin təşkilindəki istifadə olunan taktiki yanaşmaların olduqca **geniş spektirini** qeyd etmək olar. Göstərmək lazımdır ki, hətta formal olaraq valyuta nəzarətinin ləğv edildiyi halda da, bir qayda olaraq kapitalın hərəkəti prosesinə heç olmazsa statistik müşahidə həyata keçirilir. Adətən belə halda əvvəllər valyuta nəzarətində tətbiq edilən mexanizmdən istifadə edilir (Almaniya, Yaponiya). Həmin mexanizmlərdən «çirkli pulların yuyulması» ilə mübarizədə də istifadə edilir və buna dünya içtimayyəti hazırda xüsusi diqqət yetrir və böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, hazırda cinayət yolu ilə əldə olunmuş kapitalın «yuyulması» ilə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi xüsusi diqqət mərkəzindədir.

Hazırda Fransada valyuta mübadiləsinin sərbəstliyinin qəbul edilməsi fransız iqtisadiyyatının struktur səmərəliliyinin prinsipial şəkildə yaxşılaşdırılması deməkdir, lakin bu tədiyyə balansının pisləşməsi, «çirkli pulların yuyulması», vergi fırıldaqları ilə bağlı problemlərin aradan qaldırılmasına kömək etmədi.

Valyuta məhdudiyyətləri - möhkəmləndirici xarakterli tədbirləridir. Onlar rezident və qeyri-rezidentlərin valyuta və digər valyuta dəyərləri ilə əməliyyatlarının reqlamentləşdirilməsi və limitləşdirilməsinə istiqamətlənib. Digər tənzimləmə alətlərindən fərqli olaraq onlar ölkə daxilində pul kütləsinin həcminə təsir göstərmirlər. Valyuta məhdudiyyətləri, həmçinin valyuta nəzarətinin mühüm tərkib hissəsi sayılır və özündə dövlətin nəzarət, qeydiyyat, statistik uçot xarakterli tədbirlərini cəmləşdirir.

Valyuta siyasətinin bir növü kimi onlar aşağıdakı məqsədləri güdürlər: tədiyə balansının tarazlaşdırılması; valyuta məzənnəsinin saxlanmasına; cari strateji məsələlərin həlli üçün valyuta dəyərlərinin dövlətin əlində cəmləşməsinə. Bütün bunlar beynəlxalq ödənişlərin və kapitalın köçürmələrinin mənfəətin repatriasiyasının, qızılın hərəkətinin, pul nişanları və qiymətli kağızların tənzimlənməsi, xarici valyutanın sərbəst alqı-satqısı, həmçinin dövlətin əlində xarici valyuta və digər valyuta dəyərlərinin cəmlənməsi vasitəsi ilə həyata keçirilir.

Valyuta məhdudiyyətinin qaydaları müxtəlifdir. Burada-valyuta əməliyyatlarının mərkəzi və müvəkil banklarda aparılması, valyuta əməliyyatlarının lisenziyalaşdırılması, yəni idxalçıları və ya borclular tərəfindən valyutanın alqısına münasibətdə valyuta nəzarəti orqanlarının ilkin razılığının olmasının tələb edilməsi, valyuta hesablarının tam və ya qismən blokirovkasından, valyuta dövriyyəsinin məhdudlaşdırılmasından istifadə edilir. Müvafiq olaraq müxtəlif valyuta hesabı kateqoriyaları tətbiq edilir: sərbəst dönərli və daxili (milli valyutada, ölkə daxilində istifadə etməklə), həmçinin ikitərəfli hökumət müqavilələri, klirinq vəs. valyuta məhdudiyyətinin 2 əsas sferasını qeyd etmək olar: tədiyə balansının cari əməliyyatları (ticarət və «görünməyən» əməliyyatlar) və maliyyə (kapital və kreditlərin hərəkəti, mənfəətlərin köçürülməsi, vergi və digər ödənişlər).

Valyuta məhdudiyyətlərinin formaları onların daxili məzmununu və strukturunu əks etdirir və onlar tətbiq sferalarına görə fərqlənirlər. Tədiyə balansının cari əməliyyatları üzrə ilk öncə rezident olmayanların əməliyyatları məhdudlaşdırılır. Xarici ixracatçıların həmin ölkədə malların satışından əldə etdiyi pul vəsaitlərinin blakirovkası, onların bu vəsaitlərdən istifadəsinin məhdudlaşdırılması deməkdir. Həmçinin, rezidentlərin əməliyyatları üzrə də məhdudiyyətlər tətbiq edilir. Bura ixracatçıların valyuta gəlirlərinin tam və ya qismən olaraq onun valyuta lisenziyası olan mərkəzi və müvəkkil banklara məcburi satışı, yalnız valyuta orqanlarının icazəsi ilə xarici valyutanın idxalçılara satışı aiddir.

Ölkədə valyuta tənzimləməsi əsaslı dəyişikliklərə uğrayıb. SSRİ-də o dövlət inhisarına əsaslanırdı. Valyutanın özünə də sahib olmaq daxil edilməklə, valyuta ilə əməliyyatlar aparmaq hüququ yalnız dövlətə mənsub idi. Valyutada bütün tədiyyələr və daxilolmalar ölkənin valyuta planı çərçivəsində aparılırdı. Valyuta isə dövlətin mülkiyyəti kimi, SSRİ Dövlət Bankı tərəfindən müəyyənləşdirilən qeyd edilmiş rəsmi məzənnə ildə sovet təşkilatları və vətəndaşlarından alınıb satılırdı. Valyuta və valyuta dəyərlərinin dövriyyəsi, həmçinin ona sahiblik etmək cinayət kimi qiymətləndirilirdi. Ölkənin bazar münasibətlərinə keçidi ilə əlaqədar valyuta tənzimlənməsinin xarakteri dəyişildi, inzibati idarəetmədən uzuqlaşmağa cəhdlər oldu ki, buna da tam nail olunmadı.

Valyuta tənzimlənməsi dedikdə, dövlət hakimiyyət orqanlarının valyuta və maliyyə bazarlarına müdaxilə dərəcəsi başa düşülür. Buna ölkə daxilində rezidentlərlə, ölkə ərazisinin xaricində qeyri-rezidentlərlə valyuta əməliyyatları, həmçinin dövlətin mərkəzləşdirilmiş valyuta fondunun yaradılması, milli və xarici valyutanın ölkəyə gətirilməsi və aparılması aid edilir. Dövlət hüquqi və fiziki şəxslərin valyuta dəyərlərinə sahib olması, istifadəsi və onlara sərəncam verməyə münasibətdə qaydaları və vəzifələri müəyyən edir, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyənləşdirir, valyuta nəzarəti orqanları və agentlərinin səlahiyyət və funksiyalarını qanuniləşdirir.

Valyuta tənzimlənməsi çərçivəsində valyuta əməliyyatının mümkün iştirakçılarının tərkibi belə müəyyənləşdirilir: rezidentlər və rezident olmayanlar.

Rezidentlərə daimi yaşayış yeri olan vətəndaşlar, təsərrufat subyektləri, onların nümayəndəlik və filialları, qanunvericiliyə müvafiq olaraq ölkə hüdudlarından kənarda yaradılan diplomatik və digər nümayəndəliklər aiddir. *Rezident olmayanlara* həm ölkə ərazisində, həm də ondan kənarda xarici vətəndaşlar və təsərrüfat subyektləri, həmçinin xarici diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatlar sayılır. Bu təsnifatın aparılması olduqca vacibdir. Belə ki, müxtəlif subyektlər müxtəlif hüquq və vəzifələrə malikdirlər.

Valyuta tənzimlənməsinin obyektlərindən biri ***valyuta əməliyyatları*** sayılır. Onlar predmeti valyuta dəyərləri olan sövdələşmə və digər fəaliyyətləri əks etdirir. ***Valyuta dəyərlərinə*** mülkiyyət hüququnun dəyişməsi üzrə əməliyyatların müxtəlifliyi belə – təzahür edir. Bura xarici valyuta ilə tədiyyə vəsaiti kimi xarici valyutanın və tədiyə sənədlərinin istifadəsi ilə aparılan sövdələşmələr, beynəlxalq pul köçürmələri, həmçinin valyuta dəyərləri şəklində ölkəyə gətirilən və ölkədən pul göndərmələri, gətirmələr və aparmalar daxildir. Xarici valyuta ilə əməliyyatlardan başqa xarici valyutada aparılan qiymətli kağızlarla əməliyyatlar da ola mövcuddur. Bunlar aşağıdakılardır: ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və i.a.), fond dəyərləri (səhmlər və istiqrazlar), qiymətli metallar (məişət əşyaları və qızıl külçəsi, gümüş, platin qrupundan olan metallar istisna olmaqla), təbii qiymətli daşlar (məişət əşyaları və almaz külçələri, rubin, yaqut, sapfir və s. istisna olmaqla). Rusiya Federasiyasının valyutası valyuta dəyərlərinə aid edilmir və buna görə də o, valyuta tənzimlənməsinə rezident olmayanlarının bu ölkə valyutası ilə əməliyyatlar aparılan hissəsi üzrə daxil olunur. Xarici valyutada qiymətli kağızlar və xarici valyutada aparılan əməliyyatlar cari və kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatlarına bölünür.

Milli valyutanın statusu ölkənin xarici bazarda rəqabət qabiliyyətliliyindən və iqtisadiyyatın daxili vəziyyətindən asılıdır. Daxili iqtisadiyyatın nə qədər çox xarici konkurentlərdən müdafiyəyə ehtiyacı olarsa, milli valyutanın da konvertasiya dərəcəsi də bir o qədər aşağı olar.

Lakin mülkiyyətçinin səlahiyyətləri (xarici valyuta və valyuta dəyərlərinə sahib olmaq, onlardan istifadə və sərancam vermək) onunla məhdudlaşır ki, onlar dövlət tərəfindən ciddi reqlamentləşdirilir. Ölkənin daxili valyuta bazarının tənzimlənməsinin əsas vəzifəsi – valyuta əməliyyatları iştirakçılarının sayının, onların davranışının xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinə və s. münasibətdə valyuta əməliyyatlarının xarakterinin reqlamentləşdirilməsi. Bu, valyuta bazarında xarici valyutaya tələb və təklifin nisbətinə nəzarətin həyata keçi-

rilməsinə və valyuta bazarını pozan neqativ amillərin (məsələn, möhtəkirlik əməliyyatları) yaranmasını və təsirinin məhdudlaşdırılmasına imkan verir. Rezidentlər xarici valyutanı yalnız ciddi qaydada və dövlətin müəyyənləşdirdiyi məqsədlərlə ala bilərlər. Bu zaman valyutanın alqı-satqısına yalnız müvəkkil banklar vasitəsilə icazə verili ki, bu da dövlətə valyuta əməliyyatlarına nəzarət imkanı verir. «Çirkli pulların» yuyulması ilə mübarizə və qeyri-qanuni əldə edilmiş kapitalın axınının qarşısının alınması üçün valyuta vəsaitləri ***leqal yaranma mənbəyinə*** malik olmalıdır. Onlar o zaman qanuni şəkildə alınmış hesab olunurlar ki, yalnız ciddi müəyyənləşdirilmiş mənbələr vasitəsilə daxil olsunlar. Rezidentlər üçün belə mənbə müxtəlif səviyyədə valyuta fondlarının (ehtiyatlarının) vəsaitləri sayılır. Bu həmçinin icazə verilmiş xarici iqtisadi fəaliyyətdən əldə olunan gəlirlər, nizamnamə kapitalına üzvlük haqqı, müvəkkil bankların və rezident olmayanların lisenziya əsasında valyuta kreditləri, müvəkkil banklar vasitəsilə daxili valyuta bazarında alınan valyutalar, xeyriyyə fondlarının vəsaitləri ola bilər.

Rezident olmayanlar üçün valyuta vəsaitlərinin qanuni mənbəyi xaricdən köçürülmüş, gətirilmiş və göndərilmiş vəsaitlər, ölkə ərazisində reallaşdırılmış məhsul və xidmətlərə görə daxilolmalar, hesabların sahibləri qarşısında öhdəliklərin təmin edilməsi üçün daxilolmalar, müvəkkil banklar tərəfindən ödənilən faizlər, digər rezident olmayanların müvəkkil banklardakı hesabından daxilolmalar, ölkə ərazisindəki investisiyalardan gəlirlər sayılır. Valyuta əməliyyatları həyata keçirilən zaman vəsaitlərin yaranmasının leqallığını müəyyənləşdirmək üçün müvəkkil banka valyuta əməliyyatı haqqında məlumatı əks etdirən müvafiq qaydada rəsmiləşdirilmiş bank sənədləri təqdim edilir.

Ölkə daxilində xarici valyutaya tələbatın məhdudlaşdırılması və ölkə iqtisadiyyatının onun mənfi təsirindən qorunması üçün, qanunvericilikdə tnəzərdə tutulan hallar istisna olunmaqla, məhsulların xarici valyutaya reallaşdırılması qadağan edilir. Bir qayda olaraq ölkə ərazisində vətəndaşlara məhsullar reallaşdırılarkən xarici valyutada bütün hesablaş-

malar nağdsiz qaydada həyata keçirilir. Belə məhdudiyyətlərə nəinki təkcə ticarət sövdələşmələri, hətta bəzi hallar istisna edilməklə, nağd xarici valyutada bütün dövriyyə formaları da məruz qalır. Beləki, xaricə ezamiyyətə göndərilmiş işçilərin ölkədən kənara göndərilməsi və orada qalması ilə bağlı xərclərin ödənməsi üçün əvvəlcədən alınmış nağd xarici valyuta vəsaitlərin xərclənməmiş qalığı müvəkkil bankdakı hesaba köçürülə bilər.

Valyuta tənzimlənməsinin növbəti bəndi-***xarici valyutada olan hesablardır.*** Onlar həm rezidentlər, həm də rezident olmayanlar üçün açıla bilər. Fəaliyyət rejiminin tənzimlənməsi, həmçinin dövlətə inzibati qaydada daxili valyuta bazarında xarici valyutaya tələb və təklifə təsir göstərməyə və ölkədən kənara xarici valyutanın axınının qarşısını almağa kömək edir. Valyuta hesabı yalnız müştəridə içərisində vergi orqanlarından onun dövlət qarşısında borcu olmaması barədə arayış da olan müvafiq qaydada rəsmiləşdirilmiş zəruri sənədlər olduğu halda açılır. Beləliklə, valyuta bazarının vicdansız iştirakçılardan «seyrəlməsi» həyata keçirilir. Dövlət həmçinin rezidentlərin sərbəst olaraq ölkədən kənarda sərbəst valyuta hesablarının açması imkanlarını da məhdudlaşdırır. Belə ki, əks halda bu valyuta axınına və ölkənin tədiyyə balansının pozulmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, valyuta tənzimlənməsi yalnız ümumilikdə valyuta tənzimlənməsi sisteminin üst qurumudur, əgər belə sistem valyuta məhdudlaşdırılmasını tələb edirsə və cəmiyyətin iqtisadi inkişafının bu və ya digər anında onun qarşısında qoyulan konkret məsələləri həll etməli olursan.

Valyuta nəzarəti orqanlarının fəaliyyətinin ən mühüm istiqamətlərindən biri - ***sivilizasiyalı valyuta bazarının*** formalaşdırılması, iqtisadiyyatın inkişafı maraqlarına uyğun olaraq valyuta ehtiyatlarından səmərəli istifadə üçün əlverişli şərait yaradılmasıdır. Malların ixracından əldə olunan valyuta gəlirinin axını və müəssisələrə onların idxalı üzrə əlavə ödənişlərin qaytarılmaması ölkə iqtisadiyyatına böyük zərər vurur. Ölkədən xammal axıdılır, yeraltı sərvətlər oğurlanır. Valyuta

gəlirlərinin digər ölkələrdə çöküb qalması orada əlavə iş yerlərinin açılmasına şərait yaradır və ümumilikdə iqtisadiyyatın inkişafına təkan verir. Ölkədə isə əks proses gedir. Burada kapital ixracının kreditlər, birbaşa və portfel investisiyaları şəklində kapital idxalını üstələməsi ölkə iqtisadiyyatına bu vəsaitlərin investisiyalaşdırılması imkanlarının məhdudluğu üzündən kapitalın ölkədən kənara qaçması kimi izah oluna bilər.

Beləliklə, valyuta nəzarətinin məqsədi-valyuta əməliyyatları zamanı ***valyuta qanunvericiliyinə*** əməl olunmasının təmin edilməsidir. Buna görə də onun əsas istiqamətləri-valyuta əməliyyatlarının mövcud qanunvericiliyə uyğunluğu, rezidentlərin dövlət qarşısında xarici valyuta ilə öhdəliklərini yerinə yetirməsi, xarici valyuta ilə ödənişlərin əsaslandırılmış olmasının yoxlanılması və valyuta əməliyyatları üzrə uçot və hesabatın obyektivliyinin yoxlanılması.

İqtisadiyyatın transformasiyası şəraitində ölkədə valyuta tənzimlənməsinin əsas məqsədləri nədən ibarətdir? Əvvələn, milli valyutanın əhəmiyyətinin gücləndirilməsi və valyuta məzənnəsinə infilyasiya təzyiqinin azaldılması. İkinci, xarici valyuta axınının stimullaşdırılması və ixracatçılar tərəfindən valyuta gəlirlərinin qaytarılmasına nəzarət. Üçüncü, xarici iqtisadi fəaliyyət subyektlərinin fəallığının stimullaşdırılması, yəni sənaye ixracının həvəsləndirilməsi və ixrac təyinatlı istehsalların inkişafını təmin edəcək texnologiyaların idxalı üçün şərait yaradılması.

V***alyuta nəzarətinin təkmilləşdirilməsi*** metodlarına baxaq. Əvvələn, müvəkkil bankların müştərilər qarşısında hüquq və vəzifələrinə münasibətdə valyuta qanunvericiliyinin Rusiya qanunvericiliyinə uyğunlaşdırılmasının vacibdir. Burada söhbət bank sirrinin saxlanması öhdəçiliyindən gedir. Ölkənin mərkəzi bankı qarşısında valyuta nəzarəti agentlərinin öz vəzifələri vardır. Başqa sözlə banklara müştərilərin işlərinə qarışmaq hüququnun verilməsi zəruridir. Bundan əlavə, valyuta nəzarəti subyektlərinin strukturundakı təşkilati ziddiyyətlərin aradan qaldırılması, onların səlahiyyətlərinin dəqiq

bölgüsü mühüm əhəmiyyət kəsb edir. İkinci, valyuta nəzarətini artıq baş vermiş hüquq pozuntularına qarşı cərimə sanksiyalarının tətbiq edilməsinə deyil, valyuta pozuntularının qarşısını alınmasına istiqamətləndirmək zəruridir. Təcrübə göstərir ki, hətta ən yüksək avtomatlaşdırma hüquq pozuntularının yalnız 10%-ə qədərini aşkara çıxarılmasına imkan verir.

Bundan əlavə, ABŞ-da olduğu kimi pul alanlar tərəfindən valyuta fırıldaqlarının istintaqı üzrə valyuta nəzarəti sistemini digər ölkələrlə əlaqələr yaratmaq istiqamətində inkişaf etdirmək zəruridir. Lakin, yadda saxlamaq lazımdır ki, valyuta nəzarəti o zaman səmərəli olur ki, o daxili bazarın inkişafı üzrə tədbirlərlə eyni zamanda həyata keçirilsin. Yalnız ölkə iqtisadiyyatının ümumi stabilləşdirilməsi təmin edilməklə ölkənin valyuta ehtiyatlarının tədricən artırılması üçün, valyuta ehtiyatlarının doldurulması üçün, xarici borcun ödənilməsi və valyuta bazarının ümumi stabilliyi üçün şərait yaranacaq.

2. Pul-kredit siyasəti

Tarixən elə alınmışdır ki, bazar iqtisadiyyatının səmərəli fəaliyyəti onun tələblərinə müvafiq formalaşan pul və kredit altsistemi olmadan mümkün deyil. Bu qəbildən olan altsistemlərin yaradılması hər bir ayrıca ölkənin müvafiq qanunvericiliyi əsasında formalaşır və möhkəmlənir. Bu vəziyyət iqtisadi mənada dövlətin, onun səlahiyyətli orqanları timsalında, öhdəliklərinin material daşıyıcısı olmaqla, pulun özünün təbiətindən yaranır.

Bu daşıyıcı və ya alət yalnız o zaman pul olur ki, onu istifadə prosesində eyni zamanda aşağıdakı funksiyaları yerinə yetirmiş olsun: dəyər ölçüsü, dövriyyə vasitəsi, məhsulların, xidmətlərin, işlərin ödəmə vasitəsi (tədiyyələr), dəyərin qorunma vasitəsi (əmanətlər, yığım), dünya pulu və yalnız beynəlxalq sazişin mövcud olduğu halda. Digər maddi daşıyıcılar yalnız istifadə zamanı pulun bu və ya digər funksiyasını daşıdığı halda kvazi pul kimi nəzərdə tutulur. Bir qayda olaraq, dövriyyədə

ümumi pul kütləsinin azalması ilə müşahidə olunan dövlət səviyyəsində bir dəyər ölçüsündən digərinə keçid əhali tərəfindən çox ağrılı yaşanan pul islahatı ilə çuğlaşır. Vətəndaşların hökumət tərəfindən seçki qabağı və siyasi vədlərinin etibarlılığına inandığı, onun ölkənin və onun vətəndaşlarının təhlükəsizliyinin və milli maraqlarının təmin edilmə imkanlarına inamı olduğu yerdə pul yaxşı «işləyir».

Ümumilikdə iqtisadi vəziyyətə pulun, kvazi pulun və pul siyasətinin təsiri prosesini öyrənən nəzəriyyə ***pul nəzəriyyəsi*** adlanır və iqtisadi nəzəriyyənin mühüm bölməsini təşkil edir. Pul, kredit və maliyyə sferalarında «prob və səhvlər» siyasəti təcrübədə nəinki yalnız bu sferalarda həm də ölkə iqtisadiyyatında sarsıntılara səbəb olur və təsərüffat subyektlərinin fəaliyyətinə mənfi təsir göstərir. Ağrılı nəticələrdən uzaqlaşmaq üçün aşağıdakı sistemli yanaşma tətbiq edilir: dövlətin ixtiyarında olan iqtisadi inkişafın səmərəliliyi və stabilliyinin təmin edilməsinin iki makroiqtisadi alətindən - büdcə-vergi (fiskal siyasət) və pul-kredit tənzimlənməsindən (monetar siyasət). Onlardan mövcud vəziyyətin optimal həllinə uyğun gələn biri və ya digəri və yaxud da ikisinin nisbəti seçilir.

Qeyd etmək lazımdır ki, pul-kredit, maliyyə fəaliyyəti və onlar vasitəsi ilə iqtisadi fəaliyyət mini-, mikro və makro səviyyələrdə modelləşdirməyə uyğun gəlirlər. Lakin yaddan çıxarmaq olmaz ki, pul-kredit modelin universallığı onunla nəticələnir ki, o cəmiyyətin iqtisadi inkişafının təzahüri ilə əlaqəli hər bir konkret hadisənin və halın modelləşdirilməsinə imkan yaradır. Müvafiq olaraq, istifadə olan modelə daimi ***düzəlişlər*** edilməsi, pul, kredit və iqtisadi sistemin operativ və səhmanlı tənzimlənməsi tələbatı yaranır ki, bu da yalnız bazar iştirakçılarının təsərüffat fəaliyyətinin fasiləsiz olaraq dövlət monitorinqi aparılması şərti ilə mümkün olur.

Dövlət tərəfindən bu makroiqtisadi yanaşmanın tətbiqi nəinki mövcud iqtisadiyyatın mövcud dəqiq kökləmə alətlərindən bu və ya digərinin seçilməsinə hətta bu mexanizmlərin çatışmayan yeni elementlərinin də yaradılmasına imkan verir. Təbii olaraq buradan əsaslı nəticə meydana çıxır-dövlət öz

orqanları timsalında pul-kredit siyasətini onun alətlərinin xüsusiyyətlərini dəqiqləşdirmədən və dərk etmədən, iqtisadiyyatın pul-kredit tənzimlənməsi mexanizminin xarakterini öyrənmədən ondan səhv istifadə nəticəsində yarana biləcək nəticələri bilmədən həyata keçirməyə başlaya bilməz. Beləliklə, dövlət tərəfindən bir makrotənzimləmə aləti kimi pul-kredit siyasətinin tətbiqi bazar münasibətlərinin iştirakçısı olan təsərüffat subyektlərinin davranış xarakterinin dəqiq təhlili, pul bazarının təşkili xüsusiyyətlərinin araşdırılması və elmi-texniki tərəqqinin təsiri altında baş verən dəyişiklikləri, hətta qərar qəbul edən şəxsiyyətlərin fərdi keyfiyyətinin öyrənilməsi ilə müşayiət olunmalıdır. Bazarın inkişafının müasir şəraitində istənilən dövlət pul-kredit siyasətini müəyyənləşdirərkən və reallaşdırarkən öz öhdəliklərinin dəyərini, yəni milli pulun müdafiəsini əsas məqsəd kimi qarşıya qoyur. Dövlət öhdəliklərinin dövriyyəyə buraxılması və ya pul emissiyası, yəni dövriyyəyə pulun daxil olması nağd və nağdsiz (kredit) formada ola bilər. Dövriyyə kanalının dövlət öhdəliklərinin (metal, kağız, elektron, informasiya və digər pullarla, o cümlədən kvazi pullarla) əşya və qeyri-əşya daşıyıcıları ilə, başqa sözlə, əmtəə dövriyyəsinin tələbindən artıq nağd və nağdsiz formada pul kütləsi ilə doldurulması milli pul vahidinin (yəni hökumət öhdəliklərinin) qiymətdən düşməsinə səbəb olur. Buna müvafiq olaraq, qiymətlərin yüksəlişi baş verir.

Bütün makroiqtisadi siyasətin səmərəliliyi onun hər bir əsas istiqaməti üzrə xalq təsərüffatında mövcud pul kütləsinin, həmçinin onun direktiv artırılması perspektivlərinin nə dərəcədə dəqiq müəyyənləşdirilməsindən asılıdır. Bu zaman əsas olan dövriyyədə nə qədər pul kütləsinin olmasını müəyyənləşdirmək deyil, konkret fəaliyyət mərhələsində hansı aktivlərin milli pul-kredit sistemində pula çevrilməsidir, yəni məcmu halda və ya ayrı-ayrılıqda bu və ya digər formada pul funksiyasını yerinə yetirməsidir. Pul kütləsinin makroiqtisadi tənzimləmə təcrübəsində aşağıdakı pul aqreqatları diqqətdə saxlanılır – M0 (nağd pullar), M1 (nağd pul + tələb olnana qədər olan əmanətlər), M2 (nağd pul + tələb olnana qədər olan

əmanətlər + müddətli depozitlər), M3 (nağd pul + tələb olnana qədər olan əmanətlər + müddətli depozitlər + kreditlərin milli sərhəddi həddində əldə olunan məbləğ).

Hökumət öhdəliklərinin qiymətdən düşməsi, ona olan inamın azalması bazar iqtisadiyyatında «***infilyasiya***» adı altında məlum olan vəziyyətə gətirib çıxarır. Adətən bu müharibələr, inqilablar, siyasi çevrilişlər, iqtisadi tənəzzül və digər kataklizmlər zamanı hökumətin əmtəə dövriyyəsinin təmin edilməsi üzrə tələblər çərçivəsində öz öhdəliklərinin buraxılışına nəzarət edə bilmədiyi hallarda meydana çıxır. Kataklizmlərin olmadığı zamanlar belə hal milli statistika sistemində olan pozuntular, milli hesabların formalaşdırılmasında, informasiyanın toplanması və işlənməsində səhv metodologiyanın tətbiqi və ya milli statistika sisteminə yığılan, əldə olunan və işlənən informasiyanın əvvəlcədən səhv formaya salan mexanizmin tətbiqi zamanı baş verir.

Qeyd etmək lazımdır ki, düzgün statistika iqtisadiyyatın elmi əsaslandırılmış idarə edilməsinin bazasını təşkil edir. Yəni ölçmək – idarə etmək deməkdir. Müvafiq olaraq, pul-kredit siyasətinin əsas elementlərindən biri pul kütləsi strukturunun, pul bazasının, pul təklifi multiplikatorlarının, mərkəzi bankın ehtiyatını yaradan və aparan komponentləri, transmissiya mexanizminin fəaliyyətinin müəyyənləşdirilməsi sayılır. Statistika bu kredit siyasətinin formalaşdırılmasında da öz əhəmiyyətini itirmir, beləki, pul bazarının ən mühüm göstəricilərindən biri ***pul dövriyyəsinin sürəti*** sayılır. O, il ərzində dövriyyədə olan pul kütləsinin hər bir milli pul vahidinin orta hesabla neçə dəfə hazır məhsulların, xidmətlərin, işlərin alınmasına sərf edildiyini əks etdirir. Bu göstərici nominal milli məhsulun dövriyyədə olan pul kütləsinə nisbəti kimi hesablanır.

Hökumət milli hesabların formalaşdırılması metodikası ilə əldə olunmuş statistik rəqəmlərə əsasən iqtisadiyyatın (makro-, mikro-, mini-) dövlətin öhdəliklərinə, yəni pula tələblərinin təmin edilməsinə istiqamətlənmiş siyasəti işləyib hazırlayır. Buna görə də pul – kredit siyasəti – dövriyyədə olan pulun miqdarına təsir göstərən hökumət siyasətidir. O, bazarda

pula tələb və təklifin qarşılıqlı fəaliyyətini təmin edən institutlar şəbəkəsi vasitəsilə həyata keçirilir. Pulu adətən alleqorik şəkildə «bazarın dili» adlandırırlar. Lakin bu milli çərçivədə yuxarıda əvvəl qeyd olunmuş bütün 4 funksiyanı yerinə yetirdiyi halda mümkündür. Əks halda onlar «taxtalaşırlar» və onlardan istifadə arzuolunmaz hallara – siyasi, iqtisadi, malliyə xaosuna gətirib çıxarır. Müasir bazar iqtisadiyyatı sistemlərində hökumət pul – kredit siyasətinin həyata keçirilməsinə cavabdehliyi mərkəzi emisiya banklarının üzərinə qoyur, hansılar ki, digər funksiyalarla yanaşı kreditlərin verilməsi hesabına pulun «yaradılması», daha doğrusu «artırılmasını» təmin edən kredit təşkilatlarının fəaliyyətinə nəzarət funksiyasını da həyata keçirir. Eyni zamanda, dünyada elə ölkələr mövcüddur ki, orada pul agenti funksiyasını maliyyə nazirliyi və xəzinədarlıq yerinə yetirir. Məsələn - Malaziya.

Hökumət özünün pul agentləri ilə birlikdə həm milli çərçivələrdə, həm də ümumilikdə dünyada iqtisadi inkişafın qısamüddətli və uzunmüddətli tendensiyalarına əsaslanmaqla mütəmadi olaraq pul və kredit strategiyasını işləyib hazırlayır. Dövlətin atdığı addımların və tədbirlərin əsas məqsədi hökumətin öhdəliklərinin (pulun) həm ölkə daxilində, həm də xarici maliyyə bazarlarında qiymətdən düşməsinə imkan verməməkdir. Biz tez-tez dövlətin pul-kredit siyasətinin məqsədinin digər formulirovkasına - «milli pul vahidinin qorunması»na rast gəlirik. Buna baxmayaraq, bu qeyd olunan siyasətin iqtisadi mahiyyəti daha əvvəl göstərilənlərlə eyniyyət təşkil edir.

Göstərilən məqsədə nail olmaq üçün milli iqtisadiyyatın və onu əhatə edən siyasi, iqtisadi, maliyyə mühütünün vəziyyəti və həm ümumilikdə ölkə iqtisadiyyatının, həm də yerləşdiyi həmin mühütün inkişafının proqnozunun təhlili əsasında işlənmiş dövlətin pul-kredit siyasətinin əsas istiqamətləri formalaşdırılır. Çox dəqiq aparılmış təhlil əsasında dövlətin pul-kredit siyəsətinin əsas oriyentirləri, parametrləri hesablanır və onun alətləri müəyyənləşdirilir. Pul-kredit siyasətinin alətləri dedikdə hökumətə və mərkəzi banka pul kütləsinə təsir etmək imkanı verən mexanizmlər başa düşülür. Ölkədə pul-kredit

sahəsində strategiya hökumətin və mərkəzi bankın hər il birgə qəbul etdikləri və təstiq etdikləri «Dövlətin vahid pul – kredit siyasətinin əsas istiqamətləri» adlı sənəddə əks olunur. Bu sənəddə ənənəvi olaraq əldə olunmuş nəticələrin konstatasiyası və təhlilinə, həmçinin dövlətin vahid pul-kredit siyasətinə daxil edilmiş və pul agentləri üçün məxfi «qanun» xidmətini yerinə yetirən istiqamətlərin təsvirinə əsas vurğu olunur.

Pul agenti tərəfindən həyata keçirilən mərkəzləşdirilmiş kreditləşmənin ümumi həcmi əsaslı şəkildə dövlətin vahid pul-kredit siyasətinin istiqamətlərindən asılıdır. Dövlətin vahid pul-kredit siyasətinin əsas istiqamətlərinə əsaslanmaqla mərkəzi bank pul kütləsinin bir və ya bir neçə göstəricilərinin oriyentirlərini müəyyən edir, pul-kredit siyasətinin arsenalından hər hansı bir alətin seçimininin və tətbiqinin məqsədəuyğunluğunu müəyyənləşdirir. Ümumiyyətlə, pul agentinin arsenalında bir çox alətlərin olduğunu demək olmaz. Buna heç bir zərurət yoxdur, beləki, pul-kredit siyasətinin reallaşdırılmasının səmərəliliyi, yəni onun nəzərdə tutulan oriyentirlərə səmərəli çatması tarixən sübut edildiyi kimi, əsasən tətbiq olunan alətlərin kəmiyyətindən deyil, onların tətbiqinin məntiqliliyindən, operativliyindən və keyfiyyətindən asılıdır. Bu zaman nəzərdə saxlamaq lazımdır ki, o yerdəki nəzəri olaraq ən azı 10-larla alətin tətbiqi tələb olunur, yalnız bir alətdən istifadə ilə heç bir şey əldə etmək olmaz.

Nəzəri baxımdan pul-kredit siyasətinin əsas alətlərinə və həyata keçirilməsinin metodlarına aşağıdakıları aid etmək olar: valyuta tənzimlənməsi; mərkəzi bank adından istiqrazlar buraxılışı; mərkəzi bankda depozitə qoyulmuş məcburi ehtiyat normativləri; açıq bazarda əməliyyatlar; mərkəzi bankın əməliyyatları üzrə faiz dərəcələri; birbaşa kəmiyyət məhdudiyyətləri; bankların yenidən maliyyələşməsi; pul kütləsinin artım orientirlərinin müəyyənləşməsi.

Təcrübədə inkişaf etmiş bazar sistemi şəraitində pul-kredit siyasətinin modelləşdirilməsində ən çox «işlək» alətlər kimi faiz dərəcələri, yenidən maliyyələşmənin uçot stavkası,

kredit təşkilatlarının məcburi ehtiyatlarının stavkası, açıq qiymətli kağızlar bazarında əməliyyatlar aid edilir.

Qısaca olaraq pul-kredit siyasətinin tətbiq edilə biləcək nəzəri mümkün alətlərinə nəzər salaq. Beləki, ölkədə iqtisadiyyatın inkişafı, xüsusilə onun keçid transformasiya mərhələsində, inkişaf etmiş dövlətlərdə artıq hökumətin nəzərindən qaçmış və ya öz aktuallığını itirmiş hər hansı alətlərin aktiv tətbiqinə tələbat yarana bilər. Bütün bunlara əlifba ardıcılığı ilə nəzər salaq. Valyuta nəzarəti və valyuta tənzimlənməsinin alətlər arsenalından mərkəzi bankın payına ***valyuta intervensiyası*** düşür. Bunun mənası mərkəzi bank tərəfindən valyuta bazarında xarici valyutanın alqı-satqısını əks etdirir. Bu tədbirlərin məqsədi xarici valyutaya münasibətdə milli pul vahidinin dəyərini (məzənnəsi) tənzimləmək və bununla da pula olan məcmu tələb və təklifə təsir göstərməkdir. Valyuta məzənnəsi - digər ölkələrin hökumətlərinin öhdəliklərinə münasibətdə milli hökumətin öhdəliklərinin dəyəridir. Beləliklə, mərkəzi bank pul agenti kimi valyutanın məzənnəsinin qorunub saxlanılması üçün spesifik səlahiyyətlər almışdır. Bu, beynəlxalq siyasi, iqtisadi, maliyyə arenasında öz hökumətinə köməklik göstərməkdən ibarətdir. Deyilənlərdən aydın olur ki, ölkə hökumətinə və milli maraqlara bağlılıq nümayiş etdirməklə mərkəzi bankın professionallıq keyfiyyətlərinin təzahüri kimi, ən mürəkkəb an valyuta bazarında tam hüquqlu oyunçu olmaq həvəsinə gəlməkdir. Elə bir oyunçu ki, prosesə öz mənfəətini və qənaətlə topladığı milli ehtiyatları buraxmış olur. Elə bir oyunçu ki, onun qarşısında bütün milli kredit təşkilatları çəkinirlər. Elə bir oyunçu ki, o ehtirasda olarkən ayaqda durmaq və çökməmək üçün hər vasitə ilə pul ehtiyatlarını toplayan tabeçiliyində olanları sıxıb əzirlər. Əgər hər hansı bir mərkəzi bankla bu baş verərsə, heç də təəccüblü deyil ki, həmin ölkənin pul-kredit siyasətinə isə qurban verilir. Nəticədə isə infilyasiya (qiymətlərin yüksəlişi), hiperinfilyasiya, superhiperinfilyasiya, iflas və kaleydoskopik hökumət dəyişiklikləri və s. baş verir. Dünya təcrübəsi mərkəzi banklara tamaha düşməməyi və «duvaq siyasətinə» riayət etməyi məsləhət görür, yəni valyuta

bazarında fəaliyyəti qanunla ciddi reqlamentləşdirilən müvəkkil banklarla iş görməsi məsləhət bilir.

Hökumətin pul-kredit siyasətinin reallaşdırılması məqsədi ilə mərkəzi bank (əgər bu qanunvericilikdə nəzərdə tutulubsa) öz adından, yalnız kredit təşkilatları arasında yerləşdirilən və dövriyyədə olan ***istiqraz emissiyasını*** həyata keçirə bilər. Bununla, mərkəzi bank kredit təşkilatlarının pul «yaratmaq» imkanlarını azaldıb artırır və beləliklə də pul kütləsinə təsir etməklə dövriyyədə olan pulu «bağlayır».

Praktiki olaraq, heç bir mərkəzi bank pul kredit siyasətinin bir aləti olan ***məcburi ehtiyatlar normativinin*** müəyyənləşdirilməsi olmadan keçinə bilmir. Məcburi ehtiyatlar normativi – mərkəzi bankın məcburi şəkildə depozitində olan pul vəsaitlərinin məbləğidir. O kredit təşkilatlarının öhdəliklərinə (passivlərinə) faiz nisbəti şəklində müəyyənləşir. Bir qayda olaraq kredit təşkilatlarının mərkəzi bankının depozitində olan məcburi ehtiyatalarına hər hansı bir cəza tədbiri tətbiq edilmir. Lakin həm də onlara münasibətdə mərkəzi bank tərəfindən faiz hesablanmır.

Mərkəzi bankın ***açıq bazarda əməliyyatları*** dedikdə, onun tərəfindən xəzinədarlıq veksellərinin, dövlət istiqrazlarının və digər dövlət qiymətli kağızlarının alqı-satqısı, REPO və ya RESO (REPO – repuichase (ingilis); RESO – resale (ingilis)) sistemi üzrə qiymətli kağızlarla qısamüddətli əməliyyatlar başa düşülür.

Faiz stavkalarının müəyyənləşdirilməsi üzrə mərkəzi bankın siyasətinə iqtisadi nöqteyi-nəzərdən milli hökumətin öhdəliklərinə qiymət əmələgəlmə strategiyasının həyata keçirilməsi kimi baxmaq lazımdır, beləki, faiz stavkası pulun «qiyməti» hesab olunur. Minimal faiz stavkaları (prime rate) milli pul vahidinin möhkəmləndirilməsi üçün bazar faiz dərəcələrinə təsir göstərmək məqsədi ilə mərkəzi bank tərəfindən əməliyyatların həyata keçirilməsində istifadə olunan stavkalardır. Faiz stavkasının səviyyəsi inflyasiyanın səviyyəsi ilə qarşılıqlı əlaqədə olur. Əgər pul-kredit siyasətinin məqsədi infilyasiyanın ram edilməsi, onun səviyyəsinin aşağı salınması olarsa, onda

faiz dərəcələri də ondan aşağı ola bilməz. Bütün bunları nəzərə almaqla demək olar ki, XX əsrin 90-cı illərində ölkədə baş verən superinfilyasiya zamanı həm onunla mübarizə aparılır və eyni zamanda da əhalinin həyat səviyyəsinin qorunması və sosial proqramların reallaşmasına vəsait ayrılması həyata keçirilirdi. Müvafiq olaraq, hökumətin öhdəliklərinin (pulun) kəskin və mütəmadi ucuzlaşması ilk növbədə normal təsərüffat fəaliyyətinin aparılmasını qeri-mümkün edir, bu isə istehsalın aşağı düşməsi, işsizlik və xalqın yoxsullaşması deməkdir. Ən sərfəlisi pul-kredit siyasəti ilə təsərüffat fəaliyyəti arasında belə birbaşa arzuolunmaz əlaqələrin olmasını, həmçinin pul, kredit, maliyyə sferalarının tənzimlənməsinin iqtisadiyyata və ümumilikdə iqtisadi potensiala təsirini diqqət mərkəzində saxlamaqdır. Əgər yuxarıda deyilənlərə diqqət yetirilsə, mərkəzi bankın faiz stavkalarının dəyişilməsi barədə məlumata nəyə görə belə tələbkarlıqla yanaşması aydın olur. Bir qayda olaraq, bu addımın ilk önündə mərkəzi bankın milli hesablarla, əmtəə dövriyyəsinin həcmi ilə, kreditləşmə ilə, pul aqreqatları, valyuta gəlirləri və s. ilə diqqətli və təmkinli işi durur.

Əgər pul-kredit siyasəti həyata keçirilərkən iqtisadi dəstəklərin təsiri sona yetərsə, hökumət və mərkəzi bank tərəfindən bu siyasətin reallaşdırılması məqsədilə ***birbaşa kəmiyyət məhdudiyyətləri*** tətbiq edilir. Bunlara kommersiya banklarının təkrar maliyyələşdirmə əməliyyatlarına, kredit təşkilatları tərəfindən ayrı-ayrı bank əməliyyatlarının aparılmasına və s. işlərə limitin müəyyənləşdirilməsi aiddir. Lakin yaddan çıxarmaq lazım deyil ki, bu qəbildən olan tədbirlər pul agentinin infilyasiya şəklində baş verən şərait qarşısında gücsüzlüyünü aydın nəzərə çatdırır və hökumət ilə mərkəzi bank arasında razılaşdırılmış fəaliyyətin olmadığını göstərir.

Bir institut kimi mərkəzi bank ***son instansiya kreditorudur.*** Birbaşa mənada o, yüksəldilmiş faiz dərəcələri ilə kredit təşkilatlarını olduqca qısa müddətli şərtlərlə (üç günə qədər) kreditləşdirir. O, həmçinin veksellərin uçotu və yenidən uçota alnmasını həyata keçirir. Veksellərə gəldikdə isə yalnız milli bazarda özünü əla göstərmiş təsərüffat subyektlərinin tanınmış kommersiya xərclərinə veksellərin uçotuna və yenidən uçotuna

icazə verilir. Yenidən maliyyələşdirmə siyasətinin həyata keçirilməsi zamanı mərkəzi bankın vəzifələrinə, həm də hökumətin ödəmə vaxtı keçmiş qiymətli kağızlarının yeni qiymətli kağızlarla dəyişdirilməsi də daxil edilir. Adətən hökumətin qiymətli kağızları qısamüddətli istiqraz şəklində buraxılır. Yenidən maliyyələşmənin forma, qayda və şərtləri mərkəzi bank tərəfindən müəyyənləşir. O həmçinin qəbul edilmiş veksellərə uçot və ya diskont stavkasını da müəyyənləşdirir.

Beləliklə, mərkəzi bank, əvvəlan təsərüffat subyektləri arasında bütün sahə üzrə lideri seçir, ikincisi, qalanlarının kimə bərabərləşəcəyini göstərir. Nə qədər paradoksal səslənsə də mərkəzi bank tərəfindən veksellərin uçot və yenidən uçotu vasitəsilə iqtisadiyyatın istehsal – real sektoru ilə onun pul, kredit, maliyyə sferası arasında əlaqə müəyyənləşir. Mərkəzi bankla aparıcı milli istehsalçılar arasında veksellər şəklində rəsmiləşdirilmiş, onların öhdəliklərinin uçot və yenidən uçotu vasitəsilə yaranan etibar dərəcəsi kredit təşkilatları üçün iqtisadiyyatın real sektorunun sərbəst kreditləşdirilməsində oriyentir olur. Məhz mərkəzi bankın uçot siyasəti bütün bank sisteminin istehsalçıya üz çevirməsinin dəstəyi sayılır, istehsalçıya müddətillik, geri qaytarma və ödənişlilik şərtləri ilə öz istehsalını genişləndirmək üçün borc alan timsalında toplanmış pul və ya digər aktivləri əldə etməyə imkan yaradır.

Mərkəzi bank, pul agenti kimi, qarşısında duran vəzifəni yerinə yetirmək üçün hökumət ilə pul-kredit siyasətinin mühüm bir istiqamətini – ***pul kütləsinin artımını*** razılaşdırır. Başqa sözlə, hökumətin öhdəliklərinin (pulun) artırılmasının nəzərdə tutulan həddin keçməməsi barədə hökumət öz üzərinə öhdəlik götürür, mərkəzi bank isə buna ciddi nəzarət edir. Əgər hökumət büdcənin xərclər hissəsinin formalaşdırılmasında ciddi siyasət həyata keçirərkən daxili və xarici borcların alınmasına az hallarda müraciət etmiş olarsa, bu mümkündür. Lakin bu o zaman mümkündür ki, hökumət ilə mərkəzi bank arasında ideoloji və digər sahələrdə ziddiyyət olmasın.

Hökumət ilə birgə işlənmiş pul-kredit siyasətinin həyata keçirilməsi üzrə vəzifələrlə yanaşı mərkəzi bank dünya və milli maliyyə bazarlarında əməliyyatlar həyata keçirilir. ***Maliyyə bazarı*** dedikdə, bir tərəfdən yaradılmış kapitalın bölgüsü və

yenidən bölgüsü üzrə iqtisadi münasibətlər sistemi; digər tərəfdən – pul vəsaitləri axınını əmanətin sahiblərindən borc alanlara istiqamətləndirən bazar institutlarının məcmusu başa düşülür. Özünün institusional vəziyyətinə görə mərkəzi bank dünya maliyyə bazarının tam hüquqlu iştirakçısı sayılır. Mərkəzi bankın həyata keçirdiyi digər əməliyyatların içərisindən aşağıdakıları qeyd etmək olar: xarici valyutanın, tədiyyə sənədlərinin və öhdəliklərinin xarici valyutada alqı-satqısı; zəmanətlərin və zaminliyin verilməsi; maliyyə risklərinin idarə olunması üçün istifadə edilən maliyyə alətləri ilə əməliyyatların aparılması; milli və xarici kredit təşkilatlarında hesabların açılması; istənilən valyutada çeklərin və veksellərin təqdim edilməsi; valyuta ehtiyatlarının dünyanın valyuta və fond bazarlarına yerləşdirilməsi; qiymətli metalların və digər valyuta dəyərləri növlərinin alqısı, saxlanması və satışı; qiymətli kağızların və digər dəyərlərin saxlanmağa və idarə olunmağa qəbulu; çeklərin, sadə və köçürmə qısamüddətli kommersiya veksellərinin alışı və satışı; istiqrazların, depozit sertifikatların və digər qısa müddətli qiymətli kağızların alışı və satışı; öz adından hesablaşma, kassa və depozit əməliyyatlarının, həmçinin digər bank əməliyyatlarının aprılması.

Təsərüffat fəaliyyətinin, dünya maliyyə bazarının qloballaşdırması, ayrı – ayrı milli pul və kredit sferalarının qarşılıqlı təsir dərəcələrinin gücləndiyi şəraitdə mərkəzi bankın fəaliyyətində son istiqamət ***sterilizasiya siyasəti*** sayılır. Bu, milli bank tərəfindən daxili və xarici pul-kredit siyasətinin qarşılıqlı təsirini aradan qaldırmaq məqsədilə xarici valyuta bazarlarında valyuta intervensiyasının daxili açıq qiymətli kağızlar bazarında ona bərabər və onun əks istiqaməti hərəkətində əməliyyatlarla əvəzlənməsi deməkdir. Hazırda daxili və xarici bazarlar üçün bu növ siyasətin aktiv həyata keçirilməsinin səmərəliliyi və nəticələri ətraflı öyrənilməli, təhlil edilməli və araşdırılmalıdır. Hələlik isə sterilizasiya tədbirləri emprik səviyyədə həyata keçirilir.

Suallar və tapşırıqlar

1. Valyuta tənzimlənməsinin mahiyyətini açıqlayın.
2. Valyuta məzənnəsi kəmiyyətinə hansı amillər təsir göstərir?
3. Tədiyə balansı dedikdə nə başa düşülür?
4. Faiz stavkası ilə infilyasiya səviyyəsi arasında əlaqəni göstərin.
5. İnfilyasiya ilə mübarizədə pul – kredit siyasətinin hansı aləti daha yüksək nəticə verir?
6. Məcburi ehtiyatlar fondunun istifadəsi haqqındı söyləyin.
7. Nə üçün dövriyyədə 2 və daha çox pul vahidinin olması alqışlanmır?
8. Bazar iqtisadiyyatının stabil inkişafı üçün pul multiplikatorunun hansı səviyyəsi qəbul ediləndir?
9. Nə üçün pul – kredit siyasətinin keyfiyyəti kredit təşkilatlarının fəaliyyətinə nəzarətin keyfiyyətindən asılıdır?

©Живалов В.Н., 2002
© Ибрагимова Л.Ф., 2002

XVI Fəsil

İNVESTİSİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

1. İnvestisiya haqqında anlayış

«İnvestisiya» kateqoriyasının iqtisadi məzmununu dəqiq açmaq üçün bu baza anlayışına dəqiq müəyyənlik gətirmək zəruridir. Müxtəlif, eyni zamanda ümumi qəbul olunmuş iqtisadçıların tədqiqatlarında, investisiya haqqında vahid mövqeyin olmaması müşahidə olunmaqdadır (cədvəl 6-ya bax). P. Samuelsonun yanaşmasını qeyd etmək lazımdır. Bu yanaşmada qeyd edilən kateqoriyanın iki qarşılıqlı əlaqədə olan – prosesin uzunmüddətli xarakteri və onun tələbin ödənilməsinə istiqamətlənməsi məqamları öz əksini tapmışdır. İnvestisiyanın buna yaxın olan traktovkası C.Keynsin[1] məşhur əsərində də mövcuddur.

Buna baxmayaraq Rusiyanın bank ensiklopediyasında və L.C. Qitmanın və M.L. Conkun monoqrafiyasında investisiyanın xarakteristikası kifayət qədər əsaslandırılmamış təqdim olunur (o investisiyanın məqsədlərini əks etdirmir). Onların müəyyən etdiyi «investisiya» kateqoriyası onun mahiyyətini açmaq üçün heç nə vermir. Həqiqətən pulun deflyasiya (iqtisadiyyatda qiymətin ümumi səviyyəsinin aşağı düşməsi) şəraitində «corabda» saxlanılması yalnız dəyərin saxlanmasını təmin

[1] Кейнс Дж. Общая теория занятости, процента и денег. М.: Прогресс, 1978

etmir, eyni zamanda müəyyən gəlir gətirir. Ancaq investisiyaya müvafiq kapital yerləşdirmə metodu aid deyil.

A.S. Bulatovun redaktəsi altında dərslikdə verilən kritik qiymətləndirmə və təyinetmə təqdirəlayiqdir. Onda investisiya – kapitala qoyuluşdur. Ancaq kapital öz növbəsində, «iqtisadi resurs, başqa sözlə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan vasitələrin «məcmusu» kimi təqdim edilir. Belə təyinatda investisiya prosesinin son istifadəçisi «görünmür».

Cədvəl 6

İnvestisiyanın müxtəlif təyinatı

Təyinat	Mənbə
İnvestisiyalaşdırma – kapitalın formalaşdırılması və gələcəkdə gözlənilən artan tələbatın xeyrinə, gəlirlərdən cari tələbatın ödənilməsi üçün imtina edilməsidir.	P. Samuelson. Ekonomika. Tom 1.M.:NPO «Alqon», 1993
İnvestisiya – kapitalın ölkə daxilində və xaricində uzunmüddətli qoyuluşudur.	Rusiyanın bank ensiklopediyası. M.: İzd. «ETA», 1995
İnvestisiya – təsərrüfat fəaliyyətinə istiqamətləndirilən əmanətdir; kapitala qoyluşdur.	A.S.Bulatovun red.alt.Ekonomika. M.: BEK, 1997
İnvestisiya - kapitalın yerləşdirilməsi yoludur, hansı ki, onun saxlanmasını və ya dəyərinin artımını təmin edir və müəyyən həcmdə gəlir gətirir.	L.C. Qitman, M.L. Conk Osnovı investirovaniya. M.: Delo, 1997
İnvestisiya - mənfəət və (və ya) digər müsbət effektə nail olmaq məqsədilə sahibkarlıq və (və ya) digər fəaliyyət obyektlərinə qoyulan pul vəsaiti, qiymətli kağızlar, digər mülkiyyət, o cümlədən mülkiyyət hüququ, digər hüquqlar, maddi qiymətlilərdir.	Rusiya Federasiyasının «İnvestisiya fəaliyyəti haqqında» qanunu. № 39, 25.02.1999
Xarici investisiya – Rusiya Federasiyası ərazisində sahibkarlıq fəaliyyətinə xarici investorlara məxsus mülkü hüquq, o cümlədən pul, qiymətli kağız…, digər mülkiyyət, mülkiyyət hüququ, maddi qiymətlilər, intellektual fəaliyyət nəticəsinə hüququ, həmçinin xidmət və informasiya formasında qoyulan xarici kapitaldır.	«Rusiya Federasiyasının xarici investisiyalar haqqında» qanunu. № 160, 09.07.1999

Baxılan kateqoriyanın iqtisadi məzmununun *kompleks əks olunmasına* cəhd, fəaliyyət göstərən qanunvericilik aktında təsvir edilmişdir. Bununla yanaşı, investisiyanın ayrılmaz elementləri olan binalar və qurğular, avadanlıqlar, texnologiyalar haqlı olmayaraq «diqqətdən yayındırılıb».

Xidmət və informasiya investisiya kimi kifayət qədər dəqiq müəyyən edilməmişdir (bax «Rusiya Federasiyasının xarici investisiyalar haqqında» qanunu), baxmayaraq ki, onlar heç də hər zaman mülkiyyət və ya mülkiyyət hüququ kimi qəbul oluna bilmir. Məsələn, əgər xarici şirkət rusiya müəssisəsinə istehsal etdiyi məhsulu ixrac etmək üçün xidmət göstərirsə, belə xidmət investisiya hesab edilmir. İnformasiyaya gəldikdə isə ona birbaşa deyil, dolayısı ilə onun əsasında müəlliflik hüququndan yaranan pul gəlirləri vasitəsilə investisiya elementi kimi baxıla bilər.

Baxılan təyinetmənin digər catışmazlığı investisiya qoyuluşunun məqsədlərinin tam xarkterizə olunmaması ilə bağlıdır. Həqiqətən, onlar «mənfəətin əldə olunması və ya digər müsbət effektə nail olunması» ilə bitmir. Məsələn, əgər kömür hasilatı ilə məşğul olan müəssisə dağ-mədən avadanlıqları istehsalçısının nəzarət səhm paketinə nail olursa, onda onun mənfəəti ola bilsin heç dəyişməsin. Baxmayaraq, müvafiq investisiyanın strateji məqsədi mənfəətin artırılması ilə bağlı deyil, əsas biznesin inkişafının maddi-texniki resursların təchizatçılarının qiymət siyasətindən asılılığın azaldılması ilə bağlı olmuşdur. Bütün bunları nəzərə almaqla, bundan sonra biz bu istiqamətdə təyinetməyə əsaslanacağıq.

İnvestisiya – investorun strateji məqsədlərinə çatmaq, mənfəət və ya digər müsbət effekt əldə etmək üçün sahibkarlıq və digər fəaliyyət obyektlərinə qoyulan pul vəsaitlərindən, məqsədli bank qoyuluşlarından, paylardan, səhm və digər qiymətli kağızlardan, texnologiyalardan, maşınlardan, avadanlıqlardan, digər maddi qiymətli mülkiyyət və mülkiyyət hüquqlarından ibarətdir.

İqtisadi nəzəriyyədə investisiyanın bir neçə təsnifləşdirilməsi fərqləndirilir ki, onlardan hər birinin də öz istifadə olunma

sahəsi vardır. Cədvəl 7-də investisiya qoyuluşunun istiqamətləndirilməsi, müəssisənin idarəedilməsində iştirakın təmin edilməsi, innovasiyaya münasibət təsnifləşdirmə əlamətləri üzrə investisiyanın təsnifatı verilmişdir.

Cədvəl 7-də verilən təsnifləşdirmə əlamətlərinə əlavə kimi qoyulan aktivlərin müddəti (adətən - maliyyə) təsnifləşdirmə əlamətini də xüsusi qeyd etmək olar. Bu baxımdan uzun müddətli (bir ildən artıq müddətə) və qısamüddətli (bir il müddətinə qədər) qoyuluşlar fərqləndirilir. Qeyd etmək lazımdır ki, rusiya iqtisadiyyatında formalaşan investisiya strukturu qısamüddətli maliyyə investisiyalarının, uzunmüddətli maliyyə investisiyaları üzərində iki dəfədən çox üstünlüyü və ölkəyə xarici investisiya axınları üzrə mənfi saldo ilə xarakterizə olunmaqdadır.

Cədvəl 7

İnvestisiyanın təsnifləşdirilməsi

Təsnifləşdirmə əlaməti	İnvestisiyanın növləri	Təyinetmə
1. İnvestisiyalaşdır-manın istiqaməti	1.1. Qeyri-maliyyə aktivlərinə investisiyalar	Əsas fondlara investisiyanı, əsas fondların əsaslı təmirinə xərcləri, qeyri-material aktivlərinə investisiyaları, dövrüyyə vasitələri ehtiyatının artımına xərcləri, qeyri-maliyyə aktivlərinin mənimsənilməsini (torpaq sahələrinin, təbiətdən istifadə obyektlərinin və s.) əhatə edən kapital qoyuluşları.
	1.1.1. Real investisiyalar	Əvvəlki təyinatdan «qeyri-material aktivlərinə investisiyaları» istisna olmaqla
	1.1.1.1. Əsas fondlara investisiyalar	Əsas fondların yaradılmasına, təkrar istehsalına və mənimsənilməsinə xərclər (yeni tikinti, rekanstruksiya və texniki silahlanma, mantaj avadanlığının mənimsənilməsi, əsas sürünün formalaşdırılması, çoxillik əkmələr və s.)
	1.1.1.2. Dövriyyə vasitələri ehtiyatının artımına investisiyalar	Müəssisənin dayanıqlı fəaliyyətini təmin edən dövrüyyə vasitələri ehtiyatının artımına xərclər və s.
	1.1.2. Qeyri-material aktivlərinə investisiyalar	Patentlərin, lisenziyaların, torpaqdan və digər sərvətlərdən isifadə olunması hüquqlarının, müəlliflik hüququnun, ticarət maarkalarının, mal nişanlarının, proqram məhsullarının və s. əldə olunması.

	1.1.2.1. İntellektual investisiyalar	Mütəxəssislərin hazırlanmasına, patentlərin, nou-hau-ların və lisenziyaların əldə olunmasına, elmi tədqiqatlara və s. qoyuluşlar
	1.2. Maliyyə investisiyaları	Qiymətli kağızların, federeal, subfederal və bələdiyyələrin faizli öhdəliklərinin, hüquqi şəxslərin nizamnamə kapitalında payın, digər hüquqi şəxslərin öhdəliklərinin əldə olunması
2. Müəssisənin idarəedilməsində iştirak imkanı	2.1. Birbaşa investisiyalar	İnvestisiya obyektinin idarə edilməsinə hüququ olan hüquqi və fiziki şəxslər tərəfindən müvafiq hüququn (səhmdar cəmiyətinin səhmlərinin minimum 10%-nə və ya nizamnamə kapitalına nəzarət etmək) əldə olunması üçün investisiyalar
	2.2. Portfel investisiyalar	İnvestora müəssisənin idarə edilməsinə təsir imkanı verməyən pay və səhmlərin alışı (səhmlərin alışından sonra onun payı 10%-ə çatmır)
	2.3. Digər investisiyalar	Kreditorun idarəetmədə iştirakına şərait yaratmayan digər kredit növləri.
İnnovasya	3.1. Adi	İstifadə olunmuş texnika, texnologiya növlərinin əldə olunması, standart proqramlarla kadrların təkmilləşdirilməsi və s. bağlı investisiyalar
	3.2. İnnovasiya yönlü	Texniki, texnoloji və idarəetmə innovasiyalarını təmin edən investisiyalar

Rusiya Federasiyasının dövlət statistika komitəsinin 2000-ci il üzrə məlumatlarına əsasən Rusiya müəssisələrinin xaricdə investisiyalarının həcmi, ölkədə reallaşdırılan xarici investisiyaların həcmini 1,6 dəfə üstələyir.

Bu məlumatlar göstərir ki, 2000-ci ildə ölkə iqtisadiyyatının real sektorunda investisiya aktivliyinin artmasına və onun 2001-ci ildə də davam etməsinə baxmayaraq, Rusiya iqtisadiyyatı hələ də investisiya böhranını aradan qaldırmaq imkanından uzaqdır.

İnvestisiya prosesinin təşkili zəruri ehtiyatların, kapital sahibləri üçün cəlbedici investisiya obyektləri, əlverişli inves-

tisiya mühiti[1] olmadan mümkün deyildir. Bununla əlaqədar olaraq növbəti şərhlərdə dövlətin roluna investisiya fəaliyyətinin *resurs təminatının* və rusiya iqtisadiyyatının investisiyaların cəlbediciliyinin yüksəldilməsi problemlərinin həlli aspektindən baxılır.

2. İnvestisiya resurslarının ümumi xarakteristikası

İqtisad elmində resurs növləri (maddi-texniki, maliyyə, əmək, informasiya, təbii və s.) investisiya resursu hesab oluna bilər. Məlum olduğu kimi «resurs» sozü fransız dilindəki «ressourses» sözündən götürülüb və vasitə, ehtiyat, imkan və nəyinsə mənbəyi kimi məna daşıyır. Bunu nəzərə almaqla *investisiya resursu* kimi investisiya fəaliyyətinin istənilən mümkün mənbələrini qəbul etmək olar. Məhz bu baxımdan iqtisadi və investisiya resurslarının qarşılıqlı müqayisəsi araşdırılır.

Belə ki, müəssisənin balansında olan əsas fondlar qalıq dəyəri ilə onun iqtisadi resursu hesab olunur. Lakin investisiya resurslarına belə yanaşma mümkün deyil, çünki əsas fondların investisiya prosesində keyfiyyətcə dəyişir. Bir tərəfdən, onlar əlavə hesablanan amortizasiya qədər müəssisənin şəxsi investisiya resursunu formalaşdırır. Digər tərəfdən isə mövcud olan fondlar qalıq dəyəri həcmində istehsalın inkişafı üçün müəssisəyə girov qismində investisiya cəlb olunması imkanı yaradır. Bank təcrübəsində belə riskin azaldılması 30-50%-ə çatır (girov qoyulan aktivin satışında itki). Bundan əlavə, iqtisadi resurs qismində istfadədə qalmaqla əsas fondların mənəvi aşınması, investisiya resursu kimi əhəmiyyətini itirə bilər.

Material dövrüyyə vasitələrinin investisiya prosesinin təşkilindəki rolunun müəyyənləşdirilməsi daha çətindir. Məlum

[1] İnvestisiya mühütü – investisiynın məqsədyönlüyünü müəyyən edən sosial-iqtisadi, təşkilati-hüquqi, siyasi və mədəni şərtlərin məcmusudur. – Müəllifin qeydi.

olduğu kimi onlar öz material formalarını dəyişdirir və bir istehsal tsiklində öz dəyərini hazır məhsulun üzərinə keçrir.

Ona görə də müvafiq maddi-texniki resurs növlərinin investisiyaların cəlb olunmasında girov kimi istifadə olunması imkanları, əsas fondlara nisbətən daha azdır.

Eynilə belə məntiq *maliyyə resurslarına* münasibətdə də xarakterikdir. Məsələn, bankın sərəncamında olan istənilən pul vəsaitləri və yüksək likvidli qiymətli kağızlar şübhəsiz onun iqtisadi resursu hesab olunur. Ancaq istənilən maliyyə resursuna investisiya resursu kimi baxmaq olmaz. Belə ki, konkret zaman kəsiyində bankın malik olduğu pul vəsaitlərinin bir hissəsi işçilərin əmək haqqının ödənilməsinə, vergilərin ödənilməsinə, Rusiya Federasiyasının mərkəzi bankının müəyyən etdiyi zəruri ehtiyat fonduna köçürülməsinə istifadə olunacaqdır. Bankın müştərilərinin cari hesablarında olan, qısa müd dətli öhdəliklərdən azad olan pul kütləsi də investisiya resursu ola bilməz, hansı ki, istənilən an həmin vəsaitlər müştərilər tərəfindən istifadə oluna bilər. Beləliklə, ölkə iqtisadiyyatnın real sektorunun problemlərinin həlli baxımından investisiya resursu kimi o maliyyə resursları məqsədəuyğun hesab edilə bilər ki, onlar əsas kapitala investisiya edilə bilsin.

İnformasiya, təbii və əmək resursları kimi resurslar, investisiya resursları deyildir. Burada hər şeydən əvvəl resurslarının növlərinə deyil, onlardan istehsal olunan qeyri-maddi aktivlərə diqqət yetirmək lazımdar. Sonuncu müxtəliv formalarda çıxış edə bilər. Onlara: sənaye mülkiyyətinə malik olma, xammal resurslarının işlənməsi huququ, bazarın spesifik fəaliyyətinə dair informasiyaya malik olmaq, səmərəli menecment təcrübəsinin toplanması və s. daxildir.

İnvestisiya resurslarının müəyyənləşdirilməsi nöqteyi-nəzərindən, əmək resurslarının mövcudluğu və idarəetmənin keyfiyyəti, təbii resurslar və onların işlənməsi hüquqları, informasiya və ona mülkiyyət huququ kimi anlayışların fərqləndirilməsi zəruridir. Onlardan birinciləri, gələcəkdə istehsal faktorları hansılar ki, iqtisadi resurslara, ikincilər isə (idarəetmənin keyfiyyəti, təbii resurslar və onların işlənməsi hüquqları, infor-

masiya və ona mülkiyyət huququ) – qeyri-maddi aktivlərə, başqa sözlə, həm iqtisadi, həm də investisiya resurslarına aiddirlər.

Yuxarıda sadalanan investisiya resursları investisiya prosesində istifadə olunur, hansı ki, əsas fondlara olan tədiyyə qabiliyyətli tələbin və iqtisadiyyatın fondtutumlu sahələrində keyfiyyətcə yeni texnologiyaların nəticəsidir. Düzdür, iqtisadiyyatın bir çox sahələrinə və ayrıca istehsal kompaniyalarına, eyni zamanda fondyaradan və fondistifadə edən kimi baxıla bilər. Məsələn, tikinti təşkilatları eyni zamanda inşaat maşınlarının alıcısı və digər istifadəçilər (sifarişçilər) üçün tikinti obyektlərinin yaradıcısı kimi çıxış edirlər. Bu hal müxtəlif investisiya resursları bazarının qarşılıqlı asılılığına dəlalət edir və onların funksional fəaliyyətinin optimallaşdırılmasını şərtləndirir. Məhz investisiya prosesində investisiya resurslarından istifadəyə sistemli yanaşma, onların istifadəsində sinergizm[1] effektini yaranmasını təmin edir. Həqiqətən, əsas fondlara investisiya edilmək üçün toplanılmış eyni həcmdə resursla, iki təxminən eyni rəqabətqabiliyyətli müəssisə keyfiyyətcə fərqli nəticələrə nail olmuşdur. Ola bilsin bu əsas fondların yaradılmasının müxtəlif texnologiyalarına istiqamətlənmə, cəlb olunmuş maliyyə resurslarının dəyərinin müxtəlifliyi, müxtəlif ixtisaslı top-menecerlərin peşəkarlığı ilə bağlıdır. O da mümkündür ki, rəqiblərdən biri bazarın funksional fəaliyyəti haqqında eksklüziv informasiyaya malikdir. O, variantda ehtimal oluna bilər ki, bir müəssisə rəqibi ilə investisiya fəaliyyətində eyni nəticəyə daha az investisiya resursunun istifadəsi hesabına nail olub.

Rusiya Federasiyasının statistika komitəsinin məlumatlarına əsasən bütün mənbələr (resurslar) üzrə investisiyaların maliyyələşməsnin mövcud strukturu aşağıdakı kimi xarakterizə olunur (bax cədvəl 8).

[1] Yunan sözü olan «synergeia» sözündən götürülüb, əmkdaşlıq, birlik, müxtəlif faktorların qarşılıqlı təsirindən efffek almağa imkan verən, ayrılıqda hər bir faktorun baxılan obyektdə təsirinidən alınan effektlərin yüksəlməsini təmin edən mənasını daşıyır. – Müəllifin qeydi

Cədvəl 8

Rusiya müəssisələrinin əsas fondlara investisiya qoyuluşlarının maliyyə mənbələri üzrə strukturu

(yekuna görə faizlə)

Göstəricilər	1995	1996	1997	1998*[1]	1999	2000*
Əsas fondlara cəmi investisiya qoyuluşları	100	100	100	100	100	100
O cümlədən, maliyyə mənbələri üzrə:						
Şəxsi vəsaitlər	49,0	52,3	60,8	53,2	52,4	46,1
Onlardan:						
Təşkilatın sərəncamında qalan mənfəət	20,9	15,0	13,2	13,2	15,9	23,4
Amortizasiya	22,6	27,6	25,5	***	***	18,1
Cəlb olunmuş vəsaitlər	51,0	47,7	39,2	46,8	47,6	53,9
Onlardan büdcə vəsaitləri (konsolidasiya olunmuş büdcə vəsaitləri)	21,8**[2]	20,1	20,7	19,1	17,0	21,2
O cümlədən:						
Federal büdcədən	10,1	9,9	10,2	6,5	6,4	5,8
Yerli və Federasiya subyektlərinin büdcəsindən	10,3	10,2	10,5	12,6	10,6	15,4

Müvafiq məlumatlardan aydın olur ki, ölkə iqtisadiyyatında zəif də olsa davamlı olaraq əsas fondlara qoyulan investisiyaların ümumi həcmində şəxsi vəsaitlərin azalması və cəlb olunmuş vəsaitlərin artması meylləri formalaşır. Baxmayaraq ki, büdcə hesabına reallaşdırılan investisiyaların həcmi stabil xarakter daşıyır, bu investorların spekulyativ əməliyyat-

[1]* Kiçik sahibkarlıq subyektləri istisna olmaqla

[2]** İqtisadiyyatın prioritet sahələrinin dəstəklənməsi fondunun vəsaitləri daxil olmaqla

larla istehsal və xidmət sahələrinin maddi inkişafını təmin edən maliyyə bazarlarına istiqamətlənməsinə dəlalət edir. İnvestisiya qoyuluşlarında belə transformasiya, bütün səviyyələrdə dövlət tənzimlənməsi alətləri ilə dəstəklənməlidir.

Eyni zamanda əsas fondlara investisiya qoyuluşlarının yuxarıda baxılan strukturuna müvafiq xeyli misallar gətirmək olar ki, xarici dövlətlərin və onların iqtisadiyyatın qeyri-dövlət bölməsinin müəssisələrin mövcud potensialında aşağı səviyyədədir.[1] Beləliklə, ölkədə mövcud olan investisiya potensialı, o investisiya resurslarını üstələyirlər ki, hansılar investisiya prosesində faktiki istifadə olunmaqdadır. Bu investisiya potensialının real investisiyalara transformasiyasını təmin etmək isə dövlətin elmi əsaslandırılmış investisiya siyasətinin işlənməsini və praktiki tətbiq olunmasını tələb edir.

3. İnvestisiya siyasətinin reallaşdırılması

Məlum olduğu kimi siyasət sözü yunan dilindən tərcümədə «dövləti idarəetmə incəsənəti» mənasını daşıyır. Ona görə də geniş mənada *investisiya siyasətinə* səmərəli investisiya fəaliyyətinin təmin olunmasına istiqamətlənmiş dövlətin iqtisadi siyasətinin bir hissəsi kimi baxmaq olar. Buna baxmayaraq belə ümumi yanaşma nə Rusiyada bərqərar olan bazar münasibətlərinin spesifikliyini, nə də investisiyanın dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunmasındakı rolunu əks etdirmir. Əsas fondlara investisiyanın əhəmiyyəti təsdiq olunmuş «milli təhlükəsizlik konsepsiya-

[1] məsələn: perspektiv investisiya layihələri müəyyən edilmədən «Sibirneft» şirkəti illik gəlirin həcmilə müqaisədə dividentlərin verilməsi üçün qərar qəbul edib; sərbəst pul vəsaitləri olan banklar onları MB-ın müxbir hesablarında saxlamağı və ya onları maliyyə bazarlarında yerləşdirməyi daha məqsədəuyğun hesab edirlər, nəinki müəssisələrin kreditləşdirilməsini; büdcənin profisitinə baxmayaraq, dövlətin investisiya aktivliyi ən aşağı səviyyədə qalmaqdadır və s. müəllifin qeydi.

sında[1]» «Rusiya iqtisadiyyatının dirçəldilməsi strateji sahələrə böyük həcmdə kapital qoyuluşları olmadan mümkün deyil» kimi qeyd edilməklə xüsusilə vurğulanır.

Rusiya iqtisadiyyatının real sektorunda investisiya aktivliyi neqativ xarakterə malikdir. İnvestisiya aktivliyinin ümumilikdə azalması (90-cı illərdə orta illik qiymətdə təxminən 70%) istifadədə olan istehsal aparatının əsaslı fiziki və mənəvi köhnəlməsinə səbəb olmuşdur. Müxtəlif qiymətləndirmələrə əsasən, istehsal təyinatlı əsas fondların 50%-dən 70%-dək təcili dəyişilməyi tələb edir, avadanlıqların orta xidmət müddəti isə 15 ili ötmüşdür. Ancaq Rusiya müəssisələrinin əksəriyyəti tərəfindən istehsal olunan mallarının rəqabət qabiliyyətliliyinin azalması, yalnız kifayət qədər investisiyaların çatışmazlığından əsas fondların köhnəlməsi ilə izah olunmur. Məsələ həmçinin reallaşdırılan kapital qoyuluşlarının təkmil olmayan strukturu ilə bağlıdır (bax cədvəl 9). Onlara maşın və avadanlıqlara investisiyanın azalması xarakterikdir (başqa sözlə, istehsal prosesində birbaşa iştirak edən əsas fondların aktiv hissəsinə)[2]

2000-ci ildə Rusiya iqtisadiyyatında uzun sürən investisiya böhranının aşılmasının ilkin əlamətləri müşahidə olunmuşdur. Belə ki, iqtisadiyyatın real sektoruna investisiyaların artımı 1999-cu ilə nisbətən 17%-dən çox artmışdır. Bu ÜDM artım tempindən iki dəfə çoxdur. Bu tendensiya 2001-ci ildə də saxlanılmışdır. Lakin orta müddətli perspektiv üçün investisiya aktivliyi üçün xüsusi əsas yoxdur. Məsələ burasındadır ki, onun artırılması üçün katalizator kimi iki əsas faktor – rublun devalivasiya effekti və enerji daşıyıcılarının dünya bazarında əlverişli konyukturu çıxış edir.

[1] Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyası. RF prezidentinin 17 dekabr 1997-ci il, 1300№-li fərmanı ilə təsdiq olunub // RF-nın qanunlar toplusu.1997, №52

[2] Məlum olduğu kimi passiv əsas fondlar (binalar, qurğular) bilavasitə istehsal prosesində iştirak etmirlər, yalnız onun təmin olunması üçün şəraiti təmin edirlər – Müəllifin qeydi.

Cədvəl 9

Əsas fondlara investisiyanın texnoloji strukturu[1*]

(yekuna görə faizlə)

Göstəricilər	1992	1994	1995	1996	1997	1998	1999	2000
Cəmi əsas fondlara investisiyalar	100	100	100	100	100	100	100	100
O cümlədən:								
Tikinti-montaj işləri	58	65	64	63	60	55	47	47
Avadanlıqlar, alətlər, inventarlar	21	20	22	24	27	28	34	33
Sair əsaslı işlər və xərclər	21	15	14	13	13	17	19	20

Ölkə iqtisadiyyatında potensial investorlara mənfi təsir göstərən problem investisiya mühütüdür, o faktda mövcuddur ki, investisiya qoyuluşunun qeyd olunan artımının 2/3 hissəsi müəssisələrin öz vəsaitləri hesabına təmin olunmuşdur. Bu o deməkdir ki, iqtisadiyyatın real və maliyyə sektorları arasında investisiya böhranının kəskin fazasında mövcud olmuş əlaqə yaxşılaşmamışdır. Həqiqətən, bank kreditləşməsinin ümumi həcminin artmasına baxmayaraq, onun əsas vəsaitlərə investisiya qoyuluşlarındakı payı 4%-i keçmir.

Yeni korparativ qiymətli kağızların emissiyasına gəldikdə isə bu yolla yalnız 1% real investisiya cəlb olunmuşdur.

İnvestisiya qoyuluşlarının həcminə təsir edən daxili və xarici amillərin təhlili, o nəticəyə gəlməyə əsas verir ki, investisiya aktivliyinin gələcək dinamikası az ehtimal olunur. Rublun davamlı möhkəmlənməsi, Rusiyanın ixracının ənənəvi nomenklaturunun bahalanmasına səbəb olan şəraitin praktiki formalaşmasını qaçılmaz edir, idxalı əvəz edən istehsalın yenilənməsini və rəqabət qabiliyyətinin artırılması potensialını azaldır. Tənzimlənməmiş dövlət borcu problemləri (xüsusilə Pars

[1] Rusiya Federasiyasının statistika komitəsinin məlumatları

kreditorlar klubu ilə «dondurulma nöqtəsində» olan danışıqlar) ucuz və uzunmüddətli pulları olan beynəlxalq kapital bazarına çıxmağı çətinləşdirir.

Heç bir əsaslanmalı fakt yoxdur ki, neftin yüksək qiyməti (rusiya neftinin hər barrelinə 25 dollardan artıq) uzun müddətli perspektiv dövr ərzində saxlanacıqdır. Başqa sözlə, müasir dövrdə investisiya aktivliyinə əlverişli şərait yaradan amillər dayanıqlı deyildir. İnvestisiya sferasında pozitiv proseslər üçün qanunvericilikdə dəyişikliklər, investisiya bazarının infrastrukturunun formalaşmasına cəhdlər, investorlar üçün riskin azaldılması tələb olunur. Bunları nəzərə alaraq, baza kimi aşağıdakı təyinetmə qəbul olunub.

Dövlətin investisiya siyasəti – əlverişli investisiya mühitinin formalaşdırılmasına və büdcə invesvtisiya resurslarının istifadəsinin səmərəliliyinin yüksəldilməsinə istiqamətləndirilmiş iqtisadiyyatın dövlət tənzimlənməsi tədbiri sistemidir[1].

Yeri gəlmişkən, rusiya iqtisadiyyatında mövcud olan sistem xarakterli problemlər, hansılar ki, investisiya mühütünə və onun səmərəliliyinə mənfi təsir göstərir, öz həllini tapmamış qalmaqdadır. Onların arasından dövlətin investisiya siyasətinin prioritetlərinin olmamasını qeyd etmək zəruridir. Xüsusilə, 2001-ci ilin büdcəsindən inkişaf büdcəsi çıxarılmışdır. Rusiya müəssisələrinin əksəriyyətinin effektiv mülikiyyətçisi yoxdur. Yerli investisiya institutları olduqca zəifdir (onların bir hissəsi güclü kapitala malik deyil, digər qisminin isə uzunmüddətli passivləri yoxdur). Məhkəmə sisteminin vəziyyəti embirional səviyyədədir. İnvestisiya bazarının infrastrukturu müasir tələblərə cavab vermir. İnvestorların hüquqlarının qorunmasına təminat aşağı səviyyədədir. Müxtəlif səviyyələrdə büdcələrin xərc hissəsi borc öhdəlikləri ilə yüklənmişdir. Ölkənin regionları və sahələri üzrə investisiya fəaliyyəti üçün şərait çox ciddi fərqlənir.

[1] Bax. Марголин А.М., Быстрйаков А.Й. Экономическая отсенка инвестиции. Dərslik, M.: EKMOC, 2001

Əsas fondlara investisiya qoyuluşunda birləşdirilmiş büdcə vəsaitlərinin payının əhəmiyyətli səviyyədə olmamasına baxmayaraq, dövlətin investisiya prosesindəki rolunu qiymətləndirməmək olmaz. Məsələn, qeyri - büdcə vəsaitləri hesabına sosial təyinatlı investisiya qoyuluşlarının reallaşdırılmasına ümüd etmək çətindir. Buna görə də müvafiq investisaya proqramlarının büdcə vəsaitləri hesabına reallaşdırılması, əlverişli investisiya mühütünün formalaşdırılması strategiyasının mühüm elementidir. Çünki məhz gələcəkdə investisiya kompleksində istifadə olunan dövlət resursları, nəticə etibarilə sahələrarası zəncirvari qarşılıqlı təsirlə investisiya və innovasiyaya tələbin artmasını təmin edən «investisiya multiplikatoru» mexanizminin işə düşməsini təmin edir.

İqtisadi nəzəriyyədən məlumdur ki, resurslar nə qədər məhdud olarsa, onun daha da səmərəli istifadə olunmasına tələb artar. Bu nöqteyi nəzərdən dövlətin investisiya qoyulşlarını maliyyəlşdirməsi məhdudluğu aktuallıq kəsb edir. Onun bir hissəsi dövlətin məqsədli investisiya proqramları çərçivəsində reallaşdırılan sosial təyinatlı (faktiki mənfəət təmin etməyən) layihlərin reallaşdırılmasına gedir. Digər hissəsi isə inkişaf büdcəsi vəsaitləri hesabına reallaşdırılan kommersiya tipli layihələri əhatə edir ki, onun bərpa olunmasına da dövlətin investisiya siyasətinin bir istiqaməti kimi baxmaq olar. Bu büdcə vasitəsilə dövlət investisiyalarının reallaşdırılmasının əsas şərtləri reallaşdırılan layihələrin yüksək iqtisadi səmərəliliyi, onun maliyyəlşdirilməsinin istisna işgüzar xarakteri, dövlətin risklərinin şəxsi kapitalla diversifikasiyası, müsabiqəlilik, zərurilik, ayrılan vəsaitin ödənməsi və geri qaytarılmasıdır.

Məqsədli proqramlar müasir tələblərə cavab verən qarışıq iqtisadiyyatın formalaşdırılması və inkişafında tənzimləmə prosesinin mühüm alətlərindən hesab olunur. Onlar struktur disproporsiyaların aradan qaldırılmasına, sosial sahələrin və maddi istehal sahələrinin səmərəliliyinin artırılmasına, təbii sərvətlərin rasional istəfadəsinə və ekoloji təhlükəsizliyin təmin olunmasına istiqamətləndirilir.

Məqsədli proqramların resurs təminatının effektivliyinin yüksəldilməsi üçün bir sıra şərtlərin təmin edilməsi zəruridir. Hər şeydən əvvəl büdcə prosesinin təşkilində dünya təcrübəsinin hərtərəfli nəzərə alınması zəruridir. Bu baxımdan, Almaniyanın qanunvericiliyi, xüsusilə büdcəəvəzləyici adlandırılan xarici qiymətli kağızların cəlb olunması və onların investisiya məqsədilə bölüşdürülməsinin müəyyənləşdirilməsi böyük maraq oyadır. Məqsədli proqramların reallaşdırılmasına istiqamətləndirilmiş dövlət vəsaitlərinin məqsədli və səmərəli istifadəsi üzrə formalaşmış təcrübənin dəyişdirilməsi zəruridir. Hazırda o ən səmərəsiz qanunvericilik bazasına əsaslanmaqla, nəzarət edilənin (proqramın dövlət sifarişçisinə) nəzarətetmə formasının və dövrünün seçilməsində iştirakına yol verilir. Rusiya şəraitində konkret proqramlarda İngiltərədə qəbul olunmuş dövlət xərclərinə daxili və xarici auditi əlaqələndirən çoxsəviyyəli sistemin işlənməsi məqsədəuyğundur. İcra və qanunverici hakimiyyətdən asılı olmayan ixtisaslaşdırılmış müstəqil dövlət strukturunun formalaşdırılması da pis olmazdı (hansı ki Almaniyada qəbul olunub). Məqsədli proqramlar cərçivəsində büdcə xərclərinin azaldılması məqsədilə dövlət investisiyalarının sifarişində müsabiqə təcrübəsinin genişləndirilməsi də məqsədəuyğundur.

İqtisadiyyatın real sektoruna strateji investorların cəlb olunması üçün şəraitin yaradılmasına gəldikdə isə o federal və regional investisiya qanunvericiliyinin inkişafı ilə bağlıdır. O, investisiya risklərinin əhəmiyyətli azaldılmasını, korparativ qiymətli kağızlar bazarının canlanmasını, sənaye, bank, ticarət kapitalının inteqrasiyasını və rəqabətqabiliyyətli maliyyə-sənaye qruplarının formalaşmasını təmin etməlidir. Bundan başqa, lizinq, ipoteka, məhsul bölgüsü haqqında razılıq və s. kimi investisiya texnologiyalarının müvafiq infrastrukturun inkişaf etdirilməsi də zəruridir.

İnvestisiya protensialının ölkənin regionları arasında qeyri-bərabər bölgüsü və regional xarakterli investisiya risklərinin böyük fərqliliyinə diqqət yetirilməsi də zəruridir. Qeyd edilən vəziyyət bütövlükdə Rusiyaya olduğu kimi hər bir federal dairəyə də xasdır. Məsələn, Mərkəzi federal dairədə orta inves-

tisiya potensialına və aşağı investisiya riskinə malik Belqorod, yanında isə yüksək risk və zəif investisiya potensialına malik Bryansk vilayəti yerləşir[1]. Belə misalların sayını artırmaq olar, ancaq prinsipcə zəruri olan o vəziyyət dəyişməz qalır ki, regionların inkişafı səviyyəsindəki struktur disproporsiyaları dərinləşməkdə davam edir. Lider və depressiv regionlar arasındakı adambaşına düşən ÜDM-kı fərq azdır, nəinki real investisiyaların adambaşına düşən həcmi (müxtəlif regionlar üzrə 1,5 dən 3 dəfəyədək).

Federal dairələrdə yaradılmış Rusiya prezidentinin səlahiyyətli nümayəndəlik institutunun başlıca vəsifəsi rusiya iqtisadiyyatındakı təhlükəli tendensiyaya qarşı fəaliyyət göstərməkdir[2]. Bu problemin həllində əhəmiyyətli vasitə effektiv investisiya siyasətidir, hansı ki, ölkə iqtisadiyyatının modernizasiyası və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, eyni zamanda regionların disproporsiyasının mərhələrlə aradan qaldırılması üçün devalivasiya effekti və dünya bazarının məqsədəuyğun konyukturası kimi xarici amillərin uyğunlaşdırılmasına maksimal kömək edə bilər.

Bu nöqteyi nəzərdən, federal dairələrdə investisiya siyasətinin reallaşdırılmasının əsas mexanizmi, federasiya subyektlərinin investisiya qanunvericiliyinin uyğunlaşdırılmasını və iqtisadiyyatın real sektoruna uzunmüddətli investisiya qoyuluşlarının risklərinin azaldılmasını əhatə etməlidir. Belə uyğunlaşdırmanın gözlənilən nəticəsi investisiya qoyuluşu üçün ölkə üzrə regional deyil, vahid (imkan daxilində) və əlverişli qanunvericilik şəraitinin formalaşmasına transformasiya olmalıdır.

Məsələn, Şimal-Qərb federal dairəsinin əraziləri üzrə Kalininqrad və Novqorod vilayətləri investisiya qanunvericiliyinə görə seçilir. Onlar «Ekspert»in həftəlik investisiya riski reytinqində birinci və ikinci yerləri tuturlar. Eyni zamanda,

[1] Инвестиционный рейтинг российских регионов. 2000-2001гг // Експекрт. 2001, №41

[2] Указ Президента Российской Федератсии №849, 13 май 2000 «О полномочным представителе Президента Российской Федератсии в федералным округе» / Собранийе законадателства РФ. 2000, №20

Pskov vilayəti həmin dairədə yüksək qanunvericilik riski ilə seçilir (reytinqdə 39 yer). Bu Novqorod vilayətinin qanunVericilik bazasının Pskov vilayətində yalnız mexaniki olaraq köçürülməsinin məqsədəuyğunluğu demək deyildir. Buna baxmayaraq, sınaqdan çıxmış və müsbət nəticə vermiş yanaşmaların dövlət idarəetmə orqanlarının səlahiyyətli nümayəndələri tərəfindən dəstəklənməsi ilə geniş yayılması təqdirəlayiqdir[1].

İnvestisiya qanunvericiliyinin uyğunlaşdırılmasının növbəti mərhələsi ölkənin bütün ərazisində investisiyaya əlverişli şəraiti təmin edən vahid məkanın yaradılması olmalıdır. Onun xarakterik xüsusiyyətləri strateji investorlar üçün investisiyaların milliləşdirilməməsinə, investisiya tsiklində investisiya qoyuluşu şəraitinin pisləşməməsi və investorların günahı üzündən baş verməyən vəsait itkisinin geri ödənilməsi üzrə etibarlı zəmanətin təmin olunmasıdır.

Ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafındakı disproporsiyaların aradan qaldırılmasında investisiya siyasətinin də az rolu yoxdur. Bununla yanaşı investisiya fəaliyyətinin dövlət tənzimlənməsinin konkret mexanizmlərin diferensiallaşmış istifadəsi məqsədəuyğundur. Hər şey bazarın perspektivindən və müvafiq sahələrin ölkə iqtisadiyyatının keyfiyyətcə yeni rəqabətqabiliyyətliliyinə nail olmasından, onun beynəlxalq əmək bölgüsündə tutduğu layiqli yerdən asılıdır.

Məsələn, texniki inkişafı müəyyən edən və geniş investisiya potensialına malik olan sahələrdə, (silah istehsalı, kosmanavtika və aviasiya, ağac emalı və kağız sənayesi) birbaşa dövlət proteksionizmi zəruridir.

Şəxsi və cəlb olunmuş vəsaitlər hesabına inkişaf imkanlarına, yüksək ixrac potensialına malik hasilat sahələri üçün isə əlverişli investisiya mühütünün yaradılmasında dövlətin dolayı tənzimləmə mexanizmlərinin əhəmiyyəti vardır. İqtisadiyyatın dünya liderlərindən kifayət qədər geridə qalan bir sıra sahələri

[1] Novqorod vilayətinin təcrübəsi bir neçə ildir, praktiki etalon hesab edilir. O, investorlar tərəfindən investisiya qoyuluşu üçün zəif potensiallı regionlar arasında ən əlverişli ərazi kimi tanınır. Müəllifin qeydi.

üçün (avtomobil sənayesi, nəqliyyat və kənd təsərrüfatı maşınqayırması, yüngül və yeyinti sənayesi) birbaşa və dolayı tənzimləmə metodlarının optimal uyğunlaşdırılmasının prinsi-pial əhəmiyyəti vardır. Burada rəqabət qabiliyyətli milli məhsul istehsalçılarının gömrük müdafiəsinin də xüsusi əhəmiyyəti vardır. İnvestisiya multiplikatoru mexanizmindən maksimal səviyyədə istifadə etmək üçün sahə və sahələrarası inteqrasiyanın da prinspial əhəmiyyəti vardır.

Rusiya iqtisadiyyatının investisiya təminatının modernizasiyası rusiya bazarında strateji xarici investorların müşahidə olunmasını təmin edəcəkdir. Bunun üçün iri kreditorlarla olan problemləri həll etmək zəruridir (ilk öncə Paris klubu və Beynəlxalq valyuta fondu ilə). Burada həmçinin sosial-iqtisadi böhranın atlatılmasının dayanıqlı əlamətlərinin təzahür etməsi, investisiya əməkdaşlığının hüquqi bazasının inkişafı, investorların hüquqlarının müdafiəsinə zəmanətin güclənməsi, kommersiya və qeyri-kommersiya risklərindən sığortalanmaq üçün sistemin təkmilləşdirilməsi, investisiya qoyuluşunda informasiya «şəffaflığının» təmin olunması vacibdir.

Məlum olduğu kimi ölkə iqtisadiyyatının innovasiya əsasında struktur yenidənqurulmasının təmin edilməsinin zəruriliyi, Rusiya şəraitində qabaqcıl idarəetmə təcrübəsinə uyğunlaşmadan ibarətdir. Öna görə də xarici investorlar üçün əlverişli vergi və gömrük rejimlərinin formalaşdırılması problemlərinin elmi əsaslandırılmış həlli xüsusi aktuallıq kəsb edir. Burada onlar üçün təqdim olunan birtərəfli vergi və gömrük güzəştləri, milli investisiya rejimindən ümumi qaydada nadir istisnalar olmalıdır. Misal üçün o, rusiyaya elm tutumlu, aztullantılı və resursa qənaət edən texnologiyaların idxalına əsaslana bilər hansı ki, onların rəqabətqabiliyyətli yerli analoqları, xammalın idxalı şərtilə yeni məhsul istehsalı təşkilatları və rusiya məhsul istehsalçılarının kompleksləşdirilməsi yoxdur.

Qeyd etmək lazımdır ki, 2001-ci ilin sonu Rusiyada birbaşa xarici investisiyalar 20 milyard dolları keçməmişdir (demək olar ki, Çindən az).

Müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, potensial xarici strateji investorlar üçün etimadın itirilməsində, 1998-ci ilin avqustunda baş vermiş rublun kursunun kəskin düşməsi və dövlətin qısamüddətli istiqraz vərəqələri üzrə hesabların dondurulması faktorları başlıca amil olaraq qalmaqdadır. Ona görə də itirilmiş etimadın yenidən doğrulmasına və yerli investisiya institutlarının investisiya aktivliyinin yüksəldilməsinə qədər, rusiya iqtisadiyyatının real sektorunda xarici investisiyaların əhəmiyyətli artımına əsas verən heç bir obyetiv əsas yoxdur. Daxili investisiyaların rolu yaxın və ortamüddətli perspektivdə üstünlük təşkil edəcəkdir.

Rusiya iqtisadiyyatının real sektoruna investisiyaların cəlb olunması yolunda ciddi maneələrdən biri də investorlar tərəfindən yeni müəssisələrin yaradılması üçün yer seçilməsində və onun zəruri sənədlərinin razılaşdırılması prosesindəki lazımsız bürokratik əngəllərdir. Məsələn, əgər Cənub-Şərqi Asiya ölkələrində razılaşdırma dövrü orta hesabla bir ay təşkil edirsə, ancaq Rusiyada bir il və ondan artıq davam edə bilər.

Rusiya iqtisadiyyatının yenidən formalaşdırılmasının müasir mərhələsində araşdırılanları nəzərə almaqla dövlətin investisiya siyasətinin əsas istiqamətini qeyd edək.

İnvestisiya aktivliyinin canlanmasında *xarici amillərin «saxlanması»* rublun rusiya iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi prosesindən ayrılıqda ehtimal olunan sürətlənmiş möhkəmlənməsi prosesindən imtina edilməsi və əlverişli dünya bazarı konyukturunun saxlanmasına maksimal kömək etməkdir.

Balanslaşdırılmış büdcə və inflyasiyanın davamlı azalmasının təmin edilməsi əsasında iqtisadiyyatın real sektorunda investisiyaların iqtisadi səmərəliliyi səviyyəsinə qədər *faiz dərəcələrinin aşağı salınması.*

Mövcud olan vergi sisteminin qaydaya salınması və struktur yenidənqurulması, həmçinin amortizasiya siyasətinin təkmilləşdirilməsi əsasında bazar subyektlərinin investisiya imkanlarının genişləndirilməsini nəzərdə tutan *vergi islahatının başa çatdırılması*.

«Effektiv mülkiyyətçi» probleminin həlli əsasında müəssisələrin *investisiya cəlbediciliyinin artırılması*.

İnvestisiya bazarının *infrastrukturunun inkişafı* və investisiya institutları ilə investorlar arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması.

İnvestorlar tərəfindən yaradılacaq müəssisələrin yerləşməsi seçimi və investisiya layihələrinin reallaşdırılmasının investisiya qabağı mərhələsində zəruri olan razılığın alınmasında *bürokratik prosedurların sadələşdirlməsi*.

Daxili və xarici strateji investorların birbaşa investisiyalarının həmçinin əhalinin yığımlarının real investisiyaya transformasiyasının stimullaşdırılması məqsədilə, məhkəmə sisteminin möhkəmlənməsi və investorların hüquqlarının qorunmasına təminatın keyfiyyətcə yüksəlməsi əsasında investisiya risklərinin azaldılmasının *təşkilati-hüquqi zəminin formalaşdırılması*.

Strateji perspektivliyini, ölkə iqtisadiyyatının inkişafı üçün prioritetliyini və investisiya axını nəticəsində sahələrarası qarşılıqlı zəncirvari təsir hesabına multiplikativ effekt alınması imkanını nəzərə almaqla, investisiya fəaliyyətinin müxtəlif sahələrdə stimullaşdırılması alətlərinin *differensial tətbiqi*.

Rusiya regionlarında əsas fondlara uzunmüddətli investisiya qoyuluşunda risklərin və iqtisadi inkişaf səviyyəsindəki dərin fərqlər doğurduğu investisiya cəlbediciliyindəki *qeyri-bərabərliyin azaldılması*.

Büdcə investisiyalarının effektiv istifadəsi və məqsədli proqramlar üzərində dövlət nəzarətinin gücləndirilməsi, məqsədli proqramların seçimi və reallaşdırılması, investisiya institutlarının, müəssisələrin və dövlətin maraqlarını təmin edən razılaşma mexanizmlərinin işlənməsinin yaxşılaşdırılması əsasında büdcə investisiya resurslarının istifadəsinin *səmərəliliyinin yüksəldilməsi.*

Suallar və tapşırıqlar

1. Aşağıdakılar düzdürmü:

a) investisiya və kapital qoyuluşları sinonim sözlərdir;

b) 2000-ci ildə rüsiya iqtisadiyyatının real sektorunda investisiya aktivliyinin yüksəlməsinə, investisiya qanunvericiliyinin və xarici investisiyaların cəlb olunması hesabına nail olunub.

2. Kvadrat mötərizələrdə sizə təqdim olunan çoxvariantlı cavablardan düzgün olanını seçin.

- Kapital qoyuluşunun təkrar istehsal strukturu….. xərclərin nisbətidir. [a) əsas fondların aktiv və passiv hissələridir; b) yeni tikinti, rekonstruksiya və əsas fondlarla texniki silahlanmadır; c) amortizasiya, material və əməyin ödənişidir; ç) real, maliyyə və in telektual investisiyadır].

-Birbaşa investisiya…...[a) avadanlığın mənimsənilməsinə investisiyadır; b)səhmdar cəmiyyətinin nəzarət paketinin əldə olunmasına investisiyadır; c)müəssisənin idarə edilməsini təmin etmək məqsədilə reallaşdırılan investisiyadır; q) bank tərəfində onun daimi müştərisi olan müəssisəyə təklif olunan uzunmüddətli kreditdir].

3. Aşağıdakı cümlələrdə buraxılmış sözləri yerinə qoyun:

a)vergi stimullaşdırılması investisiya fəaliyyətinin dövlət tənzimlənməsində …. metodlara aid edilir;

b) gəlirin artımı ilə onun əldə olunmasına istifadə olunmuş investisiya arasındakı faiz, …….. adlanır.

© Марголин А.М., 2002

XVII Fəsil

ƏHALİNİN YIĞIMI İNVESTİSİYA RESURSU KİMİ

Rusiyada *əhalinin yığımı* mövzusu bazar şəraitində onun investisiya resursu kimi istifadəsi imkanları və rolunun qiymətləndirilməsi ilə birbaşa bağlıdır. Yığım prosesinin miqyasının və əsas kompanentlərinin araşdırılması ölkədə formalaşan müvafiq resursun müxtəlif və əksər hallarda görünməyən məqamlarının müəyyənləşdirilməsinə imkan yaradır, hansılar ki, təssüf olsun ki, bu günə qədər geniş ictimai təkrar istehsal prosesində iştirak etməmişdir. Bu yolla transformasiya dövrünün fundamental probleminin həllinə – ölkənin bütün əhalisinin islahat obyektindən onun aktiv subyektinə çevrilməsi ilə nail olunur.

1. Bazar iqtisadiyyatı və əhalinin yığımı

Pul gəlirlərinin bölgüsü probleminə sistemli baxış ilk dəfə klassik məktəbin təmsilçiləri A.Smit, D.Rikardo, C.Mill və başqaları tərəfindən olmuşdur. Smit və Rikardo əhalinin yığımına deyil, daha çox kapital yığımına diqqət yetirmişlər. Uzun müddət ərzində onların yanaşmaları əhalinin yığımı məsələlərində iqtisad elminin fundamental prinsiplərindən biri kimi qalmışdır. Kifayət qədər yüksək inkişaf etmiş iqtisadiyyat mövcud olan XX əsrin 30-40-cı illərində, Con Meynard Keyns (1883-1946) sübut etmişdir ki, yalnız şəxsi yığım kifayət deyildir. Eyni zamanda dövlətin yığımı və investisiyası da zəruridir, hansı ki, onların malik olduğu multiplikativ effekt vasitəsilə istehsalın ümumi həcminin

genişlənməsinə, gəlir və məşğulluğun yüksəlməsinə səbəb olur. Keynsə görə multiplikator göstərir ki, «məşğulluq nə qədər artmalıdır ki, real gəlirlərin artmasına səbəb olsun ».[1]

Keyns tərəfindən təklif olunan yanaşmada, yığımın təhlili iqtisadi elmində xüsusi yer tutur. Bu yığım nəzəriyyəsində inqilab demək idi. Düzdür, Keyns prinsipcə klassik məktəbin yığımın rolu ilə bağlı mövqeyini təkzib etmirdi. Ancaq o, keyfiyyətcə onu korrektə edir hansı ki, tez bir zamanda iqtisadi artımı sənayecə inkişaf etmiş ölkələrdə tətbiq olunmuşdur. Yenilik ondan ibarət deyildi ki, hansısa yeni bir məqamlar, elementlər və yığım kateqoriyası çərçivəsində qarşılıqlı əlaqələr meydana çıxmışdır. Məsələ başqadır: Keyns yığımın ümumi iqtisadi hadisələr sistemində xüsusi yerini müəyyən etmişdir.

Əhalinin maliyyə ehtiyatlarının artımı, dünya təcrübəsinin də göstərdiyi kimi bazar münasibətlərinin dərinləşməsi ilə sıx bağlıdır. Cəmiyyətin iqtisadi inkişaf qanunauyğunluğunun obyektivliyi ilə razılaşmaqla, fiziki şəxslərin yığımları və onun ən əhəmiyyətli hissəsi – ev təsərrüfatlarının yığımları, orta və kiçik biznesin yaradılmasının əsas bazasıdır. Onlar həmçinin uzunmüddətli perspektivdə dinamik iqtisadi inkişafın ən aktual problemlərinin həlli və bazar münasibətlərinin formalaşması üçün möhkəm bünövrə yaratmağa da qadirdir.

«*Əhalinin yığımı*» anlayışı makroiqtisadi baxımdan «yığılmış kapitalın müxtəlif formalarının məcmusu kimi - *milli sərvət*» kateqoriyası ilə sıx bağlıdır və onun ayrılmaz hissəsidir. Dünya təcrübəsində uzun illər ərzində nail olunmuş nailiyyətlərin ümumiləşdirilməsi, əhali yığımının investisiya kimi birləşməsini, cəmiyyətin sosial-iqtisadi inkişafının obyektiv qanunauyğunluğu kimi xarakterizə etməyə imkan verir. Əhalinin yığımına milli sərvətin rasional istifadəsi və müasir «sosial bazar təsərrüfatı» modelinin formalaşdırılmasının əsas şərti traktovkası aspektindən baxılması da zəruridir.

[1] Ж.М.Кейнс Общая теория занятости, процента и денег. М.: Прогресс, 1978, с.182

Əhali yığımının istifadəsi imkanları tələbin artması səviyyəsi ilə (cari və perspektiv maraqların mürəkkəb strukturunda) onun ödənilməsində resursların məhdudluğu arasındakı tarazlığın təmin olunmasına imkan verən alətlərin mövcudluğu ilə müəyyən olunur. Əhalinin *yığımının səmərəli istifadəsi* prosesi özündə milli və tarixi inkişafın iqtisadi qanunauyğunluğunu ehtiva etdirir. O, fiziki şəxslər, ev təsərrüfatları, cəmiyyət və onların struktur elementləri arasındakı iqtisadi münasibətləri əks etdirir. Eyni zamanda o konkret dövr ərzində fərdlərin və ya ailələrin maliyyə durumunun dəyişməsini əks etdirən pul gəlirlərinin yığılmış hissəsinin dövrüyyəsinin elementi kimi çıxış edir. Bununla yanaşı o müxtəlif qüvvələrin qarşılıqlı əlaqəsi və təsiri, qənaət və israfçılıq meyli, şəraitin nəticəsidir.

Gələcək təminatın əsasını yaradan yığılmış və mərkəzləşdirilmiş pul və ya digər likvid aktivlərə tələbatda, maliyyə yığımları kapitalı formalaşdırır, hansı ki bütövlkdə cəmiyyətin marağındadır. Bu isə öz növbəsində gələcək iqtisadi inkişafı üçün maliyyə ehtiyatı kimi dövlətin ümumi investisiya potensialının yaradılmasını təmin edir. Əmanət münasibətləri sferasında müxtəlif formada əlaqələr, maraqlar və məqsədlər meydana çıxır. Onlar arasında ilk növbədə təkrar istehsalı qeyd etmək zəruridir, harada ki, yığım geniş təkrar istehsalın mühüm komponenti qismində çıxış edir. Bu həmçinin istifadədə olan əhali yığımının dövrüyyəsi və milli iqtisadiyyatın maliyyə-bank sektorunun fəaliyyəti ilə bağlı olan maliyyə-pul münasibətidir. Burada əhalinin həyat səviyyəsinin yüksəlməsinə və kiçik biznesin inkişafına yönəldilmiş sosial maraqlar da aydın görünür. Eyni zamanda bu ev təsərrüfatlarının kapitalının yenilənməsi və dövriyyə mənbəyi kimi amortizasiya əlaqələridir. Və nəhayət, əmanət və qiymətli kağızlar bazarında, sığorta və digər müxtəlif fondlarda iştirak edən uzun müddətli maliyyə vasitələri və əhalinin aktivlərinin formalaşdırılması üçün ehtiyat resurslarıdır.

Bu yolla, *əhali yığımı* – hər şeydən əvvəl məhsul, xidmət və hüququn çevrilmiş forması - gələcək tələbatın ödnənilməsində ekvivalentdir. Bununla yanaşı yığım münasibətlər sistemidir, harda ki, pul formasında yığılmış və əhalinin həyat vasitəsi, lakin istifadəyə həmin an hazır olmayan cari ekvivalentin yenidən bölgüsü baş verir. Bazar münasibətlərinin formalaşması

şəraitində yığımın transformasiyası prosesinin mühüm iştirakçıları qismində yalnız dövlət deyil, həmçinin mürəkkəb maliyyə və pul-kredit bazarlarının, cəmiyyətin iqtisadi inkişaf qanununa müvafiq olaraq yığım potensialının tələb və təklif mexanizmi vasitəsilə investisiya məqsədilə yenidən bölgüsünü həyata keçirən subyektləri də çıxış edir.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda «*əhali yığımı*» kateqoriyasının digər müəyyənləşdirilməsinə də rast gəlinir. Belə ki, C.M.Keyns hesab edir ki, yığım – «gəlirin istehlakı üstələyən məcmusudur»[1]. Son zamanlar bu müəyyənləşməyə tez-tez böyük düzəlişlər edilir. Belə ki, Dünya Bankının materiallarına əsasən həqiqi yığım – «ölkənin təbii resurslarının tükənməsi nəzərə alınmaqla, insan kapitalına investisiya, istehsal olunmuş aktivlərin amortizasiyası (fiziki və süni kapitalın) karbohidrogenlərin emissiyasından qlobal itkilərin qiymətləndirilməsi» normasıdır[2].

2. Əhalinin yığımının investisiya aktivliyinin dirçəldilməsində rolu

Əhalinin yığımları əhəmiyyətli iqtisadi hadisədir. Onlar bir sıra əsas yaradan sosial-iqtisadi proseslərin inkişafını müəyyən edir. Rusiyada bazar münasibətlərinə keçid şəraitində bu iqtisadi kateqoriya yüksək maraq doğurur. Bu hər şeydən əvvəl müxtəlif mülkiyyət formalarının nisbətinin dəyişməsi, şəxsi gəlir və xüsusi kapitalın rolu və zəruriliyi ilə əlaqədardır. Rusiyanın son onillikdəki təcrübəsinin təhlili əyani surətdə göstərir ki, iqtisadiyyatın islahatlaşdırılması prosesində mühüm makroiqtisadi Qanunauyğunluqlar nəzərə alınmayıb, sosial-iqtisadi problemlərin həllində maliyyə potensialının və əhali yığımının rolu yetərincə qiymətlən-

[1] Ж.М.Кейнс Обшайа теорийа занйотности, просента и денег. М.: Прогресс, 1978, с.119

[2] Ж.Диксон, Ж.Беккес, К.Гамильтон, А.Кант, С.Педжиола, Хи. Ж. Новый взгляд на богатство народов. М.: Институт социально-экономических и производственно-екологических проблем инвестирования, 2000, с. 4

dirilməyib. Dövlət bölməsini əvəz edən və yeni nəsil mülkiyyətçilərin formalaşdırılmasında, birinci dalğanın islahatçıları iqtisadi inkişaf faktorunu diqqətdən kənarda qoydular.

İqtisadiyyatın dirçəldilməsi məqsədilə əhalinin yığımının təkrar istehsal prosesinə cəlb edilməsində, ölkədə investisiyanın aktivləşdirilməsi baxımından bir sıra mühüm əhəmiyyətli istifadə olunmamış imkanlar müşahidə olunur. Əhalinin yığımının vaxt və məqsədli istiqamətlənməsi nəzərə alınmaqla onların istifadə olunması prosesi sxem 6-da əks etdirilmişdir.



Sxem 6. Əhalinin yığımının investisiyaya transformasiyasının struktur sxemi

Əhalinin yığımının mobilizasiyası və istifadəsi – çoxfaktorlu və çoxsəviyyəli prosesdir. Ona inkişaf və tələbin ödənilməsi, bölgü münasibətləri siyasəti, eyni zamanda qiymət və gəlirlər, demoqrafik vəziyyət və ailənin sosial xarakteristikası, tələbat və yığım sferalarında müxtəlif əhali qrupunun motivləri birbaşa təsir göstərir.

Əhalinin ehtiyat maliyyə vasitələrinin səmərəli istifadə olunmasının zəruriliyi investisiya resurslarına tələbin artması ilə müəyyən olunur. Bu istiqamətdə əhalinin sosial və iqtisadi müdafiə olunmasının təmin olunmasında investisiya proseslərinin zəifləməsi, bank kapitalının formalaşdırılması və inkişaf etdirilməsi, təsir göstərir. Bu əhalinin yığımının ölkənin investisiya resursları sistemində xüsusi yerini və müxtəlif kompanentli rolunu müəyyən edir.

Rusiyada *kredit təşkilatları şəbəkəsinin* yaradılması qeyri-səmərəli meyllərin olmasına, yerli korparativ bankların formalaşdırılması prosesinə üstünlük, hansı ki, onları qeyri-adekvat maliyyə və kommersiya davranışlarının, rusiya iqtisadiyyatının yenilənməsinin prioritetləri ilə əlaqəsinin olmamasına dəlalət edir. Nəticədə, aparıcı korparativ bankların maraqları ilə ümummilli maraqlar ayrıldı. Özünəməxsus final 1998-ci ilin avqust hadisələri oldu, nə vaxt ki, bank sektorunda sistemli maliyyə böhranı baş verdi.

XX əsrin sonu – XXI əsrin əvvələrində Rusiyada baş vermiş proseslər, klassik bazarın yaradılmasına xarakterik deyildi. Burada onun yaranmasının şəxsi suda mühütü yox idi. Həm də o qeyri-mütəşəkkil, iqtisadi təkamül prosesləri ilə zəruri olan əlaqəsiz baş verdi. Ona görə də yaranmış və ixtisaslaşmış kommersiya banklarına – qarışıq iqtisadiyyat şəraitinə uyğunlaşdırılmış bank sektorunun inkişafının start nöqtəsi kimi baxıla bilər.

3. Yığımın toplanması və səmərəli istifadə olunması

Əhalinin yığımının toplanması və istifadə olunması hər şeydən əvvəl infrastrukturla müəyyən olunur. Onun mühüm tərkib hissəsi *bank sistemidir*.

Bazar iqtisadiyyatına uyğun yerli bank sisteminin yaradılmasında onun sosial funksiyası qiymətləndirilməmişdir. Kommersiya banklarının inkişafı əsasında əmanətçilərin sosial tələbatına yönəlik rəqabət mühütünün formalaşacağına ümüdlər isə özünü doğrultmadı. Burada ona əsaslanılırdı ki, dünyada əmanət strukturlarının və əmanət sektorunun təcrübəsinə əsasən, o bütövlükdə geniş əhali kütləsinin ehtiyacına cavab verməlidir. Lakin Rusiyada bu baş vermədi.

İnvestisiya resursu kimi əhali yığımının cəlb olunmasının effektiv istiqamətləndirilməsinin araşdırılması, Rusiyanın maliyyə-kredit strukturunda *Əmanət bankının* əhəmiyyətli rolunun olmasını müəyyən etməyə imkan verir. Onun kapitalının 2001-ci ilin əvvəlinə həcmi 41,6 mlrd. rubl, xalis aktivləri 550 mlrd. rubldan çox və 11,2 mild. rubl mənfəəti olmuşdur[1]. Fiziki şəxslərin ümumi rubl əmanətində payı 87%-ə çatmışdır, ölkə əhalisi tərəfindən alınan kreditlərin ümumi bank kreditlərində payı isə 20%-də artıq təşkil etmişdir.

Əmanət bankı – pulun dövrüyyəsini ilkin mərəhələdə mərkəzləşdirən, əhalinin monetar davamlılığının əsasını yaradan təşkilatdır. Ölkənin bazar iqtisadiyyatına keçid şəraitində, iqtisadiyyatda restruktirizasiya tədbirlərinin aparılmasında, bank sektorunun effektivliyinin artırılmasında digər orqanlarala qarşılıqlı əlaqələrdə və vahid universal, həmçinin effektiv milli bank sisteminin formalaşmasında o təşəbbüskarlardan biri rolunu oynamışdır. Əmanət resurslarının mühüm bazarı *sosial fondlardır*. Onlar özlərində əhəmiyyətli həcmdə (bəzən uzun müddətli perspektiv üçün) əhalinin yığımları qismində maliyyə resurslarını və həyatı təmin edən vasitələri cəmləşdirir. Bu fondlar birlikdə ölkə büdcəsinin daxlolmalarının 2/3-nə bərabərdir. Bu onun praktiki olaraq ikinci sosial büdcə sayılmasına əsas verir.

Qarışıq iqtisadiyyatın prinsipləri əsasında qurulan sosial risklərdən sığortalanmanın klassik sistemi, adətən dövlət və konüllü-ictimai, şəxsi institutlar, kommersiya və qeyri-kommer-

[1] Банкам не страшны МСФО // Ведомости. 2001, №195(518),23. 10.

siya təşkilatlarını əhatə edir. Belə sistemin inkişafında neqativ hadisələrdən, o cümlədən əmək qabiliyyətinn itirilməsindən, əmlakın və gəlirin itirilməsindən sosial müdafiəni təmin etmək zəruridir. Sosial, istehsal, təbii və digər risk növlərindən sığortalanmada, bazar tələbinin müvafiq xidmətlə ödənməsinin də mühüm rolu vardır. Ancaq *sığorta fondları* uzunmüddətli əsasda əhalinin yığımlarını belə toplayır. Göründüyü kimi onlar iqtisadiyyatın kreditləşdirilməsi və investisiyalaşdırılması potensialı kimi nəzərə alınmaya bilməz.

Göstərilən fondların mümkünlüyü qarşılıqlı əlaqədə olan iki qrup hadisənin nəticəsi kimi xarkterizə olunur. Bir tərəfdən, son illər təsərrüfat fəaliyyətini stabilləşdirən və daha yüksək makroiqtisadi tarazlığı stimullaşdıran amillərin təsiri bir qədər güclənmişdir. Digər tərəfdən, geniş təkrar istehsal üçün mənfi təsir effekti yaradan xarici və daxili mənşəli amillər qalmaqdadır. Onların uyğunlaşdırılması xarakteri bir çox məqamlarda əvvəlcədən makroiqtisadi proporsiyaları və sosial-iqtisadi siyasətin korrektirovkası üzrə tədbirlərin seçimini müəyyən edir.

Yerli bank sisteminin böhranı əmanətlərin əhəmiyyətli hissəsinin xüsusi bölməyə axınına, sərbəst pul vəsaitləri kütləsinin artmasına gətirib çıxardı. Lakin əhalinin müxtəlif təbəqələrinin əhəmiyyətli fərdi nağd pulları mövcuddur, hansı ki, yığımın əsas kütləsi (49%) sahibkarlar arasında mərkəzləşib. Proqnozlaşdırılan investisiyaların təhlili göstərir ki, ölkənin əhalisinin 17,1%-i malların uzun müddətə əldə olunmasına, 6,8%-i daşınmaz mülkiyyətə, üstünlük verir, 15,3%-i banklara əmanət yerləşdirilməsinə meyllidir, 14,5%-i isə öz yığımlarını yaşayış evlərinin təmirinə və rekonstruksiyasına və ya istirahətin təşkilinə və s. yönəltməyə hazırlaşır.

Əhalinin maliyyə resurslarının istifadəsinin əsas istiqamətlərinin və ev təsərrüfatlarının araşdırılması göstərir ki, onlar investisiya obyektlərindən və insanların yaşayış yerlərinə birbaşa yaxınlığından asılı olmayaraq, əsasən regional və yerli səviyyələrdə həyata keçirilir. Burada formalara üstünlük verilir, hansılar ki, yığımların etibarlı və aydın saxlanmasını əks etdirir. Məhz həmin formalar kiçik və orta biznesin inkişafı üçün

perspektivlər yaradır. Bu gün vasitələrin cəlb olunmasının ən geniş yayılmış və əlverişli forması *şəxsi kreditdir* – dostların, tanışların, qohumların, müəssisə partnyorlarının, etibar olunan maliyyə təşkilatlarının və kölgə strukturların vəsaitlərinin cəlb olunmasıdır.

Ənənəvi maliyyə strukturlarının əksəri kiçik sahibkarlar üçün xidmətin bahalığından və onlarla işləməyin çətinliyindən praktiki olaraq əlçatmazdır. Düzdür, bütünlükdə bazarın infrastrukturu da hələlik fərdi kiçik investorların vəsaitlərini gündəlik operativ işlətmək üçün hələ hazır deyildir. Bu resursların əsas mənbəyindən istifadəni və investisiyalaşdırmanı çiddi surətdə məhdudlaşdırır. Deməli, *əhali yığımının investisiyaya transformasiyasının* səmərəliliyinin yüksəldilməsi, kollektiv investisiyalaşdırmanın müxtəlif formalarına xüsusi əhəmiyyət verməklə zəruridir. Onların sırasına səhmdar investisiya fondları (eyni zamanda çek), pay investisiya fondları, kommersiya bankları (gələcəkdə universal və investisiya bankına çevrilə bilən), qeyri-dövlət pensiya fondları, kredit ittifaqları və digər analoji təşkilatlar aiddir.

Əhalinin yığımının aktiv məhsuldar istifadə olunmasına cəlb olunması üçün daha əlverişli şəraitin yaradılması baxımından kredit təşkilatlarının müxtəlif formalarının: kredit yoldaşlığı, kooperativlər və ittifaqların genişləndirilməsi də zəruridir. Məlumdur ki, kredit institutlarının kooperasiyası bir çox ölkələrdə geniş inkişaf etmişdir. Müvafiq struktrlar Rusiya şəraitində islahatların ən zəif istiqamətlərində bir çox problemləri həll edə bilər. Söhbət əhalinin şəxsi yığımlarının investisiya kimi yerləşdirilməsi marağının yüksəldilməsi əsasında, kiçik və orta sahibkarlıq üçün kredit bazarının təşkil olunmasından gedir.

Kredit kooperativlərinin səmərəliliyi idarəetmə formasının demokratiklik dərəcəsi, birgə məsuliyyətin mövcudluğu və yığımın qarşılıqlı səmərəli istifadə olunması ilə müəyyən olunur. Belə olan halda onlar bankları əvəz etmirlər, öz kapitallarını təklif etmək üçün maliyyə bazarında meydana gəlmiş sərbəst məkanı tamamlayırlar. Daxili mənbələrə, başqa sözlə konkret regionun sakinlərinin maraq və vasitələrinə əsaslanmaqla,

müxtəlif formada kredit kooperasiyaları onun sosial-iqtisadi inkişafı üçün əlverişli şərait yaradır. Buna görə də, o maliyyə-kredit sektoruna sosial istiqamətlənmiş təşkilati formalardan ən perspektivlisi hesab olunur.

İnvestisiya prosesinə cəlb olunmuş əhali əmanətinin əksər hissəsini, dövlət büdcəsi vəsaitini cəlb etmədən daşınmaz mülkiyyətə istiqamtləndirilən yığımlar təşkil edir. Rusiya şəraitində belə yığımların cəlb olunmasının effektiv perspektivli iqtisadi aləti *ipoteka kreditləşməsi* ola bilər.

Müxtəlif regionlarda ipoteka kreditləşməsinin tempi, miqyası və inkişafı mənzil bazarının perspektiv kanyukturunun, normativ-hüquqi bazanın hazırlığı və infrastrukturun inkişafı tədbirlərini, həmçinin mənzilə tədiyyə qabiliyyətli tələbin xarakterinin nəzərə alınması hesabı ilə müəyyən edilməlidir. Regional ipoteka sisteminin istifadə olunmasının səmərəliliyi mənzilə tələbin artması və mənzil tikintisinin həcminin artması şəraitində yüksəlir. Bununla yanaşı kreditin hər rubluna 4-dən 8 rubla qədər əhalinin vəsaitlərinin cəlb olunması məqəsədəuyğundur. İpoteka kreditləşməsinin tətbiq edilməsi büdcəyə hər reallaşdırılan rubla görə 0,8-dən 1,5 rubla qədər əlavə gəlir gətirə bilər, və onları mənzilin əldə olunması və ya tikilməsi üçün gələcək kreditləşməyə istiqamətləndirmək olar. Bununla yanaşı olaraq alınan iqtisadi effektlərlə bərabər cəmiyyətdə sosial mühüt də yaxşılaşır.

Bunu Rusiyanın müxtəlif regionlarında reallaşdırılan ipoteka kreditləşməsinin inkişafı təcrübəsi təsdiq edir. Belə ki, Çuvaşiyada mənzil tikintisi üçün tikinti materialları formasında kreditlər təklif olunur ki, bu da regionda tikinti sənayesinin işini stimullaşdırır. Saratov vilayətində ipoteka başlıca olaraq istilik və su xətləri sistemi, mənzillərinin elektrik və qaz təchizatı, yolların salınması formasında infrastrukturun yaradılmasına istiqamətləndirilir. Bir sıra regionlarda kreditin geri qaytarılması problemi yenidən işlənilir. Belə ki, Belqorod vilayətində mənzilin tikintisinə verilmiş kreditin «natura», istehsal olunmuş kənd təsərrüfatı məhsulları formasında geri qaytarılması təcrübədən keçirilir. İpoteka kreditləşməsi sisteminin təqdirəlayiqliyi

ondan ibarətdir ki, o yerli büdcələrin xərc hissəsinin yenidən-bölgüsünə deyil, mənzil tikintisi prosesinin özündə əlavə gəlirlərin formalaşmasına istiqamətlənir. Bu məsələn, Penza, Soçi və Ryazanda regional ipoteka proqramları ilə stimullaşdırılır. Müxtəlif ipoteka proqramlarının (on proqramdan çox) kombinə olunmuş istifadə olunması təcrübəsi isə Moskvada cəmləşmişdir.

Öz aktivlərini effektiv istifadə etmək istəyən, yeni texnalogiyalara və rəqabət qabiliyyətli məhsul istehsalının buraxılmasına istifadə etmək üçün kiçik, orta və iri həcmli müəssisələrə əhalinin yığımlarının aktiv formada cəlb olunmasında universal investisiya alətlərinin yaradılması xüsusi rol oynayır. Bu işdə birinci yer *lizinqə* məxsusdur. O, əksər inkişaf etmiş ölkələrdə makroiqtisadi göstəricilərin yaxşılaşmasını təmin edir. Burada investisiyanın ümumi həcmində lizinqin payı orta hesabla 10-35% təşkil edir. Məsələn, 1997-ci ildə ABŞ-da lizinqin payı 30%-dən çox, İngiltərədə 36%, Almaniyada isə 16-17% təşkil etmişdir.

Lizinq əməliyyatlarının universallığına dünya təcrübəsində onun obyektlərinin müxtəlifliyi və istifadə olunma istiqamətləri dəlalət edir. Rusiyada lizinqin inkişafını xidmət sferasına xüsusi diqqət yetirmək yolu ilə təmin etmək məqsədəyğundur. Lizinqin geniş istifadə olunması hər şeydən əvvəl özəl sektorda yığım resurslarının dövrüyyəyə ən tez və səmərəli cəlb olunmasına imkan yaradır. Hal-hazırda əhalinin yığımının investisiya kimi cəlb olunmasının əsas alətlərindən biri kimi *investisiya-istiqraz sistemi* fəaliyyət göstərir. Onlar eyni zamanda buraxılan üç növ istiqrazın: daxili istiqrazların, əmanət və xarici valyutalı istiqrazların ən yüksək effektini təmin edir. Bu əsasda istiqrazların qısamüddətli buraxılışından, uzunmüddətli buraxılışına keçmək mümkün olur. İstiqrazların müvafiq strukturu regionun, şəhərin və bələdiyyənin daxili borcuna çevik xidmət edir və əlaqəli ərazilərdə uzunmüddətli bazarların davamlılığınının yüksəldilməsinə imkan yaradır.

Regional investisiya-istiqraz layihə və proqramlarının qarşılıqlı təklif olunanan sxemi istiqraz və investisiya hissəsinin tam və zəruri tarazlığın əvvəlcədən müəyyən edir. Bu əhəmiyyətli

səviyyədə qeyri-likvid maliyyə vasitələrinin (hansı ki, heç bir yerə qoyulmayan) və təmin olunmamış biznes planların (hansıları ki, maliyyələşdirməyə bir şey yoxdur) meydana çıxmasının qarşısını alır. Bununla yanaşı vasitələrin son ödənilməsinin yüksəlməsinə nail olunur və istiqrazla operativ xidmətin səviyyəsi yüksəlir. Zərurət yarandıqda əlavə mənbə kimi yerli büdcələrlə bağlı olan regional (bələdiyyə) istiqrazları təqdim olunur.

Regional investisiya-istiqraz sisteminin bir sıra müsbət xüsusiyyətləri vardır. Onların investorlar üçün cəlbediciliyini qeyd etmək lazımdır. Bu çoxsaylı investorların motivasiyasını oyadan vasitələrin sadə cəlb olunması və istiqrazların istifadə olunması ilə izah olunur. Bu növ istiqraz sisteminin keyfiyyətcə müsbət cəhəti, regionaların inkişafı baxımından əhalinin ilkin tələbatının ödənilməsində proqressiv sahə strukturunun formalaşdırılmasından ibarətdir. Bu hər şeydən əvvəl ərzaq məhsullarının istehsalına, məişət xidmətinin göstərilməsinə, nəticədə isə həyat səviyyəsinin artımına aiddir.

Yeni mülkiyyətçilərin yaranmasının formalaşması ilə yanaşı sosial stabilliyin möhkəmlənməsi kimi xüsusiyyəti də qeyd etmək lazımdır. Əlavə iş yerləri yaranır və əhalinin məşğulluq səviyyəsi əhəmiyyətli dərəcədə artır. Onu da qeyd edək ki, regional investisiya-istiqraz sisteminin yaradılması ilə regionlararası investisiya-istiqraz sistemi cərçivəsində investorların resurslarının mərkəzləşməsi perspektivi yaranır. Bu daha iri həcmli investisiya layihələrinin reallaşdırılması üçün güclərin birləşdirilməsini, müxtəlif regionların və regional dairələrin sosial-iqtisadi inkişaf səviyyələrinin bərabərləşdirilməsini əks etdirir, yerli büdcələrin vergitutma bazalarının genişlənməsini təmin edir.

Əhalinin vəsaitlərinin investisiya kimi istifadə olunması imkanlarının genişləndirilməsinin əsası, xalqın rifahının və gəlirlərin dinamik artımı siyasəti olmalıdır. Onsuz əhalinin maliyyə ehtiyatlarının artırılmasına nail olmaq mümkün deyil. Belə artımdan inflyasiya yaradan amil kimi ehtiyat edilməsi istisna olan əsas və yeganə haldır, nə vaxt ki, əhalinin resurslarının təsərrüfat dövrüyyəsinə cəlb olunması üçün rasional

alətlər və cəlb etmə metodları möcud olmur. Əgər onlar tapılsa və tətbiq olunsa, onda əhalinin ehtiyat resursları iqtisadiyyatın dinamik inkişafı üçün ciddi maliyyə bazasına çevrilə bilər.

Yığım resurslarının investisiya kimi effektiv istifadə olunmasının qarşısını alan amil islahatların aparılması dövründə praktiki olaraq vahid konsepsiyanın tamamilə olmaması və ayrıca vətəndaşlarla yanaşı bütövlükdə iqtisadiyyat üçün yüksək gəlir formalaşdıran əhalinin ehtiyat vasitələrinin təsərrüfat dövrüyyəsinə cəlb olunmasını təmin edən əsaslandırılmış uzunmüddətli strategiyanın olmamasıdır. Edilmiş səhvlərin nəzərə alınması və müasir cəmiyyətin inkişaf qanunauyğunluqlarının real dərk olunması tələb edir ki, firmaların, müəssisələrin, ev təsərrüfatlarının, fiziki şəxslərin, həmçinin dövlətin özünün təkrar istehsal prosesinin birbaşa iştirakçısı kimi sıx surətdə bağlı olan gizli qarşılıqlı iqtisadi təsir stimulları işə salınsın.

Eyni zamanda, bunula yanaşı olaraq əhali yığımının investisiya kimi cəlb olunmasını reallaşdırmaq üçün aşağıdakı prinsiplərin reallaşdırılması zəruridir. Sosial-iqtisadi siyasətin konkret məqsədləri ilə uyğunlaşan əsaslandırılmış *prioritetlərə* malik olmaq, hansılar ki, əhalinin yığımlarının təsərrüfat dövrüyyəsinə cəlb olunmasın tənzimləməyə imkan verir. Sonra, öz vəsaitlərini maliyyə institutlarında yerləşdirilməsində iştirak edən, iqtisadiyyatın real sektoruna investisiya qoyan *vətəndaşların və ev təsərrüfatlarının rifahının təminat* sistemi lazımdır. Ölkənin bütövlükdə maraqlarına uyğun dövlətin, əhalinin, kiçik və orta biznesin nümayəndələrinin və kredit təşkilatlarının yığım vasitələrinin cəlb olunması şərtlərinin və onun istifadəsi prosesində üsulun seçilməsində hüquq, funksiya və məsuliyyətlərinin qaydaya salınması tələb olunur.

İnvestisiya məqsədləri ilə tənzimləmə mexanizmlərinin işlənməsində və vətəndaşların vasitələrinin istifadəsi prosesinin reqlamentləşdirilməsində, əhalinin sosial diferensiallaşması amilini nəzərə almadan keçinmək mümkün deyil. Kommersiya fəaliyyətinə başlamaqda ehtiyat yığımların investisiya kimi istifadə olunması baxımından, fəaliyyətdə olan iqtisadi stimullaşdırma metodlarının geniş tətbiq olunmasının daha çox əhə-

miyyəti vardır. Zəruridir ki, mülkiyyətçinin qoyulmuş kapitaldan əldə etdiyi gəlir yalnız məbləği deyil, inflyasiya ilə bağlı mümkün itkiləri tam həcmdə kompensasiyanı, həmçinin kapitala görə Mərkəzi Bankın faiz dərəcəsindən az olmayan əlavə gəliri də əhatə etsin. Nəhayət, mütəmadi monitorinqin təşkili və onun əsasında dövlətin əhalinin cəlb olunmuş ehtiyat yığımı hesabına investisiya resursları bazarının formalaşması və istifadəsi üzrə strategiyasının reallaşdırılmasına ictimai nəzarət zəruridir.

Suallar və tapşırıqlar

1. «Əhalinin yığımı» kateqoriyasının iqtisadi məzmununu izah edin?
2. Əhalinin yığımının əsas təsnifləşdirilməsini sadalayın?
3. Rusiyanın indiki iqtisadi inkişaf mərhələsində əhali yığımının investisiya prosesinə cəlb olunmasının əsas səmərəli istiqamətləri hansılardır?
4. Motivləşdirilmiş və motivləşdirilməmiş yığımlar arasında prinspial fərq nədədir?
5. Siz əmanət bazarının infrastrukturunun hansı əsas elementlərini deyə bilərsiniz?

© Гуртов В.К., 2002

XVIII Fəsil

TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN İNVESTİSİYA AKTİVLİYİNİN STİMULLAŞDIRILMASI

1. Müəssisənin investisiya aktivliyinin yüksəldilməsi yolları

Müəssisənin *investisiya aktivliyinin* yüksəldilməsi bir sıra qarşılıqlı əlaqəli vəzifələrin həllini tələb edir. Hər şeydən əvvəl müəssisələrdə menecmentin (ilk növbədə - maliyyə) səviyyəsinin yüksəldilməsi və iqtisadi səmərəliliyin yüksəldilməsi hesabına investisiya potensialının gücləndirilməsi lazımdır. Həmçinin amortizasiya siyasətində yeni yanaşmaların işlənməsi və müəssisələrin vergi yükünün azaldılması da zəruridir.

Müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və onun investisiya potensialının gücləndirilməsi *daxili ehtiyatların* mobilizasiyasının və mövcud sosial iqtisadi şəraitə uyğun dövlət tənzimlənməsi metodlarının istifadəsinin nəticəsi ola bilər. Təbii inhisarların xidmətləri üzrə tariflərin dinamikasında dövlət nəzarətinin gücləndirilməsi (eyni zamanda dolayı subsidiyalaşdırmanın mərhələlərlə ixtisarı), borcların yükünün onların uzunmüddətli restruktirizasiyası yolu ilə yüngülləşdirilməsi, beynəlxalq mühasibat uçotu sisteminə keçid əsasında maliyyə axınlarının şəffaflığının maksimal təmin olunması zəruridir.

Effektiv mülkiyyətçi axtarışı istiqamətində tədbrlər də prioritet hesab olunur. Firmaların kapitallaşmasının yüksəlməsi halında səhmlərin əldə olunması üçün opsion hüquqlarını əhatə etməklə, ixtisaslaşdırılmış kadrların hazırlanması, top menecerlərin əməyinin ödənişində onların fəaliyyətinin nəticəsinin səmərəliliyinə əsaslanmaya keçilməsi zəruridir. O, cəmiyyətlərin səhm paketlərinin müsabiqə əsasında formalaşdırılmasını gücləndirmək lazımdır ki, onlar dövlət mülkiyyətindədir və strateji xarakter daşımır.

Müəssisənin investisiya aktivliyinin yüksəldilməsi üçün alətlərin seçilməsində nəzərə almaq lazımdır ki, müəssisənin əsas investisiya resursu onun *amortizasiya ayırmalarıdır*. Ümumi formada mümkün amortizasiya ayırmaları cədvəl 10-da əks etdirilmişdir.

Cədvəl 10

Amortizasiya ayırmaları metodlarının təsnifatı

Göstəricilər	Amortizasiya ayırmaları metodları			
	Bərabər ayırmanın ənənəvi metodu	Sürətləndirilmiş amortizasiya ayırmaları		
		Xidmət müddətinin süni azaldılması metodu	Ayırma məbləği metodu	Azaldılmış qalıq metodu
1.Əsas fondların dəyəri	120	120	120	120
2. Əsas fondların xidmət müddəti	6	6	6	6
3.Amortizasiyanın normasının müəyyənləşdirilməsinin hesablanması formulu	$a_b = \frac{1}{T_{sl}}$	$a_t = \frac{1}{(T_{sl}/n)}$	$a_t = \frac{(T_{sl} - t + 1)}{(1+2+3+.T_{sl})}$	$a_t = \frac{m}{T_{sl}}$
İstismar müddətində illər üzrə amortizasiy norması				
1-ci il	1/6	1/3 $^{n=2}$	6/21	1/4 $^{m=1,5}$
2-ci il	1/6	1/3	5/21	1/4
3-cü il	1/6	1/3	4/21	1/4
4-cü il	1/6	0	3/21	1/4
5-ci il	1/6	0	2/21	1/4
6-cı il	1/6	0	1/21	1/4

Artan yekunla amortizasiya fondunda vəsaitin məbləği				
1-ci il	20	40	34,3	34,3
2-ci il	40	80	62,9	62,9
3-cü il	60	120	85,5	85,5
4-cü il	80	120	102,9	102,9
5-ci il	100	120	114,3	114,3
6-cı il	120	120	120,0	120,0

Qeyd.

1. *Cədvələ də aşağıdakı şərti ifadələrdən istifadə edilmişdir: a_b – amortizasiya norması; a_t – T_{sl} istismar dövründə t zaman kəsiyindəki amortizasiya norması; n – xidmət müddətinin süni azaldılması əmsalı; m – azalan qalıq metodunda amortizasiya ayırmalarının sürətləndirilməsi əmsalı.*
2. *Müəssisənin amortizasiya fondunda vəsaitin məbləğinin ayırma məbləği metodunun istifadə olunması ilə müəyyənləşdirilməsi, məsələn istismarın üçüncü ilində aşağıdakı yolla alınmışdır: formul*
3. *Azalan qalıq metodu ilə analoji nəticələr: formul*

Amortizasiya siyasətinin təkmilləşdirilməsində həlledici rolu hər şeydən əvvəl amortizasiya qanunvericiliyinin əsas fondların qruplarının böyüdülməsi hesabına sadələşdirilməsi oynayır. Əsas fondların dəyərinin qiymətləndirilməsində və amortizasiya normasının müəyyənləşdirilməsində, həmçinin ayrılmış amortizasiyanın istehsalın yenilənməsi məsələsinin həlli baxımından məqsədli istifadə olunmasının təmin olunmasında *müəssisələrin müstəqilliyi* az əhəmiyyət kəsb etmir. *Sürətləndirilmiş amortizasiya*[1] sferasının genişləndirlməsi də zəruridir. Əsas fondların keyfiyyətcə yenilənməsi məqsədilə xərclərin maliyyələşdirilməsinin yüksəldilməsi və istehsalın texniki-texnoloji səviyyəsinin yüksəldilməsində sürətləndirilmiş amortizasiya metodunun üstünlüyünə, maşın və avadanlıqların istismarının son mərhələsində aşağı amortizasiya ayrmaları ilə təmir işlərinə

[1] *Sürətləndirilmiş amortizasiya* – müəssisələrə əsas fondların istismarının ilk illərində yüksəldilmiş normada amortizasiya ayırma hüquq verən və əsas kapitala investisiya qoyuluşunu stimullaşdıran metod, - Müəl. qey.

yüksək səviyyəli xərclərin kompensasiya olunması imkanları da daxildir.

Amortizasiya prosesinin sürətləndirlməsinin təbii məhdudlaşdırıcısı müəssisənin səmərəli işinin təmin olunmasının zərurliyidir. Müəssisənin reallaşdırdığı məhsula elastik tələbin mövcudluğu şəraitində onun amortizasiyanın artımına adekvat qiymət artımına imkanı mövcud olmur. Ona görə də sürətləndirilmiş amortizasiya metodundan istifadə edilən zaman ayırmaların məbləği balans mənfəətini aşmamalıdır.

2. Müəssisələrdə sayların məcmu metodundan istifadə edərək amortizasiya fondunda vəsaitlərin məbləğinin müəyyən edilməsinin nəticələri.

Məsələn: istifadənin III ilində aşağıdakı alınmışdır:

$$\frac{12}{42}\cdot 120+\frac{10}{42}\cdot 120+\frac{8}{42}\cdot 120=85{,}8$$

3. Müvafiq nəticələr azalan qalıq metodu ilə hesablanmışdır.

$$\frac{1}{4}\cdot 120+\frac{1}{4}(120-\frac{1}{4}\cdot 120)+\left[120-\frac{1}{4}(120-\frac{1}{4}\cdot 120)\right]=69{,}4$$

Azalan qalıq metodunun qüsturu ondan ibarətdir ki, əsas fondların dəyərini tam silmək mümkün deyildir. Buna görə də bu üsul istismar II dövründən başlayaraq amortizasiya ayırmaları ənənəvi olaraq bərabər hesablanma metodu ilə birgə istifadə olunmalıdır (hesablamanın nəticələri müvafiq olaraq cədvəl 11-in sonunda mötərizədə verilmişdir).

İqtisadiyyatın real sektorunda investisiya aktivliyinin qənaətbəxş olmaması səbəblərindən biri də stimullaşdırıcı funksiyaların itkisi hesabına fiskal funksiyaların reallaşdırılmasına istiqamətləndirilmiş mövcud vergi sisteminin təkmil olmamasıdır. Onun əsas çatışmazlıqlarından biri – vergi yükünün qeyri-müəyyən bölgüsüdür. İstehsalın əsas üç amilindən (torpaq, əmək, kapital) konsalidasiya olunmuş büdcənin daxilolmalarının formalaşmasında başlıca rolu əməyin ödənişinə vergiqoyma oynayır. Belə qaydanın saxlanılması yalnız istehsalın genişləndirilməsinə stimul yaratmır, eyni zamanda əmək bazarında situasiyanın yenilənməsinə də səbəb ola bilər. Belə ki, yeni iş yer-

lərinin yaradılmasına vəsait qoyuluşunda, sahibkar işçinin əmək haqqı müqabilində vergi ödənişlərini nəzərdə tutmağa məcburdur.

Müasir dövrdə əməyin ödənişinə vergiqoymada aparılan islahatlarla (gəlir vergisinin proqressiv şkalasından imtina edilməsi, soial fondlara ayırmaların dərəcələrinin azaldılması) yanaşı, *reinvestisiya olunan mənfəətə vergiqoymada* fəaliyyətdə olan qanunvericilikdə güzəştlər nəzərdə tutulur. Bununla yanaşı, vergiqoyma bazasının iki dəfədən çox azaldılmasına imkan verilimir (böyük həcmli investisiya qoyuluşlarına vergi güzəştləri növbəti dövrə keçirilir). Qeyd etmək lazımdır ki, 2002-ci ildən başlayaraq mənfəətə vergiqoymada investisiya güzəştləri ləğv olunub, bu əsasda müəssisənin itirdiyi investisiya resursu isə – mənfəətə vergilərin ümumi dərəcələrinin azaldılması (35%-dən 24%-ə dək) və sürətəlndirilmiş amortizasiyaya əlavə imkanlarla kompensasiya olunub.

Vergi islahatının mürəkkəbliyi onunla izah olunur ki, bir tərəfdən iqtisadiyyatın real sektorunda investisiya aktivliyinin yüksəldilməsi məqsədilə vergi yükünün azaldılması zəruridir, digər tərəfdən isə – onun azaldılmasında cari büdcə daxilolmalarının erroziyası və sosial gərginliyin artması qaçılmazdır. Bu şərtlər daxilində mümkün variantlardan biri vergi yükünün mərkəzini maddi istehsal sferasından tələb sferasına keçirilməsindən ibarətdir.

Vergi siteminin islahatlaşdırılmasının digər istiqaməti şəraitin yaradılmasından ibarətdir. Hansı ki, dövlətin köməyi ilə iqtisadiyyatın özəl sektoru vergi yükünün azaldılmasına güzəşt hüququ qazanmağa şərait yaradır. Dövlət tənzimlənməsinin müvafiq mexanizminin ideyası ondan ibarətdir ki, müəssisəyə istehsalın səmərəliliyinin yüksəldilməsi hesabına artan mənfəətdən tutulan verginin bir hissəsi qaytarılır. (Bax cədvəl 11)

Cədvəl 11

İnvestisiyanın səmərəliliyinin nəzərə alınması ilə artan mənfəətə güzətli vergiqoyma

Göstəricilər	Kapital qoyulana qədər mənfəətə vergiqoyma	Kapital qoyulandan sonra mənfəətə vergiqoyma
Məhsul realizasiyasından mədaxil	100	100
İstehsal xərcləri	90	70
Vergi qoyulan mənfəət	10	30
Mənfəətə görə ödənilməli vergi məbləği	2,4	7,2
Vergi ödənişinin əvəzlənmiş hissəsi	-	3,36
Müəssisənin sərəncamında qalan mənfəət	7,6	26,16 (30-7,2+3,36)

Qeyd. «Vergi ödənişinin əvəzlənmiş hissəsi» sətri investisiyanın səmərəliliyinin yüksəldilməsi hesabına müəssisənin əldə etdiyi mənfəətdən tutlan verginin 70%-ə qədərinin geri qaytarılmasını əks etdirir: 3,36 = 0,24*0,7*(30-10). Müvafiq mexanizmin tətbiq olunması mənfəət vergisinin baza dərəcəsinin azaldılmasına imkan verir.baxılan misalda dərəcənin büdcə daxilolmalarına mənfi təsir etmədən 24%-dən 12,8%-dək azaldılması mümkündür.

Dövlət tənzimlənməsinin baxılan mexanizmi səmərəli fəaliyyət göstərən bazar subyektlərinin cari gəlirlərinə vergiqoymada reqressiv şkalanın istifadə olunması deməkdir. Bu bir tərəfdən müəssisələrin investisiya aktivliyinin artırılmasına əlavə stimul yaradır, digər tərfdən isə – sahələrarası zəncirvari qarşılıqlı təsir əsasında investisiya tələbinin artması hesabına «investisiya multiplikatoru» mexanizminin işləməsini təmin edir.

Müvafiq alətin tətbiq olunması (müəyyən modifikasiyalarla) Voloqodski vilayətində sınaqdan keçirilmişdir. O, praktiki olaraq «Müəssisə vergi yükünün azaldılması huququnu qazana bilər, dövlət isə ona kömək etməlidir» prinsipinin reallaşdırılmasını əks etdirir. Burada reinvestisiya olunun mənfəətin vergiqoymadan azad edilməsinin ənənəvi yanaşmalarının və ya bazar iqtisadiyyatı əsasında inkişaf etmiş ölkələrdə geniş tətbiq olunan investisiya əlavəsi, hansı ki, korparasiyalara investisiya xərclərində mənfəət vergisinin
6-8% həcmində azaldılmasının da əhəmiyyəti vardır.

Müəssisənin şəxsi vasitələri hesabına investisiyanın genişləndirilməsi onların mülkiyyətinə diferensial vergiqoyma əsasında da mümkündür. Müvafiq yanaşmanın məqsədi əsas fondların strukturunun yaxşılaşdırılmasının stimullaşdırılması ilə bağlıdır. Məsələ burasındadır ki, Rusiyada inkişaf etmiş sənaye ölkələrindən fərqli olaraq istehsal prosesinə xidmət edən əsas fondların passiv hissəsinin (bina, qurğular və s.) payı hədində artıq çoxdur. Əsas fondların istehsal prosesində birbaşa iştirak edən aktiv hissəsinin (maşınlar, avadanlıqlar və s.) payı isə müvafiq olaraq azdır.

Müəssisənin əmlakına vergiqoymanın diferensasiyasının mahiyyəti aşağıdakı məqamlarla müəyyən olunur. İstehsal aparatının rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə innovasiya texnologiyalarına yatırmlara vergi tətilləri təqdim olunur. Belə yanaşma yalnız əsas fondların aktiv hissəsinə tətbiq olunmada genişlənməlidir. İstismarda olan əsas fondarın aktiv hissəsinə münasibətdə vergiqoymanın aşağı salınmış dərəcələri tətbiq olunur. Balansda olan, fiziki və mənəvi aşınmış əsas fondlara isə yüksəldilmiş vergi dərəcələri tətbiq olunur ki, bu da onların silinməsini genişləndirir. Yüksəldilmiş vergi dərəcələri müəssisənin əmlakının qeyri-istehsal hissəsnə də (sanatoriyalar, maşınlar, yaxtalar və s.) tətbiq olunur, hansı ki, istehsala istiqamətləndirilmiş investisiyalardan müvafiq istiqamətdə istifadənin qarşısının alınması mqsədi ilə reallaşdırılır.

İnvestisiya aktivliyinin stimullaşdırılmasının mühüm istiqamətlərindən biri də investisiya vergi kreditlərinin tətbiqi sferasının genişləndirilməsidir. Vergi məcəlləsinin birinci hissəsinə müvafiq olaraq – onlar özündə vergi ödənişinin müddətinin elə dəyişikliklərini əks etdirir ki, bununla təşkilat vergi ödənişində müəyən vaxt ərzində və müəyyən hədd daxilində vaxt qazanır və hesablanmış faiz və kredit məbləğini mərhələlərlə ödəyir[1].

İnvestisiya vergi krediti – vergi orqanları ilə kredit razılaşması əsasında müəssisənin əsas fondlarının yenilənməsi və

[1] Bax: Rusiya Federasiyasının vergi məcəlləsi.Birinci hissə, 3-cü nəşr, M:, 1999

investisiya aktivliyinin stimullaşdırılması məqsədilə vergi ödənişindəki möhlətdir.

Dövlət tənzimlənməsinin investisiya vergi kreditləşdirilməsi alətindən müxtəlif səviyyələrdə büdcə və kontoragentlər qarşısında öhdəliyi olmayan müəssisələr isitfadə edə bilər. Bununla yanaşı, müəssisənin investisiya məqsədilə belə kredit almaq hüququndan istifadə etməklə vergi ödənişlərinin yüksəlməsi halında baxılan kredit üzrə müddətin artırılmasının və faiz dərəcələrinin aşağı salınmasının qaydasının müəyyənləşdirilməsi tələb olunur.

Dövlətin investisiya siyasətinin bütün bu tədbirləri müəssisənin şəxsi investisiya potensialının yüksəldilməsinin təmin olunmasına istiqamətləndirilir. Cəlb olunmuş vəsaitlərin və istiqrazlar həcminin artırılması hesabına investisiya imkanlarının artırılmasının da az rolu yoxdur, hansı ki, o da dövlət tənzimlənməsində tətbiq olunan metodların inkişafını tələb edir.

2. Qiymətli kağızların emissiyası

Fond bazarı yığımların toplanması və onların investisiyaya tranformasiya edilməsi baxımından unikal mezanizm yaradır. O, Rusiya və xarici ölkə investorlarının kapitalına çıxış imkanı yaradır, hansı ki, müəyyən şərtlər daxilində investisiya qoyuluşu ilə bağlı olan riskləri öz üzərlərinə götürməyə hazırdırlar. Müəssisə xarici maliyyələşmə imkanlarına üstünlük verdiyi təqdirdə, o hər şeydən əvvəl fond bazarının daha məqsədəuyğun alətlərinin seçilməsi kimi mühüm bir məsələni həll etməlidir. Rusiya müəssisələri üçün ənənəvi xarici maliyyələşmə formaları arasından istiqrazların emissiyası vasitəsilə *borclu maliyyələşmən,* və müxtəlif növ səhmlərin[1]

[1] Səhmdar cəmiyyətlərin açıq və qapalı tipləri fərqləndirilir. Qapalı tipli SC-nin səhmləri birjada deyil onun iştirakçıları arasında paylanır. Açıq tipli SC-nin səhmləri isə onun fəaliyyətinin nəticəsindən və konyukturundan asılı olaraq bazarda formalaşan qiymətə müvafiq birjada satılır. Açıq tipli SC-nin səhmdarı müvafiq səhmdən nəinki divident formasında, eyni zamanda

emissiyası (şirkətin şəxsi kapitalının artırılması) vasitəsilə işgüzar maliyyələşməni göstərmək olar.

İstiqraz cəlb etməklə müəssisə öz öhdəsinə mütəmadi olaraq müəyyən edilmiş faizin ödənilməsi və onun vaxtı bitdikdə (və ya ödənişin razılaşdırılmış qrafikinə uyğun) bütün məbləğin geri qaytarılması öhdəliyini götürür. Müasir dövrdə *istiqrazların emissiyası* formasında investisiyaların cəlb edilməsi artan tempinə görə kifayət qədər seçilir. 2000-ci ildə və 2001-ci ilin əvvəllərində Moskva banklararası valyuta birjasında «Qazprom», «Tatneft», «Maqnitoqorsk metallurgiya kombinatı», «Rusiya almazı - Saxa», «Tulaçermet» və s. kimi 26 emitentin 50 buraxılışdan çox qeyd edilən qiymətli kağızı yerləşdirilmişdir. 2000-ci ildə korparativ istiqrazların ümumi dövriyyəsi 42,5 milyard rubl təşkil etmişdir. Korparativ istiqraz bazarının inkişafı nəinki onların ilkin yerləşdirilməsi texnologiyasının işlənməsinə və rusiya fond bazarının müasirləşməsinə imkan yaratdı, eyni zamanda emitentlər üçün zəruri olan bazarda iş təcrübəsini də təmin etdi. Bazarın bu seqmentinin yüksəlişi 2001-ci ildə də davam etmişdir

İstiqrazlar emitentin tipinə görə dövlət (federal, subfederal və bələdiyyə səviyyəsində) və korparativ, dövriyyə müddətinə görə isə – qısamüddətli (1 ilə qədər), orta müddətli (1 ildən 5 ilədək) və uzunmüddətli (5 ildə çox) tiplərə bölünür. Gəlirin əldə olunması üsuluna görə də fərqlər vardır. Belə ki, istiqrazın tipindən asılı olaraq onun sahibi ya onun nominal qiymətinə müvafiq dövrü ödənilən faiz formasında (kupon istiqrazlar üçün), ya da onun əldə olunması zamanındakı nominal qiyməti ilə müddətin başa çatdığı andakı nominal qiymətin artması nəticəsində yaranan fərq formasında (diskont istiqrazlar üçün) gəlir əldə edir.

Real sektora investisiyanın cəlb olunması vasitəsi kimi borc alətlərinin özünəməxsus üstünlükləri vardır. Onların istifadəsi zamanı istiqraza görə faizlərin ödənilməsi bir qayda ola-

onun bazarda daha baha qiymətə satılması yolu ilə də gəlir əldə edə bilər – Müəllifin əlavəsi.

raq məhsulun maya dəyərinə daxil edilir. Müəssisənin rəhbərliyi onun üzərində tam nəzarəti həyata keçirə bilir. Öhdəliklərin müddəti və şərtləri əvvəlcədən müəyyən oluduğuna görə isə maliyyə və vergi planlaşdırması asanlaşır. Digər tərəfdən, kreditor (istiqraz sahibi) müəssisənin mənfəətinin bölgüsündə iştirak etmir.

Şübhəsiz müəyyən konkret çatışmazlıqlar da vardır. Belə ki, istiqrazlara görə öhdəliklər daima pul daxilolmalarını tələb edir. Bunun üçün isə etibarlı mənbələr tələb olunur. İstiqrazlar üzrə öhdəliklərin yerinə yetirilməsi ilə (defolt riski), eyni zamanda investisiya risklərinin digər növləri də mövcuddur.

Səhmlərin emissiyası elə uzunmüddətli layihələrin maliyyənləşdirilməsi üçün istifadə olunur ki, onlar digər borc Alətlərinin köməyi vasitəsilə maliyyələşdirilə bilmir. Səhm səhmdar cəmiyyətinin kapitalının müəyyən hissəsinə mülkiyyət hüququnu əks etdirir. Səhmləri əldə edən investorlar şirkətin kreditorlarının tələbləri istisna olmaqla onun bütün aktivlərinin həmtəsisçisinə çevrilir. Səhmdarlar şirkətin fəaliyyəti ilə bağlı riskləri birlikdə bölüşdürməklə, onun mənfəətinin müəyyən hissəsini əldə etmək hüquqlarına malikdirlər. Səhmdarın üç əsas hüququnun - cəmiyyətin idarə olunmasında iştirak hüququ, gəlirin əldə olunması hüququ və cəmiyyətin müflisləşdiyi təqdirdə onun aktivlərinin satışından əldə olunan gəlirdən müəyyən hissənin əldə olunması hüququnun reallaşdırılmasından asılı olaraq *adi* və *imtiyazlı* səhmlər fərqləndirilir. Belə ki, səhmdar cəmiyyətinin müflisləşməsi zamanı imtiyazlı səhmlərin sahiblərinin iddiaları adi səhmlərin sahiblərinin iddialarından əvvəl təmin olunur.

İmtiyazlı səhmlər üzrə *dividend* əvvəlcədən müəyyən olunmuş faizlərə müvafiq olaraq ödənilir, adi səhm sahiblərinin gəlirlərləri ilə imtiyazlı səhm sahiblərinin gəlirlərinin nisbəti bütövlükdə «investisiya qoyuluşunun qızıl qaydası» ilə uyğunluq təşkil edir. Buna müvafiq olaraq investisiya qoyuluşunda kim daha çox risk edirsə o da daha çox gəlir əldə edə bilər (başqa sözlə, adi səhm sahibi daha çox gəlir əldə etməyə ümid edə bilər, ancaq ola bilər ki, onu ümumiyyətlə əldə edə bilmə-

sin). Səhmdarların ümumi yığıncağında səs hüququna gəldikdə isə ona bir qayda olaraq adi səhm sahibləri malik olurlar. İmtiyazlı səhm sahibləri isə o zaman bundan istifadə edirlər ki, onlar bu səhmlərə görə dividend əldə etmirlər.

Səhmlərin emissiyası yolu ilə investisiyanın cəlb olunması təcrübəsi göstərir ki, əgər səhmlərə görə ödənilən dividendlər ümumilikdə əmanətə görə faizlərdən yüksəkdirsə, bu zaman səhm buraxılışı şirkətə bank kreditindən və ya istiqraz buraxılışından baha başa gəlir. Bununla yanaşı olaraq, əgər şirkət yaxın perspektivdə yüksək həcmdə dividend ödəməyi planlaşdırmırsa (şirkətin səhmlərinin kursunun qalxmadığı zaman bu tələb olunmur) bu zaman investisiyanın cəlb olunması baxımından səhm emissiyası şirkət üçün daha əlverişli variant hesab oluna bilər. Ölkəmizdə kredit alınmasında ciddi problemlərin olduğunu nəzərə alsaq, səhm buraxılışı Rusiya müəssisələri üçün investisiya cəlb olunması baxımından mümkün olan bir neçə mexanizmlərdən biridir.

Baxmayaraq ki, şirkət səhmin buraxılması və onun fond birjasına çıxarılması haqqında qərar qəbul etdiyi halda o öz üzərinə qiymətli kağızlar üzrə federal komissiyanın proseduru və tələbləri, həmçinin səhmdarlar və digər maraqlı şəxslərə ticarətin təşkili haqqında informasiyanın tam açıqlanması ilə əlaqədar öhdəliklər götürür. Bu tələblər daxili strukturun təşkili, informasiyaların toplanması, səhmdarların ümumi yığıncağının mütəmadi keçirilməsi və s. məsələlərlə bağlı əlavə xərcləri şərtləndirir. Şirkətin əlavə səhm buraxılışı haqqında qərar qəbul etməsi zamanı mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də onun üzərində gələcək nəzarətin təşkilidir. Səhmdarların sayının artması ilə bağlı olaraq mövcud səhmdarlar şirkətin inkişafına təsir baxımından daha az imkana malik olmaları ilə hesablaşmalıdırlar. Yeni səhmdarlar qərarların qəbulu prosesində iştirak etmək hüququ qazanırlar. Buna baxmayaraq səhmin buraxılması haqqında qərarın qəbul edilməsinin müsbət cəhəti məhz gələcəkdə kapitalın formalaşdırılmasının asanlaşması ilə şərtlənir.

Təcrübə göstərir ki, real sektora investisiya resurslarının cəlb olunmasının effektiv üsulu şirkətin birbaşa kaptal bazarına depozit yazılışı[1] adlanan qiymətli kağız vasitəsilə çıxışdır. Belə yazılışın iki növü vardır. Birincisi, ADR – amerikan depozit yazılışı, hansı ki, yalnız amerika fond bazarında dövriyyədədir. İkincisi, GDR – qlobal depozit yazılışı, hansı ki, onun vasitəsi digər ölkələrdə də əməliyyatlar aparılır.

Depozit yazılışının emissiyası mexanizmi aşağıdakılardan ibarətdir. Bank xarici ölkəyə məxsus olan şirkətin səhmini alır, lakin səhmlər emitentin təmsil etdiyi, başqa sözlə səhmin əldə olunduğu ölkədə qalır. Bu yolla səhmi əldə edən bank səhmin deponent olunmasını təsdiq edən depozit yazılışı buraxır və onu satır. Konvertasiya və səhmlərə görə dividentin alınması ilə bağlı bütün öhdəlikləri alıcı bank öz üzərinə götürür. İnvestor isə xarici qiymətli kağızı müvafiq valyuta ilə alır və həmin valyuta ilə də gəlir əldə edir.

ADR –in sponsorluq edilən və edilməyənləri fərqləndirilir. *Sponsorluq edilən* yazılışlar emitent-şirkətin təşəbbüsü ilə buraxılır. Sponsorluq edilən yazılışlar üçün üç proqram səviyyəsi mövcuddur. Birinci iki səviyyə təkrar bazarda dövr edən səhmlərə qarşı ADR-in emissiyasını nəzərdə tutur. Üçüncü səviyyə isə ilkin bazarda dövr etməsi üçün yazılış buraxılışına imkan yaradır. Sponsorluq edilməyən ADR səhmlərin əksəriyyətinə malik olan səhmdarın və ya səhmdarlar qrupunun təşəbbüsü ilə buraxılır. Bu növ ADR-in üstünlüyü xüsusilə onların sadəliyi və buraxılış üçün maliyyə məsrəflərinin azlığı ilə şərtlənir.

ADR-i əldə edən xarici investor emitent olan ölkənin ona tanış olmayan fond bazarı ilə əlaqədən və bununla bağlı müvafiq prosedurdan azad olur. Başqa sözlə, o öz bankının qiymətli kağızını əldə edir, hansının ki, tanınmış investor kimi

[1] Depozit yazılış – mülkiyyətçisinə xarici şirkətin səhmlərinə sahib olma hüququ verən, adətən onu sertifikat və ya sənədsiz formada buraxan investisiya bankında deponent olmaqla sərbəst dövr edən qiymətli kağız – Müəllifin qeydi.

yüksək etibarlılığı vardır. Rusiyanın depozit sisteminin xidməti hələlik istifadə olunan müvafiq texnologiya baxımdan beynəlxalq tələblərə cavab vermir. Şirkətin gələcək əsas səhmdarı olan investisiya bankı (təcrübədə bu nizamnamə kapitalının 10-15%-i qəbul olunur) emitentə bir sıra vacib məsələlərin həllində təsir göstərə bilir.

Müasir dövrdə yerli emitentlər ADR-in yalnız birinci proqram cərçivəsində və ya məhdud üçüncü proqram səviyyəsinə malikdirlər. Məsələ burasındadır ki, maliyyə uçotu rusiya standartlarındadır, hansı ki, beynəlxalq standartlarla üst-üstə düşmür. Eyni zamanda rusiya şirkətlərinin kifayət qədər olmayan şəffaflığı da maneə törədir. Həmçinin digər səbəblər də mövcuddur.

Depozit yazılışının emissiyasının təşkili iqtisadi, hüquqi və təşkilati xarakterə malik olmaqla, müvafiq xarici fond bazarının fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla, kifayət qədər mürəkkəb qarşılıqlı kompleks proseduru əks etdirir. Bununla yanaşı olaraq, dünya kapital bazarından investisiya resurslarının göstərilən formada cəlb olunması rusiya şirkətləri və bankları tərəfindən təcrübədə geniş istifadə olunmaqdadır. Belə ki, Lukoyl şirkətinin kaptalında ADR-in payı 1996-cı ildəki 5,2%-dən, hal-hazrda 22,7%-dək yüksəlmişdir.

Ümumilikdə şirkətin səhmlərinə vəsait yatıran investorlar strateji, maliyyə (və ya portfel) və şəxsi (minoritar) investorlara bölünürlər. Səhmlərin *strateji investorlar* arasında bölüşdürülməsinin bir sıra üstünlükləri vardır. Bu sahibkarlıq fəaliyyətinin və texnoloji nou-haunun qabaqcıl təcrübəsinə yiyələnməyin, eyni zamanda yeni bazara çıxış imkanın qazanılmasının real imkanı kimi xarakterizə oluna bilər. Burada emitent və strateji investor inteqrasiyanın nəticəsi kimi sinergetik effekt əldə edə bilərlər. O, da nəzərdən qaçırıla bilməz ki, strateji investor şirkətin səhmlərinə digər səhmdarlara nisbətən daha yüksək qiymətlə vəsait ödəməyə hazır olurlar.

Bununla yanaşı olaraq strateji investorların cəlb olunmasının bir sıra mənfi nəticələri də vardır. Belə ki, emitentlə strateji investorun məqsədlərinin üst-üstə düşməməsi təhlükəsi

vardır. Şirkətin səhmlərinin əksər hissəsini əldə edən strateji investor onun üzərində nəzarət edir və rəhbərliyin dəyişdirilməsi imkanına malik olur. Bununla belə strateji investor axtarışı xeyli vaxt və vəsait tələb edir. Nəhayət, strateji investorla qiymətili kağızın emitent şirkətinin korparativ mədəniyyəti arasında ciddi fərq ola bilər. Bu isə əlavə transsaksion xərclərə gətirib çıxarır.

Portfel investorlara gəldikdə isə onlar şirkətin idarə olunmasına müdaxilə etmirlər, lakin onların cəlb olunması istifadə olunan kapitalın veriminin yüksəldilməsi tələbini meydana çıxarır.

İqtisadi münasibətlərin baxılan sferasında *dövlət qiymətli kağızlar* (DQK) bazarının xüsusi yeri vardır. O, istənilən inkişaf etmiş dövlətdə belə maliyyə bazarının ayrılmaz hissəsi kimi makroiqtisadi əhəmiyyət daşıyır. Onun büdcə xərclərinin maliyyəlşdirilməsi mexanizmi, bankların likvidliyinin tənzimlənməsi, valyuta bazarının dolayı tənzimlənməsi, daxili ssuda kapitalı bazarının və korparativ qiymtli kağızlar bazarının tənzimlənməsi kimi yüksək potensialı vardır. DQK bazarının bir mühüm əhmiyyəti də investisiya ilə bağlıdır. Belə ki, iqtisadiyyatın inkişafı üçün iri həcmdə orta və uzun müddətli investisiyalar tələb olunur. Onlar məhz dövlət qiymətli kağızlar bazarı vasitəsilə cəlb oluna bilər. Dövlət bu bazarda nəinki tənzimləyici orqan kimi, eyni zamanda bazar alətlərindən istifadə etməklə əhalinin vəsaitlərinin toplanmasını təmin edən struktur kimi də çıxış edə bilər. Bu vəsaitləri o milli iqtisadiyyatın infrastrukturunun inkişaf etdirilməsinə, o cümlədən baza kimi (məsələn, avtomobil və dəmir yollarının, neft kəmərlərinin, körpülərin və s. tikintisinə), eləcə də müasir telekommunikasiya vasitələrinə, internet texnologiyalarına istiqamətləndirə bilər.

Rusiyada əsas kapitala investisiya qoyuluşlarının qiymətli kağızların emissiyası vasitəsilə maliyyələşdirilməsi bu günə qədər yetərincə inkişaf etməmişdir, hansı ki, nəinki sənayecə inkişaf etmiş ölkələrdə eləcə də bir çox inkişaf etməkdə olan ölkələrdə xüsusi rola malikdir. Ancaq Rusiya qiymətli kağızlar bazarının artım potensialı kifayət qədər əhəmiyyətlidir. İqtisadi

nəzəriyyədən məlumdur ki, iqtisadiyyatın real sektoruna məxsus olan və bazarda davamlı fəaliyyət göstərən şirkətin kapitallaşması (başqa sözlə, səhm bazarında dövriyyədə olan bütün səhmlərin dəyəri), onun 10-12 ay ərzindəki satışının həcmi ilə uyğunluq təşkil edir. Və əgər ən iri rusiya emitentləri (fond bazarının «mavi markası» adlandırılan) bu proporsiyaya əsasən nail olublarsa, onda şirkətlər üzrə müxtəlif səbəblərdən likvid olmayan səhmlərin kurs dəyərinin yüksək artım ehtiyatı vardır. Məsələn, yerli yeyinti sənayesinin tanınmış müəssisələrindən olan Lianozovskiy süd kombinatı, Baltika pivə bişirmə şirkəti, Babayevski konditer konserni 150 milyon ABŞ dollarından artıq satış həcmi ilə hələ də investisiya cəlb olunması üçün qiymətli kağızlar bazarının imkanlarından istifadə etməmişlər.

İqtisadiyyatın real sektorunun uzunmüddətli investisiyalarla təmin olunmasında qiymətli kağızlar bazarının rolunun artırılması üçün dövlət tənzimlənməsinin məqsədəuyğun tədbirlər sistemi tətbiq olunmalıdır. Qiymətli kağızların emissiyasına verginin azaldılması və investisiya fondlarında paya malik olan şəxsi investorlara vergi güzəştlərinin edilməsi zəruridir. Qiymətli kağızlar bazarında olan investorların gəlirlərinə verginin müəyyənləşdirilməsi və dərəcələrinin tətbiq olunmasında da qayda yaradılmasına ehtiyac duyulur (qiymətli kağızların əldə olunmasına sərf olunan xərclərə müvafiq vergiqoyma bazasının azaldılması, dividendlrə gəlir vergisi səviyyəsində dərcənin tətbiqi və s.). Bunları emissiya proseduruna, səhmlərin onların qeydiyyata alınmasına qədər əldə olunmasına qoyulan qadağa və onların yerləşdirilməsi dövrünə qədər təkrar bazarda əməliyyatlara icazə alınması da daxil olmaqla aid etmək olar. Yaxşı olardı ki, qiymətli kağızların dövlət qeydiyyatı proseduru sadələşdirilsin.

Rusiya biznesinin neqativ tərəflərinin, o cümlədən aktivlərin çıxarılmasının, qeyri-qanuni sövdələşmələrin aparılmasının, inkişaf etmiş ölkələrdə qəbul olunmuş səhmdar hüquqlarının pozulmasının aradan qaldırılması üçün Korparativ məcələləsi xüsusilə zəruridir. Qiymətli kağızlar bazarına əhəmiyyətli təsir müvafiq bazarda işləyən investolrlar üçün ciddi və şəffaf uçot

standartlarının tətbiqi vasitəsilə mümkündür. Nəhayət, fond bazarında maliyyə alətləri spektirinin genişləndirilməsi üçün zəruri şəraitin yaradılmasında, dövlət istiqrazları bazarının bərpa olunması, ipoteka və digər qiymətli kağızlar bazarının inkişafı da daxil olmaqla çox işlər görmək olar.

3.İqtisadiyyatın real sektorunun bank kreditləşməsi

İnkişaf etmiş sənaye ölkələrində iqtisadiyyatın real sektoruna kredit qoyuluşunun ümumi həcmi ÜDM-un həcmi ilə mütənasibdir. Rusiyada bütün bank aktivlərinin payı son üç ildə ÜDM-in 3/1-ni aşmır[1]. Hansı ki, kreditlərə də xarakterikdir və onların əsas fondlara qoyulan investisiya qoyuluşlarının ümumi investisiya qoyuluşlarındakı payı 5%-dən az təşkil edir. Şübhəsiz ki, bu müəssisələrin kütləvi kreditləşməsi üçün kifayət qədər kapitala malik olmayan və uzunmüddətli investisiya qoyuluşlarını reallaşdıra bilməyən rusiya bank sisteminin zəifliyini əks etdirir. Bu eyni zamanda müəssisələrin investisiya almağa hazır olmamasını da əks etdirir. O, hər şeydən əvvəl bank kredit komitələrinə təklif olunan investisiya təklifinin və effektiv mülkiyyətçinin olmamasında özünü göstərir.

Belə bir şəraitdə iqtisadiyyatın real sektorunun uzunmüddətli kreditləşməsinin artırılması prosesi bank, sənaye və ticarət kapitalının inteqrasiyası ilə bağlıdır. Qeyd edək ki, belə inteqrasiya prosesi diversifikasiya olunmuş tsiklin obyektiv olaraq formalaşmasına əsaslanır. Belə tsikillər istehsalın bütün əsas mərhələlərini özünə daxil etməlidir. Bilavasitə belə tsikillərin formalaşması maliyyə sənaye qruplarının (MSQ) formalaşması prosesinin əsasında dayanır.[2]

---

[1] Bax: Xüsusi təhlil. Rusiya bankları // Ekspert, 2000, №46

[2] Maliyyə sənaye qrupu – investisiya və digər proqramların və ya layihələrin texnoloji və iqtisadi inteqrasiyası məqsədilə müqavilə əsasında öz material və qeyri-material aktivlərini əsas və qız müəssisələr formasında bütövlükdə və ya qismən birləşdirən hüquqi şəxslərin birliyidir.

Maddi istehsal sahəsində işləyən müəssisələrin maliyyə vəziyyətinin yaxşı olmadığı şəraitdə fəaliyyət qabiliyyətli bankların belə inteqrasiyasının səmərəliliyinin yüksəlməsində rolu əhəmiyyətli artır. O, «resurs təminatı – istehsal – məhsul satışından sonrakı məişət servis xidməti» kimi tsiklin maliyyə təminatından uzağa getmir. Hesab edirik ki, banklar MSQ-na daxil olan müəssisələrə menecmentin yaxşılaşdırılmasında (ilk növbədə maliyyə menecmentinin), marketinq strategiyalarının seçilməsində və biznes planlaşdırılmasında təsir göstərmək iqtidarındadır.

MSQ-nın formalaşmasının iki əsas istiqamətini qeyd etmək olar. Onlardan birincisi, qanunvericiliyə müvafiq olaraq MSQ-nın rəsmi qeydə alınmasını əks etdirir. İkinci yol isə MSQ-nın dövlət reystirinə salınması, bank, sənaye və ticarət kapitalının iqtisadi və təşkilati təmərküzləşməsidir. Birinci istiqamətə tipik nümunə «İnterros» MSQ-nu hansının ki, əsas elementi «Rosbank» və «Norilsk nikel»dir, ikinci istiqamətə isə «Qazprom» misal göstərilə bilər.

Qeyd alınmış MSQ-na qanunvericilikdə investisiya güzəştləri toplusu nəzərdə tutulmuşdur. Onların iştirakçıları konsolidə olunmuş vergi ödəyiciləri kimi qəbul edilir. İnvestisiya müsabiqəsində səhmlərin reallaşdıran MSQ-nun iştirakçısının öhdəliyi investisiyanın həcminə daxil edilir. Qrupun iştirakçıları avadanlıqların amortizasiya müddətinin müstəqil müəyyən edilməsinə, investisiya kreditinin alınmasına və MSQ-nun investisiyasına dövlət zəmanətinin əldə edilməsinə imkanlar əldə edir. Rusiya Fedarasiyasının Mərkəzi Bankına investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə MSQ-na daxil olan banklar üçün məcburi ehtiyat normalarının azaldılması hüququ verilir.

Qeyd edək ki, iri MSQ-nın tərkibində vergi ödəyicilərinin konsolidə olunması və istehsalın yüksək təmərküzləşməsində vergi daxilolmalarının qeyri-mütənasibliyinin güclənməsi ehtimalı yüksəkdir. Bunun məntiqi nəticəsi faiz dərəcələrinin artımı və cari kassa kəsirinin yaranması da ola bilər. Ona görə də MSQ-nın iştirakçılırına vergi kreditlərinin verilməsi yalnız vergi ödənişlərinin artımının gözlənilməsi zamanı məqsədəuyğundur.

Bank, maliyyə və ticarət kapitalının inteqrasiya olunmasının digər vasitələri də vardır. Buraya, yerli MSQ-nın rəqabət qabiliyyətinin və istehsal aparatının təmin olunmasına (TMK-ra nisbətən) imkan yaradan proteksionizm daxildir. «Resurs təminatı – istehsal –satış» şəbəkəsi yarada bilən MSQ-nın formalaşdırılmasına malik müəssisələrə səhmlərin müvafiq müəssisələrin səmərəli fəaliyyətinin təmin olunduğu zaman əldə edilən növbəti gəlirin əldə edilməsi hüququnu təmin edən trast idarəetməsinin verilməsi səmərəlidir. İri layihələrin Rusiya bankları tərəfindən maliyyələşdirilməsinin stimullaşdırılmasında sindikatlaşmış kreditləşmə[1] metodundan da istifadə edilə bilər.

Qanunvericiliyin təkmilləşdirilməsinin məqsədəuyğun istiqaməti kimi MSQ-na daxil olan müəssisələrə istehsalın genişləndirilməsi məqsədilə girov təminatı hüququnun verilməsi misal göstərilə bilər.

Qeyd etmək lazımdır ki, müxtəlif təbii yataqların istismarında hasilatın pay bölgüsü sazişi (HPBS)[2] çərçivəsində TMK-la bərabər hüquqlu tərəfdaş kimi yalnız tərkibinə kifayət qədər kapitallaşmış və iri banklar daxil olan yerli MSQ-rı iştirak edə bilərlər.

HPBS-nin iqtisadi məzmununa Priobsk neft yatağının istismarına dair misalda diqqət yetirək (bax sxem 7)[3]. Sxemdən göründüyü kimi HPBS-in qanunvericilikdə əks olunan əsas ideyası aşağıdakılardan ibarətdir. Bu sazişdə vergilərin ödənil-

[1] Sindikatlaşmış bank krediti – bir neçə bankın kapitalının iri investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə birləşdirilməsi, bankın investisiya riskinin azaldan və kapital çatışmamazlığını aradan qaldıran birlik – Müəllifin qeydi.

[2] Hasilatın pay bölgüsü sazşi – Rusiya Federasiyası tərəfindən sahibkarlıq subyektlərinə öz riski və maliyyəsi hesabına mineral ehtiyatların işlənməsinə, kəşfiyyatına, hasilatına hüquq verən müqavilə. HPBS-in xüsusiyyətləri: a) çıxarıla bilən ehtiyatdan əldə olunan bütün iqtisadi effektlərin investorlar və dövlət arasında bölünməsinin normativ tənzimlənməsi;

b) faydalı qazıntıların hasilatı üçün Rusiya müəssisələrinin istehsal-texniki avadanlıqlarla təminat payının müəyyənləşdirilməsi.

[3] A. Konoplyanikin məlumatlarına əsasən tərtib olunub.

məsi, mənfəət və yataqların istifadə olunmasına görə ödəmələr istisna olmaqla investisiyalarla əvvəlcədən müəyyən edilmiş qaydada əvəzlənir. Əldə olunan məhsul ilk növbədə kompensasiya və mənfəət hissələrinə bölünür (məhsulun birbaşa bölgüsündə belə bölünmə nəzərdə tutulmaya bilər). Kompensasiya məhsulunun başlıca məqsədi müqavilədə nəzərdə tutulan vəsaitin investisiya, işlərin yerinə yetirilməsi üçün verilməsini nəzərdə tutur. Mənfəət adı altında investorlarla dövlət arasında məhsulun bölgüsü nəzərdə tutulur. O, istehsal olunmuş məhsulla kompensasiya məhsulunun arasındakı fərq kimi hesablanır, hansı ki, məcburi büdcə ödəmələrində istifadə olunur.

HPBS-nin reallaşdırılması ilə xammal ehtiyatlarından daha çox mültiplikativ effekt almaq məqsəd kimi müəyyən edilir. Bu iqtisadiyyatda xammal sahəsindən yüksək texnologiyalı sahələrə keçidi nəzərdə tutur. HPBS-də dövlətin iştirak etməsi yüksək texnologiyaların və idarəetmə təcrübəsinin digər sahələrdə də tətbiq olunması təşəbbüskarlığına imkan yaradır. Müvafiq sahələrin işlənməsi üzrə maşın və avadanlıqların hazırlanması prosesinin tənzimlənməsinin də mühüm rolu vardır. Belə sifarişlərin ölkə ərazisində yerləşdirilməsi yüksək olarsa, bir o qədər iqtisadiyyatın fondyaradan sahələrinin investisiya aktivliyi artacaq və milli iqtisadiyyatın yüksək texnologiyalı sahələrinin formalaşması yüksələcək.



Sxem 7. Priobsk neft yatağının istismarına dair məhsulun pay bölgüsü layihəsinin maliyyə strukturu (milyard dollar)

İqtisadiyyatın real sektorunda bankların investisiya aktivliyinin canlanması bilavasitə «uzunmüddətli» passivlərin həcminin artırılması ilə əlaqədardır. Hansı ki, əlverişli inves-

tisiya mühütünün formalaşdırıldığı təqdirdə əhalinin yığımları hesabına formalaşdırılır. 25 milyard dollar həcmində olan bu resursların ölü yük kimi deyil, milli iqtisadiyyatın inkişafı üçün işlədilməsi baxımından dövlət müvafiq mexanizmdən istifadə edir. Ola bilər ki, bank əməliyyatlarının dövlət zəmanəti haqqında qanunvericilik aktı qəbul edilsin. Məcburi ehtiyat normaları ilə əmanətlər arasında da əlaqə yaratmaq mümkündür (əmanətin müddəti nə qədər uzundursa, bir o qədər məcburi ehtiyat norması aşağıdır). Dövlət investisiya bazarının investisiya imkanını təmin edir və müvafiq bazarda işləyən investisiya institutlarının əhalinin pul vəsaitinin yerləşdirilməsindəki riskini azaldır (sığorta komitələri, qeyri-dövlət pensiya fondları, pay investisiya fondları və s.), mənzil tikintisində ipoteka kreditinin yayılmasını stimullaşdırır (bax XVII fəsil).

Müasir dövrdə bankların belə aktivliyinin zəifliyi onların sərbəst vəsaitlərinin olmaması və müəssisələrin yüksək faizlə (onların səviyyəsi Rusiya Federasiyasının Mərkəzi Bankının 2001-ci ilin sonlarında olan yenidən maliyyələşmə faizinin 25%-lik səviyyəsinə yaxındır) kreditləri geri qaytara bilməməsi ilə əlaqədardır. Buna görə də iqtisadiyyatın real sektoruna investisiya qoyuluşlarının stimullaşdırılmasının perspektiv mexanizminə aşağıdakılar aid edilir:

- Rusiya Federasiyasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş etibarlılıq, kreditlərə görə girov, müəssisənin ödəmə qabiliyyəti kriteriyalarına əsaslanmaqla kommersiya banklarının *yenidənmaliyyələşdirilməsi*;

- dövlət – kommersiya qarışıq maliyyələşməsi mexanizminin tətbiqi əsasında uzunmüddətli investisiya qoyuluşlarının maliyyələşməsi və ya prioritet investisiya layihələrinin büdcə krediti hesabına subsidyalaşması əsasında *bank riskinin azaldılması*[1];

[1] Layihə təşəbbüsü – müəssisələrin maraqlarının razılaşdırılmasında xarici investorların və dövlətin maraqlarının uzlaşdırılması da müvafiq tənzimləmə mexanizmi sxemi tətbiq oluna bilər – Müəllifin qeydi.

- prioritet investisiya layihələrinin reallaşdırılması üçün cəlb edilmiş *şəxsi investisiyalara*[1] *dövlət zəmanətinin təqdim olunması* (bununla bərabər dövlət zəmanətinin həcmi şəxsi investisiyanın həcmini keçməməlidir).

4. Lizinqin inkişafı

İqtisadiyyatın real sektorunun müəssisələrinin əhəmiyyətli hissəsinin sərbəst maliyyə ehtiyatlarının çatışmamazlığı şəraitində fəaliyyət göstərən Rusiyada, *lizinq*[2] qısa müddət ərzində istehsalın modernizasiyasına, müasir avadanlıqların alınmasına və ya yeni istehsalın yaradılmasına imkan yardır.

Sənaye cəhətdən inkişaf etmiş qərb ölkələrinin təcrübəsi göstərir ki, kapital qoyuluşlarının 25-30%-i lizinq hesabına maliyyələşdirilir. Eyni zamanda investisiya mühütü və lizinqin normativ-hüquqi bazasının əlverişli olmadığı bizim ölkədə mövcud olan lizinq texnologiyalarının investisiyalaşdırılmasından praktiki istifadə olunmur. 2000-ci ilin yekunlarına görə lizinqin əsas kapitala yönəldilən ümumi investisiya qoyuluşlarında payı 1%-i keçməmişdir. Məlum olduğu kimi klassik lizinq əməliyyatı üç əsas iştirakçı arasında baş verir: a) əsas fond (lizinq pridmeti) istehsal edən firmalar; b) onları istehsalçıdan alan lizinq şirkəti (liziq verən); v) ona zəruri olan maşın və avadanlıqları alan müəssisələr (lizinq alan) (bax sxem 8)

[1] *Dövlət zəmanəti* – layihəni reallaşdıran investorlara onun günahı olmadan baş vermiş ziyanın miqdarında səlahiyyətli dövlət orqanının müvafiq pul ehtiyatının investorlara qaytarılması ilə bağlı öhdəlik - Müəllifin qeydi.

[2] *Lizinq* – əmlakın əldə olunması hüququnu və onun müvafiq müqavilə əsasında konkret müddət və şərtlər daxilində müəyyən olunmuş ödəmə hesabına fiziki və hüquqi şəxslərə verilməsini təmin edən investisiya fəaliyyətinin növü – Müəllifin qeydi.



Sxem 8. Lizinq əməliyyatının klassik sxemi

Lizinq onu alana bir sıra üstünlüklər verir. Belə ki, istehsalın genişləndirilməsi və onun kredit yaxud iri miqyaslı birdəfəlik ödəmə olmadan zəruri əsas fondlarla təmin olunması imkanı yaranır. Bu iqtisadiyyatın real sektorunun əksər müəssisələrinin kəskin ödəməmələr problemi və sərbəst pul vəsaitlərinin olmadığı şəraitində xüsusilə zəruridir. Lizinqin adi bank krediti ilə müqayisədə daha az dəyəri və yüksək səmərəliliyi (nəticədə lizinqə görə əlavə vergi güzəştləri və lizinq avadanlığının istismarına görə ödəmə qrafikinin optimallaşdırılması imkanının yaranması) vardır. Lizinq ödəmələri istehsal olunan məhsulun maya dəyərinə daxil edilir və bununla vergiyə cəlb olunan mənfəətin həcmini azaldır. Bununla yanaşı operativ lizinqdə təsadüfü qəzalara görə riskin mülkiyyətin sahibi olan lizinqverənin üzərinə keçirilməsi imkanları da vardır. Lizinq

alan özünün əsas fondlarının yenilənməsi istiqamətindəki investisiya layihələrinin, biznes-planlarının işlənməsində lizinq şirkətinin təcrübəsindən istifadə edir.

Lizinq əməliyyatlarında iştirakından lizinq verən subyektin də üstünlükləri vardır. Belə ki, ayrılıqda banklar və onların qız müəssisələri üçün özlərinin fəaliyyət dayanıqlılığının artırılması və onun diversifikasiya edilməsi, habelə maliyyələşmə alətlərinin genişlənməsi imkanları yaranır. Lizinq predmeti üzrə bütün ödəmələr başa çatdırılana qədər əmlak hüququnun saxlanılması maliyyə riskinin azalmasına səbəb olur. Qanunvericiliklə vergi güzəştlərinin və lizinqin səmərəliliyinin yüksəldilməsi məsələləri də təsbit olunur.

Lizinqi müxtəlif aspektlərdən təsnifləşdirmək olar.

Hər şeydən əvvəl lizinq müqaviləsinin iştirakçılarının tərkibinə görə *klassik lizinqi* qeyd edək, hansı ki, ona avadanlıq istehsalçısı, lizinq şirkəti və lizinq alan arasında üçtərəfli əlaqələr xarakterikdir. Bu əyani surətdə yuxarıda əks etdirilən sxem 8-dən aydın görünür. *Birbaşa lizinq* də istifadə olunur ki, bu zaman avadanlıq istehsalçısı eyni zamanda lizinq verən subyekt kimi də çıxış edir (iqtisadi məzmununa görə birbaşa lizinq arenda ilə identikdir, hansına ki, bizim halda lizinqin xüsusi halı kimi baxıla bilər). Lizinq əmliyyatının müxtəlif mənbələr hesabına maliyyələşdirilməsini əks etdirən *bölünmüş lizinq* də məlumdur (lizinq şirkətinin şəxsi vəsaitləri zəruri ehtiyatların alınmasına kifayət etmədikdə). *Qaytarılan liziq* o zaman olur ki, lizinq predmetini satan şəxs eyni zamanda lizinq alan rolunda çıxış edir.

Üstün cəhətlərinə görə hər şeydən əvvəl *xüsusi lizinq* fərqlənir, hansı ki, lizinq alanın lizinq predmetinin iş qabiliyyətinin saxlanılması və ona xidmət göstərilməsi sahəsində tam məsuliyyətliliyi ilə xarakterizə olunur. Tətbiq olunmada *tam* (və ya «nəm») *lizinq* geniş yer almışdır, hansı ki, lizinq verən tərəfindən lizinq əmlakına xidmətə görə lizinq alana bütün xərclərin ödənilməsi ilə fərqlənir. *Tam olmayan xidmətli liziqdən* də istifadə olunur. Bu halda lizinq əmlakına xidmətə görə işlərin bir qismi lizinq alan tərəfindən müstəqil yerinə yetirlir, digər

hissəsi isə - ödənilir (lizinq verən tərəfindən). Belə lizinqdə lizinq alanın xərcləri maksimaldır və lizinq mülkiyyətinə xidmətdən yalnız o halda imtina edilə bilər ki, kənar xidmətin keyfiyyəti lizinqalanın fərdi imkanlarından daha yüksək olmuş olsun.

Lizinq müqaviləsinin fəaliyyət müddətinə görə *maliyyə lizinqi* fərqləndirilir. Bu lizinq müqavilədə nəzərdə tutulan müddətdə lizinq əmlakının dəyərinin tam ödənilməsini nəzərdə tutur, hansının ki, davametmə müddəti bir qayda olaraq əmlakın normativ fəaliyyət müddətinə yaxın olur. Bununla yanaşı maliyyə lizinqinin fəaliyyət müddəti başa çatdıqdan sonra əməliyyat pridmeti olan əmlaka mülkiyyət hüququ lizinq alana keçir. *Operativ lizinqdə* isə müqavilənin qüvvədə olma müddəti lizinq əmlakının normativ fəaliyyət müddətindən az olur. Bu halda bütün lizinq ödəmələrinin cəmi onun dəyərində az olur və müqavilə müddəti başa çatdıqdan sonra lizinq obyektinə mülkiyyət hüququ lizinq verəndə saxlanılır.

Lizinq əmlakının tipinə görə hər şeydən əvvəl *maşın-texniki lizinq* fərqləndirilir. Bazar iqtisadiyyatlı inkişaf etmiş ölkələrdəki lizinq əməliyyatlarının strukturunda müvafiq lizinqin payı 80%-dən artıqdır. *Daşınmaz əmlak lizinqi* də vardır.

Bütovlükdə investisiyalaşdırmanın lizinq texnologiyası istehsal, satış və maliyyə funksiyalarını[1] yerinə yetirir. *İstehsal* funksiyası lizinq pridmetini istehsal edən və özünün istehsal fəaliyyəti üçün yeni imkanlar əldə edən lizinq alanda özünü biruzə verir. *Satış* funksiyası lizinq əməliyyatının bütün iştirakçılarına xarakterikdir. Lizinq pridmetinin istehsalçısı onu lizinq şirkətinin köməkliyi ilə satır və bununla satış böhranından yayınır. Lizinq alan isə öz istehsal fondlarını yeniləşdirməklə bazarda daha yüksək rəqabətqabiliyyətli məhsulla təmisil olunma imkanını saxlayır və bazardakı iştirak payını daha da genişləndirir. Lizinq şirkəti bazarda özünün ixtisaslaşmış xidmətini yerləşdirir.Təbii ki, *maliyyə* funksiyasının həm lizinq verənə, həm lizinq alana, həm də avadanlıq istehsalçısına aidiyyatı vardır, hansı ki, əməliyyat onların hər birinə əlverişli olmalıdır.

[1] Бах: Чекмарайева Е.Н. Лизинг бизнеси. М: Економика, 1994

Lizinqin tətbiq olunması lizinq alana start kapitalı olmadan öz istehsal aparatının yenilənməsi və buraxılan məhsulun rəqabət qabiliyyətinin artırılması imkanı yaradır. Bununla yanaşı olaraq qanunvericilikdə nəzərdə tutulan vergi güzəştləri daha ucuz bank kreditlərinin cəlb olunmasına şərait yaradır ki, bu da müvafiq investisiya sahibkarlığının perspektivliyinə dəlalət edir. Lizinqin mövcud olan hüquqi təminatının yaxşılaşdırılması lisenziyalaşdırmanın ləğv olunmasını və lizinq əməliyyatlarının vergi uçotunun təkmilləşdirilməsini nəzərdə tutur. Sonuncu xüsusilə ikiqat vergitutma təcrübəsinin aradan qaldırılması probleminə aiddir. Qanunvericilər qarşısında lizinq şirkətlərinin gəlirlərindən vergitutmada real güzəştlərin təmin olunması və investisiyaların geri ödənilməsi zəmanətinin keyfiyyətcə yaxşılaşdırılması kimi vəzifə dayanır.

Bütövlükdə yaxın gələcəkdə cəlb olunmuş və borc vəsaitlərinin əsas kapitala investisiya qoyuluşlarının ümumi həcmində payı artacaqdır. Bu prosesin sürəti əsasən tətbiq olunan dövlət tənzimlənməsi alətlərinin effektivliyi ilə müəyyən olunur.

Suallar və tapşırıqlar

1. Aşağıdakılar doğrudurmu?

Lizinq - maşın və avadanlıqların uzunmüddətli arendasıdır.
Emitent – qiymətli kağızın emissiyası və onların bazarda satışı zamanı idarəetmə qərarlarının qəbulu üzərində nəzarət etmişdir.
Amerikan depozit yazılışdır. Rusiya şirkətlərinin səhm nəzarət paketi əsasında həyata keçirilir.

2. Diqqətinizə çatdırılan variantlardan düzgün olanını seçin.

Sürətləndirilmiş amortizasiyanın əsas üstünlüyü:
a) məhsul istehsalının maya dəyərinin aşağı salınması;
b) istehsalın rentabelliyinin artırılması;
c) müəssisənin investisiya imkanlarının artırılması;
ç) investisiyanın səmərəliliyinin artırılmasıdır.

Güzəştli səhmin əldə olunması zamanı investor gəlir əldə edir:
a) səhmə görə faiz əldə edir;
b) səhmin nominal və alış qiyməti arasındakı fərq hesabına;
c) qiymətli kağızların dəyişdirilməsi (hesabına) və onun daha yüksək qiymətə bazarda satılması hesabına;

İnvestor məhsul bölgüsü haqqında müqavilə bağladıqda:

a) bütün vergi ödənişlərindən azad olunur;

b) razılaşdırılmış həcmdə dövlətin ehtiyaclarının ödənilməsi üçün məhsul tədarükü öhdəliyini götürür;

c) yerin təkindən istifadə və mənfəət vergisindən başqa digər ödəmələri məhsul bölgüsü ilə reallaşdırır.

3. Fazanı tamamlayın.

Fəaliyyətdə olan qanunvericiliyə əsasən maliyyə-sənaye qruplarına verilən əsas investisiya güzəştləri arasında ……..qeyd etmək lazımdır.

Rusiya iqtisadiyyatının reformasiyasının müasir mərhələsində dövlətin amortizasiya siyasətinin mühüm istiqaməti……..

Banklar tərəfindən real sektorun müəssisələrinin uzun müddətli kreditləşməsinin artırılmasının stimullaşdırılması mexanizmlərinə …….aiddir.

© Марголин А.М., 2002
© Никитский В.Н., 2002

XIX Fəsil

İNVESTİSİYALARIN SƏMƏRƏLİLİYİNİN ƏSASLANDIRILMASI

1. İnvestisiya layihələri və onların səmərəliliyinin qiymətləndirilməsi

Dərsliyin bu fəslində metodoloji özül kimi «Metodiki tövsiyələrdən…»[1] (sonralar MT) istifadə edilir. Onlarda investisiya layihələrinin (SL) səmərəliliyinin qiymətləndirilməsinin əsas prinsipləri nəzərdə tutulur. Tövsiyələr müxtəlif layihələrin həyata keçirilməsi ilə əlaqədar pul mədaxilələrini və valyuta mənbələrindən istifadə imkanları nəzərə alınmaqla və layihə dövrünə görə ödənişlər daxil edilməklə layihənin hazırlanması və həyata kecirilməsi ilə əlaqədar pul axınlarının modelləşdirilməsini tələb edir. Layihənin bütün həyat dövrü ərzində (hesablaşma dövrü) investisiya qabağı tədqiqatlardan başlayaraq onun kəskinləşməsinə qədər layihə ilə əsaslandırılmış pul axınlarını nəzərə almaq lazımdır. Vaxt amilinin nəzərə alınması məçburi şərtlərdən biridir. Bu layihənin və onun iqtisadi mühitinin vaxta görə dəyişilməsinin

1. «Методические рекомендации по оценке эффективности инвестиционных проектов (вторая редакция)». Утверждены Министерством экономики РФ, Министерством финансов РФ и Государственным комитетом РФ по строительной, архитекторной и жилищной политике (см, № БК 477, 21.06.1999). М.: Экономика, 2000.

qiymətləndirməyi nəzərdə tutur. Müxtəlif dövrlərin xərclərinin və ya nəticələrinin qiymətinin qeyri-bərabərliliyini nəzərə almaq lazımdır. İnvestisiya layihələrinin işlənib hazırlanmasında layihənin reallaşdırılmasını müşayiət edən inflyasiyanın, qeyri müəyyənliklərin və risklərin təsirini heç bir vəclə saymaq olmaz. Layihə üçün yalnız real mövçud olan pul mədaxilləri və ödəmələr əhəmiyyət kəsb edir. Layihənin ssenarilərinin onun faktiki reallaşdırılması ilə müqayisəsi, həmçinin onun həyata keçirilməsindən imtina dəlilləri məcburidir. Sosial və ekoloji sferalar da daxil olmaqla bütün qarışıq sferalarda layihənin daha mühüm nəticələrini nəzərə almaq lazımdır. Mühüm prinsiplərdən biri diskontlaşma normalarının fərdi qiymətləri ilə əlaqədar müxtəlif iştirakçıların və kapitalın dəyərinin müxtəlif qiymətlərinin bir-birinə uyğun gəlməmələrinin nəzərə alınmasıdır. İnvestisiya layihələrinin (İL) səmərəliliyinin çoxmərhələli qiymətləndirilməsi də nəzərdə tutulur.

Həm İL səmərəliliyinin əsas nəzəri müddəalarının əks etdirilməsi nöqteyi-nəzərdən, həm də rusiya iqtisadiyyatının dəyişdirilməsininin indiki mərhələsində İL reallaşdırılmasının spesifikası nöqteyi-nəzərdən bu prinsiplərin ən çox əhəmiyyətlilərinə baxaq.

Pul axınlarının modelləşdirilməsindən başlayaq. Onun mahiyyəti aşağıda[1] göstərilən xarakteristikalara malik investisiyaqabağı, investisiya və istismar fazalarını birləşdirən layihə dövrü ərzində ödəmələrin və daxilolmaların İL–nin biznes-planı tərtib edənlərin proqnozlarının etibarlılığındadır.

Birincisi, ümumi şəkildə investisiya təkliflərinin qısa və dürüst ifadə edilmiş layihənin ideyalarına çevirmək məqsədilə investisiya imkanlarının tədqiqini investisiyaqabağı fazaya daxil edilməlidir. İnvestisiyalaşdırmaya dair qərarları qəbul etmək, habelə, layihəni reallaşdırmağın məqsədəuyğunluğun dair ekspert rəyi üçün daha tam informasiyaları vermək məqsədlə texniki-iqtisadi əsaslandırmaları hazırlamaq məcburidir.

[1]. Беренс В., Хавранек П. Рукаводство по оценке эффективности инвестиций. М.: АОЗТ «Интерэксперт», ИНФРА – М. 1995.

İkincisi, investisiya fazasında layihənin həyata keçirilməsinin hüquqi, maliyyə və təşkilatı əsasları dəqiq müəyyən edilməlidir. Zəruri layihə-axtarış işlərini görmək, bütün danışıqları tamamlamaq və müqavilələri (kontrakt) bağlamaq lazımdır. Torpaq və avadanlıq alınmalı, tikinti və quraşdırma işləri aparılmalı, personal (işçi) yığılmalı və öyrədilməli, obyekt təhvil verilməli və istismara buraxılmalıdır.

Üçüncüsü, istismar fazasına xüsusi əhəmiyyət verilir. O, investisiya qabağı və investisiya məsələlərində işlərin keyfiyyətlə yerinə yetirilməsi ilə qırılmaz qarşılıqlı əlaqədə layihənin reallaşdırılmasının faktiki səmərəliliyini üzə çıxarır.

Layihənin qenerasiya etdiyi pul axınlarının təsnifatı 12 saylı cədvəldə verilmişdir.

Cədvəl 12

İnvestisiya layihələrinin pul axınlarının təsnifatı

Fəaliyyət növü	Pul vəsaitlərinin daxil olması	Pul vəsaitlərin ödənilməsi
İstehsal (əməliyyat) fəaliyyəti	Məhsulun reallaşdırılmasından mədaxil; sair daxilolmalar	Xammal və materialların alınması; əməyin ödənilməsinə xərclər, xalis dövriyyə kapitalının artırılmasına xərclər[1]; sığorta rüsumlarının və vergilərin ödənilməsi
İnvestisiya fəaliyyəti	Qiymətli kağızlara investisiyalardan gəlirlər; aktivlərin satışından gəlirlər; filiallardan daxil olmalar	Əsas kapitalın əldə edilməsinə; layihənin investisiya mərhələsində dövriyyə kapitalının formalaşmasına xərclər
Maliyyə fəaliyyəti	Qiymətli kağızların satışından daxılolmalar; alınmış istiqrazlar	Kredit və obliqasiyalar üzrə ödəmələr; dividendlərin ödənilməsi

İnvestisiyaların səmərəliliyinin qiymətləndirilməsinin mühüm prinsiplərindən biri, müxtəlif dövrlərin pul madaxillərini və diskontlaşdırma yolu ilə ödəmələrin müqayisəsində vaxt

2. Dövriyyə kapitalına tələbat dövriyyə aktivləri ilə dövriyyə passivlərinin fərqi kimi hesablanır.

amilinin uçotunun zəruriliyindən ibarətdir. Burada onların layihə dövrünə gətirilməsi müvafiq diskontlaşdırma əmsalına G_1 vurmaq yolu ilə həyata keçirilir:

$$G_t=(1+E), \quad (1)$$

Burada E – diskontlaşdırma norması; t – layihə dövri ilinin sıra nömrəsi.

Diskontlaşdırma normaların[1] iqtisadi mahiyyəti odur ki, o avanslaşdırılan kapital vahidi hesabilə investora minimum icazə verilən gəlirin miqdarını əks etdirir. İnvestor əslində fərziyyəyə əsaslanır ki, onun həmişə diskontlaşdırma normasına bərabər gəlirlə müvəqqəti pul vəsaitini alternativ layihəyə qoymaq imkanları ola bilər. Aşağıda diskont normasının müəyyən edilməsinin aktual probleminin iki əsas konsepsiyasına qısa şəkildə baxılır - «alternativ gəlirlilik» konsepsiyası və «kapitalın ehtimal olunan dəyəri» konsepsiyası. Alternativ gəlirlilik konsepsiyası çərçivəsində risksiz diskont norması ya yüksək kateqoriyada möhkəm bankların depozit stavkaları səviyyəsində, yaxud da Rusiya Mərkəzi bankın maliyyələşdirmə stavkalarına bərabər (belə yanaşmanı RF Əmanət bankında işlənib hazırlanmış metodiki tövsiyələrdə təklif edilir) müəyyən edilir.

Diskont normasını həm də İ.Fişerin düstürü ilə də müəyyən etmək olar:

$$E= i/100 + r/100 + i/100\ r/100, \quad (2)$$

Burada i – inflyasiyanın sürətləri (qəbul edilmiş intervala görə %)

r – mənfəətin real norması

«Kapitalın ehtimal olunan dəyəri» konsepsiyası çərçivəsində diskont norması aşağıdakı qaydada hesablanır[2]:

$$E=W_d \overline{\overline{X}} E_d+W_pE_p+Wa+ \overline{\overline{X}} E_a+W_s \overline{\overline{X}} E_s, \quad (3)$$

1. Diskont norması kimi anlayışlar, səmərəlilik norması, Mane norması sinonimləridir (Müəllifin qeydi).

2. ШИМ Д.К., Сигел Д.Г. Финансывый менеджмент. М,: Филипь, 1996.

Burada W_d, W_p, W_{la}, W_s- layihəni reallaşdırmaq üçün lazım olan və borc öhdəliklərinə müvafiq olaraq, imtiyazlı və sadə səhmlərin buraxılması, habelə, müəssisənin özünün – layihənin təşəbbüskarlarının bölüşdürülməmiş mənfəəti hesabına çəlb olunan kapitalın xüsusi çəkisi; E_d,E_p,E_a,E_s – qeyd olunan hər bir element üzrə kapitalın dəyəri.

Diskont normasının müəyyən edilməsinə dair qeyd olunan düstur (3) alternativ gəlirlilik konsepsiyasının modifikasiyası olan yuxarıda baxılmış metodlarından ümumiyyətlə fərqlənir. İnvestor burada nəticə etibarilə «İnvestisiya layihəsinin reallaşdırılması ona sadə alternativə nisbətən yüksək gəlirlilik səviyyəsini təmin edəcəkmi, sualına cavab axtarır. Əgər o diskont normasına ekvivalent olan kapitalın dəyərinə əsaslanarsa, onda hakim sual başqa cür qoyulur: «Layihəni həyata keçirdikdə investisiyalar öz dəyərlərindən yüksək səviyyəsini təmin edəcəkmi?

Metodik tövsiyələrdə müxtəlif növlərdə diskont normaları göstərilmişdir. **Kommersiya norması** bir qayda olaraq alternativ gəlirlilik konsepsiyasına əsasən müəyyən edilir. **Diskontun özünün xüsusi normasını** layihə iştirakçıları sərbəst qiyətləndirirlər. Doğrudur, layihənin bütün iştirakçıları kommersiya diskontuna meyl etdikdə, prinsipcə, reallaşdırılmış yanaşma da mümkündür. Yüksək sosial əhəmiyyətə malik layihələr üçün **sosial diskont norması** müəyyən edilir. O investisiya layihəsinin reallaşdırılmasının necə deyərlər, ictimai səmərəsinə minimum tələbləri xarakterizə edir. Adətən[1] o mərkəzləşdirilmiş qaydada müəyyən edilir. Həmçinin büdcə vəsaitindən istifadənin alternativ dəyərini əks etdirən və federal icraedici hakimiyyət orqanlarının müəyyən etdiyi, subfederal və ya bələdiyyə səviyyəli **büdcə diskont norması** da müəyyən edilir. Hər bir konkret halda qərar qəbul edilməsi səviyyəsi verilmiş İL-nin hansı büdcənin vəsaiti hesabına maliyyələşdirilməsindən asılıdır.

[1]. Əgər, məsələn, mövçud binada çap məhsulları istehsal edən sex təşkil olunur, bu halda pul mədaxillərini və ödəmələr planlaşdırılanda köhnəlməni də nəzərə alınmaqla, həmin binanın tikilməsinə əvvəllər jəkilən xərçlər yox, binanı içarəyə vermək imkanlarından gəlirin əldə edə bilməməsi əlaqədar əldən buraxılmış qazanç miqdarında əks olunur.

İL-nin səmərəliliyinin qiymətləndirilməsinin mühüm prinsipi yalnız qarşıdakı layihənin həyata keçirilməsinin gedişində daxilolmaları və valyutanı nəzərə almaqdır. Layihədə istifadə olunan əvvəllər yaradılmış aktivlər, onların yaradılmasına çəkilmiş xərclərin alternativ dəyəri ilə yox, onlardan daha yaxşı alternativ istifadə imkanı ilə əlaqədar, əldən buraxılmış maksimum nəticəni əks etdirən alternativ dəyər kimi qiymətləndirilir[1]. Keçmişdə artıq həyata keçirilmiş, perspektivdə alternativ (daha doğrusu bu layihədən kənarda əldə edilən) gəlirlərin əldə edilməsi imkanlarını təmin etməyən xərclər (qeyri qaytarılmayan xərclər) pul axınlarında nəzərə alınmır və səmərəlilik göstəricilərin nəticələrinə təsir etmir.

Əgər dövlət faydalı qrantların mövcudluğunu göstərmiş yataqlarda geoloji kəşfiyyat işlərini büdcə vəsaiti hesabına maliyyələşdirirsə, onda bu yatağı işləyib hazırlamaq üzrə investisiya layihəsinin səmərəliliyini qiymətləndirən zaman bu xərclər daxilolmaların və ödənişlərin tərkibində nəzərə alınmamalıdır. Bu, hər halda yatağın axtarışına büdcə xərclərinə gələcək investora xüsusi şəkildə «bəxşiş» deyildir. Onun özünü ödəməsi yatağı mənimsəmək üçün yaradılan səhmdar cəmiyyətinin (gələcəkdə dövlət mülkiyyətindən istifadə edilməsindən alınan dividendlər) nizamnamə kapitalında dövlətin xüsusi çəkisini müəyyən edərkən geoloji kəşfiyyat işlərinə xərclər kimi qabaqcadan müəyyən edilir.

İL-ın səmərəliliyinin qiymətləndirilməsinin təcrübədə tez-tez qiymətləndirilməyən prinsiplərindən biri «layihə ilə» və «layihəsiz» ssenarilərin nəzərə alınması zəruriyyətidir. Belə yanaşmanı ənənəvidən fərqləndirməklə, lakin «layihə ilə», «layihəyə qədər» ssenarilərin yalnış (düzgün olmayan) müqayisəsi 9-cu sxemdə şərh edilmişdir.

Bu sxemin məzmunlu şərhi ondan ibarətdir ki, investisiya layihəsinin effekti «layihəyə qədər» ssenarisi ilə müqayisədə «layihə ilə» ssenariyə real pul axını saldosunun artımının məcmuundan yığılır, avadanlıqların bərpa müddətlərinin ləngidildiyi hallarda avadanlıqların fiziki köhnəlməsi ilə əlaqədar onların sıradan çıxması və təmir işlərinə xərclərin artımı formasında yaranan qabağı alınmış ziyanın məcmuundan yığılır. Sosial və ekoloji də daxil olmaqla iqtisadiyyatın qarışıq

sferalarına investisiya layihələrinin təsirinə fikir verək. O xarici effektlərin və ictimai nemətlərin nəzərə alınması ilə əlaqədardır.[1] Məsələn, xarici effektlərin çox hissəsi bilavasitə fövqaladə halların yaranması təhlükəsi ilə əlaqədardır. Belə ki, Uralın bir sıra şəhərlərinin metallurgiya sənayesinin tullantıları ilə atmosfer havasının çirklənməsi (ən nümunəvi misal Nijni Taqil) artıq şəhər əhalisinin ömür müddətinin xeyli azalmasına, uşaq ölümünün artmasına gətirib çıxarmışdır. Müsbət xarici effektlərə yol şəbəkəsinin yenidən qurulmasına investisiyalarla əlaqədar nəqliyyat müəssisələrinin mənfəətinin artması misal ola bilər. Bu da müstəqil layihənin kommersiya və ya büdcə səmərəsinin hesablanmasında öz əksini tapmaqdadır.



Sxem 9. İnvestisiya layihələrinin səmərəliliyinin şərhi

1. MT-ə uyğun olaraq xariçi effekt bazar qiymətlərində əks olunmamış əmtəələr və xidmətlər istehsalında əmələ gələn xariçi mühitdə iqtisadi və qeyri-iqtisadi nəticələrdir. İctimai nemət – bu onların elə növüdür ki, bir subyekt tərəfindən istehlakı, onların digərlərinin istehlakına manejilik törətmir (xalis atmosfer havası, elmi biliklər vəs.). Müəllifin qeydi.

Qeyd: Ştrixlənmiş sahə hesablama dövründə «layihəsiz» ssenarisini, «layihəyə qədər» ssenarisi ilə əvəz edilməsinə əsaslanan, nəzərəalınmamış effektləri xarakterizə edir.

Qeyd etmək lazımdır ki, xarici effektə etinasızlıq investisiyaların səmərəliliyinin səhv qiymətləndirilməsinə gətirib çıxara bilər. Nəticədə anoloji nöqteyi nəzərdən potensial qorxulu layihə artıq maliyyələşdirilmiş olacaqdır. Belə bir vəziyyət də diqqəti özünə cəlb edir ki, İL-in hər cür nəticələri dəyər qiymətini ala bilmir. Bunu etmək mümkün olmayan hallarda (xüsusilə ictimai nemətləri nəzərə aldıqda) ekspert qiymətlərinə müraciət etmək məqsədəuyğundur.

Potensial səmərəli investisiya layihəsini reallaşdırmaqdan ötrü onun müxtəlif iştirakçılarının mənafelərini əlaqələndirməyə nail olmaq lazımdır. Belə ki, gözlənilən səmərəlilik adətən orta bazar səviyyəsindən aşağı olan sosial əhəmiyyətli layihələri həyata keçirmək üçün iqtisadiyyatın qeyri-dövlət sektorundan investorları cəlb etmək son dərəcə çətin ola bilər. Onlar hər şeydən əvvəl özləri üçün qəbuledilməz, necə deyərlər diskontun sosial normalarının tətbiqini məqsədəuyğun hesab edəcəklər. Bu cür layihələrə onların investisiya resurslarının cəlb edilməsi dövlət tərəfindən əlavə stimullaşdırılmasını tələb edir. Belə stimullaşdırma tədbirləri kimi xüsusi investorlara dövlət təminatının müəyyən edilməsi, layihə iştirakçılarının gəlirliliyini bərabərləşdirmək üsulu əsasında qarışıq dövlət – kommersiya maliyyələşdirmənin təşkili, amortizasya, vergi və kredit güzəştlərinin verilməsi və s. istifadə etmək olar.

İnvestisiyaların səmərəliliyinin əsaslandırılmasının qeyd olunmuş prinsipləri bilavasitə layihənin pula satıla bilməsinin əsas qiymətləndirici və onun həyata keçirilməsinin səmərəliliyin göstəricilərinin müəyyən edilməsi metodikasında öz əksini tapmışdır.

Bu problemə aşağıda baxılır.

2. Layihələrin pulla satıla bilməsi və səmərəliliyi göstəriciləri

Layihənin pulla satıla bilməsinin kafi şərti[11] bir hesablamanın hər addımında (bir qayda olaraq ay, kvartal və ya il) real pul axınından yığılan saldonun müsbətliyini hesab etmək olar. Hesablamaların metodiki misalları ilə bu tezis 13 saylı cədvəldə göstərilmişdir. İS pulla satıla bilməsinin şərtlərinin qeydiyyatının analitik forması belədir.

$D_t = \beta_0 \text{ x } d_o x \ (1+r)^t + \beta_1 x d_1 x \ (1+r)^{t-1} + \ldots + \beta_{t-1} x d_{t-1} x (1+r) \ldots + \beta_t x d_t > O \ \forall_t$ üçün, (4)

Burada Dt – hesablamanın t addımında pul axınının yığılmış saldosu; d_t hesablamanın t addımında pul axının saldosu;

β_t – maliyyə bazarında əlavə gəlir əldə etmək üçün istifadə olunan, t addımında pul axınının saldosunun payı; r – vəsaitin maliyyə bazarında yerləşdirilməsindən gəlir stavkası.

Cədvəl 13

İnvestisiya layihəsinin pulla satıla bilməsinin müəyyən edilməsi

Real pul axının saldo göstəriciləri	Hesablama addımının nömrəsi				
	1	2	3	4	5
Real pul axınının saldo məbləği	0	0,8	-0,5	3,5	6
Real pul axının yığılan saldosu	0	0,8	0,3	3,8	9,8

Qeyd. Baxılan real pul axınlarını qenerirləşdirən İL pulla satılması tələblərinə cavab verir, nə qədər ki, üçüncü addımda saldo məbləğinin mənfi qiymətinə baxmayaraq real pul axının yığılan saldonun müsbət şərti hesablaşmanın hər addımında yerinə yetirilir.

[1]. İnvestisiya layihəsinin pulla satıla bilməsi hesablaşmanın hər addımında pul axınlarının elə strukturlarının təmin edilməsini nəzərdə tutur ki, onun baxılan layihəni davam etdirmək üçün kifayət qədər pulu olsun (Müəllifin qeydi).

Əgər hesablaşma dövründə pulla satıla bilməsinə imkan yoxdursa, onda hesablaşmanın bir və ya bir neçə addımında meydana gələn mənfi yığım saldosunun kompensasiyası üçün əlavə xarici mənbələri cəlb etmək tələb olunur.

Belə bir cəhətə fikir vermək lazımdır ki, hər cür mənalarda pulla satıla bilməyən layihələrin səmərəliliyinə dair hesablamalar aparılmır. Amma pulla satıla bilən layihələr onun iştirakçıları üçün səmərəsiz ola bilər. Yalnız buna görə layihənin pulla satılmasına tələbləri müəyyən etməklə onun səmərəliliyinin qiymətləndirilməsi metodlarına daha ətraflı baxmağa keçmək lazımdır.

İnvestisiya layihəsinin səmərəliliyi əsaslandırılarkən aşağıdakılar müəyyən edilir:

a) ictimai səmərəlilik, yəni xarici effektləri və ictimai nemətləri daxil etməklə layihənin həyata keçirilməsinin bütövlükdə cəmiyyət üçün sosial-iqtisadi nəticələri əks etdirən göstəricilər sistemi;

b) kommersiya səmərəliliyi, yəni, onun layihənin müəssisəsi təşəbbüskarına və (ya) xarici xüsusi investora satılmasının məqsədəuyğunluğunu xarakterizə edən göstəricilər sistemi; v) büdcə səmərəliliyi, yəni onun müxtəlif səviyyələrdə büdcələrə satılmasının məqsədəuyğunluğunu xarakterizə edən göstəricilər sistemi (layihə üzrə əsaslı vəsait qoyuluşunun maliyyələşdirilməsinə büdcə vəsaitlərindən istifadə edildiyi hallarda müəyyən edilir).[1]

Qeyd etmək lazımdır ki, İL-nin ictimai kommersiya və büdcə səmərəliliyini müəyyən etmək üçün vahid qiymət göstəriciləri sistemi tətbiq edilir, bunların arasında mühümləri xalis diskontlaşdırılmış gəlir, ödəmə müddəti, gəlirliliyin daxili norması və investisiyaların mənfəətlilik əmsalıdır.

[1].Müəssisələrin-təşəbbüskarların, kreditor bankının və dövlətin iştirakı ilə satılan investisiya layihəsinin kommersiya və büdçə səmərəliliyini müəyyən edərkən istifadə olunan pul axınlarının xarakteristikası ümumi şəkildə 14-cü cədvəldə verilmişdir (Müəllifin qeydi).

İnvestisiya layihəsinin səmərəliliyinin qiymətləndirməyin əsas göstəricisi xails diskonturlaşdırılmış gəlirdir (və ya başa düşdüyü beynəlxalq şərhində xalis müasir dəyər, NPV-net prezent value). Bu göstərici aşağıdakı düsturla hesablanır:

$$CDD = \sum_{t=1}^{Tp} (R_t - Z_t^1) \times a_t$$

Z_t – həmin intervalda həyata keçirilən pul ödənişləri.

Beləliklə, xalis diskonturlaşdırılmış pul ödənişlərinin müəyyən edilməsi metodikası hesablama vaxt dövr ərzində pul diskonturlaşdırmış saldonun məbləğinin məcmuudur. Diskontlaşdırılmış gəlir (CDD >0) müsbətdirsə, baxılan layihə iqtisadi cəhətdən səmərəli sayıla bilər. Eyni hesablama səviyyəli investisiya layihələrinin həyata keçirilməsi variantlarını müqayisə edərkən maksimum xalis diskonturlaşdırılmış gəlir (CDD max) meyarını əsas götürmək lazımdır.

Praktiki məsələlərin həlli üçün daha münasib və uyğunlaşmış CDD-nin müəyyən edilməsinin hesablanması düsturunun modifikasiyasıdır ki, o da diskontlaşdırılmış investisiyaların məbləğindən əsas kapitala (yəni, əsaslı vəsait qoyuluşu) ayırmasına əsaslanır:

$$CDD = \sum_{t=1}^{Tp} (R_t - Z_t^1) x a_t - K_o, \qquad (6)$$

Burada Z_t^1- hesablama dövrü intervalında əsaslı vəsait qoyuluşları müstəsna olmaqla ödənişlər; K_t – t intervalında əsaslı vəsait qoyuluşu; K_o– diskontlaşdırılmış əsaslı vəsait qoyuluşu.

Xalis diskontlaşdırılmış gəlirin müəyyən edilməsinə dair yuxarıda baxılan metodikanın yalnız müvafiq hesablamaların aparılması texnikasına görə yox, həm də onların ilkin əsaslandırılmalarına görə böyük əhəmiyyəti vardır. Məhz investisiya layihəsinin səmərəliliyinin əsas qiymətləndirmə göstəricilərinin müəyyən edilməsi mərhələsində müvafiq biznes-planın istehsal

planı, marketinq planı və maliyyə planı kimi planlara müvafiq başlıca bölmələrin qırılması vəhdəti öz əksini tapır.

İstehsal planının işlənib hazırlanmasında birdəfəlik və cari xərclərin obyektiv qiymətləndirilməsinə nail olmalı, layihənin maliyyələşdirilməsinin optimal strukturu seçilməli, marketinq planını hazırlayan zaman isə qiymətləri və məhsulların həcmləri əsaslandırılmalıdır. Heç bir ən təkmilləşmiş texnika hesablama dövrü ərzində xərclərin və nəticələrin proqnozlaşdırılmasının təkmilləşdirilmiş metodlarına əsaslanan İL-n səmərəliliyinin əsas qiymətləndirmə göstəricilərinin hesablamalarında lazımı ilkin informasiyaların hazırlanmasında buraxılmış səhv hesablamaları kompensasiya edə bilməz.

Xalis diskonturlaşdırılmış gəlir göstəricilərinə baxışları yekunlaşdıraraq qeyd edək ki, qiymətləndirmək məqsədilə investisiya layihəsinin (CDD>O) reallaşdırılmasının məqsədəuyğunluğunu qiymətləndirmək və investisiya qərarlarının variantlarının seçilməsi kimi imkanlardan istifadə edilməsi onun üstünlüyüdür. «Xalis diskontlaşdırılmış gəlir» göstəricilərinin çatışmazlıqlarına adətən onun layihənin mənfəətliliyini tam əks etdirə bilməsi və əsaslı vəsaitin ödənilməsi müddəti və ya avanslaşdırılan kapitala görə qaytarılma həcminin investisiya qərarlarının qəbul edilməsinə alışmış sahibkarların qavramasının mürəkkəbliyi daxildir. Buna görə də effektin həcmini xarakterizə edən göstəriciyə (yəni, əldə edilə bilən nəticənin mütləq həcmi) əlavə olaraq həmçinin layihənin reallaşdırılmasının səmərəliliyi göstəriciləri (yəni, nəticələrin ona nail olmaq üçün lazımlı dərəcədə nisbəti) tətbiq edilir.

Cədvəl 14

Pul mədaxili və layihə iştirakçılarının ödənişləri

	Layihənin iştirakçıları		
	Firma-layihənin təşəbbüskarı	Bank-kreditor	Dövlət
Mədaxil	-istehsal olunan məhsulun satışından gəlir; -artıq əmlakın satışından	- kreditə görə faizlərin alınması; -kreditin əsas məbləğinə	-layihə iştirakçılarından daxil olan vergilər; -ayihənin onların maliyyə vəziyyətinə mənfi təsiri ilə əlaqədar kənar müəssisələrdən

	gəlirlər; -sair daxilolmalar	ödəmələrin alınması	vergi ödənişlərinin artması; -dövlət kreditinin qaytarılması hesabına daxil olmalar (faizlər və əsas məbləğ); -layihəni həyata keçirmək üçün qiymətli kağızlar buraxılışından gəlirləri; -laüihədə nəzərdə tutulan işlərin yerinə yetirilməsinə görə hesablanmış əmək haqqından daxil olan gəlir vergisi; -layihədə nəzərdə tutulmuş işləri həyata keçirmək üçün müsabiqə və tenderlərin lisenziyalaşdırmaqdan gəlirlər
Ödənişlər	-layihənin reallaşdırılması və əlaqədar əsas və dövriyyə kapitala qoyuluşlar; -cari istehsal xərcləri və satış üzrə məsrəflər; -vergi və yığımlar	-kreditin verilməsi; -vergilərin ödənilməsi	-layihənin həyata keçirilməsi ilə əlaqədar cari və birdəfəlik büdcə ödəmələri; -xüsusi investorların günahı olmadan layihənin pozulması hallarında onlara dövlət təminatının ödənilməsi; -layihənin reallaşdırılması üçün resursların akumulyasiyası məqsədilə fond bazarında yerləşdirmə

Ödəmə müddəti investorun layihəyə qoyduqları vəsaitin onun reallaşdırılmasından əldə edilən gəlirlərlə qaytarılması üçün tələb olunan vaxt müddətidir. Onun həcminin bərabərsizliyinin ən aşağı kökü kimi müəyyən etmək olar:

$$\sum_{t=1}^{Tok} Kt : (1+E)b < \sum_{t=1}^{Tok} (Rt-Z_t^1):(1+E^t), \qquad (7)$$

Bərabərsizliyin sol tərəfində layihəni reallaşdırmaq üçün diskonturlaşdırılmış investisiyalar, sağda isə onun həyata keçirilməsi ilə əldə edilən gəlirlər ifadə olunur. Bərabərsizliyin sol və sağ tərəfləri o vaxta qədər toplanır ki, sağ tərəfdə diskonturlaşdırılmış gəlir diskonturlaşdırılmış investisiyaların məbləğindən çox olmasın. İqtisadi cəhətdən səmərəli layihələr üçün $T_{ok}<T_{nu}$, şərti yerinə yetirilməlidir, yəni, qoyulmuş kapitala müəyyən edilmiş hesablaşma dövründə ödənilməlidir.

Daxili gəlirlik norması (və ya daxili mənfəət norması) növbəti düsturun kökünə qədər hesablanır:[1]

$$\sum_{t=1}^{Tp} (Rt\text{-}Z^{l}_{t}):(1+E_{bn})^{t}=\sum_{t=1}^{Tp} K_{t}:(1+E_{bn})^{t}, \quad (8)$$

Burada E_{bn} – daxili mənfəət norması.

Əgər bu (8) dusturdan alınan daxili gəlirlik normasının kəmiyyəti investorun tələb etdiyi kapital qoyuluşuna minimum mümkün ola bilən gəlir normasından çox olarsa (yəni diskonturlaşdırma normasından), layihənin reallaşdırılması məqsədəuyğun hesab edilir.

İnvestisiyalar real pul axınları dinamikasının proqnozlaşdırılması hesabına dövrünün əvvəlinə həyata keçirildiyi halda, düstürün (8) həlli **imerasiya** metodundan (ardıcıl yaxınlaşdırma) istifadə etmək əsasında mümkündür. Buna görə daxili mənfəət norması mümkündür, lakin bununla belə investisiyaların səmərəliliyinin əsas göstəricisi deyildir.

Onun tətbiqinin əsası real və maliyyə investisiyalarının həyata keçirilməsinin məqsədəuyğunluğunun müqayisəsidir.

Daxili mənfəət normasının avanslaşdırılan kapital vahidinə görə ödəmənin həcmi kimi daimi suala cavab tapılandan sonra investora mənfi-psixoloji təsirini də yaddan çıxarmaq olmaz. İnvestisiya layihəsinin səmərəliliyini müəyyən edərkən nəticələrin sabitliyini qiymətləndirmək üçün daxili gəlirlilik normasından istifadə etmək mümkündür. E_{bn}-nı $E < E_{bn} < 1{,}1 \times E$ intervalına düşdüyü halda belə bir nəticə çıxarmaq olar ki, səmərəlilik üzrə layihənin «möhkəmlik ehtiyatı» cüzidir və investisiya risklərinin daha dəqiq qiymətləndirilməsinin zəruridir.

İndi də investisiya layihəsinin reallaşdırılmasının səmərəliliyinin çox yayılmış bir göstəricisinə, **investisiyaların gəlirliliyi indeksinə** (P I) baxaq, onu aşağıdakı düsturla hesablamaq olar.

---

2. Xalis diskontlaşdırılmış gəliri sıfır həçminə çevrilən diskontlaşma norması. O, layihənin reallaşdırılmasına qoyulmuş investisiyaların vahidinə düşən gəlirin həçmini əks etdirir.

$$PI=\sum_{t=1}^{Tp}(R_t-Z_t^t)xa_t/K_o \qquad (9)$$

İqtisadi çəhətdən səmərəli layihələr üçün

PI >1şərtinə əməl olunmaldır. Lakin inanmaq çətin deyildir ki, xalis diskonturlaşdırılmış gəlir müsbətdirsə (CDD >0), onda PI >1 şərtinə mütləq əməl olunacaqdır. Əksinə zərərli layihələrdə

CDD < 0, investisiyaların gəlirlik indeksi, vahiddən az olacaqdır. PI < 1. Bu mənada PI indeksi həmşə öz müstəqil əhəmiyyətini itirir və CDD-dən törəmə kimi baxıla bilər.

Qeyd etmək lazımdır ki, layihənin maliyyələşdirilməsinin başlanmasının məqsədəuyğunluğu haqqında qəti qərar qəbul etməzdən əvvəl, investor yalnız onun reallaşdırılmasının səmərəliliyinin baxılan metodika üzrə hesablanmış göstəriciləri ilə kifayətlənmir. Layihənin müəssisəsinin inkişafının ümumi strategiyaya uyğunluq dərəcəsi kimi amilin nəzərə alınması prinsipial əhəmiyyət kəsb edir. layihənin reallaşdırılmasının regional administrasiyası və əhalinin gözlərinin qarşısında müəssisəsinin əlverişli imicini formalaşmağa təsiri, habelə bazarın nəzarət olunan payının artırılması imkanları və s. az əhəmiyyət kəsb etmir.

İL səmərəliliyinin baxılan göstəricilərin müəyyən edilməsi metodikasının metallaşdırılması onun reallaşdırılmasına əsaslanan inflyasiyasının qeyri-müəyyənliyin və riskin hərtərəfli nəzərə alınması ilə əlaqədardır.

3. İnfilyasiya və risklərin nəzərə alınması

İnflyasiyanın investisiyaların səmərəliliyinə təsirinin nəzərə alınması probleminin daha ümumi şəkildə həlli, daxili inflyasiyanın nisbətlərinin dinamikasının təhlili və proqnozlaşdırılması və manatın dəyişilməsi kursu, istehlak qiymətlərinin orta səviyyəsinin dəyişilməsi, maliyyə bazarında faiz stavkalarının dinamikası, əsas fondların, istifadə olunan xammalın və komplektləşdirmə vasit-

lərinin qiymətlərinin dəyişilməsi, satış şərtinin, əməyin ödənilməsi, xərclərin dəyişməsi ilə əlaqədardır. Pul mədaxilləri və ödənişlərin dəyərcə qiymətləndərilməsinin korrektirovka etmək üçün inflyasiyanın nəzərə alınması aşağıdakı düstürla hesablanan korrektləşdirici əmsalların köməyi ilə həyata keçirilir.

$$H_t = (1+İ_1)\,(1+İ_2)\,\ldots\,(1+İ_m)\ldots\,(1+İ_t) \quad (10)$$

zəncirvari ümumi indeks

Burada i^1, i^2, i_m….i_t – birinci, ikinci və t hesablama addımlarına müvafiq olaraq baxılan pul mədaxiləri və ödənişlərinin növlərinə qiymətlərin infilyasiya korrektirovkası indeksləri.

Real pul axınlarının (inflyasiyanın orta templərində istifadə etməyə) konkret tərkib elementlərinin infilyasiya korrektirovkasına aksenti (diqqəti cəlb etmək) düsturda (10) şərti işarələrin şifrinin açılması təsadüfü deyildir. İş ondadır ki, proqonz qiymətlərinin bütün tərkib elementləri üçün orta və eyni xərc indekslərinin istiqamətləndirilməsi, onların arasında obyektiv mövcud fərdləri aradan qaldıracaq və layihənin reallaşdırılmasının əsaslandırılmasının keyfiyyətini aşağı salacaqdır. İstehsalın diversifikasiya olunması hallarında qeyd olunanlar tamamilə əldə olunan nəticələrə də aiddir.

İnvestisiya layihələrinin reallaşdırılmasının səmərəliliyini əsaslandıran zaman pul axınlarının cari, proqnozlaşdırılan (10 saylı düsturdan istifadə edilməklə hesablanan inflyasiya korrektirovkası əmsallarının köməyi ilə) və uzadılmış qiymətlərlə modelləşdirmək mümkündür. Cari qiymətlərin tətbiqi o halda məqsədəuyğundur ki, ondan çox və ya az doğru olan qiymət proqnozunun dinamikası açıq-açığına şübhəlidir. Proqnoz və uzadılmış qiymətlərə gəldikdə metodik tövsiyyələrdə layihənin maliyyələşdirilməsi sxemlərinin işlənib hazırlanmasında proqnoz qiymətlərdən istifadə edilməsi, səmərəliliyin inteqral göstəricilərinin hesablanmasında isə uzadılmış qiymətlərdən istifadə

etmək təklif olunur. Diversifikasiya proqnoz qiymətləri infilyasiyanın ümumi bariz indeksinə bölməklə təsbit olunmuş vaxt anının qiymət səviyyəsinə gətirmə metodudur.

Görünür, satlıq məhsulun qiymətləri ilə müqayisədə pul axınlarını təşkil edən xərc elementlərinin artım templəri investisiya layihəsinin əsaslandırılmasında nəzərə almağı tələb edən risk növlərindən biridir. İnvestisiya risklərinin başqa növləri də mövcuddur[1], onları iki meyara görə iriləşdirilmiş şəkildə təsnifləşdirmək olar:

1. İnvestisiya riskinin qiymətləndirilməsi nöqteyi nəzərdən[2].

Bu iqtisadi (regionun iqtisadi inkişafını meyllərini nəzərə alır), siyasi (siyasi sabitlik səviyyəsini nəzərə alır), sosial (sosial gərginliyi nəzərə alır), ekoloji (ətraf mühitin çirklənmə dərəcəsini nəzərə alır), kriminal (regionda cinayətkarlığın səviyyəsini nəzərə alır) riskdə ola bilər.

2. İmkan daxilində diversifikasiya. Burada iki variant vardır. Əvvəla, diverisifikasiyalaşdırılan riskləri fərqləndirmək lazımdır. İşgüzar risk belələrindənbir. Layihənin təşəbbüskarının firmasının fəaliyyəti ilə əlaqədardır və onun məhsuluna tələbin dəyişilməsindən, istehsal xərclərinin dinamikasından, istifadə etdikləri avadanlığın fiziki və mənəvi köhnəlməsindən asılıdır. Hər hansı aktivin bazar qiyməti ilə reallaşdırmaq mümkün olmadığı hallarda borc verən **satılma** riski istisna edilmir. Nəhayət, real risk olan borcların **qaytarılması da** mövcuddur. Diversifikasiya risklərin əsas xüsusiyyəti onunla əlaqədardır ki, onları bir qayda olaraq investorların özləri tərəfindən sığortalana və ya minimumlaşdıra bilər. Məsələn, bir borc alanın borcunun qaytarılması riski başqa yüksək

[1]. İnvestisiya riski – investisiya layihəsinin reallaşdırılması prosesində iştirakçıların maliyyə itkiləri ehtimalıdır. (Müəllifin qeydi).

[1]. Рейтинг инвестиционной привлекательности регионов России за 2000-2001 годы II Эксперт. 2001. №4.

səviyyədə etibarlı borclular kompensasiya edə bilər (daha doğrusu diversifikasiya edilməsidir). Eyni qaydada satılma riskinin azaldılması zərurəti aktivlərin diversifikasiyasının məqsədəuyğunluğunu nəzərdə tutur, burada hər hansı bir aktivin satılmasında yaranan itkiləri başqa aktivlərin satışından gəlirlərin yüksək səviyyəsi hesabına örtmək mümkün olsun.

İkincisi, diversifikasiyalaşdırılmayan risklərə də rast gəlinir. Bununla, məsələn bazar riski fərqlənir. O, bütövlükdə fond bazarında kursların çox enib-qalxması səbəbdən müəssisələrin səhmlərinin dəyərinin dəyişilməsi ilə əlaqədardır. Faiz riski ona oxşardır. O vəkalətli dövlət hakimiyyəti orqanlarının pul-kredit siyasəti ilə əlaqədar faiz stavkalarında dəyişilklklərə əsaslanır. Bu risklər, hansı ki, tez-tez həmcinin də sistematik adlandırırlar investisiya müəssisələrindən-resipientdən (köçürülən adamın) asılı olmayan səbəblərdən meydana gəlir. Məhz bu növ risklərə investor bir qayda olaraq öz gəlirliliyini artırmaq yolu ilə əlavə kompensasiya tələb edir. Diversifikasiyalaşdırılmayan riskə misal olaraq Rusiya Federasiyası Hökumətinin 1998-ci ilin avqustunda qısamüddətli dövlət istiqrazlarının defoltu göstərmək olar.

İnvestisiyaların səmərəliliyini qiymətləndirmək nöqteyi nəzərdən **kəmiyyətcə hesaba alma və minimumlaşdırma** metodları xüsusi maraq oyadır. Belə hesablamalara aid aşağıda baxılan metodlar konkret investisiya layihəsinə aid olan risklərin dinamikası üzrə ilkin tədqiqatların aparılmasını nəzərdə tutur. Bununla belə dioqnostikanın keyfiyyəti nə qədər yüksək olarsa, bütün digər bərabər şərtlərdə risklərin nəzərə alınmasının və onların investisiya layihəsinin həyata keçirilməsinin məqsədəuyğun olmasına dair qərar qəbul edilməsinə təsirinin qiymətləndirilməsinin nəticələri də bir o qədər çox dürüst olar. Risklərin nəzərə alınmasının əsas metodlarına aşağıdakıları daxil etmək olar.

1. Ekspert qiymətləndirmə metodu. Onun mahiyyəti qabaqcadan seçilmiş ekspertlərin müxtəlif riskləri müqayisəli ballarla müəyyən etməkdən ibarətdir. Nə qədər ki, müqayisə olunan riskləri öz aralarında qeyribərabər qiymətlidir, onda

layihəni işləyənlər bir qayda olaraq ekspertlərdən asılı olmayaraq hər bir riskin əhəmiyyətinin çəki əmsallarını müəyyən edirlər. Belə hesablamaların yekunu layihənin reallaşdırılması variantının orta hesabla inteqral bal qiymətidir və bu düstürla hesablanır:

$$B=o_1xa_1xa_2+\ldots+o_cxa_c, \quad (11)$$

Burada, o_c, a_c – növündə sahə riskin ekspert hal qiyməti və onun əhəmiyyətinin çəki əmsalı; baxılan variant üzrə layihənin reallaşdırılması riskinin səviyyəsi haqqında konkret ekspertin rəyini xarakterizə edən orta bal.

Beləliklə, əldə edilən nəticələr etibarlı statistik informasiyalara söykənmədiyi üçün kifayət qədər subyektivdir. Onlar ekspertlərin seçilməsində istifadə olunan metodikadan, onların təklif etdikləri bal qiymətlərinin dəqiqliyindən və risklərin əhəmiyyətinin azaldılması qaydasında onları ardıcıl düzmə metodikasından xeyli asılıdır.

2. **Riskə görə mükafatın artırılması** metodu. O, diskonturlaşdırma normasının artırılması ilə bərabər gücə malikdir və mümkün riski nəzərə almaqla investorun qoyduğu vəsaitin səmərəliliyinə ağırlaşdırıcı tələblər qoyur. Bu cür yanaşma həmcinin «investisiyalaşdırmanın qızıl qaydaları»nın məntiqi nəticəsi kimi baxıla bilər, buna müvafiq olaraq investisiyaların daha yüksək riski daha yüksək səviyyədə gəlirli qoyuluşlar kompensasiya etməlidir. Praktiki məqsədlər üçün baxılan riskə görə mükafatı müəyyən edərkən investorlar tez-tez hökumətin 22.11.1997-ci il tarixli 1470№-li Qərarına istinad edirlər, buna müvafiq olaraq tətbiq olunan düzəlişlərin miqdarı 15№-li cədvəldə verilmişdir.[1]

1. RF Hökumətinin 22 noyabr 1997-çi il 1470№li tarixli «Rusiya Federasiyasının inkişafı büdçəsi vəsaiti hesabına müsabiqə əsaslarla dövlət zəmanətinin verilməsi Qaydasının və müsabiqə əsasında Rusiya Federasiyasının inkişafı büdçəsinin mərkəzləşdirilmiş investisiya resurslarının yerləşdirilməsində investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə dair Əsasnamə»nin təsdiqi haqqında qərarı (RF Qanunveriçilik külliyyatı. 1998 №3. Müəllifin qeydi).

Cədvəl №15

Layihədə nəzərdə tutulmuş gəlirlərin əldə edilməsi riskinə görə mükafatlar

Riskin həcmi	Layihə məqsədlərinə nümunə	Riskə görə mükafat, %
Aşağı	Mənimsənilmiş texnika əsasında istehsalın inkişafına qoyuluşlar	3-5
Orta	Mövcud məhsulun satış həcminin artması	8-10
Yüksək	Yeni məhsul istehsalı və bazara yeridilməsi	13-15
Daha yüksək	İnnovasiya qoyuluşları	18-20

Qeyd: Rəqəmlər şərtidir.

3. **Həssaslığın təhlili metodu.** Onun məzmunu giriş parametrlərin cüzi dəyişilməsinin təsiri altında (məsələn, ödənişli tələbin həcmi, komplektləşdirilənlərin qiymətləri, əməyin ödənilməsi səviyyəsi, investisiyanın templəri və s.) əsas qiymətləndirici göstəricilərin dəyişkənliyinin qiymətləndirilməsindən (4DD ödəmə müddəti, daxili mənfəət norması) ibarətdir[1].

Nəticədə risklərin idarə edilməsi metodlarının N.V.Xovlovun[2] dərs vəsaitində təklif etdiyi metodların bir sıra əlavələr edilməklə təsnifatını veririk (bax. 10 saylı sxem).

[1]. Məqsədli həçm metodun mahiyyəti müxtəlif giriş parametrlərin dəyişilməsinə qiymət qoyan əsas göstəriçilərin elastikliyinin müəyyən edilməsi ilə əlaqədardır (məsələn, satış qiymətləri 1,0% aşağı düşdükdə inteqral effekt nejə faiz azalaçaqdır). Maksimum elastikli parametrlər sonradan jox dərindən təhlil etmək və risklərin minimumlaşdırılması məqsədilə tədbirlər sistemini sejmək məqsədilə sejilir (müəllifin qeydi).

[2]. Хохлов Н.В. Управление риском. М: ЮНИТИ, 1999.



Riskin çıxarılması	Maliyyələşdirməsiz	Qoyuluşların diversifikasiyası	Sığortalama
Əmələ gəlmə ehtimalının azalması	Özünüqoruma	Satış bazarının diversifikasiyası	Maliyyə təminatının alınması
Riskin əmələ gəlməsindən zərərin azalması	Xarici mənbələrin cəlb edilməsi	Tədarükçülərin diversifikasiyası	Sair metodlar (müqavilə, hüquqi və s.)

Sxem 10. Risklərin idarəedilməsi metodlarının iriləşdirilmiş təsnifatı.

Bütövlükdə qeyd etmək olar ki, həm inflyasiya prosesləri, həm də risk amilləri investisiya layihələrinin səmərələliyinin qiymətləndirilməsinin nəticələrinə əsaslı təsir göstərir. Bu fəsildə baxılmış amillərin nəzərə alınması metodları əlverişsiz investisiya mühiti ilə xarakterizə olunan rusiya şəraiti üçün xüsusi aktuallıq tələb edir.

4. İnvestisiya layihələrinin reallaşdırılmasının kontrollinqi

Mürəkkəb investisiya layihələrinin məqsədlər sisteminə nail olmaq imkanı və arzulanan səmərəni əldə etmək yalnız onların xarakteristikalarının dərindən təhlilindən, maliyyə reallaşdırılmasının qiymətləndirilməsindən, risklərin müfəssəl nəzərə alınmasından və s. asılı deyildir. Qiymətləndirməsi və sonradan reallaşdırılmasının mühüm tərkib elementlərindən biri onlardan istifadə edilməsinin səmərəli sistemidir.

Layihənin və ya müəssisənin xarici təsirlərə qarşı iqtisadi möhkəmliyini təmin etmək rəhbərlik xarici mühitdə həm müsbət, həm də mənfi əlamətlərini vaxtında duymalı və riskdən vaxtında qaçmalı və onun nəticələrini məhdudlaşdırmaq üçün fəaliyyətini operativ uyğunlaşdıra bilməlidir. Dəyişilən konyukturalar hadisələrə uyğunlaşmağı və qabaqlamağı bacarmağa tez reaksiya verməyi tələb edir. Bunun üçün birləşmiş informasiya sistemi lazımdır, hansı ki, operativ məlumatların təhlili əsasında ətraf mühitdə hadisələrin dəyişilməsi və inkişafını məlumatlandıran və ya proqnozlaşdıran informasiyalar versin. Bu sistem həmcinin planlaşdırılan tədbirlərin layihənin və ya müəssisənin vəziyyətinə təsirinin ehtimal olunan nəticələrini savadlı proeksiyalaşdırmalı və həyata keçirilən tədbirlərin nəticəliliyinə nəzarət etməlidir.

Bundan əlavə layihənin və ya müəssisənin ayrı-ayrı funksional elementlərini (misal olaraq, maliyyə, istehsal, innovasiya, satış və başqa funksiyaları) və onların fəaliyyətini uyğunlaşdırma qabiliyyətinin vahid bir sistemdə birləşdirməyi təmin etmək lazımdır. Bu vəzifələrin hamısının həllini yalnız təşkilat strukturunu onun ierarxiyasını təmin etmək mümkün deyildir. İdarəetmənin xüsusi altı sistemi lazımdır ki, o, uyğunlaşdırma və inkişaf qabiliyyətləri sayəsində əlaqələndirmə qabiliyyəti təmin edir. Xüsusi alt idarəetmə sistemi lazımdır ki, o öz uyğunlaşdırma və inkişaf bacarığı ilə zəruri əlaqələndirməni

təmin edə bilsin. İdarəetmə funksiyalarını yerinə yetirmək üçün məqsədli istiqamətlərini, məqsədə çatmaq dərəcəsini göstərən nəzarət standartları idarəetməyə uyğun gələn müasir məlumat geriyə sürətli dəqiq rabitə, nəzarət məlumatı və kənarlaşma məlumatı olmalıdır. İdarəetməyə kömək edən öz yüksək səmərəliliyini isbat etmiş qabiliyyətli çoxplanlı belə strukturlar xaricdə sürətlə inkişaf etdirilən kontrollinq konsepsiyasında vardır.

Qərb iqtisadi təcrübəsində maliyyə və icraçı direktorun bir sıra funksiyalarının təşkilatı cəhətdən rəsmiləşdirilmiş (qanuniləşdirilmiş) kontrollinq xidmətinin tabeçiliyinə verilməsi daha çox yayılmağa başlamışdır. İndi nəzarətçilərin vəzifəsi daha çox planlaşdırma, nəzarət və menecmentə iqtisadi məsləhət vermək məsələləri ilə əlaqələndirilir. Kontrollinq sistem mövqeyindən müəssisəni və ya layihəni idarə edən alt sistem kimi müəyyən etmək olar, hansı ki, idarəetmənin bütün ierarxiya səviyyələrində menecmentin məqsədli vəzifələrinin yerinə yetirilməsinə söykənir.

Kontrollinqin vəzifələri daha səmərəli qərarlar qəbul etmək və layihənin və ya müəssisənin məqsədlərinə nail olmaq üçün lazım olan hərəkət və daha səmərəli qərarlar qəbul etmək üçün rəhbərliyi istiqamətləndirən lazımlı idarəetmə məlumatlarını hazırlamaq və ona çatdırmaqdan ibarətdir. Kontrollinqin əsas funksiyası müəssisə rəhbərliyinə operativ yardım etmək, köməklik göstərməkdən ibarətdir. Kontrollinqin məqsədi müəssisənin reallaşdırdığı investisiya layihəsinin məqsədlərindən törəmədir. Kontrollinqin bazasını istehsal və maliyyə hesablarının göstəriciləri təşkil edir. Kontrollinqin məqsədlər sistemi aşağıdakı elementləri birləşdirir.

1) Hadisələrin qabaqcadan bilmə (antisipasiya) və uyğunlaşma qabiliyyətini təmin etmək, yəni, fəaliyyət mühiti şəraitinə uyğunlaşdırmaq üzrə fəaliyyətə ilkin şərtlər yaratmaq. Kontrollinq həm ətraf mühitdə baş vermiş dəyişikliklər (tez uyğunlaşmaq üçün), həm də gələcəkdə baş verə bilən dəyişikliklərə (uyğunlaşmaya qabiliyyəti inkişaf etdirmək üçün) dair məlumatlar verir.

2) Vaxtında reaksiyalara zəmanət. Kontrollinq informasiya və nəzarət sistemini yaradır, hansıki, hadisələrin planlaşdırılan və həqiqi inkişafı arasındakı nisbətləri daimi qərar qəbul edən şəxslərə göstərir, daxili və xarici maneələri və dəyişiklikləri nəzərə almaqla mümkün olan düzəlişləri aparmağı mümkün edir.

3) Menecmenti saxlamaq. O birinci növbədə rəhbər heyəti aktual idarəetmə xəbərləri ilə məlumatlandırmağı (idarəetmə hesablarının nəticələrinə əsasən), habelə onun təşkilati-iqtisadi məsləhət verməyi nəzərdə tutur (cari monitorinqin nəticələrinə və vəzifələrinə).

4) Əlaqələndirməni və uyğunlaşdırmanı təmin etmək. Layihənin və ya müəssisənin ayrı-ayrı alt sistemlərinin fəaliyyətini əlaqələndirmək üçün ilkin şərtləri yaratmaq yolu ilə uzlaşdırılmaya nail olur (planlar, büdcələr, indikatorlar, sisteminin işlənib hazırlanması). İdarəetmə prosesinin uyğunlaşdırılması birbaşa və geriyə əlaqələri təkmilləşdirməklə həyata keçirilir. Belə ki, idarəetmə hesabı sistemində aktual məlumatların hazırlanması məlumatı «yuxarı» göndərir, zəruri dəyişikliklərin layihələri isə idarəetmə hesabının məlumatlarının təhlilinə görə «aşağı» daxil olur.

5) Məqsədlərin qoyuluşu xərclərin smetası kimi elə adətlərdən istifadəni nəzərdə tutur ki, onsuz layihədə kəmiyyət istiqamətlərini bir mənalı və ünvanlı vermək mümkün deyildir.

Məqsədləri irəli sürərkən çox vaxt dövriyyənin artması, bazarın payının çoxalması, kapitalın rentabelliyinin müəyyən səviyyəyə çatması, investisiyaların qaytarılması və başqa göstəricilərdən istifadə olunur. Planlaşdırmanın vəzifələrinə həmcinin nəzərdə tutulmuş məqsədlərə nail olma yollarının axtarılması da daxildir. Onlar funksional planlarda əks olunur. Planların hər biri (tədarüklər, dövriyyə, istehsal, satış, mənfəət, reklam, ETKİT üzrə və başqa) onun ümumi məqsədli göstəricilərinə uyğunluğu və başqa planlarla birləşə bilməsindən asılı olaraq qəbul edilir. Fuksional planların və ya onların birləşə bilməsinin, yuğunlaşdırılmasından asılı olaraq ümumi məqsədli göstəricilərdə dəyişikliklər aparmaq tələbi meydana gələ bilər. Planlar qəbul edildikdən sonra müvafiq struktur bölmələri

üçün fərdi büdcələr işlənib hazırlanır. Sonra planlaşdırma sistemi vasitəsilə layihənin və ya müəssisənin məqsədləri konkret funksiyalar üçün uyğunlaşdırılmış şəkildə onları bölmələrə və yarı-ayrı icraçılara çatdırılır. Nəzarətcilərin funksiyaları elə bir hala gətirilir ki, onların hər birinin öz məqsədi olsun, onlar da büdcələr sistemi vasitəsilə ümumi məqsədə uyğunlaşdırılır.

Layihənin və ya müəssisənin ümumi məqsədli göstərişlər müəyyən edilmiş illik göstərici ilə məhdudlaşa bilməz. Belə kəmiyyət məlumatı bu göstəriciyə necə nail olmağa dair heç bir şey demir (məsələn mənfəətin artımı). Kontrollinqin təşkil etdiyi idaretmə hesabı müvafiq olaraq məhz olınan rəqəm məlumatlarına əsasən qarşıya qoyulan məqsədlərə çatmağa dair tədbirlər proqramını hazırlamaq mümkün olsun. Firmadaxili planlaşdırma prosesində büdcələrin layihələri, onların yaxınaşdırılması imkanlarını axtarmaq üçün, həmçinin də faktiki göstəricilərin planlaşdırılanlardan kənarlaşmasına təsir edən mexanizmi işləyib hazırlamaq üçün onlar təhlil edilməlidir.

Kontrollinqin alt sistemi planlaşdırma və tənzimləmə sisteminin işini təmin edir. Bu nəzərdə tutur ki, kontrollinqin funksiyalarına müəssisələrdə nəticəlik meyarı kimi istifadə edən mənfəət mərkəzlərinin struktur vahidlərinin ayrılması da daxil olur.

Qarşıya qoyulan məsədlərə çatmaq üçün tədbirlər proqramını hazırlayan nəzarətçilər bir sıra mühüm məsələləri həll edirlər. Onlar dövriyyələr, xərclər və mənfəət arasında qarşılıqlı əlaqələri planlaşdırırlar (gələcək mənfəətə daha səmərəli təsirləri üzə çıxarmaq üçün). Nəzarətcilər son xərcləri kalkulyasiya edir, yəni funksional – dəyər təhlili (FDT) çərçivəsində əlavə məhsul vahidinə xərclərin strukturunu müəyyən edir. Burada məqsəd son xərcləri azaltmaq və ya onların artımını məhdudlaşdırma yollarını axtarmaqdan ibarətdir. Kontrollinq təcrübəsində xərclər üç yarım qpura bölünür: son və daimi, birbaşa və dolayı, tənzimlənən və tənzimlənməyən. Nəzarətçilərin vəzifəsi sonradan «zərərsizlik nöqtəsi» qrafikinin köməyi ilə mənfəət üzrə məqsədli tapşırıqları təhlil etmək, həmcinin də

investisiyalaşdırılmış kapitalın rentabelliyini və pul axınlarını izləməkdən ibarətdir. Mənfəətin strukturunun planlaşdırılması xüsusi diqqət obyektidir.

Kontrollinqin həyata keçirdiyi fəaliyyətin planlaşdırılması sistemində starteji, dispozitiv, operativ planlar fərqləndirilir. Planlaşdırmanın məlumat bazasını müxtəlif proqnozların və təhlillərin nəticələri təşkil edir (kəmiyyət və keyfiyyət). **Strateji planlaşdırma** nə etmək lazımdır sualına cavab verir. Belə planlaşdırma tez-tez inkişafın planlaşdırılması adlanır. **Dispozitiv planlaşdırma** kənarlaşmaya necə yanaşmalıdır probemini həll edir. **Operativ planlaşdırma** bunu necə etməyini izah edir. Bundan əlavə operativ planlaşdırmaya plan hesablamaları və büdcə sistemlərinin formalaşması, bəzən də necə deyərlər «büdcələşdirmə sistemi» aiddir. Habelə plan və faktiki miqdarları müqayisə etmək şəklində ayrı-ayrı funksional bölmələrin özünənəzarət üçün baza olan göstəricilər işlənib hazırlanır. Planlaşdırma sistemi yuxarı səviyyədə xüsusi məqsədləri ümumi məqsədlərlə əlaqələndirməyi təmin etməlidir.

Plan hesablamalırının əsas tərkib elementlərindən biri idarəetmə mənfəətinin hesablanması sistemidir, hansı ki, üç bölmədən ibarətdir: satışdan mənfəətin hesablanması, kənarlaşmaların təhlili və «uyğunlaşdırma körpücüyü». Satışdan mənfəətin hesablanması dövriyyəyə dair yüklənmiş məhsul üzrə göstəricilərə, dəyişən xərclərə və hər məhsul üzrə ödəmə məbləğlərinə əsaslanır.

Büdcələrdən kənarlaşmaların və fəaliyyət normativlərinin təhlili (məsələn, mədaxillər, əmələgəlmə yerləri üzrə xərclər və materialların miqdarı və başqaları üzrə) planlaşdırılmış göstərici ilə müqayisədə xərc məbləğini ödəmək üçün tələbatların artırılması və azaldılmasını aşkara cıxarır. Kənarlaşma tələb olunan tədbirləri qiymətləndirmək üçün funksional bölmələr üzrə qruplaşdırılır (dispozitiv planlaşdırma). Kənarlaşmanın hər bir kəmiyyəti plan və faktiki kəmiyyətlərin müqayisəsindən alınır ki, bu da hər bir kənarlaşmanı işləməyin və ona müvafiq səbəbləri eyniləşdirməyə imkan verir.

«Uyğunlaşdırma körpüsü»[1] idarəetmə mənfəətinin hesablanması bölməsi kimi kontrollinq hesablamaları sistemi ilə mühasaibat uçotu arasında uyğunluğunu və kənarlaşma müəyyən edilir. Məsələn, idarəetmə mənfətinə nisbətən daimi xərclər, dövr üzrə xərclər kimi ifadə olunur. Balans hesablamalarında isə bir dövrün daimi xərcləri sonrakı dövrə keçirilir. Bununla belə, əgər istehsal satışdan çoxdursa (etiyatlar artır), onda balans mənfəəti idaretmə mənfəətindən daha çox realdır. Satışda çoxlu mövsimi geriləmə olduqda eyni dövrdə balans hesablamaları mənfəəti; idarəetmə hesabı isə zərər göstərəcəyi hallar mümkündür. Təbii ki, real vəziyyətin mahiyyətini bilməklə məsələn, satışın mövsimi azalmasını kompensasiya etməyi bacaran diversifikasiya fəaliyyətini stimullaşdırıla bilər. Bu onu göstərir ki, nəzarətçilər iqtisadi proseslərin təbiətinə uyğun gələn hesabatları formalaşdırır, bu da baş verən hadisələri daha obyektiv qiymətləndirməyə və yaxşılaşdırılmasını planlaşdırmağa imkan verir.

Bütövlükdə konfrollinqin tətbiqi investisiya layihələrinin reallaşdırılmasının səmərəlililiyini yüksəltməyin mühüm vasitəsidir.

Suallar və tapşırıqlar:

1. Layihələr üzrə investisiyaların həcmini onların satışından əldə edilən mənfəətin artımına bölmək yolu ilə əldə edilən investisiyaların ödənilməsi müddəti göstəricisidir ifadəsinin təsdiqi düzdürmü?
2. Çoxlu variantlardan düzgün cavabların variantlarını seçin.
   a) investisiya layihəsinin maliyyə reallaşdırılması şərtidir.
   - onun reallaşdırılması anında kifayət qədər pul vəsaitinin olması;
   - layihənin bütün reallaşdırma dövrü ərzində pul axınının müsbət saldo yığımının təmin edilməsi imkanları;
   - layihə üzrə diskontlaşdırılmış xalis gəlirin müsbətliyi.

[1] Дойле А. Практика контроллинга /Пер. с нем/ Под ред. и с предисл. М.Л.Лукашевича, Е.Н.Тихонековой. М: Финансы и статистика, 2001.

b) investisiya layihəsinin reallaşdırma riskinin artması ilə əlaqədar diskontlaşma norması.

- azalır;
- dəyişilmir;
- artır.

3. Depozit qoyuluşu üzrə illik faiz stavkası 20%, inflyasiyanın gözlənilən tempi 22%-ə çatırsa bir il müddətinə manatlıq depozitə pul vəsaiti yerləşdirilməsindən real gəlirliliyi hesablayın.
4. Əmanətçiyə vəsaiti depozitdə yerləşdirmək üçün iki variant təklif edilmişdir:

a) ilin sonunda illik 30% stavka ilə faizləri hesablamaqla;
b) illik stavkası 29,2% olmaqla hər kvartalda faizlə hesablamaqla.

Bu variantlardan hansı əlverişlidir?

5. Sahibkar öz vəsaiti hesabına avadanlıq almağın iki variantına baxır. Bu variantların hər birində layihənin reallaşdırılması müddəti investisiyadan əvvəl və investisiya mərhələlərində bir il təşkil edir, tələb olunan investisiyanın həcmi isə müvafiq olaraq 3 mln. rubl və 4 mln. manat təşkil edir. Variantların hər biri üzrə avadanlıqların istismarının hesablanmış müddəti 5 il pul axınının müsbət saldosu, müvafiq olaraq ildə 1 mln. rubl və 1,3 mln.rubldur. Diskonturlaşdırma normativi ildə 20%-ə bərabərdir. Müqayisə olunan variantlardan hansı daha əlverişlidir?

© Марголин А.М., 2002
© Сетенов С.А., 2002

XX Fəsil

İQTİSADİYYATIN KADR RESURSU VƏ ƏHALİNİN MƏŞĞULLUĞU

1. Bazar şəraitində kadrların formalaşması və fəaliyyəti

İqdisadiyyatda kadrların rolunu qiymətləndirmək çox çətindir. Ölkəmizin iqtisad elmində həmişə belə bir fikir qeyd olunmuşdur ki, zəhmətkeş işçi məhsuldar qüvvələrin əsasıdır. İlk beşilliklərin məşhur şüarı da var idi: «Kadrlar hər şeyi həll edir!». İxtisaslı kadr olmadan heç bir müəssisə öz məqsədlərinə nail ola bilməz. Aydındır ki, kadrlar – ilk növbədə təhsili və professional hazırlığı, istehsalat təcrübəsi və praktiki səriştəsi olan iş qüvvəsi, başqa sözlə işçilərin ixtisaslı hissəsidir. Müəssisələrin kadrları – əməyə müsbət münasibətlə dəqiq yönəlmiş insanlardır. Başqa sözlə «müəssisənin kadrları» anlayışı müəssisənin «işçi qüvvəsi» anlayışından dardır. Bura əmək kollektivinin tərkibinə təsadüfi və ya məcburi (məhkəmənin qərarı və s) düşən iş qüvvəsi daxil deyil. Bazar münasibətləri şəraitində iqtisadiyyatın, müəssisələrin rəqabət qabiliyyətliliyi ilk növbədə kadrlarala, onların maraqlandırılması dərəcəsi ilə, kadr potensialının səmərəli istifadə olunmasını təmin edən əməyin təşkili formaları ilə müəyyənləşir.

XX əsrin son 30 ilində xarici kompaniyalar «insan resurslarına» öz münasibətlərini köklü surətdə dəyişmişlər. Onda iqtisadi uğurun əsas amilini görürdülər.

İnsanlara qoyulan vəsaitlərə təkcə məcburi vəsait, istehsal xərcləri kimi deyil, ilk növbədə təşkilin inkişafına, iqtisadi müəvəffəqiyyətlərə nail olmağa vəsait qoyuluşu kimi baxılmağa başlandı.

Kadrların formalaşması işçi qüvvəsinin təkrar istehsalı prosesinə əsaslanır. Təbii-tarixi səbəblərdən işçi qüvvəsinin (həm də kadrların) formalaşması prosesi onun təkrar istehsalının ilkin və müəyyənedici fazası kimi çıxış edir. O, fəaliyyətdə olan işçilərin əmək qabiliyyətinin saxlanılması və bərpasını, əhalinin təbii artımı hesabına istehsala yeni zəhmətkeşlərin qatılmasını daxil edir. Zəhmətkeşlərin ümumtəhsil və ixtisas hazırlığı (hüquqi, iqtisadi, psixoloji və ekoloji daxil olmaqla), ixtisas və sosial-mədəni səviyyəsinin yüksəldilməsi xüsusi yer tutur. Kadr potensialının normal təkrar istehsalı maddi və mənəvi dəyərlərin istehlakının elə səviyyəsini tələb edir ki, hansılar əməkdə sərf olunan enerjinin bərpasını, müasir həyatın tələblərinə, elmi-texniki tərəqqiyə, əmək bazarında rəqabətliliyə uyğun qabiliyyətlərinin gələcək inkişafını təmin edir.

Rusiyada bazarın yaranmasının birinci mərhələsində, hansında ki, dövlətin sosial əmək münasibətlərinin tənzimlənməsində iştirakı minimuma enmişdir, iş qüvvəsinin təkrar istehsalı üçün şərait xeyli pisləşmişdir. 90-cı illərdə məşğul olanların böyük hissəsinin real əmək haqqı (işsilərin təkrar istehsalının əsas mənbəyi) islahatdan əvvəlki dövr ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.

İşləyənlərin üçdə biri ayrı-ayrı illlərdə isə daha artıq hissəsi yaşayış minimumundan aşağı gəlir qazanırdı. Bu isə əmək qabiliyyətinin normal bərpasına, xüsusilə peşə-ixtisas səviyyəsinin yüksəldilməsinin təmin olunmasına imkan yaratmırdı (hal-hazırda da xeyli dərəcədə imkan vermir) .

İstehlak nemətlərinin (bir çox işçi təbəqələri üçün əlçatmaz qiymətlə reallaşdırılan, mağaza və bazarlarda ərzaq və sənaye məhsullarının bolluğuna baxmayaraq) həcminin (keyfiyyətinin) azalması, alkoqolizmin, narkomaniyanın, tuber-

kulyoza tutulmasının və digər təhlükəli xəstəliklərin miqyasının artması ilə yanaşı səhiyyədə vəziyyətin pisləşməsi əhalinin sağlamlağının zəifləməsi və ölümünün artması, xüsusilə əmək qabiliyyətli yaşda işçilərin arasında ölüm hallarının artmasına gətirib çıxarmışdı. 35-39, 40-44. 45-59 yaş qruplarında 1,5-2 dəfə artım baş vermişdir.

Bir çox dövlət müəssisələri 90-cı illərdə öz fəaliyyətlərinin perspektivlərini itirərək, kadr hazırlığını, işçilərin ixtisasının artmasını dayandırmışlar. Bu məsələ ilə yaranan xüsusi müəssisələrdə marağın olmaması və ya maliyyə vəsaitlərinin çatışmazlığı ucbatından məşğul olmurlar. 90-cı illərin birinci yarısından dövlət təhsil müəssisələri, xüsusilə orta ixtisas və ibtidai peşə-texniki tədris müəssisələri öz fəaliyyətlərin xeyli ixtisar etmişlər.

Yüksək ixtisaslı kadrlar, elmdən, sənayedən, xüsusilə maşınqayırmadan ticarət vasitəçilik sferasına getmişlər, o iş yerlərinə ki, hansılar onların ixtisaslarına cavab vermir, mürəkkəb deyil, lakin yüksək ödənişlidir. Yüksək ixtisaslı kadrların böyük sayı xaricə köçmüşdür. («beyin axını»)

Nəticədə, bir çox, xüsusilə ETT-ni müəyyən edən sahələrdə kadr heyəti keyfiyyət və kəmiyyət baxımından böyük itkilərə uğramışdır. Belə ki, 1999-2000-ci illərdə iqtisadiyyatda məşğul olanların sayı 1991-ci ilə nisbətən təqribən 9 milyon nəfər və ya 12% ixtisar olunmuşdur. ETT-ni təmin edən maşınqayırma, elm və elmi xidmət sahələrində ixtisaslı kadrlar 2 dəfə azalmışdır. Bu rəqəmlər iqtisadiyyatda kadr potensialından istifadənin pisləşdiyini göstərir. Bundan başqa 2-4 mln.-dək adam daim inzibati məzuniyyətdə olur və ya tam olmayan iş günündə məşğuldur ki, bu da kadrlardan istifadənin pisləşməsindən xəbər verir.

Beləliklə, XX əsrin son onilliyi, Rusiyanan iqtisadiyyatında bazar münasibətlərinin kortəbii formalaşması dövrü, bütövlükdə iş qüvvəsinin keyfiyyət və kəmiyyət tərkibinin aşağı düşməsi, kadr potensialının keyfiyyətinin pisləşməsilə səciyyələndi.

Rusiya Federasiyası Hökumətinin iqtisadi artım, əhalinin rifah halının yüksəldilməsi problemlərinin bazar mexanizminin gücü və fəaliyyəti hesabına həll olunması arzusu özünü doğrultmadı.

Buna görə də islahatçıların və əhalinin niyyəti nə üçün doğrulmadı? sualına elmi cavab tələb olunur. Əmək bazarının və dövlətin rəqabət qabiliyyətli kadrların təkrar istehsalının tənzimlənməsinin və bütövlükdə əhalinin məşğulluğunun funksiyaları hansılardı?

2. Əmək bazarı, kadr potensialı və məşğulluğun tənzimlənməsi

Əmək bazarı sistemin digər elementləri ilə üzvi funksional əlaqədə olan, bazar iqtisadiyyatının mühüm həlqəsi, inteqral elementidir. Rusiyada hələ o, tam həcmdə mədəni cizgilər almayıb. Bununla belə bu gün demək olar ki, o ümumi səpgidə regional səviyyədə formalaşıb və ümummilli bazarın formal cəhətlərini daşıyır (ümummilli məlumatlar bankı, əhalinin məşğulluğuna kömək proqramı, işsizlərə yardım, işsizlərin hazırlanması və yenidən hazırlanması və s.). Bununla yanaşı elə amillər var ki, bütövlükdə ölkə miqyasında onun təşəkkülü və tam gücü ilə fəaliyyət göstərməsinin başa çatmasını ləngidir. İqtisadiyyatın struktur yenidənqurulmasının ləng getməsi müşahidə olunur, mənzil bazarı yoxdur, əmək haqqı aşağıdır, onun ödənişi çox vaxt ləngidilir, gediş haqqı yüksəkdir və s.

Əmək bazarı tədricən əsas ictimai əhəmiyyətli səciyyə qazanır. O, müasir yüksək texnoloji istehsalın tələblərinə cavab verən, işçi qüvvəsinin təkrar istehsalında mühüm rol oynayır, əmək resurslarının bölgüsünü və yenidən bölgüsünü təmin edir, onların səmərəli istifadə olunması üçün həvəsləndirici stimul yaradır, inzibati-amirlik sisteminin hökm sürdüyü illərdə formalaşan qeyri-səmərəli məşğulluq strukturunu aradan qaldırır və onun tədricən daha səmərəli struktur ilə əvəz edir. Onun inkişafı işçilərin universallaşmasını, onların çoxprofilli peşə hazırlığını, əmək bazarında konyukturanın və iqtisadiyyatda struktur dəyişikliklərinə müvafiq əmək növlərinin dəyişməsi qabiliyyətinin inkişafı zəruriliyi ilə şərtlənir. Fəhlə və

qulluqçuların rəqabət qabiliyyətliliyinin, öz peşə ustalıqlarının, ixtisas səviyyəsinin yüksəldilməsində marağı gücləndirir. Əmək bazarı iş qüvvəsinin səfərbər olmasını fəallaşdırır, həm sahə çərçivəsində, həm sahələrarası, həm də regionlararası istiqamətlərdə onun miqyasını gücləndirir, bu isə əmək qabiliyyətli əhalinin məşğulluq problemlərinin həllinə müəyyən imkanlar açır. Əməyin ödənişində bazar vasitələrinin rolu yüksəlir, nəticə etibarilə əməyə iqtisadi maraq güclənir, onun məhsuldarlığı yüksəlir. Ölkənin iqtisadiyyatında qərarlaşan bazar münasibətlərinə əhalinin uyğunlaşması daha da sürətlənir, bazar tipli iqtisadi davranış yaranır.

Bununla yanaşı, yuxarıda qeyd olunduğu kimi, bazarın təsiri müxtəlif əhali qruplarının əmək haqqı və gəlirlərində həddən artıq fərqlərə gətirib çıxarır, zəhmətkeşlərin xeyli hissəsində işsizlik, kasıbçılıq yaradır. İş qüvvəsinin keyfiyyəti aşağı düşür, ilk növbədə işçilərin sağlamlığı və ixtisası korlanır, başqa sözlə onların rəqabət qabiliyyətliliyi aşağı düşür. Belə ki, əmək bazarında iş qüvvəsi və ya əmək qabiliyyəti əmtəə kimi çıxış edir. O isə insanla, şəxsiyyətlə, onun səciyyəvi xüsusiyyətləri, hüquqi, ictimai statusu ilə bilavasitə əlaqədar xüsusi növ əmtəədir. Bütün bunlar işçi qüvvəsi ilə əlaqədar iqtisadi münasibətlərdən söhbət gedəndə nəzərə alınmalıdır.

İqtisadi kateqoriya kimi əmək bazarı pul sahibləri (alıcılar və ya iş yeri verənlər) və muzdlu işçilər, iş qüvvəsi sahibləri (mülkiyyətçiləri) arasında, axırıncıların alqı-satqısı üzrə münasibətləri ifadə edir. Göstərilən iqtisadi münasibətlər ölkənin (ayrı-ayrı regionun) əmək qanunvericiliyinə əsaslanan hüquqi formalar (müqavilə, kontrakt, razılıq) alır. Əmək bazarı, bazar münasibətləri kompleksində altsistem olmaqla, digər bazarların yetkinlik dərəcəsindən, bütövlükdə iqtisadi sistemin inkişaf səviyyəsindən asılıdır. İstehsalın böhrana düçar olması, aşağı investisiya fəallığı, pul-kredit sferasında ciddi problemlər müasir Rusiyanın əmək bazarının xarakterində əksini tapır. Bununla yanaşı, muzdlu işçilər, iş qüvvələrini satarkən, ilk növbədə mal əmtəə bazarlarında həyati vasitələrə tələb irəli sürürlər. Beləliklə, onların inkişafı bütövlükdə iqtisadi sistemin

inkişafının stimullaşdırılmasına təsir göstərir. Əmək bazarının özü isə ictimai təkrar istehsal sistemində əlaqələndirici həlqə kimi çıxış edir.

Qanunauyğun sual meydana çıxır: əmək bazarının fəaliyyət mexanizmini tənzimləmək lazımdırmı? Məlumdur ki, bəzi iqtisadçılar bazar mexanizminə müdaxilənin qeyri-mümkünlüyü mövqeyində dururlar.[1] Digəriləri, məsələn Keynsçi məktəbin tərəfdarları, təkid edirlər ki, milli bazarlarda, o cümlədən əmək bazarında fəal dövlət siyasəti aparılmalıdır.[2] Neoklassiklər və keynsçilər arasında mübahisə çoxdan davam edir. Bununla belə inkişaf etmiş ölkələrdə müasir bazar klassik, azad bazardan xeyli uzaqdır. Bu tam mənada əmək bazarına da aiddir.

İnkişaf etmiş ölkələrdə müasir əmək bazarı ən çox tənzim olunan sahələrdəndir. Onun belə olması iş yeri yaradanlarla muzdlu işçilər arasında münasibətlərin dövlətin vasitəçiliyi ilə uzun müddət inkişafının nəticəsidir. Sosial-əmək münasibətlərinin tənzimlənməsində dövlətin fəal iştirakı, xüsusilə, XX əsrin ikinci yarısında, II Dünya müharibəsindən sonra başlanmışdır. Bundan başqa 1919-cu ildə yaranan və 1946-cı ildən BMT-nin ixtisaslaşdırılmış bölməsinə çevrilmiş Beynəlxalq Əmək Təşkilatı (BƏT) əmək bazarında fəal siyasəti beynəlxalq prioritetlər səviyyəsinə qaldırmışdır.

Bir sözlə, əmək bazarı sırf kortəbii xarakterini çoxdan itirmişdir. O, fəal dövlət tənzimlənməsi obyektinə çevrilmişdir. Bir çox ölkələrdə əməyə olan tələb dəqiqliklə planlaşdırılır və kadrların hazırlığı və yenidən hazırlığı sistemi vasitəsilə əvvəlcədən təmin olunur. Əməyin təklifi çox hallarda Həmkarlar

[1] Laisses faire prinsipinə əsaslanan müxtəlif müasir nəzəriyyələr neoklassik adlanırlar. Onlardan Ən məşhurları –monetaristlər (M.Fridmen) və neoliberallardır. (F.Xayek)

[2] Belə Ki, C.M.Keyns yazırdı ki, «…öz ənənə və qurumları olan müasir dünyada işsizliyin həcmində hər hansı dəyişikliyə hissiyatlı reaksiya verən çevik əmək haqqı siyasətindənsə, sərt əmək haqqı siyasəti aparmaq məqsədəuyğundur» (Bax. C.M.Keyns «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» M.,1978.səh.335.)

İttifaqları tərəfindən inhisarlaşıb, əmək bazarında iş qüvvəsinin (əmək haqqının) qiyməti isə kontraktlar və ya kollektiv müqavilələr əsasında müəyyənləşir, onun həcmi müqavilə bağlayan tərəflərin güc nisbətindən asılıdır. Gördüyümüz kimi, əmək bazarı, digər əmtəə bazarları kimi, həm daxildən (iş yeri verənlər və Həmkarlar İttifaqları), həm də xaricdən (dövlət tərəfindən) tənzimlənən olmuşdur.

Qeyd etmək lazımdır ki, əmək bazarının tənzimlənməsi kadr potensialının təkrar istehsalı ilə əlaqədar olan problemlərin bütün spektrini əhatə etmir, ictimai-faydalı fəaliyyətin problemlərini tam həcmdə əhatə etmir, faktiki olaraq məşğulluq anlayışı ilə eyniləşdirir. Lakin məşğulluq özünüməşğulluq nəzərə alınmaqla, «əmək bazarından» geniş anlayışdır, çünki özünüməşğul edənlərin həmin iqtisadi kateqoriya ilə bilavasitə əlaqəsi yoxdur. Buna görə də ilk əvvəl məşğulluq probleminə və onun həllinə dövlətin təsirinə baxmaq zəruridir.

Geniş mənada məşğulluq siyasəti, əmək qabiliyyətli əhalinin, bir qayda olaraq, gəlir gətirən ictimai faydalı fəaliyyətə cəlb olunması üzrə sosial-iqtisadi münasibətlər sistemini əhatə edir. Məşğulluq iqtisadiyyatın və xalqın güzəranının mühüm xarakteristikasıdır. O, ölkə vətəndaşlarının müvəffəq vəziyyəti haqqında, cəmiyyətin iqtisadi və sosial stabilliyi haqqında müəyyən təsəvvür yaradır.

İqtisadiyyatda məşğul olanlar əmək məhsulları yaradır, onun da hesabına cəmiyyət üzvlərinin tələbatı ödənilir, iqtisadi və sosial məsələlər həll olunur. Lakin bazar təsərrüfatının fəaliyyətinin əsasında duran iqtisadi qanunlar işləmək istəyənlərin hamısını zəruri iş yerləri ilə, bununla da öz maddi vəziyyətinin yaxşılaşdırılmasını təmin etmir. Nəticədə çoxları işsiz və qazancsız qalır ki, bu da cəmiyyətdə müəyyən qeyri-sabitlik yaradır. Belə şeylərə yol verməmək üçün, dövlət və hökumətlər iş yerləri yaratmaq üzrə müəyyən tədbirlər görməyə, əmək fəaliyyəti prosesində işləmək istəyən məşğul olmayan əhalini cəlb etməyə çalışırlar. Başqa sözlə, dövlət orqanları sözün dar mənasında məşğulluq siyasəti həyata keçirirlər.

Hökumət öz məşğulluq siyasətində müəyyən prinsipləri rəhbər tutur (və ya rəhbər tutmalıdır). Sovet dövründə belə prinsiplərə əməyin məcburiliyi, əmək qabiliyyətli əhalinin ictimai-faydalı fəaliyyətlə tam məşğul olması və s. aid idi. Müasir radikal iqtisadi islahatlar məşğulluğun yeni prinsiplərini həyata gətirdi. Onlar ölkənin əsas sənədlərindən, ilk növbədə Rusiya Federasiyasının Konstitusiyası və «Rusiya Federasiyası əhalisinin məşğulluğu haqqında» Federal qanunlardan (19 aprel 1991-cidə qəbul olunmuş, 22 mart 1996-cı il və 30 aprel 1999-cu il federal qanunları ilə dəyişiklik və düzəlişlər edilmiş) irəli gəlir. Bəzi prinsiplər iqtisadiyyatda bazar yenidənqurulması təcrübəsi ilə bağlıdır.

Aşağıdakı prinsipləri qeyd etmək olar: 1. Əməyin könüllülüyü, vətəndaşların məhsuldar və yaradıcı əməyə öz qabiliyyətlərinə azad, sərbəst sərəncam verməsi. 2. Vətəndaşların əməyə və azad fəaliyyət seçmə hüququnun reallaşdırması üçün bərabər start şəraitinin yaradılması üzrə dövlətin məsuliyyəti; iş axtarılmasında çətinlik çəkən və sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların məşğulluğuna prioritetli diqqət göstərilməsi. 3. Uzunmüddətli milli maraqların təmin olunması və nəzərə alınması. 4. İş yerlərində milli və mədəni ənənələrin, tarixi qərarlaşmış regional və sahəvi tələbatların nəzərə alınması. 5. Dövlət orqanlarının, həmkarlar ittifaqlarının, iş yerləri yaradanların birliklərinin güclərinin əlaqələndirilməsini daxil edən, bütün səviyyəli büdcələrin, qeyri-büdcə fondlarının maliyyə imkanlarından, müəssisə, ictimai birliklərin və vətəndaşların vəsaitlərindən istifadə etməklə məşğulluq problemlərinin həllinə kompleks yanaşma.

Rusiya dövlətinin məşğulluğu birbaşa mərkəzləşdirilmiş idarəetmədən imtina etdikdən sonra, onun tənzimlənməsinin yeni sisteminə zərurət yarandı. Hal-hazırda ölkədə belə sistem formalaşır. Onun əsas həlqələri kimi əmək qanunvericiliyi, prezidentin fərmanları və hökumətin qərarları, Milli, regional, sahə və müəssisə səviyyələrində sosial-əmək münasibətləri subyektləri arasında bağlanan sazişlər, məşğulluğu stimullaşdıran federal və regional proqramlar çıxış edir.

3. Məşğulluğun iqtisadi və sosial funksiyaları

Məşğulluq iqtisadi kateqoriya kimi əmək fəaliyyətində əhalinin iştirakı üzrə münasibətlər məcmusunu ifadə edir. O, əməyə daxilolma ölçüsünü, işçilərə olan ictimai, həmçinin şəxsi tələbatın səviyyəsini və ödənişli iqtisadi cəhətdən məqsədəuyğun yerlərə maraqları əks etdirir. Məşğulluğun mühüm iqtisadi funksiyası işçiləri iqtisadi cəhətdən məqsədəuyğun iş yerlərilə təmin etmək vasitəsilə maddi və mənəvi zənginlik yaratmaqdır. Başqa sözlə, məşğulluğun iqtisadi funksiyası şəxsi və ictimai tələbatın ödənilməsi üçün ilkin şərtlərin yaradılmasından ibarətdir.

Cəmiyyət üzvlərinin əmək proseslərinə tam cəlb olunmasından, mürəkkəb fəaliyyət növlərinin yerinə yetirməsindən və onların əməyindən səmərəli istifadə olunmasından iqtisadı artım templəri, ÜDM və əhalinin gəlirlərinin həcmi, alıcılıq tələbi və cəmiyyətin tələbatının ödənilməsi səviyəsi asılıdır. Buna görə də zəhmətkeşlərin iqtisadi məqsədəuyğun iş yerləri ilə təmin olunması, tam, məhsuldar və səmərəli məşğulluğa nail olmaq, məşğulluq, gəlir və investisiya siyasəti daxil olmaqla geniş mənada sosial-iqtisadi siyasətin mühüm vəzifələrindəndir.

İqtisadi məqsədəuyğun iş yeri dedikdə, zəhmətkeşə öz maraqlarını reallaşdırmağa, yüksək əmək məhsuldarlığına nail olmağa, işçiyə və onun ailəsinə normal həyat imkanı verən layiqli qazanc əldə etməyə imkan yaradan dövriyyə vasitələri ilə (əmək predmeti, enerji, əmək haqqı və s) təmin olunmuş fiziki iş yerləri başa düşülür.

İş yerləri hazırlıqlı iş qüvvəsi ilə tutulmalıdır. Yaxşı nəticələrə yalnız o halda nail olmaq olar ki, iş qüvvəsinin peşə-ixtisas strukturu, elmi-texniki tərəqqinin nəzərə alınması ilə yaradılan iş yerlərinin strukturuna uyğun gəlsin. Buna görə də, əgər belə iş yerlərinə tələb müvafiq iş qüvvəsi ilə ödənilirsə, iş qüvvəsi ilə iş yerlərinin tarazlıq vəziyyətindən, başqa sözlə tam məşğulluqdan danışmaq olar.

İqtisadi məqsədəuyğun iş yerləri məhsuldar, normal ödənişli və ictimai faydalı olmalıdır. Yalnız bu mənada təsdiq etmək olar ki, onlar məhsuldardır. Belə ki, iş yerləri yüksək əmək məhsuldarlıqlı və yüksək ödənişli olsa da, məhsuldar olmaya bilər. Belə iş yerlərinə narkotiklərin istehsalı və reallaşdırılması aiddir ki, hansılarda məşğulluq ictimai faydalı deyil. Baxılan problemin başqa bir aspekti də var. Bu məşğulluğun sadəcə tam və məhsuldar deyil, həm də iqtisadi səmərəli olmasını təmin etməkdir.

İqtisadi səmərəli məşğulluq dedikdə, layiqli gəlir, sağlamlığın saxlanılması, ictimai əmək məhsuldarlığının yüksəldilməsi əsasında cəmiyyətin hər bir üzvünün təhsil və ixtisas səviyyəsinin artmasının təmin olunması başa düşülür. Əmək xərclərinin aşağı salınması ETT nailiyyətlərinin tətbiqi sayəsində əldə edilir. Qeyd edək ki, bu müəyyənləşdirmə iqtisadi səmərəliliyi keyfiyyət tərəfindən xarakterizə edir. Çatışmazlığı ondan ibarətdir ki, kəmiyyət qeyri-müəyyənliyi olduğundan iqtisadi səmərəliliyi bir göstəricinin köməyi ilə ölçmək qeyri-mümkündür. Bu çətinlik göstəricilər sisteminin köməkliyi ilə xeyli dərəcədə aradan qaldırılır. Bu planda ən çox yararlı aşağıdakılardır:

Birinci göstərici – əhalinin peşəkar əməklə məşğulluğu səviyyəsidir (əmsalıdır). O, məşğul olanların sayının ümumi əhalinin sayına faiz ifadəsində nisbəti ilə müəyyən olunur. 2000-ci ildə 44,5% təşkil etmişdir (64,6 mln nəfər:145 mln nəfər X 100). Həmin ildə əhalinin ümumi sayında əmək qabiliyyətlilərinin payı 57,5% təşkil etmişdir. 1990-cı ildə Rusiyanın əmək qabiliyyətli əhalisinin xüsusi çəkisi 56,7%, yəni 1% az, məşğulluq əmsalı isə 50%-ə bərabər olmuşdur. Müqayisə üçün, ABŞ-da 1989-cı ildə məşğulluq əmsalı 62% olmuşdur. Bu ölkədə məşğulluğun yüksək səviyyəsi qismən onunla izah edilir ki, əmək qabiliyyətli yaşın yüksək həddi 60 deyil, 65 ildir. Beləliklə, baxılan əmsal üzrə Rusiya Federasiyasında əhalinin məşğulluq səviyyəsi 5 faiz punktundan çox aşağı düşüb və artıq bu gün 80-cı illər üçün xarakterik olan həddən ziyadə məşğulluq yoxdur. Bəllidir ki, göstərilən əmsalın aşağı düşməsi

asudə vaxtın artması üçün, digər fəaliyyət növləri ilə məşğul olmaq üçün şəraitin yaranması demək deyil. Əhalinin digər fəaliyyət növlərinə həqiqətən cəlb olunması, millətin sağlamlıq vəziyyətilə bağlı təhlil tələb olunur. Göstərilən əmsal beynəlxalq müqaisələr üçün istifadə oluna bilər.

İkinci göstərici - əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda məşğulluğu səviyyəsidir. O, peşəkar əməklə məşğul olanların əmək qabiliyyəti olan əhalinin və ya əmək resurslarının sayının faiz nisbəti ilə hesablanılır. 2000-ci ilin sonuna o, 56,6% təşki etmişdir (64,6 mln. nəfər:87,8 mln. nəfər x 100). 1986-1987-ci illərdə həmin əmsal 85%-i ötmüş, digər qiymətləndirməyə görə 90%-ə yaxınlaşırdı. Rusiya Federasiyasının Dövlət Statistika Komitəsinin seçmə tədqiqatlarının məlumatlarına görə 15-72 yaşında əhalinin məşğulluq səviyyəsi 1992-ci ildə 66,7%, əmək qabiliyyəti yaşında isə 79,9% təşkil etmişdir. 1999-cu ildə müvafiq olaraq 55,6% və 67,9% olmuş, yəni 7 ildə məşğulluq səviyyəsi müvafiq olaraq 11,1% punktu və 10% punktu aşağı düşmüşdür. Nəticədə, göstərilən illərdə məşğulluğun səviyyəsi elə əhəmiyyətli dərəcədə aşağı düşmüşdür ki, artıq işçi qüvvəsinin səmərəsiz istifadə olunması haqqında danışmağa əsas yaranmışdır.

Üçüncü göstərici – əhalinin ictimai faydalı fəaliyyət sferaları üzrə optimal bölgüsüdür. 2000-ci ildə 1986-1987-ci illlərlə müqayisədə xalq təsərrüfatında məşğulluq 10,3 mln. nəfər azalmışdır (1987-ci ildə 74,9 mln-dan 2000-ci ildə 64,6 mln). Əgər azalma radikal reformaların başlanmasfına qədər məşğulların iş qüvvəsinin tərkibindən çıxıb ev təsərrüfatına keçmələri hesabına baş verdisə1992-ci ildən etibarən işsizlərin sayının sürətlə artması başlandı. 2000-ci ildə iş yeri axtaranların sayı 7,6 mln. nəfər və ya 10,5% (BƏT metodologiyası üzrə), o cümlədən məşğulluq xidmətində qeyd olunanların sayı 1,1 mln və ya 1,5% təşkil etdi. Gördüyümüz kimi işsizlərin ümumi sayı həddən artıqdır və iqtisadiyyatda optimal məşğulluq barədə danışmaq olmur. İş yeri axtaranlarının say çoxluğu iş qüvvəsindən qeyri-səmərəli istifadə olunması haqqında nəticənin əsaslı olduğunu təsdiqləyir.

Rusiya Federasiyasının Hərbi qüvvələrində məşğulluq ixtisar olmuşdur, bu hal o hüduda qədər pozitiv addım sayıla bilər ki, ölkənin müdafiə qabiliyyətini pozmasın.

Təhsillə məşğulolma islahatlardan əvvəlki səviyyəyə yaxınlaşıb, lakin hətta o vaxt da əhalinin 10000 nəfərinə düşən ali və orta-ixtisas təhsil müəssisələrində oxuyanların sayı ən inkişaf etmiş ölkələrindəki həmin göstəricidən az idi. Buna görə də, əmək qabiliyyətli əhalinin ictimai-faydalı fəaliyyət sferaları üzrə bölgüsünü optimal hesab etmək olmaz.

Dördüncü göstərici – ixtisaslar, sahələr və iqtisadiyyatın bölmələri üzrə əhalinin bölgüsü strukturunun rasionallığıdır. Bazar islahatları başlanandan sonra, xüsusilə maliyyə, bazar iqtisadiyyatı, hüquqşünaslıq sahəsində mütəxəssislərə tələbat kəskin surətdə artmış, texniki profilli mütəxəssislərə isə azalmışdır. Bununla, islahatdan əvvəlki dövrdə mütəxəssislərin hazırlanmasında ciddi fərqlərin aradan qaldırılması prosesi qismən özünü təzahür etdirdi. Humanitar sfera üçün mütəxəssislərlə müqayisədə «texniki mütəxəssislər» daha çox buraxılırdı. İndii isə mühəndis kadrlarında da, çatışmazlıq hiss olunmağa başlamışdır. 90-cı illərin axırlarında texniki ali təhsil müəssisələrinə qəbul artmışdır. Mütəxəssis bazarı tədricən tarazlıq vəziyyətinə gəlir.

Statistik məlumatlara əsasən, islahat illərində iqtisadiyyatın sahələrində məşğul olanların sayı və xüsusi çəkisi əhəmiyyətli dəyişikliyə uğramışdır. Ən çox transformasiyaya maddi istehsal sahələri məruz qalmışdır. Sənayedə, xüsusilə, maşınqayırma və metal emalında (təqribən 2 dəfə ixtisar) məşğul olanların xüsusi çəkisi və sayı azalmışdır. Sənaye ilə müqayisədə tikintidə işləyənlərin sayı faiz nisbəti ilə daha çox azalmışdır. Nəqliyyatda, kənd təsərrüfatında işləyənlərin payı dəyişməsə də, sayı azalmışdır.

İqtisadiyatda məşğul olanların ümumi azalması fonunda, qeyri istehsal sferaları öz sayını saxlamış və nəticə etibarilə iqtisadiyyatda məşğul olanların arasında xüsusi çəkisi artmışdır. Bu sferada ən çox itkilərə «elm və elmi xidmət» sahəsi məruz qalmışdır, burada ilk növbədə elmin maliyyələşdirilməsinin

ixtisarı ilə əlaqədar olaraq 1990-cı illə müqayisədə heyətin sayı təqribən 2 dəfə azalmışdır. Bu sahədən alim və mütəxəssislərin kütləvi axını bütövlükdə ölkənin elmi-texniki tərəqqisinə neqativ təsir göstərmişdir. İxtisaslı kadrların istifadə olunma səmərəliliyi azalmışdır. Ona görə də bugünkü sahəvi strukturu rasional hesab etmək olmaz. Xüsusilə, hasilat sahələri tərəfə yönəlmə aşkar görünür.

Beşinci göstərici – işsizlik norması, onun təbii işsizlik səviyyəsilə münasibətliliyidir. Bu göstərici qərb ölkələrində məşğulluğun səmərəliliyinin təhlili üçün geniş istifadə olunur. Bu, işsizliyin təbii səviyyəsinin elmi anlayışı verildikdən sonra mümkün olmuşdur. Ondan bu və ya digər tərəfə kənarlaşma işçi qüvvəsindən qeyri-səmərəli istifadə olunmasını göstərir və iqtisadiyyat inflyasiya və ya ÜDM-in az istehsalı ucbatından böyük itkilərlə üzləşir. ABŞ-da işsizliyin təbii norması 90-cı illərin ikinci yarısında 5,5-6% səviyyəsində hesablanıb.

Rusiyada bu normanı əmək məhsuldarlığı üzrə məlumatların olmaması, yüksək inflyasiya səviyyəsi, yüksək gizli işsizlik və gizli məşğulluğun olması və s. səbəblərdən düzgün hesablanması qeyri-mümkündür. Ekspert qiymətləndirilməsinə görə Rusiyada işsizliyin təbii norması 3-5% ölçüsündədir. Halhazırda Rusiyada işsizliyin yüksək norması məcmu iş qüvvəsindən qeyri-səmərəli istifadə olunmasını göstərir.

Beləliklə, göstəricilərin məcmusuna əsaslanaraq nəticəyə gəlmək olar ki, 1990-cı illərdə Rusiyada işçi qüvvəsi bütövlükdə qeyri-səmərəli istifadə olunmuşdur. Bu vəziyyətin nəticəsi kimi ÜDM-in istiehsalı aşağı düşmüşdür. (2000-ci ildə 1990-cı ilin 60% səviyyəsinə qədər). Sosial problemlərin həllində də, həmçinin gərginlik yaranmışdır. Tam, məhsudar və səmərəli məşğulluğun təmin olunması üçün elm və texnikanın nailiyyətlərindən istifadə olunması, investisiyaların artmasına əsaslanan iqtisadiyyatın struktur yenidənqurulmasında dövlətin daha fəal iştirakı istiqamətində islahatlara düzəlişlərin aparılması zəruriliyi labüddür.

Məşğulluğun sosial funksiyası, insanların hərtərəfli inkişafının, məşğulluğun müxtəlif növlərindən ilk növbədə iqtisa-

diyyatda məşğulluqdan asılı olduğunu göstərir. Eyni zamanda o, əks əlaqəni də, açıqlayır. Belə ki, məşğulluğun özü təkcə iqtisadi və siyasi vəzifələrə nail olmaq deyil, eyni zamanda yüksək dəyər kimi, cəmiyyətin həyati fəaliyyətinin məqsədi kimi insanın özünün inkişafına yönəldilir. Hərtərəfli inkişaf etmiş insan, adətən istehsal və cəmiyyətin idarə olunmasında, ətraf mühitin mühafizəsində, onun həyatına dair qərarların qəbul olunmasında daha fəal və məhsuldar iştirak edir. İnsanların bütün fəaliyyət növü sosial funksiya daşıyır. Lakin iqtisadiyyatda ixtisaslı əməyin xüsusi rolu vardır. Əmək maddi və mənəvi zənginliyin, sosial tərəqqinin və insanın inkişafının mənbəyidir.

Əməyin qiymətdən düşməsi, təkcə güzəranın təmin olunması ilə eyniləşməsi, insanın həyat fəaliyyətini əhəimyyətli dərəcədə yoxsullaşdırır, onun tələbatını, stimulları aşağı salır. Əmək motivlərinin zəifləməsi sosioloqlar tərəfindən 90-cı illərdə qeydə alınmışdır. O, istehsal, insan və cəmiyyətin inkişafına neqativ təsir göstərir. Bunu ÜDM aşağı düşməsi, ölkədə gizli iqtisadiyyatın kriminogen vəziyyətin artması göstərir. Buna görə də bütün insan fəaliyyətinin əhəmiyyətini dəyərləndirəndə, professional əməyi qiymətləndirməmək olmaz. Aydındır ki, bu zaman əmək məcburi olmamalı, əməyə hörmətli münasibət mühitlə stimullaşdırılmalı, layiqincə mükafatlandırılmalıdır.

Keçid dövründə mülkiyyət formalarında dəyişikliklər baş verir, bununla yanaşı əməyin sosial funksiyaları da müəyyən transformasiya olur. Belə ki, iqtisadiyyatda xüsusi mülkiyyətlə, xüsusi mülkiyyətçilərlə, muzdlu olmayan şəxslərlə əlaqədar yeni bölmələrin meydana gəlməsi buna sübutdur. Uzun illər ərzində hökmranlıq edən dövlət bölməsi, məşğul olanların sayına görə birinciliyi xüsusi bölməyə vermişdir. İctimai təşkilatlarda, fondlarda, xarici ölkə firmaları ilə yaradılan müştərək müəssisələrdə, qarışıq mülkiyyət formalı müəssisələrdə məşğul olanların sayı üç dəfədən çox artmışdır.

İslahatların, məşğulluğun strukturunun dəyişməsi nəticəsində yeni siniflər və əhalinin sosial təbəqələri meydana gəlmiş-

dir. İri (ilk növbədə maliyyə və ticarət kapitalı) və xırda kapitalı (xüsusi iş yeri yaradanlar, xırda müəssisə sahibləri, ticarət firmaları, zəngin fermerlər) təmsil edən kapitalistlər sinfi, sözün ənənəvi (klassik) mənasında muzdlu işçilər sinfi, həmçinin kəndlilər və öz əmәkləri hesabına yaşayan sənətkarlar yaranmışdır. Bu siniflərin rolu və əmək fəaliyyəti dəyişmişdir. Belə ki, kapitalistlər istehsal, ticarət, maliyyə təşkilatları kimi, muzdlu işçilər isə-birincilərin iradəsinin icraçıları kimi çıxış edirlər. Əhalinin üçüncü təbəqəsi, özü məşğul olanlar da vardır (kəndlilər, sənətkarlar, sərbəst peşə sahibləri). Onlar hər iki rolu birləşdirirlər.

Bazar münasibətlərinə keçid, həmçinin tam olmayan iş vaxtı (tam olmayan həftə) rejimində işləyən əhalinin xüsusi çəkisinin xeyli artması ilə də xarakterizə olunur. Xüsusi, əsasən xırda müəssisələr öz maliyyə xərclərini azaltmağa çalışaraq, əmək ödənişlərinə qənaət edirlər. Belə təcrübə iş qüvvəsinin təkrar istehsal şəraitini pisləşdirir, onun keyfiyyətini aşağı salır. Bununla yanaşı, belə iş rejimi əhalinin bir qismi üçün (qadınlar, təhsil alan gənclər, təqaüdçülər) istehsalda iştirak etmək, gəlirlərini artırmaq, yaşayış vəsaitləri qazanmaq imkanı yaradır.

Təhsil sferasında, təhsillə məşğul olan şəxslər arasında dəyişikliklər baş verir. 1992-1995-ci illərdə əmək qabiliyyəti yaşında təhsil alanların sayının (5,3 mln. nəfərə qədər) ixtisar olunması meyli müşahidə olunurdu. 90-cı illərin ikinci yarısında onların sayının (2000-ci ildə 7,1 mln. nəfər), xüsusilə ali məktəblərdə artması meyli başlamışdır. Aspirantura və doktoranturaya qəbul artmışdır. Ödənişli təhsil müəssisələri, litseylər, gimnaziyalar yaranmışdır. Bu dəyişikliklər həm cəmiyyətdə sabit mövqe yaradan, təhsilin yüksək statusu ilə, həm də, təhsilin yeni funksiya-müvəqqəti sosial müdafiəsi ilə (4-5 il işsizlikdən və hal-hazırda qeyri populyar olan Rusiyanın Hərbi Qüvvələrində xidmətdən) əlaqədardır. Bu gün əmək bazarında hörmətdə olmayan ixtisaslar üzrə təhsil alması faktını izah etmək olar. Müəyyən sosial funksiyaları, ev təsərrüfatında, xüsusilə uşaqların tərbiyəsi ilə məşğul olanlar yerinə yetirirlər.

Rusiya üçün son onilliklərdə yeni sosial hadisə işsizlikdir. O, qismən pozitiv sosial funksiya yerinə yetirir. İşdə yaranan fasilə, yeni iş yerində işləmək məqsədilə yenidən hazırlıq, ixtisasın artırılması üçün istifadə olunur. Ümumiyyətlə isə işsizlik ağır sosial nəticələrə gətirib çıxarır. Vətəndaşların artmaqda olan xüsusi çəkisi (2000-ci ildə işsizlərin 23%-dən çoxu bir ildən artıq qeydiyyatda qalmışlar) marjinallıq vəziyyətini tutur. Müəyyən bir işlə məşğul olmayaraq, onlar təsadüfi qazanclarla dolanır, son dərəcə kasıblıq həddində yaşayırlar. Belə işsizlərin tamqiymətli həyata qayıtması müşküldür. Bu onu göstərir ki, məşğulluğun (onun sosial funksiyalarının yerinə yetirməsinin) olmamaması, insan və cəmiyyət üçün neqativ nəticələrə gətirib çıxarır.

Beləliklə, müxtəlif növ məşğulluğun sosial funksiyası, insan və cəmiyyətin inkişafına səbəb olur, əksinə, məşğulluğun olmaması onların inkişafını əngəlləyir. Əmək bazarı müstəqil surətdə məşğulluq probleminin həllinin öhdəsindən gəlmir. Bu məqsədlə fəal dövlət siyasəti zəruridir.

4. Məşğulluq və əmək bazarının dövlət tənzimlənməsi

Rusiyada əmək bazarının və məşğulluğun dövlət tənzimlənməsi yenidən mühüm rol oynamağa başlamışdır. Onun öz istiqamətləri vardır. İlk növbədə, rasional məşğulluq və real sektorun inkişafı əsasında iqtisadi artıma təsir edən dövlətin makroiqtisadi siyasətinin aparılmasını göstərmək lazımdır.

Əmək qabiliyyətli əhalinin müxtəlif fəaliyyət növləri (muzdlu əmək, müstəqil məşğulolma, təhsil, orduda xidmət, uşaqların tərbiyə olunması, ev əsərrüfatında iş və s.) ilə məşğulluğun nisbətlərinin optimallaşdırılmasına böyük diqqət ayrılmalıdır. Dövlət tənzimlənməsi əmək bazarı qurumlarının işinin fəallaşdırılmasını nəzərdə tutur.

Rusiyada əmək bazarı və məşğulluğun dövlət siyasəti əsasən passiv tədbirlərin üstünlüyü ilə səciyyəlidir. Kütləvi

aşkar işsizliyin qarşısının alınması həyata keçirilir, işsizlərin qeydə alınması aparılır, işsizliyə görə müavinətlər ödənilir, işsizlərin işlə təmin olunma proqramları işlənib hazırlanır. Məşğulluğun və əhalinin özünü məşğuletməsinin stimullaşdırılmasını, işsizliyin müayinəsi, işsizlərin yenidən hazırlığı və onların rəqabət qabiliyyətinin artırılması üzrə fəal və qabaqlayıcı siyasət hələ ikinci dərəcəli xarakter daşıyır. Buna görə də, göstərilən istiqamətlər çərçivəsində əmək bazarı və məşğulluğun tənzimlənməsində məşğulluğun fəal siyasətinin forma və metodlarına xüsusi diqqət yetirilməlidir.

Belə ki, iqtisadi artıma keçid məsələlərinin həllində bankları, sənaye, ticarət, nəqliyyat kompaniyalarını, sığorta və digər qurumları birləşdirən, Rusiyanın milli kapitalının formalaşmaqda olan maliyyə-sənaye qrupları mühüm rol oynaya bilərlər. İqtisadiyyatın inkişafında kiçik sahibkarlıq bəşəri ölçülər üzrə öz layiqli yerini tutmalıdır. BMT-nin məlumatlarına görə, dünya iqtisadiyyatında kiçik müəssisələrdə əhalinin 50%-dən çoxu işləyir və ÜDM-in 60%-ə qədərini yaradır. Kiçik sahibkarlığa Rusiya dövləti hələ lazımi diqqət yetirmir. Əhaliyə, xüsusilə, işsizlərə öz işlərini açmağa kömək edilməlidir: onlara müxtəlif sahələrdə biznesin aparılmasının əsasları öyrədilməli, güzəştli kredit və subsidiyalar ayrılmalı, güzəştli icarə əsasında qeyri-yaşayış sahələri verilməli, lizinq əsaında texniki silahlanma və biznes-planın tərtibində köməklik göstərilməli, mütəşəkkil cinayətkarlıqdan qorunmalı, uzunmüddətli fəaliyyətlərində güzəştli vergi tətbiq olunmalıdır. İstehsalın inkişafında və yeni iş yerlərinin yaradılmasında investisiyalaşan gəlirlərə vergi güzəştlərinə, xüsusilə, ehtiyac duyulur.

Fəal məşğulluq siyasəti tədbirləri arasında, fəaliyyət və istehsalın perspektiv sferalarında səmərəli iş yerlərini saxlayan və yenilərini yaradan iş yeri verənlərin həvəsləndirilməsi mühüm rol oynamalıdır. Bura, xidmət sferası (xüsusilə turizm), mənzil tikintisi, sığorta, kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi, maşınqayırma aiddir. Vergi və kredit güzəştləri, dövlət sifarişləri, əsas istehsal fondlarının fəal hissəsinin sürətləndirilmiş amortizasiyası vasitələrindən geniş isifadə olunması məqsədəuyğundur.

Struktur dəyişiklikləri şəraitində məşğulluğun qorunması və iş yerlərinin genişlənməsinin mühüm istiqamətlərindən biri hərbi-sənaye kompleksinin konversiyasıdır. Konversiya proqramı, mülki maşınqayırmanın, müasir rabitə vasitələri, kompüter texnikasının inkişafı əsasında, ölkə iqtisadiyyatının texniki-texnoloji yenidən-qurulmasının güclü «artım qütblərinə» çevrilməlidir.

Bəşəri təcrübədə sınaqdan çıxmış və fəal məşğulluq siyasətinin səmərəli istiqamətlərindən biri ictimai işlərin təşkilidir. Onlardan müasir bələdiyyə təsərüfatının, onun sosial, nəqliyyat, yol və ekoloji infrastrukturunun formalaşması üçün istifadə olunması məqsədəuyğundur. Bu, yerlərdə sahibkarlıq fəaliyyətinin inkişafı üçün şərait yaratmaq imkanı verir. İctimai işlərin təşkili və maliyyələşdirilməsi, proqram məqsədli əsaslarda, onun işlənib hazırlanması və maliyyə təminatında regional, yerli hakimiyyət orqanlarının və dövlət məşğulluq xidmətinin paritet iştirakı yolu ilə aparılmalıdır.

Sosial-əmək münasibətlərinin tənzimlənməsinin əmək resurslarının iqtisadi fəal və qeyri-fəal əhali arasında, xalq təsərrüfatı və ev təsərrüfatında müxtəlif fəaliyyət növləri arasında bölgüsü proporsiyalarının optimallaşdırılması kimi istiqaməti xüsusi diqqət cəlb edir. İqtisadiyyatda məşğul olan, hərbi qulluqda olan, təhsil alan, həmçinin təqaüddə olan əhalinin sayı ilə işsizlərin sayı arasında proporsiyaların mühüm əhəmiyyəti vardır. İşləməyən vətəndaşların minimal gəlir (təqaüd, stipendiya, müavinət) səviyyəsinin minimal yaşayış həcminə yaxınlaşması, əmək bazarında gərginliyin aşağı düşməsinin, cəmiyyətdə sosial sabitliyin və müxtəlif əhali təbəqələrinin maraqları balansının təmin olunmasının mühüm şərtidir. Lakin belə balansa nail olmaq dövlətin imkanlarından asılıdır. İqtisadiyyatda əmək məhsuldarlığının yüksək səviyyəsi də olmalıdır. Bunun üçün Rusiyada uyğun şərait yaradılmayıb və bu istiqamətdə işlərin aparılması tələb olunur.

Məşğulluq siyasətində müəyyənedici istiqamətlərdən biri, zamanın tələbinə uyğun kadrların hazırlanması və yenidən hazırlanmasıdır. Bunun üçün isə bütövlükdə təhsili, o cümlədən işsizlərin ixtisas hazırlığı və yenidən hazırlığını modernləşdirmək, əmək bazarında onların rəqabət qabiliyyətini yüksəltmək zəruridir. Kadrların hazırlığı və yenidən hazırlığına tələ-

batı ödəmək üçün Rusiya Federasiyasının subyektlərində ərazi təhsil komplekslərinin inkişafını sürətləndirmək lazımdır. Bu prosesdə müəssisələr, ali məktəblər, orta ixtisas təhsil müəssisələri, ixtisasartırma institutları, o cümlədən, müqavilə əsasında qeyri-dövlət məşğulluq xidmətləri iştirak etməlidirlər. Xarici təcrübə göstərir ki, yalnız professional təhsil ocaqlarının real sektorun müəssisələrilə kooperasiyası, fasiləsiz təhsil sisteminin inkişafı, bazar iqtisadiyyatı üçün müasir kadrların hazırlanması vəzifələrinin müvəffəqiyyətlə reallaşdırılması imkanını yaradır.

İşsizliklə mübarizədə, regional, sahəvi və daha zəif kateqoriyalı vətəndaşlar üçün xüsusi (əlillər, uşaqlı qadınlar, gənclər, uzunmüddət işsiz qalanlar və s.) məqsədli proqramlar mühüm yer tutmalıdır. Onların arasında aparıcı yer professional hazırlıq və yenidən hazırlıq proqramlarına məxsusdur.

Regional proqramlar ilk növbədə o ərazilərə lazımdır ki, harada işsizlik səviyyəsi hüdud normasını üstələyir. Orada vətən və xarici kapitalın cəlb olunması, dövlət sifarişləri və investisiya layihələrinin yerləşdirilməsi, əhalinin özünün məşğul olması, həmçinin ərazi mobilliyinin stimullaşdırılması üçün prioritet şəraitin yaradılması məqsədəuyğundur.

Məşğulluğun dəstəklənməsinin sahəvi proqramları staqnasiya olan depressiv sahələrdə (HSK, yüngül sənaye, kömür hasilatı, maşınqayırma və s.) zəruridir. Bu sahələrin struktur yenidənqurulmasına, texniki cəhətdən yenidən silahlanmağa, resurs dəstəyinə, kadrların kütləvi yenidən hazırlığı və ixtisasının artmasının, ixracın və idxalı əvəz edən istehsalın stimullaşdırılmasına böyük ehtiyacı var. Gizli işsizliyin yüksək potensiallı sahələrində onun açıq formaya keçməsini müayinə etmək üçün, məcburi inzibati məzuniyyətdə olanlar və ixtisar təhlükəsi olan şəxslərə qabaqlayıcı yenidənhazırlıq proqramlarının olması zəruridir.

Beləliklə, dövlətin əmək bazarı və məşğulluq sahəsində pərakəndə tədbirlərini, sosial-iqtisadi siyasətin vahid bölməsi çərçivəsində birləşdirmək, ona Rusiya Hökumətinin və Rusiya Federasiyası subyektlərini idarə edən orqanlarının fəaliyyətində prioritet istiqamət verilməsi məqsədəuyğundur.

Suallar və tapşırıqlar

1. Kadrlar… (ifadəni dafam etdirin) təşkil edir.
2. İş qüvvəsinin (nəticədə isə kadrların) təkrar istehsalının ilkin və müəyyənedici fazası nədir?
3. «Əmək bazarı» iqtisadi kateqoriyasının tərifini verin.
4. Əmək bazarında hansı əmtəə reallaşır (düzgün cavabı seçin): a) əmək, əmək xidməti; b)iş qüvvəsi; c) işçi; ç) iş yerləri.
5. Geniş mənada məşğulluq siyasəti….. (ifadəni davam etdirin) sistemini əhatə edir.
6. Məşğulluğun prinsiplərini sadalayın.
7. Məşğulluğun iqtisadi funksiyası nədən ibarətdir?
8. İqtisadi məqsədəuyğun iş yerləri dedikdə….(ifadəni davam etdirin) başa düşülür.
9. Məşğulluğun iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər sistemini sadalayın.
10. Məşğulluğun sosial funksiyalarının mahiyyəti nədən ibarətdir?
11. Rusiya Federasiyasında əmək bazarı və məşğulluğun tənzimlənməsinin əsas istiqamətlərini göstərin və qısa səciyyəsini verin.

© Буланов В.С., 2002
© Плакся В.И., 2002

XXI Fəsil

DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ VERGİLƏR

1. Vergilər və vergi siyasəti

Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin ümumi sistemində vergilər xüsusi yer tutur. *Vergilər* - dövlətin və yerli özünüidarəetmə strukturlarının[1] konkret əmtəə və xidmət istehsalçıları ilə - hüquqi şəxslər və həmçinin fiziki şəxslərlə, gəlirlər əldə edənlər və əmlaka malik olanlarla iqtisadi münasibətlərinin müəyyən sferasının dinamikasını əks etdirən mürəkkəb sosial-iqtisadi kateqoriyadır. Vergi dedikdə dövlətin və bələdiyyə qurumlarının fəaliyyətinin maliyyələşdirilməsi və onların öz funksiyalarını[2] daha tam həyata keçirmələri məqsədilə müəssisələrdən və fiziki şəxslərdən tutulan məcburi və əvəzsiz ödənişlər başa düşülür.

Vergitutma vergilərin yığılmasının kompleks sistemi kimi dövlətlə birlikdə yaranmış və inkişaf etmişdir. Cəmiyyətin inkişaf dərəcəsindən asılı olaraq dövlətin üzərinə daha yeni funksiyalar düşür. Xüsusi mülkiyyətin üstünlüyü və bazar münasibətlərinə keçid şəraitində vergilər dövlətin fəaliyyətinin maliyyə təminatının əsas mənbəyi kimi çıxış edir.

Maliyyə münasibətlərini (pul axınını) xarakterizə edən maliyyə kateqoriyası olaraq vergilər maliyyə resurslarının mərkəz-

[1] Rusiya Federasiyasının Konstitusiyasına əsasən bələdiyyə təşkilatları dövlət təşkilatları deyillər. – Müəllifin qeydi

[2] Bax. Rusiya Federasiyasının Vergi Məcəlləsi. M., 2001. səh 8

ləşdirilmlş fondlarının (ümumidövlət) təşklil edilməsini təmin edir. Büdcə, pensiya fondu, sosial sığorta fondu və s. belələrindəndir. Vergiqoymanın mənəvi-etik aspektlərini də qeyd etmək lazımdır ki, bu da vergi ödəyicilərinin ayrı-ayrı sosial qruplarının (müxtəlif səviyyənin və fəaliyyət sferasının sahibkarları, təqaüdçülər, aşağı gəlir səviyyəsinə məxsus insanlar) xüsusiyyətlərinin mümkün olan daha tam uçotunu nəzərdə tutur.

Vergilərin sosial-iqtisadi mahiyyəti onların funksiyalarında açılır. Adətən vergilərin dörd əsas funksiyasını ayırırlar: fiskal, bölüşdürücü, nəzarətedici və tənzimləyici (stimullaşdırıcı).

Dövlətin öz funksiyalarını həyata keçirməsinin tamlığı və dolğunluğu ölkənin əsas maliyyə fondunun – Rusiya Federasiyaının konsolidasiya olunmuş büdcəsinin böyüklüyündən, onun vergilər hesabına formalaşmasının müntəzəmliyindən və "dolu"luğundan asılıdır. Vergilərin *fiskal* funksiyası vergiödəyicilərinin gəlirlərinin bir hissəsinin tutulmasında, bu vergi tutmaların səviyyəsində və onun təşkilində, həmçinin büdcənin və maliyyə resurslarının digər ümümdövlət və bələdiyyə fondlarının vaxtlı-vaxtında və tam formalaşdırılması məqsədilə müxtəlif məcburedici tədbirlərin istifadə edilməsində üzə çıxmış olur.

Vergilərin fiskal funksiyasının reallaşdırılması digər funksiyaların – ilk növbədə *bölüşdürücü* funksiyanın həyata keçirilməsi ilə müşayiət olunur.

Mərkəzləşdirilmiş maliyyə fondlarına daxil olan vergilər bölüşdürülür və büdcədən maliyyələşdirmə formasında bu və ya digər məqsədlərə - maarifə və elmə, müdafiəyə, səhiyyəyə, idarəetmə orqanlarının saxlanılmasına və s. istiqamətləndirilir. Vergilərin yığılması prosesində onların eyni zamanda *nəzarət* funksisyası da həyata keçirilmiş olur. Dövlət vergiləri vaxtlı-vaxtında və tam əldə etməkdə maraqlıdır. Məhz buna görə də o, vergilər və yığımlar üzrə nazirliyin orqanları, vergi polisi, inzibati idarələrin maliyyə departamentləri və s. vasitəsilə vergilərin daxil olmasına nəzarət sistemini təşkil edir. Son illərdə Rusiyada vergilərin yığımı, daxil olması mümkün olan ümumi məbləğin 70-80%-ni təşkil edir ki, bu da vergi sisteminin fəaliyyətinə müsbət göstəricidir.

Vergitutmada *tənzimləyici* (stimullaşdırıcı) funksiyaya xüsusi əhəmiyyət verilir. Məhz o, vergi münasibətlərinə dövlət tərəfindən iqtisadiyyatın inkişafının makro və mikroiqtisadi proporsiyalarının tənzimlənməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, bazarın əmtəələrlə təminatı və iqtisadi artımın təminatı məqsədilə aktiv istifadə edilən kompleks iqtisadi vasitə(rıçaq) kimi çıxış etmək imkanı verən keyfiyyət məzmunu verir. Bu funksiya bazar iqtisadiyyatı subyektləri üçün (ilk növbədə müəssisələr üçün) yeni texnologiyaların istifadəsi və investisiya strategiyasının aktivləşdirilməsi yolu ilə istehsalın inkişafına əlverişli şərait yaratmalı olan vergi qanunvericiliyinin dəyişdirilməsi vasitəsilə həyata keçirilməlidir.

Göstərilən funksiyalardan başqa, həmçinin verginin *təkrar istehsal* funksiyasını da ayırmaq lazımdır. O yuxarıda baxılanlardan irəli gəlir. Inkişafın innovasiya-investisiya strategiyasının reallaşdırılması əsasında həyata keçirilən təkrar istehsal prosesi halhazırda Rusiya üçün xüsusi önəm kəsb edir. Vergitutma istər daxili, istərsə də xarici bazarlarda yerli məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, həmçinin o məhsulların içərisindən yüksək tələblə üzləşən məhsulların istehsal həcminin artırılması məqsədilə yeni texnologiyalara və elmtutumlu istehsal sahələrinə investisiyaları stimullaşdırmalıdır.

Və ən nəhayət, vergilərin *sosial* funksiyası. O, insanın məcmu intellektinin (ağlının) və mənəviyyatının (əxlaqının) formalaşdırılmasına təsir etməklə həyata keçirilir. Bu isə hər şeydən öncə həyat səviyyəsinin – onun uzunömürlülüyünün, yaşayış üçün layiqli şəraitin (səhiyyə, mənzil şəraiti, təhsil və s.) təmin edilməsi ilə təzahür olunur. Vergilər vasitəsilə bu prosesin tənzimlənməsi həyata keçirilir.

Vergilərin funksiyaları dövlət tərəfindən vergi siyasətinin işlənilib hazırlanması və həyata keçirilməsində aktiv istifadə edilir. *Vergi siyasəti* özündə istehsalın inkişafı, müəssisələrin və fiziki şəxslirin gəlirlərinin artması, həmçinin bu əsasda maliyyə resurslarının mərkəzləşdirilmiş fondlarının (konsolidasiya olunmuş büdcə və başqaları) formalaşdırılmasının təmin edilməsi istiqamətində

vergi mexanizminin məqsədyönlü istifadəsi üzrə dövlət tədbirləri sistemini əks etdirir.

Transformasiya olunan iqtisadiyyat şəraitində dövlətin vergi siyasəti hər şeydən öncə təsərrüfatçılığın bazar prinsiplərinə və davamlı iqtisadi artıma keçidini aktivləşdirmək, bazar iqtisadiyyatı dinamikasına adekvat olan mülkiyyət strukturu əsasında təsərrüfatçılığın səmərəli formalarını inkişaf etdirmək üçün lazımdır. O, iqtisadiyyatda zəruri struktur dəyişikliklərinin həyata keçirilməsi məqsədilə investisiyalar üçün maliyyə resurslarının yığılmasını, həmçinin rentabelliliyin artmasını və xərclərin azalmasını təmin etməlidir. Vergi siyasəti xarici investisiyaların cəlbi üçün əlverişli şərait yaratmalıdır. Nəhayət, sosial davamlılığı və xüsusilə vacib sosial məsələlərin həllərini təmin etmək, inkişafın ümumdövlət sosial-iqtisadi proqramlarını həyata keçirmək üçün kifayət qədər imkanlara malik maliyyə resurslarının mərkəzləşdirilmiş fondlarını (dövlət büdcəsi və digərləri) formalaşdırmaq da onun üzərinə düşür.

Vergi siyasəti dövlətin ümumi iqtisadi siyasətinin vacib tərkib hissələrindən biri kimi çıxış edir. O, əksər halda dövlətin ümumi iqtisadi siyasətinin uğurunu müəyyən edir. Beləki, vergiqoyma sistemi bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin vacib kompleks alətidir. Məhz bu kompleks funksiyanın icrası ilə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə vergitutma sistemləri səciyyələnir (ABŞ, Almaniya, İngiltərə və s.). Bu zaman vergi sistemlərinin *qurulmasının adekvatlığı* prinsipi reallaşdırılır. Bu ondan ibarətdir ki, vergiqoymanın forma və metodları dinamik olmalı və bazar iqtisadiyyatının formalaşmasının konkret şəraitinə uyğun olmalıdır. Dövlətin vergi siyasəti əksər halda səmərəli bazar mexanizminin formalaşmasını müəyyən edir. Məhz bu məqsədin Rusiyada vergi islahatlarının gedişində həyata keçirilməsi gərəkdir.

Vergi siyasətinin vasitəsilə dövlət inkişafın əsas makro- və mikroiqtisadi proporsiyalarını reallaşdırır. ABŞ-ın, Yaponiyanın, Almaniyanın və digər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vergi sistemi – prioritet sahələrin sürətli inkişafının, istehsalda struktur dəyişikliklərinin, xarici iqtisadi fəaliyyətin, investisiya və

innovasiya strategiyasının, sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsinin ən aktiv alətlərindəndir.

Yeni vergi sisteminin qurulmasının ən əvvəlindən (1992) başlıca olaraq fiskal istiqamət götürülmüşdür. Nəticədə vergi sistemi müsadirə funksiyasını yerinə yetirməyə başlamışdır. Məlumdur ki, müəssisələrdən indi müxtəlif vergilər vasitəsilə mənfəətin 9/10 – dan çoxu tutulur. Sənaye müəssisələrinin müayənəsi göstərdi ki, onlar investisiyalara mənfəətin yalnız 5-10%-ni yönəldirlər, o zaman ki, yeni vergi sisteminə keçidə qədər bu pay 20%-dən az təşkil etmirdi. Və bu o şəraitdə baş verir ki, maddi istehsalın aparıcı sahələrinə məxsus müəssisələrdə avadanlığın aşınması 65% və daha çox təşkil edir.

Qeyri-effektiv vergi siyasətinin nəticəsində artıq yaxın müddətlərdə istehsala yönəldilməsi üçün çox böyük əlavə investisiyalara ehtiyac olacaqdır. Amma bu vəzifəni müasir rusiya büdcə-vergi sistemi həll etmək iqtidarında deyildir. O, stimullaşdırıcı başlanğıcdan məhrumdur, hansı ki, müasir şəraitdə Rusiya iqtisadiyyatının inkişafı üçün son dərəcə vacib əhəmiyyət kəsb edir.

Vergi mexanizmi vasitəsilə inkişafın prioritet istiqamətlərinin stimullaşdırılması, vergi proteksionizmi şəraitinin yaradılması keçid dövrü iqtisadiyyatları üçün səciyyəvidir. Bundan Yaponiya, Tayvan, Koreya Respublikası və digər ölkələr keçmişlər. Bu siyasət aktiv olaraq Çində tətbiq edilir. Yalnız Rusiyada vergi sistemi hələ də iqtisadiyyatın fəaliyyətinin real məqsədləri ilə kifayət qədər əlaqəli deyildir.

Rusiya vergi sisteminin sərtliyi, onun ilk növbədə əhalinin və müəssisələrin gəlirlərindən yüksək dərəcəli vergi tutmaları vasitəsilə büdcənin kəsirliliyinin aradan qaldırılmasına məqsədli yönəlməsi ilə şərtlənmişdir. Bunun nəticəsi kimi müəssisələr ağır maliyyə vəziyyətinə düşmüş və onlar istehsalın inkişafı üçün vəsaitsizliklə üzləşmişlər. Hələ də vergi sisteminin bazar iqtisadiyyatının birbaşa subyektləri - müəssisələrin və korporasiyaların fəaliyyətləri ilə kifayət qədər bağlılığı və rabitəsi yoxdur. Bu cür qarşılıqlı əlaqənin itirilməsi ona gətirib çıxarmışdır ki, vergi sistemi hələ də ilk növbədə fiskal məsələlərin həlli ilə məşğuldur və hələ də

iqtisadiyyatın ümumi inkişafına onların təsirinin uçotunu aparmır. Bunun nəticəsi olaraq sənaye müəssisələrinin təxminən üçdən ikisi maliyyə müflisləşməsinə yaxın olan çox ağır maliyyə vəziyyətinə düşmüşlər. Hal-hazırda müəssisələrin 35%-i zərərli vəziyyətdədirlər.

Qüvvədə olan indiki vergi sistemi şəraitində müəssisələr yüksək vergitutmadan yayınmaq üçün minimal mənfəət əldə etməkdə maraqlıdırlar. Iqtisadiyyat heç vaxt görünmədiyi qədər çox xərcli olmuşdur. Buna azad qiymətqoyma şəraitində inhisarların mövcudluğu, inflyasiya xərclərinin üstünlüyü də həmçinin köməklik göstərir.

2. Vergi sistemində islahatlar

İstehsal münasibətlərinin ümumi sisteminin hissəsi olmaqla, vergilər eyni zamanda təkcə yeni dəyərin – milli gəlirin deyil, müəyyən mənada məcmu milli məhsulun digər hissələrinin də yenidən bölgüsü prosesində pul vəsaitlərinin real axınını əks etdirir. Məhz bunda təsərrüfatçılığın bazar sisteminə adekvat olan, iqtisadiyyatın yeni səmərəli strukturunun formalaşdırılması üçün dövlətin əlində aktiv alət və vasitə kimi vergilərin vəzifəsi üzə çıxmış olur. 1992-ci ildə başlanan vergi sistemindəki aktiv islahatlar ilk növbədə strateji vəzifələrin həllinə deyil, dövlətin cari məsələlərinin həllinə yönəldildi (büdcə kəsirinin azaldılması, büdcədən maliyyələşənlərin əmək haqqlarının ödənilməsi, böhranlı-inflyasiyalı tendensiyaların aradan qaldırılması, xarici borcun ödənilməsi və s.). ETTKİ-nin və elmtutumlu sahələrin büdcədən maliyyələşdirilməsi demək olar ki, tamamilə dayandırılmışdır. Bu iqtisadiyyatın geriyə qalmış strukturunu konservləşdirmişdir. Hələ indiyə qədər vergi sistemi fəaliyyətin daha mütərəqqi (dünya tendensiyalarına uyğun olaraq) sferalarına kapital axınını təmin edəcək metodlardan istifadə etməyir. Son illərin büdcəsində təhsilə ayrılan vəsaitlərin artması müsbət haldır, baxmayaraq ki, onların həcmi inkişaf etmiş bazar iqtisadiyyatlı aparıcı ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə aşağıdır. Eyni

zamanda, aydındır ki, gələcək inkişaf – məcmu ictimai intellektin formalaşmasına və istifadəsinə əsaslanan innovasion-investision prosesdir.

Taktiki və strateji sosial-iqtisadi məsələlərin həllində vergi sisteminin üzərinə xüsusi vəzifə düşür. Bəs vergi sistemi nədir və onun fəaliyyət mexanizmi necədir?

Vergi sistemi özündə bəzi elementlərin mahiyyətcə müəyyən məcmusunu əks etdirir. Vergi sisteminə bütün müxtəlifllikləri daxilində vergilərin özləri, həmçinin onlar arasındakı qarşılıqlı əlaqələr daxildir. Vergitutmanın hüquqi sahəsi və vergitutmanı idarə edən orqanlar vacib elementlərdir. Bütün bu həlqələrin qarşılıqlı əlaqəsi bütünlükdə vergi sisteminin səmərəliliyini müəyyən edən ümumi *inteqrasiya keyfiyyətini* formalaşdırır.

Vergi sisteminin fəaliyyəti, özündə təşkilati-hüquqi normalar və vergitutmanın idarəedilməsi metodlarının mahiyyətcə müəyyən məcmusunu əks etdirən *vergi mexanizmi* vasitəsilə reallaşdırılır. Rusiyada vergi islahatlarının həyata keçirilməsi müddətində, keçid iqtisadiyyatının bütün subyektlərinin maraqlarını əks etdirən vergi sistemi hələ də yaradılmamışdır. Ümumilikdə islahat əsaslandırılmış prinsiplər əsasında həyata keçirilir (bax: sxem 11). Vergilərin bəzi funksiyalarının, xüsusilə də fiskal və nəzarət funksiyalarının hipertrofiyalaşdırılmış (həddən artıq böyümüş ölçüdə) həyata keçirilməsi vergi sisteminin qeyri-səmərəli fəaliyyətinə gətirib çıxarmışdır. Ümumi daxili məhsulun yarıya qədərinin kölgə iqtisadiyyatı tərəfindən istehsal olunması kimi tək bircə fakt deyilənləri sübut etmiş olur[1]. Iş burasındadır ki, yüksək vergi təzyiqi rusiya müəəssisələrini kölgə sektoruna keçməyə məcbur edir. Müəssisələrin nəzarətedici orqanlarla qarşılıqlı əlaqəli olaraq mövcud korrupsiya dövriyyəsində iştirakının yaranmış zəruriliyi də həmçinin buna şərait yaradır. Dövlət tərəfindən bu cür neqativ faktorun aradan qaldırılması iqtisadi münasibətlərin sonrakı normallaşdırılması üçün vacib zəmin yaradır.

[1] Analitiklərin qiymətləndirilməsi. DİN-in məlumatlarına əsasən – təxminən 40%



Sxem 11. Vergi islahatlarının prinsipləri

Vergi islahatları vergitutmanın bütün sistemini, onun məqsədlərini və vergi funksiyalarının təzahürünü dəyişdirdi. Hal-hazırda vergitutma sisteminin təsir qüvvəsini və kəsərliliyini müəyyən edən əsas problem, onun yerinə yetirdiyi funksiyaların qarşılıqlı əlaqələrinin optimallaşdırılmasından ibarətdir. Onların hamısı kompleks həyata keçirilir ki, bu da onun səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin reallaşdırılmasının potensial imkanlarını təmin etməklə vergi sisteminə yeni keyfiyyət məzmunu vermiş olur.

Vergilərin əvəzlilik (kompensasion) konsepsiyasına keçid böyük əhəmiyyət kəsb edir. Onun əsasında vergilərə dövlət tərəfindən göstərilən xidmətlərin əvəzinə ödənilən haqq kimi baxılması dayanır. Beləki, ictimai xidmətlər sistemi genişlənir, vergi əvəzliliyi konsepsiyası xaricdə özünün daha da geniş tətbiqini tapır[1]. Bunun sayəsində vergi ödəyiciləri dövlət tərəfindən göstərilən xidmətlərin keyfiyyəti və dolğunluğu, onların vergilərin həcminə uyğunluğu barədə sual qoymaq hüququna malikdirlər (şəxsiyyətin və biznesin mühafizəsi, iqtisadiyyatın idarəedilməsinin təşkili və onun proporsional inkişafının təmini, iqtisadi artımın infrastruktur əsasının formalaşdırılması, inkişafın intellektual-informasion əsasınım təmin edilməsi, həyat səviyyəsi və kompleks sosial

vəzifələrin həlli və s). Vergitutmaya bu cür yanaşma dövlətin öz tənzimləyici funksiyalarını həyata keçirməsinə məsuliyyətini xeyli dərəcədə artırmış olacaqdır.

İnkişaf edən bazar iqtisadiyyatının maraqlarının bütün sisteminin vergi mexanizmində daha tam uçotu da həmçinin tələb olunur: dövlətin və cəmiyyətin, sahibkarların və bilavasitə işçilərin. Bunun üçün ilk növbədə hüquqi şəxslərin, yəni müəssisələrin, firmaların, korporasiyaların üzərinə qoyulan vergi yükü azaldılmalı, həmçinin iqtisadi artımın təmin edilməsində sahələrin və müəssisə qruplarının əhəmiyyətindən, rentabellilik səviyyəsindən asılı olaraq mənfəətin diferensiallaşdırılmış vergitutmaya cəlbinə keçilməlidir[2].

Gəlirin mənbəyindən asılı olaraq vergi dərəcələrinin diferensiasiyası və vergitutma bazasının formalaşması qaydasının dəyişdirilməsi yolu ilə vergitutmanın passiv-müsadirə xarakterli təşkilindən aktiv-stimullaşdırıcıya keçidi də mühüm əhəmiyyət kəsb edir (hazırkı ildə məhsulun maya dəyərinin endirilməsi hesabına əldə edilmiş mənfəətə sıfır vergi dərəcəsinin tətbiqi misal ola bilər ki, bu da istehsalda istifadə edilən resursların qənaət edilməsinə stimullar yaradar).

Vergi sistemi yalnız taktiki deyil, eyni zamanda həm həyat səviyyəsinin, həm də iqtisadiyyatın artım templərinin yüksəldilməsini əhatə edən iqtisadi inkişafla əlaqədar uzunmüddətli strateji məqsədlərə istqamətlənməlidir.

Ən nəhayət, vergitutma mexanizminin vahid istiqamətinin olması üçün sistemliliyin tələblərinə ardıcıl əsaslanmaq lazımdır.

Bu elə bir vergi sisteminin qurulmasını nəzərdə tutur ki, onun bütün elementlərinin qarşılıqlı əlaqəsi zamanı istehsalın inkişafı üçün inteqrasion impuls verə bilsin. Bir sözlə, vergi sisteminin ümumi istiqaməti təkrar istehsal xarakterinə malik olmalı, istehsal investisiyalarının və sahibkarlıq təşəbbüsünün səmərəli inkişafına imkan yaratmalı və kömək etməlidir.

Bütün bunlar Rusiyada vergitutma konsepsiyasının dəyişilməsini tələb edir. O, iqtisadi inkişafın həlledici kompleks faktoruna çevrilməlidir[1]. Təkrar istehsalın innovasion-investision tipinin isti-

---

[1] Bax. R.Samuelson, V.Nordhaus. İqtisadiyyat. M., 1997. səh 346-350

2. RF-nın qanunu qismində qəbul edilmiş mənfəətdən vergitutulması haqqında RF-nin Vergi məcəlləsinin 2-ci hissəsinin 25-ci fəsli vergi

fadəsi əsasında istehsalın artımını stimullaşdırmaqla, vergi sisteminin üzünü istehsalın maraqlarına tərəf çevirmək zəruridir. Elə vergi dərəcələrinin, həmçinin elə vergitutma baza və mexanizminin seçilməsi zəruridir ki, müəssisələrin mənfəətindən vergitutma indi olduğu kimi istehsalın inkişafını dayandırmasın, əksinə onun artması üçün əlavə impuls yaratsın.

Vergitutmanın dünya təcrübəsi vergi dərəcələrinin səviyyəsi ilə gəlir həcmi uyğun olaraq vergi daxilolmaları arasındakı elastik asılılıq müddəasına artıq çoxdan əsalanır. Vergi dərəcələrinin azalması zamanı müəssisələrin gəlirlərinin artma tendensiyaları güclənir. Uyğun olaraq vergitutma bazasının (istehsal həcmi, gəlirlər) böyüməsi hesabına büdcəyə vergi ödənişlərindən daxilolmalar artır. Bunu növbəti əyridə təsvir etmək olar:



Qeyd: V – vergi dərəcəsi, G – gəlirin həcmi

Qrafik 1. **Vergitutma bazasının vergi dərəcəsinin səviyyəsindən asılılığı**

V_D - M_G əyrisi vergi dərəcələrinin dəyişilməsi (V) ilə vergi qoyma bazasının (G) – müəssisənin mədaxilinin (gəlirinin) artımı arasında asılılığı əks etdirir. V_D – Ə kəsiyində vergi dərəcələrinin endirilməsi müəssisələrin gəlirinin köklü artımına səbəb olmur.

dərəcəsini azaldır, lakin istehsalın vergi stimullaşdırılması problemlərini həll etmir. – müəllifin qeydi

Ə - M_G kəsiyində isə vergi dərəcələrinin enməsinin hər nöqtəsinə vergi bazasının və gəlirlərin artımı tempinin daha çox yüksəlişi düşür. Buna görə də elastiklik əmsalı – gəlirlərin (mədaxilin) artımı templərinin və vergi ödəmələrinin azalması templərinin nisbəti – V_D – Ə kəsiyində birdən kiçikdir, yəni V_D – Ə < 1, Ə - M_G kəsiyində vahiddən böyük, yəni Ə - M_G > 1, Ə nöqtəsində isə vahidə bərabərdir, yəni Ə =1.

Dünya təcrübəsində müəyyən edilmişdir ki, vergi sistemi vasitəsilə əlavə (yenidən yaradılan) dəyərin tutulmasının maksimal mümkün səviyyəsi orta hesabla 33-35% həddində qərarlaşmalıdır (beləki, Rusiyada bu göstərici təxminən 60% təşkil edir). Dərəcələrin sonrakı artımı istehsalın mənbələrini investisiya və stimullardan məhrum etməklə onun
inkişafını ləngidir, vergi bazasını ixtisar edir və vergi ödəmələrinin azlmasına aparıb çıxarır. Vergi dərəcələrinin azaldılması isə (müəyyən həddə qədər) istehsalın inkişafını stimullaşdırır və vergi daxilolmalarının artmasına aparıb çıxarır. Bunu 2001-ci ildən Rusiyada tətbiq edilmiş, fiziki şəxslərin gəlirlərindən vergitutmanın yeni qaydaları aydın şəkildə sübut etmişdir. Vergi dərəcəsinin 13%-ə endirilməsi zamanı büdcəyə daxil olan vergi ödənişlərinin miqdarı 1,5 dəfədən də çox artmış oldu.

Bu cür metodoloji yanaşmanı həmçinin, vergi daxilolmalarının ümumi miqdarının tətbiq edilən vergi dərəcələrinin böyüklüyündən asılılığını əks etdirən əyrini qurmuş amerikan iqtisadçısı A.Lafferin gəldiyi ümumqəbuledilmiş nəticə də təsdiqləyir.



Gəlirdən vergi tutulması dərəcəsi (%-lə)

Qrafik 2. A. Laffer əyrisi

Verilən əyri sübut edir ki, vergi daxilolmalarının həcmi (vergitutma bazasının artımı) vergi dərəcələrinin artımının müəyyən həddinə qədər böyüyür (orta hesabla, əlavə dəyərin tutulmasının 35% hüdudunda).

Vergi dərəcələrinin növbəti artımında vergi daxilolmaları kəskin azalır. Beləliklə, vergi sistemi elə qurulmalıdır ki, əmtəə və xidmətlər istehsalı sferasında əmək sərf edilməsinə marağın və sahibkarlıq təşəbbüsünün təzahürünə maneçilik yaratmasın. Təəssüflər olsun ki, rusiyanın vergi sistemi bu tələblərə cavab vermir. Ingiltərə, ABŞ, Almaniya kimi inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrlə müqayisədə Rusiyada müəssisələrin gəlirlərinin (əlavə dəyərin) tutulmasının orta səviyyəsi kifayət qədər böyük payı təşkil edir.

Vergi sisteminin fəaliyyətinin təhlili prosesində vergi ödəyicisi, vergitutma obyekti, vergitutma bazası, vergi dərəcəsi, vergi miqdarı, vergi dövrü və s. kimi bir sıra anlayışlar istifadə edilir. Onların şərhi Rusiya Federasiyasının Vergi Məcəlləsində kifayət qədər aydın verilmişdir. Elə oradaca vergilərin müəyyən edilməsi və yığılması qaydaları səciyyələndirilir. Rusiya Federasiyasında növbəti vergi növləri tətbiq edilir federal vergilər, Rusiya Federasiyasının subyektlərinin vergi və yığımları (regional) və yerli vergi

və yığımlar (bax sxem 12). Bu vergilər federal regional və yerli (bələdiyyə) büdcələr üçün uyğun maliyyə bazasını yaradırlar. Federal vergilərin bir hissəsi, misal üçün, əlavə dəyər vergisi, gəlir vergisi, aksizlər və bir sıra başqaları *tənzimləyici* qismində çıxış edirlər. Onların məbləğinin bir hissəsi Rusiya Federasiyasının növbəti ilin büdcəsi haqqında qanununa uyğun olaraq aşağı (tabelikdə olan) büdcələrə daxil ola bilər. Federasiya subyektlərinin (regional) vergilərinin bir hissəsi yerli özünüidarəetmə (bələdiyyə) büdcələrinə verilə bilər. Bu büdcələrin xərclər və gəlirlər üzrə balanslaşdırılması məqsədilə həyata keçirilir.

Büdcə-vergi federalizminin inkişafına müvafiq olaraq hakimiyyətin hər səviyyəsinin büdcəsi uyğun hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsinin maliyyə təminatı kimi çıxış edir. Qeyd etmək lazımdır ki, Rusiyanın xalq təsərrüfatında müsbət ərazi proporsiyalarının inkişafı əksər hallarda bələdiyyə və regional büdcələrin mədaxil bazasının formalaşmasından asılıdır.

Hazırda vergi sistemində vergilərin ümumi namenklaturası 30-a yaxın addan ibarətdir (bax sxem12). Bütün növ vergi və yığımlar Rusiya Federasiyasının uyğun Qanunları ilə müəyyən edilir. Vergi münasibətlərini tənzimləyən əsas qanun Rusiya Federasiyasının Vergi Məcəlləsidir. Bu vergi orqanları və vergi ödəyicilərinin qarşılıqlı münasibətlərindən, onların hüquq və səlahiyyətlərinin səciyyəvi xüsusiyyətlərindən başlamış, hesablaşma qaydaları və vergi ödənişlərində qurtarmaqla vergitutma və vergi yaradıcılığının bütün proseslərini əhatə edən vahid normativ-qanunverici aktdır. Vergi Məcəlləsi qanunun birbaşa təsirinə maksimal yaxınlaşmışdır və vergi sisteminin əsaslı dəyişikliklərə məruz qalmadan təkamül yolu ilə islahatlarını nəzərdə tutur. Onda vergitutmanın fiskal funksiyalarına və dövlətin xeyrinə vəsaitlərin tutulmasının maksimallaşmasına istiqamətlənmə dominantlıq təşkil edir.



Federal	RF-sı subyektlərinin (regional)	Yerli (bələdiyyə)
- ƏDV; - mənfəətə; - aksizlər; - fiziki şəxslərin gəlirlərinə; - yeraltı sərvətlərin istifadəsinə görə ödənişlər; - gömrük rüsumları; - sairələr.	- təşkilatların əmlakına; - daşınmaz əmlaka; - nəqliyyat vergisi; - satışdan; - sairələr.	- torpaq; - fiziki şəxslərin əmlakına; - reklama; - mirasa və paya; - sairələr.

Sxem 12. **Rusiyanın vergi sisteminin əsas vergiləri**

Qeyd etmək lazımdır ki, regional və yerli vergilər Federal qanunvericiliklə (Rusiya Federasiyasının Vergi kodeksi) müəyyən edilmiş ölçüyə və siyahıya uyğun dairədə müvafiq hakimiyyət orqanları tərəfindən müəyyənləşdirilə bilər. Bu əsasnamə bütün vergi sisteminin mərkəzləşdirilmiş tənzimlənməsi üçün əsas təşkil edir (bax Rusiya Federasiyasının Vergi Məcəlləsi, hissə 1,səhifə 12,13,14 və 15). Hal-hazırki dövrdə federal, regional və yerli orqanlar arasında hakimiyyət səlahiyyətlərinin nisbətinin optimallaşdırılmasının aktiv prosesi gedir. Buna uyğun olaraq da ümumi konsolidasiya olmuş büdcədə sadalanan büdcələrin nisbəti dəyişilməkdədir. 2001-ci ildə o uyğun olaraq 53% - 42% - 5% nisbətində olmuşdur. Son 2 ildə federal büdcənin ümumi - konsalidasiya olmuş büdcədə payının artması tendensiyası müşahidə edilməkdədir.

Federal büdcənin gəlirlərinin analizi (bax cədvəl 16) göstərir ki, cəmi dörd vergi ödənişi - əlavə dəyər vergisi, aksizlər,

müəssisələrin mənfəətindən tutulan vergilər və təbii resurslardan istifadyə görə ödəmələr vergi daxilolmalarının 80%-ni təmin edir. Federal büdcənin ümumilikdə bütöv gəlirlərində vergi daxilolmalarının cəmi miqdarı, indi 81%-dən çox təşkil edir.

Nəzərə almaq lazımdır ki, ümumi konsolidasiya olunmuş büdcənin gəlirlərinin strukturu regional və yerli büdcələrin gəlirlərinin daxilolmaları hesabına bir az başqa cür olacaqdır

Cədvəl 16

2002-ci ildə federal büdcənin gəlirlərində əsas vergilərin payı
(plan)

Göstəricilər	Milyard rubl.	yekuna %-lə	vergi daxilolmalarında %
Federal büdcənin gəlirləri – cəmi	2125,7	100	-
O cümlədən: vergi daxilolmaları – cəmi	1726,3	81.2	100
Onlardan:			
- ƏDV	773,5	-	44,8
- aksizlər	224,5	-	13,0
- mənfəətdən vergi	207,4	-	12,0
- təbii resurslardan istifadyə görə ödənişlər	183,7	-	10,6

Qeyd . Yalnız əsas federal gəlirlər təqdim edilir

Vergilərin tənzimləyici (stimullaşdırıcı) rolunun gücləndirilməsi üçün onların birbaşa və dolayıya bölünməsi mühüm əhəmiyyət kəsb edir. *Birbaşa* vergilər bilavasitə olaraq konkret fiziki və ya hüquqi şəxsin gəlirlərindən ödənilir. *Dolayı* vergilər, bir qayda olaraq, məhsulun qiymətinə əlavə olaraq dövriyyədən vergilər kimi çıxış edir və onların ödənişi alıcının (məhsulun və ya xidmətin istehlakçısının) üzərinə qoyulur. Əgər vergitutma subyekti (faktiki olaraq vergini ödəyən şəxs) və ödəyici (vergi odənişi əməliyyatını həyata keçirən şəxs) eyni bir şəxsdə (fiziki və ya hüquqi) üst-üstə düşürlərsə, bu zaman vergi birbaşadır. Əgər bu cür üst-üstə düşmə

yoxdursa, - bu zaman vergi dolayıdır. Misal üçün, fiziki şəxslərin gəlirlərinə və mənfəətinə tətbiq edilən vergilər birbaşaya, ƏDV və aksizlər isə - dolayıya aiddir, beləki, vergitutma subyekti kimi burada son istehlakşı çıxış edir, müəssisə isə (verginin ödəyicisi) yalnız vergini büdcəyə daxil edir.

Rusiyanın iqtisadiyyatında dolayı vergilər – ƏDV, aksizlər, satışdan vergilər və s, üstünlük təşkil edir. Onlar daxil olan vergilərin ümumi məbləğinin 70%-dən çoxunu təşkil edir. ABŞ-da isə bu nisbət tam əksinədir – daxilolmaların 70%-ə yaxınını birbaşa vergilərdən daxilolmalar təşkil edir. Dolayı vergitutmanın Rusiyada əhəmiyyətli dərəcədə üstünlük təşkil etməsi vergi sisteminin az "şəffaf", üstü örtülü (dumanlı) və fiskal istiqamətli olmasının göstəricisidir. Məqsədəuyğundur ki, Rusiyanın vergi sistemində vergi sistemlərinin inkişafının müasir mütərəqqi tendensiyalarının tələblərinə cavab verən birbaşa vergiqoymadan daha böyük ölçüdə istifadə edilsin.

Həmçinin nəzərə almaq lazımdır ki, digər faktorlarla birgə vergilərin, xüsusilə də dolayı vergilərin səviyyəsi bir çox hallarda qiymətlərin yüksəkliyini müəyyən edir. Vergi elementləri nöqteyi-nəzərindən qiyməti, uyğun simvolikanı istifadə etməklə növbəti görünüşdə təqdim etmək olar:

$$\mathbf{Q_{pə}=M_x+M_v+ M_v +M_v+G_x+A_{ks}+Ə_{dv}+ Ə_{lavyön} + Ə_{lavhis} + S_{atver}}$$

burada $Q_{pə}$ - pərakəndə qiymət; M_x – istehsala çəkilən xərclər; M_v – mayadəyərinə daxil olan vergilər (misal, vahid sosial vergilər və s. – cəmi 12 vergi); M_v – maliyyə nəticəsindən ödənilən vergilər (misal üçün, müəssisənin əmlakına vergilər və s. – cəmi 3 vergi); M_v – mənfəət vergisi və mənfəətdən ödənilən digər vergilər (vergi qalığı, vergi borcu və s.); G_x – müəssisənin sərəncamında qalan xalis gəlir (müəssisədə qalan məcmu gəlirin bir hissəsi kimi çıxış edən, mənfəət-netto); A_{ks} – aksiz (aksiz tətbiq edilən məhsullar üzrə orta tarif 40%-ə yaxın); $Ə_{dv}$ - əlavə dəyər vergisi (hökumətin siyahısına əsasən sosial əhəmiyyətli məhsullar üzrə 20% və10% tariflər); $Ə_{lavyön}$ - vergi və tədavül xərclərinin ödənilməsinə

yönəldilmiş ticarət əlavəsi, $Ə_{lavhis}$ - ticarətin xalis mənfəətini formalaşdıran ticarət əlavəsinin bir hissəsi; S_{atver} – satışdan vergi.

Sivilizasiyalı dünyada vergi sisteminin qurulmasının ümumqəbuledilmiş, əsas prinsiplərindən biri vergitutulmasının bir dəfə tətbiq edilməsidir (verginin bir dəfə tutulmasıdır). Rusiyanın təcrübəsində isə gəlirin həmin, eyni məbləğinin 2-3-dəfəli, hətta çox vergitutmaya cəlbindən (gəlirin eyni məbləğindən bir neçə dəfə vergi tutulması) istifadə edilir. Misal üçün, vahid sosial vergi faktiki olaraq əmək haqqına vergi (əməkhaqqı fonduna əlavə edilmiş məbləğ) kimi çıxış edir, bundan əlavə, əmək haqqından gəlir vergisi, sonra aksiz, sonra isə əlavə olaraq əlavə dəyər vergisi və satışdan vergi də tutulur. Eyni zamanda vahid sosial vergi aksizlərin vergitutma bazasına daxildir, aksizlər isə - ƏDV-nin vergitutma bazasına daxildir və s.

Məhsulların qiymətində vergi məbləğinin payı aksizli məhsullar özrə 60%-dən 95%-ə qədər, qiymətinə aksiz daxil edilməyən məhsullar üzrə isə onların növündən və vergi dərəcələrinin səviyyəsindən asılı olaraq – 30 - 60% təşkil edir. Bir sözlə, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə edildiyi kimi çoxdəfəli vergiyə cəlb edilmənin məhdudlaşdırılması, təkrar vergi tutulması zamanı (əgər bunsuz keçinmək mümkün deyildirsə) vergi dərəcələrinin kəskin endirilməsi, sıfır faizli vergi dərəcələrinin geniş tətbiq edilməsi haqqında ciddi düşünməyin vaxtı artıq gəlib çatmışdır.

Təbiidir ki, qiymətdə vergilərin payının azalması məhsulun rəqabətqabiliyyətliliyini artırır. Müəssisələr qiymətlərin endirilməsi ilə yanaşı xalis mənfəətin payını artırmaq və bununla da investisiya prosesini aktivləşdirə bilmək imkanı əldə edirlər. Qiymətlərdə vergilərin yüksək payı bazar alətlərinin təsir qüvvəsini və bazar faktorlarının (tələb və təklif) qiymətəməlgəlməyə təsirini azaldır. O, vergi ödənişlərinin azaldılması məqsədilə istehsalçıları məhsulların çeşidini dəyişdirməyə məcbur edir.

Söylənildiyi kimi, sahibkarlıq gəliri *xalis mənfəət* şəklində çıxış edir. Yalnız xalis mənfəət kapitalın sahibində qalır və səhmdarların yığıncağı tərəfindən bölüşdürülür. O, hökumətin qərarlarında və ya müəssisənin Nizamnaməsində nəzərdə tutulmuş

müxtəlif ehtiyat fondlarının formalaşdırılmasına, dividendlərin ödənilməsinə istiqamətlənir. Xalis mənfəət amortizasiya ayırmaları ilə birlikdə investisiyaların əsas mənbəyi kimi çıxış edir. Onun bir hissəsi işçilərin stimullaşdırılması (mənfəətdə iştirak sistemi) və s. məqsədlərlə istifadə edilə bilər.

Mövcud fəaliyyətdə olan vergi sistemində xalis mənfəətin miqdarı müəssisənin normal inkişafı üçün tamamilə yetərsizdir. Əgər xalis mənfəət üzrə rentabelliliyi qiymətləndirsək (xalis mənfəətin və müəssisənin balansında valyuta şəklində əks olunan bütün istifadə olunmuş kapitalın nisbəti), onda onun sənayedə səviyyəsi 1%-i ötməz. Eyni zamanda müəssisələrin əksəriyyəti simvolik – bir neçə on min rubl xalis mənfəət əldə edirlər. Sənayedə müəssisələrin üçdə bir hissəsi ziyanla işləyir, çoxları müflisləşmə həddindədir və yalnız müəssisələrin 7-8%-i normal fəaliyyət göstərirlər. Təbiidir ki, xalis mənfəətin bu səviyyəsində müəssisələr normal inkişaf edə bilməzlər.

Təcili olaraq bu vəziyyəti düzəltmək lazımdır. Dövlətin vəzifəsi ümumi (12-17%) və xalis mənfəət üzrə (təxminən 8-10%) rentabelliliyin minimum səviyyəsini müəyyən etmək və vergi stimullaşdırmasını istifadə etməklə ona nail olunmasına müəssisələri istiqamətləndirməkdən ibarətdir.

Müəssisələrin gəlirlərinə nisbətdə bütün vergiləri bölmək olar *proqressivə* - bu zaman gəlirin miqarından asılı olaraq vergi dərəcələri artır; *proporsionala* - bu zaman vergi dərəcəsi dəyişilməz olaraq qalır; *reqressivə*- bu zaman vergitutma bazasının artması halında vergi dərəcəsi azalır. Müxtəlif ölkələrin vergi sistemlərində, həmçinin Rusiyada vergilərin bütün bu tiplərindən istifadə edilir. Misal üçün, rusiyanın fiziki şəxslərdən tutulan gəlir vergisi proporsional quruluşa malikdir (gəlirindən asılı olmayaraq vahid dərəcə - 13%). Reqressiv vergilərə vahid sosial vergini aid etmək olar (əmək haqqının artımı zamanı vergi dərəcəsi enir). Torpaq vergisi – proqressiv vergidir (dərəcə torpaq sahəsinin ölçüsündən asılıdır).

3. Vergiqoymanın səmərəliliyinin artırılması

Vergi sisteminin səmərəliliyi meyarı onun bütün iqtisadi subyektlərin maraqlarını nəzərə almaqla sosial-iqtisadi məsələlərin həllinə təsirinin səviyyəsi ilə müəyyən olunur. Keçid iqtisadiyyatı şəraitində vergi siteminin səmərəliliyinin əsas meyarı kimi onun bütün iqtisadiyyatın təməl əsası olan istehsal sferasının inkişafını stimullaşdırmaq qabiliyyəti çıxış edir.

Vergi sisteminin səmərəliliyi onun vergitutmanın metodoloji prinsiplərinə və funksiyalarına uyğunluğu mövqeyindən qiymətləndirilməlidir. Çıxış nöqtəsi kimi vergi funksiyalarının elə ahəngi qəbul edilir ki, hansı ki, davamlı iqtisadi inkişafa şərait yaratmaqla necə ki, makrosəviyyədə, eləcədə mikrosəviyyədə iqtisadiyyatın dinamik inkişfını stimullaşdırır. Vergitutma funksiyalarının fəaliyyətinin inteqrasion (sinergetik) səmərəsinin istifadəsi məqsədilə onların kompleks həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Vergi sistemi maliyyə resurslarının kifayət qədər mərkəzləşdirilmiş fondlarının formalaşdırılması ilə yanaşı iqtisadi artımın əsasları və stimullarını formalaşdırmaqla iqtisadi inkişafın stimullaşdırılması üçün də şərait yaratmalıdır. Vergi sisteminin səmərəliliyini iki aspektdə baxmaq məqsədəuyğundur.

Birincisi, çəkilmiş xərclər və cəmiyyət tərəfindən əldə edilmiş səmərəlilik arasında qarşılıqlı asılılığı, daha doğrusu vergilərin məbləğinin daxil olması şəklində vergi sisteminin fəaliyyətinin nəticəsini əks etdirən taktiki (cari) səmərəliliyi ayırmaq lazımdır. Vergi sisteminin səmərəliliyinin aydınlaşdırılmasına bu cür yanaşma vergilərin yığılması üzrə xərclərin minimallaşdırılması və gəlirlərin bütün mənbələrinin aşkar edilməsinin zəruriliyi ilə şərtlənir. Səmərəliliyin bu göstəricisini dövlət tərəfindən vergi şəklində bölüşdürülən ÜDM və yığım xərcləri (daha doğrusu vergi daxilolmalarından dövlətin xalis gəliri) arasındakı fərq kimi və bu məbləğlərin cəminin vəsaitlərin yığılması üzrə xərclərlə nisbəti kimi müəyyən etmək olar. Bu yanaşmanın çatışmayan cəhəti ondan

ibarətdir ki, vergitutmanın perspektiv iqtisadi və sosial nəticələri nəzərə alınmır.

İkincisi, strateji (perspektiv) səmərəliliyi ayırmaq lazımdır. Bu göstərici vergitutma sisteminin iqtisadi inkişafa bütöv olaraq təsirnin uçotuna əsaslanan xalq təsərrüfatı yanaşmasını əks etdirir. Məhz bu vergi sisteminin tək yaxın gələcəkdə deyil, həmçinin perspektivdə iqtisadiyyatın inkişafı üzrə vəzifələrin həyata keçirilməsini stimullaşdırmaq qabiliyyəyini səciyyələndirir.

Vergi sisteminin səmərəliliyini səciyyələndirən ən vacib göstəricilərdən biri elastiklik əmsalıdır ki, bu da elə vergitutma səviyyəsini (vergi yükünü) tətbiq etməyə imkan verir ki, bu zaman vergilərin əvvəlcədən nəzərdə tutulmuş miqdarının daxil olması ilə yanaşı yüksək iqtisadi inkişaf templəri (vergiqoyma bazasının artması) təmin edilmiş olur.

Vergiqoymanın səmərəliliyini qiymətləndirmək üçün vergi multiplikatoru göstəricisindən istifadə edirlər (V_m). Onun müəyyən edilməsinin əsasında vergi sistemlərinin elastiklik əmsalı dayanır. Multiplikatorun modeli aşağıdakı şəkildədir:

$$V_m = \frac{1}{1 - B(1 - D)},$$

burada, B - istehlaka meylin son həddi; D – vergi dərəcəsinin son həddi.

Vergi dərəcəsi nə qədər böyük və istehlaka meylin son həddi nə qədər kiçik olarsa, vergi multiplikatoru bir o qədər kiçik olar (kəsrin məxrəci böyük olar). Vergi multiplikatorununun dinamikası nəticəsində ÜDM – nın həcminin dəyişilməsini bu cür müəyyən edirlər:

$$D_D = T_T \frac{1}{1 - B(1 - C)}$$

burada D_D - ÜDM – nın dəyişilməsi (+;–); T_T – vergi daxilolmalarının dəyişilməsi (+;–).

Bu ifadədən nəticə çıxarmaq olar ki, vergi daxilolmalarının müəyyən artımına gətirib çıxardan vergi dərəcələrənin artması və

istehlakın azalması(T_T) əslində ÜDM-nın mümkün artımını çox böyük ölçülərdə ixtisar etmiş olur, çünki göstərilən formulda kəsr böyüyür. Bu zaman vergi dərəcələrinin dəyişilməsi ilə onların ÜDM-un həcminə təsiri arasında zaman amili nəzərə alınmalıdır.

Belə görünür ki, vergilərin məntiqli və əsaslandırılmış endirilməsi əhalinin real tədiyyəqabiliyyətli tələbinin və eyni zamanda əmtəə və xidmətlərin əldə edilməsinə onların xərclərinin artmasına, daha doğrusu sahibkarların gəlirlərinin artmasına doğru aparır, investisiyaları stimullaşdırır, investisiya məhsullarına tələbin uyğun artımına səbəb olur. Bütün bunlar ümumi daxili məhsulun artımına səbəb olur ki, nəticədə də vergi daxilolmalarının həcminin artması təmin edilmiş olur.

Səmərəli bazar iqtisadiyyatına malik ölkələrdə vergi sisteminin fəaliyyəti göstərir ki, onların inkişafı ümumi alqoritmə malikdir və vergiqoymanın məqsədlərinin rasionallaşdırılmasına (optimallaşdırılmasına), iqtisadiyyatın fəaliyyətinin dəyişkən şəraitinə uyğun olaraq vergi sistemlərinin dinamikliyinə və dəyişilməsinə yönəldilmişdir. Bu cür sistemlər vergi sistemlərinin birbaşa və əks qarşılıqlı əlaqələrinin artmasını təmin edir, istehsalın səmərəliliyini yüksəldir. Onlar vergi sistemlərinin inkişafının taktiki və strateji məqsədlərinin düzgün uyğunlaşmasına, bazar münasibətləri iştirakçılarının maraqlarının əlaqələrinin optimallaşdırılmasına kömək edir. Vergitutmada dövlət tərəfindən müxtəlif vergi ödəyicilərinə göstərilən ictimai xidmətlərin istehlakı həcmlərinin daha tam uçotuna da həmçinin zəmanət verilir. Vergi münasibətləri subyektlərinin tədiyyəqabiliyyətlilik və gəlirlilik səviyyəsi daha yaxşı hesaba alınır. Məhz bu aspektlər çox halda vergi sisteminin keyfiyyət xarakteristikalarını və potensialını müəyyən edir, hansı ki, bu da o qədər vergi daxilolmalarının miqdarları ilə deyil, nəqədər ki, vergi sisteminin milli iqtisadiyyatın inkişafına stimullaşdırıcı təsiri ilə ölçülür.

Vergi sisteminin və vergiqoyma mexanizminin sonrakı inkişafını istehsal, ticarət və digər xərclərin ixtisarının stimullaşdırılmasına xüsusi istiqamətləndirmək zəruriyyət kəsb edir. Onların istehlak dəyərinin hər vahidinə görə endirilməsi sivilizasiyanın

inkişafının əsas meyli kimi çıxış edir. Bu tendensiya iqtisadiyyatın necə ki, mikro, eləcə də makrosəviyyəsində reallaşdırılmalıdır. Hələ ki, Pusiyanın vergi sistemi iqtisadiyyata destimullaşdırıcı təsirindən azad ola bilməmişdir. Bu Rusiyanın geriləməsinin səbəblərindən biridir. Belə ki, Rusiyada sənaye məhsulunun enerjitutumluluğu inkişaf etmiş ölkələrdəki uyğun göstəricini təxminən 5-10 dəfə üstələyir. Rusiyanın sənayesində məhsul və xidmətlərin material tutumluluğu xeyli yüksəkdir, 2000-ci ildə onun aparıcı sahələrində əmək məhsuldarlığı isə orta hesabla ABŞ-dakı eyni göstəricinin səviyyəsindən yalnız 19%-ni təşkil etmişdir. Vergilər müəssisələri resursların qənaətinə həvəsləndirməlidir. Bu məqsədlə, misal üçün, mövcud ildə məhsulun maya dəyərinin endirilməsi hesabına əldə edilən mənfəətinin vergiyə cəlb edilməməsi düzgün olardı. Xərclərin qənaəti hesabına mənfəətin əlavə miqdarı növbəti qaydada hesablana bilər:

$$M_A=(M_1 - M_2)\cdot R_2 ,$$

burada M_A – müəssisədə məhsulun maya dəyərinin endirilməsi hesabına mənfəətin artımıdır; M_2 və M_1 - hesabat və baza (əvvəlki) dövrlərində məhsul vahidinin maya dəyəridir; R_2 – hesabat ilində məhsulun reallaşdırılması həcmidir (ədədlərlə).

Hesablama reallaşdırılan məhsulun hər rubluna gələn xərclərin qənaətinə əsaslanmaqla da hesablanıla bilər. Onda əlavə mənfəət növbəti şəkildə müəyyən olunacaq:

$$M_A=(X_1 - X_2)\cdot R_2 ,$$

burada X_1 və X_2 - baza və hesabat ilində reallaşdırılmış məhsulun 1 rubluna uyğun olaraq xərclərdir; R_2 – hesabat ilində məhsulun dəyər ifadəsində reallaşdırılması həcmidir.

Əmək məhsuldarlığının artımının vergi stimullaşdırılması üçün müəssisədə əmək məhsuldarlığının səviyyəsi və istehlak fondunun (əmək haqqı fondu) nisbətindən istifadə edilə bilər. Məlumdur ki, əmək məhsuldarlığı müəssisənin fəaliyyətini xarakterizə edən vacib göstərici kimi çıxış edir. O bir çox faktorlarla – işçilərin ixtisası, istehsalın təşkili və istehsal aparatının vəziyyəti ilə, onun innovasiyalılıq səviyyəsi ilə, idarəetmə sisteminin səmərəliliyi və s. ilə müəyyən olunur.

Müəssisədə əmək məhsuldarlığı ($Ə_{mə}$) və istehlak fondunun artımı templərinin ($Ə_{ha}$) nisbətini ötüb-keçmə əmsalı xarakterizə edir:

$$Ə = \frac{Ə_{ha}}{Ə_{mə}}$$

Bu göstəricini istifadə etməklə, müəssisənin mənfəətinə tətbiq edilən verginin səviyyəsinin (miqdqarının) istehlak fondunun artımı templərinin əmək məhsuldarlığının artımı templərini ötüb-keçmə dinamikasından asılılığını göstərmək olar. Əgər ötüb-keçmə əmsalı vahidə bərabərdirsə, onda verginin miqdarı dəyişmir. Əgər Ə>1 olarsa, bu zaman onun artması ilə yanaşı olaraq mənfəət vergisi də artır. Əgər Ə<1 olarsa, mənfəət vergisi uyğun olaraq azalacaqdır. Bu zaman əmsalın dəyişilməsinin hər bəndinə(0,1) görə artan (azalan) vergi dərəcələrinin istifadəsi faydalıdır. Bununla yanaşı xaricdə edildiyi kimi mənfəətdən innovasion tədbirlərə yönəldilən yatırımların (sərmayə qoyuluşlarının) vergidən azad edilməsi zəruridir. Həyata keçirilən yatırımlara çəkilmiş xərclərin çıxarılması müddətindən asılı olaraq tam və ya hissə-hissə azad edilmə mümkündür. Bu daha səmərəli layihələrin həyata keçirilməsini stimullaşdıracaqdır.

Suallar və tapşırıqlar

1. Vergilərin mahiyyəti nədən ibarətdir? Hansı vergi növlərini tanıyırsınız?
2. Vergilər hansı funksiyaları yerinə yetirirlər?
3. Vergi sistemi nədir, onun tərkib elementləri hansılardır?
4. Vergi sisteminin səmərəli bazar iqtisadiyyatının formalaşmasına təsiri nədə ifadə olunur?
5. Vergi sisteminin inteqral səmərəliliyi nə ilə xarakterizə olunur?
6. Vergitutmanın səmərəliliyinin məzmununu açıqlayın.

7. Vergi sisteminin elastikliyi nə deməkdir?
8. A.Laffer əyrisi vergitutmada hansı prosesləri xarakterizə edir?
9. Resursların qənaət olunmasına vergi sisteminin (ayrı-ayrı vergilərin) təsirini necə gücləndirmək olar?
10. Rusiyada vergi islahatlarının əsas istiqamətlərini və perspektiv inkişafını açıqlayın.

© Пенков В.Е., 2002

XXII Fəsil

QİYMƏTƏMƏLƏGƏLMƏ. DÖVLƏTİN QİYMƏTLƏRƏ TƏSİRİ

Bazar iqtisadiyyatının özünütənzimlənmə mexanizmində, dövlətin onun dinamikası və səmərəliliyinə təsirində mərkəzi yeri qiymət tutur. Qiymətlərin səviyyəsi, nisbəti, dinamikası bazar agentlərinin taleyini, mikro və makrosəviyyədə nisbətlərin dəyişməsini, işçilərin, müəssisələrin, dövlət büdcəsinin real gəlirlərinin dəyişməsini müəyyən edir.

Qiymətlərin təsərrüfat həyatının ust qatında olmasına və hamı üçün aşkar olmasına baxmayaraq, onların mahiyyəti, dinamikası, hüdudları və dövlət tənzimlənməsi metodları ətrafında sonsuz mübahisələr səngimir. İqtisadi transformasiyalar və qiymətlərin inflyasiya nəticəsində artması dövrlərində yeni qüvvə ilə qalxır.

1. Qiymətlərin formalaşması və dinamikası

Bazar qiymətlərinin mahiyyəti. Hələ Adam Smit və Karl Marks tərəfindən formalaşdırılmış qiymətlərin mahiyyətinin lakonik tərifi hamı tərəfindən qəbul olunmuşdur ki, qiymət əmtəənin istehsalı və reallaşdırılmasına çəkilən ictimai-zəruri əmək məsrəflərinin pul ilə ifadə olunmuş dəyəridir. Lakin bu müəyyənetmənin sadəliyi, yalnız bir görüntüdür. Təsadüfən deyilmir ki, iblis xırdalıqlarda gizlənir.

Birinci, qiymət təkcə əmtəənin dəyəri haqqında deyil, həm də onun istehlak dəyəri (keyfiyyəti) haqda, tələb və təklifin nisbəti barədə də məlumat verir. Hətta ən ucuz mal belə, alıcının tələbini ödəməzsə almazlar. Buna aid atalar məsəli də mövcuddur: «Ucuz ətin şorbası olmaz. («Дешево, да гнило, дорого, да мило») Defisit malların qiyməti qalxır, artıq malın qiyməti düşür.

İkinci, əgər həmin qrup əmtəəni (və əvəzolunanı) onlarla və yüzlərlə müəssisələr müxtəlif istehsal xərcləri ilə istehsal edib, öz əmtəə və pullu xidmətlərini müxtəlif bazarlarda (yerli bazardan dünya bazarınadək) reallaşdırırsa, onun istehsal vahidinə düşən ictimai zəruri əmək məsrəflərini necə ölçmək olar.

Üçüncü, müxtəlif keyfiyyətli canlı əməyi (istehsalda, dövriyyədə, idarəetmədə) və istifadə olunan maşın, avadanlıq və binalarda, materiallarda və enerjidə, elmi-layihə və ixtiraçılıq fəaliyyəti nəticələrində təcəssüm olunmuş keçmiş əməyi ümumi məxrəcə necə gətirmək olar.

Dördüncü, hansı vahidlərlə əmək məsrəflərini ölçmək və onları əmtəənin keyfiyyətilə müqayisə etmək olar. İş vaxtı saatı ilə? Lakin saatlar fərqlidir. Tənbəl, bacarıqsız işçi 1 saat ərzində vicdanlı, ixtisaslı və səriştəli işçidən daha az iş yerinə yetirər. Bəs hələ Vitte dövründən tikilmiş və bu günə qədər xidmət edən dəmir yolu tikililəri və vağzalları ilə necə olsun? Onları dəmiryolçuların müasir əməyi ilə necə ümumiləşdirməli?

Nəhayət, beşinci, pul ilə ifadə olunan dəyər (qiymət) daim dəyişir, sabit deyil, gözlənilməlidir. Bəs onda iqtisadçı və müəssisə rəhbəri, hələ plan-maliyyə orqanlarının işçiləri barədə söhbət belə getmir, istehsal proqramını və qarşıdakı ilə xərc smetasını onun köməyi ilə necə tərtib etməlidir?

Birmənalı cavab vermək qeyri-mümkün olan belə sualların sayını artırmaq da olar. Onları birbaşa hesabın (norma-saatlarda, tredlərdə-əmək uçotu vahidlərində və s) köməyi ilə bu məqsədlə güclü hesablama maşınlarının potensialını tətbiq etmək, müvəffəq nəticə vermir və verə də bilməz. Məsələnin miqyasını təsəvvür edin: milyonlarla əmtəə istehsalçıların istehsal etdiyi və on milyonlarla ailə, müəssisə və təşkilatların

aldığı təqribən 25 mln. konkret əmtəə növləri üçün ictimai zəruri məsrəflər müəyyən olunmalıdır. Belə bir məsələnin həlli, nəinki həddən artıq baha, həm də faydasızdır. Məsələ həll olunan dövrdə xərclər də, qiymətlər də, artıq başqa olacaq. Həllinin mümkünsüz görünən bu məsələ son nəhayətdə hər gün əmtəə və pullu xidmətlərin hər bir istehsalçı, satıcı və alıcısı tərəfindən həll olunur. Onların qiymətləndirilməsindəki fikir ayrılığının əsas arbitri kimi bazar çıxış edir, hansının ki, başlıca təyinatı hər bir əmtəənin dəyəri və keyfiyyəti (istehlak dəyəri), tələb və təklifin nisbəti, istehsalçı və ticarətçinin xərclərinin səviyyəsi və mənfəəti nəzərə alınmaqla satıcı və istehlakçınının maraqlarının uzlaşdırılmasıdır.

Əlbəttə belə metod qeyri-təkmildir. Hər gün və hər saat çoxlu səhvlərə yol verilir. Kimsə udur, kimsə uduzur, ziyana düşür, hətta müflis olur. Lakin bəşər cəmiyyəti hələ bundan təkmil mexanizm işləyib hazırlamayıb.

Ancaq fikirləşmək lazım deyil ki, o qiymətlər tamamilə bazar kortəbiiliyinin ixtiyarına verilib, mütləq mənada gözlənilməz və idarəolunmazdır. Əmtəə və pullu xidmətin hər bir istehsalçısı əvvəlcədən müəyyənləşdirir ki, hansı qiymətlərdə ziyana düşməyəcək, mənfəət əldə edəcək, bəlkə də, arzu etdiyi şahlıq quşunu, yüksək gəliri əldə edəcək. Yeni əmtəə istehsalçının işlənməsi və hazırlığı, tikilən müəssisələrə kapital investsiyalaşması zamanı, müflislər cərgəsində olmamaq üçün, bir neçə il əvvələ qiymət səviyyəsini müəyyən etməlidir. Qanunverici orqanın təsdiqinə növbəti ilin büdcəsini təsdiqə verərkən, hər bir ölkənin hökuməti nəinki daxili, həm də dünya bazarında qiymət və inflyasiyanın proqnoz hesablamalarını hazırlamalıdır.

Beləliklə, qiymət, sirli olmasına baxmayaraq, hər bir ailənin, hər bir sahibkarın, hər bir dövlət orqanının gündəlik fəaliyyət alətidir. Hətta, istehsal prosesindən uzaq görünən, ordu və polis belə, onlara ayrılan büdcə xərclərindən daha səmərəli istifadə etmək üçün, qiymətlərlə razılaşmaq məcburiyyətindədir. Buna görə də hər bir sahibkar və fəhlənin, hər bir dövlət qulluqçusunun, hər bir ailənin fəal üzvünün bazar

təsərrüfatında qiymətəmələgəlmənin əsaslarının, onların səviyyə, nisbət və dinamikasına bacarıqlı dövlət təsirinin hüquq və metodları barədə təsəvvürləri olmalıdır.

Bazar iqtisadiyyatında qiymətin funksiyaları. Nə üçün bazar təsərrüfatında qiymət kimi mürəkkəb, birmənalı olmayan, şıltaq bir kateqoriyadan istifadə olunmalıdır? Onsuz keçinmək olmazmı? Dəfələrlə belə cəhdlər uğursuzluqla rastlaşmışdır. Bazar agenlərinin bir çox nəslinin həm nəzəri, həm də əməli təcrübəsi sübut etdi ki, qiymətsiz keçinmək mümkün deyil. Bu bazar iqtisadiyyatında qiymətin yerinə yetirdiyi əsas funksiyalarla əlaqədardır ki, hansıları digər kateqoriyalar belə müvəffəqiyyətlə yerinə yetirə bilməz.

Bu funksiyalar hansılardır ki, onların vasitəsilə həmin ümumi iqtisadi kateqoriyanın faydalı qəlbi görsənir?

Birinci, bu ölçü funksiyasıdır. Yalnız qiymət milyonlarla əmtəənin qiymət və keyfiyyətini müqayisə etmək, müxtəlif keyfiyyətli və müxtəlif vaxtlı onların isteshal və reallaşması xərclərini ümumi məxrəcə gətirmək, xərclərlə nəticələri ölçmək, bununla da hər bir bazar agentinin və bütövlükdə iqtisadiyyatın (ölkələrarası müqayisədə) işinin səmərəliliyinin qiymətləndirilməsi imkanı yaradır. Təsəvvür edək ki, biz istehsalda uzunluq ölçülərindən – santimetr, metr, kilometr, düym, yard, mill və s. imtina etməyə cəhd göstərmişik. Məgər bu halda alıcının tələbatının məsələn, müəyyən böyüklük və ölçüdə geyim, ayaqqabı və s. onun tələbinin nəzərə alınması mümkün olardımı? Bu halda istehsal xaosa uğrayır, tələbat ödənilməz, iqtisadiyyat dağılar. Qiymətdən imtina etmək isə bu cür, bəlkə bundan da, pis nəticələrə gətirib çıxarar.

Lakin uzunluq ölçüsü özünün ciddi qorunan etalonu – iridium metr mövcuddur. Qiymətdə isə belə etalon yoxdur və ola da bilməz.

Ölçü obyektinin (əmtəənin istehsalı və reallaşdırılmasına ictimai zəruri əmək məsrəfləri, dəyər) dəyişkənliyi, adlandırılmağından asılı olmayaraq – rubl, dollar, funt sterlinq, dinar, evro, tenqe və s – ölçü vahidinin özünün dəyişməsi. Dəyərin kəmiyyəti daim dəyişir, hansıları ki, pul vahidləri təmsil edir,

xüsusilə inflyasiyanın tüğyan etdiyi vaxtlarda. On illər geri qayıdaq, haçan ki, Rusiyanın islahatlaşan iqtisadiyyatın da istehlak qiymətləri indeksi il ərzində 26 dəfə artmışdır.

İslahatların memarları, dəhşətli yuxuda belə onu təsəvvür edə bilməzdilər. Qiymətlərin sıçrayışı iqtisadiyyat və əhalinin həyat səviyyəsi üçün dağıdıcı nəticələr törətdi. Əhalinin bütün əmanətləri faktiki müsadirə olundu, real əmək haqqı və təqaüdlər yarıqat düşdü, müəssisələrin dövriyyə vəsaitləri minimuma endi, əmtəələrin istehsalı və dövriyyəsi pozuldu, real sərvətlər isə kimlərinsə görünməyən əllərinə keçdi. Qiymətlərlə bacarıqsız, savadsız rəftar etmə bax belə qorxunc zarafatlar qarşıya çıxara bilər.

Aydın başa düşmək lazımdır ki, bazar təsərrüfatında heç bir iqtisadi hesablamalar qiymətsiz mümkün deyil. Bu hesablamaların etibarlılığı yalnız o halda təmin oluna bilər ki, əgər qiymətlər xərclərin həqiqi səviyyə, nisbət və strukturunu əks edir, təkrar istehsalın ictimai normal şəraitini təmin edir. Lakin bütün bunlar daim dəyişir. Buna görə də, qiymətləri dövri olaraq dəyişmək lazım gəlir. Vaxtı ilə Roma imperatoru Diokletian qiymətlərin dəyişməzliyini daimi təmin etmək üçün, əmr etmişdir ki, preyskurantlar şəhər bazarlarının daş stelalarında həkk edilsin. Həmin stelalar muzeylərdə tarixi və iqtisadi paradoks– yəni vaxtı saxlamaq, dəyişkən kateqoriyanı dondurmaq – kimi saxlanılır.

İkinci, mühüm funksiyalardan biri – stimullaşdırıcıdır. İnsanlar öz fəaliyyətlərinin nəticələrinin ölçülməsi və qiymətləndirilməsinə biganə deyillər. Cəsarətlə təsdiq etmək olar ki, - hərçənd ki, bu çoxlarına şişirdilmiş kimi görünə bilər-bazar iqtisadiyyatında iqtisadi tərəqqinin əsas hərəkətvericisi qiymətdir.

Bunu misalla sübut etməyə çalışacayıq. Tutaq ki, hər hansı bir əmtəə, -məsələn, iplik parça, taxıl və ya Daş kömür - 100 əmtəə istehsalçısı tərəfindən istehsal olunur və bazara çıxarılır. Onlardan 60-ı əmtəənin vahidinin hazırlanmasına orta hesabla 100 rubl sərf ediblər, 20-si 120 rubl və qalan 20-si isə, hansılar ki, daha səmərəli texnika istifadə edib, innovasiyalar tətbiq edib və ya sadəcə daha yaxşı təsərrüfatçılıq edib-80

rubldur. Bazar qiyməti əsas əmtəə kütləsini istehsal edənlərin xərc səviyyəsi üzrə müəyyən olunur-100 rubl. Bu halda, yüksək xərcləri olan istehsalçılar, ya onları ictimai normal səviyyəyə salmaq, ya da müflis olmaq məcburiyyətində qalacaqlar. Əksinə, innovatorlar - onları belə adlandıraq - əldə etdikləri yüksək gəliri istehsalın və satışın genişlənməsi (o cümlədən qiymətlərin aşağı salınmasından), yüksək ixtisaslı işçilərin cəlb olunmasına və s. istifadə edirlər.

İndi, tutaq ki, hansısa bir müddət (bir neçə təkrar istehsal tsikli) keçdi, mənzərə dəyişdi. Bazarda 120 xərcli əmtəələr qalmadı, 80 rubl xərcli əmtəələrin istehsalı genişləndi, bundan başqa, bir çox orta qrup istehsalçıları, yüksək gəlirə susayaraq və rəqabət məcburiyyətində, öz xərclərini azaltdılar. Artıq indi bazar qiyməti 100 deyil, 80 rubldur. Və bu da nəzərə alın ki, kənardan heç bir əmr, plan tapşırığı olmadan baş verir. Lakin yeni sahibkarlar qrupu meydana çıxdı, innovasiya (həm texniki, həm də idarəetmə) tətbiq etdilər ki, xərcləri 60 vahidə qədər aşağı salsınlar və yüksək gəlir qazansınlar. İstehsalçıları xərcləri aşağı salmağa, əmtəənin kəmiyyət və çeşidini yaxşılaşdırmağa, innovasiyaları mənimsəməyə daim sövq edən özünəməxsus «lider ardınca qaçış»a iqtisadi həvəsləndirmə yaranır, hərçənd ki, bütün bunlar müəyyən risklə bağlıdır. Bu bir növ Zazerkaliyada Kraliçanın Alisa üçün müəyyən etdiyi qanuna bənzəyir: bir yerdə durmaq üçün, sürətlə irəli qaçmalısan. Bu sonsuz qaçışda qiymət həm pryanik, həm də qamçı rolunu oynayır. İrəli çıxanlar üçün yüksək gəlir şəklində – pryanik, geri qalanlar üçün ziyan və müflislik şəklində – qamçı.

Əlbəttə, bazarda inhisarçı mövqe qazanmaqla və qiymətləri qaldırmaqla, bu prosesi ləngitməyə cəhd etmək olar. Belə cəhdlərə mütəmadi təşəbbüs göstərilir. Lakin onların müəyyən hüdudları mövcuddur, həm əhalinin, həm də, müəssisələrin, yəni alıcıların alıcılıq qabiliyyətli tələbin strukturu və həcmi ilə rastlaşırlar. Qiymətləri həddən artıq qaldırmaq və əmtəənin hər bir vahidindən çox mənfəət və ya üstəlik mənfəət götürmək olar. Lakin gec-tez bu əmtəəyə tələb və müvafiq olaraq gəlirin kütləsi ixtisar olacaq. Hər bir sahibkar tələbin elastikliyinin

qiymətdən asılılığı məsələsini daim həll etməli olur, lakin hər dəfə müvəffəqiyyət qazanmır.

Qiymətin üçüncü funksiyası – bölüşdürücü (və ya yenidən bölüşdürücü) funksiyasıdır. Qiymətin köməyi ilə gəlirlər təkrar istehsal prosesinin iştirakçıları, müxtəlif sosial təbəqələr arasında bölüşdürülür. Qiymətin strukturunu vergilərlə, aksizlərlə, renta və gömrük ödənişləri ilə dolduraraq, dövlət gəlirləri öz xeyrinə yenidən bölüşdürməyə çalışır.

Həmin işi inhisarçı və transmilli korporasiyalar, öz məhsullarına yüksək inhisar qiyməti, aldıqları əmtəə və xidmətlərə aşağı inhisar qiymətləri müəyyən etməklə yerinə yetirirlər. Bəzi hallarda bu səylər müvəqqəti də olsa, uğur qazandırır. Bunu Rusiyada və digər postsovet ölkələrində 90-cı illərin əvvəlində qiymətlərin dinamikası göstərdi.

Yalnız bu Pirr qələbəsi idi (çox böyük tələfatla əldə edilən və verilən qurbanlara dəyməyən qələbə). Zəncirvari reaksiya qanununa görə alınan əmtəə və xidmətlərin bahalaşması baş verir, yüksək inhisar qiymətli əmtəələrə tələbat ixtisar olur, üstəlik mənfəət azalır və ya yox olur. Bundan başqa qiymətin dəyərdən həddən artıq kənarlaşması baş verir, dəyər proporsiyaları pozulur (təhrif olur), bazar agentləri və dövlət istehsal və təsərrüfat qərarlarının səmərəliliyinin real kateqoriyaları haqqında təsəvvürü itirirlər.

Qiymətlərin formalaşması və hərəkətinin qanunauyğunluğu. Qiymət siyasətində və qiymətəmələgəlmə təcrübəsində bazar iqtisadiyyatında qiymətlərin formalaşması və hərəkətinin obyektiv qanunauyğunluqlarından çıxış etmək lazımdır. Bu qanunauyğunluqlar hansılardır?

Qiymət səviyyəsinin əsasında əmtəə və pullu xidmətlərin hazırlanması, istehsalı və reallaşdırılmasına canlı və keçmiş ictimai-zəruri əmək məsrəfləri durur. Dəyərin dəyişməsi son nəhayətdə qiymət səviyyəsində və qiymət proporsiyalarında dəyişmələrlə nəticələnir. İctimai əmək məhsuldarlığının yüksəlməsi əmtəə və xidmətlərin dəyərinin aşağı düşməsini, onun ucuzlaşmasını (inflyasiya olmadıqda) şərtləndirir. Belə ki, İngiltərədə əmtəə qiymətlərinin ümumi indeksi 1801-ci ildən

1900-cu ilədək 208,6-dan 101,7-yə, ABŞ-da 1800-cü ildən 1900-cu ilədək-123,1-dən 85-ə enmişdir.[1]

Yekcins əmtəələrin, müqayisə edilən və bir-birini əvəz edə bilən əmtəələrin qiymət nisbətləri, onların istehsal xüsusiyyətlərinin, keyfiyyətinin nisbətlərilə müəyyənləşir. Elmi-texniki tərəqqi yeni əmtəələrin mütləq və nisbi ucuzlaşmasına gətirib çıxarır, bu da istehsalın, tələb və təklifin strukturunda mütərəqqi irəliləyişləri stimullaşdırır.

Qiymətlərin dinamikasına pul vahidinin alıcılıq qabiliyyəti, inflyasiya səviyyəsi təsir göstərir. Pul vahidinin kəskin qiymətdən düşməsi sıçrayışlı qiymət artımına səbəb olar. Məsələn, 1970-ci ildən 1980-ci ilədək dünya ixrac qiymətləri indeksi 4 dəfə artmış, bu da ilk növbədə həmin dövrdə neftin 12,9 dəfə bahalaşması ilə əlaqədar olmuşdur. Lakin sonradan dünya ixrac qiymətlərinin ümumi indeksinin artım tempi ləngimiş (18 ildə 22%), neftin qiyməti isə 1998-ci ilə qədər 2,1 dəfə düşmüş, sonra qalxmış, 2001-ci ildən yenidən düşmüşdür. İnflyasiyanın yüksək templəri qiymətin yenidən bölüşdürmə funksiyasını gücləndirir, əsas kapitalın və iş qüvvəsinin qiymətdən düşməsinə səbəb olur, təkrar istehsal şərtlərini pozur.

Qiymətin dinamikasında tsiklli tərəddüdlər müşahidə olunur. Tsiklin canlanma, ortamüddətli və uzunmüddətli yüksəliş (Kondratyev) fazalarında bir çox əmtəələrə tələb təklifi üstələyir, qiymət artımı baş verir. Lakin, istehsalın genişlənməsi və xərclərin azalması ilə yanaşı prinsip etibarilə yeni əmtəələr ucuzlaşır. Böhran və depressiya fazalarnda bazar dolur, tələb məhdudlaşır, qiymətlər aşağı düşür. Lakin inflyasiyanın yüksək templərində staqflyasiya da mümkündür, yeni enmə şəraitində inflyasiya, hansı ki, dünya iqtisadiyyatında 70-ci illərdə müşahidə olunurdu.

Qiymət və tariflər, yerli, regional, milli və dünya bazarlarında, bazarın miqyası və açıqlığından asılı olaraq, həm səviyyə

[1] Кондратьев Н.Д. Особое мнение. Кн.2.М; Наука, 1993 .с.305-306, 317-318. 2. Устинов Н.М. Мировая торговля, Статист. - Аналит. спр. М., Экономика., 2000. с.48-50

və nisbət, həm də dinamikası üzrə əhəmiyyətli dərəcədə fərqli ola bilər. Eyni zamanda, qiymətlər vahid sistem təşkil edir, ümumi qanunauyğunluqlara tabedir. Müxtəlif qiymət növləri və müxtəlif bazarların qiymətləri qarşılıqlı əlaqəlidir.

Qiymətlərin növləri. Qiymət aləmi çox rəngarəngdir. İlk növbədə qiymətlərin üç tipini fərqləndirmək lazımdır: dövlətin heç bir müdaxiləsi olmadan kortəbii formalaşan; dövlət orqanları tərəfindən mərkəzləşdirilmiş müəyyən edilən (planlı qiymətlər); hər ikisini ehtiva edən tənzimlənən qiymətlər. Qiymətlərin bu növləri müxtəlif bazar modellərini və qiymətəmələgəlmənin xüsusiyyətlərini əks etdirir. Belə ki, ölkəmizdə 1991-ci ilə qədər planlı qiymətlər üstünlük təşkil edirdi, hərçənd ki, qeyri mütəşəkkil bazarda qiymətəmələgəlmənin kortəbiiliyi elmentləri artırdı. 1992-ci ildən etibarən qiymətlərin kortəbii dinamikası üstünlük qazandı. Dövlətin tənzimləyici rolu kəskin surətdə zəiflədi. 90-cı illərin axırlarından isə mühüm qiymət növlərinin dinamikasına dövlətin tənzimləyici təsiri gücləndi.

Təsnifatın digər əlaməti qiymət bazasıdır. XIX əsrin ortalarına qədər rəqabət və əmtəənin dəyərinə istiqamətlənmə əsasında bazarda müəyyən edilən qiymətlər üstünlük təşkil edirdi. Kapitalist istehsal üsulu və kapitalı azad hərəkəti bərqərar olduqca dəyər bazar qiymətlərinin yönəldiyi istehsal qiymətləri şəklini aldı. Bu, kapitalın texnoloji və üzvi quruluşu müxtəlif olan sahələrdə kapital qoyuluşunun orta mənfəət normasını təmin edir və sənayenin, nəqliyyatın kapitaltutumlu sahələrinin inkişafı üçün əlverişli şərait yaradırdı. XX əsrin axırlarından, yəni inhisarçı kapitalizmə keçid dövründən başlayaraq, qeyri-inhisar sahə və müəssisələrin mənfəətlərinin yenidən bölüşdürülməsi hesabına, inhisarlara yüksək gəlir təmin edən inhisar qiymətləri geniş vüsət aldı. İnhisarların dövlətlə çuğlaşması dövlət inhisarçı kapitalizm çərçivəsində bu meyllərin güclənməsinə gətirib çıxardı. Qloballaşma şəraitində qiymətlərin səviyyə və dinamikasına transmilli korporasiyalar (TMK) əhəmiyyətli təsir göstərir. Onlar vergi tutumundan yayınmaq üçün korporasiyadaxili ucuzlaşdırılmış, transfert qiymət mexanizmindən istifadə edirlər.

Fəaliyyət sferaları üzrə çoxlu sayda müxtəlif qiymət növlərini göstərmək olar. Bunlara bir müəssisənin, birliyin, holdinqin bölmələri arasında dövriyyə üçün təsərrüfatdaxili (hesablama) qiymətlər. Firma, kompaniya çərçivəsindən kənarda sənaye, tikinti və digər məhsulların topdansatış qiymətləri (istehsal istehlakı üçün), əhali üçün əmtəələrə qiymətdə və pulu xidmət tariflərinə pərakəndə satış qiymətləri fəaliyyət göstərir. Tədarük qiymətləri də mövcuddur. Onlar əsas etibari ilə kənd təsərrüfat müəssisələrindən məhsulların alınmasında tətbiq olunur. Qiymətlərə, dövriyyə sferası müəssisələrinin xərclərini ödəmək və mənfəəti təmin etmək üçün ticarət əlavələri (güzəştləri) müəyyən olunur. Xüsusi yeri elmi-tədqiqat məhsuluna qiymətlər tutur.

Daxili bazarın qiymətləri, dünyanın əsas əmtəə bazarlarının dünya qiymətlərindən və həmin ölkənin əmtəə idxalı və ixracının xarici ticarət qiymətlərindən fərqlənir. Səhmlərin və digər qiymətli kağızların qiymətləri əlahiddə yer tutur. Əmək haqqına da, bu spesifik əmtəənin təkrar istehsalına xərcləri əks etdirən, insanın iş qüvvəsinin qiyməti kimi baxmaq olar.

2. Rusiyada qiymətin dinamikasının meylləri və amilləri

***P**lanlı iqtisadiyyatda qiymətlər.* 90-cı illərin əvvəlinə qədər SSRİ-də planlı qiymətəmələgəlmə hökm sürürdü. Əmtəələrə qiymətlər və xidmətlərə tariflər, bir qayda olaraq, dövlət qiymətəmələgəlmə orqanları tərəfindən müəyyənləşdirilirdi, onların gözlənilməsinə ciddi nəzarət olunurdu.

Qiymətlərin stabilliyinə və planlı qaydada aşağı salınmasına istiqamətlənmiş, dövlətin qiymət siyasəti həyata keçirilirdi. Ancaq vaxtaşırı qiymət islahatları aparılırdı, hansılar ki, yığılmış qiymət disproporsiyaları aradan qaldırır və qiymət səviyyəsinin artması ilə müşayət olunurdu. Məsələn, 1965-ci ildə bütövlükdə sənayedə topdansatış qiymətləri indeksi 1949-

cu ilin səviyyəsindən 30% aşağı idi. Lakin 1967-ci ildə indeks 10%, ağır sənaye sahələri üzrə 18%, o cümlədən yanacaq sənayesi üzrə 74% artdı.[1]

Maşınqayırma məhsullarına qiymətlər ardıcıl olaraq aşağı salınırdı. Xarici iqtisadi qiymətlər dünya bazarları qiymətləri bazasında qurulurdu, QİYŞ ölkələri ilə ticarətdə isə dünya qiymətlərindən fərqlənən kontrakt qiymətlər tədbiq olunurdu. Qiymətlərin stabilliyi cari və perspektiv planların işlənib hazırlanmasını yüngülləşdirirdi, nominal gəlirlər artdıqca real əmək haqqının yüksəlməsi təmin olunurdu. Lakin qiymətlər bazar konyukturunun dəyişməsinə ləng cavab verir, bazarda bir çox əmtəələrin qıtlığını aradan qaldırmağa imkan yaratmırdı, kortəbii bazar, qiymətəmələgəlmə xarakterli kölgə iqtisadiyyatının dairəsi genişlənirdi.

İslahatlar və qiymətlər Rusiyada 90-cı illərin əvvəllərinin iqtisadi islahatları azad qiymət əmələgəlmənin elan olunması ilə başlandı. Hərçənd ki, dövlət təbii inhisarların məhsuluna qiymətlərin tənzimlənməsi hüququnu öz əlində saxladı, lakin bu tənzimlənmə formal xarakter daşıyırdı və bu sahələrdə qiymətlərin üstün artımı ilə müşaiyət olunurdu. Belə ki, 1991-1999-cu illərdə elektrik enerjisinin istehsal qiymətləri 26,9 min dəfə, yük daşınması tarifləri 22,8 min dəfə artdı, bu dövrdə istehlak qiymətləri 16 min dəfə və kənd təsərrüfatı məhsulları istehsalçılarının qiymətləri 5,2 min dəfə artmışdı[2]. Dövlət qiymətəmələgəlmə orqanları ləğv edildi, daxili bazara xarici əmtəə və xidmətlərin yolu açıldı. Bu cür «şok terapiyasının» (daha doğrusu cərrahiyyənin) nəticəsində qiymətlərin sıçrayışlı artması, onların nisbətlərinin kəskin dəyişməsi baş verdi. Bunu 17-ci cədvəlin məlumatlarına əsasən mühakimə yürütmək olar:

[1] Народное хозяйство СССР в 1977 г. М, Статистическипй ежегодник. М. Статистика, 1978. с.142

[2] Российский статический ежегодник. Госкомстат. 2000. с.559,567

Cədvəl 17.

İqtisadiyyatın bölmələrində qiymət indeksi.
***(dekabrın dekabra* nisbəti; dekabr 1990-cı il=1; dəfə)**

Göstəricilər	1992	1994	1996	1998	2000
İstehlak qiymətləri indeksi	67,9	2041	5718	11704	19203
Sənaye məhsulu istehsalçılarının qiymət indeksi	114,9	3792	10955	14509	31945
Kənd təsərrüfatı məhsullarının qiymət indeksi	15,04	365,5	1731	2700	6315
Tikintidə istehsalçıların qiymət indeksi	49,9	1853	6355	7479	14840
Yük daşımalarına tariflərinindeksi	74,8	4841	15959	18793	33653
Nominal əmək haqqı indeksi	19,8	727	2608	3470	7342
İndekslərin nisbəti, %-lə əmək haqqı və istehlak qiymətləri	29,2	35,6	45,6	29,6	38,2
kənd təsərrüfat-sənaye məhsulları qiymətləri	13,1	9,6	15,8	18,6	19,88

Mənbə: Российский статический ежегодник. М.Госкомстат России,.2001. с.171,583.

Belə «qiymətlər inqilabı» nəticəsində dəyərin sahələrarasında yenidən bölgüsü-daha inhisarlaşmış sənaye və nəqliyyat sahələrinin xeyrinə, kənd təsərrüfatının ziyanına baş verdi. İstehlak qiymətləri indeksi nominal əmək haqqı dinamikasını təqribən üç dəfə ötdü, bu da əhalinin xeyli hissəsinin kasıblaşmasına və gəlirlərində əmək haqqının payının düşməsinə səbəb oldu. Bu, kənd təsrrüfatında da iş qüvvəsinin təkrar istehsalının əsaslarını sarsıtdı. Yalnız 1999-cu ildən, yəni iqtisadiyyatın canlanma meyli görünəndə və onun dövlət tənzimlənməsi güclənəndə, inflyasiya meyli qalsa da, qiymətlərin artım tempi ləngimişdir. Lakin pozulmuş qiymət proporsiyaları praktiki bərpa olunmur.

Qiymət dinamikasının perspektivləri. Aydındır ki, perspektivdə qiymətlərin islahatlardan əvvəlki səviyyə və nisbətlərinə qayıdışı qeyri-mümkündür. Perspektivdə qiymətlərin dinamikasının mühüm meyllərinə, ilk növbədə inflyasiyanın templərinin minimuma endirilməsi ola bilər, hansının ki, ilkin şərtləri iqtisadiyyatın canlanması şəraiti ilə bağlıdır. İkinci məqamkənd təsərrüfatında və işçi qüvvəsinin təkrar istehsalı şəraitini yaxşılaşdırmaq, əmək haqqının stimullaşdırıcı rolunu yüksəltmək məqsədilə qiymət proporsiyalarında mövqeləri tədricən bərpa etməkdir. Qiymətlərin antiinhisar tənzimlənməsinin güclənməsinə, ölkə inhisarları və transmilli korporasiyaların üstün qazanc arxası ilə qaçaraq qiymətləri qaldırmaq imkanlarının məhdudlaşdırılmasında böyük rol ayrılır.

Bu meyllərin reallaşdırılması qiymətlərin proqnozlaşdırılması üzrə işlərin gücləndirilməsini, dövlətin qiymət siyasətinin işlənib hazırlanması və ardıcıl surətdə yerinə yetirilməsini nəzərdə tutur. Şübhəsiz ki, bu qiymətləri günya qiymətləri dinamikası, iqtisadi tsikllərin fazaları ilə sinxronlaşmış tərəddüdlərdən azad etməz.

3. Qiymətlərin dövlət tənzimlənməsi

***D**övlətin qiymətlərə təsirinin zəruriliyi və hüdudları.* Qiymətlər - iqtisadiyyatın ən mürəkkəb və zərif obyektidir. Ölkədə hər gün on milyonlarla əmtəə və xidmətlərin alqı-satqısı baş verir. Qiymətlər satıcı ilə istehlakçının ziddiyyətli maraqlarını razılaşdırmağa, onların təkrar istehsal prosesinə və fəaLiyyətinə zəruri iqtisadi şəraitiin təmin olunmasına imkan yaradır. Nə qədər məmur cəlb olunsa da, onlar hər bir konkret sövdələşməni izləmək iqtidarında olmayacaqlar. Bu lazımdırmı? Axı hər bir məmurun öz xüsusi marağı var və onun gündəlik iqtisadi həyata müdaxiləsi özbaşınalıq və korrupsiya üçün geniş imkan açar. Yaxşı olmaz ki, alıcı ilə satıcıya imkan yaradılsın ki, özləri qiymətləri müəyyənləşdirsin, qoy rəqabətli mübarizədə cəmiyyətin səadəti naminə güclü qalsın? O adamlar bu konsepsiyanı dəstəkləyir və

bu siyasəti aparırlar ki, onları Corc Soros «bazar fundamentalistləri» adlandırırdı, onlar bazarın tam özünü tənzimlənməsi uğrunda mübarizə aparır və iqtisadiyyatda dövlətin yeri «gecə gözətçisi» və ya yaxşı halda futbol meydanında hakim rolu ayrılır, hansı ki, özü oyunda iştirak etmir, müəyyən edilmiş oyun qaydalarının oyunçular tərəfindən riayət olunmasına nəzarət edir. Ancaq yetkin fikirləşəndə və təsərrüfat təcrübəsini təhlil edərkən, müəyyən etmək olar ki, bu konsepsiya səhvdir və cəmiyyət üçün təhükəli nəticələrə (bunu Rusiyanın və digər postsovet ölkələrinin yaxın keçmişinin təcrübəsinin göstərdiyi kimi) gətirib çıxarar. Nə üçün belə alındı? Məsələ ondadır ki, cəmiyyət və bazarın miqyas və maraqları heç də uyğun gəlmir.

Birinci, hər bir ölkənin iqtisadiyyatını üç bölməli dairə şəklində təsəvvür etmək olar. Ən böyük olan birinci bölmədə bazar münasibətləri hökm sürür, satıcılar və alıcılar bir-birilərinə əmtəə və xidmətləri, onların maraqlarını tarazlayan qiymətlə satırlar və burada dövlət qiymətlərin formalaşması və dəyişməsinin gündəlik praktikasına müdaxilə etmir, yalnız bazar agentlərinin qanunla müəyyən edilmiş ümumi qaydalara riayət etməsinə nəzarət edir. Digər bölmə – cəmiyyətin mövcudluğu və inkişafı üçün mühüm əhəmiyyəti olan qeri-bazar bölməsidir. Bu fundamental elm, təhsil, mədəniyyət, səhiyyə, sosial təminat, ekologiya, nəhayət ordu və hüquq-mühafizə orqanlarıdır. Bu bölmənin təşkilatlarının satmağa heç nəyi yoxdur, onlar öz xidmətlərini son istehlakçılara, bir qayda olaraq, pulsuz göstərirlər. Lakin onlar büdcədən yardım alırlar, zəruri olan əmtəələri almaq üçün qiymətlərdən istifadə edirlər. Dövlət bu bölmənin fəaliyyət göstərməsi imkanlarını təmin etmək üçün, qiymət səviyyəsinə təsir göstərməlidir.

Üçüncü, innovasiya-strateji bölmə də mövcuddur. Bu günün və gələcək nəsillərin maraqları naminə, bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək üçün dövlət iri innovasiyaları və strateji irəliləyişləri dəstəkləməlidir. İri innovasiyalar ucuz başa gəlmir, ilk vaxtlar ziyana da səbəb olur. Əgər prinsipcə yeni məhsulların işlənməsi və istehsalı üzrə

bütün xərclər qiymətə daxil edilsə, alıcı belə məhsulu almaz. Bəlkə bu məsrəflər istehsalçının üzərinə qoyulmalıdır? Lakin bu istisna olunur. Çünki, o zərər gətirən məhsulu istehsal etməyəcək. Gərək dövlət innovasiya irəliləyişlərini birbaşa və dolayı metodlardan istifadə etməklə dəstəkləsin ki, hansılar ki, sonralar həm əmtəə istehsalçılarına, həm də bütövlükdə cəmiyyətə səmərə gətirsin.

İkinci, yalnız abstakt təsəvvür etmək olar ki, bazarda bütün satıcılar və alıcılar bərabərdir, azad rəqabətli mübarizədə onlar qiymət səviyyəsini müəyyən edirlər. Həqiqətdə isə bazar agentləri bərabər deyil, heç bir ölkədə, xüsusilə də, dünya bazarında mükəmməl rəqabət yoxdur. Daha güclü üstün gəlir qazanmağa cəhd edərək, zəiflərə özü üçün sərfəli olan qiyməti diktə edir. Hər bir ölkədə inhisarlar, kölgə bölməsi mövcuddur. Dünya bazarlarında ticarət şərtlərini transmilli korporasiyalar diktə edir. Əgər qiymətəmələgəlmə prosesi bazar kortəbiiliyinin öhdəsinə buraxılsa, inhisarçıların, və TMK-ların acgözlüyünün hüdudu olmaz, cəmiyyətdə çoxları itki ilə üzləşər. Buna görə də dövlət antiinhisar qanunvericiliyi və digər tədbirlərin köməyi ilə inhisarçıların acgözlüyünü məhdudlaşdırır, rəqabət üçün təqribən bərabər şəraiti təmin edir, zəiflərin marağını qoruyur.

Üçüncü, dövlət özü müəssisə, firma, səhmdar cəmiyyətlərinin sahibkarı və bazar oyunlarının iştirakçısıdır. Strateji unitar müəssisələr, yerin təki, torpaqların əsas hissəsi, meşə və su resursları, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin təşkilatları ona məxsusdur. Belə müəssisələrin fəaliyyət göstərməsinə təbii resursların saxlanılması və təkrar sitehsalına (iqtisadi mənada) dövlət məsuliyyət daşıyır. O, dövlət müəssisə və təşkilatlarının məhsullarına qiymətləri, renta ödənişləri səviyyəsini, vergi və ödəniş dərəcələrini müəyyən edir və tənzimləyir, hansılar ki, son nəhayətdə qiymətlərə daxil olur, onların səviyyə və nisbətlərinə təsir göstərir.

Beləliklə, dövlət iqtisadi sahədə soyuq müşahidəçi və hakim deyil. Onun özü bilavasitə qiymətəmələgəlmə prosesində iştirak edir, dövlətin qiymət siyasətini işləyib hazırlayır və həyata keçirir. Lakin bu iştirakın müəyyən hüdudları olmalıdır. Planlı qiymətəmələgəlmə təcrübəsi, yəni dövlət orqanlarının

mərkəzləşdirilmiş qaydada milyonlarla qiymət müəyyənləşdirib, onların riayət olunmasına nəzarət cəhdi özünü doğrultmadı. O, müəssisə rəhbərlərinin təşəbbüsünü buxovlayır, bazar konyukturunun dəyişməsinə reksiyanı çətinləşdirir. Qiymətəməlgəlməsinə dövlətin müdaxiləsi məhdud olmalı, qanunla reqlamentləşməlidir.

Dövlətin qiymət siyasəti. Qiymətlərin yaranması prosesinin formalaşması və dinamikasının dövlət tənzimlənməsi strateji məqsəd daşıyır, hansı ki, öz ifadəsini dövlətin qiymət siyasətində tapır. Bu siyasət cəmiyyətin inkişafı və iqtisadiyyatın transformasiyanın müxtəlif mərhələlərində, iqtisadi tsikllərin müxtəlif fazalarında dəyişir. Qiymət siyasəti dövlət orqanları tərəfindən federal, regional və bələdiyyə səviyyələrində, həmçinin xarici iqtisadi münasibətlərdə həyata keçirilir. XXI əsrin əvvəlində Rusiyanın müasir inkişaf mərhələsində dövlətin qiymət siyasətinin məqsəd və əsas vəzifələri hansılardır?

Birinci, bu siyasət iqtisadi artım meyllərini möhkəmləndirməli, Rusiya iqtisadiyyatını 1991-1998-ci illərdə baş vermiş dərin böhran, iqtisadiyyatı on illərlə geri atmış, 17-ci cədvəldən göründüyü kimi qiymətləri bir neçə min dəfə artırmış, qiymət nisbətlərini təhrif etmiş, əhalinin real gəlir səviyyəsini aşağı salmışdır. Artıma və istehsalın yeniləşməsinə iqtisadi şərait yaratmaq, inflyasiya səviyyəsini minimuma endirmək zəruridir. Lakin buna sadəcə inflyasiyanın mümkün hüdud səviyyəsini elan etməklə, eyni zamanda qiymət artmasına bir başa qadağa qoymaqla nail olmaq bazar iqtisadiyyatında qeyri-mümkündür. Dövlət orqanlarının qarşısında- tələbin genişləndirilməsi, əmtəə və xidmətlərin istehsalı və satışını artırmaq məqsədilə bazar agentlərinə birbaşa və dolayı təsirinin bütün vasitələrindən istifadə etmək, bu əsasda istehsal xərclərini və transaksiya xərclərini aşağı salmaq, dövlət xərclərini ixtisar etmək, kölgə iqtisadiyyatının fəaliyyət dairəsini azaltmaq kimi mühüm və ağır vəzifələr durur. Fiziki şəxslərin gəlirlərindən və mənfəətdən vergi dərəcələrinin ixtisar edilməsi qiymətlərin nisbətən aşağı səviyyədə olmasına, eyni zamanda tələbin həcminin genişlənməsinə, sahibkarlıq fəallığının artmasına, investsiyaların cəlb olunmasına təsir göstərər.

İkinci, müasir qiymət siyasətinin uzunmüddətli məqsədi, böhran illəri və inhisarların mənafeyinə nəzarətsiz qiymət dinamikasında yaranmış dərin qiymət disproporsiyalarının aradan qaldırılmasıdır. Geniş təkrar istehsal şəraiti bütün sahələr üçün regionların hamısında yaradılmalıdır. Bu ilk növbədə ölkə inhisarçılarının qiymətlərinin tənzimlənməsi, kənd təsərrüfatı istehsalçılarının qiymət səviyyəsinin və iş qüvvəsinin qiymətinin (başqa sözlə real əmək haqqına nəzarət) qaldırılmasını nəzərdə tutur. Eyni zamanda nəzərə almaq lazımdır ki, böhran dövründə əsas fondların yeniləşməsi demək olar ki, dayanmış, bu da ölkə məhsullarının rəqabət qabiliyyətini aşağı salmış və texnogen qəzaların sayını artırmışdır. Buna görə də, əsas fondların amortizasiyası və kapitallaşan mənfəət müəssisələrin öz vəsaitləri və bank kreditləri hesabına miqyaslı investsiyaların həyata keçirilməsi üçün qənaətləndirici olmalıdır. Həmçinin, strateji və sosial innovasiyaların, ekoloji məqsədlərin dəstəklənməsinə xərclər əhəmiyyətli dərəcədə artmalıdır. Bütün bu vəzifələri perspektiv qiymət siyasəti həll etməlidir.

Üçüncü, dövlətin qiymət siyasətnin strateji məqsədi inhisarların (təbii inhisarla daxil olmaqla) qiymətlərə təsirini məhdudlaşdırmaq, əmtəə və xidmət bazarını dolduran və milyonlarla işçilər üçün məşğulluğu təmin edən kiçik və orta biznesin inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır. Bunun üçün qiymətlərin dövlət tənzimlənməsinin kifayət qədər şəffaf, zərif və dəqiq mexanizmləri tələb olunur ki, korrupsiya imkanları və bu proseslərə kölgə iqtisadiyyatının təsiri və fəaliyyət sferası minimuma ensin.

Dördüncü, iqtisadi tsiklin müxtəlif fazalarında-həm ortamüddətli, həm də uzunmüddətli (Kondratyev) - qiymət tənzimlənməsinin vəzifə və metodlarını vaxtında dəyişmək lazımdır. Canlanma və yüksəliş fazalarında qiymət siyasəti tələb və istehsalın genişlənməsinə, yeni və yaxşılaşdırılmış əmtəə və xidmətlərin mənimsənilməsinə təsir göstərməlidir. Böhran və depressiya fazalarında – daha səmərəli və perspektiv məhsul və istehsal növlərinin qalmasına, əhalinin real gəlir səviyyəsinin qorunmasına xidmət etməlidir. Dövlət qulluqçuları iqtisadiyyatın tsiklli dinamikasının təhlili və proqnozlaşdırılması metodo-

logiyasını mənimsəməli, antiböhran tənzimlənmə mexanizmlərindən bacarıqla istifadə etməlidirlər.

Nəhayət beşinci, sürətli qloballaşma, bazar iqtisadiyyatının açıqlığı şəraitində Rusiya dövlətinin qiymət siyasəti dünya bazarında fəaliyyət göstərən və ölkələrarası iqtisadi münasibətlərdə qarşılıqlı faydanı təmin edən qaydalar nəzərə alınmaqla milli maraqları qoruyan və iqtisadi təhlükəsizliyi təmin edən fəal alət kimi istifadə olunmalıdır. Burada qiymət siyasətinin konkret vəzifələri hansılardır? İlk növbədə daxili bazarda transmilli korporasiyaların öz məhsullarına yüksək qiymət qoyması cəhdlərinin məhdudlaşdırılması. Bu –həm idxal və ixrac əmtəələrinin qiymətlərinə bilavasitə təsir göstərən, valyuta kursunun tənzimlənməsi, həm ölkə istehsalçılarının maraqları nəzərə alınmaqla gömrük tarifləri səviyyəsinin müəyyən edilməsi, həm də qiymət siyasətini MDB ölkələri ilə, xüsusilə üçüncü ölkələrin bazarlarında birgə çıxış etdikdə razılaşdırmaqdır. Həmçinin, qiymətlərin səviyyə və nisbətlərinə təsir göstərmək imkanı olarsa, dünya bazarlarında fəal qiymət siyasəti aparılmalıdır.

Qiymət siyasətinin reallaşdırılması dövlət orqanlarının, iqtisadi nazirlik və idarələrin işidir. Əsaslandırılmış və fəal qiymət siyasətinin hazırlanması və reallaşması imkanlarını zəiflədən 1918-ci ildən 1990-cı illərə qədər (fasilələrlə) ölkəmizdə fəaliyyət göstərən, ixtisaslaşdırılmış dövlət orqanının hazırda olmamasıdır. Belə orqanın olmaması inhisarçılara, kölgə iqtisadiyyatı liderlərinə və transmilli korporasiyalara sərfəlidir. Lakin bu cəmiyyət, bir çox istehsalçılara və əmtəə və xidmət alıcılarına sərfəsizdir.

Qiymətlərin dövlət tənzimlənməsi metodları. Qiymət siyasətini reallaşdırmaq üçün ölkəmizdə və xaricdə hazırlanan və təcrübədə yoxlanılan qiymətlərin dövlət tənzimlənməsinin müxtəlif metodlarından bacarıqla istifadə olunmalıdır. Bu metodlar hansılardır:

Qiymətlərin dinamikası, onların səviyyə, nisbət və strukturunun proqnozu və statistik müşahidəsi. Statistikada qiymətin monitorinqinin müxtəlif metodları işlənib hazırlanmışdır. Bunlara müxtəlif qiymət növlərinin indeksləri, ölkənin müxtəlif regionlarda, müxtəlif ölkələrdə müxtəlif qiymət növləri pa-

ritetləri (nisbətləri), qiymətlərin əsas elementləri üzrə strukturu, ayrı-ayrı qiymətlərin və ya ayrı-ayrı bazarlarda və s. qiymətlərin seçmə müayinəsi aiddir. Qiymət statistikası göstəriciləri mütəmadi olaraq statistik məcmuələrdə çap olunur, onlar qiymətin dinamikası meyllərini aşkar etməyə və neqativ meyllərə qarşı vaxtında tədbirlər hazırlamağa kömək edir. Qiymətlərin dinamikası iqtisadi havanın özünəməxsus barometri xidmətini göstərir.

Qiymətlərin proqnazlışdırılması ilə əlaqəli işlər qəlizdir. Onunla əmtəə və xidmətlərin konkret alıcılarından tutmuş, istehsalçılar, layihələşdiricilər, banklar, dövlət orqanlarına qədər hamı məşğul olur. Lakin bu işdə nailiyyətlər çox deyil, qiymətlər tez-tez qəfl dönüşlər edir, daxili və xarici bazarların konyuktur tərəddüdlə əlaqəli gözlənilməz irəliləyişlər edir və bu tərəddüdləri müəyyən edən amillərlə müəyyən olunur. Lakin qiymətin dinamikasının proqnozu olmadan dürüst uzunmüddətli və ya orta müddətli proqnoz, ölkənin və onun regionlarının sosial-iqtisadi inkişafının strateji planı, investisiya proqramın və ya layihələrinin əsaslandırılması, sosial siyasətin perspektivlərini müəyyən etmək qeyri-mümkündür. Buna görə də qiymət proqnozları «Rusiya Federasiyasının sosial-iqtisadi inkişafının proqramları və dövlət proqnozlaşdırılması haqqında» federal qanuna uyğun işlənilən (bax, fəsil XII) proqnozlar sisteminin ayrılmaz tərkib hissəsi olmalıdır. Qiymətəmələgəlmənin və qiymət siyasətinin qanunvericilik tənzimlənməsi qiymətlərə dövlət müdaxiləsinin mühüm elementidir. Bu fəaliyyət sferasının əsas kateqoriyaları, vahid sistem təşkil edən qiymət növləri, qiymətlərin formalaşma qaydası, qiymətin dövlət siyasətinin məqsəd və metodları, dövlət orqanlarının bu siyasəti həyata keçirən fəaliyyət prinsipləri, qanun pozulun zaman tətbiq olunan sanksiaylar qanunvericilik qaydasında müəyyən edilməlidr. Qiymətəmələgəlmənin və qiymətlərin dövlət təzimlənməsinin ayrı-ayrı məsələləri bir çox qanunvericilik aktlarında baxılır. Lakin indiyə qədər qiymətəmələgəlmə və qiymət siyasəti haqqında federal qanun, uzun müddət üzərində iş getməsinə baxmayaraq hələ qəbul edilməmişdir. Bu təkcə qanunvericilikdə tənzimlənən obyektin mürəkkəbliyi ilə deyil, həm də güclü maliyyə qruplarının bu işdə maraqlı

olmamasıdır. Belə ki bulanıq suda balıq tutmaq asandır. Bazar iqtisadiyyatının qanunvericilik tnzimlənməsində ciddi boşluğu doldurmaq lazımdır.

Müxtəlif sahə və sferalarda qiymətlərin dövlət tənzimlənməsinin diferensiallaşdırılmış metodlarından istifadə olunması. Burada vahid şablon sxem tətbiq oluna bilməz, ayrı-ayrı fəaliyyət növlərinin xüsusiyyətlərini nəzərə alan konkret yanaşma lazımdır. Daha da müstəqim və açıq formada belə tənzimləmə iqtisadiyyatın dölət bölməsində, təbii inhisarların fəaliyyətində tətbiq olunmalıdır. Kiçik və orta biznesin fəaliyyət sferasında, pərakəndə ticarətdə, məişət xidmətlərinin reallaşmasında, elmi-texniki sferada qiymətəmələgəlmədə dövlətin müdaxiləsi daha az olmalıdır.

Qiymətlərin dövlət tənzimlənməsi işində peşəkarlıq. Qiymətəmələgəlmə iqtisadi faliyyətin ən mürəkkəb sahələrindən biridir və bu sahədə dövlətin müdaxiləsi peşəkar, ixtisaslı əsasda, qəbul olan tədbirlərin bütün ilkin şərtlərinin və nəticələrinin aydın tərzdə başa düşülməsilə həyata keçirilməlidir. 90-cı illərin təcrübəsinin göstərdiyi kimi səthi yanaşma, qeyri-peşəkarlıq, səhvlər düzəlməsi mümkün olmayan, uzunmüddətli ziyan gətirə bilər. Buna görə də, bütün dövlət qulluqçularına qiymətəmələgəlmə və qiymət siyasəti məsələlərini öyrətmək, həmçinin bu məsələlərlə bağlı mütəxəssislər hazırlanmalıdır, hansılar ki, dövlət qiymətəmələgəlmə orqanlarında bu fəaliyyətlə peşəkar məşğul olurlar.

Suallar və tapşırıqlar

1. Nə üçün bazar iqtisadiyyatında qiymət lazımdır və o hansı funksiyaları yerinə yetirir? Qiymətdən imtina etməklə, bu funksiyaları digər iqtisadi kateqoriyalara həvalə etmək olmazmı?

2. Qiymətlərin dinamikasına təsir göstərən amilləri sayın. Bu amillərdən hansılar həlledicidir, müəyyənedicidir? Bazar iqtisadiyyatında qiymətlərin artması labüddürmü?

3. Qiymət sisteminin tərkibini, onun növlərini və müxtəlifliyini xarakterizə edən sxemi çəkin. Sxemdə ayrı-ayrı qiymət növlərinin öz aralarındakı qarşılıqlı əlaqələri göstərin.

4. Sənaye müəssisəsinin satdığı öz məhsulunun topdan satış qiymətinin tərkibinə daxil olan elementləri qeyd edin: məhsulun hazırlanması xərcləri; aksiz; mənfəət; ticarət əlavələri; əlavə dəyər vergisi; məhsulun reallaşma məsrəfləri.

5. Rusiyada 90-cı illərdə qiymətlərin kəskin artması nə ilə əlaqədardır. Bu artımın sosial-iqtisadi nəticələri hansılardır: bazar iqtisadiyyatına keçid zamanı belə yüksək inflyasiya səviyyəsindən yaxa qurtarmaq olardımı?

6. 2010-cu ilə qədər olan dövrə Rusiyada mümkün qiymət dinamikası ssenarilərini, hər bir ssenarinin amillərini və nəticələrini müəyyən edin.

7.Bazar iqtisadiyyatında qiymətlərin dövlət tənzimlənməsi zəruridirmi? Onların tənzimlənməsindən imtina etmək nə kimi fəsadlar verər?

Planlı qiymətəmələgəlməyə qayıtmaq mümkündürmü və məqsədəuyğundurmu?

8. Yuxarıda formalaşdırılan qiymət siyasətinin vəzifələrilə, siz, razısınızmı? Sizə daha çox məlum olan sahədə, onun konkretləşdirilməsi və həyata keçirilməsini necə təklif edərdiniz?

9. Dövlət orqanları qiymətlərin proqnozlaşdırılması ilə məşğul olmalıdırlarmı? Bu proqnozlar nə üçün lazımdır?

10. Sizin fikrimizcə, dövlətin qiymət siyasətini əsaslandırmaq və reallaşdırmaqla məşğul ola bilən ixtisaslaşmış dövlət orqanının fəaliyyətinin bərpa olması lazımdırmı? Əgər hə-onda 80-cı illərin dövlət qiymət komitəsinin fəaliyyətindən onun fərqi və funksiyaları hansılar olmalıdır.

© Яковлев Й.В. 2002

XXIII Fəsil

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ İDARƏ EDİLMƏSİ

1. İqtisadiyyatın ərazi-istehsal amilləri

Hər bir ölkənin iqtisadiyyatının inkişafı onun vəziyyətinə təsir edən başlıca tərkib elementlərinin dəyişilməsi meylləri ilə müəyyən edilir. Bunlara təbii və əmək ehtiyatları, texniki tərəqqi, istehsalın miqyası və strukturu, əməyin içtimai (o cümlədən ərazi) təşkili, ərazilərin inkişafının tarixi xüsusiyyətləri daxildir. Yekunda onlar ərazi-istehsal amillərini təmsil edir, obyektiv və subyektiv amillərə bölünür.

Ərazi istehsal amilləri əhəmiyyət dərəcəsinə görə müvafiq olaraq qruplaşdırılır və qiymətləndirilir. Təbii, iqtisadi, demoqrafik, sosial amillər də fərqləndirilir. Amillərin tərkibi həll olunan problemlərdən asılıdır. Bazar prinsipləri əsasında fəaliyyət göstərən iqtisadi və sosial sistemin transformasiyası, çoxukladlı iqtisadiyyatın formalaşması, baxılan amillərin tərkibini və nisbətlərin rolunu dəyişdirir.

Ərazi-məkan amillərin iqtisadi məzmunu nəqliyyat, material, əmək məsrəfləri ilə əlaqədardır. Onlar mənfəətə və təsərrüfat fəaliyyətinin səmərəliliyinə təsir edir. Material amillərlə yanaşı qeyri material xarakterli (mədəni fəaliyyət və əyləncə xidmətlərinin intensivliyi, yaradıcı ab-hava, keyfiyyət səviyyəsi, müxtəliflik, insanların, əhalinin yaşayış yerlərinə bağlılığı və s.).

Ərazi-məkan amilləri bir neçə qrupa bölünür. Onlardan ən mühümlərini izah edək. Bu, hər şeydən əvvəl istifadə şəratini

də daxil etməklə təbii (enerji, mineral-xammal, bioloji, su), iqlim və başqa resurslardır. Bu həmçinin təbii ehtiyatlardan bu və ya digər səviyyədə səmərəli istifadəni və əhalinin həyat səviyyəsi üçün normal həyat şəraitini təmin etməyi xarakterizə edən ekoloji resurslardır. Texnika və texnologiyaların faktiki və gözlənilən səviyyəsini xarakterizə edən texniki resurslar, həmçinin də əmək ehtiyatları ilə təmin olunma səviyyəsini əks etdirən sosial-demoqrafik, sosial infrastrukturun inkişafı, sosial mühit, habelə əməktutumluğu, materialtutumluğu, enerjitutumluluğu, məhsulun nəqliyyata davamlılığı və s. əks etdirən texniki-iqtisadi amillər də mühüm yer tutur. Əmək ehtiyatları ilə təmin olunma səviyyəsini, sosial infrastrukturun inkişafını, sosial mühiti əhatə edən sosial-demoqrafik amillər böyük rol oynayır. Aydındır ki, iqtisadi-cografi nəqliyyat vəziyyətini, kapital və cari xərcləri, tikintinin müddətlərini, istehsalın səmərəliliyini, məhsulun keyfiyyəti və təyinatını, ərazi-iqtisadi və beynəlxalq əlaqələri və s. xarakterizə edən iqtisadi amilləri də yaddan çıxarmaq olmaz. Nəhayət qeopolitik amillər də mövcuddur. Onlar dünya və milli iqtisadi mərkəzlərin cəzbediciliyindən uzaqlaşma dərəcəsini göstərir.

Ölkələrin və onların regionlarının iqtisadiyyatının yuxarıda sadalanan amillərdən asıllığı heç də şübhə doğurmur. Buna görə də iqtisadi proqramların və layihələrin reallaşdırılmasında dövlət idarəetmə və iqtisadiyyatın tənzimlənməsi sisteminin səmərəliliyini təmin edən mühüm ərazi (mühit) elementləri qəbul olunmuş və hazırda da istifadə olunur.

2. İqtisadi strategiyada regional siyasətin yeri

Təsərrüfat fəaliyyətinə ərazi-istehsal amillərinin təsirini məntiqlə nəzərə almaq üçün dövlətə səmərəli regional siyasət vacibdir. Müasir sosial-iqtisadi problemlərin əksəriyyətini yalnız bazar strukturlarının formalaşmasında regionların artan rolunu başa düşməklə həll etmək olar. Regional siyasət həm bütövlükdə dövlətin, həm də

regionların (regional sistemlərin özlərinə məxsus xüsusiyyətlərini nəzərə almaqla) mənafelərini reallaşdıran tənzimləmə mexanizminin mövcudluğunu nəzərdə tutur.

İqtisadi strategiyada regional siyasətin yeri ölkəmizin sosial-iqtisadi inkişafında regionların rolunun artması ilə müəyyən edilir. Regionlar regional iqtisadi sistemlərin özünütənzimləmə əsasında fəaliyyət göstərən müstəqil iqtisadi qrumlara çevrilir. Regional siyasət sistemli şəkildə regional istiqamətlərini ümumiləşdirən ümumi iqtisadi siyasətin bir hissəsi kimi çıxış edir.

Regional siyasətin başlıca məqsədi ölkənin və regionların mənafelərinin balanslılığını təmin etmək yolu ilə Rusiyanın vahidliyini və bütövlüyünü saxlamaqdan ibarətdir. Regional siyasətin mühüm vəzifələrindən biri həddindən artıq sosial şəraitin təzadlarını (ziddiyyətlərini) aradan qaldırmaq və hər bir regionda əhalinin həyat səviyyəsini tədriclə bərabərləşdirmək və ləyaqətli səviyyəni təmin etməkdən ibarətdir. Deyilənlərə əsaslanaraq regional iqtisadi siyasətin prioritet (birinci) vəzifələrini müəyyən etmək olar.

Rusiya Federasiyasının dövlət hakimiyyəti orqanları ilə Federasiya subyektlərinin və yerli özünüidarə orqanlarının hakimiyyətləri arasında səlahiyyət hədləri dəqiq müəyyən etməklə regionların sərbəst sosial-iqtisadi inkişafının iqtisadi əsaslarının formalaşdırılması və möhkəmləndirilməsi kimi vəzifələrin tədqiqindən başlayaq. Xüsusilə, büdcə federalizmi prinsipləri əsasında regionların maliyyə müstəqilliyini möhkəmləndirmək lazımdır. İqtisadi və sosial məsələlər həllində dövlət hakimiyyəti və yeriliözünüidarə orqanları, federal və regional hakimiyyət orqanları, təsərrüfatçı subyektlər arasında praktiki qarşılıqlı fəaliyyətin və hüquqi əsasların təkmilləşdirilməsi problemlərini həll etmədən keçinmək olmaz.

Mərkəzləşdirilmiş maliyyə yardımından istifadə etməklə sosial-iqtisadi inkişaf səviyyələrində obyektiv şəkildə formalaşmış regionlararası fərqlərin aradan qaldırılması böyük əhəmiyyət kəsb edir. Nəhəng elmi-texniki və istehsal potensialına malik və RF-ı subyektlərinin «lokomotivləri» və «artım nöqtə-

ləri» ola bilən regionların və şəhərlərin inkişafının stimullaşdırlmasının dövlət siyasəti lazımdır. Xüsusi mürəkkəb təsərrüfatçılıq şəraitinə malik regionların və zonaların normal həyatının təmin edilməsi, xüsusilə də Uzaq Şərqin və ona bərabər götürülən regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi böyük əhəmiyyət kəsb edir. İndiyə qədər ekoloci təhlükəli, mürəkkəb demoqrafiya və miqrasiya problemlərinə malik rayonlara yardım məsələləri, həmcinin də qalan rayonların inkişafı vəzifələri hələ də həll edilməmişdir. Ekoloji və texnoqen bədbəxtçiliyindən, təbii fəlakətlərdən, müxtəlif çirklənmə hallarından əziyyət çəkən bir çox rayonların təcili yardıma ehtiyacı vardır. Həm də məlumdur ki, düşünülmüş şəkildə təşkil edilmiş əməyin ərazi bölgüsü daha çox iqtisadi və başqa üstünlüklər verir. Formalaşmış tarixi inkişaf şəraitini nəzərə almaqla ümumrusiya və regional bazarları yaratmaq və üstünlüklərdən istifadə etmək lazımdır. Nəhayət, iqtisadi mühitin vahidliyi və Rusiyanın bütün ərazisində əmtəələrin, kapitalların, işçi qüvvəsinin sərbəst yerini dəyişmə prinsiplərinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Mürəkkəb coğrafi, tarixi, sosial və iqtisadi amillər sisteminin təsiri altında, inzibati-amirlik sistemi şəraitində formalaşmış, son dərəcə inersiyalı ərazinin təsərrüfat strukturu, habelə ictimai münasibətlərin və iqtisadi böhranların transformasiyası nəticəsində ölkənin və regionların iqtisadiyyatında baş vermiş dəyişiklilklər Rusiyada regional iqtisadi siyasətin obyektiv əsaslarını təşkil edir. Bu, müasir vəziyyətə müvafiq olaraq dövlətin regional sisyasətinin üfiqi və şauquli sferalarında iqtisadi islahatların gedişi şəraitdə dövlətin regional siyasətinin formalaşdığını nəzərdə tutur. Regional siyasət bir tərəfdən ölkənini vahid iqtisadi mühitinin qorunması və möhkəmləndirlməsinə ümumdövlət problemlərinin həllinin demokratik formalarına istiqamətləndirilməsinə əlverişli şərait yaradır, digər tərəfdən bir çox məsələlərin sərbəst həlli yolu ilə isə regionların, onların ərazilərində yaşayan əhalinin tələbatları təmin edilə bilər.

Dövlətin regional siyasətinin əsasını təşkil edən elementlərdən biri makro-mezo və mikrosəviyyələrdə onların üzvi şəkildə qarşılıqlı əlaqələrində və ölkənin vahid iqtisadi mühiti çərçivəsində baş verən proseslərin tənzimlənməsidir. Bu sistemin strukturu aşağıdakı kimidir: a) makrosəviyyə mikrosəviyyə, b) makrosəviyyə mezosəviyyə, c) mezosəviyyə bələdiyyə səviyyəsi, ç) mezosəviyyə mikrosəviyyə.

Federativ münasibətlərin əsas keyfiyyət xarakteristikasını verək. Onlar kifayət qədər çoxsaylıdırlar. Hər şeydən əvvəl qeyd edək ki, federasiyalarda dövlət (o cümlədən, ərazi) idarəetmənin üfiqi modelni həyata keçirir ki, onlar bərabər partnyorluğa dövlət hakimiyyətinin iki səviyyəsinin - federasiya və onun subyektləri əməkdaşlığına əsaslanırlar. Belə əməkdaşlıq Federasiya subyektlərinin vətəndaşlarının bu cür ittifaqın iqtisadi və siyasi zəruriyyətini etiraf etməsindən irəli gəlir. Bu subyektlərin milli-dövlət birliyində-Federasiyada könüllü birləşməsi zəruriyyəti meydana gəlmişdir. Bununla Federasiya subyektləri federal və xüsusi idarəetmə vasitələrini müəyən edərək milli-dövlət qurumu statusunu saxlamaqla, öz dövlət müstəqilliyini itirirlər.

Qeyd etmək lazımdır ki, yalnız region əhalisinin tələbatlarını təmin edə bilən müvafiq dövlət aparatını saxlayaraq, xüsusi sferalar hesabına öhdəliklərə əməl etmək qabiliyyətinə malik olan iqtisadi müstəqil partnyorları Federasiya subyekti kimi qəbul etmək olar.

Federativ münasibətlərin mühüm xüsusiyyəti büdcə Federalizminin üfqi modelindən istifadə etməkdir. Burada Federasiyanın və onun subyektlərinin səlahiyyətində olan vasitələr təcrübədə dəyişilə bilər. Bütün bunlar öz növbəsində dövlət mülkiyyətinin (federal və Federasiya subyektlərinin) ikisəviyyəli sisteminin vacibliyini müəyyən edir ki, bu da Federasiya ilə onun subyektləri arasında iqtisadi münasibətlər sisteminin möhməliyinin və bərabərhüquqluluğunun sosial-iqtisadi əsasıdır. Bununla belə Federasiya subyektlərinin tabeçiliyində yalnız o obyektlər olur ki, onlar konstitutsiya ilə təhkim olunmuş səlahiyyət vasitələrinin yerinə yetirilməsinə təminat verir.

Aydındır ki, iki səviyyəli dövlət qanunverici və icraedici hakimiyyət (federal və onun subyektlərinin) orqanları arasında qarşılıqlı fəaliyyət o prinsipə əsaslanır ki, federal münasibətləri tərəflərinin hər birinin digər tərəfin səlahiyyət vasitələrinə qarışmaq hüququ yoxdur. Bu halda Federasiya müxtəlif dövlət funksiyalarını yerinə yetirməklə bir-birini təkrarlamır, subsidiyalaşdırma prinsiplərinə əsaslanır. Buna müvafiq olaraq yuxarı hakimiyyət orqanları elə vəzifələri yerinə yetirirlər ki, onları aşağı orqanlar həyata keçirə bilmirlər. Bu prinsipin pozulması pozanın ünvanına təxirəsalınmaz cəza tədbirlərinin həyata keçirilməsinə gətirib çıxarır.

Yerli özünüidarənin formalaşması və fəaliyyəti proseslərinin dövlət tənzimlənməsi regional siyasətin tərkib hissəsidir. Bununla belə yerli özünüidarənin bir sıra xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Birincisi, yerli özünüidarə, dövlət quruculuğunun bütün formalarında yaranır və inkişaf edir; o həmçinin müxtəlif etnomədəniyyət mühitində də mövcuddur. Beləliklə, bu institut xüsusi rejimli ictimai hadisələri özündə birləşdirir. Təsdiq etmək olar ki, o (lokal qovernment) ***vətəndaş cəmiyyətinin*** tərkib elementidir, hansı ki, onun çərçivəsində aşağıdakı funksiyaları yerinə yetirir: ayrı-ayrı ərazilər və başqa cəmiyyətlərin mənafelərini mərkəzi və regional bürokratiyanın özbaşınalığından qorumaq, əhalinin gündəlik tələbatlarını ödəmək məqsədilə onun özünütəşkili üçün şərait yaratmaq üzrə;

İkincisi, XX yüzillikdə yerili özünüidarə müəyyən dərəcədə dövlət hakimiyyəti institutlarına qarşı durmaq ərazi cəmiyyətlərinin mənafelərinin müdifiəsinə dair ümumdövlət məsələlərini də həll etməyə başladılar. Bu, vətəndaşların mənzilə, səhiyyə xidmətlərinə tələbatlarının ödənilməsi, təhsil almaq, ətraf mühitin mühafizəsini təşkil etmək və s. Problemlər üzrə ümumdövlət statusunun yerlərə verilməsi ilə əlaqədar dövlətin rolunun dəyişilməsi ilə bağlıdır.

3. Milli təsərrüfatın ərazi təşkilinin əsasları

İqtisadiyyatın ərazi strukturu dedikdə xalq təsərrüfatı sisteminin məkan törəmələri və ya özəkləri, daha doğrusu, taksonlar üzrə bölgüsü başa düşülür. Onlar müxtəlif səviyyələrdə zonaları, rayonları, sənaye mərkəzəli və qovşaqlarını təmsil edirlər. Ərazi struktur sahə strukturuna nisbətən daha çox ləng dəyişilir. Belə ki, onun əsas elementləri çox möhkəm və daha az, yavaş dəyişəndir. Ərazi struktur təsərrüfatın məkan təşkilinin əsası kimi çıxış edir.

Ərazi strukturunun hər bir elementi həmin regionda yerləşən istehsalın, əhalinin və resursların müəyyən qədər əlaqələndirilməsini nəzərdə tutur. Ərazi vahidlər özlərinin inkişaf prosesində təsərrüfat, təkrar istehsal, sosial funksiyalarını yerinə yetirirlər. Hər bir ərazi vahidinin resurslarının əlaqələndirilməsində fərqlər, yerinə yetirdiyi funksiyaların xüsusiyyətlərinin, amillərin müxtəlifliyi, hər bir ərazi vahidi üçün müasir dövrə iqtisadi statusunun formalaşdırılmasına səbəb olur. Bu status onun əməyin ərazi bölgüsü sisteminə cəlb edilməsi dərəcəsini və səviyyəsini əks etdirir.

İqtisadiyyatın ərazi strukturu əhalinin milli varlığın, istehsalın, istehlak həcmlərinin, gəlirlərinin və s. məkan bölgüsünü əks etdirir. Rusiya iqtisadiyyatının ərazi strukturunun ümumi əlaməti əsas sosial-iqtisadi parametrlərin ölkənin ***taksonometrik vahidlər*** üzrə bölgüsünün qeyri-bərabərliyidir.

Təsərrüfatın inkişafının ərazi-iqtisadi proporsiyalarının təhlili və sintezində, habelə qarşıdakı (gələcək) dövrə ölkənin ərazisi üzrə məhsuldar qüvvələrin yerləşdirilməsinin başlıca istiqamətlərini aşkara çıxaran zaman iri iqtisadi zonalar fərqləndirilir. Onlar məhsuldar qüvvələrin inkişafının xarakterik təbii və iqtisadi şəraitə malik iri ərazi törəmələrini əks etdirir. İqtisadi zonaların seçilməsinin (artırılmasının) başlıca prinsipləri kimi ərazinin iqtisadi mənimsənilməsi səviyyəsi və mühüm resurslar arasındakı nisbətlər, onlardan istifadə dərəcəsi çıxış edirlər.

Rusiya Federasiyasının ərazisində iki iri iqtisadi zona: Uralı daxil edən qərbi, avropa, və Sibir və Uzaq Şərqi əhatə edən şərq. İqtisadi zonalar çərçivəsində iriləşdirilmiş rayonlar seçilir. Qərb zonasında adətən üç belə rayonun adı çəkilir: Rusiyanın avropa hissəsinin Şimal və Mərkəz, Ural – Volqaboyu, Cənubi Avropa. Şərq zonasında Sibir və Uzaq Şərq seçilir.

Ölkənin ərazisi həmçinin iqtisadi rayon adlı kiçik hissələrə bölünür. Onlar nisbətən oxşar təbii şəraiti və resursları, məhsuldar qüvvələrin inkişafının xarakterik istiqamətləri, mürəkkəb maddi texniki bazası, istehsal və sosial infrastrukturunu təmsil edirlər. Ölkə tarixnin müxtəlif mərhələlərində iqtisadi rayonlar ərazi bölgüsündə iqtisadiyyatın ümumdövlət tənzimlənməsində öz funksiyalarını yerinə yetirirdilər. Son dövrə qədər Rusiyanın tərkibində 11 iqtisadi rayon olmuşdur: Şimal, Şimal-Qərb, Mərkəz, Mərkəzi-Qaratorpaq, Volqa-Vyat, Volqaboyu, Şimali-Qafqaz, Ural, Qərbi-Sibir, Şərqi-Sibir, Uzaqşərq və Kalininqrad vilayəti. Yeni yaradılmış yeddi Federal dairə əsasında perspektivdə iqtisadi rayonlar yenidən təşkil oluna bilər.

İqtisadi rayonların daxilində ərazi iqtisadi qurumlar sayılan iqtisadi aqlomerasiyalar formalaşdırılır. Onlar müxtəlif təsərrüfat sahələri müəssisələrinin, infrastruktur obyektlərinin və elmi idarələrinin, yüksək səviyyəli ərazi təmərküzləşməsi, habelə yüksək əhali sıxlığı ilə fərqlənirlər. İqtisadi aqlomerasiyalar hər şeydən əvvəl iri sənaye aqlomerasiyaları və sənaye zonaları (Moskva, Nijnenovqorod və s.) kimi çıxış edirlər. Kiçik ərazidə yığcam yerləşmiş istehsal qrupu sənaye qovşağını təşkil edir.

İqtisadiyyatın ərazi strukturu yalnız istehsalın ərazi-məkan yerləşməsini yox, həm də ərazi təsərrüfat sistemləri arasında qarşılıqlı iqtisadi əlaqələrin məcmusunu əks etdirir. Federativ dövlət kimi Rusiya üçün mühüm istehsal ərazi struktur elementi Federasiya subyekti və ya region çıxış edir. Regionlar ölkənin vahid təsərrüfat kompleksinin iqtisadi hissələridir, onları qorumaq və möhkəmləndirmək lazımdır. Burada

ilk növbədə energetika, su təsərrüfatı və nəqliyyat sistemləri, maliyyə-kredit və büdcə sferaları, habelə ekoloci təhlukəsizlik kimi istiqamətlər üzrə Rusiya iqtisadiyyatının məkan birləşməsi üzrə tədbirlər hazırlamaq lazımdır. Ölkənin bütün ərazisində vahid bazar mühitini, daha doğrusu, çoxsaylı regionlararası iqtisadi əlaqələrə malik vahid ümumrusiya bazarını yaratmaq və möhkəmləndirmək lazımdır, vahid regionlararası siyasət həyata keçirilməlidir.

Təsərrüfatın ərazi təşkili problemi yalnız struktur deyil, həm də dinamik problemdir, belə ki, bu, regionların iqtisadi artım sürətinin müxtəlifliyi ilə əlaqədardır. Bu fərqlərin səbəbləri iqtisadi resursların, xüsusilə əmək resurslarının ərazi bölüşdürülməsinin ərazi xüsusiyyətləri sferalarında, kapital qoyuluşlarının coğrafiyasının dəyişilməsi və elmi-texniki tərəqqinin iqtisadi struktura differensial təsiri sferalarındadır.

Struktur dəyişikliklərinin dinamikası və sektoru regional və regionlararası proporsiyaların dəyişilməsi dərəcəsinə təsir edir. İctimai sistemin dəyişilməsi şəraitində cəmiyyətin ərazi strukturunda irəliləyişlər əmələ gəlir. Ərazi strukturunun baza xarakteristikaları (regionların və mərkəzlərin hipertəmərküzləşməsi, nəhəngliyi, hiperixtisaslaşması və s.) əsasən əvvəlki kimi dəyişilməz qalsa da, iqtisadiyyatın yeniləşməsi illərində bu komponentlərin miqyası azalmışdır. Bu gün regionlarda bazar yeniləşməsi miqyasları və sürətlərində də xarakterik fərqlər vardır.

Formalaşan bazar iqtisadiyyatında istehsalın, əməyin, həyat təminatının iqtisadi şəraitinin dinamikliyi də artır. Bu isə regional və regionlararası əmtəə, xidmət bazarlarında tələb və təklif, istehsal amilləri arasında, istehsalçılarla istehlakçıların yerləşməsi arasında disproporsiyalara gətirib çıxara bilər. Müxtəlif sferalarda bazar dəyişikliklərinin balansızlığı ilə əlaqədar da regional problemlərin gərginliyi güclənə bilər.

Cəmiyyətin dəyişilməsi prosesində mürəkkəblik və əksiliklər regionların sosial iqtisadi inkişaf dinamikasına müxtəlif formalarda təsir edə bilər. Rusiyanın bir çox regionları üçün ümumi meyllər əhalinin sayının azalması, doğumun azal-

ması və ölümün artmasıdır. Ümumi regional məhsulun (ÜRM) məbləğinin strukturunda ərazi dəyişikliklər baş verir. Ümumi regional məhsulunun yarısından çoxu on bir iqtisadi rayondan üçünün payına düşür, eyni zamanda onların xüsusi çəkisi həmişə sürətli artım meylindədir. Mərkəz və Qərbi Sibir rayonlarının xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artır. Regionalar üzrə ÜRM-da Moskvanın və Tumen vilayətinin payı artır. ÜRM-nın məbləğinin 46%-i 89 regiondan 10-nun payına düşür. Eyni zamanda 19 geri qalmış regiona ÜRM-u məbləğinin yalnız 4,0%-i düşür.

İslahatlar illərində sənaye istehsalının dinamikası və strukturu dəyişilmişdir. 1997-ci ilə qədər bütün regionlar üçün azalmaq ümumi meyl idi. Bununla belə sənaye istehsalı dinamikasında ərazi qeyri bərabərlikləri müşahidə edilirdi. 1997-ci ildən bir çox regionlarda və iqtisadi rayonlarda yavaş-yavaş artım başlandı. Lakin 1998-ci il ***defoltu*** onu dayandırdı.

İnvestisiyalarla da mürəkkəb vəziyyət yarandı. Ümumən 90-cı illərdə investisiya proseslərinin dinamikası iş aktivliyinin zəifləməsi ilə xarakterizə olunur. Bütün regionlarda investisiyaların həcmləri azaldı. İnvestisiyanın aşağı düşməsinin başlıca səbəbləri makroiqtisadi xarakterə malikdir. Son dörd ildə bəzi regionlarda investisiya iqlimi yaxşılaşmağa başladı. Sahə bölgüsündə investisiyaların çox hissəsi sənayenin, nəqliyyatın, mənzil tikintisinin payına düşür.

İqtisadiyyatın ərazi strukturunda gözlənilən dəyişikliklərin bəzi əlamətləri meydana gəlmişdir. Xüsusilə bu əlamətlər Rusiyada federal dairələrin yaradılması və onlarda RF Prezidentinin səlahiyyətli nümayəndələr institutunun tətbiqi ilə yaranmağa başlamışdır. Burada bir tərəfdən federal mərkəzin şaquli (vertikal) dövlət hakimiyyətini möhkəmləndirmək, onun regional siyasətinin səmərəliliyini artırmaq cəhdini görmək olar. Digər tərəfdən isə Rusiyanın iqtisadi mühitinin transformasiyası meylləri ərazi strukturunun dəyişilməsi, federasiyanın ərazi qurumlarının iriləşdirilməsi müşahidə olunur.

XX yüzilliyin ikinci yarısında ərazilərin sosial-iqtisadi inkişafı səviyyələrində fərqlərin azalması inkişaf etmiş dövlət-

lərin regional siyasətini daha mühüm istiqamətlərindən birinə çevirdi. Regionların qeyri-bərabər inkişafı, ərazilərin coğrafi şəraitləri, təbii və əmək resurslarının mövcudluğu, iqtisadi və sosial potensialla əlaqədar formalaşır.

Sosial cəhətdən əsaslandırılmış bazar dəyişiklikləri ilə əlaqədar Rusiyada ərazilərin iqtisadi inkişafının qeyri-bərabərliyi artmışdır. Regional inkişafda bərabərlik və qeyri-bərabərlik meyllərinin ziddiyyətliliyi həmin ərazinin daxil olduğu vahid xalq təsərrüfatı nöqteyi nəzərdən aydın görünür. Əksliklər həmçinin öz xüsusi resurs potensialı əsasında onun inkişaf imkanlarının obyektiv qiymətləndirilməsi nöqteyi nəzərdən də görmək olar. Milli iqtisadiyyat çərçivəsində qeyri-bərabərlik makroregiona, habelə iri iqtisadi rayonlara (makroregionlara) daxil olan ayrı-ayrı regionlar baş verir. Makroregionda qeyri-bərabərliyin ilk səbəblərini aradan qa+ldırmaq üçün ona daxil olan regionların iqtisadiyyatının inkişaf səviyyələrinin və əhalinin həyat səviyyəsinin (təqribən bərabər olmalıdır) bərabərləşdirilməsi stimullaşdırılır. Bununla belə həyat səviyyələrinin özləri ərazi altsistemlərinin iqtisadi artım xüsusiyyətlərindən xeyli dərəcədə asılıdır.

Buna görə də bu gün rusiya iqtisadiyyatı üçün regionların iqtisadi və sosial inkişaf səviyyələrinin bərabərləşdirilməsi vəzifəsi aktual problemlərdən biridir. Rusiya cəmiyyətinin bütün iqtisadiyyatının səmərəli fəaliyyəti, bazar münasibətlərinin inkişafı, sosial bərabərliyi və mütəşəkkilliyi, onun optimal həllindən asılıdır. Bərabərləşdirmə dedikdə bazar iqtisadiyyatı şəraitində regionlar arasındakı köklü disproporsiyaların aradan qaldırılması, yəni iqtisadi və sosial şəraitin geniş mənada bərabərləşdirilməsi başa düşülür. Bərabərləşdirmə prosesində regionların iqtisadiyyatının inkişafı əməyin ərazi bölgüsünün bütün üstünlüklərindən istifadə edən regional iqtisadi altsistemlərinin sistemi kimi Rusiya iqtisadiyyatının daha səmərəli fəaliyyətinə nail olmaq istiqamətində getməlidir.

Dövlət müxtəlif sosial-iqtisadi inkişaf səviyyələrinə malik regionlar üzrə aktiv regional siyasət hazırlamalı və həyata keçirməlidir. Bu siyasət real, differensial olmalı, iqtisadi fəaliy-

yət şəraitinin bərabərləşdirilməsinə regionların təbii, iqtisadi və başqa xüsusiyyətlərindən maksimum istifadəyə istiqamətlənməlidir. Regionların inkişaf üçün həm ölkənin, həm də özlərinin təsərrüfatını möhkəmləndirən, onların müstəqil inkişafını üçün şərait və stimullar sistemini yaradan, vergitutma bazasını genişləndirən və möhkəmləndirən mərkəzin köməyi vacibdir. Zəif inkişaf etmiş regionlara aktiv iqtisadi siyasət işlənib hazırlanmalıdır. Bu siyasət regionların iqtisadiyyatının strukturunun yenidən qurulması, onlara investisiyaların cəlb edilməsinə şərait yaradılması, az məsrəfli əlavə iş yerlərinin açılması proqramlarının həyata keçirilməsi, Federasiya səviyyəsində dövlət təminatlı maliyyə yardımının işlənib hazırlanması və əlaqələndirilməsində mərkəzin mütləq iştirakını təmin etməlidir.

Əlbəttə regionların sosial-iqtisadi inkişaf səviyyəsinə görə nəzərə çarpacaq qədər bərabərləşdirilməsi yaxın dövrün məqsədi ola bilməz. Bunun praktiki mənası az inkişaf etmiş regionların daha çox inkişaf etmiş regionlardan iqtisadi geriliyini azaltmaq vəzifəsidir. Buna görə də regionlararası sosial qeyribərabərliyin güclənməsi meylinin öhdəsindən gəlməsi iqtisadi məkanın müxtəlifliyinin azaldılması vəzifəsi daha üstün olmalıdır. Həyat səviyyəsinə görə daha çox geri qalan regionların irəlidə gedənlərə çatdırılması mühüm əhəmiyyət kəsb edir. İqtisadi inkişaf səviyyəsinə görə regionlararası fərqlərin azaldılması sosial məsələlərin həllində başlıca vasitə kimi çıxış edir. Yalnız iqtisadi artımı həyata keçirməklə onları reallaşdırmaq olar.

4. İqtisadiyyatın regional və bələdiyyə tənzimlənməsi mexanizmləri

Bazar münasibətlərinə keçid şəraitində regionlarda sosial-iqtisadi vəziyyətin müasir transformasiyası regional, iqtisadi siyasətə radikal dəyişikliklər gətirir. Rusiya Federasiyası subyektlərin cəmiyyətlərinin yaradılması və inkişafı, onların iri iqtisadi rayonlarda qarşılıqlı

əlaqələndirilmiş iqtisadi siyasətin həyata keçirilməsi cəhti, regional iqtisadi siyasətin işlənib hazırlanması və səmərəli həyata keçirilməsinin yeni formalarının axtarılmasını nəzərdə tutur. Ərazi inkişafın həyata keçirilməsinin yeni mexanizminin formalaşması prosesi çox ləng, ziddiyyətli, bəzən əziyyətli prosesdir.

Regional iqtisadi siyasətin bütün alətləri və metodlarının məcmuusunun federal mərkəzi, onun təsirliyini, məqsədyönlülüyünü, səmərəliliyini, ölçüb-biçilmişliyini, əsaslılığını, ədalətliliyini təmin etmək iqtidarında olmalıdır. Regional hakimiyyət orqanları ərazi inkişafın xüsusiyyətlərini nəzərə almaqla regional inkişafın səmərəliliyini struktur və institutsional yeniləşməyə, əhalinin həyat şəraitinin keyfiyyətinin və səviyyəsinin yüksəlməsinə istiqamətləndirilməsini təmin etməlidir. Regional iqtisadi siyasətin bu istiqamətlərinin hər biri müvafitq metod və alət komplektlərinə malikdirlər. Onlar həm ümumi, həm də spesifik (səciyyəvi) ola bilər. Onların məcmuu ərazinin inkişafı məsələlərinin həllinə yönəldilməlidir.

İqtisadi artımın təmin edilməsi, təkrar istehsal prosesinə mərkəzləşdirilmiş və qeyrimərkəzləşdirilmiş idarəetmə təsirlərinin məqsədyönlü əlaqələndirilməsini tələb edir. Dövlət tənzimləmə mexanizmini formalaşdıran zaman regionların müstəqil inkişafını və sosial-iqtisadi məsələlərin həllində onların kooperasiyaya təşəbbüsünü nəzərə almaq lazımdır. Bununla belə, bütün səviyyələrdə dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmənin qarşılıqlı fəaliyyəti regionların iqtisadiyyatının balanslı inkişafını təmin etmək, ərazilərin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına maneçilik törədən regionlararası köklü qeyribərabərlikləri minimuma endirmək əsasında iqtisadi artıma və iqtisadi sabitliyə istiqamətləndirilməlidir. Ən vacib şərtlərdən biri də regionlarda olan təbii, material, maliyyə, əmək və başqa resurslardan səmərəli istifadəyə xüsusi fikir verilməsidir.

Belə yanaşma həm ümumdövlət, həm də lokal (regional, yerli) vəzifələri reallaşdırmağa imkan verəcəkdir. Ümumdövlət vəzifələri içərisində əsas kimi ölkənin ərazi bütövlüyünün və

sabitliyinin ərazi iqtisadi əsaslarını möhkəmləndirməyə, çoxukladlı iqtisadiyyatın və bazar infrastrukturunun formalaşdırılmasını seçmək olar.

Regionların inkişaf səviyyəsi arasındakı həddindən artıq dərin fərqləri azaltmağa, regionlararası əməkdaşlığa bazar mexanizminin səmərəli fəaliyyətinə nail olmaq lazımdır. Sosial-iqtisadi problemlərin məqsədyönlü həlli mühüm əhəmmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bazar mexinizmi bu problemin öhdəsindən səmərəli gələ bilmir.

Bir sıra sosial-iqtisadi proseslərin tənzimləməsi problemləri regional və bələdiyyə səviyyələrindədir. Söhbət ərazinin xüsusi iqtisadi bazasının inkişafından, onların iqtisadiyyatının səmərəli strukturunun və kompleksliliyinin təmin edilməsindən, əhalinin həyat təminatı səviyyəsinin yüksəldilməsindən gedir.

Federal dairələr regionlar, bələdiyyə qurumları səviyyəsində hakimiyyət orqanlarının və idarəetmənin qarşılıqlı fəaliyyət mexanizmləri tənzimlənmənin təşkilatı-hüquqi, inzibati və iqtisadi metodlarından istifadə edilməsinə əsaslanır. O, hökumətin təsərrüfatçı subyektlərinin səviyyələri arasında, üfüqi və həm də, şaquli qarşılıqlı münasibətləri nəzərdə tutur. Belə qarşılıqlı əlaqələrin məqsədi bazar şəratində rəqabətədavamlı regional təsərrüfat sektorlarının səmərəli inkişafı üçün zəruri imkanların yaradılması, əməyin beynəlxalq və Rusiyadaxili bölgüsü çərçivəsində regionların möhkəm iqtisadi inkişafını, əhalinin həyat səviyyəsinin sosial standartlarına dövlət zəmanətini təmin etməkdən ibarətdir. Bu mexinizmin üstünlükləri regionların iqtisadiyyatının xüsusiyyətləri, əməyin ərazi və sahə bölgüsü sistemində onların yeri, istehsalın ixtisaslaşması, təsərrüfatın və əhalinin tələbatlarıdır.

Ərazi inkişafın tənzimlənməsi regionların sosial iqtisadi inkişafı strategiyasına əsaslanmalıdır. Rıçaqlar kimi həm ənənəvi (inzibati, büdcə, vergi, pul-kredit və s.), həm də spesifik metodlardan və alətlərdən istifadə oluna bilər. Regionlararası və regional proqramlarda, üzünmüddətli planlarda – proqnozlarda, konkret ərazilərin mənafelərini əks etdirən müxtəlif idarəetmə səviyyələrində işlənib hazırlanan iqtisadi razılaşma-

larda da bir sıra tədbirlər nəzərdə tutulur. Bununla belə, həm birbaşa, həm də dolayı təsir metodalarından da istifadə oluna bilər. Regionun ərazi inkişafının tənzimlənməsinin prinsipləri, metodları və mexanizmi daha çox regionun büdcə quruluşunun spesifikası və vəsaitin müəyyən hissəsinin onun ərazi həlqələri arasında yenidən bölüşdürülməsi ilə daha çox fərqləndirilir. Təsərrüfat ərazisinin iqtisadi bazası da az rol oynamır.

Dövlətin ərazi strukturunun vahidləri və səviyyələri arasında maliyyə axınlarının formalaşması və bölüşdürülməsi iqtisadiyyatın dövlət tənzimlənməsi sistemində mühüm elementidir. Yeni federativ münasibətlər modelinin və yeni büdcə-vergi münasibətləri modelinin paralel formalaşması ilə əlaqədar büdcə federalizmi mühüm əhəmiyyət kəsb etmişdir. Büdcə federializmi dedikdə büdcələrarası münasibətlər və onların federal və regional dövlət hakimiyyəti orqanları səviyyələrdə qarşılıqlı tənzimlənməsi mexanizmi başa düşülür.

Regional və regionlararası iqtisadi siyasəti həyata keçirən alətlərdən biri olan büdcə federalizmi bir sıra mühüm məsələləri həll etməlidir. Hər şeydən əvvəl onun köməyi ilə büdcə vəsaitinin federal mərkəzlə Federasiya subyektləri arasında səmərəli və differensial bölgüsü təmin edilir. Bu halda regional xüsusiyyətlər (resurslar, iqtisadi potensial, demoqrafik, əhalinin həyat fəaliyyəti şəraiti, bazar mexanizminin səmərəli inkişafı imkanları və s.) nəzərə alınmalıdır. Büdcə federalizmi regionların iqtisadiyyatının yüksəldilməsi və sabitləşdirilməsi, onun struktur və institutsional dəyişilməsi, ixtisaslaşan üstün sahələrin inkişafı, hər bir səviyyədə hakimiyyətə qanunvericililə təhkim edilmiş vəzifələrə və məqsədlərə xərclərə müvafiq olaraq müxtəlif səviyyələrdə büdcələrin gəlirlərinin formalaşmasını tənzimləməyə şərait yaratmağı təmin etməlidir. O, regional siyasətin qanunvericiliklə təsbit edilmiş prinsiplərə müvafiq olaraq maliyyə vəsaitini yenidən bölüşdürməyə kömək edir.

Büdcə federalizminə əsaslanan büdcələrarası münasibətlər ərazi inkişafın dövlət tənzimlənməsinin maliyyə mexanizminin mahiyyətini əks etdirir. Lakin dolayı şəkildə regionların gəlirlərini və xərclərini tənzimləmək yolu ilə regionlararası qar-

şılıqlı münasibətləri tənzimləmək üçün də istifadə oluna bilər. Büdcə – vergi münasibətləri sistemi ölkə iqtisadiyyatını sabit inkişaf etdirmək və təzahür olunan dezinteqrasiya hallarını aradan qaldırmaq qabiliyyətinə malikdir. Buna görə də regional iqtisadi siyasətdə ərazi büdcələrin, başlıca olaraq onun dotasiya hissəsinin formalaşmasına qrup halında (diferensionallaşdırmış) yanaşma mühüm əhəmiyyət kəsb edir.

Büdcə vəsaitinin yenidən bölüşdürülməsi mexanizmi müəyyən xarakterə malik vacib büdcə xərclərini və onları maliyyələşdirmək təyinatlı gəlirləri razılaşdırılmış şəkildə qiymətləndirməyi nəzərdə tutur. Bu regiona və ya qrup rayonlara münasibətdə vergi bərabərləşdirilməsinin tətbiqi və ya dayandırılması üsullarını müəyyən edir. Belə yanaşmanın tətbiqinin çətinliyi regionların xərclərə həqiqi tələbatlarının müəyyən edilməsinin və regionların büdcələrinin gəlirliliyinin potensial səviyyəsinin müəyyən edilməsinin inamlı metodlarının olması ilə əlaqədardır.

Büdcə federolizminin reallaşdırılması yalnız Rusiyada yox, həmçinin də dünyanın bir çox ölkələrində bir sıra çətinliklərlə bağlıdır. Regionların sosial-iqtisadi tələbatlarını və imkanlarını müəyyən etmək, büdcə vəsaitlərinin bölüşdürülməsi və yenidənbölüşdürülməsində ədalətliliyini təmin etmək, mənayeləri regionların öz aralarında və bütövlükdə mərkəzlə razılaşdırmaq çətindir. İslahatların həyata keçirilməsi prosesində çox vaxt büdcə tənzimləyiciləri iqtisadi təsir vasitələrindən inzibati-siyasi vasitələrə çevrilirlər.

Büdcələrarası münasibətlərin başlıca vəzifəsi sosial-iqtisadi məsələlərin həllində regionların arasında optimallığa doğru hərəkətini təmin etməkdir. Büdcə federalizminin ən mühüm əsaslarının işlənib hazırlanması xüsusi diqqət tələb edir. Əslində regional inkişafın iqtisadi təhlili əsasında müəyyən edilmiş müxtəlif səviyyələrdə büdcələrə vergi daxilolmalarının bölüşdürülməsinin ümumi sxemi olmalıdır.

Hal-hazırda Rusiyada yavaş-yavaş büdcələrarası münasibətlər formalaşır. Onların əsas məqsədi vahid metodologiyaya əsaslanaraq büdcə prosesinin daha mühüm obyektiv amillərinə

təsir göstərməkdir. Bu prosesi müxtəlif səviyyələrdə hakimiyyət orqanlarının subyektiv təsirlərindən asılı olmayan, büdcə tənzimlənməsi göstəricilərinin sonsuz əlaqələndirilməsini istisna etməyən xeyli yüksək səviyyəli avtomatik vəziyyətə çevirmək mühüm vəzifədir. Büdcə federalizminin inkişafını gələcəkdə maliyyə axınlarının hərəkətinin qeyrimərkəzləşdirilməsində, ərazi inkişafında, federal və regional büdcələrin rolunun artmasında görünəcəkdir.

Büdcə federalizmindən istifadə edərkən aydın şəkildə müxtəlif istiqamətli iki amillə müəyyən edilən yerli büdcələrin xüsusiyətlərini nəzərə almaq lazımdır. Bir tərfdən yerli büdcələrin formalaşması mexanizmləri yerli özünüidarənin özünüödəmə prinsipinin reallaşmasını təmin etməlidir. Digər tərəfdən isə yerli büdcələr ölkənin vahid büdcə sisteminin tərkib hissəsidir. Bununla belə dövlət və çox hallarda federasiya konstitutsiyalarında onların subyektlərinin qanunvericilik əsaslarında yerli təşkilatların səlahiyyətlərinin müəyyən edilməsi təcrübəsində yerli büdcələrin müstəqilliyi hərtərəfli məhdudlaşdırılır.

Beləliklə, yerli büdcələrin müstəqilləşməsinə (maliyyə muxtariyyətinə malikdir) baxmayaraq yerli özünüidarənin büdcə səlahiyyətləri hər halda dövlət qanunvericiliyi ilə müəyyən edilir. Yerli vergilərdən, qeyri-vergi gəlirlərdən, mərkəzi büdcələrdən və Federasiya büdcələrindən (federativ dövlətlər) alınan subsidiyalardan, borclardan və dotasiyalardan yaranması bunu sübüt edir.

Qeyd etmək lazımdır ki, XX yüzilliyin sonlarında unitar və federativ dövlətlərdə subsidiyalaşdırma prinsipinin ardıcıl reallaşdırılması ilə əlaqədar yerli özünüidarənin həyata keçirilməsi yolları da genişləndi. Bunun nəticəsi kimi hər şeydən əvvəl yerli vergiqoyma hesabına onun vergitutma bazası genişləndi, dövlət büdcəsindən subsidiyalar artdı. Bununla yanaşı kommunal xidmətlərinə tariflərin artması və yerli hakimiyyət orqanlarının təsərrüfat müstəqilliyinin genişlənməsi qeyrivergi gəlirlərinin artmasını təmin etmişdir. Yerli vergilərdə yerli

büdcələrin artırılmasında ənənəvi olaraq az rol oynayır.[1] Lakin əsrin sonunda onların xüsusi çəkisi bir qədər artmışdır.

Yerli büdcə vəsaitinin xərclənməsi yollarının müəyyən edilməsində yerli özünüidarə orqanları müstəqildirlər. Yerli büdcələrin xərcləri əsaslı, cari və borc öhdəliklərinin qaytarılmasına bölünür. Bununla belə yerli büdcələrin xərclər hissəsinin həcmi tarixi dövrdən, ölkənin sosial-iqtisadi inkişafı səviyyəsindən, yerili özünüidarə orqanlarına həvalə olunmuş səlahiyyətlərdən, habelə, etnomədəni xüsusiyyətlərdən asılı olaraq dəyişilir. Yerli özünüidarənin maliyyə muxtariyyətinin səviyyəsinə baxılarkən qeyd etmək lazımdır ki, bu muxtariyyət «şey özündə» deyildir. Dünya təcrübəsi göstərir ki, adı çəkilmiş muxtariyyət yalnız gəlirlərin (ilk növbədə vergilərin) səlahiyyətlərinin xərclərin məsuliyyətinə uyğunluğuna dair əvvəllər nəzərdə tutulmuş prinsipinin reallaşması şərti daxilində faydalıdır. Bu prinsipə əməl edilmədikdə büdcələrarası münasibətlərin, aşağı subyektlərin yuxarılara faktiki tabeçiliyini gizlədərək, maliyyə muxtariyyəti formal xarakter daşıyır. Bu sxem keçmiş SSRİ-də tətbiq olunmuşdur və yalnız o, yerli Sovetlərə əslində yerli özünüidarə institutlara çevrilməyə imkan verməmişdir.

Qeyd edək ki, maliyyə muxtariyyətini mütləqləşdirmək olmaz. Nə federasiya subyektləri ilə münasibətlər, nə də yerli özünü idarənin vəziyyəti gəlirlərin səlahiyyətləri ilə xərclərin məsuliyyəti arasında ***tam uyğunluğu yaratmağa*** nail olmaq mümkün deyildir. Bu yuxarı səviyyədə büdcələrin gəlir mənbələrin baş hesabındakı qüsurlarını örtəməyə məcbur edir. Problem ondan ibarətdir ki, belə örtmə yeril özünüidarəyə aid olan regionların və ərazilərin sosial-iqtisadi inkişaf səviyyələrindəki disbalansı aradan qaldırmaq məqsədilə maliyyə resurslarının mərkəzləşdirilməsi üçün arqumunt kimi qəbul edilməsin.

[1] Bir qayda olaraq istiqraz vərəqələrinin buraxılması səlahiyyəti iri inzibati ərazi vahidlərə verilir (Federasiya subyektləri, şəhərlər, əyaləğlər). Müəllifin fikri

Qeyd olunan disbalans hər hansı bir ölkənin iqtisadi inkişafının atributudur. Lakin son onilliklərin dünya təcrübəsi göstərir ki, hətta ənənəvi büdcə federalizminin şaquli modelinə əsaslanan unitar dövlət quruluşuna malik ölkələrdə yerli özünüidarə orqanlarının maliyyə muxtariyyətinin genişləndirilməsi daha çox səmərəlidir. İqtisadi prosesə üç təşkilati tərkib elementini daxil etməklə səmərəyə nail olmaq mümkündür. Birincisi dövlət hakimiyyət orqanları yerli dövlət hakimiyyəti orqanlarının həyata keçirə biləcəyi funksiyalardan azad olur. İkincisi, regional büdcə vəsaitlərindən səmərəli istifadə edilməsində regionların hakimiyyət orqanlarının və yerli özünüidarənin məsuliyyəti artır. Üçüncüsü, yerli büdcələrin vəsaitindən səmərəli istifadə edilməsində yerli özünüidarə orqanlarının məsuliyyətini artırır.

Bazar iqtisadiyyatının formalaşması şəraitində regional iqtisadi siyasətin həyata keçirilməsinin mühüm elementi və forması federal, regionlararası, regional iqtisadi və sosial inkişaf proqramlarıdır. 2001-ci ildə federal büdcə 200-dən artıq məqsədli proqramı maliyyələşdirmişdir. Federasiya subyektləri öz regional proqramlarını formalaşdırır, onların sayı hər birində orta hesabla 20-30-a bərabərdir. Belə çoxluq tələb edir ki, federal və regional iqtisadi proqramların işlənib hazırlanması dəqiq əmək bölgüsü və həlqələr arasında qarşılıqlı fəaliyyət əsasında bütün idarəetmə pillələrinin partnyorluğu və yaradıcılıq təşəbbüsü ilə həyata keçirilsin.

Hər bir regional proqramın əsasında ümumdövlət yanaşmaları ilə üzvü əlaqəli vahid iqtisadi və sosial inkişaf konsepsiyasının durması vacibdir. Regional proqramların federal proqramlarla əlaqələndirilməsi təşkil olunmuş şəkildə həyata keçirilməlidir. Proqramların işlənib hazırlanmasının, yerinə yetirilməsinin əlaqələndirilməsini həyata keçirən müvafiq təşkilati-idarəetmə strukturlarının fəaliyyət göstərilməsi zəruriyyəti meydana gəlir.

Proqramları idarə etmək üçün xüsusi dövlət orqanları lazımdır. Bu işdə yerli icraedici hakimiyyət orqanları iştirak edirlər. Proqramları maliyyələşdirmək üçün dövlət, xüsusi və

qarışıq kapitala malik ixtisaslaşdırılmış kompaniyalar, konsorsiumlar yaradıla bilər.

Regional proqramların idarə edilməsində federal və yerli orqanlar arasında səlahiyyət məhdudiyyətləri xüsusilə mühüm rol oynayır. Federal orqanlar üçün yeni mənimsənilən pioner rayonlarında istehsalın yaradılmasının tənzimləməsi, habelə regionlararası iqtisadi əlaqələrin təşkili məqsədəuyğundur. Yerli idarəetmə orqanları təsərrüfatın səmərəli strukturunun yaradılmasına, lokal ehtiyatlardan istifadə edilməsinə, sosial-demoqrafik və ekoloji problemlərin həllinə, iqtisadi islahatların həyata keçirilməsinə başlıca fikir verirlər.

Bəzi regionlar üçün xüsusi dövlət regional proqramlarının işlənib hazırlanması və dövlət büdcəsindən maliyyələşdirilməsi zəruridir. Bu ilk növbədə nadir təbii ehtiyatlara, habelə iqtisadi cəhətdən geri qalmış və ekstrimal təbii şəraitə malik regionlara aiddir. Bu ehtiyatları mənimsəmək üçün yerli hakimiyyət və idarəetmə orqanlarının gücü çatmır.

Dövlətin regional siyasətinin daha əhəmiyyətli nəticəsi hər bir regionda islahatları həyata keçirmək və əhalinin həyat səviyyəsini və keyfiyyətini yüksəltmək üçün federalizmin inkişafı, Federasiya subyektlərinin qarşılıqlı faydalı sosial iqtisadi potensialından səmərəli istifadə olunmalıdır. Buna görə də regional inkişafın səmərəliliyi həm iqtisadi, həm də sosial meyarlara görə qiymətləndirmək lazımdır.

Keçid dövrünün dinamikası regional törəmələrdən ərazinin, əhalinin və dövlətin maraqlarını nəzərə alan, çox vaxt qeyri-ənənəvi, təcili qərarların qəbul edilməsini tələb edir. İqtisadi müstəqillik modeli üzrə makroregionun fəaliyyəti ilk növbədə regionlarda zəruri maliyyə resurslarını əldə etməyi, ərazidə alınan gəlirləri maksimumlaşdırmağı və onların həmin ərazidə əhaliyə paylanmasını təmin edən sahələrin inkişafını nəzərə alır. Buna görə də regionun inkişaf strategiyasını müqayisəli istehsal xərcləri və müxtəlif növlərdə məhsulların qiymətlərinin təhlili, daxili və xarici bazarlar çərçivəsində onların müqayisəsi və dinamikasına uyğun qurulmalıdır. Bununla belə makroregionun iqtisadi siyasəti təbii resursların

mənimsənilməsi strategiyasına əsaslanmalıdır, hansı ki, onu elə ölçüdə təsərrüfat dövriyyəsinə cəlb etmək lazımdır ki, onların mənimsənilməsindən əldə edilən gəlirlər normal təkrar istehsal və maliyyə resursları əldə etmək üçün kifayət etsin.

Regionun iqtisadi inkişafını o halda iqtisadi cəhətdən səmərəli sayıla bilər ki, onda normal sosial səmərə normaları təmin olunur. Regional inkişafın ümumi sosial səmərəsi ərazidə yaşayan əhalinin məcmu tələbatlarının ödənilməsi göstəricilərində əks olunur.

Suallar və tapşırıqlar

1) Müəyyən regiona uyğun (şəxsi seçimlə) əsas ərazi-mühit amillər qrupunun xarakteristikasını verin.
2) Rusiya Federasiyasının müasir regional siyasətinin əsas komponentlərini sadalayın.
3) Rusiya Federasiyasının subyekti kimi Rusiya Federasiyasının bu və ya digər ərazi-mühit qurumunu rəsmi qəbul etmək üçün hansı meyarlardan istifadə etmək lazımdır.
4) Yerli özünüidarə institutunun yerinə yetirdiyi funksiyaları, habelə həll etdiyi ictimai vəzifələri xarakterizə edin.
5) Müasir mərhələdə Rusiya Federasiyası regionlarının iqtisadi və sosial inkişaf səviyyələrinin bərabərləşdirilməsinin əsas problemlərini açıqlayın.
6) Regional və bələdiyyə tənzimlənməsi mexanizmlərinin əsas elementlərini sadalayın.
7) Büdcə Federalizmi nədir və onun təkmilləşdirilməsi problemləri hansılardır?

© Валентей С.Д., 2002
© Горбунов Н.М., 2002
© Половинкин П.Д., 2002

Üçüncü bölmə

●

MİLLİ TƏSƏRRÜFATIN ƏSAS SAHƏ VƏ SFERALARINDA DÖVLƏT SİYASƏTİ

●

XXIV Fəsil

DÖVLƏTİN ELMİ-TEXNİKİ SİYASƏTİ

RF-də 1996-cı ilin avqust ayında qəbul edilmiş Rusiyanın «Elm və dövlətin elmi-texniki siyasəti haqqında» qanununda elmi-texniki siyaəsət dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi kimi nəzardə tutulur. O, dövlətin elmi və elmi-texniki fəaliyyətə olan münasibətini əks etdirir, elm, texnika və elmi-texniki nailiyyətlərin reallaşdırılması sahəsində dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin məqsədlərini, istiqamətlərini və formalarını müəyyənləşdirir[1]. Bu anlayış ölkədə ardıcıl sosial-iqtisadi tərəqqinin strateji və taktiki məsələlərinin həll edilməsi məqsədilə, ayrı-ayrı obyektiv amillərin səmərəli tətbiqi istiqamətində insanların normal yaşayışı, ayrı-ayrı sahələrin inkişafı üçün dövlət hakimiyyəti (qanunverici, icraedici, məhkəmə) qanadlarının fəaliyyətinin kompleks istiqaməti kimi, istənilən dövlət siyasətinin dərk edilməsinə əsaslanır.

Elmi-texniki siyasət obyektiv və subyektiv xarakterli bəzi şərtlərdən asılı olaraq öz inkişafının hər mərhələsində dəyişir. Bu onun bütün tərkib elementlərində (məqsədlərində, vəzifələrində, istiqamətlərində, reallaşdırma mexanizmində, resurs təminatında) öz əksini tapır.

Elmi-texniki siyasətin cari və perspektiv sosial məsələlərin həllində, innovasiya amillərinin mövcud imkanlarından

[1] Российская газета. 1996. 3 сентября. С. 4

istifadənin səmərəli nəticəsi əsaslı şəkildə daha insanların elmi-texniki, innovasiya istehsal fəaliyyətlərində, obyektiv tendensiyalar, iqtisadiyyatın inkişafının şərtləri və amilləri toplusunda qanunauyğun şəkildə dəyişikliklərin adekvat uçotunun aparılmasından asılıdır.

1. İlkin müddəalar və prinsiplər

Müasir elmi-texniki siyasətin işlənib hazırlanması və reallaşdırılması xalq təsərrüfatında iqtisadi, elmi-texniki, innovasiya, investisiya və digər proseslərin səmərəli tənzimlənməsinin təmin edilməsində dövlət xidmətlərinin mahiyyəti və funksiyalarının dəqiq dərk edilməsini tələb edir. Həmçinin, obyektiv qanunların və qanunauyğunluqların fəaliyyətinin müasir iqtisadi təfəkkürə əsaslanmış optimal uçotu da vacibdir. Bizim dövrümüzdə ictimai təkrar istehsalın, təsərrüfat sistemlərinin inkişafının mərhələliyinin, qarışıq iqtisadiyyatın Federalizminin, texnoloji ukladların, innovasiya tipli inkişafın, iqtisadi dayanaqlılıq və təhlükəsizliyin, elmi-texnoloji potensialların və s. iqtisadi problemlər üzrə nəzəriyyələr yüksək inkişaf səviyyəsinə çatmışdır.

Elmi-texniki siyasətdə dövlətin elm, elmi-texniki fəaliyyət sferasına olan münasibəti təzahür edir. İqtisadi nöqteyi-nəzərdən dövlətin elmi, elmi-texniki və innovasiya fəaliyyəti həyata keçirən insana, insan birliklərinə münasibətini, həmçinin, elmi-texniki, innovasiya sahəsində əməyin nəticələrinə münasibəti, ictimai istehsal sistemində elmi və elmi-texniki fəaliyyət məhsullarının əhəmiyyətini əks etdirir.

Son 10-15 ildə dünyanın inkişaf etmiş ölkələrində həmin ölkənin, regionların, ayrı-ayrı əmək kollektivlərinin sosial və iqtisadi inkişafında elmi işləmələrin və nailiyyətlərin rolunun radikal dəyişməsi ilə bağlı prinsipial olaraq ***elmin yeni siması*** formalaşıb. Elmi, elmi-texniki innovasiya sahəsində, xüsusilə, yeni tipli sistemli texnika formasında və yeni texnoloji bazalar

üzrə, əməyin nəticələri müxtəlif səviyyəli təsərrüfat sistemərinin innovasiya tipli iqtisadi inkişafına mərhələli keçidinin, bazar mühitində onların yüksək səmərəliliyi və iqtisadi dayanıqlılığının həlledici struktur yaradan amillərə çevrilmişdir.

Təsərrüfat sistemi dedikdə, müəyyən şəkildə nizamlanmış məhsuldar qüvvələrin məcmusu və onlarla qarşılıqlı təsirdə olan təşkilati-iqtisadi münasibətlər başa düşülür. Belə bir məcmu forma sərbəst fəaliyyət göstərmək imkanına malikdir. O, həmin sistemdə fəaliyyət göstərən insanlar birliyinin maraqları ilə bağlı kompleks təsərrüfat nəticələrinin əldə edilməsi üçün məqsədyönlü şəkildə təşkil olunur.

Elmi və elmi-texniki fəaliyyət dövlət siyasətinin obyektlərindən biri olmaqla müxtəlif təsərrüfat sistemləri şəraitində və çərçivəsində yerinə yetirilir. Deməli, dövlətin elmi-texniki siyasəti ən sıx şəkildə struktur, sənaye, innovasiya, investisiya və digər dövlət siyasətləri ilə əlaqədardır. Bunlardan axırıncısı onun əsas iqtisadi funksiyalarına uyğun olaraq, təsərrüfat sistemlərinin fəaliyyətlərinin və onların fəaliyyəti və inkişafının zəruri institusional şəraitinin yaradılmasına köməklik etməlidir.

Qarışıq iqtisadiyyat şəraitində müxtəlif ilkin təsərrüfat sistemləri müxtəlif dərəcələrdə dövlət orqanlarından asılı vəziyyətdədir (hüquqi, iqtisadi, resurs və s.). Buna görə də, sosial-iqtisadi siyasət ümumilikdə, və müvafiq olaraq dövlət elmi-texniki siyasətində vəzifələr, istiqamətlər və xüsusilə də, ilkin institutsional şəraitlər üzrə, onların işlənib hazırlanması və reallaşdırılması mexanizmi üzrə mürəkkəbləşirlər. Belə olan halda dövlətin koordinasiyaedici, əsaslandırma, analitik, nəzarətetmə istiqamətində iqtisadi funksiyalarının rolu əsaslı şəkildə yüksəlir.

Dövlətin elmi-texniki siyasətinin mühüm komponentləri sayılan vəzifələr, istiqamətlər, formalar, metodlar və digərləri vahid elmi təkrar istehsal tsikli, onun xüsusiyyətlərinin məcmusu üzrə proporsional düzülmüş təsərrüfat sistemlərinin vəziyyətinə əsasən müəyyənləşdirilir. Bunlardan ən mühümlərindən biri kimi ***iqtisadi dayanıqlılıq*** xüsusiyyətini, özünü təmin etmək bacarığını qeyd etmək lazımdır. Burada söhbət təsərrüfat sisteminin öz çərçivələri hüdudunda əsas amilləri –inkişaf

naminə resursları təkrar istehsal etməkdən və ya özünün təsərrüfat fəaliyyətinə onların kənardan səmərəli şəkildə cəlb edilməsi üçün zəruri şərait, o cümlədən maliyyə şəraiti yaratmaqdan gedir.

Deyilənlərə müvafiq olaraq, dövlətin elmi-texniki siyasəti adətən, bilavasitə elmi-texniki fəaliyyətə, intellektual əməyə bilavasitə təsir göstərmir. Onun təyinatı başqadır – təkrar istehsal prinsipi üzrə qarşılıqlı əlaqədə olan təsərrüfat sistemlərinin formalaşmasına, inkişafına və onların elmi, innovasiya və ümumi işgüzar fəallığının inkişafına köməklik göstərməklə daha əlverişli təşkilati, əsaslandırma, struktur resursları, hüquqi imkanlar (şərait) yaratmaqdır. Dövlətin elmi-texniki və struktur siyasətlərinin qarşılıqlı əlaqəliliyi onların bir-birinə qarşılıqlı nüfuzunda təzahür edir. Elmi-texniki siyasət – struktur siyasətinin mühüm tərkib hissəsidir və əksinə.

Rusiyanın federativ dövlət quruluşu dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanması və reallaşdırılması zamanı federal və regional hakimiyyət orqanlarının ***səlahiyyətlərinin bölgüsünü*** tələb edir. Bununla əlaqədar, vahid dövlət siyasətinin iki elementi – federal və regional elementi barədə qeyd etmək lazımdır. Lakin bu elementlərin mütləq sərbəstliyi və bir-birindən asılı olmaması barədə söyləməyə bir əsas yoxdur. Bu, vahid bir kompleks kimi, iqtisadiyyatın federallaşdırılması prinsipinin əsas müddəalarına ziddir.

Dövlətin səmərəli fəaliyyət göstərən elmi-texniki siyasətinin formalaşdırılması və həyata keçirilməsi üçün, bir çox ölkələr və xarici mütəxəssislər tərəfindən işlənib hazırlanmış və özündə texnoloji çevrilişlərin mərhələliyi nəzəriyyəsini əks etdirən, iqtisadi inkişafın mərhələlilik nəzəriyyəsi mühüm rol oynayır[1].

[1]Стюарт Х.Б. Вспоминая будущее. Взгляд на развитие предпринимательства, технологии и инноваций в предстоящие 30 лет. М.: ИНИОН, 1990; Яковец Ю.В. предвидение будущего: парадигма цикличности. М.: Ассоциация. «парадигмы и циклы», 1992, Глазьев С.Ю. теория долгосрочного технико-экономического развития. М.: ВлаДар. 1993.

Müasir şəraitdə olan vahid amillər kompleksi içərisindən innovasiya amillərini xüsusi nəzərə çatdırır (yeni texnika, yeni materiallar, yeni texnologiyalar, istehsalın və əməyin yeni təşkili, yeni əsaslandırmalar). Onların daha tam və səmərəli istifadəsi təsərrüfat sistemlərinə maksimal nəticələr əldə etmək imkanı verir.

Bu amillər, onlardan istənilən səviyyəli təsərrüfat sistemlərində, həm də müəyyən nisbətlərdə istifadə edildikdə və onların fəaliyyəti digər amillərlə (investisiya, intellektual, sahibkarlıq və kadr ehtiyatları, innovasiya menecementi, normativ-hüquqi baza və s.) möhkəmləndirildiyi halda, daha çox köklü yeniləşmə imkanlarına malik olurlar. Elmi-texniki fəaliyyətin nəticələrinin müxtəlif yekunlarının təhlili göstərir ki, onlar hamısı elmi – təkrar istehsal mərhələsinin əsas fazaları üzrə bölüşdürə bilərlər. Bu aydın məsələdir, onlar məhz İntellektual, yaradıcı əməyin nəticələridir.

İnnovasiya faktorlarının formalaşdırılması əsasən ***ölkənin elmi-texnoloji potensialının*** vəziyyətindən və ondan səmərəli istifadədən asılıdır. O, müəyyən bir məqsədə çatmaq üçün fəaliyyətə gətirilən və istifadə edilən imkanların, vəsaitlərin, ehtiyatların məcmusunu əks etdirir. Buradan belə nəticəyə gəlmək olar ki, bu və ya digər təsərrüfat sisteminin elmi-texnoloji potensialının əsasını elmi-təkrar istehsal tsiklinin müxtəlif mərhələlərində olan elmi biliklərin, innovasiyaların məcmusu təşkil edir. Buraya həmçinin, istifadə edilməmiş texnika ehtiyatı, texnika, texnologiya, kadr ehtiyatı, təşkilati ehtiyatlar, həm də yeni texniki-texnoloji vasitələrin fəaliyyətdə olmayan ehtiyatalrı, kollektivin yaradıcılıq imkanları daxildir. Elmi-texnoloji potensialı anlayışının belə qəbulu müxtəlif səviyyəli təsərrüfat sistemi formalarına: müəssisələrə, korporasiyalara, regionlara, sahə, sahələrarası və xalq təsərrüfatı komplekslərinə (hər birinin xüsusiyyəti nəzərə alınmaqla) tətbiq edilə bilər.

Konkret istehlak dəyərlərinin təkrar istehsalında istifadə üçün innovasiyaların hazırlanması elmi-texniki və innovasiya proseslərinin gedişində həyata keçirilir. Onların müddəti isə yeniliklər, mövcud, zəruri şəraitlər, investisiya, kadr və sahib-

karlıq resursları, həmçinin, istifadə edilən innovasiya menecmentinin mükəmməlliyi də daxil olan ilkin formadan asılıdır. Aydındır ki, vaxt amili nəinki elmlərin transformasiyasının müddətini müəyyənləşdirir, həmçinin, müxtəlif taktiki və strateji məqsədlərdən asılı olaraq elmi-texnoloji potensialın qiymətləndirilməsinin müxtəlifliyini şərtləndirir. Belə metodoloji yanaşma elmi-texnoloji potensialın taktiki və strateji bloklara bölgüsünü aparmağa əsas verir.

Taktiki potensialı innovasiyalar təşkil edir ki, onları da mövcud təsərrüfat sistemi şəraitində 1–5 il ərzində istifadə etmək mümkündür. ***Strateji potensial***ı isə, istehsalın və məhsulun təzələnməsində tətbiqi yalnız beşillik müddətdən kənar dövrü əhatə edən innovasiyaların yeniləşdirmə imkanları əsasında müəyyənləşir. Ümumiyyətlə isə, elmi-texnoloji potensial sadəcə olaraq bir yekun kəmiyyəti deyil, taktiki və strateji potensialların üzvi birliyini əks etdirir. Belə ki, sonuncu birincinin istifadə səviyyəsindən asılıdır, birincinin səmərəliliyi isə ikincinin keyfiyyətindən asılıdır. Deyilənlər əsasında təsərrüfat vahidinin elmi-texnoloji potensialını ***sistemdaxili*** və ***sistemarası***[1] hissələrə bölmək olar.

Təsərrüfat sisteminin elmi-texnoloji potensialının təhlilinin iriləşdirilmiş alqoritmini fəaliyyətin konkret şərtləndirilmiş ardıcıllığı şəklində təsəvvür etmək olar. Buna əmtəənin, xidmətlərin, texnologiyaların rəqabət qabiliyyətliliyinə və onların istehsalının xarakterinə, həmçinin, menecmentin səmərəliliyi, təşkilinə baxılmasından, istehsalın strukturu və əsaslandırılmasından başlanılır. Bundan sonra markentinq araşdırmalarının rasional məcmusu zəruridir. Burada xüsusi diqqət əmtəələrə, texnologiyalara, istehsalın və əməyin təşkilinə, innovasiya menecmentinə münasibətdə mövcud daxili və sistemdənkənar müxtəlif xarakterli innovasiyaların yeniləşdirmə imkanlarının öyrənilməsinə yetirilir. Təhlilin nəticələri elmi-texniki potensia-

[1] Sistemarası – həmin təsərrüfat sistemindən kənarda istehsal olunan texnoloji yeniliklərlə zənginləşdirilmiş

lın kəmiyyət və keyfiyyət xarakteristikasının düzgün qiymətləndirilməsinə imkan verir.

Təsərrüfat sisteminin elmi-texnoloji potensialının qiymətləndirilməsi əmtəələrin və istehsal aparatının keyfiyyət xarakteristikası üzrə, həmçinin, təsərrüfat fəaliyyətinin yekunlarının sosial-iqtisadi kəmiyyət, ekoloji göstəriciləri üzrə təmin edilir. Qiymətləndirmə vasitəsi kimi elmi-texnoloji potensialdan istifadənin səmrəliliyi yekunlaşmış şəkildə seçilmiş hər bir sosial-iqtisadi göstəricilərin məcmusunun elmi-texnoloji potensialın maksimal istifadəsi üzrə əldə oluna biləcək mümkün nəticələrə nisbəti kimi hesablanır.

Ümumiləşmiş göstəricini bütün konkret göstəricilərin orta riyazi göstəricisi kimi qəbul etmək olar:

$$E_n = \frac{\sum_{i=1}^{i=N} \frac{a_i}{ab_i} x100\%}{N},$$

Burada: E_n – təsərrüfat sisteminin elmi-texnoloji potensialından istifadənin səmərəliliyini yekun ümumiləşmiş göstəricisidir; a_i – müəyyən səmərə əldə olmanı xarakterizə edən i göstəricisidir; ab_i – mövcud potensialın tam istifadəsi üzrə mümkün i göstəricisidir; N – göstəricilərin sayı.

Beləliklə, sosial-iqtisadi nöqteyi-nəzərdən ***dövlətin elmi-texniki siyasəti*** –elmi və elmi-texniki sferalara və yaradıcılıq əməyinin və onun əsaslandırılmasının xüsusiyyətlərini nəzərə almaqla müvafiq fəaliyyət növlərinə münasibətdə dövlət tərəfindən bu sahədə əsas funksiyaların daha tam yerinə yetirilməsidir. O, taktiki və strateji planda cəmiyyətin məcmu sosial, iqtisadi, ekoloji və siyasi inkişaf məqsədlərinə nail olmaq üçün yaradıcı əməyin mövcud və mümkün ehtiyatlarından daha tam və səmərəli istifadəyə istiqamətlənir. Beləliklə, elmi-texniki siyasətin sosial-iqtisadi təbiəti xüsusi yaradıcılıq əməyindən maksimum nəticələr əldə etməyə və taktiki və strateji sosial-iqtisadi məsələlərin məcmu şəkildə həlli üçün bu nəticələrin daha səmərəli istifadəsinə istiqamətlənməsində ifadə olunur.

Elmi və elmi-texniki fəaliyyətin subyektlərinə fiziki və hüquqi şəxslər, yəni elmi işçilər, mühəndis-texniki fəaliyyətin mütəxəssisləri aid edilir. Onların sırasına istənilən təşkilati-hüquqi forma və mülkiyyət növündən olan elmi kollektivlər, müvəqqəti yaradıcı və elmi kollektivlər, kiçik sahibkar innovasiya müəssisələri daxildir. Bura həmçinin, elmi və elmi-texniki fəaliyyətə köməklik edən müxtəlif fondlar, elmi, elmi-texniki və elmi maarifçilik cəmiyyətləri də aid olunur. Bu subyektlərə münasibətdə dövlət onların davranış qaydalarını, qarşılıqlı münasibət normalarını müəyyənləşdirən bir qüvvə kimi çıxış edir.

Lakin dövlət elmi və elmi-texniki fəaliyyətin bütün qalan subyektlərinə münasibətdə xüsusi funksiyaları, hüquqları və vəzifələri olan xüsusi növ subyekt sayılır. O, hüquqların, fəaliyyətin məqsədyönlülüyünün qarantı, ölkənin müxtəlif regionları və insanların həyati fəaliyyət sferalarının razılaşdırılmış elmi-texniki inkişafının, cəmiyyətin tərqqisinin təmin edilməsi üzrə bütün subyektlərin səylərinin koordinatoru Timsalında çıxış edir. Dövlət elmi-texnoloji, innovasiya, elmi-təkrar istehsal proseslərinin fəaliyyətinin vahid hüquqi və informasiya məkanının yaradıcısı, resurs axınının həssas tənzimləyicisidir.

Buna görə də, ***dövlətin elmi-texniki siyasətinə*** elmi-texniki və innovasiya proseslərinin bütün iştirakçılarının maraqlarının balanslaşdırılması əsasında insanların həyati fəaliyyətinin bütün sferalarının yeniləşdirilməsi üçün innovasiyaların yaradılması, yenidən formalaşdırılması və istifadəsinə münasibətdə dövlətlə elmi-texnoloji fəaliyyətin subyektləri arasında ictimai-iqtisadi münasibətlərin məcmusu kimi baxmaq olar. Məcmu halında elmi-texniki siyasətin həyata keçirilməsində dövəltin əsas funksiyaları kimi aşağıdakıları qeyd etmək olar: plan – proqnozlaşdırıcı; koordinasiyaedici; tənzimləyici; informasiya; tədqiqat; normativ hüquqi; xarici iqtisadi; təşkilati və idarəedici; nəzarətedici.

Elm və təcrübə dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinin əsas prinsiplərini sınaqdan keçirmişdir. O, hər şeydən əvvəl fəaliyyətin nəticələri uğrunda işçilərin və kollektivin məsuliyyəti ilə uyğun şəkildə elmi

və texniki yaradıcılığın sərbəstliyini, müvafiq siyasətin işlənib hazırlanması və həyata keçirilməsi zamanı aşkarlıq və elmi-siyasi ictimayyətin geniş formada cəlb edilməsini, elmi-texniki informasiyaya sərbəst nail olmanı, intellektual mülkiyyətin hüquqi mühafizəsinə zəmanəti vacib sayır. Əsas prinsiplər sırasına dövlətin elmi-texniki siyasətinin mühüm məqsədlərinə uyğun müxtəlif səviyyəli təsərrüfat sistemlərində elmi, elmi-texniki və digər innovasiya fəaliyyəti növlərinin dövlətin stimullaşdırılması, elmi-texniki fəaliyyətin subyekti kimi dövlətin aktiv rolu, dövlət tənzimlənməsinin və yaradıcı kollektivlərin özünü təşkilatlanmasının uyğunlaşması aid edilir.

Bu sahədə elmi və elmi-texniki potensialların inkişafına sistemli yanaşma böyük rol oynayır. Belə ki, o, elmi-texniki fəaliyyətin əsas istiqamətlərinin inkişafının prioritetliyinin gözlənilməsini və onun resurs, hüquqi təminatını tələb edir. Ümumi sistemdə elmi-texniki siyasətin işlənib hazırlanması və reallaşdırılmasında çox subyektlilik, federal, regional və korporativ səviyyəli səlahiyyətlərin bölgüsü, federal, regional və korporativ səviyyələrdə innovasiya aktivliyinin mütəmadi operativ monitorinqi olduqca mühümdür. Elmi-texniki fəaliyyətin istehsalın və bazarın inteqrasiyası, elmi-texniki fəaliyyətdə mülkiyyət formalarının müxtəlifliyinin nəzərə alınması vacib vəzifədir. Ədalətsiz rəqabətdən müdafiə şəraitində elmi-texniki fəaliyyətdə sahibkarlığa və azad rəqabətə geniş meydan açılmalıdır. Ən nəhayət, beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafına xüsusi diqqət yetirilməlidir.

2. Məqsədləri və vəzifələri, əsas istiqamətləri və prioritetləri

Elmi-texniki siyasətin məzmunu ilk növbədə məqsədlərin və vəzifələrin məcmusunda təzahür edir. Müasir iqtisadi şəraitdə onları üç blok üzrə qruplaşdırmaq olar.

Məqsədlərin və vəzifələrin birinci bloku ölkənin elmi-texniki potensialının qorunmasına və artırılmasına, elmi, tədqiqat və mühəndis-konstruktor məktəblərinin ənənələrinin qorunub saxlanmasına və inkişafına istiqamətlənib. Bunsuz insanların həyati fəaliyyətinin əsas sferalarında texnoloji ukladların dəyişdirilməsi məsələsini həll etmək, ölkənin texnoloji təhlükəsizliyini təmin etmək qeyri-mümkündür.

İkinci blok sistemli yenidən təşkiletmə innovasiya – amillərinin formalaşdırılması üçün mövcud elmi-texnoloji potensialın maksimal və daha səmərəli istifadəsinə zəmanət verən məqsəd və vəzifələri birləşdirir. Burada söhbət ölkədə və MDB-də vahid texnoloji məkanın yaradılmasına köməklik edəcək yeni texniki və texnoloji komplekslərdən gedir. Bu komplekslər dünya bazarında rəqabət qabiliyyətli məhsul istehsalına həmçinin ölkədə təhlükəsiz ekoloji şəraitin yaradılması və ətraf mühitin reanimasiyası üçün elmi-təkrar istehsal bazasını formalaşdırır.

Üçüncü bloka fasiləsiz təkrar istehsal əsasında ilk iki blokun problemlərini həll etməyə və məqsədlərinə çatmağa imkan verən vahid şərtlər məcmusunun formalaşdırılması üzrə məqsəd və vəzifələr daxildir. Onların tərkibində bütün səviyyələrdə olan təsərrüfat sisteminlərində və ilk növbədə müəssisələrdə, birliklərdə, korporasiyalarda innovasiya və investisiya fəallığının təmin edilməsi problemlərinin həlli də durur. Onlar, həmçinin, prioritet sosial vəzifələr kompleksinin həlli üçün ölkənin elmi-texnoloji potensialdan daha tam və səmərəli istifadəyə zəruri şəraitlər yaratmalıdırlar.

Ümumiləşmiş şəkildə yuxarıda qeyd olunan ***elmi-texniki siyasətin məqsəd və vəzifələrini*** ölkənin iqtisadi inkişafının innovasiya tipli inkişafa mərhələli keçidinin inteqrallaşmış məqsədləri kimi təsəvvür etmək olar. Sonuncu, məlum olduğu kimi, daha çox yeni və daimi yeniləşən məhsulların, o cümlədən də, yeni texnika, texnologiya, materiallar şəklində innovasiya amillərinin istehsalı, əməyin yeni təşkili və əsaslandırılmış formasının tətbiqi, həmçinin, innovasiyalılığın təkrar istehsalı üçün

mövcud təsərrüfat sistemi çərçivəsində bütün əsas ilkin institusional şəraitin mövcudluğu ilə xarakterizə olunur.

Ölkənin elmi-texniki siyasəti özünün strateji məqsədlərini mühüm sosial vəzifələrin həyata keçirilməsi istiqamətində elmi-texniki potensialın inkişafı, rasional yerləşdirilməsi və səmərəli istifadəsi, iqtisadi inkişafa elmi və texniki qoyuluşların artırılması ilə bağlayır. Burada, söhbət maddi istehsal sahəsində proqressiv struktur dəyişikliklərinin təmin edilməsində, onun səmərəliliyinin və məhsulun rəqabət qabiliyyətliliyinin yüksəldilməsindən, iqtisadi durumun yaxşılaşdırılması və informasiya resurslarının mühafizəsindən gedir. Həmçinin, elmi-texniki siyasət dövlətin müdafiə qabiliyyətinin yüksəldilməsi və şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlüəsizliyi, elmin və təhsilin, həmçinin, elm, istehsal və bazarın qarşılıqlı əlaqələrinin nizama salınması ilə sıx bağlıdır[1].

Bu vəzifələrin sənayecə inkişaf etmiş ölkələrdə elm, texnika və texnoloji amillərin köməyi əsasında həmin problemlərin həlli prosesi ilə tutuşdurulması faydalı olar. Məsələn, 1997-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş «Milli elmi və texnoloji siyasət, onun təşkili və prioritetləri haqqında» qanunda elmi-texniki tərəqqinin imkanlarından çox geniş və detallaşdırılmış problemlər dairəsinin həlli üçün istifadə nəzərdə tutulur[2].

Təbii ki, hər bir dövlətin elmi-texniki siyasətinin məqsəd və vəzifələri fərqlidir, beləki, onlarda problemlər, məhsuldar qüvvələrin inkişaf səviyyəsi, texnoloji ukladların yenilik səviyyəsi müxtəlifdir. Ən əsası isə, çox hallarda resurslar kəmiyyət və keyfiyyətə görə müqayisəyə gəlmirlər. Lakin XXI əsrin əvvəlinə Rusiyanın elmi və texnoloji potensialını düzgün qiymətləndirərək mütəxəssislərin o fikri ilə razılaşmaq olar ki, milli elm və elmi-texniki potensiala kifayət dərəcədə tələbatın formalaşmaması tam reallığa uyğundur.

[1] Федеральный Закон Российской Федерации. О науке и государственной научно-технической политике// Российская газета. 1996. 3 сентября. С. 4.
[2] Экономика, политика, идеология. 1997. №8. С. 49-50

Müasir keçid iqtisadiyyatında Rusiya üçün çoxnövlü mülkiyyət formasına keçid, çox ukladlılığın yaradılması və iqtisadi inkişafın tənzimlənməsinin kompleks mexanizminin yaradılması xarakterikdir. Bu, bazar özünü tənzimləmə mexanizminin onun rəqabət, yarış, inhisarçı mövqeyi uğrunda mübarizə, dövlət tənzimlənməsi alətləri ilə, həmçinin, iş verənlərin ictimai professional təşkilatları, işçilərin özü-özünü təşkilatlandırılmasının (həmkarlar və s.) və digər amillərin təsiri altında sahibkarların geniş hakimiyyət əldə etməsi ilə uyğunlaşması şəraitində mümkündür. Hazırda inkişaf etmiş bazar bölgümübadilə münasibətlərə malik iqtisadiyyatının qanunları və qanunauyğunluqlarına uyğunlaşmanın, struktur dəyişikliklərinin mürəkkəb prosesləri gedir.

Təəssüf ki, hələdə əsas iqtisadi proporsiyaların və elmitəkrar istehsal proseslərinin pozulması halları baş verir və bu da xalq təsərrüfatında neqativ struktur deformasiyalarına səbəb olur. Onsuz da, iqtisadiyyatın normal inkişafı üçün kifayət dərəcədə inkişaf etməmiş sayılan ictimai təkrar istehsalın prosesinin istehsalqabağı və istehsal fazaları arasında, yığım və istehlak arasında, istehsal və bölgü-mübadilə fazaları arasında, müxtəlif infrastrukrular arasında proporsiyalar pozulmuşdur. Daxili əmtəə bazarlarında öz fəaliyyətində daha güclü elmitexnoloji təminata, dövlət köməyinə, həmçinin, bir qayda olaraq, stabil milli valyutaya əsaslanan xarici istehsalçıların və tacirlərin təzyiqi halları baş verir. Rusiya üçün bir çox ilkin istehsal bölmələrində iqtisadi və maliyyə qeyri-stabilliyi xarakterikdir. İqtisadi və texnoloji təhlükəsizliyin çoxsaylı kriteriiyaları nəzərə alınmır. Xalq təsərrüfatı ciddi resurs məhdudiyyətləri ilə qarşılaşır.

Bu xüsusiyyətləri nəzərə almaqla müasir mərhələdə Rusiyanın elmi-texniki siyasətinin bir sıra strateji məqsəd və vəzifələrini göstərək:

1. Daxili və dünya bazarında Rusiya əmtəələrin, o cümlədən yeni texnika və texnologiyaların, rəqabət qabiliyyətliliyinin təmin edilməsi.

2. İqtisadiyyatın yeni texnoloji əsasının mərhələlər üzrə formalaşdırılması, onun istehsal aparatının yeniləşdirilməsi, dünya iqtisadi sistemində milli istehsalın texnoloji təhlükəsizliyin təmin edilməsi.

3. Ölkənin ərzaq, enerji, xammal və materiallarla tam təminatı.

4. İnsanın həyat fəaliyyətinin sağlam ekoloji mühitinin yaradılması. Ətraf mühitin qorunması və bərpası, təbiətdən rasional istifadə.

5. İstehsala uyğun olan infrastrukturun (nəqliyyat, rabitə, informatika, sosial xidmətlər və s.) keyfiyyətli inkişafı.

6. Ölkənin insan resurslarının qorunub saxlanmasına və onlardan səmərəli istifadəyə yardım, həyat təminatının Milli sisteminin bərpası.

7. Elmi-texnoloji potensialdan səmərəli istifadə üçün institusional şəraitin yaradılması.

8. Milli təhlükəsizliyin və ölkənin müdafiə qabiliyyətinin hərbi-texniki bazasının elmi-texnoloji əsasının yaradılması.

Beləliklə, elmi-texniki siyasətin məqsəd və vəzifələri, birbaşa olaraq bunun üçün müəyyənləşdirilmiş və hazırlanmış mühüm innovasiya amil-resursları, müasir elmi-texniki tərəqqinin qanunauyğunluqları və məntiqləri nəzərə alınmaqla, ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələri ilə əlaqəlidir. ***Elmi-texniki siyasətin istiqamətlərinə*** gəldikdə isə burada vəziyyət başqa cürdür. Onlar daha yüksək dərəcədə ictimai elmi-təkrar istehsal prosesinin vəziyyətindən, onun səmərəliliyindən, dünya təsərrüfatında milli istehsalın yerinitutma dərəcəsindən asılı olaraq müəyyənləşirlər. Bu istiqamətlər həmçinin, ölkənin iqtisadi durumundan, cəmiyyətin iqtisadi transformasiyasının xüsusiyyətləri və dərinliyindən, dövlətin sənaye və struktur siyasətlərinin vəziyyəti və qarşılıqlı əlaqələrindən asılıdırlar.

Rusiya iqtisadiyyatının vəziyyəti onun əsas amil-resurslarının təkrar istehsalı iqtisadiyyatın transformasiyası və tədricən dünya təsərrüfatına uyğunlaşması şəraitində elmi-texniki siyasətin ən mühüm istiqamətlərinin müəyyənləşdrilməsi üçün əsas verir. Bu istiqamətlər aşağıdakılardır:

1) sistemli elmtutumlu istehsalın, texniki-texnoloji ixracın inkişafına köməklik;

2) öz məhsulları ilə elmtutumlu əmtəələrin və texnologiyaların dünya bazarında özünün dayağını yaratmaq imkanı olan makrotexnoloji sistemlər də daxil olmaqla, elmi-texnoloji inkişafın prioritetlərinin seçilməsi və reallaşdırılması;

3) ETTKİ sferasının struktur yeniləşməsi, innovasiya sahibkarlığının fəal inkişafı, dövlətin elmi mərkəzlərinin və elm şəhərciklərinin formalaşdırılması;

4) nəqliyyat, rabitə, informatika, telekommunikasiya, xüsusi xarakterli xidmətlər, texnoparklar, elmi-texniki mərkəzlər, ixtisaslaşdırılmış birjalar və s. daxil olmaqla, elmi-texnoloji və innovasiya infrastrukturunun formalaşdırılması;

5) yeni bazar münasibətlərinə adaptasiya istiqamətində sahə elminin restukturizasiyası; elmin zavod (korporativ) bölməsinin inkişaf etdirilməsi və onun fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi; elmin, təhsilin, istehsalın və bazarın inteqrasiyası;

6) elmtutumlu məhsulların, innovasiyaların milli bazarının yaradılması və onun tənzimlənməsi;

7) kadr, investisiya, texniki, informasiya və digər resurslar daxil olmaqla elm və texnologiyaların inkişafının kompleks resurs təminatı; onların prioritet istiqamətlərə cəmləşdirilməsi; müdafiə ETTKİ-nin inkişafı və onların konversiyası;

8) HSK-dan qabaqcıl texnologiyaların məqsədyönlü şəkildə mülki istehsala köçürülməsi; milli kritik və ikili texnologiyalar bazasının məqsədyönlü şəkildə formalaşdırılması;

9) elmi-texnoloji sferada sosial siyasətin aparılması; əməyin ödənilməsi sisteminin yeniləşməsi və digər güzəştlər vasitəsi ilə elmi və mühəndis əməyinin əsaslandırılmasının əməli sisteminin formalaşdırılması;

10) ölkənin subyektlərinin elmi-texniki potensialının inkişafına və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsinə köməklik, onlarda aktiv elmi-texniki və innovasiya fəaliyyətinin stimullaşdırılması, dövlətin vahid elmi-texniki siyasəti çərçivəsində inteqrasiya;

11) aktiv beynəlxalq elmi-texniki əməkdaşlıq, o cümlədən milli maraqların ciddi nəzərə alınması şərti ilə iri beynəlxalq layihələrdə iştirak;

12) dövlət orqanlarının rolunun fəallaşdırılması: federal və regional səviyyələrdə elmi-texniki və innovasiya fəaliyyətinin normativ- hüquqi təminatında, xüsusilə fundamental elmlər üzrə resurs təminatında, makrotexnoloji sistemlər tipli strateji elmi-texnoloji proqramların reallaşdırılmasında, ölkənin texnoloji təhlükəsizliyinin təmin edilməsində.

Sözsüz ki, bir sıra xüsusi istiqamətlər də faydalıdır. Məsələn, məhsulun sertifikasiya və etalon bazasının inkişafı, elmi-texniki və innovasiya fəaliyyəti sahəsində statistikanın təkmilləşdirilməsi, elmin daxili əlaqələrinin inkişafı və onun fəaliyyətinin kommersiyalaşdırılması, elmi-texniki və innovasiya fəaLiyyətinin vəziyyəti, onun nəticələrinin operativ Monitorinqinin təşkili.

Bir daha qeyd etmək olar ki, dövlətin elmi-texniki siyasətinin başlıca istiqaməti elm, yeni texnika, texniki-texnoloji sistemlər sahəsində prioritetlərin seçilməsi və həyata keçirilməsi, onların qarşılıqlı əlaqəsinin, sosial-iqtisadi problemlərin həllinə və əsas məqsədlərinə nail olunmasına nəticəli təsirinin təmin edilməsi sayılır. ***Elmi-texnoloji prioritetlər*** – mürəkkəb prioritetlər sisteminin tərkib hissəsidir. Hansıki, elmi nailiyyətlərin məqsədyönlü sürətləndirilmiş keyfiyyətli inkişafını, vahid «elm – təkrar istehsal» mərhələsində olan innovasiyaları əks etdirir və həmçinin, inteqrasiyalaşmış əməyin (canlı və maddiləşmiş) məzmununu, şəraitini və sürətlə yeniləşməsinə doğru dəyişiklikləri təmin edir. Burada zəruri cəmləşmə onun keyfiyyətcə yeni materiallar, texnika, cihazlar, kadrlar, həmçinin kollektiv və fərdi yaradıcılığın yeni əsaslandırılmış atmosferi ilə təmin edilməsi müqabilində mümkündür.

Son illərin tədqiqatlarında, bir qayda olaraq, inkişafın prioritetliyini resursların məhdudluğu və onların daha yüksək nəticə verən istiqamətlər üzrə cəmləşdirilməsi zəruriliyi ilə, həmçinin ETİ-nin potensial yeni imkanları ilə, onun müasir mərhələsi, materiyanın məlum olmayan xüsusiyyətlərinin öyrənilməsində insan intellektinin yeni irəliləyişi ilə əlaqələndirirlər.

İnsan fəaliyyətinin hər sferasında prioritetlər həm də obyektiv və subyektiv xarakterli daha çox müxtəlif amillərin məcmusu ilə şərtləndirilir. Bu – cəmiyyətin, kollektivlərin, fərdlərin çeşid və keyfiyyət üzrə artan və dəyişən tələbatı, insanın həyat fəaliyyətinin bütün şəraitlərinin dəyişmə müddətlərinin qısaldılması; təbii resurslardan rasional istifadə və ətraf mühitin qorunmasıda əks olunur. Keçmiş SSRİ-nin xalq təsərrüfatı kompleksinin dağılması nəticəsində müasir Rusiya iqtisadiyyatının komplekslilik səviyyəsinin aşağı olmasının nəzərə alınması da xüsusi əhəmiyyət kəsb edir. Əhəmiyyətli rolu konversiya, bazarın dəyişən konyukturu, siyasi şəraitin kəskin dəyişməsi, iqtisadiyyatın sürətləndirilmiş struktur dəyişiklikləri və s. oynayır. Prioritetləri şərtləndirən ç***oxamillilik*** onların seçimi və reallaşdırılması metodologiyasının mühim tərkib hissəsi sayılır. Bu, bütövlüklə elmi-texnoloji prioritetlərə aiddir.

İqtisadiyyatda prioritetlərin məcmusu sadəcə qarşılıqlı əlaqələri deyil, mürəkkəb ierarxik sistemi əks etdirir. Elmi-texnoloji prioritetlərin seçimi geniş təkrar istehsalın bütün sferalarına və mərhələlərinə, həmçinin elmi araşdırmanın müddətinə aid edilir. Dövlət müasir şəraitdə elmi və texniki inkişafın prioritet istiqaməti kimi tədqiqatların və elmi işləmələrin tematik istiqamətlərini qəbul edir. Onlar elmi-texnoloji inkişafın, cari və uzunmüddətli milli və regional sosial-iqtisadi məqsədlərə nail olunmağa əsas vəsait qoyuluşunu təmin edirlər.

Ölkənin elmi-texniki inkişafının prioritet istiqamətləri son onillikdə fundamental tədqiqatlar, informasiya texnologiyaları və elektronika, istehsal texnologiyaları, yeni materiallar və kimyəvi məhsullar, canlı sistemlərin texnologiyaları, nəqliyyat, yanacaq və energetika, ekologiya, təbiətdən rasional istifadə ilə sıx bağlıdır. Bu prioritet istiqamətlər proqramönü sənədlərdə konkretləşdirilirlər və kritik texnologiyaların işlənib hazırlanması əsaslandırılırlar.

Prioritetlik prinsiplərinin reallaşdırılmasında regionlararsı və ümumdövlət əhəmiyyətli regional prioritet elmi-texniki proqramlar və layihələr xüsusi əhəmiyyət daşıyır. Dövlətin maliyyə resurslarının məhdudluğu şəraitində elm və texnika,

həmçinin kritik texnologiya sahəsində prioritet istiqamətlərin və proqramların qəbulu o demək deyil ki, bu sahəyə dövlətin müxtəlif növ köməklikləri yalnız prioritetlərə düşmüş tədqiqatlara və işləmələrə istiqamətlənməlidir. Ümumdövlət prioritet istiqamətlər və texnologiyalarla ilə yanaşı onların təşkilati, həmçinin regional siyahıları da hazır olmalıdır.

Rusiyanın elmi-texniki prioritetlərinin əksəriyyətinin əsas çatışmayan cəhəti onlarda kifayət dərəcədə dəqiq son kommersiya yekununun olmamasıdır.

3. İşlənməsi, reallaşdırılması, resurs təminatı

Dövlətin elmi-texniki siyasətinin mühüm tərkib hissəsi onun işlənib hazırlanması və reallaşdırılması mexanizmidir. Özünün müəyyən müstəqilliyinə baxmayaraq o da cəmiyyətin sosial-iqtisadi inkişafını tənzimləyən vahid təsərrüfat mexanizminin bir hissəsi sayılır.

Elmi-texniki siyasətin əvvəldə qeyd olunan prinsiplərinə uyğun olaraq onun mexanizminin tərkibində bir sıra bloklar xüsusi qeyd edilə bilər. Bura normativ-hüquqi, təşkilati-idarəetmə, iqtisadi, bazar və s. daxil edilir.

Normativ-hüquqi blok Rusiya Parlamentinin, Rusiya Hökumətinin, Rusiyanın subyektlərinin qanunverici və icraedici orqanlarının qəbul etdiyi qanunlar və normativ-hüquqi aktlardan ibarətdir. Elmi-texniki və elmi fəaliyyətin normativ-hüquqi bazasının əsasını Rusiya Federasiyasının Elmi İnkişaf Doktrinası (1996), «Elm və dövlətin elmi-texniki siyasəti» Federal qanunu (1996) və Rusiya Hökuməti tərəfindən 1998-ci ilin mayın 18-də qəbul edilmiş «1998 – 2000-ci illərədək olan dövrə Rusiya elminin reformasiyasının Konsepsiyası» təşkil edir. Hazırda, çox sayda dövlət qərarları qüvvədədir fəaliyyət göstərir və elm-yeni texnologiyalar sahəsində münasibətləri tənzimləyir. Elmi-texniki siyasətin normativ-hüquqi bazasına, həmçinin ölkədə investisiya fəaliyyətini tənzimləyən bir çox qanunverici və normativ aktlar da daxil edilir. Beləki, innovasiya, elmi-texniki və investisiya fəaliyyət istiqamətləri bir-biri ilə sıx qarşılıqlı əlaqədədir.

Lakin, çoxsaylı hüquqi sənədlərin olmasına baxmayaraq, hələlik elmi-texniki siyasətin tam formalaşmış normativ-hüquqi bazası yoxdur. Müxtəlif vaxtlarda, müxtəlif hakimiyyət orqanları tərəfindən qəbul edilmiş elmi-texniki fəaliyyətə istiqamətlənmiş qanunlar və normativ aktlar hələ də bir sıra məsələlərin tam həllinə şərait yarada bilmir. Bu, intellektual mülkiyyətin qorunması probleminə, innovasiya fəaliyyətinə, elm sferasında büdcədənkənar fondlara, bu sahədə milli maraqların müəyyənləşdirilməsinə, innovasiya sahibkarlığına dövlət yardımına, Rusiyanın elm şəhərciklərinin statusuna və s. aiddir. Başqa sözlə, elmi-texniki siyasət mexanizminin normativ-hüquqi bloku təkmilləşdirilməlidir, həmçinin elmi-texniki inkişafın dəyişən məqsədlərini, vəzifələrini və istiqamətlərini nəzərə almaqla ona daimi düzəlişlər aparılmalıdır. Ölkədə elmin inkişafının əsas istiqamətləri müvafiq konsepsiyada əks olunmalıdır.

Ölkənin elmi-texniki siyasəti mexanizminin ***təşkilati-idarəetmə bloku*** **-** ilk növbədə elmi-texniki fəaliyyətin dəqiq təşkilati idarəetmə təminatına zəmanət verir. O, federal və regional səviyyədə dövlət hakimiyyəti orqanlarının mövcud bazar iqtisadiyyatı şəraitində elmi-tədqiqat təcrübi-konstruktor təşkilatlarının təşkilati hüquqi strukturunun formalaşmasında, yeniləşməsində və inkişafında, həmçinin elm və texnologiyaların inkişafının dövlət prioritet istiqamətlərinin seçilməsində, onların araşdırılmasında, təhlilində, ekspertizasında rolunu müəyyənləşdirir. Elmi və elmi-texniki fəaliyyətin sahələrarası koordinasiyasının həyata keçirilməsində, elmi və elmi-texniki proqramların, layihələrin işlənib hazırlanmasında və reallaşdırılmasında təşkilati-idarəetmə təminat olduqca vacibdir. Bu hər bir zaman dövründə müxtəlif təşkilati strukturların elmi-texniki fəaliyyətin inkişafına dövlət, bazar və ictimai təsirin forma və metodları arasında optimal uyğunluğun təmin edilməsində zəruridir. Bu zaman rəqabət və kommersiya hesablaşmaları şəraitində özünütəşkiletmə və özünüidarəetmə imkanları yeniləşməli və genişlənməlidir. Həmçinin, elmin, istehsalın və bazarın regionarası və sahələrarası kooperasiyası, inteqrasiyasının təşkilolunmaya və idarəetməyə ehtiyacı vardır.

Bu blokun mexanizmi özündə təşkilati idarəetmə orqanlarını, elm və elmi xidmət sferasının təşkilati-hüquqi strukturunu, elmi-texniki fəaliyyətin infrastrukturunun məcmusunu, həmçinin elmi islahatların, sahələrarası koordinasiyanın, elmi təşkilatların akkreditasiyasının forma və metodlarının məcmusunu cəmləşdirir. Onun qarışıq elmi-texnoloji istiqamətlərin balanslaşdırılmış inkişafının təmin edilməsi metodlarına, dövlət elm mərkəzlərinin, federal elmi və yüksək texnologiya mərkəzlərinin, regional-innovasiya texnologiya mərkəzlərinin, texnoparkların, kiçik texnoloji firmaların, elmi-texniki proqramların, layihələrin, proqnozlaşmaların və s. sistemlərin idarə edilməsinə birbaşa aidiyyəti vardır.

Bu blokun mexanizminin tərkibinə aşağıdakılar daxildir: elm və elmi xidmət sferalarının təşkilati-hüquqi strukturu; elmi-texniki fəaliyyətin infrastrukturu; elmdə islahatların aparılmasının, sahələrarası koordinasiyanın, elmi təşkilatların akkreditasiyasının forma və metodlarının məcmusu; qarışıq elmi-texnoloji islahatların balanslaşdırılmış inkişafının təmin edilməsi metodları; dövlət elmi mərkəzlərinin, federal elm və yüksək texnologiya mərkəzlərinin, texnoparkların, kiçik texnoloji firmaların, elmi-texniki proqram və layihələrin, proqnozlaşmaların və s. sistemi. Bura, həmçinin təşkilati idarəetmə orqanlarının məcmusu da daxildir. Eyni zamanda, həmin bloka kiçik innovasiya sahibkarlığının, o cümlədən də elm sahəsində inkişafının forma metodları da aid edilir.

Elmi-texniki siyasət mexanizminin ***iqtisadi blokunun*** elementlərinə elmə dövlət sifarişi, elm və elmi-texniki fəaliyyət subyektlərinə vergiqoyma, innovasiya sahibkarlığına köməkliyin müxtəlif iqtisadi formaları, elmi tədqiqatlar və işləmələri həyata keçirən təşkilat və müəssisələrə güzəştlərin məcmusu aid edilir. İqtisadi bloka, həmçinin elmi-texniki fəaliyyətin subyektləri üçün gömrük rejimi, elmi-texniki və innovasiya işlərinin dövlət maliyyələşdirilməsi sistemi, elmi və elmi-texniki yaradıcılıqda, elmi-texniki fəallığın inkişafında büdcədənkənar fondların maliyyə iştirakı formalarının məcmusu, elmi-tədqiqat layihə və proqramlarını kreditləşdirən, maliyyələşdirən banklara dövlət

zəmanəti və güzəştləri də daxildir. İqtisadi blokun elementləri sırasında ölkənin subyektlərinin elmi, elmi-texniki və innovasiya fəaliyyətini stimullaşdıran bütün formalar, elmi və elmi-texniki işçilərin sosial müdafiəsi üzrə tədbirlər hesab edilir.

Dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanması və reallaşdırılması mexanizminin ***bazar bloku*** makroiqtisadiyyatda adi təsərrüfat sistemlərində tətbiq olunan alətlərin fəaliyyəti ilə müqayisədə bir sıra xüsusiyyətlərə malikdir. Bu, yaradıcı əmək kimi elmi və innovasiya əməyinin spesifik xüsusiyyətləri ilə bağlıdır. Bu əməyin elmi və elmi-texniki fəaliyyətinin nəticəsi kimi, xüsusi istehlak xarakterinə malik məhsullar və xidmətlər formasında əmtəələr istehsal edilir. Həmçinin, elmi-texniki sferaya qeyri – ənənəvi xarakterə malik mülkiyyət münasibətləri xasdır, burada əsas rolu intellktual məhsula münasibətdə mülkiyyət formasının mövcudluğu oynayır. Elmtutumlu məhsullar, texnologiyalar, nou-xau, vərdişlər və bacarıqlar, intellektual resurslar bazarı bir çox xüsusiyyətlərinə görə fərqlənir.

Bazar bloku birbaşa olaraq elmi və elmi-texniki fəaliyyət subyektlərinin özünüidarə probleminin həlli, elmi istehsal vasitələrinə mülkiyyət münasibətlərinin formalaşması və elmi əməyin nəticələri, bu spesifik fəaliyyət sferasına bəhsləşmə və yarışın daxil edilməsi ilə əlaqədardır. Elmi-texniki fəaliyyətdə bazar mexanizmindən aktiv istifadəyə bu sahədə bütün institusional yeniləşmələr, o cümlədən də özəlləşdirmə istiqamətlənmişdir.

Lakin tələb və təklifin, dəyərin, qiymətin, kommersiya səmərəliliyin bazar qanunlarının fəaliyyətinin müsbət nəticələri ilə yanaşı mənfi təsiri də mövcudur. Bu, bazar dəstəklərinin tənzimlənməsi prosesində dövlətin xüsusi rolunu tələb edir. Bir sıra elmi sahələrdə rəqabət cəmiyyət üçün dağıdıcıdır və o, faydalı qarşılıqlı münasibətlər üzrə əməkdaşlığa transformasiya olunmalıdır. Bu xüsusilə, beynəlxalq elmi əlaqələrdə, iri miqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində, həmçinin MDB ərazisində vahid elmi və texnoloji məkanının yaradılmasında çox vacibdir.

Ölkənin elmi-texniki siyasəti mexanizminin bazar bloku Rusiyada fəaliyyət göstərən müxtəlif həcmli vəsaitlərə malik xarici və beynəlxalq fondların imkanlarından istifadə ilə əlaqədardır. Elmi-texniki siyasət mexanizmində bazar tiplərinin inkişaf istiqamətlərinin perspektivləri ABŞ, Fransa, Almaniya, Yaponiya, Çin, Skandinaviya ölkələri, Cənubi Koreya kimi ölkələrin elmi innovasiya təcrübəsində özünü bu və ya digər dərəcədə müsbət göstərmiş formalar sayıla bilər.

Bütün bu deyilənlər göstərir ki, elmi və elmi-texniki fəaliyyət subyektlərinin işində kommersiya hesablaşmalarının inkişaf etdirilməsi zəruridir. O, tətbiqi işləmələrin, kontrak sisteminin, podratçının kontrakt formada seçiminin, innovasiya layihələri əsasında konkret sosial-iqtisadi məsələləri həll edən investorların geri qayıdan maliyyələşmə prinsipi fəaliyyətinə əsaslanır. Kommersiya hesablaşması banklar, fondlar və digər kredit təşkilatları tərəfindən elmi-texniki sferanın maliyyələşdirməsinin xüsusi çəkisinin yüksəldilməsini tələb edir. Həmçinin, elmi və innovasiya fəaliyyətinin müxtəlif stimullarının onun iqtisadi ölçülmüş nəticələri ilə sıx əlaqələndirilməsi vacibdir.

Yuxarıda qeyd olunanlar təstiq edir ki, Rusiyanın daxili elmtutumlu bazarının (o cümlədən sistemli texnika) onun infrastrukturu, tənzimləmə mexanizmi ilə birgə formalaşdırılması, həmçinin subyektlərinin, innovasiya birjası, kadrları, kapitalın dövriyyəsi və qiymətələgəlmə xüsusiyyətlərinin nəzərə alınması ilə formalaşdırması zəruridir. Nəhayət, Rusiyanın beynəlxalq elmi və innovasiya əmək bölgüsündə, qarşılıqlı faydalı beynəlxalq elmi-texnoloji kooperasiyanın təşkilində fəal iştirakı barədə qeyd etmək lazımdır. Bunun üçün onda bütün mühüm ilkin şərtlər, həm yüksək ixtisaslı (dünya səviyyəli) elmi kadrlar, unikal elmi avadanlıqlara malik güclü elmi məktəblər və mərkəzlər, bir çox perspektiv sahələr üzrə orijinal pioner texnologiyalar mövcuddur.

Dövlətin elmi-texniki siyasətinin yüksək nəticəliliyi ilk növbədə elmi-texniki fəaliyyətin tam dəyərli resurs kompleksi ilə (kadr, informasiya, maliyyə, maddi-texniki və s.) təmina-

tından asılıdır. Ölkənin elmi-texniki potensialının təkrar istehsalının əsas resursu ***elmi kadrlar*** sayılır[1].

Bu sahədə əhəmiyyətinə görə, ikinci ***maliyyə resursları*** və elm və elmi-texniki sferaya investisiyalar hesab edilir. Elmə maliyyələşmənin mənbələri məlumdur. Bu, ölkənin federal və regional büdcələri, müxtəlif fondların vəsaitləri, bank kreditləri, elmi təşkilatların və ali təhsil müəssisələrinin, korporasiyaların və müəssisələrin, xarici tərəfdaşların vəsaitləri, əhalinin yığımları, vençur kapitalıdır. Rusiyada 2000-ci ilin əvvəlində tədqiqatlara və işləmələrə daxili xərclərin strukturu aşağıdakı kimi olmuşdur: büdcə vəsaitləri – 49,9%, elmi təşkilatların şəxsi vəsaiti – 10,4%, sahibkarlıq sektorundakı təşkilatların vəsaitləri – 15,7%, büdcədənkənar fondların vəsaitləri – 6,9%, xarici mənbələrdən vəsaitlər – 16,9%[1]. Qalan maliyyə daxilolmaları isə mənfəətlə işləməyən təşkilatlardan və ali məktəblərdəndir. Göründüyü kimi, elmə maliyyə daxilolmaları əsasən dövlət mənbələrindəndir. Düzdür, islahatlar dövründə ölkənin federal büdcəsindən elmə çəkilən xərclər mütəmadi azaldılır.

Bütün bunlar ümumilikdə iqtisadiyyatda, elmi-texniki sferada neqativ nəticələrə gətirib çıxarır. Rusiya texnoloji baza üzrə fəlakətli dərəcədə dünyanın digər inkişaf etmiş ölkələrindən geri qalır, beynəlxalq elmtutumlu bazarda onun xüsusi çəkisi olduqca aşağıdır. Bundan əlavə, onun istehsal aparatı köhnəlir və elmi-texniki potensialı zəifləyir.

Ümumiyyətlə, səmərəli elmi-texniki fəaliyyətin maliyyə təminatı sahəsində çətinliklərin tədricən aradan qaldırılması mümkündür. Bunun üçün elmə çəkilən xərcləri inkişaf etmiş sənaye ölkələrindəki səviyyəyə (ÜDM-də və büdcənin xərclər hissəsində xüsusi çəkisinə görə) çatdırılması, büdcə vəsaitlərinin elmi-texniki tərəqqinin prioritet istiqamətləri üzrə cəmləşdirilməsi, aparıcı milli elmi məktəblərə və sahəvi elmi təşkilatlara selektiv kömək göstərilməsi lazımdır. Bu istiqamətdə xarici kapitalın cəlb edilməsi, geri qaytarılma əsasında tətbiqi araşdır-

[1] Концепция реформирования российской науки на период 1998-2000 г.г. // Россицская газета. 1998. 3 июня. С. 4.

[1] Наука России в цифрах: 2000 год. Краткий статистический сборник. М., 2000. С. 49

malara maliyyələşdirmə mexanizminin tətbiq edilməsi faydalı olar. Elmi-tədqiqat və təcrübi-konstruktor fəaliyyətinin, sahəvi, sahələrarası, regional və regionlararası xarakterli büdcədənkənar fondların inkişafının, lizinqin inkişafının, elmi layihələrin maliyyələşdirilməsinin müsabiqə sisteminin tətbiqinin ***kommersiyalaşdırılması*** olduqca vacibdir. Kommersiya nöqteyi-nəzərindən maliyyələşmənin dolayı metodlarının (vergi güzəştləri və tətilləri, sürətləndirilmiş amortizasiya mexanizmləri, güzəştli tariflər, bank kreditləri faizlərinin kompensasiyası, zəmanət öhdəliklərinin verilməsi) geniş istifadəsi, vençur kapitalının inkişafının aktivləşdirilməsi, elmi-texnoloji layihələrin iqtisadiyyatın dövlət və qeyri-dövlət sektorlarının iştirakı ilə birgə maliyyələşdirilməsi təcrübəsinin genişləndirilməsi, elmi-texniki sferanın inkişafına ayrılmış vəsaitlərin səmərəli xərclənməsi üzərində dövlət və ictimai nəzarətin gücləndirilməsi, beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafı faydalıdır.

Elmi-texniki fəaliyyətin resurs təminatı, dövlətin iqtisadi siyasəti çərçivəsində elmi-texnoloji potensialdan istifadə problemlərinin həlli əsaslı şəkildə elmi-texniki sferada idarəedənlərin ***informasiya resursları ilə*** tam təminatlılığından asılıdır.

Beləliklə, dövlətin elmi-texniki siyasəti ölkənin sosial-iqtisadi siyasətinin adicə tərkib hissəsi sayılmır. O, ölkənin gələcəyini, dünya təsərrüfat sistemində onun yerini, iqtisadi və milli təhlükəsizliyi, insanın normal həyat fəaliyyəti üçün zəruri şəraitlərin yaradılma imkanlarını müəyyənləşdirir.

Suallar və tapşırıqlar

1. Dövlətin elmi-texniki siyasəti sayılır:
   a) sosial-iqtisadi siyasətin bir hissəsi;
   b) sərbəst bir siyasət.
   Düzgün cavabı ***seçin*** və ona qısa əsaslanma verin.
2. Yeni elmin hazırlanması, konkret istehlak dəyərlərinin təkrar istehsalında istifadə üçün innovasiyalar…… proseslərinin gedişində həyata keçirilir.
   Buraxılan lazımlı düzgün sözləri nöqtələrin yerinə ***yazın.***
3. Təsərrüfat sisteminin elmi-texniki potensialı nə deməkdir?

4. Dövlətin elmi-texniki siyasəti:
   a) dövlət ilə elmi-texniki fəaliyyətin qalan subyektləri arasında ictimai-iqtisadi münasibətlərin məcmusudur;
   b) dövlət ilə elmi-texniki fəaliyyətin qalan subyektləri arasında təşkilati-iqtisadi münasibətlərin məcmusudur;
   c) dövlət ilə elmi-texniki fəaliyyətin subyektləri arasında ictimai-iqtisadi münasibətlərin məcmusudur;
   Düzgün cavabı ***seçin.***
5. Dövlətin elmi-texniki siyasətinin əsas elementlərini söyləyin.
6. Dövlətin elmi-texniki siyasətinin əsas məqsədləri və vəzifələrini (iriləşmiş) sadalayın.
7. Elmi-texniki sferada prioritetlər anlayışının düzgün traktovkasını seçin və buna öz mövqeyinizi bildirin:
   a) prioritet – bu, digərləri ilə müqayisədə sahənin, fəaliyyət sferasının, istiqamətin üstün inkişafıdır;
   b) prioritet – məhsuldar qüvvələrin bütün tərkib elementlərinin məqsədyönlü, surətlənmiş keyfiyyətli yeniləşməsi, onların qarşılıqlı münasibətlərinin struktur elementlərinin və mexanizminin üstün inkişafı və bu əsasda məhsul istehsalı həcminin artımıdır;
   c) prioritet – elmi naliyyətlərin, kəşflərin və vahid «elm – təkrar istehsal» mərhələsində innovasiyaların sürətlənmiş keyfiyyətli və məqsədyönlü inkişafıdır, bu əsasən keyfiyyətli kompleks – resurs təminatı əsasında olur.
8. Yaxın perspektivə elm və texnikanın inkişafının aşağıda göstərilmiş prioritet istiqamətlərinin 2001–2005-ci illər üçün Dövlətin Məqsədli Proqramında nəzərdə tutulmayanlarının üzərindən xətt çəkin:
   a) fundamental tədqiqatlar;
   b) yüksək enerji fizikası;
   c) informasiya texnologiyaları və elektronika;
   ç) elm və texnika üzrə federal və informasiya fondu;
   d) istehsal texnologiyaları;
   e) yeni materiallar və kimyəvi məhsullar;
   ə) biotexnologiya;
   f) canlı sistemlər texnologiyası;
   g) nəqliyyat;
   ğ) yanacaq və energetika;

h) kosmik sənaye;
x) yüksək ötürücülər texnikası;
ı) elektronika;
i) ekologiya və təbiətdən rasional istifadə;
j) okeanların və dənizlərin kompleks tədqiqatı;
k) milli texnoloji baza.

9. Elmi-texnoloji siyasətin işlənib hazırlanması və reallaşdırılması mexanizmi:
   a) müstəqil sərbəst törəmədir;
   b) ümumi tsərrüfat mexanizminin bir hissəsidir və dövlət orqanlarının fəaliyyətinin metod və formalarının dəsti kimi nəzərdə tutulur;
   c) ümumi təsərrüfat mexanizminin bir hissəsidir, lakin müstəqil şəkildə mövcuddur.

   Düzgün cavabı ***seçin*** və öz seçiminizi əsaslandırın.

10. Elmi-texniki siyasətin mexanizminin əsas bloklarını göstərin və onu xarakterizə edin.
11. Ölkədə dövlətin müasir elmi-texniki siyasətinin səmərəliliyinin təmin edilməsi üçün üç ən vacib resursu seçin:
    a) idarəetmə; b) kadrlar; c) texnika və texnologiya; ç) informasiya; d) investisiyalar; e) maliyyə; ə) sahibkarlıq; f) təşkilat.

Elmi və elmi-texniki sferada resurs təminatı üzrə vəziyyətin, həmçinin ölkədə cari iqtisadi durumun təhlili bazasında öz seçiminizi əsaslandırın.

© Фоломйев А.Н. 2002

XXV Fəsil

DÖVLƏTİN SƏNAYE SİYASƏTİ

1. Sənayenin inkişafının dövlət tənzimlənməsi

Rusiyanın müasir sənaye kompleksi, iqtisadiyyatın mərkəzləşdirilmiş idarəetmə şəraitində formalaşmışdır. Bu dövrdə onun əsas məqsədi direktiv qaydada müəyyən edilirdi. Ağır sənaye və hərbi kompleks hipertrofiyaya (həddən artıq böyümə) uğramışdır. İstehlak məhsulları istehsal edən müəssisə və sahələr ağır inkişaf edirdi. İqtisadiyyatın qeyri-səmərəli strukturu məcmu məhsulun artımının 1976-1980-cı illərdə 4,2%-dən, 1981-1985-ci illərdə 3,3%-ə, 1986-1989-cu illərdə isə 2,8%-ə azalmasına səbəb olmuşdur. Milli gəlirin artımının istehlaka və yığıma istifadəsi uyğun olaraq 3,3% ; 3,0%, 2,8[1]% təşkil etmişdir.

İstehsalın həcmi istehlaka uyğun gəlmirdi, bu da özünü əmtəə qıtlığında göstərirdi. Onların keyfiyyəti xarici məhsulların keyfiyyətindən xeyli aşağı idi. Bütün bunlar, iqtisadiyyatın idarə edilməsi sisteminin cəmiyyətin tələbinə uyğun olmadığını əks etdirirdi.

[1] Народное хозяйство СССР в 1989 году. Статистический ежегодник. М.: Финансы и статистика, 1990. С.9

Bununla belə istehsalın sahə strukturu və sənaye siyasətinin formalaşmasına elmi yanaşmada idarəetmənin səmərələşdirilməsinə təşəbbüs göstərilməsini də təmamilə inkar etmək olmaz. Belə ki, istehsalın sahə strukturu sahələr arası balans vastəsilə tənzim edilirdi. XX- əsrin 70 - 80-cı illərində milli gəlirdə yığımın azaldılmasına, hərbi müəssisələrdə xalq istehlakı məhsullarının istehsal edilməsinə təşəbbüs göstərilmişdir. İdarəetmədə iqtisadi metodların tətbiqində və təsərrüfat hesabının genişləndirilməsi sahəsində də çox işlər görülmüşdür. Lakin bunların hamısı mərkəzləşdirilmiş idarəetmənin əsaslarına, iqtisadiyyatın strukturuna toxunmurdu, vaxtı çatmış obektiv güman edilən radikal tədbirlərin görülməsi məqsədini güdmürdü.

Bununla belə bazar iqtisadiyyatının birinci 10 illiyində, dövlət tənzimlənməsi olmadan, sənaye istehsalının sərbəst buraxılması onun durğunluğuna, staqnasiyaya səbəb olmuşdur. Ölkədə əsasən xammal, enerji və bir sıra sənaye sahələri fəaliyyət göstərirdiki, onlarda ixrac məhsulları istehsal edirdilər. Həmdə onların istehsal etdikləri məhsula daxili tələbat azalmışdır. Nəzəri olaraq sənayedə struktur dəyişikliyini müstəsna hal kimi bazar mexanizmi əsasında aparmaq olar. Lakin bu çox vaxt tələb edir. Sosial və iqtisadli səbəblər uzundən Rusiya belə variantla gedə bilməzdi.

Hazırda Rusiyada bazar strukturlarını uzunmüddətli investisiyalar maraqlandırmır. Dövlət investisiyası azalmışdır. Əvvəllər yaradılmış istehsal bazası və təbii resurslar vəhşicəsinə istismar olunur. İri biznesin marağı, dövlət və cəmiyyətin marağı ilə üst-üstə düşmür. Buna görədə bazar şəraitində struktur yenidənqurma əvvəl bazar sisteminin qabiliyyətliliyinin aşağı düşmüsinə səbəb olur, sonradan yavaş-yavaş yeniləşmə başlayır. Lakin buna investisiya kifayətliyinin olmaması, beynəlxalq rəqabət maneçilik törədir ki, bu da öz əksini istehsalın aşağı sürətli artımında və əhalinin həyat səviyyəsinin pisləşməsində göstərir. Rusiyada sosial problemlərin həlli, effektli iqtisadi və sənaye siyasətinin aparılmasının tələb edir.

İqtisadiyyatın transformasiya dövrünü qısaltmaq üçün dövlət tənzimlənməsindən aktiv istifadə olunmalıdır. Müasir

şəraitdə sənayenin idarə olunmasının məzmunu əhəmiyyətli dərəcədə liberallaşmışdır. Lakin onun fəaliyyəti üçün iqtisadi şərait dövlət tərəfindən yaradılır. Bu isə sənaye siyasətini formalaşdırır. İqtisadiyyatın dövlət tənzimlənməsinin metodları, inkişaf etmiş ölkələrdə, xüsusilə durğunluq və böhran dövrlərində geniş istifadə olunur[1]. Onların əsasında milli səanyenin inkişaf strategiyasının tərtibi, daxili və xarici bazarların öyrənilməsi, stimullaşdırıcı mexanizmlər əsasında texnoloji potensialın yeniləşdirilməsi və istifadəsi, dövlətin iri investisiya proqramlarının maliyələşdirilməsi, dövlət mövqeyindən təbii resurslardan effektli istifadə edilməsi durur.

Sənaye istehsalı ümumi daxili məzsulun yaradılmasının əsas mənbəyi sayılır. O, həm daxili tələbatı ödəmək üçün, həmdə ixrac üçün məhsul istehsal edir. Dünya təcrübəsindən məlumdur ki, stabil inkişaf edən iqtisadiyyatda sənaye məhsulunun ÜDM-də xüsusi çəkisi təxminən 40 % təşkil edir. SSRİ-də 80-cı illərin axırında bu göstəricə 60 %-ə qədər olmuşdur. Stabil inkişaf dövründə sənaye müəssisələrində əmək qabiliyyətli əhalinin 40 %-ə qədəri məşğul olurdu. Buna görə də dövlətin əsas vəzifəsi, ölkə sənayesinin saxlanılması və inkişafının dəstəklənməsindən ibarət olmalıdır. ÜDM-un formalaşmasındakı rolu və istehsal etdiyi məhsulun həcminə nəzərən Rusiyanın iqtisadi siyasətində sənaye əsas proiritet olmalıdır.

Rusiyanın bazar iqtisadiyyatına keçid dövründə bu hala rəayət edilməmişdir. İqtisadi böhrandan ən çox emal sənayesi ziyan çəkmişdir. 1990-1998-ci illərdə sənaye istehsalının tənəzzülü 60% o, cümlədən maşın qayırmada 80% təşkil etmişdir. 2000-2001-ci illərdə ölkə sənayesində canlanma nəzərə çarpmağa başlamış, onun artımı əldə olunmuş nəaliyyətin 3,5-4% qədərini təşkil etmişdir. 2002-ci ildə sənayenin 4 % artımı proqnozlaşdırılmışdır. Bu 1990-cı ilin səviyyəsinin 1,5%-i qədərdir.

[1] Например: Дж.М.Кейнс. Теория занятости, процента и денег. М.: Прогресс, 1948

İqtisadi tənəzzülün miqyası nəzərə alınarsa, sənaye istehsalının imkanlarından hələ də kifayət dərəcədə istifadə olunmadığını söyləmək olar.

Rusiyanın sənayesi elə bir vəziyyətdədir ki, onun sərbəst dirçəlməsi mümkün deyildir. Sənayenin tənəzzül dövründə dövlət tərəfindən dəstəklənməsi zəruridir. Dövlət stimullaşdırıcı tədbirlərlə məqsədyönlü sənaye siyasəti tərtib etməlidir ki, beynəlxalq əmək bölgüsündə Rusiyanın maraqları təmin olunsun.

Dövlət tənzimləməsi sənayenin inkişafında (xüsusilə bu dövrdə) əsas amildir. Lakin onun istiqamətinin seçilməsi, xərc və nəticələrin qiymətləndirilməsi müasir bazar mexanizminin şərtlərinə uyğun müəyyən edilməlidir. Bu mexanizmlərin vasitəsilə sənaye istehsalı həcminin artırılması və reallaşdırılması prinsiplərinin effektivliyi, təkrar istehsal istiqaməti, innovasiya-investisiya fəaliyyətinin effekttivliyi, sosial nəticələri və ekoloji məhdudiyyətlikləri müəyyənləşdirilir. Hazırki dövrdə Rusiyada idarəetmənin dövlət sistemi birbaşa idarəetmədən iqtisadi mexanizmələrə keçir. Bu isə istehsalın özünü tənzimləmə və reallaşdırma prosesinə şərait yaradır. Sənayenin inkişafı strategiyasının əsasında bazar metodları ilə tənzimləməyə keçid durur ki, bu da sənayenin inkişafında marketinq konsepsiyasının effektli reallaşdırılması ilə əlaqədardır.

Bazar iqtisadiyyatında sənaye müəssisələri əsas funksional sahə kimi çıxış edir. Bütün tənzimləyici təsirlər, onların fəaliyyətinin effektivliyinin dəstəklənməsinə istiqamətlənməlidir. Bir sözlə dövlət tənzimləməsi, müəssisələrin fəaliyyəti üçün effektli şəraitin yaradılması, onların bazar şəraitinə uyğunlaşması, ümumilikdə sənaye siyasətinin həyata keçirilməsi effektivliyinin müəyyən edilmiş məqsədi ilə həyata keçirilir. Bu həm də sənaye müəssisələrinin əmtəə ixtisaslaşmasını və sahələrin selektiv (seçmə) dəstəklənməsi üçün zəruridir. Belə hal Rusiyanın perspektiv dövrə əmtəə və xidmətlərə, daxili və xarici tələbatın ödənilməsi, iqtisadi artıma nail olunması imkanlarını genişləndirir. Belə tələbat daxili bazarda reallaşdırılan məhsulun əsasında və ya xarici ticarətdən əmtəə mübadiləsi hesabına ödənilə bilər.

Milli sənaye, idxalla müvəffəqiyyətlə rəqabət apara bilər. Rusiya kimi bir ölkənin xarici ticarət balansının müsbət (saldosunun) qalığı nəinki, enerji və hasilat sənayesi məhsullarının ixracı əsasında formalaşmalıdır, habelə ixrac məhsullarının strukturunda emal sənayesinin istehsal və qeyri istehsal təyinatlı məhsulların, elm tutumlu məhsullarında xüsusi çəkisi artırılmalıdır.

Sənaye siyasəti, bütünlükdə əmtəə istehsalının inkişafını əhatə etsə də, onun iştirakçıları bazar mexanizminin istifadəsinin müxtəlif pillələrində dururlar. Buna görə də onların hər birinə iqtisadi metodlarla təsir göstərilməsi fərqli olmalıdır. Bazar şəraitinə tam uyğunlaşanlar üçün, ümumi iqtisadi inkişaf şəraiti yaradılmalıdır. Depressiya vəziyyətində olanlar üçün isə iqtisadi əhəmiyyətindən asılı olaraq selektiv (seçmə) qaydada dəstəklənməlidir.

Sənayenin uzunmüddətli inkişafının dövlət proqramı, sənaye siyasətini reallaşdırır. Bu proqrama İqtisadi İnkişaf Nazirliyi, ticarət, sənaye, maliyyə nazirliklərinin iştirakı ilə, dövlət komissiyası tərəfindən həyata keçirilir. Həmçinin bu proqrama iri sənaye korporasiyaları və resurslarla təmin edən istehsal sistemləri də cəlb olunmalıdır. Proqrama Rusiya federasiyasının hökuməti tərəfindən baxılır, Dövlət dumasında bəyənilir və onun yerinə yetirilməsinə nəzarət edilir.

2.Sənaye siyasətində marketinq konsepsiyası

Ölkə iqtisadiyyatı, istehlak etdiyi məhsuldan müəyyən qədər artıq məhsul istehsal etməlidir. Bu istehsal olunmuş məhsulun reallaşdırılması effektivliyini artırır. Bu baxımdan sənaye siyasətində marketinq konsepsiyasının olması birinci dərəcəli əhəmiyyətə malikdir. Tələb və təklifin təhlili bazar iqtisadiyyatının durumunu əks etdirir, dövlətin sənaye siyasətinin istiqamətinin formalaşdırır. Böhranlı dövrdə, dövlət tənzimlənməsi bazar münasibətlərinin dəstəklənməsi aləti kimi çıxış edir. Bu zaman sənayenin inkişafının istiqamətinin seçilməsi, cari və perspektiv tələbatın təmin olunmasına istiqamətlənməlidir. Beləliklə, bazar amili, sənayenin inkişafının əsas təmayülünün seçilməsinə xidmət edir. Buna görə də

sənayenin gələcək strukturu, investisiya siyasəti və dövlətin idarəetmə tədbirləri müəyyən edilərkən, daxili bazarın əmtəə tələbatı, rəqabətə davamlı məhsul istehsalı ilə dünya bazarına çıxması imkanı, sənayenin texnoloji ixtisaslaşma səviyyəsi, müəssisələrin investisiya qabiliyyəti, dövlət və kommersiya strukturlarının fəaliyyəti nəzərə alınmalıdır.

Qeyd olunanların hamısı sənayenin inkişafının marketinq konsepsiyasının əsasını təşkil edirlər. Marketinq konsepsiyasının məzmununu aşağıdakılar əks etdirir:

1. Əmtəə mübadiləsi və reallaşdırılması.
2. İstehsal və təkrar istehsal məsələlərinin həlli.
3. Sosial məsələlərin həlli.

Deməli, sənaye üçün dövlət elə maddi baza yaratmalıdır ki, daxili tələbat və effektli əmtəə mübadiləsi üçün məhsul istehsal edə bilsin. Həmin məhsulların realizə olunması cəmiyyətin tələbatını ödəyərək, dövlət büdcəsinin formalaşmasına, maddi-maliyyə resurslarının yaradılmasına imkan verir.

İqtisadi nöqteyi nəzərdən sənaye siyasətində nəzərdə tutulmuş mühüm vəzifə, istehsal və qeyri-istehsal tələbatının ödənilməsidir. Ölkənin sənaye siyasətində sosial məsələlər də nəzərdə tutulur. Belə ki, əhalinin məşğulluq səviyyəsinin saxlanılması, onun alıcılıq qabiliyyətinin artırılması və s. bu kimi məsələlər ölkədə sənaye məhsulu istehsalı ilə birbaşa əlaqədardır.

Bu tələblərin yerinə yetirilməsi bütünlükdə sənaye kompleksinin bazar effektivliyini yüksəldir. Nəticədə resursa qənaət tələblərini yerinə yetirməklə xarici və daxili bazar üçün məhsul istehsalının artırılmasına imkan yaranır. Məlumdur ki, sənaye istehsalının effektivliyinə əmtəə ixtisaslaşması olmadan nail olmaq olmaz. Buna görə də sənayedə əmtəə ixtisaslaşması olmalıdır.

Əmtəə ixtisaslaşması mili sənaye müəssisələrinin məhsul istehsalı növünün, bazar və texnologiyadan asılı olaraq dəyişilməsidir. O, bazar tələbatından asılı olaraq dəyişilə bilir və marketinq sistemi vasitəsilə reallaşdırılır. Buna görə də sənayedə əmtəə ixtisaslaşması, marketin təhlili əsasında, xarici və daxili bazarda rəqabətə davam gətirən, yüksək rentabelliliyə malik olan maksimum məhsul istehsal olunması məqsədini güdür. Sənaye siyasətində marketinqin yeri aşağıdakı strukturda göstərilmişdir.



Sxem 13. **Sənayedə marketinq sisteminin təşkili**

Rəqabətə qabiliyyət səviyyəsi, istehlak xüsusiyyəti və məhsulun qiyməti bazarın təbiətindən çox asılıdır. Buna görə də bütün əmtəələr müəyyən qruplara ayrılırlar. Birinci qrup məhsullar dünya bazarının rəqabətinə davam gətirənlər, ikinci

qrupa isə MDB ölkələri bazarı üçün istehsal olunanlar sayılır. Üçüncü qrupa daxili bazarın tələbatını ödəyən məhsullar, dördüncü qrupa isə regionların tələbatını ödəyən kütləvi məhsullar istehsalı nəzərdə tutulur.

Göstərilən qruplardan heç biri nə uyğun gəlməyən məhsullar rəqabət qabiliyyətsiz, effektsiz sayılır və onların istehsalının dayandırılması məqsədəuyğundur. Belə məhsullara tələbat idxal hesabına ödənilməlidir. Lakin onların idxal səviyyəsi elə olmalıdır ki, ölkənin iqtisadi təhlükəsizliyinə xələl gəlməsin. Əgər həmin məhsulların gətirilməsi müəyyən fəaliyyəti pozarsa, bu zaman dövlət sənayedə struktur dəyişikliyi nəzərdə tutmalıdır. Həmin məhsulların idxal həcmi (ərzaq məhsulları üzrə) ümumi istehsalın 30% qədərində olması məqsədəuyğundur.

Göstərilən bazarlar, öz həcmi və real imkanları ilə birbirindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Təbiidir ki, həmin bazarlarda rəqabət mövcuddur və hər bir bazar bunu nəzərə alaraq, dünya standartları tələbini ödəyə bilən məhsulla bazara çıxır. Əmtəələrin rəqabət qabiliyyətliliyi bir neçə parametrlərlə müəyyən edilir;

1. Məhsul istehlak keyfiyyətinə görə tələbata uyğun olmalıdır.
2. Qiymət tələbatı stimullaşdırılmalıdır.
3. Məhsulun həcmi və növü istehlakçının tələbatına uyğun olmalıdır.

Müasir iqtisadi şəraitdə Rusiyanın müəssisələrinin hər biri, bazara sərbəst çıxır. Hökümətin vəzifəsi isə iqtisadi metodlarla konkret məhsulun istehsalı və reallaşdırılmasının tənzimləməkdir. Bu zaman dövlət, sosial-iqtisadi nəticələrin maksimumlaşdırılması, cəmiyyətin istehsal və qeyri - istehsal tələbatının ödənilməsi, ixracın efefktli təşkili, dövlət mülkiyyətinin, gəlirlərindən vergi ayırmaları hesabına büdcənin kifayət qədər artırılması nöqteyi-nəzəriydən çıxış etməlidir.

Qeyd etmək lazımdırki, Rusiyada iqtisadi böhranın əsas səbəbi məhsulun nəinki daxili bazarda, həmdə xarici bazarda rəqabət qabiliyyətli olmaması idi. Adətən belə məhsul istehsal edən müəssisələr köhnə maddi bazaya malik olub, ağır maliyyə vəziyyətində olurlar. Belə məüssisələrin əksəriyyəti dəstəklənmə tədbirlərinə möhtac olurlar. Bu halda xarici iqtisadi tənzimləmə

mexanizmində dəyişikliklər edilməsi labudlüyü yaranır. Məsələ ondadır ki daxili bazarda xarici istehsalçılara geniş imtiyazlar verilmişdir. Bu isə rusiya məhsulunun rəqabət qabiliyyətinin azalmasına səbəb olmuşdur ki, bunada həm iqtisadi və həmdə sosial cəhətdən heç bir vəchlə bəraət qazandırmaq olmaz.

İqtisadi böhran dövründə bazar subektlərinin və dövlətin investisiya imkanları məhduddur. Buna görədə iqtisadiyyatın real bölməsinin marağı üçün maliyyə kredit sisteminin inkişafı, istehsalın investisiyalaşdırılması və məqsədyönlü iqtisadi stimullaşdırma tədbirləri birinci dərəcəli mahiyyət kəsb edir.

Bu zaman dövlət adətən istehsal investisiyalarını birbaşa həyata keçirmir. Vergi kodeksinə uyğun olaraq istehsal obektlərinin dövlət büdcəsindən qaytarılmaq şərti ilə kreditləşdirilməsi aparılır. Lakin bu zaman, müəssisələrin fəaliyyətindən vergi daxil olmalarının artırılmasına səy göstərilir. Buna görədə təsərrüfat subektlərinin daxili investisiyalardan, ehtiyat resurslarından səmərəli istifadə olunması daha çox mahiyyət kəsb edir. Rusiya Federasiyasının iqtisadi inkişaf və maliyyə nazirlikləri, proqnozlaşdırma funksiyası ilə dövlət tənzimlənməsinin uyğunlaşdırılmasını təklif edir.

3. Əmtəə və texnoloji ixtisaslaşma

Sənayenin inkişafında maarketinq strategiyasının əsas nəticəsi səmərəli əmtəə ixtisaslaşmasının seçilməsidir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi subyektlər istehsal olunacaq məhsulun strukturunu və həcmini özləri müəyyən edirlər. Dövlətin sənaye siyasətinin rolu ondan ibarət olur ki, daha səmərəli və perspektivli məhsul istehsalı ilə iqtisadi artıma nail olunmasını təşkil etsin, onların texnoloji inkişafına şərait yaratsın.

Ölkə sənayesinin inkişafında ilkin olaraq əmtəə ixtisaslaşması, daxili tələbatı ödəmək üçün perspektivli əmtəə istehsalının təşkil edilməsidir. Onların istehsalında qısa və orta müddətli güzəştli investisiyalar prioritet təşkil etməlidir. Həmin istehsal sahələrinin texniki silahlanması, rəqabət qabiliyyətli məhsul istehsalı ilə müşayiət olunmalıdır. Belə məhsulların

əmtəə dövriyyəsinin artırılması yüngül sənayenin və digər maşınqayırma sənaye sahələrinin inkişafını canlandırır. Bu sahələrin elmi-texniki təminatı onların istehsal etdikləri artıq məhsulla və ya xarici lisenziya əsasında ödənməlidir. Onu da qeyd etmək vacibdir ki, bu sahələrdə investisiya qoyuluşunun birinci mərhələsi selektiv (seçmə) xüsusiyyətə malik olmalıdır.

Dövlət tərəfindən o, məhsulların istehsalı dəstəklənir ki, yüksək istehlak keyfiyyətinə malikdirlər və qiymətləridə dünya bazarının rəqabət qabiliyyətinə uyğundur. Eyni zamanda dəyanətli maliyyə-təsərrüfat strukturuna malik olan müəssisələrdə dövlət tərəfindən dəstəklənməlidir.

Məqsədli investisiyalaşdırma və selektiv (seçmə) yolu ilə əmtəə istehsalının dəstəklənməsi konkret istehalçılar üzrə aparılır. Bunun üçün onların daxili və xarici bazara çıxma imkanlarının iqtisadi qiymətləndirilməsi aparılmalıdır. Eyni zamanda onların kredit qaytarma imkanları araşdırılmalı, bu imkanlar məhduddursa, həmin müəssisə müflis edilməlidir.

İstehsalçılara bu istiqamətdə yanaşılması, rəqabətə qabiliyyətli və profilli müəssisələrinin seçilməsinə, onların dövlət tərəfindən dəstəklənməsinə, qeyri profilli, effektsizlərinin isə fəaliyyətinin dayandırılmasına imkan verir.

Sənaye siyasəti dairəsində sahələrin bazar ixtisaslaşmasının formalaşması üçün müəyən məsələlərin həlli zəruridir. Hər şeydən əvvəl marketinq təhlili aparılması məhsulun rəqabət qabiliyytliyi, keyfiyəti və qiyməti, uyğun bazarların inkişaf perspektivi müəyyən edilməlidir. Sonra isə texnoloji əsasda perspektiv üçün sənayenin yeni məhsul istehsalı da daxil olmaqla əmtəə ixtisaslaşması müəyyən edilməli və bazara çıxış imkanları aşkarlanmalıdır. Bu zaman mühüm məsələlərdən biri də, qısa müddətli investisiya proqramı tərtib edilməli, müasir texnologiyaya uyğun gələn struktur dəyişikliyi aparılmalıdır. Sənayedə əmtəə ixtisaslaşmasının inkişafında elmi müəssisələr tərəfindən yaradılmış və perspektivdə istehsalının təşkil edilməsi nəzərdə tutulan yeni məhsulların müəyyən edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu sənaye məhsulu istehsalının potensialıdır. Belə məhsulun istehsalı sənayenin dəstəklənməsinin əsas şərtlərindən olmalıdır və dövlətin sənaye siyasəti proqramı çərçivəsində həyata keçirilməlidir. Onlar uzun müddətli mar-

ketinq strategiyası ilə uyğunlaşdırılaraq müstəqil ekspertizadan keçirilərək müəssisənin biznes planına daxil edilirlər.

Dövlətin sənaye siyasəti və onun informasiya marketinq təminatını aşağıdakı sxemlə göstərmək olar:



Sxem 14. Rusiyanın sənaye siyasəti və onun informasiya-marketinq təminatı

Dövlətin sənaye siyasəti, informasiya kütləsinin formalaşmasının aşağıdakı sahələrini nəzərdə tutur:

1. Qəbul edilmiş təsnifata uyğun əmtəə qruplarının bazarda reallaşdırılması haqqında informasiya.
2. Rəqabətə qabiliyyətli və bazara çıxmaq imkanı olan sənaye müəssisələri haqqında informasiya.
3. Ehtimal olunan effektli əmtəə istehsalçıları haqqında dəqiq məlumat.

Əmtəə axınının dinamikası və strukturunun təhlili sənaye siyasətinin mühüm elementidir. Bu müxtəlif ölkələrin bazarında istehlak tələbatı olan məhsulları müəyyən etməyə imkan verir. Həmin məhsullar haqqında informasiya mənbəyi kimi statistik göstəricilər çıxış edir. Həmin informasiyaların təhlili, uyğun bazarlar üçün zəruri olan məhsul kütləsinin müəyyənləşdirilməsi sahəsinin aşkar edilməsinin ilkin mənbəyi sayılır. Bütün bu informasiyalar rəqabət qabiliyyətli məhsullar haqqında məlumat bankının formalaşmasına imkan verir. Həmin banka ardıcıl olaraq məlumatların daxil olması, və təhlil edilməsi, sənaye məhsulunun hərəkətinin, onun əmtəə ixtisaslaşmasını qiymətləndirməyə imkan yaradır. Sənayenin dövlət tərəfindən dəstəklənməsinin əməli və məqsədli fəaliyyəti, rəqabətə qabiliyyətli sənaye müəssisələrinin seçilməsi üçün informasiya sahəsi yaradılır. Onların effektivliyinin növbə ardıcıllığı sənaye müəssisələrinin investisiya müqavilələri və vergi müfəttişliyinə ödənilən balans hesablamaları əsasında müəyyən edilir. Belə məlumatlar çoxluğu müəssisələri effektivliyi üzrə qruplaşdırmağa, maliyyə təsərrüfat fəaliyyətlərini qiymətləndirməyə, stimullaşdırıcı tədbirlərin məqsədyönlülüyünü aşkar etməyə imkan verir.

İnvestisiya proqramının təhlilində əsas meyar, bazar tələbatına müvafiq olaraq buraxılan məhsulun qiymət və keyfiyyətinin dəqiq müəyyən edilməsidir.

Sənayenin inkişafının dövlət tənzimlənməsi sistemini belə göstərmək olar.



Sxem 15. **Rusiya sənayesinin inkişafının tənzimlənməsinin funksional sxemi**

Beləliklə, sənaye siyasəti cəmiyyətin resurslarının seçilmiş istiqamət üzrə təmərküzləşməsini təmin edir və uzunmüddətli proqramla reallaşdırılır. Onun köməkliyi ilə səmərəli struktur dəyişikliyi aparılır və bunun üçün elmi-texniki potensialın cəlb olunması imkanlarını genişləndirilir.

4. S ənayedə investisiya və innovasiya siyasəti

Əmtəə-texnoloji ixtisaslaşma istehsalın mövcud texnologiyası əsasında formalaşır. Bu zaman elmi-texniki, patent, lisenziya səviyyəsi nəzərə alınmalıdır ki, rəqabət qabiliyyətli məhsul istehsal edilsin. Bununla bərabər sənayedə əmtəə-texnoloji ixtisaslaşmaya investisiya imkanları, təbii resurslarla təmin olunma və ekoloji tələblərdə güclü təsir göstərir.

Sənaye kompleksinin texnoloji ixtisaslaşması ilk növbədə sahə strukturunda öz əksini tapır. Bazar şəraitində o, müəyyən növ məhsul buraxılışı üçün istiqamətlənmiş texniki bazanın mövcudluğuna əsaslanır və bütün mülkiyyət formalarında istehsal, biznes-plan və investisiya proqramı əsasında yerinə yetirilir.

Dövlətin sənaye siyasətinin investisiya proqramı[1], orta müddətli sahə proqnozu və texniki inkişaf proqramı əsasında da tərtib oluna bilər. Bu proqramlarda sənaye müəssisələri üçün istehsalın yüksək effektiviliyi və uyğun bazarda özü üçün möhkəm yer tuta biləcək məhsulların istehsalı üzrə tədbirlər də əks olunmalıdır. Bununla belə sahə proqramları müəssisələrə öz texnoloji siyasətlərini formalaşdırmaq üçün informasiya rolunu oynayırlar.

Bu proqramlar dövlətin investisiya – innovasiya siyasətinin sahələr üzrə həyata keçirilməsinin tənzim olunması aləti olub, bazar şəraitində dəqiq müəyyən olunmuş müəssisələr üzrə reallaşdırılır. Əgər bu reallaşma dövlətin iştirakı ilə baş verirsə, bu zaman o, iqtisadi mexanizmlər vasitəsilə həyata keçirilir.

[1] Под отраслью понимается совокупность самостоятельных товаропроизводителей любой формы собственности, обьединенных общностью производимых товаров и базовых технологий. – Прим авт.

Müəssisələrin investisiyalaşdırılması proqramında, yeni texnoloji tərzə keçidin təmini, keyfiyyətli texniki dəyişikliklər nəzərdə tutulmalıdır. Bu tələblər sənaye müəssisələrinin dövlət tərəfindən dəstəklənməsi tədbirləri həyata keçirildiyi zamanda irəli sürülə bilər. Əmtəə bazarında effektli fəaliyyət göstərən kommersiya müəssisələrin proteksionist tədbirlərə ehtiyacları olmur. Onlar öz investisiyaları hesabına bazar tələbatına uyğun texniki səviyyəni saxlayırlar. Qeyd olunan dövlət tədbirləri onlara aid edilmir.

Sənayedə investisiya – innovasiya siyasətinə dövlətin investisiya siyasətinin əsas hissəsi kimi baxılır. O, dövlətin investisiya proqramı vasitəsilə reallaşdırılır və sənaye müəssisələrinin, sahələrin proqramlarının inteqrallaşmış məcmu kimi çıxış edir[1]. Bu proqramlar, dövlət büdcəsinin formalaşması üçün keyfiyyətli və zəmanətli olan, elm tutumlu əmtəə ixtisaslaşmasını təmin edən, stabil həcmə malik olan yüksək keyfiyyətli məhsul istehsalını şərtləndirir. Belə sahəvi investisiya proqramları kompleksi. İstehsalın texnoloji səviyyəsinin yüksəldilməsini nəzərdə tutmalıdır.

İnvestisiya – innovasiya siyasəti, sənaye müəssisələrinin maddi – texniki bazasının inkişafı və son sosial-iqtisadi məqsədlər üçün texniki silahlanmanın yüksəldilməsi əsasında qurulur.

Dövlətin sənaye siyasətinin tərkibində əmtəə-texnoloji ixtisaslaşma üçün effektli investisiya siyasətinin həyata keçirilməsi müəyyən tədbirlər tələb edir. İlk növbədə müəssisənin investisiya proqramının seçilməsi, sosial-iqtisadi və texnoloji qiymətləndirilməsinin məqsədi müəyyən edilir və həmin tədbirlərin kreditləşməsi mexanizmi hazırlanır.

Zəruri olan məsələlərdən biri də investisiya proqrammlarının maliyyələşdirilməsi üçün müxtəlif investorların cəlb olunmasıdır.

İnvestisiya proqramlarının yerinə yetirilməsinə nəzarət edilməlidir.

[1] Макромаркетинг в развитии экономики России. М.: Изд-во РАГС. 2002.

Dövlət investisiya proqramlarının, müqavilələrinin pozulması hallarını aradan qaldırmaq üçün hüquqi baza yaradılmalı, normativ aktlar qəbul edilməlidir.

5. S ənayenin dəstəklənməsinin dövlət tədbirləri

Rusiya Hökümətində sənayenin inkişafına şəraitin yaradılmasına iqtisadiyyatın birinci dərəcəli problemi kimi baxılır. Sənayenin tənəzülü dövründə bu problemin həlli üçün müvafiq qanunverici tədbirlər sistemi hazırlanması və qəbul edilməlidir. Bu sistemdə ümumi və məqsədli tədbirlər seçilməlidir. Ümumi tədbirlər müəyyən şərtləri yerinə yetirərək sənaye müəssisələrinə xidmət edirlər. Məqsədli tədbirlər, fərdi qaydada daxili tələbatı ödəyən ayrı-ayrı əmtəə istehsalçılarına və ya dövlətin dəstəyi ilə aktiv maliyyə-təsərrüfat fəaliyyətini bərpa etməyə qadir olan iri iqtisadi subektlərə aiddir.

Sənaye müəssisələrinin dəstəklənməsində ümumi tədbirlər prioritet mahiyyətə malikdirlər. Onlar daima diqqət mərkəzində olmalıdır. Belə tədbirlərin bir neçə qrupunu qeyd etmək olar.

1. Vergi sistemi vastəsilə sənayenin inkişafının iqtisadi stimullaşdırılması mexanizminin tərtib olunması. Bu müəyyən hallarda, gəlir və əlavə dəyərin vergiyə cəlb olunmadan tamamilə azad olunmasını nəzərdə tutur.

Birincisi, konkret bir dövrdə sənayenin canlandırılması və ixracın artırılması hesabına məhsul satışının artırılmış həcmindən vergilər tutulmur. Bu tədbir satış bazarına aktiv təsir göstərən və böhrandan çıxan müəssisələrə maliyyə yardımının göstərilməsi məqsədini daşıyır. Yeni dövrdə, ildə satılan məhsulun yenidən artırılmasıda vergiyə cəlb olunmur.

İkincisi məhsul keyfiyyətinin yüksəldilməsi və xərclərin azaldılması hesabına alınan əlavə gəlir vergiyə cəlb olunmur. Bu tədbir məhsul buraxılışı növünün çoxaldılmasının stimul-

laşdırılması, istehsalın maddi texniki bazasının yüksəldilməsi məqsədini güdür. Bu tədbir cari hesabat dövründə tətbiq edilir.

Üçüncüsü, daşınmaz əmlakın rəqabət qabiliyyətli məhsul istehsalında iştirak edən hissəsi vergidən azad edilir.

2. Amortizasiya fondunun məqsədli istifadəsi üzərində nəzarət. Amortizasiya fondundan öz məqsədinə istifadə olunması üzərində vergi-yoxlayıcı nəzarət olması vacibdir. Əgər amortizasiya öz təyinatına istifadə olunmursa, onun o, hissəsi istehsal xərci hesab edilərək, gəlir kimi nəzərə alınaraq vergiyə cəlb olunur.

3. Müəssisənin öz investisiyasının stimullaşdırılması. Vergidən azad edilmiş mənfəət artımının innovasiya və investisiyaya məqsədyönlü istifadə olunduğu halda yuxarıda qeyd olunan (1 və 2-də) tədbirlər tətbiq edilir. Bu güzəştlərə malik olan müəssisələr, vergi-kredit mexanizminin mövcud fəaliyyəti ilə nəzarət edilən investisiya proqramı hazırlamalıdırlır. Bu zaman yerli və fedaral büdcələrin gəlirlərinin elmi texniki tərəqqinin və layihə işlərinin yerinə yetirilməsi, texnikanın alınması üçün sərf olunan hissəsi vergidən azad edilir. Bu tədbirlər investisiya proqramı və onun yerinə yetirilməsinə vergi nəzarəti olduğu halda tətbiq edilir. Göstərilən güzəştlər təsərrüfat fəaliyyəti nəticəsinə və ilkin şərtlərə əməl edən bütün məüssisələrə şamil edilir.

4. Sənaye müəssisələri üçün uzun müddətli investisiya kreditlərinin verilməsi şərtlərinin dəyişdirilməsi. Bank sisteminin kommersiyalaşdırılması onların prioritetliyinə səbəb olmuşdur. Onlar praktiki olaraq, yüksək faizi qısa müddətli qiymətli kağızların və istiqrazların mərkəzləşdirilmiş alver bazarlarından imtina etmişlər. Bu stavkalar müqayisəli maliyyə stabilliyi dövründə banklar arası stavkadan yüksək olaraq 20 %-dən aşağı enməmişlər. Müxtəlif mənbələrə görə kommersiya banklarının istehsal investisiyaları üçün stavkaları 1-3% hududundadırlar. Müəssisəyə uyğun gələn şərtlərlə sənaye investisiya kreditlərinin verilməsinin kommersiya sisteminin yaradılması zəruridir. Həmçinin istehsal investisiyalarının stimullaşdırılmasınını maliyyə tədbirlərinin görünməsi imkanlarınada baxılmalıdır. Mərkəzi bank, kommersiya banklarının istehsal investisiyaları üçün banklar arası kreditlərə, elə stavka qoymaladır

ki, istehsal insestisiyaları heç olmasa aşağı rentabelliyə də olsa malik olsunlar. İstehsal investisiyalarının nəticəsindən, kommersiya banklarının gəlirlərinində vergidən azad edilməsi zəruridir. Mərkəzi bankın aşağı faizlə xarici ölkələrdə saxladığı ehtiyatlar hesabına sənayenin investisiyalalaşdırılması sisteminin yaradılması da lazımdır. Bu tədbirlər istehsalın dəstəklənməsi üçün əlverişli investisiya-innovasiya mühitinin yaradılmasına səbəb olacaqdır. Hərçənd bu tədbirlər Rusiyanın maliyyə sisteminə bir az ağırlıq sala bilər, lakin bununla belə sənayenin inkişafına və multiplikativ effek alınması imkanlarını genişləndirəcəklər.

5. Sənayenin gələcək strukturunu formalaşdıran, sosial-iqtisadi mahiyyətə malik olan elm tutumlu sahələrin birbaşa dövlət tərəfindən investisiyalaşdırılması da inkişaf etdirilməlidir. Dövlətin investisiya proqramlarının büdcədən qeyri - şərtsiz tam maliyələşdirilməsinə də baxılmalıdır. Bu məqsədlə büdcə kreditlərindən geniş istifadə olunmalıdır.

Konkret əmtəə istehsalçılarına differensial yanaşmada tətbiq olunan tədbirlərdən daha çox borcların rekonstruksiyası və sənaye müəssisələrinin dövriyyə fondlarının doldurulması əhəmiyyətə malikdir. İş bundadır ki, 1990-cı ildən başlayaraq Rusiya sənayesində dövriyyə fondları 8-9 dəfə, 1998-ci ildə isə 2 dəfə azalmışdır. Dövriyyə fondları kreditin alınması şərtlərinin yaxşılaşdırılması və digər mənbəylərin hesabına artırıla bilər.

Dövlətin investisiya proqramının tərkibinə daxil olan, məüssisələrin investisiya proqramlarının yerinə yetirilməsi, güzəştli investisiya və kreditlərlə stimullaşdırılmasıda zəruridir. Dövlət həmçinin Rusiya və xarici investorların əmanətlərinin konkret istehsal sahəsində saxlanılmasına zəmanət verməlidir.

Bu tədbirlər, istehsalın canlandırılmasına və uyğun bazara çıxmağa real imkanı olan müəssisələr üçün tətbiq oluna bilər. Bunun üçün onlar, sənaye nazirliyi və elmi-texniki komitə qarşısışda öz biznes planlarını müdafiyə etməlidirlər. Belə müəssisələr üçün, istehsal və investisiya-innovasiya fəaliyyəti üzrə vergi stimullaşdırılması sxemi tərtib edilməlidir. Bu vergi stimullaşdırılmasında onlara enerji və su haqlarının ödənilmə-

sində əlavə vaxt verilməsi nəzərdə tutulur. Belə əlavə tədiyə müddətləri vergi krediti və vergi tətili formasında qeyd oluna bilər. Prinsipcə əmtəənin zəncirvari texnoloji hərəkəti üzrə qarşılıqlı ödəmələr üzrə tədbirlərin effektli olması da kifayət edə bilər. Bu zaman nəticədə kredit borcu olan müəsisələr daha çox ziyan çəkə bilər. Bu isə onların tədiyyə qabiliyyətsizliyini artıra bilər ki, bu zaman onlara iqtisadi sanksiyalar tətbiq edilir. Belə nağdsız hesablaşmalar bazarla ziddiyyətdə olmur. Debitor borcu olan müəssisələr isə öz maliyyə vəziyyətlərini yaxşılaşdıra bilərlər. Fərdi vergi güzəştləri, tədiyə vaxtının uzaldılması və sair tədbirlər müəssisələrə seçmə yolu ilə maarketinq təhlili aparıldıqdan sonra verilir, həmdə həmin müəssisələr investisiya proqramında öz və saitləri hesabına heç olmasa 40 %-ə qədər iştirak etmiş olsunlar.

Suallar və tapşırıqlar

1. Regionun məhsul ixtisaslaşması Rusiyanın sənaye siyasətinin formalaşmasının mütləq şərti ola bilərmi?
2. Sənaye siyasətinin hansı müddətə tərtib olunması məqsədə uyğundur?
3. Bazar şəraitində dövlətin sənaye siyasətinin iqtisadi əsası nədir: a) müəssisənin səmərəliliyi; b) regionların səmərəliliyi; c)dövlətin səmərəliliyi.
4. Sənaye siyasətinin əsas iqtisadi nəticələri nədə ifadə olunur: a) müəssisənin gəlirində; b) büdcəyə ödəmələrdə; c)satış həcminin artmasında; ç) ixracın artmasında.
5. Sənaye siyasəti sərbəst fəaliyyət sistem ola bilərmi?
6. Federasiya subyektləri sərbəst sənaye siyasəti aparmaq imkanına malikdirlərmi?
7. Sənaye müəssisəsi üçün daha əhəmiyyətli olan investisiya mənbələrini sadalayın: a) müəssisənin öz vəsaiti; b) kommersiya krediti; c) dövlət investisiyası; ç) xarici investisiya.
8. İstehlak məhsulları istehsalının yüksəldilməsini stimullaşdıran iqtisadi tədbirlərdən hansı daha əhəmiyyətlidir: a) gəlirə vergi stavkasının azaldılması; b) əhalinin həyat səviyyəsinin

yüksəldilməsi; c) istehsal investisiyası gəlirinin vergidən azad edilməsi; ç) satış həcminin artımının vergilərlə stimullaşdırılması?

9. Gəlirdən verginin 5% azaldılması sənayenin inkişafına təsir edə bilərmi?

10. İstehsalın texnoloji inkişafının maliyyələşdirilməsinin əsas mənbələrini göstərin.

a) xüsusi investisiya; b) kommersiya krediti; c) amortizasiya fondu; ç) hazırda belə mənbə yoxdur.

© Архвнгелский В.Н. 2002

XXVI Fəsil

AQRAR SƏNAYE KOMPLEKSİNDƏ DAVAMLI TƏKRAR İSTEHSALIN TƏMİN EDİLMƏSİ

1.Rusiyanın aqrar-sənaye kompleksinin müasir vəziyyəti

Aqrar sənaye kompleksi (ASK) kənd təsərrüfatı xamalından son məhsulun təkrar istehsalını bilavasitə təmin edən qarşılıqlı əlaqəli sahələrin məcmusudur. Onun dinamik davamlı inkişafı, tam şəkildə həm ASK-də və həm də onun hər bir strukturunda və xüsusilə onun aparıcı (əsas) sahəsi-kənd təsərrüfatında dayanıqlı təkrar istehsalının əldə olması zamanı təmin edilir. Onun əsas funksional sferalarına K/T-da fond yaradan sahələri, eləcə də məhsulların emalı, saxlanılması və reallaşması aiddir.

ASK-də davamlı təkrar istehsalın metodoloji mahiyyətinin müəyyən edilməsini üzvü sistemlərin təkrar istehsalı nəzəriyyəsi verir və bu mürəkkəb sosial-iqtisadi və biotexniki sistemdə təkrar istiehsalın spesifikliyi təmin edir. Bü cür yanaşmadan istifadə edərək belə təsdiq etmək olar ki, ASK-də təkrar istehsalın dayanıqlığı - verilmiş təkrar istehsal subyektlərinin ASK-da təkrar istehsal amilləri arasında dinamik və rasional proporsionallığının və onun mövcud qeyri-müəyyənlik şəraitində inkişafının zəruri templərinin fasiləsiz olaraq saxla-

nılmasını təmin etmək qabiliyyətidir. Bu cür dayanıqlığın məqsədi əhalinin k/t xammalından istehhsal edilmiş yeyinti məhsuldlarına və xalq istehlakı mallarına tələbatlarının daima ödənilməsidir.

Davamlı bu cür başa düşülməsindən, aydındır ki, ona ancaq o vaxt nail olunur ki, ASK-nın təkrar istehsal sistemində daxili və xarici (sapmalar) haqqında vaxtı-vıaxtında xəbərdarlıqlar edilir, sondürülür qarşısı alınır və hətta verilmiş sistemin inkişafı maraqlarında istifadə edilir. ASK təkrar istehsalın davamlığı bir çox amillərlə şərtlənir.

Birinci yerə istehsalın təbii-iqlimi amillərinin funksiyalaşmasının pritmliyinin maksimal uçotunu qoymaq lazımdır. Təkrar istehsal prosesinə təbii-iqlimi amillərinin təsirinin gözlənilməz dəyişiklikləri, istehsalın texnologiya və təşkilində k/t istehsalının yerləşdirilməsində və ixtisaslaşmasında, resurslarla və texnologiyalarla manevrlərdə müvafiq dəyişiklikləri tələb edir. Bütün risklər sistemi də ciddi şəkildə nəzərə alınmalıdır. Bu zaman elə risk menecmenti lazımdır ki, təkrar istehsal proseslərinə risklər məcmusunun əlverişsiz təsirini söndürməyə, xəbərdar etməyə, azaltmağa və yüksək səviyyəli sahibkarlıq gəlirinin əldə edilməsi şansını yüksəltməyə imkan verir.

Daha sonra, tələb və təklifin konyuktur tərəddüdlərini, bazarda qiymətlərin operativ şəkildə uçota almaq, eləcə də mülkiyyət münasibətləri və real, səmərəli mülkiyyətçilər, dayanıqlı şəkildə və təkrar istehsal olunması vacibdir. ASK-da təsərrüfatçılığın bazar mexanizminin bütün elementləri, təkrar istehsalın optimal proporsionallığının zəruri, dayanıqlı templərinin sabit saxlanılmasına meyllənməlidir. Bunun üçün ASK-da sahibkarlığın və biznesin zəmanətli dövlət tənzimlənməsi və saxlanılması qarışıq iqtisadiyyata keçiddə təkrar istehsalın iqtisadi mexanizm aparıcı sisteminin olması vacibdir. ASK-in davamlı inkişafının vacib şərti maddit-material ehtiyat fondlarının səmərəli sisteminin olmasıdır. Nəhayət ASK-da dayanıqlı fəaliyyətinin dövlət tənzimlənməsi sistemində sosial meyllər ciddi şəkildə gözlənilməlidir.

ASK-da təkrar istehsalın davamlığı, ASK-nın son məhsulunun məcmu resursları və məcmu tələbbatları arasında daima mövcud olan dinamik, rasional proporsionallıqla xarakterizə edilir. ASK-da təkrar istehsalın dayanıqlığının yüksək səviyyəsinə, onun iqtisadi artım və inkişafının optimal templəri təmin edildiyi vaxt nail olunur. ASK-da təkrar istehsalın dayanıqlığının aşağı həddi ASK-da məhsuldar qüvvələrin deqradasiya edildiyi vaxt, resurslar və tələbatlar arasında fərqlərin başlandığı haldır.

Təkrar istehsalın davamlığını itqtisadi inkişafın sabitliyilə qarışdırmaq olmaz. Təkrar istehsalın sabitliyi istehsal həcminin dəyişməməzliyində təzahür edilir. ASK-da təkrar istehsalın davamlığı isə ASK-da keyfiyyət halının dinamik inkişaf edən sosial-iqtisadi və biotexnika-texnoloji sistem kimi fəliyyətdədir. Bu sistemdə zəruri resurslar və zəruri tələbatlar arasında, istehsal amilləri arasında, kompleksin bütün struktur elementləri arasında rasional kombinasiya pozulmur. Buna görə də ASK-nın inkişaf problemini həll edərək ASK-nın inkişafının sabitliyi doktrinasından çıxış etmək olmaz. Başlıcası ASK-nın dərin aqrar böhrandan, onun dayanıqlı iqtisadi artım və inkişaf yoluna çıxması konsepsiyasının olmasıdır. Bu konsepsiyada üstü mövqe tutan ASK-da davamlı inkişafının iqtisadi mexanizmidir. Bu sahibkarlıq tipinin, dayanıqlı təkrar istehsalının təşkilatı-iqtisadi forma, metod və alətlər sisteminin köməyilə təşkil etmə üsuludur. Bu cür mexanizminin fəaliyyətinin məqsədi kimi, ölkə əhalisinin ərzaq məhsullarına tələbatının, şəxsiyyətin normal fiziki inkişafı və əhalinin geniş təkrar istehsalı üçün kifayət edən həcmdə, keyfiyyətdə, çeşiddə, sənayenin isə – k/t xammalına olan tələbatının zəmanətli təmin edilməsi çıxış edir. Beynəlxalq təcrübə və yeni iqtisadi siyasət (NGP) dövrünün vətən təcrübəsi göstərdiyi kimi bu cür mexanizm özünə üzvü qarşılılıq əlaqəli iki blok daxil edir.

1) ASK-nın bütün səviyyələrində təkrar istehsalın bazar – rəqabət özünütəşkiletmə mexanizmi; 2) ASK-nın davamlı inkişafının dövlət tənzimlənməsi və saxlanılması və dəstəklənməsi sistemi. ASK-nın dövlət tənzimlənməsinin və dəstəklənməsinin

vacibliyinin spesifikliyi, ASK-nın tərkibinə daxil olan sahələr sisteminin xüsusiyyətlərilə onlarda məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişaf səviyyəsilə o cümlədən kənd təsərrüfatı məhsullarının təkrar istehsalı bazarının özünü tənzimləmə mexanizmi ilə müəyyən edilir.

ASK çoxlu sahələrin inteqrallaşmış mürəkkəb sosial-iqtisadi sistemdir. Bu sistem özündə müxtəlilif mülkiyyətli müəssisələri, təşkilatları, aqrofirmaları birləşdirir. Onların hər biri müxtəlif tələbata və maraqlara malikdirlər. ASK həm də mürəkkəb biotexnoloji sistemdir. Onun tərkib hissəsi olan kənd təsərrüfatı təbii mənşəyə malik olan istehsal vasitələrindən, torpaq, bitki, heyvan orqanizmi, su, istilik, işıq və s. istifadə edir. Buna görədə təkrar istehsal prosesində, sosial-iqtisadi və təbii proeslər üzvü surətdə çulğalaşır.

ASK-da iqtisadi sistem özündə ardıcıl əlaqədə olan elementləri mərhələləri-həlqələri birləşdirir. Hər bir mərhələ vahid aqrar sənaye təkrar istehsalı prosesində özünə məxsus müəyyən funksiyanı yerinə yetirir. Bunla əlaqədar hər bir mərhələ-həlqə özündən əvvəlki mərhələnin məhsulunun istehlakçısı kimi çıxış edir.

Bu həlqələrin həcm və strukturu bir-birlərinə müvafiq (uyğun) olmalıdır. Bu zaman hər bir sonrakı həlqənin rasional fəaliyyətinin vacibliyi artır. ASK-ın təsərrüfat mexanizmi hər bir həlqənin subyektlərinin bütün təkrar istehsal və fəaliyyətinin, ASK-nın son, məhsulunun təkrar istehsalına, ictimai-zəruri xərclərlə və son məhsulun istehsalı naminə hər bir sahənin və həlqənin son məqsədlərinin maksimumlaşdırılmasına – dayanıqlı əsaslanması funksiyasını yerinə yetirir.

Onun qeyd edək ki, ASK-nın qeyd olunan xüsusiyyətlərinin nəzərə alınması ilə bazarın əsas komponentləri hətta inkişaf etmiş bazar şəraitində ASK-nın operativ özünütənzimlənməsini və səmərəli inkişafını təmin etməyə qadir deyildir. İqtisadiyyatın digər komplekslərində təkrar istehsalın özünü tənzimlənməsinin etibarlılığına əhalinin gəlir və tələbi, qiymət və tələbi, əmtəələrin qiymət və təklifi arasında yüksək elastikliyininin mövcud olması sayəsində nail olunur. Ərzaq məhsul-

larının təkrar istehsalı zamanı bazar özünütəşkiletmə komponentlərinin dinamikası arasında elastiklik səviyyəsi çox olmalıdır. Belə ki, əhalinin gəlirlərinin artımı və yeyinti məhsullarına qiymətlərin aşağı düşməsi tədiyyə qabiliyyətli tələbin avtomatik yüksəldilməsini doğurmur. Elə bu dəqiqliklə də qiymətlərin artımı ərzaq məhsullarının təklifinin yubanmadan artımını doğurmur.

Bundan başqa ASK-nin kənd təsərrüfatı kimi aparıcı sahəsində istehsal daha riskli olur, eləcə də daha kapitaltutumlu və enercitutumlu sahələrdən biri kimi çıxış edir. Bununla bağlı olaraq bu sahə sahibkarlar və investorlar üçün daha az cəlb edicidir. Buraya xalq təsərrüfatının digər sahə və sferalarından xüsusi kapitalın özü-özünə axıb gəlməsi çox çətinləşib.

Buna görə də ASK-nin davamlı inkişafının saxlanılması, dəstəklənməsi və dövlət tənzimlənməsi bazar iqtisadiyyatının obyektiv qanunauyğunluğuna çevrilib. Özünütənzimlənmənin bazar mexanizmi təkcə ASK çərçivəsində və nəinki geniş təkrar istehsalı və hətta sadə təkrar istehsalı təmin edə bilməz. Bu qanunauyğunluğu bazar münasibətlərinmin daha tam inkişafını tapmış ölkələrdə yaxşı dərk ediblər və hərtərəfli nəzərə alıblar. Xüsusi halda bu haqda aşağıdakı məlumatlara əsasən fikir söyləmək olar. İnkişaf etmiş və Rusiyada 90-cı illərdə k/t dotasiyaların həcmi aşağıdakı kimi idi: 1 hektar əkin sahəsinə 123 dollardan (Kanada), 1790 dollara qədər (Finlandiya), Rusiyada 22,5 dollar təşkil etmişdir, k/t istehsalçılarının öz məhsullarını reallaşdırdıqları qiymətlərə isə dotasiya faizlə belə olmuşdur: 35% (Kanada) – 72%- (Finlandiyada), Rusiya – 4%.

Rusiyada ASK-nın dovlət tənzimlənməsinə və davamlı inkişafının saxlanılmasına (dəstəklənməsinə) zərurət, bu gün inkişaf etmiş ölkələrindəkinə nisbət daha əhəmiyyətli dərəcədə yüksəkdir. Bu təbii-iqlimi, maddi-texniki, iqtisadi, sosial, tarixi və digər amillərdə şərtlənib. Rusiyada k/t təkrar istehsal üçün təbii iqlimi potensial ABŞ, Kanada AB- dəkindən 2,5-3 dəfə pisdir. Təbii-iqlimi riski Rusiyanın aqrar sektoruna dünyanın inkişaf etmiş ölkələrinin çoxuna nisbətən daha çox ziyan vurur.

Rusiyanın k/t-da istehsalın texniki təchizatı dünyanın aparıcı ölkələrindən 4,0-20 dəfə geri qalır. Büununla bağlı olaraq Rusiyada son illərdə traktorlara ağırlıq yükü 122 hektar düşür ki, bu da ABŞ-dan 4,4 dəfə, Fransadan 10,2 və Almaniyadan 15,3 dəfə yüksəkdir. Rusiyada taxıl yığan kombaynlara düşən texnoloji ağırlıq, yükü də əhəmiyyətli dərəcədə yüksəkdir. Belə ki, 1000 hektar yığım sahəsinə Rusiyada olan kombaynlar ABŞ və Fransadakından 3,8 və Almaniyadakından 5 dəfə azdır. Bu zaman onu da nəzərə almaq lazımdır ki, Rusiyada k/t texnikasının məhsuldarlığı və keyfiyyəti çox aşağıdır.

Buna onu da əlavə etmək lazımdır ki, Rusiyada k/t texnikasının istehsal səviyyəsi güclü şəkildə ixtisar olunmuşdur. Beləliklə, dövlətin ASK-ya qəti həlledici və real dönümü olmadan, onun fondyaradan sferasının onun dayanıqlı inkişafını təmin edə bilən maddi-texniki bazasını yarada bilməz. Belə nəticə həm də onunla təsdiq edilir ki, traktor və k/t maşınqayırması sahələri nəzərə çarpacaq dərəcədə özünün kelmi və istehsal potensialını itiriblər. İslahatlar gedişində ASK-nın ikinci sferası üçün istehsal vasitələrinə və onun yekun məhsuluna qiymətlərdə böyük disparitet əmələ gəlmişdir. Bu inflyasiyanın yüksək səviyyəsinin, k/t əmtəə istehsalçılarının qeyri-tədiyə qabiliyyətliyilə bağlı fondyaradan sferaların məhsullarına tədiyyə qabiliyyətli tələbin itkisinin nəticəsidir. Bunların da nəticələri kimi ASK-nın bu sferasının müəssisələrindən 50%-dən çoxu özlərinin (xüsusi) mənbələrinin hesabına istehsalı zəruri ölçüyə qədər artıra bilmirlər.

Rusiyada inkişaf etmiş ölkələrdən fərqli olaraq k/t-ı təkmil (xalis) rəqabət paramertlərinə ən çox yaxın bir sahədir. Onun müəssisələri istehsal vasitələrinin inhisarçılardan alırlar və öz məhsullarını da inhisarlara satırlar (emal sənayesi müəssisələri, topdansatış ticarət), saxlamaq üçündə inhisarlara təhvil verirlər. K/T istehsalçılarının inhisarçılar tərəfindən tam əhatəyə alınması onların maliyyə vəziyyətini qadağan olunmuş həddə qədər pisləndirir.

Kənd üçün istehsal vasitələrinə və k/t məhsullarına qiymət dispariteti 1990-1997-ci illər ərzində k/t əmtəə istehsalının 200 milyard rub. itkisinə gətirib çıxartmışdı. Bu həm də həmin illərdə istehsalın 35-40 % ixtisarı ilə məhsulun haqqının vaxtlı-vaxtında ödənilməməsilə, kreditə görə yüksək faizlə və dövlət tərəfindən daxil olan cuzü dotasiya ilə, eləcə də digər səbəblərə görə ona gətirib çıxardı ki, k/t nəinki təkcə geniş təkrar istehsal üçün, həm də sadə təkrar istehsal üçün heç bir mənbəyə malik deyildir. O, bu gün təkcə nəinki torpağın münbütliyinin bərpasını təmin edə bilmir, həm də onun deqradasiyası prosesini dayandarı bilmək iqtidarında deyildir. Onu demək kifayətdir ki, mineral kübrələrin istehsalı və heyvandarlıq azalmışdır. Eyni zamanda mineral kübrələrin geniş bahalanması baş verdi. Nəticədə üzvü kübrələrin tətbiqi üç dəfədən çox, mineral gübrələrin tətbiqi isə 10 dəfədən çox azalmışdı. Üzvü kübrələrlə torpaq normanın ancaq 15%-i qədər, mineral gübrələrlə isə 9% təmin olunmuşdur. Ölkənin ayrı-ayrı regionlarında vəziyyət daha fəlakətlidir.

ASK-nın üçüncü sferasında vəziyyət daha acınacaqlıdır. Ət, süd məhsullarının, heyvan mənşəli yağların və dərin emallı olan digər yeyinti məhsullarının istehsalı k/t-ın özünə nisbətən daha əhəmiyyətli dərəcədə azalmışdır. Əgər Rusiyda, reallaşan məhsulun 30 % emal edilirsə, bu inkişaf etmiş ölkələrdə isə 90%-dən çox. Həm də bu ölkələrdə eyni bir miqdarda k/t xammalından 7 dəfədən çox son məhsul əldə edirlər.

Yeyinti və emaledici sənayenin maddi-texniki bazası hələ islahata qədərki dövrdə qeyri-məqbul vəziyyətdə idi. Bu sahələrin istehsal fondlarının 80%-ə qədəri rekonstruksiya və yeni texnika ilə təmin olunmasını tələb edirdi. İslahat illərində ASK-nin bu sahəsinin müəssisələrinin maddi-texniki bazası nəzərə çarparaq dərəcədə pisləşmişdi.

Gördüyümüz kimi, Rusiyada ASK-nın heç bir sferası özü-özlüyündə təbii bazarın təsiri altında dayanıqlı inkişaf yoluna keçə bilmək iqtidarına malik deyildir. Onu da nəzərə almaq vacibdir ki, inkişaf etmiş ölkələrdə ASK, özünütənzimlənmə mexanizmi yaxşı işlənilib-hazırlanmış və fəaliyyət

göstərir. Rusiyada isə bazar münasibətlərinin ağrılı qurulması dövrünü keçir. Bütün qeyd olunanlar belə bir nəticəyə gətirib çıxarır ki, ASK-nın təkrar istehsalın və dayanıqlı inkişafının məcburi dövlət tənzimlənməsi və saxlanılması - dəstəklənməsi zəruri və vacibdir. Rusiyada bazar münasibətlərinin formalaşması şəraitində inkişaf etmiş ölkələrlə müqayisədə bu tələbat çox yüksəkdir. Bu Rusiya sosiumunun kəskin problemidir, ölkənin və xalqının özünün mövcudluğunun təmim edilməsi problemidir ki, bu da ümumiyyətlə Rusiyanın taleyinin müəyyən edilməsidir.

2. ASK davamlı inkişafının dövlət tənzimlənməsi

ASK davamlı inkişafının dövlət tənzimlənməsi dövlət, tərəfindən sahibkarlıq tipinin dəyanətli təkrar istehsalçının formalaşması və inkişafı üçün əlverişli mühütün iqtisadi, təşkilati, sosial, hüquqi və siyasi təminatı sistemini bildirir. Bü cür tənzimlənmənin məqsədi əhalinin k/t xammalından istehsal olunan yeyinti məhsullarına və xalq istehlakı məhsullarına tələbatının daima ödənilməsindən ibarətdir.

ASK-da təkrar istehsal dəyanətliliyinin dövlət tənzimlənməsinin mahiyyəti onun funksiyalarında açıqlanır. Onlardan ən zərurilərini izah edək: hər şeydən əvvəlbu bazar münasibətlərinin səmərəli ixtisaslaşmış subyektlərinin – real mülkiyyətlərinin, sahibkarlarının, marketoloqların, menecerlərin, satıcıların, alıcılarının formalaşdırılması funksiyasıdır. Ərzaq (yeyinti) məhsullarına dəyanətli tələbin və onlara təklifin saxlanılması funksiyası da çox zəruridir. Buna yerli (vətən) istehsallı potensial rəqabətqabiliyyətli ərzaq məhsullarına təklif və tələbin stimullaşdırıldmasını təmin edən qiymətlər sisteminin formalaşdırılması və dəstəklənməsi yolu ilə nail olunur. Dövlət bunun ardınca torpaq, maddi-texniki resruslar, kapital, ərzaq məhsulları bazarlarının fəaliyyəti üçün infrastruktur təminatı sisteminin yaradılmasını həvəsləndirir. O, ASK subyektlərinin

bərabər şüurlu alıcılar və satıcılar timsalında dünya ərzaq bazarı sisteminə daxil edilməsini (olmasını) təmin edir. Nəhayət, dövlət tənzimlənməsi ASK-də dəyanətli təkrar istehsalının elmi və kadr təminatına kömək edir.

Dövlət ASK davamlı inkişafının tənzimlənməsi və dəstəklənməsinin bu və ya digər funksiyalarını yerinə yetirə bilər. Bu o halda mümkündür ki, tənzimləmə sistemi bir sıra əsas prinsiplərə əsaslansın.

Hər şeydən qabaq bu rasional aqrar proteksionizmidir. Onun xüsusiyyəti ondan ibarətdir ki, o kompleks şəklində reallaşır. Bu onu bildirir ki, dövlət təkcə kənd təsərrüfatında deyil, həm də ASK-ı tam şəkildə inkişafının dəyanəliyini tənzimləməklə ASK-nın digər sferalarında etibarlığı saxlamış olsun. Buna görə də dövlətin vəzifəsi ondan ibarətdir ki, təşkilati-iqtisadi, normativ-hüquqi mexanizmlər sistemi vasitəsilə innovasiya əsasda traktor və k/t maşınqayırmasının, meliorasiyanın maddi bazasının inkişafı, ASK-nin fondyaradan *sferalarının* digər sahə, və müəssisələri üçün mineral gübrələrin istehselanın bərpa edilməsinə əlverişli şərait yaratmış olsun. Bu, Rusiya Federasiyasının təbi şəraitinə və bazarına adekvat olan təsərrüfatçılıq sisteminin yaradılmasına, emal edici sənayenin və infrastrukturanın texniki-texnoloji yenidən silahlanmasına, ASK bütün sfera və sahələrinin rasional strukturunun formalaşmasına (strukturu formalaşdırmağa), torpaqların münbüt dəyanətli təkrar istehsalı qayğısına qalmasına və s. nail olmağa kan veriər. Aqrar proteksionizmi sülh şəraitində ölkənin milli təhlükəsizliyinin vacib komponenti kimi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsaslarından biridir.

İnkişaf etmiş ASK-ya malik olan ölkələr ərzaq təhlükəsizliyinin hüquqi təmin edilməsini yaradan zəruri qanunverici aktlara malikdilər. Əhalin əsas yeyinti məhsulları ilə dəynətli təmin etməyə qadir olmayan ölkələri daima idxalçılardan konyuktura asıllıdalırlar və onlar iqtisadi sərbəstliyinin itirilməsi təhlükəsi gösləyir. Sənayecə inkişaf etmiş ölkələrin çoxu müvafiq qanunlarda əks olunmuş ərzaq təhlükəsizliyinin əsaslandırılmış konsepsiyalarına malikdilər. Belə ki, Almaniyada ərzaq

təhlükəsizliyinin hüquqi əsası kimi «Kənd təsərrüfatı haqqında» qanun və sülh şəraiti üçün «Ərzaq təhlükəsizliyi haqqında» qanun çıxış edir.

Mahiyyət etibarilə ikinci proqram-məqsədli tənzimləmə və dəstəkləmə prinsipidir. Onun reallaşması Rusiyada və ümumən və onun regionlarında elmi əsaslandırılmış uzunmüddətli proqnozlar əsasında ASK-nın – dəyanətli inkişaf konsepsiyasının işlənilib hazırlanmasını tələb edir. ASK-nın dəyanətli inkişafı üçün aparıcı əhəmiyyətə malik qarşılıqlı əlaqəli proqramlar olmalıdır: «Torpağın münbütlüyünün yüksəldilməsi və dəyanətli təkrar istehsalı», «Aqarar sənaye kompleksi üçün maşınqayırma», «Ət», «Süd», «Yem», «Qənd» «Emalı edici sənayenin texniki – texnoloji yenidən təmin edilməsi», «Aqrarsənaye kompleksi subyektlərinin gəlirlərinin sığortalanması» «Rusiyada aqrarsənaye kompleksinin uzunmüddətli kompleks dəyanətli inkişaf proqrammı» və s.

ASK-nın davamlı inkişafının zəmanətli dövlət dəstəklənməsi prinsipi xüsusi rola malikdir və dövlət köməyi vasitlərinin saxlanılması və səmərəli istifadəsini nəzərdə tutur. Bu gün dövlətə kənd təsərrüfatı məhsullarına və kənd təsərrüfatının istehsal vasitələrinə, ASK-nın fondyaradan sahələri üçün istehsal vasitələrinə və sair sahələrin məhsullarına, bitkiçilik və heyvandarlıq məhsullarına qiymət paritetinin qurulması və dəyanətli saxlanılması üçün şəraitin yaradılmasına zəmanət vermək çox vacibdir. Federal və regional fondlara daxil olan ərzaq məhsullarının əsas növlərinin təyin edilmiş qiymətlərdən aşağı olmayan qiymətlərlə reallaşması, torpaqların münbütlüyünün və dəyanətli təkrar istkehsalın maliyyələşdirilməsi də zəmanətlərə ehtiyaclıdır. Bu gün antiinhisar dövlət tənzimlənməsi, ASK-nın texniki-texnoloji yenidən silahlanması üzrə innovasiya, investisiya fəaliyyətinin dəstəklənməsi, cinsi heyvanların təkrar istehsalına, elit toxumçuluğun inkişafına, biosistemin saxlanılmasına yardım edilməsi çox vacibdir. Yerli ərzaq istehsalçılarının idxal ərzaqın aqressiv rəqabətindən iqtisadi müdafiəsi də çox vacibdir. ASK-da istehsal nəticələrinin sığortalanması sisteminin səmərəli fəalimyyəti də zəruridir.

Aqrar sənaye kompleksinin zəmanətli dəstəklənməsi prinsipinin reallaşdırılması üçün, dəstəkləmə funküisyalarını yerinə yetirən dövlət orqanlarının, məmurların və qulluqçuların maraqlarına (maraqlandırmalarına) və iqtisadi nəzarət mexanizmi lazımdır.

ASK-nın davamlı inkişafının dövlət tənzimlənməsinin vacib prinsiplərindən biri də onun həyata keçirilməsinə çevik, differensial yanaşmadır. Təsərrüfatçılığın səmərəliliyindəki və mülkiyyət formalarındakı fərqləri, konkret təsərrüfatçılıq edən subyektlərin dəyanətli innovasiyonluğun və ekoloji təkrar istehsalın təmin edilməsində, istehsal olunan məhsulun potensial rəqabətqabiliyyini, sahibkarlığın inkişaf səviyyəsinin, riskliyinin, dövlət proqramının reallaşmasında iştirakının səmərəliliyinin müxtəlif əhəmiyyətliliyini nəzərə almaq lazımdır.

Dövlət tənzimlənməsinin və dəstəklənməsinin motivlilik istiqamətliliyi parinsipini də qeyd etmək lazımdır. Bu prinsipin reallaşması, kapital axınının motivləşdirilmiş mexanizminin formalaşdırılmasını, ekzogen və onlarla bağlı olan istehsalın texnoqen texnologiyaların tətbiqi, səmərrəli strukturunu və bazar infrastrukturunu tələb edir.

Aydındır ki, ASK fəaliyyətinin dəyanətliyinin yüksəldilməsi üçün həm dövlətə və həm də ölkənin sahibkarlarında az miqdarda maliyyə və maddi resurslar vardır. Bu hal, resurslardan maksimal səmərəli istifadə prinsipini xüsusi olaraq ayırmağı tələb edir. Bu prinsipi, təbiətin «bəxş etdiyi» qüvvələrdən maksimal istitfadə edilirsə, hər bir region və təsərrüfatın hər birinin təbii-iqlimi şəraitinə, işə potensial biosistemin daha tam daxil edilməsinə imkan verən təsərrüfatçılıqdan daha tam istifadə olunduğu halda reallaşdırmaq olar. ASK-nın maddi-texniki bazası, onların səmərəli tətbiqinə və biosistemin potensialının dağılmasının istehsalata innovıasiyanın maksimal tətbiqi əsasında qarşısığnın alınmasına meylini dəyişsin. Daha sonra ASK subyektlərinin sahibkarlıq qabiliyyətindən və amillərin intellektual potensialından rasional istifadə etmək vacibdir. Təsərrüfatçılıq sistemini stimullaşdırmaq, onu bazarın konstruktiv funksiyalarına adaptasiya etmək də az əhə-

miyyət kəsb etmir. Ümumən, dövlətin üzərinə, ASK-da təkrar istehsalın spesifikliyini nəzərə almaqla tənzimlənmənin daha səmərəli qarşılıqlı əlaqəli olan forma və metodlarının tətbiq etmək vəzifəsi düşür.

3.Dövlət tənzimlənməsi sisteminin formalaşdırılması

Bu gün ən mühüm məsələlərindən biri dövlət tənzimlənməsinin səmərəli forma və metodları sisteminin formalaşmasından ibarətdir. O aşağıdakı verilmiş cədvəldə əks olunmuşdur (bax cədvəl 18).

Cədvəl 18

Dövlət tənzimlənməsinin forma metodları

Formalar	M e t o d l a r
Hüquqi təminat	1. Çatışmayan qanunverici aktların qəbul edilməsi. 2. Mövcud qanunverici aktların keyfiyyətinin yaxşılaşdırılması. 3. Tam şəkilli Qarşılıqlı əlaqəli bir-birini inkar etməyən normativ-hüquqi aktların tam sisteminin yaradılması.
Əmtəə istehsalçılarının gəlirlərinin davamlığına ma-liyyə dəstəyi	1.Məhsulun istehsalçılarının və satışın kvotalaşırılması. 2.Dotasiya və kompensasiyalar. 3.Zəmanətli minimal qiymət, girov qiymətlərin tətbiqi. 4.Güzəştli, elmi-əsaslandırılmış kreditləşmə və vergiyə cəlb etmə. 5.Sığorta 6.Federal və regional fondlara ərzaq tədarükü. 7.Əhalinin dəyanətli tədiyyə qabiliyyətli tələbinin dəstəklənməsi 8.Xarici rəqiblərin total müdaxiləsindən müdafiə. 9.Kreditlərin dövlət zəmanəti.
İnfrastruktur təminat	1.ASK-nın fəaliyyətinin dayanıqlılığının yüksəldilməsi maraqlarında işləyən infrastrukturanın yaradılması üzrə əsaslandırılmış normativ aktların qəbul edilməsi. 2.Xidmətin marketinq sisteminin yaradılması. 3.Topdan satış və pərakəndə satış bazarlar sisteminin yaradılması. 4.Əmtəə birjalarının, yarmarkaların, auksiyonları sisteminin yaradılması və.s. 5.İnvestisiyon, torpaq, kooperativ banklar sisteminin yadadılması.

Maddi texniki Dəstək	1.Lizinq mexanizminin işlənilib hazırlanması. 2.Keyfiyyətcə yeni texnikanın istehsalında və aparıcı texnologiyaların tətbiqində müəyyən hissənin maliyyələşdirilməsi. 3.Yeni texnikanın istehsalı və istifadəsində güzəştli kreditləşdirmə, vergiqoyma, sürətləndirilmiş amortizasiya. 4.Yeni texnikanın əldə edilməsi və maşın traktor parkının dəstəklənməsi.
Xarici iqtisadi fəaliyyət üzrə dəstək	1. İxraçatçı xarici bazara çıxış kimi marketinq xidməti, strateji xarici investorların, yeni avadanlıqların idxalının tapılması. 2. İdxal edilən ərzaq məhsullarına gömrük tariflərinin, kompensasiyon yığımların, vergilərin və s. köməyilə ərzaq təhlükəsizliyinin təmin edilməsi. 3.İstehsal, müştərək müəssisələr yaradılması sferasında xarici investorlar üçün əlverişli mühütün yaradılması. 4.Qabalcıl texnika və texnologiyaların idxalında xarici kreditorlar üçün dövlət zəmanəti. 5.Beynəlxalq bazara rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının ixracında dempinq siyasəti.
Elmi təminat	1.ASK mühüm problemi üzrə aparıcı elmin istiqamətlərinin maliyyələşdirilməsi. 2.Elmi kadrların təkrar istehsalına xərclərin maLiyyələşdirilməsi. 3.Dünya standartlarına cavab verən investisiya əsasında aparıcı texnologiya və texnikanın işlənilib hazırlanmasına xərclərin maliyyələşdirilməsi. 4.Elm tutumlu məhsullara sifarişlərin, texnologiyaların, texnoinkubatorların təşkil edilməsinin stimullaşdırılması yolu ilə bazarın formalaşdırılmasına dəstəyin göstərilməsi. 5.Elmi-metodik məsləhətlərin qismən maliyyələşdirilməsi. 6.Sahibkarlıq formalı subyektlərin dayanıqlı təkrar istehsalın elmi təmin edilməsində vergisiz və güzəştli qoyuluş sistemi.
ASK kadr təminatı	1.AKS-nın struktur bölmələrinin, əməkdaşlarının, menecerlərin, sahibkarlıran dövlət hazırlanması, ixtisaslarının yüksəldilməsi sisteminin hazırlanma səviyyəsinin zəruri standarlara qədər maliyyələşdirilməsi yollu ilə təşkili. 2.Dünya standartlarına müvafiq səviyyədə ASK üçün kadrların hazırlanması və ixtisasartmasını həyata keçirən xüsusi tədris ojaqlarının fəaliyyəti üçün normativ hüquqi bazasının yaradılması.

ASK-nın davamlı inkişafının təmin edilməsinə ayrılan maliyyə resurslarının bütün əhəmiyyətliyi qarşısında, Rusiya şəraitində birinci dərəcəli iş kimi dövlət tənzimlənməsinin səmərəli sisteminin formalaşmasının prioritet istiqamətlərinin müəyyən edilməsi durur. Bu istiqamətlər ASK-nın mahiyyətilə, onun dövlət tənzimlənməsinin funksiyaları və prinsiplərilə müəyyən edilir.

Bu istiqamətlərdən birincisi Rusiyada və onun regionlarında kənd təsərrüfatı istehsalının intensifikasiyasının adaptasiya edilmiş sisteminin strategiyasının işlənib hazırlanması və stimullaşdırılması hesab olunur. Onun əsas məqsədi ərazi biosisteminin dəyanətliyinindən və bioiqlim şəraitininin potensialından maksimum istifadə olunmasıdır. Bu ASK dəyanətliyinin yüksəldilməsinin ən az xərc tələb edən istiqamətdir.

Biosistem – müəyyən bölgü sferası ilə birləşmiş, özünə dəstək verən və özü-özünə, təbi yolla bəorpa olunan bitki və heyvalar məcmusudur. Əsas məsələ ondan ibarətdir ki, biosfera təkrar istehsalın təbiit sferasının dəyanətliyini təmin edən bir vahid sistem kimi saxlanılsın. Bu vəzifənin yerinə yetirilməsi təsərrüfatçılıqda bir sıra halların hərtərəfli uçotunu nəzərdə tutur.

Bu zaman hər şeydən əvvəl ərzaq məhsullarının istehsalının strukturunun, texnologiya və maddi-texniki təminatının seçimi zamanı, iqlim, meteoreoloji, torpağın və digər təbii şəraitin nəzərə alınması zəruridir. Aqrar landşaftın rasional memarlığına riayət etməyin qayğısına qalmaq, əkin, təbii landşaft, meşə sahələri arasında nisbətlərin gözlənilməsi də çox vacibdir. Ekoloji amili maksimum nəzərə alan bitkilərin yetişdirilməsinin çevik texnologiyalarının tətbiqi amili də çox böyük əhəmiyyət kəsb edir. bu torağın quraqlıq zamanı onun nəmliyinin saxlaman məqsədilə yağmurlu dövrlərdə dərin şumlamanın aparılmasını və müasir texnologiyadan istifadə edilərək suvarmanın həyata keçirilməsini mineral gübrələrin verilməsini nəzərdə tutur.

Çoxlu sayda müxtəlif bitkilərin davamlığı potensialından və enerjisindən daha tam istifadəsi problemi də xüsusi yerə malikdir. Bu, onların elə növ və çeşidlərin yaradılmasını tələb edir ki, tənzimlənməyən ekstremal şəraitə qarşı tab gətirə

bilsinlər. (quraqlıq, şaxta, turşluq, duzlanma xəstəliklər, ziyanvericilər və s. Çünkü müxtəlif bitkilər su təminatına istiyə, digər təbii şəraitə, sinxron bioloji ritmlərə, inkişaf tsiklərinə və adaptiv reaksiyalara müxtəlif formada münasibət göstərilər.

Bütün bunlar eyni bir sahədə və ya bir-birinə yaxın sahələrdə müxtəlif növ və sort bitkilərin eyni zamanda yetişdirilməsinə imkan verir, məhsuldarlığın yüksəldilməsinə xələl vermir. Beləliklə, müxtəlif regionlarda təbii şəraitə müxtəlif cür reaksiya verən ot toxumlarının, buğda toxumlarının, yem bitkilərinin, optimal kombinasiyasın seçmək mümkün olur. Bitkilərin çoxnövlüyü, biotik və adaptiv streslərə dəyanətli olan yeni növ bitkilərin və onların gibritlərinin yetişdirilməsi üçün mənbəidir. İstehsalın davamlığının, enerji tumumluğunun aşağı salınmasının potensialınından daha səmərəli istifadəyə, əkin dövriyəsində cərgələrarası həcmi və kəmiyyətinin aşağı salınması yolu ilə də nail olmaq olar. Belə ki, əgər onların əkin dövriyyəsində xüsusi çəkisi 40%-dən çoxdursa, onda dağıdıcı erroziya proseslərinin sürəti münbütyaratma proseslərini 10-100 dəfə üstələyir. Bununla bağlı olaraq bizim şəraitdə cərgələrarası əkin bitkilərinin xüsusi çəkisini azaltmaq herik şumunu artırmaq, əkinin bir hissəsini (xüsusilə erroziyalı, daha az məhsuldar) təbii otlaq sahəsinə köçürmək vacibdir. Məsələn, Kanadanın ətçilik heyvandarçılığında bütün yemlərinin 80%-ə qədəri təbii otlaqlardan əldə olunur. Heyvanların rasionunda qaba və yaşıl yemlərin payının artması kənd təsərrüfatı texnikasına və əkinçilikdə enerji tutumluğuna tələbatı ixtisar edəcək, otbiçimi və otlaqların məhsuldarlıqlarının yüksəldilməsi üzrə işlərin minimumlaşdırılması zamanı yem istehsalçılarının dəyanətliyini yüksəldir. Dövlət yetişdirmə texnologiyasının, seleksiyanın, bioloji minerobioloji vasitə və metodlarının çevik kombinasiyasından və ziyanvericilərə, xəstəliklərə qarşı mühafizənin inteqrasiyasına istiqamətlənmiş tədbirlər görərsə kənd təsərrüfatı bitkilərinin məhsuldarlıqlarının potensialından daha yaxşı istifadə oluna bilər. Bu halda məhsul itkisinin 30-40 % qədər azaltmaq olar, heyvandarlığın sabit məhsuldarlığının yüksəldilməsi üçün onların potensialından daha səmərəli isti-

fadə etmək olar. Bunun üçün dövlət tərəfindən konkret regionların təbii-iqlimi şəraitinə uyğunlaşmış, yemlərin mənimsənilməsinin yüksək əmsalına malik olan, hər bir regionun təbii-iqlim şərtlərinin və resurslarını maksimal utilizasiya etməyə qadir olan yüksək məhsuldarlı heyvan cinslərinin yaradılması üzrə tədbirlərə diqqətin artırılması tələb olunur.

ASK inkişafının davamlığının dövlət tənzimlənməsinin və dəstəyinin təsirinin ikinci prioritet istiqaməti – bu, onun əmtəə istehsalçılarının bazar münasibətlərinə adaptasiya edilməsi üçün şəraitin yaradılmasıdır. Bu məqsədlə Federal və regional orqanların dövlət tənzimlənməsinin iqtisadi forma, metod və rıçaqlarının bütün sistemilə ASK-nın sahibkarlıq strukturlarını yerili, regional, Milli və beynəlxalq bazarlar üçün rəqabət qabiliyyətli əmtəələrin istehsalına istiqamətləndirmək lazımdır. Dövlət bu istiqamətdə hərəkət edərək ASK təsərrüfatlarında istehsalın rasional yerləşdirilməsinə və ixtisaslaşmasına kömək etməlidir. Bunun üçün zəruridir?

Hər şeydən əvvəl regional və Federal ərzaq fondları üçün rəqabət əsasında dövlət sifarişlərinin kvotaları lazımdır. Həm də bu fondlara verilən məhsullara zəmanətli qiymətlər olmalıdır. Onun əsasında normativ maya dəyəri örtməyə, dividentləri ödəməyə, sığorta tədiyyələrini və vergiləri verməyə, istehsalın zəruri səviyyədə genişlənməsinin təmin edilməsinə, müəyyən növ ərzağın əsas hissəsini istehsal edən rayonlarda ehtiyat fondlarının yaradılmasına kifayət edən mənfəətə malik olmağa imkan verən müstəqil qiymət sistemi qurmalıdır. Bundan əlavə lizinq üzrə k/t texnikasının əldə edilməsi sistemi, yanacaq - sürtkü materialırının, elektrik enercisinin, mineral kübrələrin alışı, sığorta tədiyyələrinin ödənilməsti zamanı dotasiyalı və kompensasiyalı ödəmə sistemi də olmalıdir. Nəhayət, bazar infrastrukturunun formalaşmasında, xüsusilə informasiyon, elmi-məsləhətçi, marketinq və digər xidməğ növlərinə üstünlük verilməlidir.

Bununla belə dövlət tənzimlənməsi k/t istehsalçılarını əhatə edən inhisar qurumlarının neqativ hərəkətlərinin yatırılmasına və qarşısının alınmasına, bazar mexanizminin təsirinə məruz qala bilməyən (təsirsiz olan) ziddiyətlərin həll edilməsinə

istiqamətlənir. Bu məqsədlə əhəmiyyətli cərimələrin tutulmasını, son həddqiymətlərinin tətbiqini, müqavilə qarşılıqlı münasibətlərinin möhkəmləndirilməsini, k/t texnikasını və digər istehsal vasitələrinin təchizatını həyata keçirən müəssisələrlə, k/t xammalını emal edən müəssisələrlə müştərək səhmdar cəmiyyətlərin yaradılmasını və s. nəzərdə tutan antiinhisar qanunvericiliyindən istifadə edilir. Həm də kənd üçün qıt olan məhsullar istehsal edən yeni müəssisələrin yaradılması da vacibdir. Səmərəli kooperativ sistemlər formalaşması, xüsusilə də, kredit təchizat-satış, emaledici kooperativlər böyük əhəmiyyət kəsb edir. Onlara kommersiya strukturları ilə rəqabətə daxil olma startında dəstək verilir. Bu zaman ASK-da təkrar istehsalın spesifikliyini nəzərə almaqla ASK subyektlərinin kreditləşdirilməsini həyata keçirən kredit fondları daha yüksək nəticə verirlər.

ASK dəyanətli fəaliyyətinin dövlət tənzimlənməsinin və dəstəyinin üçüncü strateji istiqaməti – ASK-nın strukturunun təbii-iqlimi potensialına və bazar münasibətlərinə uyğunlaşmağa meylləşməiş, dayanıqlı maddi-texniki təminatı üçün şəraitin yaradılmasıdır. Buna necə nail olmaq olar?

Birincisi, ASK-nın birinci sferası müəəsisələri üçün lazımi kəmiyyətdə və keyfiyyətdə istehsal vasitələrinin buraxılışı məqsədilə təsərrüfatların adaptasiyasına şərait yaradılmalıdır. Söhbət, innovasiya ekogen texnologiyaların təmin edilməsi məqsədilə innovasion əsasda istehsal olunan ekoloji texnikadan gedir. Bunun üçün ancaq maliyyələşdilmə mənbələrini dəqiqləşdirmək lazımdır: özlərinin (xüsusi), borc, büdcə (dövlətin aktiv investisiya siyasəti qadasında). İkincisi, Dövlət ASK-ya lizinq, kooperativ əsasda MTS yaradılması vasitəsilə istehsal vasitələrinin əldə edilməsində və səmərəli istifadəsində dotasiyaların diferensiyasının, güzəştli kreditləşmənin və cəriməyə cəlb etmənin köməyilə dəstək verməlidir. Dəstəyi, innovasiyon və ekoloji əsasda rəqabətqabiliyyətli məhsulların istehsalında necə istifadə edilməsində asılı olaraq göstərmək vacibdir. Və nəhayət, ASK-da dayanıqlı təkrar istehsalın dövlət tənzimlənməsi və dəstəyi sisteminin formalaşmasının dördüncü strateji istiqaməti xüsusilə Rusiyanın regionlarında iri şaquli inteqrasiya editlmiş kooperativ strukturlar sisteminə hər tərəfli dəstəyik aiddir. Onlara səhmdar cəmiyyətləri, xoldinqləri,

maliyyə-sənaye qrupları, assosiyalar və s. formalarında yaradılan vilayət və rayon dövlət və xüsusi kooperasiyalar aiddir. Bu cür kooperasiyalar sistemi bir çox strateji vəzifələri həll etməyə imkan verirlər. Onun köməyilə həm tam şəkildə ASK-da və həm də onun müxtəlif səviyyələrində-Federal, regional, rayon səviyyələrində təkrar istehsal proseslərinin idarə edilməsi və tənzimlənməsinin bütün tam sistemi formalaşır. Son məhsulun təkrar istehsalına maliyyə, maddi və digər resursların sistemləşdirilmiş əldə etmə, bölüşdürmə və rasional istifadə etmə təmin edilir. Təsərrüfatçılıq edən subyektlərin birgə fəaliyyətlərinin yenkun nəticələrinə onların maddi maraqlarını yüksəltmək üçün, təkrar istehsalın innovasiyon tipinə tədrici keçidi həyata keçirmək, əmtəə axınlarının pul axınları ilə qarşılıqlı əlaqədə sistemləşdirmək, səmərəli federal və regional infrastruktur komplekslərini yaratmaq, ASK-nın I və III sferasının sahibkarçılıq strukturlarının kənddə olan təsərrüfatçılıq strukturlarına münasibətdə inhisarçılıq hərəkətlərinin (davranışlarının) qət edilməsi, transaksion xərclərin azaldılması (ixtisar edilməsi və s. üçün imkanlar yaranır.

Suallar və tapşırıqlar

1. ABŞ və Rusiyada ASK-da ümumi məhsulun quruluşu faiz etibarilə təxminən aşağıdakı kimidir.

ASK sferası	Ölkələr	
	Rusiya	ABŞ
1.Fondyaradıcı sahələr	10	14
2. Kənd təsərrüfatı	50	10
3.Məhsulların yenidən emalı, saxlanılması və reallaşdırılması	40	76

Öz fikrinizi əsaslandırın.

Hansı ölkədə ASK məhsulunun quruluşu daha səmərəlidir?

ASK-da təkrar istehsalın davamlılığını yüksəltmək üçün Rusiyada onu hansı istiqamətlərdə təkmilləşdirmək lazımdır?

1.Siz dövlət tənzimlənməsinin hansı prioritet istiqamətlərini təklif edərdiniz?

2. Milli bazarda mal ətinə olan tələblə qiymətin elastikliyini hesablayın. Əgər: a) il ərzində qiymət 15 rubl aşağı düşərsə bu məhsula tələbat 10%;b) qiymətin 15% artdıbı halda mal əti təklifi 5% artır. Bazar mexanizmi vasitəsilə istehsalın operativ özünütənzimlənməsini həyata keçirmək üçün hansı nəticə çıxarmaq olar?

3. Siz 100 min dollar həcmində sərbəst pul vəsaitinə maliksiniz. Öz kapitalınızı necə istifadə edərdiniz:

a) «Qazpromun», «QUM»-un, kənd təsərrüfatı məhsulu istehsal edən səhmdar cəmiyyətin səhmlərini alardınızmı?

b) Fermer təsərrüfatı yaradardınızmı? Prioritetləri ardıcıllıqla düzün və belə düzülüşün səbəblərini izah edin.

4. Dövlət hansı şəraitdə özünün maliyyə-kredit axınını ASK-ya yönəldərdi, kommersiya banklarının xidmətlərindən istifadə etməklə, onlardan istifadənin xalq təsərrüfatı səmərəlilik meyarlarını əsas tutaraq, əmtəə istehsalçıları və kommersiya banklarının maraqlarını uzlaşdırmaqla?

5. ASK-da təkrar istehsalın sığortalanmasının hansı formasına üstünlük vermək lazımdır:

a) dövlət sığortasına?

b) özəl sığorta şirkətləri vasitəsilə sığortalanmasına?

c) qarışıq sığortalanmaya?

ç) digər sığortalanma formalarına?

6. Kənd təsərrüfatı texnikasının kəskin defisiti və çətin maliyyə şəraitində aqrar birləşmələrin bütün mülkiyyət formalalrında maşın-traktor stansiyalarında tələbat yarandı. Onların yaradılmasında hansı mülkiyyət formasına üstünlük verərdiniz?

a) dövlət, xüsusi, kooperativ yaxud qarışıq?

7. Hansı ərzaq siyasətinə üstünlük verərdiniz?

a) öz istehsalı hesabına əhalinin əsas ərzaq məhsullarına olan tələbatının öz hesabına ödənilməsinə istiqamətlənməsi?

b) ixraca istiqamətlənmiş?

c) Digər istiqamətlər?

© Половинкин П.Д. 2002

XXVII Fəsil

SOSİAL SFERANIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

1. Sosial sfera: məzmunu, problemləri və ziddiyyətləri

İnsana və ailəyə birbaşa və müsbət təsir göstərən bir sıra iqtisadiyyat sahələrini və fəaliyyət növlərini, o cümlədən, dövlətin fəaliyyətini də elmi ədəbiyyatda, dövlət orqanlarının əməli fəaliyyətində sosial sferaya aid edirlər. O, insanların rifahının təmin olunması, onların inkişafı üçün şəraitin yaradılması, əhalinin müvəqqəti çətinliklər çəkdiyi dövrlərdə onun dəstəklənməsi, cəmiyyətdə sosial əmin-amanlığın bərqərar edilməsi ilə bağlıdır.

Konkret olaraq hansı sahələr və fəaliyyət növləri sosial sferada təqdim olunurlar? Buraya, ilk növbədə, sosial-mədəni kompleksin sahələri – təhsil, mədəniyyət və səhiyyə, həmçinin, elm sahəsi aiddir. Mənzil-kommunal təsərrüfatı, sərnişin nəqliyyatı, əhaliyə xidmət göstərən rabitə, pərakəndə ticarət, ictimai iaşə, məişət xidmətə və b. sahələr də bu sferada mühüm rol oynayır. Əmək münasibətləri, əhalinin məşğulluğu və miqrasiyası problemlərinin həlli, insanların sosial müdafiəsi və sosial təminatının həyata keçirilməsi kimi fəaliyyət növləri də burada mühüm yer tutur.

XX əsrin ikinci yarısında, cəmiyyətin inkişafının xüsusən aydın şəkildə nəzərə çarpan qanunauyğunluqlarından biri – sosial-mədəni xidmətlərin: təhsilin, səhiyyənin və mədəniyyətin inkişafına yönəlmiş ÜDM xərclərinin, ilk növbədə, dövlət

büdcəsindən xərclərin artmasıdır. 50-70-ci illərdə inkişaf etmiş ölkələrdə bu, cəmiyyətin inkişafının əsas məqsədini – insana layiqli həyatın təmin olunmasını əks etdirən, nəzəri əsasını ümumi rifah dövlətinin təşkil etdiyi sosial dövlətin təşəkkülündə öz təcəssümünü tapmışdır. Layiqli həyat hüququ dövlət tərəfindən zəmanətləndirilmiş və ən vacib vətəndaş hüquqlarından birinə çevrilmişdir. Vətəndaşların təhsilə, səhiyyəyə və mədəniyyətə doğru geniş imkanları açılmışdır. Lakin, digərləri kimi, cəmiyyətin inkişafının bu qanunauyğunluğu da ziddiyyətləri və ciddi maneələri dəf edərək özünə yol açır.

70-ci illərin sonu-80-ci illərin əvvəllərində baş vermiş enerji, struktur böhranları, Qərb ölkələrində istehsalın tənəzzülünə, işsizliyin artmasına, sosial-mədəni sferanın maliyyələşdirilməsi imkanlarının daralmasına, dövlət büdcələrinə vergi vəsaitlərinin mədaxilinin azalmasına gətirib çıxardı, vergilərin artırılması isə – maddi istehsal sferasında istehsalın artırılması stimullarının zəifləməsi, israfçı sosial siyasətə görə hökumətlərin tənqidə tutlması, sosial proqramlərin ixtisarı çağırışları ilə nəticələndi.

Sosial sferanın maliyyələşdirilməsində yaranmış çətinliklər alternativ maliyyə mənbələrinin axtarışını aktuallaşdırdı. Nəticədə, 80-90-cı illərdə inkişaf etmiş ölkələrdə sosial sferanın maliyyələşdirilməsinə, sosial siyasətin aparılmasına iki müxtəlif yanaşma formalaşdı. Birinci yanaşma – iqtisadiyyatda dövlətin minimal rolunun liberal (neoliberal) konsepsiyasına istinad edirdi (dövlət – gecə gözətçisi). Bu konsepsiyanın tərəfdarlarının fikrincə, dövlət, onun üzərinə düşmüş yükün öhdəsindən gəlmək iqtidarında deyil. Bu, belə əsaslandırılırdı ki, dövlətin nəzarət etdiyi sosial kompleksdə rəqabətin zəifliyindən, burada vətəndaşlar tərəfindən xidmətlərin müstəqil seçimində problemlər yaranır. Sonuncu isə sosial-mədəni kompleksin inkişafında durğunluq yaradır.

Sosial dövlətin çətinliklərini onlar, həm də, mövcud yenidən bölgü sistemi ilə izah edirlər. Onların fikrincə, bölgü təkcə «həddindən artıq» yox, həm də, səmərəsiz aparılır. Sosial dövlətin vəzifələrinin daha artıq dərəcədə özəlləşdirilməsi ilə yanaşı, məşğulluq sferasında risqin də özəlləşdirilməsi gərəkdir.

Bu, «sosial təhlükəsizlik» və «ədalət» kimi rifahların maliyyələşdirilməsi yükünü azaldar[1].

İkinci yanaşma sosial demokratiya konsepsiyasına, bazara bir əlavə kimi deyil, demokratik vətəndaş cəmiyyətinin mühüm tərkib hissəsi kimi çıxış edən sosial dövlətin qorunub saxlanmasına istinad edir. Belə yanaşmanın tərəfdarları güman edirlər ki, ictimai quruluşun əsasına yalnız iqtisadi meyarlar (dünya bazarlarında iqtisadi uğurlar, rentabellik, mənfəətin maksimallaşdırılması) qoyula bilməz. Söhbət, insanların həyat şəraitindən və perspektivlərindən, onların əməyə, təhsilə, sağlamlığının qorunmasına, mənzilə, ictimai təhlükəsizliyə olan ən vacib ehtiyaclarının ödənməsindən gedərkən, bu meyarlar rəhbər tutulmamalıdır. Sosial dövlət və azadlıq, kollektiv və fərdi maraqlar, bir-birini istisna etmir, əksinə, bir-birini şərtləndirir və tamamlayır.Sosial dövlət sayəsində, fərdi dəyərlər və azadlıq yalnız varlılara məxsus bir imtiyaz olmur[2]. Sosial dövlətin qorunması üçün, onun sadələşdirilməsindən və şəffaflığından, bürokratik maneələrin dəf edilməsindən, dövlət büdcəsindən sosial xərclərin səmərələşdirilməsi və sosial xidmətlərin səmərəliliyinin yüksəldilməsi sahəsində mövcud ehtiyatların aşkara çıxarılmasından, sosial xidmətlərlə təminatda əhalinin pay əsasları ilə iştirakının həyata keçirilməsindən ibarət olan islahatların aparılması gərəkdir.

Müasir Rusiya da sosial-mədəni sferanın, mənzil-kommunal təsərrüfatının, sosial təminatın maliyyələşdirilməsində böyük çətinliklərlə üzləşmişdir. İslahatların şok üsulları, ölkəni, bütöv 90-cı illər ərzində çıxa bilmədiyi sistemli böhranla üzləşdirmişdir. Keçid dövründə sosial sferanın vəziyyəti kəskin dərəcədə pisləşdi. Sosial-mədəni kompleks, mənzil-kommunal təsərrüfatı öz mövcudluğunu qoruyub saxlamaq həddinə

[1] Государственная служба в России и за рубежом. Социальная политика стран ЕС. Referativ bülleten №3. M.: РАГС nəşriyyatı, 1999, s.153-154.

[2] Социальная политика стран ЕС. Referativ bülleten №3. M.: РАГС nəşriyyatı, 1999, s.153-154.

çatmışdı. Əmək haqqı üzrə, xüsusən də, büdcə sferası işçilərinə, işsizliyə görə, uşaq müavinətləri üzrə nəhəng borclar yarandı, pensiya təminatı kəskin şəkildə pisləşdi. Yalnız 2000-2001-ci illərdə vəziyyət bir qədər yaxşılaşdı. Bu, maddi istehsal sferasında, ilk növbədə sənayedə canlanma ilə bağlı idi. Nəticədə ÜDM artdı, vergilərin toplanması və dövlət büdcəsinin doldurulması yaxşılaşdı. Mühüm təsiri xarici amil – ixrac olunan enerji daşıyıcılarının qiymətlərinin artımı da göstərdi, bu, büdcəyə əlavə resursların cəlb edilməsi imkanı verdi. Lakin, sosial sferanın maliyyələşdirilməsi problemi öz kəskinliyini saxladı.

Bununla əlaqədar belə bir sual yaranır ki, Rusiyada sosial sferanın, o cümlədən sosial-mədəni kompleksin inkişafı hansı istiqamətdə getməlidir? Kommersiyalaşma yolu seçilməli yoxsa dövlət sektoru qoynunda qalmalı? Bu suala cavab vermək üçün, sosial sferada istehsal edilən əmtəə və xidmətlərin xarakteri aydınlaşdırılmalıdır.

İqtisadiyyat elmi, istehsal olunan rifahları *fərdi istehlak* üçün nəzərdə tutulanlara və *ictimai rifahlara* bölür. Belə bir sıralanmanın meyarı kimi, bölünmə və istisna prinsipləri çıxış edirlər. Bu prinsiplərə tabe olan əmtəə birinci qrupa, yəni, özəl istekhlak mallarına aid edilir. Bu prinsiplərin tətbiqi üçün tamamilə yararsız olan əmtəə xalis ictimai rifahlara aiddir. Lakin, bir sıra əmtəə növü movcuddur ki, onlara, ola bilsin ki, istisna prinsipi tətbiq edilə bilər, lakin, onlar yaradılarkən yaxud istifadə edilərkən, kənar yaxud xarici effektlər yaranır (mənfəət yaxud ziyan). Bu effektlər o qədər yüksək ola bilər ki, dövlət onları tənzimləmək məcburiyyətində qalar, ya da ki, onların istehsalına başlamalı olar. Belə *rafahlar, kvaziictimai* yaxud *qarışıq* rifahlar adlanır.

Misal üçün, sosial-mədəni kompleksdə, mənzil-kommunal təsərrüfatında istehsal edilən xidmətlərin əksəriyyəti qarışıq rifahlara aiddir. Bu, qarışıq rifahların istehsalında və istehlakında dövlət və bazar arasında müəyyən ziddiyyətlər yaradır. Bir tərəfdən, bir çox qarışıq rifahların, fərdi istehlak üçün nəzərdə tutulmuş rifahların xüsusiyyətlərinə malik olması

(bölünmək, istisna edilmə), sosial-mədəni və mənzil-kommunal xidmətləri bazarının mövcudluğu üçün obyektiv zəmin yaradır.

Digər tərəfdən, sosial-mədəni və mənzil-kommunal xidmətlərinin çoxu ictimai rifah xassələrinə malikdir – bölünməz yaxud yüksək xarici effektə malik olduqlarından, xarici effektlərdən mümkün qədər çox sayda vətəndaşların istifadə etmələrində dövlət və cəmiyyət maraqlı olur. Belə ki, təhsil rifahları istisna prinsipinin təsiri altına düşə bilərlər, yəni, bunlara qiymət qoyula bilər və özəl istehsalçılar tərəfindən təmin edilə bilər. Lakin, hazırlanmış işçilərin rəqiblər tərəfindən də istifadə edilə bilməsini nəzərə alaraq, özəl təhsil müəssisələri onları cəmiyyətə lazım olan sayda hazırlamayacaq. Yaxud, başqa bir sahədən misal çəkək. QİÇS, vərəm xəstələrinin müalicəsində yalnız xəstələr yox, həm də bütövlükdə cəmiyyət maraqlıdır, lakin, xəstələr özləri bütün xərcləri ödəmək iqtidarında olmur. Yuxarıda deyilənləri yoxsulların mənzillə təminatı barədə söyləmək olar. Elə bu səbəbdən, bazar sistemi kifayət qədər resursların ayrılmasını təmin edə bilmir. Üstəlik, vəziyyəti çətinləşdirən informasiya asimmetriyası adlandırılan problem də mövcuddur. Belə ki, müəllimin və şagirdin, həkimin və onun pasiyentinin, inşaatçının və sakinin, onların hər ikisini maraqlandıran spesifik problem (misal üçün, pasiyentin xəstəliyi) barədə malik olduğu məlumatlar heç də eyni olmur. Bu səbəbdən, belə xidmətlərin istehsalını dövlət öz üzərinə götürür.

Sosial-mədəni və qismən də mənzil-kommunal xidmətlərinin ikili xarakteri, sosial sferada dövlətin və bazarın nisbətinə, onun islahatı istiqamətlərinə dair, cəmiyyətin daimi müzakirələrinə səbəb olur. Sosial sferanın idarəolunmasına bazar yanaşmaları daha çox ABŞ-da yayılmışdır. Lakin burada da, özəl sektorun, ictimai rifah istehsal edən ayrı-ayrı vətəndaşların, o cümlədən, təhsil, mədəniyyət, tibb xidmətlərinin inkişafının ayrı-ayrı dövrlərdə dövlət tərəfindən daim güclənən dəstəyi mövcuddur. Bu sıraya qeyri-kommersiya (mənfəətsiz) təşkilatları da daxil edilir. Misal üçün, əhalinin tibb xidmətlərindən istifadəsinin əlyetərliyinin gücləndirilməsi məqsədilə, özəl-sığorta tibbi yardımdan məcburi-sığorta tibbi yardıma keçid başlanmaqdadır.

Qərbi Avropada isə əksinə, sosial sferanın dövlət tənzimlənməsi və maliyyələşdirilməsi daha üstün mövqedədir. Avropa Şurasının üzvü olan bütün ölkələrdə sosial sferanın maliyyələşdirilməsi dövlət tərəfindən daha artıq dərəcədə təmin edilir, nəinki, müəssisə və özəl təşkilatlar tərəfindən. Bu cəhətdən dövlətin payı Skandinaviya ölkələrində, həmçinin, Almaniya və Böyük Britaniyada daha yüksəkdir. 1998-ci ildən başlayaraq, qloballaşma nəticəsində AŞ ölkələrində sosial xidmətlərin maliyyələşdirilməsi tədricən yenidən strukturlaşmaya məruz qalır. Məxsusi olaraq, sosial sığorta xərclərində işəgötürənlərin payı azalır, işləyənlərin isə payı, həmçinin, vergi ödəmələrindən mədaxil artmaqdadır.

Rusiya, sosial sferada islahatlar apararkən, dünya birliyində bu sferanın inkişafına xas olan əsas meylləri nəzərə almalıdır. Bununla yanaşı, hər bir ölkə öz spesifikasını qoruyub saxlayır. Hətta, AŞ üzvü olan ölkələr belə, özünün sosial siyasət sahəsində müstəqilliyini və sosial proqramlar üzrə xərclər səlahiyyətlərini Avropa Parlamentinə, Avropa Şurasının Nazirlər Şurasına verməkmeylində deyillər. Axı, məhz bu büdcə sferası əhalinin loyallığının təmin edilməsində başlıca rolu oynayır. Üstəlik, varlı dövlətlər ehtiyat edirlər ki, AŞ daxilində daha kasıb tərəfdaşlarına maliyyə yardımı göstərmək məcburiyyətində qalsınlar. Bu səbəbdən, Rusiya da öz spesifikasını nəzərə almalıdır. Sosial sferanın mahiyyətindən dövlətin sosial-müdafiə funksiyası irəli gəlir.

2. **Sosial müdafiənin əsas prioritetləri və istiqamətləri**

S*osial müdafiə* geniş mənada – insanın, onun yaşayış yerindən, milliyyətindən, cinsindən, yaşından və digər obyektiv şərtlərdən asılı olmadan, sosial-iqtisadi hüquq və zəmanətlərinin təmin olunması kimi anlanılır. Bu, əhali ilə qarşılıqlı münasibətlərdə dövlətin ən vacib funksiyasıdır – həm iqtisadiyyatın normal inkişafı şəraitində, həm də, böhran dövründə, ancaq son halda onun əhəmiyyəti, təbii olaraq, kəskin şəkildə artır.

Bu tərifdən çıxış etsək, sosial müdafiə obyekti kimi, ilk növbədə, əhalinin cətin həyat vəziyyəti keçirən təbəqələri, xüsusən də, öz qüvvəsi ilə öz maddi vəziyyətini qoruyub saxlamaq iqtidarında olmayan, sosial cəhətdən zəif təbəqələri (yaşlılar, əlillər, işsizlər, məcburi köçkünlər və b.) çıxış edirlər. Bundan başqa, yaşayış xərclərini ödəməyən aşağı əmək haqqı səbəbindən, Rusiyada iqtisadi yoxsulluq da mövcuddur. Burada yardım və dəstək göstərən başlıca donor kimi, risklərin qeyri-münasib kolliziyalarının yumşaldılması mexanizmlərini hərəkətə gətirməyə mükəlləf olan sosial-istiqamətlənmiş dövlət çıxış edir.

Sosial müdafiə modelinin seçimi ilk növbədə dövlət siyasətinin məqsədli təyinatından asılıdır. Ya cəmiyyət öz iqtisadiyyatını elə təşkil edəcəkdir ki, əsas gəlirlər (əməyə görə, sahibkarlığa görə, inkişaf etmiş sosial transfertlər) ailələrin özünütəminatı üçün kifayət etsin, və sosial yardım yalnız böhranlı vəziyyətlərdə həyati çətinliklər yaşayan azsaylı qrupplar üçün tələb olsun. Ya da ki, makrosiyasət, gəlirlərin aşağı səviyyəsi, tipik istehlak üçün onların kifayət etməməsi nəzərə alınmaqla yanaşı, ailələrin yalnız ekstremal vəziyyətlərdə deyil, həm də standart şəraitdə də yaşaya bilməsi üçün, ayrı-ayrı qruplara deyil, əhalinin xeyli hissəsinə kütləvi dövlət yardımı zərurəti nəzərə alınmaqla qurulur.

Modeldən başqa, sosial müdafiədə istifadə olunan resursların həcmi də Rusiya Federasiyası üçün az əhəmiyyət kəsb etmir. Onlar, aşağıdakılardan təşkil olunur: a) dövlət büdcəsinə ayrılan ümumi vergilərdən; b) məcburi dövlət sosial sığortası sferasına yönəldilən vahid sosial vergidən; c) şəxsi vəsaitlərdən, yəni, müəssisələrin öz işçilərinin sosial ehtiyaclarına çəkdikləri xərclərdən, həmçinin, (bügün o qədər də populyar olmayan və Rusiyada kifayət qədər həvəsləndirilməyən) xeyriyyəçilikdən. Məhz resursların çatışmazlığı, ilk növbədə, dövlətin yalnız iş qabiliyyətindən məhrum olanları və yoxsulları, dolayısı üsullarla deyil (fəal məşğulluq siyasəti, milli istehsalçıya dəstək), əsasən birbaşa, sağ qalması üçün müxtəlif müavinətlər şəklində dəstəkləməyə can atmasının başlıca səbəbidir.

Sosial sferada XXI əsrin əvvəlində aparılmalı islahatların aqibəti keçən əsrin 90-cı illərində aparılmış islahatların taleyini təkrar etməməsi üçün, ölkədə ardıcıl yeniləşmələrdə əhalinin fəal marağını nəzərdə tutan sosial-iqtisadi strategiya gərəkdir. Belə strategiya, milli istehsalın həvəsləndirilməsi üçün bütün iqtisadi alətlərin maksimal dərəcədə istifadəsinə yönəldilməklə, sosial müdafiənin ən yaxşı üsulu olacaq. Bu, onun bütöv bir kompleksinə aiddir: inflyasiyanın azaldılmasından, iş yerləri ilə təmin olunmasından, sosial xidmətlərin əlyetərliyinin dəstəklənməsindən başlayaraq, əhalinin aztəminatlı kateqoriiyalarına birbaşa maddi yardımın təqdim edilməsinədək. Birinci yol – yoxsulluqla real mübarizə yolu (məşğulluq) deməkdir, ikinci yol isə (yardımın paylanması) – bir çox halda onun konservləşdirilməsi və yenidən yaranması deməkdir.

Dövlətin sosial-müdafiə siyasəti, əhalinin həyat səviyyəsinin enməsinin dəf edilməsinin əsas vasitəsi, kütləvi yoxsulluqla və keçid dövrünün digər mənfi sosial təzahürləri ilə əsas mübarizə üsulu olan real gəlirlərin durmadan artımı zərurətindən çıxış etməlidir. Sosial müdafiənin və zəruri həyat səviyyəsinin təmin edilməsinin əsas prioritetləri və istiqamətləri aşağıdakılardır.

Əhalinin gəlirlərinin indeksasiyası. İndeksasiya dedikdə, qiymətlərin artması ilə əlaqədar olaraq əhalinin əsas gəlirlərinin real istehlak məzmununun artırılması tədbirləri anlanılır (əmək haqqı, pensiyalar, müavinətlər, stipendiyalar). «Əhalinin gəlirlərinin və əmanətlərinin indeksasiyası haqqında» (1991 il) Qanun əsasında, indeksasiya birbaşa yenidən hesablamalar və kompensasiya əsasında aparılmalı, ya da ki, əmək haqqının minimal ölçülərinin və pensiyaların minimal ölçülərinin dəyişdirilməsi yolu ilə aparılmalıdır.

Gəlirlər üzrə minimal sosial zəmanətlərin təminatı. Bunlardan ən başlıcası – yaşayış minimumudur. Bu sosial normativ «Rusiya Federasiyasında yaşayış minimumu haqqında» Qanunla təsdtq edilmişdir. Qanunda nəzərdə tutulur ki, əmək haqlarının və pensiyaların minimumu tədricən yaşayış minimumuna yaxınlaşdırılacaq. Yaşaması üçün zəruri gəlirləri olmayan əhali kate-

qoriyalırı üçün isə, eyni adlı 1999-cu il qanunu əsasında, ünvanlı dövlət yardımı hüququ müəyyənləşdirilir.

Minimal standart və normativlərin tənzimlənməsi. Bunlara, ilk növbədə, təhsil və səhiyyənin, mənzilin, sosial xidmətin və s. ümumi büdcəsinin minimal normativ xərcləri aiddir. Halhazırda, göstərilmiş sferaların büdcədən maliyyələşdirilməsinin bu normativləri, hətta minimal ehtiyaclara belə müvafiq olmayan faktiki yaranmış səviyyədə qüvvədə qalmaqdadır. Sosial xərclər mərkəzin və regionların birgə səlahiyyətlərinə aid olduğundan, onların federal büdcədən dəstəklənməsi üçün, xüsusi transfertlər və təzminatlar sistemi mövcuddur. Təcrübədə isə sosial sferanın saxlanması xərcləri yerli hakimiyyət orqanları üzərinə düşür. Dövlət standartlarına gəldikdə isə, dövlət idarəçiliyinin bu sahəsində hüquqi əsasları möhkəmləndirməli olan, minimal dövlət sosial standartları haqqında xüsusi qanun qəbul olunmalıdır.

Güzəştlərin (endirim və subsidiya) təqdimatı. Ümumi qaydalardan fərqlənən, əhalinin ayrı-ayrı qruplarına şamil edilmiş xüsusi üstünlük güzəşt adlandırılır. Misal üçün, Böyük Vətən Müharibəsi əlilləri və iştirakçıları üçün pulsuz və endirim qiymətləri ilə dərmanlar, pensiyaçılar üçün nəqliyyatda pulsuz və güzəştli gediş haqqı və s., aşağı əmək haqqı alan vətəndaşlar üçün gəlir vergisindən uşaqlara görə edilən güzəşt və s. Güzəştlərin təqdimatı ilə bağlı əsas problem – onların maliyyə cəhətdən təmin olunmamasıdır. Bu səbəbdən, güzəştlər, hal-hazırda, yalnız yoxsul əhali üçün ünvanlı sosial müavinətlər formasına keçirilir. Belə müavinətlərdən biri – artan mənzil haqqı yükünün cəmiyyətin aztəminatlı təbəqələri üçün yüngülləşdirməli olan mənzil subsidiyasıdır.

Məcburi sosial sığorta. Sosial müdafiənin bu üsulu, iqtisadi cəhətdən firavan ölkələrdə, xüsusən Avropada, Skandinaviya ölkələrində daha geniş şəkildə inkişaf etmişdir. Məcburi sığorta cəmiyyətin işləyən üzvlərinə şamil edilir. Onun əsas vəzifəsi – iş qabiliyyətindən və qazancdan məhrum olma halları yarandıqda, qanunla nəzərdə tutulmuş əsaslarla, həyat səviyyəsinin qorunub saxlanmasıdır. Rusiya Federasiyası qanun-

vericiliyi ilə, qocalıq, xəstəlik, zədələnmə, analıq, ailə başçısının itirilməsi belə əsaslara aid edilmişdir.

Başqa ölkələrdə, bir qayda olaraq, işsizlik də bura aid edilir. Məcburi sosial sığortanın rolu hal-hazırda olduqca böyükdür. Onun üçün nəzərdə tutulmuş vəsaitin həcmi, ümumi dövlət büdcəsindən sosial məqsədlər üçün ayrılmış vəsaitlə müqayisə oluna bilər. Baş verən böhran, sistemində bir sıra yeni aspekt nəzərə çarpan sosial sığortaya da təsir edib. Sığorta ödənişləri təqdim edilərkən, aztəminatlılıq meyarı qəbul edilmişdir. Sektorlar üzrə birləşmə meylləri yaranmışdır (vahid tibbi-sosial sığorta). Toplama elementlərinin tətbiqinə (o cümlədən, pensiya sahəsində) və ya büdcə maliyyələşdirməsinə keçidə (işsizliyə görə müavinətlər) və b. istinad edən sosial sığorta sferası daralmışdır.

Sosial təminat. Sosial təminat, cəmiyyətin iş qabiliyyətindən məhrum üzvlərinin saxlanmasına yönəlmişdir: qocaların, əlillərin uşaqların, ailə başçısını itirənlərin. Qanun müvafiq olaraq, o, iki mənbədən həyata keçirilir: büdcədən və sosial sığorta fondlarından. Əmək qabiliyyətinin itirənlərin məcburi qaydada sığorta olunmayan kateqoriyaları (əmək stajı olmayan qocalar, uşaqlar və s.), əmək fəaliyyəti və vəziyyətində peşə xüsusiyyətlərinə malik olan şəxslər (hərbçilər və onlara bərabər tutulmuş kateqoriyalar, dövlət qulluqçuları – pensiyalaşdırmanın xüsusiyyətlərinə görə, Çernobıl veteranları və b.) büdcədən təmin olunurlar. Sosial xidmət (qocalar və əlillər evləri, müxtəlif yaşayış mərkəzləri, protezləşdirmə) də büdcə hesabına sosial təminat sisteminə daxildir. Pensiya təminatı, sosial təminat və tibbi yardım – vahid sosial vergi vəsaiti ilə formalaşmış dövlət büdcədənkənar sosial fondları hesabına həyata keçirilir.

Sosial yardım. Sosial təminat sistemindən fərqli olaraq, sosial yardım daimi olmur, sosial himayə və dəstəyə ehtiyacı olanların hamısına şamil edilmir. O, sırf konkret, müvəqqəti, ərizəli xarakter daşıyır və ehtiyacın – gəlir və mülkiyyət həcminin – yoxlanmasını nəzərdə tutur. Sosial yardım almaq hüququnun meyarı – ailənin hər bir üzvünün yaxud tək yaşayan vətəndaşın gəlirinin yaşayış minimumundan aşağı olma-

sıdır. Əlavə dəstək forması kimi, belə yardım forması qəbul olunandır, lakin, sosial siyasətin əsas mexanizmi kimi, öz əks-stimullaşdırıcı xarakterinə görə («yoxsulluq tələsi» adlandırılaraq) tənqidə məruz qalır. Bu səbəbdən, dəstəyin forma və mexanizmləri çox ölçülüb-biçilmiş seçilməlidir.

Sosial müdafiə istiqamətlərinin verilmiş bu təsnifatı genişləndirilə, daraldıla yaxud müxtəlif əlamətlərə görə qrupplaşdırıla bilər, lakin onun əsas elementləri, müasir şəraitə uyğunlaşdırılaraq, istənilən variantda mövcud olmalıdır. Belə ki, inflyasiya templərinin aşağı düşməsi gəlirlərin indeksasiya mexanizminin rolunu bir az zəiflədə bilər. Buna baxmayaraq, stabilləşmə, sonra isə həyat səviyyəsi bərpa olunanadək, bu problem qalmaqda davam edir. Sosial transfertlərin (uşaq müavinətlərinin, işsizliyə görə müavinətlərin və s.) azaldılmasına istiqamətlənmiş indiki meyllər, sosial yardım vəsaitlərinin daha çox ehtiyacı olanların nəfinə yenidən bölgüsü üçün, əvvəllər mövcud olmayan elementin – xüsusi yoxsulluq müavinətlərinin qəbul edilməsi yolu ilə, istər-istəməz, korrelyasiya edilir.

Ölkədə iqtisadi vəziyyət yaxşılaşdıqca, əsas vurğu, pul yardımı şəklində olan birbaşa üsullardan, dolayısı üsullara edilə bilər, məsələn, vergi güzəştləri və endirimlər, gəlirlərin ümumi artımı şəraitində sosial sferada vətəndaşların şəxsi iştirakı hesabına büdcə xərclərinin əhəmiyyətinin nisbətən daraldılması və sosial sığorta xərclərin genişlənməsi. Minimal əmək haqları və pensiyaların yaşayış minimumuna yaxınlaşması isə, özüqazanma hesabına əhalinin sosial ələbaxımlıq ehtiyacları azaldıla bilər.

İqtisadi artım, minimal normalardan daha yüksək standartlara keçid etməklə, birbaşa yardım forması əvəzinə özünümüdafiənin dəstəklənməsinin dolayısı üsulları ilə, maddi rifah sahəsindən – sosial təhlükəsizliyin və şəxsiyyət azadlığının daha geniş prinsiplərinə keçid etməklə, sosial müdafiə məsələsinin qaldırılmasının başqa istiqaməti üçün şərait yaradır. Lakin əhali və öz xalqının qayğısına qalmağa mükəlləf olan dövlət arasında ictimai müqavilənin reallaşdırılması sistemi olaraq, bu funksiya, bu və ya digər şəkildə, sivilizasiyalı ictimai quruluşun istənilən koordinatlarında qalacaqdır.

3. Rusiyanın sosial sferasının modernləşdirilməsi (islahatı)

Sosial sferanın islahatının strateji məqsədlərinə, yalnız, dövlətin *fəal sosial siyasəti* nəticəsində, bu prosesə əhalinin geniş təbəqələri qoşulmaqla nail oluna bilər. Geniş mənada uzunmüddətli sosial siyasət, qrupların, siniflərin öz maraqlarına nail olunması, cəmiyyətdə öz vəziyyətinin, ilk növbədə, həyat keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı olaraq, onların arasındakı münasibətləri ifadə edir. Bu nöqteyi-nəzərdən, əhalinin məşğulluğu, əmək şəraiti, gəlir, təhsil, ixtisaslaşdırılma səviyyəsi, sağlamlıq durumu, mədəni dəyərlərin əlyetərliyi, vətəndaşların mənzil və məişət şəraiti, ekoloji vəziyyət, şəxsi təhlükəsizlik və s. onun təsir sferasına aid olur. Yalnız yüksək səmərəli iqtisadiyyata və tamdəyərli vətəndaş institutlarına, insanın və cəmiyyətin hərtərəfli inkişafını dəstəkləmək məqsədlərinə malik olan, inkişaf etmiş demokratik dövlət, bu problemləri tam həcmdə həll etmək iqtidarındadır.

Müasir demokratik burjua dövlətlərində sosial siyasət dah məhdud vəzifələri icra edir. Burada sosial müdafiə sistemi, əsasən, hədsiz qeyri-mütənasibliklərin və yuxarıda göstərilən sahələrdə müdafiəsizlik təzahürlərinin ləğv olunmasına istiqamətlənir, mülkiyyətə, gəlirə və hakimiyyətə müxtəlif həcmlərdə malik olmadan irəli gələn qeyri-bərabərlik isə bu halda toxunulmaz qalır.

Sosial siyasət əməldə həyata keçirilərkən, dövlət dilemma qarşısında qalır. Bir tərəfdən, sosial müdafiə tədbirlərinin maliyyələşdirilməsi zərurəti var, digər tərəfdən isə – iqtisadi artımın təmin olunması məqsədilə sahibkarlığın stimullaşdırılması və sferanın təkmilləşdirilməsi xərcləri gərəkdir. Burjua dövləti kapitalist inkişafının mobilliyi, cəmiyyətin sabitliyinin qorunması şərtlərinin tələblərinə tabe olur. Dövlət məmurları anlayırlar ki, sosial ödəmələrin (təzminatların) bölgüsü sisteminə korreksiya məqsədi ilə edilən müdaxilə, yalnız o zaman imtiyazlı qrupların cavab reaksiyasına səbəb olmur ki, bu müdaxilə ictimai məhsulun artımı hesabına həyata keçirilir və

artıq mövcud olan sərvətin bölgüsünə toxunmur. Əks halda, bu, dövlətin parçalanması təhlükəsini törədə bilən ciddi sosial münaqişələr və sarsıntılar yaradar.

Rusiya dövləti, şübhəsiz ki, bununla əlaqədar Qərbin təcrübəsini və burada gedən müzakirələri nəzərə alır, öz sosial siyasətini ABŞ siyasətinin formalaşması prinsipləri əsasında işləyib hazırlayır. Bunu, Rusiya Federasiyası Hökumətinin iclasında qəbul edilmiş «Uzunmüddətli perspektivdə Rusiya Federasiyası hökumətinin sosial-iqtisadi siyasətinin əsas istiqamətləri (2010-cu ilədək)» layihəsi bariz şəkildə nümayiş etdirir. Bu səbəbdən, Rusiya Federasiyasının sosial inkişafı strategiyasının əsas elementləri, sosial sferanın islahatına yönəlmiş sosial siyasətin üzərində daha təfsilatı ilə dayanmaq zərurəti yaranır[1].

Təhsilin modernləşdirilməsi. Təhsil cəmiyyətin həyatında, iqtisadiyyatın inkişafında, xüsusən də, informatizasiya və qloballaşma dövründə olduqca mühüm rol oynamış və oynamaqdadır. Bütün islahatların müvəffəqiyyətinin təmin olunmasında, milli təhlükəsizliyin möhkəmləndirilməsində, cəmiyyətin və iqtisadiyyatın modernləşdirilməsində, dünya proseslərinə təsir edə biləcək dövlətlər sırasına çıxma yolunda bütün ümidlər onunla bağlıdır. Bu məqsədlə, təhsilin özünün modernləşdirilməsi nəzərdə tutulur. Təhsilin modernləşdirilməsinin üç istiqaməti xüsusi olaraq göstərilir:

Təhsilin məzmununun yeniləşməsi, onun keyfiyyətinin yüksəldilməsi ön plana çəkilir. Nəticədə, bütün səviyyələrdə təhsilin keyfiyyəti və standartları göstəricilərinin ümumdünya sistemi ilə müqayisə edilə bilən sistemə keçid baş verməlidir. Lakin bundan əvvəl bir sıra regionda uzunmüddətli (beşillik) təcrübə aparılmalı və yalnız onun nəticələri əsasında son qərar qəbul edilməlidir. Milli təhsil məktəbin ən yaxşı nailiyyətləri qorunub inkişaf etdirilməlidir.

Özünəməxsus *sosial sifarişin təhsil sisteminə* verilməsinin səmərəli mexanizmlərinin formalaşması – ən vacib istiqamətlər-

[1]Проект. Основные направления сойиально-экономической политики правительства российской Федерации на долгосрочную перспективу. М., 2000. С. 7.

dən biridir. Təhsildə vəsait axınının əsas hissəsi büdcə maliyyələşdirilməsinin fərdiləşdirilməsinə əsaslanacaq – bu zaman bir şagirdin payına düşən maliyyə normativi həcmində vəsait şagirdin arxasınca getməlidir, yəni, bu şagirdin daxil olduğu məktəbin maliyyələşdirilməsinə yönəldilməlidir. Bu, vətəndaşlar və ailələr üçün, onlara ayrılmış büdcə vəsaitlərinə özləri tərəfindən əlavələr etməyə, özünümaliyyələşdirməyə səmərəli güman edildiyi imkanı yaradır. Gəlirlər artdıqca, təhsilə pul vəsaitini sərmayə edən ailələrin payının 2010-cu ilədək 40-50%-dək artması proqnozlaşdırılır (2000-ci ildə, «…inkişaf strategiyası»nı işləyib hazırlayanların hesablamalarına görə, bu rəqəm 25-30% idi). İqtisadiyyatın real sektoru canlanaraq artdıqca və vergi güzəştləri təqdim olunduqca, müəssisələrin təhsil proqramalarını ödəməsi üçün ayrılan vəsaitin də artacağı gözlənilir.

Təhsilin (təhsil təşkilatlarının) idarə olunmasında *dövlətin* və cəmiyyətin *iştirakının genişlənməsi* – təhsilin modernləşdirilməsinin üçüncü istiqamətidir. Dövlət, məktəblərin idarəolunmasında və ehtiyaclarının ödənilməsində fəal iştirak etməli, biliklərin şagirdlər üçün pulsuz əsaslarla geniş əlyetərliyini təmin etməlidir. Bununla yanaşı, təhsil prosesinin yaxşılaşdırılmasında və lazımi kadrların hazırlanmasında müəssisələrin, ailənin imkanları istifadə ediləcək. Bu məqsədlərə nail olmaq üçün, qəyyumluq şuraları, təhsilə yardım fondları sisteminin inkişafı, təhsil sferasında peşəkarlar icmalarının dəstəklənməsi sisteminin yaradılması nəzərdə tutulur. Bunlarla yanaşı, ilk növbədə, təhsilin dəstəklənməsi məqsədilə əhalinin və təsərrüfat subyektlərinin özünütəşkilinin müxtəlif formalarının stimullaşdırılması üçün vergi şəraiti yaradılmalıdır.

Təhsil sistemi gözlənilən kəskin demoqrafik dəyişiklikləri nəzərə almalıdır. 2001-2008-ci illər ərzində ümumtəhsil məktəbləri şagirdlərinin sayı kəskin şəkildə azalacaq (2000-ci ildəki 21 mln.-dan 14 mln.-dək). 2008-ci ildən bu proses ali məktəblərə də toxunacaq. Belə demoqrafik vəziyyət, ümumtəhsil məktəbinin modernləşdirilməsini əsasən 2009-cu ilədək başa çatdırılsını tələb edir.

Səhiyyənin islahatı strategiyası. Səhiyyə sferasında dövlət siyasətinin strateji məqsədi – əhalinin sağlamlağanan yaxşılaşdırılmasıdır. Əvvəlki islahatlar dövrü (90-cı illər) əhalinin

sağlamlığı pisləşmişdir. Hərçənd burada hər şeyin heç də həmişə səhiyyədən asılı olmadığına baxmayaraq, bu sahədə vəziyyət xeyli mürəkkəbləşmişdir. Təbabət, faktiki olaraq, əhali üçün pulluya çevrilmiş və onun böyük bir hissəsi üçün, ələlxüsus, yoxsulluq həddindən aşağıda olanlar üçün əlçatmaz olmuşdur.

Səhiyyənin islahatına aşağıdakı komponentlər daxildir. Əhalinin genişkütlələri üçün tibbi yardımın (onun 90-cı illərdə kəskin pisləşməsindən sonra)real əlyetərliyinin artırılması planlaşdırılır. Sağlamlığın yaxşılaşdırılmasına əhalinin və işəgötürənlərin investisiya edəcəyi vəsaitin artırılması üçün şəraitin və stimulların yaradılması nəzərdə tutulur. Başqa sözlə, öz sağlamlığının qayğısına daha çox əhalinin özü qalmalıdır. Əhalinin naxoşlamasının və zədələnməsinin qarşısının maksimal dərəcədə alınması üçün şərait və stimulların yaradılması nəzərdə tutulur.

Nəzərdə tutulmuş tədbirlər sistemində səhiyyənin adambaşına maliyyələşdirilməsi prinsipinə keçidinə mühüm yer ayrılır. Bu prinsipin həyata keçirilməsi federal hakimiyyət orqanları, Rusiya Federasiyasının subyektləri, yerli idarəçilik səviyyələrində səhiyyənin maliyyələşdirilməsinin müvafiq adambaşına normativlərinin təsdiqlənməsini nəzərdə tutur. Elə həmin bu prinsip, Rusiya Federasiyasının hər bir subyekti çərçivəsində, bu subyektlə bələdiyyə qurumları arasında dövlət zəmanətləri proqramının həyata keçirilməsinin maliyyə şərtlərinin bərabərləşdirilməsi mexanizminin tətbiqini nəzərdə tutur.

Mədəniyyət sferasında siyasət. Dövlətin mədəniyyət siyasətinin strateji məqsədlərinə üç məqsəd aid edilib. Birincisi, ölkənin mədəni potensialının və mədəni irsinin, yaradıcı və bədii təhsil sisteminin qorunub saxlanması, mədəni həyatın rəngarəngliyinin dəstəklənməsində rus mədəniyyətinin irsiliyinin təminatıdır. İkincisi, vahid mədəni fəzanın təminatı. Üçüncüsü, Rusiya cəmiyyətinin müvəffəqiyyətli modernləşməsini təmin edən dəyərlərə şəxsiyyətin və sosial qrupların oriyentasiyası. Bu məqsədlərin həyata keçirilməsi üçün, o cümlədən, bir neçə illər ərzində – ÜDM artımına nisbətən qabaqlayıcı templə mədəniyyətin büdcə maliyyələşdirilməsinin artımı nəzərdə tutulur.

Rusiya Federasiyasında pensiya islahatı. Pensiya islahatının məqsədləri iki cəhətdən müəyyənləşdirilmişdir: pensiya

sisteminin cari maliyyə dayanıqlığının təmitn olunması və pensiyaların real ölçüsünün artırılması. Bunlara nail olma yolları – pensiyanın ölçüsü, pensiyaçıların keçmiş qazancları və sığorta ödəmələrinin (sosial vergi) həcminin daha sıx əlaqəsi, həmçinin, işləyən əhali üçün – pensiyaların yığım maliyyələşdirilməsi mexanizminin tətbiqidir. Yaxın perspektiv üçün vəzifə – pensiyaçının fərdi əmsalının tətbiqi ilə pensiyanın hesabanmasında nəzərə alınan, fərdi və ölkə üzrə orta qazancın nisbətinin son həddinin 1,2-yədək mərhələli artımı yolu ilə, dövlət pensiyalarının sığorta təbiətinin bərpasıdır.

Pensiyaların məcburi yığım maliyyələşdirilməsi elementlərinin tətbiqi 2002-ci ilin yanvarın 1-dən başlanır. İlkin olaraq, Pensiya fonduna daxil olan vahid sosial verginin 2%-i (Rusiya Federasiyası Pensiya fondunun büdcəsinə yönəldilən sığorta tarifi stavkasının nəzərdə tutduğu 14%-dən) yığım məqsədlərinə istiqamətləndiriləcək. Sonrakı illərdə yığım sisteminə sosial vergi ayırmaları mərhələli şəkildə artırılacaq. Eyni zamanda, pensiya sisteminin başqa hissələrinə sosial vergi ayırmaları azaldılacaq. İslahatın aparılması nəticəsində, əmək pensiyasının üç tərkib hissəsindən – baza, sığorta və yığım hissələrindən ibarət olan pensiya sistemi formalaşmalıdır.

Əhaliyə sosial dəstək. 1999-cu ildə ümumi büdcənin «Sosial siyasət» bölməsi maddələri üzrə xərcləri (o, bütün sosial sferanı əhatə etmir) 74,5 mlrd.rubl, yəni, ÜDM-in 1,7%-ni yaxud ümumi büdcənin təxminən 6%-ni təşkil edirdi. Federal səviyyədə qanunla təyin olunmuş güzəşt və müavinətlərin maliyyələşdirilməsini təmitn etmək üçün ÜDM-in 15%-i tələb olunardı. Bu, federal büdcənin sosial siyasət xərclərini təxminən 10 dəfə üstələyərdi. Bu səbəbdən, əhalinin sosial dəstəyi sferasında, ərazilərin hansı ödəmələrə və hansı həcmdə həqiqətən ehtiyacı olmasına, əhaliyə hansı konkret formada təqdim edilməsinə dair qərarların qəbulunda onların müstəqilliyinin maksimal genişlənməsi nəzərdə tutulur. Belə şəraitdə federal hakimiyyət, əhalinin sosial müdafiəsi sisteminin səmərəliliyinin artırılması, yoxsulluqla mübarizə məqsədilə, büdcələrarası bərabərləşdirmə vəzifəsini icra etməlidir.

Mənzil siyasəti strategiyası. Mənzil sektoru (1990-ci ildəki 33%-lə müqayisədə, 2000-ci ildə özəl mənzil fondunun

60%-i buraya aid idi) islahatının məqsədi – inşaat kompleksinin və mənzil-kommunal təsərrüfatının səmərəliliyinin artırılması, istehlakçılara ayrılan büdcə dotasiyalarının və çarpaz subsidiiyalaşdırılmanın ixtisar olunması vasitəsilə mənzil-kommunal təsərrüfatının tədricən ziyansız fəaliyyət rejiminə keçirilməsidir. Qeyd etmək gərəkdir ki, Rusiya Dövlət İnşaat Komitəsinin məlumatına əsasən, mənzil-kommunal xidmətləri haqqının ödənilməsində əhalinin payı 54% təşkil etmişdir, halbuki, qiymətlər liberrallaşdırıldıqdan dərhal sonra (1992 il) əhali bu xidmətlərin yalnız 2%-ni ödəyirdi. Mənzil-kommunal xidmətlərinin ödənilməsinində əhalinin iştirakının daha da genişlənərək son nəticədə 100%-ə çatdırılması nəzərdə tutulur.

Dövlət mənzil siyasətinin strateji məqsədlərinə nəyi aid etmək gərəkdir?

İlki növbədə, bu, vətəndaşların konstitusiyada təsbit olunmuş mənzil hüqularının (Rusiya Federasiyasının Konstitusiyası, maddə 40) reallaşdırılması üçün, həmçinin, mənzil sferasında tam mülkiyyət hüququnun zəmanəti və mənzil bazarı sferasında bazar mexanizmlərinin tətbiqi dairəsinin genişlənməsi üçün şəraitin yaradılmasıdır. Vətəndaşların mənzildə yaşayış təhlükəsizliyi, mənzil sferasında məhsul və xidmətlərin keyfiyyəti standartlarının riayət olunmasına, aztəminatlı vətəndaşların müdafiəsinə, müəyyən edilmiş sosial standartlara müvafiq onların mənzil şəraitinin təmin edilməsinə mühüm yer ayrılır. Səmərəli mənzil bazarının formalaşmasına, mənzil inşaatı üçün torpaq sahələrinin, inşaat materiallarının ayrılmasına, mənzil-kommunal xidmətlərinin inkişafı üçün şəraitin yaradılmasına böyük diqqət yetirilir. Əmək resurslarının mobilliyinin artırılması tələbi daha ümumi şəkil alır.

Beləliklə, sosial sferanın inkişafında dünya tendensiyalarının Rusiya ictimaiyyəti tərəfindən kifayət qədər nəzərə alınmaması, maliyyə mənbələrinin ixtisar edilməsi və fəaliyyətin səmərələliyinin aşağı düşməsi, onun islahatının (modernləşdirilməsinin), sosial proseslərin dövlət tənzimlənməsində funksiyaların dəqiqləşdirilməsinin və istiqamətlərinin konkretləşdirilməsinin zəruriliyini şərtləndirdi.

Keçid dövründə sosial sferanın dövlət tənzimlənməsi – sosial sferada sahələrin və fəaliyyət növlərinin fəaliyyətinin

dövlət hakimiyyəti və idarəetmə orqanları tərəfindən tənzimlənməsi ilə ifadə edilir. Tənzimlənmə – prinsiplərin, üsulların, standartların və təşkilat strukturlarının müəyyənləşdirilməsindən, qanunvericilik tədbirlərinin həyata keçirilməsindən, sosial sferanın fəaliyyətinin təkmilləşdirilməsinə istiqamətlənmiş maliyyə-kredit, investisiya, vergi, əmək haqqı siyasətinin həyata keçirilməsi mexanizmlərinin işlənib hazırlanmasında ibarətdir.

Suallar və tapşırıqlar

1. Fəaliyyətin hansı sahə və növləri sosial sferaya aiddir? Düzgün cavabı *seçin*: təhsil, mədəniyyət, səhiyyə; elm; ticarət, ictimai iaşə; rabitə, nəqliyyat; mənzil-kommunal təsərrüfatı; əhalinin məşğulluğu, sosial təminat; sənaye, kənd təsərrüfatı.

2. Rusiya Federasiyası üçün hansı inkişaf yolu daha məqbuldur? Düzgün cavabı *seçin*: kommersiyalaşma yolu; dövlət sektoru qoynuna qayıtma; ilk iki variantın mümkün kombinasiyası.

3. Məsələləri *həll edin*:

Yoxsulluğa görə müavinət almaq ərizəsi ilə müraciət edənlərin sayı 500 nəfərdir, sosial müdafiə orqanı vəsaitinin həcmi 10 min rubla bərabərdir. Müavinət 6 ay müddətinə təyin edilərsə, bu müavinətin verilməsinin sosial normativi neçəyə bərabər olmalıdır?

Qüvvədə olan qanunvericiliklə nəzərdə tutulduğundan asılı olaraq, uşaq müavinətinin həcmi xüsusi sosial normativin (100 rubl) yaxud yaşayış minimumunun (1100 rubl – 2000-ci ilin 1-ci rübü) müəyyən faizini təşkil edərsə, bu müavinətin məbləği nə qədər olmalıdır?

Rusiya Federasiyası üzrə yaşayış minimumu 1400 rubl, regionda – 1300 rubla bərabərdir. Yoxsulluğa (ehtiyaca) görə aylıq müavinətin verilməsi barədə ərizə ilə sosial müdafiə orqanına müraciət etmiş şəxsin adambaşına gəliri 220 rubl olarsa, belə müavinətin həcmi nə qədər olmalıdır?

Regionun qanununa müvafiq olaraq, həmin müavinət, yaşayış minimumunda qidalanma xərclərini ödəməlidir.

4. Lazımi rəgəmləri yazın.

Federal büdcədə sosial xərclərin strukturu aşağıdakı cədvəldəki kimi olarsa, onların həcmi nə qədər olmialıdır?

	%	Mlrd.rubl
Təhsil	3,5	
Səhiyyə, bədən tərbiyəsi	1,9	
Mədəniyyət, incəsənət, kinematoqrafiya	0,7	
Sosial siyasət	7,0	
Büdcə xərcləri cəmi	100	

5. *Cavabı tamamlayın.*

Sosial siyasət geniş mənada … münasibətlərini ifadə edir.

Təhsilin modernləşdirilməsinin üç əsas istiqamətləri xüsusi olaraq göstərilir …

6. Pensiyaların məcburi maliyyələşdirilməsi elementlərinin pensiya sistemində tətbiqi hansı qaydada nəzərdə tutulur? Düzgün cavabı verin: fərdi hesaba köçürmələrin son həddfaizini birbaşa təyin etmək; 2002-ci ildə 2%-dən başlayaraq, köçürmə faizlərini tədricən artırmaq; sosial ödəmələrin hansı növləri ehtiyac dərəcəsinin yoxlanmasını nəzərdə tutur?

© Буланов В.С. 2002

© Ржанисина Л.С. 20002

XXVIII Fəsil

GƏLİRLƏR VƏ ƏMƏK HAQQI SİYASƏTİ

1. Gəlirlər və onların tənzimlənməsi

İqtisadiyyatda və siyasətdə demokratikləşmə, mülkiyyət və təsərrüfatçılıq sistemi münasibətlərinin islahatı, şəxsi maddi marağın rolunu obyektiv olaraq artırır. Onların reallaşdırılması forması – maddi stimullardır ki, onların sırasına əhalinin müxtəlif gəlirlərini də aid etmək olar.

Baş verən dəyişikliklərlə əlaqədar olaraq, ümumi gəlirin strukturu da dəyişir. Hal-hazırda gəlirin əsas növlərinə, ilk növbədə, birbaşa əmək fəaliyyəti ilə əldə olunan gəlirləri (əmək haqqı, mükafatlar, əlavə ödəmələr), müəssisədə əmək şəraiti ilə bağlı ödəmə və təzminatları (ağır və zərərli iş şəratinə görə, kecə vaxtı, bayram günlərində işə görə və s.) aid edirlər. Bunlara yaxın olan gəlir növləri – inflyasiyadan, həyat səviyyəsinin aşağı düşməsindən, aparılan islahatların mənfi nəticələrindən sosial müdafiə ilə, həmçinin, regionların iqlim xüsusiyyətləri ilə (rayona görə, şimalda işləməyə görə əlavələr) bağlı olan ödəmə və müavinətlərdir. Mülkiyyətdən (kapital qoyuluşunun, səhmlərin, özəlləşdirmə çeklərinin və s. verdiyi dividendlər), əlavə sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər də – gəlirlərin əhəmiyyətli növü hesab olunur. Gəlirlərin xüsusi növü – pensiya və stipendiyalardır. Əhalinin müəyyən hissəsi – bağ

sahələrindən, fərdi yardımçı təsərrüfatdan əldə etdiyi məhsul şəklində gəlir əldə edir və i.a. İşçinin əmək haqqı strukturunda mərkəzi yeri *əmək haqqı* tutur.

Bu bölmədə, əhalinin əsasən işləyən hissəsinə aid olan gəlirlərin yalnız ayrı-ayrı növləri təhlil olunur.

Özəlləşmə, müəssisələrin səhmləşdirilməsi, əhali tərəfindən özəlləşmə çeklərinin satışı proseslərinin dərinləşməsi ilə əlaqədar olaraq, *işçilərin mülkiyyətdən əldə edəcəyi gəlirlər* üçün perspektivlər yaranır. Mülkiyyətdən təcrid olunduqda, onlar, istehsalın təşkilinə və onun səmərəsinə daha az maraq göstərirlər. Mülkiyyətçi olduqda isə, işçinin istehsala münasibəti əhəmiyyətli dərəcədə dəyişir. İndi onlar müəssisənin fəaliyyətinin son nəticələrinin artımında ikiqat maraqlı olur, çünki, təkcə əmək fəaliyyətindən əldə olunan gəlirlər (əmək haqqı) yox, həm də, səhmlərdən yaxud müəssisəyə qoyulmuş kapitaldan əldə olunan gəlirlər də onların özündən asılı olur. Əməyə görə bölüşdürülmənin və mülkiyyətin birləşdirilməsi, yüksək səmərəli əməyin və istehsalın inkişafının güclü stimuludur, çünki, işçinin işə qarşı şəxsi marağı əhəmiyyətli dərəcədə güclənir. Mülkiyyətin hesabına əldə etdiyi gəlir, onun ümumi gəlirinin kifayət qədər sanballı hissəsini təşkil edə bilər, bu səbəbdən, mülkiyyətin güclü stimullaşdırıcı potensialından danışmaq olar. Misal üçün, ABŞ-da işçinin ümumi gəlirinin təxminən 8%-ni mülkiyyətdən əldə olunan gəlir təşkil edir.

Bazar münasibətlərinin inkişafı və əmək kollektivlərinin müstəqilliyinin genişlənməsi, işçinin ümumi gəliri həcmində payı daim artmaqda olan *sosial imtiyazlar və ödəmələrin* əhəmiyyətini artırır. Əvvəllər işə düzələrkən, insanlar ilk növbədə əmək haqqının ölçüsünə diqqət verirdisə, indi, müəssisənin hansı sosial yardım təqdim edə bilməsi mütləq qaydada nəzərə alınır. Belə güzəşt və ödəmələr artıq müvəqqəti xarakter daşımır. Onlar, stabilliyin, işçinin və onun ailə üzvlərinin həyat səviyyəsinin yüksəlişinin mühüm və zəruri şərtinə çevrilir. Gəlirin əmək haqqı və dividend kimi növləri, hər bir işçinin və bütövlükdə müəssisənin işinin nəticəsindən bilavasitə asılıdır, çünki onun mənbəyi, bir qayda olaraq, təsərrüfat fəaliyyətin-

dən yaranan mənfəətdir. Deməli, sosial güzəşt və ödəmələr sayəsində, işçilər, müəssisənin yekun nəticələrinin yüksəlişində maraqlı olurlar. İşçinin bu gəlir növünün rolu və əhəmiyyəti artdığından, əməyin və istehsalın səmərəliliyində bunun stimullaşdırıcı rolunun güclənməsi barədə qənaətə gəlmək qanunauyğun olardı.

Rusiyada sosial güzəşt və ödəmələrin təsirli təşkili, hələ ki, mövcud deyil. Bu səbəbdən, yaranan milli sistemin deyil, belə məsələlər müvafiq səviyyədə həll edilən bazar iqtisadiyyatlı ölkələrin təcrübəsinin bu mənada təhlili daha faydalı ola bilər.

Xüsusi halda, işçilərin əmək haqqının və ümumi gəlirinin artımının yüksək tempinə rəğmən, bütövlükdə gəlirin artımında məhz sosial güzəşt və ödəmələrin payının artması hesabına, əməyin ödənişinin artım sürəti xeyli aşağı olmuşdur. Gəlirlər bir sıra amillərdən asılıdır. Firmanın ölçüsü, onun sahə mənsubiyyəti, maliyyə-iqtisadi vəziyyəti, həmkarlar ittifaqının nüfuzu mühüm əhəmiyyət kəsb edir. Sosial ödəmələr işçi heyətinin kateqoriyalıra üzrə differensiallaşdırılır. Güzəşt və ödəmələr çeşidi kifayət qədər genişdir: məzuniyyətlərin, bayram günlərinin, müvəqqəti iş qabiliyyətindən məhrum olmanın, tibbi və sosial sığortanın ödənilməsindən başlayaraq, istirahət və (bir sıra hallarda) nahar vaxtının, xəstələrə qulluq vaxtının, həmçinin, bəzi tibb xidmətlərinin ödənilməsinədək[1].

Sosial məqsədlər üçün dövlət xərclərinin azaldılması şəraitində, müvafiq proqramlarda əsas yönümün müəssisələr səviyyəsinə istiqamətlənməsi müşahidə olunur. Bununla belə, işçi qüvvəsinə çəkilən xərclərin sürətli artımı şəraitində, sahibkarlar və idarəçilər sosial güzəşt və ödəmə xərclərinə qənaət etmək məcburiyyətində qalırlar ki, şirkətin rəqabətədavamlılığı qorunub saxlansın. Bəs, belə qarşılıqlı ziddiyyət təşkil edən meyllərdən necə yaxa qurtarmaq olar?

Müəssisələrdə işçi qüvvəsi xərclərinin optimal səviyyədə saxlamaq imkanı verən formaların axtarışı nəticəsində, «çevik sosial güzəşt və ödəmələr planları» şəklində sosial proqramm-

[1] Statistical Abstract of the US.1990. P.40.

ların yeni növləri tapıldı. Bunlar, həm işçilərin, həm də sahibkarların tərkibində baş verən dəyişiklikləri nəzərə alır. Misal üçün, son 20 ildə ABŞ-da, istehsalatda məşğul olan qadınların sayı xeyli artmışdır. 1968-ci ildə onlar işçi qüvvəsinin 37%-ni təşkil edirdisə, 1988-ci ildə onların sayı artıq 45% idi.

Ayrı-ayrı sahələrdə, xüsusən də qeyri-istehsal sahələrində, onların payı kişilərə nisbətən xeyli çoxdur[1]. Bu, belə bir cəhətdən sosial güzəşt və ödəmələrin stukturuna təsir göstərir ki, məhz qadınlar üçün xakterik olan (misal üçün, uşaqların tərbiyəsi ilə, xəstələrə, qoca valideynlərə qulluqla və s. bağlı) sosial güzəşt və ödəmə növləri genişlənir, digərləri isə – daralır.

Müəssisənin müdiriyyəti hər bir işçiyə xüsusi hesab açır və müəyyən həcmdə sosial güzəştlərin ödənilməsi üçün müəyyən məbləğdə pul ehtiyatı ayırır. Bundan əlavə, işçilərin özü, müdiriyyətlə razılaşdıraraq, həmin hesaba öz əmək haqlarından müəyyən məbləğlər keçirə bilər ki, bu, əlavə sosial yardım növlərindən istifadə etmək imkanlarını genişləndirir. Qeyd edək ki, belə ödəmələrdən vergi tutulmur. İşçiyə hüquq verilir ki, imkanlar menysu adlandırılan çeşiddən, öz məsləhəti ilə (müəyyən məbləğ həcmində), onu bu anda maraqlandıran güzəşt və ödəmələri seçsin.

Sosial ödəmələrin xarici təcrübəsini, ilk növbədə, vəsaitlərin əmək haqqı və sosial güzəştlər arasında çevik qaydada yenidən bölüşdürülməsini bizim şəraitdə, ələlxüsus da, işçilərin nəğd pulunu ay-ba-ay dəyərdən salan inflyasiyanın artımı şəraitində istifadə etmək məqsədəuyğun olardı.

İşçilərin gəlirlərinin spesifik formasına aid olan ödəmələrdən,öz funksional təyinatına görə yaxın olan *ağır və zərərli iş şəraitinə görə əlavə ödənişlər*, həmçinin, *rayona görə ödəmələrdir*. Onlar, əməyin və istehsalın nəticələri ilə birbaşa əlaqədə deyillər. Bu səbəbdən, obyektiv olaraq, onların stimullaşdırıcı rolu məhduddur. Bununla belə, qeyri-normal iş şəraitinə və rayona görə əlavə ödənişlərin hesablanması qaydalarında

[1] *Скрыпник Н.* Система социальных льгот и выплат на американскихъ предприятиях // Человек и труд. 1992. № 4–5. С. 30.

mübahisəli, ziddiyyətli məqamlar var. Bu problemə biz həmin mövqedən nəzər salaq.

Rayon əmsallarının təyin olunması siyasətində, hal-hazırda aparılan qismən təkamülverici təkmilləşdirilmələr yox, prinsipial, köklü dəyişikliklərin aparılması gərəkdir. Məlumdur ki, rayona görə əlavə ödənişlərin məqsədi – şimal və digər regionların spesifik, ilk növbədə, təbii-iqlim şəraitinə görə, yaşayış xərcləri fərqinin təzminatlandırılmasıdır.

Lakin əmsalların mövcud bölüşdürülməsi prinsipi (tarif stavkasının yaxud vəzifə maaşının faizi) tətbiq olunarkən, eyni iqlim şəraitində yaşayıb işləyən insanlar, bu təzminat çərçivəsində müxtəlif həcmdə ödəmələr alırlar. Hətta, belə ödəmələrin fərqi 10 qat və daha artıq ola bilər. Onlar əhəmiyyətli dərəcədə tarif stavkasından və maaşdan, yəni, ixtisasdan, vəzifədən, peşədən və s. asılı olurlar. Faktiki olaraq, faizlə ifadə olunan vahid rayon əmsalı olduqda, eyni regionda, məsələn, Yakutiyada işləyənlər, həmin respublikanın iqlim xüsusiyyətləri ilə bağlı əlavə xərclərin təzminatlandırılması üçün fərqli imkanlara malik olurlar. Belə ki, 70 faizlik əmsal ilə, müvafiq olaraq 4000 və 10000 rubl maaş alan işçilər, il ərzində, müvafiq qaydada 33,6 min və 84 min təzminat alırlar. Fərq təxminin üç dəfədir. Eyni iqlim şəraitində yaşayan insanlar üçün bu ədalətlidirmi? Çətin ki, bu suala «hə» cavabı vermək mümkün olsun. Bundan başqa, rayona görə ödənişlərin yüksək ölçüləri səbəbindən, yüksək məvacibli işçilərin ümumi gəlirinin əməyin nəticələri ilə bağlı olmayan hissəsi əsassız olaraq böyük olduğundan, onun stimullaşdırıcı rolu aşağı düşür. Ölkənin belə ödənişlər zəruri olduğu ayrı-ayrı rayonları üçün, işçinin tarif dərəcəsindən və vəzifə maaşından asılı olmayaraq, mütləq ölçülərdə göstərilmiş vahid ödənişlərin tətbiqi variantı daha əsaslandırılmış hesab olunur.

Beləliklə, belə hesab etmək olar ki, işçilərin gəlirlərinin bütün nəzərdən keçirilən növləri, təkcə onların ehtiyaclarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi mənbəyi deyil, həm də, bu və ya digər dərəcədə stimullaşdırıcı potensiala malikdir. Bu, əməyin və istehsalatın nəticələri ilə, müəssisəyə qoyulmuş

kapitalın payı ilə, mənfəətlə, müəssisənin digər olduqca vacib göstəriciləri ilə onların ölçüsünün qarşılıqlı əlaqələrində ifadə olunur. Bununla əlaqədar, son nəticədə, makro- və mikro-səviyyələrdə lazımi iqtisadi nəticələrin əldə olunması üçün gəlirlərdən səmərəli şəkildə istafadə etmək olar.

2. Əmək haqqının əsas problemləri və başlıca vəzifələri

Əməyin ödənişi, sosial-əmək sferasının strukturunda və sosial siyasətin prioritetlərində xüsusi yer tutur. Bu, insanın həyat fəaliyyətinin təmin edilməsində onun əhəmiyyəti ilə, cəmiyyətin və iqtisadiyyatın inkişafında icra etdiyi spesifik vəzifələrlə (funksiyalarla) izah edilir.

Lakin hal-hazırda, əməyin ödənişində və onun təşkilində çox sayda problemlər və çatışmazlıqlar yığılıb qalmışdırdır, və bu problemlər, qeyd olunan məsələlərin həlli zamanı onun islahatların səmərəliliyini əhəmiyyətli dərəcədə azaldır. Daha artıq desək, tam aydın səbəblərə görə, onlar aradan qaldırılmadan, səmərəli qaydada başlıca sosial-iqtisadi islahatların aparılması – pensiya islahatı, mənzil-kommunal təsərrüfatının, vergi sisteminin və b. modernləşdirilməsi qeyri-mümkündür.

Bəs, əməyin ödənişi sahəsində ən iri və kəskin problemlər hansılardır ki, bunlar, öz növbəsində, bir sıra mənfi nəticələrin və çatışmazlıqların mənbəyi və səbəbi ola bilərlər? Əmək haqqının gecikdirildiyi vaxtlar, hələ ki, hamının xatirindədir (hərçənd, yeni Əmək kodeksi bu problemi xeyli dərəcədə neytrallaşdıra bilər). İşçinin ümumi gəlirində əməyin payı son illər ərzində durmadan azalır. Bu, cəmiyyət üçün mənfi nəticələnən, əməyə qarşı apatiyanın yaranmasına, əməyin nüfuzunun aşağı düşməsinə dəlalət edir. Bu gün, ölkə üzrə orta hesabla, işçinin ümumi gəlirində əmək haqqının payı 50%-dən aşağıdır. Gəlirin əsas hissəsini mülkiyyətdən, qiymətli kağızlardan, sahibkarlıqdan əldə edilən dividendlər, müxtəlif sosial müavi-

nətlər, təzminatlar və s. təşkil edir. Əməyin ödənişində differensiallaşma həddindən artıq böyükdür (ancaq rəsmi statistikaya əsasən, əmək haqları arasındakı fərq indi, təxminən, 1:26-dır). İşçilərin qazancındakı bu fərq, ilk növbədə, aşaığadakı amillərdən asılıdır: müəssisənin mülkiyyət formasın; sahə aidiyyəti (çörək zavodu, məktəb, xəstəxana, mətbəə, almaz-brilyant korporasiyası, bank, neft-qazemalı zavodu), regional xüsusiyyətlər (Moskva, İvanovo vilayəti, Şimali Rusiya, Qafqaz və i.a.).

Əməyin ödənişində differensiallaşma miqyaslarına görə Rusiya dünyada birinci yerdədir. Bu və ya digər səbəblərdən ölkə iqtisadiyyatının inkişafında, müəssisələrdə istehsal həcmlərinin artmasında, işçilərin fiziki və intellektual imkanlarının reallaşdırılmasında əməyin ödənişinin stimullaşdırıcı rolunun kəskin şəkildə zəifləməsi müşahidə olunur. Bu gün əmək haqqının ölçüsü onların ixtisas səviyyəsindən, əməyin keyfiyyətindən, istehsalat nəticələrindən və makroiqtisadi göstəricilərin dinamikasından, demək olar ki, asılı deyil. Maddi stimullaşdırma əvəzinə eyniləşdirmə hökm sürür. Əməyin ödənişinin təkrar yaradıcı funksiyası da zəifdir. Hal-hazırda, dövlət tərəfindən təyin olunmuş minimal əmək haqqı fizioloji yaşayış minimumunun 20%-dən cüzi artıq bir məbləğini təşkil edir.

Göründüyü kimi, əməyin ödənişinin təşkilində ən kəskin problemlər sırasında – sosial ədalət prinsiplərinin pozulması, regional xüsusiyyətlərin, əmək şəraitinin, istehsal, büdcə sferaları, dövlət xidməti və b. arasında fərqlərin kifayət qədər nəzərə alınmamasıdır.

Əmək haqqı – özünün, yalnız ona xas olan funksiyalar kompleksini icra edir. Bu, ilk növbədə, *təkrar istehsal* funksiyasıdır. Bu funksiya, işçi qüvvəsinin təkrar istehsalı imkanlarını təmin edir. Ən mühüm funksiyalardan biri – istehsalın inkişafında marağın gücləndirilməsinə istiqamətlənmiş *stimullaşdırıcı* funksiyadır (motivasiya). Əmək haqqı vasitəsilə sosial məsələlər həll edilir, *sosial ədalət* prinsipi reallaşdırılır. Nəhayət, *uçot-istehsal* funksiyasıdır. O, məhsulun qiymətinin əmələ gəlməsində canlı əməyin iştirakı ölçüsünü, ümumi istehsal xərclərində onun payını xarakterizə edir.

Beləliklə, əmək haqqı *çoxfunksiyalıdır*. Ona xas olan funksiyaların hamısı ayrılmaz bir vəhdət təşkil edir, və, yanız birgə halda onun mahiyyəti və məzmununu, onun təşkilinin təkmilləşdirilməsi prosesində yaranan ziddiyyət və problemləri anlamaq mümkün olur. Bunu vurğulamaq vacibdir, çünki, bir çox hallarda, bu funksiyaların qarşı-qarşıya qoyulması, bəzilərinin həddən artıq dəyərləndirilməsi, digərlərinin isə kifayət qədər qiymətləndirilməməsi onların vəhdətinin pozulmasına, bunun nəticəsində isə, əmək haqqının təşkilinə dair birtərəfli, hərdən səhv nəzəri və praktiki qənaətlərə gətirib çıxarır.

Söylənənlərdən belə bir nəticə hasil olur ki, hər bir funksiya digərləri ilə qarşılıqlı əlaqədədir. Misal üçün, uçot-istehsal, təkrar istehsal, stimullaşdırıcı kimi funksiyalar, eyni zamanda sosial rol oynayırlar. Öz növbəsində, təkrar istehsal funksiyasında əmək haqqının stimullaşdırıcı və uçot-istehsal funksiyaları reallaşır. Bununla belə, ümumən vəhdət təşkil etməklə yanaşı, funksiyaların hər biri yaxud bir neçəsi müəyyən dərəcədə digərlərinin əksidir, hətta, onların hansınısa istisna edir, ya da ki, təsrinin nəticələrinin zəiflədir.

Funksiyaların əhəmiyyətli ziddiyyəti ondan ibarətdir ki, bəziləri qazancın differensiallaşmasına səbəb olduğu halda, digərləri onun bərabərləşməsinə gətirib çıxarır. Bərabərləşmə güclənərsə, differensiallaşma zəifləyər, əmək haqqının stimullaşdırıcı təsiri də zəif olar. Bu, tamamilə normal haldır və ziddiyyətlərin daxili vəhdəti və mübarizəsini əks etdirir. Bu, əsla, seçilmiş funksiyaların qeyri-dəqiqliyinə dəlalət etmir.

Əmək haqqını tənzimləyərkən, onun funksiyalarının obyektiv vəhdəti və bir-birinin əksi olması bacarıqla istifadə edilməlidir ki, vaxtı-vaxtında birini gücləndirərək, digərini zəiflətmək mümkün olsun. Bu, imkan verər ki, əmək haqqı, onun obyektiv məzmununa müvafiq, lakin, cəmiyyətin inkişafının xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunsun. Rusiya cəmiyyətinin inkişafının müasir mərhələsində əmək haqqının prioritet təşkil edən funksiyalarından ilk növbədə gücləndirilməsi və fəallaşdırılması zəruri olan funksiyaları – təkrar istehsal və stimullaşdırıcı funksiyalarıdır.

Təkrar istehsal funksiyası – istehsal fəaliyyəti prosesində insanın əmək sərfini təzminatlandırmaq qabiliyyətindən ibarətdir. Əgər öz səviyyəsinə görə əmək haqqı işçi qüvvəsinin hətta sadəcə təkrar istehsalı üçün kifayət deyildirsə, deməli, o, özünün təkrar istehsal funksiyasını icra etmir. Təkrar istehsal funksiyasının reallaşdırılması dərəcəsini, işçinin aldığı əmək haqqının yaxud əməyin ödənişinin minimal həcminin (ƏÖMH) yaşayış minimumuna (fizioloji və s.) nisbəti ilə qiymətləndirmək olar.

Əmək haqqının *stimullaşdırıcı funksiyası* başqa məzmun və təbiətə malikdir. Belə ki, əməyin ödənişinin təkrar istehsal funksiyasının reallaşdırılmasının başlıca (demək olar ki, yeganə) şərti – onun ölçüsüdür. Stimullaşdırıcı funksiya isə tamamilə başqa mexanizm və asılılıqlarla müəyyənləşdirilir. «Artıq pul verərsən – işçinin motivasiyası artar» tipli ifadələr heç də dəqiq və əsaslandırılmış deyildilər. Əməyin ödənişinin stimullaşdırıcı funksiyasının zəifliyinin səbəbi başqadır.

Əmək haqqının «stimullaşdırıcı (motivasiya) *funksiyası*» və «stimullaşdırıcı *rolu*» anlayışlarını ciddi şəkildə fərqləndirmək gərəkdir. Bunlar çox yaxın anlayışlardır, lakin, onları eyniləşdirmək olmaz. Əmək haqqının *stimullaşdırıcı funksiyası* – əməyin bəhrəsi ilə əməyin sərfi arasında qarşılıqlı əlaqənin təmin edilməsi hesabına əməyin lazımi nəticələrinin (daha artıq kəmiyyət, daha yüksək keyfiyyət və i.a.) əldə olunmasına işçilərin marağını yönəltmək xassəsidir. Əmək haqqının *stimullaşdırıcı rolu* – əməyin ödənişi ölçülərinin, işçinin əmək fəaliyyətinin konkret nəticələri ilə qarşılıqlı əlaqəsinin təmin olunmasında ifadə olunur.

Beləliklə, stimullaşdırıcı rolu, stimullaşdırıcı funksiyanın bir növ «mühərriki» kimi təsəvvür etmək olar. «Mühərrik» işləyirsə, deməli, çtimullaşdırıcı funksiya reallaşır, «boş-boşuna fırlanırsa» – deməli, əməyin ödənişinin ölçüləri ilə onun nəticələri arasında sıx əlaqə yoxdur, buna müvafiq olaraq, əmək haqqı da yüksək son nəticənin alınmasında işçinin zəruri marağını təmin etmir. Demək olar ki, stimullaşdırıcı funksiyanın *realizasiya dərəcəsi* əmək haqqının stimullaşdırıcı rolu səviyyəsinə

mütənasibdir. Bu iki anlayışın prinsipial fərqi və üzvi qarşılıqlı əlaqəsi məhz bundan ibarətdir. Əmək haqqının «stimullaşdırıcı (motivasiya) *funksiyası*» və «stimullaşdırıcı *rolu*»nun məzmunun açılmasına belə yanaşmanı, işçinin digər gəlir növlərinə də şamil etmək olar.

Lakin, xatırladaq ki, təkrar istehsal funksiyası kəmiyyət etibarı ilə ölçülə bilməz, o, ya movcud ola bilər, ya mövcud olmaya bilər, əmək haqqının stimullaşdırıcı funksiyası isə ölçülür. Stimullaşdırıcı rolun səviyyəsi, ilk növbədə, əməyin ödənişinin ölçüsü ilə işçinin əmək sərfi, onun nəticələri arasındakı əlaqənin təmin olunmasından asılı olaraq, arta yaxud azala bilər. Deməli, səmərəlilik vasitəsilə onu qiymətləndirmək, təhlil etmək və tutuşdurmaq mümkündür. Əmək haqqının səmərəliliyinin artımına görə, onun stimullaşdırıcı rolunun artması barədə mülahizə yürütmək olar.

Hal-hazırda, ilk növbədə, əmək haqqının yuxarıda baxılmış anlamda stimullaşdırıcı funksiyasının istifadəsinin aşağı səviyyəsi səbəbindən, iqtisadiyyatın real sektorunda, sosial sferada və dövlət xidmətində çalışan işçilərin 50%-dən çoxu əmək fəaliyyəti prosesində özünün fiziki və intellektual potensialını tam dərəcədə reallaşdırmır. Bu, Rusiyanın iqtisadi yüksəlişinin və əhalinin həyat səviyyəsinin artımının əhəmiyyətli ehtiyat qüvvəsidir.

3. Əmək haqqı nədir

Əmək haqqının mahiyyətinin açılması təkcə nəzəri deyil, həm də praktiki əhəmiyyətə malikdir. Misal üçün, (dərsliklərdə hələ də dominantlıq edən) belə bir nəzəri müddəa qəbul edilsə ki, məzmun nöqteyi-nəzərindən əmək haqqı – bu, sərf edilmiş əməyin kəmiyyəti və keyfiyyətinə uyğun olaraq, milli gəlirin işçilər arasında bölüşdürülmüş bir hissəsidir, onda, prinsip etibarı ilə, əməyin ödənişində mövcud olan problemlər bir o qədər də təhlükəli deyillər. Pis haldır, ancaq, belə deyək, ölümcül deyil. Lakin, digər mövqedən də

çıxış etmək olar: əmək haqqı işçinin həyat təminatının əsas hissəsidir. Belə olduqda, adı çəkilmiş beş problemin kəskinliyi maksimumadək güclənir. Bu kontekstdə, işçiyə əmək haqqının vaxtında verilməməsi nə deməkdir? Bu yolverilməzdir, çünki, işçi qüvvəsinin, hətta, sadəcə təkrar istehsalına belə vəsait qallmayacaq. Göründüyü kimi, eyni bir problemin məğzi, nəzəri-metodoloji yanaşmadan asılı olaraq, kəskin surətdə dəyişir.

Deməli, «əmək haqqı» kateqoriyası barədə aydın tsəvvürləri əldə etmək üçün, ilk növbədə onun mahiyyəti, iqtisadi təbiəti, həmçinin, konkret tarixi şəraitdə onun aşkarlanması formasını dərk etmək gərəkdir. İqtisadi ədəbiyyatda əmək haqqının ahiyyətinə dair aşağıdakı cəhətlər ayrıca göstərilir: işçi qüvvəsinin dəyəri, əməyin dəyəri, işçi qüvvəsinin qiyməti, əməyin qiyməti.

Əmək haqqının mahiyyətinin, işçi qüvvəsinin dəyəri kimi traktovka olunması tərəfdarları, öz mövqelərinin əsasına onun formalaşmasının və istifadəsinin təhlili üçün təkrar istehsal yanaşmasını qoyurlar. İşçi qüvvəsinin təkrar istehsal prsosesi dörd fazadan keçir: I – işçi qüvvəsinin foramlaşması fazası (istehsal), II – bölgü fazası, III – mübadilə fazası və IV – işçi qüvvəsinin istehlakı (istifadəsi) fazası.

İşçi qüvvəsinin əmək qabiliyyəti kimi istehsalı yaxud formalaşması prosesi – məktəbdən və ali məktəbdən başlayaraq işçinin hazırlanmasından ibarətdir. Bu proses iş yerində, yenidən hazırlıq və ixtisasartırma müəssisələrində və i.a. davam etdirilir. İşçi qüvvəsinin bölüşdürülməsi və mübadiləsi prosesi, bu spesifik əmtəə bazarında, bir qayda olaraq, sosial tərəfdaşlıq institutunun üç subyektinin: işə götürənlərin, muzdlu işçilərin və dövlətin iştirakı ilə, həmçinin, bilavasitə müəssisədə, şirkətdə baş verir (işə götürmə, işçilərin dövriyyəsi (yerdəyişməsi), işdən çıxma və s.). İşçi qüvvəsinin istehlakı (istifadəsi) birbaşa iş yerində, son nəticəsi konkret ictimai faydalı məhsul, göstərilən xidmət olan əmək prosesində aparılır. Beləliklə, əmək prosesi işçi qüvvəsinin təkrar istehsalının yalnız dördüncü fazasında baş verir. Bunun əsasında belə bir qənaətə gəlmək olar ki, *işçi qüvvəsinin dəyəri*, işçinin əmək qabiliyyətini normal şəkildə bərpasını təmin edən, sağlamlığının möhkəm-

ləndirilməsi üçün, təhsil almaq üçün, işçinin özünün, həmçinin, onun ailə üzvlərinin ixtisasının artırılması üçün zəruri olan vəsaitin dəyəri ilə müəyyənləşdirilir. Bu halda, tələbatın davamlı artımı nəzərə alınır. Beləliklə, işçi qüvvəsinin dəyəri işçinin əmək prosesində sərfiyyatından asılı olaraq, həm də, tarixi və mənəvi aspektlərlə yanaşı, gələcək işçi qüvvəsinin təkrar istehsalı ilə bağlı olan xərcləri də nəzərə alır.

İnsan enerjisi sərf edilməklə əməyin özünün icra olunmasının, yalnız, işçi qüvvəsinin təkrar istehsalının dördüncü fazasında baş verməsindən çıxış edərək, belə bir nəticəyə gəlmək olar ki, *əməyin dəyəri*, bu proses ərzindəki sərfin kəmiyyəti ilə müəyyənləşdirilir. Belə olduğu halda, əmək haqqı, əməyə görə ödəniş olaraq, yalnız, bilavasitə işçinin özünün yeni əmək prosesində iştirak etmə qabiliyyətlərinin sadəcə bərpasını təmin edir. Əmək haqqının mahiyyətinin müəyyənləşdirilməsinə belə yanaşma, onun təkrar istehsal funksiyasını köklü şəkildə daraldır.

Əmək haqqının iqtisadi təbiətinin son variantının seçilməsi üçün, *nəyin* əmtəə, alqı-satqı obyekti olması tərifinin verilməsi mühüm əhəmiyyət daşıyır. Nəzərə alınsa ki, əmək prosesi, insanın məqsədəuyğun fəaliyyəti olaraq, işə qəbul haqqında bazar sövdələşməsi zamanı deyil, onun iş yerində həyata keçirilir, belə olduqda, əmək – əmtəə, alqı-satqı obyekti ola bilməz. Əmtəə – işçi qüvvəsidir. Hər bir əmtəə kimi, işçi qüvvəsinin özünün də qiyməti var, və bu qiymət tələbat və təklifdən, rəqabətdən asılıdır və əmək haqqı formasını qəbul edir.

Əmək haqqının mahiyyətinin təhlilini ümumiləşdirərək, belə bir tərif vermək olar: əmək haqqı – işçi qüvvəsinin dəyərinin, qiymətinin bir formasıdır. Baş verənlərə səthi nəzər salınarsa, əmək haqqı – əməyin ödənişi kimi çıxış edir.

Əmək haqqının konkret müəssisədə ödənildiyi ilə əlaqədar, onun kəmiyyəti, hətta, müqavilə (işə qəbul zamanı razılaşdırılmış) kəmiyyətinə nisbətən, həmin təsərrüfat subyektinin fəaliyyətinin nəticələrindən, ayrı-ayrı işçilərin əməyinin səmərə və keyfiyyətindən asılı olaraq dəyişə bilər. Müəssisənin artmaqda olan gəlirinin bir hissəsi, işçilərin sərf etdiyi əməyin kəmiyyəti və keyfiyyətinə müvafiq olaraq, onların *həyat vəsaiti fondunu* zənginləşdirə bilər. Bununla da, həyat vəsaiti fondu əmək haqqı

fondu kimi çıxış edir. Əmək haqqının artmaqda olan səviyyəsi, onun iqtisadi təbiətinə, mahiyyətinə təsir etmədən, onun funksiyalarının daha tam şəkildə icrasına rəvac verir.

4. Maddi istehsal sferasında əməyin ödənilməsinin tənzimlənməsi

Təcrübədə, əməyin mükafatlandırılmasının, əməyin nəticələrinin, işçinin ixtisas səviyyəsinin qarşılıqlı əlaqəsi, əməyin ödənişinin formalarının, sistem və modellərinin müxtəlif variantlarının seçimi ilə tənzimlənir.

80-ci illərin axır-90-cı illərin əvvəllərində bir çox təsərrüfat rəhbərləri və mütəxəssislər ənənəvi tarif sisteminin, zəmanətli tarif stavkalarının və vəzifə məvaciblərinin, əməyin vaxtamuzd və işəmuzd ödənişinin təcrübədə tətbiq olunan şəkildə istifadəsindən imtina etməyə çalışırdılar. Bu, aşağıdakı cəhətlərlə izah olunur. Məhz zəmanətli stavka və maaşlar əmək haqqı ölçüsünün və işçilərin mövcud qabilliyyətlərinin inkişaf etdirilməsi və reallaşdırılmasında maraqlarının, işə görə mükafatlandırılmanın və istehsalın müsbət nəticələrinin qarşılıqlı əlaqələrinin başlıca «məhdudlaşdırıcısı» kimi çıxış edirlər. Bəs, maddi stimullaşdırma sferasında onilliklər ərzində dominantlıq etmiş stavka və maaşlara qarşı belə mənfi münasibət nəyə görə yaranmışdır? Bir neçə səbəb qeyd edək.

Növbəti cümlə nəyi bildirir?

Birincisi, əməyin stavka yaxud maaş verildiyi ölçüsündən artıq əmək sərfi, ya onun ödənişinin artmasını nəzərdə tutmur, ya da ki, bu artım əhəmiyyətsizdir və heyət üçün hiss olunacaq dərəcədə deyil. Bu səbəbdən işçilər tarif stavkalarını və vəzifə maaşlarını, ənənəvi olaraq, əməyin elə bir kəmiyyət və keyfiyyət səviyyəsi həddi ilə əlaqələndirirlər ki, bu həddin aşması onlar üçün maddi cəhətdən sərfəli deyil. Belə olduqda, əksər halda belə bir prinsip işə keçir: əməyin ödənişi müəyyən

stavka yaxud maaşdan yüksək deyildirsə, artıq və daha yaxşı işləmək nəyə gərəkdir?

İkincisi, ödəniş ölçüsünün əməyin ölçüsünü qabaqladığı bir hal olan stavka və maaşların hesablanması qaydası (bu zaman stavkanın yaxud maaşın zəmanətli ölçüsü təyin olunur, sonra isə «buna rəğmən» əmək sərfi gözlənilir), işçi tərəfindən müvafiq nəticələrə nail olmadan tam ödəniş əldə etmək imkanına yol verir. Bu halda isə işçidə, birinci hal ilə müqayisədə bir az fərqli fikirlər yaranır: ən azı, zəmanətli stavka yaxud maaş onsuz da veriləcəkdirsə, tarif sisteminin müəyyənləşdirdiyi nəticələrin nail olunmasına dəyərmi?

Stavka və maaşların ödənişinin belə qaydası işçiləri «boşaldır», «tənbəlləşdirir» və, əlbəttə, işçidə yüksəksəmərəli əməyə qarşı maraq yaratmır. Bir az da artıq desək, bu qayda, klassik anlamda, əməyə görə bölgü prinsipinə cavab vermir, çünki, qeyri-bərabər əməyin bərabər mükafatlandırmasına yol verilir. Fəsilin əvvəlində haqqında deyilmiş, zəhmətkeşlər tərəfindən öz fiziki və intellektual imkanlarından şüurlu surətdə natamam istifadənin səbəblərindən biri də, məhz, bundan ibarətdir.

Üçüncüsü, zəmanətli stavka və okladlar, əsasən, zəmanətli əmək haqqı fondları formalaşdırılan təsərrüfat hesabı modellərinə cavab verirdi. Təsərrüfatçılığın digər tərəqqipərvər modellərinə, ələlxüsus da, bazar münasibətlərinə onlar nəinki cavab vermir, hətta, ziddiyyət də yaradır, çünki, bu halda əməyin ödənişi fondu (ƏÖF) tam şəkildə müəssisələrin təsərrüfat fəaliyyətinin yekunlarından, istehlakçının məhsula olan tələbatından, mənfəətin ölçüsündən asılıdır. Belə olduqda isə, artıq, əmək kollektivi konkret yekun nəticələri əldə etmədən zəmanətli tarif stavkası və maaşları əvvəlcədən müəyyənləşdirməyi mümkün hesab etməyə heç bir iqtisadi əsas olmur, çünki, sonradan, qazanılmış əməyin ödənişi fondunun həcmi kifayət qədər olmadığından, bu stavka və maaşlar işçilərə verilməyə də bilər. Başqa sözlə, zəmanətləndirilməmiş dinamik ƏÖF-nu zəmanətli stavka və maaşlarla işçilər arasında bölüşdürmək məntiqsiz olardı. Bu, hələ yaranmamış məhsulun vaxtından əvvəl mexaniki bölgüsünə bərabər olardı.

Göstərilmiş arqumentlər, tarif stavkaları və vəzifə maaşlarının səmərəsizliyinə dəlalət edir. Bu arqumentlər digər sistemlərə, məsələn, əmək haqqının tarifsiz, reytinq sisteminə keçidin məqsədəuyğunluğunu təsdiqləyir, ələlxüsus da ki, belə keçidin hüquqi imkanları artıq yaradılmışdır. Ölkənin bir sıra müəssisələrində belə modellər artıq yaradılmış və müvəffəqiyyətlə istifadə edilir. Onlar bir çox cəhətdən bir-birinə bənzəyir və, müxtəlif meyarlardan asılı olaraq, əməyin ödənişi üçün nəzərdə tutulmuş vəsaitin pay əsasında bölgüsünə istinad edir.

Misal üçün, «Göz mikrocərrahiyyəsi» Tibbi Elmi-Texniki Kompleksində (TETK) əmək haqqı sistemi *tarifsiz, pay bölgüsü* üzərində qurulmuşdur. Rəhbər və mütəxəssislərin əmək haqqını TETK-da qəbul edilmiş minimal stavkaya nisbətən artıran əmsallar nəzərdə tutulmuş sosial ədalət şkalası işlənib hazırlanmış və təsdiq edilmişdir. Xadimələr üçün əmsal 1-ə bərabərdir, tibb bacıları üçün – 2,2, həkimlər üçün – 3,0, şöbə rəhbərləri üçün – 3,5, baş müdirin müavini üçün – 4,0, baş müdir üçün – 4,5-dir.

TETK-da əsas fəaliyyətitn nəticələrinə görə aylıq və rüblük mükafatlandırma tətbiq olunmur. Lakin, bütövlükdə müəssisənin fəaliyyyətinin iqtisadi səmərəliliyinin artırılmasına xidmət edən yüksək göstəricilər əldə etmiş ayrı-ayrı əməkdaşlar birdəfəlik mükafatla mükafatlandırıla (həvəsləndirilə) bilirlər. Bu mükafatlar, TETK baş təşkilatının elmi-texniki və sosial inkişaf fondu vəsaiti hesabına ödənilir.

Veşkino ticarət avadanlığı kombinatında (Moskva vilayəti) işçilərin əmək haqqı üç amildən asılıdır: a) işçinin ixtisas səviyyəsindən; b) əməkdə iştirakı əmsalından (ƏİƏ); c) işə sərf etdiyi vaxtdan. Kombinatda əmək haqqının təşkilinin başlıca elementi – *ixtisaslaşma səviyyəsidir*. O, əmək kollektivinin bütün üzvləri üçün müəyyənləşdirilir və keçən dövr ərzində işçinin faktiki əmək haqqının müəssisədə minimal əməyin ödənişi səviyyəsinə bölünməklə alınan qismət kimi hesablanır. İşçinin ixtisas səviyyəsinin qiymətləndirilməsi meyarı olaraq, onun təhsili, ixtisas üzrə bacarığı, təşəbbüskarlığı, tapşırılmış işə görə məsuliyyəti hissi, yaradıcı əmək qabiliyyəti və s. qəbul edilir.

İxtisaslaşma səviyyələrindən (ballardan) asılı olaraq, bütün işçilər 10 ixtisaslaşma qrupu üzrə bölüşdürülür (bax cədvəl 19).

Cədvəl 19

İxtisaslaşmanın qiymətləndirmə sistemi

İxtisaslaşma qrupları	Vəzifə	İxtisaslaşma balı
I	Kombinatın direktoru	4,5
II	Baş mühəndis	4,0
III	Direktor müavini	3,6
IV	Aparıcı bölmələrin rəhbərləri	3,25
V	Aparıcı mütəxəssislər	2,65
VI	Ali ixtisaslı mütəxəssislər və fəhlələr	2,5
VII	II kateqoriyalı mütəxəssislər və yüksəkixtisaslı fəhlələr	2,1
VIII	III kateqoriyalı mütəxəssislər və ixtisaslı fəhlələr	1,7
IX	Mütəxəssislər və fəhlələr	1,3
X	İxtisası olmayan fəhlələr	1,0
V – XI	Aparıcı mütəxəssislər	2,65

İxtisas səviyyəsindən əlavə, kombinatın bütün işçilərinə əməkdə iştirak əmsalı da verilir. Onun müəyyənləşdirilməsi dövriliyi, həmçinin, əmsalın qiymətinə təsir edən göstəricilər toplumu, bu təsirin ölçüsü xüsusi əsasnamədə göstərilir. Qeyd edək ki, ƏİƏ, bütövlükdə əməyin nəticələrini qiymətləndirmək üçün yox (bu funksiyanı ixtisaslaşma səviyyəsi icra edir), yalnız əmək haqqının kəmiyyətini korreksiya etmək üçün istifadə olunur. ƏİƏ isə əməyin ödənişi fondunun yalnız 7-10%-nin

yenidən bölgüsünə təsir edir. İxtisaslaşma səviyyəsi və əməkdə iştirak əmsalının tətbiqi ilə aparılmış əmək haqqı hesablamaları, konkret işçinin iş vaxtının qeydiyyatı tabelində göstərilmiş faktiki işlədiyi vaxta istinad edir.

Əməyin tarifsiz ödəniş sistemləri sonrakı inkişafını Moskva BDİİ təmir-tikinti idarəsində, Georgiyevsk armatur zavodunda və digər müəssisələrdə tapdı. Son zamanlar belə modellər qeyri-dövlət sektoru müəssisələrində (kirayə, kooperativ, səhmdar və b) daha geniş yayılır. Onlar öz spesifika və xarakterik xüsusiyyətlərinə malikdir.

Əməyin tarifsiz ödəniş sistemlərinin nəzərdən keçirilmiş variantlarından başqa, bölmələrin və ayrı-ayrı işçilərin əməyinin nəticələrinin ekspert qiymətləndirilməsi əsasında normativ-pay bölgüsü tətbiq edilir. *Ekspert dəyərləndirilməsi*, əməyin nəticələrini operativ qaydada nəzərə almaq imkanı verir. O, hər ay müəssisə, yaxud istehsalat bölməsi səviyyəsində formalaşdırılmış ekspertlər qrupu tərəfindən aparılır. Bu qrupların tərkibinə müvafiq qaydada müəssisə yaxud bölmənin rəhbərləri, mütəxəssisləri, qabaqcıl işçiləri daxil edilir.

Hər bir ekspert, öz nöqteyi-nəzərindən, müəssisənin istehsalat bölmələrinin işini əks etdirən qiyməti müstəqil qaydada müəyyən edir. Bu qiymətlər ümumiləşdirilir və beşballıq sistem üzrə yekun qiymət təsdiqlənir. Bölmənin proqram və tapşırıqları, normalar yerinə yetirildikdə, işçilər tərəfindən vəzifə borcları və funksiyaları icra olunduqda, 4 qiyməti qoyulur. Xırda pozuntulara yol verildikdə, struktur bölmə yaxud işçi 3 qiymət alır. İşdə ciddi nöqsanlara görə, tapışırıqlar, müqavilələr, şərtlər yerinə yetirilmədikdə – 2 qiyməti yazılır. Tapşırıqların, normaların artıqlaması ilə yerinə yetirilməsi əməyin nəticələrinin əhəmiyyətli artımına səbəb olarsa, ali qiymət qoyula bilər. Əməkdə iştirak əmsalının (ƏİƏ) müəyyənləşdirilməsi üçün xüsusi şkalalar işlənib hazırlanır (bax cədvəl 20).

Şkala üzrə müəyyənləşdirilmiş ƏİƏ, həm müəssisənin bütövlükdə ƏÖD-nün, həm də onun əlavə hissəsinin (həvəsləndirmə fondunun) bölüşdürülməsində istifadə oluna bilər.

Cədvəl 20

ƏİƏ* yekun qiymətləri və kəmiyyətləri şkalası

Ekspert qiymətinin hesablanmış orta qiyməti	Ekspert qiymətinin qəbul olunmuş qiyməti	ƏİƏ-nin qiyməti
4,75-5,0	5,0	1,5
4,25-4,74	4,5	1,25
3,75-4,24	4,0	1,0-0,75
3,25-3,74	3,5	0,5-0,0
2,75-3,24	3,0	
2,75-dən aşağı	0,0	

* *«Организация оплаты труда работников предприятий в условиях либерализации цен и приватизации (рекомендации)». М., 1992. S. 141 –əsasında işlənib-hazırlanmışdır.*

Müəssisə bölmələri rəhbərlərinin və mütəxəssislərin əməyinin ödənişinin, işçilərin gəlirlərinin və istehsalatın müsbət nəticələrinin qarşılıqlı əlaqəsinin qeyri-ənənəvi sistemlərinin perspektiv variantlarından biri də – «*dəyişgən məvaciblər*» *sistemidir*. Onun mahiyyəti, ay ərzində işin nəticələri nəzərə alınmaqla, gələn ayda işçilər üçün yeni vəzifə maaşlarının təyin olunmasından ibarətdir. Bu halda, ən mühüm texniki-iqtisadi göstəricilərin artımının ya azalmasının hər faizinə uyğun olaraq, maaşlar da artır ya azalır. Misal üçün, attestasiyanın nəticələrinə görə, rəhbərin maaşı 15000 rubl həcmində müəyyənləşdirilib. Cari ayda onun rəhbərlik etdiyi kollektiv əməyin məhsuldarlığına (mənfəətə və s.) dair tapşırığı 120% yerinə yetirib. Belə olduqda, müəyyən olunmuş normativdən (göstərici artımının hər 1%-nə görə maaşın 1%-i) çıxış edərək, işəi əlavə olaraq 3000 rubl da alacaq, onun yeni maaşı isə 18000 rubl olacaq.

Beləliklə, əməyin ödənişinin təşkilinin tarifsiz və digər qeyri-ənənəvi formalarının bütün baxılmış variantlarının hər birinin öz üstünlüyü var. Onlar nisbətən sadədir, yüksək son nəticələrin əldə edilməsində, daxili istehsalat ehtiyatlarının reallaşdı-

rılmasında işçiləri və kollektivləri maraqlandırmaq qabiliyyətindədirlər. Bütövlükdə modellər özünümaliyyələşdirmə və bazar iqtisadiyyatı şərtlərinə cavab verirlər. Bununla yanaşı, onların malik olduğu ayrı-ayrı çatışmazlıqları ümumiləşdirilmiş şəkildə aşağıdakı kimi ifadə etmək olar.

Birincisi, əməyin ödənişinin təşkilinin göstərilmiş bu variantlarında əmək haqqı hesablanarkən, baza göstəricilərinin bütün onlara xas olan çatışmazlıqlarla birgə istifadəsi nəzərdə tutulur (məsələn, keçmiş dövr ərzində işçinin faktiki əmək haqqı, son üç-altı ay ərzində əmək haqqı və i.a.). Bir qayda olaraq, «baza»-ya istinad etdikdə və «iştirakdan» çıxış edərək hesablamalar apararkən, faktiki xərclər və işçinin real nəticələri kifayət qədər nəzərə alınmır.

İkincisi, bunlar əmək kollektivinin zəhmətinin ümumi nəticəsinə işçinin faktiki əmək sərfini deyil, daha artıq dərəcədə onun potensial imkanlarını nəzərə alırlar. Misal üçün, qeyd edildiyi kimi, Veşkino ticarət avadanlığı kombinatında tətbiq olunan tarifsiz əmək haqqı sistemində ƏİƏ tətbiqi ilə (yəni, real nəticələr nəzərə alınmaqla) əməyin ödənişi üçün ayrılmış vəsaitin cəmi 7-10% bölüşdürülür.

Üçüncüsü, işçinin əmək sərfi ilə çox zəif əlaqədə olan müxtəlif növ mükafatlar, əlavə ödəmələr bu modellərdə qalmaqda davam edir. Bu, onların təşkili mexanizmini mürəkkəbləşdirir və əməyin sərfi ilə ödənişin ölçüsünün daha müvafiq olmasına əsla xidmət etmir.

Bütün bunlar əməyin ödənişinin təşkilində, təkcə ölkəmizin deyil, həm də xarici təcrübə nəzərə alınmaqla, yeni yanaşmaların axtarılması zərurətini şərtləndirir. Bazar iqtisadiyyatlı, inkişaf etmiş ölkələr, müəssisə və təşkilatlarda əməyin ödənişinin təşkili və əməyin motivasiyasının digər formaları sahəsində böyük və zəngin təcrübə toplamışlar, və bu təcrübə müəyyən dərəcədə Rusiyada istifadə oluna bilər. Lakin, nəzərə almaq gərəkdir ki, hər bir ölkədə, o cümlədən, bizim ölkəmizdə əmək haqqının təşkilini öz ənənələri və öz təcrübəsi var ki, xalqın mentalitet xüsusiyyətləri və yaşanan dövrün spesifikası nəzərə alınmadan, bunlara tam etinasız yanaşmaq qətiyyən olmaz. Bu səbəbdən, milli və xarici təcrübənin uzlaşdırılması və bir-birini tamamlamasından danışmaq mümkündür. Misal

üçün, əmək haqqının təşkilinin sırf amerikan üsullarının Yaponiyada tətbiqi cəhdləri uğursuzluqla nəticələndi.

Son illərdə ABŞ-da, Fransada və başqa ölkələrdə *xidmətlərin qiymətləndirilməsi* əsasında əmək haqqının fərdiləşdirilməsi geniş yayılır. Bu qiymətin məğzi aşağıdakından ibarətdir. Eyni ixtisaslaşma səviyyəsinə malik olan və eyni vəzifədə çalışan işçilər, öz təbii qabiliyyətləri, stajı, məqsədləri, motiv və canatmaları sayəsində, işdə fərqli nəticələrə nail ola bilərlər. Bu fərq öz əksini əmək haqqının səviyyəsində tapmalıdır, və, buna nail olmaq üçün, dərəcə (yaxud vəzifə) çərçivəsində maaşların diferensiallaşmasından istifadə olunur.

ABŞ-da mühəndis-texniki heyətin xidmətlərinin qiymətləndirilməsi kompaniyaların 80%-də aparılır. Fəhlələr üçün bu sistem şirkətlərin təxminən 50%-də tətbiq olunur. Fransada əmək haqqının fərdiləşdirilməsi əsasən idarəçi işçilər və mütəxəssislər üçün tətbiq olunur. Misal üçün, Fransanın «ZM» kimyəvi firması, işçilərin əksəriyyəti tərəfindən dəstəklənən, fərdi xidmətlərin qiymətləndirilməsinə əsaslanan əmək haqqı siyasətini 3800 işçi barəsində 1986-cı ildən başlayaraq aparır.

Əməyin stimullaşdırılmasının milli və xarici təcrübəsinin uzlaşdırılması əsasında, RF və MDB-nin bir sıra müəssisələrində, misal üçün, «Mediz» müəssisəsində (Daşkənd), «Manqışlaqneft» İB Qİİ, «Vilar» müəssisəsində və b., öz şəxsi əməyinin və bütövlükdə təşkilatın işinin nəticələrində işçi heyətin maraqlı olmasını təmin edən əməyin ödənişinin yeni sistemi işlənib hazırlanmış və tətbiq olunmuşdur[1].

Onun əsasına *müxtəlif keyfiyyətli əməyin ödənişi «çəngəlləri»* qoyulmuşdur. Bütün işçilər, ixtisaslaşmadan asılı olaraq, ixtisaslaşma qruplarına bölüşdürülür. Hər bir ixtisaslaşma qrupuna əməyin ödənişinin nisbəti «çəngəli»nin konkret qiyməti müvafiq olur. Təbii ki, ixtisaslaşma qrupu nə qədər yüksək olarsa, nisbətlər «çəngəli»nin qiyməti də bir o qədər böyük olar. Maddi stimullaşdırmanın təşkilinin belə mexanizmi, təkcə müxtəlif keyfiyyətli əməyin ödənişində tələb olunan, o cüm-

[1] *Волгин Н.А.* Методика разработки и внедрения бестарифной рыночной модели оплаты труда и ее разновидностей на предприятиях с различными формами собственности. М., 1991.

lədən, fəhlə və rəhbərlik arasında, differensiallaşmanı təmin etmir, həm də, xüsusi əhəmiyyətə malik olan cəhət – işçinin real əmək sərfi və əməyinin faktiki nəticələrini qeydə almaq imkanının yaranmasıdır.

Belə olduqda, işçinin əməyinin ödənişi ölçüsü (ZPi) aşağıdakı məntiqi düsturla hesablanır:

$$ZPi = \frac{K_i}{\sum_{i=1}^{n} K_i} \cdot ƏÖF ,$$

burada ƏÖF – müəssisənin (sexin, sahənin, briqadanın) əməyin ödənişi fondu; n – müəssisədə (sexdə, sahədə, briqadada) işçilərin sayı; K_i – işçinin ixtisaslaşma səviyyəsini və əməyinin nəticələrini əks etdirən əmsaldır.

ΣK_i – müəssisənin (sexin, sahənin, briqadanın) bütün işçiləri üzrə, onların əməyinin nəticələrindən asılı olaraq, nisbətlər «çəngəli»nin müəyyən edilmiş diapazonunu daxilində əmsallarının hesablanmış cəmidir.

Bu düstur göstərir ki, konkret işçi, ixtisaslaşma səviyyəsi və əməyinin nəticələrindən asılı olaraq, vahid əməyin ödənişi fondunun hansı hissəsini almalıdır[1]. Bununla da praktikada kollektiv və şəxsi maraqların, müəssisənin və hər bir işçinin maraqlarının, əməyin və kapitalın marağının üzvi şəkildə uzlaşması təmin edilir.

Lakin, işçinin əmək haqqının müəssisənin son nəticələrindən düz mütənasib asılılığının təmin olunması üçün, əməyin ödənişi fondunun kollektivin maliyyə-təsərrüfat fəaliyyətinin yekun nəticələrindən müvafiq asılılığı gərəkdir. Müəssisələrin müstəqilliyi şəraitində əməyin ödənişi vəsaitinin formalaşdırılması məsələlərinin həlli zamanı, təşkilatın mənfəətindən (gəlirindən)

[1] *Волгин Н.А., Николаев С.В.* Доходы работника и результативность производства. М., 1994; Социально-трудовая сфера России в переходный период: реалии и перспективы. М., 1996.

müəyyən faiz şəklində, «ƏÖF yaranmasının yerli normativləri» adlanan kəmiyyətləri müəyyənləşdirmək məqsədəuyğundur.

Beləliklə, qazanc bu halda, ən azı, üç şərtdən asılı olacaq: a) işçinin ixtisaslaşması; onun faktiki əmək sərfi; c) bütövlükdə müəssisənin işinin nəticələri. Ümumiləşdirərək, söyləmək olar ki, müxtəlif müəssisələrdə, onların spesifikası, işçilərinin sayı və s. nəzərə alınmaqla, işçilərin əməyinin ödəniş nisbətləri şəbəkəsi işlənib hazırlanması və əmək haqqının təşkilində onun istifadəsi mümkündür. Nisbətlər şəbəkəsi, misal üçün, aşağıdakı şəkildə ola bilər (bax cədvəl 21).

Əməyin ödənişi təşkilinin nəzərdən keçirilmiş bu modelinin reallaşdırılması, fikrimizcə, müxtəlif mükafat və əlavə ödənişlərin tətbiqi miqyasları və diapazonunu azaltmağa, hətta, onlar

dan tam imtina etməyə də imkan verər. Bu, onunla şərtləndirilir ki, hal-hazırda mükafatlar və əlavə ödənişlər mexanizmi ilə stimullaşdırılan göstəricilər, əmək haqqının təşkilinin təklif olunan variantında müxtəlif keyfiyyətli əməyin ödənişi zamanı nisbətlər «çəngəli»nin düzgün tətbiqi ilə nəzərə alına bidər. Bundan əlavə, təklif olunan modeldə vahid ƏÖF işçilər arasında, praktiki olaraq, qalıqsız bölüşdürülür, bu səbəbdən, mükafatların və əlavə ödənişlərin verilməsi üçün daimi mənbə olmayacaq. Bütün bunlar, əməyin ödənişi mexanizmini xeyli sadələşdirər, onu işçilər üçün daha sadə və anlaşıqlı edər.

Əməyin ödənişinin həmin bu modelinin qurulmasının əsas prinsiplərini saxlayaraq, onun təşkilinin ancaq ayrı-ayrı elementlərini dəyişdirməklə və əlavə etməklə, özünün tətbiq xüsusiyyətinə malik olan bir sıra müxtəlif növ və modifikasiyalar almaq mümkündür, bununla da, müxtəlif müəssisə və təşkilatların işçilərinin əməyinin stimullaşdırılması prosesində əlavə üstünlüklər qazanmaq olar. Bundan əlavə, bu model, gəlirlərin əməyə və mülkiyyətə görə bölügüsünün inteqrasiyası məqsədilə səmərəli istifadə oluna bilər[1].

[1] *Волгин Н.А., Плакся В.И., Цьовх С.А.* Стимулирование производительного труда. Брянск, 1995.

Cədvəl 21

Müəssisələrdə müxtəlif kvalifikasiya qruplarına aid olan işçilərin əməyinin ödənişinin nisbətlər şəbəkəsinin variantı

Göstəricilər	İşçilərin kvalifikasiya qrupları							
	I	II	III	IV	V	VI	VII	VIII
Müxtəlif keyfiyyətli əməyin ödənişində nisbətlər «çəngəli» minimal ödənişlə müqayisədə	1,0-1,8	1,4-2,4	1,9-3,1	2,5-3,9	3,2-4,8	4,0-5,0	4,5-5,5	5,0-6,0
Fəhlələr	X	X	X					
Qulluqçular, texniklər		X	X					
Bütün istiqamətli mütəxəssislər			X	X	X			
İstehsalat bölmələrinin, xidmət və şöbələrin rəhbərləri və onların müavinləri				X	X	X		
Zavod direktoru, baş mühəndis, zavod direktorunun müavini						X	X	X

Qeyd: «X» simvolu, konkret «çəngəlin» müəyyən işçi qrupuna tətbiq olunmasına işarə edir.

Suallar və tapşırıqlar

1. İşçinin gəlir növlərini əhəmiyyətinə uyğun sadalayın.
2. Əməyin ödənişinin təkrar istehsal və stimullaşdırıcı rolunun artırılması məqsədilə (dövlət, region rəhbərliyi, müəssisə rəhbərliyi və i.a. tərəfindən) hansı tədbirlər görülməlidir?
3. Zəmanətli tarif stavkalarının (maaşların) təyin olunması və müəssisələrdə əməyin ödənişi fondunun formalaşdırılması mexanizmi arasındakı ziddiyyətlər hansıdır və bu ziddiyyətləri necə aradan qaldırmaq olar?
4. Öz müəssisənizdə direktor olsaydınız, Siz əməyin ödənişinin hansı formasından, sistemindən, modelindən istifadə edərdiniz?
5. Əməyin ödənişinin hansı problemini sosial təhlükəsizliyi mürəkkəbləşdirən problemlərə aid etmək olar və nə səbəbdən: a) əmək haqqının verilməsində ləngitmələri? b) zəif təkrar istehsal funksiyasını? c) stimullaşdırıcı funksiyanın zəifləməsini? d) əməyin ödənişində əsassız yaranmış kəskin differensiallaşmanı? e) işçinin ümumi gəlirində əməyin ödənişinin payının azalmasını?
6. Mühəndis dövlət ali məktəbini bitirmişdir. Dövlət məşğulluq mərkəzində ona iş yerinin tapılmasında köməklik göstərdilər – dövlət maşınqayırma müəssisəsi. Bu müəssisədə onun əmək haqqı mahiyyət etibarı ilə nəyi ifadə etməlidir: a) əməyin dəyərini; b) işçi qüvvəsinin dəyərini; işçi qüvvəsinin qiymətini; əməyin qiymətini?

© Волгин Н.А., 2002

XXIX Fəsil

SOSİAL TƏRƏFDAŞLIQ BAZAR İQTİSADİYYATININ İNSTİTUTU KİMİ

1. **Sosial tərəfdaşlığın mahiyyəti**

Sosial tərəfdaşlığın nə olması barəsində bir birinə tam zidd iki anlayış vardır.

Birincisi. Sosial tərəfdaşlıq – sinfi mübarizənin əvəz edən muzdlu işçilər və işverənlər arasındakı qarşılıqlı münasibətlər sistemidir. Bu anlayışa əsasən, indiki zamanda inkişaf edən ölkələrdə baş verən müxtəlif sosial-iqtisadi dəyişikliklərə görə sosial-əmək münasibətlərə sinfi-antaqonist yanaşmanın qeyri- konstruktiv olması özünü kifayət gədər aydın göstərib. Buna görə də sinfi ziddiyyətlərdən uzaqlaşma prosesi başlanıb. Sinfi münaqişə tədricən cəmiyyətdə müxtəlif maraqları təmsil edən təşkilatlar arasındakı münaqişəyə çevrilir ki, bunun da danışıqlar yolu ilə qabağını almaq olur. Bu zaman sosial tərəfdaşlığa cəmiyyətdə mövcud olan maraqların uzlaşdırılması üsullarından biri kimi baxılır.

İkincisi. Sosial tərəfdaşlıq – bir birinə zidd maraqların razılaşdırılması üsulu, sosial-iqtisadi problemlərin həlli və muzdlu işçilər ilə sahibkarlar sinfi arasında münaqişənin tənzimlənməsi metodudur. Müasir Qərb cəmiyyətində iqtisadi və sosial sahədə baş verən dəyişikliklərə baxmayaraq, muzdlu işçilər və işverənlərin maraqları arasındakı sinfi fərq kimi qalmaqdadır. Bu halda sosial

tərəfdaşlıq sinfi ziddiyyətlərin yumşaldılması üsulu, cəmiyyətdə siyasi sabitlik və sosial barışıqlığın əldə edilməsi şərtidir.

Gördüyümüz kimi, hər iki mövqenin tərəfdarları sosial partnyorluğun mövcüdiyyəti zərurətini etiraf edir, lakin onun mahiyyətini müxtəlif yollarla müəyyənləşdirirlər. Sosial tərəfdaşlığa sinfi mübarizənin əksi kimi yanaşanlar ona əsaslanırlar ki, müasir kapitalizm artıq klassik anlayışındakı kapitalizm deyildir. Bu yeni bir cəmiyyətdir, burada daha kapitalistlər və muzdlu işçilər yoxdur, yalnız hüquqlu bərabər tərəfdaşlar vardır ki, onlar fikir ayrılığı hallarda öz aralarında razılığa gələ bilərlər. Onlar belə düşünürlər ki, müasir kapitalizm XX əsrin, yəni iki bir- birinə zidd sinfin mövcud olduğu əsrin kapitalizmindən fərqlənir. Bu gün, əsasən, sosial-demokrat hərəkatının cəhdləri ilə müasir cəmiyyətin sosial və siyasi strukturlarında çox mühüm dəyişikliklər baş vermişdir. Sinfi münasibətlərin əvəzinə maraqları fərqlənsə də, lakin bir birindən köklü fərqli olmayan sosial qruplar və təbəqələr arası münasibətlər gəlib. Strateji baxımdan bu maraqlar üst-üstə düşür və kapitalist təsərrüfatının məhv edilməsi ilə deyil, onun saxlanması və inkişafı ilə bağlıdırlar. Carı maraqlara gəldikdə isə onlar üst-üstə düşə və düşməyə də bilər. Maraqlar üst-üstə düşməyən hallarda onları danışıqlar yolu ilə, sosial təfəfdaşlıq sistemi vasitəsilə asanlıqla razılaşdırmaq olar.

Bu baxımdan sosial tərəfdaşlığa sosial-əmək münasibətlərin tənzimlənməsinin daha cəlbedici forması, kapitalist cəmiyyətinin dinc yolla təkamülünü təmin edən üsül kimi baxılır. Bu zamanda sinfi münagişə təşkilatlar arası, yəni həmkarlar ittifaqları ilə işverənlərin birliyi arasındakı münagişəyə çüevrilir. Muzdlu işçilərin və kapitalistlərin məqsədlərinin üst-üstə düşməsi tərəfdaşlıq münasibətlərinin formalaşmasının əsas şərtidir. Həm də əgər bu uyğunlaşma perspektiv məqsədlər səviyyəsində olsa, uzun müddətli və kifayət gədər sabit tərəfdaşlıq mümkündür. Xüsusi məqsədlər səviyyəsində olanda isə müvəqqəti tərəfdaşlıq yaranır. Lakin hər bir halda məqsədlər üst-üstə düşməsə sosial tərəfdaşlıq mümkün deyil. Muzdlu işçilər və işverənlər, onların fikrincə bir tamın iki tərəfidir. Onlar biri birindən ayrı mövcud ola bilməzlər. Və əgər

onların arasında münagişə yaranarsa, onun vaxtında və səmərəli həlli yollarını tapmaq hər iki tərəfin marağıdır.

İkinci mövgeyin tərəfdarları, əksinə, düşünürlər ki müasir kapitalizm öz əsas mahiyyətinə görə keçmiş əsrin kapitalizmindən heç də fərqlənmir. Əsas istehsal vəsaitləri üzərində xüsusi mülkiyyət saxlanılır və ona görə də muzdlu işçilər və kapitalistlərin maraqları arasında antaqonizm də qalır. Bu maraqların üst-üstə düşməməsi hər an, hər saat özünü biruzə verir. Təkamül yolu ilə, danışıq və islahatlar vasitəsilə bazar-kapitalist tipli təsərrüfat daxilində bu maraqların münaqişəsini gəti dəf etmək mümkün deyildir. Bu baxımdan sosial tərəfdaşlıq – mahiyyətində barışmaz və mənaca bir birinə əks olan maraqların razılaşdırılmasının bir formasıdır. Ona görə danışıq prosesi münagişəsiz keçə bilməz. Danışıqlar dinc mahiyyət daşıyan üsul deyil. Hətta tərəflər razılığa gəlsələr də bu razılaşma kompromis xarakter daşıyır. Və yalnız tərəflərin nisbi bərabərliyi şəraitində bu kompromisə nail olmaq mümkündür. Hər halda, nəzərə almaq lazımdır ki, danışıqların keçirilməsi və razılığa gəlmə maraqlardakı ziddiyyəti aradan qaldırmır. Bununla belə, sosial tərəfdaşlıq cəmiyyətdə siyasi sabitlik və sosial barışıq şərti kimi zahirə çıxır.

Deməli, kollektiv müqavilələrin bağlanması və razılığa gəlmə sosial tərəfdaşlığın vacib elementidir. Lakin sosial tərəfdaşlıq yalnız bundan ibarət deyil. Bu daha mürəkkəb anlayış, müəyyən ideologiyadır ki, iki sinfin – sahibkarlar sinfi ilə və zəhmətkeşlər sinfinin qarşılıqlı münasibətlərinin tipini və xarakterini açıqlayır. Həmin bu siniflərin sosial-iqtisadi vəziyyətinin qiymətləndirilməsindən, onların cəmiyyətdəki rolu, maraqları və bu maraqların üst-üstə düşməsi uyğunlaşması dərəcəsindən asılı olaraq sosial tərəfdaşlığın nə olduğu barədə müxtəlif təkliflər yarana bilər.

Buna görə sosial tərəfdaşlığı muzdlu işçilərin və işverənlərin maraqlarının razılaşdırılması mexanizmi kimi müəyyən etmək kifyət deyildir. Sosial tərəfdaşlıq dövlətin vasitəçilik rolu ilə həyata keçirilir və kollektiv müqavilələrin və sazişlərin bağlanmasında öz əksinin tapır. Bu çox ümumi və qeyri-müəyyən açıq-

lamadır. Bu sosial-əmək münasibətləri sahəsində əslində törənən münasibətlərin mahiyyətini anlamaq üçün çox azdır.

Beləliklə, sosial tərəfdaşlıq xüsusi ideologiya və siniflərin bazar-kapitalist təsərrüfatı şəraitində qarşılıqlı münasibətlərin xarakteri barədə xüsusi bir anlayışdır ki, bu da fəhlə hərəkatındakı və islahatçı cəryan formalaşdırmışdır. Sosial-demokratların fikrincə, sosial tərəfdaşlıq sosial-əmək münaqişələrin sivil həll edilməsi metodudur ki, kapitalist cəmiyyətinin sülh təkamülünə zamin olur. Burada fəhlələr və işverənlərin maraqlarının ziddiyyati yox olur, işverənlərin və ya proletariatın diktaturası olmur və tərələrin hüquq və maraqlarının reallaşmasına əsaslanan işçilər və işverənlər arasında razılıq və ictimai müqavilə mövcud olur.

Belə şəraitdə dövlət tədricən öz sinfi xarakterini itirir və o, sosial dövlətə çevrilir. Dövlətin iqtisadi, sosial və ekoloji fəallığı artır. Beləliklə, həm sinfi, həm də sosial dinclik ideyası sosial tərəfdaşlıqda ən vacib yer tutur, mövcud bazar-kapitalist təsərrüfatı bazasında sosial tərəfdaşlıq isə muzdlu işçilərin istismarının azaldılması usullarından biri kimi tanınır.

Sosial tərəfdaşlıq bazar-kapitalist cəmiyyətini kökündən dəyişmədən fəhlə hərəkatını sahibkarlarla danışıq yolu ilə öz vəziyyətini yaxşılaşdırmağa doğru yönəldir. Bu zaman mülkiyyətçi ilə danışıqlar yolu ilə istismarın xeyli yumşaldılmasına nail olmaq olur. Sahibkarların isə öz maraqlarını həyata keçirmələri bazar təsərrüfatı şəraitində sosial tərəfdaşlıq mexanizmi ilə o qədər də bağlı deyildir. əslində mülkiyyətçinin bunda heç ehtiyacı da yoxdur, çünki iqtisadi hakimiyyətə malik olmaqla, onun ixtiyarında bütün lazımi vasitələr (pul, siyasi və məhkəmə hakimiyyəti, kütləvi informasiya vasitələri və s.) vardır ki, fəhlələrə öz iradəsini və şərtlərini diktə etsin, fəhlələrin isə bu şərtlərə razılaşmaqdan başqa çarələri qalmır. Madam ki, kapitala məxsus olan müəssisələrdə əmək bazar iqtisadiyyatı şəraitində fəhlələrin mövcüd olmasının əsas vasitələridir. Buna görə kapital fəhlələr ilə danışıq aparmaya da bilər.

Kapital yalnız müstəsna hallarda guzəştə gedir və danışıqlar aparır. XX əsrdə belə müstəsna hallar 1929-1933 illərin "Boyük depressiya", İkinci dünya muharibəsinin iqtisadi nəticələri, 1974-

1975-ci illərin "neft şoku" və Rusiyada Böyük Oktyabr inqilabı nəticəsində kapitalın beynəlxalq pozisiyalarının zəiflənməsi və dünya sosialist sisteminin formalaşması zamanı olmuşdur. Bu hallar kapitalın mövgeyini zəiflətmiş və onu və fəhlələrlə və həmkarlar ittifaqları ilə əməkdaşlıq etməyə məcbur etmişdir. İkinci dünya muharibəsindən sonra sosial tərəfdaşlıq sistemi daxilində fəhlələrlə danışıqlar aparma yolu ilə kapital öz iqtisadi itkilərini son dərəcə azaldıb, özünü tam bankrotluqdan qoruya bildi.

Bazar-kapitalist sisteminin mövcudluğuna təhlükə yarananda da kapital fəal surətdə sosial tərəfdaşlığa gedir. Məsələn, sosial gərginlik sosial partlayışa çevrilmək təhlükəsi yaradır. Fəhlələr tətil edir və artıq hakimiyyəti ələ almağa hazırdırlar. Lakin ola bilər ki, kapital bilərək fəhlələrlə oyun oynayır (məsələr, seçkilər qabağı). Belə hallarda həmkarlar təşkilatlarının dəstəyi kapitalın xilas olmasına və öz gəlirlərini saxlamağa imkan verir. Lakin kapital əvvəlki gücünü bərpa etdikdən sonra dərhal sosial tərəfdaşlığı unudur.

Deyilənləri yekunlaşdıraraq aşağıdakı nəticələri çıxarmaq olar.

Birincisi. Sosial tərəfdaşlıq fəhlə sinfinin və mülkiyyətçilər sinfi ilə əməkdaşlıq ideologiyasıdır ki, bu zaman fəhlə sinfi mövcud quruluşun əsaslarına təhlükə yaratmır və yalnız islahatlar və danışıqlar yolu ilə öz vəziyyətini əsaslı sürətdə yaxşılaşdırmağa çalışır.

İkincisi. Sosial tərəfdaşlıq sistemi yalnız müəyyən şəraitdə səmərəli fəaliyyət göstərə bilər:

- iqtisadiyyat yüksəlib inkişaf etdikdə;
- dövlət hansısa bir sosial qrupu və ya sinfi açıq-aşkar dəstəkləmir, əhalinin əksəriyyətinin marağına uyğun fəal sosial siyasət apardıqda;
- müxtəlif sosial qrupların maraqlarını təmsil edən demokratiyanın parlament formaları və vətəndaş cəmiyyəti institutları inkişaf etdikdə;
- fəhlə sinfinin təşkilatları (partiyalar, həmkarlar təşkilatları) kifayyət qədər güclü, cəmiyyətdə böyük nüfuza malik olduqda və həm işverənlər, həm də dövlət bu təşkilatların rəyilə hesablaşmaya bilmədikdə.

Üçüncüsü, həmin bu şərait və bir sıra fövqəladə hallar dövləti və işverənləri fəhlələrlə əməkdaşlığa və danışıq aparmağa məcbur edir. Əks halda, kapital ciddi iqtisadi itkilərə məruz qalar, dövlət isə cəmiyyətdə siyasi qeyri sabitliklə üzləşə bilər.

2. Sosial tərəfdaşlığın mexanizmi

Sosial tərəfdaşlığın mahiyyəti barədə bir-birinə zidd iki baxışın mövcud olmasının (sosial tərəfdaşlıq sinfi mübarizənin antipodu kimi və sosial tərəfdaşlıq muzdlu fəhlələrlə işverənlərin əks maraqlarının razılaşdırılması üsulu kimi) aşkarlanması çox vacibdir. Axı, sosial tərəfdaşlığın haqqında anlayışların müxtəlif olması onun məzmunu və mexanizmi barədə təsəvvürlərin müxtəlifliyinə uyğun olur.

Sosial-əmək münasibatləri sahəsində muzdlu işçilərin və işverənlərin maraqlarının uzlaşdırılması danışıq yolu ilə həyata keçirilir və kollektiv müqavilə və sazışlar bağlanması ilə bitir. Sosial-əmək münasibətlərinin kollektiv-müqavilə yolu ilə tənzimlənməsi sosial tərəfdaşlıq sisteminin, onun mahiyyət barədəki anlayışdan asılı olmayaraq ayrılmaz xüsusiyyətidir. Lakin sosial tərəfdaşlığın mahiyyəti barəsində müxtəlif anlayışlar kollektiv sazışların məzmununda öz əksini tapır.

Hər hansı bir kollektiv müqavilə axır-əvvəl tərəflərin bütün iqtisadi məsələlərdə razılığa gəldiklərini qeyd edir. Burada söhbət həm əmək haqqı və digər pul ödəmələrinin həcmi, həm qiymətlərin artması ilə əmək haqqının tənzimlənməsi (əmək haqqının və gəlirlərin indeksasiyası), həm gecə və bayram günləri işlədikdə pul kompensasiyasının verilməsi barədə gedir. Kollektiv muqavilələrdə məşğulluq və ixtisasını dəyişdirmə, iş gününün və iş həftəsinin müddəti, ödənişli məzuniyyətin müddəti, əmək şəraiti və onun mühafizəsi məsələləri geniş yer tutur. Habelə, tərəflərin (müdiriyyət və işçilərin) əsas vəzifələri qeyd olunur və kollektiv müqavilənin yerinə yetirilməsinə nəzarət üsulları və metodları müəyyən edilir.

Bununla belə, sosial tərəfdaşlığın mahiyyətinin anlayışından asılı olaraq kollektiv müqavilənin məzmunu dəyişilə bilər. Sinfi mübarizəni əvəz edən sosial tərəfdaşlığa sosial-əmək münasibətlərinin tənzimlənmə mexanizmi kimi baxanlar hesab edirlər ki, kollektiv müqavilədə mütləq fəhlələrin əmək haqqının miqdarının müəssisənin maliyyə durumundan və onun bazardakı vəziyyətindən asılı olduğu barədə məddə olmalıdır. Belə kollektiv müqavilələrdə işçi qüvvəsinin qiymətləndirilməsinin müəyyən edilməsi məsələsi məşğulluq problemlərinə keçirilir. Həmçinin muzdlu işçilərin istehsalın idarə edilməsində və ya mənfəətdə iştirakı barədəki maddələr də vacib yer tutur.

Kollektiv müqavilə belə şəraitdə bağlanarkan muzdlu fəhlələrin və işverənlərin maraqlarının fərqli olması deyil, üst-üstə düşməsinə diqqət verilir. Işçiləri inandırmağa çalışırlar ki, onlar sahibkarlarla birlikdə bir tam təşkil edirlər və işlədikləri müəssisənin saxlanması və inkişaf etməsi onların ümumi marağınadır. Ona görə də danışıqlar zamanı onlar, mümkün qədər, həmrəylik, hörmət və qarşılıqlı güzəştlərə əsaslanan ümumi dəyərlər sistemi işləyib hazırlamalıdırlar. Sosial partnyorluğun belə ideologiyası həyata keçrilən müəssisələrdə muzdlu işçilərin maraqlarını yalnız həmkarlar təşkilatları deyil, hər hansı bir başqa seçkili orqan da (məsələn, Almaniyada – "fəhlə direktorları" kimi orqanlar da) təmsil edə bilər.

Adətən, belə hallarda sosial tərəfdaşlıq sistemində dövlətin rolu sosial-əmək münasibətlərinin tənzimlənməsi üçün lazimi hüquqi əsasın, əmək münasibətlərinin nizama salınmasının ümumi sisteminin yaradılması ilə məhdudlaşır. Bu zaman dövlət nəinki "oyunun qaydaları"nı müəyyən edir, həm də tərəflərin fəaliyyət sərbəstliyinin, onların öz üzərilərinə götürdükləri vəzifələrin yerinə yetirilməsinin təminatçısı kimi hərəkat edir, danışıqlar prosesinin aparılması qaydasının işləyib hazırlayır və sazışın hüquqi statusunu təyin edir.

Əgər sosial tərəfdaşlığa muzdlu işçilərin və işverənlərin mahiyyətlə bir birinə əks maraqlarının razılaşdırılması üsulu kimi baxılsa başqa bir vəziyyət yaranır. Bu anlayışın tərəfdarları hesab edirlər

ki, kollektiv müqaviləyə heç bir halda fəhlələrin müəssisəni idarə etməkdə və ya mənfəətdə iştirakını göstərən maddələr daxil edilməsi olmamalıdır. Işçilər işverənlərlə və onların şərtləri ilə razılaşma siyasəti əleyhinə çıxış etməli, müdiriyyəti vəziyyəti ilə hesablaşmamalı, fəhlələrin əmək haqlarının firmanın işinin nəticələri ilə əlaqələndirilməsinə qarşı çıxış etməlidirlər. Onlar ardıcıl olaraq sinfi əkslik ideologiyasının həyata keçirməli və muzdlu işçilərlə işverənlərin maraqlarının müxtəlif istiqamət daşıdığı və üst-üstə düşmədiyi şəkildə yerinə yetirməlidirlər.

Belə halda sosial tərəfdaşlıq sistemində dövlətin vəzifələri artır. Dövlət nəinki "oyun qaydalarını" müəyyən edir, habelə öz nümayəndələri vasitəsilə həm danışıq prosesində daha fəal iştirak edir, həm də arbitraj orqanları, razılaşdırıcı komissiyalar vasitəsilə ara düzəldir. Dövlət sosial gərginliyin güclənməsinə yol verməmək üçün danışıq prosesi zamanı tərəflərin ziddiyyətlərini yumşaltmağa cəhd edir. Bu məqsədlə o daha fəal sürətdə tərəfləri razılığa çağırır, onlarda sosial məsuliyyət hissini artıramağa çalışır.

Əksər ölkələrdə sosial tərəfdaşlıq sistemi yalnız müəssisələrdə kollektiv müqavilələr bağlanması yolu ilə deyil, həmçinin bütövlükdə cəmiyyət və ayrı-ayrı regionlar səviyyəsində müqavilə və sazişlərin şəquli sistemi yolu ilə həyata keçrilir. Belə sazışlar muzdlu işçilərin maraqlarını təmsil edən təşkilatlarla, işverənlər birlikləri və dövlət arasında bağlanır. Cəmiyyətdə ümumiyyətlə müzakirələrin mövzusunu – sosial-iqtisadi siyasətin əsas istiqamətləri təşkil edir ki, burada əhalinin sosial firavanlığının göstərici və indikatorlarının, əhalinin bütün təbəqələri üçün sosial təminat sisteminin, habelə əmək münasibətləri subyektlərinin maraqlarının müdafiyəsi üçün tədbirlər də daxildir.

3. **Rusiyada sosial tərəfdaşlıq**

Rusiya dövlətində sosial tərəfdaşlıq barədə 1991-ci ilin axırından danışmağa başladılar. Bu vaxt əvvəlki siyasi hakimiyyət tipi çərçivəsində (1985-1991 illər) iqtisadiyyatın nisbətən ləng islahatlarını intensiv "şok" yenidən gurmalar əvəz etdi.

Sovet dövründə sosial tərəfdaşlığın, demək olar ki, bütün atributları fəal istifadə olunurdu – kollektiv müqavilə və sazışlərin bağlanması, zəhmətkeşlərin istehsalların idarə olunmasında iştirakı, sosial məsələlər üzrə danışıq və məsləhətləşmələrin aparılması. Hətta, müəssisənin sosial inkişafı planları da var idi. Lakin bu proseslərə heç kim sosial tərəfdaşlıq adı vermirdi. Rəsmi ideologiyaya uyğun olaraq, Sovet cəmiyyətinin əsasını cəmiyyətin bütün üzvlərinin mənəvi, sosial-siyasi və iqtisadi birliyi təşkil edirdi. Güya buna görə də mahiyyətlə bir-birinə zidd olan maraqlar mövcud ola bilməzdi və maraqların sosial tərəfdaşlıq kimi razılaşdırılma mexanizmi də lazım deyildi.

Rusiya iqtisadiyyatının islahatları prosesində sosial tərəfdaşlığa münasibət dəyişildi. Sosial tərəfdaşlıq ideologiyası dövlət tərəfindən fəal təbliğ edilməyə başlandı. Hesab edilirdi ki, nizamlanmış sosial tərəfdaşlıq sistemi olmadan Rusiyada müasir bazar təsərrüfatının yaranması və inkişafı mümkün deyildir. Həm də, sosial tərəfdaşlığa kapitalizmə keçidi yumşaldan bufer rolu verilirdi. Sosial tərəfdaşlıq sərt islahatlar şəraitində vətəndaş sülhünün təminatçısı olmalıdır. Ona görə də, təsədufi deyil ki, Rusiya iqtisadiyyatının islahatı sosial tərəfdaşlıq sisteminin qurulmasını təmin edən lazımi hüquqi aktların intensiv hazırlanması ilə müşayiət olunurdu.

Artıq 1991-ci ilin noyabrın 15-də, Rusiya Federasiyasının Prezidenti "Sosial tərəfdaşlıq və əmək münasibətlərinin münaqişələrinin həll edilməsi" haqqında 212 №-li Fərman imzaladı. Bir gədər sonra 1992-ci ilin yanvarın 24-də "Sosial-əmək münasibətlərin tənzimlənməsi üzrə Rusiya üçtərəfli komissiyası" haqqında Prezidentin 45 №-li Fərmanı çıxdı. Bu Fərman və Hökümətin müvafiq olan 20 fevral 1992-ci il tarixli 103 №-li qərarı əsasında 1992-ci ildə sosial-əmək münasibətlərini tənzimlənmək üçün

Rusiya üçtərəfli komissiyası təşkil edildi ki, buraya hökümətin, həmkarlar ittifaqlarının və sahibkarların nümayəndələri daxil oldu. Həmin ildən başlayaraq üçtərəfli baş sazış bağlanması əsasında sosial-əmək münasibətlərinin tənzimlənməsi işi qaydaya salındı.

Daha sonra Rusiya Federasiyasının "Kollektiv müqavilələr və sazışlar haqqında" (11 mart 1992-ci il), "Kollektiv əmək münasibətlərinin həll edilməsi qaydası haqqında" (20 oktyabr 1995-ci il), "Həmkarlar ittifaqları, onların hüquqları və fəaliyyətinin təminatı" haqqında qanun (8 dekabr 1995-ci il), habelə Rusiya Federasiyası Hökümətinin "Kollektiv münagişələrin nizamlanması xidməti haqqında" qətnaməsi (15 aprel 1996-cı il) sosial tərəfdaşlığın hüquqi bazasında olan çatışmamazlıqları aradan qaldırdı. 1995-1999-cu illərdə sosial tərəfdaşlıq barəsində qanunlar əvvəl Sverdlov və Voloqoda vilayətlərində, sonra isə Omsk, Murmansk vilayətlərində, Stavropol ölkəsində, Moskva şəhərində, Mordoviya respiblikasında, Altay ölkəsində və Rusiya Federasiyasının digər subyektlərində qəbul olundu.

RF "Kollektiv müqavilələr və sazışlar haqqında" qanuna uyğun olaraq Rusiyada cəmiyyətin bütün səviyyələrini əhatə edən və baş, regional, sahə, sahələrarası, peşəkar, ərazi sazışlərin və kollektiv müqavilələrin bağlanmasını nəzərdə tutan sosial tərəfdaşlığın şaquli sistemi əməli surətdə həyata keçrilməkdədir.

Baş sazış sosial-əmək münasibətlərinin federal səviyyədə tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edir. O, ümümrusiya həmkarlar ittifaqları birliyi, ümümrusiya işverənlər birliyi və RF Hökümməti arasında bağlanır. Baş sazışə məşğulluq sahəsində sosial-iqtisadi siyasət, əmək haqqı, gəlirlər, əhalinin yaşayış səviyyəsi, sosial müdafiə, sosial təminat və habelə sosial sığorta sahələrinin ümumi istiqamətləri daxildir.

Baş sazişdən fərqli olaraq, regional sazişlər RF ayrı-ayrı subyektləri səviyyəsində sosial-əmək münasibətlərin tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edir. Bunlar şəhər, rayon və ya digər inzibati-ərazi xüsusiyyətləri ilə əlaqədar əmək şəraitini, təminat və güzəştləri müəyyən edir və işçiləri təmsil edən orqanlar, işverənlərin birlikləri və yerli özünü idarə orqanları arasında bağlanır.

Sahə (sahələrarası) tarif sazişlər hər hansı sahə (sahələrin) işçilərinin əmək haqqı normalarını və digər əmək şəraitini, həmçinin sosial təminat və güzəştlərini müəyyən edir. Söhbət federal səviyyədən gedirsə onlar işçilərin təmsiledici orqanları, işverənlər, Əmək və Sosial İnkişaf nazirliyi arasında bağlanır. Rusiya Federasiyası subyektləri səviyyəsində isə dövlətin maraqlarını həmin subyektin müvafiq əmək orqanları təmsil edirlər.

Peşəkar tarif sazişlər hər hansı bir peşə ilə bağlı olan əmək haqqının normalarını, sosial təminat və güzəştləri müəyyən edir. Bunlar müvafiq həmkarlar ittifaqları, işverənlərin birlikləri və əmək orqanları arasında bağlanır.

Nəhayət, kollektiv müqavilə - müəssisə, təşkilat və müvəkkilliklərdə işçilər və işverənlər arasındakı münasibətləri tənzimləyən hüquqi aktdır. Kollektiv müqavilənin tərəflərini müəssisənin işçilərinin nümayəndələri və işverən şəxsin, təşkilatın nizamnaməsinə müvafiq olaraq onu təmsil edən təşkilatın rəhbəri və ya başqa vəkil edilən şəxs təşkil edir. Kollektiv müqavilələr sahə, ərazi və baş sazişlərlə qəbul olunan normaları tamamlayır və inkişaf etdirir. Lakin bu normalar başqa sazışlarda göstərilən səviyyədən aşağı ola bilməzlər.

Bütün sadalananlara əsasən demək olar ki, Rusiyada sosial tərəfdaşlıq mövcuddur. Ilk baxışda burada bütün lazımi şərait vardır. Belə ki, Rusiyada bazar münasibətlərinə keçid başlanıb. Sosial tərəfdaşlığın inkişafı üçün hüquqi əsas mövcuddur. Işçiləri təmsil edən və onların maraqlarını qoruyan həmkarlar təşkilatları var. Sahibkarlar sinfi peyda olub. Dövlət muzdlu işçilərlə işverənlər arasından münasibətlərdə vasitəçi olmağa hazırlığını bildirib.

Lakin bu yalnız sosial tərəfdaşlığın görünən (zahiri) tərəfidir. Əslində, indiki zamanda Rusiyada sosialtərəfdaşlıq adı ilə gedən proseslər deyilənlərdə və təbliğ olunanlardan çox fərqlənir. Rusiyada sinflər dincliyi ideologiyası və muzdlu işçilərin və işverənlərin maraqlarının üst-üstə düşməsi əsasında sosial tərəfdaşlıq modelinin formalaşması özünü göstərir. Buna imkan verən bir sıra səbəblərdir.

Hər şeydən əvvəl, uzun müddət ərzində SSRİ-də fəhlələri inandırırdılar ki, onlar işlədiyi müəssisələrin həqiqi sahibkarlarıdır. Direktorluğun, müdiriyyətin, əmək kollektivinin maraqları qarşı-qar-

şıya qoyulmurdu. Yaranmış təsərrüfat sistemi müdiriyyəti zəhmətkeşlərə qayğıkeşlik göstərdiklərini sübut etməyə məcbur edirdi. Müəssisənin vəsaiti hesabına yaşayiş evləri, uşağ baxçaları, sanatoriyalar və xəstəxanalar tikilirdi. Işçilər isə özlərini müdiriyyətə qarşı qoymurdular. Onlar direktora "sahib" deyərkən buna xüsusi bir məna verirlər. Onların anlayışında müdir öz işçilərinin qayğısına qalan insan idi. Ona həmişə şikayət etmək olardı və o, mütləq kömək etməli idi.

Baxmayaraq ki, bu gün muzdlu işçilərin və işverənlərin maraqlarındakı ziddiyyət və əkslik açıq şəkildə özünü biruzə versə də, onlar tez-tez oxşar mövge tutur və birlikdə hökümətə qarşı çıxış edirlər. Işverənlər əmək kollektivlərinin yoxsul vəziyyətini əsas tutaraq, kompensasiyalar, əlavə maliyyələşdirmə və vergi güzəştləri məsələlərini həll edirlər. Belə vəziyyət işçilərin öz şəxsi maraqlarını tdərk etməyə mane olur və sosial tərəfdaşlıq sisteminin formalaşmasını ləngidir.

İstehsalın əsasını xüsusi mülkiyyət təşkil edir, Inkişaf etmiş ölkələrdə kollektiv müqavilə işçilərə öz sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa imkan yaradan bir sənəddir. Kollektiv müqavilə - tərəflərin əmək haqqı, iş şəraiti və məşğulluq sahəsində razılaşmaların nəticəsini əks etdirən sənəddir. Və işçilərin kollektiv müqavilə vasitəsilə real nailliyyətləri yüksək dərəcədə onların işverənlərə təzyiq etmə gücü və bacarığından asılıdır.

Rusiyada əksər hallarda kollektiv müqaviləyə yalnız bir formal sənəd kimi baxılır. Hətta işçilər onların fikrincə "yaxşı" kollektiv müqavilə bağlamağa nail olsalarda, bu müqavilənin bütün maddələrinin yerinə yetirilməsinə təminat yoxdur. Baxmayaraq ki "Kollektiv müqavilə və sazışlar haqqında" RF-ın qanununda kollektiv müqavilənin maddələrinin yerinə yetirilməməsi üçün məsuliyyət tədbirləri nəzərdə tutulmuş olsa da, bunlar o gədər cuzidir ki, kollektiv müqaviləni yerinə yetirməyən tərəf üçün ciddi təhlükə yarada bilmir.

Bunun səbəbi ondadır ki, Rusiyada, bir tərəfdən, muzdlu işləyənlərin, digər tərəfdən isə sahibkarların və işverənlərin maraqlarını təmsil və müdafiə edən subyektlər hələ formalaşmayıb. "Köhnə" həmkarlar ittifaqları çox vaxt açıq aşkar razılaşma mövqeni tutur, onların rəhbərləri isə bu gün o gücə malik deyil ki, Fe-

derasiyaya daxil olan bütün həmkarlar ittifaqlarını birləşdirib hökumətə və sahibkarlara güclü təziq göstərsinlər.

"Yeni" həmkarlar ittifaqlarında vəziyyət başqa cürdür. Bunlar şaxtaçıların Müstəqil Həmkarlar İttifaqı, aviadispetçerlər, lokomotiv briqadaların maşinistləri Həmkarlar İttifaqları və s. Onlar daha təşkil olunmuş, daha fəaldırlar. Onlar ardıcıllıqla ayrı-ayrı peşəkar işçilər qruplarının maraqlarını təmsil və müdafiə etməyə çalışırlar. Lakin hakimiyyətin sosial-iqtisadi siyasətinə qarşı kütləvi müqavimət təşkil etməyə onların hələ ki nə gücü nə də təcrübəsi çatmır. Onların aksiyaları yalnız etiraz xarakterini daşıyır. Bununla belə, yeni həmkarlar ittifaqları kapitalın və hakimiyyətin adi praktikasına (həmkarlar ittifaqlarının liderlərinə rüşvət vermək, onları yüksək vəzifələrlə öz tərəfinə çəkmək və s.) kifayət dərəcədə qarşı dura bilmirlər.

Rusiyada işverənlər birliyi də sanki mövcuddur. Məsələn, Rusiyanın sənayeçiləri və sahibkarlar ittifaqı, kiçik biznes assosiasiyaları və s. Lakin bütün bu birliklər işçilərlə danışıqlar aparmaq üçün yox, qanunvericilik və icra hakimiyyəti orqanlarında işverənlərin maraqlarını müdafiə etmək üçün yaradılıb. Xarici təcrübə göstərir ki, belə vəziyyət qanunauyğundur. Məsələn, Avropada fəhlələrlə danışıqlarda iştirak edən sahibkarlar birliyi yaranması həmkarlar ittifaqlarından 10-15 il sonra yaranmışdır. Məhz güclü həmkarlar ittifaqları, onların işverənlərə təzyiqi, axırıncıları birləşməyə məcbur etdi. Buna görə də Rusiyada bu vaxta gədər məsuliyyətli işverənlər birliyi yoxdur. Güclü həmkarlar ittifaqları, işverənlər birliyi olmadığına görə də sosial tərəfdaşlıq da yoxdur.

Baxmayaraq ki, 1991-ci ildə bazar münasibətləri sisteminə intensiv keçid kursu e'lan edildi, real sosial subyektlər yaranmadı. Çoxsubyektli cəmiyyətin yaranması məsələsi əsas və prioritet məsələ kimi qarşıya qoyuldu. Yeganə real fəaliyyət göstərən subyekt əvvəlki kimi dovlətdir. Ayrı-ayrı sosial qrupların maraqlarını təmsil və ardıcılıqla müdafiə edən təşkilatlar hələ də yoxdur. Bu qrupların özləri, o cümlədən fəhlələr, hələ ki öz tələblərini dürüst ifadə etməyi öyrənməyiblər. Əksər hallarda insanlar sadəcə olaraq bilmirlər ki, hansı yollar və prosedurlar vasitəsilə cəmiyyətdə öz maraqlarını müdafiə etsinlər.

Vətəndaşlıq özünüdərki mədəniyyəti cox aşağı səviyyədədir. Adamların əksəriyyəti əvvəlki kimi, özqələrə ümidlidir, özlərinə yox. Bu da o deməkdir ki, Rusiyada vətəndaş cəmiyyəti hələ də yoxdur. Vətəndaş cəmiyyəti yoxdursa, sosial tərəfdaşlıq da ola bilməz. Inkişaf etmiş ölkələrin təcrübəsi güstərir ki, vətəndaş cəmiyyətinin institutlarının inkişafı və sosial tərəfdaşlığa əsaslanan sosial-əmək münasibətlərin tənzimlənməsi sisteminin formalaşması qarşılıqlı əlaqəli və bir birini tamamlayan proseslərdir.

Rusiyada həmkarlar ittifaqı hərəkatının zəif olması sosial tərəfdaşlığın çox maraqlı bir növünü yaratdı – "dövlətin sosial tərəfdaşlıq sistemində xüsusi rol oynaması vəziyyəti"ni yaratdı.

Dövlət fəhlələri sahibkarlarla əmək haqqının səviyyəsi, sosial ödənişlərin dərəcəsi və s. məsələlərdə razılaşmağa çağırmaqla, onlara layiqli yaşayış səviyyəsini təmin etmək sahəsində məsuliyyətdən boyun qaçırmağa çalışır. Yeni "Əmək qanunları məcələsi" də bunu sübut edir. Onun əsas konsepsiyası ondan ibarətdir ki, sosial-əmək sahəsində dövlətin öhdəlikləri ilə təmin edilən fəhlələrin hüquq və təminatları ən az dərəcəyə endirilsin. Bununla yanaşı, əmək kollektivlərinin kollektiv müqavilələr və sazişlər bağlamaq yolu ilə həll olunan məsələlərin sayı artır.

İlk baxışdan, dövlətin belə hərəkəti qanunauyğundur, çunki, həqiqətən, hər əmək kollektivi hər hansı bir müəssisədə, iş yerində öz işverənləri ilə daha tez razılaşma yolunu tapa bilər. Məhz burada razılaşmağa ehtiyacı olan məsələlər daha aydın bilinir. Lakin başqa ölkələrin təcrübəsi göstərir ki, yalnız müəssisədə həmkarlar ittifaqı güclü olduqda və müdiriyyət onun rəyi ilə hesablaşdıqda sosial-əmək münasibətləri tərəflərinin hər hansı bir razılaşması uğurlu ola bilər. Həmkarlar ittifaqı zəifdirsə və müdiriyyətlə razılaşmaya gələ bilmirsə, onda məhz sahibkarlar deyil, yalnız dövlət lazımi minimal yaşayış səviyyəsinin təminatçısı kimi çıxış etməlidir. Sahibkarlarla yalnız bu, dövlət tərəfindən təmin edilən, lazımi minimal səviyyədən üstün olan məsələləri ətrafında danışmaq olar.

Muzdlu işçilərlə işverənlər arasında sosial-əmək münasibətlərinin razılaşma yolu ilə tənzimlənməsinin Rusiyada həqiqətən inkişafı üçün yalnız həmkarlar ittifaqlarının arzusu, müvafiq hüquqi bazanın mövcudluğu və dövlətin bir gədər maraqlı olması kifayət deyildir. Sosial-əmək münasibətlərinin xüsusi tənzimləmə mexa-

nizmi olan sosial tərəfdaşlıq gücləri bərabər olan tərəflərin mövcudluğunu nəzərdə tutur. Bərabər dedikdə sosial-iqtisadi vəziyyətin bərabərliyi deyil, münagişə yaranan halda əks tərəfə müqavimət göstərmək imkanının bərabərliyi nəzərdə tutulur. Maraqların razılaşdırılmasının və münaqişənin həll edilməsinin nizamlanmış mexanizmi olmasa sosial tərəfdaşlıq da mümkün deyildir.

Suallar və tapşırıqlar

1. Sosial tərəfdaşlıq sistemi nə vaxt yaranıb: a) XIX əsrin sonu – XX əsrin əvvəlində; b) XX əsrin 20-ci illərində; c) XX əsrin 60-cı illərində?
2. Aşağıdakı iddialar doğrudurlarmı (hə/yox) ?

Sosial tərəfdaşlıq kollektiv müqavilələr və sazışlar bağlanması prosedurudur.

Sosial tərəfdaşlıq dövlətin vasitəçilik rolu ilə aparılan muzdlu işçilərin işverənlərlə danışıqlarıdır.

Sosial tərəfdaşlıq dövlətin vasitəçilik rolu ilə muzdlu işçilər və işverənlərin qarşılıqlı münasibətləri sistemidir ki, bu sistem sosial-əmək sahəsində maraqların uzlaşdırılması və sosial-əmək münaqışələrin həll edilməsinə yönəldilib.

3. Sizin fikrinizcə, sosial tərəfdaşlığın yaranması üçün hansı bir şərait müəyyən edicidir: a) dövlətin sosial rolunun güclənməsi; b) muzdlu işçilərin və işverənlərin gücünün nisbi bərabərliyi; c) həmkarlar ittifaqlarının yaranması; d) vətəndaş cəmiyyəti institutlarının yaranması?
4. Demək olar mı ki, Rusiya Federasiyasında sosial tərəfdaşlıq sistemi artıq yaranıb? Fikrinizi əsaslandırın.
5. Muzdlu işçilər və işverənlərin qarşılıqlı münasibətlərinin tənzimlənməsində dövlət hansı vəzifələri yerinə yetirir: a) mane olmamaq; b) əmək münasibətlərinin tənzimlənməsinin hüquqi bazasının yaradılmasını təmin etmək; c) minimal əmək haqqının verilməsinin təminatçısı kimi çıxış etmək; d) muzdlu işçilər və işverənlər arasında münaqişələr zamanı hakim kimi çıxış etmək?

© Мыслйайева И.Н. 2002

XXX Fəsil

İQTİSADİYYATIN DÖVLƏT BÖLMƏSİNİN İDARƏ EDİLMƏSİ

1. Dövlət bölməsi və onun tərkib hissələri

Müxtəlif ünsürlərdən təşkil olunmuş mürəkkəb iqtisadiyyatın vacib həlqələrindən biri, onun ayrılmaz tərkib hissəsi dövlət bölməsidir. Dövlət bölməsi nədir və o özündə nəyi ifadə edir? Adətən, iqtisadiyyata dair ədəbiyyatlarda dövlət bölməsi məfhumu altında dövlətə məxsus mülkiyyət obyektləri (müəssisələr, təşkilatlar, idarələr) kompleksi nəzərdə tutulur. Bununla yanaşı, elmi araşdırmalarda, çap olunmuş habelə, məqalələrdə isə dövlət bölməsi anlayışına daha geniş mənada izahatlar verilir. Onun tərkibinin struktur elementlərinə iqtisadi fəaliyyəti həyata keçirən təsərrüfat sistemlərilə yanaşı iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsi ilə məşğul olan federal və regional qanunvericilik orqanlarını və icra hakimiyyəti quruluşlarını da daxil edirlər. Belə olan halda iqtisadiyyatda dövlət bölməsinin funksiyası ilə iqtisadiyyatın tənzimlənməsinin dövlət funksiyaları eyniləşir, qoşalaşır.

Beləliklə, iqtisadiyyatın dövlət bölməsi çoxkomponentli, çoxsəviyyəli və çoxfunksiyalı kompleksdir. Həll ediləcək məsələlərin məqsədlərindən, xarakterindən və maliyyələşdirilmə mənbələrindən asılı olaraq iqtisadiyyatın dövlət bölməsinin tərkibini üç əsas bloka ayırmaq olar. Birincisi, dövlət sahibkarlıq strukturları. Onlara dövlət, unitar və federal rəsmi müəssisələri

(zavodlar, fabriklər və digər təsərrüfatlar), dövlət ticarət – kommersiya, müxtəlif pullu ödənişli xidmətlər kompleksi ilə məşğul olan idarələri və təşkilatları aiddir. (məsələn, «Rusiya müdafiə eksport», «Rusiya kinoprokatı» və s. kimi təşkilatlar). İkincisi, bloka dövlət büdcə elm, təhsil, səhiyyə, mədəniyyət, sosial təminat, müdafiə, mülki müdafiə, təbiətin qorunması, dövlət təhlükəsizliyi, ekoloji mühafizə və təhlükəsizliyin təminatı və s. kimi qeyri-kommersiya təşkilatları və idarələri daxildir. Üçüncü bloka isə yuxarıdakı iki bloka daxil edilən obyektlərin əmlaklarından başqa mövcud olan dövlət federal və federasiya subyektlərinin digər mülkiyyətləri aid edilir. Buraya, əhalinin, digər hüquqi şəxslərin və ya munisipalitetlərin mülkiyyəti olmayan torpaqlar, təbii ehtiyatlar, həmçinin dövlətin rəsmi mülkiyyətinin tərkib hissələrinə aid olan başqa vəsaitlər daxil edilir.

Əgər dövlət bölməsinin tərkibinə yarıca müstəqil blok bələdiyyə bloku, bələdiyyə mülkiyyəti, yəni yerli özünüidarə orqanlarına aid olan müəssisələri və təşkilatları daxil etsək, onda tam qətiyyətlə dövlət bölməsinu ictimai sektor adlandırmağa hüquqi əsasımız ola bilər. Beləliklə, iqtisadiyyatın dövlət setork mürəkkəb (qarışıq) iqtisadiyyatın vacib manqası olmaqla, özündə təşkilatlar və idarələr kompleksini, unitar dövlət müəssisələrini, maliyyə, qızıl-valyuta, maddi-təbii ehtiyatlar, infrastruktur, sosial-mədəni və digər dövlət əmlakı obyektlərini, eləcə də başqa federasiya və onun subyektlərinin mülkiyyəti formalarını cəmləşdirir.

Dövlət bölməsi iqtisadiyyatda bir sıra vacib funksiyaları yerinə yetirir. Hər şeydən əvvəl qeyd edək ki, o ölkədə cəmiyyətin təsərrüfatçılıqla bağlı həyat tərzini təmin edən iqtisadi potensialının formalaşmasına şərait yaradır, təkan verir. Həmçinin dövlət onun köməyilə müvafiq iqtisadi vasitə və alətlərdən istifadə edərək iqtisadiyyat tənzimlənməsi mexanizmini təşkil edir. Məsələn, dövlət zəruri hallarda iqtisadi dövrləri investiyiaların, dövlət sifarişlərinin satınalmanın, infrastruktur müəssisələrinin rekonstruksiyası və s. kimi amillərin köməyilə, tarazlaşdırır, dayanıqlılığa gətirir. Təsərrüfatın müavinətli inki-

şafını yaxşılaşdırmaq və disproporsiyaların ləğvi üçün qərarlar qəbul edir, ölçülər götürür.

Dövlət eləcə də fəaliyyət göstərən müəssisələrin rekonstruksiyası, istehsalatın ayrı-ayrı növləri və inkişaf etməkdə olan sahələri üzrə yeni müəssisələrin tikintisini aparmaq və istismara vermək əsasında xalq təsərrüfatının daha da rasional strukturunu formalaşdırır. Dövlət mövcud iş yerlərini qorumaq yolu ilə və yeni iş yerlərini yaratmaqla əhalinin məşğulluq səviyyəsini saxlamağa çalışır. Nəhayət, dövlət pul vəsaitini yığır və yenidən bölüşdürür. Dövlət bölməsinin vacib funksiyası ictimai nemətlərin istehsalını, elmin inkişafını, kadrların hazırlığını və yenidən hazırlığını təşkil etmək, dövlət müəssisələri və təşkilatlarının köməyilə xarici iqtisadi fəaliyyəti intensivləşdirmək və iqtisadi təhlükəsizliyi təmin etməkdir.

İqtisadiyyatın dövlət bölməsinin rolunu və yerini mürəkkəb (qarışıq) iqtisadiyyat çərçivəsində konkret göstəricilər dəsti ilə xarakterizə etmək qəbul olunmuşdur. Həmin göstəricilərə aiddir:

- dövlət əmlakının (federal və federasiyanın subyektlərinin əmlakı) dəyəri və ya ölçüsü (natural ölçülərdə) və onun ümumi dəyərdə payı (%-lərlə) və ya ölkənin konkret əmlak növündə miqdarı (natural ölçülərdə);
- müəssisələrin, təsərrüfatların və digər sahibkarlıq strukturlarının sayı (o cümlədən dövlət bölməsinda qarışıq mülkiyyətli müəssisələr və təşkilatlar daxil olmaqla) və onların ölkədəki müəssisələrin ümumi sayında xüsusi çəkisi;
- işçilərin ümumi sayı və onlardan dövlət bölməsinda çalışanların sayı (faizlə)

Bunlarla yanaşı, aşağıdakı göstəricilər də olduqca vacibdir:

- dövlət bölməsinin sahibkarlıq və digər strukturlarının istehsal etdiyi əmtəələrin, məhsulların, işlərin, xidmətlərin həcmi və onların ümummilli məhsulun, həm dövlət, həm də şəxsi sektorlardakı müəssisələr tərəfindən yerinə yetirilən dövlət sifarişlərinin (məhsulların, işlərin, xidmətlərin həcmi) həcmində xüsusi çəkisi (%-lə0, eləcə də onların ümummilli məhsulun həcmindəki payı (%-lə)

Kapital qoyuluşu məbləğinin miqdarına və onun ayrı-ayrı sahələrə ayrılan hissələri göstəricilərinə böyük diqqət yetirirlər:

- kapital qoyuluşunun ümummilli məhsul istehsalına ayrılan faizlərlə hissəsi;
- ölkə üzrə investisiyaların ümumi həcminə faizlərlə ayrılan hissəsi;
- dövlət büdcəsindən ayrı-ayrı sahələrə və sferalara (fundamental elm, təhsil, səhiyyə, mədəniyyət, mühafizə, təbiətin mühafizəsi və s.) ayrılan vəsaitin miqdarı və onun dövlət büdcəsindən xərcdəki faizlə payı;
- sosial ransfertlər (köçürmələr) və onların əhalinin gəlirlərindəki faizlə payı.

Bütün bu sadalananlarla yanaşı dövlət bölməsinin rolunu və yerini qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən də istifadə olunur:

- məsrəflərin mütləq miqdarı və onun ümummilli məhsulda faizlərlə payı (dövlət xərclərinin ümumi məbləği, o cümlədən ictimai nemətlərin istehsalı ilə məşğul olan sahələrin xərcləri, dövlət aparatını saxlamaq üçün subsidilər və transfertlər).

Yuxarıda göstərilən göstəricilər dövlət bölməsinin fəaliyyətinin son nəticələrini keyfiyyətcə qiymətləndirməklə tamamlandırılmalıdır. Bunun üçün məhsul və işlərin keyfiyyət və səmərəliliyini, onların rəqabətlilik qabiliyyətini, rentabellik səviyyəsini, sərf olunan kapital qoyuluşunu geri qaytarmaq və s. kimi amilləri əks etdirən ümumi qəbul edilmiş göstəricilər sistemindən istifadə etmək lazımdır.

2. İdarəetmənin təşkili

İqtisadiyyatın dövlət bölməsinin idarəedilməsi – onun fəaliyyətinə məqsədəuyğun rəhbərlik etmək, verilmiş bölməsin funksiyalarının koordinasiyasını təşkil etmək, rasional istifadə ilə bütün obyekt və strukturlarının marağı naminə minimal ehtiyatlar məsrəfilə ən böyük səmərəliliyə, yüksək keyfiyyətə və rəqabətlilik qabiliyyətinə nail olmaqdır. Belə rəhbərlik bu bölməsin spesifik xüsusiyyətlərini

nəzərə almaqla qarışıq iqtisadiyyatın təsərrüfatçılıq mexanizmindən kompleks istifadəyə əsaslanır, çünki onun obyektləri dövlət mülkiyyətidir. Bu isə hamı tərəfindən qəbul edilmiş belə iqtisadi stimul və vasitələr, necə ki, dəyər, kredit, maliyyə və s. ilə yanaşı eyni zamanda idarəetmənin inzibati üsullarını (əmrlər, sərəncamlar, qətnamələr və s.) fəallaşdırmağa imkan verir. Həmçinin, elmi idarəetmənin əsas aləti olan planın nüfuzunu qorumaq imkanın saxlanılmasına da şərait yaranır və «plan-qanun» kateqoriyaları sinonim kimi səciyyələndirilir. Plan – yalnız müəssisələrin deyil, həm də dövlət bölməsinin bütün obyektlərinin həyat qanunudur.

İqtisadiyyatın dövlət tərəfindən idarə edilməsi sayəsində aşağıdakı istiqamətlər üzrə real ölçülərin götürülməsinin gücləndirilməsi təmin edilir:

- iqtisadiyyatın sosial yönümlülüyü;
- təsərrüfatların innovasiya inkişaf yoluna keçirilməsi və strukturlarının dəyişdirilməsi;
- prioritet sahələrin əsasən artırılması və inkişafı;
- istehsalın və istehlakın, tələb və təkliflərin, gəlir və xərclərin, maddi, əmək, maliyyə və digər ehtiyatların balanslaşdırılmasını, dayanıqlı tarazlığa gətirilməsinin təşkili;
- təsərrüfatçılığın müxtəlif səviyyə və manqalarının maraqlarının qorunması.

Dövlət bölməsinin idarəedici subyekti Rusiya Federasiyasının Prezidenti, qanunvericilik orqanları, RF-nin hökuməti, icra hakimiyyəti orqanları, dövlət bölməsinin əsas manqalarının (müəssisələrin, təşkilatların, idarələrin və s.) idarə orqanlarıdır.

Rusiya Federasiyasının Prezidenti dövlətin daxili və xarici iqtisadi siyasətinin əsas istiqamətlərini təyin edir, iqtisadi təhlükəsizliyi, iqtisadiyyatda dövlət bölməsinin fəaliyyəti məsələləri ilə məşğul olan bəzi federal dövlət idarəetmə orqanlarının, müdafiə, daxili işlər, xarici işlər və fövqəladə hallar nazirliklərinin fəaliyyətini istiqamətləndirir. RF prezidenti, ölkənin sosial-iqtisadi inkişafının vacib məsələləri və idarə edilməsi haqda formalar və sərəncamlar verir.

Dövlət Duması qarışıq iqtisadiyyatın fəaliyyətinə dair, o cümlədən dövlət bölməsinin federal büdcə, vergi və yığımlar, maliyyə, valyuta, kredit, kömrük tənzimlənməsi, pul emissiyası, sosial inkişaf və s. kimi məsələləri üzrə federal qanunlar qəbul edir. Həmin qanunlar Federasiya Şurası tərəfindən bəyənildikdən sonra RF prezidentinin imzalanması üçün ona göndərilir. RF Prezidenti imzaladıqdan sonra həmin qanunlar açıq mətbuatda çap olunur və xalqa çatdırılır.

İcra hakimiyyətinin ali orqanı Rusiya Federasiyasının hökumətidir. O, ölkənin iqtisadi siyasətini, strategiyasını, nazirliklər, idarələr və digər icra hakimiyyəti orqanlarının köməyilə sosial-iqtisadi inkişafı məsələlərini realizə edir, öz səlahiyyətləri çərçivəsində iqtisadiyyatın dövlət bölməsinin bütün bloklarının fəaliyyətinə rəhbərlik edir, onların fəaliyyət funksiyalarına nəzarəti həyata keçirir. Hökumət mikrosəviyyədə dövlət bölməsinin bütün bloklarının inkişafı və səmərəli fəaliyyətinə şərait yaradan bir sıra vacib funksiyalar yerinə yetirir. Hökumət strategiya, konsepsiya, proqnozlar, proqramlar işləyib hazırlayır, dövlət bölməsinin inkişafını planlaşdırır, onun səmərəli fəaliyyətini təmin edən tədbirlər həyata keçirir, dövlət strukturunu, investisiya, innovasiya, sosial və digər siyasətləri formalaşdırır və realizə edir. Hökumət iqtisadiyyatın sosial yönümlüyünü gücləndirən plan və proqramları realizə edir, ictimai nemətlərin istehsalını, kollektiv istifadə məhsullarını və xidmətləri təmin edən qeyri-kommersiya büdcə təşkilatları blokuna daxil olan sahələrin və idarələrin maddi-texniki bazalarının möhkəmləndirilməsi üzrə tədbirləri həyata keçirir, onlara maliyyə dəstəyi göstərir.

Hökumət dövlət bölməsinin səmərəli funksiyası üçün hüquqi və normativ-metodiki bazanın təkmilləşdirilməsini təmin edən qərar və sərəncamlar qəbul edir, fəaliyyət sferasını və nizam-intizamı reqlamentləşdirən ən əlverişli təşkilati, strukturu, nizamnamələri, təlimatları, əsasnamələri formalaşdırır və təsdiq edir, həmçinin dövlət bölməsinin federal idarəetmə orqanlarının və digər obyektlərinin səlahiyyətlərini və funksiyalarını, eləcə də işçilərinin ştat cədvəllərini təyin və təsdiq edir.

Eyni zamanda verilmiş icra hakimiyyətinin tabeliyində olan dövlət müəssisələri və təşkilatlarının siyahısını formalaşdırır və təsdiq edir. Eləcə də səhmdar cəmiyyətlərinin siyahısı təsdiq edilir və onların hansı nazirlik idarə, agentlik və s. tərəfindən məhsullarının istehsalına, işlərin, xidmətlərin, öhdəliklərinin və digər funksiyalarının icrası üzrə vahid dövlət siyasəti həyata keçirəcəyi barədə əsasnaməni hökumət təyin və təsdiq edir.

Səmərəli kadr siyasətinin aparılması kadr potensialının möhkəmləndirilməsi, nazirliklərin, idarə və digər orqanların, dövlət müəssisələrinin, təşkilatlarının rəhbərlərinin, o cümlədən qarışıq mülkiyyət formalı səhmdar cəmiyyətlərində dövlətin səlahiyyətli nümayəndəlrinin təyini və seçilməsi də məhz hökumətin birbaşa vəzifəsinə aid olan işdir. O, müsabiqə yolu ilə seçkilər aparır, attestasiyalar təşkil edir, zəruri hallarda müəyyən məhsul növlərinin istehsalı və ya onların emalının işlənib hazırlanması ilə məşğul olan təşkilatların idarə edilməsi üzrə kadrların sertifikasiyasını həyata keçirir. Sonra isə müsabiqədən keçmiş işlərlə müqavilələr bağlanılır. Rusiya hökuməti federal mülkiyyətləri (torpaq və təbii ehtiyatlar, maliyyə, qızıl-valyuta, maddi-texniki ehtiyatlar və s.) idarə edir, dövlət əmlakının qorunmasını təmin edir, dövlət sahibkarlıq strukturu blokuna (unitar, dövlət müəssisələri və s.) rəhbərlik və idarə edir. O, həmçinin dövlət bölməsi obyektlərinin fəaliyyətinin əsas nəticələrinə monitorinq keçirir, statistik və mühasibat hesabatlarının yoxlanılmasını təşkil edir, onların işlərinə operativ nəzarəti (müfəttiş nəzarəti, audit, ekspertiza və s.) gücləndirir.

Analoji funksiyaları, öz səlahiyyətləri çərçivəsində, mezosəviyyədə federal və regional idarəetmə orqanları həyata keçirirlər. Əlavə olaraq qeyd edək ki, federal icra hakimiyyəti orqanları Rusiya Federasiyası hökumətinin icazəsi il əvə Federasiya subyektinin razılığı ilə yerlərdə öz səlahiyyətlərini həyata keçirmək üçün regionlarda müvafiq ərazi bölmələri yaradırlar. Federal idarəetmə orqanları həm də dövlət bölməsinin obyektlərinə rəhbərlik üzrə yerli özünüidarə orqanlarına səlahiyyət hüquqlarının müəyyən hissəsini vermək ixtiyarına malikdirlər.

Qarışıq iqtisadiyyatın miqyasları artdıqca və həll ediləcək sosial-iqtisadi məsələlər mürəkkəbləşdikcə dövlət bölməsinin idarə edilməsinin və onun funksiyalarının planlaşdırılmasının daha da təkmilləşdirilməsinə zəruriyyət artır. İdarəetmənin forma və metodlarının səmərəliliyini artırmaq sferasında, icra hakimiyyətinin rəhbər orqanlarının strukturlarının rasionallaşdırılması, rəhbərlik maraqlarının sayının və işçi ştatlarının azaldılmasına dair çoxlu sayda məsələlər mövcuddur. Burada xeyli ehtiyatlar vardır. Hal-hazırda Rusiyada Federal hakimiyyət orqanlarında işləyən dövlət məmurlarının sayı 333 min nəfərdən artıqdır. Yalnız mərkəzi aparatda işləyənlərin sayı 25 min nəfərə yaxındır. Həmin işçiləri saxlamaq üçün ildə təqribən 40 milyard rubl xərclənir.[1] İdarəetmə aparatında qənaətçiliyə informasiyalaşdırma və kompüterləşdirmə, ən yeni təşkilati texnikanın tətbiqi, marketinq texnologiyasından geniş istifadə, bürokratizm və süründürməçiliyin ləğvinə kömək edə bilər.

Dövlət bölməsinin sahibkarlıq blokunun səmərəliliyini artırmaqdan ötəri dövlət kapitalının (səhmlar paketi, paylar) iştirakı ilə səhmdar cəmiyyətlərinin idarə olunmasının yaxşılaşdırılması yeni imkanlar açır. Burada, sadəcə, dividendlərin artırılmasının deyil, həm də işlərin son nəticələrinin sürətlə xeyli artırılmasına nail olmaq mümkündür. Həmçinin, burada diversifikasiyalar, holdinqlərin yaradılması, dövlət müəssisələri və təşkilatlarının iştirakilə maliyyə-sənaye qruplarının yaradılması böyük maraq doğurur.

Holdinq (holdinq kompaniyası) – təşkilati strukturların bir formasıdır. O, müəssisələr qrupunun mərkəzləşdirilmiş idarə edilməsini təmin edən müəyyən biznes sferasında yaradılır. Holdinq, adətən, marketinqə kommersiya, texnika və s. bu kimi siyasətlərə mərkəzləşdirilmiş idarəetməni həyata keçirir. O, törəmə müəsəsisələrin paketlərinə və səhmlarının müəyyən hissəsinə malik olur, onların fəaliyyətinə nəzarət edir, rəhbər işçilərin seçilməsini və s. həyata keçirir. Bununla yanaşı törəmə firmaların fərdi xüsusiyyətləri, mərkəzləşdirilməmiş əməliyyat-

[1] Российская газета. 2001. 28 июнь

təsərrüfat müstəqilliyi saxlanılır. Bu isə sahibkarlığın demokratikləşməsinə, bazarın konyukturunun daha yaxşı uçotunun aparılmasına şərait yaradır.

İdarəetmənin səmərəliliyini artırmadan, ötəri zəruri şərt bütün partnyorlar (şəriklər) tərəfindən icraetmə intizamının möhkəmliyini artırmağa şərait yaratmaqdır, «oyun qaydaları»na ciddi riayət edilməsidir, plan göstəricilərini, dövlət sifarişlərini, işçilərin icra müddəti və müqavilə öhdəliklərini vaxtında yerinə yetirməkdir, təsərrüfatçılıq nəticələrinə və sosial-iqtisadi proseslərə nəzarətin və monitorinqlərin təsirini yüksəltməkdir. Bunlarla yanaşı, işlərin keyfiyyəti və digər nəticələrə cavabdehliyi, məsuliyyəti artırmaq, iqtisadi stimullaşdırma sistemlərini yaxşılaşdırmaq üçün zəruri olan başqa iqtisadi şərtlərin (rıçaqların) axtarılmasına ehtiyac vardır.

Federal, regional və yerli səviyyələrdə idarə orqanları ilə dövlət bölməsinin bütün blokları arasında qarşılıqlı əlaqələri gücləndirmək vacibdir. Dövlət bölməsi obyektlərinin funksiyalarında çoxlu sayda müsbət nəticələri münisipial inzibati dairələrin fəaliyyətini daha da fəallaşdırmaqla əldə etmək olar, çünki yerli özünüidarə orqanları çox vaxt dövlət idarəetmə orqanlarının funksiyasını yerinə yetirirlər. Belə qarşılıqlı etibarlı münasibətlər, dövlət hakimiyyəti orqanlarından müəyyən hüquq və funksiyaların bələdiyyə strukturlara verilməsi dəstəklənir və qüvvədə olan qanunvericilik aktları tərəfindən müəyyənləşdirilir.

3. İnkişafın planlaşdırılması

İctimai nemətləri və xidmətləri istehsal edən, dövlət ehtiyaclarının təmin edilməsinə qayğı göstərən sektor «öz axını ilə inkişaf edə bilməz, idarəedici sükanı və yelkəni» olmadan fəaliyyət göstərə bilməz. Ona görə də dövlət bölməsinin vacib iqtisadi idarəetmə vasitəsi kimi alət plan sayılır.

İqtisadiyyatın dövlət bölməsinin vacib obyektlərinin fəaliyyəti, əsas məqsədləri, məsələləri və göstəriciləri müəyyənləş-

dirən, müxtəlif formalardan istifadə yolu ilə planlaşdırılır. Burada ilk yerdə baş sənəd – ölkənin maliyyə planı (büdcə durur. Həmin sənəddə ölkə üzrə gəlirlərin və xərclərin quruluşu və həcmi, maliyyələşdirmə mənbələri və onların həcmi, o cümlədən dövlət bölməsi obyektlərinin maliyyələşdirilmə mənbələri və onlara ayrılan məqsədlərin miqdarı təsdiqlənir, verilmiş parametrlərin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün tədbirlər nəzərdə tutulur.

RF hökuməti hər il Dövlət Dumasına federal büdcənin layihəsi ilə birlikdə dövlət bölməsina aid olan bir sıra planlaşdırmaya dair material və sənədlər təqdim edir. Bu sənəd və materiallara dövlət bölməsinin funksiyası ilə əlaqədar məqsədli proqramlar paketi, iqtisadi səfərbərlik planları və müdafiə istehsalı funksiyalarına aid materiallar daxildir.

Eyni zamanda RF Prezidentinə müdafiə sifarişlərinə aid əsas göstəricilər təqdim edilir və sonra büdcə haqqında federal qanunla birlikdə həmin sənədlər prezident tərəfindən imzalanır. Federal dövlət ehtiyatları üçün məhsulların satın alınması və tədarükü işlərə və xidmətlərə dair dövlət sifarişlərinin həcmi (o cümlədən federal məqsədli proqramların sayı) və onlara planlaşdırılmış dövrdə federal ölçüləri təsdiq edilir.

Dövlət ehtiyacları – bu həyat təminatı, müdafiə qabiliyyəti və təhlükəsizliyi məsələlərini həll etmək, federal və dövlətlərarası məqsədli proqramları yerinə yetirmək üçün Rusiya Federasiyasına zəruri olan məhsuldur. Bu ehtiyaclar federal büdcə vəsaitləri və büdcədənkənar maliyyələşdirmə mənbələri hesabına təmin edilir.

Nə üçün federal dövlət ehtiyacları üçün məhsulların təbarükü vacibdir? O, ilk növbədə, ölkənin iqtisadi təhlükəsizliyi, müstəqilliyi və müdaifə qabiliyyətini tələb olunan səviyyədə təmin etmək üçün zəruridir, eləcə də dövlət maddi ehtiyatlarını formalaşdırmaq və yeniləşdirmək, federal məqsədli proqramlarını müvəffəqiyyətlə yerinə yetirmək, xalq təsərrüfatının balanslaşdırılmış və daynıqlı inkişafını yaxşılaşdırmaq, xarici-iqtisadi öhdəliklərə müvafiq eksport məhsul tədarükünü yerinə yetirməkdən ötəri vacibdir; bu həm də fövqəladə şəraitlərdə

(təbii fəlakətlər, qəzalar və s. bağlı) yaranan çətinlikləri, hadisələri aradan qaldırmaq üçün də zəruri şərtdir.

Federal büdcə layihəsilə eyni zamanda RF hökuməti Dövlət Dumasına iqtisadiyyatın dövlət bölməsinin inkişafı layihəsini də təqdim edir. Göstərilən layihəyə dövlət bölməsinin funksiyası və inkişafı göstəriciləri, dövlət əmlakından istifadədə alınan gəlirlər və onların bölüşdürülməsi haqda məlumatlar, eləcə də federal mülkiyyətdən və dövlətə məxsus səhmlər paketindən istifadə səviyyəsinin qiymətləndirilməsi göstəriciləri, federal mülkiyyətin səmərəliliyini yüksəldən proqramlar daxildir.

RF hökuməti və Mərkəzi Bank hər ay iqtisadiyyatın vəziyyəti haqda monitorinq keçirir və müvafiq statistik məlumatları çap etdirir.

Nazirliklər, idarələr, digər federal və regional idarəetmə orqanları dövlət sifarişlərini nəzərə almaqla illik, ortamüddətli və uzunmüddətli planlar və proqramlar işləyib hazırlayır və həyata keçirirlər, eləcə də maddi və maliyyə ehtiyatlarını (büdcə və qeyri-büdcə) idarə edirlər. Bu plan və proqramlarda verilmiş sahənin (fəaliyyət sferasının, regionun) inkişaf məqsədləri və məsələləri müəyyənləşdirilir, onlara nail olunması üçün tədbirlər sistemi işlənib hazırlanır. Nazirliklərin, idarələrin, federal və regional idarəetmə orqanlarının planlarında məhsulların həcmi və keyfiyyəti (işlərin və xidmətlərin), işlərin yerinə yetirilmə növbəliliyi və müddəti, planların yerinə yetirilməsi üçün ayrılan tədbirlərin (maddi, xammal, maliyyə və s.) miqdarı, həyata keçirilən tədbirlərin səmərəliliyinin son göstəriciləri (gəlirin məbləği, rentabellik və s.) üzrə əsas məsələlər müəyyən edilir. Eyni zamanda planın və ya plan-sifarişin yerinə yetirilməsi üçün məsul işçilər təyin olunur. Belə göstəricilər sistemi, həmçinin, dövlət sifarişinin əsaslandırılması zamanı və onun icraçılara çatdırılmasında, eləcə də plan tapşırıqlarının yerinə yetirilməsinin qiymətləndirilməsində istifadə edilir.

İqtisadiyyatın dövlət bölməsinin obyektlərinin inkişafı planı və proqramlarının işlənib hazırlanması və realizəsi zamanı, eləcə də dövlət ehtiyaclarının təminatı üçün məhsulların tədarükü və işlərin (xidmətlərin) yerinə yetirilməsi üzrə dövlət

sifarişlərinin yerləşdirilməsi və planlaşdırılması zamanı bəzi əsas prinsiplərə və tələblərə riayət edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, birinci növbədə, prioritet sosial-iqtisadi, elmi-texnoloji, müdafiə, təbiətin qorunması və digər vacib məsələlərin həlli ilə bağlıdır. Həmçinin, həll ediləcək məsələlərin ən böyük səmərəliliyinin və yüksək keyfiyyətlə yerinə yetirilməsinin təmini, müəyyən edilmiş müddətdə konkret faydalı nəticələrə nail olunması da həmin prinsiplərin əsaslarındandır. Həmin prinsip və tələblərə strateji istiqamətlərin sıxlığı və tam qarşılıqlı əlaqəliliyi, balanslaşdırılmış maliyyə, maddi-texniki, əmək ehtiyatları və onların sərfinin minimallığı da aiddir. Eləcə də bütün tərəflərin maraqları və qanuni hüquqları nəzərə alınmaqla federal, sahələr, regionlar və sahibkarlıq məsələlərinin kompleks və razılaşdırılmış həlli də həmin şərtlərə daxildir. Dövlət büdcəsi və qeyri-büdcə vəsaitlərilə maliyyələşdirilən məhsulların istehsalı, elmi-texnoloji proqramların və s. həyata keçirilməsi üzrə (dövlət sifarişləri və dövlət müqavilələri dövlət plan və proqramlarının yerinə yetirilməsinin son nəticələrinə riayət edilməsi məhz dövlətin marağı və hüququdur.

Dövlət sifarişçiləri, subpodratçılar və icraçı təşkilatların tərəfindən plan tapşırıqlarının (dövlət sifarişi, tədarük planları bölüşdürülməsi və yerinə yetirilməsinin müsabiqə-müqavilə sistemilə təşkili, eləcə də planlarda, proqramlarda və dövlət müqavilələrində nəzərdə tutulmuş dövlət tapşırıqlarının yerinə yetirilməsini iqtisadi stimullaşdırmaq (vergilər, kreditlər, məqsədli dotasiyalar və s. üzrə güzəştlər) olduqca vacibdir. Nəhayət, dövlət planlarında və dövlət müqavilələrində müəyyənləşdirilən dövlət tapşırıqlarının və qarşılıqlı öhdəliklərin (həm keyfiyyət və tədarük müddətləri üzrə) yerinə yetirilməməsinə görə tərəflərin iqtisadi məsuliyyəti kimi vacib prinsiplər də olduqca əhəmiyyətlidir.

Dövlət ehtiyaclarının ödənilməsində dövlət planlarının, məqsədli proqramların və məhsulların (işlərin, xidmətlərin) tədarükünün təminatının müvəffəqiyyətlə realizəsi üçün tapşırıqların yerinə yetirilməsinin müsabiqə-müqavilə sistemilə təşkilinin tətbiqi çox böyük rol oynayır. Bu sistem direktiv plan-

laşdırma üsulları ilə müqayisədə çoxlu üstünlüklərə malikdir. Həmin müsabiqə-müqavilə sistemi təşkilati-hüquqi formaları və idarə tabeçiliyini nəzərə almadan bütün maraqlanan icraçıları (tədarükçüləri), sahibkarları dövlət plan tapşırıqlarını (dövlət sifarişlərini) yerinə yetirmyə cəlb etmək imkanını yaRadır. Sistem müsabiqə iştirakçılarına (onların şəxsi və ya dövlət bölməsina aid olmalarından asılı olmayaraq) bərabər hüquq və imkanların verilməsinə şərait yaradır. Optimal plan və bazar vasitələrinin uyğunlaşdırılması təmin edilir, sifarişçi və icraçının maraqları səmərəli tarazlaşdırılır, işlərin icra müddətlərinə və öhdəliklərə riayətdə maraqlılığın və iqtisadi məsuliyyətin həmrəyliyi zamanı onların plan-kommersiya (bazar) münasibətləri əsasında qarşılıqlı əlaqələri düzgün təşkil edilir. Nəhayət, belə qayda ən kiçik məsrəflərlə və qiymətlə işin yüksək keyfiyyətinə və ən yüksək səmərəsinə zəmanət verən daha yüksək ixtisaslı icrasını müsabiqə yolu ilə seçməyə imkan verir.

Müsabiqənin təşkilatçısı həmişə dövlət sifarişçisi olur. Hökumət məhsullarının (işçilərin və xidmətlərin) istehsalın dövlət sifarişi ilə eyni zamanda dövlət sifarişçisini də təsdiq edir. Onun vəzifəsi dövlət ehtiyaclarının ödənilməsi və məqsədli proqramlarının yerinə yetirilməsi üçün həmin məhsulları (işləri, xidmətləri) tədarük etməkdir.

Dövlət sifarişi- hüquqi akt olaraq konkret məqsədləri, məhsulların həcmi, dəyəri, hazırlanma və ya istehsal müddətini və tədarükünü güdür, dövlətin ehtiyaclarının ödənilməsi üçün zəruri olan işçilərin və xidmətlərin yerinə yetirilməsini tələb edir. Dövlət sifarişi dövlət sifarişçiləri tərəfindən müsabiqə keçirmək yolu ilə icraçıların seçilməsi üçün hərraca çıxarılır. Müsabiqədən sonra müsabiqənin qalibləri, icraçı-təşkilatlarla dövlət sifarişçiləri arasında dövlət müqaviləsi (kontraktı) bağlanması ilə icraçının onu yerinə yetirməsi üçün müvafiq layihə-smeta və maliyyələşdirilmə sənədlərinin tərtib olunmasına başlanır.

Dövlət müqaviləsi (kontrakt) – hüquqi akt olaraq dövlət sifarişçisi ilə mühsulu istehsal və tədarük edən dövlət sifarişçisinin icraçısı arasında onların hüququnu, vəzifəsini və qarşılıqlı münasibətlərini müəyyən edir.

4. Dövlət mülkiyyətinin idarə olunması

Dövlət mülkiyyəti – Rusiya Federasiyasının mülkiyyəti hüququnda ona malik olan əmlakdır (federal mülkiyyət), eləcə də Rusiya Federasiyası subyektlərinin – respublikalar, diyarlar, vilayətlər, federal əhəmiyyətli şəhərlər, muxtar vilayətlər, müxtar dairələr-mülkiyyəti hüququnda onlara malik olan əmlaklardır. Torpaq və digər təbii ehtiyatlar əgər vətəndaşların, hüquqi şəxslərin və ya bələdiyyə dairələrin mülkiyyəti deyildirsə, onda o dövlətin mülkiyyətidir. Belə təyinat RF mülki kodeksinin 214 maddəsinin I hissəsində (bənd 1 və 2) verilir. Əgər müvafiq büdcə vəsaiti və ya başqa dövlət əmlakı dövlət müəssisələri və təşkilatlarının əmlakı (vəsaiti) kimi ayrılmamışdırsa, onda onlar RF dövlətinin əmlakını və ya müvafiq Federasiya subyektinin əmlakını təşkil edir. Dövlət mülkiyyətində olan əmlaklar dövlət müəssisələri və idarələrinə mülk kimi, eləcə də istifadəyə və idarə olunmağa verilir.

Dövlət mülkiyyətində olan əmlakların bazasında unitar, eləcə də dövlət müəssisələri yaradıla bilər.

Unitar müəssisələr – təsərrüfatı aparmaq, idarə etmək hüququnda təşkil olunmuş kommersiya təsərrüfat təşkilatlarıdır. Unitar müəssisə ona səlahiyyəti çatan, dövlət və ya bələdiyyə orqanların qərarlarına görə yaradılır. Unitar müəssisələr formasında yalnız dövlət və ya münisipial müəssisələr ola bilər. Təsərrüfatı idarə etmək (aparmaq) hüququnda yaradılmış unitar müəssisə özünün digər törəmə müəssisəsini yarada bilər, onun hüquqi şəxs timsalında nizamnaməsini təsdiq edər və əmlakının müəyyən hissəsini ona verə bilər. Əmlakın mülkiyyətçisi olan orqan unitar müəssisələrin öhdəlikləri üzrə məsuliyyət daşımır. RF hökumətinin qərarına əsasən federal mülkiyyətdə olan əmlakların bazasında operativ idarəetmə hüququna malik unitar müəssisələr yaradıla bilər və onlar federal dövlət müəssisələri adlanırlar. Rusiya Federasiyası həmin federal dövlət müəssisələrinə görə maddi yardım vermə məsuliyyəti daşıyır.

Dövlət mülkiyyətinin idarə edilməsi Rusiya Federasiyasında əmlak münasibətlərini tənzimləyən mülki kodeks və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir. Rusiya dövləti dövlət mülkiyyətinə münasibətdə özünü tamamilə mülkiyyətçi-istifadəçi kimi, yəni bütün parametrlər üzrə monopolist kimi aparmalıdır. Federal icra hakimiyyəti orqanları sistemi, RF hökuməti, nazirliklər, dövlət komitələri, agentliklər, digər dövlət tərəfindən səlahiyyət verilmiş xüsusi orqanlar, dövlət kapitalına malik səhmdar cəmiyyətlərindəki dövlət nümayəndələri və s. daxil edilməklə bütün bu orqanlar sistemi dövlət mülkiyyətinin idarə olunmasında vacib rol oynayırlar.

RF hökuməti dövlət mülkiyyətinin idarə olunmasını həyata keçirərkən dövlət mülkiyyətinin transformasiyaları, ondan istifadə və odarəə olunması, bütün dövlət orqanlarının fəaliyyətinə nəzarət üzrə məsələlərin işlənib hazırlanmasında, strateji və prinsipial qərarlar qəbul edəndə çox geniş səlahiyyətlərə malik olur. Bu sferada fəaliyyət dairəsinin genişləndiyini, idarəetmə məsələlərində ixtisaslı və mükəmməl qərarların qəbulunun zəruriliyini nəzərə alaraq RF hökuməti dövlət mülkiyyətinin idarə edilməsi üzrə səlahiyyətlərinin bir hissəsini federal icra hakimiyyəti orqanlarına verir. Dövlət mülkiyyətinin idarə edilməsinin əsas funksiyaları Rusiya Federasiyasının əmlak münasibətləri Nazirliyinə (indii RF iqtisadi inkişaf Nazirliyi) həvalə edilmişdir.

Qüvvədə olan qanunlar və digər normativ aktlar çərçivəsində dövlət mülkiyyətinə idarəetməni, istifadəni və icarəni həyata keçirən orqanlar olduqca vacib funksiyalar yerinə yetirirlər. Onlar dövlət dividend siyasətinə və dövlət müəssisələrinin (və ya qarışıq müəssisələrin) səhmlərinin dəyər kurslarının tənzimlənməsi qaydalarına müvafiq olaraq dövlət səhm paketlərini idarə edir, dövlət sahibkarlığının inkişafını idarəetmə strategiyasını işləyib hazırlayır və realizə edir, dövlət planlarını, məqsədli proqramlarını və dövlət sifarişlərini formalaşdırır. Onlar bazara uyğunlaşdırılmış dövlət bölməsi obyektlərindən və kommersiyalaşdırılmış sektordan ibarət rəhbərlik qabiliyyətinə malik idarəetmə strukturları yaradır, dövlət

müəssisələri ilə bazar təşkilatları arasındakı mübadilədə qiymətin əmələ gəlməsi siyasətini işləyib hazırlayırlar. Göstərilən orqanlar çoxvariantlı proqnozlaşdırma, proqramlaşdırmanı aparır, dövlət əmlak potensialının uzunmüddətli inkişafını idarə edir, dövlət müəssisələrinin (təsərrüfatların) ehtiyatlarla təminatının strateji və cari məsələlərinin həlli ilə məşğul olurlar. Onların vəzifələrinə idarəetmə strukturlarının və dövlət mülkiyyəti obyektlərinin elmi tədqiqat işləri və kadrlarla təminatı strategiyasının işlənib hazırlanması və realizəsi, eləcə də dövlət əmlakını və s. birgə istifadə edən subyektlərin qarşılıqlı münasibətlərinin səmərəliliyi prosesinə rəhbərlik daxildir.

Dövlət mülkiyyətinin idarə olunmasının bu və ya digər funksiyaları konkret göstəricilər (kriteriyalar) əsasında federal, regional və bələdiyyə səviyyədəki idarəetmə orqanları arasında dəqiq bölüşdürülməlidir. Bu zaman mülkiyyət obyektinin bütövlükdə Rusiya, RF subyektləri və bələdiyyə dairələri üçün əhəmiyyəti nəzərə alınmalı, eləcə də hər bir idarəetmə səviyyəsində onların yaradılması (və ya təkrar istehsalı) imkanı qiymətləndirilməlidir. Burada ən vacib göstərici rəhbərlik edən subyektin maraqlarının qorunması və həm də ümummilli iqtisadi təhlükəsizliyin təminatıdır.

Dövlət mülkiyyətinin idarə edilməsi ən mürəkkəb ümummilli problemdir və özünə olduqca ciddi münasibət tələb edir. O, heç zaman tələsik «şok» özəlləşdirilməsinə və ya «kor-təbii» milliləşdirməyə məruz qala bilməz. Belə mənfi iqtisadi təsirlərin nəticələri xüsusi isbatlar tələb etmir.

Dövlət mülkiyyətinin idarə olunması hələlik çox zaman yalnız mülkiyyətin idarə edilməsi üzrə formal tədbirlər fraqmentləri ilə məhdudlanır və dövlət əmlakından istifadənin onun təyinatına müvafiqliyinə nəzarətlə bitir. Dövlət mülkiyyətinin idarə edilməsinin strateji məqsədi onun innovasiyalar əsasında optimal ölçülərdə səmərəli istifadəsini və yenidən təkrar istehsalını təşkil etməkdir. Bu məqsədə hələlik tam həcmdə nail olunmamışdır. Dövlət mülkiyyətinin idarə olunmasının strategiyasının işlənib hazırlanması və realizəsi elmi əsaslandırılmış metodologiya bazasında həyata keçirilməlidir. Dövlət mülkiy-

yətinin idarə olunmasının elmi əsaslandırılmış strategiyasının formalaşdırılması və realizəsi əsasını təşkil edən başlanğıc məqamlara riayət edilməsini və uçotun aparılmasını tələb edir. Həmin məqamlar nədir?

Dövlət mülkiyyətinin idarə olunması hər şeydən əvvəl onun səmərəli istifadəsinin idarə edilməsi prosesidir və eləcə də onun lazımi miqyasda və keyfiyyətdə təkrar istehsalıdır. Bu müasir menecmentin bir xüsusi formasıdır. Ona görə də onun mahiyyəti və məzmunu bir tərəfdən ümumi menecmentin funksiyaları və peşə əlamətləri ilə şərtlənir, digər tərəfdən isə dövlət mülkiyyətinin idarəetmə obyekti kimi xüsusiyyətləri ilə əlaqələndirilir. Beləliklə, dövlət mülkiyyətçi və strateji menecer kimi müvafiq institutlar və iqtisadi vəzifələrin köməyilə dövlət mülkiyyətinin bütün menecment funksiyalarını yerinə yetirməlidir: proqnozlaşdırma, planlaşdırma, stimullaşdırma, işçi heyətinin (personalının idarə edilməsi, təşkilati, koordinasiyası və s.

Eyni zamanda, yalnız fərqləri deyil, həm də dövlət mülkiyyətininq idarə edilməsi ilə, ümumiyyətlə, təsərrüfat fəaliyyətinin idarə olunması arasındakı qarşılıqlı əlaqəni də nəzərə almaq zəruridir. Dövlət mülkiyyətinin ümumi mülkiyyət münasibətləri sistemlərində yerini və rolunu dərindən başa düşmək vacibdir. Onlar Rusiyanın müasir inkişaf periodunun xüsusiyyətlərini və rusiya qarışıq iqtisadiyyat modelinin spesifikasını nəzərə almaqla təyin edilir.

Dövlət mülkiyyətinin idarə olunmasının əsas xüsusiyyətlərindən biri iqtisadi və inzibati idarəetmənin forma və metodlarının bir-biri ilə üzvi bağlılığının zəruriliyi təşkil edir. Bununla yanaşı bir çox hallarda sahələr üzrə idarəetmədən fərqli olaraq mülkiyyətin dövlət strukturunun (müəssisələr və birliklər) idarə edilməsinə sahələrarası yaxınlaşma üsulu daha səmərəli sayılır. O, idarəetmənin məhsul strukturundan istifadəyə əsaslanır, çünki diversifikasiya etmənin məhsul strukturundan son məhsulu özünün sahəyə bağlılığını itirir.

Qarışıq iqtisadiyyat şəraitində dövlət mülkiyyətinin idarə edilməsi təcrübəsinin təhlili və metodoloji yaxınlaşmasının bu və digər hakim mövqeyi verilmiş iqtisadi kateqoriyalara aşağı-

dakı tərifləri verməyə imkan yaradır. Dövlət mülkiyyətini idarəetmə onun müxtəlif subyektləri və təkrar istehsalının təmin edilməsi üzrə menecerləri arasındakı təşkilti-iqtisadi münasibətlərin sistemidir, dövlətin və cəmiyyətin əsasını təşkil edən sosial və iqtisadi maraqların realizəsi məqsədilə qarışıq iqtisadiyyatın iqtisadi mexanizmlərinin köməyilə onun obyektlərindən səmərəli istifadə etmək və transformasiyasıdır. Dövlət mülkiyyətini idarəetmə hansı prinsiplər üzrə təşkil olunur? Ümumi və spesifik prinsipləri fərqləndirmək olar. Ümumi prinsiplər Rusiyada mövcud olan, fəaliyyət göstərən qarışıq iqtisadiyyat şəraiti üçün xarakterikdir. Spesifik prinsiplər isə keçid dövrü şəraiti üçün xarakterikdir.

Ümumi prinsiplərə müəssisə və idarələrin fəaliyyətinin və təkrar istehsalının sosial və iqtisadi səmərəliliyinin göstəriciləri üzrə dövlət mülkiyyətini idarəetmənin nəticələrinin və onun davamlılığının qiymətləndirilməsinin məcburiliyi, «məqsədlər ağacında strateji məqsədlərin fərqləndirildiyi halı və onun əldə edilməsi yolları müəyyən edildiyi zaman mülkiyyəti idarəetmənin məqsədli xarakterini ciddiliyi aiddir. İdarəetmənin motivasiya istiqamətliliyi, sosial və iqtisadi məsuliyyətliliyi, kompleksliliyi və sistemliliyi ümumi xarakter daşıyır. Ümumi prinsiplərə bütün idarəetmə subyektləri arasındakı qarşılıqlı əlaqə funksiyalarının bölünməsi, idarəetmə strukturlarının yeniləşdirilməsi və çevik təşkili sistemləri, idarəetmənin müxtəlif forma və üsullarından istifadə, idarəetmə proseslərinin keyfiyyətli hüquqi təminatının məcburiliyi aiddir. Vacib prinsiplərdən biri də mülkiyyətin bütün formalarının bərabər hüquqluğunun və dövlət mülkiyyətinin sistemlər yaradıcı rolunu tanımaqdır.

Dövlət mülkiyyətini idarəetmənin əsas spesifik prinsiplərinə keçid dövrü islahatlarının xarakterinə idarəetmənin məzmunu və üsullarının mütləq müvafiqliyini, eləcə də iqtisadi böhranları dəf etməkdə dövlət mülkiyyətinin idarəetmənin istiqamətliliyini, dinamik innovasiya iqtisadiyyatının inkişafına çıxış yolunu və s. aid etmək olar.

Bu prinsiplərdən asılı olaraq dövlət mülkiyyətindən istifadə proseslərini idarəetmədə və təkrar istehsalda bilavasitə iştirak edən sahələrarası, sahələr və regional orqanların məqsədləri və funksiyası müəyyən edilir. Hər bir icraçı orqanın da səlahiyyəti məqsədlərlə, dövlət mülkiyyətini idarəetmə vəzifələrilə şərtlənir, eləcə də onun konkret funksiyaları ilə, dövlət əmlakı obyektlərilə, müəssisələrin (unitar, qarışıq kapitalı xəzinələrlə) hüquqi-təşkilat formaları ilə təyin edilir. Dövlət mülkiyyətinin rasional idarəedilməsinin ən vacib şərtlərindən biri də qanunvericilik sistemlərinin və digər normativ aktların daha da təkmilləşdirilməsidir. Bu isə dövlət mülkiyyətindən səmərəli istifadə və dinamik təkrar istehsal üçün ən əlverişli şərait yaradır.

Təsərrüfatı idarəetmək hüququna malik olan unitar müəssisələrin fəaliyyəti ilə bağlı bir sıra problemlərin həlli tələb olunur. Bu müəssisələrin cəlbedici cəhəti onlarda dövlət sahibkarlığının yüksək sərbəstlik dərəcəsi olmasıdır. Ancaq burada ciddi yaxınlaşmaya riayət tələb olunur: nə qədər sərbəstlik dərəcəsi yüksəkdirsə, bir o qədər məsuliyyət dərəcəsi də yüksəkdir. Əlbəttə, burada işlərin son nəticələri əsasında unitar müəssisələrin iqtisadi məsuliyyətini və mənfəətdarlığını artırmaq tələb olunur. Bir çox hallarda xüsusi vacib məsələlərin bir hissəsi rəsmi dövlət müəssisələrinə çevrilə bilərlər, digər hissəsi isə dövlət səhmları paketi ilə açıq səhmdar cəmiyyətinə transformasiya edilə bilər.

Dövlət kapitalına malik səhmdar cəmiyyətlərinin (SC) fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün çox işlər görülməlidir. Bu məsələ olduqca aktualdır, çünki iri dövlət səhmdar korporasiyaları bir çox hallarda müasir Rusiya iqtisadiyyatının nüfuzunu müəyyən edir. Bununla yanaşı səhmdar cəmiyyətlərinin təşkilati-hüquqi formaları inzibati və iqtisadi rəhbərlik üsulları arasındakı ziddiyyətlərin optimal həllini tapmağa imkan verir, dövlət mülkiyyətinin idarə olunması ilə dövlət sahibkarlığı arasında sıx qarşılıqlı əlaqəni təmin edir. Qeyd olunan ziddiyyətlərin mütərəqqi həll yolları dövlət kapitalına malik səhmdar cəmiyyətlərinin ardıcıllıqla kommersiyalaşdırılmasıdır. Burada dövlət mülkiyyətindən istifadənin bir sıra

funksiyaları mülkiyyətçi dövlətdən müqavilələr (kontraktlar) əsasında rəhbər heyətə (personala) verilə bilər. Müvafiq olaraq, dövlətin yoxlama səhmlar paketi yenə müqavilələr (kontraktlar) əsasında bilavasitə vəkalətnamə ilə idarə olunmaq üçün səhmdar cəmiyyətinin rəhbərliyinə verilə bilər.

Dövlət mülkiyyətini idarəetmənin təşkilinin təkmilləşdirilməsinin vacib məsələlərindən biri dövlət kapitalına malik səhmdar cəmiyyətlərində dövlətin səmərəli nümayəndələr institutunu formalaşdırmaqdır. Artıq dövlət kapitalına malik səhmdar cəmiyyətlərinin idarəetmə orqanlarında bütün dövlət nümayəndələrinin fəaliyyətinin məhdudluğunu kardinal yüksəltmək zəruriyyəti yetişmişdir. Onlara dövlət mülkiyyətindən istifadə və təkrar istehsalın idarə olunması üzrə vacib qərarların qəbul edilməsində həlledici səsə malik iştirakçı hüququnun verilməsini təmin etməli, eləcə də bu qərarların realizəsi üzrə, kompleks funksiyaların işlənib hazırlanması və icrası ilə məşğul olmağa şərait yaradılmalıdır.

Bu zaman dövlət nümayəndələrinin və ya vəkil edilmiş şəxslərin vəzifə dairələri dəqiqləşdirilməlidir, onların fəaliyyətinin stimullaşdırılması sistemləri isə əldə edilmiş nəticələrlə sıx əlaqəli olmalıdır. Həmin şəxslərin gəlirləri bilavasitə səhmdar cəmiyyətlərində çalışan menecerlərin gəlirlərindən aşağı olmaması halları da mümkündür. Burada nəzərə alınır ki, onların əmək haqqının əsas hissəsi səhmdar cəmiyyətlərinin ümumi gəlirlərindən ödənilə bilər və ya ödənilməlidir, əmək haqqının digər hissəsi isə onları dövlət nümayəndəsi təqdim edən və təsdiqləyən dövlət orqanının əmək haqqı fondundan ödənilir. Əgər dövlət nümayəndələrinin fəaliyyəti və ya fəaliyyətsizliyi üzündən, səhmdar cəmiyyətinin idarə orqanlarında o çalışdığı müddətdə, səhmdar cəmiyyətinə hər hansı ziyan dəyirsə, o zaman ona görə yalnız inzibati məsuliyyətə deyil, həm də əmlak məsuliyyətinə cəlb edilə bilər.

Dövlət nümayəndələrinin və digər vəkil edilmiş şəxslərin seçilməsinin müsabiqə-kontrakt (müqavilə) əsasında aparılması məqsədəuyğundur. Onların səhmdar cəmiyyətlərindəki fəaliyyətini digər iş yerlərində çalışmaqla birgə həyata keçirilmələrinə

o zamanlar icazə verilir ki, bu zaman onların səhmdar cəmiyyətlərindəki əmək məhsuldarlıqlarının səmərəliliyi azalmır. Dövlət mülkiyyətini idarəetmədə dövlət nümayəndələrinin fəaliyyətinin nəticələrini qiymətləndirmək üçün konkret iqtisadi kriteriyalardan istifadə etmək zəruridir. Əsas göstəriciləri (kriteriyaları) sayaq. Bu səhmdar cəmiyyətində dövlət mülkiyyətinin təkrar istehsalından alınan nəticələrdir, yəni innovasiya əsasında əsas və dövriyyə fondlarının artırımdır, səhmdar cəmiyyətinin rəqabətlilik qabiliyyətidir, eləcə də kapitaldan (əsas və dövriyyə fondları) istifadənin səmərəlilik göstəricisi kimi rentabellik səviyyəsidir.

Vəkalətnamə ilə idarəetmə əsasında fəaliyyət göstərən dövlət kapitalına malik səhmdar cəmiyyətlərində dövlət mülkiyyətinin təkrar istehsalını idarəetmənin təkmilləşdirilməsinin digər istiqamətləri də mövcuddur. Məsələn, səhmdar cəmiyyətlərində aşağıdakı funksiyaların yerinə yetirilməsinin təşkili; elmi əsaslandırılmış planlaşdırma və proqnozlaşdırmanın menecmentliyi; koordinasiya, bilavasitə iqtisadi nəzarət və s. burada əsas məsələ dövlət kapitalına malik səhmdar cəmiyyətlərinə investisiyaları səhmların əlavə emissiyasının səmərəli sistemlərinin köməyilə və onların müsabiqə yolu ilə yayılmasını təmin etməklə cəlb etmək mexanizmini işləyib hazırlamaqdır. Həmçinin, o çərçivələri də nəzərə almaq lazımdır ki, həmin çərçivələrdən kənarda dövlət yoxlama səhm paketlərini itirir.

Suallar və tapşırıqlar

1. İqtisadiyyatın dövlət bölməsinin tərkibinə hansı obyektlər (bloklar) daxildir?
2. Nə üçün iqtisadiyyatın dövlət bölməsini «ictimai sərvət» (məhsul) istehsal edən və ya «sosial rifah» bölməsi adlandırırlar?
3. Unitar müəssisənin dövlət müəssisəndən prinsipial fərqi nədir?

4. Makrosəviyyədə dövlət bölməsinin idarə edilməsini hansı orqanlar təşkil edir?

5. Gələn il üçün dövlət bölməsinin inkişaf layihələrində nəzərdə tutulan əsas göstəriciləri sayın.

6. İqtisadiyyatın hansı bölməsinin dövlət yoxsa özəl (bazar) müəssisələrinin səmərəli olması haqda suala cavab verərkən mövqeyinizi əsaslandırın (arqumentləşdirin)?

© Половинкин П.Д. 2002
© Смирнитский Е.К. 2002

XXXI Fəsil

BAZAR İNFRASTRUKTURU, ONUN FORMALAŞMASI VƏ FƏALİYYƏTİ

1. Bazar infrastrukturunun xarakteristikası

Bazarın müxtəlif subyektləri arasında uzunmüddətli, kompleks və cürbəcür qarşılıqlı təsirləri təmin edən nəticə etibarı ilə tamamlayıcı fəaliyyət göstərən infrastrukturun köməyi ilə səmərəli bazar iqtisadiyyatını yaratmaq mümkündür. «İnfraquluşu» sözü latıncadan tərcümədə «tikilinin hüdudlarından kənarda» mənasını daşıyır. «Bazar infrastrukturu» kateqoriyası altında bazar iqtisadiyyatının normal fəaliyyətinin ümumi şərtlərini təmin edən alətlərin, proseslərin, forma və üsulların məcmuu başa düşülür. İnfraquluşunu kompleks xarakteri, tərkib elementlərinin fəaliyyətindəki fərqlər təsdiq edir ki, «ümumi şərtlər» altında adətən, hər şeydən əvvəl maddi-əşyayı şərtlər nəzərdə tutulmalıdır. Çox zaman bu şərtlərə təkrar istehsal prosesini təmin etmək üçün yaradılmış, bütövlükdə fəaliyət göstərən təşkilatı münasibətləri aid edirlər. «Ümumi şərtlər»-in şərhi bununla məhdudlaşmır. Dar mənada, ümumi şərtlər məhsuldar qüvvələrin özünün bilavasitə inkişafı ilə yaradılır və onlara daxil olan sahə qruppларının, ilk növbədə, nəqliyyat və rabitənin vəziyyəti ilə müəyyən edilir. Geniş mənada, həmin ümumi şərtlərə həmçinin, təbiət, əmək ehtiyatlar və texniki mədəniyyət də daxil edilir. Bu

Manufaktura və iri maşın sənayesinin istehsalının inkişafı dövründə verilmiş amillərin limitlənməmək, yəni həddqoyulmamaq xarakteri ilə əsaslandırılır. Çünki onların təkrar istehsalını saxlamaq, mühafizə etmək müəyyən səviyyədə ümumi şərt kimi ayrılır, onu sosial cəhətdən təşkil etmək və inkişaf etdirmək tələb olunur.

Bu şərhlər bir-birini tamamlayır. Onlar ümumi şərtlərə mühüm səviyyəvi xüsusiyyətlər-intensiv tipli təkrar istehsalın genişlənməsi üçün vahid təməl (platforma) yaratmaq imkanı verirlər. Səmərəli inkişaf edən infraquruluşu sənayenin fəaliyyəti və yerləşdirilməsində müsbət təsir xarakterinə malikdir və çox zaman iqtisadiyyat üçün yaradıcı və islahatçı amili rolunda çıxış edir.

Bazar infraquruluşu özlüyündə bazar iqtisadiyyatı subyektlərinin səmərəli işləməsini, eləcə də müəyyən bazar məkanında onların birliyini və qarşılıqlı təsirini təmin edən fəaliyyət növlərinin məcmuyunu ifadə edir. İnfrastruktur öz təbiətinə görə ikili xarakter daşıyır. O, müəyyən əmək prosesini əks etdirir və bu sferaya kapital qoyuluşu yolu ilə dəyəri artırır. İnfrastrukturun əsas əlamətləri və meyarlar keyfiyyətində hər şeydən əvvəl onu seçirlər ki, infrastrukturun istehsal fəaliyyəti məhsulun yeni təbii-maddi formasını yaratmır, yalnız artıq hazırlanmış, istehsal edilmiş məhsulun dəyərini artırır. İnfrastruktur sferasında istehsal prosesi səmərəli effekt işlətməsindən (istehlakından) ayrılmazdır. Daşınma, saxlanma, qorunma və informasiyanın ötürülməsi prosesləri formasında çıxış edən infrastruktur məhsulları qorunmur və ya qablaşdırılmır (saxlanılmır).

İnfrastrukturun təminatı proseini müxtəlif növ kommunikasiyaların məcmuyu kimi təsvir etmək olar. İnfrastrukturu bu şəkildə xarakterizə etmək imkan verir ki, aşağıdakı fikri qəti surətdə açıqlayaq: infrastruktur fəaliyyətinin məhsulu xidmətdən başqa şey deyildir. Çünki xidmət-əməyi məhsuldar və burada faydalı effekt (səmərə) maddi formada deyil, fəaliyyət növü formasından çıxış edir. Fəaliyyət növü insana və ya cismə (əşyaya) yönəldilə bilər və bu zaman xidmət prosesi kommunikasiyadan başqa bir şey ola bilməz. Belə olan halda kommunikasiya obyektlərinin nə olması vacib sayılır: əşyalar, kapital,

əmək, informasiya və s. Kommunikasiyanın növləri üzrə maddi, maliyyə, insanlar dəstəsi və s. kimi növlər fərqləndirirlər.

Bazar infrastrukturunun fəaliyyətinin tərkibini (məzmununu) müəyyən etməyə görə: bölüşdürücü, kommunikasiya və tənzimləyəci fəaliyyətləri mövcuddur.

Bazar infrastrukturunun bölüdşdürücü fəaliyyəti (funksiyası) dedikdə regional və sahələr üzrə əmək ehtiyatlarının, maliyyə və maddi əmtəə sərvətlərinin paylanmasını təmin etmə qabiliyyəti başa düşülür. Kommunikasiya funksiyası dedikdə yalnız əmək məhsullarının ekvivalent mübadiləsindən başqa şey qəbul etmək düzgün deyildir. Əmək məhsulları isə əmtəələr, xidmətlər, informasiyalar və s. ola bilər. Cürbəcür bazarlarda tələb və təklifin balanslaşdırılmış (tarazlaşdırılmış) şəklində saxlanılması və bərpası bazar infrastrukturunun tənzimləmə funksiyası ilə təmin edilir.

İnfrastruktur özlüyündə sosial-iqtisadi sistemin səciyyəvi törəməsi olsa da, xalq təsərrüfatının müəyyən inkişaf səviyyəsində iqtisadiyyatda baş verən quruluş dəyişikliklərinin obyektiv zəruri nəticəsi kimi meydana gəlmişdir. İqtisadiyyatdakı quruluş dəyişmələri isə onun ayrı-ayrı elementləri arasında yaranan əlaqəsizliklə, ayrılmalarla, onların xassələrinin differensasiyası, xarakteristikalarının yenidən bölüşdürülməsi və s. ilə bağlıdır. Bütün bu proseslərlə yanaşı əlaqəsizliyi və ayrılmaları kompensasiya edən bir mexanizmin yaradılması tələb olunur ki, quruluşların əmələ gəlməsi prosesinin nəticələrini öz aralarında əlaqələndirsin, uyğunlaşdırsın. Beləliklə, istənilən ixtisaslaşma mübadilənin zəruriliyini təklif edir, istənilən məkanın bölüşdürülməsi yerdəyişmə tələb edir, istənilən xassənin differensasiyası (qiymətləndirilməsi) isə əlaqənin (rabitənin) yaradılmasına, informasiyanın ötürülməsinin zəruriliyinə səbəb olur.

İnfrastruktur təsərrüfat obyektlərinin fəaliyyətinə təsir göstərən, müxtəlif xarici təsirləri, nizamsızlığı və cürbəcürlüyün artmasını kompensasiya edən mexanizmdir. İqtisadiyyatın hər bir modelinə infrastrukturun öz modeli uyğun gəlir və bütövlükdə, iqtisadiyyatın idarəolunmasının keyfiyyətini təyin edir. Yüksək səviyyəli dövlət tənzimlənməsi malik olan iqtisadi

modeldən bazr tənzimlənməsi üstünlük təşkil edən modelə keçid zamanı təsərrüfat infrastrukturda dəyişikliklərə uğrayır. Bu infrastrukturun elementlərinin iş üsulları və formalarının dəyişməsində, yenilərinin yaranması və köhnələrinin ləğvində özünü göstərir.

Bazar münasibətlərinin inkişafı şərtlərindən biri də formal eyni hüquqlu təsərrüfat subyektlərinin idarə olunmasının qarşılıqlı müqavilə üzrə özünü təşkilidir. Bu, birincisi, müxtəlif orqan və institutların mövcud olmasını nəzərdə tutur ki, potensial portnyorların arasında kontaktların əmələ gəlməsinə şərait yaradır və onların içərisində ən səmərəlisini seçməyi asanlaşdırır. İkincisi, bu ümumi qaydalar, qanunlar, normativ aktlar tələb edir və onların sayəsində təsərrüfat subyektlərinin idarə edilməsi münasibətlərini tənzimləyir.

Göstərilən təşkil və özünütəşkil proseslərinin qarşılıqlı təsiri bazar şəraitində təsərrüfat subyektlərində mümkün özünü təyin etmə azadlığının mövcudluğunu və dövlət tənzimlənməsinin əks etdirilməsi kimi bazar infrastrukturu institutunun yaranması və fəaliyyəti yolu ilə həyata keçirilir. Beləliklə, infrastruktur təşkil və özünü təşkil proseslərinin sintezini, qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini təmin edən mexanizm rolunda çıxış edir. Bazar infrastrukturu əsas bazar proseslərini maddi və təşkilati təmin edən orqan və institutların məcmusudur. Satıcı və alıcının bir-birini qarşılıqlı axtardığı, əmtəənin pula mübadiləsi, əmtəə dövriyyəsi və eləcə də bazar quruluşunun iqtisadi-təsərrüfat, maliyyə fəaliyyəti müşahidə edilir.

Xidmətlərin diversifikasiyası (diversifikasiya-fəaliyyət obyektlərinin genişləndirilməsi, məhsul (xidmət) çeşidlərinin artırılması) prosesi daima baş verir və bu da təbiidir. Beynəlxalq xidmətlər standartı hal-hazırda özünün xüsusi təsnifatlarında istehlakçılara təqdim olunan 600-dən çox xidmət növlərini qeyd etmişdir.

Müasir bazar infrastrukturu inkişaf etmiş ölkələrdə sahələr kompleksi şəklini almışdır və son zamanlar bütövlükdə sənaye sahələri ilə müqayisədə daha böyük sürətlə inkişaf edir. Bu bir çox amillərlə izah olunur və hər şeydən əvvəl, istehsal

sektorunun qabaqlayıcı inkişafında baş verən irəliləyişlərlə əlaqələndirilir. Ona görə də infrastrukturun bəzən geridə qalmış bütövlükdə iqtisadiyyatın inkişafına əsaslı təsir göstərir. İnkişaf etmiş ölkələr, ilk növbədə ABŞ, bu səbəbdən fəal şəkildə sahələrin infrastrukturuna əsaslı kapital qoyurlar. Qərb iqtisadi ədəbiyyatında bu proses «iqtisadiyyatın servisləşdirilməsi» adını almışdır. Qeyd edək ki, bu prosesə digər amillər də təsir göstərmişdir: ictimai əmək bölgüsü dərinləşmiş, kredit ehtiyatlarına tələbat artmış, elmi-texniki tərəqqi daha sürətlə inkişaf etmişdir. İstehsalın fərdiləşdirilməsi və diversiifikasiyası daha böyük templə baş verir, iqtisadiyyatın inkişafının təbii sərvətləri, əmək ehtiyatlarını və s. kimi amillərin qorunmasına keçidi geniş vüsət alır.

Müəyyən inkişaf mərhələsində xalq təsərrüfatındakı yerinə və ona ayrılan roluna görə infrastruktur özlüyündə milli inkişafın mühüm ehtiyatlarından birinə çevrilmişdir. Ondan istifadə etdikcə müəyyən olunmuşdur ki, infrastruktur sahələri istehsal sahələri ilə müqayisədə çoxlu sayda üstünlüklərə malikdir. Bu üstünlüklər nədən ibarətdir? İnfrastruktur sahələri kiçik material tutumluluğu və ehtiyat tutumluğu ilə fərqlənirlər və bununla da özünün iqtisadi tərəqqidə ehtiyat qoruyucu növündəki payını, əlavəsini təmin edirlər. İqtisadiyyatın digər sahələri ilə müqayisədə infrastruktur sahələrinin daha sürətlə inkişafı onları ümumi milli məhsul yığımına kifayət qədər yüksək və daima artan əlavələr verməsi ilə xarakterizə edirlər. İnfrastruktur sahələrinin məhsullarına tələbatın artmasının yüksək çoxşaxəli effekti onun olduqca gözəl xüsusiyyətidir və bu infrastrukturun özünün, ilk növbədə, genişlənməsi, eləcə də bunun vasitəsilə bütövlükdə iqtisadiyyatın inkişafına impuls verir. Belə ki, yeni avadanlıqların və texnologiyanın istifadəsinin yüksək səviyyəsi və sürətli inkişafı ilə əlaqədar maşınqayırma kompleksi öz üzərində infrastruktur sahələrinin çox böyük stimullaşdırıcı təsirini hiss edir. Bu sözləri eynilə tikinti-inşaat xidmətləri kompleksi haqqında da söyləmək olar. Qeyd edək ki, infrastruktur sferası həm də iqtisadiyyata sabitləşdirici və möhkəmləndirici təsir də göstərir. Bu istehsaln

maddi-əşyayi hesabatındakı dövrü dəyişmələrinə infrastrukturun nisbətən zəif həssaslıqla reaksiya verməsi ilə şərtləndirilir. İqtisadi tənəzzül və inflyasiyalar zamanı infrastruktur sahələrinin məhusllarına tələbat, adətən, eyni səviyyədə saxlanılır. İnfrastruktur sahələrinin inkişafı sayəsində ənənəvi təsərrüfat əlaqələri modellərində dəyişikliklər baş verir. Məsələn, sahələrarası axında qeyri-maddi məhsulların miqdarı artır. Bu isə müəyyən sahələrdə (xüsusən nəqliyyat və rabitədə) həmin prosesləri təmin edən xidmətlərə olan tələbatın azalmasına gətirir. Nəhayət, infrastrukturun inkişafı məşğulluq sferasındakı vəziyyətə faydalı təsir göstərir. Hal-hazırda sənaye sahələrinə nəzərən infrastruktur sferasında əmək məhsuldarlığının səviyyəsi aşağıdır və digər sahələrdən (əmək məşğulluğu sektorlarından) azad olan işçi qüvvəsini özündə cəmləşdirmək məcburiyyətində qalır.

İnfrastrukturun tədqiqatlarında iqtisadi və xarici iqtisadi xidmətlərin növlərini fərqləndirirlər. İqtisadi xidmətlərə o xidmət növləri aid edilir ki, onlar istehlakçıya təqdim edilən mallarda təmsil olunurlar. Çünki qeyd etdiyimiz kimi, infrastruktur sferası özü maddi məhsul yaratmır, digər istehsal sahələrinin məhsullarının dəyərinə xidmət işçiləri əməkləri ilə əlavələr edirlər, məhsulun, son nəticədə, dəyərini artırırlar. Xarici-iqtisadi xidmətlər, adətən, müəyyən dövlət institutları (dövlət icra orqanları, dövlətin nümayəndəliyi və ya təmsilçisi orqanları və s.) sistemləri tərəfindən cəmiyyətin və onun üzvlərinin zorla boynuna qoyulur. Ümumi şəkildə adları səkilən xidmət növləri öz institutlarına aşağıdakı bazar infrastrukturunu transformasiya edirlər: kredit sistemi və kommersiya bankları, emissiya sistemi və emissiya bankları, əmtəə, xammal, fond və valyuta birjalarında təşkilati-tərtibati vasitəçilik, auksionlar, yarmarkalar və digər qeyri-birja təşkilati formalarında vasitəçilik, əhalinin məşğulluğunun tənzimlənməsi sistemləri və məşğulluğa yardım (dövlət və qeyri-dövlət) mərkəzləri (əmək birjaları), işgüzar kommunikasiya vasitələri və informasiya texnologiyaları, vergi sistemləri və vergi müfəttişliyi, kommersiya və təsərrüfat risklərini sığorta sistemləri və sığorta (dövlət və

qeyri-dövlət) kompaniyaları, xüsusi reklam agentlikləri, informasiya agentliyi və kütləvi informasiya vasitələri, ticarət palataları, digər ictimai və könüllü dövlət-ictimai işgüzar dairələr birliyi, gömrük sistemləri, muzdlu əmək üzrə çalışan işçilərin həmkarlar ittifaqı, kommersiya-sərgisi kompleksləri, kommersiya mərkəzləri, loqistik xidmət mərkəzləri, ali və orta iqtisadi təhsil sistemləri, məsləhətxanalar və məsləhətçi mərkəzlər, auditor kompaniiyaları, işgüzar fəallığı stimullaşdırmaq üçün təyinatlı ictimai və dövlət-ictimai fondlar, azad sahibkarlığın xüsusi zonaları. İnfrastruktur müasir bazarın ayrılmaz və tərkib hissəsidir. O, bazarın bütün elementlərinin fəaliyyətinin nəticələrini təyin edir. İnfrastrukturun sadalanan elemntlərinin mövcudluğu sivil formasına çevrilir. Burada xüsusi qeyd etmək lazımdır ki, infrastrukturun elementlərinin işgüzar dairələrə kənardan vadar edilməsi, zorla tətbiqi qəbul edilməzdir, onlar iqtisadi münasibətlərin özləri tərəfindən yaranmalıdır, həmin şəraitin törəməsi olmalıdır.

2. İqtisadiyyatın infrastruktur kompleksləri

İqtisadiyyatın infrastrukturunun müasir anlayışı özündə bir sıra mühüm blokları cəmləşdirir ki, onlar da xalq təsərrüfatının fəaliyyətinin səmərəliliyini müəyyən edirlər. Həmin blokların tərkibinə istehsal, sosial və icra institutları (orqanları) blokları daxildir. Bunlardan başqa, iqtisadi, şəxsi və sosial blokları da nəzərə almaq lazımdır.

Bazar infrastrukturunu sosial-iqtisadi məzmununa görə iki təsnifat əlamətlərinə ayırmaq olar. Birincisi, müxtəlif sferalara və sosial-iqtisadi fəaliyyət istiqamətlərinə xidmətləri təmin edən infrastrukturdur. Bu istehsal, sosial və idarəetmə sahələri quruluşunun məcmuudur. İkincisi, bazarın ayrı-ayrı sektorlarına xidmətləri təmin edən infrastrukturdur.

İnfrastrukturun inkişafı sayəsində yeni şərtlər yaranır ki, onlar bilavasitə istehsal proseslərini (maddi-texniki təchizat və maddi məhsulların istehlakı, informasiyanın toplanması və emalı, mühasibat xidmətləri, texnoloji idarəetmə məsələləri

üzrə məsləhətlər və s.) təmin edirlər. İşçi qüvvələrinin təkrar istehsalı sahələrində də yeni şəraitlər yaradılır. İşçi və qulluqçuların sağlamlığını qorumaq, onların təhsili və peşə hazırlığı, istirahətlərinin təşkili istehsalat prosesləri üçün mühüm öhdəliklərdəndir. Nəhayət, mikro və makro nisbətin (proporsiyanın) tarazlaşdırılmasını təmin edəcək yeni şərtlər yaranır. Bununla əlaqədar infrastrukturun aşağıdakı növlərini fərqləndirirlər.

İstehsalat infrastrukturu. Bu istehsal proseslərindən kənar şərtləri bilavasitə təmin edən sahələr kompleksidir. Buraya yük nəqliyyatı, topdan satış ticarəti, elektrik, qaz və su təchizatı, anbar təsərrüfatı, rabitə, informasiya xidməti (informasiyanın emalı, proqram təminatı, verilənlər bazasının xidmətləri) daxildir. Bu infrastruktura həm də aşağıdakıları daxil etmək lazımdır: reklam və marketinq xidmətləri, icarə və lizinq (özündə icarəni və icarə avadanlıqlarının ödənişinin kreditləşdirilməsini birləşdirən sfera), məsləhətxana və məsləhətçi xidmətləri, (idarəetmə, investisiya siyasəti və s. üzrə məsələlər də məsləhətləşmələr); mühəndis-məsləhət və layihə xidmətləri sferası, işçi qüvvəsinin müvəqqəti təminatı üzrə sferalar və s.

İxtisaslaşdırılmış marketinq firmaları, xüsusi və ya qarışıq (dövlətin iştirakı ilə) müəssisələr mövcuddur. Onlar bazarın xüsusi tədqiqatlarını aparmaqla məşğul olur, müxtəlif məlumat kitabçaları, icmal və xülasələri hazırlayır və çap edirlər.

Sosial infrastruktur – işçi qüvvəsinin təkrar istehsalı ilə bağlı olan sahələr kompleksidir. Bu – səhiyyə, təhsil, pərakndə satış, sərnişin nəqliyyatı, mənzil-kommunal təsərrüfatı mədəni istirahət və əyləncələrin təşkili sferaları, ictimai iaşə, ev və ailə təsərrüfatı üzrə xidmətlər, incəsənət, idman, bədən tərbiyəsi sferaları və s. deməkdir. Ancaq bu infrastruktur bloku haqqında daha tam və geniş məlumat onu sosial-məişət infrastrukturu kimi təsvir etdikdə alınır. Əhalinin normal həyat fəaliyyəti və yerləşdirilməsi üçün maddi, mədəni-məişət şəraitini təmin edən sahələrin və yarımsahələrin məcmuyu məhz bu infrastrukturun məzmununu təşkil edir. Bir halda ki, bu şərtlərin praktiki realizəsi xidmət və mənəvi xoşbəxtliyi, səadəti ifadə edir, onda sosial-məişət infrastrukturunu həm də xidmətlərin və mənəvi

rifahın istehsal sferası da adlandırırlar. Sahələr üzrə təsnifatda bu infrastruktur xalq təhsili, səhiyyə, idman və bədən tərbiyəsi, mədəniyyət və incəsənət, pərakəndə satış və ictimai iaşə, mənzil-kommunal təsərrüfatı, məişət xidmətləri, sərnişin nəqliyyatı, rabitə və s. kimi əhaliyə xidmət sahələrini özündə birləşdirir.

Xidmət və mənəvi nemətlərin istehsalı sferasından danışarkən nəzərə almaq lazımdır ki, iqtisadi ədəbiyyatda hələlik onun adı haqqında vahid fikir yaranmamışdır. Onun adı müxtəlif formalarda ifadə olunur: «qeyri-istehsalat sferası», «sosial infrastruktur»və s. Bu məsələdə vahid nöqteyi-nəzərin olmaması maddi istehsal sferası və xidmətlərin dəqiq sərhədlərini təyin etməyi çətinləşdirir, milli təsərrüfatın sahələrinin təsnifatlara bölünməsində qarışıqlıq yaradır.

Xidmət və mənəvi nemətlərin istehsalı, əsas etibarilə, istehsalatın bir hissəsini, bölüşdürücü və istehlak münasibətləri sferasını əhatə edir. Burada cəmiyyətin hər bir üzvünün həyat və fəaliyyəti üçün maddi, mədəni-məişət və sosial şərtləri yaradılır. Həmin şərtlər cəmiyyətdə məhsuldar qüvvələrin əldə etdikləri inkişaf səviyyəsini, üstünlük təşkil edən istehsal münasibətlərinin xarakterini əks etdirir. İctimai tərəqqinin müəyyən mərhələsində xidmət və mənəvi nemətlər istehsalı sferasının qazandığı inkişaf səviyyəsini xarakterizə edən «sosial-məişət infrastrukturu anlayışı onların daha tam məzmununu özündə cəmləşdirir. Bununla yanaşı, «sosial-məişət infrastrukturu anlayışı ikili-vahid xidmətlər xarakterini nəzərə çatdırır ki, onlar əhalinin həm ictimai, həm şəxsi sosial-məişət tələbatını ödəyirlər. Bu səbəbdən infrastrukturun sahələrini iki sosial və məişət yarımqruplarında birləşdirmək təklif olunur.

Məişət infrastrukturu əhalinin həyat və fəaliyyəti üçün mənzil-məişət şəraitini yaradır. Bu infrastruktura aiddir: ticarət və ictimai iaşə, mənzil-kommunal təsərrüfatı, məişət xidməti, sərnişin nəqliyyatı, əhaliyə xidmət üzrə rabitə. İnfrastrukturun bu hissəsi hər şeydən çox maddi istehsalın inkişaf səviyyəsindən asılıdır və sosial infrastrukturdan fərqli olaraq üstqurum münasibətlərinin təsirinə daha az məruz qalır. Onun inkişafının

sürətləndirilməsinə həm də müasir elmi-texniki inqilabın nailiyyətləri təkan verir.

Bu ticarət və ictimai iaşənin, rabitə və sərnişin nəqliyyatı vasitələrinin, əhaliyə məişət xidməti və mənzil-kommunal təsərrüfatının inkişafından əyani görünür. Qeyd edək ki, bu sadalanan amillər, ilk növbədə, məişətin inkişafı və formalaşmasına imkan yaratmalıdırlar.

İdarəçilik (idarəetmə institutları, orqanları) infrastrukturu özündə iqtisadiyyatın makroiqtisadi tənzimlənməsini həyata keçirən sahələr kompleksini və fəaliyyət sferasını əhatə edir. Onun vəzifəsi milli təsərrüfatlarda makroiqtisadi inkişafın optimal nisbətlərini lazımi səviyyədə saxlamağı təmin etməkdir. Bu sferaya aiddir: dövlət iqtisadi tənzimləmə orqanları, maliyyə-kredit sferası, bölgə, region və iqtisadi rayonların xalq təsərrüfatlarının idarə edilməsini təmin edən təşkilatlar və idarələr. İnfrastruktur iqtisadiyyatı istiqamətləndirən və tənzimləyən təşkilatlardan, hesablama mərkəzlərindən və maliyyə-kredit sistemləri idarələrindən təşkil olunaraq formalaşır. Bu infrastrukturun fərqləndirici cəhəti odur ki, o müstəqil sahə və ya yarım sahə keyfiyyətində çıxış etmir. İdarəedici yarımsistemi rolunda digər sahələrə xidmət edir. İctimai təkrar istehsal sistemində icra etdiyi idarəetmə funksiyalarının səviyyəsinə görə bu infrastruktur müxtəlif səviyyələrdə idarəçilik institutlarını əhatə edir, cəmiyyətin, regionun, sahənin, istehsalatın və s. Bütövlükdə idarəetmə institutları infrastrukturu özlüyündə olduqca mürəkkəb olan müxtəlif sistemləri, ancaq öz aralarında sıx bağlanmış elementləri birləşdirir. Onun idarələrinin bir hissəsi bilavasitə təkrar istehsal prosesini idarə edir və bu mənada, ictimai istehsalın idarəetmə subyekti olur. Digər hissəsi isə dövriyyə sferasına qulluq edir. Məsələn, maliyyə-kredit idarələri və bank sistemlərinə xidməti, nümunə göstərmək olar. Hər iki yarımqrupda idarəetmə (idarəçilik) münasibətləri bazis xarakteri daşıyır, çünki onlar özündə istehsal, bölgü, mübadilə və istehlak sferalarında əmələ gələn istehsal münasibətlərinin müəyyən anlarını əks etdirirlər. Nəhayət, idarəçilik institutları-

nın infrastrukturunun bir hissəsi üstqurum münasibətlərini idarə edir.

Ancaq qeyd etmək lazımdır ki, idarəçilik institutları (orqanları) infrastrukturundakı belə bölgü şərti xarakter daşıyır, çünki hər bir yarımqrupda digər yarımqrupun elementləri iştirak edir. Bu elementlər özlərini, hər şeydən əvvəl, idarəetmə münasibətlərində büruzə verirlər. Xüsusən, üstqurum idarələri istehsal məsələləri ilə məşğul olduqda həmin elementlər daha aydın şəkildə özlərini göstərirlər və əksinə maddi istehsal sferasında idarəedici subyekt bu və ya digər problemlə əlaqədar üstqurum münasibətləri sferasına nüfuz edir.

Beləliklə, idarəçilik institutları (orqanları) infrastrukturu özündə «konstitusiya gerçəkliyi» çərçivəsində qanuniləşdirilmiş, icra normaları və davranış üsulları məcmuyunu əks etdirir. Onlar öz faktiki vəziyyətləri ilə qarşılıqlı təsərrüfat dairəsinə daxil olan müxtəlif subyektlər üçün təsərrüfat fəaliyyəti şəraitini bərabərləşdirirlər. Həmin bu infrastruktur təsərrüfatçılıq subyektləri (region, sektor, müəssisə) hüdudlarında təsərrüfat funksiyalarının müxtəlif səviyyələrində fəaliyyət göstərir. Həmin təsərrüfat subyektlərində müxtəlif təsərrüfat planları tərtib edilir və onlar yerinə yetirilirlər. Bu, məsələn, əmlak münasibətlərini, vərəsəliyi, işə muzdlu qəbulu, qüvvədə olan koalision azadlıqlarının təminatını tənzimləyən hüquq qaydaları və s. ola bilər. Bu hüquq qaydaları dövlət quruluşunun siyasi və subyektiv xüsusiyyətləri çərçivəsində etnik, dini, peşə və iqtisadi maraqlar nəzərə alınmaqla qanunvericiliklə təsdiq olunmalıdır.

İdarəetmə institutları (orqanları) infrastrukturun funksiyası ondan ibarətdir ki, qüvvədə olan hər hansı bir təsərrüfat orqanizminin şərti çərçivəsi daxilində onun üçün daxili hüquq (nizam-intizam) qaydalarını işləyib hazırlamaqdır. Bu hüquq qaydaları təsərrüfat fəaliyyətinin nəticələrinə görə həmin fəaliyyətdə iştirak edən subyektlərə «yaxşı imkanlar» daxilində inkişaf etməyə və alınan səmərələrin onların arasında bərabərliyinə təminat verməlidir.

3. İnfrastrukturun əsas elementləri

İnfrastrukturun obyektlərinin mülkiyyət formalarına görə ayrılması, adətən istehsal vasitələrinə mülkiyyət münasibətlərinin xarakteri ilə üst-üstə düşür. Burada infrastrukturun dövlət, bələdiyyə və şəxsi (xüsusi) müəssisələrinin adlarını sadalamaq olar, eləcə də ictimai təşkilatların müəssisələrini də göstərmək mümkündür. Həmçinin, xarici dövlətlərin kapitalına tamamilə məxsus olan qarışıq formalı mülkiyyətlər və müəssisələr də istisna təşkil etmir.

Bazarın müxtəlif sektorlarına xidmətlərin təminatı əlamətinə görə təsnifata ayrılmış bazar infrastrukturunu iki blokla təqdim etmək olar. Birincisi, bazarın konkret sektorunun xidmətlərini həyata keçirən blok. İkincisi, bütövlükdə bütün bazar təsərrüfatlarına xidmət göstərən, fəaliyyətini bazarın maliyyə sektorunda həyata keçirən infrastruktur bloku. Birinci təsnifat qrupuna daxil olan infrastruktur subyektlərinin xidmətləri-istehsal vasitələri bazarını, əmək bazarını, torpaq bazarını əmtəə və xidmətlər bazarını tənzimləməyə yönəldilir. İndi isə infrastrukturun bu birinci qrupunun əsas elementlərinin fəaliyyətini ətraflı araşdıraq.

Bütövlükdə bazar haqqında informasiyanın (və ya iqtisadi-maliyyə informasiyasının) toplanması, ümumiləşdirilməsi, təhlili və istehlakçıya təqdim olunması bazarda informasiya və analitik-informasiya fəaliyyəti ilə məşğul olan iqtisadi subyektlərin vasitəsilə həyata keçirilir. Analitik-informasiya fəaliyyəti bazarda «şəffaflığı» təmin edir və onun iştirakçılarına düzgün, obyektiv məlumatları təqdim edir.

Bu gün Rusiya bazarları haqqında əsas informasiya mənbələri hansı vəziyyətdədir? İnformasiya mənbəlrinə bazarda iştirak edən iqtisadi subyektlər (müəssisələr), ixtisaslaşdırılmış qəzet və digər nəşrlər, kompüter mənbələri və kommunikasiyalar və eləcə də informasiya agentlikləri aiddirlər. Analitik – informasiya fəaliyyətlərinə ən əsas və vacib tələblər informasiya mənbələrinin qərəzsizliyi, obyektivliyi, informasiyanın tamlığı və onun çatdırılmasındakı cəldlikdir.

Bazar haqqında bütün müxtəlifliyi ilə fərqlənən informasiya məhsulları bir neçə əsas qruplara bölünürlər: qiymətlər haqqında informasiyalar, bazarın göstəriciləri (cədvəli), bazar iştirakçılarının ekspres – xülasələri, analitik (təhlil) xülasələri, iqtisadi və o cümlədən maliyyə yenilikləri, sosial-siyasi yeniliklər. Riyazi iqtisadi təhlilləri və əməliyyat üsullarını apara bilən, onları əmtəə və maliyyə bazarlarında gedən proseslərin təhlilinə tətbiq edən peşəkar iqtisadçıların, statistiklərin və riyaziyyatçıların informasiya məhsullarından istifadəsi yalnız ayrı-ayrı bazarlardakı situasiyanı (vəziyyət, hadisələrin gedişini) proqnozlaşdırmaq deyil, həm də onların arasındakı qarşılıqlı əlaqəni müəyyən etməyə imkan verir. Müasir dövrdə iqtisadi – maliyyə məlumatlarının ötürülməsində vahid standartların yaradılması bazar münasibətlərinin əsas iştirakçılarının informasiya xidmətlərinin səmərəliliyini təmin etməlidir.

Bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin əsas sferasını marketinq təşkil edir. Bu gün marketinq anlayışı altında müəssisələrin bazar şəraitində təsərrüfatı idarəetmənin təhlili məqsədi daşıyan fəaliyyət, eləçə də bazarlara malların axınını təmin edən yolların işlənib hazırlanması və tətbiqi üsulları, onların realizəsi, həmçinin genişləndirilməsi başa düşülür. Müəssislərdə, adətən, marketinq istehsal qabağı və istehsal mərhələlərinin marketinqinə (marketinq tədqiqatları və ya «bazar şünaslıq») və realizə mərhələsinin marketinqinə bölünürlər. Marketinq gücləndirilməsi (artması və və ya artımı) tələbin yaradılması və stimullaşdırılması üzrə fəaliyyəti, malların çeşidlərinin və bazarlarda yerləşdirilməsinin səmərəliliyini, bazarda mallar üzrə lazım olan səviyyənin əldə edilməsini və ya öz malları üçün «bazarların bölünməsini», reklamları, qiymətin əmələ gəlməsinin ən səmərəli üsullarının ən səmərəli üsullarının təyinin və s. əhatə edir.

İxtisaslaşdırılmış marketinq firmaları, xüsusi və ya qarışıq (dövlətin iştirakı ilə) müəssisələr mövcuddur. Onlar bazarın xüsusi tədqiqatlarını apramqla məşğul olur, müxtəlif məlumat kitabçaları, icmal və xülasələri hazırlayır və çap edirlər. Məhz belə quruluşların fəaliyyəti bizim araşdırma mövzumuzdur.

İxtisaslaşdırılmış milli marketinq firmaları Rusiya bazarlarında kifayət qədər zəif və azdır. Burada daha çox marketinq xidmətləri ifadəsi yerinə düşər. Qeyd edək ki, həmin marketinq xidmətləri bazarın müxtəlif institutları tərəfindən təqdim edilir. Məsələn, reklam agentlikləri, sosioloji xidmətlər və s. kimi təşkilatlar məhz marketinq xidmətləri ilə məşğul olurlar. Bundan başqa, Rusiyada əksər iri istehsal və ticarət müəssisələrinin özlərinin xüsusi marketinq xidməti şöbələri və ya marketinq üzrə mütəxssisləri vardır və onlar bazarların konkret tədqiqatları məsələləri ilə və satış-ticarət fəaliyyətinin təşkili ilə məşğul olurlar. 1990-cı ilin iyun ayında Rusiyada yaradılmış Ümumrusiya marketinq İttifaqı mövcuddur. Əsasnaməyə görə ittifaq ictimai təşkilatdır, mütəxəssisləri, eləcə də bazar tədqiqatları ilə peşəkarcasına məşğul olan müəssisə və təşkilatları özündə birləşdirir, kadrlar hazırlığı, məsləhətlər və marketinq sahəsində digər xidmətlərlə məşğul olur. İttifaq özü marketinq tədqiqatları ilə məşğul olmur. İttifaqın əsas məqsədi milli müəssisələrin daxili və xarici bazarlarda istehsal satış fəaliyyəti idarə olunmasının səmərəliliyini artırmaq məqsədi ilə xaprici ölkələrin marketinq fəaliyyətinin təcrübələrini öyrənmək və inkişaf etdirərək yaymaqdır.

Müxtəlif bazarlarda, o cümlədən əmtəə bazarlarında qiymətli kağız bazarlarında, bank, sığorta və digər xidmət növləri bazarlarında reklam fəaliyyəti həyata keçirilir. Onlar potensial istehlakçı (alıcı) ilə məhsul istehsal edən və satanları, xidmət və servislə məşğul olanları, müxtəlif əmtəələrin istehsalını və xidmətlərini həyata keçirən (satan) müəssisələri tanış etmək məqsədini yerinə yetirirlər. Reklamın vəzifəsi hüquqi və fiziki şəxslərin, əmtəələrin, xidmətlərin, ideyaların və s. Haqqında istənilən formada geniş informasiyanı yaymaqdır. O tanışlıq, yada salmaq, inandırmaq, izah etmək, şirnikdirmək və s. kimi funksiyaları həyata keçirir. Reklamın son məqsədi potensial istehlakçılar üçün xoş məramlı, xüsusi isti münasibətlər yaratmaq, müəyyən müəssisələri, təşkilatları, əmtəələri maraqlı tərəflər üçün fərqləndirmək, seçmək, xidmətləri və ya

ona analoji olanları (əmtəə satışı sektorundan və ya bazar birliyindən) təqdim etməkdir.

Reklam informasiyasının yayılması üsullarından asılı olaraq onun müxtəlif növlərini fərqləndirirlər. Kütləvi informasiya vasitələrinin köməyi ilə yayılan reklamlar (radio və televiziya efiri vasitəsilə, qəzet və jurnallarla, küçədə işıq reklamı qəzetləri və s.) vardır. Həmçinin binalardan kənarda, küçələrdə, vağzallarda və s. yerlərdə də reklamlar vardır. Onlara plakatlar, stendlər, işıq tabloları, müəyyən ərazilərdə texniki vasitələrlə həyata keçirilən stabil reklam lövhələri və s. aiddir. Bəzən reklam məlumatları nəqliyyat vasitələrində də yerləşdirilir. Birbaşa olmayan, ancaq geniş yayılmış reklam növləri də mövcuddur. Bunlara məhsulun əmtəə işarəsi, qablaşdırma zamanı qabların üzərinə yapışdırılan etiketlər və s. aid ola bilər.

Sahibkarlıq fəaliyyəti keyfiyyətində reklamların yaradılması və yayılması ilə, adətən reklam agentlikləri məşğul olur. Bu agentliklər, əsasən göstərdikləri xidmətlərin həcminə görə fərqlənirlər. Məsələn, bütün xidmətləri, o cümlədən bazarın öyrənilməsini öz üzərinə götürən tam xidmət agentlikləri mövcuddur. Eyni zamanda məhdud xidmətlər dəstəni yerinə yetirən agentliklərdə fəaliyyət göstərir. Daha bir əlamət də agentliklərin göstərdikləri xidmətlərin növləridir. Reklam vasitələri və ya müəyyən əmtəələr (xidmətlər) üzrə ixtisaslaşdırılmış və universal reklam agentlikləri vardır. Fəaliyyət sferasına görə daxili və xarici bazarlarda işləyən agentlikləri və ya həm daxili, həm də xarici bazarlarda fəaliyyət göstərən agentlikləri fərqləndirirlər.

Çox zaman reklam agentlikləri özlərinin reklam müvəkkilləri vasitəsilə işləyirlər. Müvəkkillər müvafiq agentliklərin adından fəaliyyət göstərirlər. Onlar reklam vermək istəyən müştərilərin axtarışını aparır, onlarla danışıqları həyata keçirir, sifarişləri tərtib edir və yerinə yetirir, xərclərin cədvəlini və miqdarını hesablayır, bəzi hallarda isə reklam xəbərlərinin tərtibatında iştirak edirlər.

Çox hallarda pulsuz reklam adlanan xüsusi reklam fəaliyyəti mövcuddur ki, o da ictimaiyyətlə əlaqədir. Bu reklam növü

düşünülmüş, planlı və daima səy tələb edən bir fəaliyyət olub, iqtisadi subyektlərlə (müəssisələrlə) ictimaiyyət arasında qarşılıqlı anlaşılmanın yaranmasına və möhkəmlənməsinə qulluq edir.

Bu reklam fəaliyyəti ictimaiyyətlə, mətbuatla, seçki təşkilatları ilə, ictimai təşkilatlarla əlaqələrin yaradılmasını təklif edir. İctimaiyyətlə əlaqə düzgün və çevik informasiyanın əsasında müəssisələrin müsbət imicini formalaşdırmaq və qorumaq məqsədinə yönəldilmiş olur. Qeyd edək ki, bu reklam xidmətləri həm təşkilatı və hüquqi cəhətdən müstəqil olan ixtisaslaşdırılmış agentliklər tərəfindən, həm də reklam, informasiya agentlikləri və digər reklam firmalarının ixtisaslaşdırılmış quruluş bölmələri tərəfindən həyata keçirilə bilər. Milli dövlət qanunvericiliyinə müvafiq olaraq xüsusi səlahiyyətli dövlət orqanları ilə yanaşı, iqtisadi subyektlərin fəaliyyətinə maliyyə nəzarətini auditor fəaliyyəti də həyata keçirir.

Audit – müəssisələrin maliyyə (mühasibat) və başqa təəssürat hesabatlarında, hesablama-ödəniş sənədlərində, vergi bəyannamələrində və iqtisadi subyektlərin digər maliyyə öhdəlikləri və tələbnamələrində müəssisədən kənar müstəqil aparılan yoxlamadır. Auditor fəaliyyətinin əsas məqsədi iqtisadi subyektlərin bütün mövcud aspektlərində maliyyə (mühasibat) hesabatlarındakı səhvliyi, Rusiya Federasiyasında qüvvədə olan normativ aktlara müvafiq müəssəisələrin apardığı maliyyə və təssərrüfat əməliyyatlarının düzgünlüyünü müəyyənləşdirməkdir. Rusiya Federasiyasında auditor fəaliyyəti ilə müəyyən edilmiş qaydalara uyğun fəaliyyəti həyata keçirməyə lisenziya almış fiziki şəxslər (auditorlar) və hüquqi şəxslər (auditor firmaları) məşğul ola bilərlər. Lisenziya almağa namizəd olan auditor firması istənilən hüquqi təşkilati formada yaradıla bilər və hətta onun tərkibinə xarici hüquqi şəxs də daxil edilə bilər. Yalnız auksioner cəmiyyətləri təşkilatı formasında auditor formasının yaradılması qanunvericiliklə qadağan edilmişdir. Firmanın təsisçiləri arasında lisenziya almış və attestasiyadan keçmiş auditorlar və ya auditor firmaları mütləq olmalıdır və onların nizamnamə kapitalındakı payları 51%-dən aşağı təşkil etməməlidir. Yeni yaradılmış firmada ən azı 1 nəfər attes-

tasiyadan keçmiş auditor işləməlidir. Auditor firması auditdən başqa digər sahibkarlıq fəaliyyətləri ilə məşğul ola bilməz və bu onun daxili nizamnaməsində öz əksini tapmalıdır. Məsələn, auditor fəaliyyəti ilə məşğul olan firmanın mühasibat uçotunun təşkili, uçot və vergilərin təşkili problemləri üzrə məsləhətlər, təsərrüfatçılıq qanunvericiliyi üzrə məsləhətlər və s. kimi fəaliyyətlərlə məşğul olması qadağandır.

Ümumi audit, birja auditi, qeyri-maliyyə və investisiya institutları auditi, həmçinin sığorta işləri auditi istiqamətləri ilə məşğul olan auditor fəaliyyəti üzrə fiziki şəxslərin və hüquqi formaların attestasiyası və lisenziya hüquqlarının verilməsi RF Maliyyə Nazirliyinin mərkəzi attestasiya – lisenziya komissiyası tərəfindən, bankların auditi sahəsində isə RF Mərkəzi Bankının eyni adlı komissiyası vasitəsilə həyata keçirilir.

Ticarət fəaliyyəti-iqtisadi nemətlərin satışı üzrə fəaliyyətdir. Satıcı istehsal edəndən əmtəəni (məhsulu) əldə edir, onunla müəyyən sövdələşmə qiymətləri üzrə hesablaşır və alınan məhsulun (əmtəənin) mülkiyyətçisinə çevrilir. Satıcı məhsulu istehsalçıdan öz vəsaiti hesabına alaraq, özü üçün qorxu və risk yaradır. Buna görə də o, aldığı məhsulu öz istədiyi qiymətə satmağa azaddır, onun malı istədiyi yerdə, istədiyi alıcıya və hansı qiymətə satması şəxsi mülkiyyətinin qiymətləndirilməsi kimi öz əksini tapır.

Ticarət fəaliyyəti, adətən topdansatış və pərakəndə satış kimi növlərə bölünür. Topdansatış – əmtəələrin (məhsulların) və xidmətlərin aralıq istehlakçılara satışı üzrə fəaliyyət olub, həmin məhsul və xidmətləri əldə edən istehlakçılar tərəfindən yenidən satılmasını və ya peşəkarcasına istifadəsini təmin edir. Pərakəndə satış – əmtəələrin (məhsulların) və xidmətlərin istehlakçıları son nəticədə, öz şəxsi istifadələri üçün satış fəaliyyətidir. Topdan satış zamanı istehsalçıdan məhsullar böyük həcmdə və böyük miqdarda alınır. Topdan məhsullarının alınmasını təchizat-satış və vasitəçilik fəaliyyəti ilə məşğul olan təşkilatlar həyata keçirirlər və onlar sonra həmin malları pərakəndə satış müəssisələrinə və ya digər topdan satışla məşğul olan təşkilatlara baha qiymətlərə satırlar. Topdan satış tica-

rətində əmtəə (mal) iki və daha çox dəfə, pərakəndə satış ticarətində isə yalnız bir dəfə satıla bilər.

Topdan satış ticarəti özlüyündə məhsulun istehsalçıdan pərakəndə satış müəssisələrinə qədər və ya istehsalat təyinatlı məhsulların realizəsi halında məhsula tələbatı olan istehsal müəssəisəsinə qədər göndərilməsinin başlanğıc mərhələsini əhatə edir. Bu səbəbdən topdan satış ticarəti vasitəçilik xarakterinə malikdir, istehsalçı ilə istehlakçını əlaqələndirir. Pəraknəd satış ticarəti isə istehsalçıdan istehlakçıya malın (məhsulun) göndərilməsi dövrəsini qapayır. Buna görə də pərakəndə satış ticarəti ticarət şəbəkəsində əmtəələrin (məhsulun) satışı və istehlakçıya bilavasitə xidmətlərin göstərilməsi üzrə son həlqədir.

Topdan və pərakəndə satış ticarətləri müxtəlif formalarda təşkil edilir.

Hərraclar (rəqabət hərracları) – elə ticarəti təşkilatı formalarıdır ki, orada alıcılar satıcılar üçün müsabiqələr təşkil edir, alış-verişin bütün şərtlərini həmçinin, əmtəə və xidmətlərin xarakteristikalarını müəyyənləşdirirlər. Belə ticarət forması bütövlükdə adi bazar şəraitini, (situasiyasını) əks etdirir, haradakı, hər bir satıcı alıcı üçün rəqabət aparır. Açıq hərraclarda alıcının sifarişi ilə bütün satıcılar – rəqiblər tanış ola bilərlər. Qapalı hərraclarda kontraktların şərtləri gizli saxlanılır. Hərraclar topdan satış ticarət forması kimi maşın və avadanlıqların satılması və göndərilməsi, «tam hazır» şəkildə tikinti obyektlərinin istismara verilməsi sövdələşmələri üzrə müqavilələrinin bağlanmasında çox mühüm rol oynayır. Açıq hərraclara, adətən, standart və ya universal avadanlıqlar və ya kiçik həcmli podrat işləri sifarişləri yerləşdirilir. Qapalı hərraclarda daha mürəkkəb, xüsusi və ya nadir (unikal) avadanlıqlar, müəssisə avadanlıqları dəsti və ya təcili sifarişlər yerləşdirilir.

Vacibliyinə görə əmtəə bazarlarından sonrakı yeri maliyyə bazarları tutur. Üstəlik müasir bazar infrastrukturunda maliyyə bazarları bazarın müəyyənedici formasını təşkil edir. İş burasındadır ki, elə bir təsərrüfat fəaliyyəti növü yoxdur, orada maliyyə əməliyyatı aparılmasın, maliyyə vasitəçiliyi işlədilməsin və əsas etibarı ilə maliyyə bazarından keçməsin. Digər tərəf-

dən, məhz maliyyə vəsaitləri bazarın inkişafını və səmərəli işləməsinin ən dəqiq və hissedici barometridir. Çünki, maliyyə əməliyyatları əmtəə (məhsul) və xidmətlər istehsalının istənilən dəyişmələrinə reaksiya verir, o cümlədən istehlak vasitələri bazarında işləməsinə öz təsirini ifadə edir. Maliyyə bazarı elə bazardır ki, orada dövlət tərəfindən müəssisələrə və fiziki şəxslərə verilən borcların (ssuda) faizləri formalaşdırılır, həmçinin valyuta və qiymətli kağızların kursları müəyyənləşdirilir, pullar, aksiyalar, istiqrazlar, veksel və digər qiymətli kağızlar kimi maliyyə vasitələrinin alınması və satılması təşkil edilir.

Maliyyə bazarının əsas silahı dövlətin verdiyi borcların (ssudanın) fəazidir və o, istənilən sahəyə kapital qoyuluşu tətbiqində universal səmərəlilik meyarına çevrilmişdir. Həmin borcların faizinin bu nöqteyi-nəzərdən mahiyyəti odur ki, o kapital qoyuluşunun səmərəliliyinin minimal qaytarılma səviyyəsini göstərir. Beləliklə, borcların faizi biznesin gəlirliyini təyin edən nöqtədir. Əgər kapital qoyuluşundan gözlənilən gəlir borcların (ssudanın) faizindən aşağıdırsa, onda pulları banka əmanət kimi qoymağa üstünlük verilir.

Bütün bu sadalananlarla yanaşı maliyyə bazarı ən kamil bazardır. Hər şeydən əvvəl ona görə ki, o praktiki olaraq yalnız hər hansı bir ayrı ölkədə deyil, hətta beynəlxalq səviyyədə borcların (ssudaların) faizinin vahid tərtibini (stavkasını) təmin edir. Bundan başqa, maliyyə bazarları onlarda iştirak edən və fəaliyyət göstərən subyektlərin çoxsaylılığı ilə fərqlənirlər. Mahiyyətcə, onların hamısı iqtisadi münasibətlər subyektləridir. Eyni zamanda burada alış-satış obyektləri əmtəələrin (pul, aksiyalar, istiqrazlar və s.) bircinsliliyi ilə xarakterizə olunurlar və bu da bazarın özünün fəaliyyət funksiyasını asanlaşdırır, nəticələrinin əvvəlcədən müəyyənləşdirilməsi ehtimalını artırır. Maliyyə bazarlarında inkişaf etmiş informasiya quruluşu və bank şəbəkələri, istiqraz vasitələrinin geniş mənbələri vardır və o, əsas etibarilə, bazarda bütövlükdə rəqabətin mövcudluğunun əsas şərtlərini, yəni bazara azad «giriş»i və eləcə də ondan azad «çıxış»ı təmin edirlər.

Maliyyə bazarı bazar sisteminin hakim mövqeli elementidir. İnkişaf etməmiş maliyyə bazarına malik olan bazar sistemi, ümumiyyətlə, tam və mükəmməl sayıla bilməz. Rusiya maliyyə bazarının və bütövlükdə bazar sisteminin vəziyyətini təhlil etməklə buna inanmaq çətin deyildir. Çünki Rusiyada onlar hələlik başlanğıc halında, xüsusi ilə də maliyyə bazarı ilə rüşeym halındadır. Qeyd edək ki, təəssüfdə olsa, Rusiyada mükəmməl qanunvericilik əsaslarında hələlik bir dənə də olsa bank sistemi yoxdur.

Aydındır ki, belə olan halda ölkə miqyasında dövlət vahid ssuda (borc) faizləri sistemi də yoxdur. Lakin bütün bunlara baxmayaraq, hətta belə vəziyyətdə də, maliyyə bazarları bazar sisteminin təkmilləşdirilməsində əsas alət, ölkənin iqtisadiyyatının bazar iqtisadiyyatına yönəldən özünəməxsus mühərrikdir.

Maliyyə-kredit sferasının infrastruktur subyektləri olduqca rəngarəngdir. Onları qısaca sadalayaq və xarakterizə edək.

Bank sistemləri (Mərkəzi Bank, Kommersiya bankları) əhalinin müvəqqəti azad kapitallarını və vəsaitlərini özünə cəlb edir, qiymətli kağızlarla əməliyyatlar aparır, ssudalar (borclar) verir, pul ödəmələri və tədiyyələrin verilməsini icra edir, diskont (veksellərin uçotu) biznesini həyata keçirir, zəmanətlər təqdim edir, klirinqlər (göndərilən mallara görə nağd pulsuz haqq-hesablaşma fəaliyyəti), lizinqlər (maşın və avadanlıqların uzun müddətə icarəyə verilməsinin fəaliyyət forması) və faktorinqlər (mal göndərən istehsalçı ilə pərakəndə satış obyektləri arasında vasitəçilik edən şirkət və ya fəaliyyət növü) əməliyyatlarını aparırlar.

İnnovasiya – investisiya fondları və kompaniyaları innovasiya texnologiyalarını və istehsalı intensivləşdirmək kapitalları birləşdirirlər.

Vençur fondları və kompaniyaları özlüyündə kommersiya təşkilatları olaraq texniki yenilikləri araşdırır, seçir və praktiki realizə ilə məşğul olur, sonrakı inkişafı və tamamlanması üçün elmi tədqiqat işlərini işləyib hazırlayırlar. Bu yeniliklərə malik olan müəssisə və kompaniyaları maliyyələşdirən və məsləhətlər verən təşkilatlar yuxarıda sadalanan əməliyyatları yerinə yetirə bilərlər.

Faktorinq kompaniyaları öz müştərilərindən onların alıcılara olan ödəmələr tələbnamələrini satın alır və təcili göndərilmiş, çatdırılmış malların (əmtəələrin) dəyərinin 80-90%-ni ödəyirlər. Dəyərin qalan hissəsi kreditə görə faizlər və komissiyon xərcləri çıxılmaqla ciddi müəyyən edilmiş müddətdə ödənilir. Bu zaman alıcılardan daxil olan gəlirlər dəyərin qalmış hissəsinin ödənilməsi müddətinə təsir göstərmir.

Paylardan (pay məbləğindən) təşkil olunmuş investisiya fondları, ekspertlərin rəyinə görə perspektivli olan layihələri investiləşdirmək məqsədilə, müvəqqəti azad olan vəsaitləri pul məbləği şəklində yığırlar.

Sosial fondlar (sığorta, pensiya və s.) öz əsas təyinatları (sosial ödənişlər) ilə yanaşı müvəqqəti azad vəsaitləri iqtisadiyyatın müxtəlif sektorlarında yerləşdirirlər.

Bazar iqtisadiyyatının səmərəli işləməsi (fəaliyyəti) qiymətli kağızlar bazarının inkişafı və formalaşdırılması probleminin həlli olmadan mümkün deyildir. Məhz iqtisadiyyatın bu sektoru ölkənin xalq təsərrüfatı kompleksinin bazara istiqamətlənmə üzrə tədbirlərinin əksər hissəsinin bu- günkü tempini və nəticələrini müəyyənləşdirir.

İstənilən iqtisadiyyatda (istər bazar və ya istər inzibati-amirlik iqtisadiyyatı olsun) bir qütbdə pul yığımının artıqlığı yaranır, digər qütbdə isə investiləşdirmə üçün əlavə pul vəsaitlərinin cəlb edilməsi zəruriyyəti mövcud olur. Makroiqtisadiyyatın üç sektorunda pul yığımının artıqlığı və əlavə maliyyələşdirilməyə tələbatın formalaşmasının yaranması baş verir: təsərrüfatda (müəssisə və ya təşkilatlarda); dövlətdə (büdcə və qeyri-büdcə fondları); əhalidə. Həmçinin burada əhali, bütövlükdə, bir qayda olaraq «təmiz» investor kimi çıxış edir (netto-investor) və həm bazar, həm də gələcəkdə yaranacaq (direktiv) iqtisadiyyatda əmanətlərin artıqlığına malik olur. Dövlət və təsərrüfatlar isə əksinə kapitalın «təmiz» istehlakçısı kimi çıxış edirlər (netto-istehlakçı). Ancaq bəzi müəssisələrdə, təşkilat büdcələrində və s. əlbəttə, artıq pul yığımının olması istisna edilmir.

Bazar iqtisadiyyatında pul yığımının yenidən paylanması mexanizmi rolunda qiymətlər kağızlar bazarı çıxış edir. O, iqtisadiyyat subyektlərinin hamısına onlar üçün zəruri olan pul ehtiyatlarını almaq imkanını asanlaşdırır və genişləndirir. Üzərində dövlətin monopol hakimliyi ləğv edildikdən sonra ölkənin maliyyə bazarı inzibati sərəncamların deyil, iqtisadi qanunların təsiri sferasına çevrilir. Bu isə istehsalın artımını, maliyyə ehtiyatları yığımını stimullaşdırır və cəmiyyətdə sosial pozitiv dəyişikliklərin yaranmasına şərait yaradır.

Beləliklə, qiymətli kağızlar bazarı həm pul bazarının, həm də kapital bazarının seqmenti olur. Buraya həm də birbaşa bank kreditləri dövriyyəsi, sığorta sahələri vasitəsilə pul ehtiyatlarının yenidən paylanması, firmalardaxili kreditlər və s. aiddir. Bu bazarda istiqrazlar və onların əldə edilməsi nisbətini ifadə edən fond mülkiyyətlərinin emissiyasından (buraxılışından) yaranan kapitalın çox istiqamətli hərəkəti üçün kompleks əməliyyatlar həyata keçirilir. Bu proses vəsaitin investordan (əmanətçidən) emitentə keçidinə və eləcə də satış əməliyyatları keçirmək vasitəsilə qiymətli kağızların sahibləri (mülkiyyətçilər) dəyişilənə qədər davam edir.

Müasir birja fond bazarlarının inkişafı və fəaliyyət funksiyası iki model üzrə həyata keçirilir. Amerika modelinə görə, kommersiya banklarına qanunvericiliklə fond bazarlarında ticarət əməliyyatları aparmaq qadağan edilmişdir. Alman modelinə görə isə fond bazarlarında bankların rolu üstünlük təşkil edir.

Fond bazarlarının iştirakçıları kimlər ola bilər? İlk növbədə, qiymətli kağızların emitentləri (emitent- qiymətli kağızlar, bank biletləri, kağız pullar buraxan dövlət idarəsidir). Onlara hüquqi və qanunvericiliklə nəzərdə tutulduqda, fiziki şəxslər aiddir. Onlar öz adlarından qiymətli kağızlar buraxır, buraxılışın şərtlərindən doğan zəmanətləri yerinə yetirməyi öhdələrinə götürürlər. Belə qiymətli kağızları hansısa konkret məqsədlər üçün maliyyə ehtiyatları cəlb etmək məqsədilə buraxırlar. Qiymətli kağızların emitenti (buraxıcısı) kimi öz orqanları vasitəsilə dövlət çıxış edə bilər, həmçinin yerli özünüidarə orqanları

da ayrı-ayrı layihələrin və müvafiq büdcə xərclərinin maliyyələşdirilməsi tələbatlarını ödəmək məqsədilə qiymətli kağızlar buraxa bilər.

Fond bazarının iştirakçısı həm də investorlar ola bilər. İnvestorlar hüquqi və fiziki şəxslərdir. Onların sırasına institusional investorlar (investisiya fondları, pensiya (sosial təqaüd) fondları, sığorta kompaniyaları, gizli (məxfi) cəmiyyətlər və s.) da aid edilə bilər. Onların hamısı azad kapitala (vəsaitə) malikdirlər və həmin vəsaiti qiymətli kağızların buraxılmasına qoymaqla gəlir (faiz) əldə etmək və ya qiymətli kağızların bazarlarda qiymətini artırmaq məqsədi güdürlər.

Fond bazarında vasitəçilər həlledici rol oynayırlar. Onlar hüquqi şəxslərdir, onların fəaliyyəti fond bazarında emitentlərlə investorlar arasında vasitəçilik üzrə peşəkar xidmətlər təqdim edilməsilə sıx bağlıdır.

Fond bazarlarında həm də dövlət iştirak edir, qanunvericilik aktları qəbul etməklə və müvafiq dövlət orqanları yaratmaqla bazarın iştirakçılarını müdafiə və onların fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə dövlət fond bazarlarının fəaliyyəti funksiyalarının hüquqi tənzimlənmə şərtlərini müəyyən edir. Fond bazarlarının iştirakçıları könüllü əsaslarla özünütənzimləmə təşkilatlarında birləşə bilərlər və həmin təşkilatlar dövlət qeydiyyatından keçdiyi şəraitdə status əldə edirlər. Ədalətli fəaliyyət və düzgün qaydaların qəbulu və riayət edilməsilə, fond bazarlarında əməliyyatlar üzrə standartların, eləcə də etika və davranışların minimal standartlarını müəyyən etmək yolu ilə özünütənzimləmə təşkilatları müstəqil surətdə öz iştirakçılarının fəaliyyət (iş) şərtlərini təyin edirlər. Fond bazarı iştirakçılarının belə özünütənzimləmə təşkilatları yaratmasına dövlət imkan yaradır, kömək edir.

Fond bazarlarının cəld və dinamik inkişafı üçün vacib amillərdən biri də gəlir əldə etmək məqsədilə qiymətli kağızlarla vasitəçilik əməliyyatlarıdır. Burada gəlirliliyin zəruriliyi fond bazarlarına intellektual və maliyyə ehtiyatlarını cəlb etmək, eləcə də maliyyə üzrə tədqiqatlar və məsləhətləşmələr aparmaq, həm də qiymətli kağızların dövriyyəsi və ilkin yerləş-

dirilməsi prosesindəki riskləri örtmək üçündür. Qiymətli kağızların buraxılması və dövriyyəsi üzrə vasitəçilik fəaliyyəti qüvvədə olan qanunvericiliyə müvafiq olaraq lisenziyalaşdırılır.

Qiymətli kağızlarla işləmək üzrə ixtisaslaşmış müəssisə və təşkilatlar, yeni qiymətli kağızların buraxılması və dövriyyəsi üzrə vasitəçilik fəaliyyəti həyata keçirən təşkilatlar, müştərilərin hesabına və ya onların tapşırığı ilə fond bazarlarında əməliyyatlar aparan firmalar (komissiyon və ya broker fəaliyyəti), öz hesabına və ya qiymətli kağızların ilkin yerləşdirilməsi prosesində emitentlərin tapşırıqları üzrə kommersiya (diler) fəaliyyəti göstərən firmalar fond bazarlarında vasitəçiliklə məşğul ola bilərlər. Eyni zamanda vasitəçiliklə məşğul olan firma və müəssisələr digər xidmət növləri də (investisiya məsləhətləşmələri, qiymətli kağız miqdarının idarə edilməsi, qiymətli kağızlarla gizli (vəkalətnamə ilə) əməliyyatlar, qeydiyyat funksiyaları və s.) təqdim edə bilərlər. Bu müəssisələrin fond bazarlarında apardıqları əməliyyatlar həcmində adekvat şəxsi mülkiyyət kapitalına malik olmaları zəruri və mütləqdir.

Vasitəçilik fəaliyyəti ilə həm də bak idarələri də məşğul olurlar və onlar maliyyə-kredit funksiyaları ilə yanaşı qiymətli kağızların buraxılması və dövriyyəsi məsələlri üzrə vasitəçilik işləri icra edə bilərlər. Fond bazarlarında onlar bu əməliyyatları öz hesablarına, müştərilərin hesabına və ya tapşırıqlarına görə yerinə yetirirlər. Banklar qeydiyyat funksiyalarını, qiymətli kağızlarla gizli və ya vəkalətnamələr üzrə əməliyyatları, aksiyalarla bağlı borcların və istiqraz vərəqələrinin verilməsini və s. kimi işləri həyata keçirirlər. Kommersiya bankları üçün müəyyən edilmiş iqtisadi normativlərin vasitəsi ilə əmanətçilərin müdafiəsini təmin etməklə eyni vaxtda qiymətli kağızların investiləşdirilməsi üzrə Rusiyada bankların imkanlarını genişləndirməyə böyük ehtiyac vardır.

İnvestisiya kompaniyaları qiymətli kağzılar bazarında vasitəçilik funksiyası ilə yanaşı institusional investor funksiyasını da yerinə yetirirlər, çünki onlar üçün qiymətli kağızlar investiləşdirmək əsas gəlir mənbəyi və fəaliyyətlərinin ayrılmaz hissəsidir. Qiymətli kağızları əldə etmək istəyən şəxslərin hesab-

larına və maraqlarına uyğun çıxış edərək investisiya kompaniyalarının qarşılıqlı fondları qiymətli kağızları birgə investiləşdirmək üçün investor vəsaiti yığırlar. İnvestisiya kompaniyaları digər institusional investorlar üçün investisiya meneceri və məsləhətçisi rolunda çıxış edir, onların qiymətli kağızlarda aktivlərini formalaşdırır, belə kağızlar üzrə üstünə əlavə edilmiş mədləği və gəlirlərin ödənilməsini təşkil edir.

Vasitəçilər könüllü şəkildə birliklərdə, o cümlədən, fond birjalarında birləşə bilərlər. Onlar qiymətli kağızların həm birja, həm də qeyri-birja bazarlarında əməliyyatlar həyata keçirilə bilərlər.

Fond bazarlarının infrastruktur institutlarında depozitariya və kleriniq hesablama idarələri kimi təşkilatların varlığı bu bazarların fəaliyyətinin mövcudluğu üçün labüd şərtdir. Həmin idarənin vəzifəsi bir investorun mülkiyyətindən digərinin mülkiyyətinə qiymətli kağızların köçürülməsi, qorunub saxlanılması və aparılan sövdələşmənin düzgünlüyünü, sövdələşmələr üzrə hesabatların vaxtlı-vaxtında aparılmasını təmin etməkdir. Göründüyü kimi, fond bazarlarında infrastruktur institutuları köməkçi funksiyalar yerinə yetirirlər.

Rusiya hələlik qiymətli kağız bazarlarında dünya standartlarına nail ola bilməmişdir. Burada düzgün istiqamət nə ola bilər? Hər şeydən əvvəl ölkə inkişaf etmiş və səmərəli fəaliyyət göstərən qiymətli kağızların milli depozitariya sisteminə malik olmalıdır. Qiymətli kağızların qorunmasından başqa milli depozitariya sistemi qiymətli kağızlar üzrə sazişlərin bağlanmasına və onun sonrakı dövrdə fəaliyyətinə xidmət göstərər, klirinqlər üzrə xidmətlər təqdm edər, qorunmasına, hesablanmasına və satışdan sonrakı xidmət növlərinə cavabdehliyi boynuna alar, informasiyaları (emitentlərin işlərini, gəlirlərdən ödəmələri və s.) emal edərlər. Depozitariya sistemi öz tərkibinə ödəniş sistemlərini də daxil edə bilər. Ancaq bu ayrı-ayrı ödəmələrlə bağlı əlaqəli ola bilər. Tələblərin nəzərə alınması sistemi (klireninq) sonralar yalnız fond bazarında kifayət qədər vəsait həcmi olduqda zəruri sayılır. Mərkəzi bank üzrə sazişlər mütləq «tədarükə qarşı ödəmə qabiliyyəti» prinsipinə müvafiq

yerinə yetirilməlidir. Qiymətli kağızlarla əməliyyatlar üzrə sənədlərin dövriyyəsi və onların sıralanması (nömrələnməsində) üçün standartlaşdırma üzrə Beynəlxalq təşkilatların (İSO) standartları mütləq qəbul edilməlidir.

Qiymətli kağızların birja və qeyri-birja satışı sistemləri, milli depozitariya və klirinqlər aksiyaların, istiqrazların və s. dövriyyəsini təmin etməlidir və onlar fond bazarlarının tələbinə uyğun inkişaf etməlidirlər, çünki ödənişə qarşı qiymətlər kağızların tədarükünün vaxtında təmini bu məqsədin yerinə yetirilməsinə kömək edir. Saziş şərtlərinin yoxlanılmasını aparmaqdan ötəri cəld, səmərəli və məntiqlə təşkil olunmuş, eləcə də mülkiyyət hüquqlarından qiymətli kağızlara keçidi çevik, maneəsiz və etibarlı qeydə alma (sənədləşdirmə) sistemləri lazımdır.

Qiymətli kağızlar üzrə sazişlərin yerinə yetirilməsində və pul klirinqləri prosesi xidmətlərində, eləcə də onların təhlükəsizliyinə dövlət nəzarəti üçün milli depozitariya sistemində klirinq (hesablama) bankı keyfiyyətində milli bank və onun banklar sistemindəki səlahiyyətli idarələri çıxış edir. Bunun üçün qiymətli kağızlara mülkiyyət hüququnun qeydə alınma funksiyası və qiymətli kağızların bir şəxsin mülkiyyətindən digərinə keçidinin hüquqi sənədləşdirilməsi emitentlərin əlindən alınmalı və onun icrası emitentlərdən asılı olmayan, müstəqil səlahiyyətli idarələrə verilməlidir. Həmin idarələr isə emitentlərə və aksionerlərə müvafiq qiymətli kağızların siyahı üzrə mülkiyyətçiləri haqqında məlumatlar təqdim etməlidir.

Milli depozitariya sistemini onun özü və onun iştirakçıları yəni fond bazarının iştirakçılarına bilavasitə xidmətlər göstərən bankların lokal depozitariyaları, qiymətli kağızlar bazarındakı vəsaitçiləri, ixtisaslaşdırılmış depozitar idarələri (qeydə alma idarələri) və regional sertifikat auksionları mərkəzləri təşkil edirlər.

Suallar və tapşırıqlar

Zənninizcə hansı variant düzgündür.

1.Bazar infrastrukturu xidmət göstərir: a) istehsal mərhələsində; b) mübadilə mərhələsində; c) istehlak mərhələsində; ç) hər üç mərhələdə.

2. Bazar infrastrukturunun tənzimləyici funksiyası nədən ibarətdir:

a) Əmtəə material dəyərlərini bölüşdürülməsində; b) ekvivalent mübadilənin təşkilində; c) tələb və təklifin mütənasibliyini təmin edilməsində; ç) bütün məsələlərin həllində.

3. Təşkilatın imici son nəticədə formalaşır;

a) poblik rileyşinz; b) reklam fəaliyyəti; c)marketinq fəaliyyəti; ç) iki – üc eyni vaxtda.

4. Faktorinq kampaniyası həyata keçir:

a)müvəqqəti sərbəst vəsaitləri çəmləyir; b)borcları alır;
c)İnnovasiya layihələrinə inıestisiya qoyur;
ç) borc verir.

5. Özünü tənzrmləyən təşkilatların fəaliyyəti:

a) qanunvericilik bazasının formalaşdırılmasından;
b) qiymətli kağızların buraxılmasından;
c) qiymətli kağızlar bazarında əməliyyatlar keçirilməsindən;
ç) fond bazarında standart davranış və etikanı müəyyənləşdirilməsindən ibarətdir.

© Шербакова. Л.У.2002.

XXXII Fəsil

TƏBİƏTDƏN İSTİFADƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

1. Ekoloji inkişafın dövlət menecmenti

Qloballaşan dünyada dövlət. Son illərdə dövlətin rolunun dəyişilməsi dinamikası ictimai marağın mövzusuna çevrilmişdir. Buna görə də çoxsaylı işlər, o cümlədən də Dünya bankının hesabatlarında bu məsələ təhlil edilmişdir. Bəşəriyyət başa düşməyə başlamışdır ki, dövlət, institutlarının inkişafına üstünlük verilməsi yolu ilə iqtisadiyyatı sabit inkişaf etdirmək və insanların birgə yaşayışına nail olmaq mümkündür. Son illərdə təbii resursların cəmiyyətin həyat fəaliyyətinə cəlb edilməsinin həcmi və sürəti (onların təbii mühitdə ehtiyatları ilə müqayisədə) dəqiq təsdiq edilir ki, Yer kürəsinin resurslarının səviyyəsi tükənir və xüsusilə də biosfera (həyat mühitində) özünün böhran sərhədinə çatır. Yalnız bir misal gətirək.

Son illərdə materiallar istehsalının artımı artan göstəriciləri saxlayır. Sabit cəmiyyətə doğru yolun inkişafına dair Worldwath[1] məruzəsinin məlumatlarına görə 1995-ci ildə dünya iqtisadiyyatına 10 mlrd. ton materiallar daxil olmuşdur ki, 1963-cü ilə nisbətən 2,0 dəfə çoxdur. Onun əsas hissəsini inkişaf etmiş sənaye ölkələrinin payına düşür. Xüsusilə 1900-1995-ci illərdə ABŞ-da materialların istehlakı 18 dəfə artmışdır. Onlardan istifadə maşınqayırma, kimya sənayesi, tikinti materialları sənayesinin inkişafını kəskin şəkildə gücləndirdi və son

[1]Состояние мира. 1999 М., 2000.

nəticədə Yer kürəsi əhalisinin həyat fəaliyyətinin istehsal və məişət şəraiti dəyişildi. Konstruksiyaların möhkəmliyi, maşınların, təchizatın səmərəliyi xeyli artmışdır. Əgər bununla belə nəzərə alsaq ki, intellektual planda cəmiyyət mikrodünyaya, kosmosa, silahlanmaya yol açmış, informasiya proseslərini və elmi texniki inqlabın yüksək naliyyətlərini mənimsəmişdir. Həm ayrı-ayrı dövlətlərin, həm də bütövlükdə cəmiyyətin təbiətdən istifadənin dövlət tənzimlənməsi miqyasında intellektin əhəmiyyətinin artması aydın şəkildə hiss olunur.

1992-ci ildə Rio-De-Janeyro-da ətraf mühit və inkişaf üzrə BMT-nin Konfransı, xüsusilə son illərdə dünyanın bütün ölkələrində praktiki olaraq atılan addımlar insan cəmiyyətləri sabit inkişaf istiqamətində təkamül imkanlarını, aktuallığını təsdiq edən zəngin material verir.

Son illərdə hər yerdə qloballaşma prosesi aktivləşir. Dünya iqtisadiyyatı mürəkkəb çoxkomponentli sistemdir, hansı ki, məhsuldar qüvvələrin inkişafı prosesində beynəlmiləlləşməni təsdiq edir. Bu da təkmilləşən istehsal münasibətləri ilə birlikdə insan fəaliyyətində son nəticələrini yüksək sürətlə artırır. Son onillikdə dünya istehsalı əhali artımını iki dəfə ötmüşdür. BMT-nin baş katibi Kofi Annanın qeyd etdiyi kimi müasir mühüm təkamül qloballaşma və idarəetmə olur.

Nəhəng ərazidə səpələnmiş və güclü mineral-xammal, bioloji, yanacaq-enerji, ekoloji, mədəni-tarixi və çoxlu başqa resurslara malik rus xalqı firavanlığa və bir çox xarici ölkələrin nail olduqları ümumdünya standartlarına çatmağa layiqdir.

Rusiyanın mineral-xammal (MXK) və yanacaq enerji (YEK) kompleksləri heç də təsadüfi olaraq yaranmamışdır. Hələlik təsərrüfat dövriyyəsinə cəlb edilməmiş ərazilər və xərclənməmiş bərpa olunan və bərpa olunmayan resurslar o potensial varlığı təşkil edir ki, ondan yaxın perspektivdə rusiya cəmiyyəti və Rusiya dövləti istifadə etməlidir.

Lakin yaddan çıxarmaq lazım deyildir ki, müxtəlif subyektlərin və təsərrüfat fəaliyyəti obyektlərinin qarşılıqlı fəaliyyətinin qurulması kimi köklü problem Rusiyanın və onun təsərrüfatçılıq sistemlərinin mühüm vəzifələridir.

Bazar prinsipləri əsasında rusiyanın ictimai həyatının inkişafının yeni mərhələsi bir sıra köhnə, çoxdan fəaliyyət

göstərən reallıqların nəzəri cəhətdən dərindən təhlilini tələb edir. Bu ilk növbədə MXK-nə və YEK-nə aiddir. Belə ki, onlar nəinki müasir iqtisadiyyatın, həm də insan cəmiyyətinin həyat fəaliyyəti kompleksinin özülüdür. Aydındır ki, burada başqa ölkələrin təcrübəsi xüsusi əhəmiyyət kəsb edir. Bununla belə qeyd etmək lazımdır ki, Rio-De-Janeyroda bəşəriyyətin qəbul etdiyi sosial, iqtisadi və ekoloji inkişafın metodoloji üçlük vəhdəti təbiətdən istifadənin inkişafında da həlledici olaraq qalır.

Son illərdə «qızıl milyard» ölkələrinin naliyyətləri həmin ölkələrin ərazilərində ekoloji vəziyyətin ciddi yaxşılaşdırılmasını nümayiş etdirir. Köhnə ekoloji və resurs problemlərini yeni qadada həll edən ölkələrin fəaliyyət formaları xeyli çoxdur. Belə ki, öz tullantılarını yenidən emal edən firmalar vergilərin bir hissəsindən azad edilir. Dövlət idarələri üçün tədarükçüləri (mal verənləri) seçərkən onlara üstünlük verilir (16 saylı sxemə bax).

Qərbin sənayecə inkişaf etmiş ölkələrində ekoloji proseslərin idarə edilməsinin təşkilinin ən mühüm istiqamətlərindən biri dövlətlə biznes arasındakı qarşılıqlı fəaliyyət məsələlərinin adı çəkilir. «Ətraf mühüt problemləri üzrə Keydanren qlobal xartiyasında» (Yaponiya, aprel 1991-ci il) qeyd edilir ki, hər bir korporasiya nəzərə almalıdır ki, onun özünün müvəffəqiyyətli fəaliyyəti və firavanlığı ekoloji problemlərin həlli üçün zəruri ilkin şərtdir. Bütövlükdə inkişaf etmiş ölkələrdə biznesin ətraf mütinin mühafizəsi məsələlərinə müasir münasibəti 10-15 il əvvəl müşahidə olunduğundan radikal fərqlənir. Bu təzahürün başlıca səbəbləri hansılardır? Hər şeydən əvvəl bu təmizləyici qurğuların quraşdırılmasına və çirklənməyə qarşı başqa mübarizə tədbirlərinə investisiya qoyuluşlarını həyata keçirən xüsusi müəssisələrin həvəsləndirilməsinə yönəldilmiş, düşünülmüş dövlət siyasətidir (güzəştli vergitutma və başqa). Ətraf mühitə buraxılan tullantıların azaldılması bilavasitə resurs istehlakının səmərəlililyinin artması və müvafiq olaraq müəssisələr üçün mənfəətli olmaları faktını da nəzərə almaq mühüm rol oynayır.



Sxem 16 Ekoloji tənzimlənmənin iqtisadi metodlar

Ekoloji təmiz məhsulların xeyrinə bazar konyukturunu dəyişdirmək mühüm əhəmiyyət kəsb edir. Təmizləyici və nəzarət-ölçü avadanlıqlar işləmələr və yeniliklərin tətbiqi ekoloji cəhətdən «təmiz» texnologiyalara, tullantıların yenidən emalı (resiklirovaniya) üçün geniş imkanlara malik texnika və texnologiyaları yaranır.

Hal-hazırda tullantıların həcminin azaldılması və ətraf mühitin zəhərliliyinin azaldılması ilə yanaşı istehsal xərclərinin azaldılmasına dair çoxlu misallar vardır. Sənayecə inkişaf etmiş ölkələr öz milli ekoloji siyasətində iqtisadi artım və yaşayış mühitinin mühafizəsinin mənafelərini daha geniş birləşdirilməsinə imkan verən iqtisadi və texnoloji modellərinin tətbiqini əsas hesab edir. Xüsusilə material və enerjitutumlu istehsalın azaldılmasına diqqət yetirilir. Elmi tədqiqatlara, xüsusilə alternativ enerji mənbələrinin işlənib hazırlanması sahəsində tədqiqatlara əlavə vəsait ayırırlar.

Qərbi mütəxəssislər perspektiv ekoloji siyasəti də mühüm məqam kimi iqtisadi tənzimləmə metodlarından istifadənin daha da genişləndirilməsində görürlər. Xüsusilə də «bazar potensialından ekoloji xidmətdə» daha yaxşı istifadə edilməsi. Təbiəti mühafizənin bütün tədbirlər sisteminə yenidən baxılmasına xüsusi fikir verilir. Burada çirklənmənin nəticələrinin aradan qalıdırılmasına yox, onun profilaktikasına üstünlük vermək lazımdır. Bir çox amerika və Qərbi Avropa ekspertlərinin fikrincə bu ətraf mühitin sağlamlaşdırılmasında daha yaxşı olmaqla yanaşı həm də son nəticədə ucuzdur.

Dövlət və ekoloji inkişaf strategiyası Ölkəmizdə normal bazar mexanizmləri (istehsalçıların və istehlakçıların rəqabəti, sahibkarlıq aktivliyi və nəhayət iqtisadi mənafelər) ictimai quruluşun təşkilinin direktivliyi, mərkəzləşdirilməsi ilə dərindən boğulmuşdur. Sovet İttifaqı istehsal istehlakın keyfiyyət göstəricilərinə görə Qərblə yarışında birinciliyi əldə edə bilmədi.

Sabit inkişafa keçməyin ümumbəşər vəzifəsini irəli sürən «Bizim ümumi gələcəyimiz» adlı BMT-nin məşhur məruzəsi və nəhayət BMT-nin Rio-De-Janeyroda ətraf mühitlə bağlı konfransın materialları məşhur iqtisadiyyat və ekologiya

məlum münasibətlərinə keyfiyyətcə yeni şərh verdi. Başlıcalar bir sıra prinsipial mülahizələrlə izah edilir.

Birincisi, bəşəriyyət yalnız o halda müsbət nəticələrə nail ola bilər ki, ekologiyanı iqtisadiyyata antoqonist yox, obyektiv şəkildə, eyni zamanda mövcudluğun qəbul etsin. Onun tələblərinə riayət etmədikdə heç bir iqtisadiyyat fəaliyyət göstərə bilməz, ona görə ki, bu halda o, insan həyatının ilkin əsası kimi ümumi evi – Yer kürəsini qorumur, yaxşılaşdırmır, onu dağıdır.

İkincisi, «ekoloji inkişaf» anlayışında başlıcası odur ki, onun müasir əhəmiyyəti və şərhi genişlənir. Axı yunan sözü «ekos» - «ev» iki elmin başlanğıcıdır: ekologiya və iqtisadiyyat (ekonomika). Lakin insanların fəaliyyətinin ekoloji və iqtisadi sferaları və onlara müvafiq elmlər sıx qarşılıqlı fəaliyyətdə bazar idarəetmənin formalarını, metodlarını və mümkün ola bilən hədləri müəyyən edir.

İri, zəngin və çoxillik tarixi xatırlayaq. K.Marks «Kapital»ın birinci cildində məşhur iqtisadçı Uiyam Pettinin əmək ictimai sərvətin atası, Yer kürəsi onun anasıdır fikrini misal gətirir. 350 ildən artıq bir müddətdə mövcud olmuş təriflə tam razılaşaraq qətiyyətlə «Yer kürəsi»ni daha geniş mənada «Təbiət»lə əvəz etmək olar. Belə ki, həm Günəş, həm də kosmos insanların həyat fəaliyyətində və onların məqsədyönlü fəaliyyətinin nəticələrində birbaşa iştirak edir. Daha müasir misal gətirmək olar. 1989-cu ildə BMT-nin AEK-nın Qaaqada iqtisadi problemlər və tullantısız istehsal üzrə keçirdiyi seminarda iki holland mütəxəssisi L.V.Baas və Q.P.Daylman bir tərəfdən əməyin elmi təşkilindən insan amilini nəzərə almaqla əməyin təşkilinə keçmək, digər tərəfdən isə «kəmərin axırında» tullantıların təmizlənməsi texnologiyalarında elmi texniki tərəqqiyə keçmək arasında əlaqənin mövcudluğu ideyasını irəli sürmüşlər.

Təbii mühit həm bütövlükdə cəmiyyətdə, həm də ayrılıqda hər bir ölkədə həyat fəaliyyətinin nəticələrinin təsirinin artan təziqini hiss etməyə davam edir. Buna görə də keçən əsrin ikinci yarısında yer kürəsinin əhalisinin ictimai dünyagörüşü daha kəskin şəkildə ekoloji problemlərə dönmüşdür. Bu, yalnız ictimai dünyagörüşündə yox, həm də beynəlxalq qanunverici-

ikdə köklü dəyişikliklərə səbəb oldu. Nəticədə bir qayda olaraq Amerikanın, Avropanın və Asiyanın çoxsaylı varlı ölkələrində ətraf mühitə vurulan ziyan kəskin azaldı. Yerli qanunvericilik, praktiki siyasət, istehsalda və xidmət sferasında müasir yüksək texnologiyalar təbiətin mühafizəsinin obyektiv tələblərinə daha çox uyğunlaşmağa başladı. Amerikanın Böyük gölləri, Avropa çayları, Yaponiyada təbii mühit xeyli sağlamlaşdı. Nəticədə əhalinin ömür müddəti artdı. Fikrimizcə akademik N.N.Maisevin, V.İ.Vernadskinin fundemental ideyalarının inkişafına dair qeydlərində bu yolla noosfera təfəkkürü özünə yol açır. Ekomenecmentin reallaşdırılması prinsipləri və formaları təşəkkül tapmağa başlamışdır. Maraqlıdır ki, onun formalaşması müstəqil ölkələrdə eyni vaxtda gedir. Yada salmaq kifayətdir ki, 1996-cı ildə Rusiya Federasiyası Prezidenti yanında Rusiya dövlət xidməti akademiyasında (RDXA) Moskva layihəsi üzrə ekomenecment problemlərinə dair seminar keçirilmiş və burada düşündüyümüz kimi öz praktiki istifadəsini gözlənən ideeyaların təməli qoyulmuşdu. Onların müxtəlif anlamlarını şərh edim. Birincisi, ölkənin idarə edilməsində iqtisadi-siyasi və təsərrüfat müstəqilliyinin nəticəsi kimi suveren dövlətlərin keçmiş müttəfiq respublikaların, habelə bütün səviyyələrdə yerli hakimiyyətin rolu artır. İkincisi, təsərrüfatçılığın baş siysətini işləyib hazırlayan zaman müsbət ekoloji nəticələr əldə etmək üçün baza prinsipləri sayılanlar son dərəcə azdır. Qısa şəkildə onları belə ifadə etmək olar: 1. Fasiləsiz inkişafını təmin etmək; 2. Ekoloji təhlükəni qabaqcadan aradan qaldırmaq; 3. Elmi və texnoloji innovasiyaları aktiv tətbiq etmək; 4. Resurslardan səmərəli istifadə etmək; 5. Hamının və hər birinin ekoloji və iqtisadi məsuliyyətini artırmaq; 6. Cərimələri yalnız təbii mühiti çirkləndirənlər ödəməlidir.

Qruplaşdırma meyarları	Konsepsiyanın başlıca tezisi	Konsepsiyanın qısa xarakteristikası
1. Ekoloji böhranın Başlıca səbəblərinin şərhi	Məhsuldar qüvvələrin inkişafında nöqsanlar Cəmiyyətin investisiyar sisteminin yetişməsi Bazar münasibətlərinin üzvi inkişafı və yayılması	Texniki determinizm İnstitusionalizm Neoklassizm
2. Ekoloji böhranın aradan qaldırılması imkanlarına münasibət	Mənfi: böhranı aradan qaldırmaq mümkün deyildir Müsbət: Böhranı aradan qaldırmaq mümkündür	Ekoloji nessimizm (bədbinlik) Texnoloji optimizmi (nikbinlik)
3. İqtisadi artım və təbiəti mühafizənin uyğunluğu ideyasına münasibət	Mənfi: iqtisadi artımı dayandırmaq lazımdır. Müsbət: iqtisadi artım mümkündür. Ölkələrin, qitələrin və bütövlükdə Planetin sabit inkişafını formalaşdırmaq	«Antiartım» nəzəriyyəsi «Keyfiyyətli və modifikasiyalı» artım. İnstitusional iqtisadiyyatın yeni nəzəriyyəsi
4. Ekoloji siyasəti həyata keçirmək üçün tövsiyə edilən vasitələr	Birbaşa dövlət tənzmlənmə metodları Dolayı (bazar) metodları Qarışıq metodlar	Dirijizm Neoklassizm Neoklassik sintez

Sxem 17. Təbətdən istifadə nəzəriyyələrin qruplaşdırılması

Üçüncüsü, Rusiyada ekoloji strategiyanı reallaşdırmaq üçün praktik şərait son dərəcədə konkertdir. Onlar Rusiya əhalisi çərçivəsində bütün təbəqələrə, qruplara və ictimai qurumlara toxunur. Onları aşağıdakı iri qruplara bölmək olar: 1. Uşaq baxçalarından general direktorların və prezidentlərin akademiyalarına qədər ekoloji ümumi icbari təhsili tətbiq etmək. 2. Sosial-iqtisad inkişafın qənaətcilləşdirilməsinə və informatizatorasiyalaşdırılmasına nail olmaq. 3. Fəaliyyətin və bütün hakimiyyət formalarının (icraedici, qanunverici, məhkəmə) istiqamətlərini müəyyən edən proqram-məqsədli təkmilləşdirilmələri məcburi etmək; 4. Az tullantılı, sonra isə tullantısız istehsalın formalaşmasını mükafatlandırmaq. Yer kürəsinin, Rusiyanın, onun hər bir reginunun sağlamlığının möhkəmləndirilməsini başlıca iş hesab etmək. Qeyd olunan mülahizələri açıqlamaq çox asandır, lakin konsturuktiv yaradıcılıq nöqteyi nəzərdən onların reallaşdırılması zəruriyyətini qeyd etmək vacibdir.

Dördüncüsü, qeyd etməliyik ki, yeni əsrin əvvələrində əhalinin, cəmiyyətin, dövlətin tələbatları ilə ətraf mühitin imkanları arasında bir sıra əksliklər meydana gəldi. Bu situasiyaya cavab olaraq insanla təbiətin səmərli qarşılıqlı fəaliyyətini tapmağa çalışan çoxlu yeni iqtisadi nəzəriyyələrin meydana gəlməsini göstərmək olar. 17 saylı sxemdə təbiətdən istifadə nəzəriyyələrinin müasir qruplaşması göstərilmişdir.

Beşincisi, Postindustrial inkişafa keçən ölkələr üçün ictimai dünyagörüşdə istehsalın üstünlüyü xarkteri əhəmiyyətli dərəcədə dəyişilir. Material – əşya dəyərləri üçün çəkilən xərclərin həcmi yox, xidmətlərə xərclər ön plana çıxır.

2. İnstitusional ilkin şərhlər və məhdudiyyətlər

Bir çox ictimai – əhəmiyyətli işlərdə, o cümlədən «Dəyişilən dünyada Dövlət» adlı 1997-ci ilin Ümumdünya bankının Hesabatında Rusiya Federasiyası Hökumətinin 1997-2000-ci illərdə «Struktur dəyişikliklər və iqtisadi artım»a dair orta müddətli proqamında institusional prinsiplərindən istifadə olunmuşdur. Lakin yeni iqtisadi nəzəriyyənin bu istiqamətlərinin tətbiqinin nəzəri, metodoloji yanaşmalar və praktiki mexanizmlər hələlik tam şəkildə mənimsənilməmiş və qeyri-səmərəli istifadə olunur.

İnstitusionalizmin təkamülü.[1] Qərb iqtisadi fikrin bu cərəyanı-neoklassik nəzəriyyəyə özünəməxsus zidiyyət kimi yarandı və son onilliklərdə belə də qalmışdır. İnstitusionalistləri həmişə fərqləndirən mühüm cəhət o idi ki, onlarda iqtisad elminin sosial elmlərə aid olmasına ciddi inam vardır ki, iqtisadi tədqiqatlarda sosial, tarixi təhlil olmalıdır. Ancaq başlıcası onlar təkamül nəzəriyyəsinin tərəfdarları olublar. Onların metodologiyasının xarakterik xüsusiyyəti həmçinin sosial psixologiya elementlərindən istifadə edilməsidir. Onları öz elminin predme-

[1]Сарвина Г.Н. Экономическая мысль XX столетя. М., РОСПЭН. 2000.

tinin həddindən artıq genişləndirilməsinə görə hətta bizim ölkədə də tənqid edirlər.

İstiqamətin yaradıcısı T.Veblen 11 elmi əsər nəşr etdirmişdir ki, onlardan yalnız biri rus dilinə tərcümə edilmişdir. Onun yanaşmalarının (üsullarından) çoxunu Ç.Qelbreyt (xüsusilə texnoloji struktur konsepsiyası) götürmüşdür. İnstitusionalizmin müasir anlayışı üçün T.Veblenin elmə «institut» terminini özünün daxil etdiyini bilmək vacibdir. Doğrudur o buna son dərəcə qeyri-müəyyən şərh vermişdir. Bunun sayəsində onun davametdiriciləri hansı institutların təhlilinin onlara daha əhəmiyyətli olmalarını, öz zövqünə uyğun seçə bilmişlər. O, XX əsr kapitalizmin ən başlıca institutu kimi kooperasiyanı görürdü. Qeyd edək ki, burada neoklassiklərdə olduğu kimi firma çox, yalnız kooperasiyadan söhbət gedir.

20-ci, xüsusilə də 30-cu illərdə dünya iqtisadi böhran şəraitində ABŞ-da institusionalizm konsepsiyası geniş şöhrət tapdı. Bu iki alimin adı ilə bağlıdır. Hər şeydən əvvəl bu öz tədqiqatının mərkəzində hüquq institutunun təhlilini, habelə mühüm iqtisadi kateqoriya kimi sazişi və sosial konsensusu (o, Ruzveltin Yeni kursunun müəlliflərindən biri idi) qoymuş Ç.Kommonsdur. İkincisi tamamilə başqa qəbildən olan, dövrlər və proqnozların öyrənilməsi ilə məşğul olmuş institusionalist U.Mutçellidir. Neoklassikilər dərhal həyəcan təbili çaldılar. Neoklassizmin ən məşhur optodokslarından biri ingilis L.Robbins bildirdi ki, tezliklə bütün iqtisad elminin institusional ola biləcəyi təhlükəsi var.

Lakin o zaman bu baş tutmadı, səbəbi heç vaxt marksizmin qılığına girməmiş və daha sakit cərəyan olan keynsçiliyin şöhrətinin şürətlə artması olmuşdur. Hesab ediblər ki, ortodoksal elmi lazım olan hər şeyi institusionalizmdən almışdır. Amma institusonal istiqamətli bir sıra mövqelər müharibədən az sonra, habelə 70-ci illərdə Fr.Perrunun rəhbərliyi altında orijinal sosialogiya elmi məktəbi yaranmış Fransada çox müvəfəqiyyətlə inkişaf etmişdir. Əgər Rusiyanın sosial-iqtisadi inkişafının tətbiqinə institusional təhlilin tətbiqi imkanlarını müfəssəl öyrənmək məqsədilə qarşıya qoyulursa, onda

fikrimizcə Rerrunun bazar nəzəriyyəsi daha çox maraq oyadır. 50-ci-60-cı illərdə Amerika institusionalistləri (Ç.Qelbreyt, R.Xeylbroner və başqaları) özlərini tanıtmışlar. Birincinin konsepsiyası yaxşı məşhurdur (sənaye cəmiyyəti; iki sistemin konvergensiyası (birlşməsi)). Kapitalist təsərrüfatının tarixini, o cümlədən, bazarın formalaşmasını tədqiq edən mütəxəssis kimi R.Xeylbroner maraqlıdır.

XX əsrin sonlarının «Yeni institusional iqtisadi nəzəriyyə» bir sıra mürəkkəb problemlərin qoyulması və həllinə görə sözsüz ki, diqqətini cəlb edir. O, keçmiş institusionalizm ənənələrinə sadiq qalmış bəzilərini müvəffəqiyyətlə inkişaf etdirmiş, digərlərindən qəti imtina etmişdir. Əvvəla fərdi seçimli neoklasssik və institutlar nəzəriyyəsini (çoxlu onilliklərdən sonra neoklassik məktəblərin tənqidi) birləşdirmək istiqamətində gözlənilməz addım atdılar. İkincisi, müasir institusionalistlər xüsusi mülkiyyətin yox olmasının labüdlüyü haqqında T.Beblenin ideyalarından qəti imtina etmişdir. R.Kouzun «mülkiyyət hüququ nəzəriyyəsi»nin əksinə xüsusi mülkiyyətə sübhəsiz (zidd olunmaz) institut kimi baxılır. Eyni zamanda institusionalistlər üçün iri korporasiya müasir sistemin mərəzi intitut kimi qalacaqdır, bunun tədqiqi istiqamətində (transaksion xərcləri nəzəriyyəsi) xeyli nailiyyətlər əldə etmişdir.

Bazar iqtisadiyyatına yol axtaranları maraqlandırmağı bacaran «yeni institusialistlərin» maraqlı naliyyətləri arasında «kliometrya» (Klio tarixi adı ilə) adını almış yeni iqtisadi nəzəriyyəyə düşür. Onlar bizdə çox az məhşurdurlar. Lakin R.Feqel və D.Nort yalnız bu sahədə tədqiqatlara görə 1993-cü ildə Nobel mükafatını bölüşdürmüşlər. İqtisad elminin bu yeni qolu tarixi hadisələrin və gələcək üçün onların əhəmiyyətini qiymətləndirmək üçün (ola bilər, yenidən qiymətləndirmək üçün) müasir təhlil metodlarından (o cümlədən, ekonometrik) istifadə edilməsinə əsaslanır. Xalq təsərrüfatının inkişafı «trayektoriyası»nın axtarışlarını demək olar ki, birinci dəfə deyildi ki, iqtisadçılar təşəbbüs göstərmirlər. Fikrimizcə, keçən əsrin əvvəllərində rus iqtisadçılarının bu sahədə naliyyətləri olmuşdur.

İnstitusional kateqoriyasının mahiyyəti. Öz dövründə Duqlas Nort «təşkil» anlayışında onları ayırmaqla institutlara dəqiq tərif verdi. Ölkəmizdə baş verən hadisələri başa düşmək üçün adətlərdə, ənənələrdə və əxlaq kodekslərində təcəssüm olunmuş və «düşüncəli insan səylərinə daha az mənimsənilən» institutları öyrənmək və ayırmaq xüsusi əhəmiyyət kəsb edir. Belə institutların çoxu antibazarlardır və mənşəini nəinki sovet dövrünə, əsrlərin dərinliklərinə gedib çıxır. Paternalizm, himayədarlıq, inhisarçılığa, bərabərçiliyə, avantürizm, inhisarçılığa, bərabərçiliyə, avantürizmə, məşhur rus «bəlkə ola bilsin ki» və s. meyllik, bütün bunlar bir neçə misaldır.

Son dövrün ciddi nəşrləri təsdiq edir ki, bazar istitutlarının formalaşması rusiya iqtisadiyyatının sistemli dəyişikliklərin əsas həlqəsidir. Hər halda söhbət hansı bazar institutlarından gedir? D.Nort yazır ki, tarixi prosesin anlaşılmasının açarı institusional dəyişikliklərdir. Görəsən azad rəqabət bazarlarından inhisarçı və olıqopolistik bazara keçəndə belə dəyişikliklər olmayıb. Görəsən hüquq normaları, adətlər, əxlaq kodeksləri dəyişilməyib? Biz hansı institutları yaratmalıyıq? Fikrimizcə bu suallara cavablardan çox şey asılıdır. Bu daha çox bizim cəmiyyətimiz üçün vacibdir, hansı ki, praktiki olaraq normal transaksion münasibətlərinin inkişafının tarixi təcrübəsi olmadan mümkün deyildir. Həyat fəaliyyətinin bazar prinsiplərinə keçid mərhələsinin çətin keçməsinin səbəbi bunun arxasında gizlənir.

Geniş təkrar istehsal şərtləri haqqında institusionalizm RDXA-nın professoru, iqtisad emləri doktoru S.E.Xorzov hesab edir ki, ictimai təkrar istehsal nöqteyi-nəzərdən institusionalizm nəzəriyyəsinə baxarkən bir sıra prinsipial müddəanı qeyd etmək lazımdır. Onların mahiyyəti nədir?

İnstitusionalistlərin fikrincə institusional sistemi təmin edən iqtisadiyyatın səmərəli təşkili iqtisadi artımı əsasıdır. Üzunmüddətli iqtisadi artımını təmin edən institutlar, təhrik etməyi formalaşdıran mexanizmlər – ilk növbədə qanunlar, qaydalardır. İnsanların iqtisadi davranışlarının fundamental

determinantları stimullardır. Formal və qeyri-formal məhdudiyyətlər əsasında institutlar, insanpərvər qarşılıqlı münasibətlərin çərçivəsi, strukturu müəyyən etməklə qeyri-müəyyənliyi azaldır. Bununla da geniş təkrar istehsala şəraiti təmin etməklə qəbul olunan qərarların səmərəliliyini yüksəldir.

Geniş təkrar istehsalı təmin edən şərtləri hərtərəfli başa düşmək üçün institusionalistlərin belə bir mövqeyinə fikir vermək lazımdır ki, institutların yaranmasının əsasında informasiyaların yenidən işlənməsi zəruriyyəti dürür. Bu informasiyaların əldə edilməsi transaksiyon tədavül xərcləri ilə əlaqədardır. İnstitutlar bazis sturukturunu, mühiti və sferanı təşkil edir. İnsanlar buna söykənərək bütün tarix boyu qayda-qanun yaratmış və istehsal, bölgü, mübadilə prosesində qeyri-müəyyənliyi azaltmağa çalışmışdır. Bununla belə onlar iqtisadi fəaliyyət riskini azaltmış, transaksional tədavül xərclərini endirmiş, təsərrüfatçılığın səmərəliliyini artırmışlar.

İnstitusionalistlər təkrar istehsalın həyata keçirilməsində texnologiyaların (məhsuldar qüvvələrin) rolunu qəbul edirlər. Çünki, onlar iqtisadi artım amillərini tapmağa «kömək edir». Onların fikrincə texnologiyalar iqtisadi artımın yuxarı həddə çatdırmağı məqsəd qoyur. Buna görə də transaksion tədavül xərcləri sıfıra bərabər olan dünyada biliklərin həcminin artması və geniş tətbiqi səmiyyət üzvlərinin potensial firavanlığına əsas olur. Lakin onlar hansı mexanizmlərin köməyi ilə iqtisadi artım və transaksion tədavül xərclərinin azaldılmasının bütün amillərindən səmərəli istifadə etmək məqsədilə müasir texnologiyaları müvəffəqiyyətlərini insan cəmiyyəti tərəfindən reallaşdıra biləcəyinə xüsusi fikir verirlər.

İnstitutlar - tarixi inkişafın məhsuludur. Lakin təkrar istehsal prosesində onların rolunu qiymətləndirən zaman xatırlamaq lazımdır ki, onların tərəqqisi cəmiyyətin iqtisadi həyatında yalnız yeni hadisələrin nəzərə alınmasına yox, həm də müxtəlif cür dəyişiklərin, xüsusilə inqilab xarakterli hadisələrin mənfi nəticələrinin aradan qaldırılmasına aparıb çıxartmır. Onlar keçmişdən irsən qalmış, əhalinin qiymətləndirdiyi, vərdiş

olduğu şərtlərin saxlanılmasının zəruriliyi prinsipini irəli sürürlər. Bu qeyri rəsmi normalar yavaş-yavaş, tədriclə dəyişilir, ancaq yeni qəbul edilən qanunların, insanların davranış qaydalarının fəaliyyəti üçün qanunvericilik əsaslarını yaratmır. Buna görə də hər bir dövr üçün inistitusional sistemləri formalaşdırmaq üçün əvvəlki dövrün traektoriyasının inkişafını nəzərə almaq lazımdır hansı ki, bu uzunmuddətli iqtisadi dəyişiklikləri başa düşmək üçün həlledici şərait yaradır. İnstitutlar keçmişi gələcəklə əlaqələndirir, cəmiyyətlə iqtisadiyyat arasında qarşırıqlı münasibətlərini, onların ictimai təkrar istehsala təsirini başa düşməyə imkan verir. Bununla belə, geniş təkrar istehsal yalnız cəmiyyətin maddi və intellektual sferalarının inkişafına, həm də institusional mühitə aiddir.

İnstitualistlərin fikrincə geniş təkrar istehsalı təmin edən mühüt amillər, həmçinin informasiyaları işləyən və bunun əsasında seçim şəraitində siyasi və iqtisadi qərarlar qəbul edən insanların mentallığının nəzərə alınması, institutların transaksion tədavül xərclərini azaltmaq, qəbul olunan qərarların sosial-iqtisadi nəticələri özündə əks etdirən müvafiq qanunvericilik aktlarının qəbulu hesabına cəmiyyətin məcmu gəlirini artırmağı da daxil etmək olar.

Ekoloji inkişafın institututlar və mexanizmləri. İnistitutlar digəri iqtisadi kateqoriyalardan kəskin fərqlənir, o cümlədən səmiyyətin həyat fəaliyyətinin texniki-texnoloji və təbii şərtlərin ifadə edilməsidir.

Cədvəl №22

Təbiətdən səmərəli istifadə və ekoloji inkişafın dövlət tənzimlənməsi

Təbiətdən səmərəli istifadə və ekoloji inkişafın dövlət tənzimlənməsi metodları		
A. İndikativ	B. İnzibati	V. İnstitusional
1. Ödənişli təbiətdən istifadə	1. İnvestisiyalaşdırma	1. Audirləşmə (daxili və xarici)
2.Cərimə sanksiyaları	2. Təbiətdən istifadə limitlərinin müəyyən edilməsi	2. Kollektiv ictimai ekoloji şüurun və davranış məsuliyyətinin

		formalaşması
3. Ekoloji sığorta	3. Təbiətdən mühafizə layihələrinin ekoloji-iqtisadi ekspertizası	3. Ətraf mühitə təsirin qiymətləndirilməsi metodlarının, qaydalarının və prosedurlarının mənimsənilməsi
4. Az tullantılı və tullantısız texnologiyalara və istehsalata və s. tətbiqinə görə müəssisələrə göstərilən vergi və başqa güzəştlərin müəyyən edilməsi	4. Həyat fəaliyyətinin dövlət standartlarının, qanunvericilik, dövlət normalarının və metodiki qaydaların təkmilləşdirilməsi	4. Ekoloji inkişafda rəqabətin formalaşması. Təmiz və tullantısız texnologiyaların, vətəndaşların sağlamlığına və həyat şəraitinə müsbət təsirin, ekoloji təsərrüfatçılığın və ümumiyyətlə həyat fəaliyyətinin (dünyada, Rusiyada, regionlarda) tətbiqi
5. Təbiəti mühafizə əsas istehsal fondlarının yüksək amortizasiya normalarının müəyyən edilməsi	5. Ekoloji tərbiyə və təhsil	5. Regional strukturların, sahibkarların, firmaların, cəmiyyətin həyat fəaliyyətinin ekoloji göstəricilərin informasiya ötürmələri
6. Ekoloji təmiz məhsullara həvəsləndiriçi qiymətlərin və əlavələrin tətbiqi	6. Ekoloji fondların yaradılması və onlardan istifadəyə nəzarət	6. Ekoloji cinayətlərə, qəzalara və fəlakətlərə, başqa fövqaladə hadisələrə görə izahatlar və cəzalandırmalar
7. Ətraf təbii mühitin səmərəli mühafizəsini həyata keçirən müəssisələrin, idarələrin güzəştli kreditləşdirilməsinin tətbiqi	7. Qanunlara riayət etməyə məcbur edən tədbirlər. Polis, məhkəmələr və başqa inzibati orqanlar	7. Ekoloji təhlükəsizliyi təmin etmək üzrə qərarlar qəbul edən və keşiyində duran şəxslərin ixtisasların ömürlük müntəzəm sertifikatlaşdırılması

Bu institutların fəaliyyətinin nisbiliyi və yarımçıqlığı göz qabağındadır. Bu vətəndaşların sosial müdafiəsinin zəifliyində tətbiq edilən texnologiyaların təkmilləşdirilməsində görünür ki, sonda hər bir ölkədə tez-tez qərarlara, fəlakətlərə, münasibətlərə, kriminallığın artmasına gətirib çıxarır. İqtisadiyyat keçmişdə bir çox problemlərlə məşğul olmamışdır. Onlar başqa səviyyələrdə: siyasi, dini və başqa təşkilatlarda həll olunurdu. Bu gün onların institusional mənimsənilməsini iqtisadi dəyişikliklər proqramlarında yeniləşdirilir (bax: cədvəl 22).

BMT-nin ətraf mühit və inkişaf üzrə konfransından (1992-ciil) sonra iqtisadi xarakteristika tərkibinə daxil edilən iqtisadi problemlərin aqibəti belə olur. Eyni fikri həyat fəaliyyəti və konkret biznes, insanların vətəndaşlıq hüquqlarının bazar sistemində şəxsiyyətin mənəvi-psixoloji problemləri haqqında da söyləmək olar, hansı ki, onlar şəxsi firavanlığın səviyyələrində heç bir məhdudiyyət qoyulmadan yalnız iqtisadi obyekt yox, həm də subyektiv xarakteristikasını alırlar.

Beynəlxalq bankın 1997-ci ilin «Dövlət dəyişən dünyada» adlı hesabatında dəqiq göstərilir, bu dərk olunmuş ictimai istehlakdan irəli gəlir. Orada qeyd olunur: «Yaxşı hökumət bolluq deyil, o inkişaf üçün həmişə lazımdır».

Bu əsrin ikinci yarısında atmosferin, hidrosferin ekoloji parametrlərini kəskin şəkildə yaxşılaşdırmaq, nəzarətsiz atılan tullantıları azaltmaq istiqamətində öz ərazilərinin urbanizasiyasını ciddi şəkildə dəyişdirməyə nail olmuş inkişaf etmiş «qızıl milyard» ölkələrinin naliyyətləri göstərir ki, insan cəmiyyətində insanların həyat fəaliyyətini və yaşayış mühitini yaxşılaşdırmaq üçün geniş imkanlar mövcuddur. Bu imkanlar əqli, maliyyə, texniki-texnoloji və s. ibarətdir.

Göstərmək lazımdır ki, insan cəmiyyətinin tarixi və mədəni, milli, dini, siyasi və başqa fərqlər və əksliklər insanın özünün sabit inkişafının, davranışının proqnozlaşdırılması, insanların qarşılıqlı fəaliyyətinə heç də maneçilik törətmir. Əksinə, onlar ümumi evdə – Yer kürəsində indi yaşayan və xüsüsilə gələcək nəslin sağlamlığı, firavanlığı, həmrəyliyi naminə

birləşməyə və cəhd göstərməyə daha çox şərait yaradır. İşgüzar təfəkkürün qlobal parametrləri daha çox real hərəkətlərin mənimsənilmiş zəruiyyətə çevrilir. Noosfera, tsiklik inkişaf, texniki-texnoloji yeniləşmələrinin artan əhəmiyyəti, nəhayət real ETP naliyyətləri həyat fəaliyətinin həmıya bəlli olan strereotiplirinin akitiv yeniləşməsi daha aktiv institusional mühiti formalaşdırır.

3. Sabit inkişafın postindustral problemləri

İnformasiya texnologiyalarının rolu. İctimai istehsalın qlobal miqyasda sənayeləşdirilməsində daha çox gözə çarpacaq proseslər gedir. Ümumi təsir göstərən ümumi vasitələrdən biri kimi inkişaf etmiş ölkələrin sənayecə inkişaf etmək ərəfəsində olan ölkələrə daxil olmasını göstərmək olar. Onların həyat fəaliyyətinin texniki-texnoloji təkmilləşdirilməsi ayrı-ayrı fərdlərin, sosial qrupların, bütövlükdə cəmiyyətin əvvəllər məlum olmayan ehtiyacları, ümidləri və davranış standartlarını yaradan sosial-iqtisadi və ekoloji yenilikləri meydana gətirir. Bu istiqamətdə yavaş-yavaş bazar inkişaf edir. Ona görə ki, iqtisadi tələbatlar resurslar, əmtəələr, xidmətlər bazarının başlıca kompası olmaqda davam edir. Bununla belə onun miqyası artır, bu tələbatların maddi və İntellektual formaları dəyişilir.

Postindustrial inkişafın fərqli əlaməti xidmətlərin artan xüsusi çəkisində əşya nəticələrinin xüsusi çəkisinin azaldılmasından ibarətdir. Bütün bunlar cəmiyyətin ilkin əsas tələbatlarının xeyli dərəcədə ödənilməsini göstərir. Eyni zamanda bu istehsalçıların intellektual inkişafını bazarın bu istiqamətdə sıçrayışa hazırlığını və bacarmağını təsdiq edir. Bazar institutları çoxsaylı üsullarla istehsala təsir edir, onu cəmiyyətin iqtisadi tələbatlarına tam uyğunlaşdırmağa məcbur edir. Burada informasiya sferası təkrar istehsalı həyata keçirən qarşılıqlı fəaliyyət, mübarizə və ümumiyyətlə həyat fəaliyyəti meydanı kimi çıxış edir. Son nəticədə o insanın təkrar istehsalına çevrilir.

Bütövlükdə informasiya və onun ictimai şüura təsirinin praktiki formaları artır, hazırki dövrdə inkişafın mühüm amili kimi çıxış edir. Bununla belə unutmaq olmaz ki, informasiyalar universaldır, onlar istehsalın təkmilləşdirilməsində, intellektual fəaliyyətlərdə baş verən hər cür dəyişikliklərdə, bazar münasibətlərə xidmətdə daim hazırdır. Stimulların imkanların və məhdudiyyətlərin informasiya şəklində meydana gəlməsi təsnifləşdirilə bilər. Burada təsnifat vaxt etibarilə daimi mürəkkəbləşir.

Sənaye ekologiyası mövzusunda informasiya məhsullarının rəsmiləşdirilməsi, təhlili və qiymətləndirilməsi yeni, təkmilləşdirilmiş formalar əldə etməklə daim inkişaf edir. Bu yalnız ayrı-ayrı ölklərdə yox, həm də beynəlxalq standartlar, başqa normativ sənədlər şəklində beynəlmiləl miqyasda baş verir. Eyni zamanda maksimum obyektiv dərəcəli qiymətləndirmə xarakterli müqayisələr və prosedurlar qanuniləşdirilmiş tədqiqatlar sistemi kimi ətraf mühitə təsirin qiymətləndirilməsinin daha çox inkişafını göstərir.

Bununla əlaqədar marketinq prosedurları öz xüsusiyyətlərini əldə edir. Bazar vahid mühit və ya həyat fəaliyyəti sferası kimi informasiyasının köməyi ilə istehsalçılar nöqteyi nəzərdən, bəzən istehlakçılar və hərdən cəmiyyətin digər subyektləri nöqteyi nəzərdən ayrıca çıxış edir.

Bazarların stimullaşdırılması və ya fəaliyyətinin məhdudlaşdırılması mexanizmləri çoxdan işlənmişdir, lakin ekoloji problematika insanların, firmaların, dövlətin fəaliyyətdə olan münasibətlərində öz əksini tapsa da, əvvəllər işlənib hazırlanmış qaydalara müvafiq və onlardan istifadə etməklə aktiv inkişaf etməkdə davam edir. Belə ki, fəaliyyətin, texnologiyaların, məhsulların və bunlarla əlaqədar birgə mövcud olan bütün infrastruktur şleyfinin (nəqliyyatlaşdırılması, qablaşdırılması, istifadə edilməsi, təmir və sənaye fəaliyyəti nəticələrinin utilizasiyası (istifadəsi)) keyfiyyəti çox qısa müddətdə qanuniləşdirilmiş norma və qaydalarla, çox hallarda dövlət səviyyəsində təsdiq edilmiş qaydalarla ekoloji cəhətlərlə tamamlandı.

Beləliklə, reinciriq prinsiplərinə uyğun, habelə, informasiya ötürmələri və ekoloji qiymətləndirilmələrini həyata keçir-

mək üçün yaradılan «oyun qaydaları» dövlət səviyyəsində və informasiya texnologiyaları səviyyəsində idarəetməni təmin etmək üçün informasiya təminatının əsası olur.

Təbiətdən istifadənin işçi və maliyyə stimulları. Bütün dünyada sənayenin təşkili çox oxşar prinsiplərə uyğun inkişaf edir və həyata keçirilir. Təşkilin ərazi və sahə formaları bütün qitələrdə praktiki olaraq oxşar əsaslara malikdir. İri firmalar, müəssisələr və kiçik biznes fərqlənir. Burada TMK (transmilli korporasiyaların) sənaye fəaliyyəti oxşatma üçün anoloji və ya ekoloji kimi çıxış edir. Sosial ekologiyanın tələbləri nöqteyi nəzərdən dövlət istesal bölmələri, infrastruktur müəssisələri, güc idarələri, ordu bir sıra ümumi xüsusiyyətlərə malikdir. Buna görə də ekomenecmentin üstünlükləri eyni zamanda həm strateji və taktiki xarakterə malik sosial-iqtisadi xarakterli vəzifədir. Bununla belə, bazar mexanizmləri, ilk növbədə real inkişaf etdiyi yerdə, rəqabət davranış standartları üçün sayca məhdudlaşdırıcı kimi çıxış edir.

Ekoloji parametrlər nöqteyi nəzərdən işçi və maliyyə üstünlükləri beynəlxalq və milli metodiki tələblər əsasında formalaşdır. İqtisadi proqnozlar və ekoloji ekspertiza işçi dairələrdə böyük əhəmiyyət kəsb edir. Onlar qarşılıqlı fəaliyyət göstərir və yeniliklərin həyata keçirilməsinə xeyli dərəcədə böyük əhəmiyyət verirlər. Burada söhbət işçi və maliyyə ilkin şərtlərin və məhdudiyyətlərin təsnifatından, sənayenin, tədavül və istehlak sferaların ekoinkişafı meyllərindən və ekspertizadan informasiya fəaliyyətinin kredit qabiliyyətindən, ekoinkişafın dövlət və maliyyə siyasətindən, ekoinkişafın proqram məqsədli formalarından gedir.

Cədvəl №23

İnformasiya texnologiyaları və onların potensial imkanları İstehlaka yönəldilən sərvətlər (qiymətli şeylər)

Əvvəlki vaxtlar	İnformasiya texnologiyaları	Yeni qaydalar
İnformasiya yalnız bir yerdə və bir dəfə meydana gələ bilər	Məlumatların bölüşdürülmüş bazarları	İnformasiya eyni vaxtda lazım olan hər yerdə, müxtəlif yerlərdə meydana gələ bilər
Mürrəkəb işi yalnız ekspertlər yerinə yetirə bilər	Ekspert sistemləri	Ekspertin işini yalnız ümumi məsələlər üzrə mütəxəssis yerinə yetirə bilər
Biznes yalnız mərkəzləşdirmə və qeyri mərkəzləşdirmə arasında seçim etməlidir	Telekomunikasiya şəbəkəsi	Biznes eyni vaxtda mərkəzləşdirmə və qeyri mərkəzləşdirmədən üstünlük əldə edə bilər
Bütün qərarları rəislər qəbul edir	Qərarların müdafiə vasitələri (məlumat bazalarına buraxılış, modelləşdirmə üçün proqram təminatlı və s.)	Qərarların qəbul edilməsi hər birinin işinin bir hissəsidir

. Elmi-texniki naliyyətlər, əmtəə istehsalçıların rəqabəti sənaye istehsalında yaradılan qiymətli əşyaların əsas funksyalarına qədər stematik dəyişilməsi baş verir. Elmi-texniki naliyyətlər, əmtəə istehsalçılarının rəqabəti sənaye istehsalında yaradılan qiymətli əşyaları daimi təkmilləşdirməyə dəvət edir. Funksiyalılıq sənaye məhsulunun təkmilləşdirilməsinin başlıca istiqamətidir. Beləliklə, eyni vaxtda məhsulların ekoxarakteristikası, onların istehsal və istehlakın texnologiyaları yaxşılaşır. Yenilklər texnikanın və texnologiyaların müasir nəslini ekotəsirini, sənaye məhsulu istehlakçısının dünyagörüşlərini əhatə edir. Duz, parça, paltaryuyan maşın, tozsoran və başqa məşhur məhsullarda yeni funksiyalar meydana gəlir. Aparıcı ölkələrin alimlərinin bazardan gözlədikləri proqnozları bu istiqamətdə ekoinkişafın bir sıra yeniliklərini aşkarlayır.

Bizə belə gəlir ki, bizim ölkəmizin sərəncamında olan miniral-xammal resurslarına yenidən baxmaq çox yerinə düşür, hansı ki, XXI əsrdə onların əhəmiyyəti sözsüz artacaqdır.

Qanunverici üstünlük və məhdudluq. Ekoloji davranış tənzimləyiciləri kimi baza institutları və cəmiyyətin təşkilatları çıxış edir. Təbii ki, onların milli və dövlət xüsusiyyətləri vardır. Bir qayda olaraq onlar konkret şəraitdə mövcud olan müxtəlif tarixi-mədəni ukladlara əsaslanır. Konkret xalqın formalaşdığı təbii iqlim xüsusiyyətləri də xüsusi əhəmiyyətə malikdir. Tənzimləyici ilkin şərtlər və məhdudiyyətlər və xüsusilə onların reallaşdırılması təcrübəsi bu asıllıqları əks etdirir. Bütövlükdə bunu dörd postulatda (fərziyyədə) ifadə etmək olar. Birincisi, ekoinkişaf keçmişdə xalqların, ölkələrin, təbiətin istismarı əsasında qururdu. İkincisi, bu gün biz belə hallarla rastlaşırıq ki, insanların mənəvi-etik, dini ekodüşünçüləri intensiv dəyişilir. Üçüncüsü, ekoəlaqələrin təbii-iqlim xarakteristikaları konkretləşir. Dördüncüsü, stimulların, imkanların və məhdudiyyətlərin təsnifatı daha çox konkretlik qazanır. Onların praktiki reallaşdırılması mexanizmləri sistematik olaraq yenidən işlənir və daha çox qlobal xarakter alırlar.

Təbiətdən istifadə və ekoloji problematika problemləri üzrə qanunvericilik təcrübəsinin vaxt və başqa müqayisəli parametrlər üzrə öz xüsusiyyətləri vardır. Beynəlxalq təcrübə mənbəyi kimi təhlil Yaponiyada, İngiltərədə, ABŞ-da və başqa ölkələrdə çox maraqlı məsələləri görməyə imkan verir. Bir çox tədqiqatçıların fikrincə artıq qanunvericiliyin formalaşmasının bir neçə mərhələsini və pilləsini ayırmaq mümkündür. Tullantılarla davranışın dövlət tənzimlənməsi əsaslarının işlənib hazırlanmasının birinçi mərhələsinin əsas mahiyyəti inzibatiləşdirməkdir. İkinci mərhələdə iqtisadi təsir tədbirləri əsas olur. Nəhayət, 1966-cı ildə AFR-da istehsalın həyat silsilələri haqqında qanunun qəbul edilməsi ilə həyat fəaliyyətinin bütün problemləri kompleksinin və amillərinin hərtərəfli nəzərə alınması həlledici təmayülə çevrilir.

Lakin hər bir ölkədə qanunların qəbul edilməsi təkrarlanmır və xeyli dərəcədə orijinaldır. Özgələrin qanunlarının

surətlərinin çıxarılması az səmərəli olmaqla yanaşı, sadəcə olaraq zərərlidir. Hakimiyyətin, onun bütün qollarının və ictimai şüurun səviyyəsi və qarşılıqlı fəaliyyətin təsirliliyi, habelə, konkret ictimai qurumların həyat fəaliyyətinin vətəndaş formalarının mədəniyyəti və qanuna əməl etmələri qanunların reallaşdırılmasının ən mühüm məqamıdır.

İctimai istehsalın ekoloji xarakteristikalarının əhəmiyyəti artıqca qanunvericilik təcrübəsi presedentlərlə (misal) doldurulur ki, onlar da qanunvericiliyin təsirliliyini artırır. Cinayət məsuliyyətinə cəlb etmə artıq nadir hal deyildir. Bununla belə müxtəlif ölkələrin qanunvericilik qaydaları daha çox aşkar olur, qanuna riayət etmənin stimullaşdırılması mexanizmlərində dəyişikliklər daha çox ümumi xarakter alır. Buna əlavə edək ki, ekoloji cinayətlər və onlara görə cavabdehlik daha çox sosial əhəmiyyət və siyasi cəlbedicilik kəsb edir.

Standartlaşdırma. Milli və xüsusilə beynəlxalq ekoloji standartlar ictimai inkişafda böyük konstruktiv rol oynayır. Standartlar – şərtləri, sertifikatları və lisenziyaları əks etdirən sənədlərdir. Standartlar bazar münasibətlərində daha əlverişli iştirakının hüquqi əsaslandırılması olmaqla onlara riayəti təsdiq edirlər. Bununla bərabər söhbət konkret sazişlərin ilkin şərtlərini pozmadan rəqabətqabiliyyətli tərəfdaşlarla bərabər şərtlərlə iştirakdan gedir. Çox qısa müddətdə ekoloji xarakteristikalar sənaye standartlarının məcburi elementinə çevrilir.

Dövlət standartlaşdırma sistemləri müxtəlif ölkələrdə fərqlənir. Lakin onların inkişafı istehsal edilən malların və xidmətlərin möhkəmliyini və rəqabətədavamlığını təmin edən güclü stimullaşdırıcı amili kimi çıxış edir. Onlar yalnız istehsalın yox, həm də dünyanın həyat fəaliyyəti üçün güclü təşkiledici amilə çevriliblər.

Dövlət standartlaşdırma sistemləri müxtəlif ölkələrdə fərqlənir. Lakin onların inkişafı istehsal edilən malların və xidmətlərin möhkəmliyini və rəqabətədavamlılığını təmin edən güclü sistemləşdirici amil kimi çıxış edir. Onlar yalnız istehsalın yox, həm də dünyanın həyatfəaliyyəti üçün güclü təşkilediçi amilə çevriliblər. Onların arasında Avropa və Amerika standartlaşma sistemləri daha çox inkişaf tapmışdır. İctimai müna-

sibətlərin inkişafı həmçinin möhkəm inkişaf istiqamətində hərəkitini təmin etmək üçün öz baza elementlərinə nail olur. Bu keçmişin üstün texniki standartlarının yaradılmasından sosial və siyasi standartların işlənib hazırlanmasına keçilməsinin institusional metodologiyasına sürətlə keçidində özünü göstərir. Standartlaşdırma rakusunda ekalogiyalaşdırma bu gün öz təzahürünü tapmış, xüsusilə ona görə ki, Aİİ-nın standartları dövlət sərhədlərini aşmış və beynəlxalq standartlara çevrilir. Hazırki dövrə qədər beynəlxalq baza standartları (İSO-900 və 14000) yaradılmışdır.

Ağır şəraitdə idarəetmə. İstehsal proseslərinin və istehsalın mürəkkəbləşməsi və inkişafı ilə əlaqədar hadisələrin müxtəlif səviyyələrdə ağır situasiyalara risk artır. Mənfi ekoloji halların aradan qaldırılması adətən qoruyuçu tədbirlər görməkdən xeyli ucuz başa gəlir. Sənaye tarixində baş vermiş fəlakət, qəza, bədbəxt hadisələrin iri siyahısı tədbirlərin həyata keçirilməsi təcrübəsini ümumiləşdirmək əsasında ixtisaslaşdırılmış bölmələri yaratmaq üçün zəngin material vermişdir.

Xilasedici işlərin həyata keçirilməsinin həmişə özünəməxsus xüsusiyyətləri vardır. Buna görə də onları müvəfəqiyyətlə həyata keçirmək üçün bəşəriyyət (insanlar) ixtisaslaşdırılmış texnikanı yaratmaq üzərində işləyir, daha səmərəli texnologiyaları öyrənir (məşq edir), son zamanlarda isə praktiki olaraq bütün dünya ölkələrində mütəxəssislər hazırlanır və daimi məşq edirlər. Bu təbiidir. Belə işin peşəkar iştirakçılarının seçilməsi mütləqdir.

Hərbi əməliyyatların həyata keçirilməsi təcrübəsi fəaliyyətin zəruri üsullarını, formalarını və metodlarını öyrənməyə (məşq etməyə) kömək edir. Burada hər şeydən əvvəl ona əsaslanırlar ki, ekomenecment və riskmenecmenti qarşılıqlı təsirliliyin (nüfuz etmə) intensiv dinamikasına görə fərqlənir. Bununla belə risk-menecmentinin mahiyyətinə, psixoloji təəssüratlarına görə öz xüsusiyyətləri vardır ki, buna xüsusi diqqəti cəlb edirlər. Nəticədə tez reaksiya verən qüvvələr hər yerdə yaradılır, «Qırmızı xaç» və başqa təşkilatlar cəmiyyətin vacib elementlərinə çevrilirlər. Çernobilin, indi isə Nyu-Yorkun və Vaşinqtonun dərslər ekoinkişafın qayğısızlıq (səhlənkarlıq) səviyyəsini blokadaya almasalar cəmiyyətdə üz verə biləçək

təhlükəni düşünməyə məcbur edir. Aydın olmuşdur ki, mümkün olan (gözlənilən) texnogen və təbii fəlakətlərlə yanaşı cəmiyyət ayrı-ayrı şəxslərin və cürbəcür birliklərin cinayətkar hərəkətlərinin qarşısını almağa hızır olmalıdır.

Sənaye təbiətimühafizə təcrübəsi. Sənayenin fəaliyyəitindən ekoloji nəticələrin dəyişilməsi meylləri müxtəlif ölkələrdə köklü şəkildə fərqlənir. Ən inkişif etmiş ölkələr öz ölkələrində ekoloji vəziyyəti yaxşılaşdırmaq istiqamətində keyfiyyətli iri addımlar atmışlar. Çoxlu «çirkin» istehsal bağlanmış, keyfiyyətcə yenidən qurulmuş və milli sərhədlərdən kənara çıxarılmışdır.

Son illərdə «Qızıl milyard» ölkələrində texnoloji yeniləşmə yalnız iqtisadi amillərin təsiri altında yox, həm də bir sıra başqa səbəblərlə bağlı həyata keçirilir. Belə ki, Amerika sənayesi qısa müddətdə xlorlu, rəngsiz karbon qazlarından imtina etmiş və onların əvəzedicilərini buraxmağa başlamışdır. Planetin ozan qatını qorumaq üçün öz miqyasına görə böyük, çox baha qiymətli nəhəng işlər görülmüşdür. Lakin planetin ozan sipərini saxlamaq üçün hamıya lazım olan, ancaq heç kəsə məxsus olmayan ilkin şərtləri yaratmaq mümkün olmamışdır. Fikrimizcə Yer kürəsinin canlılarının davranışı və yeni ictimai ekoloji təfəkkürü formalaşdırma təcrübəsi üçün beynəlxalq yenidənqurma və inkişaf bankının təcrübəsinin mühüm əhəmiyyəti vardır. O, 1986-cı ildən ekoloji layihələrin kreditləşdirilməsini həyata keçirir. Qeyd olunanlar təbii anlayışda onu göstərir ki, bütövlükdə qlobal sabit inkişafı təşkil edən problemlərin, resursların və fəaliyyət sferaların məzmunu və qarşılıqlı əlaqələr planetimizdə aktiv yeni məzmunlu əlaqələrlə və institusional mexanizmlərlə zənginləşdirir (doldurur). Onların mürəkkəbliyinin və kəmiyyətinin (miqdarının) sabit artıma meyli vardır. Ən sadə vəziyyətdən mürəkkəb və daha çox mürəkkəb sistemlərə keçirlər.

Suallar və tapşırıqlar:

1. Son illərdə cəmiyyətdə təbiətdən istifadənin hansı sferaların mənimsənilməsi istiqamətləri və miqyası yaranmış və dövlətin idarəetmə predmeti olmuşdur?

2. Rusiyada və dünyada dövlət necə dəyişilir? Qlobal bazar baş verən dəyişikliklərə necə təsir edir?

3. Sabit inkişafla təbiətdən istifadə arasında əlaqələri izah edin. Rusiyanın üstünlüyü nədədir?

4. Geniş təkrar istehsal prosesinə dövlətin təsiri formalarını və metodlarını açıqlayın. Burada institusional sferanın rolu və əhəmiyyəti nədən ibarətdir?

5. Nə üçün təbiət-cəmiyyət-dövlət-insan sisteminin inkişafının institusional mexanizmlərini öyrənmək vacibdir?

6. Bazar institutlarının formalaşması rusiya iqtisadiyyatının sistemli dəyişilməsinin hakim (əsas) həlqəsidir? Öz fikrinizi əsaslandırın.

© Жалов В.Й., 2002.

XXXIII Fəsil

RUSİYANIN XARİCİ İQDİSADİ SİYASƏTİ

1.Xarici iqdisadi siyasət nədir?

Xarici iqdisadi siyasət dövlətin başqa ölkələrlə iqdisadi münasibətlərinin inkişafı və tənzimlənməsi sahəsində fəaliyyətdir. Onun əsas vəzifəsi təsərrüfatçı subyektlərin fəaliyyəti prosesində beynəlxalq əmək bölgüsü və koperasiyalaşmada ölkənin səmərəli iştirakı üçün ölkədə geniş təkrar istehsal prosesi üçün əlverişli xarici iqtisadi fəaliyyəti formalaşdırmaqdan ibarətdir.

Xarici iqtisadi siyasət həmçinin müxtəlif ölkələrlə və regionlarla xarici iqtisadi əməliyyatların balanslaşdırılması, konkret xarici iqtisadi fəaliyyət subyutlərinin başqa dövlətlərin oxşar təşkilatları ilə təsərrüfat qarşılıqlı əlaqələrinin optimallaşdırılması, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi vəzifələrini də yerinə yetirir.

Dünya təsərrüfatının qloballaşması şəraitində xarici iqtisadi siyasətin üstün məqsədlərindən biri Rusiyanın dünya iqtisadiyyatına qovuşmasını məhdudlaşdırmaqdır. Burada milli iqtisadi mənafelərin həlledici əhəmiyyətinə riayət etmək lazımdır. Bu məqsədlə təsərrüfat kompleksində planauyğun və ardıcıl həyata keçirilən mütərəqqi struktur dəyişiklikləri, Rusiyanın beynəlxalq informasiya və innovasiya bazarlarına çıxışı,

xarici ticarətin struktur geriliyinin aradan qaldırılması və əlverişli investisiya iqliminin formalaşdırılması zəruridir.

Xarici iqtisadi siyasət strategiyası müxtəlif ölkələrə və regionlara münasibətə uyğun, həm bütünlükdə ölkə üzrə, həm də onun regionları üzrə işlənib hazırlanır və reallaşdırılır. Müasir şəraitdə regionlar səviyyəsində qüvvədə olan beynəlxalq hüquqa və Rusiyada formalaşan hüquq fonuna əsaslanaraq sərhədyanı ticarət çərçivəsində qarşılıqlı partnyorluq münasibətlərinin formalaşması xüsusi əhəmiyyət kəsb edir. Xarici iqtisadi siyasət konsepsiyası, həmçinin onun həyata keçirilməsi taktikasını, yəni məqsədlərə çatmaq və alınan nəticələri qoruyub saxlamaq üçün metod və vasitələrin məcmunu da əhatə edir.

Xarici iqtisadi siyasət daxili siyasətlə qırılmaz əlaqədədir. Birincisi milli dövlət sərhədlərindən kənarda ikincinin məntiqi davamıdır. Amma vəzifələrin müxtəlifliyi və vacibliyi şəraitində xarici iqtisadi siyasətin əsas vəzifəsi dövlətin seçdiyi təsərrüfatçılıq modelindən asılı olmayaraq ölkədə təkraristehsal prosesinin inkişafı üçün əlverişli iqtisadi mühiti formalaşdırmaq olmuş və olmaqdadır. Rusiyada təsərrüfatçılığın yeni tipinə keçid vətən iqtisadiyyatının dünya, daxili bazarın xarici ilə qarşılıqlı fəaliyyətinin keyfiyyətcə yeni əsaslarının formalaşmasını məntiqi şərtləndirir. Burada ölkənin inkişafında xarici iqtisadi amilin rolu köklü şəkildə artır və mürəkkəbləşir. Bu da öz növbəsində Rusiyanın xarici bazarlarından qarşılıqlıasıllığının əsaslı dəyişilməsində, xairci partnyorlarla qarşılıqlı fəaliyyət xarakterinin və mexanizmlərinin dəyişilməsində öz əksini tapır. Məhz bu, xarici iqtisadi siyasətin işlənib hazırlanmasının yeni prinsiplərini və metodlarını irəlicədən müəyyən edir.

Yuxarıda qeyd olunanlardan əlavə müasir şəraitdə xarici iqtisadi siyasət konsepsiyasının işlənib hazırlanması spesifikası, həmçinin səmərəli və ölkənin xarici əlaqələrdə iştirakı üçün perspektiv əhəmiyyətə malik sfera və formalarının üzə çıxarılması zərurətindən irəli gəlir. İqtisadi əməkdaşlıq üçün (hansı ölkələrlə və hansı şərtlərlə, birinci və ikinci növbəli məqsədləri ciddi fərqləndirməklə) strateji cəhətdən mühüm geosiyasi, coğrafi, regional üstünlüklərini seçmək də həmçinin müstəsna

əhəmiyyətə malikdir. Bu prosesdə Rusiya Federasiyası subyektlərinin və dövlət səviyyəsində onların fəaliyyətinin əlaqələndirilməsinin optimal iştirak dərəcəsini aşkara çıxarmaq kimi amil Rusiya üçün xüsusi əhəmiyyət kəsb edir.

Rusiyanın xarici-iqtisadi siyasətinin ***əsas prinsipləri*** müstəqillik, aşkarlıq hüquqbərabərliyi, beynəlxalq müqavilələrinin üstünlüklərinin təsdiq edilməsidir.

Xarici iqtisadi siyasətin məqsədləri birmənalı qısa və dürüst ifadə etmək olmaz. Bunlardan başlıcası Rusiya Federasiyasının milli xarici iqtisadi mənafelərinin səmərəli müdafiə sisteminin formalaşdırılmasından, xarici əmtəə, xidmət bazarlarında onun subyektlərinin təsərrüfat fəaliyyətinin intellektual mülkiyyət və informasiya texnologiyaları hüquqlarının müdafiəsindən ibarətdir.

Xarici iqtisadi fəaliyyət həmçinin xarici rəqiblərlə milli subyektlərə bərabər təsərrüfat fəaliyyəti hüququnu və imkanlarını təmin etməyi tələb edir. Onlara dünya əmtəə, xidmət, intellektual mülkiyyət və informasiya texnologiyaları, kapitallar və nəqliyyat kommunikasiyaları bazarlarına yol açmaq lazımdır. Bununla belə yaddan çıxarmaq olmaz ki, yüksək əlavə dəyər payı ilə məhsulların ixracının genişləndirilməsinin ardıcıl reallaşdırılması prosesində onların siyasi informasiya və maliyyə yardımına son dərəcədə ehtiyacı vardır. Bu, xüsusilə ciddi nəzarətdə olan və praktiki olaraq inhisarlaşdırılmış iri transmilli karporasiyalara və ya onların oliqopoliyalarına habelə ayrı-ayrı dövlətlərin və ya onların ittifaqlarının ciddi mühafizə olunan himayədarlıq tədbirləri həyata keçirən bazarlara aiddir.

Bu məqsədlə xarici ölkələrdə və müxtəlif ticarət-siyasi və iqtisadi qruplaşmalarla, təşkilatlarla, ittifaqlarla münasibətlərdə əlverişli ticarət – siyasi rejimə nail olmaq lazımdır. Mövcud və ya potensial güman edilən hüquq pozuntularının, ticarət-iqtisadi manelərin məhdudlaşdırılması və ya aradan qaldırılması məsələləri vaxtında həll edilməlidir. Kreditor və borclu ölkələrlə valyuta-maliyyə və kredit münasibətlərinin uzunmüddətli qaydaya salınması da mühüm əhəmiyyət kəsb edir.

Bunun üçün beynəlxalq təşkilatların və birliklərin (Paris və London klubları, sığorta kompaniyaları və s.) hüquq və imkanlarından, habelə hökumət və korperativ səviyyədə ikitərəfli kontraktlardan istfadə etmək faydalıdır.

Xarici iqtisadi siyasət nəyi özündə əks etdirir? Onun tərkib elementləri nədir? Bu xarici ticarət sferasında siyasət, xarici investisiyaların cəlb edilməsi və rusiya kapitalının milli gömrük sərhədlərindən kənara investisiyalaşdırılması siyasəti, habelə valyuta siyasətidir. Əgər bu belədirsə, onda **xarici iqtisadi fəaliyyətin** dövlət tənzimlənməsi obyekti xarici iqtisadi fəaliyyət olur. Sonuncu daxili bazarda əldə etmək mümkün olmayan iqtisadi faydanı və maksimum mümkün olan səmərəni təmin etmək məqsədilə milli təsərrüfat subyektlərinin xarici ölkələrin təsərrüfatçı subyektləri ilə iqtisadi, təşkilati-hüquqi əməliyyatların və sazişlərin məcmunu özündə əks etdirir.

Xarici iqtisadi fəaliyyətin mühüm komponenti xarici ticarətdir, daha doğrusu, əmtəələrin, xidmətlərin, sənaye mülkiyyəti hüququnun, habelə, maddi, əmək, maliyyə və intellektual resurslarının yerdəyişməsidir. Xarici ticarət əmtəələrin, xidmətlərin və sənaye mülkiyyətinin reallaşdırılması və satın alınması kanalıdır, hansı ki, ondan istifadənin məqsədəuyğunluğu əmtəələrin və xidmətlərin həyat dövrünün müddətləri və istehsal xərclərinin səviyyəsinin müqayisəsi əsasında müəyyən edilir. Belə ki, ixracda milli gömrük sərhədlərindən kənara satılan malların istehsal olunmuş (məsələn ölkənin ərazisində bu və ya digər istehsalın təşkilinin qeyri səmərəliliyi şəraitində) malların və xidmətlərin satın alınması daha çox mənfəətlidir.

Hal hazırda bir çox dövlətlərdə mövcud olan xarici ticarət alətlərinin arsenalı onlara **xarici iqtisadi əlaqələrin** strukturun və istiqamətlərinin formalaşmasına aktiv təsir göstərməyə imkan verir. Sonuncular müxtəlif ölkələrin dövlət hakimiyyəti orqanları səviyyəsində iki və çoxtərəfli müvafiq beynəlxalq sazişlər, müqavilələr, protokollar və s. əsasında sənədləşdirilən iqtisadi-hüquqi münasibətləri özündə birləşdirir.

Rusiya təsərrüfatının ardıcıl olaraq transformasiyası şəraitində hər bir struktur həlqəsində xarici iqtisadi siyasətin

reallaşdırılması mexanizmi konkret funksiyaları yerinə yetirir. Bu mexanizmin köməyi ilə dövlətin üstün rolu həyata keçirilir. Bu kömrük-tarif və qeyri-tarif tənzimlənməsi, investisiya axınlarının hərəkəti alətlərinin köməyi ilə işlənib hazırlanan sahələrin və regionların inkişafı siyasətidir. Xarici iqtisadi mexanizm firma və müəssisələrin xarici iqtisadi fəaliyyətinin struktur yenidənqurulmasını formalaşdırır. Burada məqsəd xarici ticarət əməliyyatlarını ümumi təsərrüfat strategiyasına üzvi sürətdə birləşdirməkdir. Xarici ticarət amili təsərrüfat subyektinin inkişaf taktikası və başlıca təsərrüfat kursunun müəyyən edilməsi üçün üstün (birinci) ola bilməz. Başqa sözlə əməyin beynəlxalq bölgüsü və kooperasiyasının üstünlüklərindən istifadə edilməsi milli xalq təsərrüfatı kompleksinin inkişafı vəzifələrinə tabe olmalıdır. Xarici iqtisadi siyasət mexanizminin bölgü funksiyası vardır. O, müvafiq orqanlar və idarələr arasında xüsusilə də mərkəz və regionlar (bu xüsusilə vacibdir) səviyyəsində səlahiyyətləri dəqiq bölüşdürür və ayırır.

Nəhayət, stimullaşdırıcı funksiya. Bu, dövlətin xarici siyasətinin mühüm tərkib hissəsidir. O, rusiya istehsalçılarının yeni əmtəə və xidmət bazarlarında **idxal ekspansiyası** (genişlənməsi) üçün əlverişli şərait yaratmağa, habelə, onları elmtutumlu, texnoloji cəhətdən qabaqcıl məhsulların buraxılışına istiqamətləndirir.

2. Struktur həlqə

Xarici ticarət siyasəti idxal, ixrac əməliyyatlarının iqtisadi səmərəliliyini artırmaq məqsədilə onların tənzimlənməsi üzrə dövlətin təsiredici tədbirlər kompleksini əhatə edir. Bu məqsədə dövlətin işləyib hazırladığı təsərrüfatın inkişaf konsepsiyası əsasında nail olmaq olar. Sonuncu dünya təsərrüfatının qloballaşması çərçivəsində milli iqtisadi mənafelərinin və milli iqtisadi təhlükəsizliyin üstünlüyünü təmin etmək iqtidarındadır.

Xarici ticarət siyasəti dövlət xarici ticarətdə mənfi saldoya yol verməməyə çalışdıqda ixrac idxaldan az olduqda avtorki-

yaya və ya öz gücünə dayaq ola bilər. Bu halda milli gömrük sərhədini keçəndə əmtəələrin, xidmətlərin, kapitalların hərəkətinə güclü nəzarəti həyata keçirir. Bu cür siyasət bir qayda olaraq totalitar dövlətlərə aiddir. Onun geniş kütlə tərəfindən bəyənilməsi, milli müstəqilliyinin itirilməsi qorxusu, ölkənin iqtisadi cəhətdən daha inkişaf etmiş dövlətlərin xammal təchizatçılarına çevrilməsi qorxusuna söykənir. Buradan belə qənaətə gəlmək olar ki, mövcud daxili resurslardan texniki-texnoloji potensiallardan, pul vəsaitlərindən asılı olaraq özünüməhdudlaşdırmanın və «kəmərlərin dartılması»nın təbliğatı irəli gəlir.

Bu cür yol çox vaxt hərbi sənaye sferasına büdcə xərclərinin artdığı şəraitdə daxili bazarda geniş istehlak olunan əmtəələrin və məhsulların qıtlığı ilə birbaşa əlaqədardır. Geniş xalq kütlələrinə bunu adətən xarici təhlükənin daim artması ilə əlaqədar ölkənin yüksək müdafiə qabiliyyətinin saxlanması zəruriyyəti ilə izah edirlər. Bu cür kompensasiyanın xarakterik əlaməti xarici ticarət sazişləri sistemində idxal əməliyyatlarının üstünlüyüdür. Bu onunla izah olunur ki, idxal milli istehsalda bu və ya digər əmtəə və ya xidmət qıtlığını aradan qaldırır, belə ki, idxal üzrə alış, ölkə daxilində istehsala nisbətən iqtisadi cəhətdən daha çox sərfəlidir.

Bu cür vəziyyətdə ixracın əhəmiyyətini idxal üçün «valyuta vəsaitləri mənbəini» səviyyəsinə qədər aşağı düşür. Beləliklə, ixrac artan şəraitdə praktiki olaraq idxal siyasətinin vəziyyətinə tabe edilmişdir. Bununla belə bütövlükdə ixrac fəaliyyətinin maliyyələşdirilməsi, kreditləşdirilməsi və stimullaşdırılması baxımından «qalıq prinsipi» faktiki hökmüranlıq edir. Son nəticədə bu geri qalmış xarici ticarət strukturuna, dünya bazarında ölkə istehsalçılarının rəqabətə davamlılığının itirilməsinə gətirib çıxarır. Real sektora innovasiyalar kəskin azalır və ölkə yavaş-yavaş xammal məhsullarının və ya cüzi emal edilmiş yarımfabrikatların tədarükçüsü dərəcəsinə düşür.

Xarici iqtisadi siyasət konsepsiyasının birbaşa əks olanı azad ticarətdir . O, maksimum liberrallaşdırmaya, xarici iqtisadi fəaliyyətin tənzimlənməsininin tarif metodlarından istifadə

edilməsinə, bu metodların azaldılmasına, əmək, kapitallar, əmtəə və xidmətlərin azad hərəkətinin tam təmin edilməsinə yönəldilmişdir. Dünya bazarlarında fəaliyyət normaları, qaydaları və şərtlərinin dövlətlərarası səviyyədə yavaş-yavaş unifikasiya (vahid şəklə salma) edilməsinə, investisiya – əmtəə axınlarının qarşılıqlı alətlərinin (tarif və qeyri tarif) təşkilinə istiqamət götürür. Azad ticarət siyasəti Avropa İttifaqı, NAFTA (ABŞ, Kanada, Meksika) və başqa tiplərdə regional inteqrasiya birliklərinin yaradılmasına əsaslanır.

Fritrederlik idxala sahələrin, regionların, sənaye ittifaqları və korporasiyaların təsərrüfat fəaliyyətinin baza tərkib elementləri kimi baxır. Tək bir ölkə səviyyəsində ixracın dünya iqtisadiyyatında xüsusi çəkisi milli təkrar istehsal prosesinin dinamikası, ayrı-ayrı təsərrüfat subyektlərinin başqa ölkələrin partnyorları ilə qarşılıqlı fəaliyyət səviyyəsi, istehsalçıların milli rəqabətədavamlılıq şəhadətnaməsi, nəhayət bütövlükdə ölkənin iqtisadi inkişaf meyllərini proqnozlaşdıran indikatorlardan biri hesab edilir. İdxalın strukturu və idxalın həcminin dəyişilməsi dinamikası milli təsərrüfatın açıqlığını və xarici iqtisadi fəaliyyətə dövlətin təsirinin səmərəliliyini sübut edən xarici ticarət sferasının dövlətlərarası tənzimlənməsində ölkənin iştirak səviyyəsi və etibarlılığını, ölkənin beynəlxalq əmək bölgüsü sistemində yerini və rolunu göstərən mühüm xarakteristika kimi baxılır. Beynəlxalq rəqabətdə reytinqin qiymətləri kifayət qədər yüksək olan sferalarda və sahələrdə ixrac ekspansiyası (genişlənməsi) strategiyası dövlətin xarici iqtisadi siyasətinin, baza elementi olur. Dünya meydanında xarici siyasəti həyata keçirən zaman istifadə olunan iqtisadi və siyasi arsenal ona tabedir.

Hər bir dövlətin xarici ticarət siyasəti ölkənin milli istehsalının və əhalinin mənafelərinin müdafiəsinə, ekoloji təhlükəsizliyinin qorunmasına və cəmiyyətin sosial inkişafının təmin edilməsinə istiqamətləndirməli, vergilərin ödənilməsinə və milli sərhədlərdən kənara kapitalın daşınmasına ciddi nəzarət təmin edilməlidir. Xarici ticarətdən qazanc ondan ibarətdir ki, o, əvvəllər bizim qeyd etdiyimiz amillərdən başqa müqayisə edilən ölkələr elə bil ki, stimullaşdırmaqla onların iqtisadi səviyyə-

lərini müqayisə etməyə imkan verir. Bununla da bəzi ölkələr artıq istehsaldan azad olur, digərləri isə iqtisadi tərəqqi üçün xarici təkan alır. Xarici ticarətin hər cür planlaşdırılmamış məhdudiyyətlər ölkənin iqtisadiyyatına mənfi təsir göstərir. Dövlət tənzimlənməsinin alətləri tarif və qeyri-tarif metodlardır, onları müvafiq olaraq səlahiyyətli dövlət təşkilatları və ya ictimai qurumlar reallaşdırır.[1]

Xarici ticarət siyasətində ən çox əlverişli ticarət rejimindən, preferensial rejimdən və himayəçilikdən istifadə olunur.

Ən çox əlverişlilik rejimi dövlətlərarası razılaşmalar əsasında müəyyən edilən adi ticarət rejimini ifadə edir. Bir qayda olaraq bu ikitərəfli əsaslarla, yəni ölkələr gömrük rüsumlarını toplayanda baza tarif stavkalarından istifadə edir.[1] Gömrük tarifi sistemləşdirilmiş gömrük rüsumları siyahısındadır ki, onlardan əmtəələrin idxalında və bəzi hallarda isə ixracında istifadə olunur. Gömrük rüsumu fiksal funksiyanı yerinə yetirir. O, milli gömrük sərhədini keçən zaman və ya xarici ticarət sazişlərində tutulur. Nəticədə idxal olunan əmtəənin qiyməti artır.

Himayədarlıq xarici ticarətin tənzimlənməsində iqtisadi metodlardan istifadə etdikdə qeyritarif xarakterə üstünlük üzrə tədbirlər sistemini özündə birləşdirir. Bu sistem milli bazarı və istehsalçıları bu cür və ya buna oxşar məhsulları istehsal edən xarici istehsalçıların rəqabətindən qorumağa yönəltmişdir.

Xarici iqtisadi fəaliyyətin sivil tənzimlənməsi şəraitində himayədarlıq metodları inhisarçılığı tətbiq edənə qədər dövlətlərlə – partnyorlarla razılaşdırılmış dövrə dəqiq müəyyən edilir. Daha yüksək gömrük rüsumlarından əldə edilən əlavə

---

[1]. В.Перская «Внешнеэкономическая деятелность: специфика, государственное регулирование» М.Петровскй двор, 1998.

[1.] В рамках Всемирной торговой организации (ВТО) между странами на многосторонней основе существует режим наибольшего благоприятствования. Он преследует цель обеспечения взаимовыгодного экономиического партнерства на недискриминационной для каждой страны основе. – *Прим. авт.*

vəsait elə istehsala yardım üçün istiqamətləndirilir ki, onların xətrinə ticarət tədbirləri həyata keçirilir. Bu gün bir sıra ölkələr ticarət himayədarlığından geniş istifadə edirlər. Onun fərqli əlaməti gömrük rüsumlarından, tariflərdən və yığımlardan üstün istifadə edilməsidir.

Preferensia rejim bir qayda olaraq BMT və iqtisadi cəhətdən zəif, yardıma ehtiyacı olan ölkələrə görə onun təşkilatları səviyyəsində onların strukturunda hər il düzəlişlər edilir və ÜTT (ümumdünya ticarət təşkilatı) ilə razılaşdırılır. Bu halda bütün idxal idxalçı üçün rüsumsuz qalır və ya minimum gömrük rüsumu stavkası (məsələn 5%-dən artıq olmamaqla) tətbiq edilir.

Kapitalların hərəkəti. Xarici iqtisadi siyasət sferasında bu sahəyə milli yığımın genişləndirilməsi miqyasları, milli istehsalın artırılması (o cümlədən, ixracedən müəssisələrin inkişafı), əhalinin məşğulluğunun yüksəldilməsi daxildir. Kapitalın hərəkətinə, həmçinin hər şeydən əvvəl milli investor üçün əlverişli iqlim kömək edir, hansı ki, o daxili investisiya resurslarından məhsuldar istifadə etməyə imkan verir və kapitalın xaricə axınını faydasız etsin. Onun belə təzahürünü, yəni rusiyanın xalq təsərrüfatı kompleksində struktur dəyişikliklərinə təsirini də qeyd etmək lazımdır. Bura dünya əmtəə bazarları strukturlarında rəqabətqabiliyyətli, innovasiya istiqamətlənmiş istehsalatların idarəetmə təcrübəsindən istifadə, habelə təsərrüfatın inkişafını milli konsepsiyasına cavab verən idxal əvəzedicilərin düşünülmüş şəkildə tətbiqi daxildir. Kapitalın hərəkətində beynəlxalq əmək bölgüsü və kooperasiyası, habelə ölkənin iqtisadiyyatının dinamik inkişafının möhkəm ilkin şərtlərini yaratmaq məqsədilə kapitallar bazarının üstünlüklərindən məhdud istifadə etmək mühüm rol oynayır.

Xarici iqtisadi siyasəti müəyyən edən baxışlara həmçinin rusiya milli sərhədindən hərəkətinə nəzarət və tənzimləmə sisteminin formalaşması da daxildir. Söhbət xaricə ixrac olunmağa ayrılmış maşın texinki məhsulların- texniki servisinin genişlənməsindən, iqtisadi cəhətdən doğrultmuş ixracın Rusiyaya tədarükü üçün yeni müəssisələri yaratmaqla (və ya

nəzarətedicilər də daxil olmaqla səhm paketlərin) istehsal şəbəkəsinin genişləndirilməsindən gedir. Burada mövcud əmək bölgüsü proporsiyalarına istehsal xərclərinə və səhm xərclərinə əsaslanır.

Real konversiya, birbaşa investisiyalar, həm də London, Paris klubları, habelə müxtəlif beynəlxalq sığorta təşkilatları səviyyəsində müqavilə münasibətlərindən istifadə etmək hesabına Rusiya Federasiyasının xarici ölkələrdəki dövlət borclarının geri qaytarılmasının müxtəlif imkanlarından istifadə edilməsini nəzərə almaq lazımdır. Müxtəlif növ istehsalın, o cümlədən, xarici borcların qaytarılması ilə əlaqədar, habelə rusiyanın prinsipcə əla əsaslarla dünya iqtisadi sistemə üzv daxil olması şəraitində dövlətin investisiya potensiallarından məhsuldar istifadə etmək əsasında rusiya və xarici kapitalların möhkəm əlaqələrinin yaradılması olduqca səmərəli ola bilər.

Valyuta siyasəti. Xarici iqtisadi siyasət çərçivəsində valyuta siyasətinin aparılması ölkədə təsərrüfat sabitliyini aparmaq və valyuta kursuna və valyutanın dəyişdirilməsi üzrə əməliyyatlara təsir göstərmək yolu ilə bərabərhüquqlu partnyorluq şərtilə qarşılıqlı, əlverişli beynəlxalq əlaqələrin inkişafı üçün möhkəm əsasları yaratmaq məqsədini güdür. Bundan başqa valyuta tənzimlənməsi həm milli və xarici investorlar üçün, həm də valyuta bazarının sübyektləri kimi çıxış edən rezidentlər və qeyri-rezidentlər üçün sabit hüquqi mühit yaradılmasını nəzərdə tutur. Rusiyada valyuta siyasəti Rusiya Federasiyası, Mərkəzi bankın və Maliyyə Nazirliyinin kompetensiyasına (səlahiyyətinə) aiddir.

Tənzimləmə metodları arasında valyuta mədaxilinin bir hissəsinin məcburi satışı, həmçinin də razılaşdırılmış normativ kalendar günlərində hissə-hissə ödəmələrə icazə verildiyi hallarda Mərkəzi bankın məcburi lisenziyaları olması yayılmışdır. Mərkəzi bankın lisenziyası olduqda həm rusiya vətəndaşlarına, həm də hüquqi şəxslərə – rezidentlərə valyuta vəsaitlərinin (şəxsi vəsait daxil olmaqla) sərbəst keçirməyə icazə verilir. Halhazırda xarici iqtisadi xarakterə malik olmayan və başqa

ödəmə əməliyyatlarında xarici valyutanın tədavüldə olması qadağandır.

Valyuta tənzimlənməsində iqtisadi xarakterli və inzibati məcburiyyət tədbirlərindən istifadə olunur. Məsələn, idxalda kontrakt qiymətlərinin qanuniliyinə nəzarət funksiyası Rusiya Federasiyasının Dövlət gömrük komitəsi orqanlarına həvalə edilməsidir. Belə nəzarətin maqsədi heç də iqtisadi səmərililiyin artırılması vəzifələrindən, nə də rusiya idxalçıları üçün rəqabət mühitinin pozulması imkanlarının qabağını almaq cəhdlərindən irəli gəlmir. Hamısı fiksal vəzifələrə – idxal rüsumların toplanmasına gəlib çıxır. Bu məsələ adətən baha qiymətlə həll olunur. Bu gün Rusiya nə hüquqi, nə də kadr münasibətləri, nə işlərin təşkili və aparılması texnikasına görə, nə də beynəlxalq normaları, qaydaları, adətləri və s. cəhətdən xarici iqtisadi fəaliyyəti geniş liberallaşdırmağa hazır deyildir. Nəticədə idxal-ixrac əməliyyatlarının iqtisadi səmərəliliyi məsələləri təsərrüfat subyektlərinin iltizamında saxlanmışdır. Təcrübənin təsdiq etdiyi kimi bu, ölkənin təsərrüfat potensialına xeyli ziyan vurur.

Dünya təcrübəsində valyuta münasibətləri sferasına inzibati təsir tədbirləri valyuta əməliyyatlarının yalnız banklarda cəmləşdirilməsi imkanlarını, bu səlahiyyəti dövlət tərəfindən verilmiş (bir növ dövlət lobbisi kimi) nəzərdə tutur. İdxalçılar üçün valyuta məhdudiyyətləri tətbiq edilir. O, hətta vətəndaşların şəxsi səfərlərində də ölkənin ərazisindən xarici valyutanın daşınmasına aid edilir. Valyutanın dəyişdirilməsinə məhdudiyyətləri əks etdirən və başqa müvafiq normativ aktlar mövcuddur. İqtisadi tədbirlərə valyutanı dəyişdirərkən əlavə vergilərin tutulması, milli və xarici valyutaların fəaliyyətindən gəlirlərə, xarici valyuta formasında investisiyalaşdırdıqda rezidentlərin və qeyri-rezidentlərin müxtəlif cür imtiyazlaşdırılması və başqa gəlirlərə gəlir vergisi stavkalarının tətbiqi aiddir.

3. Federal səviyyədə xarici iqtisadi siyasət

Müasir şəraitdə xarici iqtisadi fəaliyyəti tənzimləyən vahid hüquqi akt kimi «Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında» federal qanun çıxış edir. Lakin bu qanunun əsasnamənin «inkişafı» təcrübəsini nəzərdə tutulur. Belə ki, Rusiya Federasiyasının ayrı-ayrı subyektlərinə xarici təsərrüfat fəaliyyət sferasında eksklüziv hüquq verilir. Səlahiyyətlərin sərhədələri üzrə müvafiq sazişlər bağlanır ki, bunların sayı daim artır.

Federal səviyyədə xarici iqtisadi siysətin hansı vəzifələri həll olunmalıdır? Onlara Rusiyanın və onun regionlarının xarici iqtisadi siyasət konsepsiyası, strategiyası və əsas prinsipləri, həmçinin də, ölkənin vətəndaşlarının və təsərrüfat vahidlərinin, habelə, milli dövlət sərhədlərindən kənarda qallmaları da daxil etməklə iqtisadi təhlükəsizliyinin və mənafelərinin müdafiəsi daxildir. Qeyd edək ki, xarici iqtisadi fəaliyyətin tənzimlənməsində tarif və qeyritarif xarakterli metodlardan istifadə olunur. İdxal və ixracın sertifikatlaşdırılması sahəsində vahid dövlət siyasətinə, kapitlalların milli dövlət gömrük sərhədi vasitəsilə hərəkətinə və valyuta gəlirlərin daxil olmasına valyuta nəzarətinə xüsusi fikir verilir.

Federal hakimiyyət əmtəələrin daşınması prosesində bütövlükdə dövlətin və onun regionlarının ətraf mühitə və əhali üçün zərərsizliyi və ya təhlükəsizliyinin meyarları və standartlarının ölkə ərazisi üzrə vahid sisteminin tətbiqi məsələlərini idarə edir. O bu proseslərə nəzarət qaydalarını tətbiq edir, gömrük siyasətini, hüquqi tənzimləməni həyata keçirir, gömrük işinin digər sferalarına rəhbərlk edir. Federal səviyyədə, valyuta tənzimlənməsi və valyuta nəzarəti problemləri həll edilir, dövlətlərarası münasibətlər çərçivəsində ödəmə-hesablaşma münasibətləri sistemi tənzimlənir. Bura həmçinin silahların, hərbi məhsulların və texnologiyaların, habelə ikili təyinatlı məhsulların idxal-ixracı, hərbi xarakter daşıyan və ya istehsal təyinata malik məhsulları, digər məhsullar istehsal edən obyektlərin quraşdırılmasında texniki yardım qaydaları müəyyən edilir.

Federal hakimiyyət orqanlarının səlahiyyətlərinə parçalanan materialların zəhərləyici, partlayıcı, zəhərli psixotrop maddələrin, narkotiklərin, bioloji və genetik aktiv materialların, kökü kəsilməkdə olan heyvanların, bitkilərin, hissələrin, törəmələrin idxal-ixrac qaydasını, habelə onlardan istifadə qaydasını müəyyən etmək aiddir. Onlar qorxulu tullantıların gətirilməsi, aparılması və istifadəsinə, strateji mühüm əmtəələrin və xidmətlərin ixracı, habelə qiymətli materialların, daşların və onlardan hazırlanmış məmulatların aparılması və gətirilməsinə nəzarət edirlər. Federal səviyyədə dövlət kreditlərinin verilməsi problemləri həll edilir, iqtisadi yardım və texniki kömək də daxil olmaqla xarici borcların son həddi müəyyən edilir, istiqrazların, kreditlərin alınması və onlardan istifadə edilməsinə dair beynəlxalq müqavilələr və sifarişlər bağlayır (o cümlədən federasiya suybektləri səviyyəsində). Eyni fikir Rusiya Federasiyası Hökumətinin zəmanəti altında bank, kommersiya kreditlərinin cəlb edilməsi və onlardan istifadə edilməsinə nəzarət haqqında da demək olar. Federal hakimiyyət müvafiq olaraq xarici borcları idarə edir, xarici borcların qaytarılması işini təşkil və nəzarət edir.

Federal orqanların vəzifələrinə tədiyə və əmtəə balanslarının vəziyyətinə nəzarət, xarici istehsal (portfel və birbaşa) investisiyaların cəlb edilməsinin ümumi dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi, rusiyanın xaricə kapital investisiyalaşdırılmasını tənzimləmək və nəzarət etmək, habelə xaricdə rusiya dövlət mülkiyyətinə sahib olmaq və istifadə etmək daxildir. Rusiya Federasiyasının bütün ərazisi üçün vahid və məcburi statistik hesabatların müəyyən edilməsi də ümumifederal səlahiyyətə aiddir.

Qeyd olunan məqsəd və vəzifələrin reallaşdırılması funksiyası Ticarət və İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Dövlət Gömrük Komitəsinə, Mərkəzi banka, valyuta və ixrac nəzarəti idarələrinə və başqa təşkilatlara həvalə edilmiş-

dir.[1] Xarici iqtisadi siyasətdə kompleks məsələlərdə Federasiya və onun subyektlərinin birgə idarəetmə sferası da mühüm tərkib elementi kimi çıxış edir. Bunlara regionların xarici ticarət fəaliyyətinin əlaqələndirilməsi (Rusiya Federasiyası subyektlərinin ixrac patensialının maksimum inkişafı və reallaşdırılmasını təmin etmək məqsədilə onların ixrac fəaliyyəti də daxil olmaqla) daxildir.

Xarici ticarət fəaliyyətinin regional və regionlararası proqramlar birgə formalaşdırılır və reallaşdırılır. Eynilə Rusiya Federasiyası subyektlərinin büdcə gəlirlərinin zəmanəti ilə xarici kreditlərin alınmasını, onlardan istifadəni və qaytalırmasını da qeyd etmək olar. Əgər büdcə dotasiyalıdırsa regionlar kreditin həcmini Rusiya Hökuməti ilə razılaşdırmalıdır.

Birgə idarə edilməsinə Rusiya Federasiyasının beynəlxalq müqavilələrinin və sazişlərin, onun subyektlərinin konkret mənafelərinə toxunan öhdəliklərin yerinə yetirilməsi, həmçinin azad iqtisadi zonların yaradılması və fəaliyyətin əlaqələndirilməsi, sərhəd zonası ticarətinin təzimlənməsi daxildir. Xarici ticarət fəaliyyətin informasiya təminatı ilə federal və regional orqanlar məşğul olur.

4. Regional komponentlər

Regional səviyyədə xarici fəaliyyətin aktivləşdirilməsi bazar iqtisadiyyatı şəraitində təsərrüfatın inkişafının obyektiv meylidir. «Xarici iqtisadi fəaliyyətin regionlaşdırılması» öz növbəsində onun, xüsusilə də xarici ticarətin səmərəliliyinin artırılması şərtidir. Bununla əlaqədar olaraq yerli təbii və xammal resurslardan səmərəli istifadə edilməsi, regionun və bütövlükdə dövlətin balanslaşdırılmış sosial-iqtisadi inkişafı mənafeyinə xarici iqtisadi fəaliyyətin

[1] «Экономика внешних связей России». Раздел 11. М.: БЕК, 1995;Перская В. Внешнеэкономическая деятельность: специфика, государственное регулирование М.: Петровский двор, 1998; Основы внешнеэкономических знаний/ Под.ред. И.П.Фаминского. М.: МО, 1994.

adekvat forma və növlərindən istifadə edilməsi kimi vəzifələr regional hakimiyyət orqanları qarşısında durur. Mərkəzlə Federasiyanın ayrı-ayrı subyektləri arasında səlahiyyətlərin bölüşdürülməsinə dair imzalanmış razılaşmalar çərçivəsində federal məqsəd və vəzifələri ilə əlaqələndirilmiş regional proqramların formalaşdırılmasına xüsusi əhəmiyyət verilir. Bir qayda olaraq, belə müqavilələr dövlətin funksiyalarının faktiki ayrı-ayrı subyektlərin səviyyəsinə göndərilməsinə imkan verən, müxtəlif regionların xeyrinə son dərəcə imtiyazlı bir sıra sövdələşmələri əhatə edir. Belə sövdələşmələrə Saxa-Yakutya ilə Tatarıstan Sverdlov vilayəti və yaxın başqa regionlar aiddir.

Belə eksklüziv səlahiyyətlərə malik olmayan başqa Federasiya subyektləri «Xarici ticarət fəaliyyətinin tənzimlənməsi haqqında» qanuna – vahid normativ akta ciddi əməl etmək məcburiyyətinə qaldığına görə xarici iqtisadi siyasətin reallaşdırılmasında çətin vəziyyətə düşürlər. O, xarici iqtisadi fəaliyyətin reallaşdırılması üzrə eyni hüquqlar verməklə qalan regionları bərabər şəraitdə qoyur. Xarici iqtisadi fəaliyyəti, xüsusilə də xarici ticarət münasibətlərinin səviyyəsinin aşağı olması həm gömrük işi sferasına, həm də xarici investisiyalardan məhsuldar istifadə edilməsinə xeyli ziyan vurur. Bir çox hallarda bu dünya bazarında Rusiyanın reytinqini aşağı salır.

Rusiya Federasiyasının təsərrüfat kompleksinin transformasiya şəraitində bir qayda olaraq xarici iqtisadi əlaqələrin təşkilində özünəməxsus xüsusiyyətlərə malik üç tip regionlar fərqlənir. Birincisi, aqrar sənaye və əmək ehtiyatları artıq olan rayonlar (Şimali Qafqaz, Stavropol və Krasnodar ölkələri, Rostov vilayəti və başqaları). İkincisi, mineral resursları və qiymətli metalların hasilatı üstün (Tümen vilayəti; Saxa – Yakut, Tatarıstan və başqaları) ərazilər. Üçüncüsu, yüksək urbanlaşdırılmış sənaye regionları (Mərkəz, Ural, Sibirin Cənubu, Uzaq Şərq, Primur və başqaları).

Birinci tip regionların əvvəllər daha çox yerli sənayeyə aid olmuş, tezözünü ödəyən istehsalı yaratmaq məqsədilə xarici və milli investorları cəlb etmək üçün real ilkin şərtləri vardır. Bunlar kənd təsərrüfatı məhsullarının emalı, ərzaq məhsulları

istehsalı, kənd təsərrüfatı istehsalının inkişafı, kənd təsərrüfatı məhsullarının saxlanması daxildir. Bu idxaldan asıllıq səviyyəsini yavaş-yavaş aşağı salmaqla ərzaq məhsulları istehsalını artırır. Bu regionlarda aqrarsənaye kompleksində əlavə iş yerlərinin, o cümlədən, yenidən qurulan və bağlanan istehsalatda azad olan və başqa yerdə yerləşdirilən müəssisələr üçün əlavə iş yerlərini açmaq real ilkin şərtlər vardır.

Hasiledici regionlarda milli və xarici sahibkarlar və investorlar üçün əlverişli istehsal-sahibkar iqlimli mühiti formalaşdırmaq zəruridir. Resursların çıxarılması, onların tənzimlənməsi və emalı xərclərini hər vasitə ilə azaltmağa çalışmaq lazımdır. Onları xarici bazarlarda reallaşdırmaq üçün bunlar mühüm tələblərdir. Bununla əlaqədar olaraq istehsal sahibkarlığının stimullaşdırılmasının müvafiq proqramlarının formalaşdırılmasını, yerli büdcələr çərçivəsində müsabiqə əsaslarla güzəştlər və preterensiya sistemindən istifadə etməyi təklif etmək olar. Bu qrup regionlarda təsərrüfat strategiyasının reallaşdırılmasının qeyri-tarif metodlarının köməyindən istifadə etmək lazımdır.

Urbanizasiyalaşdırılmış regionlarda iş daha çox mürəkkəbdir. Burada çoxdan güclü elmi-texniki potensiala malik şəhər təşkil edən müəssisələr sistemi cəmlənmişdir. Lakin konversiya proqramları çərçivəsində onların kökündən yenidən strukturlaşdırılması və profilininin dəyişdirilməsi qarşıda durur. Məhz bu regionlar innovasiya məhsulları ilə xarici bazarlara «çıxmağa» potensiala malikdir. Bununla əlaqədar bu regionlarda xüsusi təsərrüfat rejimli lokal ərazi zonaları, texnoparklar və innovasiya inkubatorları formalaşdırmaq məqsədəuyğundur. Onlar keyfiyyətcə yeni, son dərəcə az səmərəli xammal istiqamətli ixrac potensialını inkişaf etdirməyə xidmət edə bilər.

Bu gün xarici ticarət siyasətinə nə idxalda, nə də ixracda coğrafi diverfikasiya aid deyildir. Rusiya iqtisadiyyatının dəyişdirilməsinin ilk mərhələsində xarici ticarətin genişmiqyaslı liberallaşdırılması bir sıra obyektiv və subyektiv xarakterli səbəblərdən eyni əmtəə bazarlarında, eyni əmtəə seqmentlərində rusiyanın xarici iqtisadi subyektləri arasında kəskin

rəqabətə gətirib çıxartmışdır. Rusiyanın xarici ticarət subyektləri arasındakı ziddiyyətlərdən və insafsız rəqabətdən xarici rəqiblər məharətlə istifadə etmişlər. Onlar yavaş-yavaş keçmişdə Rusiyanın ixracda xammal işlənən malların və ərzaq məhsullarının idxalı relsinə itələməklə SSRİ-yə məxsus olmuş «bazar taxçalarını» ələ keçirməyə başlamışdır.

Bu gün bizim əmtəə dövriyyəsininin demək olar ki, 90%-i 20 ölkədə cəmləşmişdir. Buna baxmayaraq ixracın 50%-dən çoxu $\frac{3}{5}$ ölkənin bazarlarının payına düşür. Xarici ticarət siyasəti üçün xarakterik əlamətləri dəqiq istiqamətlərin olmaması, xarici iqtisadi əməliyyatların yeni iştirakçılarının bu dəqiqəlik məqsədlərinin dalınca düşməsi olmuşdur. İdarə aparatında və xarici iqtisadi fəaliyyətə nəzarət edən idarə və təşkilatlardan sonsuz inzibati dəyişikliklər, həmçinin də peşəkar hazırlanmış kadr tərkibinin itirilməsi də buna əlavə olunmuşdur.

Qüvvədə olan qanuna görə Federasiyanın subyektləri hansı səlahiyyətlərə malikdir? Onlara federal qanunlar çərçivəsində özlərinin normativ hüquqi aktlarını qəbul etmək səlahiyyəti verilmişdir. Bu aktlar bu və ya digər regionun şəraitinə uyğun olaraq federal qanunlarla konkretləşdirilir. Hər bir regionun özünəməxsus xüsusiyyəti və sosial-psixoloji mühiti nəzərə alınır. Regionun xarici bazara çıxışı olan sahəyə real qoyuluşu nəzərə alınmaqla onlar xarici iqtisadi fəaliyyətdən gəlirlərin bölüşdürülməsində iştirak edə bilərlər. Onlara öz büdcə gəlirləri çərçivəsində federal qanunlara münasibətdə əlavə güzəştlər verilir. Bunların arasında bu və ya digər regionun ərazisində qeydə alınmış xarici iqtisadi fəaliyyət iştirakçılarına zəmanətlər, kreditlər, güzəştlər vardır. Bu halda federal hakimiyyət öz subyektlərinin zəmanətlərinə cavabdehlik daşımır, himayədarlıq və ya müxtəlif növ restriksiya tədbirləri Rusiyanın beynəlxalq öhdəliklərinə və beynəlxalq hüquqa zidd olmamalıdır.

Xarici iqtisadi siyasət sferasında regionların səlahiyyətləri genişdir. Mərkəzlə ayrı-ayrı regionların arasında səlahiyyət hədlərinə dair sazişlərə müvafiq olaraq onların bəzilərinin

eksklüziv hüquqları vardır. Bundan əlavə, region iqtisadiyatının strukturunu təkmilləşdirmək məqsədilə bütün regionlar idxal-ixrac əməliyyatlarının və başqa xarici iqtisadi fəaliyyət növlərini genişləndirmək hüququna malikdirlər. Onlara regional əhəmiyyətli ixrac sazişlərini kreditləşdirməyə, sığortalamağa, müxtəlif ölkələrin (bu halda müxtəlif ölkələrin beynəlxalq hüquq subyektləri olmayan təşkilatlar öz aralarında müqavilələri və bağlaşmaları sənədləşdirirlər) regionları ilə iqtisadi əməkdaşlığın təşkil edilməsinə icazə verilir.

Regionlar ixrac fəaliyyəti strukturlarının informasiya və texnika servisini sərbəst təşkil edirlər.

Onlar həmçinin regional iqtsadiyyatın inkişafı üçün maraqlı olan idxal-ixrac əməliyyatlarını (sərhədyanı ticarət də daxil olmaqla) idarə edə bilərlər.

Yuxarıda söylənələnlərlə əlaqədar qeyd etmək lazımdır ki, dünya bazarında rəqabətədavamlı, bütün öləkənin mənafeini ifadə edən məqsəduönlü, mütərəqqi təsərrüfat strukturunun işləyib hazırlamaq obyektiv zəruridir. Buna görə də müasir xarici iqtisadi siyasətin məqsədləri vətən (milli) müəsisələrinin maşınqayırma məhsulları, texnologiyalar və informasiyalar, kapitallar və mineral-xammal resursları üzrə dünya bazarına, nəqliyyat kommunikasiya sistemlərinə çıxmağı təmin etməyə yönəltmək lazımdır. Ardıcıl olaraq xarici ölkələrlə və onların ticarət-siyasi qruplaşmaları və iqtifaqları ilə əlverişli ticarət siyasi xarici iqtisadi maraqların və üstünlüklərinin səmərəli müdafiə sisteminə çox ehtiyacı vardır (valyuta nəzarəti, idxal-ixracın iqtisadi səmərəliliyinə nəzarət və s.). Dövlətin və Rusiyanın xarici iqtisadi fəaliyyət sferasında səlahiyyət verilmiş idarələrin təşkilati-tənzimləyici rolunu göstərməyə cəhd göstərilməlidir. Rusiyanının ÜTT birləşmiş vəzifələrinə əsaslanaraq və bütövlükdə rusiya təsərrüfat kompteksinin mövcud potensialına adekvat iqtisadi əməkdaşlığın beynəlxalq hüquq sahəsini formalaşdırmaq məqsədilə xarici iqtisadi siyasətin struktur vəzifələri kimi aşağıdakı istiqamətləri qiymətləndirmək məqsədəuyğundur.

2010-cu ilə qədər ölkənin sosial-iqtisadi inkişafın komples proqramı Rusiyanın xarici iqtisadi fəaliyyətinin strategiyasında mühüm dəyişikliklər nəzərdə tutulmuşdur. Buna görə də xarici ticarət fəaliyyəti «kursunun dəyişdirilməsi» istiqamətləri nəzərə alınmadan düşünülmüş şəkildə ixracın mineral-xammal isitiqaməti saxlanılır. Buna görə də ÜTT birləşdirilməsinə dair danışıqlar prosesindən başlayaraq onun həmin təşkilata daxil olana qədər Rusiya uzun müddət Qərbin «xammal» vericisi kimi qalacaqdır. Bu ölkənin iqtisadi maraqlarının qorunmasına və dünya təsərrüfat çərçivəsində onun təhlukəsizliyinin təmin edilməsinə çox mane olur. Rusiyanın dünya iqisadiyyatında öz real potensialına uyğun yerin əldə edilməsi sual altında qalır. Buna görə də Rusiyanın ixrac strategiyası vektorunun prinsipal dəyişdirilməsi dünya bazarında potensial rəqabətədavamlılığını və ixracın yararsız xammal istiqamətindən imtina edilməsini təmin edən ixrac siyasətinin həyati zəruri üstünlükləri siyahısının göstərilməsi bu günün ən vacib vəzifəsidir.

Bu gün Rusiyaya misli görünməmiş dərəcədə xarici iqtisadi fəaliyyəti əlaqələndirmək və tənzimləmək, onu proqramlaşdırmaq və perspektiv planlaşdırmaqla məşğul olan ixtisaslaşdırılmış orqan lazımdır. Vətən ixracçılarına yardım etmək, dixili bazarı qeyri tarif müdafiə etmək, insafsız xarici ixracçılarla mübarizə aparmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün ÜTT üzvlərinin – ölkələrinin istifadə etdikləri alətləri rusiyanın şəraitinə uyğunlaşdırma mexanizmi lazımdır.

Belə alətlərə ixrac subsidiyaları və onların verilməsi mexanizmi, ixracçılara müxtəlif vergi kreditləri və güzəştləri, ixracçıların qeydiyyatı və oxşar zonalarda iş imkanları, «tədarüklərdən könüllü imtina üçün» mexaniki manelərin qoyulması, bir çox mal qrupları üzrə gömrük sərhədlərinə xüsusi tələblər tətbiq etmək, şişirdilmiş dövlət standartlarından və başqa texniki standartlardan istifadə edilməsi, ekoloji və tibbi tələblər, müxtəlif mal qrupları üçün fiqosanitar və epidemoloji normalar daxildir. Rüsumları ödəmək (kompensasiyası), antidempinq tədqiqatını aparmaq və insafsız komersantlara qarşı təsiredici tədbirlər görmək lazımdır.

ÜTT alətləri hüquqi yardım göstərməyə və dünya bazarında rusiya ixracçılarını müdafiə etməyə, xammal dominantından çıxmaq məqsədilə möhkəmləndirilmiş ixrac startegiyasını həyata keçirməyə kömək edər. Çalışmaq lazımdır ki, Rusiyanın ÜTT-ə daxil olması prosesinə dair danışıqlar hüquq bərabərliyini pozmamaq əsasında keçsin, iqtisadi təhlükəsizlik və milli iqtisadi mənafelərə üstünlük prinsiplərinə riayət edilməsi təmin edilsin. Bu üstünlüklər içərisində ÜTT müxtəlif sazişlərinə daxil olmasının tədricliyi və seçmə qabiliyyəti, Rusiya iqtisadiyyatının müxtəlif sektorları üçün (o cümlədən hüquqi şəraitinə uyğun həyata keçirmək üçün) differensial keçid dövrlərinə imkan verilməsi, danışıqlar aparılan prosesdə əsaslandırılmamış birtərəfli güzəştlər daxil edilməklə ÜTT-nin çoxtərəfli tənzimlənməsi kompensasiyasına daxil olan sektorlar üzrə qanunvericilik aktlarının təkmilləşdirilməsi vardır.

Suallar və tapşırıqlar

Düzgün cavab verin.

1. Xarici iqtisadi siyasət-bu a) ticarət əlaqələrinin dövlət tərəfindən tənzimlənməsidir; b) dövlətlər səviyəsində xarici dövlətlərlə əlverişli münasibətlər yaratmaqdır; c) ölkənin beynəlxalq əmək bölgüsü və kooperasiyalaşdırılmasında iştirakının optimallaşmasına nail olmaq məqsədilə xarici iqtisadi əlaqələrin tənzimlənməsi rejimini müəyyən etməyə dövlətin təsir tədbirləri kompleksidir; ç) Rusiyanın və iqtisadiyyatı dəyişdirilən başqa ölkələrin xarici iqtisadi fəaliyyətində liberallaşdırma.

2. Daha yaxşı şərait rejimi – bu – a) çoxtərəfli əsaslarla ticarətdə yeri olan xüsusi ticarət rejimidir; b) BMT-nin qərarına əsasən daha çox geri qalmış ölkələrdə ticarətə güzəştlərin verilməsidir; c) gömrük tarifinin baza stavkalarına əsaslanan, bir qayda olaraq ikitərəfli normal ticarət rejimidir; ç) ÜTT (Ümumdünya ticarət təşkilatı) tərkibinə daxil olan ölkələr arasında rüsumsuz ticarətdir.

3. İxracın coğrafi diversifikasiyası məqsədlərə tabe edilməlidir: a) yeni bazarlarda elmtutumlu məhsullarla idxalı

genişləndirmək; b) hüquq bərabərliyi və qarşılıqlı faydalılıq prinsiplərinə əməl edilməklə insaflı, rəqabət əsasında MDB Ölkələri ilə əmtəə dövriyyəsini inkişaf etdirmək və kömək etmək; c) dünya bazarında vətən ixracçıları arasında özünü doğrultmamış qarşılıqlı rəqabətə, qərb bazarlarında birinin digəri ilə mübarizə vasitəsi kimi dempinqdən istifadəyə dövlət səviyyəsində yol verməmək; q) valyuta gəlirlərindən daxilolmaları təmin etmək və ölkənin xarici borclarını azaltmaq məqsədilə ixracın xammal bazasını daim artırmaq.

4. Valyuta tənzimlənməsi səlahiyyətlərə aiddir: a) mərkəzin; b) federasiya subynktlərinin; c) xüsusi iqtisadi zonaların idarəetmə orqanları.

5) Dövlətin ödəməqabiliyyətinin indikatoru xarici borcların xidmətindən, illik rüsumların ixracından illik gəlirə nisbəti şəkildə (idxaldan gəlir 25%-dən çox olmamalıdır) hesablanan göstəricidir. Xarici borcları tənzimləmək yollarına sivil qaydada baxılmasından imtina etdikdə kreditorlar ölkənin – borclunun maliyyə-kredit resurslarına yolunu məhdudlaşdırır. Xarici borcları tənzimləmək üçün dövlət-borclu hansı metodları tətbiq edir? a) ənənəvi-qızıl valyuta ehtiyatları; b) borcların birləşdirilməsi və ya orta-qısamüddətli borcların uzunmüddətli borclara döndərilməsi; c) borcların konversiyası – onların xarici investisiyalara çevrilməsi; q) borclarla ticarət; d) beynəlxalq institutların (BİUB, AYUB, BVF və başqaları).

6. Federasiya subyektinin və ya mərkəzin səlahiyyətinə bu və ya digər sahəyə regionun real əmanətini nəzərə almaqla xarici iqtisadi fəaliyyətdən gələn gəlirlərin bölüşdürülməsində iştirak daxildir?

7. İxracdan əldə edilən vəsaitin satışı həyata keçirilir: a) Rusiyanın?; b) xüsusi valyuta birjasına; c) MMVB-nın xüsusi ticarət sesiyasına?

8. Xarici iqtisadi siyasəti reallaşdıran orqanların siyahısını davam etdirin: RF, DİN, Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyi

© Перская В.В. 2002.

XXXIV Fəsil

XARİCİ İQTİSADİ FƏALİYYƏTİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

1. Əsas müddəalar və xarakteristika

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi xarici fəaliyyət subyektlərinə əlverişli çərçivəli təsərrüfatçılıq şəraitini formalaşdırmaq üçün dövlət tərəfindən həyata keçirilən kompleks iqtisadi və inzibati – idarəçilik tədbirləridir. Bu tədbirlər daxili və xarici bazarlarda onlara iqtisadi köməyi və hüquqi müdafiəni təmin edir və ixrac potensialını keyfiyyətcə təkmilləşdirməyə yönəltmidir. Onlar beynəlxalq əmtəələr, xidmətlər və intellektual mülkiyyət hüququnu, yüksək, səviyyəli əlavə dəyər vergisi məhsulları bazarlarına, xarici ticarət balansının müsbət saldosunun sabit saxlanmasına, milli miqyasda təsərrüfat təhlükəsizliyinin təmin edilməsinə, ixrac ekspansiyası strategiyasını reallaşdırmağa kömək edirlər.

Deyilənlərə əsaslanaraq baxılan sferanın dövlət tənzimlənməsinin məqsədlərini müəyyən edək. Onlar xeyli çoxdur. Hər şeydən əvvəl ölkənin inkişafının dövlətlərarası tənzimlənməsində daha dərindən iştirak etmək belə məqsədlərdən biridir. Bütün qalan məqsədlər və vəzifələr buna kömək etməlidir.

Milli təsərrüfatçılıq subyektlərinin həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda xarici iqtisadi sferada nəzakətli (qüvvədə olan qanunvericilik və beynəlxalq razılaşdırmalar çərçivəsində) fəaliyyəti üçün əlverişli hüquqi şəraiti yaratmaq vəzifəsi belədir. Bura həmçinin xarici ticarət əməliyyatlarının stimullaşdırılması, o cümlədən, ölkənin təsərrüfatının inkişafının iqtisadi konvensiyasına uyğun olaraq, dövlətin milli gəlirini formalaşdıran əsas istiqamətlər və valyuta gəliri olan məqsədlərə dair söhbəti tamamlayaraq qeyd etmək lazımdır ki, hər bir təsərrüfatçı subyektə, həm də ümumdövlət inkişafı məqsədləri üçün səmərəli xarici iqtisadi fəaliyyət şəraitini yaratmaq vacibdir. Bunun üçün dövlət çoxsaylı təsir vasitələrindən istifadə edir. Bunlara xüsusilə müxtəlif formalarda iqtisadi və inzibati nəzarət daxildir ki, bu da çox vacibdir. İş ondadır ki, nəzarət funksiyasının üstünlüyü, bazar iqtisadiyyatına keçid dövründə Rusiya iqtisadiyyatının dəyişdirilməsi (transformasiyası) mexanizminin formalaşması spesifikasına əsaslanmışdır. Bu biznes üçün müvafiq köməkçi infrastrukturun yaradılması – məlumat, məsləhət və s. xarici iqtisadi fəaliyyətin bütün ixtisaslaşdırılmış istiqamətlər spektri üzrə kadrların hazırlanması və yenidən hazırlanmasına kömək etməkdir.

Məqsədlərin növbəti qrupu dünya iqtisadiyyatının qloballaşması ilə əlaqədardır. Burada söhbət hər şeydən əvvəl müxtəlif regionlarla və ayrı-ayrı korporasiyalarla, o cümlədən, onların regional istiqamətlənmələri də nəzərə alınmaqla əməkdaşlıq strategiyasının ardıcıl reallaşdırılması əsasında dünya təsərrüfat sisteminin çoxqütblü geoiqtisadi modelini formalaşdırmağa təsir etməkdən gedir. Rusiya bərabər əsaslarla əməyin beynəlxalq bölgüsündə və kooperasiyalaşmasında iştirak etməli, rəqabətədavamlı elmtutumlu məhsullarla yeni bazarlara çıxmalıdır, hansı ki, ölkənin ixrac potensialının əsasını təşkil etməlidir. Xarici iqtisadi fəaliyyətin strukturunun təkmilləşdirilməsi vəzifəsi çox mühüm əhəmiyyətə malikdir.

İxrac əməliyyatlarında xidmətlərin (turizm, servis xidməti, kommersiya əsaslarla texniki yardım) elm və texnikanın ən yeni

naliyyətləri, patentlər və lisenziyalar əsasında işlənib hazırlanan maşıntexniki məhsulların xüsusi çəkisini artırmağa böyük imkanlar vardır. Bütün bunlar emal olunmamış xammalın, faydalı qazıntıların tədarükünün və əvvəllər göndərilmiş radiaktiv materialların emalı tullantılarının emalının məcburi idxalının azaldılması ilə müşayiət edilməlidir. Xarici kontragentlərlə əməliyyatar həyata keçirilərndə ölkələrarası və regional səviyyələrdə ticarət münasibətlərinin tənzimlənməsinin, xaricdə vətən ixracçılarının mühafizəsi, onlara məlumat, məsləhət, hüquq və başqa yardım göstərilməsinin böyük rolu vardır. Xarici ticarətdə sabit müsbət saldonu saxlamağa nəzarət də mühüm rol oynayır.

Mühüm məqsədlərdən biri də ölkənin tədiyyə balansının xarici iqtisadi fəaliyyət hissəsini tənzimləməkdir. Xarici borcların vaxtında qaytarılması xarici kreditorlardan asılı olmayan müstəqil potensialın qorunmasına ciddi nəzarəti ləğv etmir, əksinə tələb edir. Başqa sözlə xaricdən alınmaların son həcminə ciddi nəzarət vacibdir. Dövlət tənziləmə həmçinin xarici iqtisadi fəaliyyətdə ölkənin və onun ayrı-ayrı regionlarının əlverişli imicini formalaşdırmaq məqsədini daşıyır. Hər cür qaçaqmalçılıq və ya «çirkli» pulların ötürülməsini izləyən dövlətlərin başqa beynəlxalq norma və qaydalarına, milli və xarici tərəfdaşların qanunçuluğuna əməl edən, qüvvədə olan hüquqi normalara və dövlətlərin beynəlxalq razılaşmaları çərçivəsində vicdanlı etibarlı (nüfuzlu) olmalıdır.

2. Xarici ticarətin tənzimlənməsi

90-cı illərin axırlarında qurulmuş xarici fəaliyyətə dövlətin təsiri sistemi, bəzi düzəlişlər aparılmasına baxmayaraq hal-hazıra qədər öz qüvvəsini saxlayır. Əvvəlki kimi inzibati-idarəetmə metodlarından yavaş-yavaş iqtisadi xarakterli tədbirlərin nəticəliyinin güclündirilməsinə keçilməsinə əvvəlki kimi üstünlük verir.

Dövlət xarici iqtisadi fəaliyyətə nəzarət və tənzimləməsi funksiyasını özündə saxlayır. Xarici ticarət xarici iqtisadi fəa-

liyyətdə əsas həlqədir. O, milli gəlirin yaradılmasında fəal iştirak edir və alqı-satqı əməliyyatlarında iştirak edən kontragentlərin ***qarşılıqlısərfəli*** tərəfdaşlığı tapmaq məqsədilə müxtəlif ölkələrin dövlət mənafelərini və standartlarını birləşdirmə sferasını təmsil edir.

Xarici ticarətin xüsusiyyəti odur ki, o, milli gömrük sərhədindən kənarda mübadilə fazasında təkrar istehsal dövriliyin davamıdır. Lakin xarici ticarət ayrıca subyektin təsərrüfat inkişafını müəyyən etmir. O yalnız az istehsal xərcləri və aşağı qiymətlər hesabına sahibkarlıq fəaliyyətinin səmərəliliyini yüksəltmək qabiliyətindədir. Aydındır ki, idxalçı ölkədə xərclər və qiymətlər aşağı salınmalıdır, əks halda idxalçının idxalda marağı olmayacaqdır.

90-cı illər Rusiya üçün onunla xarakterikdir ki, xarici ticarət fəaliyyəti sabit ödəməqabiliyyəti vahid sfera kimi özünü göstərdi. Hazırki dövrdə vəziyyət yavaş-yavaş dəyişilir. Xarici ticarət əməliyyatları təsərrüfatçı subyektlərə kifayət qədər mühüm əhəmiyyət versə də istehsal olunan məhsula görə real pul vəsaitlərinin «vahid mənbəi» statusunu itirir. Ancaq müasir şəraitdə Rusiyada xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sistemi hələlik xarici ticarətin əvvəlki ənənəvi olaraq həyata keçirilən əməliyyatlara yönəldilmişdir. Praktiki olaraq rusiya iqtisadiyyatının milli iqtisadi mənafelərinin üstünlüyü prinsiplərini təmin edən qloballaşan dünya iqtisadiyyatına daxil olmasının geosiyasi və geoiqtisadi strategiyası nəzərə alınmır.



Dövlət sferası			Prezident, onun administrasiyası
ƏTİ, ETLAS, ixracın inkişaf proqramları	Vergilər, tariflər, fiskal siyasət	Normalar, lisenziyalar	Federasiya şürası
İnfrastruktura subsidiyalar	Amortizasiya siyasəti	Antiinhisar qanunvericiliyi	Dövlət Düması
Proqnozlaşdırma, indikativ planlaşdırma	Valyuta təmizlənməsi	Planlaşdırma və qiymətlərə nəzarət (ixrac gəliri)	Hökumət
Özəlləşdirmə, dövlətsizləşdirmə	Kredit siyasəti	Əmtəə sertifikatlaşdırması, sanitarepidemiloci nəzarət	Xüsusi təşkilatlar DİN, DTK, ixrac üzrə Komissiya, RF Maliyyə Nazirliyi
Milliləşdirmə	Pul-maliyyə siyasəti	ənaye mülkiyyətinin mühafizəsi	
		Texniki manelər; kompensasiya və ya xüsusi rüsumlar, embarqo və başqaları	İttifaq,ass, Assosiasiyalar və s.

Sxem 19. Rusiyanın xarici iqtisadi fəaliyyətinin dövlət tənzimləmə mexanizmi.

Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi mexanizmi tarif və tarifsiz tənzimləməni əhatə edir. **Tarifsiz tənzimləmə** tədbirləri aşağıdakıları əhatə edir: idxal normallaşdırılan əmtəələrin siyahısının limitləşdirilməsi; müsabiqə ilə satış

əsasında normaların yenidən bölüşdürülməsi; Rusiyanın ticarət reyestrinin yaradılması (inkişaf etmiş ölkələrdə olduğu kimi xarici iqtisadi fəaliyyət ihtirrakçılarının bəyanatlı qeyd edilməsi); idxal və ixracın sertifikatlaşdırılması (Məsələn, ixrac zamanı həm əmtəənin mənşəinin sertifikatı, həm ixrac sertifikatı tələb olunur); əmtəələrin gətirilməsinin təhlükəsizliyini yoxlamaq (fumiqasiya, sanitarepidemoloji nəzarət, dezaktivizasiya və başqaları); idxala əlavə dəyər vergisi, aksizlər, müxtəlif cür rüsumlar və yığımlar (1998-ci ilin avqustundan tətbiq olunan satışdan vergi) kimi daxili xəzinələri idxala yayılması; antidempinq və kompensasiya rüsumları mexinizmindən istifadə; bu sahədə Aİ və başqa qruplaşmalarla və ittifaqlarla əməkdaşlığın dərinləşdirəndə ixrac nəzarət sisteminin təkmilləşdirilməsi.

Rusiyada xarici iqtisadi fəaliyyətin ***tarif tənzimlənməsi*** tədbirlərinə daxildir: ETİ və ETLKİ-nın dövlət proqramları, xüsusilə ixrac istiqamətə söykənən; infrastruktura dotasiyalar və subsidiyalar, o cümlədən üstünlüyə görə müəyyən edilmiş iqtisadiyyat sahələrinə; idxalda ixrac rüsumları və yığımlarının, tariflərin tutulması qaydasının sadələşdirilməsi, kommersiya banklarını ödənilməli vəsaiti avasnslaşdırılmış kreditləşdirilməyə cəlb etmək; daxili və dünya əmtəə bazarlarında qiymətlərin səviyyəsinin yavaş-yavaş yaxınlaşdırılması (doğrudur bu vəziyyət xarici ticarətdən bir o qədər asılı deyil, nəinki istehsaldan, əks halda qiymətlər ilk növbədə real xərclərlə təyin edilirlər); federal səviyyədə təbii inhisarların tarif siyasətinin tənzimlənməsinin vahid sisteminin tətbiqi; ölkə üçün həyati əhəmiyyət kəsb edən idxalin dövlət tərəfindən bir başa subsidiyalaşdırma və dotasiyalaşdırmadan istifadə imkanları; valyuta tənzimlənməsi, yəni ixrac əməliyyatlarında məcburi bank öhdəliyinin olması, valyuta bazarlarında valyuta gəlirinin yarısının məcburi satışı, milli valyutanın məhdud konversiya edilməsi ölkə daxilində; beynəlxalq ticarət təşkilatlarını və müsabiqələri təşkil etməklə birbaşa və istehsal istiqamətlərə üstünlük verilməklə, xarici investisiyaların cəlb edilməsi; Rusiyanın ərazisində xarici investisiyaları mühafizə, təminat və qorunmasının hüquqi əsasların formalaşdırmaq, müvafiq xarici

maliyyə və dövlət – sığorta kompaniyalarında iştirak etmək. Bununla bərabər gömrük siyasətində gömrük tarifi xarici ticarət əməliyyatlarını reallaşdıran baza aləti olur.

3. Kapitalların hərəkətinə təsiri

İnvestisiya xarici iqtisadi fəaliyyətin mühüm tərkib elementi, milli və xarici investisiyaların hərəkətini və kapitalın xaricə axını prosesini reqlamentləşdirən ümumtəsərrüfat rejimli həlqəni əhatə edir. Onlar təsərrüfat həyatının qloballaşdırılmasının vasitəsi kimi çıxış edirlər. İnvestisiya resurslarının hərəkəti (bir başa və portfel) əmtəə – material və pul sferalarından, mülkiyyət hüququ sferasında və s. baş verir. İnvestisiya əməkdaşlığı məsələləri (kapitalın özünəməxsus pul və əmtəə formalarında ixrac – idxalı) xarici iqtisadi əlaqələr sferasını və kəskinləşmiş beynəlxalq rəqabəti təmsil edir. Bununla belə onlar təsərrüfatdaxili fəaliyyətin səlahiyyətinə (kompetensiya) aiddir, belə ki, o milli təkrar istehsal prosesinin inkişafı və dünya miqyasında onun rəqabətədavamlılığının artırılması məqsədini güdür. Dövlət tənzimlənməsi əlverişli investisiya və sahibkarlıq mühitinin formalaşmasını təmin etməyə, Rusiyanın iqtisadiyyatına xarici məhsuldar kapitalın cəlb edilməsi və səmərəliliyinin yüksəldilməsinə təsir etməyə kömək edir.

Milli iqtisadiyyatda məhsuldar xarici kapital dedikdə köklü, lakin onun inkişafının bir-birinə zidd amil başa düşülür. O, ölkənin təsərrüfat kompleksinin strkturuna şərtləndirici şəkildə təsir edir, xarici tərəfdaşların rəqabətinə müvəffəqiyyətlə qarşı duran, yüksək texnoloji innovasiya məhsullarla ölkəni dünya bazarına çıxaran alətə çevrilir. Eyni zamanda xarici kapital ölkəni hasil etdiyi xammalın aşağı səviyyədə emalına əsaslanan xammal domininonuna çevirən istehsalın tənəzzül vasitəsidir.

Bu ya digər inkişaf yolunun xeyrinə seçim etmək milli siyasi iradənin, xarici və daxili təsərrüfat siyasətinin işidir. Bu

da ölkədə və onun regionlarında investisiya mühitinin, sahibkarlıq mühitinin, iqtisadiyyatın müxtəlif sektorlarına vətən və xarici investisiyaların cəlb edilməsinin səmərəli fəaliyyəti mexanizmini işləmək üçün elmi yanaşmalarını tələb edir. Bununla belə dəqiq başa düşmək lazımdır ki, milli və xarici investorların bərabər şəraitində, onların əsaslı vəsait qoyuluşları kapitalın əmtəə və xidmətlərinin ixracının milli doktrinasına əksdirsə, dünya bazarında rəqabət qabiliyyətinin itiriləməsinə çıxara bilərsə, heç vaxt xarici ölkələrin hökumətləri öz investorları üçün qrant kimi çıxış etməyəcəkdir.

Əgər investisiyalardan istifadə edən resipiyent – ölkə xarici investora daha yüksək mənfəət normasını təmin etmirsə, xarici investor heç vaxt öz vəsaitini həmin sahələrə qoymayacaqdır. Rusiya həqiqətlərin təsdiq etdiyi kimi yüksək səviyyəli investisiya riskliyi şəraitində xarici investorlar öz evlərində faktiki mümkün ola biləcək vəziyyətə qarşı 4-6 dəfədən artıq artımını ümid edir. Başqa sözlə, onlar lahiyənin sürətli ödənilməsini və ya ixraca yarımfabrikatları çıxarmaq hesabına əlavə gəlir əldə etməyini tələb edir. Rusiya üçün bu onunla nəticələnə bilər ki, uzun perspektivdə onun ixracının xeyli dərəcədə xammal yönümündən asılı olacaqdır.

Xarici təsərrüfatların məhsulun bölüşdürülməsinə dair müqavilələrdə iştirakı məsələsinə ehtiyatla yanaşmaq lazımdır. Belə müqavilələr əvəz olunmaz milli təbii ehtiyatlar və xammalla xidmətlərin dəyərinin ödənilməsini nəzərdə tutur. Onlar bir qayda olaraq uzunmüddətli əsaslarla xarici ihtirrakçıların tələb etdiyi şərtlərlə və cari orta dünya qiymətlərindən xeyli aşağı qiymətlərlə bağlanır. Bir çox regionların rəhbərlərinin əsaslandırılmalarına görə belə müqavilələr regionda məşğulluğu təmin edir, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradır, müəyyən qədər ədalətlidir. Qazaxıstanın təcrübəsi göstərir ki, xarici investorlara uzun müddətə icarəyə verilmiş xammal bölmənin sənaye müəssisələri yalnız 2-3 il müddətində məşğulluğun səviyyəsini və sosial sferasını ilkin vəziyyətdə saxlamışdır. Sonra yeni ixtisas verilmədən kütləvi şəkildə işdən çıxarılma, istehsalın rentabelliyini və rəqabətədavamlığını artırmaq

məqsədilə sosial-məişət xidmətləri şəbəkəsinin ixtisara salınması başlandı. Bundan başqa, hər cür xarici investisiyalar bir qayda olaraq əlaqəli xarakter daşıyır. Onlar avadanlıqlaşdırmaq, texnoloji yenidən silahlandırmaq və sonradan texniki xidmət məqsədilə donor ölklərdən məhsul tədarükünə yönəlmişdir və yalnız resipient-ölkələrin investisiya resurs potensialından istifadə edirlər.

Xarici kapital birinci növbədə investisiya strukturunun təkmilləşdirilməsi ilə əlaqədar olmayan tezödənən layihələrin tətbiqinə maraqlıdır. Rusiyada bu daha çox maliyyə sferasına, xidmət və ticarət sferasına, habelə ixrac-istiqamətlənmiş sahələrə uyğun gəlir, hansı ki, xarici kapitalı çatışmayan yanacaq-xammal ehtiyatları və ilkin emal məhsulları ilə təmin edəcəkdir. Sonradan xaricə daşımaq məqsədilə yüksək səviyyədə emal olunmuş məhsul istehsalını təşkil etmək xarici investorun marağına uyğun gəlmir. Ona əlavə rəqiblər lazım deyildir. Bu milli investorun işidir, hansı ki, o öz vəsaiti ilə yanaşı xarici kapitalını cəlb edir. Lakin siyasi və iqtisadi təminat (qarantiya) və onları kriminal dairələr tərəfindən qeyri-qanuni hərəkətlərindən qorumaq üçün milli və xarici sahibkarlara əlverişli şərait olduqda bunu edə bilər.

Beləliklə, Rusiyayanın xarici kapitalı cəlb etmək uğrunda mübarizədə müvəfəqiyyəti, başqa ölkələrlə müqayisədə investisiya mühitinin reytinqindən birbaşa asılıdır. Müxtəlif beynəlxalq və milli təşkilatlarla xarici iqtisadi arenada müqavilə münasibətlərinin genişlənməsi onun yüksəlməsinə şərait yaradır. «London klubu» və «Paris klubu» (Rusiya 1997-ci ildə onlara üzv olmuşdur), İTÇA (investisiyalara təminat üzrə çoxtərəfli agentlik), OPİK (xaricdə xüsusi investisiyaları sığortalamaq üzrə Amerika korporasiyası), «Qermes» (AFR) və başqaları belələrdəndir.

Dünya iqtisadiyyatının müasir əlamətlərindən biri birbaşa formasında üstünlük təşkil etməklə xarici investisiyaların artmasıdır (2000-ci ildə onların səviyyəsi 1,1 trlyon dollara yaxın olmuşdur). Bu daha çox iri transmilli korporasiyaların (TMK) fəaliyyəti ilə əlaqədardır.

Sənayecə inkişaf etmiş nəhəng ölkələr eyni vaxtda həm investisiya donarı, həm də resipisenti kimi çıxış etmişlər, 90-cı illərdə belə meyl möhkəm saxlanıldı. Ekspert qiymətlərinə görə ABŞ üçün kapitalın idxalı və ixracının nisbətləri 0,5:1, Almaniya üçün 5,3:1, Fransa üçün 1,5:1, Yaponiya üçün isə 33:1 arasında tərəddüd etmişdir. Bu məlumatlar ölkələrdə kapitalların ixrac-idxal proseslərinin tənzimlənməsinin vəziyyətini yalnız investisiya (məlumatlı) kimi xarakterizə edir.

Ancaq, Yaponiya bazarı haqqında demək olar ki, burada investorlar öz yolunda xeyli çox təşkilati çətinliklərlə üzləşirlər. Bazar sərt poteksionlaşdırılır, ona ənənəvi «keyres[1]» sistemi çərçivəsində hüquq bərabərsizliyi məxsusdur. Milli kapitalın ixracını üstələyir. Bundan başqa Yaponiyanın[1] ayrı-ayrı nəhəng TMK-ların təkraristehsal prosesinin hissələrini və ya bütün silsiləsinin Asiya – Sakit okean regionu ölkələrinə köçürülməsi, istehsal xərclərinin sonradan da ixrac qaydasında malların satışında xərclərin ciddi azalması ilə əlaqədardır. Qiymətləndirilən məlumatlara görə Yaponiyada istehsal olunan məhsulların ixracında xərclər təqribən 200-250%, AŞR ölkələrində yerləşmiş müəssisə filiallarının ixracında yalnız 150% artır.

Ticarətin liberallaşdırılması və birbaşa xarici investisiyaların tənzimlənməsi regionlarda birləşmə proseslərinə, TMK-nın yaratdığı qlobal informasiya şəbəkələrinə, təchizat və satışa qovuşdurmağa şərait yaradır. Bu proseslər ixtisaslaşmanı dərinləşdirir, bu da mövcud üstünlüyü gücləndirir. Yalnız investisiya axınları ixrac ölkələrinin – resipientin və donor ölkələrinin ixrac strukturunu və coğrafi istiqamətlərini yavaş-yavaş dəyişdirir. TMK üçün birbaşa özgə investisiyalar sadəcə olaraq

[1] . Yaponiya bazarının proteksionizmi son on ildən jox müddətdə dərk edilmiş xarici-iqtisadi siyasətin üstünlüyüdür. Müəllifin qeydi.

[1] Yaponiyada yalnız az miqdarda kooperasiyaların öz məhsulları ilə xarici bazara çıxmaq hüququ vardır. Ancaq qalanlar xarici ticarət fəaliyyətini həyata keçirmək üçün ya xüsusi kooperasiyaların tərkibinə daxil olmalı, yaxud da onlardan franşisi (tiçarətə içazə) almalıdır. Müəllifin qeydi.

ixracı yox, yaxşı tanınmış, daha yaxşı mənimsənilmiş istehsal texnologiyalarını ixrac etməyə imkan verir.

Vətəndə TMK daha müasir modernləşdirilmiş məhsullar istehsal etmək qabiliyyətinə malikdir, hansı ki onların istehsal üsulu dünya bazarını başqa tərəfdaşları üçün pionerdir. Birbaşa özgə investisiyalar investisiya resurslarında aclıq hiss edən investisiyaların resipediyent ölkələrinin yeni texnologiyalarına və ixtiralarına yol axmağı yüngülləşdirir. Aparıcı çoxmillətli kompaniyalar arasında yaradılan strateji ittifaqlar (alyans) ETLKİ üçün ehtiyatlara tələbata qənaəti təmin edir. Birbaşa investisiyalaşdırılmanın coğrafi istiqamətlərinin seçilməsində istehlak bazarına yaxınlıq (rəqabətədavamlıq tələbin dəyişməsinə daha tez təsir etməsindən asılıdır) və bilavasitə əsas xammal mənbələrinə yaxın olması (istehsalçılarla xammal tədarükçüləri arasında qarşılıqlı əlaqələrin sadələşdirilməsi üçün) amilləri mühüm rol oynayır.

Yuxarıda qeyd olunan bütün dəllilər bir tərfdən əmtəə ticarəti ilə xidmətlərlə ticarət, digər tərəfdən isə sərhədənkənar investisiyalar arasında qarşılıqlı asılılıqların mürəkkəbləşməsini göstərir. Məhz bununla əlaqədar Ümumdünya ticarət təşkilatı (ÜTT) investisiya fəaliyyətinin aparılmasının çoxtərəfli qaydalarını işləyib hazırladı. Onlar xarici investorların təsərrüfat fəaliyyətinə milli rejimlərin verilməsinə və möhkəm sürətdə qlobal liberallaşdırılması qaydalarına əsaslanırlar. Bu sferada ÜTT-n mühüm sazişi kimi ticarət istiqamətləri (aspekt) üzrə investisiya tədbirlərinin çoxtərəfli müqavilələri çıxış edir (TİİCM). O, ticarəti məhdudlaşdıran və ya onun normal gedişini pozan investisiya tədbirlərinə yolverilməzliyini nəzərdə tutur. Birbaşa investisiya hallarında məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsinə görə daha ciddi tənqidə məruz qalmış ölkələr sırasında ÜTT çərçivəsində Braziliya, Meksika, Hindistan, Nigeriya, habelə, Kanada, İspaniya və Avstraliya seçilir. Daha tez-tez TİİCM metodları emaledici sənayedə, xüsusilə də, avtomobillər, neftkimya və elmitutumlu məhsullar istehsalında tətbiq olunur.

TİİCM üzrə müqavilə hökumətlərə istehsal prosesində yerli materialların, hissələrin və komplektləşdirmələrin minimum pay həddini tələb etmək, habelə idxal və ixracın bərabər həcmlərinin təmin edilməsi və ya sonuncunun artırılması tələblərini təcrübədə həyata keçirməyə icazə vermir[1]. Lakin çox ölkələr yaradılan digər qruplaşmalarla öhdəliklərlə TİİCM-in (2000-ci ildən fəaliyyətə başlayıblar) əsasnaməsi ilə razılaşmalıdır.

Belə ki, ASFAN investisiya zonası 2003-cü ildə yaranacaqdır, ATES investisiya liberallaşdırılması proqramı isə inkişaf edən ölkələrdən iştirakçılar üçün 2002-ci ildən fəaliyyət göstərməyə başlayacaqdır. Xarakterik hal odur ki, regional məqsədlər qlobal vəzifələrlə müqayisədə mənafelər sistemində üstünlük təşkil edir.

Bu gün ÜTT ölkələri çərçivəsində birbaşa xarici investisiyaların hərəkəti üzrə ayrıca müqavilənin işlənib hazırlanmasına dair iki nöqteyi nəzər formalaşmışdır. Birinci ticarət investisiya siyasəti sahəsində konvergensiyaya nail olmaq üçün güclərini bütün investisiya fəaliyyəti ihtirrakçılarına bərabər «oyun» sahəsini formalaşdırmasını sürətləndirməyi tələb edir. Digəri isə məqsədlərin oxşar koordinasiyası və gələcəyə inkişaf səviyyələrinin yaxınlaşdırılmasında regional razılaşmalara üstünlük verir. Bununla belə, kapital qoyuluşları sferasında çoxtərəfli liberalizasiyanın əsasını təşkil edən prinsiplərin çoxu regional müqavilələrə və investisiyalar üzrə 1600 ikitərəfli müqaviləyə daxil edilmişdir. Məsələn, Aİ çərçivəsində NAFTA müqaviləsinin müvafiq əsasnamələri diqqəti cəlb edir.

[1] TİİÇM-nın bilvasitə istehsalın təşkili amillərinə əsaslanan mühüm təsnifat bölgülərindən birini misal gətirmək olar (yerli komponentlərdə, işçi qüvvəsində payçı kimi iştirakçını tələb etmək, yerli məhsullardan istifadə etmək hesabına idxalı əvəz etməyi və texnologiyaların mütləq verilməsini tələb etmək və s.). Buraxılan məhsula və mənfəətlərin səviyyəsinə münasibətdə də iş analojidir (ixrac üzərində nəzarət və milli istehsalçıların ixracına kömək etmək, pul köçürülmələrində, fəaliyyət növlərinin lisenziyalaşdırılmasında məhudiyyətlər və s.). *Müəllifin qeydi.*

OSCR çərçivəsində çoxtərəfli müqavilələrin işlənib hazırlanması cəhdi preferensiyalara əsaslanan birbaşa xarici investisiyalara daha çox əlverişli rejimin uyğun gəlməsi sonuncuları cəlb etmək üçün subsidiyalar sistemindən istifadəyə, TMK-nın fəaliyyətinin ekoloji mühafizəsinin qeyri qənaətbəxş olması və s. ilə əlaqədar nəticələnməmişdir. İnkişaf etməkdə olan ölkələr tərəfindən tez-tez fiziki şəxslərin sərhəddən xaricə hərəkəti və əmək ehtiyatlarının miqrasiyası prosesinin liberallaşdırılması üzrə çox tərəfli müqavilələrə tələblər irəli sürülür. İnkişaf etmiş ölkələr bununla razılaşmırlar, onlara kapitalın sürətli hərəkəti milli iqtisadi mənafelərin reallaşdırılmasına uyğun gəlir, inkişaf etməkdə olan ölkələrdən işçi qüvvəsi axınının nəzarət olunmaz şəkildə artması isə, həm onların milli maraqlarına, həm də iqtisadi təhlükəsizliyə açıq-aydın ziddir.

Rusiyaya gəlincə, ona iqtisadiyyatın xaricdən istehsal investisiyalaşdırılmasının aşağı sürətləri xarakterikdir. Səbəbi nədir?

Ölkədə iqtisadiyyatın real sektorunda milli istehsalçıların sahibkarlıq fəaliyyəti üçün əlverişsiz investisiya iqlimi yaranmışdır. Bu maddi istehsal sahələrindən kapital axımına səbəb olmuş və onlardan tədavül, xidmət və kriminallaşdırılmış təsərrüfat dövriyyəsində istifadəni stimullaşdırmışdır. Rusiya üçün təsərrüfat fəaliyyətinin qeyri-sabit hüquqi mexanizmi xarakterikdir. Vergi və başqa növlərdə fiskal normaların tez-tez dəyişilməsi halları mövcuddur ki, bu da təsərrüfatçı subyektlərin sabahi günə, öz əməyinin nəticələrinə inamsızlıq yaradır, həm hüquqi çərçivədə, həm də tez ondan kənar dolayı yolları axtarmağı stimullaşdırır. Beləliklə, sahibkarlıq fəaliyyətini davam etdirmək və onu genişləndirmək üçün daimi resurs ehtiyatı formalaşır. Ölkədə təsərrüfat potensialının kriminallaşdırma dərəcəsi yüksəkdir. Bu, təbii ki, ya kriminal qruplarla ittifaqını, yada necə deyirlər «örtüyə» (krışa) görə ödəmələri nəzərdə tutur.

Rusiya iqtisadiyyatının bəlası aparatın qabağıalınmaz burokratlaşdırılması olmuşdur. Təsərrüfatın idarə edilməsinin köhnə sisteminin dağılması yeni prinsiplərin formalaşmadığı

şəraitdə sürətlə həyata keçirilmişdir. Bu ölkədə təsərrüfatın inkişafının tənzimlənməsinin təsirli mexanizminin olmasına gətirib çıxarmışdır. Bunun yerinə çoxsaylı idarə və təşkilatlar yarandı, onlar guya iqtisadiyyatın idarəedilməsi və tənzimlənməsi prosesləri ilə məşğuldur. İşdə isə onların fəaliyyətinin nəticələri bəzən bir-birini inkar edir. Məmurların korrupsiyası, idarə aparatının və təsərrüfatçı subyektlərin saxlanmasına yüksək inzibati xərclər buradan meydana gəlir.

Bundan başqa region bölgüsündə bazar təsərrüfatının infrastrukturunun formalaşması və inkişafının müxtəlif tərkibliliyi xaricdən qeyri-bərabər investisiya axınına gətirib çıxartdı. Pul vəsaitinin qeyri-bərabər daxil olmasına regionların yanacaq-xammal və digər mineral resurslarla təmin edilməsi, habelə onlara yaxınlaşma şəraiti və istehsal yerlərinə nəql etmə imkanları da təsir edir.

Təcrübə göstərir ki, xarici investorlar kapitallarını inkişaf etmiş maliyyə infrastrukturuna daha yüksək ödəmə qabiliyyətli tələb daha iri regional mərkəzlərinə qoyurlar. Bu ilk növbədə maliyyə intizamına əməl edilməsi və əhaliyə əmək haqqının verilməsində bərabərliklə müəyyən edilir. Xammal regionlarına və hakimiyyət böyük müddətə torpağı pulsuz istifadə etməyə yaxudda uzunmüddətli icarəyə verdiyi və birbaşa və portfel investorları tam və dəqiq məlumatlarla təmin edən regionlara üstünlük verilir.

Bizim dövrümüzdə xarici istehsal investisiyaları cəlb etmək üçün hansı tədbirlər zəruridir? Hər şeydən əvvəl, müvafiq hüquqi və normativ aktları, xarici investisiyalar haqqında, azad iqtisadi zonalar haqqında, konvensiyalar haqqında qanunları qəbul etmək, gömrük kodeksinə vergitutmanı fiksal sisteminə və s. müvafiq dəyişikliklər edilməlidir. Bundan sonra məlumatları əldə etmək mümkün olan informasiya bazasını (birgə maliyyələşdirmə əsasında da mümkündür) formalaşdırmaq lazımdır ki, yaxınlaşan dəyişiklikləri bu və ya digər normaları, əsasnamələri və ya sərəncamları idarə edən mexanizm üzrə cavabdeh şəxslərin şərhləri ilə birlikdə vaxtında regionlara çatdırsın. Vacib şərtlərdən biri də vahid hərəkətli

statistik məlumatlar bazasının yaradılması olur ki, o da xarici investisiyalarla müəssisələrin yaradılmasına birbaşa qoyuluşları və bank hesablarında vəsaiti, nağd valyuta və istiqraz vərəqələrini, xarici maliyyə təşkilatlarının ssuda və kreditlərini, birinci və ikinci özəlləşdirmədə müəssisə və təşkilatların səhm paketlərinə qoyulan vəsaiti, səhmlərin ikinci emissiyası və sahibkarların dəyişilməsi məsələlərini əhatə etsin. Başqa sözlə beynəlxalq standartlara cavab verən statistik məlumatları toplamaq zəruridir.

RF MB və RF Maliyyə Nazirliyinin obyektlərin kreditləşdirilməsinə dair siyasətini regionların təminatına uyğunlaşdırmaq daha çox vacibdir. Həm də üstün xarakterli layihələrin müsabiqədən kənar kreditləşdirilməsi təcrübəsini də federal və ya regional büdcə mənbələrindən çıxartmaq lazımdır. İnzibati vergi apelyasiyalara baxılması üsullarını sadələşdirməyə və təkmilləşdirməyə ehtiyacı vardır.

Xarici investisiyaların cəlb edilməsi üzrə regional proqramların (harada ki, bunlar yoxdur) və regionun ərazisində xarici kapitalın fəaliyyətinə dair normativ-hüquqi aktların işlənib hazırlanmasının böyük əhəmiyyəti vardır. Təsərrüfat məsələlərinin həllində bəzi məsələləri, xüsusilə də 100 mln. manatdan çox kapitalı olan xarici investisiyalı müəssisələrin qeydiyyatını regionlara vermək, Rusiya Federasiyasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin səlahəyyitəlirini yerli admnistrasiya və regional orqanlarnı fəaliyyəti ilə əlaqələndirilməsini (kordinasiyasını) gücləndirmək lazımdır.

4. Xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi

Təsərrüfatçılığın bazar mexanizmi fəaliyət göstərən dünyanın heç bir ölkəsində idarəetmə orqanları şəxsində dövlətin müdaxiləsi olmadan təsərrüfat kompleksi və fəaliyyətin sosial istiqamətləri üzrə həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi qeyri-mümkündür. Onlar xarici iqtisadi fəaliyyətin təşəbbüskarı və subyekti kimi çıxış edən xususi-sahibkarlıq sektoru ilə dövlətin, onun əhalisinin

mənafelərinin balanslaşdırılmasını təmin etməlidir. Bu halda üstünlük ölkənin dinamik iqtisadi inkişafına, yüksək texnoloji, elmtutumlu ixrac potensialına verirlir. Lakin bunun üçün kommersiya inkişafı prinsiplərində xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi qaydaları, mövcud normalara riayət edilməsi, ölkənin və onun əhalisinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi vacibdir. Milli iqtisadiyyat nə qədər sabitdirsə, təsərrüfat proporsiyaları və dünya təsərrüfatı ilə əlaqələr nə qədər harmonikdirsə, xarici iqtisadi fəaliyətin dövlət tənzimlənməsinə ehtiyac müvafiq olaraq bir o qədər aşağı olacaqdır. Ancaq iqtisadi böhranın dərinləşməsi, yeni təsərrüfatçılıq tipinə keçilməsi və cəmiyyətdə sosial vəziyyətin mürəkkəbləşməsi ölkənin və onun regionlarının təsərrüfatının inkişafına dövlət müdaxiləsinin nəticəliliyini gücləndirmək inadla tələb olunur. Bununla əlaqədar xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin müvafiq alətlərini yaratmaq üçün qanunveriçi baza olan hüquqi sfera xüsusi əhəmiyyət kəsb edir. Dövlətin müdaxilə siyasətini müəyyən edən sənəd «xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında» RF qanunudur (Dövlət Duması tərəfindən 7.07.1995-ci ildə qəbul edilmiş və 21.07.1995-ci ildə Federasiya Şurası bəyənmişdir). Rusiyada xarici iqtisadi siyasətin aparılmasının mövcud prinsiplərinə uyğun olaraq yuxarıda adı çəkilən qanunun məqsədləri mülli müstəqilliyini təmin etmək, iqtisadi təhlükəsizliyi təmin etmək, milli iqtisadiyyatın inkişafını stimullaşdırmaq, rusiya iqtisadiyyatının dünya təsərrüfatına səmərəli birləşməsi şərtlərinin formalaşmasına kömək etməkdir.

Rusiyanın qanunvericilik təcrübəsində ilk dəfə olaraq «xarici ticarət fəaliyyəti», «əmtəə», «xidmət», «intellektual fəaliyyətin (intellektual mülkiyyət) nəticələrinə müstəsna hüquq» anlayışlar müəyyən edilmişdir. «İxrac» və «idxal» anlayışları milli gömrük sərhədinin keçilməsi üzrə müvafiq öhdəliklərlə əlaqələndirmək əsasında əsaslı sürətdə təkmilləşdirilmiş, habelə, «ixrac nəzarəti» və «iqtisadi təhlükəsizlik» anlayışları ayrılmışdır.

Baxılan qanunun mühüm elementi Rusiya Federasiyasının mərkəzi orqanları, onun subyektləri arasında xarici tica-

rət fəaliyyəti sferasında səlahiyyət bölgüsüdür. Habelə, birgə idarəetmə hüququ, həmçinin, birgə idarəetmə məsələləri üzrə subyektlərin xarici ticarət fəaliyyətinin əlaqələndirilməsi yolları da müəyyən edilmişdir. Qanunla dövlət aparatının ierarxiyası, inzibati – idarə xarakterli kompleksnin tədriclə ixtisarı ilə gömrük – tarif təsirini gücləndirməyə meyl (aksent) edən yerlərdə baza metodları və tənzimlənmə mexanizminin alətləri daxil edilməklə xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas müddəaları müəyyən edilmişdir. Vətən istehsalçılarının və daxili bazarın himayəçilik formalarından biri kimi müxtəlif əmtəələrin və xidmətlərin idxal-ixraca dövlət inhisarı, milli iqtisadi məqsədəuyğunluq və fəaliyyətdə olan dünya təcrübəsinə müvafiq olaraq istifadə edilə bilməsi diqqətə layiqdir.

İlk dəfə Rusiyanın ərazisində əmtəələrin və xidmətlərin idxalının vurduğu ziyanı, həmçinin milli istehsalçılara ziyan qorxusu yaratmalarına qarşı müdafiə tədbirlərin tətbiqi qanuniləşdirilmişdir. Belə tədbirlər kimi gömrük rüsumlarının qəsdən qaldırılması və kəmiyyət məhdudiyyətlərinin tətbiqi belə tədbirlərdəndir. Zərər (o cümlədən, dempinq) verilməsi faktı üzrə (və ya gözlənilən) təhqiqatı və ya Rusiya Federasiyası subyektinin icra hakimiyyəti orqanının, istehsalçının və yaxud daxili istehsalın 50%-dən çox oxşar əmtəələr (xidmətlər) istehsal edən istehsalçıların ittifaqlarının ərizələrinə əsasən hökumətin tapşırığı ilə hökumətin səlahiyyət verdiyi federal orqanlar həyata keçirir.

Qanunda nəzərdə tutulan 21 saylı maddə xüsusi diqqətə layiqdir. Ona əsasən rusiya şəxsləri Rusiyanın beynəlxalq iqtisadi sankiyalarda iştirak etməsi ilə əlaqədar federal büdcə hesabına zərəri qaytarmaq hüququnu almışdır. Bu hüquq məhkəmə qaydasında həyata keçirilir. Bundan əlavə qanuna sərhədyanı ticarətin və azad iqtisadi zonaların tənzimlənməsi anlayışları və normaları da daxil edilmişdir. Həmçinin Rusiyanın iqtisadi potensialına və dünya təsərrüfatında yerinə uyğun gələn xarici ticarət fəaliyyətinin inkişafına təsir edən tədbirlər kompleksinə də fikir verilmişdir. Xarici ticarət fəaliyyətində məlumatlandırma və məlumat xidməti probleminə

xüsusi fikir verilir ki, liberallaşmada kommersiya korrektliyini və sövdələşmələrin inkişaflılığını təmin edən mütləq şərt kimi çıxış edir. Rəqəm məlumatları bankının yaradılması və ondan istifadə imkanları nəzərdə tutulur. Xarici iqtisadi fəaliyyətin əlaqələndirilməsi və onun dövlət tənzimlənməsində Rusiya Federasiyasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinə mühüm rol ayrılmışdır.

İxrac – idxal yüklərinin hərəkəti, xairci ticarət sövdələşmələri, Gömrük kodeksi və «Gömrük tarifi haqqında» Qanunla tənzimlənir. Gömrük kodeksi 21.07.1993-cü il ildə qüvvəyə minmişdir. O gömrük orqanlarının hüquqi statusunun, gömrük rejimlərinin növləri, ödənişlər, onların əlavə edilməsi və toplanması (yığılması) qaydası, əmtəələrin və nəqliyyat Vasitələrinin sənədləşdirilməsi prosedurları, əmtəələrin və xidmətlərin gətirilməsi və aparılmasının məhdudlaşdırılması üçün əsasları müəyyən edir. Gömrük kodeksinin cinayət fəaliyyətinə aid maddələri Rusiya Federasiyasının Cinayyət və Cinayət-prosessual kodekslərin müvafiq maddələrinə uyğun gəlir. «Gömrük tarifi haqqında» Qanun 01.07.1994-cü ildən fəaliyyət göstərir və xarici iqtisadi fəaliyyətin Əmtəə nomneklaturasına uyğun olaraq sistemləşdirilmiş və gömrük sərhədini keçən mallara, xidmətlərə tətbiq edilən gömrük rüsumları, gömrük tarif stavkaları külliyyatını əks etdirir. Qanunla rüsumların növləri onların hesablanması metodu, xarici ticarətin operativ tənzimləmə tədbirləri, əmtəənin və onun keçdiyi ölkənin gömrük dəyərinin müəyyən edilməsi qaydası, habelə imtiyazların verilməsi mexanizmləri müəyyən edilmişdir.

Xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsinə, həmçinin qeyritarif xarakterli tədbirlərin köməyi ilə ixrac-idxal əməliyyatlarına dövlət tərəfindən təsiri aiddir. Onlara normalaşdırma və lisenziyalaşdırma aiddir. Rusiyada o Rusiyanın beynəlxalq öhdəliklərinə və əmtəələrin spesifikasına uyğun olaraq ixrac həyata keçirilən əmtəələrə aid edilir.

Xarici ticarət sazişlərini həyata keçirən və yerinə yetirən zaman və meydana çıxa bilən mübahisələrdə tərəflər «istifadə etdikləri hüquqla» üzləşirlər, hansı ki, bu hüquq həmin əməliy-

yatlar üzrə tərəflərin münasibətlərini tənzimləməlidir. Tərəflər istifadə olunan hüququ kontraktda qeyd edə bilər, ancaq mübahisə baş verdiyi hallarda onun əsasında razılığı həmişə əldə etmək olmur. Bu halda toqquşma normaları əsasında arbitraj məhkəməsinin qərarı vasitəsilə ya Rusiya tərəfinin, yaxudda xarici dövlətin hüququndan istifadə olunur. Lakin bu halda eyni məsələlərin müxtəlif mənalarda ifadəsi və reqlamenti ola bilər.

Hüquqi problemlərin qaydaya salınması prosesinin unifikasiyası üçün müxtəlif ölkələrin təsərrüfatçı subyektlərinin xarici iqtisadi sferasını həmahəng reqlamentləşdirən iki və çox tərəfli müqavilələri və başqa sənədləri işləyib hazırlamağa və bağlamağa başladılar. Bununla belə beynəlxalq müqavilələr həm normativ məcburi prinsipə görə, həm də fakultativ (könüllülük) xarakterinə görə yenidən təsnifləşdirilir. Onları həm də tənzimləmə obyekti kimi də qruplaşdırmaq olar.

Əmtəələrin alqı-satqı əməliyyatlarına aşağıdakı normativ xarakterli beynəlxalq müqavilələr aiddir:

- Əmtəələrin beynəlxaq alqı-satqı müqavilələrinə dair BMT-nın Konvensiyası (1980-ci il Vena Konvensiyası). Beynəlxalq xüsusi hüquq normalarına uyğun olaraq saziş bağlayan ölkələrin qanunarı tətbiq etmək mümükün olduğu hallarda müxtəlif Konvensiya ihtirrakçı ölkələrin kommersiya müəssisələri arasında müqavilələr bağlayan zaman tətbiq edilir. Onun əsasnaməsi tərəflərin müxtəlif tələbatlarına asan uyğunlaşır. O, şəxsi istifadə əmtəələrini reallaşdıran zaman, hərraclarda icra istehsal qaydasında fond kağızlarının, səhmlərin, su və hava nəqliyyat gəmiləri və hava balışında, elektrikenerji satışında tətbiq olunur. Rusiya 1991-ci il sentyabrında Konvensiyaya qoşulmuşdur.

- Əmtəələrin beynəlxalq alqı-satqısında iddia müddəti haqqında Konvensiya (Nyu-York Konvensiyası, 1974-cü il). İddia müddəti 4 il müəyyən edilmişdir. SSRİ bu Konvensiyaya imza atmışdı, ancaq Rusiya onu hələ təsdiq etməmişdir.

- Əmtəələrin beynəlxalq alqı-satqısında iddia müddəti haqqında Konvesiyada dəyişikliklər haqqında Protokol (Vena protokolu, 1980-ci il). Onun məqsədi Nyu-York Konvensiyası-

nı Vena Konvensiyasına uyğunlaşdırmaqdır ki, kontrakt tərəfləri onu bağlanan anda razılaşan dövlətlərdə olsunlar və ya razılaşan dövlətlərin qanunları tətbiq edilən olsun. SSRİ bu Protokolu imzalanmamış, Rusiya da buna qoşulmamışdır.

- 15 iyul 1955-ci ildən əmtəələrin alqı-satqısı müqavilələrinə tətbiq edilən qanunlar haqqında Konvensiya (Haqqa Konvensiyası, 1955). İhtirrakçılar arasında (Rusiya onların tərkibinə daxil deyildir) satıcının hüquqları tətbiq edilir.

- 20 mart 1992-ci il tarixli Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərin təşkilatları arasında əmtəə tədarükünün ümumi şərtləri haqqında Müqavilə (TTİ MDB, 1992). Müqavilənin iştirakçıları Ermənistan, Belarus, Qazağıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikstan və Ukrayna. Bütün təsərrüfat mülkiyyətçiləri üçün tətbiq edilə biləndir. Tərəflər dövlətlərarası müqavilələr üzrə tədarüklər müstəsna olmaqla, bağlaşma predmetinin seçimində, öhdəliklərin müəyyən edilməsi və başqa şərtlərdə azaddırlar.

- SSRİ- KXR-na və KXR-dan SSRİ-yə əmtəə tədarükünün ümumi şərtləri (TUŞ SSRİ-KXR, 1990) 01.07.1990-cı ildə qüvvəyə minmişdir. Rusiya SSRİ-nin qanuni varisidir. Müqavilə bazis şərtləridə nəzərə almaqla tədarük şərtlərini, müddətlər, keyfiyyət və kəmiyyət, texnika sənədləşmə, təminat, ödənişlər, sanksiyalar, iddialar (tələblər) və arbitrajı ətraflı qanuniləşdirir.

Lizinq və faktorinq haqqında beynəlxalq müqavilələr də mövcuddur.

- 28 may 1988-ci il tarixli beynəlxalq maliyyə lizinqi haqqında Konvensiya (Ottava Konvensiyası, 1988) xüsusi hüququn unifikasiyası Beynəlxalq institutu çərçivəsində işlənib hazırlanmış (UNİDRUA), 13 dövlət imzalamış, yalnız İtaliya, Fransa və Nigeriya arasında münasibətlərdə 1 may 1995-ci ildə qüvvəyə minmişdir. Bu konvensiyaya birləşmək haqqında Rusiya Federasiyası prezidentinin 19.09.94-cü il tarixli sərəncam hazırki dövrə qədər reallaşdırılmamışdır.

- 28 may 1988-ci il tarixli beynəlxalq maliyyə nümayəndəliyi (faktorinq) haqqında Konvensiya. Bunu 15 ölkə imzalamışdır ki, onlardan yalnız Fransa onu təsdiq etmiqşdir, qüvvə-

yə minmək üçün minimum üç ölkə təsdiq etməlidir. SSRİ-nin nümayəndəsi onun əsasnaməsinin işlənib hazırlanmasında iştirak etmişdir.

Həmçinin sənaye mülkiyyəti haqqında beynəlxalq müqavilələr də fəaliyyətdədir.

- sənaye mülkiyyət huququnun müdafiəsi haqqında Paris Konvensiyası, 1983-cü il. Onun tərkibinə 16 ölkə daxildir. SSRİ 01.07.1965-ci ildə birləşmişdir, onun Stokholm mətni isə 19.09.1968-ci ildə təsdiq edilmişdir. Konvensiyanın prinsipi ondan ibarətdir ki, o, sənaye mülkiyyət hüququnun müdafiəsinin milli rejimini, həmçinin də «konvensiya üstünlüyü»nü nəzərdə tutur. Onun mənası odur ki, dövlətlərin birində potent üçün ərizə başqa Konvensiya ihtirrakçı ölkələrdə də eyni ərizə vermək hüququnu verir. Patentlər üçün müddət 12 ay, əmtəə nişanları üçün isə 6 ay nəzərdə tutulur.

- 14 aprel 1891-ci il tarixli fabrik və əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid Müqaviləsi. Cəmi ihtirrakçılar 25 ölkə, SSRİ 1976-cı ildə birləşmişdir.

Beynəlxalq arbitraj üzrə bir sıra konvensiyalar vardır.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində xarici ticarət əməliyyatlarında vergiqoymanın beynəlxalq və Rusiya qaydaları xüsusi əhəmiyyət kəsb edir. Qırxdan artıq dövlətlə bağlanmış ikili vergiyə yol verməməyə dair müqavilənin təsdiq edilməsinə, Vergi Kodeksinin ikinci hissəsinin qüvvəyə minməsi ilə əlaqədar qaydaların dəyişilməsinə (ixrac fəaliyyəti sahəsində), əlavə dəyər vergisi üzrə vaxtında qaytarılmamış məbləğə görə büdcənin vergiödəyiciləri arasında cavabdehliyin meydana gəlməsinə fikir vermək lazımdır.

Xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsindən danışarkən rusiya regionlarının orada iştirakında texniki maneələrin azaldılması və regionlararası səviyyədə xarici iqtisadi əməkdaşlığın inkişafının zəruriliyini xüsusi qeyd etmək lazımdır. 1999-cu ildə qəbul edilmiş «Rusiya Federasiyası subyektlərinin beynəlxalq və xarici iqtisadi əlaqələrinin uyğunlaşdırılması haqqında» Federal Qanun buna kömək etməyə yönəlmişdir. O, regionların, yerlərdə hakimiyyət orqanlarının hüquq

və vəzifələrini dəqiq izah edir, regional müstəqilliyin yüksəlməsinə çalışmalarını, ancaq eyni zamanda bütövlükdə dövlətin mənafeyi üçün bütün ölkə miqyasında xarici iqtisadi fəaliyyətin uyğunlaşdırılmasının gücləndirilməsinin vaxtı çatmış zəruriyyətini nəzərə alır. Bununla əlaqədar regionlararası əməkdaşlığa təminat – analitik xidmətin gücləndirilməsi, xarici iqtisadi şazişlərin bütün silsiləsinin hüquqi əsaslarla reallaşdırmağa imkan verən işgüzar biznes-mərkəzləri şəbəkəsinin formalaşdırılması, məlumat xidməti və kooperasiya əlaqələrinin inkişafına bilavasitə təsir etmək, onların fəaliyyətində regionların nümayəndələrinin bilavasitə iştirakı əsasında birgə (müştərək) müəssisələri təsis etmək sahəsində xaricdə olan ticarət nümayəndəliklərinin rolunu aktivləşdirmək məqsədəuyğun hesab edilmişdir.

Suallar və tapşırıqlar

1. Bu müddəalar düzdürmü? a) idxal üzrə gömrük rüsumları dövlət müdaxiləsinin qeyri tarif metoduna aiddir; b) valyuta siyasəti dolayı iqtisadi tədbirlər alətini əks etdirir; c) əmtəələrin və xidmətlərin sertifikatları ixracın tarif tənzimlənməsidir.

2. Rusiyada xarici ticarətdə inhisarın tətbiqi: a) mümkündür; b) mümkün deyil; c) dövlətarası səviyədə sazişlərlə razılaşmalar əsasında mümkündür; ç) müxtəlif növlərdə məhsullara beynəlxalq normalara və təcrübəyə uyğun olaraq əvvəllər müəyyən edilmiş dövrə müküdür. Düzgün cavabı seçin. Onu əsaslandırın.

3. İxrac-idxal yüklərinin hərəkəti tənzimlənir: a) Gömrük kodeksi və «Gömrük tarifi haqqında» Qanunla; b) «Gömrük tarifi haqqında» Qanunla; c) İNKOTERMS 1990-cı il; ç) tərəflərarası kontraktlarla. Tapşırıq (2) maddədə olduğu kimidir.

4. İxraca dövlətin köməyini təzahür edir, xüsusi ixracçılar institutunun tətbiqində; b) ixrac rüsumların tətbiqində; c) ETİ və ETLEİ üzrə müxtəlif proqramların maliyyələşdirilməsində,

infrastruktura dotasiyalarda və subsidiyalarda, özəlləşdirmə proqramında və b. tapşırıq (2) maddədə olduğu kimidir.

5. Əmtəələri ixraca qoyanda qeyd olunan üç halın hansında dempinq vardır?

	I	II	III
İstehsal xərcləri	100 vahid	100 vahid	100 vahid
İxracın ölkə daxilində satış qiyməti	150 vahid	120 vahid	170 vahid
Kontrakt üzrə qiymət	140 vahid	140 vahid	90 vahid
İdxalçı–ölkədə (bazarda qüvvədə olan) satış qiyməti	130 vahid	130 vahid	200 vahid

6. Əsaslandırılmış gömrük tarifi stavkaları səbəb və ya nəticə ola bilərmi? a) daxili bazarda qiymətlərin artımı; b) investisiyanın stimulu; c) idxalın strukturuna və əmtəə axınların bölüşdürülməsinə mənfi təsir göstərmək? Tapşırıq (2) maddəyə uyğundur.

7. Rusiyanı TTBM / ÜTT-na daxil olması üçün Sizin fikrinizcə aşağıda adları çəkilən gömrük tarifləri hansı tələblərə cavab verməlidir? a) ölkə daxilində xarici rəqabətin optimal səviyyəsini təmin edən struktur siyasətinin səmərəli elementi, daxili inhisarçılıqda mübarizə elementi olmaq; b) ticarət-siyasi və ticarət-iqtisadi güzəştləri almaq, rüsumların qarşılıqlı araşdırılması və kontragent ölkələrdə himayədarlığın başqa tədbirlərini zəiflətmək üçün imkanlar yaratmaq.

© Пеская В.В., 2002.

XXXV Fəsil

POSTSOVET MƏKANINDA OLAN ÖLKƏLƏRLƏ RUSİYANIN İNTEQRASİYA ƏMƏKDAŞLIĞININ İNKİŞAFI

1. İnteqrasiya əməkdaşlığının əhəmiyyəti

Rusiya da daxil olmaqla postsovet məkanına daxil olan keçmiş SSRİ respublikaları ilə iqtisadi münasibətlər bizim ölkə üçün irimiqyaslı təsərrüfat və geopolitik əhəmiyyətə malikdir. Qeyd olunan məkan avrasiya regionunun mühüm tərkib hissəsi olmaqla bir neçə yüzilliklərdə formalaşmış və mühüm geoiqtisadi sistemyaradıcı struktura malikdir. 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində adı çəkilən ölkələrin qarşılıqlı iqtisadi əlaqələrinin səviyyəsi kəskin aşağı düşsə də son illərdə tədricən bərpa olunaraq artıq inteqrasiya xarakteri daşımağa başlayır. Ona görə də qeyd etmək lazımdır ki, həmin proseslərin tədrici inkişafı müşahidə olunur, lakin bu inkişaf prosesi sabit hakimiyyətin mövcud olduğu dövrdən tam fərqli əsasda baş verir. Dövlətlərarası iqtisadi əlaqələrdə mərkəzləşdirilmiş planlı idarəetmə sisteminin yerinə bazar mexanizmindən istifadə edilməyə başlandı. Bu zaman başlıca problemlər makrosəviyyədə başqa sözlə, təsərrüfat subyektləri arasında əlaqələr əməkdaşlıq edən tərəflər arasında qarşılıqlı səmərə və bərabərlik prinsipləri əsasında həyata keçirilir.

Keçmiş Sovet Respublikaları arasında 2000-ci ildə qarşılıqlı əmtəə dövriyyəsi 1990-cı ilin 40%-i səviyyəsinə endi. Baxmayaraq ki, postsovet məkanında rusiya özünün aparıcı mövqeyini saxlayıb. Lakin son illərdə Pribaltika respublikaları xarici ticarətin intensivliyinə görə (adambaşına düşən xarici ticarət dövriyyəsinə görə) üstün mövqedədir. Rusiya Federasiyasında islahatların ilkin mərhələsində postsovet respublikalarının bazarı kifayət qədər qiymətləndirilmişdir. 1991-ci ildə Rusiya dövlət Şurası üçün təklif hazırlayan ekspetlər belə hesab edirdilər ki, post sovet respublikaları ilə əmtəə mübadiləsinin dayandırılması onun milli gəlirin cəmisi 6% azaldar. Ancaq son nəticədə bu rəqəm Rusiyanın real itkilərindən çox aşağı oldu.

Müxtəlif qiymətləndirmələrə görə keçmiş sovet respublikaları ilə təsərrüfat əlaqələrinin qırılması 1992-ci ildə onun sənaye potensialının 30%, ÜDM-nin isə 23% azalmasına səbəb oldu.

Maşın, avadanlıqlarla yanaşı bir çox sənaye, aqrar xammal bazarının itirilməsi nəticəsində yenidən müvafiq məhsullar üzrə xarici ticarət əlaqələrinin qurulması Rusiyanın nəqliyyat xərclərini bir neçə dəfə artmasına səbəb oldu və bir çox dəniz limanları (Odessa, İliçevsk, Riqa, Vilnyus, Tallin) digər respublikaların sərəncamına keçdi.

Bununla yanaşı, Rusiya bir çox emal sənayesi məhsulları üzrə ənənəvi bazarları itirdi. Bu da nəinki Rusiyada iqtisadiyyatın sabitləşməsinə və canlanmasına mənfi təsir göstərdi, həm də keçmiş sovet respublikalarına onun təsirini kəskin azaltdı SSRİ-nin dağılması nəticəsində 1990-cı ildə Rusiyada ərzaq problemi kəskinləşdi. Keçmiş sovet respublikalarından ərzaq məhsullarının daxil olmaması və özünün ərzaq bazarı formalaşmadığından Rusiya Qərb ölkələrinin ərzaq asılılığına düşdü. Rusiyanın ixracdan asılılığı artdı, ölkənin iqtisadiyyatında emal sənaye sahələrinin məhdudlaşması milli gəlirdə «texnoloji renta»nın payının artmasına gətirib çıxartdı, resursların yenidən bölgüsü nəticəsində «azad olmuş» resurslar «uzaq xaricə» yönəldilirdi. Keçmiş sovet respublikalarından idxal Rusiyada son məhsul istehsalının 1/3 təşkil edirdi. Əgər bu

fondlar olmasa idi Rusiya iqtisadiyyatında istehlak 18%, yığım fondu isə iki dəfə azalardı. «Rusiyanın «yaxın xariclə» iqtisadi əlaqələri onların son məhsulunun 1/3-ni, istehlak fondunun yarısını formalaşdırır.

Yuxarıda Rusiya və digər postsovet respublikaları ilə qeyd olunan iqtisadi əlaqələrin dəyərləndirərkən qeyri-ekvivalent mübadilə nəzərə alınmır. Bunun da sayəsində bəzi müstəqil dövlətlər Rusiyanın milli gəlirinin müəyyən hissəsinin onlar tərəfindən havayı mənimsənilir. Bəzi hesablamalara görə əgər ekvivalent mübadilə baş versə idi bu Rusiyanın son məhsulunu 9%, istehlak fondunu 20% artırmata imkan verərdi. O cümlədən keçmiş SSRİ respublikalarında son məhsul 1/4, istehlak fondu isə iki dəfə azalardı. Beləliklə, «patronatın» Rusiya üçün qiyməti çox yüksək oldu. Belə ki, bu onun son məhsulunun 1/10, «yaxın xaric» isə özünün son məhsulun ¼ hissəsi qədər itgiyə səbəb olur.

2. **MDB ölkələri ilə təsərrüfat əlaqələri**

Postsovet məkanında Rusiyanın inteqrasiya əməkdaşlığı hər şeydən əvvəl müstəqil dövlətlər birliyinin (MDB) 11 ölkəsi ilə həyata keçirilir. 1991-ci ildən hal-hazıra kimi Rusiyanın həmin ölkələrlə iqtisadi əlaqələri əsaslı dəyişikliyə uğramışdır.

Birincisi, mərkəzləşdirilmiş planlı iqtisadiyyat şəraitində vahid iqtisadi kompleks hüdudlarında formalaşmış daxili təsərrüfat əlaqələri qarşılıqlı münasibətlər sürətlə və birdəfəlik öz xarakterini itirdi. 1993-cü ildən başlayaraq «Rubl zonası» tamamilə aradan qalxdı. Bütün MDB ölkələri bir-birilə münasibətlərini dünya ticarət şərtlərinə istiqamətlənən prinsipcə yeni ölkələrarası iqtisadi münasibətlər əsasında qururdular.

İkincisi – hazırda ölkələrarası iqtisadi əlaqələr, MDB-yə daxil olan ölkələrin iqtisadi potensialından asılı olmayaraq milli-dövlət maraqlarına, suverenliyin gözlənilməsi prinsiplərinə əsaslanır. Postsovet məkanında MDB-yə daxil olan ixti-

yari, ən kiçik dövlət belə, Rusiya ilə ikitərəfli əlaqələrə də daxil olarkən, öz iqtisadi marağını nəzərə alaraq fəaliyyət göstərir.

Üçüncüsü – sabiq SSRİ-yə daxil olan regionlar, Rusiya da nəzərə alınmaqla MDB-nin tərəfdaşları olan dövlətlər və habelə Baltikyanı ölkələr avtargiya ticarət zonasından çıxmamaqla dünya birliyi ilə ticarət əlaqələrinə başladılar. Yaxın dövrə qədər «dünya bazarının ehtiyat fondu» adlandırılan və böyük əraziyə malik olan ölkələr, genişlənən siyasi və iqtisadi islahatlar nəticəsində dünya təsərrüfatı prosesinə geniş cəlb olunmağa başlandı. Hazırki, dövrdə MDB-məkanında bazar, beynəlxalq inhisar və transmilli korporasiyaların rəqabət mübarizəsi meydanına çevrilmidi.

Dördüncü – regional bazarların açılması şəraitində MDB-də Rusiyanın iştirakı və eləcə də ayrı-ayrı ölkələrin iqtisadi qruplaşması və subregion inteqrasiya təmayüllü meyllər nəzərə çarpır və daxili strukturlaşma prosesi gedirdi.

İstehsalın və maliyyə sferalarında bazar islahatları ilə həyata keçirilən stimullaşdırıcı təmayüllərin hələlik zəif olması da nəzərə çarpır.

Biznes və maliyyə bazar subyektlərinin mikro səviyyədə təsərrüfat sistemlərinin inteqrasiya aktivliyi iqtisadi və siyasi xarakterli mənfi amilləri aradan qaldırırdı. Rusiya firma və banklarının MDB-nin iqtisadiyyatında iştirakı «uzaq xaric» sahibkarlarına artıq daha ciddi rəqabət göstərirdilər.

Artıq 90-cı illərin ortalarından MDB üzrə tərəfmüqabil ölkələrin maddi istehsalında Rusiya kapitalının aktivliyi artırdı. Bunun üçün həmin dövrə qədər müəyyən iqtisadi təşkilati-hüquqi zəmin yaradılmışdır. İştirakı miqyasına görə əksər MDB- ölkələrində Rusiya kapitalı Qərb ölkələrindən geri qalır. Lakin bir sıra ölkələrdə (Belarusiya, Moldova, Ukrayna) o, kifayət qədər möhkəm mövqe tutur. Belə ki, Rusiyanın sahibkarlıq strukturları, tərəf-müqabil ölkələrin maddi istehsalının perspektiv sahələrinə – yanacaq enerji komplekslərinə (YEK), əlvan metallurgiya, nəqliyyat və kənd təsərrüfatı, maşınqayırma, sığorta və s. sahələrə nüfuz etməyə cəhd göstərirlər.

SSRİ-də inzibati metodlarla həyata keçirilən təsərrüfat inteqrasiyası əvəzinə, MDB – ölkələri yaxın və uzaq perspektivdə iqtisadi əməkdaşlığının elə şəraitini tapmağa çalışırlar ki, onlar bazar iqtisadiyyatının tələblərini ödəmiş olsun.

MDB – ölkələrində irsən elə əlaqələr sistemi qalmışdır ki, onlar bazar şəraitində də iqtisadiyyatın inteqrasiyası üçün tam əsas ola bilərlər. Bu vahid informasiya sistemindən, vahid enerji sistemindən, rabitə və nəqliyyatın vahid sistemindən, telekommunikasiya, neft və qaz kəmərləri, texniki sənədlər standartlar və s. ibarətdir. Bu sistemlərin inkişafı dərəcəsi məsələn Avropa Birliyindəkindən (AB) yüksəkdir. Deməli belə hesab etmək olar ki, MDB artıq inteqrasiya və qarşılıqlı əlaqənin iqtisadi məkanına malikdir. Bununla yanaşı mövcud vəziyyətdə o, vahid valyuta və tədiyyə birliklərindən məhrumdur.

Siyasi baxımdan, süni olaraq 1991-ci ildə sabiq SSRİ-nin parçalanması, yuxarıda qeyd edildiyi kimi, yüksək iqtisadi artıma gətirib çıxarmadı. Əksinə, vahid gömrük məkanının və istehsalın kooperasiyası, ixtisaslaşması formasında mövcud olan ənənəvi iqtisadi əlaqələrin dağıdılması böyük itkilərə və dərin böhrana səbəb oldu. MDB ölkələrinin vəziyyətinin 1992-ci ildə təhlili, onların hər birində böhran hadisəsinin mövcudluğunu göstərdi: istehsal miqyasının aşağı düşməsi, inflyasiyanın yüksək artım sürəti, investisiya aktivliyinin azalması, milli gəlirdə yığım fondunun azalması və s.

Bütünlükdə 90-cı illərdə MDB ölkələrinin mərkəzdənqaçma qüvvəsi, mərkəzəqaçma qüvvəsindən üstünlük təşkil etmişdir. Bu çərçivədə, həmin ölkələrin qarşılıqlı ticarət və kooperasiya əlaqələrinin söykənə biləcəyi istənilən qədər çoxtərəfli razılaşmalar qəbul edilmişdir. Əfsuslar olsun ki, həmin razılaşmaların əksər hissəsi «işləmədi». Onların içərisində 1993-cü ilin sentyabr ayında İqtisadi Birlik haqqında bağlanmış niyyət müqaviləsini qeyd etmək olar. Bu müqavilə vahid maliyyə, bank və valyuta-pul sisteminin yaradılmasını, dövlətlərarası hüquqi yoxlama razılıqlarının qəbul edilməsini, xarici ticarət və daxili iqtisadi siyasətin tənzimlənməsi üzrə milli

institutların formalaşmasını nəzərdə tuturdu. Bu müqavilə hələ də qüvvəyə minməmişdir.

Bunların hamısını siyasi təkəbbürün mövcudluğu ilə izah etmək olmaz. Digər iqtisadi amillər də mövcuddur. Belə ki, sənaye xammalı və yanacaqla fərqli təminatı, ərzaq resursları və kadr çatışmazlığına malik olan MDB ölkələrinin bazar iqtisadiyyatına doğru müxtəlif sürətli hərəkətləri də aydın müşahidə olunur. MDB-ölkələrində «bazar» infrastrukturası kamilliyi səviyyəsi də müxtəlifdir. Onlar qiymətlərin liberallaşması səviyyəsinin xüsusiyyəti və miqyasına görə də əhəmiyyətli dərəcədə fərqlənirlər.

Bütün bunlara baxmayaraq, MDB-nin bir qrup ölkələri öz aralarında sazişə gələrək, əməkdaşlıq etmək üçün tam olmasa da inteqrallaşmış qruplar yaratmağa səy göstərirlər. Məsələn, Rusiya ilə Belarusiya, Tacikistan, Qırğızıstan, Qazaxstan arasında gömrük problemləri üzrə sazişlər imzalanmış və fəaliyyət göstərməkdədir. Orta Asiya ölkələrinin inteqrasiyası üzrə alt qrupunun yaradılması niyyəti ilə danışıqlar aparılır. Bütövlükdə MDB məkanında iqtisadi əlaqələrin müqavilə-hüquqi əsası üçün, kifayət qədər ikitərəfli razılaşmalar sistemi mövcuddur ki, onlarında əksəriyyəti uzunmüddətli xüsusiyyətə malikdir.

MDB-ölkələrinin siyasi və işgüzar dairələrinin qarşılıqlı əlaqəyə hazırlığı, obyektiv olaraq regional inteqral qruplar üzrə bu ölkələrin hökumətləri qarşısında iqtisadi əlaqələrin sürətli inkişafına nail olmaq üçün siyasi vəzifə qoyur. Lakin bu vəzifənin həyata keçirilməsi nəinki daxili müqavimətlə rastlaşır, habelə buna xarici amillərdə əks təsir göstərir. Onların içərisində daha nəzərə çarpanı, MDB- ölkələrinin öz aralarında əlaqənin inkişafı deyil, sənaye cəhətdən inkişaf etmiş Qərb ölkəlləri ilə əlaqənin qurulmasıdır.

MDB-nin bir sıra ölkələri artıq qərarlaşmış inteqrasiya qrupları ilə iqtisadi əlaqələri genişləndirirlər. Xüsusilə bu Orta Asiya respublikalarına və həmçinin Türkiyə və digər üçüncü ölkələrlə («ipək yolu» ölkələrinin iqtisadi inkişafı) iqtisadi əlaqələrə girən Azərbaycan və Gürcüstana aiddir. Vışeqrad ittifa-

qına daxil olan Polşa, Slovakiya, Çexiya və Ukrayna ölkələrində inteqrasiya qruplarıda hərəkətə gəlmişdir. MDB-nin bəzi ölkələrinin ABŞ, Almaniya və digər investisiya sahəsində inkişaf etmiş ölkələrlə iqtisadi əlaqələri mahiyyətcə yüksəlməyə başlamışdır.

MDB çərçivəsində iqtisadi münasibətlərin bu istiqamətləri mikro-makro səviyyədə qarşılıqlı əlaqələr kompleksləri ilə heç bir təsərrüfat əlaqələrinə malik deyildir. Buna görə də onlar MDB-yə mərkəzə qaçma təmayülünün alternativ istiqaməti kimi əks olunurlar. Bütün bunlar, MDB ölkələrində iqtisadi stiutsiyaların stabilləşməsi və ümumi vəzifənin həll edilməsi üçün sabiq ittifaq respublikaları arasında qarşılıqlı effektli əlaqələrinin bərpa olunmasının məqsədəuyğun olduğunu bir daha sübut edir. Respublikalararası qeyri-ekvivalent mübadilənin aradan qaldırılması problemi xüsusilə gözə çarpır. Lakin burada söhbət qarşılıqlı əlaqələrin əvvəlki strukturuna qayıdılmasından getmir.

Cədvəl 24.

Birlik ölkələrinin xarici ticarət dövriyyəsində MDB-nin ayrı-ayrı ölkələrinin xüsusi çəkisi

Göstəricilər	1990	1995	2000
MDB ölkələri üzrə: cəmi:	69	34	25
Rusiya	57	22	17
Belarusiya	83	64	60
Ukrayna	78	57	40

Cədvəldən göründü kimi MDB-nin ən iri dövləti Rusiya hələ də inteqrasiya prosesini öz resursları ilə dəstəkləməmiş bəzi hallarda isə bunu istəməmişdir. Uzaq xaricdən investisiya və kreditlər reqionun resurslarını qat-qat üstələmişdir və əslində MDB-ölkələrinin yaşaması üçün əsas şərt olmuşdur. MDB-ölkələri ilə Rusiyanın ticarət dövriyyəsi 1992-1999-cu

illərdə 1,3 dəfə artmışdır. Lakin bu artım qeyri-bərabər olaraq, artımdan daha çox azalmağa məruz qalmışdır.

MDB-ölkələrindən Rusiya ilə ticarət əlaqələri əsasən Ukrayna, Belarusiya, Qazaxstan tərəfdaş olmuşlar. Sonra isə Özbəkistan və Moldava gəlir. Rusiya bütün MDB ölkələri ilə bir nömrəli ticarət tərəfdaşıdır. Xüsusilə bu Ukrayna ilə idxal-ixrac əməliyyatlarında nüfuzedici mahiyyətə malikdir.

Cədvəl 25.[1]

Rusiya Federasiyasının MDB ölkələri ilə xarici ticarəti (faktiki fəaliyyətdə olan qiymətlərlə, mlrd ABŞ dolları)

Göstəricilər	1992	1993	1994	1995	1996	1997	1998	1999	2000
Dövriyyə	17,2	26,8	28,1	32,2	37,3	36,1	30,2	22,3	25,4
İxrac	11,1	15,3	14,5	15,4	17,6	18,3	15,8	12,3	13,8
İdxal	6,0	11,5	13,6	16,8	19,7	17,8	14,4	10,0	11,6
Saldo	+5,1	+3,2	+0,9	- 1,4	- 2,1	+0,5	+1,4	+2,3	+2,2

1. Rusiya statistik məcmuəsi. Döv. Stat. Kom. 2000, səh 578 MDB stat. Kom. Qiymətləndirilməsi

Adətən MDB ölkələrinə Rusiyadan ixracın strukturunda yanacaq-enerji, xammal resursları, habelə emal sahələrinin məhsullarının xüsusi çəkisi nisbətən azlıq təşkil edir.

Bu zaman Rusiya ixracatının xammala istiqamətlənməsi güclənir, maşınqayırma məhsulunun xüsusi çəkisinin aşağı düşməsi müşahidə olunur. Rusiyaya MDB ölkələrindən idxalın əmtəə strukturu, uzaq xaricdəki ilə təxminən eynidir. İdxalın əsas hissəsini maşınlar, avadanlıq və ərzaq məhsulları, habelə metal və borular təşkil edir. MDB ölkələrinin Rusiya ilə iqtisadi əlaqələri 90-cı illərdə faktiki olaraq maşın və avadanlıqların netto-ixracı formasında çıxış edirdi.

Şərti olaraq hesab edilir ki, RSFSR-ə xarici ticarət dövriyyəsində nisbətən SSRİ-nin digər ölkələrinin xüsusi çəkisi

60% təşkil edirdi. Praktiki olaraq sabiq respublikalarla Rusiyanın idxal-ixrac əlaqələri 2000-ci ildə 18% qədər aşağı düşmüşdür.

Rusiyanın MDB ölkələri ilə iqtisadi əlaqələrinə 90-cı illərdə əngəl törədən əsas amil həmin ölkələrdə inflyasiyanın yüksək səviyyəsi olması idi. Xarici iqtisadi əlaqələrə xüsusi zərbə 1998-ci ilin avqustunda Rusiyada baş verən maliyyə-valyuta böhranı olmuşdur. Bütün bunların hamısı Rusiyanın, MDB-nin digər ölkələrinin firma və müəssisələrinin barter əsasında həyata keçirilməsinə üstünlük keçirilməsinə gətirib çıxarırdı. Bu isə öz növbəsində dövlətlərarası hesablama o cümlədən, qarşılıqlı borclar problemini kəskinləşdirməyə bilməzdi.

3. Ticarət-iqtisadi əlaqələr

Rusiyanın MDB ölkələri ilə ticarət əlaqələrinin tənzimlənməsi, digər qrupp ölkələrlə aparılan əməkdaşlıq prinsipləri ilə eynidir. Lakin Rusiyanın MDB ölkələri ilə iqtisadi əlaqələri, xarici iqtisadi münasibətlərin xüsusi sferası kimi çıxış edir. Burada özünəməxsus xüsusiyyət vardır. Bu xüsusiyyət Rusiya ilə MDB ölkələri arasında İqtisadi Əməkdaşlıq ölkələri İttifaqının yaradılması ilə əlaqədar olaraq 1993-cü ildə imzalanmış müqavilə ilə şərtlənmişdir. Bu müqavilə Rusiyanın MDB ölkələri ilə uzunmüddətli əməkdaşlığı müəyyənləşdirmişdir.

İqtisadi ittifaqın formalaşmasında ilk addım, 1994-cü ilin aprel ayında imzalanmış sərbəst ticarət zonasının yaradılması haqqında müqavilə oldu. Hazırda, sərbəst ticarət zonasının Rusiya da daxil olmaqla MDB-nin 12 ölkəsi üzvüdür. Bu müqavilə tədrici olaraq gömrük rüsumların, vergi və yığımlarının, habelə qarşılıqlı ticarət kəmiyyət məhdudiyyətlərinin, ticarət və xidmətlərin sərbəst hərəkətinə maneçilik törədən amillərin aradan qaldırılmasına istiqamətlənmişdir.

Bununla yanaşı bu müqavilədə iştirak etməyən MDB ölkələri ilə xarici iqtisadi əlaqələrin qurulması hüququnu

özündə saxlamışdır. Həmin razılaşmaya uyğun olaraq hazırda MDB dövlətlərində Rusiyaya gətirilən və çıxarılan məhsullara gömrük haqqı tutulmur. Əlavə dəyər vergisi və aksizlər Rusiya istehsalı olan məhsullara tətbiq edilən səviyyədədir. Bununla yanaşı 1 may 1993-cü ildən Rusiyaya gətirilən və çıxarılan məhsullara gömrük deklarasiyası tətbiq olunur. Məhsulların qeydə-uçota alınması üçün tətbiq olunan rüsumların səviyyəsi də ümumi əsaslarda aparılır.

«Tranzit qaydaları haqqında» razılaşmaya görə (8.02.1992), Rusiyaya tranzit yolu ili daşınan (Azərbaycan, Ermənistan, Belarusiya, Qazaxstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan) və həmin ölkələrə Rusiya ərazisindən tranzit qaydada daşınan məhsulların qeydiyyatı üçün gömrük rüsumları alınmır. Razılaşmanın iştirakçısı olmayan ölkələr iştirakçı ölkələrin ərazisindən tranzit qaydasında məhsul daşıyarkən, qeydiyyat üçün rüsum ümumi qaydada alınır.

Azad ticarət zonası haqqında razılaşmaya imza atarkən ölkəllər, hər bir ölkənin həyatı fəaliyyətinin müdafiəsi üçün zəruri olan beynəlxalq təcrübədə qəbul olunmuş dövlət tənzimləmə tədbirlərinin həyata keçirilməsində azaddır və ölkələrin biri digərinin qəbul etdikləri qərarlara maneçilik törədə bilməz.

Bu tədbirlər xüsusi mənəviyyatı (əxlaqı) və ictimai qaydada, əhalinin yaşayışı və sağlamlığının müdaiyəsini, bitki və heyvanlar aləminin qorunmasını, ətraf mühitin mühafizəsini, milli sərvətin əsasını təşkil edən tarixi, arxeoloji, bədii dəyərlərin saxlanılmasını, bərpa olunmayan təbii resursların qorunmasını, tədiyyə balansının pozulmasını, sənaye və İntellektual mülkiyyətin müdafiə olunmasını, qiymətli daş-qaşlarla, gümüş və qızılla ticarəti, məhsulun ölkədəki qiyməti xaricdəkindən aşağı olduğu halda həmin məhsulun ixracına məhdudiyyət qoyulmasını əhatə edir.

Müqavilə, danışıq aparan tərəflərin heç birinə dövlət tənzimlənməsinin ixtiyari tədbirlərdən istifadə hüququna əngəl törətmir. Söhbət, dövlət sirrinə aid olan məxfi informasiyanın sızması, silah alveri, hərbi texnika və sursat satışı, hərbi

xarakterli xidmət göstərilməsi, hərbi texnika və silah istehsalına köməklik göstərilməsi və s. daxil olmaqla milli təhlükəsizliyin təmin olunmasından gedir. Bu parçalanan materiallar və radioaktiv tullantıların mənbələrinə nə beynəlxalq münasibətlərdə əlahiddə hadisələr və hərb zamanı tətbiq olunan tədbirlərə və habelə BMT Nizamnaməsi əsasında, dünyada beynəlxalq sülhün və təhlükəsizliyin saxlanılmasına dair öhdəliklərin yerinə yetirilməsinə də aiddir.

Rusiya və MDB-nin başqa ölkələri 8 iyul 1994-cü ildə gömrük sərhədində gömrük qeydiyyatının sadələşdirilməsi və unifikasiya olunmuş üsulu haqqında Müqavilə imzaladılar. Buna uyğun olaraq nəzarət sənədinin bir nüsxəsi, gömrük nəzarəti altında məhsul çatdırılması üçün, üç nüsxəsi ilə istehsalçının sənədinin müşayiəti ilə gömrük orqanları tərəfindən tərtib olunmuş sənədlərlə birlikdə gömrük yük deklarasiyası kimi istifadə olunurdu.

MDB ölkələrindən və Müqavilə iştirakçılarından qarşılıqlı məhsul alqı-satqısının gömrük rüsumundan azad olması şəraitində və azad ticarət zonasının yaradılmasında məhsulun mənşəyinin müəyyənləşdirilməsi qaydası xüsusi əhəmiyyətə malikdir. Bu qaydalar 1994-cü ilin aprelindən sərbəst ticarət zonası haqqında Müqavilə iştirakçılarına tətbiq olunur. Bu qaydalara görə məhsulun əmələ gəlməsi ölkəsi o, dövlət hesab olunur ki, ya məhsul orada istehsal olunub, ya da ki, kifayət qədər yenidən emal edilmişdir.

«Kifayət qədər yenidən emal»-ın meyarı dünya təcrübəsində ümumi qəbul edilmiş qaydalardır. Elə onlardan da Rusiyanın gömrük qanunlarının hazırlanmasında istifadə olunur. Ümumi qayda belədir. Məhsulun Əmtəə Nomenklaturunun birinci dörd işarəsindən ixtiyari (məhsulun təsnifləşdirici kodu) birinin dəyişməsi nəticəsində əmtəənin vəziyyətinin dəyişməsi baş verdiyi hal məhsul kifayət qədər yenidən emal olunmuş hesab edilir.

Qayda müəyyənləşdirir ki, Müqavilə iştirakçısı – dövlətlərdən birinin rezidenti tərəfindən bütün meyarlara cavab verən məhsulun alındığı halda onun iştirakçı-dövlətin gömrük ərazi-

sində yarandığı hesab olunur. Sərbəst ticarət zonasının yaRadılması haqqında Müqavilə iştirakçı-dövlətlərinin gömrük ərazisində əmələ gəlmiş əmtəənin vəsiqəsinin, dövlət gömrük orqanlarına təqdim olunması zəruridir. Həmçinin dövlət gömrük orqanlarına məhsulun mənşəyi və onun iştirakçı ölkələrdən çıxarılması haqqında deklarasiya-sertifikat təqdim olunmalıdır. Rusiya Federasiyasında belə dövlət orqanı Ticarət Sənaye Palatasıdır.

Göstərilən Müqaviləinin inkişafı üçün 1995-ci ilin noyabrında Rusiya və MDB ölkələri, digər müqavilələr də imzalamışlar.

Xarici iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin, statistika hesabatının təkmilləşdirilməsi və statistika informasiyalarının mübadiləsinin həyata keçirilməsi üçün xarici iqtisadi fəaliyyətin MDB ölkələri üzrə vahid Əmtəə nomenkulaturası qəbul edilmişdir (MDB/XTF/ƏH). Onun əsasında Dünya Gömrük Təşkilatında əmtəələrin kodlaşdırılması və qeydə alınmasının harmonik sistemi durur. MDB-nin qalan ölkələrinin xahişi ilə Rusiya Federasiyasının gömrük xidməti MDB/XTF/ƏH həyata keçirir. O, müqaviləinin beynəlxalq əsasında baş verən dəyişikliklərə və əlavələrə nəzarət edir, MDB/XTF/ƏH beynəlxalq əsasa uyğunluğunu izahlarla tamamlayır, MDB/XTF/ƏH etalon nüsxəsini saxlayır. O, həmçinin MDB –ölkələrinin gömrük xidməti ilə birlikdə uyğun izahları işləyib hazırlayır. MDB ölkələrinin gömrük xidmətləri rəhbərlərinin Şurasının tapşırığı ilə Rusiya Federasiyasının gömrük xidməti MDB/XTF/ƏH üzrə təfsirləri (izahları) təsdiq edir.

Rusiya və MDB ölkələrinin gömrük fəaliyyətlərinin yaxınlaşdırılması sahəsində mühüm sənəd «MDB-nin iştirakçı-dövlətlərinin Gömrük qanunauyğunluğunun əsasları» (10.12.1994) haqqında sənəd hesab olunur. Həmçinin «Yük gömrük deklarasiyasının doldurulması üzrə vahid təminat» böyük rola malikdir. MDB ölkələrindən, Rusiyanın mülkiyyəti olan obyektlərə xidmət üçün istiqamətlənmiş məhsulların daşınması üçün xüsusi qayda tətbiq edilir. Onların ixracı gömrük rüsumu alınmadan aparılır, siyasi tədbirlərə cəlb olunmur və gömrük orqanlarının icazəsi olmadan müsadirə oluna bilməz.

Bu qayda MDB ölkələrinə hərbi texnika və sursat daşınmasına toxunmur.

Lakin azad ticarət qaydası MDB ölkələrinin bir-birinə münasibətdə hələlik tam tətbiq olunmur. Bu isə sözsüz onun effektini azaldır. Buna onu da əlavə etmək olar ki, qarşılıqlı ticarət üzrə idxal-ixrac rüsumlalrının aradan qaldırılması üzrə MDB ölkələrinin həyata keçirilməsi üzrə nəzərdə tutulan tədbirlər qarşıda qoyulmuş vəzifə ilə adekvat deyildir. Azad ticarət zonası bazarının müdafiyə mexanizmidə işlənməmişdir. Bu məsələ üzrə konsepsiya işlənmə mərhələsindədir. MDB dövlətlərinin, müəssisə və sahələrinin istehsal kooperasiyalarının inkişafını dəstəkləmək üçün ümumi şərt və mexanizmlər haqqında dekabr 1993-cü ildə çox tərəfli Müqavilə imzalanmışdı. Bu sənəddə, bütün mülkiyyət formaları üzrə müəssisələr arasında birbaşa istehsal əlaqələrinin kooperasiyasının dövlət dəstəklənməsi nəzərdə tutulmuşdur. Sənəddə həmçinin hərbi sənayenin konversiyası da daxil olmaqla birgə müəssisələrin çoxtərəfli koordinasiyası və prioritet sahələrin müəyyən edilməsi nəzərdə tutulmuşdur.

MDB ölkələri və Rusiya da daxil olmaqla qeyd olunan Müqaviləyə görə daşıma üzrə rüsumlar, vergi və aksizlər tətbiq etmirlər. Gömrük qaydası çərçivəsində yenidən emala və göstərilən xidmətlərə kəmiyyət məhdudiyyətləri də qoyulmur. Onlar həmçinin öz banklarında hesabların açılmasına, məhsul ödənişinin sərbəst dönərli valyutada aparılmasınada maneəçilik törədilməməsi haqqında öhdəçilik qəbul etmişlər. Qarşılıqlı hesabların açılması qaydası MDB ölkələrinin Milli Bankları ilə danışıqlara uyğun olaraq Rusiya Bankı tərəfindən qoyulur.

Birlik ölkələrinin bəzilərilə Rusiya idxalı əvəz edən məhsulların buraxılışı, ixraca istiqamətlənmiş və elm tutumlu sahələrin inkişafına kredit və investisiyaların verilməsi üzrə razılaşmalar aparılmışdır. Maraqlı olan MDB ölkələri ilə bütün mülkiyyət formalarında olan birliklər və sahə idarələri arasında istehsalın kooperasiyası haqqında aprel 1994- cü ildə nümunəvi bu Müqavilə tərtib olunmuşdur. Rüsiya 15 aprel 1994- cü ildə MDB ölkələri ilə, qarışıq transmilli, maliyyə –kre-

dit və kommersiya, istehsal birliklərinin yaradılmasına kömək məqsədilə çoxtərəfli Müqavilə imzalamışdır. Onun yerinəyetirilməsi məqsədilə Rusiya, Belarusiya, Qazaxstan, Özbəkistan, Ukrayna, Tacikistan və Qırğızıstanla maliyyə-sənaye qruplarının yaradılmasının əsas prinsipləri üzrə ikitərəfli müqavilə bağlamışdır. Bu müqaviləyə görə, belə qruplar könüllülük Prinsipi əsasında formalaşan və səhm paketi QRUpuna daxil olan müəssisəyə verilə bilər. Kapitalların birləşdirilməsi və iştirak forması, səhm paketinin həcmi, idarəetmə və maliyyə-sənaye qruplarının yaradılmasına səbəb ola bilən etibarnamələrin verilməsi Müqavilə imzalayan dövlətin Qanunauyğunluğu ilə müəyyən edilir.

Rusiya Federasiyasının maliyyə-sənaye qrup haqqında qanununda nəzərdə tutulmuşdur ki, əgər qrup iştirakçıları arasında MDB ölkələrinin hər hansı birinin qanunvericilik aktında olan hüquqi şəxs vardırsa bu zaman onlar transmilli maliyyə-sənaye qruppu kimi qeyd oluna bilərlər. Transmilli maliyyə-sənaye qruppasının yaradılmasının ilk təcrübəsi vardır. Belə ki, Rusiya kompaniyalarının iştirakı ilə «Qazprom» Donbas şəhərinin müəssisələri ilə birlikdə «Polad-Boru-Qaz» konserni yaratmışdır. Ukrayna-Rusiya birgə «Runo» neft kompaniyası yaradılmışdır. Rüsiyada dövlətlərarası «İnterros» maliyyə-sənaye qruppu və «Niceqorodskie avtomobili» transmilli qrupp yaradılmışdır. Rusiya müəssisələri Özbəkistanla «İlyuşin», Ukrayna ilə «Mecdunarodnıe aviatorı» və «Volqa-Dnepr», Qazaxstanla «Elektrometpribor» maliyyə-sənaye qruplarının yaradılması haqqında müqavilə imzalamışlar. Ukrayna ilə «Transmilli alüminium kombinatı» maliyyə-sənaye qrupunun yaradılmasına dair razılaşmaya nail olunmuşdur.

Transmilli maliyyə-sənaye qrupu yarandığı halda, ona dövlətlərarası razılaşmaya əsasən, dövlətlərarası (beynəlxalq) maliyyə-sənaye qruppu statusu verilir. Belə qrupun iştirakçıları üçün milli fəaliyyət rejimi, qarşılıqlıq əsasında dövlətlərarası razılıqla müəyyənləşdirilir. Belə dövlətlərarası birliyin iştirakçılarına Rusiya Federasiyasının hökuməti tərəfindən «Gömrük tarifi haqqında» qanununda nəzərdə tutulmuş maliyyə-sənaye

qrupu çərçivəsi fəaliyyəti üzrə, sərhəd daxilində malların hərəkətinə görə gömrük güzəştləri edilə bilər. Bu əsaslar üzərində «İnterros» yaradılmışdır.

MDB ölkələri üçün üçüncü ölkə korporasiyalarında o, cümlədən dövlətlərarası maliyyə-sənaye qruplarının birliklərinin transmilli korporasiyalarında iştirak imkanı da nəzərdə tutulur. MDB ölkələri ilə münasibətdə, ayrıca səhm kapitalına malik olan tərəfdaşların birlikdə səhmdar kompaniya yaratmaları ilə yanaşı, onların hər biri danışıq əsasında birgə konsersium da yarada bilərlər. Belə konsersiumlar öz və üçüncü ölkə bazarlarında birgə investisiyalar həyata keçirə bilərlər. Təxmini qiymətləndirməyə görə Rusiyada MDB ölkələrinin birgə müəssisələrinin sayı, Rusiyada xarici kapitallı müəssisələrin ümumi sayının 1/10 təşkil edir. MDB-də inteqrasiya prosesinin dərinləşdirilməsinin mühüm elementi, elmi və texniki sahədə əməkdaşlıqdır. MDB-nin bir sıra ölkələri ilə Rusiya 13 mart 1992-ci ildə ümumi elmi-texniki məkanın yaradılması və elmi-texniki əməkdaşlıq haqqında Müqavilə imzalanmışdır. Rusiyada, MDB ölkələrinin elmi-texniki əməkdaşlıq üzrə dövlətlərarası komitənin yaradılmasına mühüm əhəmiyyət verilir. Çoxtərəfli proqram və layihələrin formalaşdırılması, beynəlxalq elmi təşkilat və mərkəzlərin yaradılması bu komitənin funksiyasına daxildir. Elmi-texniki əməkdaşlıq sahəsində mühüm hadisə Avrasiya patent sisteminin yaradılması oldu. Onun haqqında müqavilə 9 sentyabr 1994-cü ildə Rusiya və MDB ölkələri (Azərbaycan, Ermənistan, Belarusiya, Gürcüstan, Qazaxstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Ukrayna) tərəfindən imzalanmışdır. Bu sistemin formalaşması MDB-nin bütün ərazisində fəaliyyət göstərən vahid patentləşməyə qayıtmağa imkan verəcəkdir. Avraziya patent sistemi, Avropa patent təşkilatına uyğun şəkildə yaradılmışdır. 1996-cı il 1 yanvardan dünyanın bütün ixtiraçıları Avropa patent təşkilatına təqdimat verirlər. Bu təşkilat Moskva şəhərində yerləşir və işlər rus dilində aparılır.

Tədiyə-hesablaşma münasibətlərinin normallaşdırılması üçün MDB dövlətləri tərəfindən Tədiyə İttifaqı yaradılmışdır

və müqavilə oktyabr 1994-cü ildə imzalanmışdır. Onun məqsədi stabilləşdirmə fondlarının yaradılmasından, daxili valyuta bazarı bankı – qeyri-rezidentlərin buraxılmasından, milli valyutanın qarşılıqlı dönərliyinin təmin edilməsindən, tələb-təklif münasibətlərinə uyğun olaraq milli valyutanın mübadilə kursunun tətbiqinin formalaşmasından, cari əməliyyatlar üçün milli valyutanın tədiyə vasitəsi kimi istifadə olunmasından, məhdudiyyətlərin ləğv edilməsindən, MDB ölkələrinin valyuta bazarında ümumi qaydaların müəyyən edilməsindən ibarətdir. Müqavilədə manat zonası konsepsiyasından imtina edilməsi göstərilmiş, emissiya mərkəzi, pul-kredit və valyuta tənzimləyicisi orqanı kimi MDB ölkələrinin Milli banklarının suverenliyi təsdiq edilmişdir.

Müqavilənin reallaşması çox yavaş gedir. MDB ölkələri arasında normal hesablaşma bir sıra ciddi çətinliklərlə rastlaşır. Bunların içərisində ilk növbədə, əsasən dövlətlərarası kredit vasitəsilə tənzimlənən ticarət disbalansı durur. Xüsusilə enerji daşıyıcıları üzrə MDB-nin bir sıra ölkələri ilə Rusiya arasında olan borcların yüksək həcmdə olması və s. çoxtərəfli klirinq hesablaşma sistemi də inkişaf etməmişdir. Hesablaşmalar əsasən ikitərəfli klirinq əsasında aparılır. Çoxtərəfli hesablaşmalar üçün yaradılmış MDB ölkələrinin Dövlətlərarası Bankı lazımi səviyyədə fəaliyyət göstərmir.

Rusiya rublu 17 avqust 1998-ci ilə qədər milli valyutalarla hesablaşmada lider rolunu oynamışdır. Bir sıra rus iqtisadçıları rublun əvvəlki roluna yenidən qayıda biləcəyini zənn edirlər.

4.Gömrük ittifaqı və inteqrasiyanın dərinləşməsi

Müxtəlif sürətli inteqrasiya haqqında konsepsiyanın hüquq uyğunluğunun dərk edilməsinə rəğmən Rusiya və MDB ölkələri Gömrük alyansının yaradılmasının məqsədəuyğunluğu qənaətinə gəlmişlər.

Gömrük ittifaqının yaradılması haqqında müqavilə 6 yanvar 1995-ci ildə Rusiya və Belarusiya, daha sonra isə Qazaxıstan

tərəfindən imzalanmışdır. Dövlətlərin iqtisadi birliyi kimi o, aşağıdakı prinsiplərə əsaslanır.

Birincisi – Gömrük İttifaqı iştirakçı ölkələrin vahid gömrük ərazisinin olması zəruridir. Onun formalaşması, ittifaq üzvləri ərazisində istehsal olunan məhsulların ticarəti üçün ekvivalent təsir göstərən gömrük vergisi və rüsumların, habelə kəmiyyət məhdudiyyətinin olmamasını tələb edir. Həmçinin üçüncü ölkələrlə münasibətdə, vahid ticarət qaydasının ümumi gömrük tarifinin, xarici ticarətin qeyri-tarif tənzimlənməsi tədbirlərinin fəaliyyəti zəruri hesab edilir.

Beynəlxalq təşkilatlarla və üçüncü dövlətlərlə gömrük ittifaqının qarşılıqlı əlaqə mexanizmi, xarici iqtisadi əlaqələrin tənzimlənməsinin vahid qaydasına əsaslanır.

İkincisi – ixtiyari gömrük alyansı, qanunçuluğa və təsərrüfatçılığın bazar prinsipinə söykənən iqtisadiyyatın tənzimlənməsinin vahid mexanizminə əsaslanmalıdır. İttifaqın iştirakçı – ölkələri xarici ticarət, gömrük, valyuta-maliyyə, vergi və xarici ticarət fəaliyyəti sferasında fəaliyyət göstərən qanunçuluğun unifikasiya edilməsində məsuldurlar. Söhbət, razılığa gələn tərəfdaş dövlətlərin təsərrüfat subyektlərinin fəaliyyətinə zəmanət verən və bərabər imkanı təmin edən bazar prinsiplərinə əsaslanan təsərrüfatçılıq şərtindən gedir. Bu şərait qiymət siyasətini, valyuta tənzimlənməsi və valyuta nəzarətini, ixrac nəzarətini, ədalətsiz rəqabətə yol verilməməsini məhdud işgüzar təcrübəni, intellektual sferanı əhatə edir. Müqavilədə nəzərdə tutulan, gömrük rüsumu, vergi və yığımın əsas bölgü prinsipi aşağıdakılardan ibarətdir: a)üçüncü ölkənin ərazisində əmələ gələn mallara gömrük rüsumu, vergi və yığımları dövlət büdcəsinə malların təyinatı istiqamətlənmiş ölkə ödəyir; b) üçüncü ölkənin ərazisində əmələ gəlmiş və həmin ərazidən çıxarılan mallara gömrük rüsumu, vergi və yığımları danışıq aparan tərəflərdən hamısının ərazisindən mal çıxarılırsa o, da büdcəyə ödəyir.

Gömrük ittifaqı öz inkişafının birinci mərhələsini 1998-ci ildə başa çatdırmışdır. İş qüvvəsi, kapital, mal və xidmətlərin sərbəst hərəkəti ardıcıl təmin olunur. Təsərrüfat qanunçulu-

ğunun uyğunlaşması gedir. Vergi və valyuta-büdcə, pul-kredit siyasətləri razılaşdırılır. Gömrük ittifaqının xarici sərhədlərində birgə gömrük nəzarətinin ümumi hədləri təşkil olunmuşdur. Yavaş-yavaş ümumi sərhədə gömrük nəzarəti götürülür. Gömrük orqanları üçün, məhsulun çatdırılması üzrə avtomatlaşdırılmış nəzarət sistemi formalaşmışdır.

Əmək haqqı, işlə təmin olunma və təhsil almaları üçün Rusiya və Belarusiya vətəndaşlarının bərabər hüquqlarının təmin olunması üzrə geniş tədbirlər kompleksi nəzərdə tutulur. Sonradan gömrük ittifaqına Qırğızıstan və Tacikistan da qoşulmuşdur. İnteqrasiya prosesinin idarə edilməsi üçün, hökumət və dövlət başçıları səviyyəsində Dövlətlərarası Şura, Parlamentlərarası Komitə və İnteqrasiya Komitəsinin İcra orqanı yaradılır. Bunlar Rusiyanın, Gömrük ittifaqının digər üzvləri ilə vahid enerji və nəqliyyat sisteminin yaradılmasına imkan verir.

5. Yaxın vəzifələr

Rusiya Federasiyası MDB ölkələri ilə iqtisadi əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsinə istiqamətlənmiş siyasət həyata keçirir. Bu əlaqələrin müqavilə-hüquqi əsası ikitərəfli danışıqlar aparıldığı halda kifayət qədər işlənmiş olur. Əfsuslar olsun ki, MDB ölkələrinin çoxtərəfli sazişlərdə iştiraklarını, effektli və müvəffəqiyyətli hesab etmək çətindir. Bu onunla izah edilir ki, bəzi razılaşmaların, xüsusilədə valyuta-maliyyə və kredit əməliyyatları sferasındakı məsələlərin həlli mexanizmi kifayət qədər işlənməmişdir. Belə həll olunmamış məsələlər Rusiyanın MDB ölkələri ilə istər azad ticarət zonası istərsə də gömrük ittifaqında ikitərəfli danışıqların aparılmasında ən ağrılı yeridir.

Rusiyanın MDB dövlətlərinə münasibəti məsələləri ilə, Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi məşğul olur. Rusiyanın MDB ölkələri ilə qarşılıqlı əlaqələrinə, müqavilələrin tərtibi və qeydiyyatı üzrə bütün hüquqi-normativ sənədlərin işlənib hazırlanması bu nazirliyin əməkdaşlarının fəaliyyətində müsbət hal kimi qiymətləndirilə bilər. Eyni zamanda bu məsələ

üzrə xüsusi federal proqram çatışmır. MDB çərçivəsində xarici fəaliyyət haqqında Rusiya Federasiyasının qanununda əməkdaşlığın əsas istiqaməti müəyyənləşdirilməmişdir.

Rusiya və MDB ölkələrinin iri maşınqayırma müəssisələri arasında istehsal kooperasiyalarının yaradılmasına göstərilən səy də kifayətedici deyildir.

MDB investorlarının ittifaqıqı yaradılmasının çoxdan vaxtı çatmasına baxmayaraq hələ də həll olunmamışdır. İnvestisiya qərarlarının ekspert qiymətləndirilməsinin vahid sisteminin qəbul edilməsi də inteqrasiyasının qarşılıqlı əlaqədə təşkilini zəruri edir. Sərhədlərdən əmək resurslarının, kapitalların, əmək və xidmətlərin hərəkətindəki bir sıra çətinliklərə, problemlərə və məhdudiyyətlərin olmasına baxmayaraq MDB ölkələrində ümumi iqtisadi mühitin formalaşdırlıması ilə bağlı gedən proseslər Rusiya iqtisadiyyatının inkişafının bu gun də mühüm şərti hesab olunur.

Azad ticarət zonasının və gömrük ittifaqının yaranması ilə bağlı olaraq MDB ölkələrinin tədiyyə ittifaqının formalaşdırılması haqqında ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanması həmin prosesin ilkin şərtlərini yaratmağa imkan verər. Bu da öz növbəsində ödəniş vasitəsi kimi milli valyutalardan istifadə və qəbulu üzrə məhdudiyyətləri aradan qaldırmağa imkan verir.

1996-cı ildə «İqtisadi və humanitar sahələrdə iqtisadi inteqrasiyanın dərinləşməsi» ilə bağlı Rusiya, Belarusiya, Qazaxstan, Qırğızıstan, habelə Rusiya və Belarusiya respublikaları arasında «İttifaqın yaradılması» haqqında bağlanan müqavilələr ayrı-ayrı MDB ölkələrində iqtisadi inteqrasiyanın keyfiyyətcə yeni ünsürlərini reallaşdırmağa imkan verəcəkdir.

Rusiyanın ixracının quruluşunda digər MDB ölkələri ilə iqtisadi ticarət əməkdaşlığı hər şeydən əvvəl maşınqayırma məhsullarının xüsusi çəkisini artırmağa və əmtəə strukturunun yaxşılaşdırılmasının ilkin şərtlərini reallaşdırmağa imkan verər.

Rusiya iqtisadiyyatının tələbatını ödəmək üçün əsasən MDB ölkələrində cəmləşən təbii resurslar, məhsullar, ehtiyatların Rusiyaya göndərilməsini şərtləndirir. Nəticədə ola bilər ki, XXI əsrin ilk 10 ilində Rusiyanın ixracında MDB ölkələrinin xüsusi çəkisi 20%-dən az, idxalında isə 25%-ə yaxın olsun.

Suallar və tapşırıqlar

1. Aşağıdakı müddəalar doğrudurmu:

A) Rusiya SSRİ-nin dağılması nəticəsində çox iqtisadi səmərə əldə etdimi; MDB hüdudlarında inteqrasiya prosesini sürətləndirmək üçün praktiki olaraq hər hansı bir obyektiv hal yoxdur;

B) Rusiya MDB ölkələri bazarına maşın və avadanlıqların əsas təchizatçısı rolunu oynayır; postsovet dövründə rusiyada xarici iqtisadi fəaliyyətin həyata keçirilməsinin nəqliyyat xərcləri kəskin artacaqdır;

2. Çatışmayan sözləri yerinə qoyun:

- MDB hələ özünün potensialını……. reallaşdırmayıb.
- MDB-yə daxil olan üzv ölkələrin mövcudluğu ilə inkişafı ……. müəyyən olunmuşdur.

–Rusiyanın ixracının strukturunda adətən MDB ölkələrinə maşın, avadanlıqlar ……. reusrslar üstünlük təşkil edir.

3. Təklif olunan variantlardan düzgün cavabı tapın:

Rusiya MDB ölkələrindən əmtəə idxal edərkən gömrük rüsumları tutur:

a) ancaq qarşılıqlı əsasda; b) ancaq bəzi MDB ölkələrindən idxal etdikdə; c) ümumiyyətlə tutmur.

4. Sizə Federal orqanın məsul işçisi kimi inteqrasiya sferasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair MDB ölkələrinin biri ilə danışıqlar aparmaq lazımdır. Bu danışıqlara hazırlaşmaq üçün hansı məlumatları əldə etməlisiniz?

© Грязнов Е.А., 2002

XXXVI Fəsil

MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ

1. Ölkənin iqtisadi təhlükəsizliyi

Rusiyanın müasir sosial-iqtisadi vəziyyəti fəal istehsal-təsərrüfat fəaliyyətin idarə edilməsi üçün yeni əsasların nəzərə alınma vacibliyini müəyyən edir. Onların arasında təsərrüfatçılıqla məşğul olan subyektlərin, bazar münasibətləri şəraitində iqtisadi baxımdan şərtləşmiş **«oyun qaydalarının»** uzunmüddətli fəaliyyətinə olan lazımi inam səviyyəsinin dəstəklənməsinə xüsusi yer ayrılır.

Ölkənin daxili vəziyyəti resurs, demoqrafik və intellektual potensialların istifadə olunmasından, dövlətlərarası münasibətlərdə olan nüfuzun dəstəklənməsindən asılıdır. Bütün bunlar həm milli, həm də dünya səviyyələrində inkişaf strategiyasının işlənib hazırlanmasında müəyyənedici əhəmiyyətə malikdir. Belə ki, onlar dinamik təsərrüfat sistemlərinin mövcudluğunun və fəaliyyətinin dialektik prosesinin mahiyyətini ifadə edir.

Normal fəaliyyət və mütərəqqi inkişaf üçün əlverişsiz və zərərli təsirlər sisteminin qorunma vəziyyəti ***təhlükəsizlik*** anlayışı ilə müəyyənləşdirilir. O, zərərin potensial mümkün həcmindən yayınaraq və onu azaldaraq, canlının mövcudluğunu, onun həyat fəaliyyəti və inkişafının müəyyən bir fəlsəfəsini xarakte-

rizə edir. Təhlükəsizliyi xarakterizə edən vəziyyətin mahiyyəti, həyat fəaliyyətinin fizioloji reflektor proseslərindən irəli gələrək insan cəmiyyətinin inkişafı ilə daha çox sosial aspekt əldə etmişdir. Mənəvi və elmi - texniki tərəqqi ilə əlaqədar olaraq dəyişən ətraf mühitdə insan tələbatının təmin olunmasına müxtəlif cür reaksiya imkanı meydana gəlmişdir.

İctimai münasibətlərin inkişafı ilə **«təhlükəsizlik»** kateqoriyası da əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. İctimai şüur səviyyəsində təhlükəsizlik, potensial zərər vurulma ehtimalının olmaması, salamatlılıq, etibarlılıq kimi müəyyən edilir. Bu anlayış ən müxtəlif proseslərə, yəni həm təbii, həm də sosial proseslərə uyğun olaraq istifadə edilir. O, yalnız təhlükəsizlik fenomeninin konkret, spesifik fəaliyyət sahəsində spesifik əlamətlərini əks etdirmir, həm də insan və cəmiyyətin bütün həyat fəaliyyəti sahələri üçün xas olan ümumi, tipik, sarsılmaz əlamətləri daxil edir. Həmin ümumilik təhlükəsizliyin, təhlükədən qorunma şərti və strategiyası kimi nəticə etibarı ilə sosial sistemin, şəxsiyyətin, cəmiyyət və dövlətin yaşamasına hədəflənməsindən ibarətdir.

Təhlükəsizlik problemi təhlil edilərkən son vaxtlar ***milli təhlükəsizliyə*** böyük diqqət yetirilir. Milli sosial-fəlsəfi ədəbiyyatda və rəsmi sənədlərdə bu termin nisbətən gec istifadə edilməyə başlanmışdır. Qərb ölkələrinin mənbələrində ondan artıq xeyli vaxtdır ki, istifadə edilir. «**Milli təhlükəsizlik**» termini, ölkənin (millətin) həyatı baxımından mühüm siyasi, iqtisadi, sosial, ekoloji, mənəvi, hərbi və digər mənafeləri etibarlı şəkildə qorunduğu, real və potensial daxili və xarici zərərli təsirlərin, böhranlı vəziyyətlərin təsiri minimal səviyyəyə endirildiyi, şəxsiyyət, cəmiyyət və dövlətin mütərəqqi inkişafı üçün əlverişli imkanların təmin edildiyi bir vəziyyəti müəyyənləşdirir.

Təhlükəsizlik anlayışının mahiyyətinin aydınlaşdırılmasında əsas rol sosial-iqtisadi yanaşmaya məxsusdur. Onun reallaşdırılması hadisəni dialektikanın obyektiv və subyektiv, maddi və mənəvi kontekstində, onun cəmiyyətin sosial-mədəni məkanına daxil edilməsi baxımından tədqiq etməyə, siyasətçilərin görüş dairəsində olan tərəfləri üzə çıxarmağa imkan

vermişdir. Həmin proseslərin lazımınca dərk edilməməsi ona gətirib çıxarır ki, sosial qruplar və dövlətlər arasında zərərsiz fərqlər, bəzən surətlə əhəmiyyətli ziddiyyətlərə, sonra isə aqressivliyə çevrilir. Siyasətçilər çox vaxt yeni vəziyyətə uyğunlaşmağa çalışmırlar və bunun nəticəsində hadisələrin ən əlverişsiz şəraitdə inkişafına hazır olmurlar.

Həyat fəaliyyətində insanın ümumiləşdirilmiş təhlükəsizlik anlayışı kimi müxtəlif təhlükəsizlik aspektlərinin bütün mühümlüyünə baxmayaraq, onun təmin olunmasının əsas bazisi, təsərrüfat hesab olunur. ***Təsərrüfat, yaxud iqtisadiyyat*** - məhsul, mal və xidmətlərin yaranma, bölüşdürülmə və mübadiləsinin istehsal-istehlak münasibətlərinin birliyi, təsərrüfat sisteminin, fərdin (şəxsiyyətin) və onların birliyinin konkret orqanizminin mövcudluq və inkişaf formasıdır. Bu mövqedən çıxış edərək resurs, enerji, ərzaq təhlükəsizliyi, iqtisadi ifadə forması tapmış intellektual və psixoloji fəaliyyət aspektləri, maliyyə axınları, sosial-iqtisadi və hərbi-müdafiə istiqamətləri daxil olmaqla, təhlükəsizliyin əsas ünsürləri haqqında danışmaq olar.

Qiymətləndirmə amillərinin birmənalı olmaması, müasir surətlə dəyişən dünyada bir çox təsərrüfat məsələlərinin həllini xeyli çətinləşdirir. Təhlükəsizlik üstünlükləri daha çox iqtisadi dominantlara meyl edirlər, lakin o birdəfəlik verilmiş proses də deyildir. Onlar dövlətin tarixi inkişaf dövründən, eləcə də beynəlxalq şəraitdə dəyişikliklərin təsiri altında dəyişirlər.

İqtisadi təhlükəsizliyin konsepsiyası təmin edilmə istiqamətlərinin prinsiplərinə və mahiyyətinə rəsmi qəbul edilmiş baxışların ümumiliyini əks etdirən, qoyulan məqsəd və vəzifələrə konkret nail olma proqramlarının işlənib-hazırlanma bazası tərəfindən nəzərdən keçirilir. Əsas sənədlər qismində iqtisadi xarakterli xarici və daxili təhlükələrin xarakteristikası üzrə təkliflər, dövlətin sosial-iqtisadi sistemlərinin sabitliyinə, orta-müddətli və qısamüddətli perspektivə, iqtisadi sahədə maraqlara uyğunluq qiymətinin meyar və parametrlərinə təsir amillərinin müəyyən edilməsi və monitorinqi çıxış edir.

Konsepsiyanın mühüm formalaşma məsələsi, səbəb-nəticə əlaqələrinin iqtisadi təhlükəsizliyi təyin edən şəraitlə birlikdə üzə çıxarılmasına metodik yanaşmaların mənimsənilməsidir. Praktik məsələ təsərrüfatçılıqla məşğul olan subyektlərin münasibətlərində yaranan nümunə və vəziyyətlərin təhlilidir.

İqtisadi təhlükəsizlik problemlərinin bütöv konseptual görünüşü, *milli - dövlət maraqları sisteminə* qarşı olan milli iqtisadiyyatın müxtəlif növ təhlükə və zərərlərdən mühafizəsinin şərtlər, meyarlar və göstəricilər, mütəşəkkil forma və mexanizmlər sistemini müəyyənləşdirən bu və ya digər tərəflərini ayırır. Sonuncular müxtəlif iqtisadiyyat subyektlərinin məqsədlərini birləşdirən ümümi məqamları qeyd və ifadə edirlər. Milli-dövlət maraqları özündə dövlətin iqtisadi potensialının və iqtisadi gücünün inkişafını və istifadəsini, millətin genofondunun vəziyyətini, onun fiziki sağlamlıq və sosial-mədəni çiçəklənməsinin əsaslarını və şərtlərini, müasir dünyadakı geosiyasi və geoiqtisadi mövqeləri özündə cəmləşdirir.

Bununla bağlı olaraq Rusiyanın milli inkişaf konsepsiyasının təkmilləşdirilməsi problemi və iqtisadiyyatın miqyas və dinamikasını, onun potensialının istifadə effektivliyini, bazar infrastrukturu və maliyyə sisteminin inkişaf dərəcəsini, iqtisadiyyatın açıqlığını, intellektual potensialın vəziyyətini, innovasionluğun səviyyəsini, sosial-iqtisadi sabitliyi və sosial-iqtisadi proseslərə dövlət təsirinin dərəcəsini nəzərə alan onun prioritetlərinin təyin edilməsi aktuallıq kəsb edir.

Rusiya Federasiyasının ***Milli təhlükəsizlik konsepsiyası*** - Rusiyada şəxsiyyət, cəmiyyət və dövlətin bütün həyat fəaliyyəti sahələrində xarici və daxili təhlükələrdən təhlükəsizliyinin təmin edilməsinin baxış sistemidir. Rusiya Federasiyasının milli təhlükəsizliyi dedikdə onun çoxmillətli xalqının suverinitet daşıyıcısı və ölkədə vahid hakimiyyət mənbəyi kimi təhlükəsizliyi başa düşülür. Bu konsepsiyaya müvafiq olaraq milli təhlükəsizliyin təmin edilməsi və iqtisadi sahədə Rusiyanın maraqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Milli təhlükəsizliyin təmin olunması sahəsində əsas

məsələlərdən biri ölkə iqtisadiyyatının qaldırılması, müstəqil və sosial baxımdan istiqamətləndirilmiş iqtisadi kursun həyata keçirilməsidir.

Konsepsiyanın hazırlanma və realllaşdırılma mexanizmi üzvi olaraq bağlı olan hissə və istiqamətlər sistemindən ibarətdir: qanunvericilik bazası, əsas təhlükəsizlik müddəaları, qərarların qəbul edilməsinin institusional forma və prosedurları üfüqi və şaquli xətt üzrə dövlət tənzimlənməsinin və idarəçiliyinin bütün səviyyələrində onların yerinə yetirilməsinin təşkili və nəzarətini, güc və vasitələrin təhlükəsizliyinin təmin edilməsi üçün tələb edilən istifadə forma və üsulları.

Konseptual vəziyyətlərin əsasında, fəaliyyət proqamından, elan edilmiş ideyaların həyata keçirilməsi, qoyulmuş məqsədlərə nail olunması üçün nəzərdə tutulmuş iqtisadi texnologiyaların toplusundan ibarət olan strategiya işlənib hazırlanır. Təşkilati, prosessual və müvəqqəti aktların reqlamentasiyası ilə fəaliyyətlər proqramının reallaşdırılması keçirilən iqtisadi siyasətin ifadəsidir. İqtisadi siyasətin, institusional yenidən təşkil edilmənin və qarşılıqlı təsirlərin təsərrüfat fəaliyyətinin sabitliyini sarsıdan mühüm aradan qaldırılma, yaxud zəifləmə mexanizmlərinin reallaşdırılma metodlarının korrektəsi üzrə təkliflərin formalaşması iqtisadi təhlükəsizliyin təmin edilmə yolları, üsulları, metodları haqqında təsəvvürlərə əsaslanır.

İqtisadi təhlükəsizlik strategiyası və ***dövlətin iqtisadi siyasəti*** **-** iqtisadiyyatın dövlət tənzimlənməsinin kateqoriya və alətləri, qarşılıqlı əlaqədə və qarşılıqlı fəaliyyətdə olmalıdırlar. Bir tərəfdən iqtisadi təhlükəsizlik strategiyası, iqtisadi siyasətin strateji məqsədinin səmtini əks etidərərək eləcə də tənzimlənən makroiqtisadi sistemin arzu olunan keyfiyyətinin bir hissəsidir. Digər tərəfdən iqtisadiyyatın arzu olunan vəziyyətini xarakterizə edən miqdar parametrlərinin qiymətləri, mümkün tətbiq edilmə nəticələri iqtisadi təhlükəsizlik səviyyəsini pisləşdirməyə /zəiflətməyə/ qabil olan iqtisadi siyasətin keçirilmə metodlarından istifadə edilməsinə olan məhdudiyyətləri təyin edirlər.

Rusiya Federasiyası ***dövlətinin iqtisadi təhlükəsizlik strategiyası***, Rusiyada iqtisadi inkişafın yeni bir əsasda və yeni

bazar iqtisadiyyatı institutlarının, milli maraqların zəmanətli müdafiəsinin təmin edilməsinin, siyasətin sosial baxımdan yönəlməsinin, habelə daxili və xarici proseslər əlverişsiz şəraitdə inkişaf etdikdə belə kifayət qədər müdafiə potensialının mövcudluğunun köməyi ilə bərpa edilməsindən ibarətdir. Rusiya Federasiyasının iqtisadi təhlükəsizliyinin təmin edilməsinin strateji məqsədi şəxsiyyətin, cəmiyyətin, sosial-iqtisadi və cəmiyyətin hərbi-siyasi sabitliyinin həyat və inkişafı üçün münasib şəraitin yaradılması və dövlətin bütövlüyünün saxlanılması, daxili və xarici təhlükələrin təsirinə uğurla qarşıdura bilmədir.

Rusiyanın təhlükəsizlik strategiyasının əsasları, Prezidentin, Hökumətin, Rusiya Federasiyası Federal yığıncağının normativ aktlar sistemi vasitəsi ilə qanunvericilik və icra hakimiyyəti aparatı tərəfindən işlənib hazırlanır və reallaşdırılır. 1994-cü ildə Hökumət ölkənin iqtisadi maraqlarının mühafizəsi üzrə vacib addım atdı. O, iqtisadi təhlükəsizlik strategiyasının əsaslarını tövsiyə etdi. Sonra isə 1996-cı ilin naprel ayının 29-da «İqtisadi təhlükəsizliyin dövlət strategiyası haqqında (Əsas müddəaları)» Prezidentin fərmanı imzalanmışdır. Bu sənəddə iqtisadi təhlükəsizlik, layiqli həyat şəraitini və cəmiyyətin hərbi-iqtisadi sabitliyini və dövlətin bütövlüyünü təmin etmək, daxili və xarici neqativ amillərin təsirinə qarşı durmaq və milli təhlükəsizlik üçün maddi əsas olmaq kimi iqtisadiyyatın imkanı və hazırlığı kimi müəyyən edilir.

2. Fəaliyyət istiqamətləri və vəzifələri

Beləliklə, iqtisadi təhlükəsizliyin təmin edilməsi kompleks vəzifədir. Ona görədə iqtisadi vəzifələrə təhlükənin yaranmasını onun əsas istiqamətləri üzrə nəzərdən keçirmək məqsədyönlüdür. İstiqamətlərin funksional strukturu iqtisadiyyatın idarə edilməsinin müəyyən növlərinə uyğun gəlir. Onlar öz məzmunu, icrasının təmin edilmə prinsip və üsulları ilə xarakterizə edilirlər. İqtisadi təhlükəsizlik sahə-

sində iqtisadi sahədə milli maraqlar baxımından ən aktual problem fəaliyyətinin geniş təkrar istehsal rejiminin təmin edilməsi, milli istehsalçıların maraqlarının qorunması, innovasiya və investisiya aktivliyinin yüksəldilməsi, ölkənin strateji resursların ciddi nəzarət, Rusiyanın möhkəmləndirmək təsdiq etmək qabiliyyətinə malik olan elmi potensialın dəstəklənməsidir.

Mülkiyyət formalarının (növlərinin genişləndirilməsi) və iqtisadi siyasət dəyişdirilməsi korrupsiya, iqtisadi cinayət, qorxu, qərarsızlıq dalğasını qaldırdı. İqtisadiyyat sahəsində meydana gələn krminallıq və bu və ya digər qanunsuz fəaliyyət cəhdləri müvafiq siyasət aparmağı tələb edirlər. Bu tələbin pozulması ağrılı nəticələrə gətirib çıxarır. Məsələn, maliyyə piramidalarının fəaliyyətinə iqtisadi baxımdan təhlükəliyinin vaxtında reaksiya verilmədiyi üçün müvafiq nəticə alınmışdır. Əlbəttə, həmin strukturlar öz vaxtında iqtisadi analiz vasitəsi olmalı, iqtisadi baxımdan təhlükəli kimi qiymətləndirilməli idilər. Yalnız sırf iqtisadi, yaxud maliyyə-profilaktik tədbirlər deyil, həm də cinayət-repressiv xarakterli tədbirlərinnin görülməsi tələb olunurdu. Bu iqtisadi siyasətin faktiki olaraq artıq nəticələrin cinayətkarlıqla birləşdiyi və sərt iqtisadi təhlükəsizlik sərhəddinin keçdiyi bir səviyyədir.

İqtisadi maraqlara mövcud olan təhlükənin əks edilməsi üçün bir sıra prioritet tədbir və məqsədlər mövcuddur. Beləliklə, bütün əhalinin yaşayış səviyyəsinin yüksəlməsi əsasında cəmiyyətin möhkəmlənməsi, investisiya proseslərinin fəallaşdırılması, xüsusi investisiyalar qoyuluşunda daha effektiv iqtisadi layihələrin stimullaşdırılmasını, sərt vergi siyasətinin yeridilməsi, milli valyutatın möhkəmləndirilməsi, xarici-iqtisadi əlaqələrin dövlət tənzimlənməsi və effektiv gömrük nəzarəti, intellektual potensialın və milli elmin dəstəklənməsi və inkişafı, bölgələrdə effektiv iqtisadi yarımsistemlərin formalaşması ilə iqtisadiyyat daxili məkanın möhkəmləndirilməsi, dünya bazarına daxil olan zaman iqtisadi müstəqilliyin təmin edilməsi iqtisadi təhlükəsizliyin mühüm şərtləridir.

Milli iqtisadi təhlükəsizlik məsələlərini yalnız güc amili hesabına həll etmək mümkün deyil. Beynəlxalq iqtisadi qarşılıqlı asılılıq şəraitində ***iqtisadi güc*** daha da böyük rol oynamağa başlayır. Nəticədə məcburiyyət daha tez-tez şəxsi maraqlılığa güzəşt etməli olur. Güclü zəifi məcbur etməyi deyil, onu əməkdaşlıqdan əldə edilən gəlirlərlə ümumi işə cəlb etməyi üstün tutur. İqtisadi güc, ölkənin xarici neqativ təsirləri dəf etmək və açılan imkanları öz xeyri üçün istifadə etmək qabiliyyətində özünü təzahür edir. Qüvvə və təhlükəsizlik amilləri sırasında müəyyənləşdirici rol daxili sosial-iqtisadi mexanizmə məxsusdur. Onun fəaliyyətində olan fasilələr, iqtisadi potensial və sərvətin maddi komponentlərinin toplanmasında istənilən nailiyyətləri yox edə bilər.

İqtisadi fəaliyyət göstəricilərini ölçmək imkanı onları iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilmə prosesinə daxil etməyə və təsərrüfat prosesinin meyl və dinamikasını xarakterizə etməyə imkan verir. Bu cür vasitələr qismində xüsusi miqdar xarakteristikalarının, yəni ***indikatorlar*** sistemindən istifadə edilir. Onlar təsərrüfat ünsür element və amillərinin miqdar nisbətini ifadə edirlər. Onların arasında müxtəlif ifadə ünsürlərinin iqtisadi inkişaf gedişini göstərənlər seçilirlər və onların pozulması iqtisadi maraqlara təhlükə yaradır.

Onların əsasında formalaşan ümumiləşdirici xarakteristikalar qiymətlər dərəcəsinin qurulmasında istifadə edilirlər. Göstəricilər seçilərkən nəzərə almaq lazımdır ki, onlardan bir çoxları, onlar arasında obyektiv olaraq mövcud olan balans əlaqələri nəticəsində qarşılıqlı surətdə asılıdırlar. Hüdüd baxımından ümumiləşdirilmiş siyahıya iqtisadiyyatın davamlı şəkildə inkişaf etmək qabiliyyətini əks etdirən göstəriciləri daxil edilir. Onların arasında ölkənin maliyyə sisteminin inkişaf göstəricilərinin, sosial sahənin rifah göstəricilərinin, xarici iqtisadi fəaliyyətdə müvəffəqiyyət göstəricilərinin adını çəkmək olar.

İqtisadi təhlükəsizliyin miqdar parametrləri (miqdar qiymətləri) beynəlxalq siyasi və hərbi vəziyyətdən, bu və ya digər təhlükələrin, yaranma ehtimalının dərəcəsindən, yeni elmitexniki ixtira və insanların, cəmiyyət və dövlətin tələbatından

asılı olaraq zaman etibarilə də dəyişir. Milli maraqlar baxımından yol verilən dəyişmə hüdudlarını əks etdirərək onlar hüdud parametrləri adını almışdır.

Qeyd edilənlərdən belə bir nəticə çıxarmaq olar ki, iqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirərkən ***hüdud (kritik) qiymətləri***, iqtisadiyyatın və eləcə də yaranan təkrar istehsal amilləri arasında nisbət və vəziyyətin ikinci dərəcəli deyil, əsil əlamətlərini əks etdirməlidirlər, iqtisadiyyatın inkişafında milli maraqları təsvir etməlidirlər. Onlar təhlükələrə qarşıduran və milli iqtisadi mənafeləri qoruyan meyl və güclərini müvafiq halda beynəlxalq müqayisə imkanlarını təmin edərək kifayət qədər dəqiq göstərmək iqtidarındadırlar. Kritik qiymətlər müəyyən qədər kifayət qədər konkretlik və müəyyənlik dərəcəsinə malik olmalıdırlar ki, iqtisadi təhlükəsizlik baxımından təsərrüfat fəaliyyətinin faktiki vəziyyətinin birmənalı xarakteristikasını vermək mümkün olsun.

Hüdud qiymətlərin ayrılması çoxsaylı çətinliklərlə toqquşur. Birincisi, qərarları qəbul edərkən bir deyil, kritiki göstəricilərin birliyini nəzərə almaq lazımdır. Bir - iki parametrin normasından yayınma heç də hər zaman ölkə iqtisadiyyatnda ümumi vəziyyəti xarakterizə etmir. İkincisi, ictimai həyatın siyasi və sosial-iqtisadi xüsusiyyətləri iqtisadi təhlükəsizliyin xaricdə işlənib hazırlanan və tətbiq edilən unifikasiya edilmiş göstəricilərini böyük ehtiyatla istifadə etməyə məcbur edirlər. Bəzi ölkələrdə iqtisadi vəziyyətin kritik nöqtələri mövcuddur ki, hüdudlarından kənara çıxmağa yol verilmir, digərlərində isə buna yol verilir və hətta qəbul edilir. Üçüncüsü, müxtəlif ölkələrdə, iqtisadi təhlükəsizliyə aid olan statistik informasiyanın öz toplanma və emal edilmə üsulları var. Bu onların Rusiyada tətbiq ediləmə imkanını çətinləşdirir. Dördüncüsü, iqtisadiyyatın real fəaliyyət imkanını və krizis inkişaf dinamikasını xarakterizə edən mühüm göstəricilərin ya olmadığını, ya da təhrif olunduğunu istisna etmək olmaz.

İqtisadi münasibətlərin dinamikliyi iqtisadi siyasətdə ***inkişaf templərini*** xarakterizə edən göstəricilərdən istifadə etməyi şərtləndirir. Bu cür təhlilin mühüm ünsürləri aktiv təsərrüfat

fəaliyyətinin prioritet xarakteristikaları ilə adam başına düşən ÜDM-in artıma nisbəti ola bilər. Ona görə də dövlətin iqtisadi fəaliyyət istiqamətləri onun tənzimləyici rolunda, təsərrüfat fəaliyyətinin miqdar xarakteristikaları isə - iqtisadi təhlükəsizlik göstəriciləri müəyyənləşdirici amil kimi istifadə oluna bilər.

İqtisadi təhlükəsizliyin səviyyəsinin qiymətləndirilməsinə müqayisəli göstəricilərin faktiki vəziyyəti və indiqatorlar nəzərə alınmaqla seçilmiş vaxt ərzində sosial-iqtisadi inkişafın proqnozu vasitəsilə nail olunur. Təsərrüfat fəaliyyətinin təhlil edərkən və ona yekun vurularkən iqtisadi təhlükəsizliyin nail olunmuş səviyyəsi, proqnoz qiymətləndirilmələrdə isə - qarşıda duran dövr üçün ehtimal edilən səviyyəsi müəyyən edilir. Ona görə də iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi təsərrüfat fəaliyyətinin hər bir istiqaməti, eləcə də bütövlükdə ölkə iqtisadiyyatı üzrə keçirilə bilər.

M***üəyyən ölkələrin*** məsələn, o***rta dünya***, yaxud (məsələn, sənaye baxımından inkişaf etmiş) iqtisadi vəziyyəti haqqında məlumatlar əsasında müqayisə edilməsi iqtisadi təhlükəsizliyi təmin etmək məqsədi ilə iqtisadi-siyasət istiqamətlərinin seçilməsində istifadə edilir. İqtisadi inkişaf templərinə söykənən iqtisadi təhlükəsizliyin lazımi səviyyəsinin təmin edilməsi, ***dövlətin iqtisadi proseslərə müdaxilə etməsinin miqyas və şərtlərindən*** asılıdır. Məhz dövlət idarəetmə institutlarının tənzimləyici rolu, ölkənin iqtisadi təhlükəsinin təmin edilməsinin əsas vəzifəsi olaraq milli-iqtisadi mənafelərin mühafizəsi üzrə mühüm qərarların qəbul edilmə amilidir. İqtisadiyyat və iqtisadi təhlükəsizliyin miqdar parametrlərinin əsaslandırılmış milli mənafe əsasında iqtisadi siyasət prioritetləri təyin edilir, eləcə də ehtiyac olan halda ölkənin iqtisadi təhlükəsizliyinin ayrı-ayrı problemlərin təmin edilməsinin həlli üzrə məqsədli proqramlar işlənib hazırlanır.

Dövlət tənzimlənmə mexanizminin effektliyindən və həyat qabiliyyətindən strukturlaşma və ölçüyə daha yaxşı uyğun olan digər iqtisadi təhlükəsizlik parametrləri xeyli dərəcədə asılıdırlr: həyat keyfiyyəti, iqtisadi suvernitetin reallaşdırılması,

iqtisadi və peşəkar fəallığın dəstəklənməsi, qanunsuz və cəmiyyətə zərər vuran hərəkətlərin qəti şəkildə aradan qaldırılması.

C***inayətkarlıq***, ictimai münasibətlərin kriminallaşdırılması, dövlət və cəmiyyət üçün real təhlükə kəsb edir. Dövlət fəaliyyətinin iqtisadi, hərbi, hüquq mühafizə və digər sahələrində islahatların ilkin keçirilmə mərhələsində buraxılan səhvlər, dövlət tənzimləmə və nəzarət sisteminin zəifləməsi, hüquq bazasının yarımçıqlığı və güclü sosial dövlət siyasətinin olmaması, cəmiyyətin mənəvi-əxlaqi səviyyəsinin aşağı düşməsi cinayət və korrupsiyanın inkişafına şərait yaradan obyektiv amillər olmuşlar.

Kriminal-sindikalist iqtisadiyyat xarakterizə edən bütün xassələrlə birlikdə yaranmasından təhlükə ibarətdir: təsərrüfatçılığın prioritet sahələrində korrupsiya, inhisarçılıq, tördilmiş qanunsuz hərəkətlərə görə cəzalandırılmama. Mütəşəkkil cinayətkar qruplar hüquq-mühafizə sistemlərinin qüsurlarından qanuni olaraq fəaliyyət göstərən kommersiya strukturlarına nisbətən daha çox faydalanırlar. Qeydə alınan cinayətlərin dinamika və strukturunda baş verən neqativ proseslər ideoloji, siyasi, sosial-iqtisadi məsarifələrin, eləcə də səhvlərin, qanuni və hüquq tətbiq edilən təcrübəsinin vaxtında aradan qaldırılmayan nöqsanlarının nəticəsidir.

Mütəşəkkil cinayətə qarşı fəal mübarizə milli təhlükəsizlik strategiyasının üstünlük təşkil edən istiqaməti olmalıdır. Onun istiqamətlərinin reallaşdırılması siyasi, iqtisadi, hüquqi və təşkilati xarakterli tədbirlərə nail olunmalıdır. Dövlət rəhbərlərinin siyasi iradəsinin, dövlət hakimiyyətinin bütün səviyyələrdə olan qanunvericilik və icra orqanlarının və ictimayyətin məqsədyönlü fəaliyyətinin birləşməsi kriminal mühitin iqtisadi əsaslarını sarsıtmağa və mütəşəkkil cinayət qruplaşmalarının liderlərinin axırına çıxmağı təmin etməyə qabildir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə mühüm fəaliyyət istiqaməti ***cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulmasına qarşı müqavimətin*** olmasıdır. Onların mövcud olması, vaxtında bu gəlirləri yaradan cinayətlərin açılmadığına dəlalət edir. Bununla belə, yuyulmanın qarşısının alınması və onları

törədən şəxslərin məsuliyyətə cəlb edilməsi, ölkə iqtisadiyyatının sabit şəkildə fəaliyyət göstərməsi üçün olduqca vacib bir tədbirdir. Vəziyyətin mürəkkəbliyi ondan ibarətdir ki, pul və mal axını sisteminin kriminal təhrifi və cinayətkarlığın ayrı-ayrı bölgələrdə mərkəzləşməsi ölkənin iqtisadi təhlükəsizliyini və bütövlüyünü təhlükə altında qoyurlar.

Bəşəriyyət tarixinə bu məsələnin həllinin yalnız iki yolu məlumdur. Ya hər şeyə qadir (özünə tabe edən) mərkəzi hakimiyyət, ya da real gücün liberal demokratik qanunvericiliyin verilməsi. Bu problemin həllinin sonuncu yolunun imkanları Rusiyada yalnız iqtisadiyyatın istehsal sektrounun canlanmasından asılı olaraq mümkündür. Məsələ ondan ibarətdir ki, maddi istehal sahəsində tədavül sahəsinə nisbətən oğurlamaq daha rahatsız və çətindir. Ona görə də sənaye faktiki olaraq, maliyyə və ticarətə nisbətən daha az kriminallaşıb. İqtisadi sahədə maddi istehsalın lazımi çəkisinin təbii şəkildə bərpası iqtisadiyyatın kriminal sektorunun milli iqtisadiyyatın həyat qabiliyyətliliyinin hüdüd səviyyəsindən aşağı toqquşması üçün obyektiv əsas yaradır. Əksər çağırış və hədələr - həm aktual, həm də potensial böhran təzahürlərinin qarşısının alınma Vasitələrinin işlənib hazırlanması, dövlət institutlarının möhkəmləndirilməsi yolu, eləcə də effektiv iqtisadi siyasətin keçirilməsi yolu ilə neytrallaşdırıla, yaxud zəiflədilə bilər.

3. Dövlət tənzimlənməsi

Rusiya iqtisadiyyatı getdikcə ***siyasi qərarların qəbulunun əsasına*** çevrilir. Bu, dövlət institutlarının tənzimləyici rolunu qabaqcadan müəyyənləşdirir., aydındır ki, bazar münasibətləri şəraitində təsərrüfatçılıqla məşğul olan subyektlərinin hamısının bütün fəaliyyətini direktiv olaraq istiqamətləndirməyin mənası yoxdur. Dövlətin struktur islahat və pul-maliyyə axınlarının tənzimlənməsi yolu ilə təkrar ictimai istehsal prosesində optimal iştirak vacibliyi də

buradan irəli gəlir. Bu proses yeni milli və təhlükəsizlik ideologiyasının konkret doktrinalar ilə birgə bu fəaliyyətin planlaşdırılma, təşkilatı və fəaliyyət mexanizmlərinin formalaşması paralel və qarşılıqlı surətdə inkişaf edir. Bu, qeyri-sağlam təsirlər ölkənin rifahı üçün çalışanlara lazımi zəmin, şərait və imkan yaratmır. Bununla da iqtisadi inkişafın və iqtisadi təhlükəsizliyin təmin olunması ilə bağlı ümum iqtisadi maraqların reallaşdırılması məqsədlərinə nail olunur.

Müasir iqtisadiyyatda dövlətin funksiyalarının daha geniş və qərəzsiz əsaslandırılmasının vacibliyinin dərk edilməsi daha da möhkəmlənir. Bazar iqtisadiyyatı şəraitində dövlət tənzimlənməsinə ixtisaslı yanaşma tələb olunur. Mübahisələr «ümumiyyətlə, tənzimlənmə lehinə, yaxud əleyhinə» müstəvisindən «məhz hansı tənzimlənmə lazımdır» müstəvisinə keçmişdir. Dövlət inzibati yolla deyil, iqtisadi alətlərdən istifadə etməlidir və bazar-rəqabət mexanizminin fəallaşmasına yönəlməlidir. Dövlətin ölkənin iqtisadi inkişaf prosesində prinsipial baxımdan mühüm iştirak ünsürlərini göstərək:

Birincisi; dövlətin funksiyasının onun potensialına uyğun olaraq təsir göstərilməsi, yəni mövcud imkanlarla arzuların uyğun gəlmə prinsipinə riayət edilməsi; bəzi dövlətlər məhdud ehtiyata malik olmaqla həddən çox iş görməyə cəhd edirlər. Bu çox vaxt xeyirdən çox ziyan gətirir. İmkanlar az olanda dövlət müdaxiləsinin forma və istiqamətləri ətraflı təhlil edilməlidir. Bu planda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqi ümumi dövlət xərclərinə yönəldilmiş, ayrılmış məbləğ səviyyəsi üzrə müəyyən etmək olar. Sənaye baxımından inkişaf etmiş ölkələrdə artıq dövlət gəlirləri indi ÜDM -in yarısına, inkişaf etməkdə olan ölkələrdə isə onlar təxminən dörddə birini təşkil edirlər (adam başına ÜDM göstəriciləri daha çox aşağı olduqda).

İkincisi. Dövlətin iqtisadi potensialını ictimai institutların fəallaşdırılması yolu ilə möhkəmləndirir. Söhbət hakimiyyətə özbaşnalığın, korrupsiya, iqtisadi, hüquq pozuntusu və cinayətkarlıtın qarşısını almaq üçün imkan verən effektiv norma və məhdudiyyətlərin işlənib-hazırlanmasından gedir.

Üçüncüsü. Dövlət orqanları tərəfindən effektiv preferent rejimin daxil edilməsi. Bu mal və xidmətlərin reallaşdırılması, bazarlara inkişaf imkanı verən qayda və institutların yaranması, insanlara isə daha sağlam və xoşbəxt həyatı təmin etmək üçün vacibdir.

Dövlətin artan təsiri prosesin ağırlıq mərkəzini dövlət təsirini kəmiyyət aspektindən keyfiyyət aspektinə keçirir. Dövlətin və onun müdaxilə həcminin yerinə onun fəaliyyət nəticəsinə və əhalinin ehtiyaclarının əks edilmə dərəcəsinə diqqət dəyişmişdir. Dövlət hakimiyyəti, institutu, bilavasitə inkişaf mənbəyi deyil, tərəfdaş, katalizator və köməkçi bir qrum kimi ölkənin iqtisadi və sosial inkişafı mərkəzinə çevrilir. Dövlətin potensialı birgə tədbirləri effetiv şəkildə həyata keçirmək və təbliğ etmək qabiliyyəti ilə müəyyən olduğu üçün bu məsələyə xüsusi diqqət ayrılır. Öz effektliyini yüksəltmək üçün dövlət hakimiyyəti institutları böyük rəqabət şəraitində fəaliyyət göstərməlidirlər.

Dövlət tənzimlənmə səviyyəsi iqtisadi təhlükəsizlik sahəsində lazımi nəticələrin əldə edilməsi üçün təminatları aşağıdakı fəaliyyət istiqamətləri üzrə təyin edir. Birincisi, cəmiyyətin həyat baxımından mühüm mənafelərinə olan daxili və xarici təhlükələrin üzə çıxarılması və proqnozlaşdırılması daxil olmaqla, iqtisadiyyatdakı proseslərin hərtərəfli və obyektiv monitorinqi üçün informasiya bazasının yaradılmasıdır. İkincisi, iqtisadi maraqlara ola biləcək təhlükələrin mümkün neqativ nəticələrinin qarşısının alınması və aradan qaldırılması üzrə opreativ və uzunmüddətli tədbirlər kompleksinin görülən tədbirlərin nəticələrinin qiymətləndirilməsi ilə birlikdə işlənib hazırlanmasıdır.

İqtisadiyyata dövlət təsirinin konkret vasitələrini təyin edərkən təsərrüfatçılıqla məşğul olan iqtisadi baxımdan müstəqil subyektlərin fəaliyyətində yaranan meylləri nəzərə almaq, onların özünütənzimləmə və sabitliyə olan qabiliyyətini görmək lazımdır. İqtisadiyyatın effektiv fəaliyyətinin əsasını yaradan institusional islahatlar, əhalinin geniş təbəqəsində sosial gərginliyin azalmasını təmin edən proseslər, habelə, mövcud İntellektual-resurs və elmi-texniki potensal makro və mikro iqtisadi səviyyədə aparılan struktur dəyişiklikləri, inkişafın stimulları-

nın formalaşmasına şərait yaradırlar. Dövlətin maliyyə, kredit-pul, investisiya və xarici-iqtisadi sahələrdə fəallığının güclənməsi çox böyük əhəmiyyət kəsb edir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə dövlət fəaliyyəti «Rusiya Federasiyası iqtisadi təhlükəsizliyinin dövlət strategiyasının» reallaşdırılması üzrə fəaliyyətin koordinasiyası və nəzarəti də özünə daxil edir. Onun vəzifəsi - qısa müddətli perspektivdə sosial-iqtisadi sistemin və dövlətin sabitliyini pozan amillərin müəyyən edilməsi və monitorinqinin keçirilməsinin, habelə, bu amillərin zərərli təsirini vahid iqtisadi islahat proqramı çərçivəsində aradan qaldıran və zəiflədən iqtisadi siyasəti və institusional islahatları formalaşdırmalıdır.

Suallar və tapşırıqlar

1.Milli təhlükəsizliyin mahhiyyəti nədədir?

2. İqtisadi təhlükəsizlik anlayışını, onun strateji təmin olunmasını və milli təhlükəsizlikdə olan yerini izah edin.

3. İqtisadi təhlükəsizliyin təmin olunma mexanizminin qısa xarakteristikasını verin.

4. Sizə iqtisadi sabitlik üçün hansı təhlükələr məlumdur? Onları sadalayın və təsnifatını verin.

5. İqtisadi təhlükəsizlik indikatorlarının hüdud mənası nə deməkdir. Onların konkret olaraq sadalayın.

6. Rusiya iqtisadiyyatının qlobal problemləri nədən ibarətdir. Hər bir problem üçün xarakteristika verin.

© Колосова А.В., 2002
© Протрубач Н.Н., 2002

Q L O S S A R İ

Aqrar bazarı – ASK-nın son məhsulu, kənd təsərrüfatı məhsulu, kənd təsərrüfatı istehsalının xidməti və resursların alqı və satqısı üzrə mübadilə prosesində alıcılar və satıcılar arasında münasibətdir.

Aqrar siyasət – milli ərzaq təhlükəsizliyinin, kənd əhalisinin normal həyat fəaliyyətinin təmin edilməsi və aqrar sahənin biosisteminin saxlanılması məqsədi ilə ASK-nın sabit inkişaf etməsi üçün əlverişli mühitin yaradılmasına və onun daimi dəstəklənməsinə yönəlmiş dövlətin məqsədyönlü fəaliyyətidir.

Aqrobiznes hüquqi və fiziki şəxslərin – mənfəət əldə etmək məqsədilə iqtisadiyyatın aqrar sektorunda işlənilən sabit təşəbbüskar fəaliyyətidir.

Aqrosənaye kompleksi (ASK) – kənd təsərrüfatı xammalından əsas məhsulun təkrar istehsalını təmin edən qarşılıqlı bağlı olan sahələrin birliyi. ASK-ya üç funksional sahə daxildir: - 1. kənd təsərrüfatı üçün istehsal vasitələrini və müvafiq xidmətləri istehsal edən fond yaradan vasitələr: 2. – kənd təsərrüfatı; 3. –kənd təsərrüfatı xammalının tədarükü, saxlanılması, yenidən emalını ASK əsas məhsulunun reallaşdırılmasını təmin edən sahə və istehsalların birliyi.

Azad bazar – əsasında azad rəqabət duran, daha çox sərbəst əmtəə satıcıları və alıcıları olmasını nəzərdə tutan bazardır.

Amortizasiya fondu – müəssisələrdə amortizasiya ayırmaları hesabına yaradılan əsas fondları yeniləşdirmək üçün istifadə

olunan və məhsulun maya dəyərinə daxil olan pul vəsaitləri fondudur.

Antiinhisar siyasət – bazarlarda inhisarlaşmaya mane olan rəqabətin inkişafına istiqamətlənmiş dövlətin iqtisadi və təşkilatı tədbirlər sistemidir.

ASK kooperativ sistemi – kooperativ prinsiplər əsasında son məhsulun dəyanətliliyi təkrar istehsalında şaquli fəaliyyəti üçün yaradılmış müxtəlif səviyyəli kooperativlərin qarşılılıqlı sistemi.

ASK-da davamlı təkrar istehsal - verilən təkrar istehsal subyektlərinin ASK-da təkrar istehsal amilləri ilə qeyri –müəyyənlik şəraitində onun zəruri inkişaf templəri arasında dinamik rasional proporsionallığın fasiləsiz saxlanmasıdır. Belə davamlılığın məqsədi əhalini yeyinti məhsulları və kənd təsərrüfatı xammalından istehsal edilən xalq istehlakı malları ilə daim təmin etməkdir.

ASK-də (dəyanətli) təkrar istehsal – əhalinin tələbatının ödənilməsi üçün kənd təsərrüfatı xammalından hazırlanan məhsulların dəyanətli təkrar istehsalını təşkil etmək məqsədilə dövlətin siyasi, hüquqi, təşkilati və s. təminatı sistemidir.

Aşağı inisar qiyməti – bazardan alınan məhsula inhisarçının qoyduğu qiymət.

Beynəlxalq iqtisadi qarşılıqlı əlaqə – dünya təsərrüfatı ölkələri arasında, əlaqələrin formalaşması və inkişafı üzrə münasibətlər sistemi. Beynəlxalq iqtisadi münasibətlər–dünya təsərrüfatı çərçivələrində və formalarında fəaliyyət göstərən subyetlərin və orqanların səviyyəsində beynəlxalq əmək bölgüsünə əsaslanmış, müxtəlif ölkələrin iqtisadiyyatı arasında təsərrüfat əlaqələri sistemi (dünya ticarəti, kapitalın çıxarılması əmək resurslarının miqrasiyası, gələn kapitalının beynəlxalq bazarı. Beynəlxalq valyuta sistemi).

Lokaut (kiminsə qapısını bağlamaq, örtmək) – tətilləri yatırmaq və qarşısını almaq, iqtisadi təsir göstərmək məqsədilə fəhlələrin kütləvi işdən azad edilməsi və müəssisənin bağlanması.

Təkrar istehsalın makroiqtisadi münasibətləri – makroiqtisadiyyatın əsas elementlərinin münasibəti: məcmu tələb və məcmu təkliflər; son istehlak və yığım; istehlak və əmanət; şəxsi gəlir və korporasiya gəliri; təsərrüfat daxili istehlak və ixrac və s.

(Rusiya federasiyasında bura qocalıq, xəstəlik, şikəstlik, analıq, ailə başçısının itirilməsi və digər ölkələrdə həmçinin işsizlikaiddir). Hazırda sosial sığorta sistemində yeni istiqamətlər nəzərdə tutulmuşdur; - sığrota üzrə aztəminatlılara ödəniş və xidmətlər; sığorta fondunun mənbəylərinin formalaşmasında işçilərin iştirakının xüsusi çəkisinin yüksəldilməsi; büdcə maliyyələşdirilməsinə keçilməsi; vahid tibbi – sığorta sistemi və s.

a) vergilər çıxılandan sonra əhalinin gəlirlərindən qoyulan vəsait, yəni xalis şəxsi yığımlar; b) Kooperasiyaların xalis əmanətləri – dividend şəklində ödənilməyən firmaların gəlirinin müəyyən hissəsi; v)hökümət (dövlət) səviyyəsində xalis qalıq.

Bazar qiyməti –müəyyən dövrdə real bazarda tələb, təklif və rəqabətin təsiri altında yaranan əmtəənin dəyərinin pulla ifadəsidir.

Bazar iqtisadiyyatı – geniş təkrar istehsal prosesinin özünütənzimləməsini təmin edən, istehsalçıların və istehlakçıların, rəqabətin iqtisadi azadlığına əsaslanan ictimai təsərrüfat sistemidir.

Bazar- tələb, təklif və qiymətlər formalaşan əmtəələrin alqı-satqısı üzrə satıcılarla alıcılar arasında iqtisadi münasibətlər sistemidir.

Bazar təsərrüfatı – iqtisadiyatın təşkilinin iqtisadi proseslərin özünütənzimləməsinə əsaslanan konkret tarixi formasıdır.

Bazarın coğrafi hədləri – Rusiya Federasiyası ərazisində və onun bölgələrində əvəzedicisi olmayan və yaxud əvəzedicisi olan əmtəələrin tədavül etdiyi ərazidir. Buna uyğun olaraq müvafiq ərazidə və ondan kənarda alıcının iqtisadi imkanları öz əksini tapır.

Baş müqavilə – federal səviyyədə sosial əmək münasibətlərinin tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edən hüquqi akt olmaqla, Rusiya Federasiyasının hökuməti və

ümum Rusiya işəgötürən birliklərin ümum Rusiya həmkarlar birliyi ilə müqavilənin şərtlərini və sosial – iqtisadi siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir.

Biznes – mənfəət gətirən daimi təşəbbüskar təsərrüfat fəaliyyətidir.

Birbaşa investisiya – investisiyalaşdırılan obyektin idarə olunmasında iştirak etmək hüquqi olan və yaxud qoyulmuş investisiyaların nəticəsində bu hüqüqu qazanmış fiziki və hüqüqu şəxs tərəfindən həyata keçirilən investisiya.

Bu növ iqtisadi inkişaf tipi, XX- əsrin 50 ci illərindən industremal ölkələri üçün dəyanətli hadisə kimi bərqərar olmuşdur. Elmi texniki yenilik, rəqabət bazarında sahibkarlıq strategiyasının əsas amili kimi çıxış edir.

Bu əməliyyatların ikili yazılış prinsipinə əsaslanan xüsusi hesabat sistemidir. Tədiyə balansının tərkib hissələri bunlardır: cari əməliyyatlar hesabı kapital əməliyyatları. Tədiyə balansı aktiv və passiv ola biliər. Rusiyada ABŞ dolları hesabı ilə tərtib olunan yeganə balansdır.

Valyuta – pul hesablaşmaları ilə bağlı olan beynəlxalq iqtisadi mübadilədə və digər iqtisadi münasibətlərdə iştirak edən ölkənin pul vahididir.

Valyuta nəzarəti – xarici valyuta və onunla əməliyyat aparılması qaydasını müəyyənləşdirən dövlət tənzimləmə sistemidir.

Valyuta tənzimlənməsi – valyuta əməliyyatlarının keçirilməsi ilə bağlı milli valyutanın və ölkənin tədiyyə balansının daxili valyuta bazarının formalaşması və inkişafı ilə bağlı valyuta əməliyyatlarının aparılması, mənimsənilməsi, istifadəsi və sərəncam verilməsi ilə bağlı səlahiyyətli dövlət orqanlarının fəaliyyətidir.

Vergi – dövlət və bələdiyyə təşkilatlarının maliyyə fəaliyyətlərinin təmin olunması məqsədilə müəssisələri əvəzi ödənilmədən alınan məcburi tədiyyələr.

Vergi siyasəti – sosial – iqtisadi, strateji – taktiki məqsədləri reallaşdırmaq üçün, dövlət tərəflərindən tətbiq olunan vergi və vergiyə cəlb olunma tədbirləri sistemi.

Vergi stavkası – fiziki vergiyə cəlb olunmuş vahidə və ya dəyərə görə, vergi tədiyyəsini səciyyələndirən mütləq və nisbi kəmiyyət.

Vergi tənzimlənməsi – effektli bazar iqtisadiyyatının formlaşmasına və ya ona adekvat olan mikro – makro inkişaf prosesləri kompleksinə, dövlət tərəflərindən vergi və vergiyə cəlb olunma vasitələri ilə məqsədyönlü təsir.

Vergi təsiri (ağırlığı) – hüquqi və fiziki şəxslərin gəlirinə qoyulan vergi kəmiyyəti (xüsusi çəkisi).

Vergiyə cəlb olunan – qanunçuluq əsasında vergi verməyə cəlb olunan fiziki və hüquqi şəxs.

Vergiyə cəlb olunma vahidi – vergi stavkası tətbiq olunan pul və ya fiziki vahid.

Vergiyə cəlb olunma obyekti – vergiyə cəlb olunması nəzərdə tutulmuş, ticarət dövriyyəsi, əmlak, gəlir.

Vergiyə cəlb olunmanın əsası- verginin müəyyən edilməsi və hesablanması üçün vergiyə cəlb olunan mülkiyyətinin dəyəri və ya gəlirinin həllinin dəqiq gəlir kəmiyyəti.

Vergisistemi – qarşılıqlı əlaqəli vergilərin məcmuu, vergiyə cəlb olunmanın təşkilati – hüquqi forma və metodları, həmçinin vergi orqanları.

Qarışıq iqtisadiyyat – bir neçə xüsusi mülkiyyətçilik, ictimai-dövlət, kollektiv və başqa təsərrüfat ukladının qarşılıqlı fəaliyyətinə əsaslanan makroiqtisadi sistemdir. Bazar, kooperativ və iqtisadi proseslərin dövlət tənzimlənməsi mexanizmlərinin ziddiyyətli vəhdəti ilə xarakterizə olunur.

Qiymətli kağız- təyin edilmiş formanın gözlənilməsi şərti ilə əmlak və öhdəlik hüquqlarının mütləq rekvizitlərinin təsdiqlənməsinin yerinə yetirilməsi yalnız təqdim edilməsi və yaxud ötürülməsi zamanı mümkün olan sənəddir.

Diskkontlaşdırma norması – layihənin reallaşdırılmasına qoyulan kapital vahidi hesabına investor gəlirin mühüm ola bilən həddi kəmiyyəti.

Diskontlaşdırma – layihədə nəzərdə tutulan və layihə ilə əlaqədar pul daxilolmalarının müxtəlif vaxtlarda həyata keçirilməsi metodudur.

Dominat (üstün) vəziyyət – uyğun əmtəə bazarına daxil olmanı çətinləşdirən, əmtəə dövriyyəsinə həlledici təsir göstərən, əvəzedici məhsuu olmayan əmtəə bazarında bir və ya bir neçə təsərrüfat subyektlərinin əlahəddə hakim mövqeyə malik olması. İnhisarın ən yüksək səviyyəsi «De-Birs» şirkətinin 95% nəzarət etdiyi emal olunmamış almas bazarı olmuşdur.

Dünya iqtisadiyyatının qloballaşması – bu iqtisadi agentlərin qarşılıqlı asılılığının güclənməsi prosesinin elə həddə çatmasıdır ki, bu zaman birinin fəaliyyəti qalanlarının marağına toxunur (qlobal xarakter alır) və eyni zamanda digər sferalarda proseslərin və halların xarakterinə təsir göstərir. Dünya iqtisadiyyatının beynəlmiləlləşməsinin məntiqi davamıdır.

Dünya təsərrüfatı – elmi, texniki, maliyyə, əmtə – təkraristehsal, beynəlxalq əmək bölgüsündə birləşmiş Milli təsərrüfat sistmi. Bu iqtisadi sistem məhsuldar qüvvələri, istehsal münasibətlərini və müəyyən üstqrum aspektlərini o səviyyədə özözünü bərpa edə bilir ki, Milli iqtisadiyyat yuxarıda qeyd olunanların hər biri ilə nədərəcədə müəyyən uyğunluğa malikdir.

Dövlət ehtiyacı – dövlətlərarası və bələdiyyə məqsədli proqramları, ölkənin təhlükəsizliyi və müdafiə qabiliyyətliliyini, zəruri həyatı tələbatları ödəmək üçün dövlət tələbatıdır. Dövlət ehtiyacı bələdiyyə büdcəsi və büdcədən kənar mənbələrdən maliyyələşir.

Dövlət zəmanəti – investorun təqsiri olmadan layihənin reallaşdırılmasının pozulduğu halında müqavilədə nəzərdə tutulmuş şərtlərdə ona pul vəsaitinin qaytarılması üçün müvəkkil edilmiş dövlət orqanının öhdəçiliyidir (təəhhüd).

Dövlət mülkiyyəti – dövlət və ictimai marağın reallaşdırılması məqsədilə maddi nemətlərin mənimsənilməsi üzrə münasibətlər sistemidir.

Dövlət mülkiyyətinin idarə edilməsi – dövlətin və cəmiyyətin əsas mənafelərini reallaşdırmaq məqsədilə iqtisadi funksiyaları, forma və metodları vasitəsilə obyektlərinin təkraristehsalı, istifadəsi və tranformasiyasına dair menecerlər, müxtəlif subyektlər və onların öz aralarında təşkilati-iqtisadi münasibətlər sistemidir.

Dövlət mülkiyyətinin idarə edilməsi strategiyası – dövlət mülkiyyətinin idarə edilməsinin başlıca istiqamətidir. O sosial-iqtisadi sistemin əsas parametrlərinin inkişaf meyllərində, onun struktur bölmələrində qabaqcadan görünən dəyişikliklər əsasında işlənib hazırlanır. Strategiya öz əhalisinin rifahının təmin etmək məqsədilə dövlətin və ölkənin birləşdirilmiş kapitalın hamısından səmərəli istifadə etmək naminə dövlət mülkiyyətinin dinamiki möhkəm təkrar istehsalı üçün əlverişli imkanları və (və ya təhlükələri) maksimum nəzərə almalıdır.

Dövlət sifarişi – dövlət ehtiyacının təmin edilməsi üçün zəruri olan, işlərin görülməsinin məhsul təqdimatının vaxtı, dəyəri, həcmi və s. üzrə hüquqi aktdır. Dövlət sifarişləri icraçıların müsabiqə yolu ilə seçilməsi əsasında yerləşdirilir və sifarişçi ilə icraçı arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

Dövlət torpaq kadastrı – torpaq haqqında onun sahibi, icraçısı, torpağın keyfiyyəti, torpaq sahələrinin ölçüləri, yerləşmə yeri, təsərrüfat və hüquqi təminatı, təbiəti haqqında zəruri və dəqiq məlumatlar sistemidir.

Dövlətin elmi texniki siyasəti sosial-iqtisadi siyasətin bir hissəsidir, dövlətin elm və texniki siyasətə münasibətini əks etdirir, dövlət orqanlarının elmi və texniki nailiyyətlərin reallaşdırılması sahəsində fəaliyyətini, vəzifəsini və məqsədini istiqamətləndirir.

Dövlətin investisiya siyasəti – büdcənin investisiya resurslarının istifadəsinin səmərəliliyinin yüsəldilməsi və əlverişli investisiya mühitinin formalaşmasına istiqamətlənmiş dövlətin tənzimləmə tədbirləri sistemi.

Dövlətin struktur siyasəti – dövlətin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir. Onun struktur dəyişikliklərinə münasibətini əks etdirir. Sineketik və taktiki məsələləri müəyyənləşdirir. İqtisadiyyatın alt sistemləri arasında səmərəli mütənasibliklərin yaradılmasına xidmət edir.

Dövlətsizləşdirmə – sosial-iqtisadi proseslərin idarə edilməsində və eyni zamanda dövlət mülkiyətinin müəyyən hissəsinin özəlləşdiriməsində dövlətin rolunun aşağı düşməsi dövlətin iqtisadi funksiyalarının ixtisar olunması, dövlət orqanlarının

funksiyalarının müəssisələrə verilməsi, xüsusi sahibkarlığın inkişafı.

Ev təsərrüfatı – kiçik biznesin formalaşmasının əsasını təşkil edən, yaşadığı ərazi və ya digər prosesləri əhatə edən, bir və ya bir neçə faizini şəxslərin birləşdirən iqtisadi fəaliyyət subyektidir.

Ekoinkişaf- cəmiyyətin və təbii mühitin inkişafının sosial, ekoloji və iqtisadi göstəricilərininnəzərə alınması ilə inkişaf dinamikasıdır.

Elmi – texniki tərəqqi – istehsalda və ictimai sferada, elmi – texniki və innovasiya proseslərinin qarşılıqlı əlaqəli məcmuu.

Elmi – texniki fəaliyyət – sosial iqtisadi, texnaloji, mühəndis, hümanitar və s problemlərin həlli, elmin, texnikanın və istehsalın vahid sisteminin təmin olunması üçün tətbiq olunan elmi fəaliyyət.

Elmi – texniki üstünlük – üstünlük sisteminin mürəkkəb strukturu. Bu zaman «elmi - təkraristehsal» tsiklində yeniliklərin, elmi nəaliyyətlərin keyfiyyətinin məqsədyönlü yüksəldilməsi başa düşülür. Bu vəziyyət dəqiq sosial – iqtisadi məsələlərin həllində inteqrallaşmış əmək fəaliyyətinin məzmununun dəyişilməsi vasitəsilə təmin olunur.

İqtisadi azadlıq- təsərrüfat subyektlərinin müstəqil olaraq nə və necə istehsal etmək, kimə və harada satmaq haqqında qərarlarının qəbul edilməsini nəzərdə tutan bazar iqtisadiyyatının fəaliyyət göstərmə şərtidir. Müstəqillik həmçinin resursların mübadiləsi, bazarın bu və ya digər seqmentinə daxil olma və ondan çıxma haqqında qərarların qəbulunda da nəzərdə tutulur.

İqtisadi amillər- məhsulun buraxılış həcminin asılı olduğu istehsalda istifadə olunan resurslar: əmək, torpaq, kapital, sahibkarlıq bacarığı.

İqtisadi davamlılıq- muxtar təsərrüfat sisteminin görünən vaxt dövründə məqsədyönlü, sabit inkişaf fəaliyyəti imkanını xarakterizə edən vəziyyətdir.

İqtisadi menecment- iqtisadi qərarlarda ekoloji və sosial aspektlər nəzərə alındıqda bazar şəraitində həyat fəaliyyətinin kompleks, sistemli idarə edilməsidir.

İqtisadi proporsiya- bir və ya bir neçə iqtisadi qanunların qarşılıqlı təsiri ilə şərtləndirilən, iqtisadiyyatda ayrı-ayrı struktur blok və elementlərin qarşılıqlı asılılığı, obyektiv davamlı əlaqəsidir.

İqtisadi resurslar- istehsalı təmin edən vasitələr, mənbələr (xammal, geofiziki, əmək, kapital, fiziki kapital), informasiya, maliyyə, dövriyyə (maddi vəsaitləri).

İqtisadi sisteimin trasformasiyası – ölkənin iqtisadi sisteminin cəmiyyətin tələbatını daha yaxşı ödəməyə imkan verən yeni vəziyyətə keçirilməsidir. Müasir mərhələdə təcrübədə bu termin keçmiş sosialist ölkələrində başlanmış radikal iqtisadi islahatları göstərir. Bu halda ən ümumi oriyentir əsas dünya ölkələrinin təcrübəsinə müvafiq yüksək səmərəli və qiymətli bazar iqtisadiyyatını yaratmağa çalışmaqdır.

İqtisadi səmərəli məşğulluq- ictimai əmək məhsuldarlığının artımı əsasında cəmiyyətin hər üzvünə təhsil və professional səviyyəsinin artmasını, sağlamlığının saxlanmasını və layiqli gəliri təmin edir.

İqtisadi təhlükəsizliyi təmin etməyin strateji məqsədi – şəxsiyyətin həyat və inkişafı, cəmiyyətin sosial-iqtisadi və hərbi-siyasi sabitliyi, dövlətin bütövlüyünün saxlanması, daxili və xarici təhlükəyə müvəffəqiyyətlə qarşıdurma üçün münasib şəraiti yaratmaqdır.

İqtisadi təhlükəsizlik- hakimiyyət institutlarının ictimaiyyətdə sosial-siyasi sabitliyi saxlayan,yerli iqtisadiyyatın inkişaf maraqlarını qoruyan və reallaşdıran mexanizmlərin yaradılması imkanı və hazırlığı ilə əlaqəli olan iqtisadiyyatın durumudur.

İqtisadiyyat- çox aspektli tərkibə malikdir. 1.İctimai-iqtisadi münasibətlərin və məhsuldar qüvvələrin daimi qarşılıqlı təsiri və qarşılıqlı şərtləndirilməsi şəraitində məcmusudur. 2. Konkret istehlak sərvətlərinin təkrar istehsal proseslərinin tam məcmusudur. 3. İctimai təkrar istehsal sistemi çərçivəsində ehtiyat (resurs) kompleksinin yaranması və səmərəli istifadəsi

üzrə proseslərin məcmusudur. 4. Ölkənin iqtisadiyyatı sahələrin,xalq təsərrüfatı sferalarının,regionların,korporasiyaların, sahələrarası birliklərin,müəssisələrin və firmaların iqtisadiyyatlarının qarşılıqlı əlaqəli məcmusudur. 5. Struktur səviyyəsində iqtisadiyyat texnoloji həlqələrin məcmusu kimi xarakterizə olunur.

İqtisadiyyatın dövlət bölməsi – qarışıq iqtisadiyyatın mühüm həlqəsidir. Federasiya subyektlərinin mülkiyyətində olan, dövlət obyektlərini, sosial-mədəni infrastruktur sahələrini, təbii resursları, qızıl-valyuta ehtiyatlarını unitar müəssisə və təşkilatlar kompleksini əhatə edir.

İqtisadiyyatın dövlət tənzimlənməsi – cəmiyyət, xalq tərəfindən bəyənilmiş sosial-iqtisadi məqsədə uyğun olan, iqtisadi sistemin inkişafı və dəyanətli fəaliyyətinə xidmət edən dövlət səviyyəsində institutlar və tədbirlər sistemidir.

İqtisadiyyatın resurs strukturu – əsas resursların qarşılıqlı əlaqəli təkrar istehsal prosesləri üzrə iqtisadiyyatı strukturlaşdırmağa imkan verir.

İqtisadiyyatın siyasi – iqtisadi strukturu – məhsuldar qüvvələrin vahidliliyini, onun sahə ərazi, mülkiyyət və ictimai iqtisadi münasibətləri üzrə proporsional bölgüsünü əks etdirən iqtisadi strukturadır.

İqtisadiyyatın sosial istiqamətləndirilməsi – iqtisadiyyatın fəaliyyəti, iqtisadi qaydaların transformasiyası və millətin həyat şəraitin yaxşılaşdırmaq üzrə ölkədə həyata keçirilən tədbirlərin əhali tərəfindən qəbul edilməsinin təmin edilməsidir.

İqtisadiyyatın texnoloji strukturu – bu tipli əmtəələr və xidmətlər qruplarının istehsalının texnoloji bazasını müəyyən edən texnoloji zəncirlərin, ukladların, texnoloji törəmələrin bütövlüyünün məcmuudur.

İqtisadiyyatın təkrar istehsal quruluşu – bütün faza və fəaliyyət növləri üzrə daima təkrar bərpa olunan təkrar istehsal tsiklidir.

İDM-in strukturu – ümumi daxili məhsulu istehsalı, istifadəsi və formalaşmasını xarakterizə edən elementlərin nisbətidir.

İcarə haqqı – hər hansı bir sahənin icarəyə verilməsindən əvvəl kapitala görə faizə torpaq rentasına görə və avadanlıqların amortizasiya səviyyəsinə görə müəyyən olunan haqdır.

İnvesimsiya riski - investisiya layihələrinin reallaşdırılması prosesində iştirakların maliyyə itkilərinin ehtimallığı.

İnvestisiya - layihəsinin qarışıq dövlət-kommersiya maliyyələşdirilməsi – ödənilmək və qaytarılmaq şərtilə və həcmində üsiün investisiya layihələrinə kömək üçün pul vəsaitinin müəyyən hissəsinin dövlət büdcəsindən ayrılmasıdır.

İnvestisiya – pul vəsaitləri, məqsədli bank əməliyyatları, səhm, pay və digər qiymətli kağızlar, texnologiya, maşın, avadanlıq, digər əmlak və habelə bu və ya digər faydalı səmərəyə nail olma, mənfət götürmək məqsədi ilə sahibkarlıq obyektinə qoyulan pul qiymətləndirməsinə malik olan əmlak və sair hüquq.

İnvestisiya vergi krediti – vergi orqanlarla razılaşdırılmış, müəsssələrin əsas vəsaitlərinin yeniləşdirilməsi və investisiya aktivliyinin stimullaşdırılması məqsədilə vergi tədiyyələrinin təxirə salınması.

İnvestisiya layihələrinin səmərəliliyi- müxtəlif mövqelərdən qiymətləndirilir. İctimai səmərəlilik- layihəninyerinə yetirilməsinin cəmiyyət üçün xarici effektləri və ictimai sərvətləri daxil etməklə ümumilikdəsosial-iqtisadi nəticələrini nəzərə alan göstəricilər sistemidir. Kommersiya səmərəliliyi- onun reallaşmasının layihəni irəli sürən müəssisə və (və yaxud) xarici özəl investor üçün məqsədyönlülüyünü xarakterizə edən göstəricilər sistemidir. Büdcə səmərəliliyi- müxtəlif səviyyəli büdcələr üçün onun reallaşmasının məqsədyönlülüyünü xarakterizə edən göstəricilər sistemidir (layihə üzrə kapitalqoyuluşunun maliyyələşdirilməsində büdcə vəsaitlərindən istifadə edilməsi hallarında müəyyənləşdirilir). İqtisadiyyatın səmərəliliyi- alınmış sosial və iqtisadi nəticənin (təsərrüfat sisteminin, müəssisənin, firmanın, sahibkarın məqsəd funksiyası kimi layihələndirilən) və ona nail olmaq üçün uyğun xərclərin nisbətidir.

İnvestisiya layihəsinin iqtisadi əhatəsi- inflyasiya proseslərinin dinamikasını,milli valyutanın mübadilə məzənnəsinin dəyişmə-

sinin proqnozunu,vergiqoyma sistemi haqqında verilənləri xarakterizə edən məlumatların məcmusudur.

İnvestisiya layihəsinin maliyyə cəhətdən reallaşdırılması- baxılan layihənin həyata keçirilməsi üçün lazımi pul kütləsi olduqda belə pul axını strukturlarının hər hesablaşma mərhələsində təminidir.

İnvestisiya multiplikatoru – investisiyanın artması nəticəsində gəlirin artması arasındakı mütənasibliyi əks etdirən əmsal.

İnvestisiya mühiti – investiyalaşdırmanın məqsədəuyğunluğunu qabaqcadan müəyyən edən siyasi- mədəni, təşkilati- hüquqi, sosial- iqtisadi şəraitlərin məcmu.

İnvestisiya portfeli – investora müəssisənin idarə edilməsinə təsir etməyə imkan vermədən, səhm və payların alınması hüququ (belə ki, alış həyata keçirildikdən sonra ümumi kapitalda onun xüsusi çəkisi 10% çatmır).

İnvestisiya potensialı – mənfəətin və digər faydalı səmərənin alınması məqsədilə sahibkarlıq obyektlərinə qoyulmuş maddi texniki təchizat, maliyyə və qeyri-maddi aktivləri məcmusudur.İnvestisiya layihəsi- iqtisadi və sosial effektin alınması, firmanın strateji məqsədinə nail olunması üçün xidmət və məhsul istehsalının mövcud fəaliyyətinin moderinləşdirilməsi və yenisinin yaradılmasına istiqamətləndirilmiş kompleks tədbirlər planı.

İnvestisiya riski – investisiya layihəsinin reallaşdırılması prosesində iştirakçıların maliyyə itkiləri ehtimalı.

İnvestisiya tipli iqtisadi inkişaf – elmi texniki yeniləşmələrin yeni texnologiyaların məhsul çeşidlərinin təşkilatı həllərin daima yeniləşdirilməsini və effektli mənimsənilməsini əks etdirən iqtisadi inkişaf tipi.

İnvestisiya fəaliyyətinin müəyyənləşdirilməsi üçün borc və cəlb olunmuş büdcə mənbələri – dövlətin məqsədli proqramlarının reallaşdırılması çərçivəsində buraxılan pul, qiymətli kağızlar, ayrılmış vəsait; inkişaf üçün büdcədən ayrılan vəsait; dövlət idarəetmə orqanlarının müvəkkil edildiyi investisiya vergi və kredit güzəştləri. İnvestisiya fəaliyyətinin müəyyənləşdirilməsi üçün və cəlb olunmuş büdcədən kənar mənbələr –

kommersiya banklarının kreditləri; qiymətli kağızların emissiyasından alınan vəsait; lizinq üzrə alınan əsas fondlar və avadanlıqlar; xarici investisiyalar; büdcədən kənar fondların vəsaitləri; məhsul bölgüsünün razılaşdırılması üzrə cəlb olunan vəsaitlər.

İnvestisiyaya istiqamətənmiş gəlirdən güzəştli vergi – müəssisələrə vergiyə cəlb olunan gəlirin investisiyaya istiqamətlənmiş hissəsi qədər azaltmağa imkan verən hüquq:

İnvestisiyanın effektivliyinin qiymətləndirilməsi göstəriciləri – bir neçə göstəricidən ibarətdir. Xalis diskontlaşdırılmış gəlir (cari xalis dəyər, inteqral iqtisadi effektliyin sinonimidir) – inteqral, diskont pul gəlirlərinin investisiya layihələrinin reallaşdırılması ilə şərtlənən inteqral, diskont pul ödəmələrindən üstünlüyü. Ödəmə müddəti – xalis diskontlaşdırılmış gəlirin müsbət olması üçün zəruri olan minimum vaxt. Daxili gəlirlilik norması (daxili rentabellik norması, daxili mənfəət norması) – xalis diskont gəlirin sıfıra çevrilməsinin diskont norması. Bu layihənin reallaşdırılmasına qoyulan investisiya vahidinə düşən gəlirin ölçüsünü əks etdirir.İnvestisiyanın mənfəətlilik (gəlirlilik) indeksi – layihə üzrə investisiya nəzərə alınmadan pul axının inteqral, diskont qalığının, inteqral, diskont investisiyaya olan nisğətidir.

İnstitutlar – insanlar arasında qarşılıqlı əlaqələrin, cəmiyyətdə oyun qaydalarının təşkili əsasında yaradılmış məhdudlaşdırıcı hədlər.

İntitusional mühit – problemlərin həllinə cəmiyyətin istiqamətlənməsi səviyyəsi, müəyyən ictimai mühitin yaradılması məqsədilə fəaliyyət göstərən formal və qeyri – formal institutların məcmuu.

İnhisar fəaliyyəti – təsərrüfat subyektlərini, federal orqanların icra hakimiyyətinin federasiya subyektlərinin icra hakimiyyətinin, yerli idarəetmə orqanlarının rəqabətin yox edilməsi və ya məhdudlaşdırılmasına istiqamətlənmiş antiinhisar qanunçuluğuna zidd olan fəaliyyət. Xüsüsu çəkisi 35% - ötməyən təsərrüfat subyektləri bazarda hakim vəziyyət tutan kimi qəbul edilə bilməz.

İstehsalın, sahənin, fəaliyyət sferasının - məhsuldar qüvvələrin bütün tərkibini, onların struktur elementlərini və mexanizminin məqsədyönlü, sürətli keyfiyyət dəyişikliklərini; bunun əsasında üstün inkişafı və səmərəlilik indikatorlarının dəfələrlə artırılması.

Yüksək inhisar qiyməti – məhsulun keyfiyyətini aşağı salınmaqla və ya istehsal güclərinin tam yüklənməsi, xərclərin yüklənməsinin əvəzinin ödənilməməsi hesabına əlavə gəlir götürmək məqsədilə, bazarda yüksək mövqeyə malik olan iqtisadi subyektlərin əmtələrə qoyduğu qiymətlər.

Yüksək inhisar mənfəəti – bazarda hakim mövqe tutan, məhsulunu yüksək inhisar qiymətində reallaşdıran təsərrüfat subyektinin mənfəti.

Yığım – fiziki şəxslərin, müəssisələrin, dövlət gəlirinin bir hissəsinin kapitallaşması, əmlak , material ehtiyatlarının artırılması və s gələcək xərclərin nəzərə alınması məqsədilə gəlirlərin müəyyən hissəsinin toplanması.

Kadrlar – hər şeydən əvvəl işçi qüvəsinin ixtisaslı hissəsini əks etdirir. Daha düzgünü istehsal təcrübəsi və vərdişi, ixtisaslı hazırlığı və təhsili olan işçilər. Müəssisənin kadrları – əmək fəaliyyətinə dəqiq istiqamətlənmiş və əməyə müsbət münasibətləri olan adamlardır.

Kollektiv müqavilə – təşkilat filal işçilərinin, işverənlərin nümayəndələri ilə bağladıqları və sosial – əmək münasibətlərini tənzimləyən hüquqi akt.

Kontrolinq – planlaşdırma və nəzarəti təmin edən inteqrallaşmış informasiya sistemi: Müəssənin idarə olunmasının bütün isarxiya səviyyələrində menecment bəzi fəsanın yerinə yetirilməsi məqsədini dəstəkləyən alt sistemi.

Kənd təsərrüfatı təyinatlı torpaq bazarı – kənd təsərüfatı istehsalının başlıca vasitəsi kimi torpağın alqı-satqısı üzrə satıcılarla alıcılar arasında münasibətlərdir.

Layihə ilə əlaqədar pul axını – investisiya layihəsinin reallaşdırılması gedişində həyata keçirilən və alınan pul daxil olmalarının məcmuudur.

Layihə sikli – investisiyanın əvvəlindən (investisiya imkanlarının uyğunlaşdırılmasından qiymətləndirmə nəticələrinin hazırlanmasına qədər) investisiyaya (layihələndirmədən obyektin istifadəyə verilməsinə) və layihənin reallaşdırılmasının istismar formasına qədərki vaxt müddəti.

Lizinq – lizinqalana əmlakı almaq hüquqi verən müqavilə, əmlakın alınması və onu müəyyən haqla fiziki və hüquqi şəxslərlə verilməsi ilə məşğul olan investisiya fəaliyyətinin növü:

Maddi nemətlərin təkrar istehsalı prosesi – ictimai məhsulun qarşılıqlı əlaqəli istehsalın təşkili istehsal, bölgü, mübadilə və istehlak mərhələsində ardıcıl hərəkəti.

Maliyyə-sənaye qrupu-hüquqi şəxs olub, müqavilə əsasında özünün maddi və qeyri-maddi aktivlərini tam və ya nisbətən birləşdirmiş əsas və təhkimli (doçernie) cəmiyyətlərin məcmusudur. Onun yaranma məqsədi investisiya və ya digər layihə və proqramların reallaşması üçün texnoloji və iqtisadi inteqrasiyadır.

Milli iqtisadiyyatın strukturu – sahələrin, regionların, korporasiyaların, müəssisələrin iqtisadiyyatları, habelə iqtisadiyyatın sistemliliyini, bütövlüyünü təmin edən təkrar istehsal, resurs, innovasiya və başqa proseslərin arasında mürəkkəb çoxistiqamətli möhkəm əlaqələrin və asılılıqların, iqtisadiyyatın əsas xüsusiyyətlərini xarici və daxili amillərin təsirindən qorunmasının məcmusudur.

Milli təhlükəsizlik konsepsiyası – həyatın bütün sahələrində şəxsiyyətin cəmiyyətin və Rusiya dövlətinin xarici və daxili təhlükəsizliyni təmin edən baxışlar sistemi.

Müəssisə və təşkilatların xüsusi investisiya resursları – amortizasiya ayırmaları, firmanın bölüşdürülməmiş mənfəəti və nizamnamə kapitalıdır.

Məqsədli proqram- Rusiya Federasiyasının sosial , mədəni, ekoloji, iqtisadi və dövlət inkişafı sahəsində vəzifələrin səmərəli yerinə yetirilməsini təmin edən, ehtiyat (resurs), icraçı və yerinə yetirilmə müddətinə görə uzlaşdırılan elmi-tədqiqat,təcrübə-

konsturtor,istehsal,sosial-iqtisadi,təşkilati-təsərrüfat və digər tədbirlər kompleksidir.

Məcburi sosial sığorta – qanunla nəzərdə tutulmuş hallarda əmək qabiliyyətinən itirilməsinə və s görə həyat səviyyəsinin dəstəklənməsi məqsədilə əhalinin sosial müdafiəsinə istiqamətlənmiş üsullardan biri.

Məcmu tələb – bu və ya digər dövr ərzində eyni qiymətlər şəraitində təqdim edilə bilən əmtəə və xidmətlərin ümumi həcminə tələbdir. O, istehlak tələbindən daxili bazarda müəssisələrin tədarükündən, ümumdövlət ehtiyaclarını ixrac və idxalın arasında fərqə bərabər olan xarici tələbin müəıyyən hissəsini ödəmək üçün dövlətin tədarükündən ibarətdir.

Məşğulluq – əhalinin əmək fəaliyyətində iştirakı münasibətlərinin məcmuu. İşçilərə ictimai tələbat səviyyəsində həmçinin işçinin öz tələbatına uyğun olan yerdəki marağında ifadə olunur.

Məşğulluğun iqtisadi funksiyası- işçilərin iqtisadi cəhətdən məqsədyönlü iş yerləri ilə təmini vasitəsi ilə maddi və mənəvi sərvətlərin yaradılmasıdır.

Məşğulluğun sosial funksiyası – insanın inkişafının müxtəlif məşğulluq növlərində, hər şeydən əvvəl iqtisadiyyatda məşğulluqdan hərtərəfli asılılığını göstərir.

Məhsulun bölgüsü haqqında razılaşma (MBR) –müqavilələlər, buna əsasən Rusiya Federasiyası sahibkarlıq fəaliyyəti subyektinə əvəzetmə əsasında müəyyən müddətdə yalnız axtarış, kəşfiyyat, müqavilədə göstərimiş sahədə mineral-xammmal hasilatı və bununla əlaqədar işlərin həyata keçirilməsinə səlahityyətini verir; bunula belə investor qeyd olunan işləri öz hesabına və öz riskinə həyata keçirməyi öhdəsinə götürür. MBR-in xüsusiyyətləri: a) təbiətdən istifadədən əldə edilən iqtisadi səmərənin bütün növlərinin hasil edilən xammalın payların maraqlanan tərəflərin hər birinə təhkim etmək əsasında investorlarla dövlət arasında bölgüsünün normativ tənzimlənməsi; b) faydalı qazıntıların çıxarılması üçün texnoloji avadanlıq istehsalında payını razılaşmada müəyyən olunmuş qaydada mütləq Rusiya müəssisələrinə təhkim etmək.

Oliqapoliya – müəyyən məhsulların iri tsiehsalçılarının (satıcılarının) iştirak etdiyi bazar strukturu, Onların birgə saziş əsasında istehsal da və satışda, qiymətdə bazar inhisar yaranır ki, Buda antiinhisar qanununa ziddir.

Pul dövriyyəsinin sürəti – dövriyyədə olan ümumi pul kütləsindən hər bir milli pul vahidinin il ərzində orta hesabla neçə dəfə əmtəə, xidmət və işlərin alınmasında istifadə edilməsini müəyyən edən göstəricidir; o nominal milli məhsulun dövriyyədəki pul kütləsinə nisbəti ilə müəyyən edilir.

Pul kredit siyasətinin vasitələri – dövlətə və Milli banka pul kütləsinə təsir etmək imkanı verən vasitələr.

Pul kütləsi – dövriyyədə olan pulun miqdarıdır.

Razılaşma – iş verənlərlə işçilər arasında sosial-əmək münasibətlərini tənzimləyən hüquqi aktdır; Rusiya Federasiyası, Rusiya Federasiyasının subyekti, ərazi, sahə peşə səviyyəsində bağlanılır.

Reallaşdırma siyasəti metodu bu və ya digər dövlət siyasətinin dəqiq vəzifəsinin həlli qaydası, fəndlər məcmu, əməliyyat, fəaliyyət üsulu.

Rəqabət – yarışın təsərrüfat subyektlərinin uyğun əmtəə bazarında məhsulların mübadiləsi şəraitinə sərbəst fəaliyyəti ilə təsir göstərmək imkanının məhdudlaşdırılması: rəqabət bazarında istehsalçı (istehsalçı) münasibətləri, sərfəli istehsal və satış uğrunda fərdi subyektlərin arasındakı mübarizə.

Sabit inkişaf - cəmiyyətin elə inkişafıdır ki, bu halda özünüməhvetmə riskləri daimi və məqsədyönlü azalır, insanların həyat səviyyəsi artır, cəmiyyət inkişaf edir, təbii mühit isə dağılmır.

Sahibkar – istehsal amillərini innnovasiya riski əsasında yenidən kombinələşdirmə enerjisinə və qabağı görmək qabiliyyətinə malik sahibkarlıq fəaliyyətinin başlıca subyektidir.

Sahibkarlıq – təsərrüfatçılığın proqnozlaşdırılması sistemində istehlakçının tələbində və bütövlükdə xarici mühitdə gələcək dəyişikliklərə dair zəif siqnalları transformasiya etmək qabiliyyətinə malikliyə əsaslanan sahibkarın strateji qabağıgörmə kombinasiyası.

Sahibkarlıq gəliri – sahibkarlıq bacarıqlarının reallaşdırılması nəticəsində əldə edilən əlavə mənfəət.

Sahibkarlığın dövlət tənzimlənməsi – sosial sfera sahələrinin fəaliyyətinin idarə edilməsi və dövlət tənzimlənməsidir. O, sosial sferanın fəaliyyətinin təkmilləşdirilməsinə istiqamətlənmiş, prinsipləri, metodları, təşkilati strukturları, vergi siyasətini, maliyyə-kredit mexanizmini, hüquqi aktların reallaşdırılmasını əks etdirir.

Sahibkarlığın təşkilatı – təsərrüfat mexanizmi – sahibkarlığın iqtisadi, təşkilatı forma və metodlar sistemi vasitəsilə inkişaf üsulu.

Sindikatlaşdırılmış bank kreditləşdirilməsi – Xüsusi kapitalın çatışmamazlığını aradan qaldırmağa və sindikata daxil olmuş bankların investisiya risklərini azaltmağa imkan verən iri investisiya layihələrini kreditləşdirmək üçün bir neçə bankın kapitallarını birləşdirməkdir.

Sosial – iqtisadi inkişafın sənayeləşdəirmədən sonrakı modeli – daha da inkişaf etmiş ölkələrin sənayeləşdirmədən sonra qədəm qoyduğu və yeni dəyərlərə istiqamətlənmiş inkişaf modeli. Bu zaman iqtisadiyyatın gələcək tərəqqisi, sahibkarlıq strategiyası, intellekt, informasiya texnologiyası, elmi – texniki yenilik, mədəniyyət ekologiya və sosial tarazlıq ön plana çəkilir.

Sosial yardım – sosial müdafiə növüdür. Müvəqqəti, ünvanlı məlumat vermə xarakterinə malikdir; ailələrin və fərdlərin ehtiyaclarını, yəni onların gəlirlərini və əmlaklarını yoxlamağı nəzərdə tutur.

Sosial müdafiə – yaşayış yerindən, mülkiyyətindən ,cinsindən, yaşından və başqa şərtlərdən asılı olmayaraq insana sosial-iqtisadi hüquq və zəmanəti təmin etmək üzrə ictimai münasibətlər sistemidir.

Sosial siyasət – öz mənafelərinə nail olmaq, cəmiyyətdə öz vəziyyətini hər şeydən əvvəl həyat səviyyəsini yaxşılaşdırmaq üzrə sosial qruplar, siniflər arasında münasibətlərdir. Onun təsiri altında aşağıdakılar olmalıdır: əhalinin məşğulluğu, əmək şəraiti, gəlirlərin, təhsilin, peşəyönümlüyün səviyyəsi, sağlamlığın vəziyyəti, mədəni sərvətlərə nail olmaq, vətəndaşların

mənzil və məişət şəraiti, ekologiyanın vəziyyəti, şəxsi təhlükəsizlik və s.

Sosial sfera – insana və ailəyə bilavasitə təsir göstərən bir sıra iqtisadiyyat sahələri və dövlətin fəaliyyət növləridir. Hər şeydən əvvəl ona sosial-mədəni kompleksin sahələri daxildir: təhsil, mədəniyyət, səhiyyə, həmçinin elm. Bu sferada mənzil-kommunal təsərrüfatı, sərnişin nəqliyyatı, əhaliyə xidmət edən rabitə, ticarət istehlak bazarı böyük rol oynayır. Əmək münasibətlərini problemi əhalinin mənzil-sosial təminatının həyata keçirilməsi kimi problemlərin həlli də mühüm yer tutur.

Sosial təminat – əmək qabiliyyəti olmayan cəmiyyət üzvlərinin: qocaların, əlillərin, ailə başçısını itirənlərin uşaqların saxlanmasına yönəldilmiş sosial müdafiə növüdür.

Sosial əməkdaşlıq – sosial əmək münasibətlərinin tənzimlənməsi və kollektiv müqavilələr və razılaşmalar bağlamaq yolu ilə muzdlu işçilərlə işverənlərin mənafelərini əlaqələndirmə üsuludur.

Struktur əlaqəsi – obyektiv və subyektiv amillər və şərtlərin məcmusuna əsaslanaraq iqtisadiyyatda iki və daha çox struktur blokları və ya elementləri arasında asılılıqdır. Bu tez-tez bir və ya bir neçə təbii və iqtisadi qanunlarla qabaqcadan müəyyən edilir.

Sürətli amortizasiya – əsas fondların istismarının ilk illərindən müəssisələrə artırılmış normalarla amortizasiya hesablamaq hüquqi verilməyə əsaslanan əsas kapitala investisiyaların stimullaşdırılması metodudur.

Səmərəli dövlət- dövlətin üzərinə qoyulan funksiyalar sahəsində fəaliyyəti ümumiliklə əhaliyə və cəmiyyətə optimal xərclər sayəsində xidmət göstərmək olan dövlət institutlarının sistemidir. Sosial-iqtisadi sahədə dövlətin səmərəliliyi onun uyğun institutlarının əhalinin rifahının davamlı yaxşılaşdırılması məqsədilə uzunmüddətli iqtisadi artıma təsir etmək imkanı ilə qiymətləndirilir.

Səmərəli inkişafda xarici amillərin rolu və yerinə aid göstəricilər sistemi – ölkənin beynəlxalq iqtisadi münasibətlərinin dinamikasını və strukturunu və onun iqtisadiyyatında onların

rolunu xarakterizə edən iqtisadi statistik göstəricilərin məcmusudur.

Sənaye mallarının əmtəə axınları – sahə və ərazi sistemlərdə əmtəələrin istehsalçının və istehlakçının mənafelərinə uyğun qiymətlərlə satışını təmin etməklə əmtəələrin istehsalçılardan istehlakçılara kifayət qədər sabit hərəkətidir. Qarşılıqlı əmtəə axınları qarşılıqlı iqtisadi faydaya əsaslanan müxtəlif təsərrüfat strukturların qarşılıqlı əmtəə tədarüküdür.

Sənaye siyasəti – ölkənin iqtisadi sistemində fəaliyyət göstərən sənayenin səmərəli inkişafını təmin edən və cəmiyyətin tələbatlarının ödənilməsini və ixracını səmərəliliyini təmin etmək üçün istehsal potensialından daha səmərəli istifadə etməyi nəzərdə tutan tədbirlər sistemidir.

Sənaye siyasətində marketinq- istehsal olunmuş məhsulun daxili və xarici bazarda effektli satışını təmin edən istehsalın effektli əmtəə – texnoloji strukturunun səmərəli formalaşması üçün sənaye məhsulu bazarının daima öürənilməsi. Dövlət marketinqi – sənaye siyasətinin formalaşması üçün mühüm məhsulların bazarının perespektiv inkişafının öyrənilməsi, sənayenin iqtisadi nəticələrinin maksimumlaşdırılmasına istiqamətləndirilmiş istehsalın əmtəə – texnoloji strukturunun dəyişdirilməsinə investisiya təsiri;

Sənayenin əmtəə ixtisaslaşması – istehsal olunan əmtəələrə daxili və xarici bazarlarda sabit tələbat; yüksək keyfiyyəti və qiymətlərin aşağı səviyyəsini təmin edən, rəqabətədavamlı əmtəə istehsalının texniki səviyyəsi və istehsalın texnoloji ixtisaslaşması; qiymət və keyfiyyətdə rəqabət üstünlüyünü təmin edən əmtəələrin aşağı istehsal xərcləri və s. asılı olaraq milli sənaye üçün daha səmərəli daxili və xarici bazarlarda rəqabətədavamlı əmtəələri yığmaqdır.

Sərvət – bazar dəyəri olan, pula reallaşdırıla bilən və yaxud konkret nemətə mübadilə edilən nə varsa hamısı sərvət hesab olunur. Adətən sərvət müəyyən qruplara bölünür: konkret dövlətdə olan fərdlərin, bütünlükdə xalqın və hər hansı bir ictimi qrupun sərvəti.

Torpaq islahatı – kənd təsərrüfatı istehsalının əsas vəsaiti kimi, torpaqdan istifadə haqqında sərəncam verilməsi üzrə sosial-iqtisadi və təşkilati-iqtisadi münasibətlərin əsaslı və keyfiyyətli formada yeniləşdirilməsi.

Torpaq rentası – torpağa mülkiyyətin iqtisadi reallaşdırılması. Torpağın münbitliyi, yerləşdiyi ərazi və s. ilə əlaqədar qoyulan kapitala görə faizlə müəyyən edilir.

Torpağın bazar qiyməti – torpaq sahiblərinin ümumi təklifi və məcmu tələbinin qarşılıqlı fəaliyyəti əsasında müəyyən edilən qiymətdir. Bazar qiymətinin əsasını baza qiyməti təşkil edir ki, o Ж=R/Л 100% düsturu ilə müəyyən edilir. Burada Ж – müəyyən torpaq sahəsi satıla bilən qiymətdir. R – sahənin illik rentası, Л - ssuda faizi norması.

Transaksiya xərcləri – iqtisadi sistemin istismarı xərcləridir.

Tripartizm – sosial-əmək və bununla bağlı iqtisadi məsələləri müzakirə və qərarlar qəbul etmək məqsədilə işçilər (həmkarlar ittifaqları, onların birlikləri, assasasiyaları) işverənlər (onların birlikləri və cəmiyyətləri) və hökumət arasında qarşılıqlı münasibətlərdir. Qarşılıqlı məsləhətləşmələrdə və danışıqlarda ifadə olunur.

Təbii inhisar – 1. İnhisarın mövcudluğu xərclərə qənaət halında olan obyektiv səbəblərlə izah olunur. Əgər bir firma, digərinə nisbətən daha az xərclə məhsul buraxırsa, bir sıra ölkələrin qanunçuluğuna əsasən həmin firma təbii inhisara aid edilir. (Rusiyada tətbiq edilmir). 2. Makroiqtisadiyyatda – mülkiyyət hüququna əsaslanaraq dövlətin inhisara aldığı və idarə etdiyi iqtisadiyyatın inkişafında həll edici rola malik olan sahə. Belə sahələrə adətən enerji, poçt teleqraf, telefon əlaqələri aid edilir. 3. Mülkiyyət formasından asılı olmayaraq rəqabətli iqtisadiyyatın yaradılması məqsədəuyğun deyildir – dövlət əhəmiyyətli boru gəlirləri, enerji şəbəkəsi, su kəmərləri və s.

Təbiətdən istifadə – həm həyat üçün zəruri, həm də başqa çoxsaylı tələbatlarını ödəmək üçün insanın, cəmiyyətin və dövlətin ətraf mühitin müxtəlif elementləri ilə daimi qarşılıqlı fəaliyyətidir. İnsan təbiətlə yaşayır. Yer Kürəsində əhalinin sayı artdıqca, təkraristehsal proseslərinin texnoloji gücünün

artması ilə əlaqədar əhalinin həyat fəaliyyətinə daha çox resurslar tələb olunur ki, onları hasil etməklə ətraf mühitə elə ziyan vurulur ki, təbiətin təbii bərpası mexanizmləri bu işin öhdəsindən gəlmir və həyatın gələcəkdə yaşayışının əsaslarını dağıdır. Resursenerjisəmərəliliyinin və texnoloji sistemlərin ekoloji təmizliyi yer kürəsində insan cəmiyyətinin möhkəm inkişafı üçün mühüm əhəmiyyəti vardır.

Tədiyə balansı – digər ölkələrlə maliyyə iqtisadi münasibətlərin səviyyəsini əks etdirir.

Təkrar istehsal – makroiqtisadiyyatın əsas ünsürlərinin fasiləsiz bərpası: maddi nemət və xidmətlərin, iş qüvvəsinin, sosial – iqtisadi münasibətlərin, insanın həyat fəaliyyəti şəraitinin. Təkrar istehsal sadə və geniş ola bilər.

Tələb – istehlakjıların bu və ya digər dövürdə müəyyən edilmiş qiymətlərlə konkret miqdarda əmtəəni (xidmətlərdə daxil olmaqla) almağa hazır olmasıdır.

Təsərrüfat sistemi- muxtar fəaliyyət göstərmək imkanına malik olub, məhsuldar qüvvələrin və onlarla qarşılıqlı fəaliyyət göstərən təşkilati-iqtisadi münasibətlərin müəyyən şəkildə ardıcıllaşdırılmış məcmusudur.

Təsərrüfat sisteminin elmi – texniki potensialı – elmi texniki tsiklin müxtəlif mərhəllərindən törəyən yeniliklərin, elmi biliklərin məcmuu; istifadə edilməyən lakin mövcud olan texniki ehtiyat, texnologiya, kadr ehtiyatı istehsal fəaliyyəti üçün təşkilat, və həmçinin fəaliyyətsiz texniki – texnoloji vəsaitlə, kollektivin elmi imkanları.

Təsərrüfatçı subyektlər- rusiya və xarici kommersiya təşkilatları və onların birlikləri (ittifaq və assosasiyalar) ,sahibkarlıq fəaliyyəti ilə məşğul olmayanlar çıxılmaqla qeyri-kommersiya təşkilatları,o cümlədən kənd təsərrüfatı istehlak kooperativləri, həmçinin təsərrüfat fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar.

Təsərrüfatçılığın bazar mexanizmi – tələb, təklif rəqabət və qiymətəmələgəlmə qanunlarının təsiri altında özünütənzimləmə sisteminə əsəaslanan təsərərüfatın təşkili sistemi başa düşülür.

Tətil – işçilərin kollektiv əmək mübahisələrini həll etmək məqsədilə (tam və ya müəyyən vaxta) əmək vəzifəsindən müvəqqəti imtina etməsi.

Unitar müəssisələr – təsərrüfatın hüquqi idarə edilməsinə əsaslanan dövlət və ya bələdiyyə kommersiya təşkilatıdır.

Xarici iqtisadi amillər – ölkənin təsərrüfat fəaliyyətinə təsir göstərən dünya təsərrüfat əlaqələrinin və beynəlxalq iqtisadi münasibətlərin (BİM) müxtəlif növü və formalarıdır.

Ümumi daxili məhsul (ÜDM) – ölkənin ərazisində yaradılmış (əmtəə və xidmətlərin) son məhsulun bazar dəyəridir. Özünün iqtisadi mahiyyətinə görə ÜDM maddi istehsal sahələrində və xidmət sferası müəssisələrində əlavə olunmuş dəyərin kəmiyyətinə bərabərdir.

Ümumi mənfəət – Əmtəələrin və xidmətlərin satışından əldə olunan gəlirlə qüvvədə olan qanuna müvafiq olaraq məhsulun maya dəyərinə daxil edilən istehsal və tədavül xərclərinin fərqidir.

Həddkəmiyyətləri – son kəmiyyətdir, onun pozulması iqtisadiyyatın rəvan inkişafına əngəl törədir, iqtisadi təhlükəsizlikdə dağıdıcı təmayüllərin yananmasına və neqativ halların formalaşmasına səbəb olur.

Girov – kredit verən qarşısında borc alanın öhdəliyinin təmin olunması forması. Borc alınan öhdəliyi yerinə yetirmədiyi halında, kreditora girovun dəyərindən öz vəsaitini götürmək hüququnda ifadə olunur.

Gəlir – material məsrəfləri çıxıldıqdan sonra istehsal olunmuş ictimai məhsulun bir hissəsidir. Əhalinin gəlirləri formalaşır; - muzdlu əməyin nəticəsi olan əmək haqqı; sahibkarlıq gəliri; (mülkiyyətdən, sələmdən, şəxsi həyətyanı təsərrüfatdan, müxtəlif fərdi fəaliyyətdən alınan gəlirlər sərf – nəzər olunur).

Özəlləşdirmə – dövlət mülkiyyətinin xüsusiyə çevrilməsi prosesidir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması mexanizmi – iqtisadi təhdidlərin qarşısının alınması üzrə iqtisadi, təşkilati və hüquqi tədbirlər sistemi.

Əvəz olunan əmtəələr – özünün funksional təyinatının istehlak xassələrinə kəmiyyət və texniki xarakteristikalarına görə, qiymətinə və digər parametrlərinə görə müqayisə oluna bilən əmtəələr qrupudur. Alıcı istehlak prosesində (o cümlədən istehsal xarakterli) onları həqiqətən başqa əmtəə ilə dəyişdirir və yaxud onu etməyə hazırdır.

Əmanət norması – əmanətin, illik gəlirin həcminə olan nisbəti.

Əmanətlər – yığılan istehlakdır. Maliyyə resurslarının müvəqqəti dövriyyədən götürülməsidir. Aşağıdakı yığımlar fərqləndirilir:

Əmtəə - satış və ya mübadilə üçün ayrılmış əmək məhsuludur (iş və xidmətlər də daxil olmaqla)

Əmtəə təklifi – hazırkı dövrdə, müəyyən qiymətdə istehsalçının istehlakçıya təklif etməyə hazır olduğu əmtələrin həcmi (miqdarı).

Əmək bazarı – pul sahibləri (sahibkarları) və istehsal vasitələri (alıcılar və işverənlər) və muzdlu işçilər iş qüvvəsi sahibləri (sahibkarları) arasında alqı-satqı üzrə münasibətlər sistemidir.

Əmək haqqı – iş qüvvəsinin dəyəri (qiymət) forması. Mahiyyətcə əməyə görə haqq kimi çıxış edir.

Əmək haqqının stimullaşdırıcı funksiyası – hər şeydən əvvəl sərf olunan əməklə mükafatlandırma ölçülərinin, persionalın ixtisaslaşdırılması və peşəkarlığının qarşılıqlı əlaqələrini təmin etməklə əmək haqqının və onun təşkilinin işçilərin mənafelərini əməyin tələb olunan nəticələrə istiqamətləndirmək qabiliyyətidir.

Əmək haqqının təkrar istehsal funksiyası – istehsal prosesində baş vermiş əmək haqqı xərclərini ödəmək qabiliyyətidir (xassəsidir).

Əsas kapitala investisiya – əsas fondların alınmasına yaradılmasına və təkrar istehsalına birdəfəlik xərclər (yeni tikinti, rekonstruksiya və texniki silahlanma, avadanlığın alınması və quraşdırılması, əsas sürünün formalaşdırılması, çoxillik əkmələr)

Əhalinin əmanətləri – bu bir tərəfdən əmtəə, xidmət və hüquqa çevrilmiş gələcəkdə tələbatları ödənən ekvivalentdir, digər tərəfdən isə hazırkı dövürdə istifadə edə bilməyən əhaliyə məxsus yığılan pul ekvivalentinin yenidən bölüşüdürlməsi formasında münasibətlər sistemidir.

ƏDƏBİYYAT SİYAHISI

1.Конституция Российской Федерации. М. Юридическая литература, 1993

2. Гражданский Кодекс Российской Федерации. Часть I и II. М.: Кодекс,1996.

3. Кодекс законов о труде. М. Спакт, 1996.

4. Налоговый Кодекс Российской Федерации. Часть I и II

5. Закон РФ "О конкуренции и ограничении монополистической деятельности на товарных рынках" от 22 марта 1991 Ведомости. 1991. № 16.

6. Федеральный закон "О коллективных договорах и соглашениях" от 11 марта 1992 г. Российская газета. 1992. 28 апреля.

7. Федеральный закон от 20.07.95 № 115-ФЗ «О государственном прогнозировании и программах социально-экономического развития Российской Федерации //Российская газета 1995, 26 июля

8. Федеральный закон от 14 июля 1997 г. № 100-ФЗ «О государственном регулировании агропромышленного производства», 1997 Экономика и жизнь. 1997. №31

9. Закон РФ «О регулировании естественных монополий» от 19 августа 1995 г. Экономика и жизнь. 1995 №35

10. Федеральный закон «О государственной поддержке малого предпринимательства в Российской Федерации Экономика и жизнь. 1995. № 25-26

11. Федеральный закон РФ "О внесении изменений и дополнений в Закон РФ "О коллективных договорах и соглашениях", 20 октября 1995 г. Российская газета. 1995. 05 декабря.

12. Закон РФ "О порядке разрешения коллективных трудовых споров" от 20 октября 1995 г. Российская газета. 1996. 20 января.

13.Закон РФ «О профессиональных союзах, их правах и гарантиях деятельности» 1995. 8 декабря Российская газета. 1996.20 января.

14. Закон РФ "О науке и государственной научно-технической политике" от 23 августа 1996 г. №127-ФЗ Российская газета. 1996. 3 сент.

15. Закон РФ "О прожиточном минимуме в Российской Федерации" Российская газета. 1997. 29 октября.

16.Закон РФ «О государственном регулировании внешнеторговой деятельности» от 7 июля 1995 г. № 157-ФЗ Российская газета. 1995. 24 октября

17. Закон РФ № 39-ФЗ от 25.02.1999 г. "Об инвестиционной деятельности в Российской Федерации, осуществляемой в форме капитальных вложений" Российская газета. 1999.4 марта.

18. Закон РФ № 160-ФЗ от 9.07.1999 г. "Об иностранных инвестициях в Российской Федерации" Российская газета. 1999. 14 июля.

19. Закон РФ «О федеральном бюджете на 2002 год» от 26 декабря 2001 Российская газета.2002. 04 января

20. Закон РФ "О Центральном банке Российской Федерации (Банке России)" от 2 декабря 1990г. №394-1 СЗ 1995 г. от 01.05. № 18. Ст. 1593.

21. Закон РФ "О банках и банковской деятельности" Российская газета. 1996. 10 февраля.

22. Путин В.В. Минерально-сырьевые ресурсы в стратегии

развития Российской экономики. Записки Горного института. Т.114 (1) Санкт-Петербург, 1999

23. Путин В.В. Не будет ни революций, ни контреволюций. Послание Президента Российской Федерации Федеральному

24. Концепция национальной безопасности Российской Федерации. Указ Президента Российской Федерации № 24 от 10 января 2000 г. Российская газета. 2000. 18 января.

25. Концепция реформирования российской науки на период 1998-2000 тг. Вестник Миннауки РФ. 1998. № 31.

26. Постановление Совета Министров Правительства Российской Федерации от 12 апреля 1993 г. №306 «О государственной селективной структурной политике в 1993 году» Российская газета. 1993.24 апреля

27. Программа Правительства РФ "Структурная Перестройка и экономический рост в 1997—2000 гг." Собрание законодательства РФ. 1997. № 19.

28. Программа Правительства РФ по стабилизации. Экономики и финансов Собрание законодательства РФ. 1998. №29.

29. Закон Москвы о социальном партнерстве. Солидарность. 1997. №23

30. Абрамов С. И. Инвестирование. М.: Центр экономики и маркетинга, 2000.

31. Абросимова И, В. Региональная инвестиционная политика, опыт проблемы, перспективы. Ярославль, 1997.

32. Авдокушин Е. Международные экономические отношения. Учебное пособие. М.: Информационно-внедренческий центр «Маркетинг», 1996.

33. Агарков М.М. Учение о ценных бумагах. М.: Финстатинформ, 1993.

34. Албегова И.М., Емцов Р.Г., Холопов А.В. Государственная экономическая политика. М.: Дело и сервис, 1998.

35. Алексеев М.Ю. Рынок ценных бумаг. М.: Финансы и статистика. 1992.

36. Архангельский В. Я. Еще одна концепция развития экономики России М.: Права человека, 1996.

37. Архангельский В.Н. Макромаркетинг в российской экономике: проблемы взаимодействия рынка и государственного регулирования. М.: Изд-во РАГС, 2002.

38. Баззел Р.Д. и др.Информация и риск в маркетинге. М.:Финстатинформ, 1993.

39. Банковское дело. Справочное пособие /Ред. Ю.А.Бабичева. М.: Экономика, 1993.

40. Безопасность России. Экономическая безопасность: вопросы реализации государственной стратегии. М.: МГФ "Знание",1998.

41.Беренс В., Хавранек П. Руководство по оценке эффективности инвестиций. М.:Инфра-М, 1995.

42. Бизнес на рынке ценных бумаг. Справочно-практическое пособие. М.: Граникор, 1992.

43. Блауг М. Экономическая мысль в ретроспективе. М.: Дело, 1994

44. Блюминау Д.И. Информация и информационный сервис. М.: Наука, 1989.

45. Богданов И.Я., Калинин А.П., Родионов Ю. Я. Экономическая безопасность России: цифры и факты. М.: РАН. Институт социально-политических исследований, 1999.

46. Бойко И.П. Проблемы устойчивости сельскохозяйственного производства. Л., 1986

47. Буглай В.Б., Ливенцев Я. Международные экономиические отношения. М.: Высшая школа, 1996.

48. Буланов В.С. Рабочая сила в условиях формирующихся рыночных отношений. Рязань, 1994.

49. Бусыгин А.Б. Предпринимательство. Основной курс. Т.I, II.М.:Интерпракс, 1994.

50. Валовая Т.Д. Валютный курс и его колебания. М.: АО "Финстатинформ", 1995.

51. Венская конвенция о договорах международной купли-продажи товаров: (Комментарии). М.: Юридическая литература, 1994.

52.Виноградов В.В. Экономика России. Учебное пособие. М.: Юрист, 2001.

53. Виссема Х. Стратегический менеджмент и предпринимательство: возможности для будущего процветания. М.: Финпресс, 2000.

54. Владимирова А.А. Валовый внутренний продукт в системе национальных счетов. М.: Изд. РАГС, 1995.

55. Власов В.В.Япония. Производственная инфраструктура. М.:Наука, 1991.

56. Внешнеэкономическая деятельность предприятий. Новосибирск: ИРИЦ «Сибирь», 1992

57. Внешнеэкономический бизнес. Справочник. М. Республика, 1998.

58. Возняк В. Общественное развитие и экология: Взаимосвязь, противоречия, кризисы Вопросы экономики. 1995. №2.

59. Волгин НА, Методика разработки и внедрения бестарифной рыночной модели оплаты труда и ее разновидностей на предприятиях с различными формами собственности. М.:Луч, 1991.

60. Волгин Н.А. Опыт подготовки и стимулирования труда государственных служащих в Японии. Спецкурс. М.: Изд-во РАГС, 1998.

61. Волгин Н.А. Усиление социальной направленности экономики России: (Актуальные проблемы, вопросы теории и практики). М.: Изд-во РАГС, 1998.

62 *Волгин Н.А.* Японский опыт решения экономических и социально-трудовых проблем. М.: Экономика, 1998.

63. Волгин Н.А., Дудников С.В. Оплата труда государственных служащих: анализ, зарубежный опыт, новые подходы. М., 2000.

64. Волгин Н.А., Николаев С. В. Доходы работника и результативность производства. М., 1994.

65. Волгин Н.А., Плакся В.И., Цьвох СА. Стимулирование производительного труда. Брянск, 1995.

66. Все налоги России – 2001. М., 200.

67. Всемирный банк. Отчет о мировом развитии. 2000/2001. М. Весь мир, 2001.

68. Выбор стратегии формирования системы внешнеэкономических связей России. Тезисы Всероссийской научной конференции «Государственное регулирование национальной экономики». Т. 2. Ч. 2. М.: МГУ, 1996.

69. Гитман Л.ДЖ., Джонк М.Д. Основы инвестирования. М.: Дело, 1997.

70. Глазьев С.Ю. Теория долгосрочного технико-экономического развития. М.: ВлаДар, 1993.

71. Глобальное сообщество: новая система координат (подходы к проблеме) Ред Т. Неклесса. М.,2000.

72. Голубев Г.Н. Денежно-кредитная политика как инструмент регулирования экономики государства в переходный период: Учебное пособие. СПб.: Изд-во СПб ГТУ, 2000

73. Горбунов С. Международный валютный фонд. М., 1988.

74. Государственная поддержка предпринимательства. Концепция, формы, методы. М., 1995.

75. Государственное регулирование рыночной экономики. М.:Изд-во РАГС. 1998

76. Государственное регулирование рыночной экономики. Учебник Ред. В.И.Кушлин, Н.А.Волгин. М.: Экономика, 2000.

77. Государственное управление и государственная служба в трансформирующемся обществе. М. Изд-во РАГС, 2001. Гл. 1

78. Государственные приоритеты НТП и механизм их реализации. М. Изд-во РАГС, 1995.

79. Государство в меняющемся мире: Отчет о мировом развитии 1997 Пер. с англ. Всемирный банк: Агентство экономической информации "Прайм-ТАСС", 1997.

80. Гуртов В. К. Сбережения населения — инвестиционный ресурс России. М.: Изд-во РАГС, 2000.

81. Дайле А. Практика контроллинга /Пер. с нем./ Ред. И с предисл. М.Л. Лукашевич,
Е.Н. Тихоненкова. М.: Финансы и статистика, 2001.

82. Дайн А. и др. Академия рынка: маркетинг. М.:
Экономика. 1993.

83. Демьяненко В. Продовольственный комплекс России: переход к рынку мировой опыт //МЭ и МО, 1994, №11

84. Доктрина развития российской науки. М.: ЦНСН, 1996.

85. Долан Э.Дж. и др. Деньги, банковское дело и денежно-кредитная политика /Пер. с англ./ Ред.В.Лукашевич. Л.:Профико, 1991.

86. Долгов С. Глобализация экономики: новое слово или новое явление. М.: Экономика, 1998.

87. Долгов С., Покровский А., Денисов Г.Ключ к действующим правилам и процедурам в сфере внешнеэкономической деятельности. М., 1996.

88. Дорнбуш Р., Фишер С. Макроэкономика. М., 1997.

89. Дюмулен И. Всемирная торговая организация. М., 1997.

90. Европа и Россия: опыт экономических преобразований. М., 1996.

91. Заварухин В.П., Федорович В.А. Администрация Клинтона: научно-техническая политика и глобальная конкуренция // США: Экономика. Политика. Идеология. 1997. №7. №8. №9.

92. Загайтов И.Б., Половинкин П.Д. Экономические проблемы повышения устойчивости сельскохозяйственного производства. М.: Экономика, 1984.

93. Иващенко А.А. Товарная биржа. М.: Международные отношения. 1991.

94. Идрисов А.Б. и др. Стратегическое планирование и анализ эффективности инвестиций. М.: Филинъ, 1997..

95. Инвестиции в России и зарубежных странах./Ред. И.К.Комаров. М.: РАУ-Университет, 2001.

96. Инвестиции и инновации. Словарь — справочник. От А до Я / Ред. М.З.Бор, .Ю.Денисов. М.: ДИС, 1998.

97. Инвестиционный рейтинг регионов России Эксперт. 2000. №41.

98. Иноземцев В. Постиндустриальная цивилизация. Наличествующие предпосылки и возможные последствия постэкономической революции. М., 1999

99. Иноземцев В, За пределами экономического общества. Постиндустриальные теории и постэкономические тенденции в современном мире. М., 1998.

100. Иноземцев В. Структурирование общественного производства в системе постиндустриальных координат Российский экономический журнал. 1997. № 11—12.

101. Интеграция и стратегические цели социально-экономического развития стран СНГ //Российский экономический журнал. 1996. №2

102. Иншаков О. В. Механизм социальной рыночной трансформации и устойчивого развития АПК России. Волгоград,1995.

103. Карминский А.М., Оленев Н.И., Примак А. Г., Фалько С. Г. Контроллинг в бизнесе. Методологические и практические основы построения контроллинга в организациях. М.: Финансы и статистика, 1998.

104. Касл Э., Беккер М., Нелсон А. Эффективное фермерское хозяйствование. М.: Агропромиздат, 1991.

105. Кашин Ю.И. Россия в мировом сберегательном процессе (драма становления). М.: ФГ "НИКА", 1999.

106. КейнсДж.М. Общая теория занятости, процента и денег. М.: Прогресс, 1978.

107. Кирцнер И.М. Конкуренция и предпринимательство. М., 2001.

108. Киселев С. В. Государственное регулирование сельского хозяйства в условиях переходной экономики. М., 1994.

109. Классики кейнсианства. Т. 2 Э.Хансен. Экономиические циклы и национальный доход. (Часть IV. Экономиические циклы и государственная политика). М.: Экономика, 1992.

110. Ковалев В. В. Финансовый анализ: Управление капиталом. Выбор инвестиций. Анализ отчетности. М. Финансы и статистика, 2000.

111. Колосов А.В. Риск и безопасность в хозяйственной деятельности. М. ГАУ, 1997.

112. Комов Н.В. Управление земельными ресурсами России. М.,1995.

113. Кондратьев Н. Мировое хозяйство и его конъюнктура во время и после войны. Вологда, 1922.

114. Кондратьев Н. Проблем экономической динамики. М.: Экономика, 1989.

115. *Кондратьев Н.Д.* Большие циклы конъюнктуры / Кондратьев Н.Д. Избранные сочинения. М.: Экономика, 1993.

116. *Кондратьев Н.Д.* Динамика цен промышленных и сельскохозяйственных товаров, (к вопросу о теории относительной динамики и коньюктуры) Кондратьев Н.Д. Особое мнение. Кн. 2. М.: Наука, 1993.

117. Котке Кл. «Грязные» деньги. Справочник по налоговому законодательству в области «грязных» денег /Пер. с нем., 1998.

118. Кочетов Э. Ориентиры внешнеэкономической Деятельности. М.: Экономика, 1992.

119. Краткий внешнеэкономический словарь — справочник. М., 1996.

120. Крах доллара /Ред.А.Нагорного. М., 2000

121. Кульман А. Экономические механизмы. М.: Прогресс, 1993.

122. Курс переходной экономики: Учебник для вузов Ред. Л.И.Абалкина. М. ЗАО "Фистатинформ", 1997.

123. Курс экономической теории. Учебник/ Ред. М.Н. Чепурнин, Е.А.Киселева. Киров, 1994

124. Кушлин В.И. Государственное регулирование экономи-

ки: цели, теоретические модели, практика Экономист, 1995. №2.

125. *Кушлин В.И., Фоломъев А.Н.* Проблемы перехода к инновационному типу развития. М.: Изд-во РАГС, 1994.

126. *Лебедев В.Г.* Производительные силы и социальный прогресс. М.: Книга и бизнес, 1997.

127. Липсиц И.Б. Коммерческое ценообразование. М., 1997.

128. Львов Д.С. Эффективное управление техническим развитием. М. Экономика, 1990.

129. *Майбурд Е.М.* Введение в историю экономической мысли. М. Дело. 2000

130. Майоров С.И. Информационный бизнес: коммерческое распространение и маркетинг. М. Финансы и статистика, 1993.

131. Макконнелл К.Р., Брю С.Л. Экономикс. Принципы, проблемы и политика. В 2-х томах. М. Республика. 1992.

132.Макроэкономические аспекты становления социального хозяйства. М. РАН. Институт экономики, 1998.

133. Малый бизнес в России. Проблемы и перспективы. М. РАРМТ, 1996.

134. Марголин А.М. Финансовое обеспечение и оценка эффективности инвестиционных проектов. М.: Мелиорация и водное хозяйство, 1997.

135. МарголинА.М., Хутыз З.А. Проблемы экологизации экономического механизма хозяйствования. Майкоп: Адыгея,. 1996.

136. Марголин А.М., Быстряков А.Я. Экономическая оценка инвестиций. М.: ЭКМОС, 2001.

137. Марголин А.М., Семенов С.А. Инвестиционный анализ. М. Изд-во РАГС, 1999.

138. Маренков Н.Л. Цены и ценообразование в рыночной экономике России. М., 2000.

139. Маркс К. и Ф.Энгельс. Сочинения. Т.23. М., 1960

140. Мартынов А. В. Стратегия структурного регулирования российской экономики. М.: Изд-во МАИ, 1996.

141. Масленников В.В. Зарубежные банковские системы. Иванове "Талка", 1999.

142. Международное частное право. Современные проблемы. М.:РАН, ИГП, 1994.

143. Международные экономические отношения: Учебник. М. ЗАО "Бизнес-школа" Интел-Синтез", Дипакадемия МИД РФ, 1998.

144. Менькью Г. Макроэкономика. М.: Изд-во МГУ, 1994.

145.Меньшиков В. Международные финансовые институты и их роль в трансформационных процессах постсоциалистических стран. М., 1999.

146. Меньшиков С.М. Экономика России: практические и теоретические вопросы перехода к рынку. М.: Международные отношения, 1996.

147. Методические рекомендации по оценке эффективности инвестиционных проектов (вторая редакция) Утверждены Министерством экономики РФ, Министерством финансов РФ и Государственным комитетом РФ по строительной, архитектурной и жилищной политике № ВК 477 от 21.06.1999 г. М.: Экономика, 2000

148. Механизм научно-технологического развития экономики. М.: ВладМО, 1995.

149. Мизес Л. Человеческая деятельность: трактат по экономической теории. М.: Экономика, 2000.

150. Мирский Э. Управление и самоуправление в научно-технической сфере /Социс. 1995.№7.

151. *Муханова Б.Н.* Теоретические основы и пути формирования рыночной инфраструктуры. **М.: ИЭ РАН,** 1994.

152. *Мысляева И.Н.* Каким может быть социальное партнерство в России. М.: ИППС, 2000.

153. Мысляева И.Н. Современная идеология и практика социального партнерства. М.: ИППС, 1998 г.

154. Налоговая система России Ред. Д.Г.Черник. М., 1999.

155. *Неклесса А.* Паксэкономика: новое экономическое мироустройство Экономическая стратегия. 1999. № 1.

156. Норт Дуглас. Институты, институциональные изменения и функционирование экономики Пер. с англ. М.: Фонд экономической книги. Начала, 1997.

157. *Норт К.* Основы экологического менеджмента (введение в экологию промышленного производства). М. Премьер, 1993

158. Общий ход реформ. Рыночные преобразования и структурная политика в России // Российский экономический журнал. 1996. № 1 и № 2.

159. *Ойкен В.* Основные принципы экономической политики. М.: Прогресс, 1995.

160. Опыт и проблемы /Под общей редакцией А.Н.Тихонова, А.Г.Фонотова, В.П.Шорина. Самара: СамВен, 1995.

161. Организация оплаты труда работников предприятий в условиях либерализации цен и приватизации (рекомендации). М.,1997.

162 *Орешин В.* 77. Государственное регулирование национальной экономики: Учебное пособие. М.: Юристъ, 1999.

163. Основы внешнеэкономических знаний /Ред. И.П.Фаминский. М.: Международные отношения, 1994

164. Основы теории переходной экономики (вводный курс). Киров: МГИМО МИД, 1996.

165. *Пебро М.* Международные экономические, валютные и финансовые отношения. М., 1995.

166. Перская В. Внешнеэкономическая деятельность: специфика, государственное регулирование. М. Петровский двор, 1998.

167. Перспективы развития российской экономики и ее место в глобальном экономическом пространстве. Материалы к VIII Кондратьевским чтениям. М., 2000.

168. Пиндайк Р.Рубинфельд Д.Микроэкономика.

Экономика, 1992.

169. Плакся В. И. Безработица в рыночной экономике. М.: Изд-во РАГС, 1996.

170. Плетнев К. И. Интеграция высшего образования и фундаментальной науки как новый этап в научно-техническом развитии регионов Регионология, 1997, №2.

171. *Плетнев К.И.* Опыт коммерческой реализации разработок, получаемых при выполнении региональных научно-технических программ и проектов. Труды Международной конференции «Коммерциализация разработок: российский и мировой опыт». С-Петербург, 1997.

172 *Плетнев К, И,* Региональное научно-техническое развитие и сотрудничество: современное состояние и перспективы развития Регионология. 1996. № 2.

173. *Плышевский Б.* Структура производства Экономист. 1997. №12.

174. Половинкин П., Зозулюк А. Предпринимательские риски и управление ими Российский экономический журнал. 1997. №7

175. *Половинкин П.Д., Лысенко Ю.А.* Экономические и организационные основы государственного регулирования устойчивого развития агропромышленного комплекса Выбор пути: дискуссии на полях земельного кодекса. М.: Флинта-Наука,1998.

176. Половинкин П.Д., Попов Н.А. От стихийной фермеризации к эффективной аграрной кооперативной системе. Пермь: МП "Реал", 1994.

177.Половинкин П.Д., Савченко А.В. Основы управления государственной собственность в России: проблемы теории и практики. М.: Экономика, 2000.

178. *Поляков* С. Г., *Рычев М.В.* Инкубаторы бизнеса — российский опыт. М., 1996.

179. *Портер М.* Конкуренция. СПб. Издательский дом "Вильямс", 2000.

180.Потрубач Н.Н. Максутов Р.К. Основы экономической безопасности. М.: Современный гуманитарный университет, 2001.

181. Приватизация и антимонопольное регулирование (зарубежный опыт). М.: Изд. Российской академии управления,1992.

182. Регион. Теория и практика устойчивого развития. М.:БСТ, 1998.

183. Реформирование предприятий и пути привлечения инвестиций. Ред. Н. В. Гусятников, А.П.Шихвердиев. М. Издательский Центр "Акционер", 2000.

184. Роль государства в становлении и регулировании рыночной экономики. Материалы научно-практической конференции. М. Изд. Совета Федерации, 1998.

185. Российская наука: состояние и проблемы развития. Материалы II Всероссийского семинара. Обнинск: ГКНТ и др., 1997.

186. Российский статистический ежегодник. Статистический сборник. М. Госкомстат России, 2000.

187. Россия — 2015. Оптимистический сценарий. М.: ИЭ РАН-ММВБ, 1999.

188.Россия в мировой экономике XXI века. Материалы конференции «Приоритеты и механизмы экономической политики России в кризисный период» Под.ред.С.Рогова и С.Сильвестрова.М., 1999

189. Рынок труда и доходы населения. Учебное пособие. М. ИИД"Филинъ", 1999.

190. Рынок труда. Учебник /Ред. В.С.Буланов, Н.А.Аолгин. М.: Экзамен, 2000.

191. Самуэльсон /7. Экономика. Вводный курс / Перев. с англ. М. Прогресс. 1964.

192. Сборник директив и инструкций Всемирного банка (на русском языке). Вашингтон, 1995.

193. Семичин Г.Ю. Социальное партнерство в современном мире. М. Мысль, 1996.

194. Сирополис Н.К. Управление малым бизнесом. М. Дело, 1997.

195. Смит А. Исследование о природе и причинах богатства народов. М.: Наука, 1962

196. Современная научно-техническая политика Российской Федерации: Федеральные и региональные аспекты и подходы. С.-Петербург, 1994.

197. *Соколов В.* Структура российской экономики и ее включение в мирохозяйственные связи МЭ и МО. 1996. № 12.

198. Сорвина Г.Н, Экономическая мысль 20 столетия: страницы истории. Лекции. М.РОССПЭН, 2000.

199. Сорвина Г.Н. История экономической мысли двадцатого столетия. Курс лекций. М.: Изд-во РАГС, 2001.

200. Сорокин П.А. Главные тенденции нашего времени. М.: Наука, 1997

201. СоросДж. Кризис мирового капитализма. Открытое общество в опасности. М., 1999.

202. Состояние мира 1999. Доклад института Worldwatch о развитии по пути к устойчивому обществу. М.: Весь Мир, 2000.

203. Социальная политика и рынок труда: вопросы теории и практики. М. Изд-во РАГС, 1996.

204. Социальное партнерство в современных условиях: сравнительно-правовой обзор. М. Профиздат, 1998 г.

205. Социальное партнерство: мировой опыт и российская практика. М. Институт перспектив и проблем страны, 1997.

206. Социально-трудовая сфера России в переходный период: реалии и перспективы. М.: Молодая гвардия, 1996.

*207.*Твисс Б. Управление научно-техническими нововведениями сокр Пер. с англ. М.: Экономика, 1989.

208. Томпсон А.А., Стрикленд А.Дж. Стратегический менеджмент. Искусство разработки и реализации стратегии:

Учебник для ВУЗов Пер. с англ. Под ред. Л.Г.Зайцева, М.И.Соколовой. М.: Банки и биржи, ЮНИТИ, 1998.

209. Топорнин Б. Европейское право. М., 1998.

210. Туган- Барановский М.И. Социальные основы кооперации. М., 1989.

211. Узяков М.Н. Трансформация Российской экономики и возможности экономического роста. М.: ИНП РАН, 2000.

212. Управление окружающей средой. Информационный сборник. М.: ЦПРП, 1996.

213. Устинов И.М. Мировая торговля. Статистически-аналитический справочник. М.: Экономика, 2000.

214. Уткин Э.А. Цены, ценообразование, ценовая политика. Учебник. М., 1999.

215. Федько В.П., Федько Н.Т. Инфраструктура товарного рынка. Ростов-на-Дону: Изд-во Феникс, 2000.

216. Финансы, налоги и кредит Ред. А.М. Емельянов, И.Д. Мацкуляк, Б.Е. Пеньков. М. Изд-во РАГС, 2001.

217. *Фишер С., Дорнбуш Р., Шмалензи Р.* Экономика. М. Дело, 1993

218. *Фоломьев А.Н.* Научно-техническая политика и механизм ее реализации на федеральном, региональном и предпринимательских уровнях. М. Изд-во РАГС, 1995.

219. *Фоломьев А.Н.* Техника нового типа (закономерности воспроизводства). М. РИПО "Адыгея", 1994.

220. Фоломьев А.Н., Гейгер Э.А. Менеджмент инноваций. Теория и практика. М.: АИРО – XX 1997.

221. *Фридмер М,* Если бы деньги заговорили Пер. с англ. М.:Дело, 1998.

222. *Хашукаев С, Ф.* Конкурентная среда в рыночном механизме. М. Изд-во РАГС, 2000.

223. Хашукаев С.Ф. Конкурентная среда: предпосылки эволюционного развития. М. Изд-во РАГС, 2000.

224. Хохлов Н.В. Управление риском. М.: ЮНИТИ, 1999.

225. *ХэррисДж.* Международные финансы М., 1996.

226. Чаянов А.В. Основные идеи и формы организации крестьянской кооперации. М.: Наука, 1991.

227. *Шахмалов Ф.* Государство и экономика (Власть и бизнес). М.: Экономика, 1999.

228. Шлехт Отто. Благосостояние для всей Европы. М.:ВлаДар, 1996.

229. Шумпетер И. Теория экономического развития. М. Прогресс, 1982.

230. Экологический менеджмент Обзорная информация. ВИНИТИ. Вып.4.М., 1996.

231. Экономика внешних связей России. Учебник для предпринимателя. М.: Изд-во БЕК, 1995.

232. Экономика предпринимательства. Учебник Ред. В.И. Кушлин, П.Д. Половинкинидр. М. ВЛАДОС, 1999.

233. Экономика. Ред.А.С.Булатов. М. Изд-во БЕК. 1994.

234. Экономическая безопасность России. М.: Юридическая литерат., 1996.

235. Экономическая безопасность хозяйственных систем Ред. А.В.Колосов. М.: Изд-во РАГС, 2001.

236. Экономическая безопасность Ред. В.К.Сенчагов. М.: ЗАО «Финстатинформ», 1998.

237. Экономическая теория национальной экономики и мирового хозяйства (политическая экономия) Ред. А.Г.Грязнова, Т.В.Чечелева. М.: Изд. Финансовой академии при Правительстве РФ, 1997.

238. Экономическая трансформация: цели, направления, динамика Ред. В.И.Кушлин. М. Изд-во РАГС, 2000.

239. Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. М. Экономика, 2001.

240. Яковец Ю.В. Прогнозирование циклов и кризисов. М.: МФК, 2000

241. Яковец Ю.В. Тенденции структурных сдвигов в экономике Экономист. 1996. № 12.

242. Яковец Ю.В. Циклы. Кризисы. Прогнозы. М.Наука, 1999.

243. Япония: смена модели экономического роста: М. Наука, 1990.

244. Conceptual framework.. Encyclopedia of Life

M Ü N D Ə R İ C A T

Söz önü……. ***4***

Birinci bölmə

İqtisadiyyatın tənzimlənməsinin nəzəri əsasları… ***7***

FƏSİL I. XXI əsrin əvvəlində Rusiya iqtisadiyyatı, dünya təsərrüfatında onun yeri…… ***8***

1. Rusiya iqtisadiyyatı dinamikasının xüsusiyyətləri və meylləri……. ***8***
2. Rusiya iqtisadiyyatının inkişaf perspektivləri……. ***19***
3. Rusiya dünya iqtisadi məkanında…….. ***25***

FƏSİL II. DÖVLƏT TƏNZİMLƏNMƏSİ, İQTİSADİYYATIN TRANSFORMASİYASININ STRATEGİYASI VƏ HƏRƏKƏTVERİCİ QÜVVƏSİ…….. ***33***

1. İqtisadiyyat ictimai tənzimləmə obyekti kimi…….. ***34***
2. Dövlət tənzimlənməsinin müasir vəzifələri…. ***39***
3. Rusiyanın iqtisadi sisteminin transformasiyası…….. ***41***

FƏSİL III. İQTİSADİ PROSESLƏRİN TƏNZİMLƏNMƏSİNİN DÖVLƏT MEXANİZMİ……..…… ***52***

1. Bazar iqtisadiyyatında dövlətin ümumi funksiyaları……. ***52***
2. Tənzimləmə strategiyasında dəyişikliklər….. ***55***
3. İqtisadiyyata dövlət təsirinin amilləri……. ***57***
4. Dövlət təsirinin səmərəliliyinin artırılması yolları……. ***62***

FƏSİL IV. İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ NƏZƏRİYYƏLƏRİ..... 70

1. Dövlət neoklassik nəzəriyyələrdə. Dövlət iqtisadi liberalizmi..... ***71***
2. Keynsçilik nəzəriyyələri. Keynsçi iqtisadi siyasəti..... ***75***
3. İndikativ planlaşdırma konsepsiyası. Dövlət dirijizmi..... ***79***
4. İqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində nəzəriyyələrin səmərəli tətbiqi şərtləri..... ***84***

FƏSİL V. BAZAR İQTİSADİYYATININ FORMALAŞMASI VƏ FƏALİYYƏTİ..... 88

1. Yaranma səbəbləri və formalaşma mərhələləri..... ***88***
2. Bazar iqtisadiyyatı mexanizmi..... ***95***
3. Rusiyada bazar münasibətlərinin inkişafı.... ***103***

FƏSİL VI. BAZAR MÜNASİBƏTLƏRİ VƏ MÜLKİYYƏTİN YENİDƏN QURULMASI..... 110

1. Mülkiyyətin iqtisadi və hüquqi məzmunu.... ***110***
2. Mülkiyyət münasibətlərinin yeniləşdirilməsinin zəruriliyi..... ***114***
3. Dövlət və bələdiyyə mülkiyyətinin optimallaşdırılması..... ***115***
4. Mülkiyyətin dövlət tənzimlənməsi..... ***117***
5. Keçid iqtisadiyyatında sərfəli sahibkar problemi..... ***122***

FƏSİL VII. SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI..... 129

1. Sahibkarlıq anlayışı və mahiyyəti..... ***129***
2. Sahibkarlığın inkişafının dövlət tənzimlənməsinin funksiyaları və prinsipləri..... ***136***
3. Sahibkarlıq fəaliyyətinin iqtisadi və hüquqi əsasları..... ***139***

FƏSİL VIII. DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ…….. 144
1. Rəqabət və bazar. Antiinhisar qanunvericiliyi……. ***144***
2. Bazarın inhisarlaşdırılmasının əsas üsulları... ***151***
3. Təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsi…….. ***162***
4. Dünya bazarlarında antiinhisar tədbirlər….. ***164***

FƏSİL IX. TƏKRAR İSTEHSAL PROBLEMLƏRİ…….. 168
1. Təkrar istehsal iqtisadi kateqoriya kimi……. ***168***
2. Təkrar istehsalın makroiqtisadi mütənasibliklər…… ***172***
3. Geniş təkrar sitehsal resursları və amilləri…. ***178***

FƏSİL X. İQTİSADİ ARTIM - DÖVLƏTİN ÜMDƏ VƏZİFƏSİDİR……. 185
1. Sosial-iqtisadi tərəqqinin mühüm şərti…… ***185***
2. İqtisadi artım göstəriciləri…….. ***188***
3. İqtisadi artımın səmərəliliyi və keyfiyyəti….. ***194***
4. İqtisadiyyatın səmərəli artım amilləri……. ***198***

İkinci bölmə

İqtisadiyyatın dövlət tənzimlənməsinin resurs təminatı və mexanizmi……. 203

FƏSİL XI. DÖVLƏTİN STRUKTUR SİYASƏTİ…….. 204
1. Milli iqtisadiyyatın strukturlaşdırılması…… ***204***
2. Struktur siyasətin rolu və yeri……. ***213***
3. Struktur siyasətinin həyata keçirilməsi metodları…….. ***219***

FƏSİL XII. İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFININ İDARƏ EDİLMƏSİ…… 228
1. Davamlı inkişafın məğzi nədədir?..... ***228***
2. Davamlı inkişafın meyarları və indikatorları……. ***233***
3. Qloballaşma şəraitində olan iqtisadi davamlılıq……. ***236***

4. Beynəlxalq iqtisadi təşkilatların rolu və təsiri…….. ***240***

FƏSİL XIII. SOSİAL-İQTİSADİ İNKİŞAFIN PLANLAŞDIRILMASI VƏ PROQNOZLAŞDIRILMASI……... 245

1. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi üsulları…….. ***245***
2. Proqnozlaşdırmanın elmi əsasları. Proqnozlar və silsilələr……. ***251***
3. Strateji və indiqativ planlaşdırma…….. ***257***
4. Sosial-iqtisadi inkişafın proqramlaşdırılması……..... ***260***

FƏSİL XIV. ÖLKƏ İQTİSADİYYATININ BÜDCƏ TƏNZİMLƏNMƏSİ…….. 269

1. Büdcə siyasətinin strategiyası və büdcə tənzimlənməsi…… ***269***
2. Büdcə sisteminin funksiyalarının aktivləşdirilməsi……. ***273***
3. Büdcə sisteminin effektivliyi …….. ***280***

FƏSİL XV. PUL-KREDİT VƏ MALİYYƏ-VALYUTA TƏNZİMLƏNMƏSİ……. 288

1. Dövlətin valyuta tənzimlənməsi ……. ***288***
2. Pul-kredit siyasəti……. ***297***

FƏSİL XVI. İNVESTİSİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ……. 309

1. İnvestisiya haqqında anlayış…… ***309***
2. İnvestisiya resurslarının ümumi xarakteristikası…….. ***314***
3. İnvestisiya siyasətinin reallaşdırılması …….... ***318***

FƏSİL XVII. ƏHALİNİN YIĞIMI İNVESTİSİYA RESURSU KİMİ……. 330

1. Bazar iqtisadiyyatı və əhalinin yığımı …… ***330***
2. Əhalinin yığımının investisiya aktivliyinin dirçəldilməsində rolu …….. ***333***
3. Yığımın toplanması və səmərəli istifadə olunması…… ***335***

FƏSİL XVIII. TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN İNVESTİSİYA AKTİVLİYİNİN STİMULLAŞDIRILMASI…… 344

1. Müəssisənin investisiya aktivliyinin yüksəldilməsi yolları…… ***344***
2. Qiymətli kağızların emissiyası …… ***351***
3. İqtisadiyyatın real sektorunun bank kreditləşməsi……..…….. ***359***
4. Lizinqin inkişafı……. ***365***

FƏSİL XIX. İNVESTİSİYALARIN SƏMƏRƏLİLİYİNİN SASLANDIRILMASI…… 371

1. İnvestisiya layihələri və onların səmərəliliyinin qiymətləndirilməsi…….. ***371***
2. Layihələrin pulla satıla bilməsi və səmərəliliyi göstəriciləri…… ***379***
3. İnflyasiya və risklərin nəzərə alınması…… ***385***
4. İnvestisiya layihələrinin reallaşdırılmasının kontrollinqi……... ***392***

FƏSİL XX. İQTİSADİYYATIN KADR RESURSU VƏ ƏHALİNİN MƏŞĞULLUĞU…….. 399

1. Bazar şəraitində kadrların formalaşması və fəaliyyəti…… ***399***
2. Əmək bazarı, kadr potensialı və məşğulluğun tənzimlənməsi…….. ***402***
3. Məşğulluğun iqtisadi və sosial funksiyaları... ***407***
4. Məşğulluq və əmək bazarının dövlət tənzimlənməsi…… ***414***

FƏSİL XXI. DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİNDƏ VERGİLƏR…… 419

1. Vergilər və vergi siyasəti…….. ***419***
2. Vergi sistemində islahatlar …….. ***424***
3. Vergiqoymanın səmərəliliyinin artırılması…. ***437***

FƏSİL XXII. QİYMƏTƏMƏLƏGƏLMƏ. DÖVLƏTİN QİYMƏTLƏRƏ TƏSİRİ…… 443

1. Qiymətlərin formalaşması və dinamikası…... ***443***
2. Rusiyada qiymətin dinamikasının meylləri və amilləri…….. ***452***
3. Qiymətlərin dövlət tənzimlənməsi…….. ***455***

FƏSİL XXIII. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ İDARƏ EDİLMƏSİ…… 464

1. İqtisadiyyatın ərazi-istehsal amilləri…….. ***464***
2. İqtisadi strategiyada regional siyasətin yeri... ***465***
3. Milli təsərrüfatın ərazi təşkilinin əsasları…… ***470***
4. İqtisadiyyatın regional və bələdiyyə tənzimlənməsi mexanizmləri…… ***475***

Üçüncü bölmə

M*illi təsərrüfatın əsas sahə və sferalarında dövlət siyasəti..... 485*

FƏSİL XXIV. DÖVLƏTİN ELMİ-TEXNİKİ SİYASƏTİ……... 486

1. İlkin müddəalar və prinsiplər…….. ***487***
2. Məqsədləri və vəzifələri. Əsas istiqamətləri və prioritetləri…….. ***494***
3. İşlənməsi, reallaşdırılması, resurs təminatı… ***502***

FƏSİL XXV. DÖVLƏTİN SƏNAYE SİYASƏTİ…… 511

1. Sənayenin inkişafının dövlət tənzimlənməsi.. ***511***
2. Sənaye siyasətində marketinq konsepsiyası... ***515***
3. Əmtəə və texnoloji ixtisaslaşma…….. ***519***
4. Sənayedə investisiya və innovasiya siyasəti… ***524***
5. Sənayenin dəstəklənməsinin dövlət tədbirləri…… ***526***

FƏSİL XXVI. AQRAR SƏNAYE KOMPLEKSİNDƏ DAVAMLI TƏKRAR İSTEHSALIN TƏMİN EDİLMƏSİ…….. 531

1. Rusiyanın aqrar-sənaye kompleksinin müasir vəziyyəti…… ***531***
2. ASK davamlı inkişafının dövlət tənzimlənməsi…… ***538***
3. Dövlət tənzimlənməsi sisteminin formalaşdırılması…… ***542***

FƏSİL XXVII. SOSİAL SFERANIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ…….. 550

1. Sosial sfera: məzmunu, problemləri və ziddiyyətləri…….. ***550***
2. Sosial müdafiənin əsas prioritetləri və istiqamətləri…….. ***555***
3. Rusiyanın sosial sferasının modernləşdirilməsi (islahatı)……. ***561***

FƏSİL XXVIII. «GƏLİRLƏR VƏ ƏMƏK HAQQI» SİYASƏTİ…….. 569

1. Gəlirlər və onların tənzimlənməsi…… ***569***
2. Əmək haqqının əsas problemləri və başlıca vəzifələri……. ***574***
3. Əmək haqqı nədir……. ***578***
4. Maddi istehsal sferasında əməyin ödənilməsinin tənzimlənməsi……. ***581***

FƏSİL XXIX. SOSİAL TƏRƏFDAŞLIQ BAZAR İQTİSADİYYATININ İNSTİTUTU KİMİ……. 593

1. Sosial tərəfdaşlığın mahiyyəti…….. ***593***
2. Sosial tərəfdaşlığın mexanizmi…… ***598***
3. Rusiyada sosial tərəfdaşlıq ……. ***601***

FƏSİL XXX. İQTİSADİYYATIN DÖVLƏT BÖLMƏSİNİN İDARƏ EDİLMƏSİ…….. 608

1. Dövlət bölməsi və onun tərkib hissələri……. ***608***
2. İdarəetmənin təşkili…….. ***611***
3. İnkişafın planlaşdırılması…… ***616***
4. Dövlət mülkiyyətinin idarə olunması……. ***621***

FƏSİL XXXI. BAZAR İNFRASTRUKTURU, ONUN FORMALAŞMASI VƏ FƏALİYYƏTİ……. 630

1. Bazar infrastrukturunun xarakteristikası….. ***630***
2. İqtisadiyyatın infrastruktur kompleksləri….. ***636***
3. İnfrastrukturun əsas elementləri……. ***641***

FƏSİL XXXII. TƏBİƏTDƏN İSTİFADƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ…… 657

1. Ekoloji inkişafın dövlət menecmenti. Qloballaşan dünyada dövlət ……..…….. ***657***
2. İnstitusional ilkin şərhlər və məhdudiyyətlər……. ***665***
3. Sabit inkişafın postindustrial problemləri….. ***673***

FƏSİL XXXIII. RUSİYANIN XARİCİ İQTİSADİ SİYASƏTİ…….. 682

1. Xarici iqtisadi siyasət nədir?..... ***682***
2. Struktur həlqə…….. ***686***
3. Federal səviyyədə xarici iqtisadi siyasət……. ***693***
4. Regional komponentlər…….. ***695***

FƏSİL XXXIV. XARİCİ İQTİSADİ FƏALİYYƏTİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ…. 703

1. Əsas müddəalar və xarakteristika…… ***703***
2. Xarici ticarətin tənzimlənməsi…….. ***705***
3. Kapitalların hərəkətinə təsiri …….. ***709***
4. Xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi……. ***717***

FƏSİL XXXV. POSTSOVET MƏKANINDA OLAN ÖLKƏLƏRLƏ RUSİYANIN İNTEQRASİYA ƏMƏKDAŞLIĞININ İNKİŞAFI…… 726

1. İnteqrasiya əməkdaşlığının əhəmiyyəti…….. ***726***
2. MDB ölkələri ilə təsərrüfat əlaqələri……. ***728***
3. Ticarət-iqtisadi əlaqələr…… ***734***
4. Gömrük ittifaqı və inteqrasiyanın dərinləşməsi…… ***741***
5. Yaxın vəzifələr……. ***743***

FƏSİL XXXVI. MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ…… 746

1. Ölkənin iqtisadi təhlükəsizliyi…… ***746***
2. Fəaliyyət istiqamətləri və vəzifələri…… ***751***
3. Dövlət tənzimlənməsi……. ***757***

QLOSSARİİ…… 761

ƏDƏBİYYAT SİYAHISI…….. 785

Государственное регулирование рыночной экономики:
Учебник
Издание второе, дополнение и переработанное
Под общей редакцией доктора экономических наук, профессора В.И.Кушлина

Azərbaycan dilində

Çapa imzalanıb 15. 04. 2008. Kağız formatı 60x84 1/16. Həcmi 50,6 ç.v. Sifariş 45. Sayı 500.

" İqtisad Universiteti " nəşriyyatı.
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6

Qrant layihəsi əsasında qeyri-kommersiya xarakterli nəşr

Авторский коллектив:

Архангельский В.Н. – д.э.н., проф.; Бударина А.В. – к.э.н., доц.; Буланов В.С. - д.э.н., проф.; Валентей С.Д. - д.э.н., проф.; Владимирова А.А. - к.э.н., доц.; Волгин Н.А. - д.э.н., проф.; Горбунов Н.М. - д.э.н., проф.; Горланов Г.В. - д.э.н., проф.; Грязнов Э.А. - к.э.н., доц.; Гуртов В.К. - д.э.н.; Живалов В.Н. - к.э.н., доц.; Ибрагимова Л.Ф. - к.э.н.; Колосов А.В. – д.э.н., проф.; Кушлин В.И. - д.э.н., проф.; Любимцев Ю.И. - д.э.н., проф.; Маликова О.И. - д.э.н., проф.; Марголин А.М. - д.э.н., проф.; Мысляева И.Н. - д.э.н., проф.; Никитинский В.Н. - к.э.н.; Пеньков Б.Е. - д.э.н., проф.; Перская В.В.- д.э.н., проф.; Плакся В.И. - д.э.н., проф.; Половинский П.Д. - д.э.н., проф.; Потрубач Н.Н. - д.э.н., проф.; Ржаницина Л.С. - д.э.н., проф.; Семенов С.А. к.э.н., доц.; Сильвестров С.Н. - д.э.н., проф.; Смирницкий Е.К. - д.э.н., проф.; Сорвина Г.Н. - д.э.н., проф.; Фоломьев А.Н. - д.э.н., проф.; Хорзов С.Е. - д.э.н., проф.; Чалов В.И. - д.э.н., проф.; Щербакова Л.И. - к.э.н., доц.; Яковец Ю.В. - д.э.н., проф.